*Ümummilli lider Heydər Əliyevin*
*85 illiyi münasibətilə*
*əziz xatirəsinə ehtiramla*

# QAYIDIŞ

# 1990 – 1993


"AZƏRBAYCAN"
NƏŞRİYYATI

**BAKI - 2008**

***“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq.”***



**Heydər Əliyev**

*17 iyun 1992-ci il*

Q 10(08)

Məsləhətçi və buraxılışa məsul:

**VASİF TALIBOV,**

*Naxçıvan Muxtar Respublikası*
*Ali Məclisinin Sədri*

Tərtib edəni:

**Əli Həsənov**

Q 10(08) **Qayıdış (1990-1993).** Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. – Bakı, "Azərbaycan" nəşriyyatı, 2008. – 840 s.

*Kitabda xalqımızın ümummilli lideri, görkəmli siyasətçi və müdrik dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin siyasi fəaliyyətinin 1990-cı il iyulun 22-dən 1993-cü il iyunun 9-dək olan dövrünə aid rəsmi sənədlər toplu halında nəşr olunur.*

*Burada ulu öndərin siyasi təqib ucbatından Naxçıvanda yaşayıb, fəaliyyət göstərdiyi dövrdə öz əli ilə yazdığı sənədlər və dövri mətbuatda çap olunan materiallar əsasında oxucuya xronoloji ardıcıllıqla geniş məlumat verilir.*

*Toplu zəmanəmizin görkəmli şəxsiyyətlərindən biri kimi dünyada böyük ehtiramla qarşılanan, haqlı olaraq "siyasətçilər siyasətçisi" adlandırılan ümummilli lider Heydər Əliyevin dövlətçilik və siyasi fəaliyyətinin öyrənilməsində obyektiv mənbə kimi mühüm əhəmiyyətə malikdir.*

**Q $\frac{4804000000\text{-}010(08)}{M670(07)\text{-}2008}$ Sifarişlə**

© "Azərbaycan" nəşriyyatı, 2008.

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
## (qısa məlumat)

Naxçıvan Muxtar Respublikası 1924-cü il fevralın 9-da yaradılıb. Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya komissiyası tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də keçirilən referendumda qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyası ilə Azərbaycan Respublikasının tərkibində muxtar dövlət statusu alıb.

Ali qanunverici hakimiyyət orqanı Ali Məclisdir (45 deputatdan ibarətdir). Azərbaycan Respublikası Konstitusiyasına görə Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsidir.

Ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçən muxtar respublika parlamentinin 1990-cı il 17 noyabr tarixli sessiyası Naxçıvan Muxtar Respublikasının rəsmi adından "Sovet Sosialist" sözlərini çıxartmış, qanunverici hakimiyyət orqanının adını dəyişərək Ali Məclis qoymuş, ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) üçrəngli bayrağını Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul etmişdir.

Naxçıvan Muxtar Respublikası Ermənistan (sərhəd xəttinin uzunluğu 246 km-dir), Türkiyə (11 km) və İranla (204 km) həmsərhəddir.

Moskva (1921-ci il, 16 mart) və Qars (1921-ci il, 13 oktyabr) müqavilələri imzalanarkən 6 min kv. km-dən artıq ərazisi olan Naxçıvan Muxtar Respublikasının torpaqları əsassız ərazi iddiası irəli sürən Ermənistan tərəfindən Moskvadakı güclü erməni lobbisinin himayəsi ilə qanunsuz şəkildə və hissə-hissə ilhaq olunaraq (1924, 1928, fevral 1929, may 1969) 5,5 min kv. km-ə enmişdir. Naxçıvan Muxtar Respublikasının əhalisi 384 min nəfərdən artıqdır. Muxtar Respublika Sədərək, Şərur, Babək, Şahbuz, Culfa, Ordubad və Kəngərli) rayonlarından ibarətdir. Ərazisində 5 şəhər, 8 qəsəbə, 207 kənd vardır.

Muxtar Respublikanın paytaxtı Naxçıvan şəhərində 71 mindən çox əhali yaşayır.

Azərbaycana qarşı ədalətsiz müharibəyə başlayan Ermənistan Respublikası tərəfindən 1991-ci ildən tam iqtisadi blokadaya alınan Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndi 1990-cı il yanvarın 19-da ermənilər tərəfindən işğal olunmuşdur. Müharibə nəticəsində muxtar respublikadakı bir qəsəbə və 3 kəndin əhalisi ata-baba yurdundan didərgin düşmüşdür.

## ÖN SÖZ

Oxucuya təqdim olunan bu kitab təsadüfən "Qayıdış" adlandırılmayıb. Bu, zəmanəmizin görkəmli siyasətçisi Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışının məntiqindən doğan, Naxçıvanda üçillik (22 iyul 1990 - 9 iyun 1993) fəaliyyətlə başlanan böyük missiyanın tarixi-siyasi və fəlsəfi mahiyyətini özündə birləşdirən, dövrün ruhu ilə səsləşən yığcam ifadədir.

Heydər Əliyevin **fəal siyasətə QAYIDIŞI** o dövrə təsadüf edir ki, daim xalq üçün döyünən, xalqı üçün yaşayan ürək gəzdirən bu böyük şəxsiyyətin susması daha mümkün deyildi...

Ölkəmizin taleyinin hərraca qoyulduğu, fəlakətə sürükləndiyi bir vaxtda səsini qaldıran, Azərbaycan həqiqətlərini bütün dünyaya bildirən Heydər Əliyevə qarşı kampaniya gözlənildiyi kimi və çox təəssüf ki, azərbaycanlıların adından, Azərbaycanda hakimiyyətdə olanların əli ilə başlandı.

"Pravda" qəzetində dərc olunmuş böhtan xarakterli "Əliyevçilik, yaxud "xoş əyyamlar"ın xiffəti" adlı yazı ilə Heydər Əliyevə qarşı başlanan siyasi təqib kampaniyası xalqımızın hiddətinə səbəb oldu, o zamankı Azərbaycan mühitində Heydər Əliyev və xalq amilini ilk dəfə olaraq qabarıq şəkildə üzə çıxartdı. Xalq öz həqiqi liderini fəal müdafiə mövqeyinə keçdi. O dövrün ciddi partiya nəzarətində olan mətbuat orqanlarında Heydər Əliyevi, onun böyük quruculuq işlərini və siyasi fəaliyyətini müdafiə edən materialların verilməsi faktı sübut edir ki, Heydər Əliyevə qarşı qərəzli tədbirə əl atan rəhbərlik xalqın yekdil iradəsi qarşısında davam gətirə bilmirdi. 1990-cı il mayın 17-də Naxçıvan şəhər partiya təşkilatının konfransında Heydər Əliyevin Azərbaycan KP XXXII qurultayına nümayəndə seçilməsi xalqın iradəsinin ifadəsi idi. Bu faktorun Heydər Əliyevin **Azərbaycana QAYIDIŞINI** ta-

mamilə mümkün, hüquqi-siyasi baxımdan zəruri etməsinə baxmayaraq totalitar rejim və onun yerli əlaltısı olan A.Mütəllibov buna da yol vermədi; Bakı aeroportunda Heydər Əliyevi qarşılayacaq şəxslərdən biri - "Azərnəşr"in direktoru - Əjdər Xanbabayev 1990-cı il mayın 30-da qətlə yetirildi. Xüsusi xidmət orqanlarının qol qoyduğu bu aksiya barədə Heydər Əliyev bir qədər sonra deyəcək: **"Onlar Xanbabayevi öldürdülər ki, məni qorxutsunlar, Azərbaycana gəlməyimə mane olsunlar".** Lakin görünür, Moskva ən yüksək vəzifələrə irəli çəkilərkən tərcümeyi-halını diqqətlə izlədiyi Heydər Əliyevin imkanlarını, onun öz xalqı ilə qırılmaz tellərlə bağlandığını, qətiyyətini, dönməzliyini, başlıcası isə mübarizə üçün yarandığını diqqətdən qaçırtmış, kifayət qədər qiymətləndirə bilməmişdi. Təsadüfi deyil ki, ən yüksək dairələrdən edilən xəbərdarlıqlara, səfər zamanı onu gözləyən ciddi təhlükə ehtimallarına baxmayaraq Heydər Əliyev 1990-cı il iyul ayının 20-də təyyarə ilə Bakıya, iki gün sonra isə Naxçıvana gəldi.

Moskvadan **Naxçıvana QAYIDIŞ** o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalət mərkəzinə yox, **Vətənə QAYIDIŞ** idi; **böyük siyasətə** yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, **qətiyyətli QAYIDIŞ** idi.

Yeddi fəsildən ibarət kitabın "QAYIDIŞ" adlanan birinci fəslində Heydər Əliyevin Naxçıvana qayıdış günündən - 1990-cı il iyulun 22-dən 1991-ci il sentyabrın 3-dək olan dövrü əhatə edən siyasi fəaliyyəti ilə bağlı proseslər rəsmi sənədlərin, qəzet materiallarının dili ilə və xronoloji ardıcıllıqla verilir.

Ağır günlər keçirən Naxçıvan Muxtar Respublikasının bu dövrü olduqca gərgin, ziddiyyətli, eyni zamanda tələbkar və maraqlı bir dövr idi. Qarabağ problemi ətrafında yayılan dalğanın zərbə qüvvəsinə məruz qalan, sərhədyanı kəndləri ermənilər tərəfindən işğal və qarət olunan, dincliyi əlindən alınan Naxçıvan "taleyin ümidinə buraxılmış tənha bir ada"nı (Heydər Əliyev) xatırladırdı. Azərbaycanla nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən sonra iqtisadi və siyasi böhran içində boğulan, adamların son ümidi olan ov tüfəngləri də yığılandan sonra erməni təcavüzü qarşısında əliyalın və köməksiz vəziyyətdə qo-

yulan Naxçıvan düşdüyü vəziyyətə SSRİ-nin tərkibindən çıxması barədə qərarı ilə etirazını bildirəndən sonra iqtidar və ixtiyar sahiblərinin qəzəbinə düçar olmuş, “kor bağırsaq” kimi kəsilib atılması zəruri bilinmişdi.

Tale Heydər Əliyevi bu regiona göndərməklə Naxçıvanı, Dağlıq Qarabağı və Azərbaycanın digər rayonlarını gözləyən acı qismətdən hifz etdi. İlahi qüvvələrin himayədar ruhu üstündə olan, peyğəmbər uzaqgörənliyi ilə Azərbaycanın bu qədim torpağını xilas edən Heydər Əliyev özünə Naxçıvan boyda əbədi, həmişəyaşar abidə ucaltdı.

Bu dövrdə Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının xalq deputatı kimi fəaliyyət göstərən Heydər Əliyev Naxçıvan parlamentində təkcə muxtar respublika üçün yox, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, siyasi həyatın demokratikləşməsi prosesinə güclü təkan verən qərarların qəbul edilməsinə nail oldu. Onun sədrliyi ilə keçən muxtar respublika Ali Sovetinin birinci sessiyası muxtar respublikanın adından “Sovet Sosialist” sözlərini çıxarmış, ali dövlət hakimiyyət orqanının adında dəyişiklik etmiş, muxtar respublikanın üçrəngli dövlət bayrağı və digər rəmzləri haqqında qərarlar qəbul etmiş və dövlət rəmzlərinin qəbul edilməsi barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırmışdı.

Heydər Əliyevin Naxçıvanda yenidən siyasətə qayıtması Azərbaycanı bir dövlət kimi dağıtmaq istəyən daxili və xarici düşmənləri ciddi təşvişə salmışdı. O zamankı iqtidar Naxçıvanı iqtisadi və informasiya blokadasında saxlayır, Heydər Əliyevin əleyhinə hər cür yaramaz təbliğatı qızışdırır, yaltaq, ikiüzlü deputatların vasitəsilə onu Azərbaycan parlamentində iştirakdan və ölkədə cərəyan edən siyasi proseslərdən təcrid etməyə çalışırdı. Qarabağ probleminin həlli ilə bağlı Heydər Əliyevin irəli sürdüyü təkliflər “Qarabağ heç vaxt indiki qədər bizim olmayıb” məddahlığı ilə qarşılanır, hadisələrin düzgün qiymətləndirilməməsi ucbatından siyasi proseslər getdikcə millət, xalq üçün təhlükəli xarakter almağa başlayırdı. Bunun nəticəsində Xocalı soyqırımı törədildi, Şuşa kimi alınmaz qala düşmənə verildi, Qarabağ Azərbay-

candan qoparıldı, yüz minlərlə soydaşımız yurd-yuvasından didərgin düşdü...

Ümumi Azərbaycan evimizin divarından hər gün bir kərpic düşdüyü vaxt Naxçıvan Muxtar Respublikasının əhalisi çox böyük uzaqgörənlik nümunəsi göstərərək Heydər Əliyevi Naxçıvan Muxtar Respublikasının rəhbəri seçdi. Azərbaycana hakimiyyətdə təmsil olunmaq üçün qayıtmadığını dəfələrlə vurğulayan Heydər Əliyev xüsusi bəyanatında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrliyinə öz razılığı olmadan seçildiyini bildirdi. Lakin Heydər Əliyevin seçilməsi tələbilə sessiya keçirilən binanın qarşısına toplaşan yüz min nəfərlik izdihamın rəyini nəzərə almamaq mümkün deyildi. Elə buna görədir ki, ulu öndər muxtar respublika Ali Məclisinin sədri seçildiyi sessiyadakı çıxışında deyirdi: **“Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin dövründə üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm”.**

Heydər Əliyevin bu sözləri onun Naxçıvanda **böyük siyasətə QAYIDIŞININ** yalnız və yalnız iki amillə - xalqın kütləvi tələbi və burada yaranmış son dərəcə gərgin vəziyyətlə əlaqədar olduğunu bir daha sübut edir.

Kitabda Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi yorulmaz və səmərəli fəaliyyət göstərdiyi 1991-ci il sentyabrın 3-dən 1993-cü il iyunun 9-dək olan müddətdə dövlət quruculuğuna, hakimiyyət və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə, iqtisadi və siyasi böhranın aradan qaldırılmasına, iqtisadi islahatların keçirilməsinə, xarici iqtisadi əlaqələrin yaradılmasına, həmsərhəd xarici dövlətlərlə - Türkiyə və İranla mehriban münasibətlərin qurulmasına, Ali Məclisdə keçirilən görüşlərə, digər kütləvi tədbirlərə, müdafiə və hərbi quruculuq məsələlərinə və sair sahələrə dair zəngin materiallar toplanmışdır. Bu materialların tarixi-xronoloji ardıcıllıqla verildiyi, mövzusuna görə sistemləşdirildiyi “Demokratik dəyişikliklər yo-

lu ilə", "Yeni partiya. YAP-ın sıraları sıxlaşır", "Ağır blokada və müharibə şəraitində", "Blokada yarılır. Naxçıvanın xarici əlaqələri genişlənir" fəsillərindən Heydər Əliyevin quruculuq fəaliyyəti qırmızı xətlə keçir. Bu dövrdə Naxçıvan Muxtar Respublikasının həyatında mühüm dəyişikliklər baş vermiş, Ermənistanla həmsərhəd rayon və kəndlərə hərbi təcavüzə son qoyulmuş, əhali arasında əmin-amanlıq yaranmış, siyasi tarazlığın pozulmasına yönəldilən cəhdlərin qarşısı alınmışdır. Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətinin bu dövrü xalqla işləməyi bacarmaq nümunəsidir.

Xalqın gücü Heydər Əliyevdə olduğu kimi, Heydər Əliyevin gücü də xalqdadır. "Xalq - Heydər Əliyev", "Heydər Əliyev - xalq" ifadələri bir-birindən ayrılmazdır. Kitabın "Naxçıvan, 24 oktyabr. İlk dövlət çevrilişi cəhdi" fəslində toplanan materiallardan çıxan nəticə, siyasi proseslərin ötən dövrü bunu kifayət qədər sübuta yetirir. Bu mətləbin ilk sübuta yetirildiyi tarix isə bir qədər əvvələ - 1992-ci ilə gedib çıxır. Bu o dövr idi ki, xalqın adından hakimiyyətə sahiblənən xalq cəbhəsi iqtidarı özündən əvvəlki rəhbərliyin mənfur siyasətini davam etdirir, Heydər Əliyevə qarşı kampaniyanı gücləndirirdi; bu o dövr idi ki, hakimiyyətdə təmsil olunanlar Heydər Əliyevə görə və yalnız ona görə Naxçıvan Muxtar Respublikasının beynəlxalq müqavilələrlə təsbit olunmuş muxtariyyət statusunu ləğv etmək planını gizlətmirdi. Təsadüfi deyil ki, bu hökumətin xeyir-duası ilə 1992-ci il oktyabrın 24-də Xalq cəbhəsinin Naxçıvanda olan silahlı dəstələri və bu siyasi qurumun nəzarətindəki Ordubad Rayon Polis Şöbəsinin əməkdaşları Naxçıvanda ilk dövlət çevrilişi cəhdinə əl atdılar. Sonrakı çevriliş cəhdləri üçün məşq rolunu oynayan bu çevriliş cəhdi onunla əlamətdardır ki, bu dövrdən başlayaraq siyasi oriyentasiyasını müəyyənləşdirən xalq, kütləvi şəkildə Heydər Əliyevlə həmrəylik nümayiş etdirdi. Bu dövrdə Heydər Əliyevin milli dövlətçilik təcrübəsinə gətirdiyi yenilik isə onunla şərtlənirdi ki, siyasi hakimiyyət xalq tərəfindən dəstək, möhkəm müdafiə təminatı almalıdır. Bundan kənarda rəhbərlik, bundan kənarda dövlət idarəçiliyi yoxdur və ola da bilməz.

Lakin xalq hər hakimiyyəti də müdafiə etmir.

Azərbaycanda müstəqil dövlət quruculuğu ağrılı, əzablı yollar keçib. Bu yolun ən məsul məqamlarında ictimai-siyasi mühitin xüsusi həyəcanla vuran nəbzi xalqın uzun illər həsrətində olduğu müstəqilliyini itirmək nigarançılığı ilə bağlı olmuşdur. 1993-cü ilin iyununda da bu vəziyyət yaranmış, xalq real parçalanma, məhvolma təhlükəsi qarşısında qalmışdı. O günlərin dramatik faciəli gedişləri ilk baxışdan Azərbaycan xalqı üçün başqa alternativ qoymamışdı. Lakin əsl yolu zaman özü seçdi. Xalqın iradəsi hər şeyə qalib gəldi və müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi **Heydər Əliyevin hakimiyyətə ikinci dəfə QAYIDIŞINDA** tapdı.

Keçdiyimiz zaman məsafəsi xalqın düzgün qərar qəbul etdiyini, saysız-hesabsız problemlər məngənəsində sıxılan ölkəmizin ən ağır və məsul dövründə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz Heydər Əliyev olduğunu bir daha sübut etdi. Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə **QAYIDIŞI** şərəfli xilaskar missiyasına – **AZƏRBAYCANI AZƏRBAYCANA QAYTARMAQ** məramına xidmət edir. Bu gün həmin missiya Azərbaycan Prezidenti hörmətli İlham Əliyevin rəhbərliyi altında müasir dövrün reallıqları nəzərə alınmaqla, böyük uzaqgörənliklə davam etdirilir.

**Vasif TALIBOV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

# FƏSİL I

# Qayıdış



*"...Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq... üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm. Məni bir azərbaycanlı kimi bu hüququmdan heç kəs məhrum edə bilməz..."*

**Heydər ƏLİYEV**
XII çağırış Azərbaycan
SSR Ali Sovetinin
birinci sessiyasındakı
çıxışından

*9 fevral 1991-ci il*

*AZƏRBAYCAN KP MK-ya,*
*ALİ SOVETƏ,*
*NAZİRLƏR SOVETİNƏ,*
*AZƏRBAYCAN XALQINA!*

Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gətirilən faciədən - dinc əhalinin qırılmasından böyuk ürək ağrısı ilə xəbər tutdum. Bu matəm gunündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram.

Mənim teleqramımın respublika mətbuatında dərc olunmasını, radio və televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş edirəm.

**Heydər ƏLİYEV**

*Moskva, 21 yanvar 1990-cı il*

## 1990-cı il 20 yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində 1990-cı il yanvarın 21-də keçirilmiş yığıncaqda HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Əziz həmvətənlərim, xanımlar və cənablar!

Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov. İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Zöhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm.

Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də ölkənin ali siyasi, partiya rəhbərliyinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən

asılı olmayaraq hər bir adamın ümumi Federativ İttifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün ikiillik müddət kifayət idi.

Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya, siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsəydi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Bunlar üçün, ilk növbədə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özunün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla özü arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərliyinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir.

Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq iş təkcə bununla bitmir.

İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir.

Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdir. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmlən-

dirilməsi məsələsi həll edilsəydi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəticədə isə 19-dan 20-nə keçən gecə Bakı şəhərinə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur.

Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişdilər.

Bütün bunlar qabaqcadan nəzərə alınmalı, vacib zəruri tədbirlər görülməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşdur. Yeri gəlmişkən, deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir?

Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, hava hücumundan müdafiə qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır.

Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır.



# Наше дело

1990 ГОД

№4(7)

НЕЗАВИСИМОЕ ИЗДАНИЕ ЗА РАДИКАЛЬНУЮ ПОЛИТИЧЕСКУЮ РЕФОРМУ

ИЗДАЕТСЯ С МАРТА 1969 года

**«ЕСЛИ МЫ БЫЛИ НЕДОСТОЙНЫЕ ЛЮДИ, ТО ПОЧЕМУ ТОТ, КОГО МЫ ИЗБРАЛИ, ДОСТОИН РУКОВОДИТЬ СТРАНОЙ?»**

ГЕЙДАР АЛИЕВ

ПЕРСОНАЛЬНЫЙ ПЕНСИОНЕР СОЮЗНОГО ЗНАЧЕНИЯ, БЫВШИЙ ЧЛЕН ПОЛИТБЮРО ЦК КПСС.

*İTTİFAQ MƏTBUATININ SƏHİFƏLƏRİNDƏ*

İTTİFAQ
ƏHƏMİYYƏTLİ
FƏRDİ PENSİYAÇI
SOV.İKP MK
SİYASİ BÜROSUNUN
KEÇMİŞ ÜZVÜ
HEYDƏR ƏLİYEV:

**“ƏGƏR BİZ LAYİQ DEYİLDİKSƏ, ONDA BƏS BİZİM SEÇDİYİMİZ ŞƏXS ÖLKƏNİ İDARƏ ETMƏYƏ NECƏ LAYİQ OLUR?”**



## “MƏN HƏMİŞƏ LİBERALLIĞIN ƏLEYHİNƏ OLMUŞAM”

***Birinci dialoq***

**Andrey Karaulov:** 1969-cu ildə Siz Azərbaycanın rəhbəri oldunuz. Ən mühüm problemlər hansılar idi? Onlar necə həll olunurdu?

**Heydər Əliyev:** Bu, 20 il bundan əvvəl olubdur. Artıq xeyli vaxt keçibdir. Biz işə nədən başladıq, hansı çətinliklər vardı - bütün bunlar Azərbaycan KP MK-nın sənədlərində, həmin illərin mətbuat materiallarında öz əksini tapmış və tarixə çevrilmişdir. Bu haqda danışmaq mənə artıq görünürdü, lakin indi Azərbaycanda ayrı-ayrı şəxslər öz subyektiv mülahizələrinə əsaslanaraq və keçmişi əsassız pisləmə yolunu tutaraq, 70-ci illərdə respublika partiya təşkilatının fəaliyyətini, xalqın əmək nailiyyət-

lərini qaralamağa cəhd göstərirlər. Belə qeyri-obyektivlik məndə kəskin və qəti etiraz doğurur. Buna görə də 60-cı illərin sonuna yaxın respublikada vəziyyətin necə olmasından qısaca bəhs etməyə çalışacağam.

Mən 14 iyul 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçildim. Səkkizinci beşilliyin dördüncü ili idi və beşillik planın yerinə yetirilməyəcəyi artıq aydın şəkildə görünürdü. Kadr və ideoloji iş sahəsində də ciddi səhvlər buraxılmış, neqativ hallar geniş şəkildə yayılmış, bir çox rəhbər işçilər müxtəlif sui-istifadə hallarına yol vermişdilər. Bu cür vəziyyət zəhmətkeşlər tərəfindən böyük narazılıqla qarşılanırdı. Vəziyyətin köklü şəkildə dəyişdirilməsi üçün cəsarətli, prinsipial tədbirlər görmək tələb olunurdu. Biz elə bundan da başladıq. Bütün neqativ hallara qarşı fəal mübarizəyə geniş şəkildə başlanıldı və yeri gəlmişkən, bu istiqamət mənim Azərbaycan KP MK-da işlədiyim bütün müddət ərzində öz aktuallığını qoruyub saxlamış oldu. İqtisadiyyatın bütün sahələrində, sosial sahədə, partiya-siyasi işdə vəziyyət özünütənqid ruhunda təhlil edildi. İqtisadiyyat sahəsində nə baş verdiyini aydın şəkildə təsəvvür etmək üçün mən bir sıra rəqəmlər üzərində dayanmaq istəyirəm.

1970-1982-ci illər ərzində 250 yeni müəssisə, istehsalat sahəsi, sex açılmışdı.

Biz neft emalı müəssisələrinin yenidən qurulması işini tam şəkildə həyata keçirdik. İri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları tikdik. Nəticədə maşınqayırma məhsulları istehsalı üç beşillik ərzində 5 dəfədən çox artdı. Respublikada sənaye istehsalı isə 1970-1982-ci illər ərzində 2,7 dəfə artdı. On üç il ərzində 101,5 milyard rubl dəyərində məhsul istehsal olundu ki, bu da əvvəlki 50 ildəki qədərdi. Bu zaman xalq istehlakı malları istehsalı 3 dəfə, əmək məhsuldarlığı 2 dəfədən çox artmış, fond artımı 25 faiz çoxalmışdı. Xüsusilə kənd təsərrüfatının üzərində dayanmaq istəyirəm. 1970-1982-ci illər ərzində onun ümumi məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı isə 2,2 dəfə artmışdı. 1985-ci ildə 1970-ci illə müqayisədə taxıl istehsalı 1,8 dəfə, pambıq, tərəvəz, meyvə 2 dəfədən çox, çay yarpağı 3,2 dəfə, üzüm 5 dəfədən çox artmışdı. Kapital qoyuluşu artımının 1 rubluna 3,5 rublluq əlavə məhsul alınmışdı. 8-ci beşilliklə müqayisədə 10-cu

beşillik ərzində kənd təsərrüfatının rentabelliyi 5 dəfədən çox yüksəlmişdi. Kolxoz və sovxozların gəlirləri 5 dəfə artmışdı.

1970-ci ildən başlayaraq Azərbaycanın sənaye və kənd təsərrüfatı orta ittifaq göstəricilərindən yüksək templərlə inkişaf edirdi. Belə templərlə iqtisadiyyatın əsas ümumiləşdirici göstəricisi - milli gəlir artmışdı, əhalinin adambaşına milli gəliri 2 dəfədən artıq çoxalmışdı.

**A. K.:** Mən belə başa düşdüm ki, insanlar var gücləri ilə çalışırmışlar.

**Heydər Əliyev:** İnsanlar, hər şeydən əvvəl, özləri üçün çalışırdılar.

Bir şeydən xüsusilə bəhs edəcəyəm. Həmin dövrdə biz dəfələrlə üzüm istehsalını artırmaq tapşırığını alırdıq. Bu işə girişdik və qısa müddət ərzində üzüm plantasiyaları 150 min hektardan çox genişləndi. Üzüm istehsalı 1970-ci ildəki 350 min tondan 1980-ci ildə bir milyon səkkiz yüz tona kimi artmışdı. Lakin son illər bağışlanılmaz səhvlərə yol verilmişdir. Antialkoqol kampaniyasının gedişində 70 min hektar üzümlük kökündən məhv edildi. Ziyan 600 milyon rubl təşkil etdi və maraqlı burasıdır ki, plantasiyaların bu cür ixtisarı kənd təsərrüfatının digər sahələrində məhsul artımına səbəb olmadı və sərxoşluq problemini həll etmədi.

Sosial sahədə biz (əgər qısa desək) 22 milyon kvadratmetr yaşayış evi tikdik, yəni əvvəlki 50 ildəkinin 60 faizindən çox. Ola bilsin ki, mən statistik məlumatlara çox yer verdim, amma bunu işlərin vəziyyətinin obyektiv mənzərəsini yaratmaq üçün etdim.

Deyilənlər inandırıcı şəkildə sübut edir ki, 70-ci illərdə Azərbaycan iqtisadiyyatının geri qalması, sənaye və kənd təsərrüfatında hansısa uyğunsuzluq və hansısa əyintilərin olması barədə verilən bəyanatlar əsassızdır. Onlar həqiqətə uyğun deyil.

**A. K.:** Necə sübut etmək olar ki, haqqında danışdığınız rəqəmlər şişirtmə deyil?

**Heydər Əliyev:** Sadaladığım bütün rəqəmlər rəsmi mənbələrdən götürülüb. Rəsmi statistikanı inkar etmək üçün, yəqin ki, digər məlumatları gətirmək lazımdır. Onlar isə yoxdur. Onlar mövcud deyil, digər rəqəmlər ola da bilməz, ona görə ki, mənim söylədiklərim həqiqətdir.

**A. K.:** Yaxşı, şişirtmələrlə rastlaşmamısınızmı, tutaq ki, nazirliklərin, müəssisələrin, rayonların fəaliyyətində?..

**Heydər Əliyev:** Mənə qədər də, mənim fəaliyyətim dövründə də, ölkənin hər yerində olduğu kimi, Azərbaycanda da şişirtmələr təsərrüfatın müxtəlif sahələrində olmuşdu. Onlar bu gün də vardır. Respublikada rüşvətxorluq, yeyinti, şişirtmə və vəzifəli şəxslər tərəfindən törədilən digər sui-istifadə halları geniş yayılmışdı. Biz işimizi məhz bundan başladıq: bütün neqativ hallara, o cümlədən gözdən pərdə asmaq hallarına qarşı fəal mübarizəyə girişdik. Onlar yox oldumu? Xeyr. Onlar orada -burada meydana çıxmaqda idi. Bəli, məhz meydana çıxırdı. Bu, bütov bir rayon miqyasında, müəssisə, tikinti, kolxoz və sovxozun işində olurdu. Bu, MK-ya məlum olan kimi bütün faktlar Büroda çox prinsipial şəkildə müzakirə olunurdu. Biz belə hesab edirdik ki, bu yolla istənilən səviyyəli rəhbərlərin hüquqazidd əməllərinin qarşısını ala bilərik.

**A. K.:** Necə hesab edirsiniz, bu, Sizə müyəssər oldumu?

**Heydər Əliyev:** Təəssüflər olsun ki, bunların kökünü tam kəsmək mümkün olmadı.

**A. K.:** Siz nə qədər adamı məsuliyyətə cəlb etmisiniz?

**Heydər Əliyev:** Belə məlumatlar əlimdə yoxdur, məni ifşa olunanların sayı maraqlandırmırdı. Biz belə halların tamamilə yox edilməsi problemi üzərində işləyirdik və düzünü deyim ki, biz bu məsələdə güzəştə getmirdik. Şişirtmələr, gözdən pərdə asma hallarına görə rayon partiya komitələrinin birinci katibləri, rayon icraiyyə komitələrinin sədrləri partiya və cinayət məsuliyyətinə cəlb olunurdu.

Məsələn, Kürdəmir rayonunda rayon partiya komitəsinin birinci katibi Məmmədov da daxil olmaqla 50-dən artıq şəxs həbs və mühakimə olunmuşdu. Lənkəran rayonunda iri miqyasda yeyinti aşkar edilmişdi. İstintaq bir neçə il ərzində aparıldı, bir neçə yüz adam (mən mühakimə olunmuş adamların dəqiq sayını xatırlamıram) cinayət məsuliyyətinə cəlb edildi. Balakən rayonunda da yeyintiyə yol verilmişdi. Həm də ki, rayon partiya komitəsinin birinci katibi Abdulrəhmanovun bu yeyintidə iştirakı müəyyən edilmişdi. MK-nın bürosunda bu məsələ üzrə biz ciddi qərar qəbul etdik, materialları istintaq orqanlarına verdik. Göyçay rayonunun da rəhbərlərinə qarşı eyni cür hərəkət etdik. Yeyinti, rüşvətxorluq hallarına görə Şamaxı rayonunun rəhbərləri, o cümlədən raykomun birinci katibi Sailov, rayon prokuroru və başqaları mü-

hakimə olundu. Yerli Sənaye Nazirliyi sistemində bir qrup "gizli sexlər" üzə çıxarılmışdı. Bu iş üzrə 80 nəfərə yaxın adam mühakimə edilmişdi. Ticarət Nazirliyi tabeliyindəki Dövlət Ticarət Müfəttişliyinin 24 nəfərdən ibarət bütün heyəti həbs edildi və mühakimə olundu. İstintaqı DTK orqanları aparmış, 280 rüşvətxorluq halı sübuta yetirilmişdi.

**A. K.:** Bəs Moskva buna necə baxırdı?

**Heydər Əliyev:** Mənə deyirdilər ki, Moskvada ən "yuxarıda", müəyyən narazılıqlar yaranır. Amma bunlar bizi dayandıra bilmədi.

**A. K.:** Son zamanlar belə məqalələr çıxır ki, bu mübarizə adı altında Sizə yarınmayan adamları da cəzalandırırdınız. Bununla əlaqədar nə deyə bilərsiniz?

**Heydər Əliyev:** Mən bəyan edirəm ki, bu, yalandır.

Biz müxtəlif sui-istifadə hallarına yol vermiş, qanunlarımızı, partiya nizamnaməsini pozmuş rəhbər işçilər sırasında olan şəxslərlə mübarizə aparırdıq. Biz onları heç zaman bağışlamırdıq. Lakin deməliyəm ki, MK bir dəfə də olsun, əsassız cəzalandırma halına yol verməyib. Mənim dövrümdə heç bir adam sıxışdırılmayıb. Hüquq-mühafizə orqanlarının fəaliyyətində, düzdür ki, qanunçuluğun pozulması, kənara çıxma halları olurdu və bu hallar MK-ya məlum olan kimi, zəruri tədbirlər görülürdü. Biz tənqidin boğulması, partiya həyatı normalarından kənara çıxma hallarını da bağışlamırdıq. MK-nın bürosunda məxsusi olaraq yerli qəzetin tənqidi məqalə verilən nömrəsinin çıxmasını qadağan etmiş Göyçay rayon rəhbərlərinin düzgün olmayan hərəkətləri barəsində məsələ müzakirə etmişdik.

**A. K.:** Bəs Məmmədov? Keçmiş respublika prokuroru.

**Heydər Əliyev:** Belə hesab edirəm ki, bu gün Azərbaycanda vaxtilə MK-da qəbul edilmiş bir çox qərarlara ədalətsiz münasibət bəslənilir. Pozuntulara yol vermiş bir sıra şəxslər şəraitdən istifadə edərək baş qaldırıb, özlərini keçmişin qurbanları kimi qələmə verməyə çalışırlar. Əslində verdiyim ədalətli cəzaya görə şəxsən məndən intiqam alırlar. Təəssüflər olsun ki, onlar indiki respublika rəhbərliyi tərəfindən dəstəklənirlər. Düşünürəm ki, belə subyektiv yanaşmanın nəticəsi yaxşı olmayacaq.

**A. K.:** Bu, nə ilə bağlıdır, Sizə necə gəlir?

**Heydər Əliyev:** Hesab edirəm ki, burada ayrı-ayri yoldaşların subyektivliyi üstün gəlir.

**A. K.:** Rəhbər yoldaşların?

**Heydər Əliyev:** Əlbəttə. Onlar öz əməllərinə görə haçansa ədalətli cəza almış şəxslərin bəyanatlarından istifadə edərək partiya təşkilatının keçmişdəki fəaliyyətini gözdən salmaq istəyirlər. Onların sırasında keçmiş respublika prokuroru Məmmədovla bağlı hadisə də vardır. Onun işində çoxlu nöqsanlar var idi və Azərbaycan KP MK onların aradan qaldırılmasını, cinayətkarlıqla mübarizənin fəallaşdırılmasını, prokurorluq orqanlarını özünü nüfuzdan salmış şəxslərdən təmizləməyi ondan tələb etmişdi. Prokurorluğun işində olan nöqsanlar barəsində məsələyə MK bürosunda Sov. İKP MK-nın inzibati orqanlar şöbəsinin və SSRİ Prokurorluğunun nümayəndəsinin iştirakı ilə üç dəfə baxılmışdı.

Prokurorluğun, şəxsən Məmmədovun fəaliyyəti MK-nın plenumunda, respublika fəallarının toplantılarında, Azərbaycan KP MK-nın XXIX qurultayında tənqid edilmişdi. Lakin o, özü üçün lazimı nəticələr çıxarmamış, prokurorluq orqanlarının layiq olmayan şəxslərdən təmizlənməsi sahəsində tədbirlər görməmiş, hətta onlardan bir qisminə açıq-aşkar himayədarlıq etmişdi. Son il yarım ərzində, əslində o, özünü işdən kənara çəkmişdi. Bu müddət ərzində Məmmədov kollegiyanın 30 iclasından 6-da iştirak etmişdi. Onun işi artıq dözülməz hala çatdıqda MK-nın komissiyası yaradıldı. Yoxlamanın nəticələrinə Büroda baxıldı. Çox qızğın müzakirələr oldu, Büro üzvlərinin hamısı çıxış etdilər. Məmmədovun bundan sonra prokuror vəzifəsində qalmasının qeyri-mümkünlüyünə dair qərar qəbul edildi. Onun vəzifədən azad edilməsinə dair son qərarı SSRİ Baş prokuroru Rudenko və MK qəbul etdi. O, vəzifəsindən kənarlaşdırıldıqdan sonra çoxlu sayda yeni sui-istifadə və pozuntu halları aşkar edildi. Müxtəlif əməllərinə görə prokurorluğun 40-dan artıq məsul işçisi, 8 şəhər və rayon prokuroru vəzifələrindən azad olundu. Bir qismi isə cinayət məsuliyyətinə, o cümlədən “sexçilərin” işi üzrə rüşvətxorluq və iri məbləğdə yeyintidə əlbir olmalarına görə, cəlb edildi, Məmmədovun şəxsən himayədarlıq etdiyi, kollegiya üzvü, istintaq şöbəsinin rəisi Babayev məhkəməyə verildi. Buna görə də biz onun partiya məsuliyyəti məsələsinə baxmaq qərarına gəldik.

**A. K.:** Bu, divantutmaya oxşayır....

**Heydər Əliyev:** Heç bir divantutma olmayıb.

**A. K.:** Axı, Məmmədov partiyadan Ali Sovetin sessiyasında çıxış etdikdən sonra xaric edilmişdi.

**Heydər Əliyev:** Hesab edirəm ki, bu məsələ tamamilə qeyri-obyektiv işıqlandırılır. Məmmədov o zaman sessiyada çıxış etdi ki, artıq ona qarşı xidməti fəaliyyətində yol verdiyi çoxsaylı sui-istifadə faktları aşkar edilmişdi. O, sessiyada yalnız ona görə çıxış etdi ki, bu vaxt onun partiya məsuliyyəti məsələsinə baxılırdı və o, hadisələri qabaqlamaq istəyirdi. Bu, hiyləgər və ehtiyatlı gediş idi. Soruşula bilər ki, o, indiyə qədər niyə çıxış etmirdi. Əgər onun deməyə sözü vardısa, respublika prokuroru olanda, onu işdən azad edəndə və sonralar da çıxış edə bilərdi. Bunun üçün onun hər cür imkanları vardı. İstənilən əvvəlcədən hazırlanmamış şəxs onun çıxışının stenoqramı ilə tanış olduqda deyər ki, indi o çıxış saxtalaşdırılmış şəkildə təqdim olunur. Sessiyanın gündəliyində 1979-cu il üçün xalq təsərrüfatı planının təsdiqlənməsi məsələsi dururdu. Məmmədov dedi ki, o, bu planın təsdiqlənməsi təklifi ilə razı deyil, çünki xalq təsərrüfatında müxtəlif sui-istifadə halları ona məlumdur. Bununla belə o, heç bir fakt göstərmədi. Vəssalam. Əlbəttə ki, onun bəyanatı deputatların narazılığına səbəb oldu, çünki Məmmədov hansısa konkret şəxsləri deyil, əslində bütün respublikanı günahlandırırdı. Buna görə də bir çox deputatlar - fəhlə, yazıçı, dəmiryolçu, sıravi kolxozçu qadın, rəhbərliyin təmsilçiləri dərhal çıxış etdilər. Yeri gəlmişkən, onda çıxış üçün 60-a yaxın adam yazılmışdı. Sonra Məmmədovun bəyanatını yoxlamaq üçün komissiya yaradıldı, lakin o, heç bir fakt təqdim etmədi.

**A. K.:** Bu yaxınlarda “Pravda” qəzetinin məlumat verdiyi kimi, Qambay Məmmədov artıq partiyaya bərpa edilib. Sov. İKP MK yanında Partiya Nəzarəti Komitəsinin bu qərarını necə qiymətləndirirsiniz?

**Heydər Əliyev:** Məmmədovun partiya məsuliyyəti barəsində məsələ MK-nın bürosunda diqqətlə və hərtərəfli nəzərdən keçirilibdir. Məmmədovun Sov. İKP-dən xaric edilməsi təklifi MK-nın büro üzvlərindən - MK-nın ikinci katibi Y. Puqaçov (sədr), Ali Sovetin Rəyasət Heyətinin sədri A. İbrahimov, MK-nın katibləri H. İbrahimov, H. Se-

yidov, DTK-nın sədri V. Krasilnikovdan ibarət komissiyadan daxil olmuşdu. Onlar yekdilliklə çıxış etmişdilər. Hesab edirəm ki, bizim qərarımız əsaslı idi. PNK isə indi 10 il keçdikdən sonra bu məsələnin həllinə birtərəfli yanaşıbdır.

**A. K.:** Məmmədovun "Московские новости" qəzetinə verdiyi müsahibə haqqında nə düşünürsünüz? Axı, xatırlayırsınızsa, orada o, deyir ki, Siz vərəm xəstəliyinə dair arayış təqdim etməklə ordudan boyun qaçırmısınız.

**Heydər Əliyev:** Bu müsahibə böhtan xarakteri daşıyır. Bəyan edirəm ki, Məmmədov mənə qarşı daxil olmuş siqnalların araşdırılmasında heç vaxt iştirak etməyibdir. Orduya çağırışdan boyun qaçırmamışam və vərəm xəstəliyimə dair heç bir arayış təqdim etməmişəm. 1941-ci ildən Naxçıvan XDİK-da arxiv şöbəsinin məxfi hissəsinin müdiri vəzifəsində (onun iddia etdiyi kimi, kuryer vəzifəsində deyil) işləmişəm. Sonra Muxtar Respublikanın XKS-də şöbə müdiri işləmiş, 1944-cü ildən isə XDİK-DTN-DTK orqanlarında çalışmışam.

İndi isə o haqda danışım ki, guya mən onunla haqq-hesab çəkirəm və yaltaqlanmayan şəxs kimi aradan götürmüşəm. Məmmədov mənim dövrümdə 7 il işləyib. Əgər mənim onunla haqq-hesab çəkmək fikrim olsaydı, bunu elə işlədiyim ilk illərdə də edərdim. Bu, çətin deyildi. Bununla belə, 1973-cü ildə Məmmədovun respublika prokuroru vəzifəsini tutmasına dair konstitusiya müddəti başa çatsa da, o, yenidən respublika prokuroru təyin edilmişdi. Bu zaman ona işindəki nöqsanlar barəsində xəbərdarlıq olunmuşdu. Məmmədov deyir ki, o, məni ifşa edəcək hansısa materiallara malikdir və guya mənim DTK sədri vəzifəsinə təyin edilməyimə etiraz edibdir. Bu da uydurmadır. Elə isə MK-nın plenumunda mən birinci katib seçilərkən o, niyə öz fikrini bildirmədi? O, MK-nın üzvü idi və mənim seçilməyimə səs veribdir.

Bayram günlərində mən Məmmədovdan təntənəli təbriklər alırdım. Təsadüfən onlardan biri məndə qalıbdır: "Azərbaycan KP MK rəhbərliyi altında son bir neçə il ərzində respublika zəhmətkeşlərinin qazandığı çoxsaylı əmək qələbələri Sizin qaynar enerjiniz, əlahiddə prinsipiallığınız və qeyri-adi təşkilati qabiliyyətlərinizlə... üzvi şəkildə əla-

qədardır. Prokurorluq orqanlarının möhkəmləndirilməsini dönməz şəkildə təmin edən sosialist qanunçuluğunun, respublikada hər bir vəzifəli şəxsə qarşı yüksək tələbkarlıq, xidməti borcun qüsursuz icra edilməsi mühitinin yaradılmasına görə Sizə dərin minnətdarlığımı bildirirəm...” Və sairə və ilaxır.

**A. K.:** Siz 70-ci illərdə respublika həyatına dair tənqidi məqalələrlə son zamanlar Azərbaycanda yaranmış vəziyyət arasında əlaqə görürsünüzmü?

**Heydər Əliyev:** Mən düşünürəm ki, bütün bu yazılar məhz respublikadan təşkil edilir.

**A. K.:** Siz niyə belə düşünürsünüz?

**Heydər Əliyev:** Çünki Azərbaycanın indiki rəhbərliyinin partiya təşkilatının keçmişdəki işlərinə münasibətində tamamilə qeyri-obyektivlik görürəm... Bütün bunlar açıq şəkildə özünü büruzə verir.

**A. K.:** Sizcə, bu, nə üçün edilir?

**Heydər Əliyev:** Düşünürəm ki, insanların diqqətini bugünkü çətinliklərdən yayındırmaq üçün edilir.

**A. K.:** Azərbaycanda siyasi vəziyyəti necə qiymətləndirirsiniz?

**Heydər Əliyev:** Vəziyyət heç vaxt indiki kimi mürəkkəb olmayıbdır.

**A. K.:** Vəzirov iddia edir ki, respublikanı bu vəziyyətə məhz Sizin rəhbərliyiniz gətirib çıxarmışdır.

**Heydər Əliyev:** Mən istisna etmirəm ki, belə bəyanatlar Vəzirovun şəxsi incikliyi ilə bağlı deyil. Mənim MK-da işlədiyim dövrdə onun bir çox yaxın qohumları və dostları ayrı-ayrı əməllərinə görə rəhbər vəzifələrdən azad edilmiş və partiya xətti ilə cəzalandırılmışlar. Bundan başqa, Vəzirovun respublika rəhbərliyində yüksək vəzifə tutmağa dair şəxsi istəkləri də təmin edilməmiş qalmışdı.

Deməliyəm ki, əvvəllər Vəzirovun digər baxışları vardı. Mən Siyasi Büronun üzvü seçiləndə o, səfir işlədiyi Nepaldan mənə belə bir məktub yazmışdı: “Sizinlə bağlı olan hər şey burada, Nepalda, buraya gəlib çıxan mətbuata əsaslansaq, Hindistanda və dünyanın digər ölkələrində geniş şəkildə işıqlandırılır. Nepalın bir çox rəsmi şəxsləri ölkənin ən yüksək rəhbərliyinə daxil edilməyiniz münasibətilə məni Sizin yerliniz kimi məxsusi olaraq təbrik edirlər. Mən çox şadam və Sizinlə fəxr edirəm. Əminəm ki, Sizə xas olan parlaq keyfiyyətlər və qa-

biliyyətlər gələcəkdə daha tez-tez özünü büruzə verəcəkdir". Məndə belə məktublar çoxdur. Sualınıza cavab verərkən qeyd edə bilərəm ki, mənim Azərbaycanda işlədiyim dövrdə respublikanın həyatında hər hansı mürəkkəbləşmə olmamışdı.

Mən Azərbaycandan 1982-ci ildə getmişəm. İndi isə 1989-cu ildir. Respublikada hansısa iş axıracan görülməmişdirsə, onu bu illər ərzində etmək olardı.

**A. K.:** İndi isə DQMV barəsində. Siz necə qiymətləndirirsiniz, orada nə baş verir?

**Heydər Əliyev:** Dağlıq Qarabağda və onun ətrafında baş verən hadisələr, Ermənistan və Azərbaycan arasındakı millətlərarası konfliktlər məni dərindən həyəcanlandırır və narahat edir. Hesab edirəm ki, bütün bunların qarşısını vaxtında almaq olardı. Bunun üçün qəti tədbirlər görmək lazım idi...

**A. K.:** Hansı tədbirləri?

**Heydər Əliyev:** Hadisələr başlayanda mən təqaüddə idim və vəziyyətə dair kifayət qədər məlumata malik deyiləm. Buna görə də konkret olaraq hansı tədbirlərin görülməsinin lazım olduğunu söyləmək mənim üçün çətindir. Lakin düşünürəm ki, əgər Azərbaycan rəhbərliyi inkişaf etməkdə olan hadisələrə qiymət verilməsinə lazımi məsuliyyətlə yanaşsa idi və Ermənistan rəhbərliyi ilə birlikdə (bu respublikada müəyyən şəxslərin Dağlıq Qarabağdakı vəziyyətə təsir etdiyini nəzərə alaraq) tərbiyəvi, profilaktik xarakterli ciddi addımlar atsa idi, habelə mərkəz tərəfindən dəqiq mövqe ifadə olunsa idi, konfliktdən qaçmaq olardı. Konflikt yarandıqdan sonra isə onun getdikcə şiddətlənməsinə və belə uzun sürməsinə yol vermək olmazdı.

**A. K.:** Sizin baxışınız necədir: Dağlıq Qarabağın rəhbərliyi 70-ci illərdə orada yaşayan ermənilərin hüquqlarını məhdudlaşdırırdımı?

**Heydər Əliyev:** Xeyr, əlbəttə, xeyr. Dağlıq Qarabağ Muxtar Vilayətinin bütün rəhbərləri (indi artıq sabiq) ermənilər idi. Hesab edirəm ki, onlar düzgün siyasət aparırdılar və düzgün rəhbərlik edirdilər; mən, məsələn, DQMV rəhbərliyi tərəfindən edilən hansısa ciddi pozuntuları müşahidə etməmişəm. Təəssüf ki, bu muxtar vilayətdə vəziyyət kəskinləşəndən sonra belə bir fikir meydana çıxdı ki,

konfliktin səbəbi Dağlıq Qarabağın sosial-iqtisadi sahədə geri qalmasında və hətta DQMV-nin problemlərinə, onun əhalisinə respublikanın keçmiş rəhbərliyinin guya düzgün olmayan münasibətindədir. Belə demək üçün əsas olmalıdır. Səbəblər isə başqa məsələdədir.

Bu da yaxşı məlumdur. Qarabağ məsələsinin yaranma səbəbinin vilayətin sosial-iqtisadi geriliyində olmasına dair çıxarılan nəticə "Dağlıq Qarabağ Muxtar Vilayətinin 1988-1995-ci illərdə sosial-iqtisadi inkişafını sürətləndirməyə dair tədbirlər haqqında" Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin qərarı ilə inkar edilir. 1988-ci ilin martında, konflikt yaranandan dərhal sonra qəbul edilmiş bu qərarda deyilir: "Sov. İKP MK və SSRİ Nazirlər Soveti qeyd edir ki, Sovet İttifaqının bütün xalqlarının qardaşlıq köməyi sayəsində Dağlıq Qarabağ Muxtar Vilayəti sosial-iqtisadi inkişaf sahəsində əhəmiyyətli uğurlara nail olmuşdur. Xalq təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi təmin edilmişdir. Təkcə son üç beşillik ərzində sənaye istehsalının həcmi 3 dəfədən artıq, kənd təsərrüfatı məhsulları istehsalı isə 1,5 dəfə artmışdır". Budur Sov. İKP MK-nın verdiyi qiymət. DQMV sosial-iqtisadi inkişaf göstəricilərinə görə Azərbaycanın və Ermənistanın orta respublika göstəricilərindən üstün idi. Vilayət iqtisadiyyatının daha dolğun inkişafı 70-80-ci illərə düşür. Vilayətin mərkəzinə qədər dəmiryolu salınmış, Stepanakertdə gözəl vağzal tikilmişdi. Yeni aeroport salınmışdı və biz Stepanakertlə Bakı və Yerevan arasında müntəzəm reyslər təşkil etmişdik. Mən Dəmirçyana zəng etdim və biz razılaşdıq ki, reyslər Azərbaycan Aeroflotu və Ermənistan Aeroflotu tərəfindən yerinə yetirilsin. Görürsünüzmü, bu məsələləri biz hansı xırdalıqlarına qədər fıkirləşirdik. İri müəssisələr də - ayaqqabı fabriki, elektrotexnika zavodu, elektron sənayesi kondensatorları zavodu, kənd təsərrüfatı maşınqayırması zavodu və digər müəssisələr yaradılmışdı. Kənd təsərrüfatı sahəsində də xeyli işlər görülmüşdü. Elektrostansiyası, suvarma kanalları olan iki iri su anbarı tikilmişdi ki, bu da iki rayonun su təchizatını xeyli yaxşılaşdırırdı. Üzüm istehsalı 70-ci illərin əvvəllərindəki 50-60 min tondan 1980-ci ildə 120-130 min tonadək artmışdı. Heyvandarlıq məhsulları təxminən iki dəfə çoxalmışdı. 170 minlik əhalisi olan kiçik bir vilayət üçün bunlar az deyildi.

Sosial-mənəvi sahədə də çox işlər görülmüşdü. Stepanakertdə biz pedaqoji institut yaratdıq. Belə bir kiçik vilayətə o, bəlkə də, heç lazım deyildi, lakin biz yaradıcı ziyalıların istəklərinə uyğun hərəkət etdik. Tədris orada erməni dilində aparılırdı. Mən artıq söylədim ki, yaşayış evləri, məktəblər, poliklinikalar tikilirdi; dram teatrı yenidən quruldu və yeni avadanlıqlarla təchiz edildi. Böyük siyasi maarif evi tikdik. Tikinti aparılarkən mən şəxsən orada olmuşam. Yeni abidələr, o cümlədən DQMV-dən çıxmış erməni mədəniyyət xadimlərinə abidələr qoyulurdu. Bir çox incəsənət xadimlərinə Azərbaycanın xalq və əməkdar artisti fəxri adları verilirdi, hər il DQMV gənclərinin Azərbaycanın ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu aparılırdı. Şuşa şəhərində böyük bir kilsə vardı. O, 1918-ci ildə dağıdılmışdı. Ermənistandan ustalar dəvət etdik. DQMV-nin Ermənistanla mədəni əlaqələri xeyli dərəcədə fəallaşmışdı və biz buna yardım edirdik. Muxtar vilayətə Ermənistanın nazirlik və qurumlarının rəhbərləri, teatrlar və konsert briqadaları, mədəniyyət xadimləri, alimlər tez-tez gəlirdilər. Hər hansısa məhdudiyyətlərə dair söz-söhbətlər tamamilə əsassızdır.

Vəziyyət, bax, belə idi. Konflikt başlanandan artıq iki il keçsə də, DQMV-də vəziyyət nəinki yaxşılaşmayıb, hətta ciddi şəkildə pisləşib.

**A. K.:** Bununla belə, kimdir günahkar?

**Heydər Əliyev:** Hətta tutaq ki, konfliktin səbəbi DQMV-nin sosial-iqtisadi sahədəki geriliyindədir (halbuki bunun belə olmadığı bəllidir), elə isə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin DQMV-nə aid qərarından sonra (bu qərarda kompleks tədbirlər nəzərdə tutulmuş və vilayətin inkişafı üçün 500 milyon rubl ayrılmışdı) vəziyyətin normallaşacağını gözləmək olardı. Bu isə olmadı. Deməli, səbəb başqa bir şeydədir.

Xüsusi İdarə Komitəsinə böyük ümidlər bəslənilsə də, bu, özünü doğrultmadı. Belə bir komitənin yaradılması ümumiyyətlə nə dərəcədə qanuna müvafiqdir? Görün bir, nə alınır; bir tərəfdən deyilir ki, sərhədlərin dəyişdirilməsi yolu ilə DQMV məsələsini həll etmək olmaz, digər tərəfdən, DQMV-ni əslində Azərbaycanın tabeliyindən çıxaran Xüsusi İdarə Komitəsi yaradılır. Komitənin isə işləri alınmadı.

Öncə ona görə ki, onun rəhbərləri məsələnin mahiyyətinə vara bilmədilər və məsələyə ilk andan tərəfkeş yanaşdılar. Və ümumiyyətlə, yaxşı bir şey edə bilmədilər.

DQMV probleminin həllinə dair məsələnin qoyuluşu öz-özlüyündə qanunaziddir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir və belə də qalmalıdır. Deməli, burada həll ediləsi bir şey yoxdur. Həll edilməyə ehtiyacı olan bir şey varsa, o da yaranmış millətlərarası konfliktin tənzimlənməsidir, özü də mümkün qədər tez.

Azərbaycan çoxmillətli respublikadır və biz beynəlmiləl tərbiyə, xalqlar arasındakı dostluğun möhkəmləndirilməsi probleminə böyük diqqət yetirirdik. Azərbaycan xalqı həmişə digər xalqlara xeyirxah münasibət bəsləyibdir. Gürcüstan, Ermənistan və Azərbaycan arasında çox intensiv əlaqələr vardı. Təcrübə mübadiləsi aparılırdı. Hər üç respublikanın kommunist partiyaları MK-larının birinci katibləri hər il görüşürdülər, respublikalararası əlaqələri müzakirə edirdilər. Xatırlayıram ki, 1982-ci ildə mənim Moskvaya getməyimdən bir az əvvəl E. Şevardnadze, K. Dəmirçyan və mənim aramda görüş oldu. Bu, Ermənistanda, Yerevanda oldu. Biz fikir mübadiləsi apararaq bir sıra məsələləri müzakirə etdik və "Masis" istehsalat birliyindəki mitinqdə çıxış etdik. Bunların fonunda Vəzirovun "Azərbaycan və Ermənistan rəhbərləri 15 il olar ki, öz aralarında görüş keçirməyiblər" bəyanatı cəfəng səslənir. Sual olunur ki, ictimaiyyətə yalan məlumat verilməsi axı nəyə lazımdır? Fürsətdən istifadə edib demək istəyirəm ki, mən həmişə erməni xalqına çox mehriban münasibət bəsləmişəm. Məsələn, uzun illər ərzində mənim marşal İvan Xristoforoviç Baqramyanla şəxsi dostluq əlaqələrim olubdur. O, dəfələrlə Bakıya gəlmiş, respublikanın şəhər və rayonlarına səfərlər etmişdir. Mən bir hadisə haqqında danışmaq istəyirəm. Baqramyan ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı olanda onun vətənində büstünün ucaldılması məsələsi ortaya çıxdı. O, Azərbaycanın Şamxor rayonunun Çardaxlı adlı dağ kəndində anadan olub. Bu kənd rayon mərkəzindən xeyli uzaqda yerləşirdi. Baqramyan mənə belə bir xahişlə müraciət etdi. Onun büstünü gənc yaşlarında təhsil aldığı Kirovabad (indiki Gəncə) şəhərində qoymaq olmazmı? (Bu, böyüklüyünə görə Azərbaycanda ikinci şəhərdir.)

Biz MK-nın bürosunda məsləhətləşdik və müəyyən edilmiş qaydalardan kənar olsa da, onun xahişini təmin etmək qərarına gəldik. Kirovabadda Baqramyan böyük bağı olan ən gözəl bir sahə seçdi və biz orada onun büstünü qoyduq. Mən bu büstün açılışı münasibətilə hazırlanmış təntənələrdə iştirak etmək üçün Kirovabada getdim və orada çıxış etdim. Sonra bizə məlum oldu ki, Baqramyan onun doğma kəndində döyüş şöhrəti muzeyi yaradılmasını istəyir. Biz Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin qərarını əldə etdik və böyük muzey kompleksi tikdik. Baqramyanla birlikdə mən onun açılışına getdim. Ətraf kəndlərin əhalisi toplaşmışdı, mitinq də oldu. Marşal Baqramyanın fərdi muzeyinin açılışı belə olmuşdur.

Mənim Marietta Şaginyanla səmimi münasibətlərim vardı. 1975-ci ildə o, Moskva nümayəndə heyətinin tərkibində Azərbaycana gəlmişdi. Biz tanış olduq və mən ona respublikada qonaq qalmağı təklif etdim. O, Kirovabadda, DQMV-də və erməni əhalisi olan digər rayonlarda oldu. Sonra mən onunla Bakıda görüşdüm və bir istirahət günü bağ evimə dəvət etdim. O, mənə danışırdı ki, Bakı səfəri öncəsi Yerevanda olarkən Ermənistanın bir sıra mədəniyyət xadimləri ona yaxınlaşıb deyirmişlər ki, onlar DQMV-nin Ermənistana verilməsinə dair məktub hazırlamışlar. O, bu məktubu imzalamaqdan imtina etmiş və həmkarlarına bir daha belə işlərlə məşğul olmamağı məsləhət görübmüş. Lakin Azərbaycanda olarkən o, ermənilərin vəziyyəti ilə maraqlandıqdan sonra mənə sözbəsöz aşağıdakıları dedi: “Sizdə ermənilər var-dövlət içində üzürlər”.

İşlədiyim dövrdə Dağlıq Qarabağda vəziyyət sabit idi, DQMV-nin sakinlərindən KP MK-ya Azərbaycanın tərkibindən çıxmaq barəsində heç bir yazılı və ya şifahi müraciət daxil olmamışdı. Heç vaxt. Nə respublikadaxili, nə də respublikalararası konfliktlər baş verməyib. Bir dənə də olsun, belə hal mənə məlum deyil.

**A. K.:** Əgər Dağlıq Qarabağdakı vəziyyətdən fikrən ayrılsaq, hazırda Azərbaycanda gedən ictimai prosesləri necə qiymətləndirərdiniz?

**Heydər Əliyev:** Respublikada vəziyyət, mətbuatdan mənə məlum olduğu kimi, son dərəcə mürəkkəbdir. Mənə belə gəlir ki, respublika rəhbərliyi daha düşünülmüş qərarlar qəbul etməlidir. Xalqla açıq dialoqa

getməli, bütün qüvvələrin birləşməsi üçün tədbirlər görməlidir - başqa çıxış yolu yoxdur. Eyni zamanda, mən burada təsirli tədbirlərin həyata keçirilməsini görmürəm. Söz-söhbət çoxdur, əməli işlər isə çox azdır.

**A. K.:** Biz böhran haqqında çox danışırıq: siyasi, iqtisadi, mənəvi böhran. Siz necə hesab edirsiniz, partiya, ölkə həqiqətən böhran keçirirmi? Və yaxud bu, bir şişirtmədir?

**Heydər Əliyev:** Bəli, mən hesab edirəm ki, vəziyyət böhran həddindədir. Əlbəttə, əvvəllər olmayan mürəkkəb siyasi proseslər gedir. Bu, çox mühüm məsələdir və o, ayrıca söhbətin mövzusudur.

**A. K.:** Siz uzun müddət susmusunuz. Bəs bundan sonra? Susacaqsınızmı?

**Heydər Əliyev:** Birincisi, Andrey Viktoroviç, mən susmamışam, əgər Siz xatırlayırsınızsa, MK-nın 1989-cu il aprel plenumunda çıxış etmişəm. Mənə belə gəlirdi ki, hamının cavabını vermişəm. Daha əvvəllər, yəni keçən il mən "Literaturnaya qazeta"dakı məqaləyə cavab göndərmişdim. Lakin o, çap olunmadı. Bundan sonra daha susan deyiləm...

**A. K.:** Mənə bəlli olduğu kimi, Siz Moskvaya gedərkən bütün səviyyələrdə işləmək üçün xeyli miqdarda "öz adamlarınızı" hazırlamışdınız.

**Heydər Əliyev:** Bunu Siz ciddi deyirsiniz? Siz axı necə belə danışa bilərsiniz? Bu ki, cəfəngiyatdır. Bu ki, sui-istifadə hallarına görə cəzalandırdığımız insanlar tərəfindən uydurulmuşdur.

**A. K.:** Onlar çoxmu idilər, Heydər Əliyeviç?

**Heydər Əliyev:** Onlar kifayət qədərdi. Onlar vəzifələrindən məhrum olunublar, partiya cəzası alıblar. Bu gün respublikada elə bir vəziyyət yaradılıb ki, onlar yenidən baş qaldırıblar və sərbəst şəkildə, ən müxtəlif şəkildə fəallıq nümayiş etdirirlər. Çoxları sadəcə məndən qisas alır.

Mənim Büro üzvləri ilə, digər rəhbər işçilərlə münasibətlərim rəsmi idi. Onlar ehtiram səciyyəsi daşıyırdı, amma ciddi və tələbkar münasibət idi. Ətrafımda heç vaxt heç bir yaxınlarım olmayıb.

**A. K.:** Siz şəxsi dostluğu da özünüzə rəva görmürdünüz?

**Heydər Əliyev:** Rəhbər işçilərdən heç biri ilə şəxsi dostluğum olmayıb. Ola bilər ki, bu, mənim xüsusiyyətimdir, işdən başqa heç nə ilə, demək olar ki, maraqlanmamışam. Doğrudur, simfonik konsertlərə, teatrlara, tamaşa tədbirlərinə tez-tez gedirdim. Mən əsasən bağ evimdə qalır-

dım. Bu bağ qəsəbəsinin ərazisində məndən başqa, Ali Sovetin Rəyasət Heyətinin sədri, Nazirlər Sovetinin sədri və MK-nın ikinci katibi də yaşayırdı. Bazar günlərində biz bir yerdə gəzib dolaşırdıq, çimərlikdə olurduq, amma asudə vaxtımı yalnız ailəmin əhatəsində keçirirdim. Və mənim heç bir "yaxınlarım" olmayıb. MK-nın bürosunda, katibliyin iclaslarında diskussiyalar tam sərbəst keçirilirdi. Bəzi yoldaşlara belə gəlirdi ki, biz həddən artıq iclas keçiririk. Lakin biz hər şeyi araşdırmaq və düzgün qərar qəbul etmək üçün hər kəsin fikrini söyləməsinə şərait yaratmaqda vaxta qənaət etmirdik. Bir məsələnin müzakirəsi bəzən 3-4 saat çəkirdi.

Əlbəttə, bu günün mövqeyindən çıxış etməklə demək olar ki, bizim işimizdə həddən artıq təmtəraq, təntənə olurdu, bu, xüsusilə ayrı-ayrı tədbirlərin hazırlanması və həyata keçirilməsində özünü göstərirdi. Amma bu, bizim ümumi mərəzimiz idi.

**A. K.:** Siz Brejnevin Bakıya gəlişini nəzərdə tutursunuz?

**Heydər Əliyev:** Təkcə onu yox. Elə gəlin bunu, Brejnevin gəlişini götürək. Həmişə Sov. İKP MK-nın baş katibinin səfəri hadisə olubdur. Belə bir təcrübə formalaşmışdı ki, ölkə daxilində də, ölkə xaricində də Brejnevi təntənəli şəkildə qəbul edirdilər. Heç bir respublika istisna deyildi. Əgər onu haradasa keçən səfərində pis qarşılasaydılar - bax, bu, anlaşılmaz olardı. Bəlkə belə təcrübəni pisləmək lazımdır, amma bu məsələdə təkcə Azərbaycanı qınamaq son dərəcə ədalətsiz olardı... Yeri gəlmişkən, mən Xruşşovun 1960-cı ildə Bakıya səfərini xatırlayıram. Onu heç də az təntənə ilə qarşılamamışdılar, nəinki sonralar Brejnev qarşılanırdı. Görünür, məsələ şəxsiyyətlərdə deyildi, statusda və oturuşmuş ənənələrdə idi.

**A. K.:** Bəs Brejnevin qəbul etdiyi hədiyyələr?

**Heydər Əliyev:** Biz heç də xüsusi hədiyyələr bağışlamamışıq.

**A. K.:** Bəs o qaşlı üzük?

**Heydər Əliyev:** Bu, doğru deyil. Biz ona heç bir qaşlı üzük-filan bağışlamamışıq. O, Bakıya təyyarə ilə gələrkən, təyyarənin pilləkənləri ilə aşağı enəndə mən onun barmağında qaşlı üzüyü görmüşəm. Məndə aeroportda qarşılama mərasiminin fotoqrafiyası var ki, üzük də orada açıq-aşkar görünür. Lakin Bakıda ona heç kim hər hansı bir qaşlı üzük bağışlamayıb. Yeri gəlmişkən, "Smena" jurnalı buna bənzər yazıya görə məndən rəsmən üzr istəyibdir.

**A. K.:** Bəs xəncər?

**Heydər Əliyev:** Bəli. 18-ci Ordunun veteranları, Bakının mərkəzində, necə deyərlər, hamının gözü qarşısında Brejnevə böyük olmayan Qafqaz xəncəri təqdim etdilər. Bu, Brejnevin Bakıya səfərinə dair tədbirlər sırasında nəzərdə tutulmuşdu.

**A. K.:** Yaxşı! Bəs onda məxsusi olaraq Brejnev üçün tikilmiş ev necə?

**Heydər Əliyev:** Hazırda insanların sensasiyalara meyli çox artıbdır. Bizim guya Brejnev üçün tikdiyimiz qonaq evinə dair məsələ də bu qəbildəndir. Bakıda xarici qonaqlar üçün dövlət rezidensiyası kimi istifadə oluna biləcək bir dənə də olsun, qonaq evi yox idi. Biz belə bir evi şəhərin mərkəzində tikmək qərarına gəldik. Onu Nazirlər Sovetinin vəsaiti hesabına tikdik. (Büdcənin digər maddələrindən xərclənməmiş vəsaitlər həmişə qalır). Orada Brejnev də qalmış, xarici dövlətlərin rəhbərləri də qalmışlar. Və birdən bu evin ətrafinda hay-küy qaldırılır və "aydın olur" ki, bu, məxsusi olaraq Brejnev üçün tikilibdir. Bu ki sərsəmlikdir. Brejnev Bakıda yaşayası deyildi, deməli, bu evi onun üçün tikə bilməzdik. Və sonra, biz haradan bilə bilərdik ki, o, Bakıya gələcəkdir, yoxsa yox? Keçən il onu səadət sarayına çevirmək qərarına gəliblər. Belə düşünürəm ki, bunu sensasiya üçün ediblər. Mən bilirəm ki, həmin bina öz daxili planlaşdırılmasına görə bu məqsədlər üçün ən az yarayandır. Bu yaxınlarda Bakıya İranın başçısı gəlmişdi, o, bu binada qalası oldu. Onun üzərində İran bayrağı qaldırılmışdı. Onda nə alınır? Xarici dövlətin başçısını səadət sarayında yerləşdiriblər, deyilmi? Axı bütün ölkəyə bəyan etdilər ki, bu qonaq evi bəy və gəlinlərin istifadəsinə verilir. Ölkənin müxtəlif regionlarında, xüsusilə kurort zonalarında istənilən qədər iri xüsusi hökumət evləri vardır ki, onlar da ən yaxşı halda ildə bir və ya iki dəfə istifadə olunur. Elə isə Azərbaycanda, külli miqdarda imkanları olan bir respublikada insanları layiqincə qəbul etmək üçün yeganə bir rezidensiya tikmək olmazdımı?

**A. K.:** Zaqafqaziya respublikalarının rəhbərləri həmişə "geninə- boluna" yaşayıblar: hamamlar, bağ evləri, dəbdəbəli naharlar, hər cür, belə deyək, əyləncəli tədbirlər. Bu barədə nə düşünürsünüz?

**Heydər Əliyev:** Hesab edirəm ki, bu, bütövlükdə kifayət qədər yanlış qənaətdir. Mən bilmirəm, kim necə yaşayıb, özüm isə təvazökar hə-

yat sürmüşəm. Özüm üçün heç nə – nə ev, nə xüsusi saray, nə bağ evi tikdirməmişəm. Heç nə. Mənim hələ 1960-cı ildə aldığım üçotaqlı mənzilim vardı və oradan heç yerə köçməmişəm. Əslində isə dövlətin bağ evində yaşayırdım. Bu çoxdan tikilmiş, heç də böyük olmayan bir evdir. Respublikanın digər rəhbərləri də belə evlərdə yaşayırdılar. Yeri gəlmişkən, burada, Moskvada da nə mənim, nə də ailəmin digər üzvlərinin bağ evi yoxdur.

**A. K.:** Sizin özünüz necə hesab edirsiniz, işinizdə hər hansı çatışmazlıqlar vardı?

**Heydər Əliyev:** Əlbəttə, mənim işimdə çatışmazlıqlar olubdur. Mən həmişə onlar barəsində açıq şəkildə və özünütənqid ruhunda MK plenumlarındakı çıxışlarımda danışmışam. Bəzilərinə belə gəlirdi ki, mən həddən ziyadə tələbkaram, hər şeyə irad tutanam və bu tələbkarlıq bəzən qəddarlığa gedib çıxır. Mən nə deyə bilərəm...

Bununla belə, mən həmişə hesab etmişəm ki, qəbul edilmiş hər bir qərarın real əsası vardır. Təbiətim etibarilə mən həmişə liberallığın əleyhinə olmuşam.

**A. K.:** Əleyhinə?

**Heydər Əliyev:** Bəli, liberallığın əleyhinə. Mən, məsələn, həmişə insanlara yüngül münasibət bəsləyən şəxslərə pis yanaşmışam. Mənim üçün ən ağrılı şey kadr işində buraxılmış səhvlərdir - 70-ci illərdə formalaşmış və tərəfimizdən məsul vəzifələrə irəli çəkilmiş şəxslərin özünü doğrultmaması və sui-istifadə hallarına yol verməsi hallarıdır. Biz, təkrar edirəm, heç vaxt "mundir şərəfi"nin müdafiəsinə qalxmamışıq. İndi fəaliyyət göstərən kadr korpusu əsasən bizim 70-ci illərdə formalaşdırdığımız şəxslərdən ibarətdir. Gəncləri Moskva və ölkənin digər şəhərlərinin ali məktəblərinə xüsusi olaraq göndərirdik. Respublikanın gələcəyini düşünərək bu məsələlərlə şəxsən özüm məşğul olurdum.

**A. K.:** İndi bir az kənardan söhbət edək. Siz Andropov haqqında nə düşünürsünüz?

**Heydər Əliyev:** Yuri Vladimiroviç Andropovla mənim yaxın yoldaşlıq münasibətlərim olmuşdur. Bu münasibətlər mən Azərbaycanda DTK-da işlədiyim dövrdə yaranmış və o, həyatdan köçənə qədər davam etmişdir. Onun tövsiyəsi ilə mən MK-nın birinci katibi seçilmiş-

dim. Məhz onun təklifi əsasında da (onda o, partiyaya rəhbərlik edirdi) mən Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini seçilmişdim. Moskvaya gələndə mən həmişə Yuri Vladimiroviçlə görüşürdüm. O, belə söhbətlər üçün həmişə vaxt tapırdı. Bizim görüşlər əməli səciyyə daşıyırdı, mən onu partiya təşkilatının işi barəsində məlumatlandırır və xeyirxah məsləhətlər alırdım. Söhbətlərimizdə daim ideologiya, mənəviyyat problemlərinə toxunurduq. O, neqativ halların kökünün kəsilməsi üzrə tədbirlərə dair məlumatları həvəslə dinləyir və inamımı artırırdı. Keçmiş rəhbərlərin hamısını ləkələyib gözdən salmaq xasiyyətimiz bu gün artıq Yuri Vladimiroviçə də toxunmaqdadır. Onun da növbəsi gəlib çatıb. Onu yaxşı tanıyan bir adam kimi mənim üçün bu, ağırdır. Andropov - nəhəng miqyaslı şəxsiyyətdir, o, Siyasi Büroda olan ən savadlı və ziyalı adamlardan biri idi, onun təvazökarlığı və prinsipiallığı hamıya yaxşı məlumdur. O, əqidəcə beynəlmiləlçi idi, milli məsələlərə yaxşı bələd olduğundan sonralar ölkədə qayda-qanun yaratmaq istiqamətində cəsarətli addımlar atırdı.

Moskvaya işə keçməyimə dair onun etdiyi təklif mənim üçün tam gözlənilməz oldu. Respublikada mən özümü kifayət qədər inamlı hiss edirdim, mənə insanların münasibəti yaxşı idi. Mən öz mülahizələrimi Yuri Vladimiroviçə söylədim. Cavabında dedi ki, mənim üçün ittifaq əhəmiyyətli məsələlərə keçmək vaxtıdır, onun mənim köməyimə ehtiyacı vardır. Psixoloji cəhətdən mənim üçün asan deyildi, lakin gizlətməyəcəyəm ki, yeni işim məni çox maraqlandırırdı və mən böyük məmnuniyyətlə çalışırdım. Azərbaycanda Sov. İKP MK-nın Siyasi Bürosunun bu qərarı iki cür qiymətləndirilirdi. İnsanlara vətənpərvərlik hissləri hakim kəsilmişdi: respublika tarixində ilk dəfə onun nümayəndəsi belə bir etibara layiq bilinibdir. Bununla belə, onlar çox təəssüf edirdilər ki, mən gedirəm, hər halda, bizim ayrılığımız asan olmadı.

**A. K.:** Maraqlıdır, Heydər Əliyeviç, Sizin yaradıcı ziyalılarla münasibətiniz necə formalaşırdı?

**Heydər Əliyev:** Ziyalılar mənə həmişə yaxın olublar. Mən buna daxili tələbat hiss edirəm. Mən MK-nın birinci katibi olarkən, bu münasibətlər genişlənir və möhkəmlənirdi. Mən bunu həmişə öz işimin mühüm tərəfi saymışam, yaradıcılıq ittifaqlarının işində həmişə iştirak et-

mişəm, qurultaylarında çıxış etmişəm. Ziyalılarla fərdi görüşlər zamanı həm məişət, həm təşkilati problemlər qalxırdı. Biz onları həmişə həll edirdik. Yazıçıların xahişlərinə cavab olaraq biz yeni böyük nəşriyyat yaratdıq, yaradıcılıq evi tikdik. İndiyə kimi mənim yaddaşımda orada keçirdiyimiz bazar günü canlanır. Bakıda olan bütün yazıçılar gəlmişdi. Biz bütün günü birlikdə akt zalında, çayxanada, parkda keçirdik. Beləcə xatırlanan bir görüş də bəstəkarların böyük bir qrupu ilə olmuşdu. Bu görüş Nazirlər Sovetinin şəhər kənarındakı bağ evində keçirilirdi. Onlar öz həyat yoldaşları ilə gəlmişdilər. Musiqinin problemlərindən səmimi söhbət getdi. İmkan daxilində mən mədəniyyət xadimlərinin əsərləri ilə tanış olurdum, konsertlərə, tamaşalara, rəssam emalatxanalarına, ədəbi gecələrə gedirdim. Azərbaycan filarmoniyasına müntəzəm olaraq baş çəkirdim. Simfonik konsertlərə Büro üzvlərini dəvət etməyə başladım, sonralar isə bu tədbirə əslində bütün partiya və sovet fəalları cəlb edilmiş oldular. Belə kollektiv dinləmələri D. Kabalevski bir dəfə "ciddi musiqinin dinlənilməsi institutu" adlandırmışdı. Azərbaycan ziyalısı fəaliyyət göstərməkdə tam sərbəst idi. Biz yaradıcı təşkilatların fəaliyyətini reqlamentləşdirmirdik. Yazıçılar, rəssamlar, bəstəkarlar bir-birindən kəskin şəkildə fərqlənirdilər, forma və janrları sərbəst seçirdilər. Biz bu işlərə heç vaxt qarışmırdıq. Bəzən yaradıcı ziyalılarla ayrı-ayrı vəzifəli şəxslərin qarşılıqlı münasibətlərində ziddiyyətli məqamlar yaranırdı. Bir dəfə belə bir şikayət daxil oldu ki, KP MK-nın nümayəndəsi bizim "Azərbaycanfilm"in yeni işinin buraxılışına qadağa qoyubdur. Məlum oldu ki, Rüstəm İbrahimbəyov və Yuli Qusman tərəfindən "Qum üzərində ev" pyesi üzrə çəkilmiş filmə baxış zamanı o, baş qadın qəhrəmanın yarıçılpaq vəziyyətini əks etdirən kadrları çıxartmağı təklif edibdir. Qarışmalı oldum. Mən kinofilmə baxdım və dedim ki, kadrı kəsmək lazım deyil, orada heç bir əxlaqi təhlükə yoxdur və ümumiyyətlə, yaradıcılıq prosesinə müdaxilə etmək lazım deyil.

O illər ərzində orijinal ədəbiyyat və incəsənət əsərləri meydana çıxırdı. "İstintaq" filminin yaranması böyük hadisə oldu. O zaman bu, sovet kinematoqrafiya təcrübəsində sosial bəlaları belə açıq şəkildə ifşa edən və onlara qarşı fəal mübarizə aparılmasını əks etdirən ilk film idi. Yeri gəlmişkən, bu mövzuya bir sıra teatr tamaşaları da həsr olunmuşdu.

Mən N. Tixonov, V. Katayev, K. Simonov, G. Markov, N. Qribaçov, R. Həmzətov, M. Kərim, V. Karpov, İ. Abaşidze, Y. İsayev, F. Kuznetsov, A. İvanov, A. Sofronov, T. Xrennikov, D. Nalbandyan, B. Uqarov və bir çox başqaları ilə keçirdiyim maraqlı və məzmunlu görüş və söhbətləri dərin məmnuniyyət hissi ilə xatırlayıram. Böyük aktyor Arkadi Raykin bir dəfə Bakıya qastrola gəlmişdi. Mən öyrənmişdim ki, onun ad günüdür, buna görə də onu bağ evimə dəvət etdim və bu bayramı biz yaxşıca qeyd etdik. Mən iki dəfə SSRİ Yazıçılar İttifaqında olmuşam, respublikada baş verən proseslərdən danışmışam, suallara cavab vermişəm. 1975-ci ildə mənim ilk dəfə çıxışımdan sonra Sergey Baruzdin təklif etdi ki, məni Yazıçılar İttifaqına üzv qəbul etsinlər. Əlbəttə, mən bunu zarafat kimi qiymətləndirdim. “Xalqlar dostluğu” jurnalı Bakıda keçirilmiş “Xalqların dostluğu – ədəbiyyatların dostluğudur” adlı ümumittifaq yaradıcılıq konfransında etdiyim məruzəmi onun təşəbbüsü ilə 1980-ci ildə çap etmişdi. Təəssüf edirəm ki, yenidənqurma illərində elə həmin Baruzdin işin mahiyyətinə varmadan DQMV-də baş vermiş hadisələrlə bağlı məni təqsirləndirmişdir.

**A. K.:** Azərbaycanda tamaşalar, filmlər tez-tez qadağan edilirdi? Kitabların əlyazmaları necə?

**Heydər Əliyev:** Bağışlayın, Andrey Viktoroviç, mənim işlədiyim dövrdə bizim təcrübəmizdə hər hansısa incəsənət əsərinin qadağan edilməsi hadisəsi olmayıbdır. Mən artıq söylədim ki, biz ədəbiyyat və incəsənət xadimlərinə bədii yaradıcılıqda tam sərbəstlik vermişdik, heç kim heç nə ilə məhdudlaşdırılmırdı.

**A. K.:** Yaradıcı ziyalılar içərisində dissidentlər vardımı?

**Heydər Əliyev:** Ayrılıqda götürdükdə bizdə dissidentlər olmayıb. Lakin, bəlkə də, dissidentlər ona görə olmayıb ki, biz onları ümumiyyətlə axtarmırdıq.

**A. K.:** Bəs Siz DTK-da işləyəndə belə problemlər yaranırdımı?

**Heydər Əliyev:** Xeyr, heç vaxt.

**A. K.:** Bizdə belə bir ənənə var: Siyasi Büro üzvü vəzifəsini yerə qoyan kimi, onu dərhal tənqid atəşinə tuturlar. Siz necə fıkirləşirsiniz, bu, niyə belə olur?

**Heydər Əliyev:** Hesab edirəm ki, bu, qeyri-normal bir haldır. Niyə belə olur -izah edə bilmirəm. Mənim nəzərimə görə, bu, siyasi mədəniyyət çatışmazlığından irəli gəlir. Həmişə insanı vəzifədə olarkən tənqid etmək lazımdır ki, o, öz qüsurlarını düzəldə bilsin, işini yaxşılaşdıra bilsin. Təqaüdə çıxdıqdan sonra tənqid etmək xüsusi cəsarət tələb etmir. Və heç fikirləşmirəm də ki, o, haradasa xeyir verə bilər.

**A. K.:** Əgər siz Azərbaycanın rəhbəri olsaydınız, necə düşünürsünüz, indiki vəziyyət mümkün olardımı?

**Heydər Əliyev:** Düzünü desəm... mənim üçün... buna inanmaq çətindir. Mən təqaüddəyəm. İndi Azərbaycanda nə baş verdiyini, xalqımın həyatının necə mürəkkəbləşdiyini böyük təəssüf hissiylə izləyirəm. Bütün bunlar məni son dərəcə ağrıdır. Mən bərk mütəəssir oluram. Əgər bilmək istəyirsinizsə, bu, mənim üçün faciədir...

## "MƏN KİMSƏ, KİMİNLƏSƏ OLMAQ İSTƏMİRƏM..."

### *İkinci dialoq*

**Heydər Əliyev:** Məndə Sizinlə görüşmək tələbatı "Pravda" qəzetində "Əliyevçilik və yaxud "xoş əyyamlar"ın xiffəti" adlı məqalədən sonra yarandı. MK-nın plenumunun açılışına bir gün qalmış belə bir məqalə birdən-birə peyda olur. Müəyyən qədər gözləyirdim ki, mənə qarşı yeni zərbələr olacaqdır; tənqidi məqalələr, Sizə məlum olduğu kimi, əvvəllər də çıxırdı. Amma uzun müddət belə hesab etmişəm ki, mənə bu məqalənin səviyyəsinə enmək lazım deyil. Məni ölkədə, partiyada tanıyırlar, böyüdüyüm respublikada daha yaxşı tanıyırlar, mənim barəmdə fikri bu məqalələrlə dəyişmək olmaz. Buna görə də reaksiya vermirdim. Doğrudur, "Literaturnaya qazeta"dakı məqaləyə mən o zaman cavab verdim, qəzetin baş redaktoru Çakovski ilə, onun müavini ilə (mən onları yaxşı tanıyıram) telefonla danışdım. Onlar mənim cavabımı dərc edəcəklərini vəd verdilər. Və bunu etmədilər. Cavabın surətini mən Sov. İKP MK-ya, baş katib Qorbaçovun adına yolladım.

**A. K.:** O oxuyubmu?

**Heydər Əliyev:** Köməkçisi mənə dedi ki, ona məruzə edilib. Bu məktubda mən ondan xahiş etmişəm ki, "Literaturnaya qazeta"da cavabın çap olunmasına köməklik etsin. Lakin Qorbaçov mənim xahişimi qulaqardına vurdu. Belə çıxır ki, demokratiya və aşkarlıq bir tərəfə yönəlibdir. Mən özüm üçün nəticələr çıxardım və susdum. Sonra 1989-cu ilin 24 aprelində Mərkəzi Komitənin növbəti plenumu ərəfəsində MK-nın bir çox üzvlərinə və üzvlüyə namizədlərinə təklif olundu ki, onun tərkibini tərk etsinlər. Digər yoldaşlarla yanaşı, MK-da mənə də belə təklif edildi. MK-da bütün təqaüdçüləri toplayıb dedilər ki, bəs, MK-da indi çoxlu sayda təqaüdçü vardır. Sizin hamınız aktiv fəaliyyətlə məşğul olmursunuz, buna görə də belə bir fikir var ki, siz çıxmanız barəsində bu gün bəyanat imzalayasınız. Bu, sürpriz idi.

**Devid Remnik:** Və siz də dediniz ki, hə, nə olar, gətirin?

**Heydər Əliyev:** Hamı demədi, amma bəziləri çıxış etdilər (Bilmirəm, bəlkə də, onlarla əvvəlcədən belə bir söhbət aparılmışdı). Və onlar da dedilər ki, bəli, biz indi təqaüddəyik, biz getməliyik. Sizə gülməli gəlir? Biz partiya intizamına çoxdan alışmışıq. Sonra bəyanat hazırlandı və biz kollektiv şəkildə onun altından imza atdıq. Hər kəs yaxınlaşır və imzalayırdı.

**D. R.:** Bu, elə-belə, asan deyildi.

**Heydər Əliyev:** Bilmirəm, kimin qəlbində nə var idi, hər halda hamı imzaladı. Ertəsi gün plenum oldu, mən çıxış edib dedim ki, bəyanatı imzalamışam və bunu şüurlu şəkildə etmişəm və axırda da əlavə etdim ki, fəaliyyətim indi məruz qaldığım hücumlara layiq deyil. Sonra, noyabrda biz Sizinlə, Andrey Viktoroviç, görüşdük və mən hesab edirdim ki, söhbətimizdə bütün suallara tam cavab verilmişdir. 1990-cı ilin 20 yanvarına keçən gecə Azərbaycanda milli faciə baş verdi. Respublikaya iri qoşun heyəti yeridilmiş və bu, çoxsaylı qurbanlarla müşayiət olunmuşdu. Bu, məni həyəcanlandırır və hiddətləndirirdi. Mən hadisələrin belə cərəyan etməsinə xüsusilə ona görə hiddətlənmişdim ki, qoşunlardan istifadə etmək presedenti artıq Tbilisidə olmuşdu, bu məsələ, xatırladığınız kimi, Xalq Deputatları Sovetinin birinci və ikinci qurultaylarında ciddi şəkildə müzakirə mövzusu olmuşdu, komissiya yaradılmışdı, çoxlu səs-küy olmuşdu, qısası, mən belə hesab edirdim

ki, ölkənin ən yüksək siyasi rəhbərliyi, axır ki, ağıllanıbdır: ordunu daxili konfliktlərin həll edilməsinə cəlb etmək olmaz. Bu illər ərzində Moskvada olarkən, mənim respublika ilə əlaqəm olmamışdı və Azərbaycanın daimi nümayəndəliyi ilə münasibət saxlamırdım. Lakin yanvarın 20-də səhər “Barvixa” sanatoriyasında olarkən mənə daimi nümayəndə zəng edib dedi ki, belə bir faciə baş veribdir və Moskvada yaşayan azərbaycanlılar adından onlar Sov. İKP-yə kəskin etirazlarını bəyan ediblər. O, belə bir istəyini bildirirdi ki, mən də nümayəndəliyə gəlim. Ertəsi gün, 21 yanvarda daimi nümayəndəliyin binası qarşısında böyük izdiham vardı. Mən saat on ikidə oraya gəlib çıxdım, daimi nümayəndə yoldaş İbrahimov (mən onu çoxdan tanıyırdım) məni qarşıladı və dedi ki, orada müxtəlif jurnalistlər üçün hər gün mətbuat konfransları keçirilir, indi onlar yenə toplaşıblar və mənim iştirakımı gözləyirlər. Zal ağzınacan dolmuşdu, orada Qərb jurnalistləri də vardı. Daimi nümayəndə Bakıdakı vəziyyətə dair məlumat verdi, baş verənləri pisləyən münasibətini bildirdi. Sonra sözü mənə verdi. Mən qoşunların yeridilməsini qəti şəkildə pislədim, onu antikonstitusion, antidemokratik və qanunazidd adlandırdım və dedim ki, belə bir addım ölkənin siyasi rəhbərliyinin və şəxsən Qorbaçovun kobud səhvidir.

**D. R.:** Siz həyatınızda ilk dəfə Qorbaçovla konfliktə getdiniz?

**Heydər Əliyev:** Belə kəskin məsələ üzrə bu, birinci dəfə idi. Bizim birgə iş prosesimizdə hər şey olmuşdu, mən indi bütün olanları xatırlatmayacağam. Lakin belə bir qərara, artıq baş vermiş hadisəyə qarşı rəy bildirməyim ilk dəfə idi. Və budur, mənim bu çıxışım ölkə rəhbərlərinə məlum olur. Çıxış barəsində elə həmin gün Qərb radiostansiyaları məlumat vermişdilər: mənim özüm eşitməmişəm, lakin çoxları bu haqda mənə danışıbdır. Hə, deməli, mən siyasi rəhbərliyin qərarına qarşı çıxış etdim. Elə isə, indi görən nə olacaq. Mən ona əsaslanırdım ki, indi bizdə demokratiyadır, aşkarlıqdır, fikir plüralizmidir və hər kəs əslində nə düşündüyünü söyləyə bilər. Mən Andrey Dmitriyeviç Saxarovu xatırlayıram. İndi yalnız ona görə onu qəhrəman səviyyəsinə qaldırıblar ki, o, qoşunların Əfqanıstana yeridilməsinin əleyhinə çıxış etmişdi; onu təqib etmişdilər, mükafatlardan məhrum etmişdilər...

**A. K.:** Daimi nümayəndəlikdə özünüzü Saxarov hesab edirdiniz?

**Heydər Əliyev:** Mən düşünürəm ki, Saxarov vaxtilə cəsarət nümayiş etdirmişdi. Axı o zaman belə bir şey ümumiyyətlə dözülməz idi, onda bizdə, açıq desək, heç plüralizmin izi-tozu da yox idi.

**D. R.:** Heydər Əliyeviç, zəhmət olmasa, izah edin, niyə Sovet İttifaqında partiya rəhbərləri "konservator" sözündən belə qorxurlar? Ayrı-ayrı ölkələrdə bütöv konservator partiyaları var və heç veclərinə də deyil. Bizdə isə bu sanki "xalq düşməni"dir. Axı aydındır ki, daima "nəhəng antisosialist təmayüllü güclər"dən, "başlıca təhlükə"dən, "sosializmə təhdid"lərdən danışan, Almaniyanın birləşməsinə qarşı çıxan Yeqor Kuzmiç konservatordur. Amma Allah özü bizi bunun xətasından qorusun.

**Heydər Əliyev:** İndiki rəhbərlər yanılırlar, mən heç vaxt konservator olmamışam; Azərbaycan KP MK-nın birinci katibi işləyərkən (o zaman ölkədə demokratiya və aşkarlıq hələ yox idi), mən ictimai rəyin öyrənilməsi ilə ciddi məşğul olurdum. Azərbaycan KP MK-nın nəzdində ictimai rəyin öyrənilməsi mərkəzinin yaradılması nadir hadisə idi. Mən insanlarla tez-tez söhbət edirdim ki, onların həqiqi əhvali-ruhiyyəsini öyrənim. Demokratiyadan çəkinmirdim, həm də ona görə ki, təbiətim etibarilə, mənşəyim etibarilə mən konservator deyiləm. Amma onlar... başa düşmürlər. Və ümumiyyətlə indiki halda mənim üçün kimin konservator olduğunu, kimin olmadığını söyləmək çətindir. Hə, indi Siyasi Büroda olan insanlar, məgər o zaman bizimlə Siyasi Büroda bir yerdə deyildilər? Qorbaçov da orada idi. O, hələ mən Siyasi Büroya üzv olmazdan əvvəl, orada, Moskvada deyildi? Başqaları olsun, yeri gəlmişkən, onlar da Siyasi Büronun tərkibində idilər. Onlar, necə, dəyişib, ayrı cür oldular? Onda bəs digərləri nə üçün olmasın? Fevralın 4-də axşam, məqalə çıxdıqdan sonra Sov. İKP MK-ya və "Pravda" qəzetinin redaksiyasına teleqram yolladım. Teleqramı göstərə də bilərəm. Budur, buyurun, oxuyun: "Pravda"da "Əliyevçilik və yaxud "xoş əyyamlar"ın xiffəti" məqaləsinin çap olunması ilə əlaqədar dərindən hiddətlənmişəm, çünki o, böhtan və fitnəkar səciyyəlidir. Xahiş edirəm, təkziblə çıxış etmək üçün mənə imkan yaratmaq qəzet redaksiyasına tapşırılsın. Heydər Əliyeviç Əliyev". Amma heç bir reaksiya olmadı. İndi isə, sonra nələr olduğu barədə. Bakıda bu məqaləni oxuyurlar. Hamı hiddətlənir. Bütün xalq hiddətlənir.

Adamlar müəllifı axtarıb tapırlar. O isə deyir ki, bu məqalədən mə - nim xəbərim yoxdur, bu, böhtan və yalandır. Belə-belə işlər. Müəllif də (onun familiyası Əfəndiyevdir, tibb elmləri doktorudur) “Pravda”ya, Sov. İKP MK-ya, Azərbaycanda müxtəlif instansiyalara və nəhayət, Moskvaya, mənim evimə teleqramlar göndərir: “Çox hörmətli Heydər Əliyeviç, “Pravda” qəzetində 4 fevral 1990-cı il tarixdə dərc edilmiş “Əliyevçilik və yaxud “xoş əyyamlar”ın xiffəti” adlı məqalə uydurma və böhtandan ibarətdir, onu mən yazmamışam. Bundan sonrakı fitnəkarlıqdan və ailəmin taleyindən narahatam. Bir həkim kimi məni həmişə respublikamızdakı səhiyyə məsələləri narahat etmişdir. Tibb elmləri doktoru V. Əfəndiyev”. Və nəhayət, bu gün səhər mənə məlumat verdilər ki, “Bakinski raboçi” və “Kommunist” (bunlar MK-nın orqanlarıdır) qəzetlərində Əfəndiyevin təkzibi dərc olunubdur. Bax, mənimlə belə rəftar etdilər.

İndi isə məqalə haqqında. Orada məni yenidənqurmaya qarşı çıxan klan yaratmaqda günahlandırırlar. Zəhmət olmasa, deyin, hansı klan? Belə bir şey yoxdur. Bu, ümumi sözlərdir. Birincisi, heç bir yerdə yazılmayıb ki, klan yaratmağa görə kimsə günahlandırılmalıdır. İkincisi isə, belə klan yoxdur. Bu, qurmadır. Kimlərdən ibarətdir bu klan, buyurun, deyin. Budur, yazırlar ki, Naxçıvanda insanlar nümayişə Əliyevin portretlərini aparırmışlar. Mən ümumiyyətlə bilmirəm ki, onlarda mənim portretlərim haradandır? Mən Siyasi Büronun üzvü olanda bu, mümkün idi. Çünki Siyasi Büro üzvlərinin portretləri Moskvada çap olunurdu və ölkənin hər yerinə göndərilirdi. Deməli, o vaxtdan qalıbmış. Amma bu, şəxsiyyətə pərəstiş deyil. Mən onların yerlisiyəm, orada doğulub boya-başa çatmışam. Mən bu kiçik diyardan çıxmışam və necə deyərlər, yüksək siyasi vəzifələrə qalxmışam. “Pravda” yazır ki, onlar “Əliyevi bizə qaytarın!“ şüarını qışqırırmışlar. Niyə qışqırırmışlar - bunu onlardan soruşmaq lazımdır. Mənim bəs günahım nədir? Deməli, ortada heç nə yoxdur, sonrasını oxuyuram. “Azərbaycan çoxmillətli respublikadır, lakin Əliyevin çarlığı illərində...” (Baxın, necə təhqiramiz ifadələrdir, insanlıq etikası çatışmırsa, heç olmasa, adicə jurnalist etikası olsun) guya rəhbər vəzifələrdə bir nəfər də olsun “nə talış, nə ləzgi, nə kürd, nə tat” olubdur. Bu, elə bir sərsəmlikdir ki, mən hətta

nə deyəcəyimi bilmirəm. Onların hamısı rəhbər işdə olmuşdu. Götürün Ali Sovetin tərkibini, orada talış da vardı, ləzgi də, kürd də, tat da. Sizə bəlli olsun deyə, söyləməliyəm ki, Azərbaycanda bu xalqlar əhalinin çox kiçicik bir hissəsini təşkil edirlər, deyək ki, talışlar özlərini millət də saymırlar. "Belə bir siyasəti həyata keçirərkən, Əliyev çox qabağı görürmüş: özü Azərbaycanda olmasa da, onun qohumluq və yerlilik bağları ilə möhkəm birləşmiş genişşəbəkəli klanı qalacaqdır". Bu, yenə də böhtandır, çünki heç zaman fıkirləşmirdim ki, mən Azərbaycanda olmayacağam, ağlıma gəlməzdi ki, mən onu tərk edəcəyəm. Sonra nələr olur? Elə həmin, "Pravda"da Azərbaycanı parçalamağa cəhd edilir. Budur, deməli, bir var naxçıvanlılar, bir də yerdə qalanlar. Və bütün bunlar çox mürəkkəb bir dövrdə - xalqımızın birləşdiyi və suverenliyinə olan təzyiqlərə qarşı çıxış etdiyi bir dövrdə yazılır. Onu isə, görürsünüzmü, regionlar üzrə parçalamaq istəyirlər. Bəlkə, bu, bir siyasətdir? Hər şey buna yönəlibdir? Bilmirəm. Sadəcə, mən bilmirəm. Lakin mənə yaxşı aydındır ki, heç bir tibb elmləri doktorunun özü bir məqalə üçün bu qədər materialı toplaya bilməz. Mən hesab edirəm ki, bu məqaləni təkcə "Pravda"nın redaksiyası quraşdırmayıb, burada yuxarıdakı qüvvələr də iştirak edibdir. Mənim üçün bu, aydındır.

**A. K.:** Ölkə rəhbərlərindən biri olarkən Sizin Siyasi Büroda şəxsi düşmənləriniz vardımı?

**Heydər Əliyev:** Bilirsiniz, mənim üçün düşmənlərimin olub-olmamasını söyləmək çətindir. Çünki, Siyasi Büroda elə adamlar var ki, sadəcə olaraq sifətlərini örtülü saxlayırlar. Mən Moskvada işləyəndə, hər kəslə, o cümlədən Qorbaçovla münasibətlərim normal idi. Lakin son zamanlar özümə qarşı qərəzli münasibət olduğunu artıq hiss edirdim. Axırda mən təqaüdə çıxdım. Respublikanı tərk etməyimdən artıq səkkiz il keçir, axı məni rahat buraxa bilərdilər. Amma, görürsünüz də, nələr olur. Rahat qoymurlar.

**A. K.:** Siyasi Büro Qorbaçovu baş katib seçərkən, Siz yenidənqurma olacağını düşünürdünüzmü?

**Heydər Əliyev:** Heç kəs bilmirdi.

**A. K.:** Belə hesab olunurdu ki, Çernenkonun siyasəti davam etdiriləcəkdir.

**Heydər Əliyev:** Başa düşürsünüz məsələ nədədir, bu... çox mürəkkəb məsələdir, gəlin, başqa şeylərdən danışaq.

**A. K.:** Qorbaçov Baş katib olanda, siz ümid edirdiniz ki, o, islahatçı olacaqdır?

**Heydər Əliyev:** Bilirsinizmi, heç kəs hesab etmirdi ki, o, islahatçı olacaq. Qorbaçov hamıdan cavan idi, o, partiyada ikinci adam idi, hakimiyyət, necə deyərlər, artıq onun əlində idi. Ölümündən əvvəl Çernenko üç-dörd ay ağır xəstə idi, xəstəxanada yatırdı, biz onunla heç bir əlaqə saxlaya bilmirdik, sağlamlığının vəziyyəti bizə məlum deyildi, heç bir bülleten yox idi...

**D. R.:** Heç nə məlum deyildi?

**Heydər Əliyev:** Heç nə.

**D. R.:** Bu dövlət sirri idi?

**Heydər Əliyev:** Mən bilmirəm... amma mənə heç nə məlum deyildi. Siyasi Büronun üzvlərindən bir qrupuna, ola bilsin ki, o, məlum idi, tutaq ki, elə həmin Qorbaçova və yaxud Tixonova, bəlkə də - Qromıkoya məlum idi, mən isə bilmirdim. Çernenkonun ölümündən sonra bizim hamımızı Kremldə bir yerə toplayıb dedilər ki, Çernenko vəfat edib və hamı razılaşdı ki, Qorbaçov olmalıdır. Mən ikinci çıxış etdim. Siyasi Büroda hakimiyyət uğrunda heç bir mübarizə olmayıbdır.

**D. R.:** Bəs Liqaçovun XIX partiya konfransındakı...

**Heydər Əliyev:** O, düzgün demədi. O, bunu haradan götürüb, mən bilmirəm. Liqaçov onda Siyasi Büronun üzvü deyildi, onu Qorbaçov oraya 1985-ci ilin aprelində gətirmişdi: bunu sadəcə unudublar. Hə, deməli, biz yekdilliklə səs verdik. MK-nın plenumunda da yekdillik oldu. Heç bir opponent olmamışdı, bütün bunlar uydurmadır. Təəccüblüdür? Mənim Qorbaçov haqqında fikrim çox yaxşı idi və təmiz qəlblə, açıq-aşkar, heç tərəddüd etmədən onun namizədliyini dəstəkləmişəm.

**A. K.:** Siz qorxmurdunuz ki, onun kursu həddən artıq liberal ola bilər?

**Heydər Əliyev:** Mən ona inanırdım. Mən inanırdım ki, o, partiyamızın layiqli rəhbəri olacaqdır. Mən inanırdım. Buna görə də ona səs vermişdim.

**D. R.:** Siyasi xadim istefaya gedəndə həmişə qəzetlərimizdə yazırlar ki, o, “səhhəti ilə əlaqədar” təqaüdə çıxarılmağını xahiş etmişdir. Lütfən, Sizin istefanızın əsl səbəbləri...

**Heydər Əliyev:** Əsl səbəbləri mənim səhhətimlə bağlı deyildi, hərçənd ki, mən həqiqətən xəstəlik keçirmişdim. Səbəbi ondadır ki, fəaliyyətimin son dövründə Qorbaçov tərəfindən mənə qarşı qərəzli münasibət hiss edirdim. Bu, özünü çox şeydə göstərirdi. Mən vicdanla çalışırdım, heç bir qüsurum yox idi, Qorbaçov isə subyektivliyin qarşısında duruş gətirə bilmədi, vəssalam.

**A. K.:** Bu, nə deməkdir?

**Heydər Əliyev:** O, olduğu kimi qala bilmədi.

**D. R.:** Bəs Sizin gedişiniz necə oldu? Yəqin uzun çəkən söhbətlər, səsvermə-filan...

**Heydər Əliyev:** Heç bir söhbət-filan olmadı, səsvermə də olmadı: sadəcə, Qorbaçov məni kabinetinə çağırdı (orada daha iki adam vardı) və dedi: “Sən getməlisən”, mən cavab verdim: “Əgər Baş katib istəmirsə ki, mən işləyim, mən gedərəm” .

**D. R.:** Siz təəccübləndinizmi?

**Heydər Əliyev:** Mən çox təəccüblənmişdim. O, səbəbləri demədi, amma mən artıq hər şeyi hiss edirdim. Mən xəstə olanda Rıjkovdan başqa heç kim mənə baş çəkməmişdi. Bu da bir münasibətdir.

**D. R.:** Bu, qəribədir, deyilmi, biz axı əvvəlki kimi heç nə bilmirik. Biz hətta bilmirik ki, niyə Şevardnadze Mavzoleyin tribunasında, bax, burada durur, Liqaçov isə orada...

**Heydər Əliyev:** Kimin harada durmasını Qorbaçov müəyyənləşdirir. Əyləşmələrini də. Onun adamları sxemləri tərtib edirlər, hər şey əvvəldən yazılır: sənin yerin buradır, səninki ora və s. Budur, Sizin üçün aydınlıq gətirim. Bəs Tbilisi məsələsi ilə bağlı MK-nın plenumundakı mübahisə sizi təəccübləndirmədi? Bunu necə başa düşək? Zəhmət olmasa, deyin. Xalq Deputatlarının birinci qurultayında Qorbaçov bəyan etdi ki, o, heç nə bilmirmiş. Və birdən Liqaçov çıxış edir və deyir: “Aprelin 7-də Siyasi Büronun bütün heyəti iştirak edirdi və biz Tbilisi məsələsi üzrə yekdilliklə qərar qəbul etdik”. Hə, lütfən, deyin görüm, kimə inanaq? Kimə? Və yaxud, gəlin “Pravda”ya qayıdaq. Budur,

Brejnevlə mənim fotoşəklim. Bu belə yozulur: Əliyev Brejnevə nə qədər də yaxın imiş. Mən isə deyirəm: indiki Siyasi Büro üzvlərinin hər birində, o cümlədən Qorbaçovda da belə fotoşəkillər vardır. Nə qədər desən. Hamı unudub ki, Qorbaçov da Brejnevin kitabları haqqında danışırdı, deyirdi ki, "Kiçik torpaq" dahiyanə kitabdır. İndi belə sual yaranır: niyə Brejnev mənə yaxın idi, başqalarına yox? Mən isə Sizə bəyan edirəm ki, mənim Brejnevlə heç bir yaxın münasibətlərim olmayıb, lakin Sov. İKP MK-nın baş katibi kimi, dövlət başçısı kimi Brejnevə hamımız tərəfindən hörmət və ehtiram bəslənilirdi. Həmin dövrdə Siz elə bir partiya xadimi (o cümlədən də Əliyev) tapa bilməzsiniz ki, o, Brejnevi tərifləməmiş olsun. Mən də onu tərifləyirdim. İndi özünü "yenidənqurmaçı" adlandıranlar heç də məndən az tərifləməyiblər. Bax belə. Tərifləyiblər. Qorbaçov Brejnevin dövründə onun dediklərinin hamısını yerinə yetiribdir. Bizim aramızda fərq olmayıb. Heç nə, o, nəyisə başqa cür edirdi, nədir? Bizim aramızda heç bir fikir ayrılığı olmayıb. Qorbaçov da bizim kimi Brejnevin qarşısında diz çökürdü. Bakıdakı qonaq evinə görə indi mənim üstümə tökülüşüblər, televizorla bütün ölkəyə göstərirlər. Kislovodsk, Mineralnıye Vodı, Jeleznovodskda ölkə rəhbərliyi üçün tikilmiş nə qədər desən, iri evlər vardır.

**D. R.:** Onları o tikib?

**Heydər Əliyev:** Mən bilmirəm ki, onları kim tikib, lakin o, diyarın rəhbəri idi. Axı Bakıda da mənim özüm tikməmişdim, amma mənim adımla bağlayırlar: ona görə ki, onda mən Azərbaycan KP MK-ya başçılıq edirdim. Həm də ki, Brejnevi, yeri gəlmişkən, əlçatmaz insan səviyyəsinə Azərbaycandakı Əliyev deyil, Siyasi Büro qaldırmışdı. Brejnevin 75 illiyi ilə əlaqədar sənədləri yada salın: "Pravda"da bütöv bir zolaq Sov. İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin və SSRİ Nazirlər Sovetinin təbrikidir. Bu sənədi kim hazırlamışdı? Sov. İKP MK! Onu kim qəbul etmişdi? Siyasi Büro üzvləri, o cümlədən Qorbaçov. Budur, deyirlər, Bakıda Brejnevə həsr olunmuş albomlar nəşr olunub. Bəs Moskvada nə edirdilər? Brejnevə həsr olunmuş bu qalınlıqda albomu (onu hətta əldə saxlamaq olmurdu) Moskvadan MK-nın bütün üzvlərinə göndərmişdilər. Bəs onun tərcümeyi-halı, kitabları - hamısı Siyasi Büronun, Sov. İKP MK-nın qərarı ilə nəşr olunurdu. Orada kimlər əyləşirdi?

Mən onda oralarda deyildim. Buna görə də, başa düşürsünüzmü, tutaq ki, mən Brejnevə yaxın olmuşam, o və yaxud elə həmin Şevardnadze yaxın olmayıblar - bu ki, ağılsızlıqdır. Təkrar edirəm: mən də hamı kimi hesab edirdim ki, Brejnev böyük insandır, o, düzgün xətt yeridir. Onun xəttini izləmək lazımdır. Və deməliyəm ki, bu xətti tək Brejnev yeritmirdi, son zamanlar o, xəstə idi, bu xətti başqaları, o zaman Siyasi Büroda olanlar yeridirdilər. O isə, bəlkə də, yalnız imza edirdi, əsasən...

**A. K.:** Və gündə üç saat işləyirdi...

**Heydər Əliyev:** Mən o zaman yox idim, onun nə qədər işlədyini bilmirəm. Bizim üçün bunu soruşmaq yersiz olardı, bu məsələyə Qorbaçov daha yaxşı bələddir, Siz bunu ondan soruşun.

**A. K.:** İlk görüşümüz zamanı belə bir sual verməyə razılaşmadınız ki, siz Qorbaçovun siyasəti barəsində nə düşünürsünüz?

**Heydər Əliyev:** Əgər indi onun bütün siyasətindən bəhs etsək, bu, çox vaxt aparar, biz gərək onda Sizinlə bu sual barəsində bir neçə saat söhbət edək. Yaxşısı budur ki, mənə yaxın problemlər üzərində dayanaq. Məsələn, indi ölkədə millətlərarası münasibətlər çox mürəkkəbləşibdir. Qorbaçov və başqaları hər şeyi keçmişin üzərinə, Stalinin, durğunluq dövrünün üzərinə atmaq istəyirlər. Lakin kimsə demir ki, bəs son iki-üç ildə hansı səhvlər buraxılıbdır. Hərçənd aydındır ki, millətlərarası konfliktlərin hamısını yalnız keçmişlə bağlamaq obyektiv və düzgün olmazdı. Stalinin dövründə və sonralar, əlbəttə ki, səhvlər olmuşdur. Lakin müəyyənləşdirmək istəsək ki, onlar haçan və nə qədər olubdur, elə isə son illərdə daha çoxdur. Misal üçün, Qazaxıstan KP MK-nın birinci katibliyinə qazaxın deyil, rus Kolbinin seçilməsi ilə əlaqədar Alma-Atadakı nümayişi götürək. Moskvada bütün bunlar millətçilik əhval-ruhiyyəsinin təzahürü kimi səciyyələndirildi. Lakin sonralar məsələni yoluna qoymaq lazım gəlir, Kolbini geri çağırır, onun yerinə Nazarbayevi qoyurlar. O zaman o, yeri gəlmişkən, Qazaxıstan Nazirlər Sovetinin sədri işləyirdi. Soruşula bilər: niyə, Nazarbayevi dərhal təyin etmək olmazdı, Kolbin nə üçün gəlmişdi? Qazaxıstan Kommunist Partiyası ilə heç məsləhətləşmə də olmamışdı. Və yaxud götürək elə həmin Azərbaycanı. Dağlıq Qarabağda vəziyyətin mürəkkəbləşməsindən sonra Sov. İKP MK qərar qəbul etdi ki, Azərbaycan

və Ermənistanın rəhbərləri - Bağırov və Dəmirçiyan eyni zamanda azad edilsin. Onda Vəzirovu təyin etdilər, indi də Azərbaycan KP MK onu partiyadan xaric edir, xalq isə onun mühakimə olunmasını istəyir. O, on iki il respublikadan kənarda işləmişdi, respublikanın həyatına bələd deyildi. Və ümumiyyətlə, Azərbaycanda çox həvəssiz (mən bunu yaxşı bilirəm) işləyirdi. Nə Büro üzvləri ilə, nə də kiminləsə məsləhətləşməyiblər; Liqaçov onu Bakıya axşamdan keçmiş gətirir, səhər isə plenumu toplayıb, Vəzirovu birinci katib seçirlər. Bu, sadəcə kadr işində buraxılmış səhvlər deyil, bu, milli xüsusiyyəti dərk etməməkdir. Budur, Pribaltikada indi elə hadisələr baş verir ki...

**A. K.:** Siz Litvanın İttifaqdan çıxmaq haqqını qəbul edirsinizmi?

**Heydər Əliyev:** Burada da ziddiyyət vardır. Əgər bizim konstitusiyamızda müttəfiq respublikaya ayrılmaq da daxil olmaqla öz müqəddəratını təyin etmək hüququ verilmişsə, qoy onda respublika istədiyi kimi hərəkət etsin. Əgər bizim partiyamızda sözdə bəyan edildiyi kimi demokratiya vardırsa, Litva KP MK sərbəst olmaq istəyirsə, onda qoy sərbəst də olsun. Nə üçün, soruşula bilər, biz maneələr qoymalıyıq?

**D. R.:** Siz Büro üzvü olarkən, belə düşünmürdünüz, doğru deyilmi?

**Heydər Əliyev:** Mən həmişə demokratiyanın tərəfdarı olmuşam. Lakin hər şeyi də demək olmur, Siz də məni başa düşün. Qorbaçov həmişə bir-birinə zidd hərəkətlər edir. MK plenumunda fevralın 5-də etdiyi məruzəsində o, yenidən, kifayət qədər uzun müddət (hərçənd ki, məruzə çox da böyük deyildi) ərzində DQMV-dəki vəziyyətdən danışdı. Yenə də aydın bir şey söyləmədi, bircə onu dedi ki, indi ona, sən demə, aydın olub ki, DQMV-nə dair məsələni Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etmək lazımdır. Bəs niyə bu, iki il əvvəl deyilmirdi? Deməli, o zaman digər orta mövqeni tuturdu: nə bizimdi, nə sizin, gedin didişin, kim kimə güc gəlsə - məgər belə olarmı? Əgər bu federasiya, ittifaq dövlətidirsə - deməli, ittifaq dövləti öz fikrini dərhal ifadə etməlidir. Bu da milli siyasətdə daha bir səhv. Amma unutmaq olmaz ki, yenidənqurmaya kimi Zaqafqaziyada ermənilər və azərbaycanlılar arasında heç bir problem olmayıb. Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində işlədiyim son on dörd il ərzində mən hər il, bəzən dəfələrlə Dağlıq Qarabağda olurdum. Bu muxtar vilayətdən heç

bir şəxs mənim qarşımda DQMV-nin Azərbaycanın tərkibindən çıxarılması və Ermənistana verilməsinə dair məsələ qoymamışdı. Heç kim, başa düşürsünüzmü, heç kim! Ermənistanda bəzən milliyyətçi əhvali-ruhiyyəyə rast gəlmək olardı, kimsə belə planlar qururdu, amma onlar DQMV əhalisi tərəfindən dəstəklənmirdi.

**D. R.:** Heydər Əliyeviç, Siz dediklərinizə, həqiqətən, inanırsınız? Yəqin ki, insanlar sadəcə qorxurdular və buna görə də Sizinlə səmimi deyildilər. Bu ki, aydındır... və yaxud, deyil?

**Heydər Əliyev:** Lakin mən, misal üçün, bilirəm ki, Azərbaycanda belə bir nöqteyi-nəzərə qarşı hakimiyyət tərəfindən heç bir fəaliyyət olmayıb. Amma qayda-qanun olub.

**D. R.:** Nə qayda-qanun?

**Heydər Əliyev:** Normal. Çox normal. İnsanlar dost kimi, mehribancasına yaşayırdılar. Nə qədər qarışıq nikahlılar vardı...

**A. K.:** Stalinin dövründə də qayda-qanun vardı. Bu, məgər yaxşıdırmı?

**Heydər Əliyev:** Mən indi Stalin dövrünün təhlilini vermək istəmirəm. Kifayətdir. Hə, yaxşı: indi baş verənlər necə, normaldırmı? İnsanlar bir-birini öldürür, bu, belə də olmalıdır? Ya möhkəm qayda-qanun olmalıdır, ya da əgər azadlıq vermisənsə, onda qoy kim nə istəyir, onu da etsin. Lakin onda artıq qoşun yeritməyə ehtiyac yoxdur. Elə isə insanları məhdudlaşdırmaq nəyə lazımdır? Burada hələ də böhtan yağdırılır. Məni onda günahlandırırlar ki, mənim həyat yoldaşım əvvəlcə elmlər doktoru olmuş, sonra isə akademik oldu. Onun əsərləri nəşr olunurdu. Mən Sizdən soruşuram: nə üçün Baş katibin köməkçisi, bütün həyatı boyu MK aparatında işləmiş və heç zaman elmi işlə məşğul olmamış Şaxnazarov SSRİ EA müxbir üzvü seçilir? O, kitab yazmaq üçün vaxtı haradan tapır? O, hələ kitablar da nəşr etdirir. Və ya, məsələn, "Sovetskaya kultura"nın redaktoru Belyayevi götürək. Bu gün mən onun plenumdakı çıxışını oxudum. O deyir ki, "bizim hamımızı" "Əliyevçilik və yaxud "xoş əyyamlar"ın xiffəti" məqaləsi sarsıdıb. Mən isə Belyayevi yaxşı tanıyıram, o, iyirmi il MK-nın aparatında işləmiş və dəfələrlə Azərbaycana gəlmiş, bizim tədbirlərimizdə iştirak etmişdir. Gör nə qədər fotoşəkil var: o, durub məni alqışlayır. O necə, Azərbaycandakı vəziyyəti bilmirdi? Sov.İKP MK-nın mədəniyyət şöbəsinin müdir müavini işləyən və

SSRİ Yazıçılar İttifaqına kuratorluq edən Belyayev bəs o zaman Brejnevin "Xam torpaq" əsərini vəsf edəndə niyə sarsılmırdı? Səmimiyyət yoxdur, vicdan yoxdur! Bəs nə üçün "Pravda" qəzetinin redaktoru Frolov Sov. İKP MK-nın Baş katibinin köməkçisi işləyə-işləyə akademik seçilə bilər, mənim həyat yoldaşım və qardaşımın elmi dərəcəsi ola bilməz? Halbuki, onlar həyatı boyu elmi tədqiqat institutlarında çalışmışlar!

Kim kimə irad tuta bilər? Frolov axı köməkçi işləyə-işləyə akademik olub. Mən, məsələn, hesab edirəm ki, onun bu elmi dərəcəni qəbul etməyə mənəvi haqqı yox idi, çünki o, elmi işlə məşğul olmayıbdır. Hesab edirəm ki, demokratiya da olmalıdır, öz fikrini sərbəst şəkildə ifadə etmək üçün şərait olmalıdır, lakin bununla belə, qayda-qanun da olmalıdır. Çox yaxşıdır ki, MK-nın plenumunda bizim Polşadakı səfirimiz Brovikov bu haqda danışıb. O, özünü prinsipial kommunist kimi göstərdi. Bəlkə də, bizim xoşumuza gəlmir, lakin bizdə belə olur ki, əgər kimsə Sovet İttifaqının kapitalizmə keçməsi tələbi ilə çıxış edirsə, o, reformatordur və yaxşı adamdır. Kimsə ölkədə mövcud strukturu, prinsipləri, sosializmi müdafiə edirsə, o, konservatordur. Belə alınır?

**D. R.:** Siz düşünürsünüz ki, reformator olan Qorbaçov kapitalizmə keçmək istəyir?

**Heydər Əliyev:** Məsələ də ondadır ki, bu, açıq-aşkar deyilməlidir. O deyir: "Biz sosializmin yeniləşməsi tərəfdarıyıq, amma kapitalizmin əleyhinəyik". Sosializmin yeniləşməsi, zəhmət olmasa deyin, nədir axı? Sosial-demokratiya? O artıq sosializm deyil. İnsanların, anlayırsınızmı, başı dumanlıdır, insanlar indi bilmirlər ki, bu yeniləşən sosializm nədir. Əvvəllər bilirdilər. Əgər biz hesab ediriksə, bizə xüsusi mülkiyyətə keçmək lazımdır, onda kapitalizm prinsiplərini tətbiq etmək və bunu açıq-aşkar demək lazımdır...

**A. K.:** Əgər əvvəlki kimi Siyasi Büronun üzvü olsaydınız, Siz kiminlə olardınız?

**Heydər Əliyev:** Bilirsinizmi, mən heç kimlə olmaq istəmirəm, mən özüm-özümlə olmaq istəyirəm. Mən özüm olmaq istəyirəm. Heç kimlə olmaq istəmirəm, kifayətdir... Mən onsuz da öz həyatımı mürəkkəbləşdirmişəm, itirə biləcəyim bir şey yoxdur. Amma Sizinlə söhbətimdə, öz aramızdır, mən heç nəyi uydurmadım...

## "MƏNİ AZƏRBAYCAN XALQI UNUTMADI..."

### *Üçüncü dialoq*

**A. K.:** Mənə məlum olduğu kimi, Siz Azərbaycan KP XXXII qurultayına nümayəndə seçilmişdiniz, lakin qurultaya getmədiniz, Moskvada qaldınız. Nə hadisə baş vermişdi? Siz xəstələnmişdiniz? Mandatı da təhvil vermədiniz, nə üçün partiya qurultayına qatılmadınız?

**Heydər Əliyev:** Bəli, həqiqətən, belə olmuşdur. Mən Azərbaycan KP-nin bu ilin 8 iyununa təyin edilmiş XXXII qurultayının nümayəndəsi seçilmişdim. Bundan başqa, haradasa mayın əvvəllərində mənə məlumat verdilər ki, respublikanın üç şəhər və rayon partiya konfranslarında Sov. İKP-nin XXVIII qurultayına da mənim namizədliyim irəli sürülübdür. Təbii ki, bu məlumatları mən məmnuniyyət hissiylə qəbul etdim və qərara gəldim ki, əgər kommunistlər belə etimad göstərib Azərbaycan KP-nin XXXII qurultayına nümayəndə seçiblərsə və Sov İKP-nin XXVIII qurultayına namizədliyimi irəli sürüblərsə, mən Bakıya gəlməliyəm. Qurultayın açılış günü yaxınlaşdıqca müxtəlif kanallarla siqnallar daxil olurdu. Respublika rəhbərliyindən gələn bu siqnallarda onların istəyi bundan ibarət idi ki, mənim Bakıya gəlişim, Azərbaycan KP-nin XXXII qurultayının işində iştirakım arzu olunmur.

**A. K.:** "Müxtəlif kanallarla" nə deməkdir, Heydər Əliyeviç? Bunlar hansı "kanallar" idi?

**Heydər Əliyev:** Belə deyək: mənə gəlib çatırdı. Sonra Mərkəzi Komitənin birinci katibi Ayaz Mütəllibovla mənim telefon söhbətim oldu. O, Moskvada olarkən mənə zəng etdi və belə şəkildə ifadə etdi ki, mənim qurultaya getməyim məqsədəuyğun deyil.

**A. K.:** Söhbət xeyirxah ruhda idi?

**Heydər Əliyev:** Formaca - bəli, bütün bunlar... xeyirxah ruhda təqdim olunurdu. Yalnız dedim ki, mən onun məsləhətləri barəsində fikirləşərəm. Sonralar hər şeyi yaxşı götür-qoy etdim və nəhayət, qərar qəbul etdim ki, qurultaya gedim və onun işində iştirak edim. Belə olanda mənə Bakıdan Ayaz Mütəllibova istinadən xeyli miqdarda zənglər daxil olmağa başladı. Hamı mənim səfərimin məqsədəuyğun olmamasından danışır -

dı. Gətirilən əsas, gördüyünüz kimi, bir idi: Azərbaycanda vəziyyət mürəkkəbdir, mənim Bakıya gəlişim isə onu daha da gərginləşdirə bilər.

Nə üçün respublika rəhbərliyinin belə hesab etdiyini heç kim mənə aydın şəkildə izah edə bilmirdi. Mən çox təəccüblənirdim və indiyəcən anlaya bilmirəm ki, mənim Bakıya gəlişim niyə vəziyyəti gərginləşdirməli idi. Buna baxmayaraq, mən iyunun əvvəllərində Bakıya getməyi qərara almışdım: bir neçə gün Azərbaycanda rahatlanmaq və XXXII qurultayın işində iştirak etmək istəyirdim. Əvvəlcə mənim üçün iyunun 1-nə təyyarə bileti alınmışdı, sonra fikirləşib onu iyunun 6-na dəyişdirtdim. Qurultay da, yadınızdadırsa, ayın 8-də öz işinə başlamalı idi. Bu dövrdə mənə artıq Sov. İKP MK-nın rəhbər işçilərindən zənglər axışırdı. Onların dediklərində heç bir məntiq yox idi...

**A. K.:** Yenə olsun, onlar nə deyirdilər?

**Heydər Əliyev:** Elə eyni şeyi deyirdilər: görürsünüz də, orada fövqəladə vəziyyətdir, mənim səfərim xalqı hərəkətə gətirər, adamlarda fəallığı artırar və vəziyyəti mürəkkəbləşdirər. Mən bundan bir şey anlamırdım və indiyə qədər də başa düşməmişəm. Bax indi mən Bakıya gəlmişəm və vəziyyətin mürəkkəbləşməsi də baş verməyib. İki gündür qardaşımın mənzilində sakitcə qalıram. Deməli, bütün bu dilətutmalara baxmayaraq, mən Bakıya uçuşumdan imtina etməyə razılıq verməyəndə artıq eyni məsləhətlə Sov.İKP. MK-dakı yüksək vəzifəli şəxs səviyyəsində, Siyasi Büronun bir üzvündən zəng gəldi.

**A. K.:** Familiyasını söyləməzsiniz?

**Heydər Əliyev:** Mən cavab verdim ki, bu məsləhətlərin məğzini anlamıram, Sov. İKP üzvü kimi respublika partiya qurultayının nümayəndəsi seçilmişəm və istəmirəm ki, mənim siyasi hüquqlarım tapdansın. Buna görə də qurultaya getməliyəm. Bu halda mənə yenidən Ayaz Mütəllibovdan zəng daxil oldu. O, təkidlə təkrar edirdi ki, mənə qurultaya getmək olmaz. Onun əsaslandırması belə idi: sən demə, Azərbaycanda mənim çoxlu tərəfdarlarım vardır, mənə rəğbət bəsləyən çoxlu insanlar vardır, eyni zamanda, məndən narazı qalan insan qrupları da vardır. Buna görə də mənim tərəfdarlarımla əleyhdarlarım arasında toqquşma baş verə bilər. Onda mən başa düşdüm ki, əgər respublika rəhbərliyi belə deyirsə, deməli, hansısa arzuolunmaz

hadisələr xüsusi olaraq təşkil edilə bilər və həqiqətən, mənə, doğrudan da, Bakıya səfər etmək lazım deyil. 5 iyunda mən biletləri geri qaytardım.

**A. K.:** Mən eşitdim ki, Siz buraya başqa məqsədlə gəlmisiniz: bu, hər şeydən göründüyü kimi, sizə rəğbət bəsləyən şəxslərdən biri olan "Azərnəşr"in direktorunun müəmmalı qətli ilə bağlıdır. Bu, belədir, yoxsa belə deyil?

**Heydər Əliyev:** Bakıya səfərimin əsl məqsədi barəsində mən artıq danışdım. O ki qaldı bu hadisəyə, onun ətrafında Azərbaycanda çoxlu söz-söhbətlər dolaşmaqdadır. Əslində isə məsələ bu yerdədir: Mən Sizə söylədim ki, Bakıya iyunun birində gəlməyə hazırlaşırdım. Sov. İKP. MK-da, Azərbaycan rəhbərliyində bunu necə bilmişdilər, nə vaxt və hansı reyslə uçacağımı kim məlumat vermişdi – bu, mənə aydın deyil.

**A. K.:** Yəni demək istəyirsiniz ki, Sizin telefonunuza sadəcə olaraq qulaq asırmışlar.

**Heydər Əliyev:** Təsdiq edə bilmərəm. Amma təkrar edirəm ki, Bakıya səfərim haqqında yalnız qardaşımla danışmışdım.

**A. K.:** Bu, DTK-nın generalı tərəfindən maraqlı etirafdır...

**Heydər Əliyev:** Lap elə o ərəfədə qardaşıma zəng etdim və dedim ki, Bakıya iyunun 1-də uçuram və xahiş etdim ki, gəlişimin dəqiq vaxtını yaymasın. Mayın 30-da "Azərnəşr"in direktoru Əjdər Xanbabayev Bakıdan mənə zəng etdi. Mən Azərbaycanda işlədiyim dövrdə bu adamla tanış deyildim, amma haradasa il yarım bundan əvvəl o, Moskvada olarkən məni axtarıb tapmış, mənzilimə zəng etmiş və mənə hörməti olduğunu bildirmişdi. Biz onunla görüşüb söhbət etdik. Sonra o, bir neçə dəfə mənə zəng etmiş, səhhətimlə maraqlanmış, diqqətli münasibət göstərmişdi. Və budur, mənim Azərbaycana gələcəyimi eşitdikdə mənə zəng edib səfərimin vaxtını dəqiqləşdirir və mənə məlumat verir ki, Bakıda xeyli miqdarda insan məni aeroportda qarşılamaq istəyir. Mən cavab verdim: "Əgər sənin belə istəyin varsa, buyur gəl, etiraz etmirəm, ancaq, Allah xatirinə, özünlə heç kimi gətirmə və heç bir təntənəli qarşılama mənə lazım deyil". Söhbətimiz bununla da bitdi. Bu, 30 mayda, saat 12-də olmuşdu. Ertəsi gün mən öyrəndim ki, mayın 30-da axşam

saat 9-da işdən evlərinə qayıdarkən Əjdər Xanbabayevi avtomobilinin sükanı arxasında vəhşicəsinə qətlə yetiriblər.

**A. K.:** Qatillər tapıldımı?

**Heydər Əliyev:** Mənə məlum olduğu qədər – xeyr. Təbii ki, mən faktları tutuşdurmağa başladım: mayın 30-da gündüz saat 12-də o, mənimlə telefonla danışıb, axşam saat 9-da isə öldürülübdür. Bu insan, mənə bəlli olduğu qədər, sakit adam idi, alicənab insan idi, çirkli işlərlə əlaqəsi yox idi. Siyasətlə maraqlanan deyildi; o, uzun müddət "Azərnəşr"də - Azərbaycanın ən iri nəşriyyatında işləmişdi, ziyalılar arasında hörməti vardı. Təbii ki, bütün bunlar məndə belə suallar doğururdu: nə üçün o, məhz həmin gün və hansı səbəbə görə qətlə yetirilib. Bir neçə ay keçib, qətlin üstü indiyəcən açılmayıb və qatil tapılmayıbdır.

**A. K.:** Maraqlıdır, ölkə rəhbərliyi, yaxud, tutaq ki, Azərbaycanın rəhbərliyi Sizdən çox çəkindiyindən (əgər bu qorxu varsa) bunun hansısa nəticələrinin ola biləcəyini zənn edirsiniz?

**Heydər Əliyev:** Bilirsinizmi, məndən çəkinib-çəkinmədiklərini demək mənim üçün asan deyil. Amma ölkənin ayrı-ayrı rəhbərləri tərəfindən olan açıq-aşkar neqativ münasibəti mən öz üzərimdə 3 ildən artıqdır ki, hiss edirəm. Təəssüflər olsun ki, mən Azərbaycanın əvvəlki rəhbərliyi tərəfindən də hücumlara məruz qalmışam. Həm də tamamilə əsassız hücumlara. Lakin indi də nədənsə mənim öz doğma torpağıma gəlişimi böyük problemə çeviriblər.

**A. K.:** Bununla belə, iyulun 20-də Siz hər halda Bakıya gəldiniz. 6 iyunla 20-si iyul arasında nə dəyişildi? Qətl hadisələri bir daha olmadı ki?

**Heydər Əliyev:** Vaxt ötdü, bundan başqa, mənə belə vəd edildi ki, qurultaydan sonra mənimlə Azərbaycanın rəhbər yoldaşları arasında görüş olacaqdır...

**A. K.:** Bunlar nə vədlər idi belə?

**Heydər Əliyev:** Onlar mənim məişət məsələlərimlə bağlı idi və mən bunları açıqlamaq istəmirəm. Mənə deyilmişdi ki, qurultay bitdikdən sonra rəhbər yoldaşlar mənimlə görüşəcəklər, aramızdakı münasibətlər qaydaya salınacaqdır, mən Bakıya istirahətə gələ biləcəyəm və s. Məni isə Vətən özünə çəkirdi. Yazda Naxçıvanda mənim bacım vəfat

edib. Budur, indi biz onun kiçik evində Sizinlə söhbət edirik. O vaxt mən onun dəfninə gələ bilmədim və buna görə də özümü çox pis hiss edirdim. Eyni zamanda, qurultay qurtarıb getdi və bütün vədlər tamam unuduldu. Təbii ki, bu, məni dərindən təəssüfləndirir, çünki ciddi adamlar, məncə, özlərini belə aparmamalıdırlar. Başlıcası isə başqa bir şeydədir: mən Bakıya ona görə gəldim ki, Azərbaycanda respublika Ali Sovetinə seçkilər kampaniyası geniş vüsət almışdı və həmvətənlərimdən namizədliyimin irəli sürülməsinə razılıq verməyimə dair çoxlu sayda müraciətlər daxil olmuşdur.

**A. K.:** Bunlar yalnız Naxçıvandan idimi?

**Heydər Əliyev:** Naxçıvandan da, Azərbaycanın digər regionlarından da mənə belə xahişlər gəlmişdi. Mən bu məsələ barəsində fikirləşdim və qərara aldım ki, insanların fikrinə hörmətlə yanaşmaq lazımdır. Bir görün, necə alınır: onlar məni XXXII qurultayın nümayəndəsi seçdilər, mən gəlmədim, onlar Sov. İKP-nin XXVIII qurultayına nümayəndə kimi mənim namizədliyimi irəli sürdülər, lakin olmadım.Yeri gəlmişkən, mən buraya gələndə bir çox insanlar hiddətlənmişdilər və mənə deyirdilər: "Bəs belə olar, Heydər Əliyev? Biz Sizə etimad göstərdik, Sizsə gəlmədiniz". Bu məsələ ilə əlaqədar onlar tərəfindən XXXII qurultayın və Sov. İKP MK-nın ünvanına xeyli hiddətli teleqramlar göndərilmişdi. Mən soruşdum ki, "siz cavab-filan aldınızmı?" Əlbəttə, bu teleqramlara heç bir cavab, heç bir reaksiya verilməmişdi.

**A. K.:** Mən bu qurultayla bağlı hər şeyi başa düşürəm, amma Sov. İKP-nin XXVIII qurultayı ilə bağlı heç nə başa düşmürəm. Nə üçün Siz Moskvada qurultaya düşə bilmədiniz, axı bu ki evinizin lap yanında idi?

**Heydər Əliyev:** Ona görə ki, Azərbaycan KP-nin XXXII qurultayında mənim familiyamı XXVIII qurultayın nümayəndələri siyahısına sadəcə daxil etmədilər və deməli, səsə qoymadılar. Vəssalam. Beləliklə, üç partiya konfransının qərarına sadəcə etinasızlıq göstərdilər. Bunları nəzərə alaraq və həmvətənlərimin vəziyyətindən çıxış edərək belə qərara gəlmişəm ki, indi artıq heç nəyə məhəl qoymadan Azərbaycanda olmalıyam."Acı təcrübə"m olduğundan mən bu dəfə Bakıda inkoqnito (yəni xəlvəti, gizlicə) peyda olmağı qərarlaşdırdım.

**A. K.:** Necə yəni inkoqnito? Başqa ad altında, necə?

**Heydər Əliyev:** Xeyr, başqa ad altında yox, amma uçuş gününü və vaxtını ciddi şəkildə gizli saxlamaqla.

**A. K.:** Yəni Siz konspirasiya olundunuz?

**Heydər Əliyev:** Bəli. Gəlişim haqqında yalnız qardaşıma telefonla məlumat verdim və tapşırdım ki, heç kimə bunu söyləməsin. Lakin aeroporta düşəndə qardaşım və bir neçə tanışım təyyarənin pilləkənləri yanında məni qarşılayarkən dedilər ki, deputat otağının yanında 30-40 nəfərlik bir dəstə adam toplaşıbdır, onların əlində mənim Bakıya gəlişim əleyhinə iki plakat da vardır, buna görə də biz, yaxşı olar ki, buradan, birbaşa uçuş meydanından maşına oturub şəhərə gedək. Mən təklif etdim: "Gəlin, bu adamların yanına gedək, mən aydınlaşdırmaq istəyirəm, görüm, onlar nə istəyirlər, kimdirlər və haradan öyrəniblər ki, mən məhz bu gün gəlirəm". Lakin yaxınlarım məni bu fikirdən daşındıra bildilər, çünki bu, əsasən qonşu kəndlərdən gətirilmiş gülsatanlardan ibarət bir qrup idi. Qısası, mən maşına əyləşdim və biz qardaşımın mənzilinə yollandıq. Bir az keçməmiş mən deputat otağının yanında gözləyənlərin arasında olmuş bir jurnalistlə görüşəsi oldum. O, orada bu adamlara yaxınlaşıb aydınlaşdırmışdı ki, onlar nə üçün buradadırlar və nə istəyirlər. Bir çoxları ona deyirmiş ki, "Biz özümüz də bilmirik burada nə hadisə baş verir, bizi sadəcə avtobuslara oturdub buraya gətiriblər və hər birimizə yüz rubl pul verəcəklərini vəd ediblər".

**A. K.:** Kim vəd etmişdi?

**Heydər Əliyev:** Adlarını çəkməyiblər, lakin, məncə, yaxşı məlumdur ki, bunu kim edib, hərçənd ki, mən, əlbəttə, bunun dəqiqliyinə zəmanət verə bilmərəm...

**A. K.:** Siz inanırsınız ki, belə şeylər mümkündür?

**Heydər Əliyev:** Əlbəttə, inanıram. Yoxsa, tamamilə kənar insanlara haradan bəlli oldu ki, mən məhz bu gün və bu reyslə gəlirəm. Bunu əvvəlcədən yalnız qardaşım bilirdi. Onlar isə plakatla gəlmişdilər.

**A. K.:** Siz telefonunuzun dinlənilməsinə necə baxırsınız?

**Heydər Əliyev:** Qoy qulaq assınlar, əgər mən kimin üçün maraqlıyamsa. Mən heç bir qəbahət iş görməmişəm və görmərəm də, nədən çəkinməliyəm? Əlbəttə, bu, demokratiya prinsiplərinin pozulmasıdır.

Yüksək tribunalardan dəfələrlə bəyan edilibdir ki, bizdə telefonlara qulaq asılmır, lakin kimsə bu prinsipi pozursa, qoy onda o, öz vicdanı qarşısında cavab versin.

**A. K.:** Siz DTK-da işləyəndə belə bir praktika vardımı?

**Heydər Əliyev:** Vardı, əlbəttə, amma xarici kəşfiyyatla əlaqələrdə əsaslı şəkildə şübhəli bilinən insanlara münasibətdə belə olurdu.

**A. K.:** Siz xarici kəşfiyyatla əlaqəli deyilsiniz?

**Heydər Əliyev:** (Gülür). Yumor hissi Sizə yad deyil, Andrey Viktoroviç.

**A. K.:** Bakıda haralarda oldunuz, kiminlə görüşdünüz?

**Heydər Əliyev:** Qardaşımgildə olarkən gəlişim barəsində mən respublika rəhbərliyinə rəsmən məlumat verdim. Mənim yanıma tanışlarım gəlirdi, mən onlarla söhbət edirdim. Sonra maşınla şəhərə çıxdım, bir az gəzdim. Ən əsası isə Dağüstü parkda yanvar hadisələri zamanı həlak olmuş insanların məzarlarını ziyarət etdim. Bakıda yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş hadisə məni həddən çox mütəəssir etmişdi, ilk növbədə, günahsız qurbanların məzarlarını ziyarət etməyi özümə borc bilirdim. Orada çoxlu insan dəfn edilib, mən hər məzarın qarşısında dururdum. Qardaşım və mənim ailə üzvlərimlə Dağüstü parkda olarkən ətrafımızda bir neçə yüz insan toplaşmışdı, onlar məni hərarətlə salamlayır, suallar verirdilər və ən başlıcası, bu insanların mənə qarşı xeyirxah münasibətini hiss edirdim. Hiss edəndə ki, artıq mitinq kimi bir şey alınır, dərhal bütün söhbətləri yekunlaşdırmalı, onlarla vidalaşıb oranı tərk etməli oldum. Bakıda başqa bir yerdə olmadım və iki gündən sonra Naxçıvana yollandım.

**A. K.:** Şəhər çox dəyişilibmi, Heydər Əliyeviç?

**Heydər Əliyev:** Çox. O, səkkiz il bundan əvvəl mənim qoyub getdiyim şəhərdən çox pis gündədir. Küçələr başlı-başınadır, çox zibillidir. Mənim üçün bu, çox ağırdır. Çünki Bakı gözəl şəhərdir, indi isə o həmişəkindən çox pis görünür. Naxçıvana gələndə məni qohumlarım qarşıladı. Maşınacan cəmisi 70-80 metrlik yolu gedərkən, aeroportda olanlar məni tanıyır, mənə yaxınlaşır, məni qucaqlayıb öpür, öz xeyirxah münasibətlərini bildirirdilər. Ətrafımda böyük bir dəstə toplaşmışdı. Mən onlarla qısaca söhbət etdim, dedim ki, biz hələ görüşəcəyik,

avtomaşına oturub rəhmətlik bacımın kiçik evinə gəldim. Budur, Siz onu görürsünüz. Yarım saat keçməmiş gəlişimə dair xəbər şəhərə yayıldı və bu balaca həyət bütün şəhər əhlinin az qala ziyarətgahına çevrildi. Bir az qabağa getsəm, deyə bilərəm ki, mən mehribanlıqla qarşılanırdım, qucaqlaşma və göz yaşları ilə dolu təsirli səhnələr olurdu, tərifli sözlər deyilirdi. İndi buraya Azərbaycanın hər yerindən axışır, Bakıdan, Gəncədən, bir çox rayonlardan yalnız ona görə gəlirlər ki, mənimlə görüşüb söhbət etsinlər. Hə, gəlişim günü axşamçağı mənə məlumat verdilər ki, şəhərin əsas meydanında təqribən 80 min insan toplaşıb və onların hamısı Əliyevi görmək istəyir. Mənim planımda axşam Hüseyn Cavidin məzarını ziyarət etmək vardı. Onun məzarı isə insanların toplaşdığı Azadlıq meydanının lap yaxınlığında yerləşir. Bununla belə, mən əvvəlcə Hüseyn Cavidin məzarını ziyarət etdim. Şərqin Şekspiri olan bu insanın (onu belə də adlandırırlar) taleyi faciəli olmuşdur. 1938-ci ildə o, repressiya edilmiş və cəzasını Sibirdə çəkərkən ölmüşdür. Azərbaycan KP MK-nın birinci katibi işləyərkən mənim təşəbbüsümlə onun dəfn olduğu yeri axtarıb tapdıq və nəşini respublikaya gətirdik. O, əslən Naxçıvandan idi və biz onun qızı ilə, ziyalıların nümayəndələri ilə məsləhətləşərək belə qərara gəldik ki, bu böyük insanı Naxçıvan şəhərinin mərkəzində dəfn edək. Mən gül dəstəsi qoydum, məzarın qarşısında durdum və sonra meydana yollandım. Baxmayaraq ki, bu, cəmisi 100-150 metrlik məsafə idi, meydana daxil olmaq mənim üçün çox çətin oldu, milis bacardığı qədər çalışırdı ki, qayda-qanuna riayət edilsin. Lakin insanlar mənimlə şəxsən görüşməyə can atırdılar. İnsanlara müraciət etmək üçün meydanın mərkəzində olan hündür yerə gedib çıxmağa düz 40 dəqiqə gərək oldu. Bütün meydan mənim familiyamı qışqıra-qışqıra təkrarlayır, ünvanıma xoş sözlər deyirdi...

**A. K.:** Siz necə düşünürsünüz, insanlar nə üçün belə sevinirdilər?

**Heydər Əliyev:** Əgər insanlar məni nəinki unutmamış, həm də mənimlə görüşməyi çox qızğın arzulayırlarsa, belə mehribanlıqla salamlayırlarsa, deməli, hansısa xeyirxah əməllərim olubdur...

**A. K.:** Sizin özünüz necə düşünürsünüz, onları buna sövq edən nədir? İndi səkkiz il bundan əvvəlkindən pis yaşayırlar, bumu? Mən ba-

şa düşürəm ki, Siz onların həmyerlisisiniz, Siz Kremldə çalışmısınız - yalnız bunlarmı?

**Heydər Əliyev:** Siz bilirsiniz axı, insanlar rəhbəri əməllərinə görə dəyərləndirirlər. Bu axı faktdır: mən Azərbaycan KP MK-nın başçısı olarkən, mənim xalqım ildən-ilə daha yaxşı dolanırdı. Çoxlu sayda yeni sənaye müəssisələri, yaşayış evləri tikilirdi, sosial sahədə vəziyyət xeyli dərəcədə yaxşılaşmışdı. Elə bu Naxçıvanda mən, misal üçün, alt trikotaj fabrikində olmuşam, orada kollektivlə görüşmüşəm. Yeri gəlmişkən, bu kollektiv mənim Naxçıvan MSSR Ali Sovetinə deputatlığa namizədliyimi irəli sürübdür. Əgər Siz, Andrey Viktoroviç, bilsəydiniz ki, orada əhval-ruhiyyə necə idi? Bilirsiniz nəyə görə? Çünki əvvəllər burada belə bir fabrik yox idi, biz onu qısa vaxtda tikdik və indi orada iki minə yaxın adam çalışır...

**A. K.:** Əgər açıq danışsaq, Heydər Əliyeviç, bu insanlar əvvəllər daha çox pul qazanırdılar, nədir?

**Heydər Əliyev:** Əlbəttə. Mən bir çox kənd rayonlarında olmuşam və bilirsiniz, orada mənə nə deyirdilər? "Heydər Əliyeviç, Sizin dövrünüzdə biz qucaq-qucaq pul götürürdük".

**A. K.:** "Götürürdük" nədir? Oğurlayırdılar, nədir?

**Heydər Əliyev:** Xeyr, niyə oğurlasınlar, qazanırdılar. Mənə bir kolxozçu qadın danışırdı ki, o, ilin başında pulunu almağa gələndə, kassir ona baxıb deyir:

– Sən nəyə gəlmisən? Pul almağa? Bəs niyə əliboş? Onları nədə aparacaqsan?

– Budur, pul qabımda...

– Necə yəni pul qabında?! Sənin ki, alacağın 20 mindir...

**A. K.:** Bu qədər çox pul haradan gəlirdi?

**Heydər Əliyev:** İş ondadır ki, biz burada, Azərbaycanın hər yerində olduğu kimi, kənd təsərrüfatını çox yüksəltmişdik. Üzümçülüyü inkişaf etdirmişdik, insanlar onun hesabına çox pul qazanırdılar. Muxtar respublikanın kolxoz və sovxozlarının hərəsi ildə 80-90 min ton üzüm məhsulu götürürdü. Kəndlərə gedirəm: hər yerdə kərpicdən və daşdan evlər tikilib, məgər əvvəllər belə şeylər vardı? İnsanlar həm də, demək lazımdır ki, başqa şeylərə də qiymət verirdilər.

Lap bu yaxınlarda uzaq dağ kəndində oldum, 80-90 yaşlı insanlar mənə deyirdilər: "Heydər Əliyev, heç zaman belə olmamışdı ki, ildə bizim kənddə 10-15 nəfər gənc ali məktəblərə qəbul olsun. Siz onları Moskvaya, Leninqrada oxumağa göndərirdiniz. Biz bunları unuda bilərik?" Andrey Viktoroviç, bu yaşlılardan birinə nəzər saldım: o, Qurandan ayələr gətirir, kəlamlar söyləyirdi. Gördüm ki, necə də ağıllı mülahizələr yürüdür!

Görürsünüzmü, sadəcə olaraq bilmək lazımdır ki, son 20 ildə Azərbaycanda nələr olmuşdur və onda Siz artıq təəccüblənməyəcəksiniz: onlar nə üçün belə cavab verirlər?

**A. K.:** Bununla belə, antialkoqol kampaniyası aparılanda, Sizin sevimli üzümlükləriniz kökündən çıxarılanda Siz də axı Siyasi Büronun üzvü idiniz!

**Heydər Əliyev:** Mən bacardığım qədər buna mane oldum. Mən deyirdim ki, alkoqolizmlə mübarizəni belə aparmaq olmaz, amma mənə qulaq asan vardı?

**A. K.:** Bu nədir, Siyasi Büro üzvü Əliyevin səsi tamam əhəmiyyətsiz idi?

**Heydər Əliyev:** Orada Qorbaçov və Liqaçovun rəyi hakim idi. Bu məsələdə bir də Solomentsevin fikri. Onlar qalanlarının səsini batırırdılar. Kimsə səsini qaldıranda dərhal deyirdilər ki, görürsünüz, bu da alkoqolizmin tərəfdarıdır. Mən bilirəm ki, misal üçün, Rıjkov bu xətlə razı deyildi, buna baxmayaraq, bunu həyata keçirirdi, çünki təzyiqlərə məruz qalırdı.

**A. K.:** Əgər mən düzgün başa düşdümsə, 1985- ci ildən sonra Qorbaçov və Liqaçov praktiki cəhətdən ölkənin təkbaşına rəhbərləri idilər və əslində onlara heç kim mane olmurdu?

**Heydər Əliyev:** Onlar Siyasi Büroda hakimiyyəti ələ keçirmişdilər və bütün məsələləri praktiki cəhətdən özləri həll edirdi.

**A. K.:** Bəs Yeltsin, yeri gəlmişkən, antialkoqol kampaniyası ilə mübarizə aparırdımı?

**Heydər Əliyev:** Mən Yeltsinin bu məsələyə dair çıxışını xatırlamıram. Amma, görünür, o, Qorbaçov və Liqaçovla fərdi söhbətlərində bu barədə fikrini söyləyirmiş, çünki Moskvada vəziyyət son dərəcə dəh-

şətli idi. Mənə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Moskvada içki növbələrinin şəkillərini gətirirdilər. Dəhşət idi! İnsanların əhval-ruhiyyəsinə və növbələrdə ölkə rəhbərliyinə qarşı yönəlmiş söhbətlərinin məzmununa aid məlumat alanda biz onları Qorbaçov və Liqaçova çatdırırdıq, lakin onlar lağa qoyub deyirdilər: eybi yoxdur, indi belədir, bir azdan kiriyərlər. Onlar buna reaksiya vermirdilər. Reaksiya vermirdilər! Mən dəfələrlə şəkilləri gətirib Rıjkova vermişəm ki, onları Siyasi Büroda nümayiş etdirsin, lakin Qorbaçov və Liqaçov buna reaksiya vermirdilər! Burada olarkən mən Bakı qəzetlərində oxudum ki, üzümlüklərin məhv edilməsində respublika bir milyard yarım rubl itirib. Təkcə üzümlüklərin məhv edilməsi ilə bağlı işlərə 46 milyon rubl xərclənibdir...

**A. K.:** Bir neçə gün əvvəl mən "İzvestiya" qəzetində oxudum ki, Siz bütün ölkəni tütünsüz qoymaq istəyirmişsiniz. "Antialkoqol kampaniyası kimi iri miqyaslı və kütləvi" olması nəzərdə tutulan antinikotin kampaniyasının "baş ilhamvericisi və təşkilatçısı" olan o zamankı Siyasi Büro üzvü və Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev hətta nələrisə etməyə macal da tapmışdı: moldav tütününün alış qiymətinə ayrılmış əlavə məbləği ləğv etmiş və tütünə valyuta xərcləməyi qadağan etmişdi, yəni bugünkü tütün böhranına zəmin hazırlanmışdı. Siz niyə belə etmisiniz, Heydər Əliyeviç?

**Heydər Əliyev:** Bu, başdan ayağa böhtandır. Yalandır! Mən artıq təəccüblənmirəm ki, "Pravda", "İzvestiya", digər mətbuat orqanları böhtanla məşğul olurlar, yalan materialları çap edirlər, ictimai rəyi azdırırlar. Bu məsələ ilə əlaqədar həmçinin Moskva Sovetinin sədri Popovun mətbuat və televiziyadakı məsuliyyətsiz və əsassız bəyanatları son dərəcə təəccüb doğurur. Yaxşı məlumdur ki, Nazirlər Sovetində tütün istehsalı problemləri ilə mən məşğul olmurdum. Bununla Aqrar-sənaye qurumu məşğul idi ki, ona da Nazirlər Sovetində sədrin digər birinci müavini Muraxovski (yeri gəlmişkən, Qorbaçovun şəxsi dostu) rəhbərlik edirdi. Mənim isə bu sahəyə heç bir aidiyyətim yox idi. Bundan başqa, mənim ölkənin valyuta ehtiyatlarına sərəncam vermək səlahiyyətim yox idi. Bu məsələ yalnız Nazirlər Sovetinin sədri və onun xarici iqtisadi məsələlər üzrə müavininin əlahiddə səlahiyyətində idi. Nə

üçün "İzvestiya"dakı müəllif utanmadan yalan danışıb, qoy bunu redaksiya aydınlaşdırsın, mən isə təəccüblənirəm: görəsən, nə üçün bu cür məsuliyyətsiz yazıların dərcinə yol verilir? Bu, hələ harasıdır, deyə bilərəm ki, mən Azərbaycanda tütün istehsalı məsələlərinə çox böyük diqqət yetirirdim. İşlədiyim dövrdə bu sahə təxminən 2,5 dəfə artmışdı. 1969-cu ildə, mən respublika rəhbəri kimi işə başlayanda Azərbaycan 25 min ton tütün yarpağı istehsal edirdi. 1982-ci ildə, mən Azərbaycandan gedəndə biz artıq 58 min ton tütün yarpağı istehsal etmişdik. Bax belə. Budur mənim tütün istehsalına olan münasibətim. Nazirlər Sovetində, bir daha qeyd edirəm, bu sahə ilə mən məşğul olmurdum və tütünə aid heç bir sənədi mən imzalamamışam. Heç bir antinikotin kampaniyasına rəhbərlik etməmişəm və onun ilhamvericisi olmamışam. Bizdə ilham verən, adətən, yalnız birinci şəxs olur. 1985-ci ildən isə bu, Qorbaçovdur.

**A. K.:** Bəs belə bir kampaniya planlaşdırılırdı?

**Heydər Əliyev:** Xatırlamıram.

**A. K.:** Bir neçə gündən sonra Azərbaycanın xalq deputatlığına Sizin namizədliyiniz səsə qoyulacaq. Sizin proqramınız?

**Heydər Əliyev:** 340 saylı Nehrəm dairəsindən mənim namizədliyim irəli sürülüb. Bu, iri kənddir, orada 12 min nəfər əhali yaşayır. Nehrəm buradan çox uzaqda deyil.

**A. K.:** Bakıda Sizin namizədliyinizi vermədilər?

**Heydər Əliyev:** Bilirsiniz, mənə gəlib çatırdı ki, orada da mənim namizədliyim nəzərdən keçirilir, amma rəsmi məlumat almamışam. Burada, Naxçıvanda mənim namizədliyim bir neçə dairədə irəli sürülmüşdü. Lakin mən məhz Nehrəm dairəsindən seçkilərdə iştirak etməyə razılıq verdim. Bu dairəyə Nehrəm kəndinin özündən başqa digər kəndlər - Qaraçux, Qaraxanbəyli, Bulqan, Çeşməbasar və sair kəndlər daxildir.

**A. K.:** Niyə oradan?

**Heydər Əliyev:** Bilirsinizmi, Nehrəm çox özünəməxsus kənddir, orada cəsarətli və əməksevər insanlar yaşayır. Azərbaycan ziyalılarının çoxlu sayda nümayəndələri bu kənddən çıxmışdır. Mənim orada bir qohumum, bir dostum yoxdur. Naxçıvanda da rəhbər vəzifədə işləyən qohumlarımı tapa bilməzsiniz - bacım 80 yaşında vəfat edib, onun iki

qızı var, budur, buyur bax, əyləşən bu oğlan onun kürəkənidir, sıravi işdə işləyir. Budur Əliyevin klanı? Heç bir klan-filan yoxdur.

**A. K.:** Bəs bunqal harada tikilib?

**Heydər Əliyev:** Əgər bu bunqalı tapsanız, buna görə mən sizə təşəkkür edərəm. Azərbaycanın keçmiş rəhbəri "perestroykaçı" Vəzirov bu bunqalı çox axtardı və bir sadə səbəb üzündən tapa bilmədi: o, sadəcə yoxdur. O, çox gözəl bilirdi ki, Əliyevin heç nəyi yoxdur, bilirdi...

**A. K.:** "Heç nəyi yoxdur" nə deməkdir, Heydər Əliyeviç?

**Heydər Əliyev:** Azərbaycanda yaxşı məlumdur ki, Əliyev təvazökar, təmiz həyat tərzi keçirib. Məni burada mənən təmiz, namuslu insan kimi tanıyırlar. Azərbaycanda mənim haqqımda bütün neqativ yazılara heç kim inanmır. Moskvada isə məni nisbətən az tanıdıqlarından insanların, əlbəttə, gözləri bərəlir və təəssüflər olsun ki, orada təsir altına düşürlər.

**A. K.:** Heydər Əliyeviç, gəlin konkret danışaq. Siz dediniz ki, heç nəyiniz yoxdur. Siz, deyin görüm, kasıb adamsınız, yoxsa yox? Siz necə hesab edirsiniz?

**Heydər Əliyev:** Bilirsinizmi, mən kasıb ailədə böyümüşəm. Mən heç zaman hansısa var-dövlətə can atmamışam.

**A. K.:** Başqa sözlərlə, siz kasıblığı sevirsiniz?

**Heydər Əliyev:** Mən kasıblığı sevmirəm, sadəcə olaraq hesab edirəm ki, insan gərək normal, təmiz həyat yaşasın. Baxın, mən harada yaşayıram: burada videotexnika yoxdur, yalnız televizor var ki, o da bir gün işləyir, iki gün yox. Mən burada müxtəlif "səslərə" qulaq asmağı çox istərdim, amma yararlı bir radioqəbuledici də yoxdur. Yaxşı ki, qonşuda adi "VF" tapa bildik. Mənim bacım belə yaşayıb. Əgər mən varlı olsaydım, deməli, onun da nəyi isə olardı...

**A. K.:** Qocalıq dövrünüzün qayğısına qalmaqda Sizə nə mane olurdu, Heydər Əliyeviç, necə deyərlər, "qara gün" üçün?

**Heydər Əliyev:** Bilirsiniz, mən bu barədə düşünmürdüm. Mən xidmət etdiyim ideallara o qədər inanırdım, həmişə hesab edirdim ki, hansı qara gün olursa olsun, dövlət və cəmiyyət məni təmin edəcəkdir.

**A. K.:** Siz indi də bu ideallara inanırsınız?

**Heydər Əliyev:** Mənim inamım əsasən alt-üst olubdur. Özümə qarşı belə haqsızlığın, belə riyakarlığın olacağı heç ağlıma da gəlməzdi...

**A. K.:** Bəlkə, Siz partiyadan çıxasınız?..

**Heydər Əliyev:** Bilirsiniz, Andrey Viktoroviç, mən belə deyərdim: indi mənim bir çox şeylərə baxışım dəyişilib... partiyaya deyil, xeyr, ideal və prinsiplərə də deyil... Amma partiyanın başına oyun açdılar... Onu dağıtdılar. Partiyanın həyatında həmişə müəyyən stabillik olub - dur. İnsanlar partiyaya etibar edirdilər. İndi bu etibar yoxdur. Sizin ki elə özünüz bu barədə danışırdınız. Gəlin qısa zaman kəsiyini götürək: 1985-1990-cı illəri. Siyasi Büronun tərkibində olub beş il əvvəl Qorbaçovun seçilməsinə səs verənlərdən indi heç kim qalmayıb. Bir nəfər də olsun. Necə, bizim hamımız layiq deyildik? Əgər biz layiq deyildiksə, onda bəs bizim seçdiyimiz şəxs ölkəni idarə etməyə necə layiq olur? Sual varmı? Var. 1985-ci ildən sonrakı dövrdə ölkədə dağılma gedir - iqtisadiyyatda, sosial sahədə dağılma, insanlar getdikcə daha pis yaşayır. Ölkədə mənəvi-psixoloji mühit son dərəcə mürəkkəb - dir, millətlərarası konfliktlər adi hadisəyə çevrilib, Sovet Sosialist Respublikaları İttifaqı dağılır, idarəolunmaz proseslər gedir. Və bütün bunları da Qorbaçov yenidənqurma kimi qələmə vermək istəyir. Ölkə gah "sərt dönüşdə", gah "ərəfədə", gah "xüsusi ərəfədə" olur, gah da yenidənqurma "ciddi sınaq" mərhələsinə daxil olur və sairə. Nə deyəsən, müharibədən sonra bir dəfə çörəyin olmadığı halı - Xruşşovun dövrünü xatırlayıram.

İndi də çörək çatışmır. Həm də harada? Paytaxtda. Müharibədən sonra tütünün çatışmadığı bir halı xatırlamıram. İndi, görürsünüz də, insanlara tütün əvəzinə, izahat verməyə cəhd edirlər. Bunun necə izahı ola bilər, lütfən deyin? Axı əvvəllər indikindən də az tütün istehsal edirdik, amma böhran olmurdu. XXVIII qurultay ərəfəsində Qorbaçov Moskvada "Yava" tütün kombinatına baş çəkdi və bu kollektiv, yeri gəlmişkən, onun qurultaya nümayəndəliyini irəli sürmüşdü. İndi bu "Yava" tütün kombinatı Moskvanı tütünlə təmin edə bilmir. Sual olunur: elə isə oraya səfər etməyin nə mənası vardı?

**A. K.:** Bəlkə, doğrudan da, mafiya mane olur, Heydər Əliyeviç? Elə tütünə də, Moskvaya da?

**Heydər Əliyev:** Mənim üçün demək çətindir, artıq iki ay olar, Moskvanı tərk etmişəm və ümumiyyətlə, Moskva həyatına çox da yaxından bələd deyiləm, mən bilmirəm...

**A. K.:** Siz mafiyanın mövcudluğuna inanırsınızmı?

**Heydər Əliyev:** Yaxşı, tutaq ki, mafiya var. Bu mafiya dövlətdən güclüdür, nədir? Hökumətdən güclüdür, nədir? Ölkənin nəhəng idarəetmə aparatından, bütün hüquq-mühafizə orqanlarından, DTK və DİN-dən mafiya güclüdür? Elə isə, Qorbaçov və onun əhatəsi istefa verməlidir.

**A. K.:** Sizə necə gəlir, Ermənistan - Azərbaycan qırğınını sərhəddə dayandıra bilərdinizmi? Sizin, 67 yaşlı Əliyevin bu həll edilməyən problemin həll edilməsi üçün təcrübə və gücü çatardımı?

**Heydər Əliyev:** Bilirsiniz, mən indi hər hansı vədi vermək istəmirəm, həm də demək istəmirəm ki, bunu kimsə edə bilməz, mən isə edə bilərəm. Belə bəyanatları mənə sırımaq istəyirlər, mən isə onları rədd edirəm. Mənə bir şey aydındır: Ermənistan və Azərbaycan arasında artıq baş vermişlərin qarşısını vaxtında almaq olardı. Hadisələrin faciəvi, açıq deyək, xalqlararası tarixdə görünməmiş xarakterdə olmasında erməni millətçiləri, onları vaxtında yerində oturda bilməyən Azərbaycanın keçmiş rəhbərliyi, ölkənin siyasi rəhbərliyi və hamıdan əvvəl Qorbaçov günahkardır.

Artıq burada, yerli qəzetdə Qorbaçovun müsahibəsinə rast gəlirəm. Doğrudanmı, düşünürəm, Qorbaçov bu qəzetə müsahibə verib? Belə olmur axı. Onu oxuyub görürəm ki, redaksiya Qorbaçovun müxtəlif vaxtlarda Dağlıq Qarabağ hadisələrinə dair söylədiklərini ustalıqla seçib yığmış və onları müsahibə şəklində təqdim etmişdir.

Oxuyub özü-özünə fikirləşirsən ki, nə qədər qeyri-ciddi olsa da, burada gör nə qədər ziddiyyət var, nə qədər azdırıcı mülahizələr var. O, özündən razı halda millətlərarası münasibətlər kimi incə bir məsələdə ifadələrini sağa-sola səpir...

**A. K.:** Siz Qorbaçovla Dağlıq Qarabağ barəsində söhbət etməyə cəhd göstərdinizmi?

**Heydər Əliyev:** Mən Qorbaçovla görüşməyə çalışdım, lakin o, məni qəbul etmədi. Onda mən artıq təqaüddə idim. Köməkçiləri deyirdilər: o, məşğuldur, biz məruzə etmişik. Orada cavab həmişə sadə olur

- biz məruzə etmişik, o bilir, gözləmək lazımdır-dəvət edəcəklər. Gözlədim bir gün, iki gün, bir ay, gördüm, heç nə yoxdur. Bir daha zəng etdim. Əlbəttə ki, o, məni qəbul etmədi. Mən Liqaçovla da görüşməyə çalışdım, o da məni qəbul etmədi. Amma bir dəfə səhər tezdən mən sadəcə MK-ya gəldim və onun qəbul otağında əyləşdim, yəni qabaqcadan razılaşdırmadan gəlib gözləyirəm. Mən ona Dağlıq Qarabağdakı vəziyyətə dair baxışlarımı izah edirəm, o, mənə qulaq asır, asır və əməlli bir şey demir. Mən elə bilirdim ki, müəyyən dərəcədə faydalı ola bilərəm.

**A. K.:** Siz Liqaçova konkret fəaliyyət planı təklif edirdiniz?

**Heydər Əliyev:** Hə, ümumiyyətlə mən ona deyirdim ki, vəziyyət belədir... ən ciddi tədbirləri görmək lazımdır. “Biz də tədbir görürük”, – o deyir. Vəssalam. Yəni, mənim iştirakıma heç bir ehtiyac yoxdur. Məsləhətlərimə də ehtiyac yoxdur. Onda mən Razumovskinin yanına getdim, o da, yeri gəlmişkən, məni dərhal qəbul etmədi, halbuki mən Siyasi Büro üzvü olmuşam, o isə hələ indi MK katibi idi. Mən yenə də danışıram, danışıram, o da oturub məni dinləyir. Mən heç də başa düşmədim: mənim sözlərim ona çatdı, yoxsa hamısı boş yerə getdi...

**A. K.:** Məgər Dağlıq Qarabağ Əliyevlə Dəmirçiyanın məxfi sövdələşməsi deyilmi? Qəzetlərimizdə buna işarələr az olmayıb.

**Heydər Əliyev:** Bunlar cəfəngiyatdır. Əliyevlə Dəmirçiyan arasında heç bir sövdələşmə olmayıb. Bütün bunlar çox cəfəng səslənir. Əgər Əliyev azərbaycanlıdırsa, əgər o, Azərbaycanın ərazi bütövlüyü mövqeyində dayanırsa, belə halda Dağlıq Qarabağdakı vəziyyəti gərginləşdirmək nə üçün lazımdır? Artıq üç ildir ki, mən siyasi işdən uzaqlaşdırılmışam, lakin hamıya yaxşı məlumdur ki, mən bu gün də Azərbaycanın ərazi bütövlüyü uğrunda çıxış edirəm, həmişə qeyd edirəm ki, Dağlıq Qarabağ respublikamızın bir hissəsidir, onun əzəli torpağıdır və bu məsələdə başqa fikir ola bilməz.

**A. K.:** Amma bununla belə, Ermənistan-Azərbaycan konfliktini necə dayandırmaq olar?

**Heydər Əliyev:** Bu, qəliz sualdır, ona haradasa başqa yerdə cavab vermək lazımdır, qəzet müsahibəsində yox.

**A. K.:** Amma dayandırmaq olarmı? Bu realdırmı?

**Heydər Əliyev:** Əlbəttə, realdır. Qeyri-real bir şey yoxdur, hər şey öz əlimizdədir. Həm də mən təkcə Dağlıq Qarabağ məsələsini nəzərdə tutmuram. Bax burada, Ermənistanla lap sərhəddə Sədərək rayonu var. Orada 70 evdən ibarət Kərki kəndi vardı. Qəflətən erməni dəstələri kəndə basqın edir, evləri atəşə tutur, onlara od vurur. Onda rəhbərlik Kərki sakinlərini başqa yerə köçürmək qərarını qəbul edir, buraya Sovet ordusunun qoşunları daxil olur, sakinləri köçürürlər və ...qoşunlar çıxıb gedir. Ermənilər dərhal kəndi tuturlar, onlar indi də adını dəyişdirdikləri bu özgə kəndində, özgə evlərində yaşayırlar. İndi də rayonda hamı hiddətlə deyinir: niyə bizim torpağımız ermənilərin əlinə keçdi? Niyə qoşunlar oradan çıxdı? Yoxsa bu qəsdən edilib? Başqa bir misal. Ermənistanda dünya ictimaiyyətinin gözləri qarşısında son iki ildə qeyri-qanuni hərbi birləşmələr yaradılır. Moskva, Qorbaçov heç bir tədbir görmür. Bu birləşmələr artıq yaradıldıqdan, yaxşıca silahlandırıldıqdan sonra (həm də məlumdur ki, silah onlara xaricdən gəlir), bu dəstələrin əsgər və komandirlərinə təntənəli şəkildə üzvlük biletləri verildikdən sonra ölkə prezidenti qeyri-qanuni hərbi birləşmələrin tərksilah edilməsinə dair fərman imzalayır. Hara nəzərdə tutulur? Axı Ermənistandan savayı onlar heç yerdə yoxdur. Amma Ermənistanın konkret olaraq adını çəkməyə cəsarəti çatmır. Qəzetlərdə məlumatlar çıxır: haradasa Pribaltikada 30 silah, Sibirdə 20 silah... götürülmüşdür. Ermənistanda isə heç kim silahı təhvil vermir. 15 günlük müddət başa çatır, Ermənistanda hər şey olduğu kimi qalır, heç kəs ona qulaq asmır və o, öz fərmanının müddətini iki ayadək uzadır. Soruşula bilər, bundan sonra Sovet İttifaqının rəhbəri kimi Qorbaçovun hansı nüfuzu ola bilər? Azərbaycan xalqı üçün o, insan kimi nüfuzunu Bakıda 19 yanvardan 20 yanvara keçən gecə baş vermiş hadisələrdən sonra qəti şəkildə itiribdir.

İndi o vaxtdan 8 aydan artıq bir zaman keçib və Azərbaycan xalqına qarşı bu zorakı hərəkəti sakit başla bir daha təhlil etmək imkanı vardır. Tam əminliklə deyə bilərəm ki, fövqəladə vəziyyətin tətbiq edilməsinə və oraya iri hərbi birləşmələrin yeridilməsinə heç bir zərurət yox idi. Bakıda ermənilərlə azərbaycanlılar arasındakı bütün konfliktlər

bu faciəli gecəyə hələ bir necə gün qalmış bitmişdi və şəhərdə heç bir erməni qalmamışdı. Sual olunur: qoşunlar kimi və nəyi qoruyurdu? Azərbaycanlıları niyə qətlə yetirirdilər? Əgər respublika rəhbərləri öz xalqını idarə edə bilmirsə, onda buna görə onlar cavab verməlidirlər. Yoxsa, onlardan nə rəhbər? Bu Qorbaçova da aiddir. Və ilk növbədə. Millətlərarası konfliktlər artıq normaya çevrilmişdir - gah Alma-Atada, gah Özbəkistanda, gah Türkmənistanda, gah Qırğızıstanda, gah Bakıda, gah Gürcüstanda, – deyin, nə qədər olar, hə? Bizdə kimsə ölkəni idarə edirmi? Bəlkə, yox? Və yaxud ölkə öz-özünü idarə edir? Buna görə də Bakıda fövqəladə vəziyyətin tətbiqini qeyri-qanuni sayıram və hesab edirəm ki, onun 8 aydan artıq saxlanılması yaramazlıqdır. Sonra da təəccüblənəcəyik ki, Azərbaycanda bu gün Sovet İttifaqının tərkibindən çıxmaq əhvali-ruhiyyəsi çox güclüdür. Özləri buna gətirib çıxardır.

**A. K.:** Bəs Siz bu tələblər barəsində nə düşünürsünüz?

**Heydər Əliyev:** Çoxları belə fikirdədir, lap çoxları. Haraya getdim, kimlə söhbət etdim - mənə belə sualları hər yerdə verdilər. İnsanlar açıq-aşkar deyirlər: hə, yaxşı, artıq iki ildir ki, ərazimizin bir hissəsini ələ keçiriblər və ölkənin rəhbərləri bu barədə tədbir görmürsə, onda belə "İttifaqda" olmaq nəyə lazımdır?

**A. K.:** Bəs Azərbaycanın gələcəyi Sizə necə görünür?

**Heydər Əliyev:** Azərbaycanın qarşısında çox mürəkkəb vəzifə durur: nəyin bahasına olursa olsun, öz suverenliyini möhkəmləndirmək, özü də təkcə Dağlıq Qarabağda deyil, respublikanın bütün ərazisində. Tutaq ki, Gəncə şəhəri yaxınlığında əsasən ermənilərin yaşadığı Şaumyan rayonu yerləşir. Deməli, bu rayon artıq bir ildir ki, respublika hakimiyyətinə tabe olmur və yeri gəlmişkən, bu məsələyə aid təsirli tədbirlər görülmür. Yerevandan Şaumyan rayonuna tanıtma nişanları olmayan vertolyotlar uçuşlar edir, ərzaq gətirir, yoxsa silah - mən bilmirəm. Belə olar? Bu mümkündür? Sən demə, olarmış. Buna görə də respublikanın suverenliyini möhkəmlətmək indi əsas vəzifədir. Qalan məsələlər ikinci plana keçir. Bundan başqa, düşünürəm ki, Azərbaycanın öz müstəqilliyinə can atması artıq dönməz prosesdir, bu, xalq kütlələrinin istəyidir - onu dayandırmaq mümkün deyil.

**A. K.:** Siz doğrudanmı islam fundamentalizmi tərəfdarısınız? Axı Naxçıvan, xatırladığım qədər, SSRİ-nin tərkibindən bir dəfə çıxmışdı, sonra sakitcə geri qayıtdı. Bütün bunlar çoxdan da olmayıb və indi Moskvada çoxlu söhbətlər gedir ki, Siz məhz islam fundamentalizmi əsasında müsəlmanlarla birləşmək üçün Azərbaycana qayıtmısınız.

**Heydər Əliyev:** Mən düşünürəm ki, bu söhbətlər də Azərbaycandakı real vəziyyəti anlamamağın nəticəsidir. Onlar erməni millətçiləri tərəfindən süni şəkildə yaradılır və yayılır ki, ictimai rəy Azərbaycana və şəxsən mənə qarşı çevrilsin. Yeri gəlmişkən, 20 yanvarda Bakıya qoşunları yeritməklə bağlı Mərkəzi Televiziya ilə çıxış edərkən Qorbaçov da dedi ki, bu aksiya zəruri idi, çünki Azərbaycanda fundamentalist islam dövlətinin yaradılması təhlükəsi vardı. Mən onda çox təəccübləndim: hesab edirəm ki, ölkə Prezidenti öz bəyanatlarına daha ciddi, daha məsuliyyətlə yanaşmalıdır, çünki bunun əsası olmayıb və yoxdur da. Azərbaycanda mən heç bir fundamentalist islam dövlətini yaratmağa hazırlaşmıram. Olmayan şeyləri uydurmağı yalnız qərəzli insanlar edə bilər. Mənim cavabım budur.

**A. K.:** Əgər mərkəzi mətbuatda ünvanınıza neqativ məqalələr çıxmasaydı, Siz Azərbaycana qayıdardınızmı, Sizə necə gəlir?

**Heydər Əliyev:** Əgər bu neqativ məqalələr olmasaydı, məndə dəstək üçün xalqımın səsinə müraciət etmək, kim olduğumu sübut etmək zərurəti də olmazdı. Eyni zamanda, əgər bu yazılara ölkənin siyasi rəhbərlərinin bəzi nümayəndələri əl qoymuşdularsa, deməli, mənim başqa çarəm qalmamışdı...

**A. K.:** Yəni onlar praktiki cəhətdən Sizi məcbur etdilər?

**Heydər Əliyev:** Hansısa dərəcədə, bəli, xalqımın yanına gəlməkdən savayı, özgə çarəm yox idi və mən gəldim. İndi qoy hər kəs mənim üzümə desin, mən kiməm və nə pislik eləmişəm. Amma hələ ki, mən hər yerdə etimadla qarşılanıram. Budur, Siz soruşursunuz ki, mən kasıbam, yoxsa yox. Başlıca var-dövlətimi və xoşbəxtliyimi onda görürəm ki, Azərbaycan xalqı məni unutmayıb və Azərbaycan üçün bu çətin vaxtda mən onunla bir yerdəyəm. Mən bundan son dərəcə böyük mənəvi məmnunluq duyuram ki, xalqın ən sadə insanlarının rəğ-

bətini qazanmışam. Təkcə Naxçıvanda deyil, hər yerdə belədir. Ola bilsin ki, hamı bir nəfər kimi mənə yaxşı yanaşmır və bu da aydındır: mən Azərbaycanda neqativ hallara qarşı çox ciddi və prinsipial mübarizə xətti yeritmişəm, rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə aparmışam. Təbii ki, mənim əleyhdarlarım qalmaqdadır. Mənim taleyim xalqımın əlindədir.Vətənimə qayıtmışam ki, respublikada vəziyyəti sabitləşdirmək işinə öz töhfəmi verim, Azərbaycanda demokratiya və tərəqqi bərqərar olsun. Bu planda mən aktiv fəaliyyət göstərəcəyəm...*

*1990-cı ilin 30 sentyabrındakı seçkilərdə ittifaq əhəmiyyətli fərdi pensiyaçı H.Ə.Əliyev 340 saylı Nehrəm dairəsindən Azərbaycanın xalq deputatı seçilmişdir.

## "KEÇMİŞ" İNDİ HAQQINDA...

***Lap bu yaxınlarda o, Siyasi Büronun üzvü idi. Adamların taleyi onun qərarlarından asılı idi. Bu gün isə o, təqaüdçüdur. Lakin ölkəmizi kəməndləmiş prosesləri çox ciddi qiymətləndirməyi bacaran bir təqaüdçüdür. Heyif ki, aşkarlıq Sov. İKP-nin keçmiş liderlərini hələ öz qoynuna almayıb. Onları sükuta ducar edib. "Naçalo" bu ənənəni pozur. Beləliklə, həmsöhbətimiz Heydər Əliyevdir.***

*– Heydər Əliyeviç, siz uzun müddət Azərbaycanda işləmisiniz, ona görə də söhbətimizi məhz millətlərarası ziddiyyətlərdən başlamaq istəyirik. Doğrudanmı, on il əvvəl indi milli ədavət adlanan və son 2-3 ildə bütün ölkəyə zərbə endirən bir xəstəliyin heç bir əlaməti yox idi?*

**Heydər Əliyev:** Azərbaycan KP MK-nın birinci katibi işlədiyim 14 il ərzində respublikada nə millətlərarası zəmində, o cümlədən nə də ermənilərlə azərbaycanlılar arasında heç bir münaqişə, toqquşma baş verməmişdir. Lakin bəzən mənə belə xəbərlər çatırdı ki, Yerevanda yaşayan bəzi ziyalılar millətçilik əhvali-ruhiyyəsini qızışdırır. Dağlıq Qarabağ ətrafında təhrikçilik işi aparırlar. Bir hadisəni danışmaq istəyirəm. 1975-ci ildə biz böyük bir tədbir - Azərbaycanda sovet ədəbiyyatı günləri keçirirdik. O vaxt məşhur yazıçı və şairlərin böyük bir qrupu ilə Marietta Sergeyevna Şaginyan da gəlmişdi. O, milliyyətcə ermənidir. Lakin bütün həyatı Moskvada keçib. Mən ondan xahiş elədim ki, qonaq sifəti ilə Azərbaycanda qalsın və ermənilərin ən çox yaşadığı yerləri gəzsin. Marietta Sergeyevna bu təklifi məmnuniyyətlə qəbul etdi və Dağlıq Qarabağda, Kirovabadda, Bakıda... oldu.

Sonra istirahət günü onu evimə dəvət elədim. O öz təəssüratlarından, ermənilərlə görüşlərindən danışdı və açıq dedi ki, ermənilər Azərbaycanda yağ-bal içində üzürlər. Getmək ərəfəsində Marietta Sergeyevna birdən ağzından qaçırdı ki, Yerevanda olarkən erməni ziyalılarının bəzi nümayəndələri onun yanına gəlmişdilər. Onlar Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında Moskvaya məktub yazmışdılar. Onlar istəyirdilər ki, Şaginyanı bu məktuba qol çəkməyə təhrik etsinlər. Yazıçı imtina etmişdir.

*– Bu 1975-ci ildə olub. Lakin yəqin ki, münaqişə haradasa 80-ci illərin ortalarında aşkar olub?*

**Heydər Əliyev:** Mənə danışdıqlarına görə 1986 və ya 1987-ci ildə Ermənistanda "Ocaq" adlı bir kitab çıxıb. "Ocaq" Azərbaycan sözüdür. Ocaq - tonqal deməkdir. Kitabda açıq-aşkar təsdiq olunurdu ki, az qala Azərbaycanın ərazisinin böyük bir hissəsi Ermənistanın tarixi torpaqlarıdır. Bu və bir sıra digər hərəkətlər erməni ictimaiyyətinin bir hissəsi tərəfindən Azərbaycana qarşı ərazi iddiası əhvali-ruhiyyəsi qaldırdı.

*– Sizin fikrinizcə belə halda hansı tədbirləri görmək lazım idi?*

**Heydər Əliyev:** Qanunlarımıza, əxlaqımızın, partiya intizamının normalarına uyğun olaraq saxtakarları və təhrikçiləri qayda-qanuna çağırmaq lazım idi. Hansı yaxşıdır? Münaqişənin baş verməsinin qarşısını vaxtında, bəlkə də hətta müəyyən xərclərin hesabına almaq, yoxsa iki il qan tökülməsi və iki xalqın bir-birinə düşmən kəsilməsini müşahidə etmək?

Bir dəfə MK plenumunda Azərbaycan KP MK-nın o vaxtkı birinci katibi, məndən sonra işləyən Bağırovla görüşdüm. Ondan soruşdum: – "Siz buna necə yol vermişsiniz?" Bağırov dedi ki, onlar mərkəzə məlumat veriblər. Lakin mərkəz heç bir reaksiya verməyib.

O vaxt Ermənistandan 2-3 gün ərzində bütün azərbaycanlıları çıxartdılar, özü də bu zaman adamlara qarşı güç işlədildi, ölüm, əlillik halları da müşahidə olundu, onlar öz doğma ocaqlarından məhrum edildilər. Sonra Sumqayıt hadisəsi baş verdi. Azərbaycanlılar DQMV-dən çıxarıldılar. Elə o vaxt qəti tədbirlər görmək lazım idi. Bəs nə baş verdi? Sov. İKP MK-nın bir katibi Yerevana, o biri isə Sumqayıta getdi. İki-üç gün orada olandan sonra geri qayıtdılar. Guya ki, bununla hər şey sakitləşdi.,.

Bəs sonra nə oldu? Partiyamızın rəhbərləri, o cümlədən Qorbaçov bunu belə izah etdilər ki, Dağlıq Qarabağda DQMV-ni Ermənistana vermək haqqında çağırışlar əmələ gəlib, günahkar isə Azərbaycanın keçmiş rəhbərləri və uzun müddət yığılıb qalmış problemlərdir. Belə hesab edirəm ki, bu əsassız iddiadır.

Bir tərəfdən vilayətin kifayət qədər yaxşı sürətlə inkişaf etdirilməsi haqqında qərarlar imzalanırdı. 3 beşillik ərzində sənaye istehsalının

həcmi 3 dəfə, kənd təsərrüfatı məhsulu 1 dəfə yarım artmış, sosial sahə, inteqrasiya prosesləri olduqca inkişaf etmişdir. Digər tərəfdən deyilirdi ki, Dağlıq Qarabağın sosial-iqtisadi inkişafı geri qalıb, buna görə də əhali sıxışdırılıb. Bu, heç də məntiqə uyğun deyil.

*– Deməli, xalqların böyuk dostluğundan danışmaq əvəzinə DQMV-nin problemini real şəkildə həll etmək lazım idi?*

**Heydər Əliyev:** Şübhəsiz! Dağlıq Qarabağ məsələsini SSRİ Konstitusiyası əsasında orada deyildiyi kimi, "hər bir müttəfiq respublikanın suverenliyi toxunulmazdır" – prinsipi ilə həll etmək əvəzinə mərkəz anlaşılmaz mövqe tutdu. Qoy Azərbaycanın və Ermənistanın rəhbərləri öz aralarında danışsınlar. Axı, onlar necə danışa bilərlər? Buna hansı hüquqi əsas var? Halbuki, Ermənistan rəhbərləri tribunadan çıxışlar edərək deyirdilər ki, DQMV-ni Ermənistana vermək lazımdır. Daha doğrusu, artıq açıq-açığına başqa bir müttəfiq respublikaya qarşı ərazi iddiası meydana çıxırdı... Belə vəziyyətdə DQMV-də bütünlükdə Moskvaya tabe olan xüsusi idarəetmə komitəsi yaradılır. Daha bir səhv. Bu, eyni zamanda hüquq normalarına və konstitusiyaya ziddir.

*– Xatirimizdədir ki, Dağlıq Qarabağda vəziyyət haqqında məsələ ilk dəfə 1988-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında müzakirə edilib...*

**Heydər Əliyev:** Mən təəccüb edirəm, niyə yubadıldı? Hadisələr 1987-ci ilin axırlarında baş vermişdi. Azərbaycanlıları Ermənistandan 1988-ci ilin əvvəllərində çıxartdılar. Həmin ilin fevral ayında Sumqayıt hadisəsi baş verdi. SSRİ Ali Sovetinin Rəyasət heyəti isə bu məsələnin müzakirəsinə yalnız iyul ayında başladı... Çox uzatdılar, bu iclası keçirtdilər və... əslində heç bir şeyi həll etmədilər.

DQMV haqqında məsələ Moskvada müxtəlif səviyyələrdə çoxlu müzakirə olunub, lakin heç bir nəticəsi olmayıb, vəziyyət isə orada getdikcə kəskinləşib. Əlbəttə, günahın çox hissəsi Azərbaycan və Ermənistanın rəhbərlərinin üzərinə düşür.

Azərbaycan KP MK-nın birinci katibi Vəzirov mürəkkəb vəziyyətdə özünü çox zəif göstərdi. Onun bu vəzifəyə təyin olunması ən böyük səhvdir. Onun partiya işi sahəsində lazımi təcrübəsi və siyasi ha-

zırlığı yox idi. Uzun illər xaricdə işlədiyi üçün respublikadakı vəziyyətdən xəbərsiz idi.

Vəzirovu Azərbaycana gecə Liqaçov apardı. Səhərisi isə təqdim etdi və o, Azərbaycan KP MK-nın birinci katibi "seçildi". Respublikada heç kim onun namizədliyini irəli sürməmişdi. Büro üzvləri, partiya fəalları ilə əvvəlcədən məsləhətləşmə olmamışdı. Halbuki respublikada bu vəzifəyə layiq adamlar var idi. Sov.İKP-nin həmin kadr səhvi nəticəsində Azərbaycanın və DQMV-nin bütün iqtisadiyyatı dağıldı, vəziyyət dözülməz oldu.

Ermənistan Ali Sovetinin sessiyasının DQMV-nin plan və büdcəsini Ermənistanın 1990-cı il planına daxil etmək qərarı görünməmiş bir fakt idi. Məgər bu, Sov. İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin həmin işə ciddi surətdə qarışmasına əsas vermirdimi? Bəs nə oldu? Qərar qəbul olundu ki, Ermənistanın qərarı SSRİ Konstitusiyasına ziddir. Ermənistan isə öz qərarını ləğv etmədi. Bu isə Azərbaycanda yeni narazılıq dalğası oyatdı, vəziyyət kəskinləşdi, dəmiryolunun dayanmasına səbəb oldu...

*– Yəqin ki, Azərbaycanda işlər əsasən 1989-cu ilin sonunda pisləşdi. Bir çox rayonlarda Sovet hakimiyyəti xalq cəbhəsi nümayəndələrinin əlinə keçdi. Sonra Naxçıvanda sərhədləri sökməyə başladılar. Sizcə onları buna nə vadar etdi?*

**Heydər Əliyev:** Mən sərhəddə yaşamışam, oraya yaxşı bələdəm, ona görə ki, əvvəllər dövlət təhlükəsizliyi orqanlarında işləmişəm. Mənim ağlıma da gəlməzdi ki, sərhədyanı kəndlərin əhalisi sərhəd çəpərlərinə qəsd edə bilərlər. Birdən görün nələr baş verir! Bu ona qarşı etiraz idi ki, onların səsini heç kəs eşitmək istəmir. Mərkəzi mətbuatdan məlumdur ki, sərhədyanı kəndlərin sakinləri, onlar hələ son addım atmazdan əvvəl, sərhəddi pozmaqdan iki ay qabaq hakimiyyət qarşısında öz tələblərini qoymuşdular.

Yanvar ayında Bakıda və Azərbaycanda vəziyyət olduqca kəskinləşdi. Lakin lazımi tədbir görülmədi.

Sonra Azərbaycandan gedən qaçqınlara kömək göstərmək haqqında SSRİ Nazirlər Sovetinin qərarı çıxdı. Bu, yaxşıdır, düzgündür. Lakin nəyə görə iki il əvvəl Ermənistandan qovulmuş qaçqınlara kömək gös-

tərmək haqqında qərar verilmədi. Nəyə görə bu iki il ərzində həmin məsələ həll olunmadı?

Adamlar isə hiddətləndilər. Onlar görürdülər ki, ermənilərin çoxu Bakıdan getdikləri üçün onların mənzilləri boşdur və yaşamaq uçün oraya girirlər. Onlara mane olanları isə ya qovurlar, yaxud da öldürürlər. Mən bu hərəkətləri mühakimə edirəm. Belə hesab edirəm ki, respublikanın rəhbərlərinin bu biabırçılığa yol verməmək üçün hər cür imkanları var idi. Yeri gəlmişkən, o zaman ölkənin yüksək siyasi rəhbərliyinin nümayəndələri Bakıda idilər. Bəs, niyə onlar lazımi tədbirlər görmədilər? Əgər bütün bu hadisələri diqqətlə və ardıcıllıqla təhlil etsək görərik ki, bu problem yaranan gündən və iş son dərəcə dəhşətli vəziyyətə çatana qədər çoxlu səhvlərə yol verilmişdi...

*– Heydər Əliyeviç, fikrimizcə çoxlarını maraqlandıran və sizin üçün o qədər da xoşa gəlməyən bir mövzuya toxunmaq istərdik. Siz təqaüdə çıxandan sonra sizi onda günahlandırırdılar ki, Azərbaycandakı fəaliyyətinizdə çoxlu əyintilər, səhvlər buraxmısınız.*

**Heydər Əliyev:** Məni nədə günahlandırırdılar? Nə olar, danışaram...

Biz rəhbər işçilərə dissertasiya müdafiə etməyi qadağan etmişdik. Bizdə - Azərbaycanda belə bir xəstəlik var idi. Raykom katibləri, nazirlər, MK katibləri, MK və Nazirlər Sovetinin məsul işçiləri öz işləri ilə məşğul olmaq əvəzinə, bütün qüvvələrini elmi dissertasiyaların hazırlanmasına və müdafiəsinə sərf edirdilər. Müəyyən edildiyinə görə əksər hallarda bununla özləri məşğul olmur, həmin işi elmi müəssisələrə, ali məktəblərə, öz əlləri altında olan adamlara, özü də dövlət hesabına tapşırırdılar. Xidməti vəzifədən bu cür sui-istifadə halları ilə necə barışmaq olardı?

Buna görə də plenumlardan birində mən belə də dedim: yoldaşlar, kim partiya və dövlət işində çalışırsa, o, bilavasitə öz işi ilə məşğul olmalıdır, elmi dissertasiyaların tərtibinə vaxt itirməməlidir. Əgər kim elmi işə can atırsa, ərizə verib elmi işə keçə bilər, sonra dissertasiyalar yazın, elmimizi zənginləşdirin. İkisindən birini seçin, MK plenumu bu təklifi bəyəndi. Lakin sizə deyim ki, bir nəfər də olsun getmədi.

*– Sizi bir də onda ittiham edirlər ki, neqativ hallara qarşı düzgün mübarizə aparmırdınız, günahsız adamları təqib edirdiniz, öz qohumlarınıza yüksək vəzifələr verirdiniz...*

**Heydər Əliyev:** Mənim işlədiyim dövrdə Azərbaycanda neqativ hallara qarşı mübarizə aparılırdı. 1969-cu ilin axırlarından başlayaraq Azərbaycan partiya təşkilatı ruşvətxorluğa, qohumbazlığa, himayəçiliyə, xidməti vəzifədən tamah məqsədilə istifadə edənlərə, oğurluq hallarına qarşı özünün mübariz səsini qaldırdı. Bunu tələb etdiyim üçün, ayrı-ayrı adamlar mənəviyyata zidd hərəkətlərinə görə cəzalandırıldıqları üçün indi məni günahlandırırlar. Və məni ittiham etmək üçün göstərmək istəyirlər ki, mən öz qohumlarımı müxtəlif vəzifələrə qoymuşam.

Hansı vəzifələrə qoymuşam?! Əgər mən onları nazir və ya deyək ki, raykom katibi, MK-da, Nazirlər Sovetində, Ali Sovetin Rəyasət Heyətində... vəzifələrə təyin etsəydim, bu, başqa iş. Lakin mənim bütün qohumlarım elmi işçidirlər. Özü də onlar mən Azərbaycan KP MK-nın birinci katibi olmamışdan xeyli əvvəl bu yolu seçmişdilər. Mən onları elmi işdən uzaqlaşdırmalıydımmı?

Qardaşım Həsən Əliyevin 83 yaşı var. O, 1937-ci ildən Elmlər Akademiyasında işləyir. 1952-ci ildə onu akademik seçiblər. O zaman mənim 29 yaşım var idi və ən sıravi işdə idim. 17 il keçəndən sonra Azərbaycan KP MK-nın katibi oldum. Yeri gəlmişkən, mən birinci katib olanda, o, Elmi Tədqiqat Coğrafiya İnstitutunun direktoru idi və təqaüdə çıxana qədər həmin vəzifədə qaldı.

Beş il bundan qabaq həyatdan köçən həyat yoldaşım 1947-ci ildə Azərbaycan Tibb İnstitutunu bitirəndə biz hələ ailə qurmamışdıq. Moskvada göz həkimi üzrə ixtisaslaşıb, sonra aspiranturanı bitirib, elmlər namizədi olub. Biz 1954-cü ildə evlənmişik. O, təbii ki, tədricən elmin yolu ilə gedib, böyük mütəxəssis olub, cərrahi əməliyyatlar aparıb, müalicə edib, baş elmi əməkdaş, dosent, professor olub. 130 elmi əsərin müəllifidir. Özü də Moskvada çap olunan elmi işləri olub. İndi yeri gəlmişkən, mənə deyirlər ki, onun diaqnostika üzrə elmi işlərindən biri (iki nəfər moskvalı həkim-oftalmoloqla birgə) nadir əsər sayılır.

Bizim ailədə elə alınıb ki, həm arvadım, həm də mənim qohumlarım elmi işçilərdir. Təkcə mənim elmi dərəcəm yoxdur. Bu da mənim günahımdır.

Məni daha nə üstündə ittiham etməyə çalışırlar? Guya mən Brejnevi tərifləyirdim, onu Bakıda təntənəli surətdə qəbul edirdim. Bunu kim belə eləmirdi? Onun 75 illiyini yaxşı xatırlayıram. O vaxtın qəzetlərində siz Brejnevin fotoportretlərinə, Sov.İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin, SSRİ Nazirlər Sovetinin təbriklərinə rast gələrsiniz. Bu işdə təşkilatçı rolunu kim oynayırdı? Bunun formasını kim təklif edirdi? Sov. İKP MK Siyasi Bürosu! Bunu ki, onlar edirdi. Onlardan bəziləri elə indi də ölkənin siyasi rəhbərliyindədirlər. Biz isə yerlərdə təkrar edirdik.

Yeri gəlmişkən, mən Brejnevlə Moskvada işləməmişəm. Məni Moskvaya Andropov aparıb.

Daha bir ittiham: Leonid İliçi Azərbaycanda təntənə ilə qarşılayırdılar. Axı onu harada təntənə ilə qəbul etmirdilər? İstər ölkədə, istərsə də xaricdə onu təntənəli şəkildə qəbul edirdilər. Bütün respublikalarda, şəhərlərdə. Bizə gəlməmişdən əvvəl, o, Gürcüstanda oldu. Mən Tbilisidə oldum və bunu gördüm. Bu təcrübədən çox şey "öyrəndim", axı müəyyən etiket götürülürdü.

60-cı illərdə mən hələ dövlət təhlükəsizliyi orqanlarında işləyərkən, Xruşşov Bakıya gəlmişdi. O vaxt onu Brejnevdən artıq təmtəraqla qarşıladılar. Nələr baş verdi, küçələrə nə qədər adam çıxarmışdılar. İndi Brejnevi təriflədiyi üçün təkcə Əliyevi ittiham edirlər. Bəs başqaları onu tərifləmirdimi? Hamı tərifləyirdi, o cümlədən o adamlar ki, indi də ölkənin siyasi rəhbərliyindədirlər.

*– Bir vaxt çoxlu söz-söhbət gəzirdi ki, Bakıda Brejnev üçün xüsusi ev tikilib...*

**Heydər Əliyev:** Ağılsızlıqdır! Brejnev Bakıda yaşamırdı və yaşamaq fikrində də deyildi. Onun üçün xüsusi ev tikdirmək nəyə lazım idi? Biz qonaq evi tikdirmişdik. Bakı şəhərində münasib qonaq iqamətgahı yox idi.

Bir çox xarici və sovet qonaqları, o cümlədən Brejnev də orada yaşayıblar.

Vəzirov isə sensasiya üçün bunun mehmanxana-nikah sarayına çevrildiyini elan etdi. Həmin bina isə bu işə yaramırdı. Sonra mən öyrəndim ki, bu, yalandır. Onlar yuxarı mərtəbəni, bütün yataq otaqlarını,

apartamentləri bağladılar. Birinci mərtəbədəki salonlardan birində isə nikah qeydə alırdılar. Birdən İranın prezidenti Rəfsəncani qəfildən onlara görüşə gəldi. Onlar nikah sarayının binası üzərindən lövhəni götürdülər və qonağı bu iqamətgahda yerləşdirdilər. Onun üzərində İranın bayrağını qaldırdılar. Bakıda hamı gülürdü. Bir baxın, İranın prezidentini nikah sarayında qəbul edirlər.

*– Heydər Əliyeviç, lap bu yaxınlarda sizi ittiham edirdilər ki, siz xoşagəlməyən adamlar üzərində məhkəmə prosesi təşkil edirdiniz. Bu, həqiqətə uyğundurmu?*

**Heydər Əliyev:** Mən heç bir məhkəmə prosesi təşkil etməmişəm. Biz yalnız əsas xətti müəyyənləşdirirdik, vəzifəsindən asılı olmayaraq rüşvət alanlar, xidməti vəzifəsindən sui-istifadə edənlər cəzalandırılmalıdırlar. Əyinti üstündə naziri də, raykomun birinci katibini də, təsərrüfat rəhbərlərini də, MK işçisini də işdən və partiya sıralarından xaric edirdik.

Məsələn, incəsənət institutunda yoxlama zamanı böyük biabırçılıq aşkara çıxdı. Özü də bu işlə xalq nəzarəti komitəsi və rayon partiya komitəsinin birinci katibi məşğul olurdu. MK-ya institutun rektoru tərəfindən plan-maliyyə işində, abituriyentlərin qəbulunda buraxılan sui-istifadə halları haqqında ciddi arayış təqdim edilmişdi. Biz bu məsələni büroda müzakirə etdik, həmin rektoru partiyadan xaric etdik, bütün məlumatları mətbuatda dərc etdirdik. Bir neçə aydan sonra istintaq orqanları bu işlə məşğul olmağa başladılar və belə məlum oldu ki, bu əhvalat məhkəməlikdir. Bəzi adamlar cinayət məsuliyyətinə cəlb olundular və müxtəlif cəza tədbirlərinə məruz qaldılar.

*– Sizin fikrinizcə, SSRİ-də iqtisadiyyatın süqutu nə vaxt başlandı? Bu gün biz bu sahədə işlərin vəziyyətini düzəldirik, yoxsa dərinləşdiririk?*

**Heydər Əliyev:** Əlbəttə, iqtisadiyyatda neqativ meyillər, inkişaf sürətinin aşağı düşməsi artıq 70-ci illərin axırlarında, 80-ci illərin əvvəllərində hiss olunurdu. Biz görürdük ki, iqtisadiyyatın inkişaf sürəti ildən-ilə aşağı düşür. Mənim fikrimcə, bunun qarşısını almaq, bu meyli dayandırmaq və iqtisadiyyatı bu vəziyyətə düşməyə qoymamaq mümkün idi.

İqtisadiyyatın xüsusilə pisləşməsi son iki ildə baş verdi. Bu məlumdur... Bu haqda ölkənin rəhbərləri, tanınmış iqtisadçılar da deyir.

*– Bəs, bunun səbəbi nədir, bu niyə baş verdi?*

**Heydər Əliyev:** Hər şey onunla əlaqələndirilir ki, biz keçid dövründəyik. Artıq rəhbərliyin köhnə metodları fəaliyyət göstərmir. Halbuki iqtisadiyyat ildən-ilə zəifləyir. Açığını deyim ki, müharibədən sonrakı dövrlərdə belə vəziyyəti xatırlamıram. Xüsusilə ərzaq məhsulları, xalq istehlakı mallarının çatışmazlığı narahatlıq doğurur. Bu niyə baş verir? Ona görə ki, son illər işin gedişində səhvlər buraxılır.

Məsələn, götürək elə antialkoqol siyasəti haqqında qanunu. Mən belə hesab edirəm ki, burada böyük əyintiyə yol verilib. Sərxoşluğa qarşı mübarizə aparmağın vacibliyi heç kimdə şübhə doğurmur. Lakin hansı üsullarla? Axı, hər şeyi ətraflı fikirləşmək lazım idi. Yoxsa ki, bir tərəfdən biri demokratikləşmədən, iqtisadi metodlarla fəaliyyət göstərməkdən danışır, digər tərəfdən isə inzibati-amirlik sisteminin ən pis formasını tətbiq edirik. Qadağan, təzyiq yolu ilə spirtli içkilərdən istifadə olunmağın qarşısını almaq istəyirik. Hətta pivə zavodlarını da bağladıq. Azərbaycanda bir dəfəyə 70 min hektar üzümlüyü məhv etdik. Keçən il orda cəmi 800 min tona yaxın üzüm yığıldı. Halbuki əvvəllər iki milyon tona qədər üzüm toplanırdı. Bu, böyük ziyan vurdu.

Ərzaq məsələsi daha ağır vəziyyətə düşdü. 1982-ci ildə, Brejnevin vaxtında ərzaq proqramı qəbul olundu. Həmin proqram Qorbaçovun rəhbərliyi altında işlənildi. O, kənd təsərrüfatı üzrə MK katibi, Siyasi Büronun üzvü idi. Ona görə də bu proqram heç bir yerdə tətbiq olunmur. Biz bir neçə il bu proqramla yaşadıq. O bizə heç nə vermədi. Sonra Estoniya, Gürcüstan və bəzi vilayətlərdə aqrar sənayenin yaradılması üzrə bir neçə eksperiment keçirdilər. Sov.İKP MK-nın 1985-ci ilin aprel plenumundan sonra böyük təmtəraqla, heyranlıqla ən yüksək səviyyəyə əsaslanan dövlət aqrar sənayesini yaratdılar. Necə də aparat düzəltdilər. 3 ildən sonra onu da məhv etdilər. Məgər bu düzgün siyasətdir?

Mən keçmişdə buraxılan səhvləri inkar etmirəm. Mən bugünkü nəslə ağır miras qaldığını inkar etmirəm. Lakin son 5 ildə iqtisadiyyatın, sosial həyatın inkişafında azmı səhvlər buraxılıb? Bunlar vəziyyəti yüngülləşdirməyib, əksinə, ağırlaşdırıb. Təəssüf ki, bu haqda danışmaq qəbul olunmayıb. Təkcə onu deyirlər ki, ölkənin bugünkü ağır vəziyyəti keçmişin çoxlu səhvləri ilə bağlıdır.

*– Siz əvvəlki kimi SSRİ Nazirlər Sovetində dövlət məsləhətçisi vəzifəsini tutursunuz?*

**Heydər Əliyev:** Xeyr, mən təqaüdçüyəm. Mən SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən, Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən təqaüdə çıxanda məni elə o dəqiqə SSRİ Nazirlər Sovetində məsləhətçi təsdiq etdilər. Bir il bu vəzifədə işlədim. Sonra çıxdım. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində apardığım məsələlərə baxırdım. O vaxt əvvəlcə nəqliyyata baxırdım. Sonra isə səhiyyə, maarif, ali məktəb, mətbuat, mədəniyyət, ticarət və başqa bütün sosial məsələləri də əlavə etdilər... Bu vəzifədə, təvazökarlıq olmasın, böyük həvəslə və faydalı işlədim. Lakin təəssüf olsun ki, bu işi də mənim üçün həddindən artıq məsuliyyətli saydılar.

**Aleksandr ŞUMSKİ,**
**Aleksey MİTROFANOV**

*"Şərq qapısı" qəzeti, 2 sentyabr 1990-cı il*

## HEYDƏR ƏLİYEV NAXÇIVANA GƏLMİŞDİR

İyulun 22-i naxçıvanlıların yaddaşında həmişəlik qalacaqdır. Həmin gün saat 10.35-də Heydər Əliyev təyyarə ilə Naxçıvana gəldi. Gəlişini ailə üzvlərindən başqa heç kimin bilmədiyi keçmiş sovet rəhbərlərindən biri olan Heydər Əliyev 20 yanvar Bakı hadisələri ilə bağlı ittifaq və respublika rəhbərlərini ciddi tənqid etdiyinə görə siyasi təqiblərə, partiya mətbuatında böhtanlara məruz qalmışdı. Ona qarşı yönəlmiş siyasi təcridetmə kampaniyasının nə ilə bitəcəyini təsəvvür etmək çətin deyildi.

Doğma vətən torpağına qədəm basandan dərhal sonra Hüseyn Cavidin məzarını ziyarət edən Heydər Əliyevin sorağı bir anda ildırım sürəti ilə Naxçıvan Muxtar Respublikasının hər tərəfini bürüdü. Minlərlə adam onunla görüşmək istəyirdi.

Həmin gün axşamçağı Naxçıvan şəhərindəki mərkəzi meydana 100 min nəfərdən çox adam toplaşmışdı. Ayağının altında onlarca qurban kəsilən Heydər Əliyevə ağır müharibə və iqtisadi böhran şəraitində yaşayan naxçıvanlılar özünün nicatı və son ümidi kimi baxırdılar.

Heydər Əliyev meydana - xalqın görüşünə gəldi. Bu böyük şəxsiyyətlə görüşə gələnlərin, onu uzaqdan müşahidə edənlərin şadlığını təsvir etmək çətindir. Heydər Əliyevin sevinc dolu alqışlar altında etdiyi qısa çıxış xalqına sonsuz məhəbbətlə dolu böyük ürəyin sə - si idi... Beləcə, bütün ömrünü Azərbaycan xalqına xidmətdə keçirən, öz rahatlığını, dincliyini gecə-gündüz xalqının xoşbəxtliyinə sərf edən Heydər Əliyevlə onu dünyalar qədər sevən xalqı vahid bir tam kimi birləşib-qovuşdu...

*(1990-cı il iyul ayının 22-də HEYDƏR ƏLİYEVİN Naxçıvan əhalisi ilə ilk görüşünün təəssüratı altında edilən bu qeydlər partiya nəzarətində olan mətbuatda işıq üzü görmədi –* ***tərtibçi****)*

# NAXÇIVAN 1990 - 1993



Naxçıvan şəhərindəki “Qarabağ meydanı” (1990-cı il)

Siyasi təqib ucbatından Moskvadan Naxçıvana gələn möhtərəm Heydər Əliyev 100 min nəfərdən artıq naxçıvanlı tərəfindən hərarətlə qarşılanmışdır. (Naxçıvan şəhəri, 22 iyul 1990-cı il)

## DAHA SUSA BİLMƏZDİM

***Xüsusi müxbirimizin iki dəfə Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan KP MK-nın keçmiş birinci katibi, Sov. İKP MK Siyasi Bürosunun keçmiş üzvü, SSRİ Nazirlər Soveti sədrinin keçmiş birinci müavini Heydər Əlirza oğlu Əliyevlə müsahibəsi***

Heydər Əliyev bir neçə gündür ki, doğma vətəni Naxçıvan torpağındadır. O, Naxçıvan şəhər zəhmətkeşləri ilə görüşmüş, rayon və kəndlərdə olmuş, adamlarla söhbət etmiş, onları maraqlandıran suallara cavab vermişdir.

Heydər Əliyevin Naxçıvana gəlməsini eşidən oxucular tez-tez redaksiyamıza zəng vurur, onun səhhəti, işi, fəaliyyəti ilə maraqlanırlar. Oxucuların arzusunu nəzərə alaraq xüsusi müxbirimiz Heydər Əliyevlə görüşüb söhbət etmişdir.

Söhbətə başlamazdan əvvəl bildirmək istəyirəm ki, Heydər Əliyev doğma Naxçıvan torpağında bacısının mənzilində yaşayır. Gözəl, səliqəli həyətdə Heydər Əliyevlə görüşə onun dostları, qohumları, pərəstişkarları gəlirdilər. O, bizimlə çox səmimi və mehriban görüşdü. Onu da deyim ki, gəldiyi günə nisbətən özünü daha gümrah hiss edir. Çöhrəsində bir nikbinlik, xoş əhvali-ruhiyyə var. Sadə yarımqol köynək geymişdi. Naxçıvanla bağlı əhvalatları şirin yumorla söyləyir. O danışdıqca bu böyük insanın dərin, möhkəm hafizəsinə həsəd aparmalı olursan. Özümü təqdim etdim, yarızarafat, yarıgerçək dedi: Bir şərtlə müsahibə verərəm ki, olduğu kimi dərc edəsiniz. Mən razılaşdım. Bir qədər söhbət etdikdən sonra günün ikinci yarısında görüşməyi məsləhət bildi. Həmin vaxt gəldim. Litvada çıxan "Respublika" qəzetinin müxbiri Ritas Siyatalis də burada idi. O, Heydər Əliyevin gəlməsini eşidib onunla müsahibə aparmağı qərara almışdı. Belə şərtləşdik ki, lazım gəlsə bir-birimizin suallarından istifadə edək.

– *Yoldaş Əliyev, hər şeydən əvvəl icazə verin qəzetimizin minlərlə oxucusu adından Sizi salamlayım və Sizə möhkəm cansağlığı arzulayım.*

– Çox sağ olun!

– *Siyasi Bürodan çıxdıqdan sonra Sizin həyatınız necə keçir?*

– Nə deyə bilərəm, təxminən üç il əvvəl mən Siyasi Büronu tərk etmişəm. Əsas səbəb xəstəliyim olub. İnfarkt keçirdim. Həkimlər fəal həyat tərzindən əl çəkməyi məsləhət gördülər. Artıq üç ildir ki, siyasi həyatdan kənardayam. Lakin 1989-cu ilin aprelinədək Sov. İKP Mərkəzi Komitəsinin üzvü, həmçinin SSRİ və bu ilin ortalarınadək RSFSR Ali Sovetlərinin deputatı olmuşam. Amma fəaliyyət göstərməmişəm. Bununla bərabər mən bir sıra qüvvələrin, xüsusilə bəzi kütləvi informasiya vasitələrinin ədalətsizliyini, özümə qarşı qərəzkarlığını üzərimdə hiss etmişəm. Mənə elə gəlir ki, bu işdə müəyyən dərəcədə partiya orqanlarının müvafiq dairələrinin əli vardır. Azərbaycanda bu, şübhəsiz belə idi. Lakin Moskvada da bu cür "hücumlar" təşkil olunurdu. Cəmi il yarım Azərbaycan KP MK-nın birinci katibi işləyən və fəaliyyəti biabırçı uğursuzluqla başa çatan Ə. Vəzirov bu işin şübhəsiz, təşkilatçısı idi. O, mənim haqqımda istər respublika, istərsə də Moskva mətbuatında böhtanlı məqalələr çap olunmasını təşkil edirdi. Mən dözməyə çalışırdım. Əlbəttə, bir insan kimi qəlbim inciyirdi, axı, özümə qarşı belə münasibətlər haqsız idi. Buna görə də 1989-cu ilin aprelində təəccüblü bir hadisə - Mərkəzi Komitənin 110 üzvünün və üzvlüyə namizədinin öz arzusu ilə Mərkəzi Komitədən çıxdığı bir zamanda, axırıncı imkan olduğunu nəzərə alıb MK-nın plenumunda çıxış etdim və dedim ki, mənə qarşı böhtançılıq kampaniyası təşkil edilibdir. Bu başdan-ayağa haqsızlıqdır. Mən belə hesab edirəm ki, ləyaqətlə işləmişəm. Əlbəttə, səhv və nöqsanım da olub. Bunsuz mümkün deyil. Lakin mənim ünvanıma deyilən böhtanlar heç bir həqiqətlə uyuşmur. Bu dediklərim uzun müddət üzvü olduğum Siyasi Büronun üzvlərinə və çiyin-çiynə işlədiyim yoldaşlara təsir etmədi. Onlar dediklərimə əhəmiyyət vermədilər.

Sonra mənə bir sıra müxbirlər müraciət etdilər. Mən xeyli müddət müsahibə vermədim. Keçən ilin noyabr ayında "Teatralnaya jizn" jurnalının müxbiri Andrey Karaulov mənə müraciət etdi. Mən ona müsahibə verdim. Daha sonra Azərbaycanda bu il yanvarın 19-20-də törədilən cinayət, buraya böyük miqdarda hərbi qüvvə yeridilməsi və bunun da öz növbəsində xeyli insan tələfatına səbəb olması mənə çox pis təsir etdi. Mən daha susa bilməzdim. Buna görə də Azərbaycan Respublikasının Moskvadakı daimi nümayəndəliyinə gəldim. Burada mət-

buat konfransında müxbirlərin suallarına cavab verərək bu hərəkətin antihumanist, konstitusiyaya zidd hərəkət olduğunu bildirdim. Mən ölkənin siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun hərəkətini pislədim. Bildirdim ki, Azərbaycanda yaranmış ağır vəziyyəti belə bir tədbirə əl atmadan da nizama salmaq olardı. Lakin mərkəz qanundan kənar yolla getdi. Həmin gündən sonra mənə qarşı hücumlar daha da gücləndi. Düz on gün sonra "Pravda" qəzetində mənə qarşı vicdan və insan ləyaqətindən uzaq, cəfəngiyat və hər cür uydurmalarla dolu məqalə çap olundu. Bu vaxt mən başa düşdüm ki, bir halda ki, mübarizə lazımdır, deməli mübarizə aparmalıyam. Bax, beləliklə mən bu günə, indiki vəziyyətə gəlib çıxdım.

*– Mümkünsə deyin, Siz öz əvvəlki, həm Azərbaycan KP MK-da birinci katib, həm də Siyasi Büroda işinizi necə qiymətləndirirsiniz? Olub keçənləri yada salandan sonra özünüzü mühakimə etmirsinizmi?*

– Mən uzun illər Bakıda və Moskvada respublika və ittifaq miqyaslı rəhbər vəzifələrdə işləmişəm. Onu da deyə bilərəm ki, öz xalqıma, Sovet İttifaqına, mənsub olduğum Kommunist Partiyasına namus və vicdanla xidmət etmişəm. Mən belə hesab edirəm ki, indi bütün ölkənin, hər bir xalqın, hər bir respublikanın həyatında yeni mərhələ başlanıb. Hər bir xalq öz taleyini özü bildiyi kimi müəyyənləşdirməlidir. Həyatımın ötən günlərinə gəldikdə isə deməliyəm ki, keçmiş keçmişdə qalıb. Ümumiyyətlə, bu gün bütün işləri başlı-başına buraxıb keçmişi həddən artıq ələk-vələk etmək mənim xoşuma gəlmir. Bir baxın, artıq altıncı ildir ki, keçmişi amansız surətdə söyürük. Altıncı ildir ki, ölkəmiz iqtisadi və siyasi cəhətdən dağılır. Bütün bu dövrlərdə bizə vədlər "yedirdirlər", nə bilim bu yeni mərhələdir, bu dönüş mərhələsidir, bu kəskin dönüşdür və i.a. Axı, nə qədər mərhələ ola bilər. Buna görə də belə hesab edirəm ki, indi hər bir adama, hər bir xalqa, hər bir siyasi təşkilata və siyasi qüvvəyə öz taleyini müstəqil müəyyən etmək imkanı verilməlidir. Bugünkü fikrim budur.

*– Kommunist Partiyası haqqında sizin təsəvvürünüz dəyişibmi?*

– Bu çox maraqlı sualdır. Bu məsələyə dialektik nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Amma bir şey aydındır ki, bu gün partiya çox ağır vəziyyətdədir. Əgər sırasında olduğun partiya dağılıbsa, təbii ki, bu hal

səni də düşünməyə vadar edir, həm də geniş mənada düşünməyə vadar edir. Deməli, mən də düşünməyə məcburam.

– Altıncı ildir ki, ölkədə yenidənqurma gedir. Bir təcrübəli siyasi xadim kimi Siz bunu necə qiymətləndirirsiniz?

– Bilirsiniz, "yenidənqurma" sözü hamını təngə gətirib. Hər bir anlayışın nüfuzunu qoruyub saxlamaq lazımdır. Nüfuz itəndən sonra ona inam da itir. Sovetlər ölkəsinin həyatında gedən dəyişikliklər və bu dəyişikliklərin partiya tərəfindən həyata keçirilməsinə gəldikdə isə deməliyəm ki, mühafizəkar qüvvələr bu işə əngəl törədir, bu işi pozur. Ölkədə siyasi və iqtisadi böhran hökm sürür. İndi adamların rifah halı ildən-ilə pisləşir. Ərzaq və xalq istehlakı mallarının qıtlığı artır. Bir sözlə, ölkədə həyat get-gedə ağırlaşır. Belə isə nə üçün siyasi qüvvələr və bütün dövlət aparatı yaşayır. Sovet adamının yaşayışı get-gedə pisləşir. Buna görə də mənə elə gəlir ki, nəticə neqativ nəticədir. Əlbəttə, bununla yanaşı indi öz fikrini sərbəst söyləmək, respublikaların öz suverenliyi və müstəqilliyi uğrunda mübarizə aparmaq imkanı vardır.

*– Yeltsinin, sonra isə Sobçakın, Popovun siyasi meydana atılmasına necə baxırsınız? Siz onlarla şəxsən tanışsınızmı?*

– Mən ayrı-ayrı adamlar haqqında yox, problemlər haqqında danışmaq istərdim. Şəxsiyyət özünü bu gün bir, o biri gün isə başqa bir cəhətdən göstərə bilər. Ona görə də gəlin bu sualdan yan keçək.

*– Bu ilin sentyabrında Azərbaycanda respublika vətəndaşları xalq elçilərinə səs verəcəklər. Güman etmək olar ki, bu dəfə deputatlar həqiqi xalq elçiləri olacaqlar. Siz bir siyasi xadim kimi Azərbaycanın yeni Ali Sovetinin başlıca vəzifəsini nədə görürsünüz? Ali Sovet nəyi həll etməlidir?*

– Əgər həqiqətən əsl xalq deputatları seçiləcəksə (bunu həyat göstərər, gəlin irəli qaçmayaq) onda müəyyən söz demək olar. İndi isə qısaca deyim ki, mən Azərbaycanın iqtisadi və siyasi suverenliyinin, tam müstəqilliyinin tərəfdarıyam.

*– Bu ilin 19-20 yanvarında Bakı hadisələrinin əsas təqsirkarı kimlərdir?*

– Azərbaycanın keçmiş rəhbərliyi və ölkənin siyasi rəhbərliyi.

*– Vaxtınızı necə keçirirsiniz? Əvvəllər az qala bütün sutkanı işləyirdiniz. İndi necə?*

– Bilirsiniz, son iki ildə mənim haqqımda o qədər ədalətsizliklər edilib ki, bunlar mənim həyatımı zəhərləyib. Belə bir əhvali-ruhiyyədə olan adam isə özünü toplayıb sistemli bir iş aparmaqda çətinlik çəkir. Bəzən çox mütaliə edirəm, bəzən yazıram.

*– Memuar yazırsınızmı?*

– Hələ konkret heç nə demək olmaz, amma bəzi qeydlər edirəm. Sinəm doludur. Onlar gərək yazıla və xalqa çatdırıla. Əgər bu borcumu yerinə yetirmədən dünyadan köçsəm, çox pis olar. Mənim bildiklərimi demək olar ki, Azərbaycanda heç kim bilmir.

*– Sizə hal-hazırda nə kimi imtiyazlar verilib?*

– Heç bir imtiyaz verilməyib.

*– Nə kimi məhdudiyyətlər var?*

– Məhdudiyyət ondan ibarətdir ki, evində yaşayırsan, heç bir imtiyazın da yoxdur. Pensiyanı alırsan, yaşayırsan.

*– Belə çıxır ki, mağazaya da, dükana da, bazara da özünüz gedirsiniz?*

– Bəli, bəli.

*– Fərdi maşınınız da yoxdur?*

– Xeyr, yoxdur. Biz azərbaycanlıyıq. Yay vaxtı mənim və uşaqlarımın Azərbaycana gəlməsi üçün imkan yoxdur. Bakıda nə evim var, nə bağım. Gəlib düşmüşəm qardaşım Cəlalın evinə, onun da balaca-balaca otaqları var. İki gecə divanda yatmışam. İndi də bacım evindəyəm.

*– Naxçıvanda belə qarşılanma gözləyirdiniz?*

– Meydanı nəzərdə tutursunuz?

*– Bəli.*

– Mənə elə gəlirdi ki, belə də olmalıdır.

*– Gəlişinizin əsas məqsədi?*

– Əvvələn, mən beş ildir ki, Azərbaycanda olmamışam. Axı, Vətən çəkir, get-gedə daha çox çəkir. İkinci, mənim evində oturduğum böyük bacım bir neçə il əvvəl vəfat edib. O vaxt mən xəstəxanada olduğumdan bunu mənə bildirməyiblər. Son vaxtlarda bildiriblər. Mən onun xatirəsini yad etməliydim. Atamın qəbri burada, anamın qəbri Bakıdadır. Onları da ziyarət etməliydim, ya yox?

*– Siz üç-dörd il əvvəl Naxçıvana gələ bilərdinizmi?*

– Dörd il əvvəl mən vəzifədəydim.

– *Vəzifədən çıxandan sonra necə?*

– Vəzifədən çıxandan sonra Naxçıvana gələ bilərdim, amma gələ bilmədim. Bir il sonra şərait olmadı, Azərbaycanda vəziyyət qarışdı, Qarabağ hadisələri qalxdı, mərkəzi mətbuat orqanları da yazdı ki, bu hadisələrdə Əliyev günahkardır. Ona görə də Qarabağda ermənilər ayağa qalxıb Ermənistana köçmək istəyirlər. Çünki Əliyev vaxtilə Qarabağa pis baxıbdır. Hörmətli yazıçımız Mirzə İbrahimov kimi adam da "Sovetskaya kultura" qəzetinə belə bir məqalə yazdı.

– *Burada da gəlib camaat qarşısında dedi ki, yazını o yazmayıb, redaksiyada dəyişiblər.*

– Bəli, mənə heç bir yerdə imkan vermədilər ki, çıxış edib bu barədə sözümü deyim. Nəhayət, 1989-cu ilin aprel ayında MK-nın tərkibindən çıxanda öz fikrimi dedim. Bildirdim ki, bu, yalandır. Qorbaçov deyirdi ki, guya Qarabağda ermənilərin bu məsələni qaldırmağa haqqı vardır. Çünki onlar guya uzun illər ehtiyac içərisində olublar. Onlar əzab çəkmiş, güzəranları pis keçmiş, onlara yaxşı baxmamışlar. Bu da tam yalandır. Bunu isə görün kim deyir? Bu böyüklükdə ölkənin rəhbəri. Orada da deyir, burada da deyir, Vəzirov da bunu təkrar edirdi, Mirzə İbrahimov da təkrar edirdi, mənimlə Azərbaycanda rəhbərlik edən adamlar isə ağızlarına su alıb dururdular. Belə vəziyyətdə mən necə gələydim. İstəyirdim Bakıya gələm. Camaatı yığıb deyəm ki, bunlar yalandır, ancaq mənə imkan vermirdilər.

– *Deməli, məhdudiyyət var idi?*

– Əlbəttə, var idi.

– *Siz üç gündür burdasınız. Nə qədər qalacaqsınız? Həmişəlik qalmaq istərdinizmi?*

– Nə qədər qalacağam? Görək də, necə olur. Başqa yerdə ev verməsələr, elə gəlib burda qalacağam.

– *Dünən Nehrəm kəndinin camaatı Sizi Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizəd irəli sürdü. Mən inanıram ki, Siz deputat seçiləcəksiniz. Belə olan təqdirdə nə kimi platforma irəli sürmək istərdiniz?*

– Platformamı yuxarıda dedim. Siyasi və iqtisadi cəhətdən suveren, müstəqil Azərbaycan uğrunda mübarizə aparmaq.

*– Yoldaş Əliyev, Siz bir anlığa mənim yerimə olsaydınız, Heydər Əliyevə ən başlıca sualınız nə olardı?*

– (Xeyli gülür) Hansı sualı verərdim? Çox sual verərdim (yenə gülur).

*– Başlıca sual?*

– Başlıca sual? Soruşardım ki, ay Əliyev, bəzi adamları niyə yaxşı tanımamısan?

– Gözəl sualdır.

*– Qarabağ hadisələri sizin vaxtınızda baş verə bilərdimi?*

– Mənim vaxtımda başlaya bilməzdi.

*– Niyə?*

– Mən buna yol verməzdim.

*– Necə?*

– Əlimdə olan bütün imkanlardan tam istifadə edərdim.

*– Qarabağın aqibəti necə olacaq?*

– Çox çətindir. Gərək Azərbaycan öz torpağının tam sahibi olsun. Bir qarış torpağı da vermək olmaz. Mən 14 il Azərbaycana rəhbərlik eləmişəm, bir ovuc torpaq verməmişəm, amma məndən əvvəlki və sonrakı dövrlərdə Azərbaycandan xeyli torpaq veriblər. Mənə belə gəlir ki, mübarizə aparmaq lazımdır. İndiki mübarizə yaramaz. Burda bir kəlmə de, orda bir kəlmə de. Bu, mübarizə deyil, bu, camaata göstərməkdir ki, guya mən mübarizə aparıram.

*– Mən Qarabağı dedim, amma Naxçıvanda da vəziyyət çoxdandır ki, gərgindir. Bu vəziyyətdən çıxış yolu nədədir? Dediyiniz mübarizənin üsulu necə olmalıdır?*

– Rəhbərliyin gərək iradəsi olsun, iradə! Gərək hər bir rəhbər adam belə hesab etsin ki, onun borcu xalqının, öz torpağının, rəhbərlik etdiyi vilayətin, respublikanın müqəddəsliyinin keşiyində durmaqdır. Demək özünü bir kənara qoymalısan, öz şəxsi arzularından əl çəkməlisən, özünü ancaq bu işə sərf etməlisən. Mən 14 il respublikaya, xalqa xidmət etdim. Ona görə də indi, necə deyərlər, çılpaq qalmışam. Ancaq mən heyifsilənmirəm. Bir də siyasi fəaliyyətə başlasaydım, elə bu yolla da gedərdim, başqa yolla gedə bilməzdim.

*– Bu yaxınlarda Sov. İKP-nin XXVII qurultayı öz işini qurtardı. Həm də Siz Naxçıvan partiya təşkilatı tərəfindən Azərbaycan kommunistləri-*

*nin ali məclisinə nümayəndə seçilmisiniz. Mümkünsə deyin, Sov. İKP-nin XXVII qurultayı Sizə necə təsir etdi? Bir də Azərbaycan kommunistlərinin ali məclisinin birinci hissəsində iştirak etmədiniz, ikinci hissəsində iştirak etmək fikriniz varmı?*

– Sov. İKP XXVII qurultayı həqiqi partiyaçıların ümidlərini doğrultmadı. Qaldı ikinci məsələyə, mən Naxçıvan kommunistlərinə minnətdaram ki, Moskvada ola-ola məni qurultaya nümayəndə seçdilər, amma gedib-getməməyimi deyə bilmərəm. Çox qurultayların nümayəndəsi olmuşam, lakin Azərbaycan Kommunist Partiyasının XXXII qurultayına nümayəndə seçilməyim mənim üçün böyük şərəfdir. Fəqət mənim bu qurultayın açılışında iştirak etməyimə imkan vermədilər, qarşımı kəsdilər. Ona görə də bilmirəm qurultayın ikinci hissəsinə getməyimə lüzum varmı? Güman ki, getməyəcəyəm.

*– Müxtəlif mətbuat dairələrində Sizi "islam fundamentalizmi"nin tərəfdarı kimi təqsirləndirirlər...*

– Bilirsiniz, yalan, böhtan indi elə geniş miqyas alıb ki, mənə desələr sən Roma papasının təbliğatçısısan, yenə təəccüblənmərəm. Çünki o qədər yalan şeylər yazılır ki, artıq adamın qulağı öyrəşib. O ki qaldı mənim islam fundamentalizminin təşkilatçılarından olmağıma, deməliyəm ki, mən belə bir arzuda da olmamışam. İslam dininə gəldikdə isə deməliyəm ki, mənim ona hörmətim var. Ümumiyyətlə, bütün dinlərə hörmətim var. Düzdür, indi islam dini də inkişaf edir. Başqa dinlərə nisbətən zəif inkişaf edir. İslam dininin respublikada inkişaf etməsini müsbət qiymətləndirirəm.

*– Allaha inanırsınız?*

– İlahi qüvvəyə inanıram.

*– Sizin Moskvada oğlunuz və qızınız var. Onlar nə ilə məşğuldurlar, harada yaşayırlar?*

– İndi hamımız bir yerdə yaşayırıq. Həyat yoldaşım beş il qabaq vəfat etmişdir. Ondan sonra mənim istinad nöqtəm ailəmdir. Qızım, oğlum, nəvələrimlə bir yerdə yaşayıram. Oğlum İlham Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirib. İngilis, fransız dillərini bilir. Həmin institutun aspiranturasını qurtarıb, namizədlik dissertasiyası müdafiə edib. Amma mən işdən çıxandan sonra onun da həyatında çətin-

liklər baş verib. İxtisasına görə iş vermirlər. Deyirlər ki, sən Əliyevin oğlusan, yazdığı əsərlər bir tərəfdə qalıb. Bu da ona əzab verir. Qızım Sevil də şərqşünaslıq institutunun aspiranturasını bitirib, elmlər namizədidir, ərəbşünasdır. Həmin institutda işləyirdi. Son vaxtlar işləmir. Beş nəvəm var.

– *Deməli, evlənməyiniz haqda dedi-qodu boş şeydir.*

– Dedi-qodu deyil, ağ yalandır. Mən həyat yoldaşım Zərifə xanıma çox sadiq olmuşam. Onun xatirəsi mənim üçün müqəddəsdir. Hərənin bir xasiyyəti var. Ailə münasibətlərində mən ehkamçıyam.

– *Sevimli məşğuliyyətiniz?*

– Kitabı daha çox sevirəm. Çoxlu kitablarım var. Təəssüf ki, arxivimin bir hissəsi Vəzirovun təqsiri üzündən məhv oldu. Mədəniyyəti çox sevirəm. Musiqini başa düşürəm, rəssamlığı xoşlayıram. Vaxtilə memar olmaq istəmişəm. Hətta iki kurs memarlıq fakültəsində oxumuşam. Mədəniyyət adamları ilə həmişə yaxın olmuşam. Başqa məşğuliyyətim olmayıb, balıqçılıq, ovculuq etməmişəm.

– *Kimi daha çox oxuyursunuz?*

– Azərbaycanın həm keçmiş, həm də müasir yazıçılarının əsərlərini, Qərbi Avropa və rus klassiklərini oxumağı çox sevirəm. Son dörd-beş ildə yaranan əsərləri oxumaq həvəsim yoxdur. Konyunkturaçı ədəbiyyatdır.

– *"Şərq qapısı" qəzetinin oxucularına sözünüz?*

– Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən, burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. Qəzetiniz o vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb. Oxuculara daha fəal olmağı arzulayıram.

– Müsahibə üçün çox sağ olun!

Müsahibəni apardı
**M. MÖHSÜN**

*"Şərq qapısı" qəzeti, 26 iyul 1990-cı il*

## NİYƏ SUSURLAR?

İttifaq əhəmiyyətli fərdi pensiyaçı, 1976-1982-ci illərdə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, sonra isə Siyasi Büronun üzvü, 1969-1982-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi, 1982-1987-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, görkəmli partiya və dövlət xadimi, iki dəfə Sosialist Əməyi Qəhrəmanı, ən nəhayət, həmvətənimiz (!) Heydər Əliyev iyulun 20-də Azərbaycana gəlmiş, iyulun 22-də isə doğma vətəni Naxçıvana getmişdir.

Heydər Əliyev Bakıya gələn kimi, Şəhidlər xiyabanına getmiş, dəhşətli faciənin qurbanlarının məzarlarını ziyarət etmiş, bir daha qəlbən sarsılmışdır.

Azərbaycan partiya təşkilatının keçmiş rəhbərinin Bakıya və Naxçıvana gəlişini "Komsomolskaya pravda" (24 iyul 1990-cı il) "Алиев вернулся?" başlığı altında dərc etdiyi xəbərdə oxuculara çatdırmış və qeyd etmişdir ki, "Heydər Əliyev Azərbaycan KP XXXII qurultayının nümayəndəsidir. Lakin o, qurultayın birinci hissəsində iştirak etməmiş, çox güman ki, ikinci hissəsində iştirak edəcəkdir". (Naxçıvan şəhər partiya təşkilatından Azərbaycan KP XXXII qurultayına nümayəndə seçilməsinə baxmayaraq Heydər Əliyev onun işində ümumiyyətlə iştirak etməmişdir - **tərtibçi**).

Bunlar öz yerində. "Алиев вернулся?" başlığındakı sual işarəsini başa düşmək olmur. Cavab veririk: "Да, вернулся! И навсегда!".

"İzvestiya" qəzetinin 25 iyul 1990-cı il tarixli nömrəsində isə xəbər verilir ki, "İyulun 22-də axşam Naxçıvanda Lenin meydanında Heydər Əliyevlə əhalinin görüşü olmuşdur. Görüşdə 30 min adam iştirak etmişdir"...

Bizə məlum deyil, "İzvestiya" qəzeti görüşdə 30 min adamın iştirak etdiyini hansı mənbədən "öyrənib", deməliyik ki, həmin görüşə 80 mindən çox adam gəlmişdi...

"Аргументы и факты" qəzetinin 28 iyul 1990-cı il tarixli nömrəsində kiyevli V.Boykonun "Sov.İKP MK Siyasi Bürosunun keçmiş üzvü, İttifaq əhəmiyyətli fərdi pensiyaçı Heydər Əliyev indi nə işlə məşğul olur?" sualına cavab olaraq bildirilir ki, "İnterfaks" agentliyinin verdi-

yi məlumata görə, Heydər Əliyev siyasi fəaliyyətini davam etdirir. O, iyulun 22-də Naxçıvan şəhərinin mərkəzi meydanında yerli sakinlərlə görüşmüşdür. Bəzi məlumatlara görə, görüşə 80 min adam gəlmişdir. Əliyev mitinqdə çıxış edərək bildirmişdir ki, "Azərbaycan xalqının birliyi, suverenliyi və azadlığı uğrunda mübarizə aparacaqdır".

Yeri gəlmişkən, qeyd edək ki, "Kommunizm" sovxozunun əmək kollektivi tərəfindən 840 nömrəli Nehrəm seçki dairəsi üzrə Heydər Əliyev Azərbaycan SSR xalq deputatlığına namizəd irəli sürülmüşdür.

Neçə gündür, respublika qəzetlərini "ələk-vələk" edirəm, radio-televiziya verilişlərini izləyirəm, yuxarıda göstərdiklərim barədə heç bir məlumata rast gəlmirəm.

Görəsən, respublika mətbuatı, radio, televiziya hələ nə qədər susacaq?

Ümumiyyətlə, bilmək istəyirəm, bu nə deməkdir? Axı, heç bir mədəni xalqda özününkünə belə münasibət göstərməzlər.

**Xeyrəddin QOCA,**
SSRİ Jurnalistlər İttifaqının üzvü

*"Vətən səsi" qəzeti, 1 avqust 1990-cı il*

## HƏMYERLİLƏRİMƏ MİNNƏTDARAM

(İki dəfə Sosialist Əməyi Qəhrəmanı HEYDƏR ƏLİYEVİN Naxçıvan gəncləri ilə görüşündən qeydlər)

Xəbər verdiyimiz kimi xalqımızın böyük oğlu, görkəmli siyasi və dövlət xadimi, iki dəfə Sosialist Əməyi Qəhrəmanı, ittifaq əhəmiyyətli təqaüdçü Heydər Əliyev artıq ikinci həftədir ki, böyüyüb boya-başa çatdığı doğma Naxçıvan torpağındadır. Öz eloğluna sonsuz məhəbbət və hörmət bəsləyən naxçıvanlılar tez-tez Heydər Əliyevi görüşlərə dəvət edir, ona müxtəlif suallarla müraciət edir, arzularını bildirirdilər.

Naxçıvan gənclərinin xahişi ilə Heydər Əliyev onlarla görüşmüşdür. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin Siyasi Maarif Evində keçirilən bu görüş iki saatdan artıq davam etmişdir. Görüşdə Heydər Əliyev bir çox suallara cavab vermiş, bu və ya başqa məsələyə öz münasibətini bildirmişdir. O demişdir:

– Son illər ölkədə baş verən ictimai-siyasi dəyişikliklər adamların şüuruna, əqidəsinə, ideya-siyasi baxışlarına təsir etmişdir. Bu mənada bizim gələcəyimiz olan gənclər də get-gedə ölkənin siyasi həyatında daha fəal iştirak edirlər.

Bu salonda təkcə gənclər yox, yaşlılar da əyləşib. Mənim hamınıza böyük ehtiramım var. Hər şeydən əvvəl siz azərbaycanlısınız. Bu günlər çox yerdə olmuşam, fikirlərimi söyləmişəm. Nehrəm kəndinin camaatı məni Azərbaycan SSR-in xalq deputatlığına, Naxçıvan alt trikotaj paltarları fabrikinin kollektivi isə Naxçıvan MSSR-nin xalq deputatlığına namizəd irəli sürmüşlər. Mən onlara, eləcə də Naxçıvanın bütün sakinlərinə səmimi-qəlbdən təşəkkür edirəm. Onu da deyim ki, bundan əvvəl mən dəfələrlə SSRİ, RSFSR və Azərbaycan SSR-in Ali Sovetlərinin deputatı olmuşam. Vaxtilə Naxçıvanda olarkən, 26 yaşında Naxçıvan şəhər sovetinə deputat seçilmişəm. İlk dəfədir ki, Naxçıvan MSSR xalq deputatlığına namizəd göstərilirəm. Bu mənim üçün əvvəlki deputatlıqlardan daha şərəflidir.

Məndən tez-tez soruşurlar ki, nə üçün Azərbaycan partiya təşkilatının XXXII qurultayında iştirak etməmişəm? Onu deyim ki, həmyerlilərimə çox minnətdaram. Mən Azərbaycandan, Naxçıvandan kənarda, Moskvada yaşadığım bir vaxtda, Naxçıvanla ürəyim istəyən əlaqəni saxlamadığım bir vaxtda muxtar respublikanın partiya təşkilatı məni Azərbaycan kommunistlərinin ali məclisinə nümayəndə seçmişdir...

Açığını desəm, qurultayda iştirak etmək istəyirdim. Lakin buna imkan vermədilər. Belə dedilər ki, indi Azərbaycanda vəziyyət gərgindir və qurultayda iştirakım onu daha gərginləşdirər. Şübhəsiz, həqiqət belə deyildir. Mənim Bakıya gəlməyim bəzi dairələrin arzularına xilaf idi. Mənim Bakıya gəlməyimi eşidən adamlar, xalq yox, bəzi adamlar o qədər təşvişə düşmüşdülər ki, hətta bir qrup çirkin adamı təyyarə meydanına yığıb piket təşkil etmişdilər. Bəs bu adamlar kimlər idi? Vaxtilə işdən, partiyadan qovulmuş adamlar. Hətta mən Naxçıvana gəlmək üçün Bakı təyyarə meydanına düşəndə yenə həmin adamların bəzilərini burada gördüm. Sual olunur: mənim Bakıya gəlməyimi qardaşımdan savayı heç kəs bilmədiyi halda, bu üzdəniraqları kim aeroporta toplamışdı? Əlbəttə, vaxt gələcək, zaman özü buna cavab verəcəkdir.

Azərbaycana, o cümlədən Naxçıvana adi vətəndaş kimi gəlmişəm. Hətta Naxçıvana gələndə belə hamınızın tanıdığı Afiyəddin Cəlilova xəbər verməmişəm. O, mənim gəlməyimi sonra bilmişdir.

Soruşursunuz ki, bu gün Azərbaycan xalqı düşdüyü bu siyasi böhrandan necə çıxa bilər? Bəri başdan deyim ki, Azərbaycan xalqının belə bir böhrana düşməsində heç bir təqsiri yoxdur. Onu bu vəziyyətə salıblar. Bunlar da ilk növbədə Azərbaycanın qonşuluğunda yerləşən Ermənistanda və Dağlıq Qarabağda fəaliyyət göstərən erməni millətçiləridir. İkinci təqsirkar həmin hadisələr başlanan dövrdə Azərbaycanda fəaliyyət göstərən rəhbərlik, bu rəhbərliyin məsuliyyətsizliyi və xalqa can yandırmamasıdır. Hadisələrin üstünü nə qədər ört-basdır etmək olar? Əlbəttə, zaman gələcək və bu vəziyyətin yaranmasında günahı olanlar xalq qarşısında cavab verməli olacaqlar.

Məlumdur ki, Dağlıq Qarabağ hadisələri 1987-ci ilin noyabrında başladı. 1988-ci ilin fevralında Ermənistanda yaşayan azərbaycanlılar

öz doğma yurdlarından qovuldular, həm də Sumqayıt hadisələri baş verdi. Məsələyə isə 1988-ci ilin iyul ayında baxıldı. Özu də Azərbaycan deputatlarının iştirakı ilə. Bundan sonra özünü doğrulda bilməyən xüsusi idarə üsulu tətbiq edildi. Bu isə əsl həqiqətdə Azərbaycanın Konstitusiya hüququnun pozulması idi. Beləliklə, vəziyyət get-gedə çətinləşdi, lakin ümidsizliyə qapılmaq lazım deyil. Yaranmış vəziyyətdən çıxmaq olar, mərdlik və cəsarət göstərmək lazımdır. Yalnız tribunadan çıxış etməklə vəziyyəti düzəltmək olmaz. Hər şeydən əvvəl bu məsələni demokratik yolla həll etmək üçün ittifaq hökuməti qanunauyğun, düzgün hərəkət etməlidir. Azərbaycanın o dövrdəki rəhbərləri isə konkret iş görmək əvəzinə, yalnız söz verməklə kifayətlənirdilər.

Naxçıvanda olmağım Moskvada və Bakıda bəzi adamları narahat edir. Gəlməyim barədə qəzetlərdə eyhamlı xəbərlər də var. Nə olsun, mən heç bir fəaliyyətimi gizlətmirəm və gizlətmək fikrində də deyiləm...

Burada məndən soruşdular ki, Naxçıvanda çıxışlarımın birində işlətdiyim "Azərbaycanın üstünü qara buludlar tutub" ifadəsi ilə nə demək istəyirəm. "Qara buludlar" deyəndə mən Ermənistan Respublikasında qeyri-qanuni yaranmış və fəaliyyət göstərən silahlı dəstələri, Azərbaycan xalqı haqqında Moskvada və ölkənin digər şəhərlərində pis fikir yaradanları nəzərdə tuturam. Onlar belə rəy yaradırlar ki, guya ermənilər haqlıdırlar. Bu isə ağ yalandır. Bu yaxınlarda ölkə prezidenti silahlı dəstələrin tərk-silah edilməsi haqqında fərman imzalamışdır. Bununla əlaqədar deyə bilərəm ki, həmin fərmanın nəticəsini zaman göstərər. Yaxşı olar ki, nikbin olaq. Biz fərmanın həyata keçməsi arzusundayıq. Ancaq mənim fikrimə gəldikdə, fərmanda silahlı qüvvələrin fəaliyyətdə olduğu region göstərilməli idi. Axı, Azərbaycanda belə qüvvələr yoxdur.

Moskvaya o vaxt işə dəyişilməyimə gəldikdə isə bildirirəm ki, Moskvaya getmək fikrində deyildim. Lakin o dövrdə Mərkəzi Komitənin baş katibi işləyən Y.V. Andropov çox təkid etdikdən sonra razılaşdım. Yuri Andropov böyük şəxsiyyət idi. Ölkədə müsbət dəyişikliklər aparmaq üçün onun gözəl planları var idi. Moskvaya köçməyimə peşman deyiləm.

Azərbaycan oğlunun Sov. İKP Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olması onun mənsub olduğu xalqın tarixində əhəmiyyətli səhifədir.

Hələlik Naxçıvandayam, əgər bütün naxçıvanlılar mənim burada yaşamağımı arzu edərsə, buna etiraz etmərəm. Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir.

Axırda Heydər Əliyev gənclərə təşəkkürünü bildirmiş, onlara gələcək işlərində və şəxsi həyatlarında uğurlar arzulamışdır.

*"Şərq qapısı" qəzeti, 2 avqust 1990-cı il*

## Heydər Əliyev yoldaşın Naxçıvan MSSR vətəndaşı sayılması haqqında

NAXÇIVAN MSSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti **qərara alır:**

Naxçıvan şəhərində anadan olduğunu, təhsil aldığını, uzun illlər xidmət etdiyini və hazırda ümumittifaq əhəmiyyətli təqaüdçü olub Naxçıvan şəhərində yaşadığını nəzərə alaraq, Naxçıvan MSSR Konstitusiyasının 28-ci maddəsinə uyğun olaraq, 1923-cü ildə anadan olmuş, Azərbaycan SSR pasportu olan, azərbaycanlı Heydər Əlirza oğlu Əliyev yoldaş Naxçıvan MSSR-in vətəndaşı sayılsın.

**A. CƏLİLOV,**
**Naxçıvan MSSR Ali Soveti**
**Rəyasət Heyətinin sədri**

**H. XƏLİLOV,**
**Naxçıvan MSSR Ali Soveti**
**Rəyasət Heyətinin katibi**

*Naxçıvan şəhəri, 21 avqust 1990-cı il*

## YÜKSƏK ETİMAD ŞƏRAİTİNDƏ

Azərbaycan SSR və Naxçıvan MSSR xalq deputatlığına namizədlərlə keçirilən görüşlər ötən seçki kampaniyalarından fərqli olaraq kəskin diskussiyalar, mübahisələr, namizədlərin seçicilər qarşısında vədlərinin yox, konkret işinin və platformalarının müzakirəsinin təqdir və inkarı şəraitində keçir...

Belə bir mürəkkəb, mübahisəli, seçkiqabağı kampaniyada etibar edilən və etimad göstərilən, xalq deputatlığına namizəd olan çox azdır. Bu mənada öz seçicilərinin tam məhəbbətini qazanan namizədlərdən biri, iki dəfə Sosialist Əməyi Qəhrəmanı, ittifaq əhəmiyyətli fərdi pensiyaçı Heydər Əlirza oğlu Əliyevdir.

İftixarla demək olar ki, Heydər Əliyevin istər deputatlığa namizəd kimi, istərsə də adi vətəndaş kimi keçirdiyi görüşlər adamlarda sevinc və şadlıq oyadır, onların qəlbində iftixar hissi doğurur. Yerlərdə bayram əhvali-ruhiyyəsi yaradır, seçicilərlə namizədin yekdilliyinin, həmrəyliyinin ifadəsinə çevrilir.

340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR xalq deputatlığına namizəd göstərilən Heydər Əliyevin seçicilərlə görüşə gəlməsinə hələ xeyli qalmış Nehrəm kəndinin mərkəzi parkında, necə deyərlər, iynə atsaydın yerə düşməzdi. Böyükdən kiçiyə, heç seçici yaşına çatmayan şagirddən kəndin ağsaqqalı, ağbirçəyinə qədər yüzlərlə adam onu görmək, dinləmək, bugünkü mürəkkəb şəraitə münasibətini bilmək üçün parka toplaşmışdı.

Namizədin vəkili Nehrəm kənd orta məktəbinin müəllimi İsmayıl Ələkbərov Heydər Əliyevin zəngin, çoxcəhətli, mənalı həyatından, Azərbaycan torpağının çiçəklənməsi, xalqımızın xoş güzəranı naminə onun göstərdiyi geniş fəaliyyətdən, bu görkəmli siyasi və dövlət xadiminin Azərbaycan xalqının dünya miqyasında tanınmasında gördüyü işlərdən geniş və ətraflı danışaraq seçicilərin hamısını bir nəfər kimi Heydər Əliyevə səs verməyə çağırdı.

"Kommunizm" sovxozunun adlı-sanlı briqadiri, Sosialist Əməyi Qəhrəmanı Əli Əliyev, Nehrəm kənd sakinləri Əqil Mehdiyev, Bilqeyis Abdullayeva, Səfəralı Məmmədov və başqaları çıxış edərək, Azərbaycan SSR xalq deputatlığına namizəd haqqında ürək sözlərini dedilər.

Heydər Əliyev buraya toplaşanların alqışları altında tribunaya qalxaraq dedi ki, son iki ay ərzində ikinci dəfədir ki, bu kənddə sizinlə görüşürəm. Hər iki görüş məni çox həyəcanlandırdı. Mən hamınıza minnətdarlığımı bildirir və təşəkkür edirəm. Kəndinizin hörmətli adamları mənim haqqımda çoxlu xoş sözlər dedilər. Söz verirəm ki, bunun əvəzi olaraq əlimdən gələni edəcək, sizin etimadınızı doğruldacağam...

Mən uzun müddət müxtəlif vəzifələrdə işləmiş, müxtəlif ali orqanların deputatı olmuşam. Xalqın etimadını doğrultmağa çalışmışam. Lakin indiki dövrdə, tarixin bu mühüm mərhələsində, ölkəmizin ictimai-

siyasi vəziyyətinin gərgin bir vaxtında Azərbaycan xalq deputatlığına namizəd göstərilməyim mənim üçün daha xoşdur. Buna görə mən böyük məsuliyyət hiss edirəm. Mənə belə bir etimad göstərdiyiniz üçün sizə minnətdarlığımı bildirirəm. Əgər deputat seçilsəm, heç seçilməsəm də Azərbaycan xalqının gələcək səadəti uğrunda var qüvvəmlə çalışacağam.

Mən harada olmuşamsa, Nehrəm kəndinin Azərbaycanın tarixində xüsusi yerini qeyd etmişəm. Bu tarixi kəndin, Nehrəmin yetirmələri Azərbaycan xalqının tarixində şərəfli yer tutmuşlar. Nehrəmlilər qoçaq, mətin adamlardır. Onlar həmişə öz keyfiyyətlərini qoruyub saxlayıblar, öz zəhməti, əməyi ilə yaşayan adamlardırlar. Onlar ata-babalarının ənənələrini heç vaxt əldən verməyiblər.

Bir namizəd kimi platformama gəldikdə qısa deməliyəm ki, ilk növbədə, respublikamızın bu ağır iqtisadi və siyasi böhrandan çıxması üçün var qüvvəmi sərf edəcəyəm. Xalqımız çox çətin dövr keçirir. Azərbaycan böhran içərisindədir. İttifaqın başqa regionlarına nisbətən Azərbaycan daha ağır vəziyyətdədir. Çünki iqtisadiyyatdan və siyasətdən əlavə qəsbkarlıq niyyətində olan düşmən qüvvələr də bizə mənəvi zərbə vurur. Qarabağ problemi deyilən uydurma bir problem üç ilə yaxındır ki, respublikaya çaxnaşma salmışdır. Bu problem aradan qaldırılmayınca bizim rahatlığımız tam təmin olunmayacaq. Mən bütün səyimi, bacarığımı və qüvvəmi Azərbaycanda əmin-amanlığın təmin olunmasına sərf edəcəyəm, Azərbaycanın milli ənənələri, milli xüsusiyyətləri ilə inkişaf etməsinə çalışacağam. Onu da deyim ki, 70 il ərzində biz belə bir çətin vəziyyətə düşməmişdik. Bunun isə əsas səbəbkarları ermənilər, Ermənistan Respublikasının keçmiş və indiki rəhbərləridir. Erməni quldurları tez-tez ərazimizə basqınlar edir, torpaqlarımızı ələ keçirməyə çalışırlar. Əlbəttə, bu onlara müyəssər olmayacaqdır. Lakin bu məsələləri qətiyyətlə həll etməyin vaxtı çatmışdır.

Bir sözlə, mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir. Azərbaycan Respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir.

Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır.

Sosial-mədəni məsələlərə gəldikdə isə deməliyəm ki, burada çoxlu problemlər var. Azərbaycan tükənməz yeraltı və yerüstü sərvətlərə malikdir. Bu iqtisadi potensialdan səmərəli istifadə olunmur. Bu sahədə çalışmaq, respublikanın milli gəlirini artırmaq, onun iqtisadi potensialını yüksəltmək və xalqın güzəranını yaxşılaşdırmaq başlıca vəzifə olmalıdır.

İndi hər şeydən əvvəl bütün siyasi qüvvələr birləşməli, Azərbaycanın xoşbəxt gələcəyi naminə mübarizə aparmalı, xalqın tərəqqisinə kömək etməlidir. Bütün bu vəzifələri həyata keçirmək üçün ancaq və ancaq birlik, yekdillik lazımdır. Hər cür dedi-qodunu, incikliyi aradan götürməli, bir yumruq kimi birləşməli, xalqımıza düşmən olan qüvvələrə qarşı durmalıyıq. Bunun üçün rəhbərliklə xalqın yekdilliyi tam təmin olunmalıdır.

* * *

340 nömrəli seçki dairəsinin əhatə etdiyi Cavidabad kəndində də Azərbaycan SSR xalq deputatlığına namizəd Heydər Əliyevlə seçicilərin görüşü səmimi, işgüzar, qarşılıqlı anlaşma şəraitində keçmişdir. Cavidabad kənd mədəniyyət evinin geniş salonunda keçirilən görüşdə deputatın vəkili, kənd XDS icraiyyə komitəsinin sədri Məmməd Məmmədov Heydər Əliyevin həyat və fəaliyyətindən geniş və ətraflı danışmışdır.

Müharibə və əmək veteranı Bəhlul Əliyev, Cavidabad kənd sakini Mircəlil Seyidov, Lenin adına kolxozun sədri Nemət Kazımov və başqaları söz alaraq namizədin Azərbaycan xalqı qarşısında böyük xidmətlərini qeyd etmiş, seçiciləri sentyabrın 30-da bir nəfər kimi ona səs verməyə çağırmışlar.

Deputatlığa namizəd Heydər Əliyev seçicilər qarşısında geniş və ətraflı çıxış etmiş, onların çoxlu suallarına cavab vermiş, ona göstərilən yüksək etimad üçün Cavidabad kəndinin adamlarına səmimi təşəkkürünü bildirmişdir.

* * *

Heydər Əliyev həmçinin Naxçıvan MSSR xalq deputatlığına namizəd göstərilmişdir. 2 nömrəli Axundov seçki dairəsinin əhatə etdiyi Xıncab məhəlləsində onun seçicilərlə görüşü yüksək fəallıq şəraitində keçmişdir. Sosialist Əməyi Qəhrəmanı Qəzənfər Nağıyev, müharibə və əmək veteranları Muxtar Məmmədov, Qara Fərzəliyev, Abbasqulu Məmmədov, pensiyaçı Abdulla Şahbazov və başqaları çıxış edərək Azərbaycanın, xüsusilə Naxçıvanın sosial-iqtisadi inkişafında Heydər Əliyevin əvəzsiz xidmətlərini qeyd etmişlər. Onlar göstərmişlər ki, Naxçıvan alt trikotaj paltarları fabriki, xalça kombinatı, şüşə qablar zavodu, dəyirman kombinatı və digər sənaye müəssisələri bilavasitə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə tikilmişdir. İndi bu müəssisələrdə minlərlə naxçıvanlı çalışır.

Heydər Əliyev görüşə gələnlərlə səmimi söhbət etmiş, çoxlu suallara cavab vermişdir.

Həmin gün Heydər Əliyev 2 nömrəli Axundov seçki dairəsinin əhatə etdiyi İ. Səfərli adına 1 nömrəli orta məktəbdə və şəhərin Əcəmi məhəlləsində də olmuş, səmimi, maraqlı söhbətlər etmiş, adamların arzu və istəklərini dinləmişdir.

*“Şərq qapısı” qəzeti, 26 sentyabr 1990-cı il*

## BÖHTANÇILARIN AQİBƏTİ

*Əhsən bizə! Həm tiri-zəniz, həm hədəfiz biz,*
*Öz qövmümüzün başına əngəl-kələfiz biz.*

**M. Ə. SABİR**

Xalq məhəbbəti. Mən bu sözlərin dərin mənasını, ölçüyəgəlməz qiymətini Heydər Əliyev Naxçıvana gələn gün – bu il iyul ayının 22-də bir daha dərk etdim...

Gəlişini ailə üzvlərindən başqa heç kim bilmirdi. 6 ay əvvəl həyatla vidalaşmış bacısının evinə hava limanından "Jiquli" ilə getdi. Xəbərsiz-ətərsiz gələn qonağın səsi-sorağı bir neçə dəqiqədə bütün Naxçıvana yayıldı. Yerli partiya və sovet işçiləri, qohum-qonşular gəldilər, qucaqlaşdılar, opüşdülər. Hamı əziz qonağı bağrına basır, ondan ayrılmaq istəmirdi. Adamlar sevinc qarışıq göz yaşlarını gizlətməyə çalışsalar da, bu mümkün olmurdu.

Görüşə gələnlərin nəzəri Naxçıvan Rəssamlar İttifaqının əməkdaşı Mirçəlil Seyidovun Heydər Əliyevin gəlişi ilə əlaqədar yağlı boya ilə yaratdığı böyük portretə - "Vətən torpağında" adlı gözəl sənət əsərinə dikilirdi. Əsərdə rəssam, Heydər Əliyevi taxıl zəmisində, uşaqlarla birlikdə təsvir etmişdir. Özünəməxsus təbəssümü olan Heydər Əliyev Vətən torpağında necə də xoşbəxtdir!

Az sonra Heydər Əliyev H. Cavidin məzarını ziyarətə getdi. Məzarı görəndə gözləri yaşardı:

– Mən elə bilirdim ki, gəlib məzarın üstündə mavzoley görəcəyəm. Budurmu dahi sənətkara hörmətimiz?

Naxçıvanın ayrı-ayrı şəhər və kəndlərindən, müxtəlif təşkilat və müəssisələrdən gələn nümayəndələr Heydər Əliyevi görüşlərə dəvət edirdilər. Əliyev imkan daxilində hamını razı salmağa çalışır, görüşlər üçün vaxt ayırırdı.

Babək rayonunun Nehrəm kəndində "Kommunizm" sovxozunun əmək kollektivi ilə görüş unudulmazdır. Həmin təntənəni sözlə ifadə etmək çox çətin olduğundan, təsvirə ehtiyac duymuram. Yenə həsrətlilərin görüşü, yenə ağsaqqalların, ağbirçəklərin ürək sözləri, yenə qur-

banlar. Ən başlıcası həmin görüşdə Heydər Əlirza oğlu Əliyevi 340 nömrəli Nehrəm seçki dairəsi üzrə Azərbaycan SSR xalq deputatlığına namizəd irəli sürdulər. İyulun 25-də Heydər Əliyevin seçki komissiyasının sədri Ə. Axundova və "Kommunizm" sovxozunun əmək kollektivinə göndərdiyi məktubda deyilir: "Hazırda Azərbaycanda gedən ictimai-siyasi proseslərin belə qaynar və ziddiyyətli dövründə xalq elçisi kimi respublika parlamentində siyasi iş aparmaq hər kəsdən yüksək məsuliyyət, respublikanın mənafeyini, suverenliyini, ərazi bütövlüyünü, Konstitusiya hüquqlarını qorumaq, siyasi sayıqlıq, səriştə və prinsipiallıq tələb edir. "Kommunizm" sovxozunun bütün əməkçilərini, seçki dairəsinin bütün seçicilərini əmin edirəm ki, bütün səyimi, bacarığımı, təcrübəmi respublikamızın konstitusiya hüquqlarının, suverenliyinin və ərazi bütövlüyünün qorunmasına, iqtisadi, sosial, mədəni yüksəlişinin təmin olunmasına, seçicilərin göstərdiyi yüksək etimadın doğruldulmasına sərf edəcəyəm".

Heydər Əliyevin Naxçıvanın Cəhri, Əylis və başqa kəndlərində, Culfa və Ordubad şəhərlərində görüşləri əsl xalq bayramına çevrilmişdir. Xalqın öz qəhrəman oğluna məhəbbətini, yuxarıda qeyd etdiyim kimi, təsvir etmək yox, gözlə görmək gərək idi. Hara gedirsə, onu deputatlığa namizəd irəli sürürdülər. Lakin artıq Heydər Əliyev Nehrəm seçki dairəsindən Azərbaycan SSR xalq deputatlığına namizədliyinin səsə qoyulmasına razılıq vermişdi. Sonradan "Şərq qapısı" qəzetinin 1 avqust 1990-cı il tarixli nömrəsində oxuduq ki, "Naxçıvan alt trikotaj paltarları fabriki əmək kollektivinin seçkiqabağı yığıncağında ümumittifaq əhəmiyyətli fərdi təqaüdçü Heydər Əlirza oğlu Əliyev 2 nömrəli Naxçıvan şəhər M. F. Axundov adına seçki dairəsi üzrə Naxçıvan MSSR xalq deputatlığına namizəd göstərilmişdir".

Yeri gəlmişkən, qeyd edim ki, bu, əsl xalq seçkisi, əsl demokratik seçki idi. Çoxlarının necə deputat seçildikləri isə bizə yaxşı məlumdur.

Bəli, xalq Heydər Əliyevi alqışlayırdı. Bu, alqışlar Vətən oğluna sonsuz məhəbbətin rəmzi idi. Görüşlərin birində Heydər Əliyevdən soruşdum:

– *Bəlkə, camaata tapşırıblar ki, sizi alqışlasınlar? O gülümsəyərək suala sualla cavab verdi:*

– Nəyə işarə edirsiniz?

– “Literaturnaya qazeta”nın 1988-ci il 21 sentyabr tarixli nömrəsində dərc olunmuş “Gurultulu alqışlar” oçerkinə.

– Sizi başa düşdüm. Xahiş edirəm, gördüklərinizi peşə dostlarınıza, daha doğrusu, vaxtilə məni ləkələməyə çalışanlara danışın. Qoyun, gəlib hər şeyi öz gözləri ilə görsünlər və düşünsünlər.

Heydər Əliyev bu sözləri söyləyərkən nə qədər incik olduğunu hiss etmək çətin deyildi. Çünki, o, əvvəlki məqalələrimdə qeyd etdiyim kimi, vəzifədən çıxandan sonra mətbuatda tez-tez haqsız hücumlara məruz qalmışdır. Bəzilərinin köhnə peşəsidir, vəzifədə olanı “dil boğaza qoymadan” tərifləyirlər, vəzifədən çıxan kimi qələmlərini qılınca “çevirib” düşürlər üstünə, bacardıqları kimi “kəsib doğrayırlar”. Həqiqət meydana çıxanda belələrinin yazıları nə qədər mənasız, özləri nə qədər miskin görünürlər! Əlbəttə, belə “qələm sahibləri” barədə aşağıda bir daha danışmalı olacağıq.

Böyük siyasi xadim Heydər Əliyevin Bakıya və Naxçıvana gəlişi barədə SSRİ-nin ən məşhur qəzetləri, informasiya agentlikləri xəbər verirdi. Bu barədə Naxçıvan televiziyasının maraqlı verilişinə də baxdıq. “Şərq qapısı” qəzeti müxbirinin Heydər Əliyevlə böyük müsahibəsini oxuduq. Bakıda çıxan qəzetlər, televiziya və radio isə susurdu.

**Haşiyə:** Qəzet və jurnallarımız nəinki Heydər Əliyevin Azərbaycana gəlişini xəbər verməmiş, Qara yanvar günlərində onun Moskvada Azərbaycanın daimi nümayəndəliyindəki sərt siyasi çıxışı da, dəhşətli hadisədən sarsılan azərbaycanlı oğlunun teleqramı da xalqa çatdırılmamışdır.

Çox təəccüblüdür ki, bu teleqramı dərc etməyi “Qara Yanvar” kitabının müəllifləri də “unutmuşlar”.

Qəzetimizdə “Heydər Əliyev haqqında düşünərkən...”, “Unudulmuş adam və...” adlı məqalələr dərc olunandan sonra redaksiyaya yüzlərlə zəng vurdular, məktublar yazdılar. Oxucular razılıqlarını bildirir, “Yarı yolda dayanmamağımızı”, bu mövzunu davam etdirməyimizi arzulayırdılar.

Budur, oxucu məktublarından sətirlər: “Heydər Əliyev yüz ildə bir dəfə yetişən görkəmli şəxsiyyətlərdən biridir. Siz həqiqəti yazmısınız. O həqiqəti ki, xalqımıza yanlış təlqin olunub və olunur. Öz həqiqətimizə göz yumduğumuz təqdirdə biz çox şey itirməli olacağıq... Heydər Əliyevin gurultulu səsi erməniləri həmişə vahiməyə salırdı. Onlar bunu hər ad-

dımda etiraf etməyə məcbur olurdular: “Hələ ki, türklərin mollası (Heydər Əliyevi belə adlandırırdılar) iş başındadır, biz susmalıyıq” (Azərbaycan Qaçqınlar Cəmiyyətinin işcisi Eldar İsmayılın məktubundan).

“Heydər Əliyev xalqımızın böyük oğludur. Onun rəhbərliyi dövründə respublikamızda saysız-hesabsız böyuk işlər görülmüşdür” (Göyçay rayonunda yaşayan Fəxrəddin Davudovun məktubundan).

“Dan ulduzu” qəzetində Heydər Əliyev haqqında dərc etdiyiniz yazıları oxudum. Sizə sonsuz təşəkkürümu bildirirəm. Nəzərinizə çatdırıram ki, Heydər Əliyevi istəməyən bədxahlar olduqca azdır. Xalq Azərbaycanın bu görkəmli oğlunu sevir və ona sonsuz hörmət bəsləyir” (“Günəşli” massivinin sakini Sani Nəsibovun məktubundan)

“İnsan zaman və məkan baxımından dağdan uzaqlaşdıqca, onun əzəmətini və çalarlarını daha aydın görür. İndi xalqımızın dağ vüqarlı bu böyük oğlunun fəaliyyətdə olduğu illərdən uzaqlaşdıqca onun təfəkkür və əzəmətini, nüfuz, güc və qüdrətini, doğma xalqına məhəbbətini daha dərindən hiss edirik. Heydər Əliyevin bədxahları bilməlidirlər ki, onlar eyni zamanda xalqımızın bədxahlarıdır. Bu bədxahlar onun adını qəzet səhifələrindən, kitablardan çıxarıb ata bilərlər, ancaq xalqın ürəyindən çıxara bilməzlər. Çünki o, gözəl işləri, böyük əməlləri ilə xalqın qəlbində əbədi qalmışdır...” (Bakı şəhəri, Serebrovski qəsəbəsinin sakini P. Qəhrəmaninin məktubundan).

Narazılıq edənlər də var.

Qarşımda xeyli qəzet-jurnal məqalələri var. İlahi, Heydər Əliyevin vəzifədən çıxmasını gözləyən bəziləri necə qurşanıblar qələm-kağıza! Sonralar isə yuxarının diktəsi ilə, faktlı-faktsız nə eşidiblər, nə bacarıblar, yazıblar. Gərək biz də olanı yazaq, bacardığımız qədər “faktları” faktlarla təkzib etməyə çalışaq.

Tənqidlər, böhtanlar, uydurmalar təkcə Heydər Əliyevə qarşı deyil, onun bütün ailəsinə, qohumlarına qarşı yönəldilmişdi, yazıların hamısında qərəz, kin, intiqam açıq-aydın hiss olunurdu.

“Biz “Unudulmuş adam və...” adlı məqaləmizdə Heydər Əliyevin yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyində çıxışı və bununla əlaqədar “Pravda” qəzetinin (4 fevral 1990-cı il) Əfəndiyev familiyalı bir həkimin imzası ilə dərc etdiyi “Алиевщина,

или плач по сладкому времени" adlı böhtan xarakterli məqalə barədə fikrimizi oxuculara çatdırmışıq. Həmin yazı ilə əlaqədar Azərbaycan SSR EA-nın yüzdən çox əməkdaşının imzası ilə "Pravda" qəzetinin redaktoruna etiraz məktubu yazılmışdır. Azərbaycan SSR Ali Sovetinin deputatı, SSRİ xalq artisti Zeynəb Xanlarova da etiraz məktubu göndərmişdir.

Respublika qəzetləri də "Pravda"dan "nümunə" götürmüşlər.

"Sovet kəndi" qəzetində (3 sentyabr 1988-ci il) dərc olunmuş "Təkcə durğunluqmu? Yox, həm də haqsızlıq və ədalətsizlik" (müəllifi A. Musaoğlu) adlı məqaləni sakit oxumaq mümkün deyil. Müəllif guya öz yazısını redaksiyaya daxil olan məktublar əsasında qurub. Həmin məktublarda Heydər Əliyevə və onun qohum-qardaşlarına böhtanlar "yağdırılır". Əvvəla, oxucu məktubları ilə hər hansı bir şəxsiyyət haqqında fikir söyləmək, onun haqsızlıqlarını "sübuta yetirmək", beləliklə, onu mətbuatda "mühakimə etmək" ən azı səriştəsizlik və savadsızlıqdır. İkincisi, məqalədə Heydər Əliyev, onun qohumları, xüsusilə qardaşları təhqir edilir, o vaxtkı yeni rəhbərlik isə "göylərə qaldırılır". Təkcə bu kifayətdir ki, məqaləyə də, məqalə müəllifinə də "qiymət" verəsən.

Məqalədəki ayrı-ayrı cümlələrə nəzər salıb təhlil etsək, hər şey aydınlaşar.

"Abşeron bağlarının icarəyə verilməsini dayandırmaq haqqında Heydər Əliyevin təkidi ilə çıxarılan qərar təkcə sosial haqsızlıq olmaqla qalmır, həm də siyasi mahiyyət (? X.Q.) daşıyır".

Qeyd edək ki, bu barədə çox deyilib, çox yazılıb, amma haqsız yazılıb! Heydər Əliyevin qərarla əlaqədar izahını oxuculara çatdıraq, qoy onlar özləri götür-qoy etsinlər. Heydər Əliyev deyir: "Bakıda yaşayan rəhbər işçilər bağ tikmək kampaniyasına başlamışdılar. 1969-70-ci illərdə Azərbaycan KP MK-ya bağ salanların və orada böyük evlər tikənlərin çoxu haqqında ərizə və şikayətlər daxil olmuş, rəhbər işçilərin vəzifələrindən sui-istifadə etdikləri göstərilmişdi. Onların əksəriyyəti təsdiqini tapmış, yoxlanılarkən məlum olmuşdur ki, ayrı-ayrı adamlar işlədikləri müəssisələrin vəsaitindən istifadə etmiş, neft sənayesindən çoxlu borular, quyudan su çıxarmaq üçün cihazlar oğurlamış (bunlar satışda olmurdu), fond materiallarını bağlara

daşımışlar. Beləliklə, dövlət əmlakı kütləvi şəkildə oğurlanırdı. Bir sıra belə faktlar müzakirə olunmuş, rəhbər işcilər cəzalandırılmışlar. Qeyri-qanuni yollarla bağlarda təmtəraqlı binalar tikmək "xəstəliyini" aradan qaldırmaq üçün biz məsləhətləşib belə qərara gəldik ki, belələrinin bağ binaları tikmələrinə icazə verilməsin, həmin qərarı qəbul edərkən biz eyni zamanda əmək kollektivlərinin, zavodların, fabriklərin öz işçiləri üçün Abşeron yarımadasında, dəniz sahilində pansionatlar, sanatoriyalar tikməsi vəzifəsini qarşıya qoyduq. Fikrimiz belə idi: müəssisə, təşkilat rəhbərinə bağ yox, bütün kollektivə pansionat tikilsə yaxşı olar. Bir çox əmək kollektivləri belə də etdilər, işçilər üçün pansionatlar, istirahət evləri tikdilər və onlardan indiyədək istifadə olunur. Qarşımızda bir məqsəd də dururdu: Abşeron yarımadasında ümumittifaq əhəmiyyətli kurort və turizm müəssisələri yaratmaq. Bunun üçün SSRİ Nazirlər Sovetinin qərarını almağa nail ola bildik. Təəssüf ki, sonralar həmin qərarın yerinə yetirilməsi yaddan çıxdı, ayrı-ayrı şəxslər əvvəlkilərdən daha təmtəraqlı və nəhəng bağ evləri tikməyə başladılar".

"Rəhbər vəzifələri qamarlamaq üstündə son vaxtlar Heydər Əliyevin və K. Bağırovun qohumları və həmyerliləri arasında bəhsəbəhs düşmüşdü". Yəqin ki, "qamarlamaq" sözü əsəblərinizə toxundu. Müəllif "Heydər Əliyevin və K. Bağırovun qohumları və həmyerliləri" deyəndə kimləri nəzərdə tutur, aydın deyil. Bircə o məlumdur ki, bu sözlər o vaxtkı yeni rəhbərliyə və onun qohumlarına aiddir. Yeni rəhbərlik iş başında olanda (yaxşı ki, müddəti az oldu), siz də, "jurnalist" yoldaş, öz qohumlarınızla birlikdə iş başında idiniz. Elə ki, o getdi, sizin də bəziləriniz "getdiniz". Dayınız "Kommunist" qəzetinin, siz isə "Sovet kəndi" qəzetinin redaktoru idiniz, sonra sizi "Sovet kəndi" qəzetinin kollektivi faktiki olaraq işdən qovdu. Belə biabırçılıqdan sonra, təəccüblü də olsa, Mərkəzi Komitədə sizə iş verdilər. İndi gəlin, "əyri oturaq, düz danışaq", kimdir yerlipərəst, qohumbaz?

Səyavuş İsmayılov (Bakı şəhəri) yazır ki, əvvəllər adi vəzifədə işləyən X. Quliyev Heydər Əliyevin bacısı ilə evlənəndən sonra az vaxtda respublika Daxili İşlər Nazirliyində Cinayət-Axtarış İdarəsinin rəis müavini oldu.

Maraqlıdır, bu vəzifəni tutmaq üçün "vaxt ölçüsü" nə qədər müəyyənləşdirilib?

Azərbaycan SSR daxili işlər nazirinin və onun müavininin nazirliyin əməkdaşı tərəfindən qətlə yetirilməsinin nazir müavini Sabir Hüseynova nə dəxli olub ki, yazırsınız: "Sabir Hüseynov sudan quru çıxıb". Bu barədə "Bakinski raboçi" qəzetində (10 sentyabr 1988-ci il "Korrupsiya", müəllifi R. Vəliyev), "Kommunist" qəzetində (17 fevral 1989-cu il, "Müəmmalı qətl", müəllifi R. Bayramov) adlı məqalələr dərc edilmişdi. Axırı nə oldu? Məhkəmə sübut etdi ki, Sabir Hüseynovun hadisə ilə əlaqədar heç bir təqsiri yoxdur. Qəzetlərdə bu barədə təkzibedici yazılar verildi. Bəs necə oldu ki, eyni mövzudan yazan üç jurnalistin üçü də səhv etdi? Çünki yazılar kiminsə tapşırığı ilə yazılmışdı. S. Hüseynov məhkəmə vasitəsilə təqsirsizliyini sübuta yetirdi. Bəs ona böhtan atan, ləkələməyə çalışan jurnalistlər niyə heç bir cəza almadılar? Belə çıxır ki, əli qələm tutanlar yalan-düz, nə istəsələr yaza bilərlər?

Sonra qeyd edilir ki, "aldığımız məktubların bir çoxunda oxucular Heydər Əliyevin qardaşları Həsən Əliyevin, Cəlal Əliyevin, Aqil Əliyevin və Hüseyn Əliyevin xoşagəlməz hərəkətlərindən yazırlar". Oxucular onları haradan tanıyırlar və "xoşagəlməz hərəkətlərini" necə görə bilərdilər?

"Müəlliflər (hansı müəlliflər? - **X.Q.**) göstərirlər ki, Abşeronda zəhmətkeşlərə bağ sahəsi verilməsi qadağan ediləndə Həsən Əliyev öz istirahətinin qeydinə çox yaxşı qaldı. Dəvəçi rayonundakı Qalaaltı adlanan kurort zonasında tikdirdiyi (? -**X.Q.**) - əlbəttə, dövlət hesabına - üçmərtəbəli binada illərlə heç kimin dincəlməsinə icazə verilməmişdi. O, hələ də Həsən Əliyevin sərəncamındadır, boş saxlanılır..."

Əvvəla, Qalaaltı istirahət yeri yox, müalicə ocağıdır. Orada çıxan mineral suyu 25-30 gündən artıq içmək məsləhət görülmür. Məqalədə haqqında söhbət gedən binanı isə "Azneft" birliyi tikdirib. Həmin bina su mənbəyindən, yeməkxanadan uzaqda yerləşdiyindən və qüsurlu olduğundan yaşlı adamlara münasib deyil. Odur ki, Həsən Əliyev xəstə həyat yoldaşı ilə birlikdə sanatoriyanın taxtadan tikilmiş ümumi binasında putyovka ilə müalicə olunmuşdur.

"Azərbaycan Dövlət Tibb İnstitutunun kafedra müdiri Asəf Rüstəmov və institutun digər işçiləri (! - **X. Q.**), redaksiyaya göndərdikləri

məktublarda (necə məktub yazıblar? Özü də "Sovet kəndi"nə niyə? - **X.Q.**) o dövrdə qəbul imtahanlarındakı ədalətsizliklərdən bəhs edirlər.

Qeyd edək ki, Heydər Əliyevin rəhbərliyi dövründə institutlarda qəbul imtahanlarında haqq-ədalət gözlənilirdi. Elə götürək universitetin hüquq fakültəsinə qəbulla əlaqədar məsələni. Bu barədə Heydər Əliyevdən soruşdum. O dedi ki, "1970-ci illərin əvvəllərində hüquqşünaslıq nüfuzlu peşə olduğundan gənclərin çoxu həmin fakültədə oxumağa can atırdı. Hüquq fakültəsinə isə ildə 50 nəfər qəbul olunurdu. Təxminən 1974-1975-ci illərdə Azərbaycan KP MK-ya daxil olan məktubların yoxlanılması göstərdi ki, bu fakültəyə ancaq inzibati orqanların, rəhbər partiya və sovet işçilərinin uşaqları daxil ola bilirlər. Ona görə də vəzifəsiz şəxslərin balaları fakültəyə daxil olmaqdan məhrum idilər. Biz fikirləşdik ki, həmin "ənənənin" qarşısı alınmasa, gələcəkdə inzibati orqanlarda ancaq bu orqanların işçilərinin balaları "fəaliyyət" göstərəcəklər. Deməli, cəmiyyətdə çoxluq təşkil edənlərin övladlarının hüquqları pozulurdu. Onlara bu hüquqlardan istifadə etmək şəraiti yaratmaq üçün müəyyən müddət ərzində hüquq fakültəsinə vəzifəsiz adamların balalarının qəbul olunması üçün şərait yaratdıq".

Məqalədə C. Əliyev haqqında deyilir: "Cəlal Əliyev də olduqca qısa müddətdə (bu sözlər Aqil Əliyev haqqında da yazılmışdır - **X.Q.**) doktorluq dissertasiyası müdafiə etmiş, akademik seçilmiş, respublikada (? - **X.Q.**) bir sıra vəzifələri öz əlində cəmləşdirmişdir".

Elm aləminə məlumdur ki, doktorluq dissertasiyası üçün heç bir müddət norması mövcud deyil. Alimlərdən isə doktorluq dissertasiyası üzərində daim işləmək və mümkün qədər tez müdafiə etmək tələb olunur. Qaldı, C.Əliyevin "olduqca qısa müddətdə doktorluq dissertasiyası müdafiə etməsinə", o, 1955-ci ildə namizədlik, 1971-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Deməli, namizədlik dissertasiyasının müdafiəsindən 16 il sonra! Bunun nəyi "olduqca qısa bir müddət" oldu? Onda C. Əliyevin 44 yaşı vardı, halbuki 30-35 yaşlarında doktorluq dissertasiyası müdafiə edən alimlər, doktorluq diplomlarını almamış akademiyaya üzv seçilənlər az deyil. C. Əliyev isə elmdə əldə etdiyi sanballı nəticələrə, hərtərəfli elmi fəaliyyətinə görə 1980-ci ildə EA-nın həqiqi üzvü seçilmişdir.

Yeri gəlmişkən, Cəlal Əliyev haqqında danışdığımız məqalə ilə əlaqədar "Sovet kəndi" qəzeti redaksiyasına açıq məktub yazmış, böhtan, yalan və təhqirlərdən ibarət olan həmin yazının təkzib olunmasını xahiş etmişdir. Redaksiya isə onun məktubunu dərc etməmişdir.

"Durğunluq dövrü" sözlərini əzbərləmiş bəzi jurnalistlər həmin dövrdə ən adi nöqsanları belə Heydər Əliyevin adı ilə bağlayırdılar. Hansı institutunsa rektoru pis işləyir (guya indi belələri yoxdur) - Heydər Əliyev təqsirkardır. Filankəsin hüququ pozulub (guya indi pozulmur) - Heydər Əliyev günahkardır. Filankəs vəzifədən götürülüb - Əliyev cavabdehdir və s. və i.a. Şəxsən mən Heydər Əliyevin rəhbərliyi dövründə işsiz və mənzilsiz qalmışam. Deməli, Heydər Əliyev təqsirkardır? O, mənə iş, mənzil verməli idi?

Yaxud, gərək mən də onun haqqında tənqid yazaydım? "Molodyoj Azerbaydjana" qəzetinin 24 sentyabr 1988-ci il tarixli nömrəsində N. Muxtarovanın Azərbaycan SSR EA-nın Şərqşünaslıq İnstitutunun əməkdaşı Rəfael Hüseynovla müsahibəsi dərc olunmuşdur. Müsahibənin bir yerində Rəfael Hüseynov pianoçu Vaqif Mustafazadənin ölümünü 1979-cu ilin repressiyası (?) ilə əlaqələndirir. Kobud ifadəyə görə üzr istəyirəm, kimin əlinə bir dəyənək keçir, tolazlayır Heydər Əliyevin rəhbərliyi dövrünə!

"Durğunluq dövrü"nün böyük və kiçik bəlalarından qəzəb və intiqam hissi ilə yazan müəllif təəccüblü də olsa, başqa oxucu məktubundan bir abzas verməyi də lazım bilib. "İ. Məmmədov (Naxçıvan) yazır: "Axı, nə vaxtadək hayıf çıxan yazılarınız beyinləri zəhərləyəcək? Yıxılan ağaca balta çalan çox olar. Əgər belə cəsarətli idiniz, niyə o vaxt susurdunuz? 70-80-ci illərdə partiya cəzası alanlar, vəzifədən çıxarılanlar niyə indi bülbülə dönüblər? Xalqımız üçün ağır nəticələr verəcək ədavət hissləri bərk qızışdırılır. Respublikamızda aşkarlıq, demokratiya şəraitində toxunulası, həll olunası nə qədər problem qalıb qıraqda, başlamısınız köhnə palan içi tökməyə".

Müəllif sonra yazır: "Buna bənzər rəy Həsənovun, Əhmədovun (Bakı) məktublarında da ifadə olunmuşdur. Onlar bildirirlər, "Respublikamızdakı nöqsanlar ittifaqın hər yerində olmuşdur. Gedənin dalınca danışmaq isə bizdə dəbdədir".

Yəqin ki, şərhə ehtiyac yoxdur. Məqalə müəllifi isə şərhə ehtiyac duyur və sübut etməyə çalışır ki, bu sözləri yazanlar məsələnin mahiyyətini hərtərəfli düşünmürlər.

Müəllif məqaləsində respublikada üzümlüklər salınmasını pisləyir, "tutarlı" faktlar gətirir. Qəribədir, başqaları pambığın xalqı "bədbəxt etdiyini" yazırlar. Görəsən bəs Azərbaycanda nə əkilməliymiş?

Bilirsinizmi niyə "Kommunist" qəzetinin 30 oktyabr 1988-ci il tarixli nömrəsində "Qərəz çaşqınlığı" (müəllifi R.Nağıyev) adlı məqalə dərc olunub? Əvvəlcə məqalənin axırıncı cümləsindən əvvəlki abzası nəzərinizə çatdıraq: "Bir neçə gün əvvəl akademiya partiya təşkilatının konfransında hamıdan sonra (? - **X.Q.**) tribunaya qalxan Cəlal Əliyev yenidənqurma və aşkarlıq naminə deyilənlərin üstündən qələm çəkməyə çalışmış "Azərbaycan xalqının şanlı oğlu"nu tənqid edənləri mafiya üzvləri adlandırmışdır".

Deməli, "Azərbaycan xalqının şanlı oğlu"nu (Heydər Əliyev nəzərdə tutulur) tənqid edənləri mafiya üzvləri adlandırdığı üçün akademik C. Əliyev haqqında "Kommunist" qəzetində məqalə dərc olunmuşdur.

Bəli, C. Əliyev Heydər Əliyev haqqında ittifaq və respublika mətbuatında dərc olunmuş bütün yazılar barədə öz fikrini müxtəlif redaksiyalara, təşkilatlara bildirirdi. Onun təkzibedici məktubları dərc edilməsə də, hər halda respublikanın rəhbəri Ə. Vəzirovu narahat edirdi. Çünki C. Əliyev açıq-aşkar yazırdı ki, qardaşı və qohumları haqqında mətbuatda tənqidi yazıların dərc olunmasının əsas səbəbkarı məhz Ə. Vəzirovdur. Ona görə də bir axşam Ə. Vəzirov C. Əliyevin evinə zəng vurub demişdir: "Heydər Əliyev haqqında məqalələr yazılması üçün mən heç kimə tapşırıq-zad verməmişəm".

C. Əliyev Ə. Vəzirovun ona niyə zəng vurduğunu, özünü "təmizə çıxarmaq "istəməyinin səbəbini xeyli fikirləşəndən sonra başa düşmüşdü. Sən demə, səhəri gün akademiya partiya komitəsinin konfransında C. Əliyev çıxış edə bilər və Ə. Vəzirovun əleyhinə sözlər söyləyə bilərmiş. C. Əliyev düz fikirləşibmiş. Səhər akademiyanın prezidenti, Ə. Vəzirovun onun da evinə və işinə zəng vurduğunu bildirərək, C. Əliyevdən xahiş etmişdir ki, konfransda çıxış etməsin. Buna baxmayaraq C. Əliyev konfransda çıxış etmiş (ona hamıdan sonra söz vermişlər. "Hamı-

dan sonra tribunaya qalxmasının" səbəbi də bu olmuşdur - **X. Q.**), öz sözünü demişdir. Bu ona baha başa gəlmiş, haqqında "Qərəz çaşqınlığı" məqaləsinin yazılmasının səbəblərindən biri olmuşdur...

"Gənclik" jurnalının builki 5-ci nömrəsində Mehman Məmmədov "Böhranlı günlərin əks-sədası" adlı məqaləsində guya Ə. Vəzirova xarakteristika verir və yazır: "Ə.X. Vəzirovun stalinizm və durğunluq dövrünün, bağırovçuluq və əliyevçiliyin formaca başqa, məzmunca ən qanuni varisi olan bu rəhbərin Bakı məişət soyuducuları zavodundakı çıxışı siyasi avantüranın ən yüksək zirvəsi oldu".

Qat-qarışıqlığa baxın! Görün, müəllif kimi kimlərin varisi hesab edir! Bir də "əliyevçilik" sözü "Pravda" qəzetində qərəzçiliklə yazılmış məqalədən götürülmədir. Ordan-burdan söz çırpışdırıb şəxsiyyəti hörmətdən salmaq yazı-pozu əhlinə yaraşmayan işdir.

"Sosialistiçeskaya industriya" qəzetinin Azərbaycan üzrə xüsusi müxbiri, mərhum Cavanşir Məlikov qəzetin 23 oktyabr 1988-ci il tarixli nömrəsində dərc etdirdiyi "Tayfabazlığın məngənəsində" (yeri gəlmişkən, "Kommunist" qəzetinin 5 may 1990-cı il tarixli nömrəsində "Bu da "tayfa oyunu"dur?" (müəllifi Şakir Yaqubov) adlı məqalədə mərkəzi mətbuatda canfəşanlıqla "təbliğ edilən" və Heydər Əliyevin adı ilə əlaqələndirilən "tayfa oyunu"na züy tutanlara tutarlı cavab verilmişdir) adlı məqalə də Lerik rayon partiya komitəsinin keçmiş birinci katibinin "başına gələnlərin" təsvir edə-edə həmin "xətlə" Heydər Əliyevi "vurur". Hərdənbir qəzet səhifəsində təhqirə keçir və yazır: "Millətin atası" respublikada təmiz və vicdanlı kadrların olmadığını, qalmadığını (? - **X.Q.**) ağzı köpüklənə-köpüklənə sübut etməyə çalışır..."

Heydər Əliyevi görüb tanıyanlar yaxşı bilirlər ki, o, danışanda heç vaxt ağzı köpuklənməyib. Mənə elə gəlir ki, ağzı köpüklənənlər Əliyevdən qisas almağa çalışan savadsız və boşboğazlardır!

Hələ bu harasıdır? Məqalədə kimin adı çəkilirsə, Heydər Əliyevin qohumları, dostları kimi qələmə verilir.

Yeri gəlmişkən, "Tayfabazlığın məngənəsində" məqaləsi "Sosialistiçeskaya industriya" qəzetində buraxılandan düz iki gün sonra "Kommunist" qəzetində (26 oktyabr 1988-ci il) dərc edilmişdir. Ola bilsin ki, respublikamızın başqa qəzetləri də həmin məqaləni vermişdilər.

Görünür, Əliyevə zərbə vurmaq istəyənlər özlərinə “zəhmət verməkdən” ləzzət alırlarmış.

“Bakinski raboçi” qəzetinin müxbiri L. Polonski L.İ. Brejnevin Bakıya gəlişini “təsvir edən” “Три приезда” (14 avqust 1988-ci il) məqaləsi ilə lap “xal vurub”. Məqaləni oxuduqca müəllifin “istedadına” heyran qalırsan! Biz artıq bundan əvvəlki məqalələrimizdə dövlət rəhbərinin bütün ölkədə yüksək səviyyədə qarşılanması barədə yazmışıq. Ona görə də L. Polonskinin məqaləsinin “təhlilinə” ehtiyac duymuruq... Yeri kəlmişkən, L.İ. Brejnev Bakıya üç dəfə - 1970, 1978 və 1982-ci illərdə gəlmişdir. Onun gəlişi və gedişi barədə məlumatlar respublikamızın bütün qəzetlərində qırmızı rəngli böyük başlıqlarla dərc edilmiş, səhifələrin az qala yarısını tutan böyük şəkillər verilmişdir. Budur, “Kommunist” qəzetinin 24 sentyabr 1978-ci il tarixli nömrəsinin birinci səhifəsində oxuyuruq: “Yaxşı yol, əziz Leonid İliç!”, “L.İ. Brejnev yoldaş Bakıdan yola düşmüşdür”, “Kommunizm quruculuğu naminə”, “L.İ. Brejnev yoldaşın respublikamızda olması Azərbaycan zəhmətkeşlərini yeni əmək nailiyyətlərinə ruhlandırmışdır” və s. və i a. Bəlkə belə “rəngli” qəzetləri də Heydər Əliyev buraxırdı?!

Ümumiyyətlə, İttifaq mətbuatı Azərbaycan xalqının ayrı-ayrı nümayəndələrinin “əməllərini” hər hansı formada pisləyən kimi, respublika mətbuatı onunla “səs-səsə vermiş”, xəbisliklə yazılan məqalələri əlüstü dərc etmişdir. Bunun nə qədər ziyanlı olduğu hələ indi bizə aydın olur.

Məsələn, Mirzə İbrahimovun “Sovetskaya kultura” qəzetinin 16 fevral 1989-cu il tarixli nömrəsində “Biz kimi eşidirik və nəyə görə” adlı məqaləsi dərc olunandan iki gün sonra “Kommunist” və “ Bakinski raboçi” qəzetləri (18 fevral 1989-cu il) həmin yazını vermişlər. Az sonra Azərbaycan KP MK-nın (mart) plenumunda Mirzə İbrahimov çıxış edərək “Sovetskaya kultura” qəzetində məqaləsinin təhrif olunduğunu demiş, redaksiyaya təkzib məktubu yazmış, qəti etirazını bildirmişdir. Eyni zamanda Naxçıvanda seçiciləri ilə görüşdə məqalənin təhrif olunduğunu bir daha söyləmişdir.

Bu barədə deyilənləri dəqiqləşdirmək üçün Mirzə İbrahimova zəng vurdum.

O dedi:

– Mən Heydər Əliyev haqqında həmişə hörmətlə danışmışam, indi də ona hörmət bəsləyirəm. Belə olduğu halda, onun əleyhinə necə yaza bilərdim?!

İttifaq qəzetləri açıq-aşkar yalan yazmaqdan çəkinmirlər. Görün “Moskovskaya pravda” qəzetində (13 may 1990-cı il) “Brejnevin memuarı necə yaradıldı?!” adlı məqalədə nə yazılır: “Brejnevə xüsusi malikanə tikmək üçün bakılıların yaddaşında qalan sevimli Yaşıl teatr Əliyevin göstərişi ilə bir saat müddətində məhv edildi...”

Məlumdur ki, bakılılar hələ də Yaşıl teatra konsertlərə gedirlər... Görəsən, məqalənin müəllifi Georgi Yakovlev bunu bilirmi? Bilirsə, oxucuları aldatdığı və çaşdırdığı üçün xəcalət çəkirmi?

“Selskaya jizn” qəzetinin (28 iyun 1988-ci il) müxbiri Vladimir Sinitsın də “Şamaxı faciəsi...” adlı məqaləsində Əliyevin göstərişi və rəhbərliyi altında “şəxsən Brejnev yoldaş üçün” Bakıda saray tikilməsini qeyd edir və göstərir ki, “hansı ki, Brejnev orada cəmi iki gün gecələmişdir”.

Biz Bakıda “Brejnevə ev (saray) tikilib-tikilməməsi barədə artıq əvvəlki məqalələrimizdə danışmışıq. Burada bəzi jurnalistlərə xatırlatmaq yerinə düşür ki, kimin tikməsindən, kim üçün tikilməsindən asılı olmayaraq tikilən xalqa qalır.

Bu yaxınlarda “Kommersant” qəzetinin 32-ci nömrəsində “Heydər Əliyev yenidən fəaliyyətdədir” adlı məqalə və “Durğunluq illərinin xadimi” yarlığını rədd edirəm” adlı müsahibə dərc olunmuşdur. Məqalədə Heydər Əliyevə qarşı respublikada heç kəsin biganə qalmaması, onun Azərbaycan SSR xalq deputatlığına namizəd irəli sürülməsi, bu il yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyində bəyanatından sonra yenidən siyasət aləminə qayıtması və s. barədə qeydlər edilir, nəhayət, göstərilir: “İndi Əliyev öz bacısının evində sadə şəraitdə yaşayır... Qohumlarının minik maşınından istifadə edir. Hərçənd bədxah dillər onun var-dövləti, bağı, yeraltı qarajı, hətta hərəmxanası olan ikimərtəbəli, təmtəraqlı evdə yaşadığını deyirlər”.

Çox güman ki, “Kommersant”ın müxbirləri Dmitri Starostin və Lev Siqal “bədxah dillərin” dediklərini özləri uydurublar... Çünki, “bədxah dillərin” dedikləri tamamilə fantaziyadır, hamıya, eləcə də bu sətirlərin müəllifinə yaxşı məlumdur ki, Heydər Əliyev bacısının 50 il bundan əv-

vəl tikdirdiyi iki otaqdan ibarət çox sadə bir evdə yaşayır. Həyətdə kiçik bağça var, amma var-dövlət, yeraltı qaraj, hərəmxana (?) yoxdur.

Gəlin, ittifaq mətbuatında dərc olunan məqalələrlə əlaqədar respublika qəzetlərinə yazılmış ictimai rəylərlə tanış olaq. Budur, “Kommunist” qəzetinin 27 oktyabr 1988-ci il tarixli nömrəsində Firuddin Feyziyevin (Yardımlı rayonundakı Şəfəqli kənd məktəbinin müəllimi) “Daldan atılan daş...” sərlövhəli məktubunda deyilir:

“Literaturnaya qazeta”dan tərcümə etdiyiniz “Gurultulu alqışlar” oçerkini oxudum. Düzü, çox təəssüfləndim. Son vaxtlar mərkəzi mətbuatda belə oçerklər tez-tez yazılır. Məgər durğunluq adlandırılan dövrdə digər respublikalarda vəziyyət bizdə olduğundan yaxşı idi? Ölkənin başçısı bir siyasət, respublikanın rəhbəri başqa siyasət yeridirdi?

Siz mənə Sovet hakimiyyəti qurulandan, daha doğrusu, Leninin vəfatından sonra partiyanın, dövlətin qüsursuz işləyən başçısını göstərin. Belə çıxır ki, heç kəsə, inanmaq lazım deyil. Hətta bu günkü rəhbərlərə də. Axı, tarixdəki bütün səhvləri, ötüb-keçənləri indi açıb-ağartmaqla nə qazanırıq? Bu daldan atılan daşa bənzəmirmi? Oçerkdə Azərbaycan xalq şair və yazıçıları açıq-aşkar təhqir edilir, gözdən salınır, biz də bunu alqışlayırıq. Məgər təqsir tək-tək adamlardadır? Məncə, səhvlərin kökünü şəxsiyyətlərdə yox, dövrün xarakterində axtarmaq lazımdır”.

“Yeni fikir” qəzetinin 30 may 1990-cı il tarixli nömrəsində Ç. İldırım adına APİ-nin dosenti Z. Sultanzadə yazır:

“...Mərkəzi mətbuat durğunluq dövründən yazarkən əsas H.Əliyevin adını çəkir. Bəs Qorbaçov, Romanov, Qrişın, Solomontsev,. Qromıko və b. harada idilər? Guya ki, bu boyda SSRİ-nin 1,5 faizini təşkil edən Azərbaycan SSR onu durğunluğa, rüşvətxorluğa, sərxoşluğa və s. vadar edib.”

Bu yaxınlarda “Azadlıq” radiosunun erməni redaksiyası rus dilində “bizim” deputat Zori Balayanın M. Qorbaçova açıq məktubunu verdi. 20-25 dəqiqə ünvanımıza böhtanlar, N. Nərimanov və Heydər Əliyevə qarşı (niyə bəs ikisinə qarşı? Çünki ikisi də böyük şəxsiyyətdir - **O.Q.**) uydurmalar və təhqirlər yağdırıldı.

Mərkəzi mətbuatın və digər orqanların bizə qərəzli münasibətini nəzərə alsaq, açıq-aydın başa düşməliyik ki, onlar Heydər Əliyevi təhqir etməklə ilk növbədə bütün Azərbaycan xalqını təhqir edirlər...”

"Yeni fikir" qəzetinin 26 aprel 1990-cı il tarixli nömrəsində xalq yazıçısı İsa Hüseynov yazır: "Ulduzlar sönmür" adı mənim əlimlə yazılmayıb. "Doktor"umun düşmənləri - xəstə millətçilər nəinki filmin adını, məzmununu, hətta özünü də məhv etməyə çalışırdılar. Yalnız Azərbaycanın qeyrətli oğlu Heydər Əliyevin incə, həssas qəlbi, xalqına, Vətəninə bağlı təfəkkürü "Doktor Nəriman" filmini əsasən xilas etdi. Doktorumuzun yubileyini qeyd etdiyimiz günlərdə xalqımız dəqiq bilməlidir ki, mənim özümün - doktor Nərimanın varislərindən birinin salamat qalıb, bu gün xalqıma doğru söz çatdırmağımın səbəbkarı da Heydər Əliyevdir. Filmin "азербайджански варианты"nı gizli yandıran millətçilər bilməlidirlər ki, nə doktor Nəriman ölüb, nə Heydər Əliyev, nə də İsa Hüseynov. Xalqımızın ideal cəmiyyəti uğrunda döyüşənlərə ölüm yoxdur".

**Haşiyə:** Bakı-Qazax şose yolunda, Muğanlı deyilən yerdə böyük pannonun üstündə iri hərflərdə bu sözlər yazılmışdır:

"Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir". Həmin şüarın qarşısında vaxtilə "Heydər Əliyev" sözləri olmuş, sonra kim tərəfdənsə qoparılmışdır. Yerli camaat bunu bilən kimi, "Heydər Əliyev" sözlərini qırmızı rənglə yenidən yerinə yazmışdır. Rəngi isə qoparmaq mümkün deyildir!...

Azərbaycan Sovet Ensiklopediyasının 178-ci səhifəsində Heydər Əlirza oğlu Əliyev haqqında oxuyuruq: "...nöqsanlara qarşı barışmazlığı, özünə və başqalarına yüksək tələbkarlığı, kütlələrlə daimi əlaqə saxlaması, adamlara həssas, qayğıkeş münasibəti ilə fərqlənir... rəhbərə xas yüksək keyfiyyətləri, təşkilatçılıq qabiliyyəti, tükənməz enerjisi, işgüzarlığı, təşəbbüskarlığı ilə Əliyev Azərbaycan xalqının, respublikanın bütün zəhmətkeşlərinin böyük nüfuzunu, məhəbbət və hörmətini qazanmışdır..."

Naxçıvan torpağı...

Burada adı tarixə əbədi həkk olunmuş neçə-neçə görkəmli şəxsiyyət yetişmişdir. Onlardan ancaq birinin - 2 dəfə Sosialist Əməyi Qəhrəmanı Heydər Əliyevin sağlığında büstü qoyulmuşdur. Görəsən, dünyada öz gözəl işlərinin bəhrəsini görməkdən böyük xoşbəxtlik varmı? Heydər Əliyev məhz belə xoşbəxtlərdəndir!...

**Xeyrəddin QOCA**

*"Şərq qapısı" qəzeti, 11-12 dekabr 1992-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN BİRİNCİ SESSİYASI HAQQINDA M Ə L U M A T

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin birinci sessiyası öz işinə başlamışdır. Sessiyanı Naxçıvan Muxtar Respublikasının xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasının sədri S.A. Əsədov açmışdır.

Deputatlar sessiyanın aparılmasını yekdilliklə xalqımızın sevimlisi, iki dəfə Sosialist Əməyi Qəhrəmanı, Naxçıvan şəhərinin 2 nömrəli M.F. Axundov seçki dairəsindən deputat Heydər Əlirza oğlu Əliyevə tapşırmışlar. Sessiyanın katibliyi, hesablayıcı komissiyası və mandat komissiyası seçilmişdir. Deputatlar deputat nümayəndələrinin müşavirəsi tərəfindən təklif edilmiş gündəliyin layihəsini geniş müzakirə etmiş və onu təsdiq etmişlər. Mandat komissiyasının hesabatı dinlənmiş, 1990-cı il sentyabrın 30-da və oktyabrın 14-də secilmiş 94 nəfər xalq deputatının səlahiyyəti təsdiq edilmişdir.

Sessiyada Azərbaycan milli dövlət dirçəlişi prosesinin həyata keçirilməsi məsələsi geniş müzakirə olunmuşdur. Bu prosesin zəruriliyi qeyd edilmiş və bununla əlaqədar mühüm qərarlar qəbul edilmişdir.

Sessiya Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək bundan sonra Naxçıvan Muxtar Respublikası adlandırmağı yekdilliklə qərara almışdır.

Naxçıvan MSSR Ali Sovetinin adını dəyişərək onun bundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında yekdilliklə qərar qəbul edilmişdir.

Sessiya Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında məsələni də müzakirə etmişdir.

Ali Məclisin birinci sessiyası ilk Azərbaycan Respublikasının rəmzi olan üçrəngli Dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi haqqında yekdilliklə qərar qəbul etmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında həmin bayrağın bütövlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır.

Naxçıvan Muxtar Respublikasının digər rəmzi olan gerbi haqqında məsələnin öyrənilib Ali Məclisin sessiyasının müzakirəsinə təqdim edilməsi barədə qərar qəbul edilmişdir.

Sessiya gündəlikdə duran "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına (Əsas Qanununa) dəyişiklik və əlavələr edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin reqlamenti" layihələri haqqında ilkin müzakirələr keçirmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 6-cı, 7-ci və 45-ci maddələri haqqında qərar qəbul edilmişdir.

Konstitusiyaya dəyişiklik və əlavələr edilməsi haqqında Qanun layihəsinin yeni redaksiyada işlənib hazırlanması üçün deputat komissiyası yaradılmışdır.

Sessiya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin reqlamenti layihəsinin 58-ci və 59-cu maddələrini nəzərdən keçirmiş, bu əsasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin seçilməsi barədə qərar qəbul etmişdir.

Deputat Afiyəddin Cəlil oğlu Cəlilov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sədri seçilmişdir.

A.C. Cəlilov sessiyada çıxış etmişdir.

Sessiya öz işini davam etdirir.

*"Şərq qapısı" qəzeti, 18 noyabr 1990-cı il*

## Naxçıvan MR Ali Məclisi birinci sessiyasının gündəliyi barəsində

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Naxçıvan MR Ali Məclisi birinci sessiyasının müzakirəsinə aşağıdakı məsələlər daxil edilsin:

1) Naxçıvan Muxtar Respublikası xalq deputatlarının vəkalətlərinin etibarlı hesab edilməsi haqqında;

2) Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında;

3) Naxçıvan Muxtar Respublikası Ali dövlət hakimiyyəti orqanı haqqında;

4) Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında;

5) Bakı şəhərində fövqəladə vəziyyətə münasibət barədə;

6) 1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi barədə;

7) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin seçilməsi haqqında;

8) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavininin seçilməsi haqqında;

9) Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavininin seçilməsi haqqında;

10) Naxçıvan Muxtar Respublikası Ali Məclisi daimi komissiyalarının təşkil edilməsi haqqında;

11) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin təşkil edilməsi barədə;

12) “Naxçıvan Muxtar Respublikası Konstitusiyasına (Əsas Qanuna) dəyişiklik və əlavələr edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi barədə;

13) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Reqlamentinin layihəsi barədə;

14) Şərur rayonunun Kərki Kənd Sovetliyində yaranmış vəziyyət barədə;

15) Azərbaycan SSR-in DQMV-də Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində Azərbaycan SSR-in Konstitusiya hüquqlarının pozulmasına Naxçıvan Muxtar Respublikası Ali Məclisinin münasibəti haqqında;

16) Naxçıvan Muxtar Respublikası Baş nazirinin təsdiq olunması haqqında;

17) Naxçıvan Muxtar Respublikası Hökumətinin təşkil olunması haqqında;

18) Naxçıvan Muxtar Respublikası Xalq Nəzarəti Komitəsi haqqında;

19) Naxçıvan Muxtar Respublikası Konstitusiya Nəzarəti Komitəsinin yaradılması haqqında

20) Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin seçilməsi haqqında;

21) Naxçıvan Muxtar Respublikası rayon (şəhər) xalq məhkəmələri sədrlərinin və xalq məhkəmələri xalq hakimlərinin seçilməsi haqqında;

22) Naxçıvan Muxtar Respublikası Baş dövlət arbitrinin təsdiq edilməsi haqqında

23) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin fərmanlarının təsdiq olunması haqqında;

24) Sovet Ordusu sıralarında hərbi xidmətə çağırılan gənclərin Azərbaycan SSR ərazisində hərbi xidmət keçmələri, hazırda SSRİ-nin digər müttəfiq respublikalarında hərbi xidmətdə olan azərbaycanlı əsgərlərin milli mənsubiyyətə görə incidilməsi və təqib edilməsi ilə əlaqədar olaraq geri çağırılması və yerli milli ordu qurumlarının yaradılması haqqında;

25) Bazar iqtisadiyyatına keçid və muxtar respublika əhalisinin lazım olan mallarla təchiz edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hesabatı barədə;

26) Naxçıvan Muxtar Respublikasının azad-iqtisadi və sərhədyanı ticarət zonası elan edilməsi barədə;

27) “Kooperasiya haqqında” SSRİ Qanununun Naxçıvan Muxtar Respublikasında yerinə yetirilməsinin vəziyyəti haqqında;

28) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müstəqil mətbuat orqanının təsis edilməsi və Naxçıvan televiziyasının maddi-texniki bazasının vəziyyəti haqqında;

29) "Naxçıvan Muxtar Respublikası vətəndaşlığı haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu barədə;

30) "Qaçqınlar haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin qərarının muxtar respublikada yerinə yetirilməsinin gedişi barədə (Naxçıvan Muxtar Respublikası ərazisində qaçqınların vəziyyəti və onların statusu haqqında);

31) Naxçıvan Muxtar Respublikasının ərazi bütövlüyünün bərpası barədə Moskva  və Qars (1921-ci il) müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verilməsi haqqında;

32) SSRİ sərhəd qoşunlarının Naxçıvan Muxtar Respublikası ərazisində yerləşmiş bütün bölmə və hissələrinin Naxçıvandakı hərbi sərhəd dəstəsinə tabe edilməsi barədə;

33) "Qiymətlərin qaldırılması barədə" SSRİ Dövlət Qiymət Komitəsinin qərarına Naxçıvan Muxtar Respublikası Ali Məclisinin münasibəti haqqında;

34) Naxçıvan Muxtar Respublikası hüquq-mühafizə orqanlarının siyasətsizləşdirilməsi haqqında;

35) Azərbaycanda demokratiyanın qarşısının alınmasına etiraz əlaməti olaraq Azərbaycan SSR Ali dövlət hakimiyyəti orqanına müraciət haqqında;

36) Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası və Türkiyə Respublikası ilə dövlət sərhədi boyunca sərhəd rejiminin qaydaya salınması, sərhədyanı torpaq sahələrindən istifadə edilməsi üçün tədbirlər barədə;

37) Yeni İttifaq müqaviləsinə Naxçıvan Muxtar Respublikasının münasibəti haqqında;

38) Azərbaycan xalqının soyadının dəyişdirilməsi və latın qrafikli əlifbaya keçirilməsinə münasibət barədə;

39) 1990-cı ilin yanvar-mart aylarında və sonrakı dövrlərdə muxtar respublika ərazisinə erməni təcavüzlərinə siyasi qiymət verilməsi,

Naxçıvan Muxtar Respublikasının avtomobil və dəmiryollarının blokadaya alınmasına münasibət barədə;

40) Cari ildə məlum Naxçıvan hadisələri zamanı həlak olanların ailələrinə hərtərəfli maddi və mənəvi yardım göstərilməsi barədə;

41) Azərbaycan SSR Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərinin sosial-iqtisadi inkişafı barədə" qərarının həyata keçirilməsinin vəziyyəti haqqında.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin birinci sessiyasına**
**sədrlik edən**
**Heydər ƏLİYEV**

*Naxçıvan şəhəri, 17 noyabr 1990-cı il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ BİRİNCİ SESSİYASININ STENOQRAMINDAN

*(17 noyabr1990-cı il)*

İclasa sədrlik edən deputat **Heydər Əliyev:** Gündəlikdə Naxçıvanın və o cümlədən Azərbaycanın dövlət rəmzləri, birinci növbədə bayraq məsələsi durur.

Çox çiddi müzakirələr keçdi. Hamı öz fikrini dedi. Yenə də təkrar edirəm, üç təklif var: biri odur ki, Azərbaycanın milli bayrağı Naxçıvanda qaldırılsın və Azərbaycanın Ali hakimiyyət orqanı qarşısında bu bayrağı qəbul etmək məsələsi qoyulsun. İkincisi, bu gün qərar qəbul eləyirik və Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldırırıq ki, onlar Azərbaycanın Dövlət rəmzlərinə baxsınlar. Üçüncüsü də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli milli bayrağını Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edirik və Azərbaycanın Ali hakimiyyət orqanına bunu çatdırırıq. Eyni zamanda Azərbaycanın Ali hakimiyyət orqanı qarşısında məsələ qoyuruq ki, Azərbaycan Respublikasının Dövlət rəmzləri haqqında qərar qəbul etsin.

Üç təklif var. Üçünə də baxdıq. İndi bunları ayrı-ayrılıqda səsə qoyaq, yaxud bir təklifin üstündə hamımız eyni fikrə gələk?

*(Zaldan səslər: Bir təklif olsun.)*

Bir təklifin üstündə dayanaq. Mən çox dərin fikirləşdim və bir az da müzakirə elədim. Mən bu fikirdəyəm ki, üçüncü təklifi həyata keçirək və bununla da bu məsələni qurtaraq. Etirazınız yoxdu ki? Yoxdur.

Deməli, üçüncü təklif nədir? Xahiş edirəm bunu yazın: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olunsun.

*(Alqışlar)*

Etirazınız yoxdur buna? Kim bu təklifin tərəfdarıdır, vəsiqəsini qaldırsın. Salın aşağı. Kim əleyhinədir? Əleyhinə yoxdur. Kim səs verməyib? Heç kəs.

Demək, Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı qəbul olundu!

*(Gurultulu, sürəkli alqışlar altında üçrəngli bayraq Ali Məclisin iclas zalına gətirilir.)*

Qərarın ikinci bəndini yazın:

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Ali qanunvericilik orqanından xahiş edir ki, Azərbaycan Respublikasının Dövlət rəmzləri haqqında məsələyə baxsın və Azərbaycan Respublikasının milli-tarixi ənənələrinə uyğun olaraq yeni Dövlət rəmzləri – bayrağı, gerbi və himni qəbul olunsun. Belə bir qərarı biz qəbul edə bilərik. Biz qərar qəbul edirik və Azərbaycan Ali hakimiyyət orqanından xahiş edirik.

Bu qərarın qəbul edilməsinə kim razıdır, xahiş edirəm, vəsiqəsini qaldırsın. Salın. Kim əleyhinədir? Kim səs vermədi? Yekdilliklə qəbul olundu...

Beləliklə, biz Naxçıvan Muxtar Respublikasının həyatında böyük tarixi qərarlar qəbul etdik. Naxçıvan Muxtar Respublikasının yeni adı qəbul olundu. Naxçıvan Muxtar Respublikasının Ali hakimiyyət orqanının yeni adı qəbul olundu və Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı, milli bayrağı qəbul olundu. Böyük məsələlər həll etdik və bu məsələlərin həll olunmasında deputatlar çox böyük maraqla, böyük səylə iştirak etdilər, ona görə mən bir də bu böyük məsələlərin qəbul olunması ilə əlaqədar olaraq Sizi təbrik edirəm və Sizin hamınıza bu işdə fəaliyyət göstərdiyinizə görə minnətdarlığımı bildirirəm.

*(Alqışlar)*

## Vətəndaşların Naxçıvan Muxtar Respublikası Ali Məclisinə göndərdikləri təklif, ərizə və şikayətlər haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
QƏRARI

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinə və katibliyinə tapşırılsın ki, vətəndaşların Ali Məclisə göndərdikləri təklifləri operativ surətdə nəzərdən keçirsinlər və müvafiq materiallar və qərarlar hazırlanarkən nəzərə alsınlar.

2) Vətəndaşların Ali Məclisə göndərdikləri şəxsi xarakterli xahiş və şikayətlər qanunla müəyyən edilmiş qaydada baxılmaq üçün müvafiq dövlət orqanlarına və ictimai orqanlara verilsin. Vətəndaşların müraciətlərində qaldırılmış məsələlərin həlli üçün görülmüş tədbirlər haqqında ərizəçilərə və Ali Məclisin Rəyasət Heyətinə məlumat verilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin birinci sessiyasına**
**sədrlik edən**
**Heydər ƏLİYEV**

*Naxçıvan şəhəri, 17 noyabr 1990-cı il*

## Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
QƏRARI

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1) Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirilsin.

2) Naxçıvan Muxtar Sovet Sosialist Respublikası bu gündən Naxçıvan Muxtar Respublikası adlandırılsın.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin birinci sessiyasına**
**sədrlik edən**
**Heydər ƏLİYEV**

*Naxçıvan şəhəri, 17 noyabr 1990-cı il*

## Naxçıvan Muxtar Respublikasının Ali dövlət hakimiyyət orqanı haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1) Naxçıvan Muxtar Respublikasının Ali dövlət hakimiyyət orqanının adı dəyişdirilsin.

2) Naxçıvan Muxtar Respublikasının Ali Soveti bundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılsın.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin birinci sessiyasına**
**sədrlik edən**
**Heydər ƏLİYEV**

*Naxçıvan şəhəri, 17 noyabr 1990-cı il*

## Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
QƏRARI

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1) İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi təsis edilsin.

2) Naxçıvan Muxtar Respublikasının digər Dövlət rəmzi-Dövlət himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.

3) Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağının bütövlükdə Azərbaycan SSR-in Dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin birinci sessiyasına**
**sədrlik edən**
**Heydər ƏLİYEV**

*Naxçıvan şəhəri, 17 noyabr 1990-cı il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN 19 NOYABR 1990-CI İL TARİXLİ SESSİYASININ STENOQRAMINDAN

**Xalq deputatı Heydər Əliyev:** Bu gün səhər biz bir neçə yoldaşla görüşəndə, – mən heç bir şeyi gizlətmirəm, Həbib İsmayılov, bizim hörmətli deputatımız, çox sərt danışan adamdır, – gördüm ki, nəsə qanı qaradır. Soruşdum ki, nə olub? Dedi ki, bilirsiniz, bizim srağagün qəbul etdiyimiz qərarlar Bakının göstərişi ilə qəbul edilmişdir... Ola bilər ki, bu fikirlər başqa adamlarda da olsun, mən bir az bunu açmaq istəyirəm.

Biz srağagün burada gündəliyə məsələ salıb səhərdən Naxçıvan Muxtar Respublikasının adının dəyişilməsi və onun bayrağının dəyişilməsi haqqında məsalə müzakirə edərkən, hələ bu qərarı biz müzakirə etdiyimiz vaxt Bakıda təcili olaraq, hətta deyirlər saat 4-də Bakı televiziyası Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin qərarını verdi. Bunlar tövsiyə edirlər ki, gələcək sessiyada (Azərbaycan SSR Ali Sovetinin sessiyası nəzərdə tutulur - **tərtibçi**) Azərbaycanın adı və Azərbaycanın rəmzləri dəyişilsin. Ona görə də Həbib belə fikirdədir ki, guya belə göstəriş bizə əvvəldən verilmiş, biz də bunu qəbul etmişik.

Mən belə bir fikri tamamilə rədd edirəm və belə hesab edirəm ki, bizim Naxçıvanda, Naxçıvan deputatlarının iradəsi ilə, Naxçıvan xalqının iradəsi ilə qəbul olunmuş bu qərar heç bir kəsin yuxarıdan göstərişi kimi qəbul olunmamışdır.

Bu fikirlər Naxçıvanda demokratik fikirli adamların arasında 2-3 aydır ki, müzakirə olunur. Mənim özüm bura gələndən bu fikirlərlə yaşayıram. Bu ayın 9-da deputatlar bax bu salonda toplaşanda, deputatların müşavirəsində bu təklifləri mən irəli surmüşəm. Təəssüf ki, mənim bu təkliflərimi gündəliyi hazırlayan aparat işçiləri qəbul etməmiş və gündəliyə salmamışdılar. Bunlar burada gündəliyə salındı. Ona görə də mən demək istəyirəm ki, bu, bizim Naxçıvan xalqının, Naxçıvan deputatlarının təşəbbüsüdür, bu iradənin ifadəsidir və bunu heç də dünən tələsik dərc olunmuş qərarla bağlamaq lazım deyil. Əgər Azərbaycan

Kommunist Partiyasının Mərkəzi Komitəsi belə fikirdə idisə, bunu bir necə ay bundan qabaq yerinə yetirməyə onlara heç kim mane olmurdu. Ancaq bu qərarın dünən tələsik dərc olunması onları tamamilə, necə deyərlər, aşkara çıxartdı ki, kim hansı tərəfdədir.

Mən xahiş edərdim ki, bizim srağagün qəbul etdiyimiz tarixi qərarları bu cür qəbul edəsiniz və heç kəsdə bir daha belə bir fikir oyanmasın.

*AZƏRBAYCAN SSR PREZİDENTİNƏ,*
*AZƏRBAYCAN SSR ALİ SOVETİNİN SƏDRİNƏ,*
*AZƏRBAYCAN SSR NAZİRLƏR SOVETİNİN SƏDRİNƏ,*
*AZƏRBAYCAN SSR RƏSMİ MƏTBUAT VƏ*
*İNFORMASİYA VASİTƏLƏRİNİN RƏHBƏRLƏRİNƏ*

1990-cı il noyabrın 17-də Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan MSSR Ali Sovetinin sessiyası öz işinə başlamışdır. Sessiyada Naxçıvan MSSR-in adı və Dövlət rəmzlərinin dəyişdirilməsi məsələsi qaldırılmışdır. Xalq deputatı Heydər Əlirza oğlu Əliyevin sədrliyi ilə keçən sessiya Azərbaycan Milli Dövlət dirçəlişi ideyasının həyata keçirilməsi yolunda yekdilliklə mühüm tarixi siyasi əhəmiyyəti olan qərarlar qəbul etmişdir:

1. Naxçıvan MSSR-in adı dəyişilib Naxçıvan Muxtar Respublikası adlandırılmış;
2. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişilib Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılmış;
3. Naxçıvan Muxtar Respublikasının bayrağı kimi Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul olunmuş;
4. Gerb və himnin qəbul edilməsi üçün müsabiqə elan olunması qərara alınmış;
5. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Afiyəddin Cəlil oğlu Cəlilov seçilmişdir.

İttifaq və dünya informasiya vasitələrinin bu haqda yaydığı məlumatlar artıq ittifaq və dünya ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanmış və geniş əks-səda tapmışdır. Lakin Azərbaycan SSR-in rəsmi mətbuat və informasiya vasitələrinə bu haqda məlumat verilməsinə baxmayaraq, onlar bu günə qədər bizə məlum olmayan səbəblərə görə susurlar.

Muxtar respublika Ali Məclisinin xalq deputatları bu hərəkətə görə respublikanın rəsmi mətbuat orqanlarına və informasiya vasitələrinə özlərinin qəti etirazlarını bildirir, bunu Naxçıvan Muxtar Respublikasının informasiya blokadasına alınması kimi qiymətləndirirlər.

Biz deputatlar, bu qərarların təcili surətdə Azərbaycan xalqına çatdırılmasını vacib hesab edirik və bundan sonra muxtar respublika Ali Məclisinin işinin vaxtlı-vaxtında işıqlandırılması və yayılması üçün qəti tədbirlər görülməsini tələb edirik.

**Naxçıvan Muxtar Respublikasının**
**Ali Məclisi**

*Naxçıvan şəhəri, 19 noyabr 1990-cı il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN 20 NOYABR 1990-CI İL TARİXLİ SESSİYASININ STENOQRAMINDAN

**Xalq deputatı Heydər Əliyev:** Mən istəyirəm ki, bu məsələ (1990-cı il 19-20 yanvar Bakı hadisələri – **tərtibçi**) barəsində öz fikrimi deyim. Bu məsələnin meydana gəlməsi tarixi böyükdür. Aydındır ki, 1988-ci ildən Bakıda milli hərəkat başlayıb. Və bu milli hərəkatın boğulmasına bir neçə dəfə - həm Azərbaycan KP rəhbərliyi, həm də ümumittifaq rəhbərliyi cəhd edibdir. Bir qrup adam həbs olunub, cəzalar çəkib, məhrumiyyətə uğrayıblar və burada qarşılıqlı mübarizə gedib. Ancaq bunlara baxmayaraq ümumxalq hərəkatı inkişaf edib, o daha da güclənib və Azərbaycanda bu xalq hərəkatının inkişaf edib güclənməsinin ən böyük təkanvericisi də Dağlıq Qarabağ Muxtar Vilayətində yaranmış vəziyyət, onun ətrafında olan məsələlər və ümumiyyətlə, bu məsələnin yaranması ilə əlaqədar bizim respublikaya Mərkəz tərəfindən göstərilən ədalətsiz münasibətdir.

Bunlar xalq hərəkatına təkan verib və onu inkişaf etdiribdir. Təəssüf ki, mən belə fikirdəyəm, birinci növbədə respublikanın rəhbərliyi, Azərbaycan KP-nin rəhbərliyi bu məsələni düzgün araşdıra bilməyib, bunlara düzgun qiymət verməyib, öz şəxsi mövqelərini müdafiə etmək üçün cürbəcür qeyri-qanuni, qeyri-hüquqi üsullara əl atıb və beləliklə, xalq hərəkatına zərbə vurmağa çalışıbdır.

Bu xalq hərəkatı ilə əgər əvvəldən dil tapılsaydı, söhbət aparılsaydı, rəhbərlik xalqla dialoqa girə bilsəydi, şübhəsiz ki, çox məsələlərin qarşısı alınardı və 1989-cu ilin dekabrında və 1990-cı ilin yanvarında Bakıda və ümumiyyətlə Azərbaycanda olan faciəvi hallar baş verməzdi. Bunlar olmayıb. Və burada da Azərbaycan KP rəhbərləri ümumittifaq siyasi rəhbərləri ilə bir olublar, onlarla birgə hərəkət ediblər, onlarla birlikdə xalq hərəkatını boğmaq, Azərbaycanda diktatura üsuli-idarəsini möhkəmləndirmək niyyətində olublar.

İkinci tərəfdən mən hesab edirəm ki, bir tərəfdən demokratiyanın inkişafı barədə car çəkən ümumittifaq siyasi rəhbərlərinin və onlarla birlikdə Azərbaycan Kommunist Partiyasının rəhbərlərinin ikiüzlülük

edərək, xalqa xəyanət edərək, xalq hərəkatını boğmaqla, tutduqları vəzifədə qalmaları cinayətdir. Bundan danışmaq lazımdır. Bunun tarixini təhlil etməyə tarixçilərimiz də, böyuk adamlarımız da var. Şübhəsiz ki, Azərbaycan xalqı öz tarixini çox dərindən təhlil etməlidir. Bütün keçən dövrlərə baxıb, hamısına düzgün qiymət verməlidir.

Ancaq indi söhbət ondan gedir ki, münasibət nədir? Münasibət də ondan ibarətdir ki, 19-20 yanvar 1990-cı il hadisələri, Bakıda baş vermiş hadisələr faciəvi hadisədir və mən belə hesab edirəm ki, Azərbaycanın 1920-ci ildən sonrakı tarixində belə faciəvi hadisə olmamışdır. Bu, xalqın böyük hiddətini doğurmuşdur. Xalq matəm vəziyyətinə gəlib çıxmışdır. İndi on bir aydır ki, xalq matəm içindədir. Bunu açıq-aydın demək lazımdır.

Nə üçün bu məsələ meydana gəlib - mən bunu dedim. Bunun qarşısı alına bilərdimi? Şübhəsiz ki, alına bilərdi. Əgər respublikanın siyasi rəhbərləri xalqla əlaqəyə girsəydilər, xalqla bir olsaydılar, xalqla dil tapsaydılar və xalqın dediyi sözləri eşitsəydilər və onlarla hesablaşsaydılar. Ancaq bunlar olmayıb. Respublikanın rəhbərləri Moskvanın, Qorbaçovun müdafiəsinə arxayın olaraq xalqı boğmağa, əzməyə çalışıblar. Və buna da nail olublar.

Mən hesab edirəm ki, bunların qarşısı alına bilərdi. Bu faciə baş verməyə bilərdi. Xalqımız bu günə düşməyə bilərdi.

Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir.

Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır. Bunu da edib Sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qə-

dər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olubdur ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edibdir.

Deməк, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir. Və mən şəxsən bu hadisələri eşidərkən, yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gedib öz fikrimi söyləmişəm, bütün bu aksiyanı, bu əməliyyatı pisləmişəm. O vaxt demişəm, indi də təkrar edirəm: bu, xalqın əleyhinə olan əməliyyatdır, demokratiyanın əleyhinə olan əməliyyatdır, hüquq normalarının əleyhinə olan əməliyyatdır, mürtəce bir əməliyyatdır. Mən bu fikirdəyəm və buna belə də qiymət verməк lazımdır.

Azərbaycan xalqı üçgünlük matəm elan etmişdi. Şəhidlər Azərbaycan paytaxtının görkəmli yerində dəfn olunmuşlar. Bəs qatillər kimdir? Nə üçün indiyə qədər bu qatillər meydana çıxmayıbdır? Onların heç biri həbs olunmayıb, heç biri xalqa göstərilməyib. Bu necə olur? Əgər biz şəhidləri görürüksə, onların qəbirlərinin üstünə gündə minlərlə adam gedirsə, bəs bunların qatilləri kimlərdir? Bunlar nə üçün indiyə qədər kənarda qalıblar? Bu, çox təəccüblü məsələdir. Bu, xalqı incidir, narahat edir, hər bir adamda bu sualı verməк hüququ yaradır. Mən şəxsən bu sualı verirəm, ancaq cavab ala bilmirəm.

Bir sözlə, bu hadisə olub. Azərbaycan xalqının başına bu bəla gəlib. Faciə baş verib. Bu, məsələnin bir tərəfidir. İkinci tərəfi, bəs bu məsələlərə nə üçün indiyədəк siyasi qiymət verilməyib? Bu məsələ gündəliyə salınarkan mən belə başa düşdüm ki, deputatlar buna siyasi qiymət verəcəklər.

Məlumdur ki, yanvarın 22-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyası olmuşdur. O sessiyada çox ciddi söhbətlər getmiş və bu hərbi əməliyyat, bu təcavüz pislənmişdir. Ancaq o sessiyanın işi kəsilmiş, indiyə qədər bərpa olmamışdır. Ondan sonra Ali Sovetin bir neçə dəfə sessiyaları keçib, ancaq bu məsələ tamamilə kənarda qalıb. Elə bil ki, Azərbaycan xalqının başına heç belə bəla gəlməyib. Sonra komissiya yaranıb. Mən mətbuatda oxumuşdum ki, yanvar hadisələrinin başvermə səbəblərini və günahkarlarını təyin etmək üçün böyük bir deputat komissiyası yaranıb və onun da başında SSRİ xalq deputatı, akademik Abbasov durur. Ancaq indiyə qədər bu komissiya öz fikrini bildirməyib, bu komissiyanın

işi müzakirə olunmayıb, xalq bu barədə bir şey bilmir. Eyni zamanda, Azərbaycan KP MK da, mən mətbuatdan bildim ki, bu barədə komissiya yaradıbdır. Eşitdiyimə görə, MK katibi Daşdəmirov o komissiyanın sədridir. Ancaq bu komissiyanın işindən də xəbər yoxdur. Bax, iş burasındadır, yoldaşlar. Olan olub, başımıza gələn bəla gəlib, millət əzilib, millətə qarşı təcavüz olub, ancaq indiyə qədər Azərbaycan xalqının həyatında baş vermiş bu böyük faciəvi hadisəyə siyasi qiymət verilməyib və bunun günahkarları meydana çıxarılmayıbdır.

Doğurdan da, faciəvidir.

Dünən buraya bir qrup artist gəlmişdi. Afaq Bəşirqızı orada çıxış edirdi. Bizim gənc aktrisalardandır. O özü deyirdi ki, bu hadisənin şahidi olubdur. O, Tbilisi prospektində yaşayır. Deyir, mən gecə saat 12-dən sonra çıxdım balkona, gördüm tanklar adamları necə əzir. Gülləhləri atırdılar evlərə. Bizim qonşunun balkonuna neçə güllə dəyib. Dinc şəraitdə yaşayan azərbaycanlılara nə üçün belə xəyanət olub? Bunların hamısının indi üstü örtülüb-basdırılıb. Heç kəs bu haqda danışmaq istəmir, mən demək istəyirəm ki, rəsmi dairələrdən. Elə bil ki, Azərbaycan xalqının başına belə bir iş gəlməyibdir.

Ona görə mən belə fikirdəyəm ki, indi oxunan bəyanatın üzərində ciddi surətdə işləmək lazımdır. Onu genişləndirmək lazımdır. Çıxışlarla əlaqədar əlavələr etmək lazımdır. Burada əsas tələb ondan ibarətdir ki, biz özümüz bu hadisələrə qiymət verməli, Azərbaycan xalqına qarşı olan bu təcavüz əməliyyatını pisləməliyik. Və eyni zamanda, Azərbaycan Respublikasının Ali hakimiyyət orqanından tələb etməliyik ki, qısa müddətdə, yaxud heç olmasa növbəti sessiyada bu məsələ müzakirə olunsun. Yanvar hadisələrinə siyasi qiymət verilsin və bu hadisənin günahkarları - kim olursa-olsun, Qorbaçovdan tutmuş aşağı, respublika rəhbərlərinə kimi, keçmiş, ya indiki - fərqi yoxdur, bu xalqdır, xalqa qarşı cinayətdir, - cəzalandırılsın. Bir nəfəri öldürənə qanunlara görə ən yüksək cəza verirlər. Ancaq burada gör nə qədər adam həlak olubdur - bir nəfər günahkar meydana çıxmayıbdır. Bu qədər qanunsuzluğa, demokratiyanın bu qədər pozulmasına dözmək olmaz. Ona görə bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın Ali hakimiyyət orqanından tələb etməliyik ki, buna baxsın və günahkarlar cəzalandırılsın.

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN 20 NOYABR 1990-CI İL TARİXLİ SESSİYASININ STENOQRAMINDAN

**Deputat Heydər Əliyev:** Mən bu məsələ haqqında bir-iki söz demək istəyirəm. Birinci, biz gündəliyə salmışıq ki, "Azərbaycan SSR-in DQMV-də, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində Azərbaycan SSR-in Konstitusiya hüquqlarının pozulmasına Naxçıvan MR Ali Məclisinin münasibəti haqqında". Mən aydınlaşdırmaq istəyirəm, bu maddəni düzgünmü tərtib etmişik? Mən indi bu məsələyə bir az dərindən baxanda özüm-özümə sual verdim ki, hansı Konstitusiyanın pozulması haqqında biz danışırıq? Çünki burada məsələ sadəcə Konstitusiyanın pozulması deyil. Bu sualı nə üçün verirəm? Gəlin, birgə aydınlaşdıraq. DQMV 1988-ci ilin əvvəlindən Azərbaycan dövlətinin hakimiyyətindən çıxıb. Bu, gerçəklikdir, reallıqdır, faktdır. Azərbaycan hökuməti DQMV-də özünün hakimiyyət hüquqlarını həyata keçirə bilmir. Bu, ən böyük faciədir. Bununla yanaşı, əgər DQMV-nin müəyyən qədər muxtariyyət hüququ varsa, heç bir muxtariyyət hüququ olmayan Şaumyan rayonu da Azərbaycana tabe olmur. Müstəqil həyat keçirir, yaşayır və Ermənistana tabedir. Ən nəhayət, Çaykənd kəndi də bu vəziyyətdədir. Gəlin belə danışaq: bizim indiyə qədər hələlik daxil olduğumuz Sovetlər İttifaqında heç bir respublikanın bu qədər ərazisi əlindən getməyib, heç bir respublikanın suverenliyi, ərazi bütövlüyü bu cür pozulmayıb. Bu, bir Azərbaycan Respublikasının başına gəlib.

Bunun tarixi böyükdür. Burada durub deyirlər ki, nə bilim 1923-cü ildə nə olub, 24-cü ildə nə baş verib... Bu günün məsələlərini həll etmək lazımdır. DQMV düzgün olaraq yaranıb, yaxud düzgün yaranmayıb, – bu məsələlərə uysaq – bunlar, əlbəttə diqqətəlayiq məsələlərdir, - bu günün məsələləri yaddan çıxar. Əlimizdə olan vilayət əlimizdən gedib, indi hər yerdə yazırıq: Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti. Haradadır bu Azərbaycan Respublikası? DQMV-də bu ilin əvvəlində Ermənistan Respublikasının Ali Sovetinə seçkilər keçirilib və 12 nəfər deputat seçilib. Bu 12 nəfər deputatın Dağlıq Qara-

bağ Muxtar Vilayətindən seçilməsi indiyə qədər respublika ictimaiyyətindən gizlədilir. Eyni zamanda, hamıya da olmasa çox adama məlumdur ki, bu 12 nəfər deputat Ermənistan parlamentində fəal iştirak edir və orada bizə qarşı özlərini ən təcavüzkar aparan deputatlardır. Belə olan halda Dağlıq Qarabağa nə cür demək olar ki, bizimkidir. Xeyr, o, bizim əlimizdən gedib. Bunun tarixi isə uzundur, artıq üç ildir çəkir. Bunu deməklə vaxtınızı almaq istəmirəm... Bəs Şaumyan rayonu nə üçün əlimizdən gedib? Bəs, Çaykənd kəndi nə üçün əlimizdən gedib? Nə üçün Azərbaycanın hakimiyyətinə tabe olmurlar?

Əgər istəyirsinizsə mən deyim ki, birinci səhv 1988-ci ilin mart ayında Sov. İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarında buraxıldı. Qərara görə Dağlıq Qarabağın işlərinə Ermənistan Respublikasının müdaxilə etmək hüququ var. İkinci səhv bundan ibarətdir ki, indi orada guya Azərbaycanın Təşkilat Komitəsi yaranıbdır. Ancaq bu Təşkilat Komitəsinin heç bir fəaliyyəti yoxdur. Bunun fəaliyyəti ondan ibarətdir ki, Təşkilat Komitəsinin üzvləri vaqonları boşaldıb ermənilərə ərzaq daşıyırlar.

Bax, məsələ burasındadır. İndi bu torpaqlar nə qədər bizim əlimizdən getmiş vəziyyətindədirlər? Nə qədər? Bax, bundan danışmaq lazımdır. Ona görə mən belə başa düşürəm ki, burada Konstitusiya hüquqlarının pozulması sözləri qeyri-müəyyənlik yaradır. Bunu bəlkə belə yazmaq lazımdır ki, Dağlıq Qarabağ Muxtar Vilayətində, Şaumyan rayonunda və Çaykənd kəndində olan vəziyyətə Naxçıvan MR Ali hakimiyyət orqanının münasibəti.

Münasibəti də belə bildirmək olar ki, məsələn, biz bu fikirdəyik ki, buraxılmış böyük səhvlər nəticəsində - həm respublika rəhbərliyinin, həm ittifaq rəhbərliyinin buraxdığı böyük, kobud səhvlər nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü pozulub, suverenliyi pozulub, onun tarixi əraziləri və tərkib hissəsi olan DQMV-də, Şaumyan rayonunda və Çaykənddə Azərbaycan hakimiyyəti pozulub, heçə çıxıb. Ona görə də Azərbaycan Respublikasının Ali hakimiyyət orqanından tələb etmək lazımdır ki, bu məsələyə baxsın. İkinci, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövləti DQMV-də, Şaumyan rayonunda və Çaykənd kəndində Azərbaycan Respublikasının hakimiy-

yətini bərqərar etmək üçün lazımi tədbirlər görmür. Bunu qeyd etmək lazımdır. Ümumittifaq dövləti, Ali Soveti, yaxud da ki, Prezident Azərbaycanın suverenliyinin pozulmasını görə-görə, heç bir qərar qəbul etmir.

Üçüncü, qeyd etmək olar ki, Ermənistan Respublikası tamamilə qanunsuz olaraq Azərbaycan Respublikasının daxili işlərinə qarışır, Dağlıq Qarabağda, Şaumyan rayonunda və Çaykənd kəndində öz təxribat işlərini aparır.

Və ən nəhayət, tələb etmək olar ki, Azərbaycan Respublikasının Ali hakimiyyət orqanı bu məsələni ətraflı müzakirə etsin və Dağlıq Qarabağda, Şaumyan rayonunda və Çaykənd kəndində Azərbaycan hakimiyyətinin bərqərar olmasını təmin etsin. Mən bax, bu fikirdəyəm.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli**
**sessiyasında deputat**
**HEYDƏR ƏLİYEVİN**
**Ç I X I Ş I**

Deputat yoldaşlar!

Biz bu məsələni gündəliyə daxil edərkən belə qərara gəldik ki, Dağlıq Qarabağda, Şaumyan rayonunda və Xanlar rayonunda əmələ gəlmiş vəziyyətə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin münasibətini bildirək. Ona görə də biz burada müzakirə etsək ki, Dağlıq Qarabağda Azərbaycan hakimiyyəti bərqərar olsun, – bu, bizim üçün ağır vəzifə ola bilər və bu da heç bizim vəzifəmiz deyil. Bu, Azərbaycan hakimiyyət orqanlarının vəzifəsidir. Biz burada öz təkliflərimizi verə bilərik, öz fikrimizi söyləyə bilərik.

Ancaq Dağlıq Qarabağda əmələ gəlmiş vəziyyətə müəyyən qədər qısa təhlil verib, Dağlıq Qarabağın artıq faktiki əlimizdən getməsi vəziyyətinə öz münasibətimizi bildirsək və qeyd etsək ki, İttifaq Hökuməti, Sovet İttifaqının siyasi rəhbərliyi Dağlıq Qarabağın Azərbaycanın əlindən getməsinə nəinki mane olmayıb, hətta kömək edibdir və Azərbaycan Respublikasının rəhbərliyi bu son üç ildə Dağlıq Qarabağın, həmçinin Şaumyan rayonunun və Çaykənd kəndinin öz tabeliyində qalmasını təmin edə bilməyibdir, onda biz, mənə elə gəlir ki, fikrimizi bildirmiş olardıq və Azərbaycan Respublikasının Ali hakimiyyət orqanı qarşısında bu məsələni qoyardıq ki, siz indiyə qədər bu məsələni uzadırsınız, xalqı aldadırsınız, təsirli tədbirlər görmürsünuz.

Bir müddət bir neçə böyük səhv buraxılıb. Məsələn, 88-ci ilin mart ayında SSRİ Nazirlər Sovetinin və Sov. İKP MK-nın qərarını qəbul etməyə Azərbaycan rəhbərlərindən kim qol çəkibsə, burada Qarabağın əldən getməsi üçün birinci addımı atıblar. Çünki o qərarda yazıblar ki, Ermənistan Respublikasına Dağlıq Qarabağın işləri ilə məşğul olmaq ixtiyarı verilir.

İndi, bağışlayın, mən iki kəlmə tarixdən demək istəyirəm. Məni o vaxtlar – Dağlıq Qarabağ məsələləri qalxanda mərkəzi mətbuatda gü-

nahlandırdılar: guya mən günahkaram ki, vaxtilə Dağlıq Qarabağda sosial-iqtisadi vəziyyət pis olub. Azərbaycanda da belə bədxah adamlar çıxdılar, belə-belə sözlər dedilər. Və ikinci də, məni günahlandırırdılar ki, guya vaxtilə Ermənistanla Dağlıq Qarabağın əlaqələrini məhdudlaşdırmışam, ona görə də Dağlıq Qarabağda belə məsələlər əmələ gəlibdir.

Mən bir vətəndaş kimi sizə məlumat vermək istəyirəm. Bu əlaqəni məhdudlaşdırmamışdım. Ancaq mən Azərbaycanın rəhbəri kimi Ermənistanın Dağlıq Qarabağın işlərinə qarışmasına yol vermirdim. Və bunu bir vətəndaş, bir azərbaycanlı kimi öz borcum bilirdim.

İndi baxın, mart ayında qərar qəbul etdilər. Azərbaycanın rəhbərləri də bu qərara qol çəkdilər və yazdılar ki, Ermənistan Respublikasının və Azərbaycan Respublikasının rəhbərlərinə tapşırılsın ki, Dağlıq Qarabağın işlərinə baxsınlar. Ən birinci kobud addım, Azərbaycana xəyanət bu idi. Dağlıq Qarabağın əldən çıxmasına yol orada açıldı.

İkinci, mən dünən dedim, yenə də təkrar edirəm, Volskinin rəhbərliyi ilə xüsusi idarəetmə komitəsinin yaranması. İndi gəlin həqiqəti danışaq, bunu bir Qorbaçov ortaya atmayıb ki? Bu, uzun müzakirədən sonra yaranıbdır. Məsələn, Moskvada bir-iki adam mənim buna fikrimi soruşdu, mən qəti etiraz etdim. Ancaq Azərbaycanın rəhbərləri bu idarənin yaranmasını vəziyyətdən çıxış yolu kimi bildilər, bunu çıxış edən deputatların da dediyi kimi, çox təmtəraqla qəbul etdilər, bunu böyük bir nailiyyət kimi qələmə verdilər. Anlamadılar, yaxud da anlayaraq, qəsdən buna getdilər ki, Qarabağ əldən getsin... O ləğv olundu, indi yaradılıb – Təşkilat Komitəsi. Mən dünən dedim, yenə də öz fikrimi deyirəm: Təşkilat Komitəsi orada bir fəaliyyət göstərmir.

Beləliklə, Dağlıq Qarabağ əldən gedibdir. Bu məsələlərə, bu prosesə öz fikrimizi bildirsək və göstərsək ki, Mərkəzin siyasi rəhbərliyi və Azərbaycanın siyasi rəhbərliyi Dağlıq Qarabağda gedən bu proseslərin qarşısını almayıblar və get-gedə Dağlıq Qarabağ, həmçinin Şaumyan, Çaykənd Azərbaycanın əlindən gedir, mənə elə gəlir ki, bu bizim üçün kifayətdir və bu məsələni Mərkəzin qarşısında, Azərbaycan Ali hakimiyyət orqanının qarşısında qoya bilərik ki, onu həll etsin.

Burada Azərbaycanın deputatları var, onlardan xahiş edə bilərik, mən də bir deputat kimi üzərimə götürürəm ki, bu məsələni orada qaldı - raq.

Mən dünən o bəndə etiraz etdim, indi bunu bir də yazıblar ki, əgər bu məsələ həll olunmazsa, biz ittifaq müqaviləsindən imtina edəcəyik.

Axı, a yoldaşlar, biz ittifaq müqaviləsini müzakirə etməmişik. İndi belə çıxır ki, biz ittifaq müqaviləsinin bağlanmasına razıyıq, lakin Dağlıq Qarabağ məsələsi həll olunmazsa, razı olmayacağıq. İttifaq müqaviləsinin bağlanması böyük məsələdir. Bunun üçün gərək biz fikirləşək. Bu bağlanmalıdır, ya bağlanmalı deyil. Bunu bir Dağlıq Qarabağ məsələsindən asılı qoymaq olmaz. Bu məsələ müzakirə ediləndə mən öz fikrimi deyəcəyəm. Bu, böyük məsələdir. Biz Azərbaycanın istiqlaliyyəti haqqında danışmalıyıq. Ona görə deputatlar düz dedilər. SSRİ Ali Sovetinin sessiyasında SSRİ prezidentinin çıxışından sonra 5 respublikanın nümayəndəsi çıxış edib dedi ki, biz bu müqavilədə iştirak etməyəcəyik. Təəssüf ki, Azərbaycan Respublikasının nümayəndəsi çıxış edərək ittifaq müqaviləsini bəyəndiyini bildirib və bunun bağlanması vacibliyini çox təkidlə irəli sürüb. Mən fürsətdən istifadə edərək, öz fikrimi bildirirəm ki, biz gərək buna da münasibətimizi bildirək. Azərbaycan Respublikasının nümayəndəsi orada bu cür çıxış üçün kimdən icazə alıb? Kim ona bu ixtiyarı verib? Kim ona bu səlahiyyəti verib? Özbaşınalıq bəsdir.

Mən bu fikirdəyəm ki, əgər mənim mülahizələrim qəbul olunursa, bu qərar bir az da işlənməlidir. Çünki bu çox mühüm qərardır. Burada çox həssas iş aparılmalıdır. Mənim fikrim bundan ibarətdir.

**Yerdən sual:** Dağlıq Qarabağ məsələsini necə həll etmək olar ki, o, Azərbaycanın tərkibində qalsın?

**Heydər Əliyev:** Mən indi buna cavab vermək istəmirəm. Çünki bu o qədər mürəkkəbləşdirilmiş məsələdir ki, onu tək mənim fikrimlə yox, ümumi xalqın fikri ilə həll etmək lazımdır. Ona görə də mən öz fikrimi bildirmək istəmirəm. Biri deyir: gəlin Dağlıq Qarabağın muxtariyyətini ləğv edək, o biri başqa təklif verir. Bu, mürəkkəb məsələdir. Daha doğrusu, bu, mürəkkəbləşdirilib. Məsələn, bu, 3 il bundan əvvələ qədər, 88-ci ilə qədər heç də mürəkkəb məsələ deyildi. 14 il

mən Azərbaycan Respublikasına rəhbərlik etmişəm, bu məsələ heç vaxt mənim üçün çətinlik törətməyib. Düzdür, bu məsələ neçə dəfələrlə qalxıb, ancaq bunların qarşısı alınıbdır. Bu üç ildə biz Dağlıq Qarabağda hakimiyyətimizi itirəndən sonra, istəyirsiniz ki, mən bir kəlmə ilə deyim ki, bunu nə cür həll eləmək olar? Bunu müzakirə eləmək lazımdır. Münasibətimizi bildirməliyik. Dərd də burasındadır ki, bu məsələ Azərbaycanda müzakirə olunmur, buna dərindən baxılmır. Hərə kiçik bir iş görür, hesab edir ki, Dağlıq Qarabağ bizimdir.

İndi Afiyəddin müəllim deyir ki, keçmiş birinci katib bəyan edirdi ki, "əşşi, nə danışırsınız? Dağlıq Qarabağ bizimdir".

Mənim yaxşı yadımdadır, bir halda ki, siz məni məcbur edirsiniz, bir fakt da deyə bilərəm: SSRİ Ali Sovetinin sessiyası idi. Mən də hələ SSRİ Ali Sovetinin deputatı idim. Azərbaycanın Ali Sovetinin keçmiş sədri Xəlilovla orada görüşdüm. Mən ona dedim ki, siz nə edirsiniz orada? Dağlıq Qarabağ əldən getdi. Siz onu niyə əldən verdiniz? Mənim bu söhbətim 1988-ci ilin iyul ayında olmuşdu. Həmin vaxt Moskvada Ali Sovetin Rəyasət Heyətinin iclasında Dağlıq Qarabağ məsələsinə baxılırdı. Yadınızdadırmı? Onda bu məsələyə baxılırdı, televiziya ilə də verilirdi. Bəli, bəli, iyulun 18-də. Mən onda Xəlilova dedim: "Siz nə edirsiniz? Başınızı itirmisiniz, Dağlıq Qarabağ əldən getdi. Sən də o iclasda iştirak edirdin. Nə üçün buna razılıq verdin?" O mənə deyir, "Əşşi, sən nə danışırsan, Dağlıq Qarabağ bizim əlimizdədir, əlimizdə də olacaqdır". Mən onunla razı olmadım. Etirazımı da ona bildirdim. Bax belə-belə adamlar ayrı-ayrı vədlərlə Dağlıq Qarabağı əldən veriblər. İndi məndən soruşursunuz ki, nə cür eləyək? Mən buna bir kəlmə ilə cavab verə bilmərəm. Bunu gərək müzakirə edək.

# ÖTƏN İLLƏRDƏN

Ötən hər an bizi 20 Yanvar faciəsinin ildönümünə daha da yaxınlaşdırır. Bu günlər xalqımız hüzn, matəm içindədir. 6 il öncə sovet imperiya ordusunun mütəşəkkil cinayətkar dəstələri Bakı şəhərini işğal edərək, dinc əhaliyə qarşı görünməmiş vəhşilik törətdilər. Bu işğalçı hərəkəti ilkin ittiham edənlərdən biri də o vaxtlar Moskvada yaşayan fərdi pensiyaçı Heydər Əliyev idi. Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində etdiyi çıxışa və verdiyi bəyanata görə siyasi təqibə məruz qalan Heydər Əliyev doğma Naxçıvana qayıtdı. Öz ləyaqətli oğlunu hifz edən xalqımız onu Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının Ali qanunverici orqanına deputat seçdi. Lakin nə yeni formalaşan qanunverici orqan, nə də Azərbaycanın o zamankı rəhbərliyi - Ayaz Mütəllibov və onun milli satqınlardan ibarət cinayətkar dəstəsi Qanlı Yanvar faciəsinə hüquqi-siyasi qiymət vermək iqtidarın - da deyildi. Bu azmış kimi, onlar xalqa qarşı törədilmiş vəhşiliyi örtbasdır edirdilər. Belə bir şəraitdə sıravi deputat kimi Heydər Əliyev “1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” qərar layihəsini işləyib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə təqdim etdi. Ali Məclisin binası önünə toplaşan xalq kütlələrinin tələbi, muxtar respublika deputatlarının fəallığı və Heydər Əliyevin siyasi nüfuzu nəticəsində qəbul olunan və o zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyən mərhum Afiyəddin Cəlilov tərəfindən imzalanan bu qərarda ilk dəfə Yanvar hadisələrinə siyasi qiymət verilir, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi. Həmin sənəddə ilk dəfə olaraq 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında milli matəm günü kimi qeyd edilməsi də qərara alınmışdır. Bundan çox-çox sonra 20 Yanvarın Azərbaycanda hüzn günü kimi qeyd olunması haqqında qərar verildi. Yanvar hadisələrinin əsl hüquqi və siyasi qiymət verilməsi isə xalqımızın qeyrətli oğlu Heydər Əliyevin Azərbaycan rəhbərliyinə ikinci dəfə qayıdışından sonra mümkün oldu.

Böyük siyasi xadim, möhtərəm Prezidentimiz Heydər Əliyev Naxçıvanda yaşayarkən və işləyərkən öz əli ilə yazdığı 21 noyabr 1990-cı il və 14 dekabr 1990-cı il tarixli qərarların aktuallığını və tarixi dəyərini nəzərə alaraq onları bir daha dərc edirik.

*"Şərq qapısı" qəzeti, 20 yanvar 1996-cı il*

## 1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında

### NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər.

Bununla, SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinin tələbləri kobudcasına pozulmuş və Azərbaycan SSR-in suveren hüquqlarına açıq-aşkar qəsd edilmişdir.

Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır.

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S. Qorbaçov, həmin müddətdə Bakıda olan Sov. İKP MK katibi A. Girenko, SSRİ Ali Soveti İttifaq Sovetinin keçmiş sədri Y. Primakov, SSRİ-nin müdafiə naziri D.Yazov, SSRİ-nin daxili işlər naziri V. Bakatin, Sov. İKP MK-nın məsul işçisi A. Mixaylov, eləcə də respublika rəhbərliyi - Azərbaycan KP MK-nın keçmiş birinci katibi Ə. Vəzirov, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri E. Qafarova, Azərbaycan SSR Na-

zirlər Sovetinin o zamankı sədri A. Mütəllibov, Azərbaycan KP MK-nın büro üzvlərindən V. Polyaniçko, M. Məmmədov, V. Hüseynov xalqa qarşı həyata keçirilən bu siyasi və hərbi qəsd üçün cavabdehdirlər və birbaşa məsuliyyət daşıyırlar.

Respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətin iştirakçısı ola-ola, zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır.

Qanlı Yanvar hadisələrinin günahkarlarını üzə çıxarmaq, onu təhlil etmək və siyasi qiymət vermək üçün respublika əhalisinin təkidli tələbinə baxmayaraq faktiki olaraq heç bir tədbir görülməmişdir. Yanvar ayının 22-də çağırılan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoymuş, Yanvar hadisələrinə siyasi qiymət verməli olan həmin sessiya bu günədək öz işinə başlamamış, sonrakı sessiyalarda da bu məsələyə baxılmamışdır. Qəribədir ki, respublika Ali Sovetinin Yanvar hadisələrini təhqiq etməli olan komissiyanın işi də başa çatdırılmamışdır (komissiyanın sədri M. Abbasov).

Yanvar faciələrinin səbəbkarlarının istər ittifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək, insan hüquqları Bəyannaməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutaraq **qərara alır:**

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR Ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilmə-

məsi, bununla əlaqədar yaradılmış xüsusi deputat komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun.

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.

4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında milli matəm günü kimi qeyd edilsin.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də milli matəm günü kimi qeyd edilsin.

**A. CƏLİLOV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin sədri**

*Naxçıvan şəhəri, 21 noyabr 1990-cı il*

## Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikasının Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz tərkib hissəsi olduğunu qeyd edərək Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti və onun ətrafında, Şaumyan rayonunda, Xanlar rayonunun Çaykənd kəndində yaranmış ağır vəziyyətə münasibətini bildirməyi özünün tarixi milli borcu hesab edir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, son üç il ərzində bütün erməni lobbisinin himayəsi və havadarlığı altında Ermənistan SSR-in millətçi ekstremist dairələri, rəsmi partiya və dövlət orqanları Dağlıq Qarabağın şovinist əhvali-ruhiyyəli əhalisi ilə birlikdə

açıq məqsədyönlü iş apararaq Azərbaycan ərazisinin müəyyən hissəsini – DQMV-ni zorla qoparıb Ermənistana birləşdirmək istəyirlər.

Azərbaycanın partiya, dövlət rəhbərliyi DQMV-də konstitusiyaya zidd, millətçilik zəminində baş verən və inkişaf edən hadisələri vaxtında anlamamış, onların qarşısını ala bilməmiş, Ermənistanın Azərbaycan Respublikasının daxili işlərinə qarışmasının qarşısını almağa, Ermənistanın qeyri-qanuni ərazi iddialarını dəf etməyə qabil olmamış, Azərbaycanın ərazi bütövlüyünü, Azərbaycan xalqının şərəfini və ləyaqətini müdafiə etmək iqtidarında olmamışdır.

SSRİ-nin partiya və dövlət rəhbərliyi, ən əvvəl şəxsən M. Qorbaçov hadisələrin təhlilinə və qiymətinə qeyri-obyektiv yanaşmış, SSRİ Konstitusiyası ilə onlara verilmiş səlahiyyətləri yerinə yetirməyərək Azərbaycan SSR-in Konstitusiya hüquqlarını müdafiə etməmiş, Ermənistan SSR-in Azərbaycanın ərazisinin bir hissəsini zorla almaq cəhdinin dəf edilməsi üçün təsirli tədbirlər görməmiş, əsas olmadan Azərbaycanın rəhbərliyini DQMV əhalisinin sosial-iqtisadi və mədəni inkişaf sahəsindəki hüquqlarının məhdudlaşdırılmasında günahlandırmış, özlərinin hüquqi əsası olmayan qərarları və bəyanatları ilə DQMV və onun ətrafında baş verən hadisələri daha da kəskinləşdirərək, erməni tərəfinə havadarlıq etmişlər.

Sov. İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1988-ci ilin mart ayında qəbul etdiyi "DQMV-nin xalq təsərrüfatının inkişafı tədbirləri haqqında" və SSRİ Ali Soveti Rəyasət Heyətinin iyul (1988-ci il) qərarları tarixən bağışlanmaz siyasi səhv kimi qəbul olunmalıdır. Ona görə ki, həmin qərarların qəbul olunması ilə Ermənistana Azərbaycan SSR-in daxili işlərinə müdaxilə etmək hüququ verilmiş, DQMV-in işləri ilə məşğul olmaq imkanı əldə edilmiş, SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə yaradılmış DQMV-in Xüsusi İdarə Komitəsi isə muxtar vilayəti faktiki olaraq Azərbaycan dövlətinin tabeliyindən çıxarmışdır. Bu qərarlar SSRİ Konstitusiyasına, Azərbaycan SSR Konstitusiyasına tam ziddir. Azərbaycanın dövlət suverenliyinin və ərazi bütövlüyünun kobud surətdə pozulmasına gətirib çıxartmışdır.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi dərin hiddətlə qeyd edir ki, bu qərarların hamısı Azərbaycan KP MK-nın və şəxsən Ə. Və-

zirovun, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti rəhbərliyinin iştirakı və razılığı ilə qəbul olunmuş, Azərbaycanın siyasi rəhbərliyi tərəfindən DQMV və bütün regionda vəziyyəti normallaşdırmağa yönəldilən tədbirlər kimi geniş təbliğ edilmişdir.

Əsl həqiqətdə isə Dağlıq Qarabağ Muxtar Vilayətində və onun ətrafında vəziyyət getdikcə kəskinləşmiş, Azərbaycan SSR və Ermənistan SSR, Azərbaycan və erməni xalqı arasında millətlərarası münaqişə daha da ciddi şəkil almışdır. Ermənistandan bütün azərbaycanlı əhali qovulmuş, buna cavab olaraq Bakıdan və Azərbaycanın digər şəhər və rayonlarından erməni əhalisi çıxarılmağa başlanmış - dır. Stepanakert şəhərindən və Dağlıq Qarabağın digər yaşayış məntəqələrindən azərbaycanlıların qovulması xüsusilə dözülməzdir. Həm də bütün bu hadisələr Dağlıq Qarabağda Xüsusi İdarə Komitəsinin fəaliyyəti dövründə baş vermişdir. Azərbaycanın siyasi rəhbərliyinin öz respublikası ərazisində Azərbaycan əhalisinin mənafeyini erməni zorakılığından müdafiə etməkdə acizlik göstərməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarını daha da hiddətləndirmişdir.

Azərbaycan və erməni əhalisinin daimi yaşayış yerlərindən kütləvi surətdə qovulması insan ölümü və xəsarətlərlə, adamların yaşadıqları evlərindən və mənzillərindən, əmlaklarından, şəxsi mal-qarasından, həyətyanı sahələrindən məhrum edilməsi ilə müşayiət olunurdu ki, bu da böyük iqtisadi və mənəvi sarsıntılarla nəticələnirdi.

Ermənistan SSR tərəfindən Azərbaycan SSR-in sərhəd kəndlərinə və yaşayış məntəqələrinə quldur, ekstremist birləşmələrinin silahlı basqınları başlanmış və bu gün də davam etməkdədir. Nəticədə qanlar axıdılır, əhali arasında həlak olanlar var, kəndlər və evlər partladılır, yandırılır, mal-qara oğurlanır, digər acınacaqlı hadisələr baş verir.

Ermənistan SSR tərəfindən vaxtaşırı edilən silahlı quldur basqınlarına Naxçıvan Muxtar Respublikasının sərhədyanı yaşayış məntəqələri də məruz qalır. 1990-cı ilin yanvar-mart aylarındakı quldur basqınları nəticəsində sovet silahlı qüvvələri hissələrinin köməyi və səhlənkarlığından istifadə edən erməni quldur birləşmələri Şərur rayonunun Kərki kəndini işğal etmişlər.

Bütün bunlar Azərbaycanda mənəvi-psixoloji vəziyyəti daha da kəskinləşdirmiş, xalqın dərin qəzəbinə və narazılığına səbəb olmuşdur. Azərbaycanın dövlət suverenliyinin və ərazi bütövlüyünün müdafiəsi uğrunda, Ermənistan SSR-in qəsbkarlıq əməllərinə qarşı xalq kütlələrinin aşağıdan etiraz hərəkatı başlanmışdır. Bakıda, respublikanın bir çox şəhər və rayonlarında çoxminli mitinqlər və nümayişlər keçirilmişdir. Təəssüflər olsun ki, Azərbaycanın partiya-dövlət rəhbərliyi respublikanın ərazi bütövlüyünün təmin edilməsində və DQMV-də vəziyyətin normal hala salınmasında bacarıqsızlıq göstərmiş, xalqla dialoqa girməmiş, əksinə vətənpərvərlik hissi ilə çıxış edənləri ekstremizmdə, milli ədavəti qızışdırmaqda və digər hərəkətlərdə əsassız olaraq günahlandırmış, hətta repressiya tədbirlərinə belə əl atmışdır. İki ilə yaxındır ki, respublikanın paytaxtı Bakı şəhəri fövqəladə vəziyyət, komendant saatı şəraitində yaşayır və işləyir. Bununla da, həmvətənlərimizin hüquq və azadlıqları tapdanır, vəziyyət sağlamlaşmaq əvəzinə daha da mürəkkəbləşir. Çoxlu insan qırğınına səbəb olan 1990-cı ilin Qanlı Yanvar hadisələri Azərbaycan xalqı üçün böyük faciəyə çevrilmişdir.

Dağlıq Qarabağ Muxtar Vilayəti probleminin əmələ gəlməsindən artıq üç il keçmişdir. Ancaq orada vəziyyət heç də normallaşmamışdır. Ermənistan SSR tərəfindən edilən basqınçılıq əməlləri azalmamış, əksinə, güclənmişdir. Ermənistandakı üzdəniraq Qarabağ hərəkatı görünməmiş geniş miqyas almış, mahiyyətcə yüksək partiya, dövlət siyasətinin başlıca məsələsinə çevrilmişdir.

Dağlıq Qarabağ haqqında məsələ son illər dəfələrlə Ermənistan SSR Ali Sovetinin sessiyalarında, Ermənistan KP-nin qurultayında və MK-nın plenumlarında müzakirə edilmişdir. Ermənistanın rəhbərləri Azərbaycanın daxili işlərinə kobudcasına müdaxilə etmələrini utanmadan nümayiş etdirirlər.

Erməni hərbi silahlı birləşmələrinin liderlərinin elan etdiyinə görə son illərdə Ermənistanda ümumi sayı 140-160 minə çatan qeyri-qanuni silahlı hərbi birləşmələr yaradılmışdır. SSRİ prezidentinin qanunsuz hərbi birləşmələrin buraxılması və əhalidən silahların geri alınması haqqında fərmanı Ermənistanda yerinə yetirilməmişdir. Beləliklə, qonşu Ermənistan Respublikasında Azərbaycana qarşı yönəl-

dilmiş və Azərbaycan xalqı üçün böyük təhlükə törədən qanunsuz hərbi potensial yaradılmışdır.

Ali Məclisin sessiyası hesab edir ki, son illər Azərbaycanda yaranmış mürəkkəb siyasi vəziyyətin, regional ardı-arası kəsilməyən millətlərarası nifaqın mənbəyi Ermənistanın Azərbaycana qarşı işğalçılıq niyyətləridir və DQMV-də vəziyyətin normallaşdırılması üçün qəti səmərəli tədbirlərin həyata keçirilməməsidir. Bununla əlaqədar, SSRİ Ali Sovetinin qərarı ilə yaradılan DQMV-in Xüsusi İdarə Komitəsinin çirkin mövqeyi qeyd edilməlidir. Komitənin fəaliyyəti dövründə Dağlıq Qarabağda vəziyyət nəinki yaxşılaşmış, əksinə daha da pisləşmişdir. Komitənin rəhbərləri, ilk növbədə, onun sədri A. Volski erməni millətçilərinə himayədarlıq etmiş, ermənipərəst mövqe tutmuş, Stepanakert şəhərindən azərbaycanlıların qovulmasına şərait yaratmışlar. DQMV-də vəziyyətin qeyri-sabitliyinin təşəbbüskarları və təşkilatçılarından olan Z. Balayan, Q. Poqosyan və başqaları kimi qatı millətçilər məhz Xüsusi İdarə Komitəsinin idarəçiliyi dövrundə Azərbaycan SSR-in DQMV-dən SSRİ xalq deputatları seçilmişlər. A. Volski özü də Azərbaycan SSRİ-dən xalq deputatı olmasına baxmayaraq, respublikaya, xüsusilə DQMV-də vəziyyətin normallaşdırılmasına heç bir köməklik etməmişdir.

Bir ildən artıq fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan SSR-in DQMV üzrə Təşkilat Komitəsinin işinin də heç bir əməli nəticəsi yoxdur. Dağlıq Qarabağda vəziyyət əvvəlki kimi gərgin olaraq qalmaqdadır. Ekstremist, quldur dəstələri yenə də fəaliyyətdədir, millətlərarası münaqişə ləğv edilməyib, respublika Təşkilat Komitəsinin etinasızlığı nəticəsində Dağlıq Qarabağ Muxtar Vilayətindən Ermənistan SSR Ali Sovetinə seçkilər keçirilmişdir. Seçilən deputatlar isə Ermənistan parlamentinin işində fəal iştirak edir, DQMV-ni Ermənistan SSR-ə birləşdirməyə çalışırlar. Dağlıq Qarabağ Muxtar Vilayətində Azərbaycan SSR Ali Sovetinə seçkilərin keçirilməsi üçün Respublika Təşkilat Komitəsinin bu günədək tədbir görməməsi təəccüb doğurur.

Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti hüquqi cəhətdən Azərbaycanın tərkibində olmasına baxmayaraq, faktiki olaraq uzun müddətdir ki, Azərbaycanın dövlət idarəçiliyinə tabe olmur və Ermənistanla geniş siyasi-iqtisadi və mənəvi əlaqələr həyata keçirir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR-in Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış qeyri-normal vəziyyətlə əlaqədar öz ciddi narahatlığını bildirir. Bu inzibati qurumlar Azərbaycan SSR Konstitusiyasını kobud şəkildə pozaraq xeyli vaxtdır ki, Azərbaycanın partiya və dövlət orqanlarının tabeçiliyindən çıxmış, əslində isə muxtar özünüidarəni həyata keçirərək Ermənistan SSR-lə sıx əlaqə saxlayırlar. Şaumyan rayonunda da Azərbaycan SSR Ali Sovetinə seçkilər keçirilməmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası böyük narahatlıqla qeyd edir ki, Azərbaycan SSR-in dövlət suverenliyi və ərazi bütövlüyü pozulmuşdur. Bu vəziyyət uzun müddətdir ki, davam edir. Lakin Azərbaycanın partiya və dövlət rəhbərliyi tərəfindən respublikanın Konstitusiya hüquqlarının müdafiəsi, onun bütün ərazisində tam dövlət suverenliyinin təmin edilməsi üçün qəti tədbirlərin həyata keçirilməməsi təəccüb doğurur.

Belə bir şəraitdə Azərbaycan SSR Ali Soveti lazımi məsuliyyət göstərməmiş, DQMV-də, Şaumyan rayonunda, Xanlar rayonunun Çaykənd kəndində baş verən proseslərin dərindən öyrənilməsində öz hüquq və səlahiyyətlərindən istifadə etməmiş və zəruri tədbirlər görməmişdir. Azərbaycanın taleyi üçün əhəmiyyətli olan bu məsələlər respublika Ali Sovetinin fəaliyyətində öz lazımi yerini tapmamış, onun sessiyalarında əsaslı müzakirə mövzusuna çevrilməmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi, tarixən Azərbaycan torpağıdır.

DQMV-də yaranmış və üç il ərzində davam edən vəziyyət vilayətin ayrı-ayrı millətçi, ekstremist dairələrinin, Ermənistanın rəsmi partiya və dövlət rəhbərliyinin SSRİ Konstitusiyasını, Azərbaycan SSR Konstitusiyasını kobud şəkildə pozması Ermənistanın Azərbaycan SSR-in daxili işlərinə qarışması ilə əlaqədardır.

Dağlıq Qarabağ Muxtar Vilayətində baş verən Konstitusiyaya zidd qeyri-hüquqi hərəkətlər pislənilsin, Ermənistan Azərbaycana qarşı bütün ərazi iddialarından əl çəksin.

2. Qeyd edilsin ki, Azərbaycanın partiya və dövlət rəhbərliyi Dağlıq Qarabağ Muxtar Vilayətində əmələ gələn vəziyyətin qiymətləndirilməsinə, onun normallaşdırılmasına yönəldilən tədbirlərin müəyyənləşdirilməsində kobud səhvlərə və yanlışlıqlara yol vermiş, Azərbaycan SSR-in dövlət suverenliyi və ərazi bütövlüyünü, Azərbaycan xalqının şərəf və ləyaqətini müdafiə etməmiş, qətiyyətsizlik göstərmişdir.

Dağlıq Qarabağ Muxtar Vilayətindəki vəziyyətin ittifaq orqanlarında müzakirəsi zamanı və Ermənistan SSR-ə münasibətlərdə barışdırıcılıq və prinsipsizlik göstərən Azərbaycan KP MK-nın, Azərbaycan SSRİ Ali Soveti Rəyasət Heyətinin rəhbərliyinin mövqeyi pislənilsin. Qeyd edilsin ki, belə mövqe Azərbaycanın milli mənafeyinə ciddi ziyan vurmuşdur.

Respublikanın Ali Qanunvericilik orqanının - Azərbaycan SSR Ali Sovetinin icazəsi olmadan SSR Ali Soveti Rəyasət Heyətinin DQMV Xüsusi İdarə Komitəsinin yaradılmasına razılıq vermiş Azərbaycan rəhbərlərinin hərəkəti pislənilsin.

DQMV-in Xüsusi İdarə Komitəsinin yaradılması Azərbaycanın dövlət suverenliyini pozan qeyri-qanuni, Konstitusiyaya zidd akt hesab edilsin, bu, Konstitusiya praktikası tarixində görünməmiş akt kimi pislənilsin.

Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, son üç il ərzində DQMV-də baş verən bütün prosesləri təhqiq etmək, Azərbaycan SSR-in dövlət suverenliyini pozan səbəbləri və günahkarları aşkar etmək üçün xüsusi komissiya yaratsın. Komissiyanın işinin nəticələrinə Azərbaycan SSR Ali Sovetinin sessiyasında baxılsın.

Azərbaycan SSR Ali Sovetindən xahiş olunsun ki, Dağlıq Qarabağ Muxtar Vilayətində yaranmış vəziyyət və respublikanın bütün ərazisində dövlət suverenliyini təmin edən tədbirlər haqqında məsələni birinci sessiyanın müzakirəsinə çıxarsın. Bu məsələ ilə əlaqədar olaraq Azərbaycan SSR-in DQMV üzrə respublika Təşkilat Komitəsinin hesabatı dinlənilsin.

3. Qeyd edilsin ki, SSRİ Ali Soveti, SSRİ prezidenti Dağlıq Qarabağ məsələsində qeyri-obyektiv və birtərəfli mövqe tutur, bu məsələ ilə əlaqədar SSRİ Konstitusiyasının, Azərbaycan müttəfiq respublika-

sının Konstitusiya hüquqlarının tələblərinin yerinə yetirilməsini təmin etmirlər. SSRİ Ali Sovetindən, SSRİ prezidentindən tələb edilsin ki, öz hüquq və səlahiyyətlərindən istifadə edərək Ermənistan Respublikasının Azərbaycan SSR-in daxili işlərinə qarışmasına son qoysunlar. Ermənistanın Azərbaycana qarşı torpaq iddialarının qarşısını alsınlar, Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyətin normal hala salınması üçün Azərbaycanın qanuni orqanlarına sərbəst fəaliyyət göstərmələri üçün şərait yaratsınlar.

4. Azərbaycan SSR Ali Sovetindən xahiş olunsun ki, Şaumyan rayonunda, Çaykənd kəndində vəziyyəti normal hala salmaq üçün təxirəsalınmaz tədbirlər görsün, həmin inzibati ərazilərdə respublikanın hakimiyyət fəaliyyətinin bərqərar olmasını təmin etsin.

**A. CƏLİLOV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin sədri**

*Naxçıvan şəhəri, 14 dekabr 1990-cı il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SESSİYASININ STENOQRAMINDAN

*(24 noyabr 1990-cı il)*

**Deputat Heydər Əliyev:** Mən belə hesab edirəm ki, bu məsələnin (Naxçıvan MR Konstitusiyasına əlavə və dəyişikliklərin müzakirəsi zamanı toxunulan Dövlət dili məsələsi nəzərdə tutulur – **tərtibçi**) belə geniş müzakirə olunması mənfəətlidir. Qoy heç kəs fikirləşməsin ki, burada biz qəbahət edirik. Bu, müzakirə olunmalıdır. Və burada gedən fikir mübadiləsi hər bir adamda bu məsələyə daha geniş yanaşmağa imkan yaradır. Ona görə mən belə hesab edirəm ki, gələcəkdə də belə mühüm məsələlər geniş müzakirə şəraitində keçsə, biz çox nailiyyətlərə gəlib çıxa bilərik. Və ən nəhayət bu - türk dili məsələsi. Mən hesab edirəm ki, məsələnin qoyuluşu düzgündür. Və məsələni qoyan yoldaşlara irad tutmaq ədalətsiz olardı. Ancaq bu məsələni indi həll etmək istəyiriksə,

bu çətin olar. Burada çıxış edən deputatların bəziləri dedi ki, biz 38-ci ilə qədər türk olmuşuq, türk yazılmışıq. 38-ci ildə çoxunuz olmamısınız. Amma mən olmuşam. Özü də o vaxt milliyyətim də, yadımdadır - burada o vaxt pedaqoji texnikumda oxuyurdum, türk yazılmışdı. 38-ci ildən sonra biz olduq azərbaycanlı.

Ancaq bir şeyi də tarixlə maraqlanan yoldaşlar bilməlidirlər ki, təəssüf ki, elə bizim əsrin lap birinci onilliklərini götürsək, o vaxtın ədəbiyyatlarına, tarixi məqalələrə baxsaq, bizim çox məşhur adamlarımız bizim millətə türk deməyiblər, müsəlmanlar deyiblər. Müsəlman milləti yoxdur axı. Elə götürün N. Nərimanovun 22-ci illərdə olan yazılarına baxın. Orada müsəlman deyir bizə. O deyir: - ruslar, ermənilər, müsəlmanlar. Yaxud da ki, inqilabdan qabaqkı yazılara baxın - müsəlman deyirlər. Bunu niyə çatdırmaq istəyirəm. Bizim ümumi bədbəxtliyimiz ondan ibarətdir ki, bizim bu millətin adı uzun müddət tam müəyyən olunmayıb. Məsələn, Lenin əsərlərində “Qafqaz tatarları” işlədir, yaxud da bəzi yerlərdə “tatarlar” yazır. Əgər o vaxtlar biz özümüzün milliyyətimiz barədə türk yazsaydıq, elə türk deyəcəkdilər də. Bəs, nə üçün belə yazmırlar? Çünki biz özümüz-özümüzü qarışdırmışıq.

Ancaq bunlara baxmayaraq, mən də hesab edirəm ki, biz türkük. Mən öz fikrimi demək istəyirəm. Ancaq indi gətirib biz tələm-tələsik bu Konstitusiyaya dəyişiklikdə yazaq ki, Naxçıvan Muxtar Respublikasının dövlət dili türk dilidir, bu, mənə elə gəlir ki, tələsiklik olar. Gəlin bunu bir də etiraf edək ki, milli dirçəliş, milli ənənələrin bərpa olunması, milli inkişaf sahəsində bu günlərdə çox mühüm qərarlar qəbul etmişik. Gəlin bir az səbir edək ki, bizim bu qərarlar həzm olunsun.

Bu gün Litvadan gələn müxbirlərdən birinci onu soruşdum ki, nə üçün bura gəlibsiniz. Deyir, gəldik, bir gün Bakıda olduq, sonra Naxçıvana gəldik. Deyirəm nə üçün bura gəlmisiniz, məndən nə istəyirsiniz, nə olub ki? Cavab verir ki, bilirsiniz, indi Azərbaycanda ən böyük dəyişikliklər Naxçıvanda gedir. Bunu biz eşitmişik, ona görə də Naxçıvana gəlmişik.

Demək istəyirəm ki, biz onsuz da böyük dəyişikliklər eləmişik. İndi gəlin çalışaq ki, bu, Azərbaycanda həzm olunsun. Tələsməyək. İkinci tərəfdən biz muxtar respublikanın adını dəyişdirə bilərdik - “Naxçı-

van Muxtar Respublikası" etdik. Ali Məclisin adını dəyişdirdik. Naxçıvan Muxtar Respublikasının bayrağını da qəbul etdik. Amma bu dil bizim bütöv, ümumi dildir, bütün Azərbaycana aiddir. Biz burada gərək separat hərəkət eləməyək.

Ona görə mən belə hesab edirəm ki, müzakirələr tamamilə əhəmiyyətli hesab edilsin. Ancaq burada olan maddə elə belə də qalsın. Gələcəkdə bunu həll edəcəyik.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN 29 NOYABR 1990-CI İL TARİXLİ SESSİYASININ STENOQRAMINDAN

**Xalq deputatı Heydər Əliyev:** Bu məsələ (Sədərək rayonunun təşkili məsələsi – **tərtibçi**) qalxanda Nazirlər Soveti sədrinin verdiyi məlumat şəxsən məni deputat kimi qane etmədi. Mən indiyə qədər də bu fikirlə razılaşa bilmirəm ki, 3 ay bundan öncə qəbul olunmuş qərar, özü də bizim ərazimizin belə bir strateji əhəmiyyətə malik olan hissəsi haqqında qəbul edilmiş qərar indi nəsə Maliyyə Nazirliyinin, yaxud da ki başqa bürokratların, demokratların, mən bunu tam əsasla deyirəm - səhlənkarlığı nəticəsində, yaxud da ki bu işi həll etməmək nəticəsində indiyə qədər ləngiyib. Bu bizim hakimiyyəti də hörmətdən salır, xalqda inamsızlıq əmələ gətirir. Mən o gün dedim - burada belə bir fikir əmələ gəlir ki, xalqı aldadıblar. Burada söz verilir, əməl olunmur. Ona görə də indi Afiyəddin deyir ki, 2-3 günə həll olunacaq, amma mən yoldaş Mir İsmayılın məruzəsindən belə başa düşdüm ki, ola bilər yenə də bizim başımızı aldatsınlar. Mən Sədərəkdən çıxış edən deputatın fikri ilə tam razıyam ki, sessiyanın adından Azərbaycan Respublikasının rəhbər orqanlarına qəti teleqram vurmaq lazımdır. 2-3 günə bu məsələyə baxıb rayonu təşkil etsinlər. Rayonun təşkil olunması, ərazi bölgüsü ilə yanaşı olaraq, eyni zamanda orada bizim hakimiyyətin möhkəmləndirilməsi də böyük əhəmiyyət kəsb edir. Ona görə də mən qorxuram, bax yenə də vədlər verilir. Maliyyə naziri kimdir ki, bu məsələni indiyə qədər həll edə bilməsin. Nə üçün bu böyük bir məsələni, respublikanın rəhbərliyi

səviyyəsində qəbul olunmuş, elan olunmuş məsələni Maliyyə Nazirliyi indiyə qədər həll edə bilmir? Mən hesab edirəm ki, sessiyanın adından bu barədə müraciət etmək lazımdır.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN 29 NOYABR 1990-CI İL TARİXLİ SESSİYASININ STENOQRAMINDAN

**Deputat Heydər Əliyev:** Hörmətli deputat yoldaşlar! Mən bir-iki əməli təkliflər vermək istəyirəm. Bəlkə, mənim bu təkliflərim yerinə yetirilər. Məncə, belə bir göstəriş və qərarın yerinə yetirilməsi pis olmaz. Biz Naxçıvan Muxtar Respublikasının adını dəyişdik, yeni bayraq qəbul etdik. Mən belə hesab edirəm ki, Naxçıvan Muxtar Respublikasının ərazisində olan bütün dövlət idarələrinin blankları, möhürləri dəyişilməlidir. Əgər bu iş getmirsə, mənə belə gəlir ki, bu məsələni bu günlərdə qoymaq lazımdır və imkan vermək lazımdır ki, qısa müddətdə möhürlər dəyişilsin, blanklar dəyişilsin. Biz, məsələn, respublikanın adını dəyişmişik, ali hakimiyyət orqanının adını dəyişmişik, amma şəhərdə olan lövhələr, möhürlər, blanklar hamısı köhnədir. Ona görə də bunu təxirə salmaq olmaz, bunu etmək lazımdır. Mənim birinci təklifim bundan ibarətdir.

İkinci, biz yeni bayraq qəbul etmişik. Demək, bütün rəsmi yerlərdə bu bayraqlar olmalıdır. Bu bayraqların istehsal olunub satılması təşkil olunub, yoxsa yox? Əgər olunmayıbsa, onda yəqin ki, bizim Nazirlər Soveti təşkil etməlidir.

Sonra mənim bir məsləhətim var. Yenə də qayıdıram, respublikanın adı dəyişilib, Ali Məclisin adı dəyişilib. Mənə belə gəlir yaxşı olar ki, indi müəyyən yoldaşlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları üçün yeni nişanlar hazırlasınlar. Bu nişanların, deputat vəsiqələrinin hazırlanması vaxt tələb edir. İndi bu nişanı da, yəqin ki, ola bilərdi ki, bunun layihəsini bir neçə nəfər hazırlayaydı. Bəli, elə bizim bu iclasda baxılardı, qəbul olunardı. Siz məni başa düşün, SSRİ bayrağı da bayraqdır, Azərbaycan bayrağı da bayraqdır. Amma onun axı rəs-

mi forması var, o hansı ölçüdə olmalıdır, aşağısı nə cür, qıraqları nə cür olmalıdır. Bu axı adi məsələ deyil ki, elə sən götürüb o bayrağa köçürdəsən. Əlbəttə ki, bu bayraq dəqiq ölçülü olmalıdır. Ona görə də mən bu təklifi verirəm.

Sonra mənim bir təklifim də var. Bu gün burada deputatlardan biri bizə xəbər verdi ki, Gürcüstanda Dmanisi rayonunda qəza baş verib, 20 nəfərə qədər azərbaycanlı həlak olub. Biz onların xatirəsini qeyd etdik. Ancaq yaxşı olardı ki, bizim Ali Məclisin adından teleqram getsin, hazırlanıbmı?

**Ali Məclisin sədri A. Cəlilov:** Hazırlanıb.

**Heydər Əliyev:** Onda yaxşı olardı ki, teleqram getsin. Kimin adına gedəcəkdir?

**A. Cəlilov:** Rayon İcraiyyə Komitəsinə.

**Heydər Əliyev:** Bəlkə, elə Gürcüstan Ali Sovetinə də göndərilsin. Çünki Ali hakimiyyət orqanıdır. Onlar da hiss etsin ki, Gürcüstan Ali Soveti də hiss etsin ki, biz öz azərbaycanlı qardaşlarımızın haqqında düşünürük. Orda da azərbaycanlıları mənəvi cəhətdən biz müdafiə etməliyik. Mənə belə gəlir ki, bu, o ünvana da getməlidir.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN B Ə Y A N A T I

### Azərbaycan SSR informasiya və təbliğat vasitələrinin (Azərinformun) rəhbərlərinə və "Turan" İnformasiya Agentliyinə

Naxçıvan Muxtar Respublikasının on minlərlə sakini, əmək adamları və əmək kollektivləri bu günlərdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə müraciət etmişlər.

Həmin müraciətdə onlar deputat Heydər Əliyevin Ali Məclisin Rəyasət Heyətini tərk etməsi ilə əlaqədar "Turan" İnformasiya Agentliyinin, "Aydınlıq" qəzetinin keçənilki 28 dekabr tarixli nömrəsində və "Ədalət" qəzetinin bu il 3 yanvar tarixli birinci nömrəsində verilmiş məlumatdan hiddətləndiklərini bildirmişlər.

Agentliyin həmin məlumatında bildirilirdi ki, guya Heydər Əliyev deputatların tələbi ilə sessiyanın rəyasət heyətini tərk etməyə məcbur olmuşdur. Əsl həqiqətdə isə xalqımızın sevimli oğlu Heydər Əliyev bütün deputatların tərkibinə, etiraz etmələrinə baxmayaraq öz təşəbbüsü ilə zala keçmiş və deputatların sırasında əyləşmişdir. Ali Məclisin sessiyasının iclasları Naxçıvan televiziya və radiosu ilə translyasiya olunduğundan muxtar respublikanın bütün sakinləri onun işini izləyə bilirlər və təbii ki, həmin hadisənin də şahidi olmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi ümumən respublikamız üçün ağır olan bu günlərdə öz işini müvəffəqiyyətlə davam etdirir.

Məlum olduğu kimi, sessiyada olduqca mühüm, tarixi əhəmiyyətli bir sıra qərarlar qəbul olunmuşdur. Lakin kimlərinsə mahir əli respublika ictimaiyyətinə sessiyanın gedişi və qəbul etdiyi qərarlar barəsində ətraflı, doğru və düzgün məlumat verilməsinə mane olur. Bir çox hallarda isə adamlarda yanlış təsəvvür yaradan, həqiqətdə isə gerçəkliyi və faktları təhrif edən xəbərlər yayılır. Görünür "Turan" İnformasiya Agentliyinin yuxarıda adıçəkilən məlumatının dərc olunmasında da bu məqsəd güdülmüşdür.

Biz - muxtar respublikanın xalq deputatları bu cür qərəzli məlumat yayılmasını təkcə Heydər Əliyevə yox, bütövlükdə Ali Məclisimizə hörmətsizlik kimi qiymətləndirir, bunda təqsirkar olanların Ali Məclisdən rəsmi surətdə üzr istəməsini, cəzalandırılmasını və məlumatın rəsmən təkzib olunmasını tələb edirik.

**Bəyanat Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən yekdilliklə qəbul olunmuşdur.**

*Naxçıvan şəhəri, 12 yanvar 1991-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 14 yanvar 1991-ci il tarixli sessiyasında deputat HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisində mətbuatda dərc olunmuş yeni ittifaq müqaviləsi layihəsinin müzakirə olunması tamamilə əsaslıdır və məqsədəuyğundur. Çünki bu, tarixi əhəmiyyət kəsb edən bir mərhələdir. Sovetlər İttifaqında olan bütün millətlərin gələcəyi, onların aqibəti, o cümlədən Azərbaycan xalqının bundan sonrakı inkişaf yolu, onun gələcək həyatı, aqibəti bax bu müqavilə ilə əlaqədardır. Ona görə də biz mütləq bu məsələyə öz fikrimizi bildirməliyik. Hesab edirəm ki, bugünkü geniş, ətraflı müzakirə çox faydalıdır və Naxçıvan əhalisi öz Ali Məclisinin fikrini bilməlidir. Hesab edirəm ki, deputatlar da bu məsələ barədə öz məsuliyyətlərini hiss edərək çıxış edəcəklər. Mən də bu məsələ barədə bir neçə kəlmə demək istəyirəm.

Hesab edirəm ki, dərc olunmuş İttifaq müqaviləsinin layihəsi ümumittifaq siyasi rəhbərliyi tərəfindən və xüsusən Qorbaçov tərəfindən bütün sovet xalqını yenidən aldatmaq cəhdinin bir təzahürüdür. Qətiyyətlə demək olar ki, son 5 ildə SSRİ-nin siyasi rəhbərliyi, xüsusən Qorbaçov cürbəcür tədbirləri ilə, bəyanatları ilə, çıxışları ilə sovet xalqını aldadır və bunların nəticəsində ölkə indi böyük siyasi, iqtisadi, ictimai böhran dövrü keçirir və bizim ölkədə yaşayan xalqlar artıq çox ağır bir vəziyyətə gəlib çatıblar.

Biz 1917-ci ildən indiyədək olan tariximizə nəzər salaraq bu tarixin böyük səhvlərini, çətinliklərini qeyd edirik və qeyd etməyə haqqımız var. Ancaq etiraf etməliyik ki, heç vaxt Sovet ölkəsində yaşayan xalqlar indiki kimi ağır iqtisadi və mənəvi əzaba düçar olmamışdılar.

Əgər belə böyük bir dövlət, dünənə qədər dünyada iki böyük dövlətlərdən biri olan bu dövlət dilənçi vəziyyətinə düşübsə, əgər biz Danimarka, Hollandiya, Belçika, Avstriya kimi kiçik dövlətlərin köməyinə məruz qalmışıqsa, onların Sovetlər Birliyi xalqlarını dilənçi vəziy-

yətdən çıxarmaq üçün bir neçə milyon vermələrini böyük bəxşiş hesab ediriksə, görün biz nə qədər ağır vəziyyətdəyik və təəssüf ki, xalqı, ölkəni bu ağır vəziyyətə gətirib salmış adamlar indiyədək özlərini qəhrəman hesab edir, bütün günahları keçmiş dövrə - başqalarının üstünə yıxmaq istəyirlər.

Onu da bilmək lazımdır ki, gələn yardımlar nədir? Mən özümü vətəndaş kimi təhqir olunmuş hesab edirəm ki, Qərb ölkələrində cürbəcür köhnəlmiş, işlənmiş paltarları yığıb göndərirlər Sovetlər İttifaqına ki, bizə kömək etsinlər. Dəhşətli haldır ki, gələn köməyi bölüşdürmək üçün böyük bir komissiya yaranıb. Mən dünən televiziyaya baxıram, komissiyanın sədri deyir ki, köməyi necə bölüşdürürük - uşaq evlərinə, xəstələrə veririk... Demək, bu köməkdən də başqalarına bir şey çatmayacaqdır. Görün nə vəziyyətə gəlib çıxmışıq bu siyasi rəhbərliyin, bu dövlətin xətti-hərəkəti nəticəsində. Bunların hamısını açıq demək lazımdır. Və bəzən bizim deputatların belə vəziyyətə düzgün qiymət verə bilməməsi, açıq sözdən qaçması, ümumiyyətlə – “dünya dağılır dağılsın, millət qırılsın, mənə nə” – düşüncəsi, bunlar, yoldaşlar, dəhşətli bəladır. Çox dəhşətli bəladır. Mən indi fikirləşirəm və ürəyim ağrıyır, dəhşətə gəlirəm və belə vəziyyətə dözə bilmirəm.

Mən öz sözlərimi açıq demək istəyirəm.

Konkret layihə haqqında onu deyə bilərəm ki, bu tamamilə bizim xalq üçün və hesab edirəm ki, İttifaqın başqa xalqları üçün heç də münasib bir sənəd deyil, biz bununla razı ola bilmərik. Bu bizi ələ salmaqdır, yoldaşlar, bizi aldatmaqdır. Burada Nemət Kazımov yoldaş, mənə belə gəlir ki, çox düz fikir söylədi ki, bu layihəni hazırlayan komissiyanı da günahlandırmaq lazımdır. Təəssüf ki, bu layihənin hazırlanmasında bütün müttəfiq respublikaların nümayəndələri iştirak ediblər. Respublikaların təklifləri nə qədər qəbul olunub-olunmayıb, onu mən deyə bilmərəm, ancaq layihənin hazırlanmasında bütün müttəfiq respublikalar iştirak ediblər. Daha sonra bu layihə dərc olunmazdan əvvəl Qorbaçov tərəfindən SSRİ Ali Sovetinin sessiyasına təqdim olunmuşdu. Təəssüf ki, Azərbaycan Ali Sovetinin sədri çıxış edib bu layihəni müdafiə etdi. Bu da bizə məlumdur. Mətbuatdan məlumdur, televiziya ilə eşitdik. Demək, Azərbaycan xalqının xəbəri olmadan bəzi

adamlar bu layihənin hazırlanmasında iştirak ediblər. Fikrimcə, belə bir layihə hazırlanmazdan əvvəl onun əsas prinsipləri gərək müttəfiq respublikalarda müzakirə olunaydı, müttəfiq respublikaların Ali hakimiyyət orqanları öz fikirlərini söyləyəydi, bundan sonra, məhz bundan sonra müttəfiq respublikaların nümayəndələri bu layihənin hazırlanmasında iştirak edə bilərdilər. Bu demokratik prinsiplər layihənin hazırlanmasında da pozulmuşdur.

O ki, qaldı layihənin, ümumiyyətlə, mahiyyətinə, bilirsiniz, burada, bizim respublikada ziddiyyətli fikirlər çoxdur. O cümlədən buradakı çıxışlarda da. Əgər bizim respublikamız həqiqətən milli dirçəliş yoluna çıxıbsa və bu yolla getmək istəyirsə, onda hansı ittifaq birliyindən söhbət gedə bilər? Burada təyin etmək lazımdır, bizim respublika hansı yolla gedəcəkdir?

Bir tərəfdən Azərbaycanın bəzi rəsmi dairələri öz hərəkətləri ilə göstərirlər ki, biz milli dövlət dirçəlişi yoluna düşürük. Bu yolla getmək istəyirik. Belə olan halda necə ola bilər ki, əgər biz milli dövlət dirçəlişini təmin etmək istəyiriksə, özümüzü gətirib hansısa bir ittifaqda bağlayaq? Burada məntiq yoxdur.

Mənə belə gəlir ki, bu prinsipial məsələlərə münasibət göstərmədən layihə barədə heç bir fikir söyləmək olmaz. Mən layihəni təhlil etmək, onun ayrı-ayrı maddələri barədə fikir söyləmək istəməzdim. Çünki mən, ümumiyyətlə, bu layihənin yaramazlığını, bizim üçün qəbul edilməzliyini bildirirəm, ona görə də bunu təhlil etmək istəmirəm. Ancaq bir-iki kəlmə demək istəyirəm ki, layihədə xalqı necə aldatmaq istəyirlər. Bir tərəfdən layihədə belə elan olunur ki, guya ittifaq suveren respublikalar ittifaqıdır, ikinci tərəfdən respublikaların suverenliyi tamamilə məhduddur və yaxud yoxdur. Hansı suverenlikdən danışmaq olar ki, Azərbaycan iqtisadiyyatının böyük bir hissəsi ittifaq tabeliyində olacaqdır, ümumittifaqın sərəncamındadır, ona mənsubdur?

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycanın suverenliyi haqqında qanun qəbul edibdir. Düzdür, bu hələ tam qanun deyil, ancaq bir addım atılıbdır. Əgər bu Qanunu əsas götürsək, siyasi suverenlikdən danışmadan iqtisadi suverenlikdən danışsaq, demək Azərbaycan Respublikasının ərazisində olan bütün iqtisadi potensialın hamısı Azərbay-

can xalqının milli sərvətidir. Əgər bunlar milli sərvətdirsə, ümumittifaqın nə ixtiyarı var ki, Azərbaycan Respublikasının ixtiyarında olan sərvəti öz sərəncamına keçirtsin? Demək, burada tam ziddiyyət meydana çıxır. Demək, bizi aldadırlar. O ki, qaldı siyasi suverenliyə, respublikaların bu layihədə siyasi suverenliyi göstərilmir, hamısı ümumi sözlərdir, ümumi bəyanatlardır, bir sözlə, adam aldatmaqdır.

Sonra, əgər doğrudan da bu layihə suveren respublikaların ittifaqını təmin etmək istəyirsə, gərək respublikalar əvvəl suveren olsun, müstəqil dövlət olsun, ondan sonra ittifaqa girməyə öz rəylərini göstərsinlər. Ancaq bu, ittifaq çərçivəsində olaraq, sadəcə adı dəyişdirilir. Bu da yaramaz.

Bu baxımdan 1922-ci ildə bağlanmış müqavilə daha mütərəqqidir, daha demokratikdir, çünki 1922-ci ildə respublikalar müstəqil idi, müstəqil dövlət idi. O respublikaların rəhbərləri, deyək ki, xalqın rəyini ifadə edərək, 1922-ci ilin dekabrında səlahiyyət alıb, bu müqavilələrə qol çəkmişdilər. O vaxt müstəqil respublikalar birləşdilər. Ancaq indi müttəfiq respublikaların heç biri müstəqil deyil. Əgər biz müstəqil deyiliksə, necə olar ki, suveren respublikalar ittifaqına çevrilə bilək? Deməli, İttifaq dövlətinin adını dəyişməklə bizi aldadırlar, bununla da heç vaxt razı ola bilmərik.

Bir məsələni də qeyd etmək lazımdır. Mən bunu mühüm məsələ hesab edirəm. Həmişə Sovet Konstitusiyalarında yazılıb ki, müttəfiq respublikalar istəsələr bu ittifaqdan çıxa bilərlər. Pribaltika respublikaları ittifaqdan çıxmaq niyyətlərini bildirən kimi, onların qabağına çəpər çəkildi, ittifaqdan çıxmaq qanunu qəbul olundu. Bu qanuna görə ittifaqdan çıxmaq üçün gərək sən 5 il əziyyət çəkəsən. Bu, tamamilə demokratiyanın əleyhinə, ədalətin əleyhinə olan bir qanundur. Mən təəssüf edirəm ki, Azərbaycan Respublikasından olan SSRİ Ali Sovetinin deputatları belə bir qanunun qəbul olunmasına səs veriblər. Mən hesab edirəm ki, o deputatlar Azərbaycan xalqı qarşısında cavab verməlidirlər. Bu qanun müttəfiq respublikaları müstəmləkə vəziyyətində saxlamaq deməkdir.

Mənim xatirimdədir, Litva Respublikasının ittifaqdan çıxması geniş müzakirə olunan vaxt xarici qonaqlar Moskvaya gələndə Qorbaçovun

ətrafında olan yaltaq ziyalılardan biri Fransa nümayəndəsinə dedi ki, bəs siz Kaledoniyanın Fransanın tərkibindən çıxması üçün, 10, yaxud 12 il vaxt ayırmısınız. Nə üçün Litvanın, yaxud başqa müttəfiq respublikanın ittifaqın tərkibindən çıxması üçün 5 il müddət təyin etməyimizə etiraz edirsiniz? Elə bu sözün özündən məlum olur ki, müttəfiq respublikalar ittifaq hökumətinin Kaledoniya kimi müstəmləkəsidir. O adam bilməli idi ki, Kaledoniya uzun illər Fransanın müstəmləkəsi olub. Fransa müstəmləkəçi siyasət yeridən bir dövlət olubdur. Milli-azadlıq hərəkatına qoşulan xalqlar o müstəmləkəçilikdən xilas olublar, ancaq Kaledoniya indiyə qədər qalıbdır. Əgər bu vəziyyəti əsaslandırmaq üçün Fransa-Kaledoniya münasibətinə müraciət edilirsə, bu, artıq göstərir ki, biz də müstəmləkə vəziyyətindəyik, müstəmləkə vəziyyətində qalırıq. Ona görə də bu layihə, onun bu cür müddəaları bizim, şübhəsiz ki, hiddətimizi doğurur, narazılığımızı, etirazımızı bildirməyi tələb edir.

İndi bu ittifaq müqaviləsinin layihəsi Azərbaycanda da müzakirə olunur. Mən vaxtaşırı televiziyada - “Günün ekranı”ndakı verilişlərə baxıram, Azərbaycan mətbuatını oxuyuram. Bir sıra çıxışlarda bu müqavilənin bizim üçün münasib olmaması bildirilir, bəzi yoldaşlar müqavilənin ayrı-ayrı maddələrini tənqid edirlər - belə çıxır ki, bunlar düzəlsə, onu biz qəbul edə bilərik. Bir qism fikir söyləyənlər, o cümlədən rəsmi dairələr belə fikirdədirlər ki, guya ittifaq konfederasiya şəklində olsa, biz ona daxil ola bilərik. Bu fikirlərin hamısı səhvdir. Əgər bunlardan konfederasiyanı mütərəqqi hesab etsək, - mən belə hesab edirəm ki, indi bu barədə də söhbət gedə bilməz. Burada çıxış edən deputatlar tam əsaslı dedilər ki, konfederasiya yalnız o vaxt ola bilər ki, hər bir müttəfiq respublika tam müstəqil olsun və tam müstəqil dövlət kimi öz mənafelərinə nail olmaq üçün, öz hüquqlarını daha da müvəffəqiyyətlə həyata keçirmək üçün, öz dövlətini daha da sürətlə inkişaf etdirmək üçün başqa dövlətlərlə konfederasiya əlaqələrinə girə bilsin. Ona görə mən hesab edirəm ki, konfederasiya əlaqələri haqqında da heç söhbət ola bilməz.

Əgər başqa müttəfiq respublikalarda cürbəcür söhbətlər gedirsə, Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy göstərmək

xalqımız qarşısında cinayət etmək deməkdir. Çünki son 3 il ərzində Azərbaycan xalqı tam aşkar gördü ki, ümumittifaq hökuməti, SSRİ prezidenti - 22-ci il müqaviləsinə qol çəkən respublikalardan biri də Azərbaycandır - Azərbaycan xalqının başına bəla gələndə, onun suverenliyi pozulanda, onun ərazisini parçalamaq cəhdləri göstərildikdə Azərbaycanın Konstitusiya hüquqlarını qorumaq üçün, SSRİ Konstitusiyasının tələblərini Azərbaycanda həyata keçirmək üçün bir addım da atmamışdır. Belə ittifaqdan gələcəkdə biz nə gözləyə bilərik? Bizim bəzi deputatlar burada gah nala, gah mıxa vururlar - onlar nə düşünürlər? Nə fikirləşirlər? Bıçaq sümüyə dayanıb. Bundan artıq nə ola bilər? Bizim torpağımız əlimizdən getdi. Bizim respublikamıza təcavüz olundu. Qəsbkar respublika öz ordusunu silahlandırıb bizə hücum etməyə hazırlaşır. Böyük bir təhlükə yaranıbdır. Biz isə ümumittifaq dövlətinə yaltaqlanır, ona inam göstərmək istəyirik. Heç bir inam ola bilməz! Son 3 ildə başımıza gələnlər tam açıq göstərdi ki, bizim ümumittifaqdan nicatımız yoxdur.

Bir məsələ haqqında da öz fikrimi bildirmək istəyirəm. Burada bu məsələ qaldırıldı. Ancaq təəssüf ki, deputatların çoxunun çıxışında öz əksini tapmadı. Şübhəsiz ki, hər bir deputatın hər bir məsələ barəsində öz mövqeyi olmalıdır, ola da bilər. Ancaq gərək o öz mövqeyini bildirsin. Bilirsiniz, məsələnin üstündən sükutla keçmək – bu, mövqesizlikdir.

Yenə də xatirinizə salıram. Azərbaycanda milli dövlət dirçəlişi prosesi gedir. Bu prosesi həyata keçirərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi çox mühüm qərarlar qəbul edib, - Naxçıvan Muxtar Respublikasının Ali hakimiyyət orqanının adı dəyişilib, Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə qəbul olunmuş dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunubdur. Azərbaycan miqyasında da bəzi belə əlamətlərə rast gələ bilərik. Məsələn, 28 May günü - Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gün Azərbaycan Prezidentinin Fərmanı ilə istirahət günü elan olunubdur. Əgər bu günü biz özümüz üçün bayram günü kimi qəbul ediriksə və Azərbaycan Respublikasının Prezidenti bu haqda fərman verirsə, demək, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını böyük bir inqila-

bi hadisə kimi qəbul etməliyik. Ancaq təəssüf ki, bu barədə açıq fikir söylənilmir. Demək, məlum olmur, kim hansı mövqe tutur. Yaxud da, biz burada qərarlar qəbul edəndən sonra Azərbaycan KP MK təşəbbüsdə bulunub ki, Azərbaycan Respublikasının adı dəyişilsin və dövlət bayrağının təsis olunması üçün müsabiqə elan edib, ondan üç gün keçəndən sonra Azərbaycan Respublikasının Prezidenti fərman verib ki, Azərbaycan Respublikasının yeni üçrəngli bayrağı Ali Sovetdə qəbul olunsun. Ancaq bu bayraq kimin bayrağıdır, bunu biz yenidənmi icad edirik, yaxud Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağını bərpa edirik? Bu barədə fikir söylənilməlidir. Təəssüf ki, kimin hansı mövqedə olması məlum deyil.

Əgər 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının həyatında əlamətdar və tarixi bir hadisədirsə, biz bunu açıq deməliyik və bu Azərbaycan dövləti tərəfindən müəyyən qədər qanunilәşdirilməlidir. Əgər biz bunu qəbul ediriksə, 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsi pislənməlidir, qeyri-qanuni hal kimi qəbul olunmalıdır. Bəlkə, kimsə desin ki, yox, bu əsaslı olubdur. Bir sözlə, bu barədə mövqe tutmaq lazımdır. Gizlənmək olmaz. İndi hamımız açıq mövqedəyik. Gərək hərə öz mövqeyini bildirsin. Təəssüf ki, bu məsələ burada öz əksini tapmadı, ancaq bu məsələ bilavasitə müzakirə olunan yeni ittifaq layihəsi ilə əlaqədardır. Çünki 1918-ci il 28 may, 1920-ci il 27-28 aprel, 1922-ci il 30 dekabr və indiki dövr bir-biri ilə bağlı tarixi mərhələlərdir. Biz buna gərək öz fikrimizi deyək, Naxçıvan Ali Məclisi gərək öz fikrini söyləsin.

Mən belə hesab edirəm ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olduğu üçün burada bu barədə çox təfsilatlı, əsaslandırılmış qərar qəbul etməliyik və bu qərarı təxirə salmadan Azərbaycan Ali Sovetinə, SSRİ Ali Sovetinə göndərməliyik. Çünki biz bilmirik Azərbaycan Respublikasının rəhbərləri ayın 17-də keçirilən qurultayda xalqla məsləhətləşməmiş hansı mövqe tutacaqlar. Ancaq biz Azərbaycanın tərkib hissəsi kimi nə olur-olsun öz fikrimizi bildirməliyik. Əsaslandırmalıyıq, hansı səbəblərə görə bu layihəni qəbul etmirik və ittifaq müqaviləsinin bağlanmasının əleyhinəyik. Mənim şəxsi fikrim budur və onu da bildirdim.

## AĞSAQQAL TƏMKİNLİYİ... YAXUD MÜDRİKLİK İNSANA LƏYAQƏT GƏTİRƏR

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyası öz işinə fasilə vermişdir. Sessiyada respublikanı düşdüyü ağır və böhranlı vəziyyətdən qurtarmaq üçün yollar axtarışı davam etdirilmiş, Azərbaycan Respublikası Ali Sovetinin sədri və müavinləri, habelə daimi komissiyalarının tərkibləri seçilmişdir. "Azərbaycan SSR-in adında dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikasının dövlət bayrağı haqqında" qanunlar qəbul olunmuşdur. Bundan başqa, digər qanun və qərarlar da qəbul edilmişdir. Bütün bunlar Azərbaycan Respublikasının tam suverenliyi və müstəqilliyi yolunda atılan ilk addımlardır və xalqın ürəyindən xəbər verir.

Sessiyanın gedişinin respublika televiziyası ilə göstərilməsi milyonlarla adamın Azərbaycan parlamentinin fəaliyyəti haqqında geniş məlumat almasına şərait yaratmışdır. Lakin sessiyada bəzən xoşagəlməz hallara yol verilməsi, bəzi deputatların emosiyalara qapılıb etikanı gözləməməsi, başqasının sözünü kəsməsi onun ümumi dəyərinə müəyyən dərəcədə xələl gətirmişdir. Görünür, biz hələ demokratiya dərslərini təzə-təzə öyrənirik.

Sessiyada bəzi deputatların, xüsusən Daimi Etika Komissiyasının sədri, xalq yazıçısı Bayram Bayramovun çıxışı zəhmətkeşlər arasında razılıqla qarşılanmamışdır. Bunu redaksiyamıza vurulan telefon zəngləri, gələn teleqram və məktublar da göstərir. Onlardan ikisini və oxucuların marağını nəzərə alaraq Bəxtiyar Vahabzadənin Azərbaycan Respublikası Ali Sovetinin on ikinci çağırış birinci sessiyasındakı çıxışı əsasında hazırlanmış və "Respublika" qəzetinin 16 fevral 1991-ci il tarixli nömrəsində dərc olunmuş materialı təkrar dərc edirik.

## GEDƏNİN ARXASINCA...

Hörmətli millət vəkilləri! Mən dünən Qarabağ məsələsinin müzakirəsində burda olmamışam. Özümü pis hiss etdiyimə görə evə getmişdim. Lakin sessiyanın gedişinə əvvəldən axıra qədər televizorda bax-

dım və çox təəssüfləndim. İçində yaşadığımız cəmiyyətin qaydaları bizi elə şikəst eləyib ki, 70 illik tariximizdə vəzifədə olanın yaltağı, vəzifədən gedənin isə qənimi olmuşuq. Müqəddəs hisslər, insani duyğular unudulub. Elə buna görə də bu kökə düşmüşük.

Heydər Əliyev yoldaşın dünənki çıxışına mən diqqətlə qulaq asdım. O, bizi Qarabağ məsələsinin dərin təhlilinə çağırdı. O, bizə onu demək istəyirdi ki, Qarabağ məsələsində bu üçillik mübarizəmizdə bizim işlənmiş vahid konsepsiyamız olmamışdır. Məgər düz demirdi? Əliyev dedi ki, biz həmişə müdafiədə olmuşuq. Amma onu da bacarmamışıq. Nəhayət, o bizi hücuma çağırdı. Axı böyük sərkərdələrdən birinin dediyi kimi, ən böyük müdafiə – hücumdur.

Biz bu gün bu məsələləri müzakirə etmək əvəzinə, bu mühüm məsələni kənara qoyub, Əliyevdən keçmiş ədavətimizin intiqamını almağa çalışdıq. Mən Əliyevi müdafiə etmək fikrində deyiləm. Şübhəsiz, Əliyevin fəaliyyətində müəyyən qüsurlar olmuşdur. Lakin bu qüsurların bir çoxu zamanın qüsurları idi. Mən dünən televizora baxarkən xəcalət çəkdim. Mən dədələrimizdən bizə miras qalan əxlaq normalarının, insanlıq qaydalarının dağılmasına acıdım. Bəs harada qaldı ənənəmizdəki "basdığını kəsməmək" mərdanəliyi? İndi fikirləşirəm, görəsən biz niyə belə xırdalandıq. Mən dünən bütün gecəni yata bilməmişəm. Axı dədələrimiz belə namərdlik eləməzdi. Günahsız adama silah qaldırmaq əgər qəhrəmanlıq sayılırsa, vaxtilə qarşısında "bəli-bəli" dediyimiz adamı bu gün təhqir etmək də o qədər "qəhrəmanlıq" sayıla bilər. Beş dəqiqəlik təsəvvürünüzə gətirin, dünənki vəziyyətə düşmənlərimiz baxsaydı, bizim nankorluğumuza, dönüklüyümüzə qəhqəhə çəkib gülməzdimi? Beləliklə də, biz düşmənlərimizin dəyirmanına su tökdük.

Onu da unutmayaq ki, 1970-ci illərdən tam hazır olmalarına baxmayaraq, ermənilər Əliyev vəzifədən gedəndən sonra bizim başımıza bu oyunu aça bildilər. Əliyev sipər kimi onların qabağında dayanmışdı. Biz bu gün böyük həyat təcrübəsinə və siyasi diplomatik biliyə malik olan, bütün ömrü boyu siyasət qazanında qaynayıb bərkiyən bu vətən oğlunun ağlından, təcrübəsindən istifadə etmək əvəzinə Vətənin taleyinə tüpürüb şəxsi ambisiyamızı qabağa çəkdik. Ali Sovetin sessiyası, məgər, qisas almaq yeridir? Rəhmətlik Sabir nə qədər gözəl deyib:

Zəhmətsevər insanlarız
Üç-beş yaşımızdan,
Fitnə göyərib torpağımızdan, daşımızdan,
Zülm eləyib bac alırıq qardaşımızdan,
Çıxmaz, çıxa bilməz də bu adət başımızdan,
Əslafımıza çünki həqiqi xələfiz biz,
Öz qövmümüzün başına əngəl kələfiz biz.

Qarabağ məsələsinin müzakirəsinə şəxsi ədavət hissimizi qarışdırmaq mərd kişilərin nəvələri olan bizlərə yaraşardımı? Bu gün biz bütün qüvvələrimizi birləşdirib Qarabağ məsələsinin həllinə yönəltməli ikən, zirvədən enən adamdan intiqam və zirvədəkindən pay almaq üçün mikrofon qarşısında növbəyə durmuşuq. Budurmu bizim etikamız, əxlaqımız?

Mən bu səhnəni görərkən istər-istəməz vaxtilə Qambay Məmmədovun ifşa səhnəsi yadıma düşdü. Onda da dünən olduğu kimi kimlərəsə xoş gəlmək üçün mikrofon qarşısında növbəyə durmuşdular. Şübhə etmirəm ki, indi də Əliyevin üstünə düşənlərin yuxarıdan umacağı var. Doğrusu, mən gözləyirdim ki, hörmətli sədr qalxıb ağızları köpüklənə-köpüklənə danışan bu adamları yerində oturdacaq və müzakirənin istiqamətini mətləbə yönəldəcək. Təəssüf ki, belə olmadı. Bu gün Əliyevin üstünə kəkələnənlərə baxıb ləzzət alanlar unutmasınlar ki, sabah da bu gündən onlar üçün var. Niyə biz gördüklərimizdən nəticə çıxarmırıq? Gəlin unutmayaq ki, dünya fırlanır, yaz da, qış da təkrar olunur.

Qazaxıstanın birinci katibi Kunayevin, məgər, qüsurları olmamışdımı? Olmuşdu, özü də çox. Kunayev həmin rəhbərdir ki, Qazaxıstan torpağının kosmik uçuşlar meydanına çevrilməsinə qol çəkmiş və bununla da, torpağın ekologiyasının korlanmasına səbəb olmuşdu. Amma bu gün qazax xalqı həmin Kunayevi əlləri üstündə saxlayır, bəs biz? Biz isə vaxtilə kiçiklik elədiyimizə indi böyüklük eləmək istəyir, içimizdəki çirkabı onun üstünə tökməklə öyünürük. Bəs hanı ağsaqqala hörmət ənənəsi? Dünən danışmaq üçün növbəyə duranlara belə bir sualım var: bu gün dediyiniz sözləri bəs o zaman niyə demirdiniz?

Onda qorxurdunuzsa, bu gün dırnaqiçi “qəhrəmanlığınızla” çox da öyünməyin. Dünən qarşısında tir-tir əsib səcdə elədiyinin bu gün enməsindən istifadə edib onun üzünə sillə çəkmək heç bir millətdə kişilik sayılmayıb. Hamınıza məlumdur ki, indi xalqımız çox ağır günlər yaşayır. Doğma torpağımızın taleyi həll olunan bir dövrdə biz təklənmişik. Görünən düşmənlə mübarizə aparmağa nə var ki... Lakin görünməyən düşmənlərimiz daha güclüdür.

Görünən düşmənin də əli böyüklər ətəyindədir. Belə bir şəraitdə vəziyyətimizin ağırlığı göz qabağındadır. Əgər bu ağırlığı biz hamımız başa düşürüksə, indi bizim xırda hisslərlə məşğul olmağa ixtiyarımız yoxdur. İndi bizim aramızdakı xırda ədavəti unutmaqdan, şəxsi xeyrimizi cilovlamaqdan, bütün mənafelərimizi Vətənin taleyinə bağlamaqdan başqa ayrı yolumuz olmamalıdır.

Bu gizli deyil, uzun əsrlərdən bəri bizim milli psixologiyamızda fərdilik güclü olmuşdur. Öz şəxsi mənafeyimizi ümumi mənafedən üstün tutmuşuq. “Mən”i “biz”dən qabağa çəkmişik, buna görə də bir-birimizlə çəkişmişik, özümüzün daha çox haqlı və daha çox üstün olduğumuzu sübuta çalışmışıq. Lakin bu gün, Vətənin və millətin taleyi həll olunan bu ağır günlərdə gəlin şəxsi mənafeyimizdən və şəxsi ədavət hissimizdən əl çəkək. Vətənin taleyində yumruq kimi birləşək. Quru yer üstündə xalqımız üçün ilk müstəqil dövlət yaradan böyük atamız M. Ə. Rəsulzadəni eşidək. O, vaxtilə demişdir: “İstiqlaliyyəti olmayan xalqın xırda çəkişmələrlə məşğul olmağa ixtiyarı yoxdur”.

Gəlin bu müdrik sözləri qulaqlarımıza sırğa edək və iki atalar sözlərini də yada salaq: “Gedənin dalıycan danışmazlar”, bir də “Yıxılan ağaca balta çalmazlar”.

**Bəxtiyar VAHABZADƏ**
Azərbaycan Respublikası Ali Sovetinin
on ikinci çağırış birinci sessiyasındakı çıxışı

*“Respublika” qəzeti, 16 fevral 1991-ci il*

## BU, "BİRLİK ETİKASI"DIRMI?

Bu məktubu yazmaqda məqsədim on ikinci çağırış respublika Ali Sovetinin birinci sessiyasının 5 gün davam edən birinci mərhələsi barədə oxuculara məlumat vermək deyildir. Onsuz da əsl oxucu və əsl tamaşaçı çatdırılan məlumatların nə dərəcədə həqiqətə uyğun olduğunu özü saf-çürük edir. Lakin mən sessiyanın sonrakı günlərində müzakirələrlə bağlı fikrimi bildirmək istəyirəm.

Doğrudan da, çətin günlər keçiririk. Bugünkü parlamentimiz çox çətin və olduqca narahat bir dövrdə öz işinə başlamış, beş günlük qızğın işdən sonra 20 günlük fasilə vermişdir. Bəli, narahat bir dövrdə, adamların əsəblərinin tarıma çəkildiyi bir vaxtda sessiyanın gedişində bir sıra məsələlərin müzakirəsində yaranmış ciddi vəziyyət böyük əks-səda doğurmuşdur. Üç ildən artıqdır ki, xalqımızın başına gətirilən müsibətlər qurtarmaq bilmir. Xalqımız yeni parlamentdən bütün dəhşətlərə son qoyulmasını səbirsizliklə gözləyir. Lakin bu narahatlıqları sessiyanın ilk günlərində bəzi deputatlar bir kənara atıb, öz şəxsi məsələlərinin "araşdırılması" ilə məşğul olmağa "vaxt tapdılar". Hamı, hər kəs düzgün başa düşməlidir ki, bu gün bizim çəkişməli günümüz deyil. Deputatlar xalqın sözünü deməyə, onun taleyini həll etməyə can atmalıdırlar. Axı, seçicilər onları şəxsi münasibətləri araşdırmağa göndərməmişlər.

Sessiyanın üçüncü iş gününün axşam iclasında çıxış üçün söz Heydər Əliyev yoldaşa verildi. Heydər Əliyev yoldaş Dağlıq Qarabağ məsələsi ilə əlaqədar olaraq öz fikirlərini şərh edərkən "xalq deputatı" M. Quliyev heç bir etika gözləməyərək, ona sessiya ilə bağlı olmayan, indi xalqı düşündürməyən, şəxsi ambisiyalarla əlaqədar suallar yağdırmağa başladı. O yadından çıxarırdı ki, heç olmasa, xalq birliyinə başçılıq edən adam "birlik" sözünə hörmət etməlidir. Ancaq onun çıxışı əksinə oldu.

İndi hər yerdə bununla əlaqədar olaraq çoxlu söz-söhbət gəzir. Şəxsən mənim özüm də bununla əlaqədar olaraq yazmağı borc bildim. Və öz-özümə sual verdim ki, niyə insanlar bu qədər cılızlaşıblar.

Yoldaş Məmməd Quliyev, əsl həqiqəti xalq deməlidir ki, bu söz-söhbətləri salan kəs Azərbaycan Xalq Birliyinin rəhbəri olmağa layiqdir, ya yox? Bunu qoy xalq desin. Əgər o "xalq birliyi" bu xalqındırsa.

Növbəti gün sessiya yenə eyni kinlə başladı. Bu dəfə xalq birliyinin "fəal üzvlərindən" xalqımızın "ağsaqqalı", dünənə kimi hörmət bəslədiyim yazıçı Bayram Bayramov son dərəcə kinayə ilə bildirdi ki, bəs Qarabağ son üç ildə daha çox bizimkidir. Bayram müəllim, kim deyir, Qarabağ bizim deyil? Qarabağ bizimdir, ancaq adı. Özü isə... Bunları özünüz məndən yaxşı bilirsiniz. Elədirsə, bəs nə üçün Dağlıq Qarabağ Muxtar Vilayətinin on dairəsində Azərbaycan Ali Sovetinə seçkilər keçirilməyib?

Siz Qarabağa Xalq Yardımı Komitəsinin sədrisiniz. Ancaq mən bir tamaşaçı, seçici kimi sizin çıxışınızdan muxtar vilayətdə gördüyünüz işlərlə bağlı heç bir şey anlaya bilmədim. Səhv etmirəmsə, siz siyasi və iqtisadi problemləri qarışdırırsınız. Deyirsiniz ki, biz tikirik, filan binanı təmir edirik, daha nə bilim nə...

Bəs, bütün bunları kim etməlidir? Dedikləriniz məsələnin iqtisadi tərəfidir, siyasi tərəfinə gəldikdə isə qeyd etmək olar ki, əgər Dağlıq Qarabağ bizimdirsə, necə olur ki, tikdiklərimiz sabah yerlə yeksan olunur. Əgər Dağlıq Qarabağ bizimdirsə, niyə siz ora sərbəst halda maşınla deyil, vertolyotla gedirsiniz?

Bir məsələni də qeyd edəcəyəm. Yardım etməkdən çox danışırsınız. Şəxsən mənə DQMV-nin Hadrut rayonundakı Salakətin kənd sovetinin sədri Vaqif Zeynalov və katibi Vaqif Nəsirov ötən ilin dekabrında müraciət etmişdilər. Leytenant Şmidt adına maşınqayırma zavodunda 14 nömrəli sexin əmək kollektivinə düşən 1950 manat məbləğində pul mükafatını nağd yolla sədr və katibə verdik ki, kənd camaatına yardım etsinlər. Bəli, nağd yolla. Onların dediklərini necə var elə də yazıram: "Üç ilə yaxın davam edən uydurma Dağlıq Qarabağ problemi Azərbaycan xalqının narahatlığına səbəb olmuş, əsəblərini gərginləşdirmişdir. Kənd əhalisi ehtiyac içində yaşayır. Onun vəziyyəti inqilabaqədərki dövrü xatırladır. Yağış yağanda kəndə traktorla çıxmaq olar. Məktəb uçub dağılır. Bakıdan kəndə gələn nümayəndələr qeyd götürüb yoxa çıxdılar. Xahiş edirik göstərilən yardımlar nağd yolla həyata keçirilsin. Başqa təşkilatlardan bizə haray yoxdur. Göstərilən nağd yardıma görə XXII qurultay adına Bakı neftayırma zavodunun kollektivinə minnətdarıq".

Yeri gəlmişkən onu da yadınıza salım ki, bu yazını "Azərbaycan" qəzetinə təqdim etmişdim. Lakin çap olunması "məsləhət" görülməyib.

Vaxt vardı ki, iki nəsil arasında qan davası düşəndə ağsaqqallar, ağbirçəklər irəli durub sakitlik yaradırdılar. Bəs indi? Belə gedərsə milli mövqeyimizin tərkib hissələrindən biri olan "böyüyə hörmət" anlayışı deyəsən "Qırmızı kitaba" düşəcəkdir.

Səhv etmirəmsə, Siz Ali Sovetdə etika komissiyasının sədrisiniz. Ancaq siz Ali Sovetin sessiyasında deputat etikasını kobud surətdə pozaraq şəxsi mövqedən çıxış etdiniz. Öz çıxışınızda Qarabağ problemindən söhbət açdınız, yoxsa şəxsi məsələlərinizdən? Bax, bu məni çaşbaş salır. Yenə özünüz haqda, yenə şəxsi məsələlər haqda... Ancaq siz Qarabağa Xalq Yardımı Komitəsinin sədrisiniz. Bu çıxışınız isə xalqı birləşdirməyə yox, parçalamağa xidmət edir.

**Vüqar RƏHİMZADƏ,**<br>"Zavod həyatı"<br>qəzetinin məsul katibi

*"ŞƏRQ QAPISI" QƏZETİNİN REDAKSİYASINA*

Hörmətli redaksiya!

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasından Azərbaycanın xalq deputatı olduğunu nəzərə alaraq deputat Bayram Bayramova vurduğum teleqramın mətnini Sizə göndərir və qəzetdə dərc etməyinizi xahiş edirəm.

Hörmətli Bayram Bayramov! Adamların xoşuna gəlmək üçün təmtəraqlı sözlər işlədirsiniz və deyirsiniz ki, Qarabağ heç vaxt indiki kimi bizim olmamışdır. Düz buyurursunuz, indiyə kimi Qarabağa Xalq Yardımı Komitəsi də yaradılmamışdı ki, siz ona sədrlik edəsiniz və çıxışınızı şəxsi məqsədlərə yönəldəsiniz. Siz Əliyevi Qarabağa getmək üçün vertolyota dəvət edirsiniz. Siz son üç ildə Zori Balayanın "Qara qapı" adlandırdığı Laçına bir dəfə də gəlməmisiniz, gəlsəydiniz onda 52 şəhid ailəsinin, Qarabağa Xalq Yardımı Komitəsinin Laçın rayon

şöbəsinin nə qədər ciddi ehtiyac içində olduğunu öz gözlərinizlə görərdiniz. Bizim qaz kəməri Laçının başı üzərindən keçir, sərhəd rayonlarına paylanır. Xatirə abidələrində sönməz məşəllər alovlanır. El arasında bu qaza "Əliyevin ocağı" deyirlər... Bəli, xalqımız Əliyevi öz əməllərinə görə sonsuz məhəbbətlə sevir və o, gələcək nəsillərin qəlbində Azərbaycanın qeyrətli və Şərqin müdrik oğlu kimi yaşayacaqdır.

**Şəfa RZAYEV,**
Ayıqlıq Uğrunda Könüllü Mübarizə Cəmiyyəti
Laçın rayon şurasının məsul katibi

**Redaksiyadan:**

Üç ildən artıqdır ki, xalqımız məşəqqətli günlər keçirir. Mərkəz xalqımızı müdafiə etmir, erməni mafiyasının təsirindən çıxa bilmir. Qondarma Dağlıq Qarabağ problemini özümüz həll etməliyik. Azərbaycanın tam suverenliyini və müstəqilliyini istəyiriksə, hamımız sözdə deyil, əməli işdə yumruq kimi birləşməliyik. Bizə parçalanmaq lazım deyil. Axı, cəbhələşmə erməni daşnaklarının dəyirmanına su tökməkdən daha dəhşətlidir. Biz Heydər Əliyev kimi görkəmli siyasi və ictimai xadimdən, onun təcrübəsindən, nüfuzundan, potensial imkanlarından nə üçün istifadə etməyək?! Respublikamızı siyasi və iqtisadi böhrandan çıxarmaq, əzablı günlərdən qurtarmaq üçün umu-küsüyə, kin-küdurətə birdəfəlik son qoymalıyıq.

Gələn ayın 5-də Azərbaycan Respublikası Ali Soveti öz sessiyasını davam etdirəcəkdir. Biz inanırıq ki, o tam həmrəylik, yekdillik və işgüzarlıq şəraitində keçəcək, xalqımızın ictimai-siyasi və iqtisadi həyatında mühüm rol oynayacaqdır. Xalq deputatlarımız - millət vəkillərimiz isə bu işdə ağsaqqal müdrikliyi və təmkinliyi göstərəcək, parlamentin məhsuldar işləməsinə hər cür səy edəcəklər.

*"Şərq qapısı" qəzeti, 21 fevral 1991-ci il*

## VƏZİYYƏTƏ REAL QİYMƏT VERMƏLİ

Azərbaycanda xalq hərəkatının yeni yüksəlişi ərəfəsində Moskvada dövlət çevrilişi baş verdi. Azərbaycan Prezidenti Ayaz Mütəllibov, Azərbaycan KP MK-nın ikinci katibi V. Polyaniçko və başqa mühafizəkar rəhbərlər sevincək bəyanatlar verdilər, xalqa müraciət etdilər. Onlar elə başa düşürdülər ki, repressiyalar başlayacaq, bu repressiyalar onların hakimiyyətdə qalmaq müddətini uzadacaq, Qanlı Yanvarda törətdikləri cinayəti ört-basdır etməyə şərait yaradacaq.

Dövlət Fövqəladə Vəziyyət Komitəsi demokratik qüvvələrin təzyiqinə cəmi üç gün tab gətirə bildi. Dövlət çevrilişi edənlər məsuliyyətə cəlb olundular. Ölkənin hər yerində demokratik qüvvələr fəallaşdı. Belə bir gərgin vaxtda Azərbaycan Respublikasının xalq deputatı Heydər Əliyev də Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətinə növbədənkənar fövqəladə sessiya çağırılması tələbi ilə yazılı müraciət etdi.

Demokratik qüvvələrin təkidi ilə 29 avqust 1991-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin sessiyası öz işinə başladı. Lakin sessiyada mövcud vəziyyətə uyğun fəaliyyət göstərmək əvəzinə rəhbərliyə mədhiyyələr, yarınmalar, xalqın taleyini düşünənlərə qarşı böhtanlar özünə geniş yer tapdı. Ali Sovetin sədri yenə də təklifləri səsə qoymur, demokratik fikirləri boğmaq üçün mühafizəkar kommunistlərin şər-şamata dolu çıxışlarına geniş yer verirdi.

Azərbaycan Respublikasının xalq deputatı Heydər Əliyev sessiyanın 29 və 30 avqust iclaslarında çıxış etdi. Onun nitqinə maneçilik törətmək üçün rəhbərliyə yarınanlar, yaltaq və ikiüzlülər salonda səs-küy salırdılar. İclasın sədri isə deputat etikasını pozanları intizama dəvət etmirdi.

Sessiyadan sonra müstəqil qəzetlər Heydər Əliyevdən çıxışlarının mətnini çap etmək üçün icazə istəmişdilər. Lakin həmin çıxışları çap etmək istəyən qəzetlər dolayısı ilə respublika rəhbərliyinin təzyiqinə məruz qaldıqları üçün fikirlərindən daşınmışlar.

Həmin vaxtdan xeyli keçsə də, vəziyyət dəyişməmişdir. Mühafizəkar partokratiya başqa ad altında mövqeyini qoruyub saxlamağa çalışır.

Xalq hərəkatı isə gündən-günə güclənir, Heydər Əliyevin sessiyada söylədiyi mülahizələrə, dediyi fikirlərə xalq deputatları bu gün yeni - dən qayıtmalı olurlar. Onun nitqlərində irəli sürülən müddəaların aktuallığını nəzərə alaraq qəzetimizin bu sayında Heydər Əliyevin avqustun 24-də Azərbaycan Respublikası Ali Sovetin Rəyasət Heyətinə göndərdiyi məktubunu və Ali Sovetin sessiyasındakı çıxışlarını dərc edirik.

*"Şərq qapısı" qəzeti, 11 oktyabr 1991-ci il*

## *AZƏRBAYCAN ALİ SOVETİNİN RƏYASƏT HEYƏTİNƏ*

Aşağıdakı məsələlərə baxılması üçün təcili olaraq Azərbaycan Ali Sovetinin növbədənkənar fövqəladə sessiyasının çağırılmasını təklif edirəm:

1. Azərbaycan Prezidenti, Sov. İKP MK üzvü, Azərbaycan KP MK-nın birinci katibi A. Mütəllibovun və Azərbaycan rəhbərliyinin hərbi xunta - üzdəniraq DFVK tərəfindən həyata keçirilmiş dövlət çevrilişi ilə bağlı mövqeyi və fəaliyyəti müzakirə olunsun və obyektiv qiymət verilsin.

Xarici ölkələrin və ittifaqın kütləvi informasiya vasitələri Mütəllibovun dövlət çevrilişini bəyənməsi barədə məlumatlar yayıblar. Avqustun 21-də günorta çağı A. Mütəllibov Azərbaycan televiziyası ilə bəyanat verərək, dövlət çevrilişini, dövlət cinayətkarları dəstəsinin hərəkətini xalqın adından bəyəndiyini bildirmiş, ölkənin bir çox yerlərində fövqəladə vəziyyət elan edilməsinin məcburi tədbir olduğunu etiraf etmiş və bildirmişdir ki, respublikanın qarşısında duran mürəkkəb məsələlərin həllində öz ümidini DFVK ilə bağlayır. Ancaq avqustun 23-də irtica qüvvələri boğulduqdan sonra, prezidentin nəzarətində olan Azərinform avqustun 21-də televiziya ilə verilmiş, sonra isə Azərbaycanın demokratik nəşrlərində çap olunmuş bəyanat barədə susaraq, xarici və ittifaq orqanlarında Mütəllibovun mövqeyi barədəki məlumatları təkzib edən bəyanat dərc etmişdir.

Respublikanın ali qanunvericilik orqanının sessiyasında bu məsələ müzakirə olunmalı və açıqlanmalıdır. Azərbaycan xalqı həqiqəti bilməlidir.

2. Sov. İKP-nin tərkib hissəsi olan Azərbaycan KP-nin respublikada təkhakimiyyətlikdən kənarlaşdırılması məsələsi müzakirə olunmalıdır. Onun hərbi xunta ilə əməkdaşlığının məsuliyyət dərəcəsi müəyyən edilməmişdir.

Məlumdur ki, dövlət çevrilişi olan andan Azərbaycan KP MK-sı, Sov. İKP MK-dan və DFVK-dan gələn bütün göstərişləri yerinə yetirib. Azərbaycan KP MK rəhbərliyinin göstərişi ilə şəhər, rayon partiya komitələrinin, nazirlik və idarələrinin, ali məktəb və elmi institutların rəhbərləri DFVK-nın fəaliyyətini alqışlayan və tərəfdar çıxan çoxsaylı teleqramlar göndəriblər.

Xarici radiostansiyalar Azərbaycan KP MK-nın ikinci katibi Polyaniçkonun hərbi çevrilişi razılıqla qarşılaması ilə bağlı verdiyi mətbuat konfransı barədə məlumatlar yayıblar. Azərbaycan KP MK-nın mətbu orqanları olan və DFVK-nın qərarlarını tam yerinə yetirən "Kommunist", "Bakinski raboçi", "Vışka" və b. qəzetlərin fəaliyyətinin dayandırılması barədə qərar qəbul etmək lazımdır.

3. 1991-ci il avqustun 23-də olan qanlı hadisələr mitinq zamanı dinc əhaliyə qarşı hakimiyyət orqanları tərəfindən güc tətbiq edilməsi və nəticədə adamların, o cümlədən xalq deputatlarının xəsarət alması məsələsi müzakirə olunmalı və qərar qəbul edilməlidir.

4. Azərbaycan SSR Ali Sovetinin "Bakıda fövqəladə vəziyyətin ləğvi haqqında" 22 yanvar 1990-cı il tarixli qərarının dərhal həyata keçirilməsi barədə qərar qəbul edilməlidir.

5. Yuxarıda göstərilən məsələlər aydınlaşana kimi sentyabrın 8-nə təyin olunmuş prezident seçkilərinin keçirilməsi təxirə salınmalıdır.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının xalq deputatı**

*Bakı şəhəri, 24 avqust 1991-ci il*

## Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasında xalq deputatı HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Hörmətli millət vəkilləri!

Ölkədə, cəmiyyətdə siyasi və iqtisadi böhran, dövlət, hakimiyyət böhranı son dərəcədə şiddətlənmişdir. Mürtəce qüvvələrin demokratiya əleyhinə hücumu, cinayətkar qrupun həyata keçirdiyi dövlət çevrilişi dəf edilmişdir. Biz artıq Sovet imperiyasının, kommunist partiyasının dağılmasının şahidiyik.

Bu dövrdə bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha çətin, daha ağırdır. Bunun əsas səbəbi respublikada hökm sürən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti və buraxdığı kobud, bağışlanmaz səhvlərdir (Zaldan etiraz səsləri). Sessiyada hər bir deputatın sözünü deməyə hüququ var. Belə siyasətin nəticəsində respublikanın kommunist rəhbərliyi avqust ayının 19-22-də ölkədə dövlət çevrilişi və Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin fəaliyyətini faktiki olaraq bəyənmiş və beləliklə də, Azərbaycan xalqını çox pis vəziyyətdə qoymuşdur. Bundan erməni millətçiləri dərhal çevikcəsinə istifadə etmiş, bizim respublikamıza qarşı hərbi əməliyyatı, siyasi təbliğatı gücləndirmişlər. İndi biz respublikamızın həyatında ən çətin bir dövrdə çıxış yolu tapmalıyıq və hamımız bu çıxış yolunun tapılmasına səy göstərməliyik. Ancaq biz müəyyən etməliyik ki, bu çıxış yoluna nə vasitə ilə nail ola bilərik. Son günlərdə, o cümlədən bu gün, bu tribunadan xalqı birliyə, milli həmrəyliyə dəvət edən çağırışlar eşidilir. Təəssüf ki, bu çağırışlar artıq gecikibdir. Ancaq biz bu gün nəyin bahasına olursa-olsun milli birliyi yaratmağa çalışmalıyıq. Bunun üçün isə tam aydın olmalıdır: bu milli birlik hansı platforma əsasında hasil ola bilər, hansı platforma əsasında biz buna nail ola bilərik. Bu birliyi təmin etmək üçün mənim fikrimcə, bir neçə şərt təcili olaraq həyata keçirilməlidir. Bu təklifləri mən seçkiqabağı çıxışlarımda, Azərbaycan Respublikası Ali Sovetinin fevral və mart

aylarında keçirilən sessiyalarında, bu ilin iyul ayının 19-da Kommunist Partiyasından çıxarkən verdiyim bəyanatda və nəhayət bu ilin avqust ayının 24-də Azərbaycan Ali Sovetinin Rəyasət Heyətinə göndərdiyim məktubda ətraflı bildirmişəm. Təkrar etmək istəmirəm. Ancaq indi bir neçə təklifi qeyd etmək istəyirəm.

Birinci, Bakıda fövqəladə vəziyyət dərhal götürülməlidir. Bu gün Ayaz Mütəllibov dedi ki, fövqəladə vəziyyət nəyə lazımdır, götürülməlidir. Çox yaxşı. Ancaq bunu bir il yarım Bakıda saxlayan kimdir? Kimin qərarı ilə Azərbaycan Respublikası Ali Sovetinin sessiyasının 1990-cı il yanvar ayının 22-də qəbul olunmuş qərarı icra edilməyib. Aydınlaşdırmaq lazımdır ki, bu il yarımda fövqəladə vəziyyəti Bakıda saxlamaq üçün respublika nə qədər vəsait xərcləyib və respublikaya nə qədər zərər vurulub.

İkinci, Azərbaycan Respublikasının rəhbərliyinin dövlət çevrilişi haqqındakı mövqeyi barədə cürbəcür söhbətlər gedir. Xarici və ittifaq informasiya orqanları bu barədə xəbərlər yayıblar. Bu məsələ aydınlaşdırılmalıdır. Kim xaricdə nə deyib, o bizim üçün məlum deyil. Ancaq məlumdur ki, avqust ayının 21-də Azərbaycan televiziyası ilə Ayaz Mütəllibovun xalqa müraciəti oxunubdur. Müraciət həm Azərbaycan dilində, həm də rus dilində oxunub. Müraciətdə fövqəladə vəziyyət komitəsinin fəaliyyəti bəyənilib və Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin fəaliyyəti ilə Azərbaycan Respublikasının bir neçə məsələsinin həll olunmasına ümid bəslənilib. O cümlədən Dağlıq Qarabağ məsələsinin və silahlanmış erməni bandit qruplarının tərk-silah olunması məsələsinin həll olunması fövqəladə vəziyyət üzrə komitənin fəaliyyəti ilə bağlanıbdır.

Bunu aydın demək lazımdır. Ola bilər belə səhvlər buraxılıb. Ancaq xalq həqiqəti bilməlidir. Bir gün belə deyib, o biri gün elə demək heç vaxt xalqda inam yarada bilməz.

Üçüncü, xalqda birlik yaratmaq üçün Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir. Bu, Sovet İttifaqı Kommunist Partiyasının tərkib hissəsidir. Sovet İttifaqı Kommunist Partiyası dağılmışdır. Azərbaycan Kommunist Partiyasını hələ də saxlamaq və onun buraxılması məsələsini qurultayda həll etmək bu məsələni uzadıb,

Kommunist Partiyasını yenə də hakimiyyətdə saxlamaq, onun imkanlarından istifadə etmək meylini göstərir. Bununla qəti razılaşmaq olmaz. Azərbaycan Kommunist Partiyasının bütün strukturları ləğv olunmalıdır, əmlakı milliləşdirilməlidir. Azərbaycan Kommunist Partiyasının, onun mətbu orqanlarının işi dayandırılmalı, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin hərbi xunta ilə əməkdaşlıq edib-etməməsi məsələsi aydınlaşdırılmalıdır. Bunun üçün parlament komissiya yaratmalıdır. Mənim fikrim budur. Məlumdur ki, 3 gün, fövqəladə vəziyyət üzrə komitənin hökm sürdüyü dövrdə, Azərbaycan Kommunist Partiyasının mətbu orqanları Azərbaycan və rus dillərində bu komitənin sənədlərini dərc ediblər. Azərbaycan televiziyası bu komitənin bütün sənədlərini Azərbaycan dilinə tərcümə edib xalqa çatdırıbdır.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin göstərişləri ilə Azərbaycandan fövqəladə vəziyyət üzrə komitənin ünvanına, Moskvaya minlərlə təbrik teleqramları göndərilibdir. Bunların özü əməkdaşlığı tam aydın göstərir. Kommunist Partiyası mövqeyindən fəaliyyət göstərən vəzifəli şəxslər öz vəzifələrindən imtina etməlidirlər. Mən bu gün kommunist partiyası haqqında belə ciddi tənqidi sözlər deyərək istəyirəm bəyan edəm ki, uzun illər Kommunist Partiyasının sıralarında olduğum və rəhbər vəzifə tutduğum dövrdə kommunist partiyasına xidmət etmişəm, partiyanın planlarını yerinə yetirmişəm və o dövrdə xidmətimə görə və buraxdığım səhvlərə görə öz məsuliyyətimi dərk edirəm.

Dördüncü, 20 Yanvar faciəsindən il yarımdan çox vaxt keçir. Bu gün bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup deputat bir fikirdədir, məndən qabaq çıxış edən deputat Rəhimov başqa fikirdədir. Mən Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan Prezidenti Ayaz Mütəllibova sual verirəm: nə üçün indiyə qədər bu hadisəyə siyasi qiymət verilməyib? Tamerlan Qarayevin verdiyi izahatla mən razılaşa bilmərəm. Çünki bu məsələnin həm siyasi, həm də hüquqi tərəfi var. Bu hadisəyə siyasi qiyməti dərhal vermək olardı. O ki qaldı hüquqi cəhəti - ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması, onu şübhəsiz ki, istintaq qrupu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət vermək lazımdır (Bu vaxt salonda səs-küy qopur, E. Qafarova siyasi qiymət ve-

rildiyini bildirir). Bəs verilibsə, kim bu hərbi təcavüzün günahkarıdır. Bu gün deyilir ki, Yazov, Kryuçkov. Bəli, belədir. Ancaq biz bura Bakatini, Girenkonu, Qorbaçovu, Primakovu da əlavə etməliyik. Sonra?.. Bəs Azərbaycan rəhbərliyindən kimlər günahkardırlar? Bəli, bu şəxslər də məlumdur. Vəzirov, Qafarova, Mütəllibov və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin başqa büro üzvləri. Əgər başqa adamlar da günahkardırsa, aydınlaşdırmaq lazımdır. Bunlar aydınlaşdırılana qədər əgər başqa qüvvələr də günahkardırlarsa - demokratik qüvvələr, xalq cəbhəsi, onlara da siyasi qiymət vermək lazımdır. Bunları aydınlaşdırmayana qədər Azərbaycanda siyasi sabitliyi əldə etmək olmaz. Əgər buna siyasi qiymət verilibsə, mən Ayaz Mütəllibovdan xahiş edirəm ki, desin nə üçün Qorbaçov 9 respublikanın rəhbərləri ilə görüşündə 3 nazirin təyin olunması üçün razılıq alarkən, Ayaz Mütəllibov Bakatinin Dövlət Təhlükəsizlik Komitəsinə sədr təyin olunmasına etiraz etməmişdir. Əgər edibsə, qoy desin. O öz çıxışında demədi. Nə üçün 20 Yanvar faciəsinin əsas günahkarlarından biri olan Vəzirov Azərbaycan Respublikasından xalq deputatlarının qurultayını hazırlayan komissiyaya seçilibdir? Onu kim təqdim edibdir? Əgər bunu Azərbaycan Respublikasının rəhbərləri ediblərsə, onlar Azərbaycan xalqının qarşısında günah ediblər. Mən bunu tam açıqlığı ilə demək istəyirəm. Mən də çıxış edən deputatların fikri ilə razıyam ki, bütün bu məsələləri aydınlaşdırmadan Azərbaycanda prezident seçkiləri keçirmək olmaz. Azərbaycan Respublikası Ali Sovetinin deputatları tam əksəriyyəti kommunist olduqlarına görə, bütün kommunist partiyasının rəhbər orqanlarında fəaliyyət göstərən adamlar parlamentə deputat seçildiklərinə görə və Azərbaycan Kommunist Partiyası çox şeylərdə günahkar olduğuna görə mən hesab edirəm ki, Azərbaycan Respublikasının parlamenti buraxılmalıdır və yenidən seçkilər aparılmalıdır. Mən belə kəskin çıxış edərkən heç də şübhə etmirəm ki, mənim çıxışımdan sonra xüsusi hazırlanmış adamlar çıxıb mənim əleyhimə sözlər deyəcəklər. Mən bu sözlərə öyrənmişəm. Ona görə heç də narahat deyiləm. Belə xüsusi hazırlanmış çıxışlar mənim iradəmi sarsıda bilməz. Mən öz vicdanım qarşısında tamamilə cavabdeh olaraq çıxış edirəm.

## “Azərbaycanın Müstəqillik Bəyannaməsi” ilə bağlı Azərbaycan Ali Sovetinin 30 avqust 1991-ci il tarixli sessiyasında HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Çox mühüm məsələ həll olunur. Tarixi məsələdir. Bunu tələm-tələsik həll etmək olmaz. Bu, Azərbaycan xalqı qarşısında parlament tərəfindən öz üzərinə böyük məsuliyyət götürmək deməkdir və Tofiq Köçərlinin durub hər suala cavab verməsinə səlahiyyəti yoxdur.

Birinci, mən hesab edirəm ki, bu məsələ müzakirə olunmalıdır. Yenə də deyirəm, bunu belə tələm-tələsik keçirmək olmaz. Bu barədə iki-üç kəlmə demək istəyirəm. Çox qəribədir. Martın 7-dən 10-na qədər keçirilən Ali Sovetin sessiyasında bir çox deputatlar, o cümlədən mən də Azərbaycanın müstəqilliyini təklif edərkən bizim əleyhimizə cürbəcür hücumlar başlandı. Və A. Mütəllibovun o qədər də dərin mənalı olmayan, əsassız çıxışından sonra hamı hay-küylə səs verdi ki, Azərbaycanın müstəqilliyi ola bilməz və biz referenduma getməliyik, yeni ittifaq müqaviləsini imzalamalıyıq (Salonda səs-küy).

Xahiş edirəm, Elmira xanım, şərait yaradın, sözümü deyim. Xahiş edirəm (Səs-küy). Mən xahiş edirəm. Mənim deputatlıq... (Səs-küy).

Tələm-tələsik referendum keçirildi. Azərbaycanın ittifaq müqaviləsinə getməsi haqqında qərar qəbul olundu. Belə olan halda, indi xalqın iradəsi olmadan bu cür qərarın, ya bəyanatın qəbul olunması qanunu pozmaq deməkdir. Mən bu bəyanatın qəbul olunmasının əleyhinə deyiləm. Ancaq bu bəyanatı indi qəbul edib, xalqa müraciət etmək lazımdır. Qısa müddətdə, 3-4 gün içərisində referendum keçirmək lazımdır və referendumun nəticəsinə görə sessiya yığışıb bu qərarı qəbul etməlidir. Bağışlayın, fikrimi deyirəm.

İkinci, mən mart ayında da demişdim. İkiüzlü siyasət aparmaq olmaz. Bu qərar bu gün konyunktur xarakter daşıyır, başqa yerlərdə qərar qəbul olunur. Demək, biz də qərar qəbul etməliyik.

Biz artıq gecikmişik. Bu bəyanatın mətninə mütləq əlavə olunmalıdır ki, 1920-ci il aprelin 28-də Azərbaycan işğal olunub. Mən Azər-

baycan Kommunist Partiyasına 14 ilə yaxın rəhbərlik etmişəm, 28 aprel inqilabını ömrüm boyu tərənnüm etmişəm və mən tam qətiyyətlə deyirəm, 28 apreldə Azərbaycan işğal olunub. Azərbaycan Demokratik Respublikası zorakılıqla ləğv olunub. Əgər biz bunu qeyd etməsək, yenə də xalqın qarşısında ikiüzlü olarıq.

Mənim fikrim budur.

## QURULTAYA TELEQRAM

*MOSKVA, KREML*
*SSRİ XALQ DEPUTATLARI QURULTAYINA*

Hörmətli deputatlar!

Sizə aşağıdakı məsələləri baxıb həll etmək xahişi ilə müraciət edirəm.

Birincisi, SSRİ Ali Soveti Rəyasət Heyətinin 7 may 1983-cü il tarixli fərmanı ilə anadan olduğum Naxçıvan şəhərində mənim - Heydər Əlirza oğlu Əliyevin, iki dəfə Sosialist Əməyi Qəhrəmanı kimi bürünc büstüm qoyulub. Bu büstün götürülməyini zəruri sayıram. İlk dəfə bu büstü mən 1990-cı ilin iyul ayında Naxçıvan şəhərinə gələndə gördüm. Mən mənəvi əzab çəkirəm. Sağ adamın, özümün büstüm qoyulmuş yerə yaxınlaşa bilmirəm.

İkincisi, iki dəfə Sosialist Əməyi Qəhrəmanına, iki dəfə Sovet İttifaqı Qəhrəmanına bürünc büst qoyulması haqqında SSRİ Ali qanunvericilik orqanının qəbul etdiyi bütün aktlar ləğv olunsun və adamlara sağlığında qoyulmuş büstlər götürülsün.

Bu barədə qəbul olunmuş dövlət aktlarını və təəssüf ki, bu günlərədək mövcud olan təcrübəni, sıralarından hələ 19 iyul 1991-ci il tarixdə çıxdığım Sov. İKP-nin fəaliyyətinin eybəcər təzahürlərindən biri kimi qiymətləndirirəm.

**Heydər Əlirza oğlu ƏLİYEV,**
Azərbaycan Respublikasının xalq deputatı,
Naxçıvan Muxtar Respublikasının xalq deputatı,
iki dəfə Sosialist Əməyi Qəhrəmanı

*Naxçıvan şəhəri, 1 sentyabr 1991-ci il*

FƏSİL II

# Demokratik dəyişikliklər yolu ilə

*“Biz düz yolla - haqq yolu ilə, Allah yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik... Tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır”.*

**Heydər ƏLİYEV**
Zəvvarların Həccdən qayıtması
münasibətilə keçirilən
görüşdəki çıxışından

*20 may 1995-ci il*



## Heydər Əliyev yoldaşın Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Heydər Əlirza oğlu Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilsin.

**A. SƏFƏROV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini**

*Naxçıvan şəhəri, 3 sentyabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN FÖVQƏLADƏ SESSİYASI

Sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası öz işini davam etdirmişdir.

Sessiyanı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini A. H. Səfərov açmışdır.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

1. Təşkilat məsələsi;
2. Azərbaycan Respublikası Prezidenti seçkilərinə münasibət haqqında;
3. Azərbaycan Kommunist Partiyası Təşkilatının fəaliyyətinə münasibət barədə;
4. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 avqust 1991-ci il tarixli qərarının icrası ilə əlaqədar vilayət partiya təşkilatı əmlakının inventarizasiyasının aparılması üçün komissiya yaradılması barədə;
5. Azərbaycan Respublikası Ali Sovetində bir qrup deputatın Rusiya Federasiyasının sessiyasına qarşı çıxışlarına münasibət barədə.

Təşkilat məsələsinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin seçilməsi məsələsinin müzakirəsi zamanı ilk söz alan deputat Ə. Orucov demişdir ki, bu günlər istər Azərbaycanda, istərsə də muxtar respublikamızda çox gərgin vəziyyət yaranmışdır. Ona görə də bu ağır vəziyyətdə bizə elə bir rəhbər lazımdır ki, o, öz müdrikliyi, nüfuzu, yüksək təşkilatçılıq qabiliyyəti ilə xalqı birləşdirə bilsin, muxtar respublikaya bacarıqla, səriştəli rəhbərlik etsin. Belə bir adam Azərbaycan xalqının yaxşı tanıdığı, sevdiyi, tək ölkəmizdə deyil, bütün dünyada böyük nüfuza malik olan Heydər Əlirza oğlu Əliyevdir. Yalnız Heydər Əliyevin rəhbərliyi altında muxtar respublikada yaranmış ağır vəziyyətdən çıxmaq olar. Ona görə də mən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrliyinə Heydər Əlirza oğlu Əliyevin namizədliyini irəli sürürəm.

Deputatlardan H. Mehdiyev, T. Siyabov, N. Bayramov, E. Cəlilov, H. İsmayılov, Q. Məmmədov, Ə. Talıbov, H. Xəlılov, R. İbadov və başqaları bu təklifi qızğın müdafiə etdilər.

Heydər Əliyev 4 dəfə çıxış edərək namizədliyini irəli sürənlərə dərin minnətdarlığını bildirdi və təkidlə xahiş etdi ki, onun namizədliyi-

ni səsə qoymasınlar. O, təklif etdi ki, deputat Q. Məmmədovun namizədliyini səsə qoysunlar.

Lakin sessiya yekdilliklə Heydər Əlirza oğlu Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçdi. Sonra gündəliyin ikinci məsələsinin - Azərbaycan Respublikası Prezidenti seçkilərinə münasibət haqqında məsələnin müzakirəsi başlandı. Müzakirə zamanı çıxış edən deputatlar A. Kəngərli, T. Sadiqov, N. Zeynalov, S. Hüseynov, Y. Vəliyev, F. Şirzadov, H. Hüseynov, Q. Məmmədov bu məsələyə öz münasibətlərini bildirdilər və konkret təkliflər irəli sürdülər.

*"Şərq qapısı" qəzeti, 3 sentyabr 1991-ci il*

## XOŞ ARZULU TELEQRAMLAR

*NAXÇIVAN MUXTAR RESPUBLİKASI*
*ALİ MƏCLİSİ, HEYDƏR ƏLİYEV YOLDAŞA*

Ali Məclisin Sədri seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Sizə Azərbaycanın gələcəyi, çiçəklənməsi, yad qüvvələrdən təmizlənməsi yolunda müvəffəqiyyətlər arzulayıram.

**Cəfər QURBANOV**
*Bərdə, Həsənqaya kəndi*

*NAXÇIVAN MUXTAR RESPUBLİKASI*
*ALİ MƏCLİSİNƏ, HEYDƏR ƏLİYEV YOLDAŞA*

Fəaliyyətinizə görə sizi öpürəm, Sizə qarşı iftira deyənlərə hiddətli nifrətimi bildirirəm. 32 yaşım var. Kaş elə bir imkanım olaydı, qarşıda olan ömrümün sağlam ilini Sizin ömrünüzə calayaydım. Azərbaycanın birliyi uğrunda Sizə böyük müvəffəqiyyətlər arzu edirəm.

**Ələmdar Alış oğlu HÜSEYNOV**
*Ağdam rayonu, Qalayçılar kəndi*

*NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNƏ, HEYDƏR ƏLİYEV YOLDAŞA*

Hörmətli Əliyev yoldaş, Sizin xalqa yenidən rəhbər seçilməyiniz haqqın, ədalətin qələbəsidir. Sizdən uzaqda yaşasam da qəlbən Sizinləyəm. Ailəm adından Sizə uzun ömür, cansağlığı, xoşbəxtlik, xalq naminə apardığınız mübarizədə cansağlığı arzulayıram.

**Cəlal SADİQOV**

*Xanlar rayonu, Nərimanov küçəsi, ev 87*

*NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNƏ, HEYDƏR ƏLİYEVƏ*

Hörmətli Heydər bəy! Muxtar respublika Ali Sovetinə sədr seçilməyiniz münasibətilə öz adımdan və bütün ailə üzvlərim adından Sizi təbrik edirəm. Azərbaycan xalqının azadlığı və müstəqilliyi yolunda apardığınız bu demokratik mübarizədə Sizə uzun ömür, cansağlığı və böyük müvəffəqiyyətlər arzu edirəm. Demokratik dünyagörüşlü ziyalılarımız və xalqımız bu mübarizədə həmişə sizinlədir.

**Qadir Muqbil oğlu MƏMMƏDOV**

*NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN SƏDRİ HEYDƏR ƏLİYEV YOLDAŞA*

Bildiyiniz kimi, hazırda Bakıda Ali Sovetin binası qarşısında izdihamlı mitinq gedir. Həmin mitinqdə sizin gördüyünüz bütün tədbir və nailiyyətləriniz bəyənildi. Xalq sizi alqışladı və gələn mitinqlərin birində iştirakınızı arzuladılar. Sizə "Azərbaycanın Atatürkü" adını verdilər.

Hörmətlə,

Sizi sevən xalq oğlu **Əziz HACIYEV**

*Bakı şəhəri*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN FÖVQƏLADƏ SESSİYASI

Sentyabrın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası öz işini davam etdirmişdir.

Sessiyaya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev sədrlik edirdi.

Səhər iclası başlayarkən Ali Məclisin Sədri Heydər Əliyev bəyanatla çıxış etdi.

Heydər Əliyev təklif etdi ki, Ali Məclisin rəhbərliyini gücləndirmək üçün əlavə olaraq iki sədr müavini seçilsin. Bu təklif qəbul edildi. Açıq səsvermə yolu ilə Q.Y. Məmmədov və A.S. Kələntərli muxtar respublika Ali Məclisi Sədrinin müavinləri seçildilər.

Sonra Ali Məclis Azərbaycan Respublikası Prezidenti seçkilərinə münasibət haqqında məsələnin müzakirəsini davam etdirdi. Bu məsələ ilə əlaqədar hazırlanmış qərar layihəsinin müzakirəsi zamanı çıxış edən deputatlar Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidenti seçkilərinin dayandırılmasını nəzərdə tutan qərar layihəsinə tərəfdar çıxdılar.

Deputatlardan H. Hüseynov, N. Həsənov, F. Şirzadov və başqaları bu layihənin əleyhinə çıxaraq bildirdilər ki, belə bir qərarın qəbul edilməsi adamların hüquqlarına toxunur və insan hüquqları haqqında bəyannaməyə ziddir.

Muxtar respublikada Azərbaycan Respublikası Prezidenti seçkilərinin dayandırılması barədə qərar layihəsi səsə qoyuldu və səs çoxluğu ilə qəbul edildi.

Azərbaycan Kommunist Partiyası təşkilatının fəaliyyətinə münasibət barədə məsələnin müzakirəsi zamanı çıxış edən deputatlardan T. Siyabov, E. Cəlilov və başqaları Ali Məclisin 26 avqust 1991-ci il tarixli qərarının icrası ilə əlaqədar vilayət partiya təşkilatının əmlakının inventarizasiyasını aparmaq üçün komissiya yaradılması təklifinə tərəfdar çıxdılar! Bu məsələ ilə əlaqədar qərar qəbul edildi.

Bu gün sessiya öz işini davam etdirir.

*"Şərq qapısı" qəzeti, 5 sentyabr 1991-ci il*

## HEYDƏR ƏLİYEVİN BƏYANATI

Ali Məclisin sessiyası öz işini davam etdirir. Sessiyada 77 nəfər deputat iştirak edir.

Bundan əvvəl, avqustun 26-da keçirilən sessiyada qərar qəbul olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aprelin 5-də keçirilmiş sessiyasında yetərsay olmadığına görə Ali Məclisin sədrinin seçilməsi qanunsuz hesab olunsun.

Dünən Ali Məclisin sədrinin seçilməsi məsələsinin müzakirəsi başlandı. Müzakirə vaxtı deputatlar çıxış etdilər, öz fikirlərini söylədilər. Ali Məclisin sədrliyinə Ali Məclisin demokratik bloku Qafar müəllimin namizədliyini irəli sürdü. O biri deputatlar isə mənim namizədliyimi irəli sürdülər. Dünən dörd dəfə çıxış etdim, bildirdim və xahiş etdim ki, mənim namizədliyim müzakirə olunmasın. Nə səbəbə? Ona görə ki, mən hələ keçən il Moskvadan Azərbaycana gələrkən, jurnalistlərə verdiyim müsahibələrdə və görüşlərdə, bu ilin əvvəlində Azərbaycan Ali Sovetinin sessiyasında çıxış edərkən və nəhayət, son sessiyada bildirmişdim ki, Azərbaycana hakimiyyətə qayıtmaq üçün gəlməmişəm. Mən ancaq Azərbaycanın bu ağır dövründə, çətin vaxtında xalqıma kömək etmək, xidmət etmək üçün gəlmişəm. Mənə bir neçə dəfə Moskvada, elə burada da sual verilmişdi ki, bəs siz öz köməyinizi nədə görürsünüz? Cavab vermişdim ki, mən Azərbaycan xalqının hər bir tapşırığını yerinə yetirməyə hazıram.

Mənim razılığım olmadan, mən bunu qətiyyətlə deyirəm və bunu hamı bilməlidir, məni Naxçıvan MR Ali Məclisinə sədr seçdilər. Sədr seçiləndən sonra da mən sədrlik etməkdən imtina etdim. İclası axıra qədər sədrin müavini Anar Səfərov aparırdı. Çox böyük əziyyət, mənəvi əziyyət içərisindəydim ki, mənim razılığım olmadan məni sədr seçdilər. Ancaq bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. Dünən sessiya keçirilərkən binanın qarşısına minlərlə Naxçıvan əhalisi (təkcə şəhərdən yox, rayonlardan, kəndlərdən gələnlər) kənardan sessiyaya təsir göstərir və tələb edirdilər ki, Heydər Əliyev seçilsin. Onların təzyiqinin qarşısında dura bilməzdim. Xalqın bu əhvali-ruhiyyəsini, tələblərini, sonra sessiyadakı çıxışları nə-

zərə alaraq bütün məsələləri götür-qoy etdim. Yəqin etdim ki, mən öz prinsiplərimə sadiq qalaraq eyni zamanda indi Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə nəinki deputatların, binanın qarşısında, ətrafına toplaşan naxçıvanlıların qoyduqları vəzifənin ifasından geri çəkilsəm, bu, xalqın ağır günündə qaçmaq deməkdir. Ona görə belə bir ziddiyyətli vəziyyətdəyəm və bu vəziyyətdə də qalıram.

Ancaq eyni zamanda mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm. Mən bu sözləri sizə çatdırmalıydım.

İkincisi, bizim sessiyanın, Ali Məclisin bu günə, bu vəziyyətə düşməsinin çox dərin səbəbləri var. Bildiyiniz kimi keçən ilin sentyabr ayının 30-da Naxçıvan Muxtar Respublikası Ali hakimiyyət orqanlarına seçkilər keçirildi.

Noyabrın 17-də Ali Məclisin sessiyası öz işinə başladı. Çox yaxşı qərarlar qəbul olundu. İlk qərarda Naxçıvan MR adından “Sovet Sosialist” sözləri götürüldü, Naxçıvan MR Dövlət bayrağı məsələsi müzakirə olundu və biz 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını qəbul etdik.

Müxtəlif qərarlar qəbul olundu. Xüsusilə 1990-cı ilin yanvar ayında Bakıdakı qanlı hadisələrə, Azərbaycan xalqına qarşı hərbi təcavüzə siyasi qiymət verildi, qərar qəbul edildi və mətbuatda da dərc olundu. Dağlıq Qarabağda, keçmiş Şaumyan rayonunda, Xanlar rayonunun Çaykənd kəndində əmələ gəlmiş vəziyyət haqqında qərar qəbul olundu və bu qərar da dərc olundu. Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarların qəbul edilməsində məcburiyyət qarşısında qaldı.

Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı. Həmin sessiyada, nəhayət ki, ilk dəfə olaraq Dağlıq Qarabağda olan vəziyyət müzakirə olundu. Düzdür, müzakirə və onunla əlaqədar qəbul olunan qərar deputat kimi məni razı salmadı. Mən deyərdim ki, məsələyə çox səthi baxıldı. Ancaq mənə belə gəlir ki, qə-

rarların qəbul olunmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların böyük təsiri oldu.

Təəssüf ki, uğurla işə başlayan Naxçıvan Ali Məclisi bir müddət sonra müxtəlif səbəblərə görə öz fəaliyyətini zəiflətdi. Ali Məclis iflic vəziyyətinə düşdü. Mənim fikrim belədir ki, muxtar respublikanın Ali Məclisi Naxçıvan Vilayət Partiya Komitəsinin təzyiqi altında idi. Məclisin qəbul etdiyi qərarlar demokratik ruhlu olduğundan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində narazılıqlar törətdi. Mərkəzi Komitə Vilayət Partiya Komitəsinə təzyiq göstərdi. Vilayətin rəhbərləri bu təzyiqlərə dözə bilmədilər və yaxud ikitərəfli, ikiüzlü mövqe tutdular və beləliklə, sessiyanın işində böyük pozuntular əmələ gəldi.

Demokratik ruhlu deputatların dəfələrlə təkid etməsinə baxmayaraq sessiya keçirilmirdi. Bütün bunlar hamısı bizə göstərdi ki, Azərbaycan Kommunist Partiyası, onun tərkib hissəsi olan Naxçıvan Vilayət Partiya Komitəsi və onun bürosu mürtəce mövqe tutur və xalq tərəfindən seçilmiş Ali Məclisin işinə məhz onların diktatorluq, inzibati amirlik üsuli-idarəsi mane oldu.

O vaxtdan Məclisin işi pozulmuş və bu iş getmirdi. Bildiyiniz kimi, noyabrın 17-də seçilmiş Məclisin Sədri A. Cəlilov naməlum səbəblərə görə Naxçıvanı tərk etdi və onun yerinə Naxçıvan Vilayət Partiya Komitəsinin qərarı ilə Əkbər Əliyev seçildi.

Deputatlar bildirdilər ki, bu sessiya keçirilərkən yetərsəs olmamışdır, buna görə də sessiyanın qərarı ləğv edilmişdir. Bildiyiniz kimi, aprelin 5-də keçirilən sessiyadan iki saat əvvəl mənə zəng edib bildirdilər ki, onun işində iştirak edim. Lakin həmin vaxt xəstə idim və sessiyaya gələ bilməzdim. Mənim yanıma Nehrəm kəndindən çox hörmət etdiyim bir neçə ağsaqqal gəldi, dedilər ki, Əkbər Əliyev xahiş edir mən sessiyaya gəlim. Vəziyyətim pis olsa da, mən sessiya keçirilən binaya gəldim və gördüm ki, artıq deputatlar iki yerə ayrılıblar. Foyedə Əkbər Əliyevlə görüşdüm. O xahiş etdi ki, mən ona kömək edim. Mən demokratik blokla görüşdüm və onların hansı əhvali-ruhiyyədə olduğunu hiss etdim. Gəlib Ə. Əliyevə dedim ki, bu vəziyyətdə, bu şəraitdə sessiyanı keçirmək olmaz. Sessiyanı təxirə salmaq lazımdır, deputatlarla məsləhətləşmək lazımdır.

Onu deyim ki, bir gün əvvəl Vilayət Partiya Komitəsinin plenumu olmuşdur. Azərbaycan KP MK-nın üçüncü katibi Z. Abdullayev həmin plenumda iştirak edirdi. Eləcə də orada partiya, sovet işinə aidiyyəti olmayan müxtəlif adamlar gəlib oturmuşdular. Elə həmin plenumda məclisin sədri məsələsi həll edilmişdir. Mən bunları bildiyimə görə Ə. Əliyevə dedim ki, bu vəziyyətdə Ali Məclisə seçilsəniz, gələcəyi olmayacaq. Bir halda ki, siz Ali Məclisə sədr seçilirsiniz, gərək Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsindən imtina edəsiniz. Mən hələ buna bənzər bir təklifi mart ayında Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında demişdim. Mən orada dedim ki, yuxarıdan aşağı bütün partiya rəhbərləri sovet orqanlarında heç bir vəzifə tutmamalıdırlar. Düzdür o vaxt mənim təklifim müdafiə olunmadı. Mən o vaxt təklif etdim ki, Azərbaycan Kommunist Partiyası hakimiyyətdən getməlidir. Bu çıxışıma görə mən bir çox hücumlara məruz qaldım. Bu bir neçə ayın hadisələri sübut etdi ki, kim düz fikirdə idi, kim səhv etmişdi. Yuxarıda dediyim fikirləri əsas tutaraq mən Ə. Əliyevə bir daha öz fikrimi bildirdim. Lakin o razı olmadı, mən də çıxıb getdim. Bütün bunları isə ona görə çatdırıram ki, Naxçıvanda gedən proseslər həm sizə, həm də Naxçıvan əhalisinə aydın olsun, eyni zamanda bütün bunlar sübut edir ki, Naxçıvanda da, bütün Azərbaycanda da Kommunist Partiyasının hakim diktator rejimi bəzi dəyərli adamları, xalqı üçün, məmləkəti üçün faydalı adamları pis vəziyyətdə qoyur. A. Cəlilov və Ə. Əliyev də təəssüf ki, belə diktatorluq rejiminin qurbanı oldular. Onlar gərək demokratiya yoluna düşəydilər.

İndi mən də əvvəldə dediyim kimi, çətin vəziyyətdəyəm. Çünki minlərlə adam meydandadır, burada zalda da deputatlar parçalanıb. Mən bir gün əvvəl mitinqdə demişdim ki, Azərbaycanda bəzi qüvvələr xalqı parçalayır. Naxçıvanda da bunu həyata keçirmək istəyirlər. Biz Naxçıvanda birlik yaratmalıyıq. Azərbaycanda da belə birlik ola bilər. Dəfələrlə çıxışlarımda dediyim kimi, bu birlik demokratik prinsiplər əsasında, plüralizm əsasında olmalıdır. Kommunist Partiyası məhv oldu. Sovet imperiyası dağıldı. Şəxsi mənafedən istifadə etmək istəyən Azərbaycan Kommunist Partiyasının rəhbərləri artıq indi pis günə düşüblər. Ona görə də dəfələrlə dediyim kimi, mən bir daha təkrar edi-

rəm, gəlin bir olaq, hamımız xalqımıza xidmət edək, respublikamız, Azərbaycan xalqı, Naxçıvan haqqında düşünək və demokratik prinsiplər əsasında birləşək.

Məni bir deputat kimi bir məsələ də narahat etdi. Sessiyalarda biz nə Nazirlər Kabinetinin, nə də nazirliklərin nümayəndələrini görürdük. Çünki Ali Məclis Naxçıvanda da, Bakıda olduğu kimi partiya təşkilatının əlində oyuncağa dönüb. Ali Məclisə Vilayət Partiya Komitəsi rəhbərlik edir. Ona görə də məclisə nə nazir çağırılırdı, nə də Nazirlər Kabinetinin işinə baxılırdı. Onlar Vilayət Partiya Komitəsinə yığılır və bütün məsələlər orada onların iclaslarında müzakirə olunurdu. Bu da ikiüzlü siyasətin çox açıq forması idi. Bunların hamısına son qoymaq lazımdır. Elə ona görə bu gün sessiyada Naxçıvan Muxtar Respublikasının nazirləri, idarə, müəssisə rəhbərləri, rayon, şəhər icraiyyə komitələri sədrləri iştirak edirlər. Onları ona görə dəvət etmişik ki, gəlsinlər, oturaq, fikirləşək görək bu çətin vəziyyətdən necə çıxırıq.

Mən sözümün sonunda bir daha üzümü Ali Məclisə tutaraq deyirəm, əgər mümkündürsə sədr yenidən seçilsin.

Mən sizə müraciət etməyə borcluyam. Naxçıvan Muxtar Respublikasını ağır vəziyyətdən çıxarmaq üçün sizin hamınız mənə kömək etməlisiniz. Bax, bu şərtlə bu yükün altına girirəm.

*"Şərq qapısı" qəzeti, 6 sentyabr 1991-ci il*

## Azərbaycan Respublikası prezidentliyinə seçkilər haqqında

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN Q Ə R A R I

Azərbaycan Respublikası Ali Sovetinin 26 iyun 1991-ci il tarixli qərarı ilə 8 sentyabr 1991-ci il tarixdə Azərbaycan Respublikasında prezident seçkiləri keçirilməsi müəyyənləşdirilmişdir.

Prezident seçkiləri Azərbaycanda demokratiya və xalqın səsinin boğulması şəraitində keçirildiyindən, bütün demokratik qüvvələr həmin seçkilərin təxirə salınmasını tələb etsə də, nəyin bahasına olursa-olsun hakimiyyəti əlində saxlamağa çalışan A. Mütəllibov Ali Sovetə seçkilərin təxirə salınmasına bütün vasitələrlə mane olur.

1990-cı il 19 yanvar Bakı qırğınlarından il yarımdan artıq müddət keçməsinə baxmayaraq həmin hadisələrə siyasi və hüquqi qiymət verilməmiş, bir sıra rəsmi orqanlar və informasiya vasitələrinin məlumatlarında A. Mütəllibovun Bakıya qoşun yeridilib dinc əhalinin güllələbaran edilməsi, tankların və zirehli transportyorların altına salınmasında təqsirli olması bildirilsə də, hətta özü belə bunu təkzib etməmişdir.

Təsadüfi deyildir ki, Bakıya qoşun yeridilməsi və Naxçıvan torpağına ermənilərin hücumu eyni vaxta düşür. Naxçıvan torpağında günahsız qanlar axıdılması, hətta uşaqların belə erməni güllələrindən tələf edilməsi xalqımızın gələcəyi haqqında daha ciddi düşünməyə bizi vadar edir.

1991-ci il 19-21 avqust dövlət çevrilişinə və Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinə münasibətdə də A. Mütəllibov özünün irticaçı niyyətini gizlətməmiş, qiyamçıları açıq-aşkar müdafiə etmişdir.

A. Mütəllibovun alternativsiz namizədliyi, Azərbaycanda faktiki olaraq çoxpartiyalılığın mövcud olmaması, yeganə müxalifət qüvvəsi olan Xalq Cəbhəsinin zorakılıq və qanunsuzluqlara görə seçkilərdə iştirakdan imtina etməsi, seçki komissiyası və məntəqəsi üzvlərinin partokratiya nümayəndələrinin sifarişi ilə təyin edilməsi, nəhayət A. Mütəllibovun əsas dəstəkləyicisi olan Kommunist Partiyasının süqutu prezident seçkilərinin dayandırılmasını zəruri etmişdir.

Bütün bunlarla yanaşı nəzərə alınmalıdır ki, prezident seçkiləri Azərbaycan xalqının qərinələrlə sürən azadlıq arzusu ilə bağlıdır və bütün xalqın istəyi və iştirakı təmin olunmalıdır. Bu seçkilər kiminsə hakimiyyət hərisliyindən doğan arzusunun təmin olunmasına yönəldilə bilməz. Nəhayət prezident seçkilərinin təxirə salınmasında qanunsuzluq yoxdur, bu yalnız ədalətin və xalq istəyinin yerinə yetirilməsinə xidmət edir.

Bütün bunları nəzərə alaraq Naxçıvan MR Ali Məclisi **qərara alır:**

1) Azərbaycan Respublikası prezidenti seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin Naxçıvan MR ərazisində keçirilməsi dayandırılsın;

2) Azərbaycan Respublikası Ali Sovetindən respublika prezidentliyinə seçkilərin daha sonrakı müddətə keçirilməsi xahiş edilsin;

3) Həmin qərar barədə SSRİ Xalq deputatlarının qurultayına bildirilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 4 sentyabr 1991-ci il*

## Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında

### NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN Q Ə R A R I

Məlum olduğu kimi, SSRİ Prezidentinin fərmanı ilə Sov. İKP MK-nın və onun Siyasi Bürosunun fəaliyyəti dayandırılmışdır. Naxçıvan MR Ali Məclisinin 26 avqust 1991-ci il tarixli sessiyasında Naxçıvan Vilayət Partiya Komitəsi və partiya təşkilatlarının bütün strukturları ləğv edilmişdir. Lakin Sov. İKP-nin tərkib hissəsi olan Azərbaycan Kommunist Partiyası, onun Mərkəzi Komitəsi öz fəaliyyətini davam etdirməkdədir. Hətta sentyabr ayında özünün qurultayını çağırmağı qərara almışdır. Bu yolverilməz fəaliyyətdir və Azərbaycanın istiqlalına bir maneədir. Buna görə Naxçıvan MR Ali Məclisi **qərara alır:**

1. Naxçıvan MR Ali Məclisinin sessiyası bildirir ki, Sov. İKP MK-nın və onun Siyasi Bürosunun fəaliyyətinin SSRİ Prezidentinin fərmanı ilə dayandırılmasına baxmayaraq, Sov. İKP-nin tərkib hissəsi olan

Azərbaycan Kommunist Partiyasının, onun Mərkəzi Komitəsinin hələ də fəaliyyət göstərməsi yolverilməzdir.

2. Azərbaycan Respublikası Ali Sovetindən xahiş edilsin ki, ölkədə gedən demokratik proseslərə uyğun olaraq Azərbaycan Kommunist Partiyasının və onun Mərkəzi Komitəsinin fəaliyyətini dərhal dayandırmaq haqqında qərar qəbul etsin. Qısa müddətdə Azərbaycan Kommunist Partiyasının, onun bütün təşkilatlarının əmlakının milliləşdirilməsini təmin etsin.

3. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin bütün strukturlarının ləğv edilməsi və əmlakının milliləşdirilməsi haqqında Naxçıvan MR Ali Məclisinin 26 avqust 1991-ci il tarixli qərarı bir daha bəyənilsin.

4. Naxçıvan MR Ali Məclisinin qərarına uyğun olaraq Naxçıvan MR-də partiya təşkilatlarının əmlaklarının milliləşdirilməsini təmin etmək üçün Naxçıvan MR Ali Məclisi deputatlarından ibarət deputat komissiyası yaradılsın və bir həftə ərzində qərarın yerinə yetirilməsi təmin olunsun.

5. Siyasi əqidəsinə görə və Kommunist Partiyasının siyasətinə etiraz əlaməti olaraq partiya biletlərindən imtina etdikləri üçün keçmişdə təqib olunan şəxslərin hüquqlarının bərpa edilməsi haqqında muxtar respublika Ali Məclisinin Rəyasət Heyətində məsələ qaldırılması həmin deputat komissiyasına həvalə olunsun.

6. Həmin qərar SSRİ Xalq deputatları qurultayına göndərilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 4 sentyabr 1991-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN FÖVQƏLADƏ SESSİYASI

Sentyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası Heydər Əliyevin sədrliyi ilə öz işini davam etdirmişdir. İclasın əvvəlində sədrlik edən bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan KP mərkəzi orqanlarının təzyiqi nəticəsində uzun müddət fəaliyyətsiz qalmış, muxtar respublikada ictimai-siyasi həyat öz məcrasından çıxmış, problemlər kəskinləşmişdir.

Bunu nəzərə alan bir qrup deputat fövqəladə sessiya çağırılmasını tələb etmişdir. Avqust ayının 26-da fövqəladə sessiya keçirilmiş və sessiyanı sentyabrın 3-də davam etdirmək qərara alınmışdır. Lakin Azərbaycan Respublikası rəhbərliyindən bəzi şəxslər həmin sessiyanın gedişini qəsdən pozmaq üçün Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi və digər idarələrdə işləyən 40 nəfərə yaxın deputatı, şəhər və rayon sovet məclisləri sədrlərini müxtəlif bəhanələrlə Bakı şəhərinə çağırmış, bununla sessiyada yetərsay alınmasına, nəticə etibarilə sessiya keçirilməsinə mane olmağa çalışmışlar.

Bununla əlaqədar Bakı şəhərinə çağırılmış deputatlardan Namiq Həsənovun, Həsən Abdullayevin, Əli Cəfərovun və başqalarının məlumatları dinlənildi. Sessiya həmin məsələ ilə əlaqədar qərar qəbul etdi.

Sonra deputatlar SSRİ-də Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin qərarlarına Naxçıvan Muxtar Respublikası partiya və sovet təşkilatlarının münasibətini araşdırmaq sahəsində deputat komissiyası yaradılması haqqında məsələni müzakirə etdi və həmin komissiyanın yaradılması haqqında qərar qəbul edildi.

Qeyd edildi ki, muxtar respublikanın xalq deputatları tərəfindən Azərbaycan Respublikası prezidenti seçkilərinə hazırlıq dövründə cürbəcür saxtakarlıqlara yol verilməsi barədə məlumatlar daxil olmuşdur. Həmin məsələni araşdırmaq üçün deputat komissiyası yaradılması haqqında qərar qəbul edildi.

Deputatlar gündəliyin növbəti məsələsinin, muxtar respublikada cari iqtisadi və sosial vəziyyət haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin məlumatı haqqında məsələnin müzakirəsinə baş-

ladılar. Naxçıvan MR Baş naziri deputat M. Əliyev həmin məsələ barədə məlumat verdi. Lakin məlumat ümumi statistik xarakter daşıdığından deputatları razı salmadı.

Bu gün sessiya öz işini davam etdirir.

*"Şərq qapısı" qəzeti, 6 sentyabr 1991-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin pozulmasına yönəldilmiş hərəkətlər haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan KP mərkəzi orqanlarının və Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin təzyiqi nəticəsində uzun müddət – 5 aprel 1991-ci il tarixdən etibarən fəaliyyətsiz vəziyyətə düşmüş, muxtar respublikada ictimai-siyasi həyat öz məcrasından çıxmış, problemlər kəskinləşmişdir.

Bunu nəzərə alan bir qrup deputat fövqəladə sessiya çağırılmasını tələb etmişdir. 3 sentyabr 1991-ci il tarixdə Naxçıvan MR Ali Məclisinin sessiyasının keçirilməsi qərara alınmışdır. Lakin Azərbaycan Respublikası rəhbərliyindən bəzi şəxslər həmin sessiyanın gedişini qəsdən pozmaq üçün Naxçıvan MR Daxili İşlər Nazirliyi və sovet idarələrində işləyən 40 nəfərə yaxın muxtar respublika deputatını, rayon və şəhər Məclis sədrlərini müxtəlif bəhanələrlə Bakı şəhərinə çağırmış, bununla sessiyada yetərsay alınmasına, nəticə etibarilə sessiya keçirilməsinə mane olmağa çalışmışlar.

Bu qanunsuz hərəkətlərdə Azərbaycan KP Mərkəzi Komitəsi, Azərbaycan Respublikası Ali Soveti və Nazirlər Kabineti də bilavasitə iştirak etmişdir.

Göstərilənləri nəzərə alıb, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin, Nazirlər Kabinetinin Naxçıvan MR Ali Məclisinin işini pozmağa yönəldilmiş hərəkətləri pislənilsin.

2. Bu barədə Azərbaycan Respublikası Ali Sovetinə bildirilsin və gələcəkdə bu kimi hallara yol verilməməsi üçün tədbirlər görülməsi qətiyyətlə tələb edilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 5 sentyabr 1991-ci il*

## SEÇİCİLƏRLƏ GÖRÜŞ

Sentyabrın 5-də Nehrəm kəndində seçicilərin Azərbaycan xalq deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevlə görüşü olmuşdur.

Heydər Əliyev demişdir: "İndiki vəziyyəti daha aydın təsəvvür etmək üçün dəqiq dərk etmək lazımdır ki, köhnə sistem dağılır və onu yeni ictimai-siyasi və iqtisadi təsisatlar əvəz etməlidir. Bu, bəlkə də çətin və məsuliyyətli dövrdür. İndi bizə həmişəkindən daha çox birlik və yekdillik lazımdır. Lakin xalqın birliyini pozmaq, etimadsızlıq yaratmaq, onu cəbhələşmə girdabına salmaq istəyən qüvvələr vardır. Həmin qüvvələr bizi əslində özünütəcrid vəziyyətinə çağırırlar. Guya Ali Məclis Naxçıvan Muxtar Respublikasının Azərbaycanın tərkibindən çıxması barədə qərar qəbul etmişdir. Həmin qüvvələr çox təəssüf ki, respublikanın mərkəzində rəhbərlik tərəfindən idarə olunur. Lakin biz həmişə olduğu kimi indi də deyirik ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsidir və belə də olacaqdır.

Muxtar respublikamızda aşkarlığın və demokratiyanın, plüralizmin genişləndirilməsi üçün hər cür şərait yaradılacaqdır. Kommunistlərin, yaxud hər hansı partiyanın üzvlərinin siyasi əqidəsinə görə təqib olunmasına yol verilməyəcək. Lakin Kommunist Partiyasının rəhbər rolu da olmayacaq.

Heydər Əliyev yoldaş əmin olduğunu bildirmişdir ki, biz birlik və həmrəylik, əzmkar əmək, qarşıya qoyulan məqsədlərin həllində

uzaqgörənlik və ardıcıllıq göstərmək vasitəsilə müvəffəqiyyət qazanacağıq.

Axırda Heydər Əliyev seçicilərin suallarına cavab vermişdir.

*"Şərq qapısı" qəzeti, 10 sentyabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN FÖVQƏLADƏ SESSİYASI

Sentyabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası öz işini davam etdirmişdir. Sessiyada Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev sədrlik edirdi.

Sessiya başlanarkən Ali Məclisin Sədri Heydər Əliyev qeyd etdi ki, muxtar respublikada belə bir əhvali-ruhiyyə yaranıb ki, kommunistlərə qarşı təzyiq göstərilir, hücumlar edilir. Mən özüm dünən televiziya vasitəsilə çıxış edərkən dedim ki, belə hallara qətiyyən yol vermək olmaz. Biz muxtar respublikada Sov. İKP-nin bütün strukturlarının ləğv edilməsi və əmlakının milliləşdirilməsi barədə qərar qəbul edərkən, bu qərarda kommunistlərə qarşı hücum etmək, onlara təzyiq göstərmək fikrində olmamışıq. Əgər biz demokratiyadan, plüralizmdən, ədalətdən danışırıqsa, belə hallara qətiyyən yol vermək olmaz. Hər kəsin hansı ideyaya sadiq qalması onun öz işidir. Bunu heç kəsə irad tutmaq olmaz. Mən özüm Kommunist Partiyasının sıralarını tərk edərkən milyonlarla təmiz, vicdanlı, mənəviyyatca pak olan kommunistlərə öz dərin ehtiramımı bildirmişəm və bu gün bunu bir daha təsdiq edirəm.

Sonra deputatlar muxtar respublika Nazirlər Kabinetinin hesabatının müzakirəsini davam etdirdilər.

Məsələnin müzakirəsində deputatlardan X. Ağrılı, Ə. Cəfərov, E. Cəlilov, N. Zeynalov, Azərbaycan Respublikası xalq deputatı M. Abbasov və başqaları çıxış etdilər.

Sessiya həmin məsələ ilə əlaqədar qərar qəbul etdi.

Sonra muxtar respublikanın baş naziri M. M. Əliyevin səlahiyyəti bitmiş hesab edildi. Bu gün sessiya öz işini davam etdirir.

*"Şərq qapısı" qəzeti, 7 sentyabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN BƏYANATI

Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1991-ci il 4 sentyabrda cari ilin sentyabr ayının 8-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin muxtar respublika ərazisində dayandırılması haqqında qərar qəbul etmişdir.

Belə bir qərarın qəbul edilməsi üçün aşağıdakılar əsas olmuşdur:

Prezidentlik vəzifəsinə namizədliyə yalnız Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi A. Mütəllibov alternativsiz əsasda irəli sürülmüşdür.

Yeganə müxalifət qüvvəsi olan Xalq Cəbhəsi təzyiq və qanunsuzluq şəraitində prezident seçkilərində iştirakdan imtina etmişdir. Seçki komissiyaları və məntəqələrinin üzvləri Kommunist Partiyası orqanlarının birbaşa göstərişi ilə təyin olunmuşlar.

Avqustun 19-da ölkədə dövlət çevrilişi etmiş, SSRİ Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyəti ilə bağlı olaraq dövlət çevrilişində iştirakına və cinayət etdiyinə görə Sov. İKP MK-nın Siyasi Bürosu və Sov. İKP Mərkəzi Komitəsi buraxılmışdır. Sov. İKP MK üzvü, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Ayaz Mütəllibov mənsub olduğu təşkilatla birlikdə bu cinayətlə bağlıdır və hər hansı bir seçkilərdə onun iştirak etməyə hüququ yoxdur. Azərbaycanda Kommunist Partiyasının fəaliyyəti, onun Mərkəzi Komitəsinin diktator rejimi davam edir.

1990-cı il yanvarın 19-da Bakıya qoşun yeridilməsi zamanı insan tələfatına səbəb olmuş Azərbaycan xalqına qarşı hərbi təcavüzdə Mütəllibovun iştirakına dair əsaslı məlumatlar vardır.

A. Mütəllibov ölkədə dövlət çevrilişi etmiş SSRİ-də Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyətini bəyənmişdir.

Azərbaycan Respublikasının kommunist rəhbərliyi tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və muxtar respublika sakinlərinin iradəsinə hər cür təzyiqlər göstərilir. Ali Məclisin 1991-ci il sentyabrın 3-də keçirilməsi nəzərdə tutulmuş sessiyasının işinin pozulması məqsədilə Azərbaycanın kommunist rəhbərliyi heç bir əsas olma-

dan Ali Məclisin 40-dək deputatını, şəhər və rayon sovetləri icraiyyə komitələrinin sədrlərini Bakı şəhərinə çağırılmasını təşkil etmişdir.

Sentyabrın 2-də Naxçıvan şəhərinə 9 nəfər Azərbaycan xalq deputatı, o cümlədən 2 general və hüquq-mühafizə orqanlarının rəhbər işçiləri gəlmişdir. Bu deputat qrupu özünü Naxçıvan Muxtar respublikası Ali Məclisinə təqdim etməmiş, öz fikrini açıq şəkildə bildirməmiş və anlaşılmayan bir fəaliyyətlə məşğul olmuşdur.

Elə bu günlərdə məlum olmayan səbəblərə görə Azərbaycan daxili işlər nazirinin müavini başda olmaqla Azərbaycan Daxili İşlər Nazirliyi işçilərinin böyük bir qrupu Naxçıvana gəlmişdir.

Bütün bunlar bir daha inandırıcı şəkildə ona dəlalət edir ki, Azərbaycanın kommunist rəhbərliyi respublikanın ali qanunvericilik orqanının fəaliyyətinə, onun əhalisinə təzyiq göstərməyə can atır və Naxçıvan Muxtar Respublikasında baş verən demokratik prosesləri boğmağa çalışır.

Bütün bu qeyri-qanuni hərəkətlərə etiraz edərək Sovet İttifaqının bütün demokratik təşkilatlarına, bütün demokratik beynəlxalq təşkilatlara, müstəqil jurnalistlərə müraciət edərək, Naxçıvan Muxtar Respublikasındakı vəziyyətin obyektiv şəkildə öyrənilməsi üçün, xüsusən Azərbaycan prezidenti seçkilərinin keçirilməsi nəzərdə tutulmuş gün, sentyabrın 8-də öz nümayəndələrini muxtar respublikaya göndərmələrini xahiş edirəm.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 6 sentyabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN FÖVQƏLADƏ SESSİYASI

Sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası öz işini davam etdirmişdir. Sessiyada muxtar respublika Ali Məclisinin Sədri Heydər Əliyev sədrlik edirdi.

Səhər iclası başlanarkən Ali Məclisin Sədri Heydər Əliyev çıxış edərək dedi ki, respublikanın hakimiyyət orqanları muxtar respublikada gedən demokratik prosesləri təhrif etmək, baş verən müsbət dəyişikliklərə qara yaxmaq üçün bütün vasitələrdən istifadə edərək, respublika əhalisində bu dəyişikliklər barədə yanlış təsəvvür yaratmağa çalışırlar. Elə dünən respublika televiziyası vasitəsilə "Aktual ekran" verilişi təşkil edilmiş, bu verilişdə dörd nəfər naxçıvanlı hüquqşünas çıxış edərək Ali Məclisə, onun sədrinə böhtanlar atmış, muxtar respublikada sabitliyi pozmağa çalışmışlar. Bu veriliş bütün naxçıvanlıları dərindən hiddətləndirmişdir. Ona görə də Ali Məclis bu növbəti böhtana öz münasibətini bildirməlidir.

Sonra Muxtar Respublika Ali Məhkəməsinin sədri Z. Hacıyev çıxış edərək "Aktual ekran" verilişinin iştirakçıları haqqında məlumat verdi. O dedi ki, həmin verilişdə çıxış edənlərin üçünü - Əyyub Ələkbərovu, Musa Həsənovu və Hüseyn Əsədovu yaxşı tanıyır. Onlar televiziya vasitəsilə çıxış edərkən muxtar respublikada gedən proseslərdən tam xəbərsiz olduqlarını göstərmiş və belə bir gülünc fakt gətirmişdilər ki, guya Ali Məclis muxtar respublikanın Azərbaycandan ayrılması barədə qərar çıxarmışdır. Beş gün ərzində sessiyanın gedişini radio və televiziya vasitəsilə, habelə yerli mətbuatda izləyən on minlərlə naxçıvanlı və eləcə də muxtar respublikaya gələn qonaqlar bunun necə bir ağ yalan, böhtan olduğunu təsdiq edərlər.

Həmin məsələ ilə əlaqədar çıxış edən deputatlar muxtar respublika Ali Məclisinə atılan bu kobud böhtanı qətiyyətlə pislədilər.

Ali Məclis Sədrinin müavini A. Kələntərli bildirdi ki, həmin məsələ ilə əlaqədar olaraq Ali Məclisin ünvanına 421 nəfərin imzaladığı məktub daxil olmuşdur. O, məktubu oxudu. Məktubun müəllifləri tələb edirdilər ki, Ali Məclis bu böhtana siyasi qiymət versin.

Sessiya həmin məsələ ilə əlaqədar bəyanat qəbul etdi.

Ali Məclisin Sədri bildirdi ki, respublika prezidenti seçkilərinə dair Ali Məclisin qərarı ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətindən teleqram alınmışdır. Sədrin birinci müavini R. Həsənov teleqramı oxudu. Həmin teleqram respublika Ali Sovetinin Rəyasət Heyətinin radio və televiziya vasitəsilə oxunmuş bəyanatını təkrar edirdi.

Deputatlar S. Hüseynov, B. Muradov, M. Əliyev, T. Sadıqov, Ə. Hüseynov həmin teleqramı qətiyyətlə rədd etdilər.

Ali Məclis həmin məsələ ilə əlaqədar bəyanat qəbul etdi. Sonra sessiya muxtar respublika Nazirlər Kabinetinin təşkili məsələsinin müzakirəsinə başladı.

Əksər səs çoxluğu ilə B.İ. Fərzəliyev muxtar respublikanın Baş naziri, Ə.H. Sadiqov və M.C. Abbasov Baş nazirin birinci müavinləri seçildilər.

Ali Məclisin Sədri Heydər Əliyev yekun sözü ilə çıxış etdi. Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası öz işini başa çatdırdı.

*"Şərq qapısı" qəzeti, 10 sentyabr 1991-ci il*

## Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin bəyanatı barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin bəyanatı barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bəyanatının mətni bəyənilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**
*Naxçıvan şəhəri, 7 sentyabr 1991-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN BƏYANATI BARƏDƏ

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin 1991-ci il sentyabr ayının 6-da verdiyi bəyanata baxaraq bir daha qeyd edir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 4 sentyabr 1991-ci il tarixdə qəbul etdiyi Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında qərar prinsipial xarakter daşıyır.

Qəbul olunan qərarda göstərildiyi kimi, prezidentlik vəzifəsinə namizədliyə yalnız Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi A. Mütəllibovun alternativsiz qaydada seçkiyə buraxıldığını, prezidentliyinə namizədliyi fövqəladə vəziyyət şəraitində verildiyini, müxalifət qüvvəsi olan Xalq Cəbhəsi təzyiq və qanunsuzluq şəraitində prezident seçkilərində iştirakdan imtina etdiyini, seçki komissiyaları və məntəqələrinin üzvlərinin Kommunist Partiyası orqanlarının birbaşa göstərişi ilə təyin olunduğunu, avqustun 19-da ölkədə dövlət çevrilişi etmiş SSRİ Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyəti ilə bağlı olaraq dövlət çevrilişində iştirakına və cinayət etdiyinə görə Sov. İKP MK Siyasi Bürosunun və Sov. İKP Mərkəzi Komitəsinin buraxıldığını, Sov. İKP MK üzvü, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Ayaz Mütəllibovun mənsub olduğu təşkilatlarla birlikdə bu cinayətlə bağlılığını və buna görə hər hansı bir seçkilərdə onun iştirak etməsinə hüququ olmadığını, Azərbaycanda Kommunist Partiyasının fəaliyyəti, onun Mərkəzi Komitəsinin diktator rejimini davam etdirdiyini, 1990-cı il yanvarın 19-da Bakıya qoşun yeridilməsi zamanı insan tələfatına səbəb olmuş Azərbaycan xalqına qarşı hərbi təcavüzdə A. Mütəllibovun iştirakına dair təkzibedilməz məlumatlar olduğunu, onun ölkədə dövlət çevrilişi etmiş SSRİ-də Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyətini bəyəndiyini əsas tutaraq seçkilərin təxirə salınmasını nəzərdə tutmuş və Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətindən xahiş etmişdir ki, seçkiləri başqa vaxta keçirsin.

## Azərbaycan televiziyasının 6 sentyabr 1991-ci il tarixli "Aktual ekran" verilişində Naxçıvan MR Ali Məclisinin qərarı ilə əlaqədar çıxışlar barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
QƏRARI

6 sentyabr 1991-ci il tarixdə axşam özlərini naxçıvanlı adlandıran A. Ələkbərov, M. Həsənov, H. Əsədov, Y. Vəliyev Azərbaycan televiziyası ilə çıxış edərək "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Naxçıvan MR Ali Məclisinin 4 sentyabr 1991-ci ildə qəbul etdiyi qərara münasibətlərini bildirmişlər.

Onlar öz çıxışlarında heç nəyə əsaslanmadan Azərbaycan Respublikası ictimaiyyətinə Naxçıvan Muxtar Respublikasında olan əsl vəziyyət, burada baş verən demokratik proseslər haqqında yanlış məlumat vermiş, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və onun sədri barədə böhtanlar yağdırmışlar. Televiziya ilə çıxış edənlər xüsusilə bildirmişlər ki, guya muxtar respublikanın Ali Məclisi və onun Sədri Heydər Əliyev qəbul etdikləri qərarla Naxçıvan Muxtar Respublikasını Azərbaycanın tərkibindən çıxarmağa, Naxçıvan Muxtar Respublikası və Azərbaycan Respublikası arasında qarşıdurma vəziyyəti yaratmağa cəhd etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi qeyd edir ki, Ali Məclis Sədrinin sessiyada və 5 sentyabr 1991-ci il tarixdə Naxçıvan televiziyası ilə çıxışında Azərbaycanın bütövlüyü və onun bölünməzliyi haqqında qətiyyətlə fikir söylənmiş, qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir. Çıxış edənlərdən heç kim Naxçıvanı Azərbaycandan ayırmaq haqqında bir kəlmə söz deməmişdir. Əksinə, bütün çıxışlarda Azərbaycan xalqını birliyə və milli razılığa çağırışlar səslənmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hesab edir ki, belə bir veriliş Azərbaycan Respublikasının parçalanmasına, Azərbaycanda qarşıdurma vəziyyətinin yaradılmasına yönəldilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu böhtançı çıxışları qətiyyətlə rədd edir və belə hesab edir ki, Naxçıvan Muxtar Respublikasının Ali qanunvericilik orqanının ünvanına böhtan yağdıranlar məsuliyyətə cəlb edilməlidirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası hesab edir ki, bu təxribat antidemokratik, irticaçı mövqe tutan Azərbaycan televiziyasının rəhbərliyi və Azərbaycanın kommunist rəhbərliyi tərəfindən təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan televiziyası və radiosunun rəhbərliyindən tələb edilsin ki, özünün bütün informasiya kanalları vasitəsilə bu qərarı elan etsin, Naxçıvan Muxtar Respublikasının Ali Məclisindən və əhalisindən üzr istəsin.
2. Bu təxribat xarakterli verilişi təşkil edənlər, muxtar respublikaya, onun Ali qanunvericilik orqanına böhtan yağdıranlar məsuliyyətə cəlb edilsinlər.
3. Azərbaycan Respublikasının Baş prokurorundan xahiş edilsin ki, bu məsələ barədə təhqiqat aparsın və onun nəticələrini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə bildirsin.
4. Naxçıvan Muxtar Respublikasının prokuroruna tapşırılsın ki, həmin məsələnin təhqiqatına köməklik göstərsin.
5. Həmin qərar məlumat üçün Azərbaycan Respublikasının Ali Sovetinə göndərilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 7 sentyabr 1991-ci il*

*MOSKVA ŞƏHƏRİ*
*RSFSR PREZİDENTİ B. N. YELTSİNƏ,*
*RSFSR ALİ SOVETİNƏ*

Hörmətli Boris Nikolayeviç!

Hörmətli xalq deputatları!

1991-ci il 3-7 sentyabrda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası keçirilmişdir. Sessiyada ölkədə baş verən proseslərlə əlaqədar muxtar respublikanın həyatının demokratikləşdirilməsi məsələləri müzakirə olunmuşdur. Muxtar respublika Ali Məclisinin bir sıra qərarları məlumat üçün Sizə göndərilmişdir. Məsələn, Ali Məclis muxtar respubika ərazisində Kommunist Partiyasının bütün strukturlarının və Vilayət Partiya Komitəsinin fəaliyyətinin dayandırılması, onların əmlakının milliləşdirilməsi haqqında qərar qəbul etmiş, bu günə qədər öz fəaliyyətlərini davam etdirən Azərbaycan Kommunist Partiyası və onun Mərkəzi Komitəsinin buraxılması barəsində Azərbaycan Respublikası Ali Sovetinə təklif verilmişdir.

Ali Məclis 1991-ci il sentyabrın 8-nə təyin edilmiş Azərbaycan Prezidenti seçkilərinin təxirə salınmasının zəruriliyi haqqında qərar qəbul etmişdir. Bu cür qərarın qəbul olunmasının bir sıra əsaslı səbəbləri var. Onlar Sizə göndərilən qərarda öz əksini tapmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin rəhbərliyində yeniləşmə baş vermişdir. Ali Məclis Sədrinin iki müavini və muxtar respublikanın Baş naziri hazırda Xalq Cəbhəsinin üzvləridir.

Ali Məclis tərəfindən qəbul olunmuş qərarlar muxtar respublikada vəziyyətin sabitləşməsi və mürəkkəb sosial-iqtisadi məsələlərin həlli üçün şərait yaratmışdır. Bununla belə, Azərbaycanın paytaxtı Bakıda və respublikanın bir çox regionlarında gərgin vəziyyət yaranmışdır və prezident seçkilərinin dayandırılması tələbi ilə tətillər və mitinqlər keçirilir.

Ali Məclis tərəfindən qəbul edilmiş bütün sənədlər və demokratikləşdirmə prosesləri muxtar respublika əhalisi tərəfindən bəyənilir və müdafiə edilir.

Lakin Ali Məclisin deputatları və muxtar respublikanın əhalisi Azərbaycanın kommunist rəhbərliyinin kəskin narazılığını hiss edirlər. Azərbaycan rəhbərliyi Ali Məclisin işinə hər vasitə ilə mane olur, kütləvi informasiya vasitələrindən istifadə edərək respublikanın ali qanunvericilik orqanına qarşı böhtan kampaniyası təşkil edir.

Bütün bunları nəzərə alaraq Naxçıvan Muxtar Restublikası Ali Məclisi imkanlar axtarıb Naxçıvana Rusiya Federasiyası deputatlarının bir qrupunu göndərməyi xahiş edir. Onlar yaranmış vəziyyəti obyektiv qiymətləndirər və ölkənin ictimaiyyətinə düzgün məlumat çatdırılmasında bizə köməklik göstərərdilər.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 9 sentyabr 1991-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin bəyanatı haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin bəyanatının mətni bəyənilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 10 sentyabr 1991-ci il*

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
B Ə Y A N A T I

Mərkəzi televiziyanın "Vremya" proqramı ilə 1991-ci il 9 sentyabr - da verilmiş Azərbaycan Prezidenti A. Mütəllibovun mətbuat konfran - sı haqqında reportajında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı təhrif olunmuşdur. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi A. Mütəllibov 1991-ci il 8 sentyabra təyin edilmiş prezident seçkilərinin Naxçıvan Muxtar Respublikası ərazisin - də dayandırılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bağlı Naxçıvan Muxtar Respublikası parlamentinin ünvanına hədə-qorxu gəlmişdir. A. Mütəllibov demişdir ki, guya Naxçıvan Muxtar Respublikasında prezident seçkiləri qadağan edilmişdir və parlamentin ünvanına: "Biz elə edərik ki, onlar özlərinə gələrlər" ifadəsini işlətmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rə -

yasət Heyəti bu cür hərəkətləri demokratiya prinsiplərinin pozulması, təzyiq göstərilməsi və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin tutduğu diktatura yolunun davamı kimi qiymətləndirir.

Ali Məclisin Rəyasət Heyəti antidemokratik, diktatorluq təzahürlərinə, Ali Məclisin qəbul etdiyi qərarların qəsdən təhrif edilməsinə qəti etirazını bildirir və xatırladır ki, Naxçıvan Muxtar Respublikasının parlamenti öz konstitusiya hüquqlarını və qəbul etdiyi qərarları müdafiə etmək iqtidarındadır. Dövlət çevrilişi etmiş irtica qüvvələrinin dəf olunmasından sonra ölkədə genişlənən böyük demokratik dəyişikliklər şəraitində A. Mütəllibovun bu cür hərəkətləri xüsusilə yolverilməzdir.

Eyni zamanda qeyd etmək zəruridir ki, muxtar respublika parlamentinə bu cür təzyiq göstərilməsi, onun konstitusiya hüquqlarının tapdanması yeganə hal deyil. Son zamanlar Azərbaycanın kommunist rəhbərliyi tərəfindən Naxçıvan Muxtar Respublikasına qarşı informasiya blokadası təşkil olunmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 5 gün işini davam etdirən növbədənkənar sessiyası Azərbaycanın informasiya orqanları tərəfindən qətiyyən işıqlandırılmamışdır. Halbuki onlara sessiyanın işi və qəbul etdiyi qərarlar haqqında müntəzəm olaraq məlumat verilmişdir. Bunlar azmış kimi Azərbaycan televiziyası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının işi haqqında ağ yalan və böhtanlarla dolu veriliş təşkil etmişdir ki, bununla Azərbaycan ictimaiyyətinə yanlış məlumat verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Azərbaycanın kommunist rəhbərliyi tərəfindən təşkil olunmuş bu cür antidemokratik hərəkətlərə qarşı öz etirazını bildirir və onları Naxçıvan Muxtar Respublikasında gedən demokratik prosesləri boğmaq cəhdi kimi qiymətləndirir.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 10 sentyabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİNDƏ

1991-ci il sentyabrın 12-də, axşam saat 16.00-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin sədrliyi ilə Ali Məclisin Rəyasət Heyətinin iclası olmuşdur. İclasın gündəliyində aşağıdakı məsələlər dururdu:

1. Azərbaycan KP MK-nın Naxçıvan Vilayət Partiya Komitəsinə, şəhər və rayon partiya komitələrinə göndərilmiş məktublarına rəhbər vəzifədə çalışan kommunistlərin münasibəti.

2. Naxçıvan MR-də ictimai-siyasi vəziyyət və Azərbaycanın kommunist rəhbərliyinin muxtar respublikaya qarşı tutduğu qərəzli münasibət.

Birinci məsələnin müzakirəsindən aydın oldu ki, rəhbər vəzifələri tutmuş bəzi kommunistlər Naxçıvan MR Ali Məclisinin qərarları ilə hesablaşmaq istəmirlər. Onlar bütün gücləri ilə partiya komitələrini işə salmaq, ilk təşkilatları fəallaşdırmağa çalışırlar.

1991-ci il sentyabrın 9-10-da Azərbaycan KP MK-nın katibi F. Muradəliyevin imzası ilə muxtar respublikanın partiya komitələrinə gizli məktublar gəlmişdir. Məktublarda deyilir ki, sentyabrın 14-də keçirilməsi nəzərdə tutulmuş Azərbaycan KP-nin fövqəladə qurultayına nümayəndələr göndərmək üçün yerlərdə konfranslar və plenumlar keçirilsin.

Naxçıvan Vilayət Partiya Komitəsinin keçmiş katibi Ə. Hüseynov aparatın bəzi işçilərini bu məktublarda yazılanların reallaşdırılmasına səfərbər etməklə Ali Məclisin sessiyasının qəbul etdiyi qərarın əleyhinə getmişdir.

Bütün bunlar onu göstərir ki, Kommunist Partiyasının rəhbər və istiqamətverici rolu barədə müddəaların Azərbaycan Konstitusiyasından çıxarılmasına baxmayaraq, Azərbaycan KP MK Azərbaycan Respublikası Ali Sovetinin və Naxçıvan MR Ali Məclisinin qərarlarına zidd olaraq, hakimiyyəti nəyin bahasına olursa-olsun əldə saxlamaq istəyir.

İclasda çıxış edən deputatlar və keçmiş partiya işçiləri Azərbaycan KP MK-nın və Naxçıvandakı rəhbər partiya işçilərinin fəaliyyətini pis-

ləmişlər. Müzakirə olunan məsələ barədə qərar və bəyanat qəbul edilmişdir.

İkinci məsələnin müzakirəsi geniş diskussiyaya səbəb oldu. Deputatlar və kütləvi informasiya vasitələrinin nümayəndələri qeyd etdilər ki, Naxçıvan Ali Məclisinin demokratik yol tutması Azərbaycanın mühafizəkar kommunist rəhbərliyini bərk narahat edir. Onlar bütün gücləri ilə muxtar respublikadakı vəziyyəti təhrif etməyə çalışırlar. Bunun üçün kütləvi informasiya vasitələrindən, radio və televiziyadan geniş istifadə edirlər. Azərinform haradan, nə vaxt göndərildiyi məlum olmayan teleqramlara geniş yer ayırdığı halda, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərar və bəyanatları yaymaq istəmir. Yayanda da elə ixtisar və təhriflərə yol verir ki, oxucuya muxtar respublikada nələr baş verdiyi aydın olmur.

Azərbaycan televiziyası və radiosu muxtar respublika Ali Məclisinin sessiyasına ötəri maraq göstərmiş, onun gedişi haqqında məlumat verməmişdir.

Qeyd etmək lazımdır ki, "Xalq qəzeti", "Bakinski raboçi", "Vışka", eləcə də Azərbaycanda çıxan digər rəsmi və qeyri-rəsmi mətbuat orqanlarının rəhbərliyi sessiyanın gedişinə maraq göstərməmiş, onun işıqlandırılması barədə öz müxbirlərinə və fotomüxbirlərinə heç bir tapşırıq verməmişlər.

İclasda informasiyanın yayılma yolları geniş müzakirə edildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin iclasında müzakirə edilən ikinci məsələ ilə əlaqədar Azərbaycan Respublikası Ali Sovetinə, Azərbaycan xalqına bəyanat qəbul edilmişdir. Hər iki bəyanat kütləvi informasiya vasitələrinə göndərilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

## Azərbaycan Kommunist Partiyasının qurultayına nümayəndələr seçilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin məktubları barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, Ali Məclis 26 avqust və 4 sentyabr 1991-ci il tarixdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, şəhər, rayon partiya komitələrinin və Kommunist Partiyasının bütün strukturlarının fəaliyyətinin muxtar respublikanın ərazisində dayandırılması və onların əmlakının milliləşdirilməsi barədə qərarlar qəbul etmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qəbul olunmuş qərarların müddəalarına uyğun olaraq Azərbaycan Respublikasının Ali Sovetinə müraciət edərək Sov. İKP-nin tərkib hissəsi olan Azərbaycan Kommunist Partiyasını buraxmaq, onun Mərkəzi Komitəsinin fəaliyyətini dayandırmaq təklifini vermişdir.

Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə artıq məlum idi ki, 26 avqust 1991-ci il tarixdən muxtar respublika ərazisində Azərbaycan Kommunist Partiyasının bütün təşkilatlarının fəaliyyəti dayandırılmış və vilayət partiya təşkilatının bütün strukturları ləğv edilmişdir.

Lakin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların və müvafiq müraciətin əksinə olaraq, 9-10 sentyabr 1991-ci il tarixdə Azərbaycan KP Mərkəzi Komitəsinin katibi F. Muradəliyevin imzası ilə Azərbaycan KP MK-dan fəaliyyəti dayandırılmış və əmlakı milliləşdirilmiş Naxçıvan vilayət, şəhər və rayon partiya komitələrinə cari ilin sentyabr ayının 14-də keçirilməsi nəzərdə tutulan Azərbaycan Kommunist Partiyasının qurultayına nümayəndələrin seçilməsi üçün məxfi məktublar göndərilmişdir. Mərkəzi Komitənin həmin sərəncamına Azərbaycan Kommunist Partiyasının növbədənkənar qurultayına nümayəndələrin seçilməsi qaydası da əlavə edilmişdir.

Azərbaycan KP Mərkəzi Komitəsindən daxil olan məxfi məktubların təhlili bir daha sübut edir ki, Kommunist Partiyasının rəhbər və istiqamətverici rolu barədə müddəaların Azərbaycan Konstitusiyasının 6-cı maddəsindən çıxarılmasına baxmayaraq Azərbaycan KP Mərkəzi Komitəsi Azərbaycan Respublikası Ali Sovetinin müvafiq qərarının ziddinə olaraq və Azərbaycan Respublikasının Konstitusiyasını (Əsas Qanunu) pozaraq zorakılıqla hakimiyyətini saxlamaq niyyətindədir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan Kommunist Partiyasının qurultayına nümayəndələr seçilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin məktubları Azərbaycan Konstitusiyasına, həmçinin muxtar respublikanın Ali qanunvericilik orqanının qərarlarına zidd hərəkət kimi qəbul edilsin və qətiyyətlə pislənilsin.

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 avqust və 4 sentyabr 1991-ci il tarixli Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, şəhər, rayon partiya komitələrinin kommunist partiyasının bütün strukturlarının fəaliyyətlərinin Naxçıvan Muxtar Respublikasının ərazisində dayandırılması barədə qərarlarının ziddinə hərəkət edən ayrı-ayrı vəzifəli kommunistlərin fəaliyyəti demokratikləşdirmə prosesinə, muxtar respublikada vəziyyətin sabitləşməsinə qarşı yönəldilmiş cəhd kimi qiymətləndirilsin.

3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Konstitusiyaya zidd fəaliyyətinə özünün qəti etirazını bildirir və qeyd edir ki, muxtar respublika parlamenti tərəfindən qəbul edilmiş qərarlar, o cümlədən Azərbaycan Kommunist Partiyasının fəaliyyəti ilə bağlı olan qərarlar muxtar respublika ərazisində dəyişilməzdir.

4. Həmin qərar məlumat üçün Azərbaycan Respublikasının Ali Sovetinə göndərilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 12 sentyabr 1991-ci il*

## Azərbaycan Kommunist Partiyasının qurultayına nümayəndələr seçilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin məktubu ilə əlaqədar Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin bəyanatı barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
QƏRARI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

Azərbaycan KP-nin qurultayına nümayəndələr seçilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin məktubu ilə əlaqədar Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin bəyanatının mətni bəyənilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 12 sentyabr 1991-ci il*

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
BƏYANATI

Naxçıvan Muxtar Respublikası Ali Məclisi 26 avqust və 4 sentyabr 1991-ci il tarixdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, şəhər, rayon partiya komitələrinin, Kommunist Partiyasının bütün strukturlarının fəaliyyətinin Naxçıvan Muxtar Respublikası ərazisində dayandırılmasına və onların əmlakının milliləşdirilməsinə dair qərar qəbul etmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Ali Sovetinə müraciət edərək Sov. İKP-nin tərkib hissəsi olan Azərbaycan Kommunist Partiyasının buraxılması, onun Mərkəzi Komitəsinin fəaliyyətinin dayandırılması təklifini vermişdir. Ali Məclis tərəfindən qəbul edilmiş qərar dərhal Azərbaycan Ali Sovetinə, Azərbaycanın və ölkənin bütün kütləvi informasiya orqanlarına

göndərilmişdir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasındakı demokratik proseslərin və mövcud reallıqların Azərbaycan Ali Soveti və öz fəaliyyətini davam etdirən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən başa düşülməməsi hiddətə səbəb olur.

1991-ci ilin 9-10 sentyabrında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi F. Muradəliyevin imzası ilə Naxçıvan Vilayət Partiya Komitəsinə, Naxçıvan şəhər və rayon partiya komitələrinə məxfi məktublar göndərilmişdir. Bu məktublarda cari ilin sentyabr ayının 14-də keçirilməsi nəzərdə tutulmuş Azərbaycan Kommunist Partiyasının qurultayına nümayəndələrin seçilməsi üçün partiya konfranslarının keçirilməsi zərurəti göstərilmişdir. Mərkəzi Komitənin həmin sərəncamına Azərbaycan Kommunist Partiyasının növbədənkənar qurultayına nümayəndələrin seçilməsi qaydası da əlavə edilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə yaxşı məlumdur ki, 26 avqust 1991-ci il tarixdən muxtar respublika ərazisində Azərbaycan Kommunist Partiyasının bütün təşkilatlarının fəaliyyəti dayandırılmış və Vilayət Partiya Təşkilatının bütün strukturları ləğv edilmişdir.

Bunların hamısı belə bir nəticəyə gəlməyə əsas verir: Kommunist Partiyasının rəhbər və istiqamətverici rolu haqqındakı müddəaların Azərbaycan Konstitusiyasının 6-cı maddəsindən çıxarılmasına dair Azərbaycan Respublikası Ali Sovetinin qərarının ziddinə olaraq Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi özbaşınalıqla hakim vəziyyətini saxlayır və bununla da, Azərbaycan Respublikasının Konstitusiyasını kobudcasına pozur.

Azərbaycan Konstitusiyasına, həmçinin muxtar respublikanın Ali qanunverici orqanının qərarlarına zidd olan bu hərəkətləri pisləyərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin fəaliyyətinə özünün qəti etirazını bildirir və bəyan edir ki, muxtar respublika parlamenti tərəfindən qəbul edilmiş qərarlar, o cümlədən Azərbaycan Kommunist Partiyasının fəaliyyəti ilə bağlı olan qərar dəyişməzdir.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 12 sentyabr 1991- ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİNDƏ

Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin iclası olmuşdur.

İclasda muxtar respublika daxili işlər naziri M. Məmmədovun məlumatı dinlənilərək qeyd olunmuşdur ki, son iki gündə vəziyyət xeyli gərginləşmişdir. Ordubad rayonunun Ermənistanla sərhədində erməni quldurları odlu silahla hədə-qorxu gələrək 1250 baş heyvan aparmışlar. Çobanlardan Xəlil Xəlilov və Əşrəf Abbasovun taleləri haqqında heç bir məlumat yoxdur. Hadisə yerinə dərhal operativ milis qrupu göndərilmişdir. Ermənistan Daxili İşlər Nazirliyi ilə əlaqə saxlanılmış, 400 baş heyvanın Qafanda tapılması barədə məlumat alınmışdır.

Həmin gün Şahbuz rayonunun Şada kəndinə odlu silahlardan atəş açılmışdır. Muxtar Respublika Daxili İşlər Nazirliyi tərəfindən kəndə əlavə qüvvələr göndərilmişdir. Erməni quldurları rayonun Yuxarı Remeşin kəndinin ərazisindən də 250 başdan çox davar aparmışlar. Heyvanların qaytarılması üçün operativ tədbirlər görülür.

Rəyasət Heyətinin iclasında həmin məsələlər barədə təcili tədbirlər müəyyənləşdirilmişdir.

İclasa məlumat verilmişdir ki, Qaqra şəhərində səhvən Qaqra-Tbilisi qatarı əvəzinə Qaqra-Yerevan qatarına oturub Yerevan şəhərinə gəlmiş Şəki rayonundan olan sovet ordusunun əsgəri Vaqif Allahverdiyev barədə Muxtar Respublika Daxili İşlər Nazirliyi ilə Ermənistan Daxili İşlər Nazirliyi arasında aparılan danışıqlar nəticəsində V. Allahverdiyevin Naxçıvana gətirilməsinə nail olunmuşdur.

İclasda həmçinin muxtar respublika əhalisinin ərzaq məhsulları ilə təchiz edilməsi, xeyli vaxtdan bəri Naxçıvanda yanacaq çatışmazlığının aradan qaldırılması, iş vaxtından səmərəli istifadə edilməsi, əmək intizamının möhkəmləndirilməsi, Naxçıvan aeroportunun, Sədərək-Türkiyə yolunun tikintisinin vəziyyəti və digər məsələlər müzakirə edilmişdir.

Qeyd olunmuşdur ki, muxtar respublikanın ərazisindəki Araz dəryaçasında və digər sututarlarda külli miqdarda balıq ehtiyatı olduğu halda, onun tutulub əhaliyə satılması işi yarıtmaz vəziyyətdədir. Bir çox aidiyyəti təşkilatların bu məsələyə laqeyd münasibəti ucbatından balığın tutulması və satışı başlı-başına buraxılmışdır ki, bu da möhtəkirlərin əl-qol açmasına imkan vermişdir.

Ticarət təşkilatları ərzaq məhsullarının vaxtında alınıb əhaliyə satılması işində məsuliyyətsizliyə yol verir. Bu da əhalinin haqlı narazılığına səbəb olur.

Son günlər yanacaq ehtiyatının azalması da təşviş doğurur. Muxtar respublikada məhsul yığımının qızğın çağında bir çox təsərrüfat və təşkilatlarda işin ahəngi pozulmuşdur.

Bütün bu məsələlər barədə, habelə Naxçıvan aeroportunun və Sədərək-Türkiyə yolunun tikintisinin sürətləndirilməsi üçün konkret tədbirlər müəyyən edilmişdir.

Rəyasət Heyətinin iclasında Naxçıvan Vilayət Partiya Komitəsinə məxsus əmlak və avadanlığın milliləşdirilməsi məsələsinə baxılmış və qərar qəbul edilmişdir.

*"Şərq qapısı" qəzeti, 12 sentyabr 1991-ci il*

## ON İKİNCİ ÇAĞIRIŞ NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN NÖVBƏTİ İCLASI

Oktyabrın 2-də on ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti sessiyası öz işini davam etdirmişdir.

İclasın əvvəlində Ali Məclisin Sədri dedi ki, deputatlardan bir qrupu müdafiə məsələlərinin müzakirəsinin sessiyanın gündəliyinə daxil edilməsini təklif etmişlər. Bu məsələ Muxtar Respublikanın Nazirlər Kabinetində də müzakirə olunmuşdur. Ona görə də təklif var ki, həmin məsələ gündəliyə daxil edilsin və qapalı iclasda müzakirə olunsun. Həmin təklif yekdilliklə qəbul olundu.

Sonra sədrlik edən bildirdi ki, sentyabrın 7-də Ali Məclisin qəbul etdiyi qərarda "Aktual ekran" verilişində çıxış edənlər barədə təhqiqat aparılması respublikanın Baş prokurorundan xahiş edilmişdir. Həmin qərarın 4-cü bəndində isə muxtar respublika prokuroruna tapşırılmışdır ki, bu işdə respublika prokurorluğuna kömək edib, həmin məsələni sürətləndirsin. Lakin indiyədək nə respublika prokurorluğundan, nə də ki muxtar respublika prokuroru H. Hüseynovdan bu barədə heç bir məlumat alınmamışdır. Ona görə də təklif var ki, həmin məsələ də gündəliyə daxil edilsin və bununla əlaqədar muxtar respublika prokuroru H. Hüseynovun məlumatı dinlənilsin. Həmin məsələ də gündəliyə daxil edildi. Heydər Əliyev yoldaş bildirdi ki, Dağlıq Qarabağın Xocalı şəhər sovetinin sədri Elman Məmmədov sessiyada iştirak edir. Onun məlumatını dinləyək və sonra müzakirələri davam etdirək.

E. Məmmədov deputatlar qarşısında çıxış edərək, Xocalıda yaranmış vəziyyət barədə məlumat verdi. O dedi ki, RSFSR və Qazaxıstan rəhbərləri Dağlıq Qarabağa gələndən sonra orada vəziyyət daha da pisləşib. Hərbçilər ancaq erməniləri müdafiə edirlər. Azərbaycanın xüsusi təyinatlı milis dəstəsi oradan çıxarılıb, əliyalın qalmışıq. Ermənilər hər gün bizə həmlə edirlər. Ona görə də yaranmış vəziyyəti muxtar respublikanın Ali Məclisinə çatdırmağı qərara aldıq. Sizin də vəziyyətinizin ağır olduğunu bilirik, lakin bununla belə bizə kömək etməyinizi xahiş edirik.

Bununla əlaqədar olaraq, deputatlar çıxış yolunu ancaq Milli Ordu yaradılmasında gördülər.

Deputatlar ikinci məsələnin - keçid dövründə SSR İttifaqının dövlət hakimiyyət və idarəetmə orqanları haqqında SSRİ Qanununun müzakirəsinə başladılar.

Həmin məsələ ilə əlaqədar olaraq Ali Məclis Sədrinin birinci müavini R. Həsənov məruzə etdi. Məruzəçi deputatların suallarına cavab verdi.

Məsələnin müzakirəsində deputatlardan V. Mustafayev, Ə. Talıbov çıxış etdilər.

Ali Məclisin Sədri bildirdi ki, Goranboy rayonundan da 2 nəfər nümayəndə gəlib. Goranboydan gəlmiş Şəmsəddin Əliyev rayonda yaranmış vəziyyət haqqında Ali Məclisə məlumat verdi.

Qərara alındı ki, vəziyyəti öyrənmək üçün Ali Məclisin bir qrup deputatı Goranboya göndərilsin.

Sonra məsələnin müzakirəsi davam etdirildi. Müzakirə edilən məsələ ilə əlaqədar qərar qəbul edildi.

Millət vəkilləri Rusiya Federasiyasının prezidenti B. N. Yeltsinin və Qazaxıstan prezidenti N.A. Nazarbayevin vasitəçi nümayəndəliyinin səfərinin yekunları haqqında 23 sentyabr 1991-ci il tarixdə Jeleznovodsk şəhərində imzalanan birgə rəsmi məlumat barəsində məsələnin müzakirəsinə başladılar. Həmin məsələ ilə əlaqədar Ali Məclis Sədrinin müavini A. Kələntərli məruzə etdi. Məsələnin müzakirəsində iştirak edən deputatlar F. Şirzadov, S. Hüseynov, Ə. Cəfərov, H. Xəlilov, Ə. Həsənov, T. Quliyev, H. Ələkbərov, Ə. Talıbov, Azərbaycanın xalq deputatı O. Məmmədov imzalanmış birgə rəsmi məlumata öz münasibətlərini bildirdilər və konkret təkliflər irəli sürdülər.

Sessiya müzakirə olunan məsələyə dair bəyanat qəbul etdi.

* * *

Oktyabrın 2-də on ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının növbəti iclası öz işini davam etdirmişdir.

Müxtəlif təşkilatlara dəfələrlə müraciət etmiş şikayətçilər Naxçıvan MR Ali Məclisinin sessiyası keçirilən binanın qarşısına gəlmişdilər. Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin təklifi ilə şikayətçilərin qadın olduqları, uzun müddət süründürməçiliyə məruz qalmaları nəzərə alınıb, sessiyada onların şikayəti dinlənildi. Elə buradaca xalq deputatları H. Hüseynova və T. Sadiqova şikayətlərin baxılması və lazımi tədbir görülməsi tapşırıldı.

Sonra deputatlar muxtar respublika xalq deputatlarının Konstitusiya hüquqlarının pozulması haqqında məsələnin müzakirəsinə başladılar. Həmin məsələ ilə əlaqədar Ali Məclis Sədrinin birinci müavini R. Həsənovun məruzəsi dinlənildi. Məruzəçi deputatların suallarına cavab verdi.

Millət vəkillərindən Ə. Həsənov, H. Hüseynov, Q. Məmmədov, F. Şirzadov, İ. Qədimov və b. çıxış edərək deputatların Konstitusiya hüquqlarının pozulmasına dair əlavə faktlar gətirdilər və bu kimi halların yolve-

rilməz olduğunu qeyd etdilər. Sessiya həmin məsələyə dair qərar qəbul etdi.

Azərbaycan televiziyasının 6 sentyabrda efirə buraxdığı "Aktual ekran" verilişi ilə əlaqədar Ali Məclisin fövqəladə sessiyasının qəbul etdiyi 7 sentyabr 1991-ci il tarixli qərarının yerinə yetirilməsi barədə məsələnin müzakirəsində respublika prokuroru H. Hüseynovun məlumatı dinlənildi. Lakin muxtar respublika prokurorunun məlumatı və suallara verdiyi cavablar millət vəkillərini qane etmədi.

Çıxış edən xalq deputatları E. Cəlilov, Ə. Həsənov, A. Kələntərli, R. Həsənov muxtar respublika prokuroru, xalq deputatı H. Hüseynovun Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarın icrasında laqeydlik göstərdiyini bildirdilər və təklif etdilər ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 7-ci maddəsinə (Şərəf və ləyaqətin müdafiəsi), mətbuat haqqında qanuna əsasən Azərbaycan Ali Məhkəməsi qarşısında iddia qaldırılsın. Cavabdeh qismində Azərbaycan Teleradio Şirkəti cəlb edilməlidir.

Sessiya müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul etdi.

Sessiyada Azərbaycan Prezidenti A. Mütəllibovun yanında 3 sentyabr 1991-ci il tarixdə keçirilmiş müşavirənin protokolu, "Respublikada siyasi vəziyyət haqqında" qəbul olunmuş qərara münasibət məsələsi geniş müzakirə olundu. Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev həmin protokolla deputatları tanış etdi.

Deputatlardan Ə. Cəfərov, Ə. Talıbov, T. Əliyev, T. Sadiqov, A. Kələntərli, N. Həsənov, Ə. Həsənov, E. Mədətov, T. Quliyev və b. müzakirədə çıxış etdilər.

Həmin protokolda Naxçıvan Muxtar Respublikasında son vaxtlarda gedən demokratik proseslərin, 26 avqust 1991-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların təhrif olunması, bütün bu məsələlərin əsassız, tam böhtan xarakteri daşıyan müddəalarda öz əksini tapması, ümumiyyətlə, demokratik proseslərə zidd, təhqiramiz münasibətlərin bildirilməsi qəti pislənildi.

A. Mütəllibovun yanında keçirilmiş müşavirənin protokolunda muxtar respublikanın bugünkü real həyatı haqqında yazılan böhtanlar və təhqiredici ifadələr xalq deputatlarını hədsiz hiddətləndirdi.

Sessiyada həmin məsələyə dair qərar qəbul olundu.

Sessiyanın qapalı keçən iclasında isə muxtar respublikanın müdafiə məsələsi müzakirə edildi.

Bununla da on ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının işi başa çatdı.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

## Keçid dövründə SSR İttifaqının dövlət hakimiyyət və idarəetmə orqanları haqqında SSRİ Qanunu barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Keçid dövründə SSR İttifaqının dövlət hakimiyyət və idarəetmə orqanları haqqında" 5 sentyabr 1991-ci il tarixli SSRİ Qanununu müzakirə edərək qeyd edir ki, bu qanun dövlət hüququ və siyasi nöqteyi-nəzərdən ölkədə yaranmış şəraitə uyğun gəlmir. İndiki real vəziyyət belədir: Sovet İttifaqı dağılır, bütün müttəfiq respublikalar öz müstəqilliklərini elan etmiş, Suveren Dövlətlər İttifaqı yaradılmasına dair danışıqlar aparılır. Belə bir şəraitdə göstərilən qanunda nəzərdə tutulmuş yeni dövlət hakimiyyəti və idarəetmə orqanlarının yaradılması faktiki olaraq SSRİ-nin bundan sonra da saxlanmasını təmin edir, bu isə müttəfiq respublikaların müstəqillik və istiqlaliyyəti haqqında qəbul etdikləri bəyannamələrə ziddir. Qanunun bütün müddəaları müttəfiq respublikaların dövlət suverenliyini tapdalamaqla, unitar ittifaq dövlətinin möhkəmləndirilməsinə və onun fəaliyyət göstərməsinin təmin edilməsinə yönəldilmişdir.

Bu qanunda SSRİ Xalq deputatları qurultayında SSRİ Prezidenti və müttəfiq respublikaların rəhbərləri tərəfindən qəbul edilmiş bəyanatda nəzərdə tutulmayan müddəalar vardır. SSRİ Prezidentinin keçmiş Ali Soveti yenidən bərpa etmək cəhdi göz qabağındadır.

Məlumdur ki, SSR İttifaqının saxlanmasına dair ümumittifaq referendumuna çıxarılmış təklifi Naxçıvan Muxtar Respublikasının əhalisi müdafiə etməmişdir. 17 mart 1991-ci il tarixli referendumdakı səsvermədə muxtar respublika seçicilərinin yalnız 20 faizi iştirak etmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi muxtar respublika əhalisinin 17 mart 1991-ci il ümumittifaq referendumu zamanı öz ifadəsini tapmış iradəsini bir daha təsdiq edir.

Azərbaycan Respublikasının Ali Soveti 30 avqust 1991-ci il tarixdə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında bəyanat qəbul etmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

bu bəyanata əsaslanaraq belə hesab edir ki, Azərbaycan Respublikası özünün tam milli, dövlət müstəqilliyinə nail olmalı və mövcud SSR İttifaqı əsasında hər hansı bir formada yaradılacaq yeni dövlət ittifaqına daxil olmamalıdır.

1989-cu ilin mart ayında Azərbaycan KP MK, Naxçıvan Vilayət Partiya Komitəsinin rəhbərliyi və fəal iştirakı ilə Bakı şəhərində yaşayan yazıçılar M. İbrahimov, R. İbrahimbəyov, alim T. İsmayılov, general N. Popov, Vilayət Partiya Komitəsinin birinci katibi H. İsayev, "Xəzərneftqaz" İstehsalat Birliyinin baş direktoru Q. Abbasov, Şeyxülislam Allahşükür Paşazadə, Moskvada yaşayan professor Ç. Kərimov, Naxçıvanda yaşayan fəhlələr R. Məmmədov, R. Nağıyev, Z. Kazımova, kolxozçular İ. Abdullayev, S. Bağırova Naxçıvan Muxtar Respublikasından SSRİ xalq deputatları seçilmişlər.

İki ildən artıq vaxt keçməsinə baxmayaraq onların əksəriyyəti öz seçiciləri ilə görüşməmiş, muxtar respublikanın həyatında, burada gedən mürəkkəb ictimai-siyasi proseslərdə iştirak etməmiş və Naxçıvan Muxtar Respublikasının mənafeyi naminə SSRİ Ali qanunvericilik orqanında heç bir əməli fəaliyyət göstərməmişlər.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçicilərdən həmin SSRİ xalq deputatlarının göstərilən etimadı doğrultmadığına görə geri çağırılmalarına dair məktublar daxil olur.

Yuxarıda qeyd olunanları əsas tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Keçid dövründə yaradılan SSR İttifaqının dövlət hakimiyyəti orqanlarında Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası nümayəndələrinin iştirakı qeyri-mümkün hesab edilsin.

Bu məsələnin Azərbaycan Ali Sovetinin sessiyasında müzakirə edilməsi Azərbaycan Ali Sovetindən xahiş edilsin.

2. Azərbaycan Ali Sovetinə və SSRİ Ali Sovetinə bildirilsin ki, Naxçıvan Muxtar Respublikasından olan SSRİ xalq deputatları keçid dövründə yaradılan SSR İttifaqının hakimiyyət orqanlarında iştirak edə bilməzlər.

Seçicilər tərəfindən daxil olan çoxsaylı müraciətləri nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasından olan SSRİ xalq deputatlarından xa-

hiş edilsin ki, bir ay müddətinə öz seçki dairələrinə gəlib, seçiciləri qarşısında deputatlıq fəaliyyəti haqqında hesabat versinlər və bu barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə yazılı məlumat təqdim etsinlər.

3. Muxtar respublikanın mövqeyini bildirmək üçün, yeni tərkibli SSRİ Ali Soveti sessiyasının iclasına Naxçıvan Muxtar Respublikası Ali Məclisinin nümayəndəsinin göndərilməsi mümkün hesab edilsin.

4. Həmin qərar Azərbaycan Respublikasının Ali Sovetinə, SSRİ Ali Sovetinə, Naxçıvan Muxtar Respublikasından olan SSRİ xalq deputatlarına göndərilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 1 oktyabr 1991-ci il*

## Azərbaycan Respublikası Prezidenti A. N. Mütəllibovun yanında 3 sentyabr 1991-ci il tarixdə keçirilən müşavirənin protokoluna münasibət barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

3 sentyabr 1991-ci il tarixdə Bakı şəhərində Azərbaycan Prezidenti A. N. Mütəllibovun yanında böyük müşavirə keçirilmişdir. Bu müşavirənin protokolundan çıxarış rəsmi qaydada sentyabr ayının 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinə daxil olmuşdur. Bu çıxarışda protokolun ancaq 5-ci və 7-ci maddələri var. Müşavirədə respublikada siyasi vəziyyət haqqında məsələ müzakirə olunduğuna görə protokolun bütöv mətni ilə tanış olmaq ehtiyacı duyulub. Həmin protokolun bütöv mətni Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən əldə olunmuş və bu protokol çox ciddi xarakter daşıdığına görə ona münasibət Ali Məclisin sessiyasında müzakirə olunmuşdur.

Protokoldan görünür ki, müşavirədə Azərbaycan Respublikasının Baş naziri H.Ə. Həsənov, respublika Ali Soveti Sədrinin müavini T.X. Orucov, Prezident Aparatının rəhbəri M.Ə. Nəzərov, Azərbaycan Respublikası yanında Ali Nəzarət İnspeksiyasının sədri M.A. Allahverdiyev, Prezidentin müşavirləri F.F. Qasımzadə, V.M. Quluzadə, Ə.D. Cahangirov, Prezident Aparatının şöbə müdirləri S.K. Hacıyev, O.A. Bağırlı, T.A. Aslanov, Naxçıvan Muxtar Respublikasının Baş naziri M.M. Əliyev, respublika nazirlikləri, komitələri və baş idarələrinin rəhbərləri, rayon (şəhər) xalq deputatları sovetlərinin və icraiyyə komitələrinin sədrləri iştirak etmişlər.

Müşavirədə "Respublikada siyasi vəziyyət haqqında" məsələ müzakirə edilmiş və məsələnin müzakirəsində Əliyev, Qəniyev, Əzizov, Cahangirov, Verdiyev, İsgəndərov, Aşurov, Musayev, Rəfiyev, Şərifov, Əsədov, Mütəllibov çıxış etmişlər.

Müşavirə protokolunun əksər hissəsi Naxçıvan Muxtar Respublikasında gedən ictimai-siyasi proseslərə həsr olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxış edən deputat Tahir Əliyev qeyd etdi ki, Naxçıvan Muxtar Respublikasının Baş naziri Mirismayıl Əliyev müşavirədə bu məsələ ilə bağlı geniş nitq söyləmişdir.

Müşavirənin protokolunda göstərilir: "Respublikanın bəzi regionlarında, xüsusilə Naxçıvan Muxtar Respublikasında qanunazidd hərəkətlər daha təhlükəli xarakter almışdır. Muxtar respublika Ali Məclisinin bu günlərdə ən adi hüquq qaydalarına riayət edilmədən keçirilən sessiyasında, demək olar ki, dövlət çevrilişi edilmiş, hətta muxtar respublikanın Azərbaycanın tərkibindən çıxması barədə qərar qəbul etməklə hədələmişlər. İş o yerə gəlib çatmışdır ki, burada ayrı-ayrı silahlı quldur dəstələri dinc əhalini terror edir, xalq deputatlarını zor gücünə, hədə-qorxu yolu ilə sessiyaya gəlməyə, qeyri-qanuni qərar çıxarmağa məcbur edir, hətta ordunu da xalqa qarşı qaldırmağa cəhd göstərirlər."

Naxçıvan Muxtar Respublikası Ali Məclisi qeyd edir ki, Naxçıvandakı ictimai-siyasi vəziyyətə bu cür böhtanlı, qərəzli ifadələrlə qiymət verməyə heç bir əsas yoxdur.

Əsl həqiqətdə isə dövlət çevrilişi Azərbaycan KP MK-nın tapşırığı ilə Naxçıvana gəlmiş Azərbaycan KP Mərkəzi Komitəsinin katibi Z. Abdullayevin, Mərkəzi Komitənin şöbə müdiri F. Yaqubovun, Azərbaycanın yerli sənaye naziri A. Abdullayevin rəhbərliyi ilə Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən həyata keçirilən tədbirlər nəticəsində 5 aprel 1991-ci ildə baş vermişdir.

Qanuni şəkildə 1990-cı il 17 noyabrda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilmiş Afiyəddin Cəlilov məlum olmayan səbəblərə görə 1991-ci ilin mart ayının sonunda həmin vəzifədən və Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsindən kənar edilmişdir. 1991-ci il aprelin 3-də Azərbaycan KP MK-nın yuxarıda göstərilən nümayəndələrinin təklifi əsasında Əkbər Əliyev Vilayət Partiya Komitəsinin birinci katibi seçilmiş və ondan iki gün sonra - 1991-ci il aprel ayının 5-də yetərsay olmadan Ali Məclisin sessiyası keçirilmiş və həmin şəxs Ali Məclisin Sədri elan edilmişdir.

Qeyri-qanuni yol ilə Ali Məclisin Sədri vəzifəsini tutmuş Əkbər Əliyev beş aya yaxın bir müddətdə faktiki olaraq Ali Məclisin fəaliyyətini dayandırmış, Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsindən sui-istifadə edərək konstitusiya pozuntularına yol vermişdir.

Bu müddətdə demokratik blokdan olan deputatların Ali Məclis Sədrinin qeyri-qanuni fəaliyyət göstərməsi barədə çıxış və bəyanatlarına əhəmiyyət verilməmişdir. Demokratik blokdan olan deputatların mübarizəsi nəticəsində 26 avqust 1991-ci ildə keçirilən sessiyada bu qanunsuzluğa son qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikasının həyatında real vəziyyət belədir. Respublika Prezidentinin isə partokratiya tərəfindən 5 aprel 1991-ci ildə Ali Məclisdə zorakılıqla həyata keçirilmiş tədbiri qanuni hesab etməsi, 19-21 avqust 1991-ci ildə baş vermiş dövlət çevrilişi məğlubiyyətə uğrayıb, demokratik qüvvələrin qalib gəldiyi bir vaxtda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 avqust qərarını dövlət çevrilişi adlandırması həqiqəti qəsdən təhrif etmək deməkdir.

Müşavirənin protokolunda Dağlıq Qarabağda və keçmiş Şaumyan (kənd) rayonunda olan vəziyyətə də qiymət verilmişdir. Prezidentin ya-

nında keçirilən müşavirənin protokolunda respublikada vəziyyəti gərginləşdirən üç faktor göstərilir:

a) Azərbaycan Xalq Cəbhəsi və onun ətrafında toplaşmış bəzi partiyaların konstitusiyaya zidd hərəkətlərinin güclənməsi;

b) Naxçıvan Muxtar Respublikasında qanunazidd hərəkətlərin daha təhlükəli xarakter alması;

c) Dağlıq Qarabağda vəziyyət.

Qeyd olunan müddəalar əsasında protokolda yazılmışdır: "Yaranmış siyasi şərait ən qəti tədbirlər görülməsini, respublikanı düşdüyü böhran vəziyyətindən çıxarmaq, yaranmış vəziyyətdə operativ qərarlar qəbul etmək üçün respublika Prezidentinə əlavə səlahiyyətlər verilməsini tələb edir."

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, bu cür əsassız müddəalar Azərbaycan Respublikası rəhbərliyinin ölkədə və dünyada gedən demokratik proseslərlə razılaşmaq istəmədiyini, repressiya metodlarından istifadə etmək niyyətində olduğunu bir daha sübut edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi belə hesab edir ki, Azərbaycandakı demokratik qüvvələrin fəaliyyətinə, Naxçıvan Muxtar Respublikasındakı mövcud ictimai-siyasi vəziyyətə bu cür birtərəfli, qərəzli qiymət verilməsi antidemokratik, repressiv və qeyri-hüquqi xarakterli tədbirlərlə möhkəmləndirilmişdir. Belə ki, Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini T.X. Orucova tapşırılmışdır ki, yaranmış siyasi vəziyyətlə əlaqədar təcili surətdə deputat qrupu yaradıb, tədbir görmək üçün Naxçıvan Muxtar Respublikasına göndərsin. Respublika hüquq mühafizə orqanlarının rəhbərləri M.N. Əsədova, İ.İ. Qayıbova, Ə.S. Orucova tapşırılmışdır ki, Naxçıvan Muxtar Respublikasında terror və quldurluqla məşğul olan qüvvələri məsuliyyətə cəlb etmək, qanunsuz saxlanan silahları müsadirə etmək üçün qəti tədbirlər görsünlər.

Məlumdur ki, Azərbaycan Prezidentinin tapşırıqlarının yerinə yetirilməsi üçün sentyabrın 3-də başda generallar Nəsirov, İsrafilov, Azərbaycan Respublikası prokurorunun müavini Cəfərquliyev olmaqla doqquz xalq deputatı, Azərbaycan daxili işlər nazirinin müavini Tofiq Kə-

rimovun rəhbərliyi ilə Daxili İşlər Nazirliyinin bir qrup zabitləri Naxçıvan şəhərinə gəlmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi qətiyyətlə qeyd edir ki, muxtar respublikada terror və quldurluqla məşğul olan qüvvələr olmadığı halda, Prezidentin belə qüvvələri məsuliyyətə cəlb etmək haqqında göstəriş verməsi dövlət qanunçuluğuna tam ziddir və totalitar üsuli-idarənin təzahürüdür.

Müşavirənin protokolunda yazılıb: "Azərbaycan Respublikasının Ali Sovetinə (T.X. Orucov yoldaşa) tapşırılsın ki, respublikanın keçmiş rəhbəri Heydər Əliyevin fəaliyyətini təhqiq edən komissiyanın işini sürətləndirsin, məsələni hərtərəfli və dolğun öyrənmək üçün komissiyaya hər cür şərait yaradılsın, AKP-nin daimi və cari arxivlərində və başqa arxivlərdə saxlanan bütün lazımi sənədlər onun ixtiyarına verilsin."

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, Azərbaycanda mövcud siyasi vəziyyət müzakirə olunarkən respublikanın keçmiş rəhbəri Heydər Əliyevin fəaliyyətini təhqiq edən komissiyanın işinin sürətləndirilməsi haqqında Prezident tərəfindən verilən tapşırığın bugünkü siyasi vəziyyətə nə dərəcədə dəxli olduğunu anlamaq mümkün deyil. Heydər Əliyev hazırda Naxçıvan MR Ali Məclisi Sədri vəzifəsində işlədiyi, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının xalq deputatı olduğu halda onun keçmiş fəaliyyətinin yoxlanması təəccüb doğurur və təhqiqat komissiyasının kim tərəfindən, nə vaxt yaradıldığı məlum deyil. Bütün bunları nəzərə alaraq, Naxçıvan MR Ali Məclisi Azərbaycan Prezidentinin qeyri-qanuni tapşırığına etirazını bildirir.

Protokoldan görünür ki, respublikaya pənah gətirmiş qaçqınlara maksimum qayğı göstərmək tapşırığının verilməsi əsl həqiqətdə onlara qayğı göstərmək yox, bu yolla qaçqınlardan öz istədikləri kimi istifadə etmək, onların müxalifət tərəfinə keçməsinin qarşısını almaq məqsədini daşıyır.

Azərbaycan Dövlət Teleradio Şirkətinin sədri Q.V. Xəlilova, Prezident müşaviri F.F. Qasımzadəyə göstəriş verilir ki, Naxçıvanda vəziyyəti xalqa çatdırmaq üçün nazirliklərin, baş idarə rəhbərlərinin televiziya ilə birbaşa çıxışlarını, müsahibələrini təşkil etsin.

Dörd naxçıvanlı hüquqşünas - Ə. Ələkbərov, M. Həsənov, H. Əsədov, Y. Vəliyev 6 sentyabr 1991-ci il tarixdə Azərbaycan televiziyasının "Aktual ekran" verilişində çıxış edərək Naxçıvanın Azərbaycan Respublikasının tərkibindən çıxması haqqında yalan məlumat yaymaları, prezident seçkiləri ərəfəsində yol verilən saxtakarlıqların rəsmi mətbuatda yerlibazlıq kimi qiymətləndirilməsi də Prezidentin müşavirəsində qarşıya qoyulmuş vəzifənin həyata keçirilməsi ilə bağlı imiş.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, Naxçıvanda mövcud ictimai-siyasi vəziyyət haqqında Prezident yanında keçirilən müşavirənin protokolunda əksini tapmış böhtançı ifadələrin yaranmasında Naxçıvan Muxtar Respublikasının keçmiş Baş naziri Mirismayıl Əliyev xüsusi rol oynamışdır. İndi artıq tam aydındır ki, M. Əliyevin 2 sentyabr 1991-ci ildə təcili Bakıya getməsi Naxçıvanın xalq deputatlarının böyük bir qrupunun əsassız olaraq oraya getməsini təşkil etməsi, muxtar respublikada vəziyyəti gərginləşdirmək və belə bir böhtançı sənədin yaradılmasına zəmin yaratmaq məqsədi daşıyırmış.

Bütün bunları nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının Prezidenti A.N. Mütəllibovun yanında keçirilən müşavirənin protokolu bir daha göstərir ki, sözdə milli birlikdən, konsensusdan dəm vuran rəhbərlik əməli fəaliyyətdə antikonstitusion tədbirlər hazırlayıb demokratik qüvvələri boğmağa, milli azadlıq hərəkatının qarşısını almağa cəhd göstərir. Bütün bunlar Azərbaycanda inzibati amirlik iş üslubunun hələ də mövcud olduğunu, kommunist-totalitar rejiminin yaşadığını, repressiya illərinə qayıtmağa güclü meyil göstərildiyini bildirir. Azərbaycan Prezidentinin bu cür antidemokratik, antihumanist tədbirləri qətiyyətlə pislənilsin.

2. Prezident yanında müşavirədə heç bir sənədə, dəqiq yoxlanmış mənbəyə əsaslanmadan hökmlər verilməsini Naxçıvan MR Ali Məclisi Naxçıvanda gedən demokratik proseslərə təzyiq kimi qiymətləndirir, buna öz etirazını bildirir və qeyd edir ki, bu, haqlı narazılıq yaratmaqla bərabər, demokratik qüvvələrlə hakimiyyət dairələri arasında uçurumu dərinləşdirir. Azərbaycan Prezidenti A.N. Mütəllibovdan tələb edilsin ki, muxtar respublika haqqında böhtançı, təhqiramiz müddəalar irə-

li sürüldüyünə görə və Naxçıvan Muxtar Respublikasında gedən demokratik prosesləri pozmağa yönəldilən tədbirlər həyata keçirdiyi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinə izahat versin.

3. Prezident müşavirəsində H. Ə. Əliyevin fəaliyyətini təhqiq edən komissiyanın işinin sürətləndirilməsi haqqında tapşırıq verilməsi ilə əlaqədar olaraq, H. Ə. Əliyevin hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olması nəzərə alınaraq, Azərbaycan Respublikası Ali Sovetindən belə bir komissiyanın nə vaxt, nə əsasla, hansı qərarla təşkil olunması haqqında və onun tərkibi haqqında dərhal məlumat verilməsi tələb olunsun. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev haqqında belə bir tədbir qeyri-qanuni hesab edilsin və bu kimi hallara son qoyulması tələb edilsin.

4. Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının xalq deputatı Mirismayıl Əliyevdən Azərbaycan Respublikası Prezidenti A. Mütəllibovun yanında keçirilən 3 sentyabr 1991-ci il tarixli müşavirədəki Naxçıvan Muxtar Respublikasında olan vəziyyət haqqında böhtançı və təhrif xarakteri daşıyan çıxışına görə Ali Məclisə izahat verməsi tələb olunsun və muxtar respublikanın Ali Məclisində onun izahatı dinlənilsin.

5. Azərbaycan Respublikasının mühafizəkar rəhbərliyinin xalq hərəkatına, Naxçıvanda gedən demokratik dəyişikliklərə qeyri-obyektiv münasibəti bir daha sübut edir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 avqust 1991-ci ildə, 3-7 sentyabr 1991-ci ildə və sonra qəbul etdiyi qərarlar ölkədə baş verən demokratik proseslə üzvi surətdə bağlıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası 26 avqust 1991-ci ildən sonra özünün tutduğu mövqeyi və qəbul etdiyi qərarları bir daha müdafiə edir, bu istiqamətdə gələcəkdə də fəaliyyət göstərməsini zəruri sayır.

**R. HƏSƏNOV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi Sədrinin birinci müavini**

*Naxçıvan şəhəri, 3 oktyabr 1991-ci il*

## ALİ MƏCLİSDƏ QƏBUL

Oktyabrın 4-də Azərbaycanın xalq deputatı Etibar Məmmədov, “Ulduz” jurnalının baş redaktoru Abbas Abdulla, BDU-nun professorları Xalid Əlimirzəyev, Əhməd Abdinov, Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunun direktoru Ramiz Rizayev, Azərbaycan Dövlət İqtisad İnstitutunun dosenti İsa Məmmədov Naxçıvan Muxtar Respublikasına gəlmişlər. Elə həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev onları qəbul etmişdir. Söhbət zamanı Heydər Əliyev Naxçıvanda gedən demokratik proseslərdən, Ali Məclisin son bir ayda qəbul etdiyi qərarlardan danışmış, muxtar respublikanın düşdüyü iqtisadi və informasiya blokadasından söhbət açmışdır.

Görüşdə iştirak edənlər bildirmişlər ki, Naxçıvana gələnədək burada gedən ictimai-siyasi proseslərdən xəbərsiz idilər. Azərbaycan kütləvi informasiya vasitələri Naxçıvan haqqında çox səthi və təhrif edilmiş məlumatlar verir. Elə buna görə də Azərbaycan Respublikasının hər yerində Naxçıvan haqqında əsası olmayan müxtəlif şayiələr yayılır, burada gedən demokratik proseslərə qeyri-obyektiv qiymət verilir.

Qonaqlar Naxçıvan Muxtar Respublikasında gedən demokratik proseslərdən razı qaldıqlarını bildirmiş, Ali Məclisin qəbul etdiyi qərarlar haqqında məlumat çatdırmaq üçün tövsiyələr etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*Naxçıvan şəhəri, 4 oktyabr 1991-ci il*

*BAKI, AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SESSİYASINA*

Naxçıvan Muxtar Respublikasının əhalisi Azərbaycan Respublikasının 18 oktyabr 1991-ci il tarixli sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı münasibətilə bütün Azərbaycan xalqını təbrik edir və bunu böyük tarixi hadisə kimi qəbul edir.

Naxçıvan Muxtar Respublikasının demokratik qüvvələri son üç ildə Azərbaycan Respublikasının milli azadlığı, müstəqilliyi uğrunda fəal mübarizə aparıb, bu yolda qurbanlar verib və 18 oktyabr 1991-ci il tarixdə qəbul olunmuş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktını bütün Azərbaycan demokratik qüvvələrinin böyük qələbəsi kimi qiymətləndirir. 17 mart 1991-ci il tarixdə Sovet Sosialist Respublikaları İttifaqının saxlanması haqqında keçirilmiş referendumda Naxçıvan Muxtar Respublikası əhalisinin iştirak etməməsi məhz muxtar respublikanın demokratik qüvvələrinin Azərbaycanın milli azadlıq, istiqlaliyyət uğrunda apardığı mübarizə ilə əlaqədardır.

Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikası Ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 19 oktyabr 1991-ci il*

## "EY-Bİ-Sİ NYUS"un SİFARİŞİ İLƏ

Naxçıvanda gedən demokratik dəyişikliklərin sorağı Azərbaycandan uzaqlarda yayılmaqdadır. İstər Avropa ölkələrinin, istərsə də Amerikanın qəzet və jurnallarında, televiziya və radiosunda Naxçıvanın adı tez-tez səslənir. Lakin haqqımızda yazılan məqalələrin, təşkil edilən verilişlərin hamısı hadisələri birmənalı, obyektiv izah etmir. Naxçıvanda gedən dəyişikliklərə jurnalistlər öz dünyagörüşlərinə, xidmət etdikləri qurumların mənafeyinə uyğun şərhlər verirlər. Amerikanın "Ey-Bi-Si Nyus" televiziya şirkəti də tamaşaçılarına daha ətraflı və obyektiv məlumatı vermək üçün Naxçıvan haqqında televiziya filminin çəkilməsini sifariş vermişdir. Telefilmi çəkəcək qrup oktyabrın 19-da Naxçıvana gəlmişdir.

Oktyabrın 20-də çəkiliş qrupu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevdən müsahibə almışdır.

Çəkiliş qrupunun üzvləri etiraf etmişlər ki, Naxçıvanda gedən proses bir çox xarici ölkə müxbirlərinin yozduğu kimi İslam fundamentalizmi ilə bağlı deyil, dünyada gedən demokratikləşmənin bir hissəsidir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*Naxçıvan şəhəri, 20 oktyabr 1991-ci il*

## DEMOKRATİK İNKİŞAF YOLLARINDA

Oktyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası oldu. İclasa Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyev sədrlik edirdi.

İclasın gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

1. "Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində, (şəhər rayonlarında), kəndlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 oktyabr 1991-ci il tarixli Fərmanına münasibət barədə.

2. Azərbaycan Respublikası Ali Sovetinin 8-11 oktyabr 1991-ci il tarixli növbədənkənar sessiyasında Azərbaycan Respublikası Konstitusiyasının (Əsas Qanunun) 112-ci maddəsinə dəyişikliklər edilməsi ilə əlaqədar qəbul olunmuş qərara münasibət barədə və 16-19 oktyabr 1991-ci il tarixdə keçirilən sessiyanın gedişinə münasibət barədə.

3. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərmanlarının təsdiq edilməsi haqqında.

İclası açarkən Heydər Əliyev yoldaş qeyd etdi ki, gündəliyə verilmiş məsələlərdən başqa bir neçə məsələnin də bugünkü sessiyasının gündəliyinə salınması zəruridir. Bildiyiniz kimi, sentyabr ayının 3-dən 7-dək keçirilən Muxtar Respublika Ali Məclisinin sessiyasında biz iqtisadi, ictimai-siyasi vəziyyəti müzakirə edərək, xüsusən iqtisadiyyat sahəsində tədbirlər barəsində Muxtar Respublika Nazirlər Kabinetinə tapşırıqlar verdik. O müddət çox gərgin olubdur. Məlum olduğu kimi biz blokadaya alınmışıq. Dəmir yolu bağlanıb, böyük iqtisadi çətinliklər olubdur. Ali Məclis və Nazirlər Kabineti yaranmış vəziyyəti aradan qaldırmaq üçün bir sıra tədbirlər görmüş və həmin tədbirlər öz nəticəsini vermişdir. Yaxşı olar ki, bu barədə Baş nazir Becan Fərzəliyevin məlumatı dinlənilsin. Ona görə də təklif var ki, bu məsələ gündəliyə daxil edilsin.

Uzun müddətdir ki, Naxçıvanda və ümumiyyətlə, Azərbaycanda söhbət gedir ki, muxtar respublikada azad iqtisadi zona yaradılsın, xarici ölkələrlə iqtisadi əlaqələr inkişaf etdirilsin, Naxçıvanın təbii sərvətlərindən, iqtisadi potensialından xarici əlaqələr vasitəsilə muxtar respublika iqtisadiyyatının inkişaf etdirilməsi üçün istifadə olunsun. Ümumiyyətlə, bir neçə belə təklif irəli sürülmüş, lakin onlar yerinə yetirilməmişdir. Ona görə də həm Ali Məclisin rəhbərliyi, həm də Nazirlər Kabineti belə bir fikrə gəlmişlər ki, bu məsələni daha mütəşəkkil həll etmək üçün bir neçə təşkilati tədbir həyata keçirilsin. Bu tədbirlər barədə sizə məlumat veriləcəkdir. Ona görə də təklif olunur ki, həmin məsələ də gündəliyə daxil edilsin.

Üçüncü məsələ ondan ibarətdir ki, Naxçıvan Muxtar Respublikası ərazisində bir sıra hərbi hissələr yerləşir. Son vaxtlar ölkədə gedən proseslər, hərbi hissələrlə yerli hakimiyyət orqanları arasındakı münasibət-

lərin tarazlaşdırılması tələb edir ki, bu məsələyə də ətraflı baxılsın. Sizə məlumdur ki, ölkənin bir çox regionlarında bu sahədə işlər aparılır. Bizim respublikada da müəyyən çətinliklər yaranmışdır. Hərbçilərlə əhali arasında bəzən münaqişələr, xoşagəlməz hallar olur. Son vaxtlar aşkar edilmişdir ki, hərbçilər muxtar respublikanın ərazisindən Ermənistana yüklər, hərbi sursatlar aparırlar. Ona görə də təklif edirəm ki, Naxçıvan Muxtar Respublikası ərazisində olan hərbi hissənin bugünkü statusunun dəqiqləşdirilməsi məsələsi gündəliyə salınsın.

Biz bu günlərdə Ali Məclisin Rəyasət Heyətinin iclasında 7-8 noyabr bayramlarının keçirilib-keçirilməməsi haqqında məsələ müzakirə etmişik. Bu barədə Rəyasət Heyətinin fikri var, amma bu mühüm məsələ olduğuna görə həmin məsələnin də sessiyanın gündəliyinə daxil edilməsi təklif olunur.

Bundan başqa, məlum olduğu kimi sentyabrın 3-dən 7-dək keçirilən sessiyada Ali Məclis A. Kələntərlinin rəhbərliyi altında komissiya yaratmışdı və bu komissiyaya tapşırılmışdı ki, partiya orqanlarının əmlakını milliləşdirmək məsələsini həll etsin və bu barədə öz təkliflərini versin. Komissiya bu sahədə iş aparıbdır. Onun işinin nəticələrinin və təkliflərinin də Ali Məclisin sessiyasının müzakirəsinə verilməsi məsləhət görülür.

Gündəliyə, həmçinin bəzi təşkilati məsələlərin də salınması təklif olunur.

Təklif olunan məsələlər sessiyanın gündəliyinə daxil edildi.

Çıxış edən deputatlar Q. Məmmədov, H. Məmmədov, Ə. Həsənov, T. Sadiqov, T. Əliyev, Y. Nağıyev, N. Həsənov, X. Abbasov, S. Hüseynov və başqaları respublika Prezidentinə əlavə səlahiyyətlər verilməsinə və Prezidentin 18 oktyabr tarixli fərmanına öz mənfi münasibətlərini bildirdilər.

Müzakirə olunan məsələ ilə əlaqədar qərar layihəsi deputatların müzakirəsinə verildi.

Ətraflı müzakirədən sonra qərar layihəsi ona edilən əlavələrlə birlikdə qəbul edildi.

Çıxış edən deputatlar Ali Məclisin Rəyasət Heyətinin işini ciddi tənqid etdilər, Ali Məclisin buraxılması və Milli Şura yaradılması barədə təkliflər verdilər. Ali Məclisin Rəyasət Heyətinin fəaliyyətinin təhlil

edilməsi və onun işinin təkmilləşdirilməsi üçün təkliflər hazırlanması zəruri hesab edildi və bununla əlaqədar Heydər Əliyevin sədrliyi ilə komissiya yaradıldı. Komissiya 10 gün ərzində məsələni araşdırıb Ali Məclisə təkliflər verməlidir.

Heydər Əliyev yoldaş bildirdi ki, sessiyada Türkiyədən və İran İslam Respublikasından gəlmiş qonaqlar iştirak edir. O, bütün millət vəkilləri adından qonaqları salamladı və dedi ki, onların Ali Məclisin sessiyasında iştirak etməsi Türkiyə və İranla əlaqələrimizin genişləndirilməsinə kömək edəcəkdir.

Deputatlar gündəliyin ikinci məsələsinin müzakirəsinə başladılar. Müzakirələrdə çıxış edən deputatlar qeyd etdilər ki, Azərbaycan Konstitusiyasının 112-ci maddəsinin axırıncı cümləsinin çıxarılmasına yönəldilmiş cəhdlər, Muxtar Respublika Ali Məclisi Sədrinin respublika Ali Soveti Sədrinin müavini vəzifəsini tutmasına yol verməməyə səy göstərilməsi muxtar respublikanın hüquqlarının kobud surətdə tapdanması deməkdir.

Həmin məsələ ilə əlaqədar qərar layihəsi deputatların müzakirəsinə verildi. Ətraflı müzakirədən sonra qərar yekdilliklə qəbul edildi.

Sonra deputatlar muxtar respublikada hərbi hissələrin statusu haqqında məsələnin müzakirəsinə başladılar. Həmin məsələ ilə əlaqədar Naxçıvan sərhəd dəstəsinin komandiri V.K. Jukovun və muxtar respublikada yerləşən diviziyanın komandiri R.V. Slaboşeviçin məlumatları dinlənildi.

Məsələnin müzakirəsi zamanı çıxış edən deputatlar irad tutdular ki, Sədərək və Ordubad zastavalarının Mehri və Artaşat rayonlarına tabe etdirilməsinin nə kimi məqsəd daşıdığı məlum deyil. Həmin zastavalar Naxçıvan sərhəd dəstəsinə tabe olmalıdırlar.

Heydər Əliyev yoldaş həmin məsələnin üç gün ərzində həll olunması və qeyd olunan zastavaların Naxçıvan sərhəd dəstəsinə tabe etdirilməsi haqqında qəti tapşırıq verdi.

Deputatlar muxtar respublikada olan hərbi hissələrin statusunun müəyyən edilməsi məsələsini zəruri hesab etdilər. Həmin məsələni araşdırmaq üçün Ali Məclis Sədrinin müavini Q. Məmmədovun rəhbərliyi ilə komissiya yaratdılar. Komissiya məsələni öyrənib təkliflər hazırlayaraq Ali Məclisə təqdim etməlidir.

Sessiyada 7-8 noyabr bayramlarının ləğv edilməsi haqqında məsələ müzakirə edilərək həmin günlərin muxtar respublikada iş günü elan edilməsi haqqında qərar qəbul edildi.

Deputatlar Kommunist Partiyasının əmlakının milliləşdirilməsi və bölüşdürülməsi üçün yaradılmış komissiyanın işi haqqında komissiyanın sədri deputat A. Kələntərlinin məlumatını dinlədilər və həmin məsələ ilə əlaqədar qərar qəbul etdilər.

Bununla da muxtar respublika Ali Məclisi sessiyasının növbəti iclası öz işini başa çatdırdı.

*"Şərq qapısı" qəzeti, 27 oktyabr 1991-ci il*

**Azərbaycan Respublikası Ali Soveti tərəfindən "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" 8 oktyabr 1991-ci il tarixdə qəbul olunmuş Qanuna və bununla əlaqədar "Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində, şəhər rayonlarında, kəndlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 oktyabr 1991-ci il tarixli fərmanına münasibət haqqında**

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
QƏRARI

Azərbaycan KP MK-nın birinci katibi kimi çox yüksək səlahiyyətlərə malik olmasına baxmayaraq, A. Mütəllibov hüquqlarını daha da artırmaq məqsədilə respublikada prezidentlik institutunun yaradılmasının bilavasitə təşəbbüsçülərindən olmuş, "Azərbaycan Respublikasının Konstitusiyasına (Əsas Qanuna) dəyişiklik və əlavələr haqqında" 18 may 1990-cı il tarixli Azərbaycan SSR Qanunu ilə Prezident vəzifəsi təsis edilmiş və elə həmin gün o, səlahiyyət müddəti qurtarmış Ali Sovetin qərarı ilə Prezident seçilmişdir.

5 mart 1991-ci il tarixdə "Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Konstitusiyasında (Əsas Qanunda) dəyişikliklər və əlavələr haqqında" Azərbaycan Respublikası Qanunu ilə Prezident statusunda əsassız olaraq dəyişikliklər edilmiş və onun səlahiyyətləri daha da artırılmışdır.

Əlbəttə, prezidentlik institutu hər bir demokratik cəmiyyətin və hüquqi dövlətin zəruri atributudur. Lakin Azərbaycanda həqiqi demokratiya olmadığından, üstəlik siyasi mühitin demokratikləşdirilməsinin qarşısına hər vəchlə sədd çəkildiyindən və respublikada elan edilmiş fövqəladə vəziyyət şəraitində Prezident idarəsinin yaradılması ilə Mütəllibova qeyri-məhdud səlahiyyətlərin verilməsinə heç cür haqq qazandırmaq olmaz.

Təsadüfi deyil ki, dəfələrlə səlahiyyətləri artırılmış M. Qorbaçov kimi, A. Mütəllibov da güclü icra və sərəncam hakimiyyətinə malik olduqdan sonra belə respublikanı düşdüyü dərin mənəvi və iqtisadi-siyasi böhran vəziyyətindən çıxarmağa nail olmamış, artırılmış statusundan heç cür istifadə edə bilməmişdir. Respublikada iqtisadi vəziyyət getdikcə pisləşmiş, sosial problemlərin həlli sahəsində heç bir nəticə əldə olunmamış, hakimiyyətin ədalətsizliyi siyasi mühiti daha da mürəkkəbləşdirmiş, cinayətkarlıq baş alıb getmiş, istehlak bazarında gərginlik daha da artmışdır. Bütün bunlar əhalinin narazılığının güclənməsinə səbəb olmuşdur. Bu problemləri aradan qaldırmaq əvəzinə Prezident sabitləşdirmə bayrağı altında demokratik qüvvələri buxovlamaq, öz hakimiyyətini gücləndirmək məqsədi güdmüşdür. Bu siyasətin davamı olaraq 3 sentyabr 1991-ci il tarixdə keçirilmiş müşavirədə Prezident mövcud siyasi şəraitlə əlaqədar ən qəti tədbirlər görülməsi, yaranmış vəziyyətdə operativ qərarlar qəbul edilməsi üçün ona bir daha əlavə səlahiyyətlər verilməsini tələb etmişdir. Həmin müşavirənin protokolundan göründüyü kimi, bu səlahiyyətlər Prezidentə Azərbaycan Xalq Cəbhəsi və onun ətrafında birləşmiş siyasi partiya və hərəkatların əleyhinə qəti tədbirlər görmək, Naxçıvan Muxtar Respublikasında son vaxtlar baş verən demokratikləşmə proseslərinin qarşısını almaq, bununla da, kommunist rəhbərliyinin hakimiyyətini gücləndirmək üçün lazım olmuşdur.

Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti Prezidentin arzusunu ifadə edərək "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" məsələnin oktyabr ayının 8-11-də keçirilən fövqəladə sessiyasının gündəliyinə salınmasına nail olmuşdur. Bu qərar, onun mahiyyəti deputatlara izah edilmədən və müzakirə olunmadan, həmçinin deputatların bir hissəsinin sessiya keçirilən zalda iştirak etmədiyi şəraitdə müəmmalı şəkildə qəbul edilməklə prezidentə istədiyi əlavə səlahiyyətləri vermişdir. Bununla da, Prezident xalq təsərrüfatını idarəetmənin təşkili məsələləri, yerli dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkili və fəaliyyəti qaydasının müəyyən olunması, mərkəzi dövlət idarəetmə orqanlarının yaradılması, ləğvi məsələlərinin həllində fərmanlar vermək hüququ almışdır. Əslində o, mütləq hakim, məhdudiyyətsiz səlahiyyət sahibi olmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, respublikanın Ali Soveti bu Qanunu qəbul etməklə "hakimiyyətlər bölgüsü" prinsipini pozan paralel qanunverici hakimiyyət orqanı yaratmışdır. İcra hakimiyyətinin başçısına Konstitusiyanı dəyişdirmək və ona əlavələr etmək səlahiyyəti verilməklə o, qanunvericilik sahəsində Ali Sovetdən yüksəyə qaldırılmışdır. Bu, hüquqi dövlət prinsipinə və hər cür demokratiya anlayışına ziddir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti 10 oktyabr 1991-ci il tarixli bəyanatında həmin Qanunun demokratik proseslərin qarşısını alacağını, hakimiyyətin bir adamın əlində cəmləşdirilməsinin son dərəcə təhlükəli xarakter daşıyacağını irəlicədən görmüş və bunun digər hakimiyyət orqanlarının səlahiyyətlərini məhdudlaşdıracağını narahatlıqla bildirmişdir.

Bundan bir neçə gün sonra - oktyabrın 18-də Prezident yuxarıda göstərilən Qanuna əsaslanaraq "Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində, şəhər rayonlarında, kəndlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında" fərman vermiş, bununla da demokratiyanın qarşısının alınmasına doğru daha bir addım atmışdır. Bu fərmanda Prezident yerli dövlət hakimiyyəti və idarə orqanlarının təşkili və fəa-

liyyət qaydasını təkbaşına, elan və dərc olunmamış "Əsasnamə"yə istinad edərək həyata keçirir, icra hakimiyyətinin başçısını birbaşa təyin edir ki, bununla da, xalq hakimiyyəti orqanlarının səlahiyyəti ciddi surətdə məhdudlaşdırılır.

Prezident bu qanunsuz fərmanı ilə qeyri-demokratik yolla hakimiyyətə gəlmiş mühafizəkar qüvvələrin - formal olaraq buraxılmış, lakin faktiki hakimiyyətdə saxlanılan Azərbaycan Kommunist Partiyası və onun yerli strukturlarının keçmiş rəhbərlərinin hakimiyyətini qanun pərdəsi arxasında reallaşdırmaq niyyəti güdmüşdür. Onun sonrakı fərmanları ilə Azərbaycanın bir çox rayonlarına icra hakimiyyəti başçılarının keçmiş rayon partiya komitələrinin birinci katiblərinin təyin edilməsi bunu bir daha sübut edir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi belə hesab edir ki, respublika Prezidentinin "Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində, şəhər rayonlarında, kəndlərində və qəsəbələrində dövlət hakimiyyət orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında" fərmanı demokratiyanı boğmağa, həqiqi xalq hakimiyyəti strukturlarının fəaliyyətini dayandırmağa yönəldildiyinə və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının normaları ilə ziddiyyət təşkil etdiyinə görə, Naxçıvan Muxtar Respublikasının şəhər və rayon xalq deputatları məclisi sessiyaları "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Qanunu və respublika Prezidentinin 18 oktyabr tarixli məlum fərmanını müzakirə edərək, bunların antidemokratik, antikonstitusion mahiyyətini açıb göstərmiş, muxtar respublika seçicilərinin iradəsini ifadə edərək, həmin Qanun və Fərmanın muxtar respublika ərazisində tətbiqinin yolverilməzliyini qəti şəkildə bildirmiş və bu barədə Naxçıvan Muxtar Respublika Ali Məclisi qarşısında məsələ qaldırmışlar.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının Prezidenti A. Mütəllibova qeyri-qanuni əlavə səlahiyyətlər verən "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının 8 oktyabr 1991-ci il tarixli Qanunu və "Azər-

baycan Respublikasının rayonlarında, şəhərlərində, şəhər rayonlarında, kəndlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında" respublika Prezidentinin 18 oktyabr 1991-ci il tarixli Fərmanı siyasi baxımdan mürtəce və antidemokratik xarakter kəsb edən, hüquqi cəhətdən Konstitusiyaya zidd olan akt kimi pislənilsin.

2. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi muxtar respublika əhalisinin iradəsini ifadə edərək Azərbaycan Respublikasının Ali Sovetindən qəti olaraq tələb edir ki, demokratiyanın boğulmasına yönəldilmiş hüquqi aktların qəbul edilməsinə birdəfəlik son qoysun. Bildirilsin ki, demokratiyaya zidd olan bu cür qərarlar Naxçıvan Muxtar Respublikası üçün qəbuledilməzdir.

3. Naxçıvan Muxtar Respublikası şəhər və rayon xalq deputatları Məclisi sessiyalarının qərarları nəzərə alınaraq, Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında həyata keçirilən demokratik prosesləri məhdudlaşdırdığı üçün və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına zidd olan hüquqi sənəd kimi Azərbaycan Respublikası Prezidentinin 18 oktyabr 1991-ci il tarixli fərmanı Naxçıvan Muxtar Respublikası ərazisində tətbiq edilməsin.

4. Azərbaycan Respublikasının Ali Sovetindən xahiş olunsun ki, respublika Prezidentinə əlavə səlahiyyətlər verən 8 oktyabr 1991-ci il tarixli Azərbaycan Respublikası Qanununa yuxarıda göstərilən səbəblərə görə yenidən baxılıb ləğv edilməsini təmin etsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 26 oktyabr 1991-ci il*

## Azərbaycan Respublikası Ali Sovetinin 8-11 oktyabr 1991-ci il tarixdə keçirilən fövqəladə sessiyasında Azərbaycan Respublikası Konstitusiyasının (Əsas Qanununun) 112-ci maddəsində dəyişikliklər edilməsi ilə əlaqədar qəbul olunmuş qərara münasibət barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti 8-11 oktyabr 1991-ci il tarixdə keçirilən Azərbaycan Respublikası Ali Sovetinin fövqəladə sessiyasının gündəliyinə heç bir zərurət olmadan "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr edilməsi haqqında" məsələ daxil etdirməklə müəmmalı şəraitdə, əslində mahiyyəti deputatlara bəlli olmayan qərar qəbul edilməsinə nail olmuşdur.

Qəbul edilmiş qərarla Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinin 2-ci hissəsində təsbit edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri vəzifəyə görə Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavinidir" - cümləsi Konstitusiyadan çıxarılmışdır.

Dözülməz haldır ki, Konstitusiyanın adi qanunlar və qərarlar səviyyəsinə endirilib, hər sessiyada ona əlavələr və dəyişikliklər edilməsi, bununla da, respublikanın Əsas Qanununun nüfuzdan salınması parlamentin iş təcrübəsinə çevrilir.

Bu bədnam təcrübənin davamı kimi deputatların bir hissəsinin Ali Sovetin iclas zalında olmadığı halda, Konstitusiya qanunlarının müzakirəsi və səsvermənin xüsusi qaydasına əməl edilmədən, "Konstitusiyanın 112-ci maddəsinin ikinci hissəsinin sonuncu cümləsi çıxarılsın" sözlərinin mahiyyəti açılmadan qərar qəbul edilməsi Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Ali Sovetinin reqlamentini pozmaq kimi qiymətləndirilməlidir.

Belə bir mühüm məsələnin üstüörtülü şəkildə sessiyanın gündəliyinə daxil edilməsi və qərar qəbul olunması son vaxtlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi rəhbərliyinə demokratik fikirli adamların gəlməsinə, Ali Məclisin ardıcıl olaraq həyatın tələbindən doğan de-

mokratik ruhlu qərarlar qəbul etməsinə Azərbaycan rəhbərliyinin açıq-aşkar büruzə verdiyi qərəzli və ədalətsiz münasibətin nəticəsidir.

Bu cür qərarın qəbul edilməsi Azərbaycan Respublikası Prezidenti yanında 3 sentyabr 1991-ci il tarixdə keçirilmiş müşavirənin tələblərindən irəli gəlmişdir. Bu, Naxçıvan Muxtar Respublikasına və onun Ali Məclisinə qarşı yönəldilmiş böhtançılıq və təxribat kampaniyasının davamı olmaqla Azərbaycan Respublikası Ali Sovetinin Sədri E. Qafarovanın dediyi kimi, Azərbaycan Respublikası Prezidenti seçkilərinin Naxçıvan Muxtar Respublikasında dayandırılması ilə əlaqədardır.

Bu faktla qətiyyən barışmaq olmaz ki, parlament təkəbbür, şəxsi qisasçılıq və ambisiya alətinə çevrilmişdir. Dözülməzdir ki, qəbul olunmuş qərar Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən olunmuş hüquqdan məhrum edir və muxtar respublikanın statusunu kobud şəkildə pozur. Bu, bütövlükdə demokratiyanın əleyhinə yönəldilmişdir və süni surətdə qarşıdurma, "Naxçıvan problemi" yaratmağa xidmət edir. Uzaq getməyən bu cür siyasətə qəti etiraz əlaməti olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və Azərbaycan Respublikasının Ali Sovetinə ayrı-ayrı vətəndaşlar və əmək kollektivləri tərəfindən saysız-hesabsız teleqramlar göndərilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti bəyanat verərək, Konstitusiyaya bu cür zidd hərəkətlərə öz qəti etirazını bildirmiş və Azərbaycan Respublikasının Ali Sovetindən muxtar respublikanın Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş hüququnun bərpa edilməsini tələb etmişdir. Bəyanat Azərbaycan Respublikası Ali Sovetinin sessiyasına Naxçıvan Muxtar Respublikasından seçilmiş xalq deputatları tərəfindən çatdırılmışdır. Onların və onları müdafiə edən demokratik fikirli bir qrup digər deputatların qəbul edilmiş qərara yenidən baxılması tələbi ilə çıxış etmələrinə baxmayaraq, hətta Naxçıvan Muxtar Respublikasından olan deputatlar etiraz əlaməti olaraq iclas salonunu tərk etsələr də, Azərbaycan Respublikası Ali Sovetinin Sədri E. Qafarova məsələyə yenidən baxılmasına imkan verməmişdir. Azərbaycan Respublikası Ali Sovetinin rəhbərliyi Naxçıvan Muxtar Respublikasından

seçilmiş Azərbaycan xalq deputatlarının bu məsələ ilə əlaqədar bəyanatına da qəsdən əhəmiyyət verməmişdir.

Bu qərarı necə olursa-olsun keçirmək məqsədilə hər cür yolverilməz metodlara əl atan E. Qafarova hətta siyasi möhtəkirlik edərək "bu qərarı ləğv ediriksə, Qarabağın nümayəndəsi də gəlib burada oturacaqdır" - deməklə, deputatları məsələnin həllindən yayındırmağa çalışmışdır. Parlament sədrinə yaraşmayan və heç bir hüquqi əsası olmayan bu cür ifadənin Azərbaycan Respublikası üçün siyasi cəhətdən nə qədər zərərli olduğunu, gərginliyin daha da artırılmasına yönəldildiyini izah etməyə ehtiyac yoxdur.

Əsl xalq mənafeyinin ardıcıl tərəfdarı olan deputatlardan Bəxtiyar Vahabzadə, İsa Qəmbərov, Mürşüd Məmmədov, Sabir Rüstəmxanlı, Tahir Kərimli və bir çox başqaları da məsələnin müzakirəsində obyektiv mövqe tutmuş, muxtar respublikanın Konstitusiya hüquqlarını müdafiə etmişlər.

Bütün demokratik fikirli deputatların tələb və təkidləri nəticəsində məsələyə yenidən qayıdılmış, Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinin 2-ci hissəsi ilə əlaqədar 8 oktyabr 1991-ci ildə qəbul edilmiş qərar 17 oktyabr 1991-ci ildə ləğv edilmişdir. Lakin buna baxmayaraq, Ali Sovetin Sədri E. Qafarova və onun birinci müavini Z. Səmədzadə məsələnin sessiyanın gündəliyindən çıxarılmasına ciddi mane olmuşlar.

Məsələnin bu dərəcədə kəskinləşməsinin və gündəlikdən çıxarmamaqla açıq saxlanmasının səbəblərindən biri də Ali Sovetin Rəyasət Heyətində qüvvələr nisbətinin demokratik və mütərəqqi qüvvələrin xeyrinə dəyişilməsinin qarşısını almaq üçün Azərbaycan rəhbərliyi tərəfindən göstərilən ciddi cəhdlə və şübhəsiz ki, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə bağlıdır. Halbuki indiyədək Naxçıvan Muxtar Respublikası ali hakimiyyət orqanının başçısı Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini olmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Heç bir hüquqi əsas və zərurət olmadan Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin 8-11 oktyabr 1991-ci il tarixdə keçiri -

lən fövqəladə sessiyasına "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr edilməsi haqqında" təklif verməsi və bunun gündəliyə daxil edilməsinə nail olması, Azərbaycan Respublikası Konstitusiyasını və Ali Sovetin reqlamentini pozmaqla müzakirələr açmadan, Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinin 2-ci hissəsindən "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəyə görə Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavinidir" sözlərinin çıxarılması barədə qərar qəbul edilməsi, sonradan bu qərarın ləğv olunmasına baxmayaraq, Azərbaycan Respublikası Ali Sovetinin Sədri E. Qafarovanın və Sədrin birinci müavini Z. Səmədzadənin məsələnin həmin sessiyanın gündəliyindən çıxarılmasına imkan verməmələri, Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarına qəsd edən, demokratiyanı boğan, qarşıdurmaya yönəldilmiş süni "Naxçıvan problemi" yaradan, Naxçıvan Muxtar Respublikasına qarşı aparılan ardıcıl təxribatın davamı kimi pislənilsin.

2. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi muxtar respublika əhalisinin iradəsini ifadə edərək bu məsələnin müzakirəsi zamanı ardıcıllıq və qətiyyət göstərdikləri üçün Müstəqil Demokratik Azərbaycan blokundan olan və digər demokratik fikirli deputatlara öz minnətdarlığını bildirir və ümid edir ki, Naxçıvan Muxtar Respublikasının hüquqları həmişə onlar tərəfindən müdafiə ediləcəkdir.

3. Azərbaycan Respublikasının Ali Sovetindən xahiş olunsun ki, 29 oktyabr 1991-ci ilə təyin olunmuş sessiyada həmin məsələnin gündəliyə salınması səbəblərini araşdırsın və Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarını bərpa etmək məqsədilə bu məsələnin gündəlikdən çıxarılmasını təmin etsin və Əsas Qanuna hörmətsizlik ifadə edən hərəkətlərə son qoyulması üçün tədbirlər görsün.

**R. HƏSƏNOV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi Sədrinin birinci müavini**

*Naxçıvan şəhəri, 26 oktyabr 1991-ci il*

**Vətəndaşların siyasi əqidəsinə görə təqib olunmasına münasibət haqqında**

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

1990-cı ilin yanvar ayında işğalçı Sovet ordusunun qoşun hissələri Azərbaycan xalqına təcavüz etmiş, qanlı qırğınlar törətmiş, yüzlərlə adam həlak olmuşdur. Sovet İttifaqı Kommunist Partiyasının və Azərbaycan Kommunist Partiyası rəhbərlərinin bu cinayətlərdə bilavasitə iştirakına etiraz əlaməti olaraq minlərlə kommunist partiya biletindən imtina etmişdir. 20 Yanvar faciələrindən sonra müvəqqəti olaraq mövqeyini möhkəmlətmiş Azərbaycan Kommunist Partiyası və onun yerli strukturları, Naxçıvan Vilayət Partiya Komitəsi muxtar respublikada gedən demokratik başlanğıclara qarşı mənəvi və siyasi terroru daha da gücləndirmiş, partiya biletini təhvil verənləri əsassız olaraq təqib etmiş, partiya üzvlüyündən imtina edən rəhbər şəxsləri tutduqları vəzifədən azad etmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, insanın siyasi və şəxsi hüquqlarına qəsd edən hərəkətlərə etiraz edərək, bu kimi halların hüquqi və demokratik cəmiyyətdə yolverilməzliyi prinsipinə əsaslanaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Siyasi əqidəsinə və Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk etdiklərinə görə ayrı-ayrı vətəndaşların Azərbaycan Kommunist Partiyası və Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən təqib olunmaları qətiyyətlə pislənilsin, bu hərəkətlər demokratiyanın və insan hüquqlarının pozulması kimi qiymətləndirilsin.

2. Qeyd edilsin ki, demokratik təsisatlara uyğun olaraq ictimai həyatın siyasiləşdirilməsi proseslərinin sürətləndirilməsi, azadfikirlilik, insan azadlığı, siyasi partiya və hərəkatların azad və müstəqil, muxtar respublikanın Konstitusiya tələblərini pozmayan, insan hüquqları haqqında beynəlxalq akta müvafiq gələn fəaliyyətləri bundan sonra Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən qorunur və müdafiə edilir.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, şəhər və rayon xalq deputatları məclislərinə tapşırılsın ki, siyasi əqidəsinə görə təqib edilən vətəndaşların pozulmuş hüquqlarının bərpa olunması üçün müvafiq tədbirlər görsün.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 26 oktyabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİNDƏ

Dekabrın 9-da Naxçıvan Muxtar Respublikası parlamentinin 26 oktyabr 1991-ci il tarixdə keçirilən sessiyasında Ali Məclisin və Rəyasət Heyətinin fəaliyyətini təkmilləşdirmək məqsədilə yaradılmış komissiyasının birgə iclası keçirilmişdir. İclasda Azərbaycan Respublikası Ali Sovetinin 15 noyabrda qəbul etdiyi qərara əsasən 29 dekabr 1991-ci il tarixdə keçiriləcək Azərbaycanın müstəqilliyi haqqında ümumrespublika referendumu, muxtar respublikada sərhəd hərəkatının ildönümünün qeyd edilməsi, Ali Məclisin və Rəyasət Heyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı məsələlər müzakirə edilmişdir.

Ali Məclisin Sədri Heydər Əliyev, Rəyasət Heyətinin üzvlərindən Rəşid Həsənov, Asif Kələntərli, Əli Həsənov, Telman Sadiqov Azərbaycanın müstəqilliyi haqqında keçiriləcək ümumrespublika referenduna münasibətlərini bildirərək qeyd etmişlər ki, muxtar respublikanın demokratik qüvvələri Azərbaycanın kommunist rəhbərliyinin təzyiqinə baxmayaraq uzun müddətdir ki, respublikanın istiqlaliyyəti, milli azadlığı uğrunda mübarizə aparırlar. Naxçıvan parlamenti respublikanın müstəqilliyinə münasibətini hələ 1990-cı ilin dekabrında keçirilən sessiyasında bildirmiş və əhalinin iradəsini ifadə edərək Azərbaycanın yeni ittifaq müqaviləsini imzalamasının əleyhinə çıxış etmişdir. Lakin Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin fəaliyyəti nəticəsində

martın 17-də muxtar respublikada SSRİ İttifaqının qorunub saxlanılması haqqında ümumittifaq referendumu keçirilmişdir. Bu referendumda muxtar respublika seçicilərinin cəmi 20 faizi iştirak etmişdir. Azərbaycan Ali Sovetinin başında duran kommunist rəhbərliyi respublikada ümumittifaq referendumunu keçirmiş, onun nəticələrini saxtalaşdırmış və beləliklə də xalqın iradəsinə zidd olaraq Sovet İttifaqının qorunub saxlanılmasına tərəfdar çıxmışdır.

Çıxış edənlər muxtar respublikada Azərbaycanın müstəqilliyi haqqında respublika referendumunun keçirilməsinə tərəfdar olduqlarını bildirmişlər.

Rəyasət Heyəti üzvləri Naxçıvan Muxtar Respublikası ilə Cənubi Azərbaycan arasında SSRİ-İran dövlət sərhədindəki tikanlı məftil qurğularının söküldüyü 1989-cu ilin 31 dekabr gününün Dünya Azərbaycan türklərinin milli həmrəylik günü kimi dövlət səviyyəsində qeyd edilməsi barədə təklif irəli sürmüşlər.

İclasda Ali Məclisin və Rəyasət Heyətinin fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər də dinlənilmişdir. Onlar ümumiləşdirilib növbəti sessiyada millət vəkillərinin müzakirəsinə çıxarılacaqdır.

14 dekabr 1991-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclasını keçirmək qərara alınmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*Naxçıvan şəhəri, 10 dekabr 1991-ci il*

*DEMOKRATİK DƏYİŞİKLİKLƏR YOLU İLƏ*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SESSİYASININ NÖVBƏTİ İCLASI

Dekabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası öz işinə başlamışdır. İclası Ali Məclisin Sədri Heydər Əliyev açmışdır.

Sessiyanın iştirakçıları noyabrın 20-də Dağlıq Qarabağda hərbi vertolyotun partladılması nəticəsində həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Ali Məclisin Sədri iclasın gündəliyini elan edərkən demişdir ki, məlum olduğu kimi Azərbaycanda Dövlət Təhlükəsizliyi Komitəsinin adı dəyişdirilərək Milli Təhlükəsizlik Nazirliyi yaradılmışdır. Həmin nazirlik Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə müraciət edərək, muxtar respublikanın təhlükəsizlik orqanlarının adında da dəyişiklik edilməsi məsələsinə baxılmasını xahiş etmişdir. Bu çox mühüm məsələdir. Ona görə də həmin məsələnin də gündəliyə daxil edilməsi təklif olunur.

Sessiyanın gedişi zamanı cari məsələlər də ortaya çıxa bilər. Mən həmin məsələlərin də müzakirəsinin gündəliyə daxil edilməsini təklif edirəm.

Ətraflı müzakirədən sonra iclasın gündəliyi aşağıdakı şəkildə təsdiq olundu:

1. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası referendumunun keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 15 noyabr 1991-ci il tarixli qərarına münasibət barədə.

2. Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında.

3. Muxtar respublika dövlət təhlükəsizlik orqanları haqqında.

4. Cari məsələlər.

Ali Məclisin Sədri Heydər Əliyev çıxış edərək dedi ki, bu gün müzakirəyə çıxarılan birinci məsələ çox mühüm məsələdir. Bu məsələ böyük tarixi əhəmiyyət kəsb etdiyinə görə, ümumiyyətlə, Azərbaycanın müstəqilliyi uğrunda son illər meydana gəlmiş cərəyanlar, milli azadlıq hərəkatı, başlanmış demokratik proseslər çox mürəkkəb şəraitdə keçdiyinə görə həmin məsələ barəsində ətraflı fikir söylənməlidir. İlk növbədə mən bu məsələni sessiyanın müzakirəsinə çıxarılmasının səbəbləri üzərində dayanmaq istəyirəm.

Bunun ilk səbəbi qeyd etdiyim kimi, məsələnin çox böyük tarixi əhəmiyyət kəsb etməsidir. Ona görə də biz bu məsələyə müzakirəsiz ya -

naşa bilməzdik. Naxçıvan muxtar respublikadır, onun Ali hakimiyyət orqanı var. Ona görə də muxtar respublika ərazisində keçirilən hər bir siyasi tədbir, xüsusən belə bir böyük əhəmiyyətə malik olan siyasi tədbir mütləq xalq deputatlarının müzakirəsinə verilməli idi. Bu referendumun keçirilməsi haqqında xalq deputatları öz fikirlərini deməli idilər və referendumu mütəşəkkil aparmaq üçün lazımi tədbirlər görülməli idi.

Digər tərəfdən onu da qeyd etmək lazımdır ki, bundan qabaq da, mart ayında SSRİ-də ümumittifaq referendumu keçirilmişdir. Qəribə burasıdır ki, Azərbaycan həmin referendumda iştirak edərək ittifaqın qorunub saxlanmasına səs vermiş, indi isə onun tamamilə əksinə olaraq yeni referendum keçirilir. Ona görə də biz bu məsələni müzakirə edib öz mövqeyimizi aydınlaşdırmalıyıq.

Bir də onu qeyd etmək lazımdır ki, bu referendumu keçirmək haqqında biz Azərbaycan Ali Sovetindən heç bir rəsmi sənəd almamışdıq. Respublika Ali Soveti noyabr ayının 15-də referendum keçirilməsi haqqında qərar qəbul etmişdir. Təəssüf ki, bu qərar vaxtında mətbuatda dərc olunmamış və rəsmi kanallarla Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə çatdırılmamışdır. Biz mətbuatdan bilirdik ki, Ali Sovet ümumxalq səsverməsi haqqında qərar qəbul etmişdir. Amma bu referendumun necə təşkil edilməsi haqqında heç bir göstəriş alınmamışdır.

Təəssüf doğuran cəhət burasıdır ki, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bu barədə telefon ilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasına şifahi göstərişlər vermiş və o göstərişlər əsasında muxtar respublikanın Mərkəzi Seçki Komissiyası və onun sədri Səfər Əsədov bu referendumun Naxçıvanda keçirilməsi üçün tədbirlər görməyə başlamışdır. Lakin Ali Məclisin Rəyasət Heyətinin bundan xəbəri olmamışdır. Düzdür, Ali Məclis Sədrinin müavini Anar Səfərovun bu barədə məlumatı olmuşdur. Amma təəssüf ki, o, bu məsələnin nə qədər ciddi əhəmiyyət kəsb etdiyini dərk edə bilməmiş və beləliklə də böyük bir tədbir görməli şəraitdə, köhnə stereotiplər üzrə hazırlanmağa başlanmışdır. Bu məsələ yalnız dekabrın 6-da bizə çatmışdır.

İndi görün bu referendum bəzi şəxslər tərəfindən nə qədər əhəmiyyətsiz bir şey kimi qəbul olunmuşdur ki, onun həyata keçirilməsi haq-

qında heç bir sənəd göndərilməmiş, yalnız telefonla göstəriş verilməklə kifayətlənmişlər.

Dekabrın 6-da biz bunu bildikdə məsləhətləşdik və belə qərara gəldik ki, bu məsələ mütləq muxtar respublikanın Ali Məclisinin Rəyasət Heyətində müzakirə olunmalıdır və əgər Rəyasət Heyəti məsləhət bilərsə o, sessiyanın müzakirəsinə verilməlidir.

Rəyasət Heyəti dekabrın 9-da bu məsələni müzakirə etdi və bu gün həmin məsələ sessiyasının müzakirəsinə çıxarılmışdır.

Bu məsələyə siyasi qiymət vermək üçün, bu məsələnin siyasi və ictimai əhəmiyyətini bilmək üçün yaxın keçmişimizə nəzər salmaq lazımdır. Üç ildən artıqdır ki, Azərbaycanda xalq demokratik hərəkatı fəaliyyət göstərir. Bütün demokratik qüvvələrin, xalq hərəkatının ən əsas məqsədi Azərbaycanın milli azadlığına və dövlət müstəqilliyinə nail olmaqdır.

Qeyd etmək lazımdır ki, ən ağır və çətin şəraitdə demokratik fikirli adamlar, demokratik təşkilatlar müstəqillik uğrunda öz fəaliyyətlərini ağır və çətin şəraitdə həyata keçiriblər və böyük müqavimətlərə, təzyiqlərə məruz qalıblar. İndi də respublika miqyasında həmin çətinliklərlə rastlaşırlar. Ona görə də aydınlaşdırmaq lazımdır, əgər Azərbaycan xalqı hələ üç il bundan əvvəl Azərbaycanın müstəqilliyini, milli azadlığını istəyirdisə, bəs nə üçün buna nail ola bilmirdi? Buna mane olan kim idi? Bu sualın cavabı aydındır: Sovet İttifaqı Kommunist Partiyası, onun Mərkəzi Komitəsi və Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi, Azərbaycan Respublikasının kommunist rəhbərliyi. Deməli, xalq kütlələri ilə, milli azadlıq uğrunda mübarizə aparan qüvvələrlə Azərbaycan rəhbərliyi arasında tamamilə bir-birinə zidd mövqelər olmuşdur. Ona görə də, biz bu son üç ildə öz müstəqilliyimizə nail ola bilməmişik. İndi, nəhayət, dekabrın 29-da referendum keçirib öz müstəqilliyimizə nail olmaq istəyirik.

Mən bir azərbaycanlı kimi, xalqımızın azadlığını istəyən vətəndaş kimi belə hesab edirəm ki, əgər Azərbaycanın rəhbərliyi respublikada demokratik qüvvələrin müstəqillik uğrunda mübarizəyə başladığı bir vaxtda xalqın rəyinə hörmətlə yanaşsaydı və xalqla bir olsaydı, Azərbaycan öz müstəqilliyinə çoxdan nail olmuşdu.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan xalqı öz müstəqilliyi uğrunda çox qurbanlar vermişdir. 1988-ci ildə milli azadlıq uğrunda, müstəqillik uğrunda mübarizə aparan bir çox azərbaycanlı siyasi repressiyaya məruz qalmışdır. 1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmiş, biz böyük faciəyə uğramış və indiyə qədər də bu faciədən çıxa bilmirik. Bütün bunlar müstəqillik uğrunda mübarizə aparan qüvvələrlə müstəqilliyə maneçilik törədən Azərbaycan rəhbərliyi arasında olan qarşıdurmanın nəticələridir.

Əgər Azərbaycanın kommunist rəhbərliyi müstəqilliyin vacib və zəruri olduğunu vaxtında dərk edə bilsəydi, heç bir qurban da verilməzdi, 20 Yanvar hadisəsi də olmazdı və Azərbaycan xalqının başına bir çox başqa bəlalar da gəlməzdi. 20 Yanvar faciəsi ilə əlaqədar Bakıda və Azərbaycanın bir çox yerində fövqəladə vəziyyət elan olundu. Bu fövqəladə vəziyyət də demokratik qüvvələri boğmağa, xalq hərəkatının qarşısını almağa, müstəqilliyə sövq edən prosesləri dayandırmağa yönəldilmişdi.

Nəhayət, mart ayının 5-7-də keçirilən Azərbaycan Ali Sovetinin sessiyasında SSRİ-nin qorunub saxlanması üçün referendumda iştirak etmək məsələsi müzakirə olundu. Həmin sessiyada demokratik mövqedən çıxış edən deputatlar Azərbaycanda referendumun keçirilməməsi təklifini irəli sürdülər və bu təklifi həyata keçirmək üçün çox böyük cəhdlər göstərdilər. Təəssüf ki, Azərbaycan parlamentində çoxluq təşkil edən və Kommunist Partiyasına mənsub olan deputatlar respublikanın kommunist rəhbərliyinin göstərişinə əməl edərək referendumun keçirilməsinin zəruri olduğunu təkid etdilər və səsvermə nəticəsində buna nail oldular. 43 deputat bunun əleyhinə səs verdi.

Mən həmin sessiyada iştirak edirdim və referendumun keçirilməsinin əleyhinə səs vermişəm. O vaxt bəzi sadəlövh, siyasi cəhətdən küt fikirli olan deputatlar belə bir müddəa irəli sürdülər ki, əgər biz referenduma getməsək, Dağlıq Qarabağ və Ermənistan referendum keçirəcək və biz SSRİ-dən təcrid olunacağıq. Beləliklə də Dağlıq Qarabağ əldən gedəcəkdir. Bu fikirlərin tam əsassız olduğu hələ o vaxt məlum idi. Lakin ondan keçən dövr bir daha sübut etdi ki, belə fikir irəli sürən şəxslər, xüsusən rəhbər vəzifədə olan şəxslər və respublika Prezidenti Ayaz Mü-

təllibov nəinki səhv etmişlər, hətta mənə belə gəlir ki, siyasi cəhətdən öz səbatsızlıqlarını göstərmişlər.

Bizim Zaqafqaziya regionunda Ermənistan və Gürcüstan referendumda iştirak etmədilər. Bəs biz belə bir saxta referendum keçirməklə nə udduq? Azərbaycan Respublikasının mövqeləri möhkəmləndimi? Dağlıq Qarabağda Azərbaycanın hakimiyyəti bərpa olundumu? Yox. Amma Azərbaycanın kommunist rəhbərliyi xalqımızı belə çıxılmaz vəziyyətə saldı. Qonşu Ermənistan və Gürcüstan referendumda iştirak etməyərək öz milli azadlıq və müstəqillik tələblərini qoydular və buna qanuni yolla nail oldular. Azərbaycan Respublikası isə heç bir əsas olmadan SSRİ-nin qorunub saxlanmasına səs verdi və ondan sonra, indi biz azad olmağımız və müstəqilliyimiz haqqında referendum keçiririk.

Onu da qeyd etmək lazımdır ki, referendumun əleyhinə çıxan Azərbaycan Respublikasının xalq deputatları çox böyük səy göstərdilər. 10 nəfər deputat xalqın iradəsi əksinə qəbul edilmiş qərara etiraz əlaməti olaraq aclıq elan etdi. Onları gecə saat 1-də milis orqanları vasitəsilə zorla Ali Sovetin binasından çıxardılar. Həmin deputatlar, o cümlədən bizim muxtar respublikadan olan Azərbaycanın xalq deputatları 10 gün aclıq keçirdilər. Düzdür, onlar bu aclıqla referendumun qarşısını ala bilmədilər. Ancaq mənə belə gəlir ki, demokratik fikirli deputatların referendumun əleyhinə çıxmaları və etiraz əlaməti olaraq aclıq elan etmələri bu gün yüksək qiymətləndirilməlidir.

Son vaxtlar baş verən hadisələr bir daha göstərdi ki, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparan qüvvələr çoxalır. Məhz bunun nəticəsində Ali Sovet avqustun 30-da Azərbaycanın müstəqilliyi haqqında bəyannamə qəbul etdi. Mən bu sessiyada iştirak edirdim. Adamı təəccüb bürüyürdü ki, 4 ay öncə "SSRİ-nin tərkibində olmadan yaşaya bilmərik", "SSRİ-siz Azərbaycan batar" deyərək referendumun mütləq keçirilməsini tələb edən deputatlar 30 avqustda ondan əvvəl dediklərinin əksinə olaraq müstəqillik haqqında bəyannamə qəbul edilməsinə səs verdilər.

Avqustun 30-da müstəqillik haqqında bəyannamə qəbul olunanda təklif edildi ki, madam biz müstəqillik əldə etmək üçün referendum keçiririksə, onda martın 17-də keçirilmiş referendumun nəticələri ləğv edilməlidir.

Lakin yenə də kommunist rəhbərliyinə tabe olan deputatlar bunun əleyhinə çıxdılar. Bütün bunlar onu göstərir ki, onlar həqiqi müstəqillik istəmirlər, xalqı aldadır, gözdən pərdə asır, ikiüzlü siyasət yeridirlər.

Biz, nəhayət referendum keçirilməsi haqqında Azərbaycan Ali Sovetinin qərarını aldıq. Amma bu qərar o qədər səthi, o qədər başdansovdu yazılıb ki, xalqımız üçün çox mühüm olan bu referenduma necə qeyri-ciddi münasibət göstərildiyini aydın nəzərə çarpdırır.

Bir məsələ də bizi çox narahat edir. Demək, belə çıxır ki, müstəqillik uğrunda üç ildir mübarizə gedir, lakin Azərbaycan Respublikasının rəhbərliyi və xüsusən yeni yaranmış Azərbaycan parlamenti bu müstəqilliyi qəbul etmək istəmirlər. Nəhayət, avqustun 30-da müstəqillik haqqında bəyannamə qəbul edildikdən 4 ay sonra, dekabrın 29-da referendum keçirmək qərara alınmışdır. Bununla onlar vaxtı uzadır, vaxt keçirirlər ki, görsünlər sonra nə olacaq?

Narahatlıq doğuran məsələlərdən biri də bu yeni referendumun keçirilməsinin Mərkəzi Seçki Komissiyasına tapşırılmasıdır. Azərbaycan Mərkəzi Seçki Komissiyası öz saxtakar fəaliyyətinə görə xalqın gözündən düşübdür. Xalq deputatlarının seçilməsində Azərbaycan Mərkəzi Seçki Komissiyası çoxlu saxtakarlıqlara yol vermiş, mətbuatda bu barədə çox yazılmışdır. Mart ayının 17-də referendumun keçirilməsində də, prezident seçkilərində də saxtakarlığa yol verilmişdir. Belə bir seçki komissiyasının indi Azərbaycanın müstəqilliyi uğrunda referendum keçirilməsini təşkil etməyə mənəvi hüququ varmı? Bu seçki komissiyası dünən bir göstərişi yerinə yetirirdi, bu gün isə başqa bir göstərişi. Xalq isə bununla razılaşa bilməz. Mən də bir deputat kimi, bir vətəndaş kimi bununla razılaşa bilmərəm.

Bax belə bir vəziyyətdə, belə bir şəraitdə Azərbaycan Respublikasında müstəqillik uğrunda mübarizə gedir. Və nəhayət müstəqilliyə tam nail olmaq üçün referendum keçiriləcəkdir. Bizim bugünkü müzakirəmiz, deputatların çıxışları və mənim bu məsələlər üzərində ətraflı dayanmağım bir məqsəd güdür. Biz qərar qəbul etməliyik. Biz öz müstəqilliyimizi bir daha təsdiq etməliyik. Bu da ondan ibarət olmalıdır ki, Naxçıvanda demokratik qüvvələr müstəqillik uğrunda uzun müddət mübarizə aparmışlar və müstəqilliyə tam nail olmaq üçün belə bir referen-

dumun keçirilməsi şübhəsiz ki, lazımdır. Biz bu referendumun keçirilməsində iştirak etməliyik. Ancaq gərək biz bütün bu proseslərə siyasi qiymət verək və bu gün bu barədə qərar çıxaraq.

Azərbaycanın Mərkəzi Seçki Komissiyası haqqında danışarkən şübhəsiz ki, Naxçıvanın Mərkəzi Seçki Komissiyası haqqında da biz öz sözümüzü deməliyik. Bütün bu saxtakarlıqlar şübhəsiz ki, ona da aiddir. Ona görə mən də deputatların belə bir çıxışı ilə razıyam ki, əgər biz Azərbaycanın həqiqi müstəqilliyi haqqında referendum keçirmək istəyiriksə, keçmişdə partokratiya tərəfindən həm mərkəzdə, həm də rayonlarda təyin olunmuş seçki komissiyaları ilə bu referendumu keçirmək olmaz. Onlar özləri bu müzakirəni gözləmədən istefa verməli idilər. Lakin bunu etmədilər. Ona görə də biz bu gün həmin məsələni həll etməliyik.

Mən bu fikirlərimlə bir daha qeyd etmək istəyirəm ki, biz referendumu keçirməliyik, ancaq yüksək səviyyədə, mədəni səviyyədə, heç bir saxtakarlıq olmadan. Mən tam əminəm ki, Naxçıvan Muxtar Respublikasının uzun illər boyu müstəqillik arzusunda olan əhalisi bu referendumda iştirak edərək öz müstəqilliyinə səs verəcəkdir.

Müzakirə olunan məsələ ilə əlaqədar hazırlanmış qərar layihəsi əsasən qəbul edildi.

* * *

Dekabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası öz işini davam etdirdi. İclasda sədrlik edən Heydər Əliyev Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Nazirliyindən aldığı məktubu oxudu və bildirdi ki, bu məktub əsasında həmin məsələ sessiyanın gündəliyinə daxil edilib. Lakin dünən biz sessiyanın növbəti iclasını keçirəndən sonra bəzi hadisələr baş vermişdir.

Bildiyiniz kimi, bir neçə gün bundan əvvəl Culfa Rayon Xalq Deputatları Məclisinin qərarı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin Culfa şəhər və dəmiryol xətti şöbəsinin fəaliyyəti dayandırılmışdır. Bu barədə muxtar respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri İ. Mirzəyev Ali Məclisə müraciət etmişdir. Biz bu məsələni müzakirə etdik və qərara aldıq ki, həmin məsələni

araşdırmaq üçün komissiya yaradılsın. Lakin dünən axşam Naxçıvanda, Şərurda, Ordubadda da dövlət təhlükəsizlik orqanlarının fəaliyyətini dayandırmaq üçün tədbirlər həyata keçirilib. Ona görə də Milli Təhlükəsizlik Nazirliyinin yaradılması haqqında məsələ iclasın gündəliyində üçüncü məsələ kimi dursa da, təklif var ki, bu gün birinci olaraq həmin məsələnin müzakirəsinə başlansın və bu barədə deputatlar öz fikirlərini bildirsinlər.

Həmin məsələ ilə əlaqədar olaraq deputatlar Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyətinə dair onun sədri İ. Mirzəyevin məlumatını dinlədilər. Sonra o, deputatlardan H. İsmayılovun, Ə. Həsənovun və başqalarının suallarına cavab verdi. Lakin İ. Mirzəyevin çıxışı və suallara verdiyi cavablar deputatları qane etmədi.

Müzakirələrin sonunda Ali Məclisin Sədri Heydər Əliyev çıxış edərək dedi ki, bu məsələ çox mühüm məsələdir və ona görə də təəccüblü deyil ki, o ətraflı müzakirə olundu. Deputatların suallarında çox ədalətli iradlar tutuldu və ittihamlar irəli sürüldü. İndi dövlət təhlükəsizlik orqanları hər yerdə ciddi tənqid olunur. Mən belə hesab edirəm ki, biz bu orqanın işini müzakirə edərkən onun son illərdəki fəaliyyətinə diqqət yetirməliyik.

Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi Milli Təhlükəsizlik Nazirliyinə çevrilib. Lakin bizdə olan məlumata görə bu məsələ respublika Ali Sovetində müzakirə olunmayıb və tələm-tələsik qərar qəbul edilib. Bu da onu göstərir ki, Azərbaycan rəhbərliyinin həmin məsələnin müzakirəsinə marağı yoxdur və yalnız bu orqanın adını dəyişməklə onun qorunub saxlanmasına çalışıblar.

Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi son illər respublikada gedən milli-azadlıq hərəkatına qarşı böyük təxribatlar törətmiş, demokratik fikirli adamları həbsxanalara salmış, onlara olmazın əzab-əziyyət vermişdir.

Bu gün müzakirə edəcəyimiz dünya Azərbaycan türklərinin milli həmrəylik günü ilə əlaqədar sərhəd simlərinin və qurğularının sökülməsindən danışarkən onu demək lazımdır ki, Dövlət Təhlükəsizliyi Komitəsinin əli ilə bu vətənpərvərlik hərəkatı narkomanların və sərxoşların əməlləri kimi qələmə verilmişdir. Ona görə də mən belə he-

sab edirəm ki, deputatların bugünkü iradları və tənqidləri çox haqlıdır. Lakin dövlət təhlükəsizliyi orqanlarında çalışanların hamısına eyni qiymət vermək olmaz. Onların sırasında namuslu, öz Vətənini, xalqını sevənlər çoxdur. Biz onların fəaliyyətini düzgün qiymətləndirməliyik.

Qeyd etmək lazımdır ki, son üç ay ərzində Ali Məclisin Rəyasət Heyətinə muxtar respublikada yaranmış vəziyyət haqqında Dövlət Təhlükəsizliyi Komitəsindən yalnız bir arayış daxil olmuşdur.

Çox təəssüf ki, həmin arayış tam birtərəfli yazılmış və muxtar respublika demokratik qüvvələrinin fəaliyyəti həmin arayışda kobud surətdə təhrif olunmuşdur. Ona görə də komitənin sədri İ. Mirzəyevə ciddi xəbərdarlıq edilmişdir.

Bütün bunları nəzərə alaraq, muxtar respublikanın Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyətini ətraflı yoxlamaq üçün komissiya yaradılmalı və komissiyanın təqdim etdiyi arayış əsasında onun fəaliyyətinə qiymət verilməlidir.

Ali Məclis muxtar respublikanın Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyətini yoxlamaq üçün komissiya yaratdı.

Ali Məclis muxtar respublikanın Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyətini dayandırmaq haqqında qərar qəbul etdi. Həmin qərarla İ. Mirzəyev komitənin sədri vəzifəsindən azad edildi.

* * *

Dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası öz işini davam etdirmişdir. Deputatlar gündəliyin növbəti məsələsini - Dünya Azərbaycan türklərinin Milli Həmrəylik və Birlik Günü haqqında məsələni müzakirə etmişlər. Həmin məsələ ilə əlaqədar Ali Məclis Sədrinin müavini Q. Məmmədov məruzə etmişdir.

Müzakirələrdə deputatlardan S. Hüseynov, A. Kələntərli, H. Hüseynov, Ə. Həsənov, R. Həsənov, Ə. Talıbov və başqaları çıxış edərək, 31 dekabr Dünya Azərbaycan türklərinin Həmrəylik və Birlik Gününün böyük əhəmiyyətindən danışmışlar.

Ali Məclisin Sədri Heydər Əliyev müzakirələrə yekun vurarkən sərhəd hərəkatının böyük əhəmiyyətini qeyd edib demişdir ki, iki il bundan əvvəl vətənpərvər gənclərin bu hərəkatı başlanmış və onlar heç

bir təhlükədən qorxmayaraq bu tədbiri həyata keçirmişlər. “Sərhəd hərəkatı”nın qarşısını almaq üçün ciddi cəhdlər göstərilsə də heç bir nəticə verməmişdir. Mən Moskvada olarkən bu hərəkatın cinayətkar bir tədbir kimi qələmə verildiyinin şahidi oldum. Sov. İKP Mərkəzi Komitəsi və onun tərkib hissəsi olan Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi bu vətənpərvərlik hərəkatına böhtançı qiymət vermişdir. Mən belə hesab edirəm ki, bu hərəkatın qurbanı olanların xatirəsi əbədiləşdirilməlidir.

Dünya Azərbaycan türklərinin Milli Həmrəylik və Birlik Günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasında müzakirə olunması, böyuk siyasi əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu, məhz Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür. Tam qətiyyətlə demək olar ki, Ali Məclisin qərarı Azərbaycan Respublikasının tərəqqipərvər, milli ruhlu dairələrində razılıq hissi ilə qarşılanacaq və bütün Azərbaycanda bu hərəkatın güclənməsinə bir daha təkan verəcəkdir.

İki il bundan öncə Naxçıvanın mütərəqqi qüvvələri tərəfindən “Sərhəd hərəkatı” adı altında həyata keçirilən tədbirlər indi artıq özünün siyasi və tarixi qiymətini alır və dünya Azərbaycan türklərinin həmrəyliyinin və birliyinin nə qədər zəruriyyət kəsb etdiyini nümayiş etdirir. Şübhə yoxdur ki, bu hərəkat getdikcə güclənəcək, bizim xalqın birləşməsinə, tam milli azadlığa nail olmasına kömək edəcəkdir.

Ali Məclisin Sədri demişdir ki, müzakirələr vaxtı bir sıra məsələlər də meydana çıxdı. Bəzi deputatlar sərhəd qoşunlarının və ordu hissələrinin Naxçıvandan çıxarılmasını tələb etdilər ki, bu da vaxtında qoyulmuş məsələdir və bu məsələdən yan keçmək olmaz. Oktyabrın 26-da keçirilən sessiyada muxtar respublikada yerləşən hərbi hissələrin statusunu müəyyən etmək üçün nüfuzlu komissiya yaradılmışdır. Bundan sonra Moskvadan, Zaqafqaziya hərbi dairəsindən yüksək rütbəli hərbçilər gəldilər. Bu məsələ ətraflı müzakirə edildi və onun həlli üçün tədbirlər görülməkdədir.

Müzakirə olunan məsələ ilə əlaqədar hazırlanmış qərar layihəsi deputatların müzakirəsinə verildi. Ətraflı müzakirədən sonra qərar layi-

həsi təklif edilmiş əlavələr və dəyişikliklərlə birlikdə bütövlükdə qəbul olundu.

Deputatların çıxışlarında muxtar respublika ərazisində yerləşən hərbi hissələrin gələcək taleləri haqqında irəli sürülən təklifləri nəzərə alaraq Ali Məclisin Sədri Heydər Əliyev bu barədə xüsusi qərar qəbul edilməsinin zəruri olduğunu bildirdi.

Sessiyanın iclasında bir sıra cari məsələlərə də baxılaraq müvafiq qərarlar qəbul olundu.

Bununla da, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası öz işini başa çatdırdı.

*"Şərq qapısı" qəzeti, 19 dekabr 1991-ci il*

## "Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası Referendumunun keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 15 noyabr 1991-ci il tarixli qərarı haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Ali Soveti 15 noyabr 1991-ci il tarixdə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası Referendumunun keçirilməsi haqqında" qərar qəbul etmiş və ümumxalq səsverməsinin keçirilməsini 29 dekabr 1991-ci ilə təyin etmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi və onun suveren dövlət kimi tanınması, beynəlxalq hüququn subyekti kimi fəaliyyət göstərməsi yolunda atılan hər bir addımı bəyənir.

Bununla yanaşı qeyd etmək lazımdır ki, üç ildən artıq müddət ərzində Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi yolunda xalqın demokratik qüvvələrinin mübarizəsi ciddi müqavimətlərlə qarşılaşmış-

dır. Belə ki, Sovet İttifaqı Kommunist Partiyasının mövqeyini müdafiə edən Azərbaycan Kommunist Partiyasının rəhbərliyi həmin mübarizənin qarşısını almağa uzun müddət cəhd etmiş, xalqın istəyinə zidd olaraq qeyri-real, antidemokratik siyasət yeritmişdir.

1988-1990-cı illərdə Azərbaycanda milli-azadlıq, müstəqillik, respublikanın ərazi bütövlüyünün qorunub saxlanması uğrunda, Dağlıq Qarabağ Muxtar Vilayətində Azərbaycanın əslində itirilmiş dövlət hakimiyyətinin bərpa olunması məqsədilə mübarizəyə qalxan demokratik qüvvələr, geniş xalq kütlələri dəfələrlə respublika rəhbərliyi tərəfindən hüquq-mühafizə orqanlarının, hərbi hissələrin vasitəsilə boğulmuş, repressiyalara məruz qalmışlar. Azərbaycan xalqına qarşı törədilmiş hərbi təcavüz, 1990-cı ilin yanvarın 20-də SSRİ Silahlı Qüvvələrinin böyük hissələrinin Bakı şəhərinə yeridilməsi məhz Azərbaycanın milli azadlığı, dövlət müstəqilliyi üçün mübarizə aparan demokratik qüvvələrin əzilməsinə yönəldilmişdi. Elə həmin məqsədlə də heç bir əsas olmadan 1990-cı ilin yanvarından 1991-ci ilin avqust ayının 30-na qədər Bakı şəhərində fövqəladə vəziyyət rejimi hökm sürmüşdür.

Fövqəladə vəziyyət şəraitində, 1991-ci ilin mart ayının 17-də Azərbaycanda Sovet Sosialist Respublikaları İttifaqının qorunub saxlanması haqqında Referendum keçirilmiş və müsbət nəticə elan edilmişdir. Çox qəribədir ki, SSRİ-nin qorunub saxlanması haqqında ümumittifaq referendumunda Azərbaycan Respublikasının iştirakı barəsində məsələ Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında martın 7-də referendum gününə cəmi on gün qalanda müzakirə olunmuşdur. Demokratik fikirli deputatlar sessiyada SSR İttifaqının qorunub saxlanması haqqında ümumittifaq referendumunda Azərbaycan Respublikasının iştirak etməsinin əleyhinə çıxdılar, Azərbaycanın dövlət müstəqilliyinə nail olmasını tələb etdilər. Ancaq Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təzyiqi, Mərkəzi Komitənin birinci katibi A. Mütəllibovun sessiyada məzmunsuz və əsassız çıxışının nəticəsində parlament deputatlarının mühafizəkar əksəriyyəti Azərbaycan Respublikasının referendumda iştirak etməsinə səs verdi.

Azərbaycan Kommunist Partiyasının və onun yerli strukturlarının rəhbərliyi və təzyiqi altında keçirilmiş referendumun nəticələri saxta-

laşdırıldı. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının məlumatına görə SSR İttifaqının qorunub saxlanmasına referendumda iştirak edənlərin 93,3 faizi səs vermişdir. Beləliklə, Azərbaycan xalqı öz istəyinə və mənafeyinə zidd olan fakt qarşısında qoyulmuşdur.

Azərbaycan rəhbərliyinin özünü İttifaqdan ayrı təsəvvür edə bilməməsindən və taleyüklü məsələlərə İttifaq mövqeyindən yanaşmaq cəhdlərindən fərqli olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hələ 1990-cı ilin dekabrında keçirilən sessiyasında xalqın iradəsini ifadə edərək İttifaq müqaviləsini ciddi tənqid etmiş, Azərbaycan xalqının 1918-1920-ci illərdə fəaliyyət göstərmiş dövlət qurumunun - Azərbaycan Xalq Cümhuriyyətinin hərbi yolla devrilməsini Şimali Azərbaycanın işğalı kimi qiymətləndirmiş və yeni İttifaqa daxil olmağı qeyri-məqbul hesab etmişdir.

Partiya orqanlarının təzyiqinə baxmayaraq SSR İttifaqının saxlanması üzrə keçirilən referendumda Naxçıvan Muxtar Respublikası seçicilərinin cəmi 20 faizi iştirak etmişdir ki, bunların da əksəriyyəti muxtar respublika ərazisində xidmət edən hərbi qulluqçular və onların ailə üzvləri olmuşlar. Beləliklə, xalqın iradəsinə zidd olaraq keçirilən bu referendum muxtar respublika əhalisi tərəfindən boykot edilmişdir. Bununla əlaqədar, Azərbaycan Respublikasının rəhbərliyi Naxçıvan Muxtar Respublikasına qarşı Azərbaycanda kütləvi informasiya vasitələrindən istifadə edərək böhtançı məlumatlar yaymış, mənfi ictimai rəy yaratmağa çalışmış, Naxçıvan Muxtar Respublikası əhalisinin SSRİ-nin qorunub saxlanması əleyhinə səs verməsini Naxçıvanın Azərbaycandan ayrılması meyli kimi qələmə vermişdir.

Məhz bu səbəbdən Muxtar Respublika Ali Məclisinin Sədri işdən azad edilmiş, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin qərarı ilə Muxtar Respublika Konstitusiyası kobudcasına pozularaq, vilayət partiya komitəsinin yenicə təyin olunmuş birinci katibi eyni zamanda Muxtar Respublika Ali Məclisinin Sədri vəzifəsinə təyin olunmuşdur. Bunun nəticəsində Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi vəziyyət daha da kəskinləşmiş, beş aya qədər davam edən parlament böhranı yaranmışdır.

19-21 avqust dövlət çevrilişini müdafiə edən respublika rəhbərliyi xalqın artan təzyiqi ilə əlaqədar, eləcə də öz hakim mövqeyini qoruyub saxlamaq üçün 1991-ci il avqustun 30-da Ali Sovetin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" bəyannamə qəbul etməyə məcbur oldu. Bu bəyannamənin qəbul edilməsi və həmin gün Bakıda fövqəladə vəziyyət rejiminin ləğv olunması, sentyabrın 8-də Azərbaycanda keçiriləcək prezident seçkisini təmin etməyə yönəldilmişdi.

Qeyd etmək lazımdır ki, SSRİ-nin qorunub saxlanması ilə əlaqədar referendumun keçirilməsinə hər vasitə ilə çalışan Azərbaycanın kommunist rəhbərliyi 1991-ci il avqustun 30-da bəyannamə qəbul edilərkən, deputatlardan bir neçəsinin təkidinə baxmayaraq, ümumxalq səsverməsi yolu ilə xalqın iradəsini öyrənməyi lazım bilmədi. Nəticədə həmin bəyannamə ölkə və dünya ictimaiyyəti tərəfindən hüquqi və siyasi sənəd kimi qəbul edilmədi.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" bəyannamədə iki həftə ərzində "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının qəbul edilməsi nəzərdə tutulmuşdu. Lakin bu aktın qəbul edilməsi respublika rəhbərliyi tərəfindən naməlum səbəbə görə 48 gün, mətbuatda dərc edilməsi isə qanunsuz olaraq 20 gün yubadılmışdır.

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 18-də sessiyada "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı qəbul edərkən, bununla əlaqədar respublika referendumu keçirilməsi barəsində qərar qəbul etməli idi. Lakin, yenə də məlum olmayan səbəbdən belə bir qərar qəbul edilmədi. Yalnız bir ay keçəndən sonra, 1991-ci il noyabrın 15-də Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası Referendumunun keçirilməsi haqqında" qərar qəbul etmişdir.

Bu mühüm və tarixi qərarların qəbul edilməsinin əsassız olaraq gecikdirilməsi Azərbaycan Respublikası Ali Sovetinin işində ciddi nöqsanların olduğunu, respublika rəhbərliyinin Azərbaycan Respublikasının dövlət müstəqilliyinə nail olmasına daxilən müqavimət göstərdiyini sübut edir.

Respublika rəhbərliyinin ikiüzlü, qeyri-ardıcıl siyasəti, vaxtında respublikanın real müstəqilliyi üçün əməli addımlar atmaması Qarabağın bütün ərazisində bu günədək Azərbaycanın hakimiyyətinin bərpa edilməməsinin əsas səbəblərindən biridir.

Belə bir cəhət də təəccüblü görünür ki, Azərbaycanın dövlət müstəqilliyi ilə əlaqədar qəbul edilən Konstitusiya aktına zidd olaraq respublika Prezidenti Azərbaycan Respublikasının bilavasitə müstəsna səlahiyyətinə aid olan bir sıra məsələləri keçmiş İttifaqın Dövlət Şurasının iştirakı ilə həll etməyə çalışmış, hərbi qüvvələrin vahid İttifaq rəhbərliyinə tabe edilməsinə razılığını bildirmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il sentyabrın 5-də qəbul olunmuş "Keçid dövründə SSR İttifaqının dövlət hakimiyyət və idarəetmə orqanları haqqında" SSRİ Qanununu müzakirə etmədən yeni yaranan SSRİ Ali Sovetində iştirak etmək üçün 27 deputat göndərilməsinə cəhd etmişdir. Yalnız demokratik fikirli deputatların ciddi müqaviməti nəticəsində bunun qarşısı alınmışdır.

Siyasi proseslərin bu cür qorxulu və ziddiyyətli gedişi respublika rəhbərliyinin Azərbaycanın müstəqilliyi haqqında Konstitusiya aktı qəbul ediləndən sonra da müstəqil siyasi xətt yeridəcəyinə heç bir təminat vermir.

SSR İttifaqının saxlanılması ilə əlaqədar keçirilmiş referendumda və digər seçki kampaniyalarında ciddi saxtakarlığa yol vermiş, bununla da mənəvi hüququnu itirmiş Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında referendum keçirilməsinin tapşırılması yolverilməzdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Qeyd olunan tənqidi müddəalara baxmayaraq, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə əlaqədar 1991-ci il dekabrın 29-da Naxçıvan Muxtar Respublikasında referendum keçirilsin.

2. 1991-ci il martın 17-də SSR İttifaqının qorunub saxlanması ilə əlaqədar Azərbaycan Respublikasında keçirilmiş referendumun nəticələri saxtalaşdırılmış hesab olunsun və onların ləğv edilməsi üçün qərar verilməsi Azərbaycan Respublikası Ali Sovetindən xahiş edilsin.

3. SSR İttifaqının qorunub saxlanması ilə əlaqədar Referendumun keçirilməsində, digər seçkilərdə ciddi qanun pozuntularına yol verdiyinə görə mənəvi hüququnu itirmiş Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına etimadsızlıq göstərilsin.

Azərbaycan Respublikası Ali Sovetindən xahiş edilsin ki, Respublika Mərkəzi Seçki Komissiyasını buraxsın.

4. Naxçıvan Muxtar Respublikası üzrə Mərkəzi Seçki Komissiyası, rayon, şəhər seçki komissiyaları buraxılsın və üç gün müddətində yeni tərkibdə seçki komissiyaları təşkil edilsin.

5. Azərbaycan Respublikası Ali Sovetinin deputatlarının əksəriyyəti Kommunist Partiyasını təmsil edir və xalqın taleyüklü məsələlərinin həllində kobud səhvlərə yol verirlər, bütövlükdə Ali Sovet öz vəzifəsinin öhdəsindən gələ bilmir. Buna görə Azərbaycan Respublikasının Ali Sovetinin buraxılması tələb olunsun və demokratiya əsasında yeni seçkilər keçirilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 5 dekabr 1991-ci il*

## 31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, uzun əsrlik tarixə malik olan Azərbaycan türkləri öz inkişafının müxtəlif mərhələlərində dəfələrlə xarici istilaya məruz qalmış, onun ərazisi zəbt edilmiş və parçalanmış, dövlət müstəqilliyi və istiqlaliyyəti əlindən alınmışdır. Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri ilə Azərbaycan türkləri və onun tarixi ərazisi bir daha par-

çalanaraq, Rusiya ilə İran dövlətləri arasında mənafe dairələrinə bölünmüşdür.

Lakin dəfələrlə tarixi ədalətsizliyə məruz qalsa da, iqtisadi, siyasi və mədəni bütövlüyü, milli dövlət qurumu ləğv edilsə də, Azərbaycan türkləri müstəqillik və bütövlük yolunda mübarizəsini dayandırmamış, iyirminci yüzilliyin əvvəllərində yaranmış mürəkkəb tarixi şəraitdə öz müstəqilliyini bərpa etmək yolunda mühüm addımlar atmışlar. İmperiya zülmündən azad olan Quzey Azərbaycan türkləri 1918-ci il mayın 28-də dövlət müstəqilliyi qazanaraq öz tarixi ərazisində milli dövlət qurumunu - Azərbaycan Xalq Cümhuriyyətini təşkil etdilər. Çox keçmədən Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü yeni təcavüzə – bolşevik Rusiyasının silahlı müdaxiləsinə məruz qaldı. Beləliklə, qanuni seçilmiş hakimiyyət orqanı zorakılıqla devrildi və Azərbaycan türklərinin çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoyuldu. Azərbaycanın quzeyi 1804-1828-ci illərdə olduğu kimi yenidən Rusiya tərəfindən ilhaq edildi. Xalqın demokratik və istiqlalçı qüvvələrinin əksəriyyəti repressiyaya məruz qaldı, bir qismi isə mühacirət etməyə məcbur oldu.

Sovet imperiyası tərkibinə qatıldığı 70 il ərzində Azərbaycana qarşı müstəmləkəçilik siyasəti yeridilmiş, Azərbaycan türkləri təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalmışlar. İmperiya siyasəti dünya türklərini bir-birindən təcrid etmək məqsədilə pantürkizm məfhumunu Şərq aləmində təhlükəli bir ideya kimi təbliğ edərək, dünya türklərini və o cümlədən Sovetlər İttifaqında yaşayan türklərin arasında əlaqələrin məhdudlaşmasına, kəsilməsinə cəhd göstərmişdi. Bu siyasətin təzahürü kimi qanunsuz çəkilən sərhəd çəpərləri Azərbaycan türklərini ikiyə parçaladı. Bütün bunlara baxmayaraq, Azərbaycan türkləri milli dövlət quruculuğu, milli və mənəvi bütövlük, müstəqillik uğrunda mübarizəni davam etdirmişlər.

Son illərdə xalqın milli özünüdərki güclənmiş, ictimai həyatın demokratikləşməsi istiqamətində genişlənən xalq hərəkatı zəminində muxtar respublikada milli ziyalıları və demokratik qüvvələri vahid milli birlik və müstəqillik ideyası uğrunda mübarizə ətrafında birləşdirən siyasi dərnəklər və ictimai birliklər yaranmışdır. Azərbaycan Xalq

Cəbhəsi Naxçıvan vilayət şöbəsinin 1989-cu ilin noyabrında keçirilən Məclisi xalqın iradəsini bir daha ifadə edərək zorakılıqla ikiyə bölünmüş Güney və Quzey Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhəd çəpərlərinin götürülməsi və mühəndis-texniki qurğuların sökülməsi haqqında qərar qəbul etdi.

Sovet İttifaqı Kommunist Partiyası, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitələri və onların yerli orqanları, ölkənin sərhəd qoşunlarının rəhbərliyi buna mane olmaq üçün bütün hərbi-siyasi təsir vasitələrinə əl atdılar. Lakin buna baxmayaraq Azərbaycan Xalq Cəbhəsi Naxçıvan vilayət şöbəsi ardıcıl olaraq "Sərhəd hərəkatı" adı ilə bir sıra siyasi aksiyalar həyata keçirdi. Genişlənən demokratik hərəkatın nəticəsində SSRİ-nin dövlət sərhədi boyunca çəkilən sərhəd çəpərləri elliklə söküldü. İlk dəfə olaraq Arazın o tayında, bu tayında olan qohumların, həmvətənlərin ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi. Beləliklə, 1989-cu il dekabrın 31-i dünya Azərbaycan türklərinin həmrəyliyi bayramına çevrildi, 1990-cı ildə isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi.

Naxçıvan Muxtar Respublikasından başlanıb, Azərbaycanın digər sərhəd rayonlarına da keçən bu ümumxalq hərəkatına imperiya və hegemonluq mövqeyindən yanaşan SSRİ-nin və Azərbaycanın kommunist rəhbərliyi, hərbi dairələr qara yaxaraq onu antidemokratik, bir qrup ekstremistin və cinayətkar ünsürün əməli kimi qiymətləndirib, dünya ictimaiyyətinin gözündən salmağa çalışırdılar. Bu məqsədlə əsassız olaraq sərhəd zonasında fövqəladə vəziyyət rejimi yaradıldı. Sərhəd hərəkatı ilə bağlı kommunist rəhbərlərin göstərişinə əsasən Xalq Cəbhəsi üzvlərinə qarşı repressiya daha da gücləndi, onlardan bir neçəsi əsassız həbs olundu, işdən çıxarıldı, bir çox yerlərdə sökülmüş sərhəd çəpərləri bərpa olundu.

Kommunist ruhlu kütləvi informasiya vasitələri var gücü ilə sərhədlərin sökülməsini vəhşilik adlandırdı, nəyin bahasına olursa-olsun xalqın iradəsini, inamını qırmağa cəhd göstərdilər. Lakin qonşu ölkələrin, dünyanın müxtəlif yerlərində yaşayan Azərbaycan türklərinin, ümumən türk

dünyasının bu prosesə parçalanmış xalqların təbii birləşmə meyli kimi baxması və müdafiə etməsi, onu ölkədə və dünyada gedən demokratik proseslər mövqeyindən qiymətləndirməsi xalqımıza qarşı yönəldilmiş mürtəce təbliğatın qarşısını qismən aldı. 1990-cı ilin noyabr ayının 3-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan Türk dərnəkləri qurultayı isə Naxçıvan Muxtar Respublikasından başlanmış sərhəd hərəkatının real nəticəsi kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. Noyabr ayının 5-də qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il geniş qeyd edilməsi zərurəti irəli sürüldü.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. 31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü elan olunsun və hər il bayram edilsin. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin.
2. 31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilsin.
3. Naxçıvan Muxtar Respublikasının şəhər və rayon məclislərinə tapşırılsın ki, bayram günləri demokratik təşkilatların iştirakı ilə təntənəli mərasimlər hazırlayıb həyata keçirsinlər.
4. Akad. Y. Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə, Azərbaycan EA Naxçıvan şöbəsinə, Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan vilayət şöbəsinə, Xalq Təhsili Nazirliyinə tapşırılsın ki, 31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Gününə həsr olunmuş elmi konfrans keçirsinlər.
5. Sərhəd çəpərlərinin bərpa edilməsi qanunsuz hesab edilsin və onların ləğv edilməsini təmin etmək üçün deputat komissiyası yaradılsın.

Bu qərarın dünya Azərbaycan türklərinə çatdırılması təmin edilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 16 dekabr 1991-ci il*

## Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyəti haqqında

### NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
### Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, xalq deputatlarının bir çoxunun çıxışlarında muxtar respublikanın Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyətində ciddi nöqsanlar olduğu, muxtar respublikadakı ictimai-siyasi vəziyyətin qiymətləndirilməsində Dövlət Təhlükəsizlik Komitəsinin antidemokratik, antihumanist mövqe tutması haqqında konkret faktlar və dəlillər göstərilmişdir. Qeyd edilmişdir ki, son illər Dövlət Təhlükəsizlik Komitəsi Naxçıvanda gedən demokratik proseslərə qarşı fəal əks tədbirlər aparmış, onların boğulması üçün ciddi fəaliyyət göstərmiş, ictimai-siyasi hadisələr haqqında yuxarı instansiyalara yanlış məlumatlar vermiş, demokratik hərəkatın ayrı-ayrı nümayəndələrinə qarşı repressiya tədbirlərində iştirak etmişdir.

Bununla yanaşı tam qətiyyətlə israr etmək olar ki, Dövlət Təhlükəsizlik Komitəsi muxtar respublikada təhlükəsizliyi təmin etmək sahəsində üzərinə düşən birbaşa vəzifələrinin yerinə yetirilməsinə hədsiz dərəcədə məsuliyyətsiz yanaşmışdır.

SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin orqanları Azərbaycan xalqının milli mənafeyinin ziddinə olaraq, mərkəzin imperiya siyasətini dönmədən və ardıcıl surətdə həyata keçirmişlər.

Ali Məclis qeyd edir ki, Azərbaycan Respublikasının Ali Soveti 1 noyabr 1991-ci il tarixdə "Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinə çevrilməsi haqqında" qanun qəbul edərkən ciddi səhvə yol vermiş, Azərbaycan Respublikası DTK-nın fəaliyyətinə, onun respublikada gedən demokratik proseslərə qarşı çirkin, xalqa zidd roluna siyasi qiymət verməmişdir. Məlum olmayan səbəblərdən Ali Sovet 1990-cı ilin 20 yanvarında Azərbaycan xalqına qarşı həyata keçirilən və çoxlu

insan tələfatları ilə nəticələnən hərbi təcavüzdə Azərbaycan DTK orqanlarının nə dərəcədə iştirak etdiyini və təqsirini müəyyən etməyi vacib saymamış, DTK-nın ictimaiyyətə məlum olan terrorçu hərəkətlərdə iştirakı haqqında faktları aydınlaşdırmamışdır.

Bütün bunları nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyəti Naxçıvan Muxtar Respublikasının bütün ərazisində dayandırılsın. Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyəti yoxlanılsın. Naxçıvan Muxtar Respublikasında dövlət təhlükəsizliyinin təmin edilməsi üçün yeni strukturların yaradılması məqsədəuyğunluğu müəyyən edilsin. Bu məsələlərin həll edilməsi üçün yaradılan komissiyaya tapşırılsın ki, 10 gün müddətində görülən işlər haqqında məlumat və müvafiq təkliflərini təqdim etsin.

Azərbaycan Xalq Cəbhəsinə, onun Naxçıvan şöbəsinə, demokratik partiyalara və qurumlara, muxtar respublika vətəndaşlarına müraciət edilsin ki, Naxçıvan Muxtar Respublikası DTK-nın və onun yerli orqanlarının demokratiyaya, xalqa və hüquqa zidd fəaliyyəti haqqında onlara məlum olan faktları komissiyaya bildirsinlər.

2. İsfəndiyar İsa oğlu Mirzəyev Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsindən azad edilsin.

3. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi adlandırılan Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyətinin dayandırılması haqqında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilsin. Azərbaycan Respublikası DTK-nın fəaliyyətinin əsaslı surətdə yoxlanılması zəruri hesab edilsin. Bu orqanın respublikada demokratik proseslərin inkişafı illəri ərzindəki fəaliyyəti xüsusi araşdırılsın. Son illərdə Azərbaycan xalqının başına gətirilən faciələrdə Azərbaycan DTK, SSRİ DTK-nın təqsirlərinin müəyyən edilməsi vacib bilinsin. Bunların nəticələri haqqında ictimaiyyətə məlumat verilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 15 dekabr 1991-ci il*

## Naxçıvan Muxtar Respublikası Sədərək rayonunun inzibati-ərazi bölgüsündə dəyişiklik edilməsi haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 71-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Sədərək rayonunun inzibati-ərazi bölgüsündə aşağıdakı dəyişiklik edilsin:

1. Sədərək kəndinin ərazisində Sədərək kənd Xalq Deputatları Məclisi yaradılsın.
2. Sədərək kəndi Sədərək qəsəbə Xalq Deputatları Məclisinin tabeliyindən Sədərək kənd Xalq Deputatları Məclisinin tabeliyinə verilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 16 dekabr 1991-ci il*

## 1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin 13 yanvar 1992-ci il tarixli bəyanatı haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin bəyanatının mətni bəyənilsin.

2. Bəyanat Azərbaycan Respublikasının Ali Sovetinə və informasiya vasitələrinə göndərilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**
*Naxçıvan şəhəri, 13 yanvar 1992-ci il*

## 1990-CI İLİN YANVAR AYINDA BAKI FACİƏSİ İLƏ ƏLAQƏDAR NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN BƏYANATI

İki il bundan əvvəl Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmiş, xalqın milli mənliyi və qüruru təhqir olunmuşdur. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet Ordusunun xüsusi təyinatlı cəza dəstələri, Hərbi Dəniz Donanmasının və daxili qoşunlarının bölmələri qəflətən Bakı şəhərinə yeridilmiş, qanlı qırğın törədilmiş, dinc əhaliyə qarşı misli görünməmiş vəhşiliklər edilmişdir.

Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu hərbi təcavüz nəticəsində yüzlərlə günahsız insan, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yaralanmış və itkin düşmüşlər.

Bakı faciəsi ilə eyni zamanda Azərbaycanın ayrı-ayrı rayonlarında da demokratik qüvvələrə divan tutulmuş, Naxçıvan Muxtar Respublikası Sovet Ordusunun himayəsi ilə erməni təcavüzünə məruz qalmış, Kərki kəndi işğal və ilhaq edilmişdir.

Acınacaqlı olsa da, qeyd edilməlidir ki, bu qanlı faciələr imperiya qüvvələri ilə xalqa xəyanət yolu tutmuş Azərbaycanın kommunist rəhbərliyi tərəfindən birgə həyata keçirilmişdir.

Hakim mövqeyini saxlamaq üçün öz xalqına qarşı çoxminli qoşun kontingentinin təcavüzünü təşkil edən respublika rəhbərliyi Qanlı Yanvar faciəsinə indiyədək siyasi qiymət verməmiş, xalqın tələbinə bax-

mayaraq günahkarları üzə çıxarmaq üçün bu günə qədər heç bir tədbir görməmişdir.

Heç də təəccüblü deyildir ki, 1990-cı il yanvarın 22-də çağırılmış Azərbaycan SSR Ali Sovetinin yanvar hadisələrinə qiymət verməli olan sessiyası öz işini dayandırmış, sonradan onu davam etdirməmişdir.

1990-cı il yanvarın 20-dən Bakıda hüquqi əsası olmadan tətbiq edilmiş fövqəladə vəziyyət rejimi demokratik qüvvələrin təkidinə baxmayaraq uzun müddət hökm sürmüş, yalnız 1991-ci il avqust ayının 30-da Azərbaycan Prezidenti seçkilərinə bir həftə qalmış ləğv edilmişdir.

Respublika Ali Sovetinin Yanvar faciəsini təhqiq etməli olan deputat komissiyası (komissiyanın sədri Azərbaycan Respublikasının indiki dövlət katibi M. Abbasovdur) Azərbaycan xalqının həyatında baş vermiş bu dəhşətli faciəyə siyasi qiymət verilməsinə təşəbbüs göstərməmiş, bu cinayəti törədən ittifaq və respublika partiya rəhbərlərini, hüquq mühafizə orqanları işçilərini, imperiya ordusu cəlladlarını məsuliyyətə cəlb etmək üçün heç bir iş görməmişdir.

Bütün bunlar bir daha təsdiq edir ki, respublika rəhbərliyi Yanvar faciəsinin açılmasının qəti əleyhinədir və özünün bu qanlı cinayətdəki rolunu cürbəcür yolverilməz vasitələrlə ört-basdır etməyə çalışır.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hələ 1990-cı il noyabr ayının 21-də öz qərarı ilə Bakıda törədilən faciələri respublikada gedən demokratik proseslərə qəsd, dəqiq düşünülmüş hərbi təcavüz, Azərbaycan Respublikasının suveren hüquqlarını, ümumiyyətlə, insan hüquqlarını pozan hərəkət kimi qiymətləndirmiş və ittiham etmişdir. Həmin qərarda bu siyasi və hərbi qəsd üçün bilavasitə cavabdeh olan M. Qorbaçovun, həmin müddətdə Bakıda olan Sov. İKP MK katibi A. Girenkonun, SSRİ Ali Sovetinin sədri Y. Primakovun, SSRİ müdafiə naziri D. Yazovun, SSRİ daxili işlər naziri V. Bakatinin, Sov. İKP MK-nın məsul işçisi A. Mixaylov, eləcə də respublika rəhbərliyi - Azərbaycan KP MK-nın keçmiş birinci katibi Ə. Vəzirov, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Sədri E. Qafarova, Azərbaycan SSR Nazirlər Sovetinin o zamankı sədri A. Mütəllibov, Azərbaycan KP MK-nın büro üzvlərindən V. Polyaniçkonun, M. Məmmədovun, V. Hüseynovun məsuliyyət daşıdıqları göstərilmişdir.

Həmçinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycanın Ali hakimiyyət orqanının Bakı faciələrinə siyasi qiymət vermədiyinə, bununla əlaqədar yaradılmış xüsusi deputat komissiyasının öz işini başa çatdırmadığına, qanlı hadisələrin günahkarlarını aşkara çıxarmadığına və məsuliyyətə cəlb olunmadıqlarına qəti etirazını bildirmiş, Azərbaycan SSR Ali Sovetindən tələb etmişdir ki, ən qısa müddətdə həmin məsələni müzakirəyə çıxarsın. Lakin 1990-cı ilin noyabr ayında irəli sürülən həmin tələbə bu günədək baxılmamışdır. Beləliklə, açıq təcavüzə məruz qalan Azərbaycan xalqı bu işdə təqsiri olan respublikanın Ali hakimiyyət orqanının və bir qrup vəzifəli şəxsin xalqa zidd mövqeyi ucbatından öz övladlarının qatillərini ittiham və mühakimə etmək imkanından məhrum olmuşdur.

Azərbaycanın dövlət müstəqilliyi elan olunandan sonra da, hətta Qanlı Yanvar faciəsinin 2-ci ildönümü qarşısında bu faciəyə siyasi qiymət verilməməsi bağışlanmazdır və təbii olaraq respublikada gərginliyi artırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti tələb edir ki, yol verilmiş tarixi ədalətsizlik aradan qaldırılsın, Azərbaycan xalqının günahsız övladlarının qatilləri aşkar edilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 13 yanvar 1992-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİNDƏ

1992-ci il fevralın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin iclası keçirilmişdir. İclasın gündəliyinə Naxçıvan aeroportunda tikinti işlərinin gedişi, Naxçıvan hava limanından səmərəli istifadə etmək, Azərbaycanın və keçmiş İttifaqın bir neçə şəhəri-

nə, həmçinin İran və Türkiyəyə yeni hava yolları açmaq haqqında Rusiyanın "Oryol" və bir sıra şirkətlərin təkliflərinə münasibət, muxtar respublika ərazisində yerləşən keçmiş İttifaq ordusu hərbi hissələrinin qulluqçuları ilə yerli əhali arasında son zamanlar baş vermiş münaqişələr haqqında və digər məsələlər salınmışdır.

Ali Məclisin Rəyasət Heyəti Naxçıvan hava limanında yeni uçuş xəttinin qısa vaxtda istifadəyə verilməsi məqsədilə təxirəsalınmaz tədbirlər müəyyən etmiş, qeyd edilən şirkətlərin təkliflərinə müsbət münasibətini bildirmiş və muxtar respublikanın Nazirlər Kabinetinə bu barədə ilkin müqavilənin bağlanmasını tapşırmışdır.

İclasda qeyd olunmuşdur ki, muxtar respublika ilə qonşu ölkələr arasında genişlənməkdə olan iqtisadi, ticarət və mədəni əlaqələr bu işlərin lazımi səviyyədə təşkil olunması zərurətini irəli sürür.

Muxtar respublikanı Azərbaycanın qalan hissəsi ilə birləşdirən bütün kommunikasiya xətlərinin Ermənistanın ərazisindən keçməsi ilə bağlı son illər Naxçıvanda yaranmış çətin vəziyyət və bu xətlərin İran İslam Respublikasının ərazisindən çəkilməsinin sürətləndirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında kommunikasiyalar üzrə xüsusi dövlət komitəsi təşkil etmək haqqında qərar qəbul edilmişdir.

İclasda müzakirə olunan digər məsələlərlə bağlı müvafiq qərarlar qəbul olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

## BAŞ NAZİR SESSİYANI GÖZLƏMƏDİ

### (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasından qeydlər)

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasına, bir qayda olaraq, muxtar respublikanın və Azərbaycanın xalq deputatlarından əlavə nazirlər, komitə sədrləri, rayon, şəhər xalq deputatları məclisinin və

onların icraiyyə komitələrinin sədrləri, baş idarələrin, ictimai və siyasi təşkilatların nümayəndələri də dəvət olunurlar.

Ali Məclisin fevralın 24-də başlanan sessiyasında da bu ənənə dəyişməmişdir. Həmin sessiyaya Naxçıvan Muxtar Respublikasının Baş naziri, muxtar respublikanın xalq deputatı Becan Fərzəliyev də dəvət olunmuş, əvvəlcədən sessiyanın keçiriləcəyi barədə ona məlumat verilmişdi. Lakin Baş nazir Ali Məclisin Rəyasət Heyətinə vəzifəsindən istefa verməsi barədə ərizə təqdim edərək, fevralın 13-də Ordubada getmiş, 4 gün sonra isə yük qatarı teplovozunun kabinəsində Mincivana, oradan da Bakıya yollanmışdır.

Sessiyanın gündəliyində qoyulan məsələlərdən biri Becan Fərzəliyevin istefası barədə verdiyi ərizənin müzakirəsi olduğundan, deputatlar həmin ərizəyə onun iştirakı olmadan baxmağı lazım bilmişlər.

Sessiyanı Ali Məclisin Sədri Heydər Əliyev aparmışdır. O, Baş nazir Becan Fərzəliyevin muxtar respublikanın nazirlər kabinetinə sədr seçildiyi dövrdən ötən beş ay ərzində fəaliyyəti barədə deputatlara geniş və ətraflı məlumat verdikdən sonra bu barədə müzakirələr başlanmışdır.

Qeyd edək ki, ötən il sentyabrın əvvəllərində Becan Fərzəliyev Baş nazir seçilərkən onun namizədliyini demokratik blokun üzvləri irəli sürmüş və əsasən yekdilliklə müdafiə etmişdilər. Vur-tut beş ay keçdikdən sonra isə həmin blokun üzvləri, o cümlədən Ali Məclisin demokratik blokdan olan sədr müavinləri Asif Kələntərli, Qafar Məmmədov, Əşrəf Talıbov, Eyvaz Hüseynov və bir çox başqaları yekdilliklə Becan Fərzəliyevin beş aylıq fəaliyyətinə mənfi qiymət vermiş, bununla bərabər bir çox deputatlar tələb etmişlər ki, Baş nazir öz ərizəsinə görə yox, işdə yol verdiyi kobud nöqsanlara, hətta cinayət xarakterli hərəkətlərinə görə tutduğu vəzifədən azad olunmalıdır. Deputatların bəziləri hətta onun haqqında cinayət işi qaldırılmasını tələb etmişlər.

Bəs bu qısa müddətdə Becan Fərzəliyev nə kimi nöqsanlar buraxmış, hansı cinayət xarakterli hərəkətə yol vermişdir?..

Muxtar respublika Ali Məclisinin Elm, xalq təhsili və mədəniyyət daimi komissiyasının sədri Əli Həsənov:

- Muxtar respublikanın Baş nazirinin hərəkətləri bir neçə dəfə Rəyasət Heyətində müzakirə edilmiş, buraxdığı nöqsanlar onun nəzərinə

çatdırılmışdı. Lakin Becan Fərzəliyev bundan heç bir nəticə çıxarmamışdır. O, indi yox, bir neçə ay əvvəl istefa verməli idi. Onun əməlləri cinayət xarakterlidir. Sessiyada Baş nazirin əməllərinə bu cür prinsipial münasibət təqdirəlayiqdir. Vəzifəsindən asılı olmayaraq, Ali Məclis hər hansı bir neqativ hərəkətə qarşı elə o cür də prinsipial olmalıdır.

Naxçıvan MR xalq deputatı Əşrəf Talıbov:

- Becan Fərzəliyevin hərəkətlərinə bugünkü münasibət, onun ifşa edilməsi həqiqətin təzahürüdür. Becan Fərzəliyev işlədiyi müddətdə öz mənafeyini respublikanın mənafeyindən üstün tutmuşdur. O, vəzifəsindən uzaqlaşdırılmalı, hətta cinayət məsuliyyətinə cəlb olunmalıdır...

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası işdə buraxdığı nöqsanlara görə Becan Fərzəliyevi Naxçıvan MR Baş naziri vəzifəsindən azad etmək haqqında yekdilliklə qərar qəbul etmişdir. Qərar muxtar respublika əhalisi tərəfindən razılıqla qarşılanmışdır.

Sessiyada Azərbaycan Respublikasının Torpaq Məcəlləsi haqqında məsələ də müzakirə edilmişdir. Həmin məsələ barədə Ali Məclisin Aqrar-sənaye daimi komissiyasının sədri Xəncan Ağrılı məruzə etmişdir.

Məruzə ətrafında müzakirələr diskussiya xarakteri almışdır. Deputatlar Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə münasibətlərini bildirməklə yanaşı, son illər Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının düşdüyü böhran vəziyyətindən də ürəkağrısı ilə danışmışlar...

Muxtar respublikada torpaqların əkinə yararlı hala salınması işi də günün tələbləri səviyyəsində deyildir. Hələ də min hektarlarla əkilməyən torpaq vardır. Onların cana gətirilməsi üçün heç bir iş görülmür...

Bütün bu və buna bənzər nöqsanları qeyd edən deputatlar torpağın kəndliyə verilməsini, xüsusilə rentabelsiz təsərrüfatların torpaqlarının birinci növbədə paylanmasının zərurəti üzərində dayanmış, bu məsələdə Azərbaycan Respublikasının Torpaq Məcəlləsini əldə rəhbər tutaraq muxtar respublikanın yerli şəraitinə uyğun müəyyən dəyişikliklərlə qəbul edilməsinə tərəfdar çıxmışlar.

Naxçıvan MR Nazirlər Kabinetinə tapşırılmışdır ki, bu il mart ayının 15-nə kimi torpaq haqqında qanunu hazırlayıb Ali Məclisə təqdim etsin.

Sessiyada bir sıra digər məsələlər də müzakirə olunmuş, müvafiq qərarlar qəbul edilmişdir. Naxçıvan MR Mərkəzi Seçki Komissiyasının tərkibinə yenidən baxılmış, bir neçə yeni sovetliyin təşkil edilməsi, muxtar respublikanın Dövlət Kommunikasiya Komitəsinin, Dövlət Gömrük Komitəsinin yaradılması, Bakıda Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyinin açılması barədə qərar qəbul edilmiş, bir sıra digər məsələlərə baxılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev sessiyanın işinə yekun vuraraq qeyd etmişdir ki, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası hazırda bir çox çətinliklərlə üz-üzə dayanmışdır. Lakin tam ümid etmək olar ki, muxtar respublikanın əhalisi bu sınaqlardan alnıaçıq çıxacaq, bütün qüvvələri səfərbərliyə alaraq ümumi vəziyyətin yaxşılaşdırılmasına nail olacaqdır.

**M. MÖHSÜN**

*"Həyat" qəzeti, 3 mart 1992-ci il*

## Naxçıvan Muxtar Respublikasının Baş naziri B. Fərzəliyev haqqında

### NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN QƏRARI

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, B. Fərzəliyev muxtar respublikanın Baş naziri vəzifəsində işlədiyi dövrdə Nazirlər Kabinetinin işini günün tələbləri səviyyəsində qura bilməmiş, əməli fəaliyyətində kobud və ciddi nöqsanlara yol vermişdir. 1991-ci ilin sentyabr ayına qədər olduğu kimi, bundan sonrakı dövrdə də Nazirlər Kabinetinin tərkibi yenidən təşkil olunmamış və beləliklə də Nazirlər Kabinetinin üzvlərinin əksəriyyəti səlahiyyətsiz fəaliyyət göstərməkdədirlər. Bu halı müəyyən dərəcədə obyektiv səbəblərlə izah etmək mümkündürsə, Nazirlər Kabinetinin mövcud tərkibinin və kabine-

tin aparatının işinin lazımi səviyyədə təşkil olunmamasına heç vəchlə bəraət qazandırmaq olmaz.

Belə ki, Nazirlər Kabinetinin və onun Rəyasət Heyətinin iclasları keçirilməmiş, məsələlərin demək olar ki, hamısı Baş nazir Fərzəliyevin istədiyi kimi özbaşınalıq və təkbaşınalıq şəraitində sorğu üsulu ilə həll olunmuş, beləliklə kollegiallıq prinsipləri kobud surətdə pozulmuş və bunların nəticəsində muxtar respublikanın iqtisadiyyatına zərər vuran və mahiyyət etibarilə şübhəli xarakter daşıyan bir çox qərarlar və sərəncamlar qəbul olunmuşdur.

Belə bir şəraitdə muxtar respublikanın iqtisadiyyatını uzun illər ərzində hökm sürən böhran vəziyyətindən çıxarmaq haqqında məsələlər Nazirlər Kabinetində təhlil olunmamış, lazımi müzakirələr aparılmamış, böhran vəziyyətindən çıxmaq yolları və konkret tədbirlər müəyyən edilməmişdir. Muxtar respublikanın iqtisadi potensialından, son vaxtlarda yaranmış yeni tipli iqtisadi strukturlardan səmərəli istifadə etmək, bazar iqtisadiyyatına keçmək üçün konkret tədbirlər görülməmişdir. Bunların nəticəsində iqtisadiyyatın əsas sahələrində - sənayedə, kənd təsərrüfatında, tikintidə və sosial təminat sahələrində heç bir inkişaf olmamış, əksinə böyük geriliyə yol verilmişdir.

İqtisadiyyatın bir çox sahələrində adamların rəhbər vəzifələrə təyin edilməsini və azad olunmasını şəxsən öz üzərinə götürərək, B. Fərzəliyev kadr işində bir çox səhvlərə yol vermişdir. Rəhbər vəzifələrdən ayrı-ayrı şəxslərin əsaslandırmadan və müzakirə edilmədən özbaşına azad olunması və həmin vəzifələrə istədiyi adamları, bəzən isə dostluq münasibətlərinə, subyektivliyə üstünlük verərək təyin etməsi kadr işində kollegiallıq prinsiplərini pozmuş, ictimaiyyətdə bəzən narazılıqlara və cürbəcür şayiələrin yayılmasına səbəb olmuşdur.

Naxçıvanın ən böyük sənaye müəssisələrindən olan xalçaçılıq kombinatı 5 aydan çoxdur ki, direktorsuz qalıb. B. Fərzəliyev bu məsələ ilə Baş nazir vəzifəsinə təyin olunduğu ilk günlərdən şəxsən məşğul olmağa başlamış, lakin bu iş indiyə qədər heç bir nəticə verməmişdir. Kombinatın kollektivi dəfələrlə Ali Məclisə, Nazirlər Kabinetinə müəssisənin ağır vəziyyətdə olması ilə əlaqədar müraciətlər etmişdir. Təxminən 4 ay bundan əvvəl B. Fərzəliyev kombinatın kollektivi qar-

şısında çıxış edərək, özünün kombinata direktor təyin olunması haqqında bəyanat vermiş, ancaq bu sahədə heç bir iş görməmiş, əksinə ötən müddət ərzində isə kombinat daha bərbad hala düşmüşdür. Kombinatın tikilməkdə olan korpusunun inşaat işləri tamamilə dayanmış, çox mühüm əhəmiyyətli olan tikinti materiallarının bir hissəsi dağıdılmışdır.

Sədərək gömrükxanasının təşkili və onun kadrlarla komplektləşdirilməsi işində Baş nazir B. Fərzəliyevin məsuliyyətsiz hərəkətləri çox ciddi nöqsanlarla nəticələnmişdir. Araşdırmalardan aydın olmuşdur ki, B. Fərzəliyev Azərbaycan Gömrük İdarəsini aldatmaqla, Ali Məclisin razılığını almadan Sədərək gömrükxanasının rəisi vəzifəsinə işgüzarlıq keyfiyyətlərinə görə yaramaz olan və belə bir iş üçün ümumiyyətlə heç bir təcrübəsi olmayan Səfər Əliyevi təyin etmişdir. B. Fərzəliyevlə dostluq əlaqələrindən istifadə edərək S. Əliyev yeni yaranmış gömrükxananın tərkibini kadrlarla komplektləşdirərkən bu sistemdə işləməyə heç cür yaramayan bir çox adamları özbaşına cürbəcür vəzifələrə qoymuşdur.

Naxçıvan Yanacaq İdarəsinin direktorunun əsaslandırılmadan və lazımi instansiyalarda razılaşdırılmadan vəzifəsindən azad edilməsi və bu vəzifəyə müvəqqəti olaraq Nazirlər Kabineti aparatının işçisinin təyin olunması və 3 aydan sonra isə həmin adamın bu işdən azad olunması yanacaq idarəsində işlərin daha da pisləşməsinə səbəb olmuş və bu da B. Fərzəliyevin kadrlarla iş sahəsində buraxdığı nöqsanlardan biridir.

Bir çox hallarda B. Fərzəliyev Baş nazir səlahiyyətinə aid olmayan məsələlərlə nədənsə bilavasitə məşğul olmuş, nazirliklərin, şəhər və rayon təşkilatlarının hüquqlarını əsassız olaraq əllərindən almışdır. Bunlar isə mənfi nəticələrə gətirib çıxarmışdır (Politexnik texnikumunun rəhbərliyinin dəyişdirilməsi, texnikumun bir neçə müəlliminin əsassız olaraq işdən azad olunması, Şərur rayonunun Kəngərli zonasında müstəqil tütün qəbulu məntəqəsinin yaradılmasına, Azərbaycan Dəmir Yolu Naxçıvan hissəsi yük şöbəsinin rəisi B. Fərəcovun tutduğu vəzifədən azad edilməsinə sərəncam verməsi və sair). Bəzi hallarda isə Ali Məclisin səlahiyyətinə aid olan kadr məsələləri haqqında heç

kimlə razılaşmadan qeyri-qanuni qərarlar qəbul etmişdir. 11 dekabr 1991-ci ildə B. Fərzəliyev maliyyə naziri N. İmanovun heç bir əsas olmadan işdən azad olunması barədə qərar imzalamışdır.

Muxtar respublikanın iqtisadi blokadaya alınması ilə əlaqədar olaraq Türkiyə Respublikasının "Qızıl Ay", İran İslam Respublikasının "Hilal Əhmər" cəmiyyətləri vasitəsilə muxtar respublikaya gətirilən humanitar yardımın Nazirlər Kabinetində bilavasitə B. Fərzəliyevin rəhbərliyi altında bölünməsi və paylanması işində pozuntulara yol verilmişdir. Humanitar yardım kimi muxtar respublikaya gəlmiş sənaye mallarının əhaliyə çatdırılması işindəki pozuntular daha çox narazılığa səbəb olmuşdur.

Baş nazir B. Fərzəliyevin fəaliyyətində olan özbaşınalıq onun dövlət intizamını və qanun-qaydalarını kobudcasına pozmasında da özünü göstərmişdir. Ali Məclisin Rəyasət Heyətinin 13 yanvar 1992-ci il tarixli qərarında qeyd olunduğu kimi, Baş nazir B. Fərzəliyev 1991-ci il dekabr ayının 11-də naməlum səbəblərə görə Ali hakimiyyət orqanından icazə almadan dövlət avtomobilində İran İslam Respublikasının ərazisinə keçmiş, uzun müddət respublikada olmamışdır. Araşdırmalardan məlum olmuşdur ki, xarici ölkənin ərazisindən keçərək Bakıya gəlmiş, 20 gün burada qaldıqdan sonra yenidən dövlət avtomobilində İran İslam Respublikasının ərazisinə keçmiş, Təbriz və Tehran şəhərlərində olmuş, İran İslam Respublikasının rəsmi dairələrində naməlum danışıqlar aparmış və nəhayət, 1992-ci il yanvar ayının 3-də Naxçıvana qayıtmışdır. Bunlarla əlaqədar olaraq B. Fərzəliyevdən Ali Məclisə izahat verməsi tələb olunmuşdur. Lakin o, izahat verməkdən imtina etmiş, Rəyasət Heyətinin iclasını təhqiramiz sözlərlə tərk edərək, bir daha öz intizamsızlığını nümayiş etdirmişdir.

Məhz buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin 31 yanvar 1992-ci il tarixdə qəbul etdiyi qərarda B. Fərzəliyevin dövlət intizamını və qanun-qaydalarını kobudcasına pozması barədə 13 yanvar 1992-ci il tarixli qərarını yerinə yetirmədiyi qeyd edilmiş və tələb olunmuşdur ki, o, 5 gün müddətinə Ali Məclisə yazılı izahat təqdim etsin. Lakin Baş nazir B. Fərzəliyev intizamsızlığını bundan sonra da davam etdirmişdir.

Baş nazir təyin olunandan sonra B. Fərzəliyev Naxçıvan şəhərindəki qonaq evinin ərazisində yerləşən ikimərtəbəli dövlət malikanəsini tutmuş və ailəsi ilə birlikdə orada yaşamışdır. Baş nazirin nüfuzunu qorumaq məqsədilə qonaq evində yaşaması Ali Məclisin rəhbərliyi tərəfindən səhv addım kimi qiymətləndirilmiş və dəfələrlə təklif olunmuşdur ki, yaşamaq üçün kommunal mənzilə köçsün. Lakin B. Fərzəliyev verilən məsləhətlərə qulaq asmamış, dövlət malikanəsində yaşamaqda davam etmişdir. 1992-ci ilin yanvar ayının 31-də keçirilən Rəyasət Heyətinin iclasında B. Fərzəliyevə bildirilmişdir ki, qonaq evində yaşaması yolverilməzdir və qətiyyətlə təklif olunmuşdur ki, qonaq evini tərk etsin və onun üçün ayrılmış, yüksək səviyyədə dövlət hesabına təmir olunmuş kommunal mənzilə köçsün. B. Fərzəliyev Ali Məclisin bu müvafiq qərarını da yerinə yetirməmiş, ictimaiyyətin rəyinə məhəl qoymayaraq, qonaq evində yaşamaqda davam etmişdir.

İran İslam Respublikasının "Şərq eksport və import" şirkətinin Moskva şəhərinə dəmir yolu vasitəsilə göndərilən 21252566 nömrəli vaqonunun Baş nazir B. Fərzəliyevin heç bir hüquqi əsası olmayan 417-s nömrəli 25 oktyabr 1991-ci il tarixli sərəncamı ilə qanunsuz açılıb istifadə olunması Baş nazir üçün heç bir çərçivəyə sığmayan haldır. Qeyd olunan vaqon Culfa dəmiryol stansiyasından Naxçıvan stansiyasına gətirilib açılmış və vaqonda olan 9 milyon 280 min ədəd saqqızın bir hissəsi satılmış, bir hissəsi isə "Turaz" assosiasiyasına, "Zərdüşt" kooperativinə verilmişdir. Bu qeyri-qanuni əməliyyatlar nəticəsində muxtar respublika xarici şirkətə 96 min Amerika dolları borclu qalmış, Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin təsərrüfat hesablı mağazasının, "Turaz" assosiasiyasının, "Zərdüşt" kooperativinin rəhbərliyi milyonlarla qanunsuz gəlir əldə etmişlər. Bu məsələ 1992-ci il fevral ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin iclasında geniş təhlil və müzakirə olunmuş, B. Fərzəliyevin hakimiyyət səlahiyyətlərindən sui-istifadə etməsi kimi tutduğu hökumət başçısı vəzifəsinin statusu ilə bir araya sığmayan, muxtar respublikanın dövlət mənafeyinə mühüm ziyan vuran əməl kimi qiymətləndirilmişdir.

Baş nazir B. Fərzəliyevin vəzifəsindən sui-istifadə edib qanunsuz hərəkət etməsinə dair başqa faktlar da var. 1991-ci ilin sentyabr ayında Sədərək rayon istehlak cəmiyyətinin Bakıdan gətirdiyi 100 ədəd kondisioner şəxsən B. Fərzəliyevin nəzarəti altına alınmışdır. Kondisionerlərin bir hissəsi satılıb, bir hissəsi xarici qonaqlara hədiyyə verilib, əksər hissəsi B. Fərzəliyevin şəxsi göstərişləri ilə uzun müddət anbarda saxlanılıbdır.

Daxili İşlər Nazirliyinin araşdırmalarından məlum olubdur ki, kondisionerlərdən 20 ədədi Sədərək kəndinin sakini, Nazirlər Kabinetində Baş nazirin köməkçisi vəzifəsini icra edən K. Həsənov tərəfindən götürülüb və Sədərək kəndində şəxsi evinin zirzəmisində gizli saxlanılırdı. Kondisionerlərin 49 ədədi indiyə qədər rayon istehlak cəmiyyətinin anbarında saxlanılıbdır. Sənaye mallarının son vaxtlar qiymətlərinin xeyli artmasına baxmayaraq, anbarda saxlanılan kondisionerlərin qiymətlərində müvafiq dəyişikliklər edilməyib. Belə bir qeyri-qanuni əməliyyatların B. Fərzəliyevin şəxsi rəhbərliyi altında aparılması Baş nazirə layiq olmayan hərəkətdir.

Baş nazir Fərzəliyevin bir neçə kooperativlə, xarici şirkətlərlə iqtisadi əlaqələr saxlamaq hüququ olmadığı halda, İran İslam Respublikasının şirkətləri ilə barter əməliyyatları aparılmasına icazə verilməsi haqqında verdiyi sərəncamlar, bir çox kooperativlərə şərab zavodlarından şərab məhsulları verilməsi haqqında imzaladığı sərəncamlar muxtar respublika üçün iqtisadi səmərəsinə və zəruriyyətinə görə şübhə doğurur və bunların nə dərəcədə əsaslı olduğu yoxlanmalıdır.

B. Fərzəliyevə Baş nazir vəzifəsində fəaliyyət göstərdiyi dövrdə buraxdığı səhvlərlə əlaqədar Ali Məclisin rəhbərliyi tərəfindən yoldaşlıq məsləhətləri verilmiş, xəbərdarlıq edilmiş və nəhayət buraxdığı səhvlərlə və intizamsızlığı ilə əlaqədar məsələlər Ali Məclisin Rəyasət Heyətində müzakirə edilmiş və müvafiq qərarlar qəbul olunmuşdur. Lakin bunlardan o, özü üçün heç bir nəticə çıxarmamış, axıra qədər intizamsızlığını nümayiş etdirmişdir.

Yuxarıda qeyd olunanları əsas tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin muxtar respublikanın Baş naziri B. Fərzəliyevin buraxdığı səhvlərlə əlaqədar qəbul etdiyi 13 yanvar 1992-ci il, 31 yanvar 1992-ci il və 18 fevral 1992-ci il tarixli qərarları bəyənilsin.

2. Dövlət intizamını və qanun qaydalarını kobudcasına pozduğuna, vəzifəsindən sui-istifadə etdiyinə, əməli fəaliyyətində ciddi və kobud nöqsanlar buraxdığına görə B. Fərzəliyev Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 24 fevral 1992-ci il*

## Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyinin təsis edilməsi haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyi təsis edilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 24 fevral 1992-ci il*

## Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılması haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
QƏRARI

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi yaradılsın.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 24 fevral 1992-ci il*

## NAXÇIVANIN YENİ HAVA LİMANI

Naxçıvan Muxtar Respublikasının paytaxtında ağır yüklü sərnişin və nəqliyyat təyyarələrini qəbul etməyə imkan verən yeni aeroportun ilk növbəsi işə salınmışdır. "Azərenerjitikinti" Birliyinin Vayxır Tikinti-Quraşdırma İdarəsinin inşaatçıları tərəfindən cəmi iki ilə tikilmiş birinci növbə yerli aviatorlara normativdə nəzərdə tutulduğundan 4 il qabaq təhvil verilmişdir...

Tikintinin bu sürəti həyati zərurətdən irəli gəlmişdir. Naxçıvanı Azərbaycanın qalan ərazisi ilə birləşdirən və Ermənistandan keçən polad magistralın işində tez-tez fasilələr olduğuna görə respublikanın cənub-qərbində yerləşən bu dağlıq diyar dəfələrlə mühasirədə qalmışdır.

Yeni aviakompleks naxçıvanlıların çətinliklərini aradan qaldırmağa kömək göstərəcəkdir. Ötən bazar günü axşam kompleksin birinci növbəsinin müvəffəqiyyətlə sınaqdan çıxarılması başa çatdırılmışdır.

İlk "TU" təyyarələrinin Naxçıvana gəlməsinə həsr olunmuş mitinqdə hava əlaqəsinin inkişaf perspektivlərindən, blokada şəraitində

onun əhəmiyyətindən xeyli danışılmışdır. Mitinqdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, şəhər ictimaiyyətinin nümayəndələri çıxış etmişlər.

Mitinqin iştirakçıları Xocalının erməni silahlı quldur dəstələri tərəfindən ələ keçirilməsi zamanı həlak olmuş müdafiəçilərinin və dinc sakinlərinin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

*"Həyat" qəzeti, 3 mart 1992-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1992-ci il martın 5-də Araz çayı üzərindəki körpü vasitəsilə 97 nəfər Azərbaycan vətəndaşı Türkiyə Respublikasından Naxçıvan Muxtar Respublikasına gəlmişdir. Bakı şəhərinin və Sabirabad rayonunun sakinlərindən ibarət olan bu dəstə fevral ayında Türkiyə Respublikasına turist səfərinə yola düşmüşdü. Batumdakı gömrükxanadan Türkiyəyə keçən turistlərimiz Gürcüstan ərazisində talan və qarətlərə məruz qalmış, səfərdə böyük çətinliklərlə üzləşmişlər. Bu səbəbdən də yenidən Gürcüstanın ərazisi ilə Vətənə qayıtmaq istəməmişlər.

Vəziyyətdən xəbər tutan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl ilə telefonla əlaqə saxlamış, Azərbaycan vətəndaşlarının Sədərəklə Aralıq arasındakı körpüdən Naxçıvan Muxtar Respublikasına yola salınmasını xahiş etmişdir.

Martın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin bu vətəndaşlarla görüşü olmuşdur. Turist dəstəsinin adından görüşdə çıxış edən Əliyar Namazov, Səriyyə Əbülhəsənova, Alim Zülfüqarov səfərdə çəkdikləri çətinliklərdən, türk qardaşlarının onlara göstərdiyi diqqət və qayğıdan danışmış, Vətənə qayıtmalarına köməklik etmiş muxtar respublika Ali Məclisinin Sədri Heydər Əliyevə öz minnətdarlıqlarını bildirmişlər.

Ali Məclisin Sədri Heydər Əliyev qeyd etmişdir ki, Azərbaycanın qalan hissəsindən ayrı düşmüş, Ermənistanın ərazisi ilə əhatə olunmuş Naxçıvan Muxtar Respublikası çətin vəziyyətdədir. İqtisadi və kommunikasiya blokadası şəraitində yaşayan Naxçıvana İran İslam Respublikası və Türkiyə Respublikasından humanitar yardım daxil olur. Lakin bütün naxçıvanlılar, muxtar respublika rəhbərliyi harada olursa-olsun çətinliyə düşmüş həmvətənlərinə bacardıqları köməyi göstərməyi özlərinə Vətən və türkçülük borcu bilirlər. Heydər Əliyev demişdir: "Qədim türk diyarı Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Qarşılaşdıqları çətinliklərə dözə-dözə naxçıvanlılar Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparırlar. Rusiyanın əsarətindən çıxandan sonra Azərbaycan türk, İslam aləminə yaxınlaşıb qovuşmalıdır. Bu mənada Naxçıvan türk, İslam dünyasına bir qapıdır". Ali Məclisin Sədri bildirmişdir ki, elə bu gün azərbaycanlı turistlər xüsusi təyyarə ilə Bakıya yola salınacaqlar.

*Naxçıvan şəhəri, 6 mart 1992-ci il*

*ƏSASLI İSLAHATLAR YOLUNDA*

# ON İKİNCİ ÇAĞIRIŞ NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SESSİYASININ NÖVBƏTİ İCLASI

Aprelin 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası öz işini davam etdirmişdir. İclası Ali Məclisin Sədri Heydər Əliyev aparırdı.

Deputatlar gündəlikdə duran ikinci məsələnin - zərərlə işləyən kolxoz və sovxozlar haqqında məsələnin müzakirəsinə başladılar.

Həmin məsələ ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini M. Abbasov muxtar respublika Nazirlər Kabineti və Ali Məclisin kənd təsərrüfatı komissiyası ilə birlikdə hazırlanmış tövsiyələrlə çıxış etdi.

Məsələnin müzakirəsinə başlamazdan əvvəl Ali Məclisin Sədri bildirdi ki, həmin məsələyə dair alternativ layihələr də hazırlanmışdır. Yaxşı olar ki, həmin layihələrlə tanış olub sonra müzakirələrə başlayaq.

Deputatlar bu təkliflə razılaşdılar. Deputat E. Cəlilov və Ə. Talıbov alternativ layihələrlə çıxış etdilər.

Sonra Ali Məclisin Kənd təsərrüfatı daimi komissiyasının sədri X. Ağrılının çıxışı dinlənildi.

Müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul edildi.

Aprelin 7-də Ali Məclis sessiyasının növbəti iclası öz işini davam etdirdi. Deputatlar gündəlikdə duran üçüncü məsələnin - Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqında məsələnin müzakirəsinə başladılar.

Həmin məsələ ilə əlaqədar muxtar respublika Ali Məclisi Sədrinin birinci müavini R. Həsənov məruzə etdi.

Məsələnin müzakirəsində çıxış edən deputatlar H. Əliyev, H. Hüseynov, F. Şirzadov, Ə. Talıbov, Xalq Azadlıq Partiyasının üzvü M. Məmmədov, muxtar respublika Baş nazirinin birinci müavini M. Abbasov və başqaları qeyd etdilər ki, respublikada yaranmış indiki şəraitdə Prezident seçkiləri keçirmək, ümumiyyətlə, arzuedilməzdir. Ancaq

respublika Ali Sovetinin prezident seçkiləri keçirilməsi haqqında qərar verməsini, Azərbaycan Xalq Cəbhəsinin seçkilərdə iştirak etməsini və öz namizədini irəli sürməsini nəzərə alaraq prezident seçkilərinin keçirilməsinə getmək lazımdır. Lakin respublika Mərkəzi Seçki Komissiyası və yerlərdə olan seçki komissiyalarının hamısı buraxılmalı və seçki komissiyaları yenidən təşkil olunmalıdır.

Naxçıvan MR Müəllimlər Birliyinin sədri Həmid Əliyev öz çıxışında respublika Prezidenti seçkilərində yaş məhdudiyyətinin ləğv edilməsi haqqında məsələ qaldırdı və həmin məsələ ilə əlaqədar Müəllimlər Birliyinin bəyanatını oxudu.

Müzakirələrə yekun vurarkən Ali Məclisin Sədri Heydər Əliyev dedi ki, bu məsələnin Ali Məclisin sessiyasına çıxarılması birinci növbədə onunla əlaqədardır ki, əgər həmin məsələ barədə Azərbaycan Respublikası Ali Soveti qərar qəbul edibsə, buna muxtar respublikanın Ali Məclisi də baxmalıdır. Bu məsələnin müzakirə edilməsinin səbəblərindən biri də ondan ibarətdir ki, Azərbaycan Ali Sovetinin prezident seçkiləri haqqında martın 25-də qəbul etdiyi qərarda, ondan sonra Mərkəzi Seçki Komissiyasının qərarında və onun seçki dairələri haqqında elan etdiyi məlumatda Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqları pozulmuşdur. Ona görə də biz bunu müzakirə etməli idik. Mən belə hesab edirəm ki, biz səmərəli müzakirə apardıq.

Millət vəkilləri, Xalq Cəbhəsinin və siyasi partiyaların nümayəndələri öz sözlərini dedilər. Mən heç bir partiyanın üzvü deyiləm. Kommunist Partiyasından sadəcə olaraq partiya ləğv edildiyinə görə yox, ondan xeyli öncə prinsipial səbəblərə görə çıxmışam. Mən Kommunist Partiyasından çıxmağım haqqında bəyanatı da Moskvada vermişəm və bu, dünya mətbuatında elan olunmuşdur. Mən öz fikirlərimi həmişə heç bir partiyadan asılı olmayaraq demişəm. İlk dəfə 1990-cı ildə Naxçıvan parlamentinə və Azərbaycan parlamentinə millət vəkili seçilərkən həmin parlamentlərdə öz fikrimi söyləmişəm. Ondan qabaq Moskvada yaşayarkən mətbuat vasitələri ilə də öz fikrimi bildirmişəm. Mənim fikirlərim müstəqil xarakter daşıyır, heç bir kəsin, heç bir qüvvənin təsiri ilə əlaqədar deyil və heç bir siyasi partiyanın və qüvvənin mənafeyinə xidmət etmək məqsədi güdmür.

Bu baxımdan Azərbaycan parlamentinin martın 25-də prezident seçkiləri haqqında qəbul etdiyi qərarı mən bu günün tələblərinə cavab verən düzgün qərar hesab etmirəm. Azərbaycan Respublikası müharibə şəraitindədir. Respublika ərazisinin bir hissəsi əldən gedib. Naxçıvan istisna olmaqla Azərbaycanın Ermənistanla həmsərhəd olan bütün rayonlarında hər gün atışma gedir, evlər, kəndlər yandırılır, dağıdılır, günahsız insanlar qətlə yetirilir. Xocalı faciəsi Azərbaycan xalqının qəlbində böyük bir yaradır. Bu faciə hələ bu günədək tam aydınlaşdırılmamışdır. Orada nə qədər adamın həlak olduğu hələ tam məlum deyil. Meyitlərin çoxu tapılmayıb. Mən belə hesab edirəm ki, belə bir vəziyyətdə prezident seçkiləri keçirmək, buna iki ay vaxt sərf etmək mənəviyyat nöqteyi-nəzərindən xalqa xəyanətdir və xalqın mənəviyyatına qarşı tamamilə mənfi olan bir mövqedir.

Beləliklə, mən Ali Sovetin 25 mart 1992-ci il tarixli qərarına qarşı çıxıram. Burada çıxış edənlərdən biri dedi ki, guya mən sessiyada olmadığım üçün belə bir qərarın qəbul olunmasına yol verilib. Yox, mən sessiyada olsaydım da, mənim bir səsim vardı və o səsimi də bunun əleyhinə verəcəkdim. Amma mənim sessiyada olmamağımın obyektiv səbəbləri də məlumdur. Mən ona görə son vaxtlar sessiyaya getmirdim ki, siz özünüz gördüyünüz kimi mənə qarşı necə hücumlar olurdu və bu hücumlar zamanı Azərbaycan xalq deputatı olanların bir nəfəri də ayağa qalxıb demədi ki, Heydər Əliyev də millət vəkilidir, onun da öz sözünü deməyə hüququ vardır.

Mən bunu onlara irad tutmaq istəmirəm. Buna ehtiyac da yoxdur. Mən həmişə özüm-özümü müdafiə etməyə qadir olmuşam. Əgər mən öz iradəmə inanmasaydım, Azərbaycan parlamentində o şəraiti bilərəkdən fevralın 5-də çıxış etməzdim, martın 7-də Kommunist Partiyasının əleyhinə, Sovetlər İttifaqının əleyhinə çıxış edib Azərbaycanın müstəqilliyini tələb etməzdim. Onda burada olanların da, orada olanların da əksəriyyəti çıxış edib deyirdilər ki, biz Sovetlər İttifaqından çıxsaq yaşaya bilmərik. Mən isə dedim ki, bu Sovetlər İttifaqını hamıdan yaxşı mən tanıyıram, onun mərkəzində olmuşam, on dörd il Azərbaycana rəhbərlik etmişəm. Mən bilirəm ki, Azərbaycan müstəqil yaşaya bilər. Z. Səmədzadəni mənim əleyhimə çıxardılar. İndi o, Azərbaycan Ali So -

veti Sədrinin müavinidir. O, sübut etməyə çalışdı ki, guya Sovetlər İttifaqının tərkibində olmadan biz yaşaya bilmərik. O vaxt Mütəllibovun çıxışına baxdılar və qərar qəbul etdilər ki, Sovetlər Birliyi qalmalıdır və biz referenduma getməliyik. Bir sözlə, mən müstəqil adamam və öz fikrimi müstəqil surətdə deyirəm. Mən bu qərara tam etiraz edirəm.

İkinci, bu qərarda Naxçıvan Muxtar Respublikasının konstitusiya hüququ pozulub və Naxçıvan MR Ali Məclisinin Rəyasət Heyəti rayon və şəhər sovetlərinin səviyyəsinə endirilib. Buna konstitusiyaya malik olan bir muxtar respublika kimi, şübhəsiz ki, biganə qala bilmərik.

Üçüncü, bu qərara mən ona görə etiraz edirəm ki, bu qərarda prezident seçkilərinin aparılması on ikinci çağırış Azərbaycan Ali Sovetinin sessiyasında təsdiq olunmuş Mərkəzi Seçki Komissiyasına tapşırılıb. Həmin Mərkəzi Seçki Komissiyasına ki, 1990-cı ildə deputat seçkilərində saxtakarlıq edib, 1991-ci il martın 17-də referendum keçirilməsində saxtakarlıq edib və nəhayət sentyabrın 8-də prezident seçkilərində saxtakarlığa yol verib. Həmin seçki komissiyası indi də yeni prezident seçkisi keçirəcəkdir. Mən buna etiraz edirəm.

Bu seçki komissiyası əvvəlki ənənələrinə sadiq qalaraq, muxtar respublika Ali Məclisi ilə məsləhətləşməmiş, heç bir şey soruşmamış, Naxçıvanın fikrini bilməmiş Azərbaycan üzrə seçki dairələri haqqında qərar qəbul edib, o cümlədən muxtar respublika ərazisində seçki dairələri təşkil edibdir. Bu, Mərkəzi Seçki Komissiyası tərəfindən Naxçıvan Muxtar Respublikasının hüquqlarının pozulmasıdır.

Bunların hamısına görə həmin məsələnin Ali Məclisin müzakirəsinə çıxarılması zəruri idi və biz bu gün onu müzakirə edirik.

Mən bir dəfə dedim və bir də təkrar edirəm ki, Azərbaycan Ali Sovetinin Sədri Yaqub Məmmədovla telefonla danışdım. Ona dedim ki, biz bunların hamısına etiraz edirik. Bu seçki komissiyası saxtakardır. O, prezident seçkilərini apara bilməz. Ona görə də həmin komissiya buraxılmalıdır. 1991-ci il dekabrın 14-də muxtar respublikanın Ali Məclisi öz sessiyasında qərar qəbul edibdir ki, Azərbaycan Mərkəzi Seçki Komissiyası saxtakarlıq etdiyinə görə buraxılmalıdır və biz muxtar respublikanın Mərkəzi Seçki Komissiyasını buraxaraq yeni komissiya təşkil etmişik. O, mənə dedi ki, bunlar dəyişdiriləcəkdir. Mənsə dedim

ki, söz təkcə sədrin və ya tərkibdə olan adamların sadəcə olaraq dəyişdirilməsindən getmir. Söz bu komissiyaya siyasi münasibətdən gedir. Bu komissiyanın fəaliyyətinə siyasi qiymət vermək lazımdır. Siyasi qiyməti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi öz sessiyasında verib. Biz Konstitusiyaya malik bir muxtar respublikayıq. Bizim qərarımıza baxılmalıdır. O, mənə dedi ki, bu qərardan xəbəri olmayıb. Mən də dedim ki, bilmirdinizsə indi bilin, mən tələb edirəm ki, Azərbaycan Ali Soveti qərar çıxarsın ki, respublika Mərkəzi Seçki Komissiyası saxtakarlıq etdiyinə görə buraxılmalıdır. Lakin onlar bu yolla getmir. Aldığımız məlumata görə guya Mərkəzi Seçki Komissiyasının sədri və katibi öz ərizələrinə əsasən işdən azad olunublar.

Bütün bu səbəblərə görə şəxsən mən indi Azərbaycanın Prezident seçkilərinin keçirilməsinin əleyhinəyəm.

Bir məsələ də var. O da ondan ibarətdir ki, Azərbaycanda heç bir dəyişiklik olmayıb. Mən bu barədə Yaqub Məmmədova da dedim - Mutəllibov gedib və onun yerində başqa bir adam oturub. Qalan adamların hamısı yerindədir. Əgər Prezident istefa veribsə, Prezident Aparatı da bütünlüklə buraxılmalıdır. Lakin bu aparat buraxılmayıb. Mən bir neçə adamın adını dedim və soruşdum ki, onlar nə üçün orada oturublar. O dedi ki, ixtisar edəcəyik, dəyişəcəyik. Dünən də xəbər gəldi ki, M. Abbasov öz ərizəsinə görə dövlət katibi vəzifəsindən azad edilib. Bütün bunların hamısını mən kosmetik dəyişiklik hesab edirəm. Mütəllibov Azərbaycan xalqına xəyanət edib. İki il xalqın başına böyük bəlalar gətirib. Qarabağın dağlıq hissəsinin əksər sahəsi onun rəhbərliyi altında əldən gedib. O, 20 Yanvar 1990-cı il faciəsinin günahkarıdır. Onun topladığı komandadan bir adam da iş başında qalmamalıdır. Əgər Prezident Aparatı buraxılmasa, heç bir prezident seçkisi haqqında söhbət gedə bilməz.

Burada çıxış edənlər dedilər ki, Xalq Cəbhəsi seçkilərə getməyi qərara alıb. Onun qalib gələcəyini və ya gəlməyəcəyini deyə bilmərəm. Əgər hakimiyyət Prezident Aparatının əlində qalırsa, icra hakimiyyətləri öz yerlərindədirsə, onda illüziyaya qapılmaq lazım deyil. Ancaq buna baxmayaraq mən öz qəti mövqeyimi deyirəm və eyni zamanda vəziyyəti də nəzərə alıram. Onu da nəzərə alıram ki, biz bir dəfə prezident seçkilərinə getmədik. İkinci dəfə belə etsək ola bilsin

ki, bunu başqa cürə səsləndirərlər. Azərbaycanın Xalq Cəbhəsi də seçkilərdə iştirak etməyi qərara alıb və öz liderini prezidentliyə namizəd göstərib.

Biz bu gün qəbul edəcəyimiz qərarda ən əvvəl onu göstərməliyik ki, Azərbaycan Ali Soveti 25 mart tarixli qərarında Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarını pozub və biz buna etiraz edirik.

İkinci, 25 mart tarixli qərarda yeni prezident seçkilərini mənəvi hüququnu itirmiş, saxtakarlıqla məşğul olan seçki komissiyasına tapşırılmasına və onun tərəfindən seçki dairələrinin yaradılmasında muxtar respublikanın hüquqlarının pozulmasına biz özümüzün qəti etirazını bildiririk.

Üçüncü, Azərbaycan Ali Sovetindən xahiş edilsin ki, saxtakarlıqla məşğul olmuş və mənəvi hüququnu itirmiş seçki komissiyasını buraxsın.

Sonra tələb olunsun ki, Azərbaycan Prezidenti istefa verdiyinə görə və böyük günahlar etdiyinə görə bütün Prezident Aparatı təcili olaraq buraxılsın.

Biz bu tələbləri qoymalıyıq və həmin tələblərin həyata kecirilməsinə nail olmalıyıq.

Mən belə hesab edirəm ki, bizim bu tələblərimiz Azərbaycan Xalq Cəbhəsinin tələbləri ilə üst-üstə düşür və əgər bu tələblər həyata keçirilsə, onda şübhəsiz ki, prezident seçkilərinin demokratik şəraitdə keçirilməsinə müəyyən qədər imkan yaranar.

Deputatlar təklif olunan əlavələrlə birlikdə qərar qəbul etdilər.

Aprelin 8-də Ali Məclis sessiyasının növbəti iclasında deputatlar muxtar respublikadan İran İslam Respublikasına olan keçidlərdə yaranmış vəziyyət barəsində məsələ müzakirə etdilər.

Ali Məclisin Sədri Heydər Əliyev bildirdi ki, bu barədə çoxlu şikayət gəlir. Şikayətçilər qeyd edirlər ki, bir çoxları bir il ərzində üç-dörd dəfə və daha çox İrana gedib gəldikləri halda, başqaları gedə bilmirlər. Ona görə də bu məsələyə Məclisdə baxılmasını qərara aldıq.

Keçidlərdə yaranmış vəziyyət barəsində Ali Məclisin Xarici əlaqələr şöbəsinin müdiri R. İbadovun məlumatı dinlənildi.

Müzakirələrdə çıxış edən deputatlar işdə olan nöqsanların və çatışmazlıqların aradan qaldırılması üçün təkliflər irəli sürdülər.

Ali Məclisin qəbul etdiyi qərarda muxtar respublika Nazirlər Kabinetinə tapşırıldı ki, rayon XDM icraiyyə komitələri və milis orqanları birlikdə təkliflər hazırlayıb Ali Məclisə təqdim etsin.

Ali Məclis Həsən Sultan oğlu Zeynalovun Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində daimi nümayəndəsi təyin olunması haqqında fərmanı təsdiq etdi.

İclasda bir sıra cari məsələlərə də baxıldı. Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası öz işini başa çatdırdı.

*"Şərq qapısı" qəzeti, 9 aprel 1992-ci il*

## Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
QƏRARI

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılması haqqında" muxtar respublika Nazirlər Kabinetinin və Ali Məclisin kəndin sosial quruculuğu və aqrar-sənaye daimi komissiyasının təqdim etdiyi tövsiyələr bəyənilsin.

2. Rayon xalq deputatları məclislərinə, onların icraiyyə komitələrinə, rayon aqrar-sənaye kombinatlarına tapşırılsın ki, zərərlə işləyən təsərrüfatların özəlləşdirilməsi məqsədilə bu tövsiyələrdən irəli gələn tədbirləri həyata kecirməklə iqtisadi islahatın mütəşəkkilliklə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun başa çatdırılmasını təmin etsinlər.

3. Zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi yerli şəraitə uyğun olaraq rayon XDM-nin müəyyən etdiyi mərhələlər üzrə həyata keçirilsin.

4. Naxçıvan Muxtar Respubikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə (Y. Vəliyev) tapşırılsın ki, islahatın təşkilati, hüquqi, texniki məsələlərinin həlli üçün mütəxəssislərin yerlərə göndərilməsini təmin etsin.

5. Muxtar respublikanın Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi, Meliorasiya və Su Təsərrüfatı Nazirliyi, "Kəndkimya" birliyi, rayonların aqrar-sənaye kombinatları, aqrar-sənaye səhmdar kommersiya bankları zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi ilə yaradılan şəxsi təsərrüfatlara əməli köməklik məqsədilə toxum, gübrə, maşın-mexanizmlərin və sairə lazım olan maddi-texniki avadanlığın ayrılmasını təmin etsinlər.

6. İslahatların mahiyyətini əhaliyə çatdırmaq məqsədilə bütün informasiya vasitələrindən, xüsusən televiziyanın imkanlarından geniş istifadə edilsin.

7. Qərarın icrasına nəzarət Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Kəndin sosial quruculuğu və aqrar-sənaye daimi komissiyasına və muxtar respublika Nazirlər Kabinetinə həvalə edilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 6 aprel 1992-ci il*

## Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
QƏRARI

Muxtar respublikanın ayrı-ayrı kolxozlarından, sovxozlarından, rayon təşkilatlarından və bir sıra deputatlar tərəfindən irəli sürülmüş təklifləri nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının zəruri olan halda kolxoz üzvlərinə, sovxoz fəhlələrinə və ya kənd sakinlərinə satılması məqsədəuyğun hesab edilsin.

2. Rentabelli işləyən kolxoz və sovxozlarda ictimai mal-qaranın satılması məsələsi həmin təsərrüfatların təklifləri və rayon xalq deputatları məclislərinin qərarları ilə həyata keçirilsin.

Mal-qara kolxoz üzvlərinə, sovxoz fəhlələrinə və ya kənd sakinlərinə balans dəyərindən 5 dəfədən az olmamaq şərtilə satıla bilər.

3. Rayon xalq deputatları məclislərinə tapşırılsın ki, ictimai mal-qaranın satılması işinin lazımi səviyyədə təşkilinə nail olsun, kolxozların, sovxozların bu sahədəki fəaliyyətini ciddi nəzarətdə saxlasın və bu işin həyata keçirilməsində qanun-qaydalara tam riayət olunmasını təmin etsinlər.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 6 aprel 1992-ci il*

## “Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Ali Sovetinin 25 mart 1992-ci il tarixli qərarı haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Ali Soveti 25 mart 1992-ci il tarixdə “Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqında” qərar qəbul etmiş və seçkiləri 1992-ci il iyun ayının 7-nə, bazar gününə təyin etmişdir.

Həmin qərarla müəyyən edilmişdir ki, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasının səlahiyyətlərini on ikinci çağırış Azərbaycan Respublikası xalq deputatları seç-

kiləri üzrə Mərkəzi Seçki Komissiyası həyata keçirir. Bununla əlaqədar Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasına tapşırılmışdır ki, Azərbaycan Respublikasında rayonların, rayon bölgüsü olmayan respublika tabeli şəhərlərin, şəhərlərdə rayonların sərhədləri daxilində Azərbaycan Respublikası Prezidenti seçkilərinin təşkili və keçirilməsi üçün seçki dairələri yaratsın.

Bu qərarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinə, rayon və şəhər xalq deputatları sovetlərinə Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə seçki məntəqələrinin və məntəqə seçki komissiyalarının təşkilinin təmin edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası 30 mart 1992-ci il tarixdə birinci iclasını keçirmiş, seçkilərin təşkili və keçirilməsi üçün seçki dairələri yaratmış, seçkilərin keçirilməsi üzrə əsas tədbirlərin təqvim müddətlərini və qaydasını müəyyən etmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, Azərbaycan Respublikası Ali Sovetinin 25 mart 1992-ci il tarixli qərarında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinə respublika Prezidenti seçkiləri üzrə seçki məntəqələrinin və məntəqə seçki komissiyalarının təşkilini təmin etmək tapşırığı anlaşılmazdır. Ona görə ki, “Azərbaycan SSR Yerli Xalq Deputatları Sovetləri deputatlarının seçkiləri haqqında” 26 iyun 1990-cı il tarixli qanunun tələblərinə əsasən seçki dairələrinin təşkili Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, seçki məntəqələrinin və seçki komissiyalarının təşkili isə rayon sovetlərinin səlahiyyətlərinə aid edilmişdir.

Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası isə muxtar respublikada seçki dairələrinin yaradılması məsələsini Ali Məclislə razılaşdırmamışdır.

Beləliklə, Azərbaycan Respublikası Ali Sovetinin 25 mart 1992-ci il və Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasının 30 mart 1992-ci il tarixli qərarlarında Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarının pozulmasına yol verilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası Referendumunun keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 15 noyabr 1991-ci il tarixli qərarı barədə" 1991-ci il dekabr ayının 14-də Ali Məclisin sessiyasında məsələ müzakirə edilərkən SSR İttifaqının qorunub saxlanılması ilə əlaqədar referendum keçirilməsində və digər seçkilərdə ciddi qanun pozuntularına yol verdiyinə görə mənəvi hüququnu itirmiş Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına etimadsızlıq göstərilmiş və onun buraxılması qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetindən xahiş edilmişdir. Təəssüf ki, Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yuxarıda göstərilən qərarına bu günə kimi baxmamışdır. Buna görə də həmin seçki komissiyasına yeni prezident seçkilərinin keçirilməsinin tapşırılması demokratik prinsiplərə zidd hərəkət və bağışlanılmaz səhv kimi qiymətləndirilməlidir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikası Ali Sovetinin 25 mart 1992-ci il tarixli qərarına münasibətini bildirərək qeyd edir ki, respublikada ictimai-siyasi şəraitin belə bir mürəkkəb vəziyyətində Azərbaycan Respublikasında prezident seçkilərinin keçirilməsi anlaşılmazdır və bəyənilə bilməz.

Dörd ildən artıq davam edən Dağlıq Qarabağ məsələsi Azərbaycan üçün faciəvi bir mərhələyə çatmışdır. Dağlıq Qarabağda Azərbaycan Respublikasının dövlət hakimiyyəti əldən getmişdir. Azərbaycan müharibə vəziyyətindədir. Ermənistanla həmsərhəd rayonlarında mütəmadi olaraq hərbi döyüşlər gedir, hər gün insan tələfatı baş verir, kəndlərimiz dağıdılır, yandırılır, əhali böyük həyəcan hissi keçirir. Ermənistandan didərgin düşmüş qaçqınlar indiyə qədər tam məskunlaşmamışdır. Qarabağdan qaçmış dinc əhali özünə yaşayış yeri müəyyən edə bilməmişdir. Xocalı faciəsi Azərbaycan xalqının qəlbində qaysaqlanmamış dərin yaradır. Bunların hamısı Azərbaycanda çox gərgin mənəvi-psixoloji bir mühit yaratmışdır. Respublika üçün ağır və gərgin olan bir şəraitdə prezident seçkisi kampaniyasına iki ay vaxt sərf etmək anlaşılmazlıq doğurur, məqsədəuyğun hesab edilə bilməz və vəziyyəti daha da gərginləşdirə bilər.

Belə olan tərzdə prezident seçkilərinin keçirilməsində ədalətliliyi və obyektivliyi tam təmin etmək böyük şübhə altındadır.

Bütün bunlarla yanaşı "Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1992-ci il 25 mart tarixli qərarını nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasına, rayon, şəhər xalq deputatları məclislərinə tapşırılsın ki, Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsini təmin etsinlər.

2. Azərbaycan Respublikası xalq deputatları seçkilərinin, SSRİ-nin qorunub saxlanılması üzrə referendumun və 8 sentyabr 1991-ci ildə Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsində böyük saxtakarlıqlara yol verdiyi üçün Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının fəaliyyətinə prinsipial qiymət verilməsi və göstərilən səbəblərə görə onun tamamilə buraxılması haqqında qərar qəbul edilməsi təklif olunsun.

3. Azərbaycan Respublikası Ali Sovetinin 25 mart 1992-ci il və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 30 mart 1992-ci il tarixli qərarlarında Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarının kobud surətdə pozulmasına etiraz edilsin.

4. A. Mütəllibovun Azərbaycan xalqına xəyanət etməsi və xalqın təzyiqi nəticəsində Prezident vəzifəsindən istefa verməsi ilə əlaqədar Prezident Aparatının tamamilə buraxılması tələb edilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 7 aprel 1992-ci il*

# XALQIMIZIN ƏN LAYİQLİ OĞLUNU PREZİDENT SEÇƏK

Aprelin 22-də C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında muxtar respublika mədəniyyət işçilərinin yığıncağı olmuşdur. Yığıncaq Azərbaycan Respublikası Prezidentliyinə namizəd irəli sürülməsi üçün çağırılmışdır.

Yığıncağı teatrın direktoru Ramiz Bağırov açaraq demişdir ki, respublikamızda prezident seçkiləri kampaniyası xalqımız üçün çox ağır olan bir vaxtda keçirilir. İqtisadiyyatımız dərin böhran içərisindədir. Ermənistan Respublikasının Azərbaycana qarşı elan edilməmiş müharibəsi, erməni quldurlarının Qarabağın dağlıq hissəsində törətdikləri ağlasığmaz vəhşiliklər beşinci ildir ki, davam edir. Ermənistanın respublikamıza açıq təcavüzünün qarşısını almaq, Qarabağda törədilən erməni vəhşiliklərinə son qoymaq üçün xalqımızın bir yumruq kimi birləşməsi son dərəcə zəruri olduğu vaxtda bəzi adamlar yaranmış gərginlikdən öz məqsədləri üçün istifadə etməyə, rəhbər vəzifələr tutmağa ciddi səy göstərirlər. Biz hamımız dərindən dərk etməliyik ki, respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün zəngin təcrübəsi, böyük nüfuzu və geniş dünyagörüşü olan müdrik şəxslərə böyük ehtiyac var. Belə bir şəxs bütün dünyada görkəmli siyasi xadim kimi tanınmış Heydər Əlirza oğlu Əliyevdir. Yalnız Heydər Əliyevin bacarığı, uzaqgörənliyi, müdrik rəhbərliyi ilə respublikamızı bugünkü ağır vəziyyətdən çıxarmaq olar. Heydər Əliyevin respublikamıza uzun müddət rəhbərlik etməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildiyi vaxtdan keçən dövr ərzindəki fəaliyyəti də bunu aydın göstərir. Qısa bir zamanda muxtar respublikamız qonşu Türkiyə və İranla geniş əlaqələr yaratmışdır. Ali Məclis Sədrinin Türkiyə Respublikasına səfəri son dərəcə müvəffəqiyyətli olmuşdur. Qardaş Türkiyə Respublikası muxtar respublikamıza 100 milyon dollar kredit vermişdir ki, bu da iqtisadiyyatımızın dirçəldilməsində, əhalinin həyat səviyyəsinin yüksəldilməsində həlledici rol oynayacaqdır.

Lakin onu da qeyd etmək lazımdır ki, respublikanın sabiq Prezidenti Ayaz Mütəllibov hakimiyyəti əldə saxlamaq üçün o vaxtlar bir sıra

tədbirlərə əl atmışdır ki, onlardan biri də “Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında” Qanunun 7-ci və 1-ci maddələridir. Həmin maddələrə əsasən son beş il ərzində respublikada yaşayan və yaşı 65-dən yuxarı olmayan şəxslər respublika Prezidenti seçilə bilərlər.

Hamıya aydındır ki, bu maddələr yalnız və yalnız Heydər Əliyevin respublikaya rəhbər gəlməsinə yol verməmək üçün Konstitusiyaya əlavə edilmişdir. Respublika Ali Sovetinin keçmiş sessiyalarında Konstitusiyanın 112-ci maddəsində dəyişikliklər edilməsinə cəhd göstərilməsi də buna əyani sübutdur. Lakin o da aydındır ki, hər hansı bir ölkədə olan bütün qanunlar yalnız və yalnız xalqa xidmət etməlidir. Bugünkü vəziyyətdə isə xalqı onu gözləyən fəlakətdən qurtarmaq üçün Heydər Əliyevin respublika Prezidenti olması bu xalq qarşısında ən böyük əvəzedilməz xidmət olar. Ona görə də mən təklif edirəm ki, görkəmli siyasi xadim, böyük beynəlxalq nüfuza malik olan xalqımızın sevimlisi Heydər Əlirza oğlu Əliyev respublika prezidentliyinə namizəd göstərilsin və Azərbaycan Respublikası Ali Sovetindən tələb edilsin ki, prezident seçkiləri haqqındakı Qanunda olan saxta maddələr ləğv edilsin.

Azərbaycan Respublikasının xalq artisti Məmməd Quliyev, muxtar respublikanın mədəniyyət naziri Fəttah Heydərov, Naxçıvan Kukla Teatrının direktoru Ələkbər Qasımov, teatrın artistlərindən Rza Xudiyev, Zöhrab İmanquliyev, muxtar respublika Mədəniyyət Nazirliyinin Elmi-Metodiki Mərkəzinin işçisi İlqar Rəhimov və başqaları çıxış edərək bu təklifi hərarətlə müdafiə etmişlər.

Yığıncaq iştirakçıları yekdilliklə Heydər Əlirza oğlu Əliyevi Azərbaycan Respublikası Prezidentliyinə namizəd irəli sürmüşlər.

Qəbul olunmuş qərarda respublika Ali Sovetindən tələb edilir ki, Qanunda xalqımızın ləyaqətli oğlunun respublika Prezidenti seçilməsinə yol verməmək məqsədi güdən maddələr ləğv edilsin.

*“Şərq qapısı” qəzeti, 25 aprel 1992-ci il*

## Naxçıvan Muxtar Respublikasının ərazisində dəmiryol stansiyalarında yük vaqonlarının qanunsuz açılması barədə Azərbaycan Dəmir Yolu Naxçıvan hissəsi rəisinin məktubu haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
QƏRARI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 18 fevral 1992-ci il tarixli qərarında yük vaqonlarının ayrı-ayrı vətəndaşlar və təşkilatlar tərəfindən qanunsuz açılması və malların istifadə olunması halları qətiyyətlə pislənilmiş və qeyd olunmuşdur ki, muxtar respublikanın ərazisində tranzit yük vaqonlarının açılması qadağan edilsin, zəruri olan hallarda yük vaqonlarının açılması Dəmir Yolları haqqında Nizamnamənin əsasında Nazirlər Kabinetinin sərəncamı ilə həyata keçirilsin.

Lakin buna baxmayaraq, Naxçıvan Muxtar Respublikasının ərazisində dəmiryol stansiyalarında yük vaqonlarının qanunsuz açılması halları davam edir, cinayətkarlığın sayı artır, muxtar respublikanın iqtisadiyyatına böyük ziyan vurulur.

Yuxarıda qeyd olunanları əsas tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Tapşırılsın Q. Məmmədova (Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini), A. Kələntərliyə (Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini), F. Şirzadova (Ali Məclisin qanunçuluq, hüquq mühafizə və millətlərarası münaqişələr daimi komissiyasının sədri), H. Hüseynova (muxtar respublikanın prokuroru), M. Məmmədova (muxtar respublikanın daxili işlər naziri), K. Kərimova (Naxçıvan dəmiryol xətt milisinin rəisi), Ç. Nəsirova (Naxçıvan dəmiryol xətt prokuroru) dəmiryol stansiyalarında yük vaqonlarının qanunsuz açılması ilə bağlı faktları araşdırsın, günahkarları aşkar etsin və lazımi təklifləri Ali Məclisin Rəyasət Heyətinin müzakirəsinə çıxarsınlar.

Müddət 15 gündür.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 30 aprel 1992-ci il*

## BAKIDA MİTİNQLƏR

Bir neçə gündür ki, respublika Ali Sovetinin binası qarşısında mitinq keçirilir. Mitinqin iştirakçıları bir sıra seçkiqabağı yığıncaqlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Azərbaycan Prezidentliyinə namizəd göstərilməsinə tərəfdar çıxdıqlarını bildirirlər. Mitinq iştirakçılarının başlıca tələbi Ali Sovetin sessiyasının çağırılması və respublika Konstitusiyasının Azərbaycan Prezidenti üçün yaş senzini nəzərdə tutan bəndində düzəliş edilməsidir.

*"Şərq qapısı" qəzeti, 30 aprel 1992-ci il*

## MİTİNQ KEÇİRİLMİŞDİR

Mayın 5-də muxtar respublika Ali Məclisinin önündə çoxsaylı mitinq keçirilmişdir. Mitinqdə çıxış edənlər təcili olaraq respublika Ali Soveti sessiyasının çağırılmasını, Prezident seçkiləri üzrə seçki qanununda yuxarı yaş məhdudiyyəti ilə əlaqədar maddənin ləğv olunmasının vacibliyini, Ali Məclisin Sədri Heydər Əliyevin Prezidentliyə namizədliyini bir daha müdafiə etdiklərini, muxtar respublikada onun ictimai-siyasi sabitlik yaradılmasına yönəldilmiş siyasətini bəyəndiklərini bildirmiş, qayda-qanunun, əmin-amanlığın bərqərar olmasına mane olan bəzi qüvvələrin qeyri-qanuni hərəkətlərini qətiyyətlə pisləmişlər.

Mitinqə dəvət olunan Heydər Əliyev çıxış edərək demişdir ki, bizim məqsədimiz muxtar respublikada birlik yaratmaqdır. İstər kommunist olsun, istər xalq cəbhəsinin üzvü, istər dindar olsun, istər ateist, biz əhalinin birliyinə nail olmaq istəyirik. Həm də istəyirik ki, Ermənistanla demək olar ki, əhatə olunmuş torpağımızda əhalinin təhlükəsizliyini təmin edək, qan tökülməsin. Bəziləri Naxçıvanda ikinci cəbhənin açılmasını istəyirlər. Mən bunu bəyənmirəm. Bəziləri qayda-qanunun pozulmasına çalışırlar. Mən buna yol verməyəcəyəm.

Heydər Əliyev daha sonra sərhədlərimizdə beş gündür ki, davam edən gərginlikdən və onu aradan qaldırmaq üçün görülən tədbirlərdən danışmış, prezident seçkilərinin keçirilməsinə münasibətini bildirmişdir.

*"Şərq qapısı" qəzeti, 7 may 1992-ci il*

## NAXÇIVAN PARLAMENTİNİN SƏDRİ HEYDƏR ƏLİYEV DEMİŞDİR Kİ, QARABAĞDA MÜHARİBƏNİN DAVAM ETDİYİ ŞƏRAİTDƏ AZƏRBAYCANDA PREZİDENT SEÇKİLƏRİ KEÇİRİLƏ BİLMƏZ

London, 12 may (RİTA-SÖTA). Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyev demişdir ki, Dağlıq Qarabağda müharibənin davam etdiyi bir şəraitdə Azərbaycanda iyunun 7-nə təyin olunmuş prezident seçkiləri keçirilə bilməz. Heydər Əliyev "Röyter" agentliyinin Ankaradakı müxbiri ilə telefon söhbətində demişdir: "Müharibə vəziyyətində olan Azərbaycanda, xüsusən də onun ərazisinin müəyyən hissəsi ermənilərin əlinə keçdiyi şəraitdə əsl demokratik seçkilər keçirmək mümkün deyildir". Naxçıvan parlamentinin Sədri həmçinin qeyd etmişdir ki, o, Azərbaycanda xeyli müdafiə edildiyinə baxmayaraq, prezident vəzifəsinə keçmək iddiasında deyildir.

Heydər Əliyev Qarabağda vəziyyətin kəskinləşməsindən söhbət açaraq qeyd etmişdir ki, Şuşa şəhəri ermənilərin nəzarəti altındadır və bunu ona ermənilərin rəsmi nümayəndələri demişlər. Onun fikrincə, Dağlıq Qarabağda Azərbaycan qoşunlarının uğurlu əks-hücum imkanları çox cüzidir. O, əlavə edərək demişdir: "Hazırda Bakıda hakimiyyət yoxdur və tam hərc-mərclik hökm sürür". Məlumatda deyilir: "Şuşanın itirilməsi Azərbaycanda siyasi böhranı ağırlaşdıracaqdır."

Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında vəziyyətin sakit olduğunu bildirmiş, lakin qeyd etmişdir ki, Azərbaycan ilə hər hansı nəqliyyat əlaqəsi olmadığına görə ciddi çətinliklər yaranır. "Röyter"

agentliyi onun dediklərinə əsaslanaraq bildirir ki, avtomobil və dəmiryol nəqliyyatının hərəkəti kəsildikdən sonra Bakıya təyyarələrin uçuşunu da dayandırmaq lazım gəlmişdir, çünki hava nəqliyyatının ermənilər tərəfindən atəşə tutulması təhlükəsi vardır.

## QANUNÇULUĞU VƏ DEMOKRATİYANI MÜDAFİƏ EDİRLƏR

NAXÇIVAN. Muxtar respublika Ali Məclisinin Sədri Heydər Əliyev yerli televiziya ilə Naxçıvan sakinlərinə müraciət etmişdir. O, Azərbaycan Ali Sovetinin son sessiyasında qəbul olunmuş qərarları respublika Konstitusiyasına zidd qərarlar kimi qiymətləndirmişdir. Ali Məclisin Sədri demişdir: “Təkcə antidemokratik tədbirə deyil, həm də xalqa qarşı yeni cinayətə yol verilmişdir.” Heydər Əliyev Naxçıvan Muxtar Respublikası əhalisinin keçmiş prezidentin seçilməsində iştirak etmədiyini və onun yenidən fəaliyyətə başlamasını müdafiə etmədiyini xatırladaraq demişdir ki, Bakıda keçirilən kütləvi mitinqlərlə həmrəydir.

*Azərinform, 17 may 1992-ci il*

## ƏSASSIZ DANIŞMAYIN

Milli Şuranın son iclasında deputat Tofiq Qasımov Heydər Əliyevi “Moskvanın adamı” adlandırdı, deputat Arif Hacıyev isə “o gəlsə, düşmənlərindən intiqam alacaq” - dedi.

Bəri başdan bildirim ki, hər iki deputat əsassız danışır, öz subyektiv fikirlərini söyləyir, bütün dünyada tanınmış görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevi qətiyyən qiymətləndirə bilmirlər.

Bu kiçik yazıda mən Heydər Əliyevin şəxsiyyəti, onun böyüklüyü, siyasi aləmdə tutduğu mövqe barədə danışmayacağam. Tofiq Qasımova qəti şəkildə bildirmək istəyirəm ki, Heydər Əliyev “Moskvanın adamı” deyil, Azərbaycan xalqının oğludur, özü də əvəzedilməz, tayı-bə-

rabəri olmayan şəxsiyyətdir. Bu barədə yüzlərlə, minlərlə konkret fakt var və mən 1990-cı ildən indiyədək mətbuatda yeri gəldikcə həmin faktları göstərmişəm. Ona görə də bir daha təkrarlamağa ehtiyac duymuram. Deputat Arif Hacıyevə və onun kimi düşünənlərə isə Heydər Əliyevin öz cavabını xatırladıram: "Mən gəlmişəm ki, ömrümün ahıl çağında xalqıma xeyir verim. Gəlməmişəm ki, kimdənsə intiqam alım. Bir də o adamdan intiqam alarlar ki, heç olmasa, sənin səviyyəndə olsun..."

Yeri gəlmişkən onu bildirirəm ki, Azərbaycanın hər yerindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ünvanına, Heydər Əliyevin adına, respublikamızın rəhbərliyinə, Ali Sovetinə xalqın nümayəndələrindən minlərlə teleqram və məktub daxil olmuşdur. Xalq Heydər Əliyevə olan hörmət və ehtiramını bildirir, onu Azərbaycanın xilaskarı kimi görür, respublikanı bu böhrandan çıxarmaq üçün ona müraciət edir.

Bəli, xalq Heydər Əliyevi unutmur. Nə qədər gec deyil bu barədə fikirləşmək lazımdır.

Mayın 18-də Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyası oldu. Ali Sovetin Sədrini seçmək məsələsinin müzakirəsi zamanı Heydər Əliyevin namizədliyi irəli sürüldü. Deputatların təkidi ilə Heydər Əliyevlə telefon əlaqəsi saxlanmalı, parlamentin başçısı vəzifəsinə səsə qoyulmağa razı olub-olmadığı ondan soruşulmalı idi. Fasilədən sonra Heydər Əliyevə zəng vurmağın mümkün olmadığı (?!) elan edildi.

Səhəri gün mən çox asanlıqla Naxçıvan MR Ali Məclisinə zəng vurub Heydər Əliyevlə danışdım. O, qəti şəkildə bildirdi ki, Ali Sovetdən ona zəng vurmaq istəməmişlər. İstəsəydilər, dövlət telefonları ilə əlaqə saxlamaq elə çətin bir iş deyildi...

Yeri gəlmişkən, onu da qeyd edək ki, sessiyada Tofiq Qasımovla Arif Hacıyev səs-səsə verib, bir-birinin ardınca çıxış edərək Heydər Əliyevin gəlməsinə hər vəchlə mane olmağa çalışırdılar. Onlar "əsaslandırırdılar" ki, siyasətçinin arxasında hər hansı bir təşkilat, cəmiyyət dayanmalıdır. Heydər Əliyevin arxasında isə belə bir təşkilat, cəmiyyət dayanmamışdır. Hörmətli deputatlar qəti əmin ola bilərlər ki, Heydər Əli-

yevin arxasında “hər hansı təşkilat” yox, xalq dayanmışdır. Sizin nəzərdə tutduğunuz təşkilatın üzvlərinə onu da xatırladırıq ki, Heydər Əliyevə görə Konstitusiyaya salınmış, insan hüquqlarını kobudcasına pozan yaş senzi indiyədək götürülməmişdir. Niyə?

**Xeyrəddin QOCA**

*“Açıq söz” qəzeti, 23 may 1992-ci il*

## “HEYDƏR ƏLİYEV, SİZƏ MÜRACİƏT EDİRİK...”

“Mən bütün mənalı ömrünü, biliyini, bacarığını, fitri istedadını, zəkasını öz xalqının xoşbəxtliyinə və gələcəyinə sərf etmiş bir insana - qeyrətli Azərbaycan oğluna, görkəmli siyasi xadimə, yorulmaz bir vətəndaşa müraciət edirəm... Mən bəzən ədalətsiz dünyamızın hökmü ilə saysız-hesabsız hücumlara, təqiblərə, aciz və səviyyəsiz adamların böhtanlarına məruz qalmış, lakin iradəsini itirmədən, haqqın və ədalətin qalibiyyətinə əmin olan, şəxsi həyatının da mürəkkəbliyinə, sərtliyinə tab gətirmiş bir insana müraciət edirəm... Nəhayət, mən həyatımızda az qala hər şeyə inamın qırıldığı, yoxa çıxdığı bir zamanda, azərbaycanlıların bir millət kimi, Azərbaycan Respublikasının bir dövlət kimi ölüm-dirim mübarizəsi məqamında, xalqımızın böyük bir əksəriyyətinin yeganə, əvəzsiz ömür çırağı olan bir insana - şəxsiyyətə müraciət edirəm!..”

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, görkəmli siyasi xadim və dövlət xadimi Heydər Əliyevin adına Zəngilan rayonu, Mincivan qəsəbəsi Ə. Əsədov küçəsindəki 25 nömrəli evin sakini Səttar Əhmədov tərəfindən göndərilən bu məktub onun bütün varlığı ilə sevdiyi, hörmət bəslədiyi bir insana həsr olunmuşdur. S. Əhmədov məktubunda yazır: “Əzizimiz Heydər Əliyev! Sizdən təvəqqe edirik: Prezident seçkilərində mütləq iştirak edin. Xalqımızın bu ağır günlərində Sizin bu tədbirdən kənarda qalmağınıza, məni bağışlayın, haqqınız yoxdur! Möhkəm əminəm: xalqımızın böyük əksəriyyəti sizə səs verəcəkdir. Yoldaş Əliyev, cəsarətinizi, qeyrətinizi, prinsipiallığınızı, iradənizi bir daha göstərin...”

...Budur, Naxçıvan MR Ali Məclisində Azərbaycanın bütün şəhər və rayonlarından, kənd və qəsəbələrindən göndərilən on minlərlə adamın imzaladığı teleqram və məktublarla tanış oluruq. Onları oxuduqca böyük şəxsiyyət, bütün dünyada tanınmış siyasi xadim Heydər Əliyevə xalq məhəbbətinin, xalq inamının böyüklüyünün bir daha şahidi oluruq. Xalq Azərbaycanın bu böyük oğlunun siyasi uzaqgörənliyinə, təcrübəsinə, qabiliyyətinə və biliyinə inanır, onu qiymətləndirir.

"Hörmətli Heydər bəy! Sizə - azəri türklərinin dünya şöhrətli ağsaqqal rəhbərinə sonsuz məhəbbətlə hörmətimi bildirmək istəyirəm. Həyata ümidimizi itirdiyimiz anda, güvənc yeri kimi sizə baxırıq. Belə ağır məqamda Sizin kimi rəhbərə xalqımızın böyük ehtiyacı var. Millətimizin xilası sizdədir". (Yardımlı rayonunun Ostair kəndindən **Zakir İmanov**).

"Xalq öz nicatını yalnız Sizdə görür. Bu münasibətlə ümumrayon mitinqi olmuşdur. Xalq Sizi tələb edir" (Bərdə rayonu, **Kamil Şahbazov**).

"Heydər bəy! Azərbaycanın böhranlı günlərində, respublikanı həm iqtisadi, həm də müharibə böhranından çıxarmaq üçün bir Azərbaycan övladı kimi xalqa rəhbərlik etməyinizi artıq dərəcədə xahiş edirik. Ümidvarıq ki, xahişimizi qəbul edəcəksiniz..." (Masallı rayonunun Təzəkənd kənd sakinləri adından **Aydın Ağayev**).

Xocavənd rayonunun azərbaycanlılar yaşayan Əmiralılar, Muğanlı, Kuropatkin və Qaradağlı kəndlərinin ziyalıları adından müraciət qəbul olunmuşdur. Müraciətdə deyilir: "Hörmətli Heydər Əliyev! Bu gün Azərbaycanda hakimiyyət böhranı yaranıb və bu, düşmənlərimizin uzun illər hazırladığı siyasətin nəticəsidir. İndi respublikaya təmkinli, ağıllı, siyasət aləmində tanınmış, möhkəm iradə sahibi olan bir şəxsiyyət hava, su kimi lazımdır. Nə qədər götür-qoy etdiksə, bu vəzifəyə Sizdən layiqli namizəd tapa bilmədik... Sizə ümumxalq məhəbbəti və inamı bu gün özünün apogeyinə qalxıb. Əgər Siz öz namizədliyinizi irəli sürməsəniz, xalqımız üçün böyük xəyanət olacaq..."

Ağsu rayonundan **H. Quliyev** isə sadəcə olaraq yazır: "Əziz Heydər Əliyev, xahiş edirəm, Azərbaycandan muğayat ol".

Gəncədən müharibə iştirakçısı **Məcid Məmmədov**: "Gəncəlilər bir ağızdan "Heydər Əli, Heydər Əli, Heydər Əli" - deyirlər. Deyirlər, vax - tında bilməmişik zər qədrini, indi zərgər olmuşuq, zərimiz yoxdur..."

Qubadlı şəhəri, Ç. İldırım küçəsindəki 3 nömrəli evdə yaşayan Murad Fərəcovun məktubundan: “Heydər bəy! Siz əyilməz bir dağsınız. Sizə heç bir qüvvə qalib gələ bilməz. Qubadlılar Sizin hakimiyyətə gəlməyinizə yüz faiz səs verməyə hazırdırlar”.

Bərdə rayonundan pensiyaçı **Yuliya Mixaylovna**: “Sizdən təkidlə xahiş edirəm Prezidentliyə namizədliyinizi verin”.

Bərdədən Kətəlparaq kənd sakinləri Z. İsmayılovun, N. Abbasovun, N. Cəfərovun, S. Abbasovun vurduqları teleqramda deyilir: “Hörmətli Heydər Əliyev! Biz Azərbaycan Respublikasının düşdüyü çətin vəziyyətindən və qanlı Qarabağ hadisələrindən çıxış yolunu yalnız Sizin Azərbaycana rəhbərliyinizdə görürük”.

Ağdam şəhəri Frunze küçəsindəki 39 nömrəli evdə yaşayan **Mütəllim Sadıqov** yazır: “Avstriya politoloqu Kurt Şlezinger 1991-ci ildə demişdir: “Etiraf etmək lazımdır ki, potensial qüdrətinə görə Heydər Əliyev indiki demokratlardan daha yüksəkdə duran şəxsiyyətdir”. Ona görə Azərbaycanı düşdüyü bu vəziyyətdən qurtarmaq üçün Vətən, millət, müqəddəs torpaq tələb edir ki, Heydər Əliyevə meydan verilsin”.

Mardakert rayonu Narınclar kənd sakinlərinin müraciətindən: “Əziz Heydər Əliyev! Kənd sakinlərinin son ümidi, pənahı Sizədir”.

Teleqramların çoxu yüzlərlə, minlərlə adamın adından vurulub, ayrı-ayrı əmək kollektivləri tərəfindən göndərilib. Dağlıq Qarabağda yaşayan 60 min azərbaycanlı adından vurulan teleqramda Heydər Əliyevdən kömək istənilir.

Şuşadan İlham Cəfərsoylu, Bayram Nəcəfov, Azad Əliyev, Rafiq Allahverdiyev, Fərman Məhərrəmov, Vidadi Cabbarov, Nurəddin Babayev, Ayaz Səfərəliyev 1535 nəfərin adından teleqram göndərərək Şuşanı bu bəladan qurtarmaq üçün Heydər Əliyevin tədbir görməsini xahiş edirlər.

Ağdam avtokombinatının 1200 nəfərlik kollektivi öz ailələri və qohumları adından Heydər Əliyevə səs verəcəklərini bildirirlər. Yevlax rayon istehsalatı komplektləşdirmə idarəsinin kollektivi, rabitə qovşağının 360 işçisi, 5 nömrəli mexaniki çörəkxananın kollektivi Azərbaycan Respublikası Ali Sovetinə göndərdikləri teleqramlarda Heydər Əliyevin təcili hakimiyyətə gətirilməsini xahiş edirlər. Lənkəran ət kombinatının fəhlə və qulluqçuları adından direktor Ə. Məmmədov, Həmkarlar İttifaqı Komitə-

sinin sədri Ş. Həbibov, əmək kollektivi şurasının sədri F. Kazımov, Göyçay rayonundakı Əzizbəyov adına kolxozun 900 nəfərlik kollektivi adından kolxozun sədri M. Əliyev, baş mühasib Ə. Adıgözəlov, Şamaxı rayonu inzibati orqanlarının əməkdaşları və Şamaxı sakinləri, Ağdam rayonunun Natəvan adına üzümçülük sovxozunun 611 nəfər fəhlə və qulluqçusu adından sovxozun direktoru İ. Cəfərov, Həmkarlar İttifaqı Komitəsinin sədri O. Məmmədov və başqaları teleqram vuraraq Heydər Əliyevi respublikanın rəhbəri kimi görmək arzusunda olduqlarını bildirirlər.

Mühəndis Mütəllim Sadıqov: “ - Ay bu xalqın qeyrətli oğlu Heydər Əliyev!” - deyə ona müraciət edir, ondan Qarabağa kömək göstərməsini arzulayır.

Ağdam şəhərindən İlham Kərimov, Rais Məmmədov, Çərkəz Mustafayev: “Xalq Sizin kimi sərkərdəyə ehtiyac duyur” - deyə Heydər Əliyevə üz tuturlar.

Dağlıq Qarabağda gedən müharibədə girov götürülənlərin valideynləri, ailə üzvləri də Heydər Əliyevdən kömək istəyirlər. Bakının Lenin prospektindəki 9022 nömrəli evdə yaşayan Cəfər Misirov oğlunun və qızının girov götürülərək Yerevana aparıldığını, Bərdədəki 105 nömrəli texniki peşə məktəbinin işçisi Səbi Quliyeva oğlanlarının Xocalı faciəsində itkin düşdüklərini, Füzuli rayonunun Qacar kəndindən Fərzalı Həsənov 15 nəfərin girov götürüldüyünü bildirərək Heydər Əliyevdən kömək diləyirlər. Hətta ermənilər tərəfindən girov götürülənlərin özləri Heydər Əliyevə müraciət edib, ümidlərini yalnız ona bağladıqlarını bildirirlər.

Məktublar, teleqramlar saysız-hesabsızdır. Onlar təkcə Heydər Əliyevin adına yox, həm də Azərbaycan Prezidentinə, Ali Sovetə, Milli Şuraya, qəzet redaksiyalarına göndərilmişdir.

Xalqın istəyi ilə hesablaşmamaq bir yana qalsın, indiyədək yaş senzinin götürülməməsi Heydər Əliyevin prezident seçkilərində iştirak etməsinə maneçilik törədir. Qeyri-iradi düşünməli olursan: deməli, kimlərsə onun hakimiyyətə gəlməsindən qorxur. Budurmu demokratiya? Xalq bunun üçünmü ayağa qalxmışdı?

**Xeyrəddin QOCA**

*“İki sahil” qəzeti, 28 may 1992-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

29 may 1992-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Azərbaycan Milli Yaradıcılıq Akademiyasının prezidenti, Azərbaycan Respublikası prezidentliyinə namizəd Nizami Süleymanovu qəbul etmişdir.

N. Süleymanov rəhbərlik etdiyi Azərbaycan Milli Yaradıcılıq Akademiyasının fəaliyyətindən söhbət açaraq bildirmişdir ki, yarandığı qısa müddətə baxmayaraq akademiyanın bütün türkdilli respublikalarda və bölgələrdə şöbələri yaradılıb. Akademiyanın fəaliyyəti artıq beynəlxalq miqyasda da geniş yayılıb və onun on beşdən çox bölməsi elmi axtarışlarla, ixtiralarla məşğuldur.

N. Süleymanov qeyd etmişdir ki, onun Naxçıvan Muxtar Respublikasına gəlişinin əsas səbəbi həyatının 50 ilindən çoxunu siyasətə həsr edən, Azərbaycan elminin, mədəniyyətinin inkişafında danılmaz xidmətlər göstərən, uzun illər respublikaya rəhbərlik edən və onu dünya miqyasında tanıtdıran, hazırda isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan Heydər Əlirza oğlu Əliyevin siyasi fəaliyyətinə görə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının akademiki, beynəlxalq siyasətşünaslıq üzrə doktor, professor adlarına layiq görülməsi olmuşdur. O, bu yüksək ad münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevi təbrik etmiş, Azərbaycan xalqının, dövlətinin inkişafı yolunda müvəffəqiyyətlər arzulamışdır.

Heydər Əliyev yüksək fəxri ada layiq görüldüyünə görə minnətdarlıq etmiş, Azərbaycanın gələcəyi yolunda bundan sonra da əlindən gələni etməyə hazır olduğunu bildirmişdir. O, akademiyanın bütün üzvlərini əmin etmişdir ki, həyatını Azərbaycan xalqının milli istiqlalına, hüquqi dövlət qurulmasına həsr edəcəkdir.

*Naxçıvan şəhəri, 29 may 1992-ci il*

## *GƏNCƏ ŞƏHƏRİNDƏKİ "NAXÇIVAN" XEYRİYYƏ CƏMİYYƏTİNİN SOYDAŞLARIMIZA MÜRACİƏTİ*

Əziz həmvətənlərimiz!

Bu gün Azərbaycan torpağı özünün narahat günlərini yaşayır. Beş ilə yaxındır ki, torpaqlarımız erməni təcavüzünə məruz qalır. Demək olar ki, hər gün, hər saat şəhərlərimiz, kəndlərimiz fasiləsiz atəşə tutulur, günahsız qanlar axıdılır. Digər tərəfdən isə ictimai həyatımızı bürüyən iqtisadi böhran getdikcə dərinləşir. Bir sözlə hazırkı şəraitdə xalqımız bəlkə də özünün ən ağır günlərini yaşayır.

Bütün bu yuxarıda qeyd olunanları bütövlüklə respublikamızın ayrılmaz parçası olan Naxçıvan torpağına da aid etmək olar. Bütün dövrlərdə özünün ictimai-siyasi sabitliyi ilə fərqlənən Naxçıvan haqqında son zamanlar respublika mətbuatında rast gəlinən bir sıra materiallar bizdə təəssüf hissi doğurur, ürəyimizi ağrıdır. Bizim Sizə müraciətimiz də məhz bu zərurətdən doğur.

Hamıya məlumdur ki, 1991-ci ilin sentyabrında Heydər Əliyevin Naxçıvanda hakimiyyətə gəlməsi ilə muxtar respublikanın ictimai-siyasi həyatında sözün əsl mənasında sabitlik yarandı, elə bu vaxtdan da orada olan demokratik qüvvələrin tam sərbəst fəaliyyətləri üçün geniş meydan açıldı.

Təsadüfi deyildir ki, muxtar respublikada olan bir sıra dövlət postlarına demokratik qüvvələrin nümayəndələri gəldilər.

Qeyd etmək lazımdır ki, hələ o vaxtlar respublikamızın digər bölgələrində, o cümlədən Bakı şəhərində demokratik qüvvələrə qarşı üzdəniraq A. Mütəllibov hakimiyyəti bütün gücü ilə mübarizə aparırdı. Görünür ki, Naxçıvanda olan siyasi sabitlik həm onun daxilində, həm də kənardakı bir sıra qüvvələri bərk narahat edirdi. Ona görə də müxtəlif vasitələrlə buradakı sabitliyi pozmağa çalışırdılar. Ürəkağrısı ilə qeyd edirik ki, onlar buna az da olsa nail ola bilmişlər.

Lakin biz xalqımızın ağlına, siyasi müdrikliyinə, zəkasına və ağsaqqal sözünə qulaq asmaq kimi insani keyfiyyətlərinə inanırıq. Ümidvarıq ki, xalqımızın bu ağır günündə muxtar respublikada mövcud olan

bütün qüvvələr Ali Məclisin rəhbərliyi altında sıx birləşəcək və yaranmış ağır siyasi vəziyyətdən alnıaçıq, üzüağ çıxacaqlar.

*Müraciət "Naxçıvan" Xeyriyyə Cəmiyyətinin 20 iyun 1992-ci il tarixli iclasında yekdilliklə qəbul edilmişdir.*

*GƏNCƏ ŞƏHƏRİ ƏZİZBƏYOV KÜÇƏSİ,*
*ALİMLƏR EVİ, "NAXÇIVAN" XEYRİYYƏ CƏMİYYƏTİNƏ*

Hörmətli bacılar və qardaşlar!

Gəncə şəhərində "Naxçıvan" Xeyriyyə Cəmiyyətinin yaranması qədim Naxçıvan diyarında böyük hörmət və minnətdarlıq hissi ilə qarşılanmışdır. Cəmiyyətin üzvlərinə, Gəncə şəhərinin sakinlərinə naxçıvanlıların səmimi salamını və dərin məhəbbətini bildiririk.

Həmrəylik və yardım üçün minnətdarıq. Gələcək fəaliyyətinizdə uğurlar, Azərbaycanın qədim diyarları Gəncə və Naxçıvan arasında qardaşlıq və dostluq münasibətlərinin daha da inkişaf etməsini arzulayırıq.

Bütün gəncəlilərə cansağlığı, səadət diləyirik.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 24 iyun 1992-ci il*

**Azərbaycan Respublikası Milli Məclisinin „Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət haqqında" 1992-ci il 15 iyul tarixli qərarı barədə**

NAXÇIVAN MUXTAR RESPUBLIKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, son illər Azərbaycan Respublikasının hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında da ağır vəziyyət yaranmışdır.

Köhnə iqtisadi mexanizmin dağılması, yenisinin isə yaranmaması öz mənfi təsirini bütün istehsal sahələrində göstərmiş, böhran ilbəil dərinləşmişdir.

Dəmir yolunun fasilələrlə işləməsi, bu ilin aprel ayının 24-dən isə tamamilə dayanması, keçən ilin dekabr ayından muxtar respublikaya qazın verilməməsi, elektrik enerjisinin Azərbaycandan fasilələrlə verilməsi və iyul ayının 13-dən tamamilə kəsilməsi muxtar respublikada mövcud olan böhranı daha da dərinləşdirmiş, gərgin vəziyyət yaratmışdır.

Dəmir yolunun işləməməsi hesabına Naxçıvan Muxtar Respublikasının Azərbaycanla əlaqəsi kəsilmiş, sənaye, tikinti təşkilatları lazım olan xammalla, komplektləşdirici avadanlıqlarla, inşaat materialları ilə təmin edilmədiyindən onların əksəriyyətinin fəaliyyəti dayanmışdır. Keçən illə müqayisədə sənaye məhsulu istehsalının ümumi həcmi 50,3 faiz, xalq istehlakı malları 51,9 faiz azalmış, heç bir sosial obyekt tikilib istifadəyə verilməmiş, işsizlik xeyli artmışdır.

Kənd təsərrüfatı işçilərinin gərgin əməyinin nəticəsində bu il yaxşı məhsul yetişdirilmişdir. Lakin yanacaq qıtlığının yaranması, kənd təsərrüfatı maşın və mexanizmlərinin ehtiyat hissələrlə təmin edilməməsi, emal müəssisələrinə elektrik enerjisinin fasilələrlə verilməsi, sudartan elektrik nasoslarının işləməməsi məhsulun vaxtında tədarük və emal edilməsində gərginlik yaratmış, məhsul itkisinə yol verilmişdir.




























































İxrac etmək mümkün olmadığından 100 milyonlarla manatlıq hazır şərab məhsullarının xarab olması təhlükəsi yaranmışdır.

Muxtar respublikanın tələbatının 30 faizini ödəyən mövcud elektrik enerjisi, həyati vacib obyektlərə, xəstəxanalara, çörək zavodlarına, dəyirman kombinatına və digər fasiləsiz işləyən obyektlərə yönəldiyindən, şəhərlərin, kəndlərin işıqlandırılması tamamilə pisləşmiş, əhalinin içməli su ilə təminatında həddindən artıq çətinlik yaranmış, təhlükəli yoluxucu xəstəliklərin baş verməsi qorxusu vardır.

Muxtar respublikanın blokada şəraitində olmasının ən təhlükəli cəhəti ondan ibarətdir ki, əhalinin ən zəruri ərzaq məhsulu olan unla, çöréklə tələbatının minimum miqdarı ödənilir. Çörək ehtiyatı cəmi iki-üç günlük təşkil edir.

May ayının əvvəllərindən mütəmadi olaraq Ermənistan tərəfindən silahlı hərbi təcavüzə məruz qalmış muxtar respublikanın Sədərək, Günnüt, Havuş, Yuxarı Buzqov və bir sıra sərhəd kəndləri dağılmış, on minlərlə əhali çadırlarda, meşəliklərdə ağır şəraitdə məskunlaşmışlar. Təcavüz nəticəsində xeyli ölənlər və yaralananlar var.

Bütün bunlar onu göstərir ki, muxtar respublika sözün əsl mənasında qapalı bir şəraitdə qalmış, hədsiz dərəcədə iqtisadi və sosial gərginlik yaranmış, əhalinin yaşayış tərzi dözülməz vəziyyətə düşmüşdür, sosial partlayış üçün zəmin yaranmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasının etibarlı kommunikasiya əlaqələrinin inkişaf etdirilməsi tədbirləri haqqında" 11 fevral 1992-ci il tarixli qərarı da Azərbaycan Respublikasının müvafiq nazirlik və baş idarələri tərəfindən yerinə yetirilmir.

Belə bir şəraitdə Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il iyul ayının 15-də "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət haqqında" məsələ müzakirə etməsi və müvafiq qərar qəbul etməsi Azərbaycan Ali hakimiyyət orqanının muxtar respublikaya göstərdiyi diqqət və qayğı kimi qiymətləndirilir.

Bununla belə Azərbaycan Respublikası Milli Məclisinin qərarında muxtar respublikada mövcud vəziyyətin müəyyən obyektiv şərhi verilsə də, yaranmış vəziyyətdən çıxış yolları sənəddə öz əksini tapmamışdır.

Bu mühüm məsələ Milli Məclisdə lazımi səviyyədə hazırlanmamış, Naxçıvanda olan mövcud vəziyyət dərindən təhlil edilməmiş, bu barədə Muxtar Respublika Ali hakimiyyət orqanlarının fikri öyrənilməmişdir.

Yuxarıda göstərilənləri qeyd edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Azərbaycan Respublikası Milli Məclisinin "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət haqqında" 1992-ci il 15 iyul tarixli qərarı muxtar respublikaya göstərilən diqqət və qayğı kimi qiymətləndirilsin.

2. Naxçıvan Muxtar Respublikasında yaranmış iqtisadi və sosial gərginliyi nəzərə alaraq, dəmir yolunun təcili olaraq, təxirəsalınmadan açılması və muxtar respublikanın elektrik enerjisi ilə təmin edilməsi başlıca vəzifə hesab edilsin. Azərbaycan Respublikası Milli Məclisindən və respublika Nazirlər Kabinetindən xahiş edilsin ki, bu məsələ ilə əlaqədar təcili, konkret tədbirlər görsünlər.

Nəzərə alınsın ki, Ermənistan Respublikasının rəhbərləri ilə aparılan danışıqlar nəticəsində məlum olmuşdur ki, Naxçıvan ərazisinə dəmir yolunun işləməsinə onlar tərəfindən heç bir etiraz yoxdur.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetindən xahiş edilsin ki, muxtar respublikada sənayenin, tikintinin, kənd təsərrüfatının və iqtisadiyyatın digər sahələrinin ahəngdar fəaliyyətini təmin etmək, əhalinin ərzaq və xalq istehlakı mallarına olan tələbatını ödəmək, qışa mütəşəkkil hazırlaşmaq, müdafiəni möhkəmləndirmək məqsədilə təcili olaraq bütün yardımların və tədbirlərin həyata keçirilməsini təmin etsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, rayon, şəhər XDM və XDM İcraiyyə Komitələrinə, Dövlət Müdafiə Komitəsi və Daxili İşlər Nazirliyinə tapşırılsın ki, muxtar respublikada yaranmış gərgin iqtisadi-sosial vəziyyəti nəzərə alaraq bütün daxili imkanlardan səmərəli istifadə edilməsi üçün konkret tədbirləri həyata keçirsinlər.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 25 iyul 1992-ci il*

## Azərbaycan televiziyası verilişlərinin Naxçıvan Muxtar Respublikasına translyasiyasında və respublika qəzetlərinin muxtar respublikaya göndərilməsində uzun müddət davam edən ciddi nöqsanlar haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, 1991-ci il sentyabr ayının 20-də erməni silahlı quldur dəstəsi Ermənistanın Sisyan rayonu tərəfindən muxtar respublikanın Şahbuz rayonunun Batabat aşırımında yerləşən Biçənək teleötürücü stansiyasına basqın edərək transformator stansiyasını yandırmış, bütün avadanlığı sıradan çıxarmışdır. Beləliklə, teleradioötürücü vasitəsilə Naxçıvan Muxtar Respublikasına Azərbaycan televiziya verilişlərinin çatdırılması dayandırılmışdır. Sonrakı dövrdə başqa vasitələrlə Azərbaycan televiziyası verilişlərinin Naxçıvan ərazisində yayılması fasilələrlə məhdud həcmdə təmin olunmuşdur.

1992-ci il iyun ayının 1-dən isə Azərbaycan televiziyasının verilişlərinin muxtar respublika ərazisində yayılması tamamilə dayandırılmışdır.

Muxtar respublika rəhbərliyinin Azərbaycan Respublikasının aidiyyəti təşkilatlarına dəfələrlə etdiyi müraciətlərə baxmayaraq, bu günə kimi televiziya verilişlərinin Naxçıvana ötürülməsi sahəsində konkret tədbirlər görülməmişdir.

Azərbaycan Respublikası qəzetlərinin və digər mətbuat vasitələrinin Naxçıvan Muxtar Respublikasına göndərilməsi sahəsində də ciddi nöqsanlar mövcuddur. Azərbaycan Respublikası Rabitə Nazirliyi ilə “AzAL” hava nəqliyyat şirkəti arasında bağlanmış müqavilələr tez-tez pozulduğundan Azərbaycan Respublikasının paytaxtı Bakıda dərc olunan qəzet və jurnallar vaxtlı-vaxtında Naxçıvan Muxtar Respublikasına gətirilmir, qəzetlərin çox nömrələri abunəçilərə çatdırılmır.

Belə vəziyyət Naxçıvan Muxtar Respublikası əhalisini Azərbaycanda gedən ictimai-siyasi, iqtisadi proseslər və həyata keçirilən tədbirlər haqqında lazımi məlumatları tam və vaxtında alınmasından məhrum etmiş, muxtar respublikanı Azərbaycanın paytaxtından və başqa regionlardan təcrid edib, sözün əsl mənasında Naxçıvanı informasiya blokadasına salmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətindən, Azərbaycan Respublikası Rabitə Nazirliyindən tələb olunsun ki, Azərbaycan televiziyası verilişlərinin bütün proqramlarının Naxçıvan Muxtar Respublikası əhalisinə birbaşa verilməsini təcili olaraq təmin etsinlər.

2. Azərbaycan Respublikası Rabitə Nazirliyindən və "AzAL" hava nəqliyyatı şirkətindən tələb edilsin ki, qəzetlərin və digər mətbuat vasitələrinin, bağlamaların Naxçıvan Muxtar Respublikasına vaxtlı-vaxtında göndərilməsinə nail olsunlar.

3. Azərbaycan Respublikası Milli Məclisindən, Azərbaycan Respublikası Nazirlər Kabinetindən xahiş edilsin ki, Naxçıvan Muxtar Respublikası əhalisinin məruz qaldığı informasiya blokadasına son qoyulması üçün təcili konkret tədbirlər görsünlər.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 25 iyul 1992-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi növbəti sessiyasının PROTOKOLUNDAN

*(8 avqust 1992-ci il)*

**Heydər Əliyev** (Ali Məclisin Sədri): Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi vəziyyəti, ictimai vəziyyəti həddindən artıq ağırdır.

Bütün Azərbaycanda olan iqtisadi-sosial vəziyyət Naxçıvanı bürüyüb. Çünki Naxçıvan müəyyən mənada qapalı bir şəraitdədir. Bir aydan artıqdır ki, Azərbaycandan Naxçıvana elektrik enerjisi verilməsi üçün lazımi təchizat, xammal olmadığına görə Naxçıvanda vəziyyət daha da ağırdır, daha da gərgindir. Dəfələrlə Azərbaycan Respublikasının rəhbərliyinə müraciət etmişik, lakin bu qərarda nəzərdə tutulan tədbirlər indiyə qədər həyata keçirilməyib. Buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin iclasında 9 iyul və 25 iyulda bu məsələlər müzakirə edilib. Ancaq daxili imkanlar çox məhduddur. Bu daxili imkanlarla Naxçıvanın vəziyyətini yaxşılaşdıra bilməyəcəyik. Azərbaycan Respublikası Ali Sovetinin Sədri İ. Qəmbərovla danışıqdan sonra bir qrup nümayəndə Naxçıvana göndərilib. Bu günlər Ali Məclisin sessiyasına gəlməmək (AXC platformasında dayanan deputatlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 8 avqust 1992-ci il tarixli sessiyasına gəlməməklə onun işini pozmuşlar - **tərtibçi**) onu göstərir ki, burada bir qrup adam Naxçıvanın vəziyyətini pisləşdirmək, xalq arasında şübhə yaratmaq istəyir. Mən hesab edirəm ki, belə şəraitdə sessiyanın keçirilməsinə imkan yoxdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının başlanmasına mane olan deputatlar bu sessiyanın işinin pozulmasına cavabdehdirlər.

Biz bunların bu hərəkətlərini pisləməliyik. Bir qrup deputatın bu ağır vəziyyətdə sessiyanın gedişini pozmaları təxribat sayılmalı və bütün günahlar onların boynuna qoyulmalıdır. Ona görə də onların bugünkü hərəkəti pislənilsin. Kim belə bir bəyanatın qəbul olunmasını istəyirsə, əlini qaldırsın.

Bu mühüm məsələnin müzakirə olunmaması 36 nəfər deputatın ("Demokratik blok"dan olan deputatlar - **tərtibçi**) üzərinə düşür. Biz belə bir bəyanatı elan etməliyik. Ali Məclisin Sədri sizi əmin etmək istəyir. Bu təxribat baş tutmayacaq. Biz onları ifşa edəcəyik. Biz Naxçıvanı bu ağır vəziyyətdən çıxarmağa nail olacağıq.

Həmin deputatlar şayiələr yayırlar ki, guya Naxçıvanı Azərbaycandan ayırmaq istəyirik. Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz hissəsidir. Mən bu məlumatı təxribat kimi qiymətləndirirəm. Naxçıvan Muxtar Respublikası Xalq Cəbhəsinin üzvləri bu şayiəni yayırlar. Nax-

çıvanda bu təxribat işlərinin aparılmasına yol verməyəcəyik. Heç kəs güman etməsin ki, onların bu işləri bağışlanacaq. Biz müdafiə məsələsini müzakirə etməliyik. Böyük danışıqlar nəticəsində, Rusiyanın Müdafiə Nazirliyinin rəhbərliyi ilə uzunmüddətli danışıqdan sonra 75-ci diviziyanın ləğv olunması qərarına nail olmuşuq. 27 və 28 iyuldan həmin diviziyanın əmlakı Azərbaycan Respublikasının səlahiyyətinə verilib. Şəxsən mən özüm 75-ci diviziyanın bütün hissələrində olmuşam. Bütün rəhbərliklə birlikdə onlarla görüşmüşük və onlarla danışıqlar aparmışıq.

Naxçıvanda vahid silahlı qüvvələr yaranır. Belə halda digər silahlı qüvvələr ləğv olunmalıdır. Cəbhənin silahlı qüvvələri 5-ci əlahiddə komandanlığa verilməlidir. Heç bir silahlı qüvvə ola bilməz. Qısa müddətdə E. Abbasov, M. Məmmədov və H. Hüseynov 15 gün ərzində silahları yığmalı və qanunsuz silah saxlayan şəxslər məsuliyyətə cəlb olunmalıdırlar. Bütün partiyaları birliyə çağırıram ki, birlikdə bütün çətinliklərdən çıxa bilək. Beləliklə, mən hesab edirəm ki, silahlı qüvvələr vahid komandanlıq altında olmalıdır. Mən hamını əməkdaşlığa dəvət edirəm.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ DEPUTATLARININ B Ə Y A N A T I

Son illər Azərbaycan Respublikasının hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında da ağır vəziyyət yaranmışdır. Dəmir yolunun fasilələrlə işləməsi, bu ilin aprel ayının 24-dən isə tamamilə dayanması, keçən ilin dekabr ayından muxtar respublikaya qazın verilməməsi, elektrik enerjisinin Azərbaycandan fasilələrlə verilməsi və iyul ayının 13-dən tamamilə kəsilməsi, qış mövsümünün yaxınlaşması ilə əlaqədar muxtar respublikada mövcud olan böhran daha da dərinləşmiş, gərgin vəziyyət yaranmışdır. Ən təhlükəli cəhət ondan ibarətdir ki, əhalinin zəruri ərzaq məhsulu una, çörəyə olan tələbatının minimum miqdarı ödənilir, çörək ehtiyatı cəmi iki-üç günlükdür.

Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 15 iyulda keçirilən iclasında "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respub-

likasında yaranmış vəziyyət haqqında" məsələ müzakirə edilmiş və qərar qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin 9 və 25 iyul 1992-ci il tarixli iclaslarında bu məsələlər hərtərəfli müzakirə edilmiş, müvafiq qərarlar qəbul olunmuşdur.

Lakin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi vəziyyəti dəyişməmiş, ötən müddətdə gərginlik daha da artmış, tam dözülməz hal almışdır.

Bütün bunları nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu məsələləri Ali Məclisin sessiyasının müzakirəsinə çıxarmağı qərara almışdır. Sessiya 1992-ci il avqust ayının 8-nə təyin edilmişdir.

Sessiyanın çağırılması Azərbaycan Respublikası Ali Sovetinin Sədri İ. Qəmbərovla razılaşdırılmış və Azərbaycan Respublikası Milli Məclisinin rəhbərliyinin göstərişi ilə Ali Məclisin sessiyasında iştirak etmək üçün Azərbaycan Dəmir Yolu İdarəsinin rəisi Elbrus Abdullayev, "Azərbaşenerji" idarəsinin rəisi Müslüm İmanov, Azərbaycan elektrik şəbəkələri tikintisi trestinin rəisi Baxış Babayev, "Azqaznəqliyyat birliyi"nin rəis müavini Nazim Səmədzadə, Azərbaycan taxıl məhsulları nazirinin müavini İbrahim Xəlilov, Azərbaycan Dövlət Yanacaq Komitəsinin rəis müavini Zöhrab Baharlı, Azərbaycan kənd təsərrüfatı və ərzaq nazirinin müavini Kərim Kərimov Bakıdan Naxçıvana gəlmişlər.

Sessiyanın iclası səhər saat 11-də başlamalı idi. Sessiyanın işində iştirak etmək üçün 62 nəfər deputat qeydiyyatdan keçmişdir. Saat 11-ə yetərsay olmadığına görə sessiya vaxtında öz işinə başlaya bilməmişdir.

Araşdırmalar nəticəsində aydın olmuşdur ki, Xalq Cəbhəsinə mənsub olan bir qrup Naxçıvan Muxtar Respublikasının xalq deputatı sessiyanın iclasına gəlməyərək Azərbaycan Xalq Cəbhəsinin Naxçıvan Vilayət şöbəsinin binasına toplaşıb Ali Məclisin sessiyasında iştirak edib-etməmələrini müzakirə edirlər.

İclas salonuna toplaşmış Naxçıvan Muxtar Respublikasının xalq deputatları, sessiyada iştirak etmək üçün Bakıdan gəlmiş Azərbaycan Respublikası nazirliklərinin, idarə və müəssisələrinin rəhbərləri sessiyaya dəvət olunmuş, Naxçıvan Muxtar Respublikası nazirliklərinin,

dövlət komitələrinin, idarə, müəssisə və rayon rəhbərləri üç saatdan artıq sessiyanın başlanması üçün yetərsay toplanmasını gözləmişlər.

Bu müddətdə Ali Məclisin rəhbərliyi Xalq Cəbhəsinin binasına toplaşmış Naxçıvan Muxtar Respublikası xalq deputatlarının sessiyasının iclas salonuna gəlməsi üçün bir neçə dəfə cəhd göstərmiş, bu məqsədlə orada olan Naxçıvan Muxtar Respublikasının xalq deputatı Həbib İsmayılovla, Ali Məclisin Sədr müavinləri Asif Kələntərli və Qafar Məmmədovla telefon danışıqları aparmışdır. Lakin bu cəhdlər nəticə verməmiş, deputatların məlum olmayan səbəblərə görə sessiyaya gəlməkdən imtina etdikləri bildirilmişdir. Beləliklə, yetərsay olmadığına görə Ali Məclisin sessiyası öz işinə başlaya bilməmişdir.

Ali Məclisin sessiyasında iştirak etmək üçün iclas salonuna toplaşmış xalq deputatları üç saat gözlədikdən sonra sessiyanın işinin pozulması ilə əlaqədar olaraq bu bəyanatı verməyə məcbur olmuşlar.

Naxçıvan Muxtar Respublikasında yaranmış gərgin sosial-iqtisadi vəziyyətin müzakirəsi üçün çağırılmış Ali Məclisin sessiyasında iştirak etməkdən imtina edərək naməlum səbəblərə görə sessiyanın iclasının təyin olunduğu vaxtda Xalq Cəbhəsinin binasına toplaşmış və beləliklə də, Ali Məclisin reqlamentini kobudcasına pozmuş Xalq Cəbhəsinə mənsub olan Naxçıvan Muxtar Respublikası xalq deputatlarının hərəkətləri pislənilsin və sessiyanın keçirilməsinə qarşı yönəldilən antidemokratik cəhd kimi qiymətləndirilsin.

Ali Məclisin sessiyasında hər bir deputat, hər bir deputat qrupu bütün məsələlər barəsində tam müstəqil fikir söyləmək və təkliflər vermək hüququna malikdirlər. Belə bir halda Xalq Cəbhəsinə mənsub deputat qrupunun muxtar respublika əhalisinin müqəddəratına aid olan ən mühüm və zəruri məsələnin müzakirəsində və ağır böhran vəziyyətindən çıxış yollarının müəyyən edilməsində iştirak etməsi əvəzinə, sessiyanın iclasının təyin olunduğu vaxtda deputatların əksəriyyətindən ayrılaraq başqa yerə toplanması, sessiyanın işini pozması və bu mühüm məsələnin müzakirəsinin təxirə salınması anlaşılmaz və dözülməzdir.

Bu bəyanatı qəbul edən Naxçıvan Muxtar Respublikasının xalq deputatları Naxçıvan Muxtar Respublikasının bir qrup deputatının pozucu hərəkətinə qəti etirazını bildirir və bütün xalq deputatlarını Naxçıvan Mux-

tar Respublikasının sosial-iqtisadi məsələlərinin həll olunmasında, çətinliklərin və nöqsanların aradan qaldırılmasında əməkdaşlığa dəvət edir.

Naxçıvan Muxtar Respublikasının xalq deputatları: Heydər Əliyev, Mirhəşim Seyidov, Arzu Kazımov, Rafiq Rəhimov, Həsən Abdullayev, Tahir Allahyarov, Rza İbadov, Hüseyn Hüseynov, Muxtar Paşayev, Afət Səfərov, Məmmədtağı İbrahimov, Səbuhi Vəzirov, Viktor Jukov, Namiq Həsənov, Abasqulu Rüstəmov, Vahid Ağahəsənov, Qənbər Suvanverdiyev, Tahir Əliyev, İlyas Novruzov, Yusif Vəliyev, Yenisey Hacıyev, Şərif Şərifov, Nemət Kazımov, Mircəmil Mahmudov, Arif Əliyev, Anar Səfərov, Həsən Nəsirov, Zakir Səfərov, Həsən Novruzov, Əlövsət Baxşıyev, Mamoş Şirəliyev, Cəmşid Fətullayev, Rəşid Həsənov, Rövşən Cəlilov, İbrahim Həsənov, Adil Mahmudov, Ənvər Abdullayev, Vaqif Həsənov, Çərkəz Əkbərov, Fəxrəddin Şirzadov, Həsən Gülməmmədov, Səfər Nəcəfov, Hüseyn Cəfərov, Cəbrayıl Musayev, Ənvər Hüseynov, Xəlil Əliyev, Çingiz Məmmədov, Yaşar Nağıyev, Nəsrulla Bayramov, Həsən Xəlilov, Xeyrulla Abbasov, Əli Cəfərov, Eynulla Mədətov, Telman Sadiqov. Azərbaycan Respublikasının xalq deputatları: Məmməd Abbasov, Eldar İbrahimov, Orucəli Məmmədov, Allahverdi Həsənov, Məmməd Məmmədov.

*8 avqust 1992-ci il*

## Naxçıvan Muxtar Respublikasında mövcud sosial-iqtisadi vəziyyət, baş vermiş çətinliklərin aradan qaldırılması və qış mövsümünə hazırlıq tədbirləri haqqında

### NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN QƏRARI

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, son illər Azərbaycan Respublikasının hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında da ağır vəziyyət yaranmışdır. Köhnə iqtisadi mexanizmin dağılması, yenisinin isə yaranmaması öz mənfi təsirini bütün istehsal sahələrində göstərmiş, böhran ilbəil dərinləşmişdir.

Keçən ilin dekabr ayından muxtar respublikaya qazın verilməməsi, Naxçıvan-Bakı dəmir yolunun fasilələrlə işləməsi, bu ilin aprel ayının 24-dən tamamilə dayandırılması, elektrik enerjisinin fasilələrlə verilməsi və iyul ayının 13-dən tamamilə kəsilməsi muxtar respublikada mövcud olan böhranı daha da kəskinləşdirmiş, gərgin vəziyyət yaratmışdır.

Dəmir yolu işləmədiyindən Naxçıvan Muxtar Respublikasının Azərbaycanla əlaqəsi kəsilmiş, sənaye, tikinti təşkilatları lazım olan xammalla, komplektləşdirici avadanlıqlarla, inşaat materialları ilə təmin edilmədiyindən onların əksəriyyətinin fəaliyyəti dayanmışdır. İstehsal edilmiş məhsullar satılmamış, müqavilə öhdəlikləri pozulmuşdur. Keçən illə müqayisədə 8 ayın yekununa görə sənaye məhsulu istehsalının ümumi həcmi 49,7 faiz, xalq istehlakı malları 60 faiz azalmış, heç bir sosial-obyekt tikilib istifadəyə verilməmişdir. Sənaye və tikinti sahəsində çalışan 25 mindən artıq fəhlə və qulluqçu işsiz qalmışdır.

Kənd təsərrüfatı işçilərinin gərgin əməyinin nəticəsində bu il yaxşı məhsul yetişdirilmişdir. Lakin yanacaq qıtlığının yaranması, kənd təsərrüfatı maşın və mexanizmlərinin ehtiyat hissələrlə təmin edilməməsi, emal müəssisələrinə elektrik enerjisinin fasilələrlə verilməsi, sudartan elektrik nasoslarının işləməməsi məhsulun vaxtında tədarük və emal edilməsində gərginlik yaratmışdır.

Qeyd olunan səbəblərin nəticəsidir ki, taxıl biçini müddəti xeyli uzanmışdır. Xırmanlarda taxıl əsasən təmizlənmədən dəyirman kombinatına təhvil verilmişdir. Keçən illə müqayisədə taxıl istehsalı və tədarükü azalmasa da, məhsul itkisinə yol verilmişdir.

Hazırda, kənd təsərrüfatında gərginlik son həddə çatmışdır. Üzümün, tütünün, meyvənin, tərəvəzin kütləvi yığım dövrüdür. Payızlıq taxıl əkini keçirilməlidir. Lakin yanacağın və elektrik enerjisinin olmaması bütün işləri iflic vəziyyətinə salmışdır. İxrac etmək mümkün olmadığından 100 milyonlarla manatlıq hazır şərab məhsullarının xarab olması təhlükəsi yaranmışdır.

Bütün bunlar müharibə şəraitində ağır zəhmətlə yetişdirilmiş məhsulların itkisinə, məhv olmasına səbəb olur, ayrı-ayrı təsərrüfatlara, kənd sakinlərinə maddi və mənəvi ziyan vurur, kənd əhalisinin haqlı

narazılığına səbəb olur, muxtar respublikanın ərzaq təminatını daha da çətinləşdirir.

Muxtar respublikanın tələbatının 20 faizini ödəyən mövcud elektrik enerjisi həyati vacib obyektlərə, xəstəxanalara, çörək zavodlarına, dəyirman kombinatına və digər fasiləsiz obyektlərə yönəldildiyindən şəhərlərin, kəndlərin işıqlandırılması tamamilə pisləşmiş, əhalinin içməli su ilə təminatında həddindən artıq çətinlik yaranmış, təhlükəli yoluxucu xəstəliklərin baş verməsi qorxusu var.

Təbii qazın olmaması, dəmir yolunun uzun müddət işləməməsi, qışa hazırlığı hədsiz dərəcədə çətinləşdirmişdir. Əhalinin ehtiyacı üçün tələb olunan min tonlarla daş kömür, ocaqxanaların və digər vacib obyektlərin işləməsi üçün min tonlarla mazutun gətirilməsi vaxtı artıq keçmiş və buna görə də qış mövsümündə əhalinin normal yaşaması üçün ağır vəziyyət yaranmışdır.

Muxtar respublikanın blokada şəraitində olmasının ən təhlükəli cəhəti bir də ondan ibarətdir ki, əhalinin ən zəruri ərzağa - una, çörəyə olan tələbatının ancaq minimum miqdarı ödənilir. Un ehtiyatı cəmi iki-üç günlükdür.

May ayının əvvəllərindən mütəmadi olaraq Ermənistan tərəfindən silahlı hərbi təcavüzə məruz qalmış muxtar respublikanın Sədərək, Günnüt, Havuş, Yuxarı Buzqov, Şada, Biçənək və bir sıra sərhəd kəndləri dağıdılmış, on minlərlə əhali çadırlarda, meşələrdə ağır şəraitdə məskunlaşmışlar. Təcavüz nəticəsində xeyli ölən və yaralanan var.

Muxtar respublikaya Azərbaycan televiziyası verilişlərinin xeyli müddət çatdırılmaması, Azərbaycan Respublikası qəzetlərinin və digər mətbuat vasitələrinin göndərilməməsi nəticəsində Naxçıvan Muxtar Respublikası əhalisi Azərbaycanda gedən ictimai-siyasi, iqtisadi proseslər və həyata keçirilən tədbirlər haqqında lazımi məlumatların tam və vaxtında alınmasından məhrum olmuş, Naxçıvan informasiya blokadasına salınmışdır.

Vəziyyətin təhlili onu göstərir ki, muxtar respublika sözün əsl mənasında qapalı bir şəraitdə qalmış, hədsiz dərəcədə iqtisadi və sosial gərginlik yaranmış, əhalinin yaşayış tərzi dözülməz vəziyyətə düşmüş, sosial partlayış üçün zəmin yaranmışdır.

Azərbaycan Respublikasının Ali hakimiyyət orqanları tərəfindən Naxçıvan Muxtar Respublikasının mövcud vəziyyətdən çıxması məqsədilə bir sıra tədbirlər müəyyənləşdirilmiş, lakin onların həyata keçirilməsi əsasən təmin edilməmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasının etibarlı kommunikasiya əlaqələrinin inkişafı haqqında" 11 fevral 1992-ci il tarixli qərarında muxtar respublikanın qaz, elektrik enerjisi təchizatı, rabitə, avtomobil, dəmiryolları və digər kommunikasiya tədbirləri nəzərdə tutulsa da Azərbaycan Respublikasının aid nazirlik və baş idarələri tərəfindən yerinə yetirilməmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi 1992-ci il iyul ayının 15-də "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət haqqında" məsələ müzakirə etmiş və müvafiq qərarlar qəbul etmişdir.

Qərarda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, nazirlik və baş idarələrə tapşırıq verilmişdir ki, Naxçıvan Muxtar Respublikasında yaranmış gərginliyin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görsünlər və bu barədə bir ay müddətində Azərbaycan Respublikasının Milli Məclisinə hesabat versinlər.

Bir ay keçdikdən sonra qəbul edilmiş qərarın icrası Milli Məclisdə 18 avqust 1992-ci il tarixdə müzakirə edilmiş, Azərbaycan Respublikasının Ali icra hakimiyyət orqanlarına dəmir yolunun açılması məsələsinin həll edilməsi tapşırılmışdır. Əfsuslar olsun ki, bu qərarın da icrası təmin edilməmişdir.

Gözləmək olardı ki, dəmir yolunun açılmamasını nəzərə alıb respublika təşkilatları muxtar respublikanın minimum ehtiyaclarını ödəmək üçün müvafiq tədbir görəcəklər. Təəssüflər olsun ki, Azərbaycan Energetika və Elektrikləşmə Baş İdarəsi müstəsna olmaqla, qalan nazirlik və baş idarələr qaldırılan məsələlərə laqeyd münasibət göstərirlər. Belə nəticəyə gəlmək olur ki, qəbul edilən qərarlar gözlənilən nəticələri vermir, Naxçıvan Muxtar Respublikasının ağır sosial-iqtisadi vəziyyətinin yüngülləşməsinə heç bir təsiri olmur. Vəziyyət getdikcə ağırlaşır və fövqəladə tədbirlər görülməsi tələb olunur.

Muxtar respublika Ali Məclisi və Nazirlər Kabineti muxtar respublikada gedən ictimai-siyasi proseslərin ağır nəticələr verməsinin qarşısını almaq məqsədilə bir sıra əsaslı tədbirlər həyata keçirir.

Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında 24 mart 1992-ci ildə bağlanmış işbirliyi protokoluna əsasən Türkiyə hökuməti Naxçıvana yardım olaraq 1002 ton azot gübrəsi, 280 ton göydaş, 80 ton pres ipi, 20 ton elektrod, 840 ədəd müxtəlif markalı akkumulyator, 10 ton karbit göndərmişdir. Bunlar muxtar respublikanın kənd təsərrüfatı ehtiyaclarını ödəmək üçün kolxozlara, sovxozlara və digər kənd təsərrüfatı müəssisələrinə satılmışdır. Göstərilən mal-materialların dövlət satış qiyməti ilə ümumi dəyəri 12,6 milyon manatdır. Satışda əldə edilən 9,5 milyon manatlıq vəsait Naxçıvan Muxtar Respublikasının inkişaf və müdafiə fonduna köçürülmüşdür.

Həmin müqavilənin icrası ilə əlaqədar Türkiyə hökuməti tərəfindən ayrılmış kredit hesabına muxtar respublika əhalisinin ərzaq məhsulları ilə təmin edilməsinə də artıq başlanmışdır. 15 sentyabr 1992-ci ilə qədər 600 ton makaron, 200 ton zeytun yağı, 100 ton kərə yağı, 282 ton quş əti, 117 ton düyü muxtar respublikaya daxil olmuş, rayon əhalisi nəzərə alınmaqla, müvafiq qaydada bölünüb əhaliyə satışı təşkil edilmişdir.

Türkiyə Respublikasının "Qızıl Ay" və İran İslam Respublikasından "Hilal Əhmər" cəmiyyətlərindən bu ilin mart ayından muxtar respublikaya yardım olaraq 785 ton un, 56 ton yağ, 87 ton şəkər daxil olmuş və ərzaq komissiyası vasitəsilə qiymətləndirilmiş, əhaliyə satılmışdır.

Muxtar respublika və İran İslam Respublikası arasında 24 avqust 1992-ci il tarixdə bağlanmış protokola əsasən muxtar respublikanın kommunikasiya xətlərinin İran ərazisindən keçirməsi, bir il ərzində qaz kəmərinin İran hökumətinin vəsaiti hesabına çəkilməsi, sentyabr ayından başlayaraq hər ayda 100 ton maye qazın verilməsi kimi həyati vacib məsələlər həll olunmuşdur.

Muxtar respublikanın qışa hazırlığı, ərzaqla təmin edilməsi ilə əlaqədar müqavilədə konkret öhdəliklər qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, iqtisadiyyatda yaranmış ağır vəziyyətdən çıxmaq üçün hər bir təşkilatda, kollektivdə, rayonda, nazirlik və baş idarələrdə möhkəm əmək intiza-

mının olması, müharibə şəraiti üçün iş qaydaları müəyyən edilməsi başlıca vəzifə hesab edilməlidir.

Yaranmış mürəkkəb şəraitdən istifadə edib, xalqın malını dağıdanlara, cinayət əməllərinə, xuliqanlığa yol verənlərə qarşı inzibati orqanlar tərəfindən qanunun gücündən istifadə edib, ciddi və təsirli tədbirlər görülməlidir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, Naxçıvan Muxtar Respublikasının düşdüyü bu ağır vəziyyətdən çıxması üçün, qış mövsümünün nisbətən normal şəraitdə keçməsi üçün Naxçıvan-Bakı dəmiryolunun təcili olaraq işə başlaması, Azərbaycandan muxtar respublika ərazisinə elektrik enerjisi verilməsi başlıca şərtdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının Prezidentindən, Azərbaycan Respublikasının Milli Məclisindən, Azərbaycan Respublikasının Nazirlər Kabinetindən bir daha xahiş edilsin ki, Naxçıvan Muxtar Respublikasında yaranmış iqtisadi və sosial gərginliyi nəzərə alaraq, təxirəsalınmaz, konkret tədbirlər görsünlər. Bunun üçün dəmir yolunun dərhal açılması, muxtar respublikanın elektrik enerjisi ilə təmin edilməsi başlıca vəzifə hesab edilsin.

Nəzərə alınsın ki, Ermənistan Respublikasının muxtar respublika ilə həmsərhəd rayonlarının rəhbərləri ilə sentyabr ayının 14-də aparılan danışıqlar nəticəsində məlum olmuşdur ki, Naxçıvan ərazisində dəmir yolunun işləməsinə onlar tərəfindən etiraz yoxdur.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, nazirlik və baş idarələrinə, rayon icraiyyə komitələrinə tapşırılsın ki, muxtar respublikanın ağır sosial-iqtisadi vəziyyətdən çıxarılması, qışa hazırlıqla əlaqədar Azərbaycan Respublikasının nazirlik və baş idarələri ilə birgə daxili imkanlardan tam istifadə etməklə, İran İslam Respublikası ilə muxtar respublika arasında bağlanmış müqavilədə nəzərdə tutulan bütün öhdəliklərin yerinə yetirilməsini, o cümlədən, ilk növbədə, köməkçi elektrik stansiyasının istifadəyə verilməsini oktyabr ayının axırına başa çatdırılmasını, bərk və maye yanacaq materiallarının gətirilməsini təmin etsinlər.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə, rayonların XDM İcraiyyə Komitələri-

nə, rayon aqrokombinatlarına tapşırılsın ki, üzümün yığılması və tədarük edilməsini, payızlıq taxıl əkininin, mal-qaranın qışdan çıxarılmasının və digər kənd təsərrüfatı işlərinin mütəşəkkil həyata keçirilməsi üçün bütün təşkilati tədbirləri həyata keçirsinlər.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetindən xahiş edilsin ki, muxtar respublikada sənayenin, tikintinin, kənd təsərrüfatının və iqtisadiyyatın digər sahələrinin ahəngdar fəaliyyətini təmin etmək, əhalinin ərzaq və xalq istehlakı mallarına olan tələbatını ödəmək, qışa mütəşəkkil hazırlaşmaq, müdafiəni möhkəmləndirmək, Azərbaycan televiziyası verilişlərinin bütün proqramlarının muxtar respublika əhalisinə birbaşa verilməsini, qəzetlərin və digər mətbuat vasitələrinin vaxtlıvaxtında göndərilməsi məqsədilə təcili olaraq bütün yardımların və tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

İran İslam Respublikası ilə muxtar respublika arasında 24 avqust 1992-ci ildə bağlanmış protokolla muxtar respublikanın ehtiyaclarını ödəyəcək yanacaq, ərzaq və digər malların alınmasında Azərbaycan Respublikasının öhdəsinə düşən məsələlərin həllində müvafiq tədbirlər görülsün.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 16 sentyabr 1992-ci il*

## Naxçıvan Muxtar Respublikasının əhalisinə göstərilən səhiyyə xidmətinin vəziyyəti haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 1992-ci il sentyabr ayının 14-də “Muxtar respublikada əhaliyə göstərilən tibbi xidmətin vəziyyəti və bu sahədə əsaslı islahatlar aparılması tədbirləri barədə” məsələ müzakirə etmiş, əhalinin sağlamlığının qorunması, dispan-

serizasiyanın təşkili, ana və uşaqlara göstərilən tibb xidmətinin səviyyəsi, sanitar rejiminin gözlənilməsi, kadrların seçilib yerləşdirilməsi və müəssisələrin gücündən istifadə olunması sahəsində ciddi nöqsanlara yol verildiyini qeyd etmişdir.

Bu nöqsanlarla əlaqədar muxtar respublikanın Nazirlər Kabineti səhiyyə naziri F.C. Cəfərquliyevin məsuliyyət daşıdığını nəzərə alıb, onun bundan sonra nazir vəzifəsində qalmasının mümkün olmadığını bildirmiş və məsələnin Ali Məclisin sessiyasının müzakirəsinə çıxarılması təklifini vermişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Muxtar respublikada əhaliyə göstərilən tibbi xidmətin vəziyyəti və bu sahədə əsaslı islahatlar aparılması tədbirləri barədə" 14 sentyabr 1992-ci il tarixli qərarı nəzərə alınsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, əhaliyə tibbi xidmətin göstərilməsi sahəsində, səhiyyə orqanlarının işində buraxılan ciddi nöqsanların qısa müddətdə aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.

Görülən işlər haqqında 1992-ci il dekabr ayının 1-nə qədər Ali Məclisə hesabat verilsin.

3. İşdə buraxdığı ciddi nöqsanlara görə Fərhad Cəfərqulu oğlu Cəfərquliyev Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 20 sentyabr 1992-ci il*

**“Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti haqqında” Naxçıvan Muxtar Respublikası Qanununa müvafiq dəyişiklik və əlavələr edilməsi haqqında**

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 24-cü maddəsinə müvafiq dəyişiklik və əlavələr edilsin:

“Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 24-cü maddəsinin 5-ci bəndindən sonra Dövlət Gömrük Komitəsi, 6-cı bəndindən sonra Dövlət Kommunikasiya Komitəsi, 7-ci bəndindən sonra Dövlət Xarici Əlaqələr Komitəsi, 8-ci bəndindən sonra Dövlət Torpaq Komitəsi sözləri əlavə edilsin.

2. Naxçıvan Muxtar Respublikası Təbiəti Mühafizə Komitəsi Naxçıvan Muxtar Respublikası Dövlət Təbiəti Mühafizə Komitəsinə çevrilsin.

24-cü maddənin 4-cü bəndindən sonra “Dövlət Təbiəti Mühafizə Komitəsi” sözləri əlavə edilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 20 sentyabr 1992-ci il*

## GƏNCLƏRİN TƏHSİLİNƏ QAYĞI

Oktyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas salonunda Türkiyədə təhsil almağa gedən tələbələrlə muxtar respublika Ali Məclisi, Nazirlər Kabineti rəhbərlərinin və Naxçıvan şəhər ictimaiyyəti nümayəndələrinin görüşü olmuşdur.

Görüşə həsr edilmiş yığıncağı muxtar respublikanın Baş naziri Ş. Xan-Babayev açaraq dedi ki, cari ilin mart ayının 22-24-də Türkiyə Respublikasında səfərdə olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin səfərin yekunları ilə bağlı imzaladığı işbirliyi protokolunda muxtar respublika ilə Türkiyə Respublikası arasında iqtisadi, sosial və mədəni əlaqələrin inkişafına dair maddələrlə yanaşı, daha bir maddə - hər il 100 nəfər naxçıvanlı gəncin Türkiyədə təhsil alması maddəsi də öz əksini tapmışdır. Naxçıvanlı gənclərin Türkiyə universitetlərində təhsil almaları üçün Ali Məclis Sədrinin göstərdiyi təşəbbüs artıq öz bəhrəsini vermişdir. Türkiyənin Naxçıvana gəlmiş Yüksək Öyrətim Seçim Kurumunun səlahiyyətli nümayəndələri tərəfindən ilk dəfə test üsulu ilə seçim aparılmış və təhsil almaq arzusunda olan 357 gəncdən 75 nəfəri Türkiyənin müxtəlif universitetlərinə qəbul olunmuşdur. Bugünkü görüş də onların yola salınmasına həsr edilmişdir. Biz əminik ki, Naxçıvandan Türkiyədə və başqa yerlərdə təhsil almağa gedən 75 nəfər gənc onlara göstərilən qayğını yüksək qiymətləndirəcək, valideynlərinin, ziyalılarımızın, dövlətimizin ümidlərini şərəflə doğruldacaq, Türkiyədə respublikamızı layiqincə təmsil edəcək, geniş dünyagörüşünə, dərin elmə və bacarığa malik yüksək-ixtisaslı mütəxəssislər kimi geri dönəcəklər.

Yığıncaqda muxtar respublikanın xalq təhsili naziri N. Əkbərov, Türkiyədə təhsil almağa gedən gənclərdən Vüqar Kərimov, Aynur Qazıyeva, Nağı Məhərrəmov, İstanbul Universitetinin tələbəsi Əlövsət Müslümovun atası Səxavət Müslümov, H. Cavid adına 5 nömrəli Naxçıvan şəhər orta məktəbinin direktoru Hüseyn Məmmədov, qadınlar adından Elmira Qasımova, veteranlar adından Baloğlan Rüstəmov və başqaları çıxış edərək bu yüksək qayğı üçün muxtar respublika Ali Məclisinə, Nazirlər Kabinetinə və şəxsən Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevə özlərinin dərin təşəkkürünü və minnətdarlığını bildirdilər.

Yığıncaqda Heydər Əliyev çıxış etdi. O, yığıncağa toplaşmış tələbələri, onların valideynlərini, təhsil aldıqları məktəblərin müəllim kollektivlərini və muxtar respublika ictimaiyyətinin nümayəndələrini təbrik edərək dedi ki, bu gün qədim Azərbaycan diyarı Naxçıvanda biz yeni

əlamətdar bir hadisənin iştirakçısıyıq. Naxçıvan Muxtar Respublikasından ilk dəfə olaraq Türkiyə Respublikasının ali məktəblərinə, universitetlərinə 15 nəfər naxçıvanlı gənc qəbul olunmuşdur. Gəlin, Türkiyəyə yola düşən tələbələrə yaxşı yol, uğurlu təhsil, naxçıvanlı və azərbaycanlı adını yüksək tutmağı arzulayaq və əmin olduğumuzu bildirək ki, bu gün yaranan belə gözəl ənənə gələcəkdə də davam edəcək, naxçıvanlı gənclər bundan sonra Türkiyədə, Avropanın və dünyanın başqa ölkələrində təhsil almaq imkanları əldə edəcəklər.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, Azərbaycan Respublikası milli azadlığını, dövlət müstəqilliyini əldə edib və indi milli dövlət qurmaq prosesi ilə məşğuldur. Bu, Azərbaycan üçün, Azərbaycan xalqı üçün yeni bir tarixi mərhələdir. Bu yeni mərhələdə şübhəsiz ki, Azərbaycan dövlətinin, xalqımızın qarşısında çox mühüm və mürəkkəb vəzifələr durur. Bu vəzifələrdən biri də Azərbaycanın bu günü və gələcəyi üçün yüksək təhsilli, yüksək mədəniyyətə malik olan, müasir tələblərə cavab verən mütəxəssislər hazırlamaqdır. Bu işi, şübhəsiz ki, biz quru yerdə aparmırıq. Son 70 il müddətində Azərbaycanda bir çox ali məktəblər fəaliyyət göstərib, mütəxəssislər hazırlanıb. Lakin bu gün də müstəqil Azərbaycan dövlətinin, iqtisadiyyatımızın, mədəniyyətimizin, elmimizin Azərbaycanı daha sürətlə gələcəyə aparmağa qabil olan mütəxəssislərə ehtiyacı var.

Yadınıza salmaq istəyirəm ki, Azərbaycanda ilk demokratik hökumət yaranan kimi onun ilkin tədbirlərindən biri Bakı Dövlət Universitetinin yaradılması oldu. O, Azərbaycanda ilk ali məktəb idi. Bakı Dövlət Universiteti 1919-cu ildən bu günədək fəaliyyət göstərir. Doğrudur, onun tarixində şərəfli səhifələr də var, eyni zamanda bizi bugünkü tələblər baxımından qane etməyən cəhətlər də. Amma, ümumiyyətlə götürdükdə 1919-cu ildə ilk müstəqil Azərbaycan dövləti tərəfindən yaradılmış Bakı Dövlət Universiteti Azərbaycanda yüksək təhsil ocaqları yaranmasına bünövrə olmuş və onun əsasında sonrakı illərdə ali məktəblər yaranmışdır. Bizim bugünkü alitəhsilli mütəxəssislərimiz, alimlərimiz, mədəniyyət xadimlərimiz, Azərbaycanın şan-şöhrətini bütün dünyaya yayan adamların hamısı bu ali məktəblərin yetirmələridir.

Bütün bunları ədalət naminə qeyd etmək lazımdır. Eyni zamanda biz böyük ürək ağrısı ilə qeyd etməliyik ki, müəyyən bir mərhələdə, xüsusən son illərdə Azərbaycanın ali məktəblərində təhsil sistemi ləkələnmiş, ali təhsil almaq üçün bəziləri cürbəcür çirkin üsullardan istifadə etmiş və bu da ictimaiyyət arasında böyük narazılıqlar doğurmuşdur. Güman edirəm ki, yeni, müstəqil Azərbaycan hökuməti ali təhsil sahəsində olan bütün bu çirkin hallara son qoyacaq, Azərbaycanda yaranmış böyük ali təhsil potensialı bundan sonra öz xalqımıza xidmət edəcəkdir.

Ancaq bunlarla yanaşı Azərbaycanda hələ ali təhsil məktəbi olmamışdan da qabaq, keçən əsrin son dövründə və bizim əsrin əvvəllərində Azərbaycanın mütərəqqi fikirli adamları gəncləri Rusiyaya, Avropaya və Şərq ölkələrinə göndərib, onların ali təhsil almalarına şərait yaradırdılar. Bu adamlar sayca az olsalar da, Azərbaycanın mədəniyyətinin, elminin inkişaf etməsində çox böyük xidmətləri olmuşdur.

Düzdür, bunlar cürbəcür yollarla olmuşdur, ancaq hər halda Azərbaycan xalqında ali təhsil almaq, başqa xalqların mədəniyyətini öyrənmək, inkişaf etmiş ölkələrdə bir mütəxəssis kimi yetişib öz ölkəsinə dönmək və xalqına xidmət etmək meyli həmişə olmuşdur. Bu gün də burada qeyd olundu ki, bizim həmvətənimiz, naxçıvanlımız, dahi şair və dramaturq, filosof Hüseyn Cavid məhz Türkiyədə, İstanbulda təhsil almışdır. İstanbulda aldığı təhsil şübhəsiz ki, fitri istedadı ilə birlikdə ona bir dahi olmağa kömək etmiş, Azərbaycan xalqı üçün böyük ədəbi, mənəvi, mədəni və elmi irs qoyub getməsinə imkan yaratmışdır.

Daha bir uzaq vaxtı yada salaq. Böyük mütəfəkkir Mirzə Fətəli Axundov hələ XIX əsrin ikinci yarısında öz xalqını ümumbəşəri mədəniyyətə daha sıx bağlamaq məramında olaraq yeni əlifba layihəsi hazırlamış və onu məhz Türkiyəyə aparmışdır. Düzdür, o, buna nail olmamış, lakin onun təşəbbüsü bizim Azərbaycan tarixində öz yerini tapmış və indi də biz onu böyük ehtiramla yad edirik.

Yetmişinci illərdə Azərbaycanda yüksək təhsilli mütəxəssislər hazırlamaq üçün çox işlər görülmüşdür. Bunu heç vaxt unutmaq lazım deyil. 1970-ci ildən başlayaraq Azərbaycanda 15-16 ali məktəb olmasına baxmayaraq, biz daha yüksəkixtisaslı mütəxəssislər hazırlamaq üçün

Moskvaya, Leninqrada, Ukraynaya, Belorusiyaya və o vaxtlar Sovetlər İttifaqının başqa respublikalarının mərkəzi şəhərlərinə azərbaycanlı uşaqlarını göndərib orada müxtəlif ixtisaslara yiyələnmələrinə nail ola bilmişdik. İndi burada bir gənc çıxış etdi və dedi ki, o bunları görməyib. Ona görə də mən bir daha bu mövzuya qayıdaraq bildirmək istəyirəm ki, 1970-ci ildə biz maraqlandıq görək Azərbaycandan Moskvada, Leninqradda, Kiyevdə və başqa böyük şəhərlərdə təhsil almağa ildə neçə nəfər gedir. Məlum oldu ki, Moskvada Azərbaycan üçün hər il cəmi 50 yer ayırırlar. Bu 50 yerin də yalnız 20-sini azərbaycanlılar tutur. Qalan 30-nu isə Azərbaycanda yaşayan ruslar, ermənilər, yəhudilər və başqa millətlərdən olan gənclər tutur. Bu fakt məni dəhşətə gətirdi. Əvvəla nə üçün bu 50 yerin hamısını bizim azərbaycanlı gənclər tutmamalıdır? Digər tərəfdən nə üçün bizim respublika üçün cəmi 50 yer ayrılıb?

Bir şeyi bilmək lazımdır ki, əgər hər hansı bir xalq inkişaf etmək istəyirsə, o, gərək bəşəri mədəniyyətə, bəşəri elmə yiyələnsin. Mən 20 il bundan öncə də, indi də çox arzusunda olmuşam ki, azərbaycanlı balaları Türkiyədə, İranda, Rusiyada, Almaniyada, Ərəbistanda, İtaliyada, İngiltərədə, Amerikada, Fransada və hətta Hindistanda, Çində belə təhsil alsınlar. Çünki öz içimizdə olan biliklər özümüzdədir və bunu heç kəs bizim əlimizdən ala bilməz. Ancaq dünyanın cürbəcür ölkələrindəki təhsil sistemlərindən istifadə edərək, böyük elmi nailiyyətlərə müvəffəq olaraq xalqı daha da irəliyə aparmaq lazımdır. Ancaq o illərdə təəssüf ki, bizim imkanımız məhdud idi. Biz Sovetlər İttifaqından kənarda bir nəfər belə oxutmaq imkanına malik deyildik. Deməli yol bir idi - tək Azərbaycanda yox, Sovetlər İttifaqının, o cümlədən Moskvanın, Leninqradın, başqa böyük şəhərlərin institutlarında azərbaycanlı gənclərin təhsil almalarına nail olmaq. Bu, çox böyük iş idi. Vaxtınızı almadan yalnız onu qeyd etmək istəyirəm ki, əgər 1970-ci ildə başqa ali məktəblərə Azərbaycandan cəmi 50 nəfər göndərilirdisə, onun tərkibi də sizə indi məlumdur. 1976-cı ildən sonra hər il 800-900 nəfər və böyük əksəriyyəti, 95 faizi azərbaycanlılar olan gənclər Sovet İttifaqının təxminən 50 şəhərinə institutlarında təhsil almağa göndərilirdilər. Onların çoxu indi Azərbaycanın müxtəlif yerlərində, Bakı-

da, başqa şəhərlərdə yüksək ixtisaslı, bacarıqlı mütəxəssislər kimi fəaliyyət göstərirlər. Bir qismi də Rusiyada, Ukraynada, Pribaltikada və başqa yerlərdə qalıb işləyirlər.

Amma sizə bildirmək istəyirəm ki, mən o dövrdə gənclərimizin bir qisminin də Türkiyədə təhsil almasının çox həsrətində olmuşam. Çünki Türkiyə ilə Azərbaycan tarixən son dərəcə yaxın olublar. Bunu sübut etməyə ehtiyac yoxdur. Lakin o vaxtlar belə bir imkan yox idi.

Bir sözlə, hər dövrün öz imkanı, öz hökmü var. Məsələ də burasındadır ki, həmin imkanlardan səmərəli istifadə olunsun. İndi elə bir dövr gəlib çatıb ki, Azərbaycan müstəqil dövlətdir, bütün ölkələrlə müstəqil münasibətlər yaradır. Belə bir dövrdə şübhəsiz ki, başqa ölkələrdə və bizim üçün ən yaxın olan Türkiyədə də bizim gənclərin təhsil alması çox lazımdır. Ona görə yox ki, bu yeni dəbdir, yeni bir modadır. Yox. Ona görə ki, doğrudan da Türkiyənin institutlarında yüksək təhsil sistemi var. Orada hazırlanan mütəxəssislər Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanın gələcəyi üçün çox gərəklidir. Bax buna görə də bu ilin mart ayında mən Türkiyədə səfərdə olarkən Türkiyənin rəhbərləri ilə, Prezident Turqut Özalla, Baş nazir Süleyman Dəmirəllə, xarici işlər naziri Hikmət Çətinlə, nazirlərlə danışıqlar apararkən Türkiyənin Azərbaycana, xüsusən Naxçıvana köməklik göstərməsi məsələlərini müzakirə edərkən bu təklifi ortaya atdım. Bəli, biz indi çox böyük böhran içərisindəyik. Ümumiyyətlə, Azərbaycan və xüsusən Naxçıvan blokada şəraitində, müharibə şəraitində, sosial-iqtisadi böhran içərisindədir. Bu gün adamlara adicə yaşayış şəraiti yaratmaq üçün un, ət, yağ, yanacaq və başqa zəruri mallar lazımdır. Bunlar bu gün üçün, sabah üçün, bir sözlə yaşamaq üçün lazımdır. Lakin biz yalnız bu günün tələbləri ilə yaşaya bilmərik. Biz bu gün sabahı, gələcəyi düşünməliyik.

Bütün bunları nəzərə alaraq mən Ankaradakı danışıqlarda xahiş etdim ki, bizim işbirliyi protokolunda nəzərdə tutulsun ki, Türkiyə hökuməti ildə 100 nəfər naxçıvanlı gəncin orada təhsil almasını təmin etsin. Onlar bu təklifi çox məmnuniyyətlə qəbul etdilər və bu maddə bizim işbirliyi protokolunda öz əksini tapdı. Bu, Türkiyə hökuməti tərəfindən Azərbaycan xalqına və onun tərkib hissəsi olan Naxçıvan əhalisinə göstərilən böyük qayğıdır.

Bu gün Türkiyəyə gedən tələbələrlə görüşərkən, onları yola salarkən mən Naxçıvan əhalisi adından, Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti adından Türkiyə hökumətinə, Türkiyənin Prezidenti Turqut Özala, Baş nazir Süleyman Dəmirələ və bu işdə bizə yardım edən nazirliklərin hamısına dərin minnətdarlığımızı və təşəkkürümüzü bildirmək istəyirəm.

Bu gün biz ilk addım atırıq. Test imtahanlarından keçmiş tələbələri Türkiyəyə göndəririk. Lakin bu, gələcəkdə böyük bir sistemin bünövrəsidir. Heç şübhə yoxdur ki, bu ənənə davam edəcək, gələcəkdə biz Türkiyə hökuməti ilə danışıqlar aparıb onların sayını artıra biləcəyik. Beləliklə, biz Naxçıvanda gələcək nəsli daha yüksək səviyyədə hazırlamaq işini davam etdirəcəyik.

Mən sizə dedim ki, Moskvanın, Leninqradın, Kiyevin və başqa şəhərlərin ali məktəblərində oxumaq üçün ildə 500-600 nəfər azərbaycanlı gənc göndərilirdi. Lakin onların neçə nəfərinin Naxçıvandan olduğu xatirimdə deyil. Güman edirəm ki, 75 və ya 100 nəfər olmazdı. Mən o vaxt belə şeylərə fikir vermirdim. Mənim üçün fərqi yox idi, Azərbaycanın hansı yerindən olursa-olsun. Ancaq indi müqayisə edəndə görürsən ki, bir Naxçıvan üçün ildə 100 nəfərin, onun artıq 75 nəfəri yola düşür - Türkiyənin universitetlərində təhsil alması, mən sizi inandırıram ki, Türkiyənin bizə ayırdığı 100 milyon dollar kreditdən də, göstərdiyi cürbəcür yardımlardan da çox-çox qiymətlidir.

Çünki bu işin qiymətini heç bir para ilə ölçmək olmaz. Bu, bizim xalqın gələcəyidir. Naxçıvanın gələcəyidir, onun intellektual potensialıdır. Bu bir də ona görə əhəmiyyətlidir ki, biz indi Azərbaycanda yeni dövlət qururuq və eyni zamanda yeni siyasi və iqtisadi sistem yaratmaq yolundayıq. Yeni siyasi və iqtisadi sistem, yeni sosial quruluş isə şübhəsiz ki, özünə uyğun mütəxəssislər tələb edir. Bu işdə isə Türkiyənin təcrübəsi çox böyükdür.

Mən güman edirəm ki, bizim indi Türkiyəyə təhsil almağa yola saldığımız naxçıvanlı gənclər bu böyük və şərəfli işin ilk qaranquşları kimi azərbaycanlı adını, Azərbaycan xalqının adını həmişə yüksək tutacaqlar.

Bizim gənclər birinci mərhələni keçiblər, ancaq qarşıda çox böyük həyat yolu durur: beş il Türkiyədə təhsil almaq. Biz arzu edərdik ki,

gənclərimiz orada bütün imkanlardan istifadə edib yüksək elmə, yüksək ixtisasa yiyələnsinlər. Bilməlisiniz ki, siz oraya sadəcə olaraq təhsil almağa yox, Azərbaycanın gələcəyi üçün göndərilirsiniz. Ona görə də bütün universitetlərin imkanlarından istifadə edib yüksək təhsil almaq lazımdır. Siz orada Azərbaycan xalqına xas olan yüksək mədəniyyət, yüksək mənəviyyat nümunəsi göstərməlisiniz. Türkiyənin həyatında olan bütün müsbət nümunələrə, adət-ənənələrə yiyələnməlisiniz.

Bizim dilimiz birdir. Biz Naxçıvanda da türkük. Ancaq Türkiyənin türkcə dili var, Azərbaycanda azərbaycanca türk dili var. Bunların müəyyən fərqləri var. Biz güman edirik ki, bizim gənclər orada türk dilinə dərindən yiyələnəcəklər. Lakin onlar bununla kifayətlənməməlidirlər. Türkiyənin universitetlərində xarici dillərin tədrisi çox gözəl təşkil olunur. Mən həmişə böyük maraqla və həsrətlə müşahidə edərdim ki, məsələn, Türkiyədə və ya İranda universitet bitirmiş bir gənc öz dilindən başqa, Avropa dillərindən də birini və ya ikisini bilir. Təəssüf ki, biz Azərbaycanda buna nail ola bilmədik. Ancaq Türkiyədə bu məsələ çox yaxşı qoyulub. Biz arzu edərdik ki, gənclərimiz Türkiyənin universitetlərində bütün fənlərə dərindən yiyələnsinlər. Türk dilini, türk tarixini, türk ədəbiyyatını mükəmməl öyrənsinlər. Eyni zamanda orada digər əcnəbi dilləri də öyrənməyə çalışsınlar. Çünki bu bizim müstəqil Azərbaycan üçün çox gərəkli, çox lazımlı bir şərtdir. Bizim gələcək nəsillər, gələcək kadrlar gərək öz dillərindən başqa, bir neçə dil bilsinlər. Kim nə qədər çox dil bilərsə, o qədər də biliyə sahib olar. Türkiyə universitetlərində belə bir imkan var. O universitetləri bitirən türk gəncləri başqa dilləri də öyrənirlər və biz arzu edirik ki, bizim gənclər də bunu etsinlər.

Ən nəhayət, indi bizim Türkiyə universitetlərinə yola salacağımız gənclər gərək Türkiyə ilə Azərbaycan, o cümlədən Naxçıvan arasında əlaqələrin daha da genişlənməsinə, inkişaf etməsinə çalışsınlar. Onlar bilməlidirlər ki, gənc olsalar da, üzərlərinə ali təhsil almaq kimi böyük vəzifə düşsə də, eyni zamanda onların hər biri Azərbaycan xalqının nümayəndəsidir. Ona görə də çalışmalıdırlar ki, Azərbaycanla, Naxçıvanla Türkiyənin əlaqələrinin genişlənməsinə öz paylarını versinlər.

Bir sözlə, biz hesab edirik ki, Türkiyəyə gedən bütün gənclər Türkiyə cəmiyyətinin, Türkiyə həyatının bütün sahələrinə qoşulmalıdırlar ki, bizim Azərbaycan üçün, Naxçıvan üçün orada gərəkli olan nə varsa hamısını gətirib Azərbaycanda, Naxçıvanda tətbiq etsinlər.

Mən bütün bunları qeyd edərək bir daha ona qayıtmaq istəyirəm ki, təhsil almaq istəyən hər bir şəxs yaxşı mütəxəssis də, yaxşı alim də ola bilər. Lakin bunların hamısı ilə yanaşı, gərək yüksək mənəviyyatlı insan olasan.

Heydər Əliyev çıxışının sonunda bir daha Türkiyə hökumətinin başçılarına, xüsusən Baş nazir Süleyman Dəmirələ, naxçıvanlı gənclərin birinci qrupunun orada təhsil almasını təşkil etdiklərinə görə dərin təşəkkürünü, minnətdarlığını bildirdi və möhkəm əmin olduğunu bildirdi ki, Türkiyə hökuməti beş il müddətində bu gənclərin orada təhsil almaları üçün öz üzərinə götürdüyü bütün vəzifələri yerinə yetirəcək, bizim gənclər münasib şəraitdə yaşayıb oxuyacaqlar.

Heydər Əliyev Türkiyəyə gedən gənclərə bir daha yaxşı yol, təhsildə böyük uğurlar arzuladı.

*"Şərq qapısı" qəzeti, 7 oktyabr 1992-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin yanında keçirilən 21 oktyabr 1992-ci il tarixli müşavirənin PROTOKOLUNDAN

**Heydər Əliyev:** Oktyabr ayının 24-də Hüseyn Cavidin anadan olmasının 110 illiyi qeyd edilir. Bununla əlaqədar qısaca məlumat vermək üçün sözü Fəttah Heydərova verirəm.

**F. Heydərov** (Naxçıvan MR-in mədəniyyət naziri): Mən qeyd etmək istəyirəm ki, biz mənəviyyat məsələsinə də fikir verməliyik. Bütün görülən işlərə qiymət verilsin. Oktyabrın 24-də hər il Hüseyn Cavidin ildönümü keçirilir. 23 oktyabrda Cəlil Məmmədquluzadə adına Teatrda Hüseyn Cavidin 110 illiyi qeyd olunacaqdır. Biz bunu təntənəli və

yüksək səviyyədə keçirməliyik. Televiziya indidən Hüseyn Cavid haqqında verilişlər hazırlayıb verməlidir.

**Heydər Əliyev:** Naxçıvan televiziyası çox yubanıb. Bu verilişlər hələ bir ay bundan qabaq verilməliydi. Biz Hüseyn Cavidin məzarını ziyarət etməliyik. Qoy xalq həmin məzarı görüb Naxçıvan şəhər rəhbərliyinə nifrət etsin ki, onlar bu günə kimi orada heç bir iş görməyiblər. Mən istəyirəm ki, xalq görsün və duysun ki, şəhər rəhbərləri necə işləyir və onların işinə qiymət versinlər.

Onlardan qəti tələb edilsin ki, orada təmizlik işləri aparılsın və məzarın ətrafında səliqə-sahman yaratsınlar.

## NURİ-HƏQQ DAİMA YANAR, SÖNMƏZ

Dahi Azərbaycan şairi, böyük mütəfəkkir və filosof Hüseyn Cavidin anadan olmasının 110 illiyi tamam olmuşdur. Bu əlamətdar ildönümü muxtar respublikamızda geniş qeyd olunur.

Oktyabrın 23-də dahi şairin məzarı üzərinə muxtar respublika rəhbərliyi və ictimaiyyəti adından əklillər qoyulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Sədrin müavinləri R. Həsənov, Q. Məmmədov, A. Kələntərli, A. Səfərov, Baş nazir Ş. Xan-Babayev, Baş nazirin müavinləri Ə. Sadiqov, M. Abbasov, S. Zeynalova əklilqoyma mərasimində iştirak etmişlər.

Əklilqoyma mərasimindən sonra mitinq olmuşdur. Mitinqi Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri F. Heydərov açmışdır. M.Ə. Rəsulzadə adına Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru Ş. Qurbanov, H. Cavidin məzarının Naxçıvana köçürülməsində bilavasitə iştirak etmiş Z. Nəsirov və T. Əliyev dahi şairin həyat və yaradıçılığı haqda danışmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev mitinqdə çıxış etmişdir.

Həmin gün axşam C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında dahi şairin anadan olmasının 110 illiyinə həsr edilmiş ədəbi-bədii gecə keçirilmişdir.

Xatirə gecəsini giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Fəttah Heydərov açaraq dahi şair və dramaturqumuzun Azərbaycan ədəbiyyatının, mədəniyyətinin mənəvi təkamülündə böyük xidmətlərindən danışmış və Cavid dühasının bəşəriliyindən söhbət açmışdır.

Söz Azərbaycan Yazıçılar Birliyi Naxçıvan şöbəsinin katibi, yazıçı Hüseyn İbrahimova verilmişdir. Natiq Cavid poeziyasından, onun ölməzliyindən danışmış, Cavid yaradıcılığına həsr etdiyi və yenicə tamamladığı romanın yazılma məziyyətlərindən danışmışdır.

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, şair-dramaturq Hüseyn Razi Cavid irsinin zirvəsi sayılan "İblis" mənzum pyesinin sənətkarlıq və bədii xüsusiyyətlərindən danışarkən qeyd etmişdir ki, "İblis" nəinki Cavid yaradıcılığında, eləcə də dünya dramaturgiyasının nadir sənət incilərindən biridir.

Filologiya elmləri doktoru, professor Şamil Qurbanova söz verilmişdir. Natiq Azərbaycan ədəbiyyatında, mədəniyyətində Cavidin böyük və inkaredilməz xidmətlərindən, onun fəlsəfi və etik dünyagörüşünün siyasi və bədii məndəricəsindən danışarkən qeyd etmişdir ki, Cavid bütün zamanlar üçün klassikdir, onun səhnə əsərləri milli dramaturgiyamızı və teatrımızı daha da zinətləndirmişdir.

"Göyərçin" jurnalının baş redaktoru şair Tofiq Mahmud, filologiya elmləri doktoru, professor Yavuz Axundov Cavid sənətinin böyüklüyündən, yüksək estetikasından və yaratdığı ölməz incilərdən, xüsusən "Şeyx Sənan" "İblis", "Səyavuş", "Xəyyam", "Topal Teymur" poeziyasının ölməzliyindən bəhs etmiş və arzu etmişlər ki, ulu Cavidin anadan olmasının 115 illiyi yeni salınacaq əzəmətli və möhtəşəm mavzoleyin önündə qeyd olunsun. Şair Əliyar Yusifli Cavidə həsr etdiyi şerini oxumuşdur.

Filologiya elmləri doktoru, professor Vəli Osmanlı çıxışında bildirmişdir ki, Cavid ölməz və həmişəyaşar sənətkardır. Bu ölməzlik, bu yaşarlılıq onun dərin məzmunlu, romantik pafoslu əsərlərindəndir. Belə bir sənətkar dünya durduqca yaşayacaqdır.

Söz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə verilmişdir. Heydər Əliyev demişdir ki, bu gün sözün əsl mənasında

böyük bayramdır - Hüseyn Cavid bayramı. Biz bu gün Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin ulu dahisi, dünya şöhrətli Hüseyn Cavidin bayramına yığışmışıq. Cavid irsi, Cavid sənəti özünün yüksək mənəviyyatı, əxlaqi-etik keyfiyyətləri, fəlsəfi mündəricəsi ilə dünya ədəbiyyatının klassikləri ilə birgə addımlayır. Biz fəxr edirik, öyünürük ki, Cavid hər şeydən öncə türk xalqının oğludur. Bəşəri konsepsiya, insan şəxsiyyətinin ululuğu, paklıq, müdriklik, ülvilik, təmiz məhəbbət Cavid yaradıcılığının aparıcı amili və yüksək sənətkarlıq meyarıdır. Məhz bu keyfiyyətlərə görə də Cavid ölməz bir şəxsiyyətdir.

10 il bundan öncə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi və respublika Nazirlər Soveti Hüseyn Cavidin anadan olmasının 100 illiyi ilə əlaqədar qərar qəbul etmişdi. Qərarda qeyd olunurdu ki, Cavidin əsərləri yenidən tamaşaya qoyulsun, çap olunsun. Bu əsərlər həm Azərbaycan və həm də rus dillərində geniş oxucu kütləsinə çatdırıldı. Əsərləri tamaşaya qoyuldu. Lakin çox təəssüflə qeyd etmək istərdim ki, həmin qərarın çox hissəsi həyata keçmədi.

Mən həyəcansız danışa bilmirəm. Bakıda heykəli qoyulmalı idi, hələ də qoyulmayıb. Mən hələ o vaxtlar böyük heykəltəraş Ömər Eldarovun emalatxanasında olmuşdum və heykəltəraşın təsvir etdiyi Cavid heykəlinin ümumi maketi çox xoşuma gəlmişdi.

Uzaq Sibir torpağından Cavidin cənazəsinin gətirilməsini mən heç də qəhrəmanlıq saymıram. Bu, sadəcə olaraq mənim vətəndaşlıq borcum idi və bir də ulu Cavid sənətinə, şəxsiyyətinə böyük məhəbbətimdən irəli gəlirdi. Cənazə gətirildikdən sonra fikir müxtəlifliyi yarandı. Bəziləri deyirdilər ki, Bakıda Fəxri xiyabanda dəfn olunsun, bəziləri təklif edirdilər ki, Naxçıvana aparılsın. Biz bu məsələni geniş müzakirə etdik və belə qərara gəldik ki, cənazə Naxçıvana aparılsın.

Çıxış edən alimlər, yazıçılar çox haqlı olaraq qeyd etdilər ki, Cavidin məzarı bərbad haldadır. Bəli, bu dözülməzdir. Cavid sənətinə, Cavid şəxsiyyətinə ən azı hörmətsizlikdir. Əgər etimad göstərsəniz, mən Cavid fondunun sədri olaram və şübhə yox ki, bir çox assosiasiyalar və digər təşkilatlar bu xeyirxah işdə öz maddi yardımlarını göstərərlər. Bir şeyi də qeyd etmək istərdim ki, Cavid qəbrinin belə pis görkəmdə ol-

masında naxçıvanlıların özləri də günahkardırlar. İnanın, hərə bir daş qoysa idi, heç şübhə yox idi ki, mavzoley indi tamamilə qurtarmışdı.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, bildiyiniz kimi Azərbaycan torpağında döyüşlər gedir. İndi biz müstəqil respublikayıq. Mən qətiyyətlə inanıram ki, bu döyüşdə haqq, ədalət zəfər çalacaq, torpaqlarımız geri qaytarılacaq və Azərbaycan nəyə qadir olduğunu bütün dünya xalqlarına sübut edəcək. Mən buna əminəm.

Heydər Əliyev çıxışının sonunda dedi:

- Ulu Cavid yaradıcılığında olan təmizliyi, paklığı, ululuğu, ülviliyi, yüksək poetik duyumu sizə şamil edərdim. Qoy sizin qəlbiniz daima paklıqla, təmizliklə, mətanətlə döyünsün!

Xatirə gecəsinin ümumi leytmotivi və bədii mündəricəsi ulu Cavidin:

Yüksələn məhv olar - fəqət enməz,
Nuri-həqq daima yanar, sönməz, –

beyti ilə gözəl vəhdət yaratmışdı.

**Cəlil VƏZİROV**

*"Şərq qapısı" qəzeti, 28 oktyabr 1992-ci il*

## Hüseyn Cavidin anadan olmasının 110 illiyi ilə əlaqədar keçirilən yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Hörmətli həmvətənlərimiz!

Bu gün bayram günüdür. Bu gün bütün Azərbaycan xalqı üçün, o cümlədən naxçıvanlılar üçün böyük bir bayramdır. Biz Azərbaycanın böyük yazıçısı, şairi, dramaturqu, mütəfəkkiri, filosofu Hüseyn Cavidin anadan olmasının 110 illiyini qeyd edirik.

Bu dünya heç kim üçün, heç kəs üçün əbədi deyil. Hüseyn Cavid öz həyatı dövründə yaratdığı mənəvi, mədəni sərvətlərlə özünü əbədiləşdiribdir. Ona görə də bugünkü toplantı, bu mərasim, bu yubiley gecəsi, matəm gecəsi deyil, bayram gecəsidir. Biz Hüseyn Cavidin əsərlərinin uzun illərdən sonra qalibiyyətini qeyd edirik. Onun fikirlərinin, onun Azərbaycan xalqına verdiyi nəsihətlərin artıq həyata keçirilməsi imkanını əldə etdiyimizi qeyd edirik və bayram edirik. Bu bayram xüsusi bir şəraitdə keçirilir. Azərbaycan öz milli azadlığına, dövlət müstəqilliyinə nail olub və bu bayramı biz müstəqil Azərbaycanın mövcud olduğu bir şəraitdə keçiririk. Eyni zamanda bu bayramı Azərbaycanda, o cümlədən Naxçıvanda mövcud olan gərgin sosial-iqtisadi, ictimai-siyasi vəziyyət şəraitində keçiririk. Bu vəziyyətin səbəbi məlumdur. 5 ildir ki, Azərbaycan müharibə şəraitindədir, torpaqlarının bir qismi əlindən gedib, çox qurbanlar verib. Fəqət Azərbaycan hələ də bu müharibədən çıxa bilməyib və öz ərazi bütövlüyünü, suverenliyini təmin edə bilməyibdir. İkinci tərəfdən bu gərginliyin səbəbi iqtisadi, ictimai-sosial böhrandır. Bu böhran artıq keçmiş Sovetlər İttifaqının hər yerindədir. Azərbaycan burada müstəsnalıq təşkil etmir. Fəqət Azərbaycanın uzun müddət müharibə şəraitində olması bu böhranı daha da dərinləşdirir və bizim vəziyyətimizi ağırlaşdırır. Ancaq bunların hamısına baxmayaraq, biz bu gün bayram edirik. Çünki həyat nə qədər maddi cəhətdən ağır olsa da, insan mənəviyyatı insanı yaşatmağa, mübarizəyə və bu çətinliklərin öhdəsindən gəlməyə yardım edir. Bu mə-

nəviyyat mənbəyi də bizim mədəniyyətimizdədir, bizim ali köklərimizdədir, bizim əbədiyyətimizdədir, bizim mənəviyyat, mədəniyyət xəzinəmizdədir. Bu xəzinəni bizə bəxş edənlərdən biri də, demək olar ki, ən görkəmlisi də Hüseyn Caviddir.

Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin bütün türk dünyasının, ən görkəmli bir simasıdır, təkrarolunmaz bir şəxsiyyətdir, bir şairdir və yazıçıdır. Onun yaratdığı əsərlər böyük çətinliklərdən keçərək indi artıq hamımız üçün dərslik olubdur və dərslik olmalıdır. Hüseyn Cavidin həyatı nə qədər əziyyətli olsa da onun yaratdığı əsərlər onu bir o qədər də zəngin, şöhrətli edir.

Bu gün biz Hüseyn Cavidin məzarını ziyarət etdik. Bura toplanmışıq, onun anadan olmasının 110 illiyi münasibətilə ürək sözlərimizi demək istəyirik. Qeyd olundu ki, 10 il bundan öncə Hüseyn Cavidin 100 illik bayramı keçirildi. 10 il keçibdir. Şübhəsiz ki, Hüseyn Cavidin yenidən Azərbaycan xalqına qayıtması, onun əsərlərinin Azərbaycanda yayılması və yeni-yeni nəsillərin onun əsərləri ilə tanış olması böyük nailiyyətdir. Ancaq, təəssüf olsun ki, bu 10 il içərisində bu barədə nəzərdə tutulmuş işlərin çoxu görülmədi. 1981-ci ildə Azərbaycan KP MK, Azərbaycan Nazirlər Soveti Hüseyn Cavidin 100 illik yubileyi haqqında qərar qəbul edərkən bir çox tədbirlərin həyata keçirilməsi nəzərdə tutuldu. Hüseyn Cavidin cənazəsinin Vətəninə qaytarılması, Hüseyn Cavidin Bakıda və Naxçıvanda yaşadığı evlərdə ev muzeyinin təşkil olunması, Bakıda Hüseyn Cavidin heykəlinin qoyulması, Hüseyn Cavidin Naxçıvanda məzarı üzərində məqbərənin yaranması, Naxçıvanda Hüseyn Cavidin heykəlinin qoyulması, Hüseyn Cavidin əsərlərinin geniş yayılması, dərc olunması, rus dili və başqa dillərə tərcümə olunması, təqdim olunması. Təəssüf ki, bu tədbirlərin çoxu bu 10 ilin içərisində həyata keçirilməyibdir.

Bu gün qeyd olunur ki, bu işlərdə mənim, Heydər Əliyevin təşəbbüskarlığı olubdur. Bəli, olubdur, ancaq mən bunu özüm üçün böyük bir nailiyyət hesab etmirəm. Bu mənim sadəcə vətəndaşlıq borcum olubdur. Mən vətəndaşlıq borcumu yerinə yetirdiyimə görə şübhəsiz ki, təsəlli tapıram. Fəqət o tədbirlərin indiyə qədər həyata keçirilməməsi yəqin ki, hər bir millətini, dövlətini, xalqını, mədəniyyətini, ədəbiyyatını sevən azərbaycanlı üçün eyni zamanda çox böyük bir narazı-

lıq törədir. O cümlədən məndə də. Bəziləri düşünə bilər ki, Hüseyn Cavid naxçıvanlı olduğuna görə, bəlkə Heydər Əliyev belə bir təşəbbüskarlıq edir. Yox, Azərbaycanda hamı bilir ki, Azərbaycanın milli irsinə, mədəni irsinə, ədəbiyyatına, mədəniyyətinə imkanım qədər kömək etməyə və onları qaldırıb indiki nəsillərə göstərməyə həmişə çalışmışam.

Mən xatırlatmaq istəyirəm ki, böyük Nizaminin 840 illik yubileyinə hazırlıqla əlaqədar Nizami irsinin öyrənilməsi haqqında böyük bir qərar qəbul etdik. O qərarı həyata keçirtməyə başladıq və sonradan mən Moskvada işləyərkən də bunun hamısına nəzarət edirdim. Təəssüf ki, onların hamısı həyata keçmədi, ancaq mən çox məmnunam, təsəlli tapıram ki, Nizami Gəncəvinin "Xəmsə"si, poeması ilk dəfə rus dilində Moskvada böyük bir nəşriyyatda, çox gözəl bir şəkildə nəşr olundu və onları mən artıq sonra görərkən çox sevindim. Ancaq Nizami haqqında bizim o vaxtlar nəzərdə tutduğumuz tədbirlərin çoxu yarımçıq qaldı.

Mirzə Şəfi Vazeh haqqında, onun ədəbi irsinin öyrənilməsi haqqında, çox böyük bir qərar qəbul etdik, o da yarımçıq qaldı.

Böyük Nəsiminin 600 illiyini keçirəndə, onun heykəlini qoyanda, onun əsərlərini yayanda və onun məzarını Suriyanın Hələb şəhərində ziyarət edəndə yenə də məhz Azərbaycanın milli mədəniyyətinin nə qədər zəngin olduğunu bir daha dünyaya göstərmək məqsədi daşımışdım.

Hüseyn Cavidin cənazəsini Sibirdən gətirəndən sonra onun dəfni ilə əlaqədar Azərbaycanda fikir müxtəlifliyi oldu. Bəziləri onun Bakıda Fəxri xiyabanda dəfn olunması, bəziləri isə Naxçıvan torpağında, şəhərin mərkəzində dəfn olunması fikrini irəli sürdülər. Bu məsələni biz həm alimlərlə, həm yazıçılarla geniş müzakirə etdik və ümumi fikir belə oldu ki, cənazə Naxçıvana gəlsin. Bir ona görə yox ki, o burada, Naxçıvanda doğulub, ona görə ki, burada onun məzarının üzərində böyük bir məqbərə, mavzoley ucalsın. Bu bir ziyarətgah olsun. Qədim Naxçıvan diyarından böyük memarımız Əcəmi Naxçıvaninin yaratdığı mavzoleylə yan-yana, yeni bir mavzoley də 800 il bundan sonra, bugünkü təsirlər yaratsın. Hüseyn Cavid belə bir mavzoleyə, belə bir məqbərəyə layiq bir adamdır. O vaxt artıq biz Azərbaycanın qədim Şuşa şəhərində böyük Azərbaycan şairi Molla Pənah Vaqifin məzarının

üzərində əzəmətli bir məqbərə ucaltmışdıq. Bəli, Molla Pənah Vaqifin anadan olmasının 250 illik yubileyini keçirərkən 1960-cı ilin ortalarında mən güman edirdim ki, Şuşada onun məzarı layiqli bir haldadır. Fəqət ondan sonra oranı ziyarət edəndə o məzarın çox bərbad halda olduğunu görüb həyəcanlandım və Molla Pənah Vaqifin məzarı üzərində böyük bir mavzoleyin tikilməsinə çalışdıq və ona da nail olduq. Növbəti mavzoley, məqbərə burada, Naxçıvanda Hüseyn Cavidin məzarının üzərində yaranmalı idi. Burada düz dedilər, bu 10 ildə Naxçıvanda nə qədər evlər tikilib, şəxsi, yaxud da ki, dövlət evləri, bəs bu Naxçıvan əhli, bəs bu Azərbaycan rəhbərləri, Azərbaycanın bu ziyalıları nə üçün həyəcan səsini qaldırıb bu mavzoleyin tikilməsinə çalışmadılar? Bu 10 ildə hərə bir daş gətirib ora qoysaydı elə o mavzoley çoxdan hazır olardı. Nə üçün mən bu gün Cavidin qəbrinin önündə də, burada da böyük həyəcan hissi ilə danışıram. Bakıda, Naxçıvanda ayrı-ayrı adamların, şəxsi adamların qəbirləri üzərində böyük-böyük abidələr tikilibdir. Allah ondan da artıq etsin. Onları qohumları, əqrəbaları ediblər, çox yaxşı ki, ediblər. Ancaq Hüseyn Cavidin qohumu, əqrəbası bütün Azərbaycan xalqıdır. Bunlar şübhəsiz ki, bizim bir tərəfdən böyük mənəvi, mədəni sərvətimiz olduğuna görə iftixar hissi doğurmaqla yanaşı, eyni zamanda bu biganəlik, böyük bir mədəni sərvətimizə bu qədər anlaşılmaz münasibət məni incidir. Bəzən də çox dəhşətə gətirir.

Mən Hüseyn Cavidin yaradıcılığına, onun ədəbi irsinə qiymət vermək fikrində deyiləm. Çünki bunu alimlər, yazıçılar ediblər və burada çıxışlar etdilər. Ancaq mən bir siyasət adamı kimi öz fikrimi deyə bilərəm ki, bəli bizim üçün Hüseyn Cavidin yaratdığı əsərlər daimi mədəniyyət, mənəviyyat, əxlaq mənbəyidir. Onun qədər bu barədə, bu dövrdə XX əsrdə dərin mənalı, yüksək fəlsəfəyə uyğun əsərlər yaradan olmayıb. Və bu əsərlər indi bizim üçün daha da lazımdır. Çünki Azərbaycanın indi müstəqil dövlət kimi, azad bir millət kimi, Azərbaycan xalqının inkişaf etməsi üçün biz həmişə, daim Hüseyn Cavidin əsərlərini oxumalıyıq, onun yazdıqlarından bəhrələnməliyik. Orada biz bugünkü həyatımızda baş verən bütün problemlərin cavabını tapa bilərik. Hüseyn Cavid bəşəri bir yazıçıdır. Onun yazdıqları bəşəri xarakter daşıyır. O, bir Azərbaycan çərçivəsinə, yaxud islam-türk çərçivəsinə

yerləşən deyil, bəşəridir. O, dünya ədəbiyyatını zənginləşdiribdir. Fəqət bizim çatışmazlığımız ondan ibarətdir ki, onu lazımi qədər dünya ictimaiyyətinə, dünya mədəniyyətinə çatdıra bilməmişik. Bəli, 10 il bundan qabaq bu məqsədi də biz qarşımızda qoymuşduq. Bu məqsəd bu gün daha aktualdır, bunu biz etməliyik.

Hüseyn Cavidin əsərlərini alimlər təhlil edə bilərlər. Şübhəsiz ki, nə qədər təhlil etsələr o qədər də dərinliyə gedəcəklər. Bəlkə də böyük dərya kimi heç onun hamısını əhatə edə bilməyəcəklər. Ancaq bununla yanaşı bizim hamımızın borcu, xüsusən müəllimlərin, məktəblilərin, gənc nəsli tərbiyə edənlərin borcu ondan ibarətdir ki, Hüseyn Cavidin əsərlərini hamıya çatdırsınlar, xüsusən bizim gənclərə. Məktəblərdə Hüseyn Cavidin əsərləri xüsusi yer tutmalıdır. Yenə də deyirəm, çünki onun hər bir əsərində bir dünya var və bu barədə bizim müəllimlərimizin üzərinə çox böyük vəzifə düşür. Burada deyilən bir fikirlə tamamilə razıyam ki, təəssüf ki, Hüseyn Cavidin əsərləri dərc olunmağa başlayan dövrdə bəzi bizim konyunktura güdən nəşriyyatçılarımız, yazıçılarımız, alimlərimiz, yaxud nəşriyyatda işləyənlər onun əsərlərinin orijinallığını pozublar. Ona görə də ən əsas vəzifələrdən biri ondan ibarətdir ki, Hüseyn Cavidin bütün əsərləri öz orijinalı əsasında bundan sonra dərc olunsun və öz orijinalı əsasında yayılsın, bizim gənclərə çatdırılsın. Bunların hamısını şübhəsiz ki, bütün Azərbaycan miqyasında etmək lazımdır. Ancaq hərə gərək böyük işə öz payını versin, öz borcunu versin. Naxçıvanın borcu ondan ibarətdir ki, bütün bu işləri sürətləndirsin. Ona görə də mən bu gün Hüseyn Cavidin məzarının önündə dediyim sözləri bir də təkrar edirəm.

Biz qərar qəbul edirik. Hüseyn Cavid fondu yaranacaq. Hüseyn Cavidin bütün əsərlərinin yenidən dərc olunması, təbliğ olunması, onun məzarının üzərində məqbərənin tikilməsi, heykəlinin qoyulması - bunların hamısını bu fond təşkil etməyə qadir ola bilər. Deyildi ki, Bakıda Hüseyn Cavidin heykəli artıq qoyulur, şükür olsun. 10 il bundan öncə bu heykəli Azərbaycanın məşhur və çox istedadlı heykəltəraşı Ömər Eldarov gözəl bir zövqlə yaratmışdır. O heykəlin Bakı şəhərində yerini də biz o vaxt müəyyən etmişdik. Sonradan Moskvadan Bakıya iş üçün gələrkən bu məsələ ilə maraqlandım. Ömər Eldarovun emalatxa-

nasına getdim, heykəlin hazır olmasını bir daha gördüm. Ancaq təəssüf ki, onun vaxtında qoyulmasına nail ola bilmədim. Mən 1990-cı ilin yayında Moskvadan Azərbaycana uzun fasilədən sonra dönərkən yenə də bu iş barədə çalışdım, ancaq təəssüf ki, Azərbaycanın o vaxtkı rəhbərləri bu məsələlərə həddindən artıq biganə idi. Onları mədəniyyət, mənəviyyat, ədəbiyyat maraqlandırmırdı. Onlar başqa şeylərə aludə idilər. Bu heykəl 8-9 il bundan öncə qoyulmalı idi. Əgər indi bunu qoymağa başlayıblarsa, bu çox təqdirəlayiq bir haldır və mən bu heykəli təsəvvür edirəm, çünki mən onu görmüşəm. Əgər heykəl ucaldan inşaatçılar heykəltəraşın bütün yaradıcılıq arzularını yerinə yetirsələr, bu heykəl Hüseyn Cavidə layiq, yüksək keyfiyyətli və yüksək zövqlü bir heykəltəraşlıq əsəri kimi Azərbaycanın paytaxtı Bakını bəzəyəcəkdir. Bir də qeyd edirəm, bizim yaratdığımız fond bütün Azərbaycanı əhatə edəcək və mən buradan elan edirəm ki, əgər mənə etimad göstərilsə, mən bu fonda başçılıq etmək istəyirəm, bütün Azərbaycanda olan millətini, mədəniyyətini, ədəbiyyatını sevən təşkilatlara, idarələrə, kollektivlərə, şirkətlərə, yeni yaranan assosiasiyalara - hamısına müraciət edərək bildirirəm ki, bu fondun təşkil olunmasında və onun fəaliyyət göstərməsində iştirak etmək hər bir şəxsi, hər bir təşkilatı mənəviyyatca daha da yüksəldəcəkdir. Bütün bu narahatçılıqlarla yanaşı, biz bu gün nikbin olmalıyıq, biz bu gün gələcəyə baxmalıyıq, biz bu gün başımızı dik tutmalıyıq.

Azərbaycan müstəqil dövlətdir, müstəqilliyi təmin etmək üçün, şübhəsiz ki, böyük çətinliklər və problemlər vardır. Amma Azərbaycan xalqı Hüseyn Cavid kimi böyük şəxsiyyətlər yaratmışdır. Azərbaycan öz müstəqilliyini bundan sonra da qoruyacaq, müharibə də qurtaracaq, torpaqlarımız da hamısı özümüzə qayıdacaq, Azərbaycan xalqı yeni mərhələdə onun daxilində olan böyük imkanları, böyük mənəviyyat potensialını bütün dünyaya nümayiş etdirəcəkdir. Mən bu fikirlərlə öz çıxışımı bitirərək sizin hamınızı bu böyük bayram münasibətilə ürəkdən təbrik edirəm, sizin hamınıza Cavid paklığı, təmizliyi, mənəviyyatı arzulayıram. Hamınıza cansağlığı, səadət arzu edirəm.

*Naxçıvan şəhəri, 23 oktyabr 1992-ci il*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Ordubad rayonu Nüsnüs kənd əhalisini qəbuletmə PROTOKOLU**

*5 noyabr 1992-ci il*

**Hüseyn Hümbətov:** Nüsnüs kəndi Ordubad rayonundan 8 km uzaqda yerləşir. Camaatın tapşırığı ilə biz Sizin qəbulunuza gəlmişik və bildirmək istəyirik ki, bizim əhalinin qəlbi Sizinlə bağlıdır. Hamımız Sizi sevir və Sizin yolunuzu bəyənirik. Biz Nüsnüs kənd əhalisi ömrümüzün axırına kimi Sizi müdafiə edəcəyik. Deyilənlərə görə, guya biz teleqram vurmuşuq ki, Heydər Əliyev istefa versin. Bu, yalandır və Nüsnüs camaatı heç vaxt belə şey etməyib. Bu ancaq cəbhəçilərin və Ordubad rəhbərlərinin uydurmalarıdır. Camaat Sizinlədir və bu törədilən hadisə şayiədir. Bizim camaat uzaqgörəndir. Onlar müharibəni duyurlar. Şəxsən mən müharibə vaxtında Naxçıvanda oxuyurdum. Belə bir ağır vəziyyətdə hamı Sizin çalışmağınızı və xalqı bu ağır vəziyyətdən çıxarmağınızı alqışlayır və Sizinlə həmrəy olduğunu bildirir. Xahiş edirik, bəzi adamlar cin şəklinə girib bizi Heydər Əliyevə qarşı qoymasınlar.

**Oruc Məmmədrzayev:** Biz Nüsnüs camaatı sizinləyik və belə dedi-qodulara baxmayın. Siz hara getsəniz, biz sizin arxanızca gedəcəyik. Ordubad rəhbərliyi rayona gələn ərzağı ancaq özlərinə, əlaltılarına və cəbhəçilərə paylayır, bizləri isə söyüşlə yola salırlar. Kəndlərə heç nə verilmir.

**Vaqif Qəmbərov:** Mən işsizəm. Əhalinin 90 faizi Ordubadda bekardır. Bunların hamısı sadə adamlardır. Biz kənd camaatının tapşırığı ilə bura gəlmişik. Onların hamısı bir nəfər kimi Sizinlədir. Rayon rəhbərliyi ancaq öz adamlarını yedirdir və içirdir. Qalan adamlar isə əliboş qalır. Bizə iş lazımdır. Əhali indi hər şeyi dərk edir. Camaat Sizdən çox şey umur. Siz hər bir iş görə bilərsiniz. Ordubad camaatı bu rəhbərlikdən bezibdir. Onları rədd eləmək lazımdır. Rayon başlı-başına qalıb.

**Həsən Əsgərov:** Xalqımızın və ailəmin adından Sizə uzun ömür, cansağlığı və çətin işinizdə müvəffəqiyyətlər arzu edirəm. Ordubad rayonuna gələn ərzaq malları şəhər əhalisinə paylanır, kəndlərə isə 6 aydır ki, heç nə verilmir. Mən şəxsən Ordubad rəhbərliyinə və Azərbay - canın Prezidenti Elçibəyə də müraciət etmişəm. Ancaq heç kim mənim şikayətlərimə fikir verməyib. Rayon rəhbərliyi ancaq özününküləri təmin edir. Rayon XDS İK sədri Rövşən Şəfiyev stolunun arxasında möhkəm əyləşib, özünün və sirdaşlarının ciblərini doldurur. Xahiş edirəm bizə un verilməsinə köməklik göstərəsiniz.

**Vəli Əliyev:** Mən körpü-tikinti qatarında fəhlə işləyirəm. Bu günə kimi bir qəpik əməkhaqqı almamışam. Qadınlarımız çətinlik çəkir. Onlar Ordubad şəhərinə gedir və orada çörək növbəsinə dururlar. Axşama yaxın əliboş evə qayıdırlar. Sizdən xahiş edirəm ki, bizə un normasının bölünməsini təmin edəsiniz. Ordubadda fəhləyə fikir verən yoxdur.

**İsmayıl İbrahimov:** Yoldaş Əliyev, biz fəhlələrə Ordubad rayonunda fikir verən yoxdur. Hamımız bir nəfər kimi Sizi müdafiə edirik və Ordubad rayon rəhbərlərinə, onların əlaltılarına qarşı mübarizə aparmağa hazırıq. Siz məşəl kimi bizim yolumuza işıq saçırsınız. Biz də bu işıqla firavanlığa gedirik.

**Heydər Əliyev:** Mənə belə gəlir ki, çıxış edən yoldaşlar bütün Ordubad camaatının ürəyindən gələn sözləri dedilər. Mən bilirəm ki, Ordubaddan bura gəlmək asan deyil. Ali Məclisə və şəxsən mənə öz ehtiramınızı və hörmətinizi bildirdiniz. Mən ordubadlılara və şəxsən Nüsnüs əhalisinə minnətdaram və onlara hörmətim böyükdür. Mən öz fikrimi bildirmək istəyirəm ki, siz kənd əhalisinə çatdırasınız. Mən bu ağır vəzifəni öz öhdəmə götürmüşəm ki, xalqı düşdüyü vəziyyətdən çıxaram, böyük məsələlərlə məşğul olam. Xalqın tələbi ilə mən bu vəzifəni qəbul etmişəm. Məni bura bu torpağa bağlılığım gətirib çıxardıb. O günləri Füzulidən bura mənim yanıma gəlmişdilər. Gələnlərin hamısı Füzulinin kəndlərindən idi. Füzuli camaatı sərhədə yaxın olmamalarına baxmayaraq, oranı tərk ediblər. Naxçıvan isə üç tərəfdən Ermənistanla, digər tərəfdən İran və Türkiyə ilə sərhəd olmasına baxmayaraq bir nəfər də olsun naxçıvanlı mənim sayəmdə buranı tərk etməmişdir. Qarabağ, Şuşa, Laçın əldən gedib. Füzuli və Ağdam rayonları

Ermənistanla sərhəd deyil. Lakin onlar zəbt olunub və dağıdılıb. Ancaq Naxçıvan hər tərəfdən Ermənistanla sərhəd olmasına baxmayaraq, heç bir dağıntı olmayıb. Xalq qırğına getməsin deyə, mən bu vəzifəni üzərimə götürdüm, qırğına imkan vermədim. Dəfələrlə çalışmışam ki, dəmir yolu açılsın, lakin bəzi ünsür elementlər və Xalq Cəbhəsi bunun açılmasına imkan vermir, bizə qarşı təxribat aparırlar. Siz elə adamları deputat seçmisiniz ki, indi onlar öz xalqına qarşı durur. Mehri rayonunda qatarı saxlayan ermənilər bizim 500-ə yaxın adamımızı tutmuşdular. Təcili olaraq mən Ermənistan rəhbərliyi ilə əlaqəyə girib onların buraxılmasına nail oldum. Mən bu vəzifədə oturub xalqı qırğından xilas edirəm. Vəziyyət çox ağırdır. Naxçıvan dəmir yolsuz işləyə bilməz. Fərəc Quliyev və onun əlinin altında olan Ordubad rəhbərləri Azərbaycan rəhbərliyini yanlış yola dəvət edir və qızışdırır ki, dəmir yolu açılmasın. Mən isə deyirəm ki, dəmir yolu açılmasa əhalini dolandırmaq olmaz. Fərəc Quliyev və onun əlaltıları cinayətkardırlar. Onlar ancaq özlərini güdür və müxtəlif yollarla xalqı soyub müftəxorluq edirlər. Onlar dəmir yolunun açılmasına etiraz edirdilər. Mən Azərbaycan Prezidenti Elçibəyə dəmir yolunun açılması ilə əlaqədar müraciət edəndə, o, hər dəfə mənə deyirdi ki, biz buna baxacağıq.

Qış qarşımızdadır. Türkiyə ilə əlaqəyə girib bura ərzaq göndərtdirdim. Bu ərzağın hamısı mənim Türkiyədə olan nüfuzuma və hörmətimə görə alınmışdır. Hətta mən Süleyman Dəmirələ dedim ki, bu krediti qaytara bilməyəcəyəm, o isə cavab verdi ki, borclu-borclunun sağlığını istər. Sonra mən İrana getdim ki, qış üçün Naxçıvana kömür, dizel yanacağı, neft, benzin və ərzaq gəlsin. Onlar da Naxçıvana kömək etmək istəyirlər. Mən xahiş etdim ki, bizi bu vəziyyətdən çıxarın. Onlar isə belə şərt qoydular ki, onların göndərdiyi malın əvəzinə Azərbaycan İrana mal versin. Azərbaycan rəhbərliyinin İranı tənqid etdiyindən oradan mal göndərilməsi ləngiyir. Naxçıvana qış üçün 35 vaqon mal göndərilmişdir. Mən Xan-Babayevi dünən Bakıya göndərmişəm ki, İranda qalan malların gətirilməsini təmin etsin.

Fərəc Quliyev və onun əlaltıları hakimiyyət iddiasındadırlar. Onlar əhalini qırdırmaq istəyirlər. Xalqın malını oğurlayıb verirlər əlaltılarına. Göndərilən malları və normanı onlar kəsir, özlərinə saxlayırlar.

Xalqın malını yeyir, öz quldurlarına isə ayda 20 min manat əməkhaqqı verir. Ermənistan rəhbərliyi mənə zəng vurmuşdu ki, eşitmişik Mehrini almaq istəyirsiniz. Əgər belə olsa, biz Naxçıvanı darmadağın edəcəyik və onu işğal edəcəyik. Həm də Rövşən, Fərəc Azərbaycanın sə - riştəsiz rəhbərləri ilə, özləri kimilərlə əlaqəyə girib müxtəlif təxribatlar aparırlar. Ordubadlılar Mehriyə top və qrad atdılar, bunun nəticəsində ermənilər də Ordubada top atıb bir neçə evi dağıtdılar. Ordubad böyük xadimlər yetişdirib. Oranın adamları öz ağılları ilə bütün dünyada məşhurdur. İndi isə Fərəc kimi quldurlar gəlib namusu, qeyrəti tapdalayıblar. Mən başa düşə bilmirəm, Fərəc Quliyevin saxladığı 100 nəfər quldur nə işlə məşğuldur. Biz qərar çıxardıq ki, silahlar təhvil verilsin, lakin bu günə kimi təhvil verilmir. Onların gördüyü işlərin əvəzinə xalq qırğına gedir. Mən Prezident Elçibəyə demişəm ki, Naxçıvanın sabitliyini pozan Fərəc və onun əlaltılarıdır. Allah haqqın tərəfdarıdır.

Mən burada sizə söz verirəm ki, bizə gələn undan sizə verəcəyik. Sizə 10 günə nə qədər un lazım olacaq? 15 ton unu elə bu gün sizə göndərəcəklər. Özünüz ədalətlə bölüb əhaliyə satın. İrandan 25 min ton un gələndən sonra sizə də ayrıca bölünəcəkdir. İndidən biz xüsusən İqdırdan, İrandan və Culfadan Naxçıvana işıq xətti çəkirik. Həmin işıqdan sizin də kəndə veriləcəkdir. İrandan kömür, benzin, neft gətirəndən sonra onu da bölüb sizə verəcəyik. Fərəc və onun kimi çirkin adamlar xalqı qırmaq, məni öldürmək istəyir. Lakin öldürə bilməyəcəklər. Siz bizim arxamızdasınız. Mən xahiş edirəm xalqın ehtiramını qaldırın və mənim xüsusi salamımı kənd camaatına yetirin.

## ƏSRİN DÖRDDƏ BİRİ

***Akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin 25 yaşı tamam olmuşdur.***

1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı kimi fəaliyyətə başlayan bu ali təhsil ocağı tarix üçün çox qısa olan 25 il ərzində böyük bir inkişaf yolu keçərək müstəqil universitet səviyyəsinə

qalxmış və bu gün Azərbaycanın tanınmış, nüfuzlu ali məktəbləri ilə bir cərgədə durur. Fəaliyyətə başladığı gündən indiyədək məktəbi 8247 nəfər məzun bitirmişdir. Onlardan 50 nəfəri dissertasiya müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi almışdır. Muxtar respublikamızın yeganə ali məktəbi iki il bundan əvvəl yalnız müəllim buraxırdısa, indi burada 17 ixtisas üzrə mütəxəssis hazırlanır.

Universitetin 25 illik yubileyi burada çalışan kollektivin bir növ yaradıcılıq hesabatına çevrilmişdir. Yubiley tədbirlərinə Bakıdan, Türkiyə və İran İslam Respublikasından nümayəndələr gəlmişdilər. Noyabrın 12-də universitetin akt zalında təntənəli yığıncaq keçirilmişdir.

Yığıncağı universitetin prorektoru dosent İsa Həbibbəyli açaraq qonaqları səmimi salamlamışdır.

Universitetin rektoru, professor Qasım Hüseynov bu ali təhsil ocağının 25 il ərzində keçdiyi inkişaf yolu barədə məruzə etmişdir.

Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev təntənəli yığıncaqda çıxış etmişdir. Heydər Əliyev universitetin professor-müəllim heyətini və tələbə kollektivini əlamətdar yubiley münasibətilə səmimi təbrik edərək demişdir ki, Naxçıvan çox qədim tarixə malik bir diyardır. Bu torpaqda əsrlər boyu böyük şəxsiyyətlər yetişmiş, dünya mədəniyyətini zənginləşdirən, dünya elminə böyük töhfələr verən alimlərimiz olmuşdur. Naxçıvanda ali təhsil məktəbinin əsası isə ilk dəfə 25 il bundan əvvəl qoyulmuşdur. Bu ali məktəbin yaranması və 25 illik fəaliyyəti Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında, mədəniyyətində, sosial həyatında böyük rol oynamış, o, Azərbaycan Respublikasının yüksək ixtisaslı kadrlarla təmin olunmasına öz töhfəsini vermişdir.

İyirmi beş il tarix üçün o qədər də böyük bir müddət deyil. Amma bu müddətdə 8 mindən artıq ali təhsilli mütəxəssis hazırlanıb. Onların bir hissəsi indi elmin inkişafı ilə məşğuldur, qalanları isə müxtəlif sahələrdə çalışırlar. Biz Azərbaycanın bütün sahələri üzrə ali təhsilli kadrlar hazırlanması kimi çox böyük və məsuliyyətli işdə səmərəli fəaliyyətlərinə görə universitetin professor-müəllim heyətinə, bu ali təhsil ocağının bütün əməkdaşlarına öz hörmət və ehtiramımızı bildiririk.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, ali təhsilli kadrlar yetişdirmək böyük əmək, bacarıq və səriştə tələb edir. Ali təhsil sahəsində çalışan hər bir kəs fədakar adamdır, onların əməyini xalq həmişə yüksək qiymətləndirir. Bu gün akademik Y. Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti muxtar respublikada nüfuzlu bir kollektivdir. Biz çalışacağıq ki, bu kollektivin nüfuzu bundan sonra da yüksək olsun, Naxçıvan Muxtar Respublikasının siyasi mühitinə onun təsiri daha da artsın.

Heydər Əliyev demişdir: "İndi Azərbaycan müstəqil dövlətdir. Azərbaycan xalqı öz milli azadlığına nail olubdur. Müstəqil Azərbaycan dünyanın bütün dövlətləri ilə müstəqil əlaqələr yaratmaq və bu əlaqələri öz ölkəsinin gələcək inkişafına yönəltmək imkanına malik olan bir dövlətdir. Bu baxımdan Naxçıvan Dövlət Universitetinin gələcək inkişafında yeni mərhələ açılır. Naxçıvan Dövlət Universiteti sərbəst ali məktəbdir. Azərbaycanın bütün ali məktəbləri ilə əlaqələrini inkişaf etdirmək üçün o, çox əlverişli imkanlara malikdir. Eyni zamanda dünyanın bütün ölkələrinin ali məktəbləri ilə, elmi mərkəzləri ilə əlaqə saxlamaq imkanları da var. Çox yaxşı haldır ki, bu sahədə artıq bir sıra addımlar atılmışdır. Qonşu İran İslam Respublikası və Türkiyənin ali məktəbləri ilə, elmi mərkəzləri ilə müəyyən əlaqələr yaradılıb. Bu gün Naxçıvan Dövlət Universitetinin yubiley mərasimində İran İslam Respublikası və Türkiyə Cümhuriyyəti ali məktəbləri nümayəndələrinin və dövlət xadimlərinin iştirak etməsi buna canlı sübutdur.

Lakin bunlar hələ ilk addımlardır. Biz arzu edirik ki, bu addımlar daha da inamlı, səmərəli və sürətli olsun. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabineti bu sahədə universitetə lazım olan bütün köməklikləri göstərəcəkdir."

Heydər Əliyev qarşıda duran vəzifələrdən danışarkən demişdir ki, universitetin kollektivi müstəqil Azərbaycanın və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında daha fəal iştirak etməlidir və öz işini bu günün tələbləri səviyyəsində qurmalıdır. Burada olan elmi potensial, toplanmış təcrübə böyük bir elmi-mənəvi sərvətdir. Bu sərvətdən səmərəli istifadə olunmalıdır. Bundan sonra universitetin hazırlayacağı ali təhsilli kadrlar daha yüksək meyar-

lara cavab verməlidir. Universitetin professor-müəllim heyəti bütün dünyada qazanılmış müsbət təcrübəyə inamla yiyələnməli və ondan səmərəli istifadə etməlidir. Bu baxımdan Türkiyə və İran dövlətlərinin ali məktəbləri ilə əlaqələr bu işdə yardımçı olacaqdır.

Lakin tək bununla kifayətlənmək olmaz. Sovetlər İttifaqının tərkibində olarkən Azərbaycanın ali məktəblərinin bu ittifaqın yüksək səviyyəli ali məktəbləri ilə əlaqəsi çox böyük fayda verirdi. Biz o dövrün hər cəhətini düzgün qiymətləndirməliyik. Moskva, Leninqrad universitetlərinin və onların professor-müəllim heyətinin, müəllimlərinin bilikləri, şübhəsiz ki, Azərbaycanda kadrlar hazırlanması üçün çox böyük rol oynamışdır. Bunu biz heç vaxt inkar etməməliyik.

Lakin çox təəssüf ki, biz o dövrdə yalnız bu çərçivə içərisində yaşamışıq. İndi isə bütün dünya bizim qarşımızda açıqdır. Biz bəşəri elmdən, təcrübədən bəhrələnməliyik. Bu sahədə Naxçıvan Dövlət Universiteti öz vəzifələrini çox dəqiq müəyyən etməlidir.

Bütün bunlarla yanaşı bu gün nə qədər acınacaqlı olsa da deməliyik ki, Azərbaycanın ali məktəblərində çox xoşagəlməyən hallar, mənfi cəhətlər, nöqsanlar var. Çox təəssüf ki, ali məktəblərin kollektivləri belə mənfi halların mövcudluğuna göz yummuş və bunu təbii hal kimi qəbul etmiş, belə hallara qarşı mübarizə aparmaqda bir növ kənarda durmuşdular. İndi əgər biz Azərbaycanın milli azadlığına nail olmuşuqsa, müstəqil dövlət qururuqsa, demokratik cəmiyyət uğrunda mübarizə aparırıqsa, saflıqdan, paklıqdan, mənəvi təmizlikdən möhkəm yapışmalıyıq. Ancaq bu yol bizi uğurlu gələcəyə apara bilər. Bizim ata-babalarımız, bizim dini mənbəyimiz olan İslam dini və nəsillərimizin əsrlər boyu istifadə etdiyi müqəddəs "Qurani-Kərim" müsəlmanları və bu dinə itaət edənlərin hamısını paklığa, təmizliyə, mənəvi saflığa dəvət edir. Bu tələblər bizim xalqın ən yüksək zirvələrində olan ziyalıları tərəfindən, mütəfəkkirləri tərəfindən xüsusi bir şərt kimi elan olunmuşdur. Ona görə də mən istəməzdim ki, bu yubiley günü son illər Naxçıvan Muxtar Respublikasının həyatında kök salmış mənfi hallardan danışam. Ancaq həqiqəti sevən bir adam kimi bu bayram günü sizə deməyi özümə borc bildim. Azərbaycan xalqı öz milli azadlığı ilə yanaşı, yüksək mənəviyyata, yüksək əxlaqa sadiqliyini bundan sonra da ba-

riz şəkildə nümayiş etdirməlidir. Bu sahədə şübhəsiz ki, bizim ali təhsilli mütəxəssislərin, alimlərin, müəllimlərin rolu çox böyükdür. Müəllim dövri-qədimdən həmişə yüksək hörmətə, mənəviyyata malik olmuşdur.

Gəlin bu gün 25 illik bir tarixə yekun vurarkən, yeni bir mərhələyə keçərkən bu meyarı heç vaxt unutmayaq. İndi Azərbaycan Respublikasında ali təhsil sahəsində aparılan tədbirlərə biz çox böyük ümid bəsləyirik. Amma çox arzu edərdik ki, bu ümidlərimiz puç olmasın, görülən işlər nəticə versin.

Bildiyiniz kimi, Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında mart ayında imzalanmış işbirliyi protokolu əsasında 75 nəfər gənc bu il Türkiyənin universitetlərinə qəbul olunmuşdur. Türkiyənin Yüksək Okul Qurumundan gələn nümayəndələr burada Naxçıvan Muxtar Respublikası Xalq Təhsili Nazirliyi ilə birlikdə qısa bir müddətdə imtahan apardılar. Həmin 75 nəfər gənc artıq Türkiyədə təhsil almağa başlamışdır. Bu çox sevindirici haldır. Siz təsəvvür edin, vaxtilə biz Azərbaycandan hər il 800-900 nəfəri Sovetlər İttifaqının mərkəzi şəhərlərində olan ali məktəblərə göndərərdik. O məktəbləri bitirən mütəxəssislərin çoxu Azərbaycana çox böyük fayda verirdilər. Onları biz pulsuz göndərirdik. İndi Türkiyə hökuməti də muxtar respublikamız üçün öz hesabına ildə 100 nəfər gəncin ali təhsil almasını təmin edəcəkdir.

İran İslam Respublikası ilə bizim bağladığımız müqavilə əsasında İranın ali və orta ixtisas məktəblərində oxumaq üçün də gənclər göndəriləcəkdir. Eyni zamanda Naxçıvan Dövlət Universitetində və muxtar respublikanın başqa təhsil ocaqlarında iranlı gənclər gəlib təhsil ala biləcəklər. Belə bir müqavilə var və biz ondan istifadə edəcəyik. Bütün bu sahələrdə Naxçıvan Dövlət Universiteti öz aparıcı rolunu oynamalıdır, bu işlərin təşkilatçısı olmalıdır. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabineti isə bu sahədə lazım olan bütün köməklikləri göstərəcəkdir.

Təntənəli yığıncaqda Azərbaycan Respublikası xalq təhsili nazirinin birinci müavini Xalid Əlimirzəyev, Mərənd fərmandarı Rza İbadi, Ankara Hacatəpə Universitetinin müəllimi Ömər bəy Doğan, M.Ə. Rəsulzadə adına Bakı Dövlət Universitetinin professoru Yaqub Məmmədov,

Təbriz Azad İslam Universitetinin rektoru İsmayıl Rəfian, N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin birinci prorektoru Nizami Xudiyev, Zəncan Universitetinin prorektoru Seyid Mahmud Hüseyni, Azərbaycan Yazıçılar Birliyi Naxçıvan şöbəsinin sədri Hüseyn İbrahimov, Azərbaycan Elmlər Akademiyası Naxçıvan Elm Mərkəzinin rəhbəri Vahid Quliyev, "Şərq qapısı" qəzetinin redaktoru Səxavət Kəngərli, yazıçı-jurnalist Sirus Təbrizli, 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvandakı filialı yaradılarkən onun direktoru olmuş tarix elmləri namizədi Əli Əliyev çıxış edərək əlamətdar yubiley münasibətilə universitetin professor-müəllim heyətini və tələbə kollektivini təbrik etmiş, onlara müstəqil Azərbaycan üçün yüksəkixtisaslı kadrlar hazırlanmasında uğurlar arzulamışlar.

*"Şərq qapısı" qəzeti, 18 noyabr 1992-ci il*

## Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri HEYDƏR ƏLİYEVİN NİTQİ

Hörmətli, əziz professorlar, müəllimlər, tələbələr, hörmətli qonaqlar!

Bu gün Naxçıvan diyarının ilk yüksək təhsil ocağı, Naxçıvan Muxtar Respublikası Dövlət Universitetinin 25 illik yubileyi qeyd olunur. Bu yubiley münasibətilə, bir universitetin kollektivi üçün yox, bütün Naxçıvan əhalisi üçün, eyni zamanda bütün Azərbaycan üçün əlamətdar olan bu hadisə münasibətilə Sizləri və sizin simanızda Naxçıvan Universitetinin bütün professor-müəllim heyətini, tələbələri və bu universitetdə təhsil alıb indi həyatın müxtəlif sahələrində çalışan hər bir kəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından ürəkdən təbrik edirəm, Sizin hamınıza gələcək işlərinizdə uğurlar diləyirəm.

Naxçıvan qədim tarixə malik olan bir diyardır, qədim Azərbaycan torpağıdır.

Naxçıvan torpağında əsrlər boyu böyük-böyük şəxsiyyətlər yetişmiş, meydana gəlmiş və dünya mədəniyyətini, dünya elmini zənginləşdirən,

dünya elminə böyük töhfələr verən insanlar olmuşlar. Fəqət Naxçıvanda ali təhsil ocağı, ali məktəb ilk dəfə 25 il bundan əvvəl yaranmış, bu da ki, qeyd olunduğu kimi, Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi 1967-ci ildə, sonra 1972-ci ildə müstəqil bir ali məktəb kimi təsis olunmuşdur və artıq 25 ildir ki, fəaliyyət göstərir.

Biz bu gün böyük məmnuniyyət hissi ilə qeyd etməliyik ki, bu ali təhsil məktəbinin yaranması və 25 illik fəaliyyəti Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında, mədəniyyətində, sosial həyatında, onun inkişaf etməsində böyük rol oynamış və Azərbaycan Respublikasının yüksək təhsilli kadrlarla təmin olunmasına öz töhfəsini vermişdir.

25 il tarix etibarilə o qədər də böyük bir dövr deyil. Ancaq bu müddətdə 8 mindən artıq ali təhsilli mütəxəssis hazırlanıb və onların bir hissəsi indi elmin inkişafı ilə, ali təhsilin inkişafı ilə məşğuldur.

Bunlar hamısı, şübhəsiz ki, Azərbaycan xalqının, Azərbaycan Respublikasının 25 illik dövründə əldə etdiyi böyük nailiyyətlərin bir qismidir.

Biz bu gün bu 25 il müddətində burada Azərbaycanın bütün sahələri üçün yüksək təhsilli kadrlar hazırlanması kimi böyük, məsuliyyətli və əziyyətli işdə fəaliyyətlərinə görə 25 ildə burada fəaliyyət göstərmiş professorlara, müəllimlərə və bütün ali təhsil ocağının əməkdaşlarına öz hörmət və ehtiramımızı və minnətdarlığımızı bildirməliyik. Ali təhsilli kadr yetişdirmək, şübhəsiz ki, böyük təhsil, eyni zamanda böyük əmək tələb edir. Biz onu qeyd etmək istəyirik ki, ali təhsil sahəsində çalışan hər bir şəxs fədakar insandır və onların əməyini həmişə xalq qiymətləndirib və ali təhsil ocaqlarında çalışan adamlara həmişə xalq arasında böyük hörmət və ehtiram var. Bu gün də akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin professor və müəllim heyəti Naxçıvan Muxtar Respublikasında nüfuzlu bir kollektivdir və biz çalışacağıq ki, bu kollektivin bundan sonra da nüfuzu və Naxçıvan Muxtar Respublikasının ictimai, siyasi mühitinə təsiri daha artıq olsun, daha da bizim üçün gərəkli olsun.

İndi Azərbaycan müstəqil dövlətdir. Azərbaycan xalqı öz milli azadlığına nail olubdur. İndi Azərbaycan bir müstəqil dövlət kimi dünyanın hər bir dövləti ilə, hər bir ölkəsi ilə müstəqil əlaqə yaratmağa və bu

əlaqələrdən öz ölkəsinin, öz dövlətinin gələcək inkişafı üçün istifadə etməyə malik olan bir dövlətdir. Bu baxımdan Naxçıvan Dövlət Universiteti indi sərbəst bir ali məktəbdir. Onun Azərbaycanın bütün ali məktəbləri ilə əlaqəsini inkişaf etdirməyə daha da əlverişli şərait var və eyni zamanda dünyanın bütün ölkələri ilə, orda olan ali məktəblərlə, elm mərkəzləri ilə, elm ocaqları ilə əlaqə saxlamağa imkanları vardır. Çox yaxşı bir haldır ki, artıq bu barədə müəyyən addımlar atılıb, qonşu İran İslam Respublikası, Türkiyə Cümhuriyyətinin ali təhsil ocaqları ilə, elmi mərkəzləri ilə Naxçıvan Dövlət Universiteti arasında müəyyən əlaqələr yaranıb və bu gün Naxçıvan Dövlət Universitetinin yubiley mərasimində İran İslam Respublikasının və Türkiyə Cümhuriyyətinin ali məktəblərinin və dövlət adamlarının iştirakı buna sübutdur. Sizi əmin edə bilərəm ki, Naxçıvan MR Ali Məclisi və Nazirlər Kabineti bu sahədə Naxçıvan Dövlət Universitetinin fəaliyyətinə lazımi köməklik edəcək və lazım olan şəraitləri yaradacaqdır.

25 illik fəaliyyətinizə görə sağ olun. Fəqət indi qarşıda çox böyük və mürəkkəb həyat yolu durur. O da Azərbaycan Respublikasının Dövlət müstəqilliyi əldə etməsi, Azərbaycanda yeni siyasi, iqtisadi quruluşun yaranması, yeni bir cəmiyyətin yaranması, Azərbaycanın milli dövlətçiliyinin inkişaf etdirilməsi ilə əlaqədardır. Bu sahədə ziyalıların, alimlərin, ali məktəb müəllimlərinin fəaliyyəti indi Azərbaycan Respublikası üçün çox gərəklidir, çox faydalıdır və ona görə də bizim bu gün sizin bu bayram günündə, yubiley günündə tövsiyələrimiz ondan ibarət olacaqdır ki, Siz müstəqil Azərbaycanın və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında daha da fəal iştirak edəsiniz və öz işinizi yeni tələblər əsasında qurasınız.

Şübhəsiz ki, 25 il Naxçıvan Muxtar Respublikası Universitetində toplanmış elmi potensial, ali məktəb işi təcrübəsi böyük bir sərvətdir. Ancaq bu sərvət indi gərək daha səmərəli istifadə olunsun. Bir tərəfdən ona görə ki, bu sərvətin istifadə olunması üçün sərbəstlik şəraiti yaradılıb, ikinci tərəfdən ona görə ki, indi Azərbaycanın müstəqil dövlət kimi, bax bu sahədən olan köməyə ehtiyacı çox böyükdür.

Artıq bundan sonra sizin hazırlayacağınız ali təhsilli kadrlar gərək daha yüksək kriteriyalara, yüksək tələblərə uyğun olsunlar. İndi artıq siz

keçmiş Sovetlər İttifaqının çərçivəsində olan təcrübəni yox, bütün dünya təcrübəsini gərək mənimsəyəsiniz, ondan səmərəli istifadə edəsiniz və ali təhsil işinin təşkilini daha müasir səviyyədə təşkil edəsiniz.

Bu baxımdan Türkiyə və İran dövlətinin ali məktəbləri ilə əlaqələr Sizə yardımçı olacaqdır. Ancaq tək bununla qane olmaq olmaz. Vaxtilə, yaxın keçmişdə Azərbaycan Sovetlər İttifaqının tərkibində olduğu bir dövrdə Azərbaycanın ali məktəblərinin Sovetlər İttifaqının yüksək səviyyəli universitetləri ilə, ali məktəbləri ilə əlaqəsi çox böyük səviyyədə idi. O dövrün, əlbəttə ki, biz hər tərəfini düzgün qiymətləndirməliyik. Moskva, Leninqrad universitetlərinin və onların yüksək səviyyəli professorlarının, ali məktəb müəllimlərinin bilikləri, şübhəsiz ki, Azərbaycanda kadr hazırlanması üçün çox böyük kömək etmişdir. Bunu heç vaxt inkar etməməliyik. Ancaq təəssüf ki, o dövrdə biz ancaq bu çərçivə içərisində yaşamışıq. İndi isə bütün dünya bizim qarşımızda açıqdır və bütün dünyanın bəşər elmindən, bəşəri ali təhsil təcrübəsindən biz gərək səmərəli istifadə edək. Bu sahədə Naxçıvan Dövlət Universiteti, mənə belə gəlir ki, öz vəzifələrini çox dəqiq müəyyən etməlidir və öz vəzifələrini həyata keçirməlidir.

Bu 25 illik yubiley haqqında da danışanda şübhəsiz ki, adətən, belə günlərdə nailiyyətlərdən danışılır. Ancaq nailiyyətlər, şübhəsiz ki, heç vaxt bizim əlimizdən getməyəcək. Bu dövrdə həll olunmamış məsələlər, universitetin həyatında buraxılmış səhvlər, nöqsanlar, çatışmazlıqlar da olubdur. Mənə, ümumiyyətlə, ali təhsil işi çox yaxından məlum olduğuna görə bu barədə kəskin bir neçə söz deməyə mənəvi haqqım var. Mən Azərbaycanda ali təhsilin inkişafı ilə vaxtilə yaxından məşğul olmuşam. Həm Sovetlər İttifaqının rəhbər vəzifəsində olduğum dövrdə, Sovetlər İttifaqının Ali Təhsil Nazirliyinə rəhbərlik etdiyim dövrdə bu işlərlə yaxından tanış olmuşam. Ona görə də mən bu sahədə keçmişdə Azərbaycanda, o cümlədən Naxçıvan Universitetində əldə olunmuş nailiyyətlərlə yanaşı, həmişə çatışmazlıqları, nöqsanları və mənfi halları da görmüşəm və bunların aradan qaldırılması üçün çox çalışmışam. Bu gün nə qədər acınacaqlı olsa da deməliyik ki, ali təhsil sahəsində Azərbaycanda, Azərbaycanın ali məktəblərində çox xoşagəlməyən hallar baş vermişdir, mənfi cəhətlər var, nöqsanlar var və

təəssüf ki, son illərdə də ali təhsil məktəblərinin, universitetlərin, institutların kollektivləri belə mənfı halların mövcud olması ilə artıq uyğunlaşmışlar. Müəyyən səviyyədə belə halları təbii hal kimi qəbul etmişlər və bunların aradan qaldırılması üçün mübarizəni zəiflətmişlər. Bəzən belə mübarizə hətta olmamışdır. Əksinə, bəzi mənfi hallar kök salmış və müəyyən qədər, yenə də deyirəm, bəziləri tərəfındən təbii, zə - ruri amillər kimi hökm sürmüşdür. İndi əgər biz Azərbaycanın milli azadlığına nail olmuşuqsa, Azərbaycanda bir müstəqil dövlət qururuqsa, Azərbaycanda hüquqi dövlət yaradırıqsa, Azərbaycanda demokratik cəmiyyət uğrunda mübarizə aparırıqsa, biz saflıqdan, paklıqdan, mənəvi təmizlikdən, şübhəsiz ki, möhkəm yapışmalıyıq. Bu, ancaq bu yol ilə uğurlu gələcəyə aparar. Bizim ata-babalarımız, bizim dini, mənəvi mənbəyimiz olan İslam dini və bizim əsrlər boyu nəsillərimizin istifadə etdiyi “Qurani-Kərim” müsəlmanların və bu dinə itaət edən bütün adamların hamısını paklığa dəvət eləyib, təmizliyə dəvət eləyib, mənəviyyata dəvət eləyib və bu tələblər bizim xalqın ən yüksək zirvələrindən olan ziyalılar tərəfindən, mütəfəkkir insanlar tərəfindən, alimlər tərəfindən ən xüsusi bir şərt kimi elan olunub. Buna görə də mən istəməzdim ki, bu gün, bu yubiley günü Naxçıvan Muxtar Respublikasının həyatında son illərdə çox böyük kök salmış mənfı hallardan danışıb, kiminsə qanını qaraldım, yaxud kiminsə xatirinə dəyim. Ancaq mən bir həqiqəti sevən adam kimi bu gün, bu bayram günü bunu sizə deməyi özümə borc bilirəm. Olan-olub, keçən-keçib. Ancaq gərək bilək ki, Azərbaycan xalqı öz milli azadlığı ilə yanaşı, gərək öz yüksək mənəviyyatına, yüksək əxlaqına sadiqliyini də bundan sonra daha da əziz tutsun və daha da sübut etsin. Bu sahədə şübhəsiz ki, bizim ali təhsilli ixtisasçıların, mütəxəssislərin, alimlərin, professorların, müəllimlərin rolu çox böyükdür.

Müəllim dövrü-qədimdən, hələ vaxtilə əhalinin əksəriyyəti savadsız olduğu bir dövrdən, lap cəmiyyətdə kiçik bir yer tutduğu vaxtdan həmişə ən yüksək hörmətə malik olan adam, ən yüksək mənəviyyata malik olan adam kimi xalq arasında, kütlə arasında, insanlar arasında qəbul olunmuş bir şəxsiyyətdir. Müəllim, ali və orta məktəb müəllimidir, ali məktəb müəllimidir, - fərq etməz, bu, şöhrətli-şərəfli bir addır.

Müəllim - dərs vermək, tərbiyə etmək sahəsində çalışan adam gərək hər dəqiqə bilsin ki, onun dərs verməyə, təhsil verməyə, tərbiyə etməyə mənəvi hüququ var. Mənəvi hüququ olmayan adam gərək öz içində, özündə bu işdən imtina etsin. Ona görə də mən, bir də deyirəm, gəlin, bu 25 illik bir tarixə yekun vurarkən, yeni bir mərhələyə keçərkən bax, bu məqsədi heç vaxt unutmayaq. Nəinki unutmayaq, gərək Naxçıvan Dövlət Universitetinin bütün fəaliyyətində yüksək elmi səviyyə, cürbəcür fənlərə gənclərin cəlb olunması ən əsas vəzifələrdən biri olsun. Buna görə də indi Azərbaycan Respublikasında bu sahədə, ali təhsil sahəsində aparılan bəzi tədbirlərə mən şəxsən böyük ümid bəsləyirəm. Ancaq çox arzu edərdim ki, bu ümidlərimiz puç olmasın, görülən işlər nəticə versin. Biz Naxçıvan Muxtar Respublikası üçün kadrları həm Naxçıvan Universitetində, həm də Azərbaycanın bütün ali məktəblərində hazırlamaq imkanına malikik və bu sahədə öz fəaliyyətimizi davam etdirəcəyik. Bildiyiniz kimi, bu yaxın vaxtlarda Türkiyə dövləti ilə Naxçıvan Muxtar Respublikasında vaxtilə mart ayında bağlanmış işbirliyi protokolu əsasında 75 nəfər gənc bu il Türkiyənin universitetlərinə daxil olublar və Türkiyədən gələn nümayəndələr burada Naxçıvan Xalq Təhsili Nazirliyi ilə birlikdə imtahanları qısa bir müddətdə aparıb. O 75 nəfəri biz Türkiyəyə göndərdik. Artıq onlar Türkiyə universitetlərində oxumağa başlayıblar. Bu, sevindirici haldır. Bizim protokolda 100 nəfər nəzərdə tutulub ki, 25 nəfəri də başqa sahəyə gedəcəkdir.

Naxçıvan üçün bir də o protokol üzrə Türkiyə hər il Naxçıvandan Türkiyənin ali məktəblərinə 100 nəfər məzun qəbul edib öz hesabına oxudub, bizə kadrlar hazırlamağı boynuna götürüb. Siz təsəvvür edin, vaxtilə biz Azərbaycanda ildə 800-900 nəfər Sovetlər İttifaqının başqa şəhərlərində olan ali məktəblərə tələbə göndərirdik. O cümlədən Moskva, Leninqrad, Kiyev, Sverdlovskdan başqa Pribaltikanın, hətta Orta Asiyanın ali məktəblərinə göndərirdik. Və o məktəblərdə təhsil alan ali təhsilli mütəxəssislərin çoxu indi Azərbaycana, onun həyatına çox böyük xeyir gətirən adamlardır. İndi Türkiyə hökuməti Naxçıvan Muxtar Respublikası üçün öz üzərinə götürübdür ki, öz hesabına ildə 100 nəfər oxudub bizə ali təhsilli kadr göndərəcəkdir.

İran İslam Respublikası ilə bizim bağladığımız müqavilə əsasında İran İslam Respublikasının ali məktəblərinə və orta məktəblərinə, orta ixtisas məktəblərinə də Naxçıvan Muxtar Respublikasından oxumaq üçün adamlar gedə bilərlər və eyni zamanda Naxçıvan Muxtar Respublikasının Universitetində və başqa təhsil ocaqlarında İrandan məzunlar gəlib təhsil ala bilərlər. Belə bir müqavilə də var, biz bundan da istifadə edəcəyik.

Ancaq eyni zamanda xatırlatmaq istəyirəm ki, əgər indi Azərbaycandan Moskva və Leninqrad universitetlərinə bir nəfər tələbə göndərmək lazım olsa, böyük məbləğdə vəsait tələb edilər. İndi pulsuz başqa bir dövlət bir dövlət üçün tələbə oxutmur. Vaxtilə bu imkandan biz istifadə etmişik. İndi isə bizim qardaş ölkələrimiz Türkiyə və İran Respublikaları yenə də Azərbaycana, o cümlədən Naxçıvana heç bir vəsaitsiz kadrların hazırlanmasına kömək etməyə hazırdırlar və bu işlər artıq başlanıbdır. Ona görə də, biz həm Naxçıvan Universitetinin, həm də Azərbaycanın digər ali təhsil ocaqlarının bütün imkanlarından istifadə etməli, həm İran, həm də Türkiyə Cümhuriyyətlərinin öz üzərlərinə götürdükləri öhdəliklərdən bizim üçün kadr hazırlamaqda istifadə etməli, həm də dünyanın başqa ölkələrinə çıxmalıyıq. Mənə belə gəlir ki, bütün bu sahələrdə Naxçıvan Dövlət Universiteti gərək şübhəsiz ki, öz aparıcı rolunu oynasın və bu işlərin təşkilatçısı olsun. Ali Məclis və Nazirlər Kabineti isə bu sahədə öz səylərini göstərəcəklər. Ancaq bir hadisə məni narahat edir.

Burada qeyd olundu. Təəssüf ki, bu il qəbul olunan tələbələr bu gün burada iştirak etmirlər. Biz, düzdür, bu məsələni o qədər də düzgün hesab etmədik. Ancaq başqa əlac yox idi. Naxçıvan Muxtar Respublikasının Universitetinə, sonra hətta Naxçıvan Muxtar Respublikasındakı orta ixtisas məktəblərinə - Kənd Təsərrüfatı Texnikumu, yaxud Tibb Texnikumu, yaxud Politexnik Texnikumuna məzunların qəbul olunması, hamısının gedib imtahanlarını Bakıda verməsi tələb olunur. Mən bu işi düzgün hesab etmirəm. Mən arzu edərdim ki, bu, yaxşı nəticə versin. Ancaq Naxçıvan Muxtar Respublikası ağır blokada şəraitində olduğu bir dövrdə, yeganə nəqliyyat yolu hava yolu olduğu halda və bu da çox məhdud olduğu halda və burada 6 aydır ki, dəmir yolu işləmə-

diyinə görə, demək olar ki, bütün sənaye müəssisələri dayanıb, insanlar işsizdir, məvacib almırlar. Yaşayış çox ağırdır, elektrik enerjisi, görürsünüz, yoxdur, bir çətinliklə bura verilibdir, yanacaq yoxdur, ərzaq malları çatışmır. Biz Türkiyədən, İrandan gələn mallar vasitəsilə, bir də ki Bakıdan İran ərazisi ilə uzun yolla gətirilən ərzaq malları vasitəsilə Naxçıvanda əhalinin təminatını müəyyən qədər təşkil etməyə nail oluruq. Belə bir vəziyyətdə bir neçə adamın ali məktəbə, yaxud da ki orta ixtisas məktəblərinə girmək üçün Bakıya getməsi heç də düzgün hal deyil, məqsədəuyğun bir şey deyil. Mən şəxsən bunu düşünülməmiş bir tədbir kimi qəbul edirəm, ancaq mən buna açıq etirazımı bildirmək istəmirdim. Çünki azadlıqdır. Qoy, kim nə cürə istəyir istifadə etsin, hansısa imkanlardan istifadə etsin. Ancaq arzu edərdim ki, bu tədbir yaxşı nəticə versin. Görək Naxçıvan üçün nə nəticə verəcəkdir? Mən bu məsələyə toxunaraq Azərbaycanın Ali Təhsil Nazirliyinə bildirmək istəyirəm ki, belə dəyişiklikləri çox dərin düşünüb və lazımi səviyyədə aparmaq lazımdır.

Ali məktəblərə qəbul sentyabr ayında olmalıdır. Bu gün noyabr ayının ortasıdır. Ali məktəblərə qəbul gecikibdir. Bunları vaxtında hazırlamaq lazımdır. Əgər hazırlamamışlarsa, ola bilər ki, müəyyən bir mərhələdə müəyyən bir dövrü keçirmək lazımdır. Bilirsiniz, mən keçmiş təcrübədən bilirəm ki, Azərbaycanda ali məktəblərə ildə 100 min nəfərdən artıq məzun ərizə verir. Hər bir məzunun arxasında 4-5 nəfər ailə üzvləri durur. Bu, təxminən 5-6 yüz min, 7-8 yüz min nəfər adamın həyatında müəyyən bir həyəcan dövrüdür. Belə bir işin təşkilinə əvvəlki sistem, əgər yaramırdısa, şübhəsiz ki, orda çox nadinc hallar vardır. Mən onu dedim, əgər başqa sistem düzəlirsə, bunu gərək vaxtında hazırlayıb, vaxtında da həyata keçirəydilər. İndi Azərbaycanın, əlbəttə ki, yaxın şəhərlərindən Bakıya gəlmək olar. Ancaq onlar gəlməlidir. Çünki Bakıda əgər universitetə girirlərsə, gəlib Bakıda imtahan verəcəklər. Amma Naxçıvan Universitetinə girən, yaxud Naxçıvan Tibb Texnikumuna girən tələbə nə üçün getsin Bakıda imtahan versin və ordan da buraya qayıtsın? Yaxşı olmaz ki, 15-20 nəfər qəbul eləyən adam gəlsin bura. Nəinki 3-4 min nəfəri burdan Bakıya çəkib aparsınlar. Bilirsiniz, ola bilər, bu gün mənim bu danışıqlarım bu tən-

tənəli mərasimə müəyyən qədər başqa bir rəng verir, ancaq biz hər şeyi açıq deməliyik. Mən bu gün bu məsələyə öz münasibətimi bildirirəm. Allah eləsin ki, bu tədbirlər yaxşı nəticə versin. Yaxşı nəticə versə, narazılıqlar hamısı geridə qalacaq.

Ancaq mənim əsas sözlərim bu deyil, əsas sözlərim odur ki, Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanda indi böyük ali təhsil potensialı var, ali təhsil məktəblərinin çox böyük professor-müəllim dəstəsi var, ordusu var. Demək olar ki, bu potensialdan səmərəli istifadə etmək lazımdır. Biz çox xoşbəxtik ki, Azərbaycan indi öz müstəqilliyini əldə etdiyi dövrdə Azərbaycanın minlərlə professoru var, bir neçə qat ondan artıq elmlər namizədi adı olan müəllimləri, ali məktəb müəllimləri var. Bunların bir çoxu dünya səviyyəsində olan alimlərdir, ali məktəb müəllimləridirlər. Bunların hamısından səmərəli istifadə olunması Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsi üçün əsas şərtlərdən biridir. Mən bu gün arzu edirəm ki, Naxçıvan Muxtar Respublikasının Dövlət Universitetinin professor-müəllim kollektivi bu baxımdan öz vəzifələrini daha da dəqiq müəyyən etsinlər və yeni mərhələdə daha da fədakar çalışsınlar. Azərbaycanda ali təhsilli mütəxəssislərin hazırlanması üçün öz əməklərini sərf etsinlər və Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsi üçün yaxından iştirak etsinlər.

Bir daha Sizin hamınızı ürəkdən təbrik edirəm, sizlərə və sizin simanızda bütün Naxçıvan Dövlət Universitetinin kollektivinin hamısına cansağlığı, səadət və bütün işlərinizdə müvəffəqiyyətlər arzu edirəm!

*Naxçıvan şəhəri, 12 noyabr 1992-ci il*

## Naxçıvan Muxtar Respublikasında və onun ətrafındakı vəziyyətlə əlaqədar bəzi məsələlər haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Artıq uzun müddətdir ki, Naxçıvan Muxtar Respublikası son dərəcə ağır şəraitdə yaşayır. Səkkiz aydan artıqdır ki, Ermənistanın ərazisindən keçən, muxtar respublika iqtisadiyyatının və əhalisinin ehtiyaclarını təmin etmək üçün yüklərin daşınmasında yeganə nəqliyyat vasitəsi olan Naxçıvanla Bakı arasındakı dəmiryol magistralı işləmir. Dörd aydır ki, Azərbaycandan Naxçıvana gələn elektrik enerjisi kəsilmiş, Araz çayı üzərində olan balaca hidroelektrik stansiyası isə muxtar respublikanın tələbatının yalnız iyirmi faizini ödəyir. Bakı-Astara-Culfa-Naxçıvan marşrutu ilə İran ərazisindən keçən avtomobil yolundan məsafənin çox uzunluğuna və digər obyektiv və subyektiv səbəblərə görə səmərəli istifadə olunmur.

Beləliklə, Ermənistan ərazisi ilə Azərbaycanın əsas ərazisindən ayrılmış, Bakı ilə kommunikasiya xətlərindən məhrum olmuş Naxçıvan Muxtar Respublikası tam blokada vəziyyətinə düşmüşdür. Bütün bunlar muxtar respublikanın iqtisadiyyatında son dərəcə ağır vəziyyət yaratmış, əhalinin maddi və məişət şəraitinin tamamilə pisləşməsinə gətirib çıxarmışdır. Sənaye və əsaslı tikinti tamamilə iflic olmuş, kənd təsərrüfatı kritik vəziyyətə düşmüşdür. Muxtar respublikada təqribən 50 min nəfər işsiz vardır.

Qışın gəlməsi ilə əlaqədar istiliklə təmin olunmasında çətin vəziyyət yaranmışdır. Yaşayış evlərində, ictimai binalarda qazanxana təsərrüfatı işləmir. Bir çox yaşayış məntəqələrində yanacaq kimi istifadə məqsədilə ağaclar kütləvi surətdə kəsilir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları nəzərə alaraq və payız-qış mövsümündə vəziyyətin daha da gərginləşəcəyini görərək dəfələrlə Azərbaycan Prezidentinə, Azərbaycan Respublikasının Ali Sovetinə və Nazirlər Kabinetinə müraciət edib sosial-iqtisadi

məsələlərin həlli üçün səmərəli tədbirlərin qəbul olunmasını xahiş etmiş, muxtar respublikanın blokada vəziyyətindən çıxarmaq məqsədilə Bakı ilə Naxçıvan arasındakı dəmir yolunun işinin bərpa olunmasının vacibliyini irəli sürmüşdür.

Azərbaycan Respublikasının Milli Məclisi iki dəfə -1992-ci il iyul ayının 15-də və 1992-ci il avqust ayının 18-də Naxçıvan Muxtar Respublikasında vəziyyət haqqında məsələ müzakirə edərək müvafiq qərarlar qəbul etmişdir. Lakin onlar Azərbaycanın nazirlikləri və baş idarələri tərəfindən yerinə yetirilməmiş, muxtar respublikanın sosial-iqtisadi həyatına mahiyyətcə heç bir müsbət təsir göstərməmişdir. Dəmir yolunun işinin bərpası və Naxçıvanda iqtisadi blokadanın ləğvi üçün lazımi tədbirlər görülməmişdir. Çox təəssüf ki, Azərbaycanın dövlət hakimiyyəti orqanlarının bəzi rəhbərləri muxtar respublikanın 350 minlik əhalisinin taleyi ilə hesablaşmayaraq, Bakı ilə Naxçıvan arasında dəmir yolunun işinin bərpası məsələsində hətta neqativ mövqe tutmuşlar.

Belə bir şəraitdə muxtar respublikanın Ali Məclisi və Nazirlər Kabineti muxtar respublikanın çox az olan daxili imkanlarından maksimum istifadə etməyə çalışır, qonşu dövlətlərlə - Türkiyə və İranla iqtisadi əlaqələrin inkişafı üçün lazımi tədbirlər həyata keçirirlər.

1992-ci il mart ayının 24-də Ankarada Türkiyə Respublikası hökuməti ilə Naxçıvan Muxtar Respublikası arasında müqavilə imzalanmışdır. Belə bir müqavilə də 1992-ci il avqust ayının 24-də Tehranda İran İslam Respublikası hökuməti ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmışdır.

Həmin müqavilələrdə iqtisadi, ticarət, mədəni əməkdaşlığın inkişaf etdirilməsi, Naxçıvan üçün həyati vacib bəzi məsələlərin həlli, Naxçıvan Muxtar Respublikasına iqtisadi yardım göstərilməsi nəzərdə tutulmuşdur. Bu müqavilələrə əsasən son vaxtlar Naxçıvana ərzaq və yanacaq malları daxil olur və bu da muxtar respublikanın tələbatını qismən ödəməyə imkan yaradır.

Türkiyə Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına ərzaq malları alınması üçün ayrılmış 10 milyon Amerika dolları məbləğində kredit hesabına son dörd ayda Naxçıvana 293 ton mal əti, 250 ton kərə yağı, 700 ton marqarin, 182 ton zeytun yağı, 363 ton günəba-

xan yağı, 460 ton toyuq əti, 2.283 ton şəkər tozu, 400 ton düyü, 600 ton makaron, 6 min ton un gətirilmişdir.

Bu yardımın nə qədər əhəmiyyətli olduğunu təsəvvür etmək üçün bildirmək lazımdır ki, keçən dörd ay ərzində Bakıdan Naxçıvana cəmi 15 ton mal əti, 219 ton kərə yağı, 35 ton şəkər tozu, 164 ton düyü, 2 ton makaron, 3200 ton un gəlmişdir.

Oktyabr-noyabr aylarında İran İslam Respublikasından 520 ton dizel yanacağı, 540 ton mazut, 220 ton daş kömür, 955 ton kartof, 350 ton un, 97 ton soğan daxil olmuşdur.

Bu il dekabr ayının 3-dən İran İslam Respublikasından Naxçıvana təqribən 30 mqvt gücündə elektrik enerjisinin verilməsinə başlanmışdır. Bir ay ərzində Türkiyədən (İqdır şəhəri) Naxçıvana çəkilən elektrik xəttinin tikintisi başa çatacaq, muxtar respublikanın elektriklə təminatı xeyli yaxşılaşacaqdır.

Lakin bütün bunların hamısı muxtar respublika əhalisinin ərzaq mallarına və yanacağa olan minimum tələbatını belə ödəmir, qışın sərt dövründə insanların həyatı üçün təhlükəli ola biləcək halların qarşısını almağa imkan vermir.

Belə bir çətin şəraitdə Naxçıvan Muxtar Respublikasının əhalisi Azərbaycanın dövlət rəhbərliyindən lazımi diqqət və qayğı, sosial-iqtisadi məsələlərin həlli üçün konkret tədbirlərin həyata keçirilməsini, real praktiki kömək edilməsini gözləyir.

Təəssüflər olsun ki, belə bir münasibət hiss olunmur. Əksinə, Azərbaycan dövlət hakimiyyət orqanlarının bəzi rəhbərləri muxtar respublikaya kömək etmək əvəzinə onun rəhbərliyinə təzyiq göstərməyə cəhd edir, Naxçıvan Muxtar Respublikasının Konstitusiya statusunda dəyişiklik etmək, onun konstitusiya hüquqlarını məhdudlaşdırmaq tədbirlərinə əl atırlar. Onlar hətta Naxçıvan Muxtar Respublikasının dövlət quruculuğu sistemində dəyişikliklər etməyə cəhd edərək pozucu elementlərə, Azərbaycan rəhbərliyi ilə Naxçıvan rəhbərliyi arasındakı münasibətləri gərginləşdirməyə, şəraiti sabitsizləşdirməyə əsas verirlər.

Görünür, Azərbaycan Xalq Cəbhəsinin bu yaxınlarda keçirilən qurultayının Naxçıvana qarşı tutduğu neqativ mövqeyini də bununla izah

etmək olar. Naxçıvandakı vəziyyət təhrif olunmuş, ictimaiyyətə böhtançı formada yanlış məlumatlar verilmişdir. Naxçıvandan olan bəzi nümayəndələrin və Azərbaycanın rəsmi rəhbərliyinin nümayəndəsinin çıxışlarında muxtar respublikanın ali hakimiyyət orqanının qanuni seçilmiş sədrinin silah yolu ilə devrilməsinə yönəldilən antikonstitusion, hüquqazidd, hətta terrorizmə, vandalizmə çağırışlar səslənmişdir.

Ən təhlükəlisi ondan ibarətdir ki, qurultayın işində iştirak edən Azərbaycanın dövlət hakimiyyəti orqanlarının rəhbərləri bu kimi hücumların və çağırışların qarşısını almamışlar. Əksinə, bu çağırışlar dövlət televiziyası və bəzi mətbuat orqanları tərəfindən geniş reklam edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cəbhəsinin qurultayı öz iş vaxtının böyük hissəsini Naxçıvanın dövlət hakimiyyəti orqanlarına aid süni surətdə ortaya atılmış məsələlərə həsr edərək muxtar respublikanın mürəkkəb sosial-iqtisadi problemlərinə heç bir maraq göstərməmiş, əhalini çörəklə, digər ərzaq məhsulları ilə, elektrik enerjisi ilə, yanacaqla təmin etmək kimi mühüm məsələlərə qətiyyən toxunmamışdır.

Azərbaycan Xalq Cəbhəsinin qurultayında Naxçıvan Xalq Cəbhəsi rəhbərliyinin terrorizmə, zorakılığa səsləyən çağırışları təsadüfi xarakter daşımır. Məlum olduğu kimi, 1992-ci il oktyabr ayının 24-də Naxçıvan Xalq Cəbhəsinin rəhbərləri sərəncamlarında olan qanunsuz dəstələrdən istifadə edərək Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi etməyə cəhd göstərmişlər. Onlar muxtar respublika Daxili İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını zəbt etmiş, bir neçə saat ərzində onların fəaliyyətini iflic etmiş, vəzifəli şəxslərə qarşı hüquqazidd hərəkətlərə yol vermiş, bütün əhaliyə böyük mənəvi zərbə vurmuşlar. Yalnız Naxçıvan əhalisinin fəal müqaviməti nəticəsində Xalq Cəbhəsinin rəhbərləri öz cinayətkar məqsədlərinə nail ola bilməmişlər.

Bu məsələ 1992-ci il oktyabr ayının 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasının iclasında müzakirə edilmişdir. Naxçıvan Xalq Cəbhəsinin, onun silahlı dəstələrinin 1992-ci il oktyabr ayının 24-də törətdikləri qanunazidd hərəkətləri Naxçıvan

Muxtar Respublikasında dövlət çevrilişi cəhdi kimi qiymətləndirilmişdir. Ali Məclis tələb etmişdir ki, Xalq Cəbhəsinin qanunsuz silahlı dəstələri ləğv edilsin və bütün silahlar Naxçıvanda yerləşən Azərbaycan Müdafiə Nazirliyinin hərbi hissəsinə təhvil verilsin.

Ali Məclisin sessiyasının qərarında həmçinin Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqları, Azərbaycan Respublikasının Milli Məclisinin fəaliyyəti ilə əlaqədar məsələlər də qaldırılmışdır.

Muxtar respublikanın Ali Məclisi göstərilən qərarını Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə, Azərbaycan Respublikasının Ali Sovetinə təqdim edərək xahiş etmişdir ki, bu qərara baxılsın və lazımi tədbirlər görülsün. Lakin uzun müddət keçməsinə baxmayaraq Azərbaycanın ali dövlət hakimiyyəti orqanları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin xahişinə baxmamış, muxtar respublikanın konstitusion orqanına və onun bütün əhalisinə hörmətsizlik göstərmişdir. Təəccüblü deyil ki, Naxçıvan Xalq Cəbhəsinin rəhbərləri və onların Azərbaycanın hakimiyyət orqanlarında olan himayədarları qanuna zidd hərəkətlərinə görə öz cəzasızlıqlarını hiss edərək zorakılığa, terrorizmə, Naxçıvan Muxtar Respublikasının qanuni seçilmiş dövlət hakimiyyəti orqanlarının rəhbərliyinin silah yolu ilə devrilməsinə açıq çağırışlarla çıxışlar edirlər.

Ali Məclisin Rəyasət Heyəti qeyd edir ki, Bakının bəzi dairələri tərəfindən qızışdırılan Naxçıvan Xalq Cəbhəsinin pozucu, konstitusiyaya zidd mövqeyi muxtar respublikada ictimai-siyasi vəziyyəti gərginləşdirir və Naxçıvanın hakimiyyət orqanlarına ərzağın, yanacağın və digər malların kəskin çatışmadığı dövrdə, blokada şəraitində muxtar respublikanın təminatının əsas məsələlərini həll etməyə ciddi maneçilik törədir.

Ali Məclisin Rəyasət Heyəti bəyan etməyi zəruri hesab edir ki, Bakıda və Naxçıvanda ayrı-ayrı dairələr tərəfindən Naxçıvan Muxtar Respublikası rəhbərliyinin fəaliyyətindəki separatizm haqqında yayılan şayiələr uydurmadır, böhtan xarakteri daşıyır və heç bir əsası yoxdur. Türkiyə və İranla əlaqələrin inkişaf etdirilməsi Azərbaycan Respublikasının ümumi siyasətinin tərkib hissəsidir, uzun müddət blokada şəraitində olan muxtar respublikanın sosial-iqtisadi problemlərinin həll edilməsinin zəruriliyindən irəli gəlir.

Ermənistanın nümayəndələri ilə görüş və danışıqlara gəldikdə isə, onlar Azərbaycanın dövlət rəhbərliyinin nümayəndələrinin iştirakı ilə aparılır, spesifik coğrafi şəraitdə olan muxtar respublika əhalisinin təhlükəsizliyini təmin etmək zərurətindən doğur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Azərbaycan Xalq Cəbhəsinin ikinci qurultayında Naxçıvan Muxtar Respublikasında silahlı dövlət çevrilişinə dair səslənən məsuliyyətsiz və təhlükəli çağırışlar pislənilsin. Bu cür çağırışların törədə biləcəyi nəticələrin məsuliyyəti Azərbaycan Xalq Cəbhəsinin üzərinə düşür.

Azərbaycan Respublikasının Prezidentindən xahiş edilsin ki, Naxçıvan Xalq Cəbhəsinin muxtar respublikada sabitliyin pozulmasına yönəlmiş və ağır nəticələr verə biləcək hüquqazidd, antikonstitusion hərəkətlərinin qarşısını almaq üçün tədbirlər görsün.

2. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəydən, Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilsin ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi cəhdi haqqında" 25 oktyabr 1992-ci il tarixli qərarına baxılsın, qərardan irəli gələn məsələlərin həyata keçirilməsi üçün tədbirlər görülsün. Naxçıvan Xalq Cəbhəsinin rəhbərliyinin və onun silahlı qruplarının Konstitusiyaya zidd hərəkətlərinə siyasi və hüquqi qiymət verilməlidir.

3. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəydən, Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilsin ki, qərəzli və konyunktur məqsədlər güdən, Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqlarının tapdamağa cəhd edən ayrı-ayrı qüvvələrin qarşısını almaq üçün ciddi tədbirlər görülsün.

Belə cəhdlərin Azərbaycan Respublikası üçün ümumiyyətlə zərərli və mənasız olduğu aydındır və bu, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 25 oktyabr 1992-ci il tarixli qərarında kifayət qədər inandırıcı surətdə əsaslandırılmışdır. Bu cəhdləri biz Naxçıvanda şəraiti sabitsizləşdirməyə, Azərbaycan Respublikası ilə Naxçıvan Muxtar Respublikasının hakimiyyət orqanları arasında qarşılıqlı əlaqələri gərginləşdirməyə yönəldilmiş və əvvəlcədən düşünülmüş hərəkət kimi qiy-

mətləndiririk. İndi bütün qüvvələr qarşıdurmaya yox, birliyə, Naxçıvan Muxtar Respublikasını uzunmüddətli blokadadan və ağır vəziyyətdən çıxarmağa yönəldilməlidir.

Ali Məclisin Rəyasət Heyəti muxtar respublikanın konstitusiya hüquqlarının pozulmasına, Naxçıvanın Konstitusiya statusunun dəyişdirilməsi cəhdinə qarşı bir daha öz qəti etirazını bildirir və bəyan edir ki, o bundan sonra da həmin hüquqların toxunulmazlığını müdafiə edəcəkdir.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 7 dekabr 1992-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin yanında keçirilmiş 17 dekabr 1992-ci il tarixli müşavirənin PROTOKOLU*

**Heydər Əliyev:** Bu gün biz İranla əlaqələrimizin vəziyyətini yekunlaşdırmaq, Naxçıvan Muxtar Respublikasının yanacaqla təmin olunmasını müəyyənləşdirmək məqsədilə toplaşmışıq. Olan ehtiyatlar tükəndi, hava da soyuyur. Dəmir yolu işləməsə, Naxçıvanı yanacaqla təmin etmək mümkün olmayacaq. Əvvəllər buna əhəmiyyət verilmirdi. İranla Naxçıvanın əlaqələri barter vasitəsilə həyata keçirilir. İrandan ərzaq və yanacaq verilməsi üçün protokol imzalandı. Müqavilədə göstərilmişdir ki, Naxçıvana verilən malların əvəzi ödəniləcək. Sonra Azərbaycan Prezidenti ilə mənim söhbətim oldu. A. Cəlilov və digər nazirlər bu komissiyaya daxil edildi. Müəyyən şeylər gəlib. Oktyabrın 24-də İranla danışıq zamanı onlar razılıq verdilər ki, avtomaşınlar Xudafərin körpüsündən keçərək İrana və oradan Naxçıvana gəlsin. Artıq

*İxtisarla verilir- **tərtibçi.**

qış mövsümüdür. Qışın sərt dövründə yaşayış çətinləşib. Azərbaycan nümayəndələri görülən işlər barədə məlumat versinlər və biz də görəcəyimiz işləri müəyyənləşdirək. Müəssisələr işləmir. İnsanların yaşaması üçün nə edəcəyiksə, onu müəyyənləşdirək.

**A. Cəlilov** (İran-Azərbaycan müştərək komissiyasının sədri): Heydər Əliyev yaranmış vəziyyəti şərh etdi. İmzalanmış protokollar haqqında söhbət elədi. Azərbaycan Prezidenti ilə danışandan sonra bu işə təkan verilib. Bir sıra işlər görülüb. Bunun ahəngdarlığını təmin etməliyik. Əsas məsələ buraxılış məsələsidir...

**Heydər Əliyev:** Sizə çatdırıram ki, müvəqqəti körpü tikilib. Daimi körpünün tikilməsini İran İslam Respublikası öz üzərinə götürüb. Azərbaycanın rəhbərləri Naxçıvanın bu vəziyyətini öz gözləri ilə görüblər. Naxçıvan çox ağır vəziyyətdədir. Azərbaycan əhalisi bu vəziyyəti tam bilməlidir. Afiyəddin Cəlilovdan xahiş edirəm Prezidentin yanında düzgün informasiya versin. Əhaliyə yanlış informasiya verilir. Naxçıvan Bakıdan asılı olmasına baxmayaraq, bu günə kimi ona heç bir köməklik olmayıb. Naxçıvan bəla içərisindədir. Yalandan deyirlər ki, guya benzin Türkiyəyə satılıb. Türkiyə rəhbərləri də mənə zəng vurub deyirlər ki, sürücülər Naxçıvana gəlmək istəmir. Mən ömrümü rüşvətxorluğa qarşı mübarizəyə həsr etmişəm. Naxçıvan Azərbaycanın tərkib hissəsidir. Onu Azərbaycandan ayırmaq lazım deyil. Qoy Naxçıvan haqqında düzgün və dəqiq məlumatlar verilsin. Nümayəndə heyətindən xahiş edirəm ki, Naxçıvana köməklik göstərilməsinin zəruriliyini Azərbaycan hökumətinə çatdırsınlar. Naxçıvana köməklik göstərilməlidir. Naxçıvan Nazirlər Kabineti öz üzərinə düşən bütün işləri tam yerinə yetirməlidir. Kommunikasiya Komitəsinin sədr müavinini bu işə məsul etmək lazımdır. Naxçıvanın bütün kommunikasiyaları İran ərazisindən keçməlidir. Nazirlər Kabineti, Gömrük Komitəsi, Sərhəd Qoşunları öz işlərini görməlidirlər. Əgər Naxçıvana gündəlik yanacaq və ərzaq gəlməsə və bunun üçün sistematik iş aparılmasa, vəziyyət çox pis olacaqdır. Adamlar uşaqlarını saxlaya bilmir. Xahiş edirik yolun açılması ilə deyilməsin ki, Naxçıvanda hər şey həll olundu. Naxçıvan həm yanacaq, həm də ərzaqla tam təmin olunmalıdır. Yoxsa vəziyyət daha da pisləşəcəkdir. Sənaye işləmir, tikinti aparılmır. Naxçıvana çox zərər

dəyib. Başqa yollarla da olsa, mütəmadi olaraq Naxçıvan təmin olunmalıdır.

**A. Cəlilov:** Mən qayıdan kimi, qoyulan məsələlər Prezident yanında müzakirə ediləcək və avtomobil yolu ilə bağlı məsələlər həll olunacaq, Naxçıvanda olan çətinliklər aradan qaldırılacaqdır.

**Heydər Əliyev:** Xahiş edirəm bütün naxçıvanlıların və Ali Məclisin salamını Azərbaycan Prezidentinə çatdırın. Mən və bütün Naxçıvan əhalisi onu Naxçıvana dəvət edirik. Qoy Naxçıvana gəlsin və bütün bu çətinlikləri görüb Naxçıvan üçün əlindən gələni əsirgəməsin. Biz buna əminik.

## HƏMRƏYLİK..., HƏMRƏYLİK

Bu gün bədxah qonşularımızın silahlı təcavüzünə məruz qalmış azərbaycanlılara həmrəylik hava və su kimi lazımdır. Haqq işə həmrəy olmaq hər bir namuslu adamın şərəfli borcudur. Lakin hər şeydən əvvəl biz öz qüvvəmizə, öz xalqımızın həmrəyliyinə arxalanmalıyıq. Keçən ildən başlayaraq qeyd olunan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bu işdə çox mühüm rol oynamalıdır.

Dekabrın 30-da respublikamızın hər yerində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü geniş qeyd edilmişdir. Bu əlamətdar gün münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla Naxçıvan ictimaiyyətinin nümayəndələri Şəhidlər xiyabanına gedərək torpaqlarımızın erməni təcavüzkarlarından qorunması uğrunda döyüşlərdə şəhid olanların xatirəsini yad etmiş, Naxçıvan MR Ali Məclisi, muxtar respublika Nazirlər Kabineti və şəhər Xalq Deputatları Məclisi adından əklil qoymuşlar. Naxçıvan Came məscidinin axundu Sultan Məhəmmədoğlu şəhidlərin ruhuna "yasin" surəsi oxumuşdur.

Həmin gün axşam C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş təntənəli yığıncaq keçirilmişdir. Yığıncaqda tarix elmləri namizədləri Vəli Baxşəliyev "Sərhəd hərəkatı Azərbaycan xalqının milli mübarizəsində yeni mərhələdir", Namiq Əliyev "Azərbaycan

türklərinin tarixi taleyi və müasir vəzifələrimiz" mövzularında çıxış etmişlər.

Söz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə verilmişdir. Heydər Əliyev demişdir: "Bu gün biz qürur hissi ilə qeyd edə bilərik ki, bu bayramın əsası məhz Naxçıvanda qoyulmuşdur. Üç il bundan öncə Naxçıvanda sərhəd qurğularının aradan götürülməsi ilə Arazın hər iki tayında yaşayan azərbaycanlıların bir-birinə qovuşmasının, 70 illik həsrətin aradan qaldırılmasının əsası qoyulmuşdur. Ondan sonra, təəssüf ki, bu hərəkata lazımi qiymət verilməmişdir. Bir il bundan öncə Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1991-ci ilin dekabr ayında 31 dekabr gününün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması haqqında qərar qəbul etmişdir və bizim hamımızın xatirindədir ki, həmin il dekabrın 31-də bu salonda həmrəylik gününü necə qeyd etmişik. İndi isə artıq Azərbaycan Prezidentinin bu ilin oktyabr ayında verdiyi fərman əsasında bu bayram bütün Azərbaycanda qeyd olunur. Şübhə yoxdur ki, bugünkü bayramı dünya azərbaycanlıları öz imkanları dairəsində qeyd edirlər.

Ona görə də bizim bu bayram haqqında danışmağımıza və bu bayramı iftixar hissilə qeyd etməyimizə tam əsasımız vardır. Bu bayramın böyük əhəmiyyəti həm də ondan ibarətdir ki, Azərbaycan artıq müstəqil dövlət quruculuğu prosesini əzmlə aparmaqdadır. Bütün bunlara görə də dünya azərbaycanlılarının həmrəyliyi indi Azərbaycan Respublikası üçün daha da əhəmiyyətlidir. Çünki müstəqilliyi əldə etmək heç də asan məsələ deyil. Lakin bu artıq faktdır. Azərbaycan müstəqil dövlətdir. Ancaq müstəqil dövlət qurmaq, onu möhkəmləndirmək və bu müstəqilliyi daimi etmək çox böyük səy, böyük fəaliyyət, genişmiqyaslı iş tələb edir. Bu yol böyük yoldur. Azərbaycan xalqı nəyin bahasına olursa-olsun bu yolla getməlidir. Bunun üçün də dünya azərbaycanlılarının həmrəyliyi son dərəcə mühüm əhəmiyyət kəsb edir. Bizim bu həmrəyliyə böyük ehtiyacımız var. Bu həmrəylik Azərbaycan Respublikasının müstəqilliyinin əsas təminatlarından biri olacaqdır. Biz həm dünya azərbaycanlılarının, həm də Azərbaycan Respublikasında olan bütün vətəndaşların həmrəyliyinə nail olmalıyıq."

Heydər Əliyev sözünə davam edərək demişdir ki, Azərbaycanın müstəqilliyi indi respublikanın bütün vətəndaşlarının, Azərbaycan xal - qının əlindədir. Tarixin bizə verdiyi bu fürsət ölçüyəgəlməz bir nemətdir. Bu müstəqilliyi əldə saxlamaq və möhkəmləndirmək hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Güman edirəm ki, Naxçıvan əhalisi bunun nə qədər böyük əhəmiyyətə malik olduğunu dərk edib bütün fəaliyyətini Azərbaycanın müstəqilliyini möhkəmləndirməyə yönəldəcək. Naxçıvan əvvəlki dövrlərdə olduğu kimi bu hərəkatın ön sıralarında gedəcəkdir. Bunun üçün şübhəsiz ki, Azərbaycanın sosial-iqtisadi problemləri həll olunmalıdır. Azərbaycan müharibə şəraitindən çıxmalıdır, itirilmiş torpaqlarımız geri qaytarılmalıdır, hər bir azərbaycanlının rahat və xoş güzəran keçirməsi üçün şərait yaradılmalıdır.

İndi Azərbaycanın dərin sosial-iqtisadi böhran içərisində olduğu bir vaxtda, respublikamızın müharibə şəraitində olduğu bir dövrdə bu problemlərin həll olunması çox çətindir. Lakin onlar həll olunmasa, Azərbaycan müstəqilliyini əldə saxlaya bilməz. Bu problemlər həll olunmasa, hər bir azərbaycanlı müstəqilliyin bəhrəsini görə bilməz. Ona görə də həmin problemlərin həll olunmasına hər bir vətəndaş, hər bir ictimai-siyasi qurum, Azərbaycanın hər bir bölgəsi öz payını verməlidir.

Bu baxımdan Naxçıvanda, blokada şəraitində yaşayan muxtar respublikada problemlərin daha çətin olması hamıya məlumdur. Belə bir vəziyyətdən çıxmaq üçün hamının birliyi, hamının həmrəyliyi indi ən böyük əhəmiyyət kəsb edir. İndi Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası üçün barışıq, birlik, həmrəylik, bir-birinə yardım ən əsas şərtlərdən biridir.

Azərbaycanın müstəqilliyini təmin etmək naminə hər bir adam öz səyini bugünkü problemlərin həllinə yönəltmişdir. Ancaq cürbəcür ittihamlar etmək, qarşıdurma yaratmaq, cürbəcür mənasız hərəkətlərə yol vermək heç kəsə xeyir gətirməyəcəkdir. Naxçıvan MR Ali Məclisi belə bir şəraitdə bütün imkanlardan istifadə edir və çalışır ki, Naxçıvanın əhalisi bu ağır dövrdən müəyyən qədər itkisiz və ağrısız çıxa bilsin.

Sərhədlərin götürülməsi bundan sonra da Türkiyə və İran İslam Respublikası ilə Azərbaycan arasında, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin genişlənməsini təmin etməlidir. Bunun üçün də biz çox işlər görürük. Bildiyiniz kimi mart ayının 24-də Türkiyə ilə böyük bir müqavilə bağlanıbdır və artıq o öz bəhrəsini verir. Məhz həmin müqavilə ilə ayrılmış kreditlə son 4-5 ay ərzində Naxçıvana xeyli ərzaq gətirilmiş, Naxçıvan əhalisinin bu məhsullarla müəyyən qədər təmin olunması həyata keçirilmişdir. Avqust ayının 24-də Tehranda İran İslam Respublikası ilə bağlanmış müqavilə əsasında bir çox tədbirlər həyata keçirilir. Elə, bu günün özü İran İslam Respublikasından Naxçıvana böyük bir nümayəndə heyəti gəlib. İranda fəaliyyət göstərən "Bonyade Mostezəfan və Canbazene Enqelabe Eslami" fondunun prezidenti ağayi Möhsen Rəfiqdust, onun müavinləri və həmkarları xüsusi təyyarə ilə Naxçıvana gəlmişlər. Ali Məclisdə onlarla görüş keçirilmiş, onların tərəfindən Naxçıvanda görüləcək işlər müəyyənləşdirilmişdir.

Bir sözlə, ötən 3 il ərzində gedən proseslərin məntiqi nəticəsi bundan ibarətdir və bu da şübhəsiz ki, Naxçıvan Muxtar Respublikasına çox böyük mənfəət verəcəkdir.

Bunların hamısı onu göstərir ki, bizim bugünkü bayram dünya azərbaycanlılarının həmrəyliyini təmin edərək eyni zamanda Azərbaycan Respublikası ilə İran İslam Respublikası, Türkiyə Respublikası arasında əlaqələrin daha da genişlənməsinə şərait yaradır. Bunlar da Azərbaycan Respublikasının müstəqilliyinin təmin edilməsi üçün əsas şərtlərdən biridir.

Heydər Əliyev çıxışının sonunda bütün Naxçıvan əhalisini bayram münasibətilə bir daha təbrik etmiş, onlara möhkəm cansağlığı, səadət, azərbaycanlıların həmrəyliyinin təmin edilməsi sahəsində yeni-yeni uğurlar arzulamışdır.

Yığıncağın rəsmi hissəsindən sonra bayram konserti olmuşdur.

*"Şərq qapısı" qəzeti, 6 yanvar 1993-cü il*

# MÖVLUD BAYRAMI

*1993-cü il yanvarın 7-də Həzrəti Əli əleyhissalamın mübarək doğum günü münasibətilə Naxçıvan Came məscidində keçirilən bayram mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin çıxışından:*

- Bu gün İslam aləmi üçün böyük, şərəfli və əlamətdar bir gündür. Bu gün Həzrəti Əli əleyhissalamın anadan olması gününü müsəlmanlar qeyd edir. Bu münasibətlə də biz Naxçıvan Came məscidinə toplaşmışıq. Mən buradan tək sizə yox, bütün Naxçıvan camaatına, Arazın o tayında olan müsəlman qardaşlarımızın hamısına müraciət edirəm və bu mübarək gün münasibətilə Sizi və bütün müsəlmanları səmimi qəlbdən təbrik edirəm.

Biz uzun illər dinimizdən məhrum olmuşuq. Bizim mənəvi mənbəyimiz, mənəvi köklərimiz çoxlarına o qədər də məlum olmayıb. Allahın köməkliyi ilə son illər Azərbaycan müsəlmanları, o cümlədən naxçıvanlı müsəlmanlar öz dinləri ilə birgə yaşamaq imkanı almışlar. Bizim üçün böyük sərvət olan, tükənməz mənəvi mənbə olan İslam dininə riayət edərək yaşayırlar. Bu, Azərbaycan müsəlmanları üçün çox böyük fürsətdir. Arzu edərdik ki, Naxçıvan Muxtar Respublikasında da bizim nəsildən olan insanların hamısı öz islam dinini dərindən bilsin. "Qurani-Kərim"in bütün ayələrinin mənasını dərindən dərk etsin. Hər bir müsəlman, hər bir naxçıvanlı nə qədər çox dinə müraciət etsə, "Qurani-Kərim"i dərindən öyrənsə o qədər də pak olacaq, o qədər də saf olacaq, öz Vətəninə, xalqına, millətinə sədaqətli olacaq, həyatı üçün yaxşı şərait əldə edəcəkdir.

Azərbaycan müsəlmanları son illər ağır bir dövr keçirirlər. Biz gavur düşmənlə müharibə şəraitindəyik, şəhidlər veririk, torpaqlarımızın bir hissəsi əlimizdən gedib. Biz öz varlığımızı, öz müstəqil dövlətimizi müdafiə etmək üçün müharibə aparırıq. Öz namusumuzu, şərəfimizi qoruyuruq, öz dinimizi qoruyuruq. Belə bir dövrdə adamların yaşayışı da çətinləşir. Ancaq bunların hamısı müvəqqəti bir dövrdür. Bu ağır dövr keçib gedəcək, biz Allahın köməkliyi ilə torpaqlarımızı geri

qaytaracağıq. Müstəqil Azərbaycan dövləti inkişaf edib möhkəmlənəcək və islam bayrağı altında bundan sonra bugünkü və gələcək nəsillər xoşbəxt yaşayacaqlar.

*"Şərq qapısı" qəzeti, 9 yanvar 1993-cü il*

## "NƏ HƏDƏLƏRDƏN, NƏ RƏZİL NİYYƏTLƏRDƏN QORXURAM"

**"Nezavisimaya qazeta" müxbirinin Heydər Əliyevlə müsahibəsi**

*– Heydər bəy, Yeni Azərbaycan Partiyasının yaranması və Sizin bu partiyaya rəhbər seçilməyiniz nəinki respublikanın kütləvi məlumat vasitələrində, habelə xaricdə böyük maraq oyadıb: müşahidəçilərin əksəriyyəti Sizin partiyanızda AXC-yə qarşı ciddi müxalifət görür. Bununla əlaqədar YAP-ın məqsədi və rolu haqqında nə deyə bilərsiniz?*

– YAP parlament tipli partiyadır. Və qəbul etdiyi proqrama uyğun olaraq Azərbaycanın dövlət müstəqilliyini möhkəmlətməyi, sivilizasiyalı, demokratik və bütün vətəndaşların milli, dini və dil mənsubiyyətindən asılı olmayaraq bərabərhüquqlu dövlət qurmağı öz qarşısına məqsəd qoyur. Lakin Azərbaycanın qarşısında duran ən mühüm və təxirəsalınmaz problemlərin həlli, yəni birinci növbədə, respublikanın artıq geniş miqyaslı xarakter almış müharibədən çıxması, Qarabağ probleminin həlli və çox ağır sosial-iqtisadi böhranın aradan götürülməsi ön plana çıxır.

Konstruktivlik, səriştəlilik, professionallıq və qanunçuluq partiyanın əsas prinsipləridir. Partiyanın Siyasi Şurasına Azərbaycanda yaşayan bütün millətlərin və etnik qrupların nümayəndələri - rus, yəhudi, talış, ləzgi, kürd, avar və başqaları daxil olmuşdur. Partiyanın roluna gəldikdə isə onun əzəldən müxalifət partiyası kimi yaradılması haqqında fikir yanlışdır, partiyanın əhəmiyyətinin həddindən artıq dar dərk edilməsidir. Partiya öz xalqının və dövlətinin rifahı naminə qarşısına daha böyük miqyaslı məqsəd və vəzifələr qoyur.

*– Heydər bəy, Siz Azərbaycandakı indiki siyasi vəziyyəti necə təhlil və xarakterizə edirsiniz?*

– Müsahibədə Azərbaycanın siyasi həyatında baş verən proseslərin dərin təhlilini əhatə etmək mümkün deyil. Lakin mən çalışaram ki, əsas tendensiyaları qısa da olsa şərh edim.

Artıq 5 ildir ki, Ermənistanla Azərbaycan arasında müharibə gedir. Azərbaycan ərazisinin bir hissəsini itirib, Ermənistanla həmsərhəd olan bir çox kəndlər və şəhərlər dağıdılıb, minlərlə həmvətənlərimiz həlak olub, şikəst edilib, işgəncələrə məruz qalıblar. 100 minlərlə insan ağır güzəran keçirir. Ölkə həddən artıq maddi və mənəvi zərər çəkib. Ən dəhşətlisi də budur ki, bu faciənin sonu görünmür. Bir il bundan əvvəlki kimi, bu gün də Azərbaycan rəhbərliyinin Qarabağ problemi haqqında konkret və dəqiq konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur. Belə təsəvvür yaranır ki, Qarabağ zonasında və başqa sərhəd rayonlarında hərbi əməliyyatlar başlı-başına buraxılıb. Onu da deyim ki, Qarabağ probleminin siyasi həllinin bütün imkanları tam tükənməyib. Onlardan təcili istifadə edib üzücü və qanlı müharibəyə son qoyulmalıdır.

Ölkənin siyasi həyatında isə bütün dövlət strukturlarında faktiki iqtidarda olan AXC-nin monopoliyası hökm sürür. Halbuki xalq ona bu səlahiyyəti həvalə etməyib. Bütün vəzifələr yeganə prinsip AXC-yə mənsubiyyət əsasında bölüşdürülür. Özü də nə səriştəyə, nə də professionallığa, hətta adi savada belə heç bir əhəmiyyət verilmir. Bu nəinki səhv, eyni zamanda xalqımızın gələcəyi üçün böyük təhlükəyə aparan yoldur.

Mən bizim indiki siyasətçilərin çoxlarının savadsızlığına təəccüb qalıram. Bəzən onların danışıq tərzi və fikirləri cəfəng səslənir. Hərf tanımayanlar əlifba öyrədirlər. Siyasətçilər arasında attestasiya keçirilmir. Sizi inandırım ki, özlərini siyasətçi adlandıran hakimiyyətə yiyələnmişlərin çoxu bu attestasiyadan keçməzdilər. Ən xoşagəlməzi budur ki, öz fəaliyyətlərində antidemokratik, bəzən isə terror üsulundan istifadə edənlər özlərini demokrat adlandırırlar. Bu isə demokratiya ideyasının özünü dəyərsizləşdirir və buna görə də xalq arasında “demokrat” sözünün təhqiramiz səslənməsi təəccüb doğurmur.

*– Sizin rəqibləriniz irad tuturlar ki, keçmiş kommunist partiyasının rəhbəri kimi siz demokrat ola bilməzsiniz.*

– Bu geri qalmış təfəkkürün əlamətidir. Məgər sosialist partiyasının lideri olduğuna görə Fransanın Prezidenti Mitteranın demokratlığına şübhə etmək olarmı? Öz dövlətlərində demokrat prinsipləri həyata keçirən Yeltsin, Kravçuk, Nazarbayev və Brazauskas haqqında da eyni sözləri demək olar. Ümumiyyətlə, cəmiyyəti bu prinsiplə bölmək, yaxşı nəticəyə gətirməyəcək. Tarixin dərslərini, cəmiyyətin qırmızı və ağlara bölünməsinin nəyə gətirdiyini unutmaq olmaz. Keçmişə irad insanların bölgüsündə əsas tutulmağa layiq olan meyar deyil. Demokratiyaya gəldikdə isə mən öz müxaliflərimə tez-tez tarixə və fəlsəfəyə müraciət etməyi, demokratiyanın mənasını və incəliklərini dərk etməyi məsləhət görərdim. Demokratiyanın bir əlaməti - xalqın hakimiyyəti ilə məhdudlaşmaq demək deyil. O, 20-ci əsr ərzində öz təşəkkülünü tapmış, sınaqdan keçmişdir. Demokratiya dövlət prinsipləri və etika qaydaları kompleksindən ibarətdir. Bu təcrübəyə məhəl qoymamaq olmaz. Onu da deyim ki, yüksək mənəviyyat, siyasi mədəniyyət və məsuliyyət olmayan yerdə əsl demokratiya qeyri-mümkündür.

*– İndi Milli Məclisdə müstəqil Azərbaycan Konstitusiyasının qəbulu haqqında müzakirələr gedir. Sizin fikrinizcə, indiki parlamentin yeni Konstitusiya qəbul etməyə səlahiyyəti varmı?*

– Müstəqil Azərbaycanın yeni Konstitusiyasının qəbul olunması dövlət hakimiyyətinin demokratik institutlarının formalaşmasında çox mühüm hadisədir. Yeni Konstitusiya qəbul olunmamış hüquqi dövlətin bünövrəsi qoyula bilməz. İndi qüvvədə olan Konstitusiya keçmiş ittifaqın konstitusiyasının əksi olaraq və son zaman qəbul olunmuş əlavə dəyişikliklərə baxmayaraq müstəqil ölkənin qarşısında duran müasir tələblərə cavab vermir. Lakin yeni Konstitusiyasının qəbul olunması fövqəladə mühüm aktdır. Bunu qəbul etməyə Milli Məclisin ixtiyarı yoxdur. Onun hətta indi qüvvədə olan Konstitusiyaya hər hansı dəyişiklik və əlavə etməyə səlahiyyəti yoxdur. Milli Məclisin Azərbaycanın ən ali orqanı kimi fəaliyyət göstərməsi demokratik prinsiplərin kobudcasına pozulması deməkdir. 350 deputat olduğu halda, 50 deputatdan ibarət Milli Məclis əslində bütün qalan deputatları öz hü -

quqlarından məhrum edir. O, antikonstitusion orqandır və Azərbaycan seçicilərinin cəmi yeddidə birini təmsil edir. Buna görə mən Ali Sovetin çağırılmasını, deputatlara öz vəzifələrini yerinə yetirməyə imkan yaradılmasını, Ali Sovetin, o cümlədən Milli Məclisin buraxılması məsələsinə baxılmasını və yeni növbədənkənar parlament seçkilərinin keçirilməsini zəruri hesab edirəm. Bu təkcə mənim yox, Naxçıvan MR Ali Məclisinin fikridir. Ali Məclis 25 oktyabrda belə qərar qəbul edib və qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Ali Sovetinə və Prezidentinə müraciət edib. Yalnız Ali Sovet kimi ölkənin bütün əhalisini təmsil edən qanunverici orqanın yeni konstitusiya layihəsinə baxmağa və ümumxalq müzakirəsindən sonra qəbul etməyə səlahiyyəti var. Bu gün isə respublika faktiki olaraq Ali qanunverici orqandan məhrum edilir.

*– Bu ilin oktyabrında Naxçıvanda baş vermiş ciddi siyasi böhran hamının yadındadır. Siz bu hadisəni necə şərh edərsiniz?*

– Həqiqətən, bu il oktyabrın 24-də Naxçıvanda demokratiyaya və Konstitusiyaya tam zidd hadisələr baş vermişdir.

Naxçıvan ölkənin qanunları çərçivəsində öz Konstitusiyasına və hüquqlarına malik olan muxtar respublika kimi Azərbaycanın ayrılmaz hissəsidir. Bunun tam aydın olmasına baxmayaraq, AXC-nin Naxçıvan şöbəsinin rəhbərliyi öz qeyri-qanuni silahlı dəstələrinin gücü ilə oktyabrın 24-də Naxçıvan DİN-in və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını zəbt etmişdilər. Onlar şənbə günündən və işdə növbətçidən başqa digər əməkdaşların olmamasından istifadə etmişdilər. Naxçıvanın Xalq Cəbhəsi yeganə məqsəd güdürdü - dövlət çevrilişi etmək və hakimiyyəti ələ keçirmək. Vəziyyət çox gərgin idi. Naxçıvan hakimiyyətinin Xalq Cəbhəsinin qeyri-hüquqi hərəkətlərinə son qoymaq haqqında dəfələrlə xəbərdarlığı müsbət nəticəyə gətirmədi. Prezident Ə. Elçibəylə mənim telefon danışıqlarım da təsiredici nəticə vermədi. Bunlar təbii olaraq xalqın etirazına səbəb oldu.

Naxçıvan Ali Məclisinin binasının müdafiəsinə meydana 30 mindən çox əhali toplanmışdı. Onlar Xalq Cəbhəsinin qeyri-qanuni hərəkətlərini müsbət qarşılamadılar. Elə şərait yaranmışdı ki, qan tökülə, vətəndaş müharibəsi başlana bilərdi. Biz öz tərəfimizdən hadisələrin bu cür cə -

rəyan etməməsi üçün lazımi tədbirlər gördük. Bir neçə saatdan sonra Xalq Cəbhəsinin silahlı dəstələri xalqın təzyiqi altında DİN və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını tərk etməyə məcbur oldular. Bu hadisələr Naxçıvanda vəziyyəti gərginləşdirdi. Xalq Cəbhəsi onsuz da son zamanlar aşağı olan nüfuzunu tamamilə itirdi.

İndi əhali arasında Xalq Cəbhəsinə qarşı hədsiz mənfi münasibət yaranır. Biz bu hadisəni Naxçıvan Ali Məclisində müzakirə etdik. Deputatlar onu dövlət çevrilişinə cəhd kimi qiymətləndirdilər. Bizim qərarımız mətbuatda dərc olunub. Respublikanın Prezidentinə, Ali Sovetinə və Nazirlər Kabinetinə göndərilib. Amma bir aydan çox vaxt keçməsinə baxmayaraq Azərbaycan rəhbərliyi indiyədək öz münasibətini bildirməyib.

Azərbaycan Konstitusiyasına və qanununa hökmən əməl etməyinə and içməyinə baxmayaraq Ali rəhbərliyin nəinki Naxçıvan Ali Məclisinin qərarına və hətta qanuni seçilmiş hakimiyyəti antikonstitusion silahlı yolla devirmək cəhdinə biganəliyi haqlı təəccüb doğurur.

*– Heydər bəy, AXC-nin Bakıda keçirilmiş növbədənkənar ikinci qurultayının qətnaməsində Naxçıvan rəhbərliyinin separatizminin qarşısını alması haqqında və Naxçıvan MR-in Konstitusiyasının Əsas Qanununa uyğunlaşdırılması haqqında ölkə rəhbərliyi qarşısında tələb qoyulub. Bu barədə nə deyə bilərsiniz?*

– Təəssüf ki, yanlış ehtimallar əsasında tamamilə düşünülməmiş qərar qəbul olunub. Birincisi, Naxçıvan rəhbərliyinin və hakimiyyət orqanlarının fəaliyyətində heç bir separatizm yoxdur. Bundan başqa bizim fəaliyyətimizdə separatizm olduğunu sübut edən konkret dəlillər gətirməsini rəqiblərimdən tələb edirəm. Birtərəfli ittiham şəraitində siyasi damğa vurmaq köhnə və xoşagəlməz fənddir.

Mən öz siyasi rəqiblərimi televiziya ilə bütün xalq qarşısında açıq və mərdanə dialoqa çağırıram. Onda kimin kim olduğunu xalq özü görər.

İkincisi, Azərbaycanın və Naxçıvan MR-in Konstitusiyaları arasında heç bir ziddiyyət yoxdur və Naxçıvan Ali Məclisi bütün bu suallara tam məsuliyyətlə cavab verməyə hazırdır. Mənə belə gəlir ki, qətnamədəki bu müddəaların müəllifləri subyektiv fikirlərinə əsaslanaraq, ədalətdən və demokratiyadan uzaq öz şəxsi məsələlərini görürlər. Həmin qu -

rultayda Naxçıvan MR-də xalq tərəfindən qanuni seçilmiş hakimiyyətə qarşı vandalizmə, terrora, onun zorla devrilməsinə çağırışlar da səslənmişdir. İyirmi dörd oktyabrda baş tutmayan qiyamdan başlayaraq qurultayda davam edən terrora çağırışlar bir ssenarinin davamıdır.

Olduqca xoşagəlməz bütün bu faktlar AXC-nin demokratik hüquqi dövlət qurmaq niyyətinin səmimiyyətinə, yumşaq desək şübhə yaradır və belə bir siyasi istiqamət xalqımızı uçuruma gətirə bilər.

*– Naxçıvan Ali Məclisinin bu yaxınlarda qəbul etdiyi qərarına görə şəxsən Sizə qarşı terrorçuluq və həyatınıza sui-qəsd cəhdləri olmuşdur.*

– Bəli, bu haqda MR Ali Məclisinin qərarı var. Bu aksiyalara görə bütün məsuliyyət Naxçıvan Xalq Cəbhəsinin və Azərbaycan rəhbərliyinin üzərinə qoyulub.

*– Heydər bəy, bir insan kimi həyatınız üçün yaranmış təhlükədən qorxmursunuzmu?*

– Xeyr, Sizə bunu tam səmimiyyətlə deyirəm. Mən nə hədələrdən, nə də rəzil niyyətlərdən qorxmuram. Mən çoxdan siyasətçiyəm. Siyasi həyatda belə hallar da olur. Ümidvaram ki, bu niyyət sahibləri haqq yoluna qayıdacaqlar. Tarixin bizə demokratik və əsl hüquqi bir cəmiyyət qurmağa imkan verdiyi bir dövrdə siyasi mübarizənin yalnız mədəni üsullarından istifadə edilməlidir. Ağlın və zehnin gücü, professionallıq və nəhayət, müdriklik siyasi mübarizənin əsas vasitələri olmalıdır.

*– Prezident Ə. Elçibəy açıq çıxışlarında İranın daxili və xarici siyasətini tənqid etmişdir. Eyni zamanda Naxçıvan rəhbərliyi İranla fəal əməkdaşlıq edir. Bakının və Naxçıvanın xarici siyasətə müxtəlif mövqelərdən yanaşmasından nə danışmaq olar?*

– Mən bu sualın məzmunu ilə tam razı deyiləm. Naxçıvanın heç bir müstəqil xarici siyasəti ola bilməz. Bu, Azərbaycanın yeritdiyi xarici siyasət haqqında öz mövqeyini və ona münasibətini bildirmək hüququna malikdir. Bizim fikrimizcə, Azərbaycan özünə geopolitik vəziyyətini nəzərə alaraq dərin düşünülmüş və ehtiyatlı siyasət yeritməlidir. Azərbaycan qonşu ölkələrlə yalnız xoş münasibət yaratmağa çalışmalıdır. Bu hər bir dövlətin xarici siyasətinin əsas qanunudur.

Naxçıvana gəldikdə isə, biz 6 aydır ki, blokadadayıq. Dəmiryol əlaqələri, enerji, yanacaq və respublikanın başqa həyat təminatı ehtiyacı-

nın Azərbaycandan göndərilməsi kəsilmişdir. Belə ağır şəraitdə biz böhran vəziyyətindən həmsərhəd İran və Türkiyə ilə iqtisadi əlaqələr hesabına çıxırıq. İrandan bu yaxınlarda enerji və başqa yanacaq ehtiyatlarının təchizi başlanıb.

Artıq 4 aydır ki, Naxçıvan ərzağa öz minimal tələbatını demək olar ki, Türkiyənin muxtar respublikaya ayırdığı kredit, ondan aldığı mallar hesabına ödəyir.

Zənnimcə, bizim bu əlaqələrimiz Azərbaycanın xarici siyasətinə zərrə qədər də zidd deyil. İran və Türkiyə ilə səmimi qonşuluq münasibəti Azərbaycana yalnız xeyir gətirə bilər.

*"Şərq qapısı" qəzeti, 27 yanvar 1993-cü il*

## HEYDƏR SİZİN ÜÇÜN QAYDAR DEYİL

Azərbaycanın keçmiş kommunist liderinin partiyası özünə sürətlə tərəfdar yığır.

Respublikada böyük sayda partiyalar meydana gəlmişdir. Həmin partiyaların reytinqi liderlərinin məşhurluğu və nüfuzu ilə müəyyən edilir. Onları elə belə də adlandırırlar - "İsa Qəmbərovun partiyası", "Etibar Məmmədovun partiyası", "Heydər Əliyevin partiyası" və i.a.

Sonuncu respublikada ən cavan və eyni zamanda ən kütləvi partiyadır. Bu partiyaya qəbul olunmaq üçün 100 mindən artıq adam ərizə vermişdir. Bu rəqəmi Əliyev özü partiyanın Naxçıvanın Şahbuz rayonundakı konfransında gətirmişdir. Yeni Azərbaycan Partiyası sədrinin müavini, Bakı Dövlət Universitetinin dosenti Əli Nağıyev əmindir ki, seçkilər ərəfəsində partiyanın üzvləri 300 mindən az olmayacaq.

Qeyri-rəsmi, lakin yoxlanılmış məlumatlara görə "cəbhəçilər" tərəfindən kənarlaşdırılmış və özlərinin qalan günlərini qohumlarının və yaxınlarının dairəsində keçirmək istəməyən keçmiş partiya-dövlət elitasının bir çox nümayəndələri də bu partiyaya qoşulmuşlar. Azərbaycanın rusdilli əhalisi də Əliyevin tərəfindədir. Elmi və yaradıcı ziyalılar ona rəğbət bəsləyir, böyük müəssisələrin "möhkəm əl" və qanun-

qayda tərəfdarı olan direktorları onun həsrətini çəkirlər. Belə ki, siyasi müşahidəçilərin fikrincə əgər parlament seçkiləri demokratik normalara riayət edilməklə keçirilərsə Heydər Əliyevin və onun tərəfdarlarının qalib çıxacağı tam ehtimal olunur.

**Elmira AXUNDOVA**

*"Literaturnaya qazeta", 3 fevral 1993-cü il*

## ALİ MƏCLİSDƏ GÖRÜŞ

Fevralın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini, Prezidentin səlahiyyətli nümayəndəsi Afiyəddin Cəlilovla birlikdə buraya gəlmiş respublika nazirlik və baş idarə rəhbərlərinin böyük bir qrupu ilə görüşmüşdür.

Heydər Əliyev son 9 ayda Ermənistan Respublikasının blokadaya aldığı Naxçıvan Muxtar Respublikasının düşdüyü ağır sosial-iqtisadi vəziyyət barədə danışmışdır. Ali Məclisin Sədri göstərmişdir ki, ərazidə Azərbaycandan ayrı düşən Naxçıvanın bütün kommunikasiya əlaqələri pozulub, Azərbaycandan ərzaq və yanacaq gətirmək çətinləşib. Əhali İrandan və Türkiyədən alınan yardımlar hesabına yaşayır. Bunlar isə tükənmək üzrədir.

Muxtar respublikanın xalq təsərrüfatı ciddi böhran keçirir. Xammal və material gətirilmədiyindən sənaye müəssisələri, tikinti təşkilatları işləmir. Texnika üçün ehtiyat hissələri və yanacaq olmadığına görə kənd təsərrüfatı işləri vaxtında görülməmişdir. Kənd yerlərində və şəhərdə 50 min nəfərdən çox işsiz var. İşləməyənlərə minimum əmək haqqı verilməsi problemə çevrilmişdir.

Heydər Əliyev məlumat vermişdir ki, fevralın 4-də Naxçıvana gələn Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Riçard Mayls onun Bill Klintona məktubundan sonra Ağ evin Naxçıvan Muxtar Respublikasına humanitar kömək göstərməsi barədə qərar verdiyini bildirmişdir. Bundan başqa fevralın 2-də Naxçıva-

na gəlmiş Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəsi doktor Mahmud əl-Səid və Türkiyə Respublikasının səfiri Altan Karamanoğlu da ərzaq yardımı göstərilməsi ilə əlaqədar lazımi məlumatlar istəmişlər. Heydər Əliyev əlavə etmişdir ki, naxçıvanlılar zəhmətsevərdir və heç də həmişə yardımlar hesabına yaşamayacaqlar. İndi əsas məqsəd daxili imkanlar hesabına vəziyyətdən çıxış üçün şərait yaratmaqdır.

Azərbaycan Respublikasının rabitə naziri Sirus Abasbəyli, respublika Yanacaq Komitəsinin sədrinin birinci müavini Daşqın Ağalarov, İqtisadiyyat və Planlaşdırma Komitəsi sədrinin birinci müavini Səməd Sadıqov, material ehtiyatları nazirinin müavini Tofiq Məmmədov, Sənaye-Tikinti Birliyinin rəisi Səyyad Allahverdiyev, muxtar respublika Ali Məclisi sədrinin müavini Qafar Məmmədov, Ali Məclisin şöbə müdiri Fəxrəddin Şirzadov, muxtar respublikanın Baş naziri Şəmsəddin Xan-Babayev və başqaları həlli vacib olan məsələlər barədə fikir mübadiləsi etmişlər.

Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini, Prezidentin səlahiyyətli nümayəndəsi Afiyəddin Cəlilov irəli sürülən təkliflərə münasibətini bildirərək bütün imkanların səfərbər edilməsi zərurətindən danışmışdır.

Horadiz-Aslandüz-Culfa yolunun ahəngdar işləməsinin təmin edilməsi, Horadiz stansiyasında yük bazasının yaradılması, Xoy-Culfa qaz kəmərinin çəkilişi ilə əlaqədar görülən işlər barədə muxtar respublika Ali Məclisinin Sədri Heydər Əliyevə ətraflı məlumat verilmişdir.

Naxçıvana gələn respublika nazirlik və baş idarələrinin rəhbərləri vəziyyəti yerindəcə öyrənmək üçün muxtar respublikanın rayonlarında, sənaye və tikinti təşkilatlarında olmuşlar.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*Naxçıvan şəhəri, 6 fevral 1993-cü il*

## HEYDƏR ƏLİYEV: "MƏN DAĞLIQ QARABAĞ PROBLEMİNİN HƏLLİNDƏ ÖZ İŞTİRAKIMI TƏKLİF ETDİM..."

Muxtar respublikanın rəhbəri bu sözləri fevralın 8-də Yeni Azərbaycan Partiyası Culfa rayon təşkilatının təsis konfransında demişdir.

Heydər Əliyev böyükdən kiçiyə qədər bütün Azərbaycan xalqını narahat edən Dağlıq Qarabağ probleminin həlli barədə təkliflə respublika Ali Sovetinin birinci sessiyasında çıxış edərkən ona qarşı süni müxalifət yaradan rəhbərlik, əslində vaxtında qaldırılan problemin müzakirəsinə imkan verməmişdir. Partiya konfransının nümayəndələri qarşısında çıxış edən Heydər Əliyev demişdir: "Mən o vaxt bu təklifi verməklə bir vətəndaş kimi öz təcrübəmi, millət vəkili kimi Dağlıq Qarabağ probleminin həllində öz iştirakımı təklif edirdim"...

Muxtar respublikanın rəhbəri bildirmişdir ki, Dağlıq Qarabağ xalqın ümumi milli faciəsidir. Erməni işğalını aradan qaldırmaq üçün hamı əl-ələ verib, birgə fəaliyyət göstərməlidir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*Naxçıvan şəhəri, 8 fevral 1993-cü il*

*QAN YADDAŞIMIZA*

## HEYDƏR ƏLİYEVƏ QARŞI ERMƏNİLƏRİN MÜBARİZƏSİ TARİXİNDƏN

Dünyada türk liderlərini öldürmək, onlara sui-qəsd etmək məqsədilə yaradılmış "ASALA" terror təşkilatının siyahısında birinci yerdə YAP-ın sədri Heydər Əliyev, ikinci yerdə sədrin müavini Ziya Bünyadovun adları durur.

Xalqımızın ləyaqətli oğlu Heydər Əliyev hələ keçmiş SSRİ-də Nazirlər Soveti Sədrinin birinci müavini işləyərkən bədnam "Qarabağ"

təşkilatının liderlərindən İqor Muradyan ona göndərdiyi hədə, təhqir dolu məktubunda yazırdı:

"...Əliyev, mən sizi Naxçıvanda, DQMV-də və Azərbaycanda ermənilərə qarşı genosid siyasətinin həyata keçirilməsində müqəssir hesab edirəm. 1920-1980-ci illərdə əvvəlcə Müsavat hökuməti, sonra isə Azərbaycan partiya və dövlət rəhbərliyinin erməni əhalisinə qarşı apardığı genosid siyasəti Sizin dövrünüzdə misli görünməmiş tərzdə güclənmişdir".

Daşnak İ. Muradyan məktubunda tarix boyu erməni terrorçularının məşhur türk xadimlərini necə qətlə yetirdiklərindən fəxrlə danışır, deyir ki, "Babək Səhl Sumbatın qəsdinin qurbanı olub. Aram Yergenyan Fətəli xan Xoyskini qətlə yetirib. N. Nərimanovun, 1937-ci il qurbanlarının çoxunun faciəli taleyinə mikoyanların, sarkisyanların, mirzoyanların hiylələri ilə son qoyulub. Növbəti hədəf Heydər Əliyevdir". İ. Muradyan məktubunu bu sözlərlə bitirib: "Siz yaşamalısınız, Əliyev, əvvəl-axır müttəhimlər kürsüsündə oturmaq üçün yaşamalısınız".

Hörmətli ağsaqqallar, ağbirçəklər! Xalqımın, millətimin ər igidləri! Başı son illərdə müsibətlər çəkən Vətən övladları! Gəlin onu yadımıza həkk edək ki, Heydər Əliyev keçmiş Siyasi Bürodan çıxarılandan bir neçə gün sonra Zori Balayan Ermənistanda çıxan jurnalda belə bir mövzuda məqalə dərc elətdirmişdi: "Heydər Əliyev getdi, bəs indi nəyi gözləyirsiniz?".

Z. Balayan Qorbaçova yazdığı açıq məktubda və Ermənistanda çıxan "Kommunist" qəzetində çap olunmuş "Arsağın arzuları və ümidləri" məqaləsində Heydər Əliyevə açıq-aşkar düşmən olduğunu bildirmişdir.

Mənim əzizlərim! Unutmayın ki, hələ 1987-ci ilin martında "Vozni" adlı jurnalın redaktoru, şair, qatı antitürk Aramais Saakyan oxucularla görüşündə Qarabağla bağlı suala belə cavab vermişdi: "Qarabağ məsələsinə başlamazdan əvvəl yuxarıdakı türk paşasının (yəni Heydər Əliyevin) məsələsini həll etmək lazımdır".

İllər ötdü, ermənilərin xəyanət planı öz işini gördü. İndi dövr dəyişib, başqa zamandır. Ağsaqqal sözünə, təcrübəli diplomat bacarığına daha çox ehtiyacımız var.

Çox təəssüf ki, hazırda iqtidarda bəzi “iqtidarsız” və “başsız” başçılar da Heydər Əliyevə münasibətdə ermənilərdən geri qalmır, düşmən dəyirmanına su tökürlər.

Bütün bunlardan sonra dərindən, daha dərindən düşünməyə dəyər. Həzrəti Məhəmməd əleyhissalam demişdir: “Kiçiyimizə rəhm etməyən, böyüyümüzə hörmət qoymayan bizdən deyil”.

**Abutalıb QASIMOV**
**YAP-ın Culfa rayon təşkilatının**
**1 №-li bülletenindən**

*Naxçıvan şəhəri, mart, 1993*

## 12 mart 1993-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin yanında keçirilən müşavirənin PROTOKOLU

**Heydər Əliyev:** Mənim Bakıda Prezidentlə görüşlərim oldu. Bu, təbii bir məsələdir. Biz istərdik ki, Əbülfəz Elçibəy Naxçıvana gəlsin, lakin onun imkanı olmadı. Bizim söhbətimiz Naxçıvanın ağır problemləri və onun bu vəziyyətdən çıxarılması barədə oldu. Biz qışı keçirdik. Qabaqdan yaz gəlir. Heç kim istəməzdi ki, biz bu vəziyyətə düşək. Əbülfəz bəylə də bu barədə ətraflı söhbət etdik və Naxçıvanın tam təmin olunması haqqında danışdıq. Hələlik dəmir yolu bağlıdır. Nə vaxt açılacaq, məlum deyil. Horadizdən yol açıldı. Maşınlar hərəkət etməyə başladı. Lakin yenə də çətinliklərimiz var. Biz İrandan un və buğda alırıq. Bu imkanlardan tam istifadə etməliyik. Mən Bakıda Amerikanın, Fransanın, Türkiyənin, İranın, İngiltərənin və Rusiyanın səfirləri ilə görüşdüm. Geniş söhbət etdik. İngiltərənin Moskvadakı səfiri ilə söhbətdə o dedi ki, əgər Amerika Naxçıvana yardım edirsə, biz də Naxçıvana kömək etmək istəyirik. Səfir dedi ki, Siz çox ağır vəziyyətdə yaşayırsınız. Fransanın səfiri ilə söhbət zamanı o dedi ki, biz də Naxçıvana köməklik edəcəyik. Mən öz növ-

bəmdə çatdırdım ki, əgər Ermənistanın blokadada olmasından danışırsınızsa, Naxçıvan ondan da pis vəziyyətdədir. Birləşmiş Millətlər Təşkilatı qərar qəbul etmişdir ki, Ermənistana köməklik göstərilsin. Əgər əsas səbəb blokada şəraitidirsə, deməli Naxçıvana da köməklik göstərilməlidir. Bill Klinton belə qərar qəbul edib ki, Naxçıvana yardım olunsun. Bunun siyasi əhəmiyyəti çox böyükdür. Bizə yardım etməklə Prezident konqresin qərarını pozur. Bizim təbliğatımız çox zəifdir. Təbliğatımız elə əvvəldən zəif olub. Hazırda Moskvada yüksək vəzifələri ermənilər tutur. Rusiyanın 3 naziri ermənidir. Amerikada, İngiltərədə və Fransada ermənilərin nüfuzu çox böyükdür. Litvada Ermənistan cəmiyyəti yaranıb. Bizdə isə imkan olmayıb. Özümüz bu işlərlə az maraqlanırıq. Bizimkilərin bazarlarda alver etmələri Azərbaycan haqqında çox mənfi təsəvvür yaradır. Biz müxtəlif ölkələrdə özümüzü lazımi qədər təbliğ edə bilmirik. Ermənilər bizim torpaqları işğal ediblər. Bir sıra bədxah adamlar çalışırlar Naxçıvanı Bakıdan ayrı salsınlar. Mən Naxçıvana qayıdan kimi Türkiyənin Baş naziri Süleyman Dəmirəllə danışdım. Çalışacağıq kreditin qalanını da bizə versinlər ki, buna ərzaq məhsulları alaq. İran da bizə yardım edəcəkdir. 2 gün bundan əvvəl İrandan 60 ton un gəldi. Bu danışıqlar əsasında axır ki, İrandan 300 ton un və 270 ton buğda aldıq. Yanacaq da gəlir. İran bizə heç bir işi müftə görmür. Azərbaycan bunların əvəzinə İrana yanacaq məhsulları verir. Mən İranın başçılarına və Azərbaycana çatdırdım ki, Siz elə etməlisiniz ki, bizdə heç olmasa bir aylıq ehtiyat olsun. Çalışmalıyıq un, buğda və yanacağı tez gətirək.

**Məmməd Abbasov** (Baş nazirin birinci müavini): Biz nəzərə almışıq ki, bayramla əlaqədar adambaşına 1 kq düyü, 1 kq yağ, 1 kq şəkər tozu, 0,5 kq qənd verilsin. Kənd əhalisinə də ərzaq verilməsi nəzərdə tutulub. Novruz bayramı münasibətilə şəhid ailələrinə də yardım nəzərdə tutulub.

**Heydər Əliyev:** Qoy Nazirlər Kabinetində təşkil edilmiş komissiya televiziya vasitəsilə əhaliyə məlumat versin.

Nazirlər Kabinetinə tapşırılsın ki, maşınların bir yerə yığılıb mal gətirmələri üçün lazımi tədbirlər görsün.

**Məmməd Abbasov:** Amerikadan yardım alındı. Onların mütəşəkkil surətdə invertarizasiyası aparıldı. 146 adda dərman ləvazimatı gətirilib. Təklif verilib ki, çernobılçılara və bəzi təşkilatlara dərmanlar pulsuz verilsin. Qalanı əhaliyə satılsın.

**Heydər Əliyev:** Yaz gəlir. Kənd təsərrüfatı işləməlidir. Biz tez bir vaxtda bu məsələni geniş müzakirə etməliyik. Ona görə də Məmməd Abbasova tapşırılsın, müəyyən tədbirlər hazırlasın və Ali Məclisin müzakirəsinə çıxarsın. Bu, nə qədər tez olsa, bizim üçün bir o qədər xeyirlidir.

Komissiyanın sədri dərmanların satılması və verilməsi barədə tədbirlər hazırlasın və bu məsələni bizim müzakirəmizə çıxarsın.

## "TƏKCƏ ONDAN RAZIYAM Kİ, ÖZÜMDƏN NARAZIYAM"

### (Təəssüf ki, dövlət katibimiz bunun əksini fikirləşir)

*AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT KATİBİ PƏNAH HÜSEYNOVA AÇIQ MƏKTUB*

Hörmətli Pənah bəy!

Respublika mətbuatı Naxçıvana çox gec-gec, ayda bir-iki dəfə gətirilir. Ona görə də Sizin "Müxalifət" qəzetinə verdiyiniz müsahibə əlimə düz bir ay sonra keçdi və dərhal ona cavab yazmağı qərara aldım. Bir qədər gec olduğu üçün Sizdən üzr istəyirəm.

Mənə məlumdur ki, Sizdə Naxçıvan muxtariyyətini ləğv etmək haqqında fikirlər çoxdan formalaşıb. Bu barədə hələ keçən ilin noyabrında M.Ə. Rəsulzadə adına Bakı Dövlət Universitetindəki görüş zamanı çıxışınızda öz mülahizələrinizi bildirmisiniz. O zaman buna cavab verməyə ehtiyac duymadım. Fikirləşdim ki, vaxt ötdükcə həyat özü Sizi bu ideyanın nə dərəcədə təhlükəli olduğu qənaətinə gətirər. Amma, "Müxalifət" qəzetinin 4 fevral 1993-cü il tarixli nömrəsində "Özüm haqda həmişə yüksək fikirdə olmuşam" sərlövhəli müsahibənizi oxuyanda əmin oldum ki, yanılmışam. Həmin müsahibədə Naxçıvan Respublikasının muxtariyyət statusunu müəyyən edən müqavilənin (qəribədir ki, Siz Qars müqaviləsinin adını çəkmirsiniz) nə vaxtsa Azərbaycan torpaqlarının qorunmasında müsbət cəhətləri olduğunu etiraf etsəniz də, sonrakı mühakimənizdə əhalinin, o cümlədən Naxçıvan camaatının unitar dövlət quruluşu formasına səs verdiyinə əsaslanaraq öz köhnə konsepsiyanıza haqq qazandırırsınız.

Hörmətli Pənah bəy! Heç kim katibi olduğunuz dövlətin unitar quruluş formasında inkişafına etiraz etmir. Hamımız müstəqil və qüdrətli dövlət tərəfdarıyıq. Dövlət müstəqilliyimiz haqqında Konstitusiya aktında da bu müddəaya səs vermişik. Amma orada yazılmayıb ki, spesifik xüsusiyyətləri ilə fərqlənən Naxçıvanın muxtariyyətini hökmən ləğv etməliyik. Unitar dövlət yaratmağa Naxçıvanın muxtariyyətini ləğv etmək hesabına nail olmaq yolverilməzdir. Bir də onu yaxşı yadda saxlamalıyıq ki, müsahibədə dediyiniz "nə vaxtsa" yox, elə bu günlərdə Naxçıvanda və onun sərhəd

kəndlərində nisbi sakitliyin olması, bu qədim torpağın erməni tapdağına çevrilməməsi, əhaliyə Türkiyə tərəfindən yardım edilməsi Qars müqaviləsinin qüvvədə olmasının, yaşamaq hüququnun nəticəsidir.

Azərbaycan rəhbərliyi (xüsusilə də Sizin kimi ixtisasca tarixçi olanlar) yaxşı bilməlidirlər ki, respublikanın tərkibində Naxçıvanın muxtar qurum kimi qalması onu unitar dövlət çərçivəsindən çıxarıb federativ dövlətə çevirmir. Dünya ölkələrinin, xüsusilə də keçmiş SSRİ ərazisində yaradılmış respublikaların təcrübəsi də bunu sübut edir. Bir tarixçi kimi Sizin bundan xəbəriniz olmalıdır.

Naxçıvanın statusunun dəyişdirilməsi ən azı aşağıdakı dəlillərə görə mümkün deyil:

1. Naxçıvanın muxtariyyəti daxili müqavilə ilə yox, beynəlxalq müqavilə (13 oktyabr 1921-ci il, Qars müqaviləsi) ilə təsdiqlənib.

2. İstər Qars, istərsə də onun əsasını təşkil edən Moskva müqaviləsində (Rusiya ilə Türkiyə arasında dostluq və qardaşlıq haqqında) Naxçıvanın muxtar statusu ilə bağlı çox aydın fikirlər yazılıb. Onları Sizə xatırlatmağı lazım bilirəm: Moskva müqaviləsi, maddə 3 - "Razılığa gələn hər iki tərəf Naxçıvan vilayətinin hazırkı müqavilənin 1 (s) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın protektoratlığı altında muxtar ərazi yaratmasına razıdırlar, o şərtlə ki, Azərbaycan bu protektoratlığı üçüncü dövlətə güzəştə getməməlidir".

Qars müqaviləsi, maddə 5 - "Türkiyə hökuməti, Sovet Ermənistanı və Azərbaycan hökumətləri Naxçıvan vilayətinin hazırkı müqavilənin III əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi yaratmasına razıdırlar".

3. Beynəlxalq hüquq normalarına görə müqavilə iştirakçısı olan dövlətlərin razılığı olmadan Naxçıvanın muxtariyyət statusunu dəyişmək qəti qadağandır.

4. Naxçıvanın muxtar statusu xüsusi mahiyyət kəsb edir. Onun muxtariyyəti milli-etnik yox, sırf siyasi amillərlə şərtlənib. Naxçıvanın özünəməxsus geopolitik və çoğrafi mövqeyi vardır. Bu muxtariyyət tarixi zərurətin məhsuludur.

5. Fəaliyyət dövrü məhdud olmayan Qars müqaviləsinin Azərbaycan tərəfdən qüvvədən salınması ermənilərə xidmət etmək olardı. Çünki er-

mənilər bunu çoxdan istəyirlər. Professor Həmid Əlioğlu haqlı olaraq yazır: “Mübaliğəsiz demək olar ki, ifrat erməni millətçilərinin Qars müqaviləsini qüvvədən salmaq üçün dəfələrlə müxtəlif hiylələrə əl atmasına baxmayaraq bu tarixi sənəd 70 ildir özünün həyat vəsiqəsini daşıyır”.

Hörmətli dövlət katibi!

İndi Siz deyin: Biz Qars müqaviləsini birtərəfli qaydada ləğv etmək fikrinə düşməklə ermənilərin 70 illik arzularını dövlət səviyyəsində həyata keçirmirikmi, düşmən dəyirmanına su tökmürükmü?

Bütün bunlar sübut edir ki, Naxçıvanın muxtar statusunu ləğv etməyə Azərbaycan rəhbərliyinin və Milli Məclisin həm beynəlxalq baxımdan, həm də hüquqi cəhətdən ixtiyarı yoxdur. Moskva və Qars müqavilələri dünya miqyasında tanınan, illərlə mühasirədə qalan Naxçıvanın indiki tarixi taleyi üçün əvəzsiz əhəmiyyəti olan sənədlərdir, beynəlxalq müqavilələrdir.

Hörmətli Pənah bəy! Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana konvensiyasının 26-cı maddəsinə görə “qüvvədə olan hər bir müqavilə onun iştirakçıları üçün məcburidir və onlar tərəfindən vicdanla yerinə yetirilməlidir”. Bu konvensiyaya əsasən müqavilə iştirakçıları müqavilə şərtlərinin yerinə yetirilməməsinə, daxili çətinliklərə istinad etməklə haqq qazandıra bilməzlər.

İndi sual olunur: bizə kim ixtiyar verib ki, beynəlxalq aləmdə müstəqillik yolunda hələ kövrək addımlarımızı atdığımız hazırkı zamanda bu konvensiyanın tələblərini pozaq? Yoxsa, Azərbaycanı beynəlxalq aləmdən təcrid olunmuş bir məkanda hesab edirik? Bəlkə kimlərinsə gələcək siyasi məqsədləri naminə ermənilərin Naxçıvana yersiz torpaq iddiasını unutmuşuq?

Unutmayın ki, bu gün mühasirədə qaldığından çörəyə möhtac olan, lampaya tökməyə belə neft tapa bilməyən, soyuqdan donmamaq üçün meyvə ağaclarını kəsib yandıran naxçıvanlıların taleyinə soyuq münasibət bəsləmək, onların əsəbləri ilə oynamaq və muxtariyyətlərini ləğv etmək haqqında fikirlər söyləmək hələ yaxşı dövlət katibi olmaq demək deyil!

Naxçıvan düşmən əhatəsindədir, dardadır. Ona beynəlxalq qaydalara görə ABŞ, Türkiyə, İran dövlət və hökumət başçıları hər cür yar-

dım edir, qayğı göstərir, əl tuturlar. Siz isə bu cür müsahibələrinizlə biz naxçıvanlılara kömək əvəzinə dərd-qəm yedirdir, sonu görünməyən siyasi oyunlara cəlb edirsiniz!

Sizin siyasi qısqanclıq xatirinə verdiyiniz və naxçıvanlıların tarixi taleyini "hərrac bazarına" aparıb çıxara bilən bu müsahibəniz bizə çox mətləbləri açıqladı. Bildik ki, müdrik babalarımızın dediyi "ağacı öz içindən qurd yeyər" məsəli azad, müstəqil və demokratik Azərbaycan adlı qüdrətli bir dövlət qurduğumuz hazırkı zamanda da öz əhəmiyyətini saxlamaqdadır.

Bir də o nəticəyə gəldik ki, Pənah bəyin müsahibədə dediyi "özüm haqda həmişə yüksək fikirdə olmuşam" sözləri onun çağdaş Azərbaycan milli demokratik hərəkatında xidmətləri müqabilində çox azdır. O elə etməli, elə uzaqgörən və müdrik siyasət yeritməlidir ki, katibi olduğu dövlətin əhalisi, eləcə də Naxçıvan camaatı Pənah bəy cənabları haqqında həqiqətən yüksək fikirdə olsunlar.

**Abutalıb QASIMOV,**
**tarix elmləri namizədi,**
**Naxçıvan Dövlət Universitetinin elmi katibi**

*"Naxçıvan" qəzeti, 16 mart 1993-cü il*

*"NAXÇIVANDAN OLAN TƏRKİ-DÜNYA"*

## ƏLİYEV BAKININ KÜÇƏLƏRİNDƏ GÖRÜNMÜŞDÜR

Heydər Əliyevin respublikanın paytaxtına gəlməsi və onun Azərbaycan Prezidenti Ə. Elçibəylə təklikdə səkkiz saatlıq söhbəti çoxlu hay-küyə və dedi-qoduya səbəb olmuşdur.

Hələ lap bu yaxınlarda Naxçıvanla rəsmi Bakı münasibətlərində son dərəcə ciddi gərginlik var idi. AXC-nin axırıncı qurultayında Naxçıvan parlamentinin başçısı kimi Heydər Əliyevin fəaliyyəti kəskin tənqid olunmuş, daxili işlər naziri İ. Həmidov isə əslində Əliyevi zorla vəzifəsindən kənarlaşdırmağa çağırmışdır.

Heydər Əliyev Xalq Cəbhəsinin yerli rəhbərlərinin onun olmamasından istifadə edərək hakimiyyəti zorla ələ keçirməyə cəhd göstərəcəklərindən ehtiyat edib, bir gün də olsun Naxçıvandan kənara çıxmamışdır. Hətta böyük qardaşının dəfninə belə gəlməmişdir.

Lakin qəflətən belə kəskin dəyişiklik - respublika rəhbərləri ilə intensiv siyasi məsləhətləşmələr, Amerikanın, Fransanın, İngiltərənin, Türkiyənin, İranın diplomatik nümayəndəliklərinin başçıları ilə görüşlər "Naxçıvandan olan tərki-dünya"ya öz ehtiramlarını göstərmək həsrətində olan izdiham. Heydər Əliyevin Bakının küçələrində görünməsi elə bir ajiotaja səbəb olmuşdur ki, bundan narahat olan iqtidar onun gəzinti yerlərinə güclü polis dəstələri cəmləşdirmişdir.

Əliyevlə yaxın olan şəxslərin verdikləri məlumatlara görə Prezidentlə danışıqlar zamanı Əliyevin böyük siyasətə qayıtması və onun dövlət vəzifələrindən birini tutması imkanları müzakirə edilmişdir.

**Elmira AXUNDOVA,**
**"Literaturnaya qazeta"nın müxbiri**

*Bakı, 17 mart 1993-cü il*

## SIÇRAYIŞA HAZIRLAŞAN KİMDİR?

Azərbaycanın iqtidarı Prezident Elçibəyin Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyevə Baş nazir vəzifəsini təklif etməsi haqqında məlumatı təkzib etmirlər. Ehtimala görə bu təklif fevralın 12-də Elçibəy - lə Əliyevin Prezident sarayında görüşü zamanı edilmişdir. Azərbaycanın bu iki siyasi xadimi birinci dəfə idi ki, görüşürdülər və Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra bu, Heydər Əliyevin Bakıya ilk səfəri idi.

Elçibəylə söhbətdən sonra Əliyev, özünün dediyi kimi, xəstələnmiş qızını və nəvəsini görmək üçün Moskvaya uçdu. Qayıdandan sonra o yenidən Prezidentlə və parlamentin spikeri İsa Qəmbərovla, həmçinin İranın, Türkiyənin, Rusiyanın və ABŞ-ın səfirləri ilə görüşmüşdür. O, yerli jurnalistlərə demişdir ki, Naxçıvana humanitar yardım göstərilməsi üçün diplomatlarla razılıq əldə edilməsinə çalışır.

Əhalinin həyat səviyyəsinin aşağı düşməsinə və Qarabağ cəbhəsində müvəffəqiyyətsizliklərə görə günahlandırılan Xalq Cəbhəsinin nüfuzu aşağı düşdükcə Əliyevin tərəfdarları çoxalır. “Möhkəm əl” tərəfdarları əvvəllər də Əliyevi bütün problemlərin açar-kilidi hesab edirdilər. Onların arqumentləri belədir: - Əliyev iqtisadiyyatı böhrandan çıxarmağa, siyasi qüvvələri birləşdirməyə qabil olan təcrübəli təsərrüfatçı və güclü siyasətçidir. Əliyevin əleyhdarları (prezidentin ətrafındakılar da onların içərisindədir) belə hesab edirlər ki, Əliyevin hakimiyyətə gəlməsi kommunist nomenklaturasının revanşı və demokratiyanın sonu deməkdir. Onlar qorxurlar ki, Elçibəy daha hökmlü və təcrübəli siyasətçinin təsiri altına düşə bilər. Xalq Cəbhəsinin üzvlərinin əksəriyyəti Əliyevi Moskvanın adamı adlandırır və belə hesab edirlər ki, onun gəlişi ilə çox sürməyən müstəqillik dövrü sona yetəcəkdir.

Azərbaycan tərəfi belə hesab edir ki, Moskva əvvəlki kimi yenə də iqtisadi və hərbi sahədə Azərbaycanın Rusiyadan asılı olmasından istifadə edərək Bakıdakı siyasətçilərin fəaliyyətini idarə etmək istəyir. Son vaxtlar iki respublika arasında bağlanmış müqavilədə nəzərdə tutulmuş malların və xammalın Rusiyadan göndərilməsinin pozulması halları artmışdır. Hərbi məsələlərdəki asılılığa gəldikdə isə Azərbaycan siyasətçiləri Rusiya hərbiçilərinin Qarabağ müharibəsində fəal iştirak etdiklərini söyləyirlər. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə Qarabağın şimalında milli ordunun hissələrinə qarşı hücum əməliyyatlarında Ermənistanda yerləşən 127-ci Gümrü diviziyasının 128-ci motoatıcı polkunun bölmələri iştirak edir. Rusiyanın Müdafiə Nazirliyi bu məlumatları təkzib edib. Cəbhədəki məğlubiyyətlər katalizator kimi siyasi prosesləri və siyasi fiqurların dəyişilməsini sürətləndirir.

1993-cü ilin baharı Azərbaycanın siyasətinə hansı yeniliklər gətirəcək və Heydər Əliyev açıq surətdə ona qoşulacaqmı? Yəqin ki, biz tezliklə bunu biləcəyik.

**Sanobar ŞERMATOVA,**
*“Moskovskiye novosti”, № 12, 21 mart 1993-cü il*

**Muxtar respublikanın kənd təsərrüfatı istehsalı sahəsində 1992-ci ilin yekunları, 1993-cü ildə qarşıda duran vəzifələr haqqında**

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, son illər xalq təsərrüfatının bütün sahələrini əhatə edən böhran 1992-ci ildə daha da dərinləşmişdir. Əvvəllər vahid xalq təsərrüfatı kompleksi kimi xüsusi idarəetmə orqanları vasitəsilə tənzimlənən iqtisadi əlaqələrin dağılması, yeni əlaqələrin yaranmaması isə xalq təsərrüfatında, o cümlədən onun tərkib hissəsi olan kənd təsərrüfatında da ağır vəziyyət yaratmış, fəaliyyətləri bir-birindən asılı olan müəssisələrin əlaqələri kəsilmişdir.

Ötən ilin əvvəllərində həyata keçirilən bazar iqtisadiyyatı siyasəti aqrar sahəni ağır vəziyyətə salmışdır. Kənd təsərrüfatı maşınlarının, xammal və materiallarının qiymətlərinin kəskin surətdə artması, təsərrüfatların hesablarında olan vasitələrin isə inflyasiya nəticəsində dəyərinin aşağı düşməsi kolxoz və sovxozların, həmçinin kənd əhalisinin maliyyə vəziyyətinə ağır zərbə vurmuş, 1991-ci ilin sonunadək öz məhsulunu ucuz qiymətə satan kəndli ilin əvvəlindən birdən-birə ciddi maliyyə böhranına düşmüşdür.

Qeyd etmək lazımdır ki, digər regionlardan fərqli olaraq 1991-ci ilin dekabr ayından təbii qazın, 1992-ci ilin aprel ayından dəmir yolunun, iyul ayından isə elektrik enerjisinin Ermənistan tərəfindən tamamilə kəsilməsi muxtar respublikanın iqtisadiyyatına, onun əsasını təşkil edən kənd təsərrüfatı istehsalı sahəsinə daha ağır zərbə vurmuşdur.

Muxtar respublikanın uzun müddət iqtisadi blokada şəraitində olması kolxoz və sovxozların, kənd təsərrüfatının emal müəssisələrinin təchizatını pozmuş, onların maşın-mexanizmlərlə, ehtiyat hissələrlə, yanacaqla, gübrələrlə, kimyəvi maddələrlə, tara materialları ilə təminatını hədsiz dərəcədə ağırlaşdırmışdır. Elektrik nasosları altında olan 20 min hektara yaxın əkin sahəsinin suvarılması mümkün olmamışdır.

Şərab və şərab məhsullarının ixrac edilməməsi onun keyfiyyətinin aşağı düşməsinə, təsərrüfatlardan, əhalidən qəbul edilən üzümün müqabilində vəsaitin ödənilməməsinə və emal müəssisələrinin ziyanla işləməsinə səbəb olur. Eyni vəziyyət quru tütün yarpağının ixrac edilməsində də yaranmışdır.

Ötən il mal-qaranın yaylaqlara çıxarılmaması, Azərbaycanın digər rayonlarından muxtar respublikaya qaba və qüvvəli yemin gətirilməməsi, taxılın olmaması ilə əlaqədar taxıl məhsulları kombinatının tam gücü ilə işləməməsi heyvandarlığa ciddi ziyan vurmuş, mal-qara arasında tələfatın artmasına səbəb olmuşdur.

Muxtar respublikanın sərhəd kəndlərinə Ermənistan tərəfindən edilən silahlı basqınlar, əmələ gəlmiş ağır vəziyyəti daha da kəskinləşdirmişdir. Sədərək, Yuxarı Yaycı, Cağazir, Havuş, Günnüt, Yuxarı Buzqov, Kərməçataq, Şada, Biçənək kəndlərinə edilən basqınlar kənd təsərrüfatına xeyli ziyan vurmuşdur. Əhali öz doğma yerlərindən qaçqın düşmüş, onların arasında yaralananlar, ölənlər olmuşdur. Ümumiyyətlə, həmin kəndlərdə kənd təsərrüfatı istehsalı prosesi pozulmuşdur. Sədərəyin, Yuxarı Yaycının təsərrüfatlarında taxıl zəmilərinin bir hissəsi biçilməmiş, Sədərək kəndindəki 1 nömrəli şərab emalı zavodu tamamilə, 2 nömrəli şərab emalı zavodu isə qismən sıradan çıxmışdır.

Muxtar respublikanın Ali Məclisi, Nazirlər Kabineti, aid nazirlik və baş idarələri, müvafiq dövlət və kənd təsərrüfatı orqanları mövcud vəziyyətdən çıxış yolları axtarmış, ehtiyat mənbələrindən, daxili imkanlardan istifadə etməklə kənd təsərrüfatı sahəsində müəyyən işlərin görülməsinə nail olmuş, sahənin tamamilə iflicə uğramasının qarşısını almışlar.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə Türkiyə Respublikası hökuməti arasında 24 mart 1992-ci il tarixdə Ankarada imzalanmış işbirliyi protokoluna əsasən muxtar respublikaya bir milyon Amerika dolları dəyərində verilən mal-material yardımı kənd təsərrüfatını böhranlı vəziyyətdən çıxarmış, məhsul istehsalına öz həlledici təsirini göstərmişdir.

Digər ən mühüm dövlət tədbirlərindən biri muxtar respublika Ali Məclisi və İran İslam Respublikası hökuməti arasında 24 avqust 1992-

ci il tarixdə Tehranda imzalanmış protokol olmuşdur. Bu protokola və İran İslam Respublikasının rəhbərləri ilə aparılan danışıqlara əsasən İran İslam Respublikası ərazisindən keçməklə Naxçıvanla Bakı arasındakı şose yolu istifadəyə verilmiş, muxtar respublikanın xalq təsərrüfatında, o cümlədən kənd təsərrüfatı sahəsində iqtisadi fəlakətin qarşısı alınmışdır. Hazırda həmin protokola görə yaz tarla işləri üçün zəruri olan yanacağın və kənd təsərrüfatı bitkilərinin toxumlarının əldə olunması həyata keçirilir. Mart ayının 31-nə muxtar respublika üzrə 800 hektar sahədə yazlıq taxıl, 100 hektar vələmir, 40 hektar yonca, 300 hektar şəkər çuğunduru əkini aparılmışdır.

Qeyd etmək lazımdır ki, keçən ilin böhranlı vəziyyəti Ali Məclisin sessiyalarında, Rəyasət Heyətində, Nazirlər Kabinetində vaxtaşırı təhlil olunmuş, müvafiq qərarlar qəbul edilmiş, gərgin vəziyyətdən çıxış yolları müəyyənləşdirilmişdir. Məhz qəbul olunmuş qərarlar nəticəsində Azərbaycan Respublikasının Milli Məclisi, respublika Nazirlər Kabineti muxtar respublikanın vəziyyəti ilə əlaqədar bir neçə dəfə məsələ müzakirə etmiş, vəziyyətdən çıxış üçün müvafiq təşkilati tədbirlər müəyyənləşdirmişdir.

Həyata keçirilən tədbirlər nəticəsində ötən il muxtar respublikanın ictimai təsərrüfatlarında 25424 ton taxıl, 2952 ton tütün, 1638 ton tərəvəz, 22486 ton üzüm, 596 ton meyvə, 2165 ton ət, 4173 ton süd, 4 milyon 263 min ədəd yumurta istehsal edilmiş, istehsal prosesi dayanmamışdır. Təsərrüfatçılığın yeni formaları - kəndli təsərrüfatları, kənd təsərrüfatı ilə məşğul olan kooperativlər, kiçik müəssisələr yaranmışdır.

Muxtar respublika Ali Məclisinin Rəyasət Heyəti, həmçinin qeyd edir ki, 1992-ci ildə ayrı-ayrı kolxozlarda, sovxozlarda mövcud ehtiyat mənbələrindən və daxili imkanlardan lazımınca istifadə edilməmiş, təsərrüfatsızlıq hallarına, dövlət və kooperativ mülkiyyətinin mənimsənilməsinə yol verilmişdir.

Muxtar respublika Ali Məclisinin, muxtar respublika Nazirlər Kabinetinin kənd təsərrüfatı sahəsində islahatların keçirilməsinə dair qəbul olunmuş qərarları Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi, onun yerli orqanları, rayonların xalq deputatları məclisləri və onların icraiyyə komitələri tərəfindən yarıtmaz yerinə yetirilmişdir. Ayrı-ayrı təsərrüfatların

mal-qarası əhaliyə satılmış, lakin onların əsasında şəxsi və ya kəndli təsərrüfatı yaradılmamışdır. Bu kimi hallara bütün rayonlarda yol verilmişdir. Hətta Şahbuz rayonunun Biçənək təsərrüfatında rayon xalq deputatları məclisi İcraiyyə Komitəsinin qərarı olmadan mal-qara əhaliyə satılmış, təsərrüfatın fəaliyyətinin dayanmasına baxmayaraq onun mülkünün bölünməsi və digər məsələlər müəyyən olunmuş qanunla həyata keçirilməmişdir.

Kənd təsərrüfatı istehsalı sahəsində baş verən neqativ hallara yol verilməsinin qarşısını almaq məqsədilə Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi tərəfindən əsaslı tədbirlər görülməmişdir.

Nazir Y. Vəliyev Ali Məclisin 18 fevral 1992-ci il tarixli qərarından özü üçün lazımi nəticə çıxarmamış, nazirliyə məqsədyönlü rəhbərlik etmək əvəzinə, bir sıra qeyri-qanuni hallara yol vermişdir.

Narahatlıq doğuran hal odur ki, bir sıra təsərrüfatlarda aparılmış yoxlamalarda mal-qara və heyvanların xeyli miqdarı kəsir gəlmişdir. Culfa rayonunun Əbrəqunus sovxozunda 615 baş, Ordubad rayonunun Unus və Kələki kəndlərini əhatə edən "Kommunizm" kolxozunda 494 baş, Dırnıs kəndini əhatə edən XXII partiya qurultayı adına kolxozda 58 baş, Şərur rayonunun Kəngərli, Günnüt sovxozlarında 57 baş, Babək rayonunun Azərbaycan, Böyükdüz kolxozlarında 41 baş xırda buynuzlu heyvan kəsirliyi aşkar olmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. "Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı istehsalı sahəsində 1992-ci ilin yekunları, 1993-cü ildə qarşıda duran vəzifələr haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin məlumatı nəzərə alınsın.

2. Muxtar respublikanın kənd təsərrüfatı istehsalı sahəsində 1993-cü ildə qarşıda duran vəzifələrin həyata keçirilməsi ilə əlaqədar Nazirlər Kabinetinin tədbirlər planı icra üçün qəbul edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetindən, kənd təsərrüfatı ilə məşğul olan nazirlik və baş idarələrdən, rayon xalq deputatları məclislərindən, onların icraiyyə komitələrindən tələb edilsin ki, 1992-ci ildə kənd təsərrüfatı sahəsində buraxılmış nöqsanların aradan

qaldırılması, cari ildə məhsul istehsalının artırılması üçün bütün imkanlardan səmərəli istifadə etməklə bu sahədə konkret tədbirlər görsünlər.

Yaz tarla işlərini vaxtında başa çatdırmaq məqsədilə yaz əkinləri üçün şumun, toxum tədarükünün, arx və kanalların, su nasoslarının təmirini, texnikanın yaza hazırlığının qısa müddətdə başa çatdırılmasını təmin etsinlər.

Heyvandarlığın yem bazasının möhkəmləndirilməsi, ictimai və şəxsi təsərrüfatlardan mal-qaranın baş sayının, heyvandarlıq məhsullarının istehsalı və tədarükünün artırılması üçün təsərrüfatlara yaxından əməli köməkliklər göstərsinlər.

4. Naxçıvan Elektrik Şəbəkələri Müəssisəsi, Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Nazirliyi kənd təsərrüfatı əkinlərinin suvarma suyu ilə təmin edilməsi üçün elektrik enerjisindən səmərəli istifadə etməklə su nasoslarının normal işini təşkil etsinlər. Türkiyə Respublikasından daxil olan enerjinin gərginliyinin artırılması məqsədilə respublika təşkilatı ilə birliyə müvafiq transformatorun gətirilməsini təmin etsinlər.

5. Muxtar respublika Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi, rayon xalq deputatları məclisinin icraiyyə komitələri və onların yerli təşkilatları kənd təsərrüfatının bütün sahələrində aqrotexniki tədbirlərin vaxtında, düzgün aparılması, yetişdirilmiş məhsulun itkisiz yığılmasını, emal və tədarük təşkilatlarına göndərilməsi işini mütəşəkkil təşkil etsin, hər bir təsərrüfatda möhkəm əmək intizamı yaratsın, torpaqdan səmərəli istifadə edilməsinə nail olsunlar.

6. Muxtar respublika Ali Məclisinin 6 aprel 1991-ci il tarixli "Rentabelli işləyən kolxoz və sovxozların mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarının rayon xalq deputatları məclisləri və onların icraiyyə komitələri tərəfindən yarıtmaz yerinə yetirildiyi qeyd edilsin.

7. Tapşırılsın Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə, rayon xalq deputatları məclislərinə, onların icraiyyə komitələrinə, rayonların kənd təsərrüfatı və ərzaq idarələrinə "Kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 4 aprel 1992-ci il tarixli və muxtar respublika Ali Məclisinin 6 aprel 1992-ci

il tarixli “Zərərlə işləyən təsərrüfatların ləğv edilməsi və şəxsi təsərrüfatların yaradılması haqqında” qərarlarının qanunauyğun surətdə həyata keçirilməsini təmin etsinlər. İlk növbədə dağlıq ərazidə yerləşən, ziyanla işləyən kiçik təsərrüfatlarda islahatın keçirilməsi məqsədəuyğundur.

8. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə tapşırılsın ki, kənd təsərrüfatının bütün sahələrində ailə, icarə podratı, əməkhaqqı və əməyin təşkili formalarını tətbiq etsin, mütərəqqi formaların tətbiqinə mane olan halları aradan qaldırsın. Bu məqsədlə nazirlikdə münaqişə komissiyasının yaradılması tövsiyə edilsin.

9. Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq Komitəsinə torpaqların şoranlaşdırılmasının, dağıdılmasının qarşısını almaq məqsədilə qısa müddətdə torpaqların inventarizasiyasını başa çatdıraraq, torpaqlardan səmərəli istifadə edilməsi yolları haqqında təkliflər verməsi tapşırılsın.

10. Kənd təsərrüfatı istehsalı proseslərinin pozulması üçün işin ahəngdar təşkilində mühüm rol oynayan yanacaqla təsərrüfatların təmin edilməsi Nazirlər Kabineti və Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin başlıca vəzifələri hesab edilsin.

11. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə, Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinə, Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə, Milli Banka tapşırılsın ki, yaranmış kəndli təsərrüfatına, kənd təsərrüfatı kooperativlərinə və şirkətlərinə kreditlər verilməsinə, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə əməli köməklik göstərsinlər.

12. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, İqtisadiyyat və Planlaşdırma Komitəsi muxtar respublika əhalisinin ərzaq məhsullarına, xüsusilə taxıla olan tələbatını nəzərə alaraq, rayonların yerli orqanları ilə birlikdə yeni əkin strukturunu hazırlasınlar.

13. Muxtar respublika Nazirlər Kabinetinə, Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinə muxtar respublikada kənd təsərrüfatının idarə edilməsinin müvafiq strukturunu hazırlayıb Ali Məclisə təqdim etməsi tapşırılsın.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetindən xahiş edilsin ki, muxtar respublikada şəkər çuğundurunun istehsalının artırılmasına olan

münasibət nəzərə alınaraq şəkər zavodunun tikintisinin plana salınmasına müvafiq köməklik göstərsin.

15. Naxçıvan Muxtar Respublikasının hüquq mühafizə orqanları kənd təsərrüfatı məhsullarının dağıdılmasının qarşısının alınması məqsədilə təsərrüfat orqanlarına yaxından köməklik göstərməli, bütün neqativ hallara qarşı qətiyyətli tədbirlər görməlidirlər.

16. Naxçıvan Muxtar Respublikası Prokurorluğu Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi tərəfindən özəlləşdirmə aparılmış təsərrüfatlarda yoxlamaların yekunlarını araşdırıb dövlətə dəyən ziyanın ödənilməsini təmin etməklə, görülmüş işlər barədə vaxtaşırı Ali Məclisə məlumat versin.

17. Muxtar respublikanın radio, televiziya və mətbuat orqanlarına tapşırılsın ki, kənd təsərrüfatı işlərinin gedişini, əməyin mütərəqqi formalarının tətbiqini müntəzəm işıqlandırsınlar.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 2 aprel 1993-cü il*

## BÜTÜN QÜVVƏLƏRİ BİRLƏŞDİRMƏLİ, HƏR İŞİ VAXTINDA GÖRMƏLİ

Naxçıvan Muxtar Respublika Ali Məclisi Rəyasət Heyətinin aprelin 1-də keçirilmiş geniş iclasında "Muxtar respublikanın kənd təsərrüfatı istehsalı sahəsində 1992-ci ilin yekunları, 1993-cü ildə qarşıda duran vəzifələr" və "Qış dövründə kəsilmiş ağacların yenidən bərpası sahəsində şəhər, rayon, kənd və qəsəbə xalq deputatları məclislərinin, onların icraiyyə komitələrinin vəzifələri" haqqında məsələlər müzakirə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev müzakirələrə yekun vurarkən demişdir ki, son illər Azərbaycanda kənd təsərrüfatı çox ağır vəziyyətə düşmüşdür. İqtisadiyyatın bütün sahələ-

ri kimi kənd təsərrüfatında da böhran ilbəil dərinləşir. Bu da Azərbaycan Respublikası əhalisinin ərzaqla və respublika sənayesinin bir çox sahələrinin xammalla təchiz olunmasına mənfi təsir göstərir. Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan MR-in kənd təsərrüfatı da eyni vəziyyətə düşmüşdür. Biz bu gün etiraf etməliyik ki, muxtar respublikada kənd təsərrüfatının vəziyyəti ümumən Azərbaycandakı vəziyyətdən daha da ağırdır. Bunun əsas səbəbi muxtar respublikanın bir ilə yaxın blokada şəraitində yaşamasıdır.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da son illər kənd təsərrüfatı cürbəcür dağıdıcı hallara məruz qalmışdır. Belə ki, bugünkü blokada şəraitində əldə olan imkanlardan lazımınca istifadə olunmamışdır. Ona görə də biz indi çox ağır vəziyyətdəyik. Yaranmış vəziyyətin səbəbləri göz qabağında olsa da, bəzi məqamlar üzərində dayanmaq lazımdır.

Azərbaycanın, o cümlədən Naxçıvan MR-in kənd təsərrüfatı uzun illər böyük potensiala malik olmuşdur. Kolxozlar, sovxozlar, ümumi kənd təsərrüfatı sahəsi iqtisadi və siyasi quruluşun məzmunundan asılı olmayaraq, əhalinin ərzaq məhsulları ilə təmin olunmasında çox böyük rol oynamışlar. Son 5-6 ildə isə kənd təsərrüfatı sahəsində gerilik davam etmiş, axır 2-3 ildə bu geriləmənin sürəti daha da artmış və nəhayət, indi qeyd etdiyimiz kimi, dərin böhran vəziyyətinə düşmüşdür.

Bu da aydındır ki, belə bir vəziyyətin yaranması bir ictimai-iqtisadi, siyasi quruluşdan başqa quruluşa keçməklə əlaqədardır. Lakin təəssüf ki, bizdən asılı olmayan bəzi səbəblərə görə keçid prosesi həddindən artıq uzanmış, bu proses lazımi səviyyələrdə, dairələrdə, respublika, o cümlədən Naxçıvan MR üzrə tənzimlənməmiş, müəyyən qədər özbaşınalıq xarakteri almış, ona görə də əldə olan böyük kənd təsərrüfatı potensialı ilbəil, aybaay, günbəgün dağılmağa məruz qalmışdır.

Kolxoz və sovxozların ləğv olunması, kənd təsərrüfatında özəlləşmə aparılması, mülkiyyət münasibətlərinin dəyişdirilməsi prosesi baş vermişdir. Bu məsələ bir günün, bir ayın, bir ilin işi olmayıb, müəyyən proqram üzrə aparılmalı və uzun illər ərzində yaranmış iqtisadiyyatın dağılmasına yol verməməli idi. Bir tərəfdən kolxoz və sovxozlardan imtina etmək təklifləri irəli sürülmüş, digər tərəfdən isə onların

saxlanmasının zəruriliyi bildirilmişdir. Bizim muxtar respublikanın timsalında götürsək, bir daha qeyd etmək lazımdır ki, kolxoz, sovxoz quruluşunun nə cür yaranması, nə yolla yaranması və nə qədər düzgün və ya qeyri-düzgün olaraq yaranmasını kənara qoyaraq qeyd etmək lazımdır ki, bu quruluş yaranandan indiyədək, o cümlədən Naxçıvanın kənd təsərrüfatında böyük dəyişikliklər baş vermiş, həm adamların yaşayışı üçün, həm də respublikanın iqtisadiyyatı üçün böyük sərvət toplanmışdır.

Əgər iqtisadi quruluş aqrar bölmədə də dəyişməli idisə və əlbəttə, dəyişilməlidir, bunu təkamül yolu ilə, islahatların planlı şəkildə keçirilməsi ilə, ardıcıllıqla etmək lazım idi. Onda əldə olunan bu sərvətlər dağılmazdı, yeni iqtisadi quruluş öz səmərəsini verərdi, əhali, kənd təsərrüfatı və ümumiyyətlə, respublikanın iqtisadiyyatı bu cür ağır vəziyyətə düşməzdi.

Heydər Əliyev demişdir: "Biz keçən ilin aprel ayında qərar qəbul etdik ki, qeyri-rentabelli təsərrüfatlar ləğv edilsin, kolxoz və sovxozlarda olan mal-qara əhaliyə satılsın və beləliklə də kənd təsərrüfatı sahəsində mülkiyyət formalarının dəyişilməsinə, yeni bir sistemə keçilməsinə başlanılsın. İndi məlum olur ki, hələ kolxoz və sovxozlar ləğv olunmamalıdır, torpağı bölməkdə çətinliklər var, paylanan mal-qaranın çox hissəsi kəsilib satılıb və s. Ona görə də bir daha qeyd etmək lazımdır ki, bir quruluşdan başqa bir quruluşa keçmək üçün əldə olan sərvətləri dağıtmaq olmaz. Lakin çox təəssüf ki, bunlar dağıdılır. İndi başlıca vəzifə olub-qalanı qoruyub saxlamaqdır. Bir halda ki, Azərbaycanın rəhbərliyi qərar qəbul edib ki, kolxoz və sovxozlar hələ qalmalıdır, buna əməl etmək lazımdır. Eyni zamanda burada bəzi fikirlər söylənildi ki, kiçik, qeyri-rentabelli təsərrüfatların saxlanılmasına ehtiyac yoxdur. Bu da düzdür, biz bu yolla gedə bilərik."

Bizdə mal-qaranın ümumi sayı azalmış, eyni zamanda fərdi təsərrüfatlarda artmışdır. Bəs, bu artımla əlaqədar olaraq bizdə heyvandarlıq məhsullarının istehsalı nə qədər artıb? Bu, məlum deyil. Ancaq bir şey məlumdur ki, fərdi təsərrüfatlarda olan mal-qara, şübhəsiz ki, məhsuldardır və bunun da ümumi iqtisadiyyatımıza xeyri var. Lakin bütün bunlar, mal-qaranın paylanması planlı, tənzimlənən şəkildə həyata keçiril-

səydi, şübhəsiz ki, böyük itkilərə yol verilməzdi. İndi bizim əsas məqsədimiz ondan ibarət olmalıdır ki, bugünkü mövcud vəziyyəti saxlamaqla, bundan sonra dağıntıya yol verməyərək bütün imkanlardan istifadə etməklə, bu il kənd təsərrüfatının maksimum inkişafını təmin edək.

Doğrudur, bir ilə yaxın davam edən blokada bizə çox ağır zərbə vurmuşdur. Azərbaycanın başqa rayonlarına nisbətən bizim vəziyyətimiz bir də ona görə ağırdır ki, təchizat məsələləri çətinləşib. Ona görə də biz bu vəziyyətdən çıxış yolu axtarmalıyıq. Bunun üçün də indi əsas vəzifəmiz ondan ibarətdir ki, kolxoz və sovxozların əmlakının dağılmasının qarşısını alaq, onların imkanlarından maksimum səmərəli istifadə edək və kənd təsərrüfatı istehsalını artırmağa çalışaq. Eyni zamanda fərdi təsərrüfatların inkişaf etməsinə şərait yaradaq və beləliklə də fərdi bölmədə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına nail olaq. Bu baxımdan biz Türkiyə və İran ilə iqtisadi əlaqələrimizi genişləndirməliyik. Təbrizdə böyük traktor zavodu var. Əgər Bakıdan traktor alınıb gətirilməsi çətindirsə, həmin traktoru biz Təbrizdən alaq. Şübhəsiz ki, onun dəyərini Azərbaycan hökuməti ödəyəcəkdir. Yaxşı cəhət orasındadır ki, buna heç bir nəqliyyat xərci çəkmək lazım gəlməyəcəkdir. O cümlədən kombayn və başqa maşınları da bu yolla almaq olar."

Heydər Əliyev demişdir ki, yaranmış vəziyyət göstərir ki, biz bir daha gübrə almaq üçün Türkiyənin Kənd Təsərrüfatı Nazirliyinə müraciət etməli olacağıq. Onlar bizə keçən il də çox kömək etdilər. Biz bu il də çalışıb bu imkandan istifadə etməliyik. Bu işlə də biz Naxçıvan MR Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin fəaliyyətini gücləndirməliyik. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, belə bir ağır şəraitin yaranmasının əsas səbəblərindən biri də muxtar respublika Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin həddən artıq pis işləməsidir. Nazirlik mövcud imkanlardan istifadə etməmiş, nazirliyin rəhbərliyi və xüsusən nazir Y. Vəliyev kənd təsərrüfatı işlərinin təşkili ilə məşğul olmamış, cürbəcür kommersiya əməliyyatları keçirməyə meyil göstərmişlər ki, bu da nöqsanların daha da dərinləşməsinə gətirib çıxarmışdır. Ona görə biz bu məsələyə xüsusi münasibətimizi bildirməliyik, kənd təsərrüfatının belə ağır vəziyyətə düşməsində nazirliyin rəhbərliyinin roluna qiymət verməliyik ki, başqaları da bundan nəticə çıxarsınlar.

Rayonların, təsərrüfatların rəhbərləri də imkanlardan lazımınca istifadə etməmişlər. Bunun nəticəsidir ki, təsərrüfatlarda işlər özbaşına gedir, belə xoşagəlməz vəziyyət yaranır. Biz payızlıq taxıl sahələrindən maksimum məhsul götürülməsini təmin etmək üçün lazım olan bütün tədbirləri görməliyik.

Heydər Əliyev muxtar respublikada üzümçülüyün mühüm əhəmiyyət kəsb etdiyini göstərərək demişdir ki, vaxtilə Naxçıvanda ildə 80-90 min ton, son illərdə isə 50-60 min ton üzüm götürüldüyü halda, keçən il cəmi 26 min ton üzüm toplamaq mümkün olmuşdur. Böyük əzab-əziyyətlə salınmış üzüm bağlarının nəzarətsizlik, biganəlik nəticəsində məhv olması ciddi həyəcan doğurur. Əgər biz bu il üzüm bağlarında yaxşı iş görsək, bağlara yaxşı qulluq etsək, məhsul istehsalının artırılmasını təmin edə bilərik.

Son illərin dağıdıcı təsirinə çox da məruz qalmayan sahələrdən biri tütünçülükdür. Keçən il 7000 ton tütün istehsal olunmuşdur. Lakin onun daşınmasında və satılmasında böyük çətinliklər var. Hər halda biz bunun yollarını tapmalıyıq. Bunun üçün qonşu Türkiyə və İranla əlaqə saxlayaraq bu məhsulu satmalıyıq. Ona görə tütünçülük sahəsində də bütün işlər vaxtında görülməlidir ki, daha çox məhsul götürmək mümkün olsun.

Heydər Əliyev meyvəçiliyin və tərəvəzçiliyin böyük əhəmiyyətini qeyd edərək demişdir ki, çox təəssüf ki, meyvə bağlarının becərilməsinə də lazımınca fikir verilmir və nəticədə böyük xərclər və zəhmət bahasına salınmış bağlar məhv olaraq sıradan çıxır. Qışın sərt keçməsi ilə əlaqədar ağacların bir hissəsi kəsilib yandırılmış, bir hissəsi isə baxımsızlıq üzündən tələf olmuşdur. Bunların hamısını bərpa etmək lazımdır. Ümumiyyətlə, tək meyvə ağacları deyil, ağır qış şəraiti ilə əlaqədar kəsilmiş bəzək ağacları da bərpa edilməli və biz bu sahədə rayon, kənd xalq deputatları məclisləri və onların icraiyyə komitələri, təsərrüfat rəhbərləri qarşısında çox mühüm vəzifələr qoyaraq tələb etməliyik ki, onlar bu vəzifələri həyata keçirsinlər. Bununla yanaşı, mən Naxçıvan Muxtar Respublikasının bütün əhalisinə müraciət edirəm. Kim harada bir meyvə ağacı, bəzək ağacı əkərsə, o həm özü üçün, həm də öz ailəsi üçün, həm də öz şəhəri üçün, kəndi və qəsəbəsi üçün çox xeyirxah iş görmüş olacaqdır. Mətbuat orqanları, televiziya çox

təbliğ olunmalı bu işi daim diqqət mərkəzində saxlamalıdırlar. Bu işin qısa müddətdə həyata keçirilməsi üçün rayonların, təsərrüfatların rəhbərləri konkret tədbirlər görməlidirlər. Yeni tinglərin salınması bu ay ərzində həyata keçirilməlidir. Beləliklə, biz mövcud olan meyvə bağlarına yaxşı qulluq etməklə meyvə istehsalını artırmalı, eyni zamanda meyvə bağlarının və yaşıllıqların bərpası ilə məşğul olmalıyıq.

Naxçıvanda tərəvəzçilik sahəsində də böyük imkanlar var. Kənddə yaşayan, kəndlə əlaqəsi olan adamlar şübhəsiz ki, özləri üçün müəyyən qədər bostan bitkiləri, tərəvəz əkəcəklər. Biz bunların hamısına kömək etməliyik. Elə etmək lazımdır ki, həm ictimai təsərrüfatlarda və həm də fərdi təsərrüfatlarda tərəvəz əkilsin. Əgər indi heyvandarlıq məhsulları, başqa məhsullar çatışmırsa, heç olmasa yaz, yay, payız vaxtı kifayət qədər tərəvəz olsun. Bunun qışa hazırlıq üçün də böyük əhəmiyyəti var.

Biz İranla danışıb 1500 ton toxumluq kartof almışıq. Həmin kartofun təcili olaraq gətirilərək təsərrüfatlara və fərdi adamlara satılması təşkil edilməlidir ki, onlar vaxtında əkib məhsul götürə bilsinlər. Lakin Baş nazir Xan-Babayevin dedikləri məni çox narahat etdi. O dedi ki, keçən il 376 ton kartof əkilib və ondan vur-tut 60 ton məhsul götürülüb. Belə getsə bunun nə əhəmiyyəti olacaq? Ümumiyyətlə, qeyd edim ki, biz Təbrizdə protokol imzaladıq ki, 1500 ton kartof, 500 ton arpa və 400 ədəd akkumulyator alaq. Bunun üçün Azərbaycan hökuməti İrana 22 min ton dizel yanacağı verməlidir. Ona görə də bunun məsuliyyətini hamı dərk etməli və həm kartof, həm də arpa təcili surətdə gətirilib əkilməlidir ki, ondan məhsul əldə etmək mümkün olsun.

Məlum olduğu kimi biz keçən qışı çox çətinliklə başa vurduq. Azərbaycandan göndərilən, həmçinin Türkiyədən kredit hesabına alınan və İrandan gətirilən ərzaq hesabına əhalini təmin edə bildik. İndi biz daha gözləyə bilmərik ki, Türkiyədən, İrandan ərzaq məhsulları, ət, yağ, düyü, makaron gələcək və beləliklə də biz daim himayə altında olacağıq. Buna qətiyyən yol vermək olmaz. Ona görə də biz indi gərək hər qarış torpaqdan, hər bir imkandan səmərəli istifadə edək.

Son illər muxtar respublikanın əhalisi alverə çox qurşanıbdır. Xüsusən sərhədlər açılandan sonra İran və Türkiyə ərazisinə cürbəcür mal-

lar keçirir, oradan alver edib mal alıb gətirməklə öz həyat tərzlərini tənzimləyirlər. Şübhəsiz, bu təbii bir haldır. Bunun qarşısını heç kəs almır və almayacaqdır da. Bu proses təbiidir. Ancaq mənə belə gəlir ki, imkanı olan adamlar, torpağı, mal-qarası olanlar əgər torpaqdan, əllərində olan mal-qaradan səmərəli istifadə etsələr, öz zəhmətlərinin nəticəsində daha çox xeyir götürər, özlərini təmin edər, qalan məhsullarını bazarda satarlar. Təəssüf ki, kənddə yaşayan bir çox adamlar öz imkanlarından istifadə etmək əvəzinə cürbəcür başqa vasitələrə əl atırlar.

Bu sözləri deyərək mən bir də bütün kənd əhalisinə müraciət edirəm: kəndlə, torpaqla əlaqədar olanlar qoy öz səylərini bu imkanlardan istifadə etməyə yönəltsinlər.

Heydər Əliyev çıxışının sonunda demişdir ki, bu günlər cəbhə bölgələrindən, xüsusilə Kəlbəcərdən çox həyəcanlı xəbərlər alınır. Erməni ordusu Kəlbəcərə qarşı genişmiqyaslı hücuma keçərək bu rayonu işğal etməyə çalışır. Bununla əlaqədar o, təəssüflə qeyd etmişdir ki, Bakıda "Azərbaycan" mehmanxanasının qarşısında kəlbəcərlilərin keçirdiyi mitinq zamanı respublika daxili işlər naziri İ. Həmidov ermənilərin Kəlbəcərə hücumunda məni günahlandırmış və iddia etmişdir ki, əgər Heydər Əliyevin Ermənistan rəhbərləri ilə danışıqları nəticəsində Naxçıvanda sabitlik yaranmasaydı, düşmən Kəlbəcərə genişmiqyaslı hücuma cəsarət etməzdi. Heydər Əliyev daxili işlər naziri İ. Həmidovun bu sözlərini böhtan və təxribat adlandırmışdır. O demişdir ki, bu qeyri-ciddi ittiham barədə respublika Prezidenti Ə. Elçibəyə məlumat vermiş və onun qəti tədbirlər görəcəyinə ümidvar olduğunu bildirmişdir.

Muxtar respublika Ali Məclisi Rəyasət Heyətinin üzvləri, xalq deputatları və iclasın iştirakçıları respublika daxili işlər nazirinin bu ittihamını yekdilliklə pisləmiş, belə ağır və gərgin günlərdə bu cür çıxışların ümumi işimizə böyük ziyan vurduğunu bildirmişdir.

İclasda müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul edilmişdir.

Aprelin 3-də davam edən iclasda Naxçıvan Muxtar Respublikasının 1992-ci il büdcəsinin icrası və 1993-cü il büdcəsi haqqında məsələ müzakirə edilmişdir. Həmin məsələ ilə əlaqədar muxtar respublikanın maliyyə naziri N. İmanovun məlumatı dinlənilmişdir.

Məsələnin müzakirəsində Naxçıvan MR Vergi Müfəttişliyinin rəisi F. Şükürov, Şərur Rayon XDM İcraiyyə Komitəsinin sədri Ə. Baxşıyev, Babək Rayon XDM İcraiyyə Komitəsinin sədri M. Rəhimov, Baş nazirin birinci müavini M. Abbasov, Ali Məclis Sədrinin müavini A. Kələntərli, Şahbuz Rayon XDM-nin sədri X. Abbasov, xalq deputatları T. Sadıqov, Ə. Talıbov, muxtar respublika Ali Məclisi Sədrinin müşaviri E. Cəlilov, Ali Məclisin Rəyasət Heyətinin üzvü, mətbuat xidmətinin rəhbəri Ə. Həsənov və başqaları çıxış edərək öz fikir və təkliflərini söyləmiş, ayrı-ayrı sahələrin maliyyələşdirilməsində ciddi nöqsan və çatışmazlıqlar olduğunu qeyd etmişlər. Əli Həsənov muxtar respublikada mətbuatın vəziyyətindən danışaraq demişdir ki, bu sahədə çox böyük çətinliklər yaranmışdır. Dəfələrlə məsələ qaldırılmasına baxmayaraq muxtar respublikanın Maliyyə Nazirliyi rəsmi dövlət qəzeti olan “Şərq qapısı” qəzetinin büdcəyə götürülməsi, habelə rayon qəzetlərinin maliyyələşdirilməsi məsələsini həll etmək istəmir. Bu məsələ tezliklə öz həllini tapmalıdır.

Rəyasət Heyətinin iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin İran İslam Respublikasına səfərinin yekunları müzakirə edilərək bəyənilmişdir.

İclasda Sədərək Rayon Xalq Deputatları Məclisi deputatlarının statusu, Sədərək rayon xalq məhkəməsinin təşkili, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və rayon, şəhər xalq hakimlərinin seçilməsi, muxtar respublika arbitraj məhkəməsinin təşkil edilməsi, Sosial Təminat Nazirliyi ilə Əmək və Sosial Məsələlər Komitəsinin ləğv edilməsi, onların bazası əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılması, muxtar respublika Statistika İdarəsinin Dövlət Statistika Komitəsinə çevrilməsi haqqında məsələlər müzakirə edilərək müvafiq qərarlar qəbul edilmiş, Naxçıvan MR-in yeni seçki qanununun hazırlanması üçün komissiya yaradılmış, kadr məsələlərinə də baxılmışdır.

Heydər Əliyev iclasa yekun vurmuşdur.

*“Şərq qapısı” qəzeti, 10 aprel 1993-cü il*

## Qış dövründə kəsilmiş ağacların yenidən bərpası sahəsində şəhər, rayon, kənd və qəsəbə xalq deputatları məclislərinin, onların icraiyyə komitələrinin vəzifələri haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, 1991-ci ilin dekabr ayından təbii qazın, 1992-ci ilin aprel ayından Bakı-Naxçıvan dəmir yolu xəttinin, həmin ilin iyul ayından isə elektrik enerjisinin Ermənistan tərəfindən kəsilməsi muxtar respublika iqtisadiyyatına ciddi zərbə vurmuş, 1992-93-cü illərdə əhalinin yanacaqla təmin olunması işi tamamilə pozulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Nazirlər Kabineti tərəfindən aparılan tədbirlər nəticəsində bir sıra həyati vacib obyektlərin - çörək zavodlarının fasiləsiz işləməsi, xəstəxanaların, yaşayış mənzillərinin qızdırılmasının yalnız minimum tələbatını ödəmək mümkün olmuşdur.

Nəticədə əvvəlki illərdən sərt soyuğu ilə fərqlənən ötən qış dövründə əhali tərəfindən kəndlərdə, şəhərlərdə, yol kənarlarında, meşəliklərdə ağacların kütləvi qırılması baş vermişdir.

Keçən ilin dekabr ayında muxtar respublikanın enerji sisteminə İran və bu ilin fevral ayından isə Türkiyədən gələn elektrik xətlərinin birləşməsi, bağlanılmış müqavilələrə əsasən İran İslam Respublikası tərəfindən daxil olan yanacaq materialları əhalinin qışdan sağ-salamat çıxmasını əsasən təmin etsə də, ağacların qırılmasının qarşısını almaq mümkün olmamışdır.

Hazırda muxtar respublikada ekoloji cəhətdən təhlükəli vəziyyət yaranmışdır.

Mövcud vəziyyəti aradan qaldırmaq, muxtar respublikanın yaşıl örtüyünü bərpa etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. 1992-1993-cü ilin qış dövründə kəsilmiş ağacların yenidən bərpa edilməsi məqsədilə 1993-cü il "Yaşıllaşdırma ili" elan edilsin.

2. Şəhər, rayon, kənd və qəsəbə xalq deputatları məclislərinə, onların icraiyyə komitələrinə tapşırılsın ki, qış dövründə kəsilmiş ağacların yenidən bərpa olunması üçün konkret tədbirlər görsün, bütün idarə, müəssisə, təşkilatlara ağac əkini aparmaq üçün sahələr ayırsın, onların səmərəli işləməsinə hər cür şərait yaratsınlar.

3. Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə, Naxçıvan Meşə Təsərrüfatı İdarəsinə tapşırılsın ki, qış dövründə kəsilmiş ağacların yenidən bərpası üçün aid təşkilatların lazımi ting materialları, yanacaqla vaxtında təmin edilməsini təşkil etsinlər.

4. Ağac əkininin gündəlik gedişatının televiziya və radio vasitəsilə şərhi təmin edilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 2 aprel 1993-cü il*

## ƏLİYEV HÜCUMDADIR

Qarabağ münaqişəsi başlanandan bəri Azərbaycan ən böyük məğlubiyyətə düçar olmuşdur. Rayon mərkəzi Kəlbəcər əldən getmişdir. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə Kəlbəcər rayonundan 40 min adam çıxarılmış, 5 min nəfər isə mühasirəyə düşmüşdür. Azərbaycanın Xarici İşlər Nazirliyi erməni hərbi birləşmələri tərəfindən respublikanın 30-dan artıq yaşayış məntəqəsinin işğal edilməsi ilə əlaqədar öz etirazını bildirmişdir.

Azərbaycanda bu məğlubiyyətin səbəbini Rusiyanın 7-ci ordusunun hərbi əməliyyatlarda birbaşa iştirakı ilə izah edirlər. Kəlbəcərin alınması ərəfəsində Prezident Əbülfəz Elçibəy Rusiya Federasiyasının səfiri Valter Şoniya ilə görüşmüşdür. Onların söhbəti kəskin xarakter daşımışdır. Şoniya Rusiya hərbçilərinin iştirakını inkar edərək belə bir mülahizə irəli sürmüşdür ki, görünür ermənilər tərəfindən muzdlular vuruşurlar. Valter Şoniya bundan sonra televiziya ilə çıxış edərkən de-

mişdir ki, Azərbaycana qarşı vuruşanların vətəndaşlığını müəyyən etmək imkanı yoxdur. Azərbaycanda hərbi əməliyyatların fəallaşması, Rusiya qoşunlarının və sərhədçilərinin tələsik surətdə respublika ərazisindən çıxarılması ilə bir vaxta düşmüşdür. Bu isə keçən ilin oktyabrında Rusiya ilə Azərbaycan arasında imzalanmış dostluq və əməkdaşlıq haqqında müqavilənin əksinə olaraq həyata keçirilmişdir. Həmin müqaviləyə əsasən rus qoşunları hələ iki il də respublikada qalmalı idilər.

Qarabağdakı məğlubiyyətlər hər dəfə Azərbaycanda hakimiyyətin dəyişməsi ilə nəticələnmişdir. Ayaz Mütəllibovun, Yaqub Məmmədovun dəyişilməsi və ikinci dəfə Ayaz Mütəllibovun hakimiyyətə gəlməsi də belə olmuş və onu sonra Prezident Əbülfəz Elçibəy əvəz etmişdir. İndiki hərbi məğlubiyyət də müxalifətin AXC-yə qarşı fəal söz hücumu ilə müşayiət olunmuşdur. Prezident kompromis əldə etməyə nail olmuş və ən məşhur müxalifət partiyası olan Milli İstiqlal Partiyasının tələbini yerinə yetirməyi vəd etmişdir.

Prezidentin hesabatla çıxış edəcəyi gün - 16 iyun günü təyin edilmişdir. Parlament qanunvericilik orqanına seçkilərin tarixini təyin etməlidir. Lakin bununla yanaşı daxili siyasi vəziyyət gərgin qalmaqda davam edir. Əgər Azərbaycan belə sürətlə öz ərazilərindən məhrum olarsa qanun-qayda yaratmaq üçün "möhkəm ələ" tələbat duyulan gün gələcəkdir. Namizəd də çoxdan bəllidir - Naxçıvanın Ali Məclisinin Sədri Heydər Əliyev. Bu yaxınlarda Bakıdakı görüş zamanı Elçibəy Əliyevə Baş nazir vəzifəsini təklif etmişdir. Lakin o bundan imtina edərək qarşılıqlı təklif irəli sürmüşdür - onun rəhbərliyi altında Dövlət Şurası yaradılmalıdır. Tərəflər razılığa gəlmədən ayrılmışlar. Lakin indi bütün görünənlərə görə zaman və hadisələr Əliyevin xeyrinə işləyir.

**Sanobar ŞERMATOVA ,**

*"Moskovskiye novosti", № 15, 11 aprel 1993-cü il*

## XOŞ GÖRDÜK, BABA ŞƏHRİYAR

Bir həftə idi ki, Şəhriyar nəfəsi, Şəhriyar sözü qədim Azərbaycan torpağını gəzib-dolaşırdı. Keçən ilin sonunda İran İslam Respublikasında başlanan Şəhriyar konqresi Azərbaycanda davam edirdi. Bu konqresi keçirməkdə məqsəd Şəhriyar ədəbi irsini tədqiq və təbliğ etmək idi. Ədəbi əlaqələrin genişlənməsində və xalqlar arasında dostluğun möhkəmlənməsində bu konqresin böyük siyasi və bədii əhəmiyyəti də son dərəcə güclüdür.

Şəhriyar konqresi ilə əlaqədar qədim Naxçıvan torpağında qüdrətli ustadın xatirəsinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir. Gecəni Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyi Naxçıvan şöbəsi təşkil etmişlər.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Fəttah Heydərov gecəni giriş sözü ilə açaraq qeyd etdi ki, Azərbaycan və İran ədəbiyyatının sönməz məşəli olan Məmmədhüseyn Şəhriyar özünün yüksək poetik istedadı, zəngin və mənalı yaradıcılığı ilə Şərqin ən qüdrətli sənətkarları ilə bir sırada dayanan mütəfəkkir bir şəxsiyyətdir. Onun ölməz əsərləri iyirminci yüzilliyin klassik nümunələrindəndir.

Söz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə verilir. Natiq Məmmədhüseyn Şəhriyarı dünya klassikləri sırasına daxil etməklə bildirdi ki, Şəhriyar hər şeydən öncə son dərəcə qüdrətli bir şair və şəxsiyyətdir. Onun böyüklüyü və əzəməti ondadır ki, Şəhriyar həm fars və həm də Azərbaycan dillərində yazıb-yaratmış bir şairdir. Natiq qeyd etdi ki, Şəhriyar ədəbi irsinin bədii və fəlsəfi siqləti onun bəşəri konsepsiyasındadır. Qüdrətli şairin əsərləri bizi bu gün də yazıb-yaratmağa, gələcəyə nikbin gözlə baxmağa, bir sözlə birləşməyə səsləyir. Məhz buna görə də Şəhriyar bütün müsəlman dünyasının qüdrətli bir ustadıdır.

Heydər Əliyev sözünə davam edərək bildirdi ki, İran İslam Respublikasında və Azərbaycanda Şəhriyarın, bu böyük söz ustadının poetik aləmini hamı sevir və bu sevgi böyük bir ümmana bənzəyir, bu sevgi sonsuz bir kainatdır. Şəhriyara ucaldılan məqbərə bir daha sübut etdi ki, ustad o yerlərin nə qədər doğma və əziz adamıdır.

Heydər Əliyev dedi ki, Azərbaycan özünün gərgin və narahat anlarını yaşayır. Erməni quldurlarının törətdikləri cinayətlər xalqın mənəviyyatına ciddi təsir göstərir. Belə məqamlarda Şəhriyar konqresinin keçirilməsi və ustad şairin poetik dünyası bizi birləşməyə, yaşamağa, mübarizliyə səsləyir. Şəhriyarın poetik dünyası bizi nikbin olmağa, səbirli və dəyanətli olmağa ruhlandırır. Fürsətdən istifadə edərək bütün şəhriyarsevərləri ürəkdən alqışlayır və sizə səadət, xoşbəxtlik və firavanlıq arzulayıram.

İranın Naxçıvandakı Baş konsulu Məhəmməd Sadeq Turi İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayətinin Şəhriyar günlərinin iştirakçılarına göndərdiyi təbriki oxudu.

Azərbaycan Yazıçılar Birliyi Naxçıvan şöbəsinin məsul katibi, yazıçı Hüseyn İbrahimov, Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi, şair Əliyar Yusifli, Türkiyədən gəlmiş şairə Firəngiz Razi çıxış edərək Şəhriyarın zəngin yaradıcılığından söhbət açmışlar.

Ədəbi-bədii gecədə Naxçıvan Muxtar Respublikasının Baş naziri Ş.Xan-Babayev, Ali Məclis Sədrinin müavinləri R. Həsənov, Q. Məmmədov, Baş nazirin müavinləri M. Abbasov, Ə. Sadiqov, E. İbrahimov, S. Zeynalova iştirak etmişlər.

*"Şərq qapısı" qəzeti, 10 aprel 1993-cü il*

**1993-cü il aprel ayının 12-də**
**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri**
**Heydər Əliyevin yanında keçirilən müşavirənin**
**P R O T O K O L U**

Sədrlik etmişdir:
**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

Müşavirənin gündəliyinə iki məsələ salınmışdır:

1. Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında fövqəladə vəziyyətlə əlaqədar Naxçıvan Muxtar Respublikası ərazisində komendantların təyin olunması barədə sərəncamına münasibət haqqında.

2. Naxçıvan Muxtar Respublikasında əhalinin çörəklə təmin olunması haqqında.

Birinci məsələ barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev məlumat verdi. O, qeyd etdi ki, bir-iki gün bundan qabaq biz Prezidentin Naxçıvan Muxtar Respublikasında komendantlıqların yaranması barədə fərmanını almışıq. Mən Afiyəddin Cəlilovla danışdım və qeyd etdim ki, Azərbaycan Respublikasında fövqəladə vəziyyətlə əlaqədar bəzi bölgələrdə komendantlar təyin olunub. Lakin Naxçıvanın coğrafi vəziyyəti nəzərə alınaraq burada fövqəladə vəziyyət olmamalıdır. Afiyəddin Cəlilov mənə dedi ki, əgər belə şey olarsa, mən Prezidentə çatdıracağam. Lakin buna baxmayaraq, bizimlə razılaşmadan, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası kobudcasına pozularaq Naxçıvanda da komendantlar təyin olunub. İndiyə qədər biz hər şeyə göz yummuşuq. Sonralar mənə çatdırdılar ki, guya Naxçıvan Xalq Cəbhəsi xahiş edib ki, Naxçıvanda da fövqəladə vəziyyət elan olunsun. Ona görə də biz Afiyəddin Cəlilovdan xahiş etdik ki, Prezidentlə bu barədə danışsın. Deyilənə görə, Prezident Əbülfəz Elçibəy deyib ki, mən Heydər bəylə bu haqda danışacağam. Ən nəhayət mən Prezidentlə əlaqə saxladım və ona çatdırdım ki, Naxçıvan Muxtar

Respublikasında fövqəladə vəziyyətə ehtiyac yoxdur. Burada hələlik əmin-amanlıqdır. Biz onsuz da blokadadayıq. Bunun üçün də Naxçıvanda fövqəladə vəziyyət və komendant saatı lazım deyil. Nə üçün Naxçıvan rəhbərləri ilə razılaşmırlar? Əlindən heç bir iş gəlməyən bir neçə adamın sözünə baxıb Naxçıvanda fövqəladə vəziyyət elan edirlər. Elçibəyə çatdırdım ki, mən bu fərmanı qanunsuz sayıram və burada heç bir fövqəladə vəziyyət ola bilməz. Naxçıvan əhalisini mən qoruyuram. Ən kritik halda mən bəyanat verirəm. Biz əməkdaşlıq, birlik yolundayıq. Siz isə bunun əvəzində komendant təyin edirsiz. Qanun qanundur. Muxtar respublika üzrə komendant ola bilməz. Bunu yazan adamlar Prezidenti pis vəziyyətdə qoyurlar. Prezident dedi ki, belə şey ola bilməz, gəlin görək kimlər komendant təyin olunub. Əvvəl dedilər ki, müdafiə naziri təyin olunmalıdır. İndi isə onun əksinə olaraq götürüb polis rəislərini komendant təyin ediblər.

Mən həyatım boyu qanunla yaşamışam. Bu cür hallara yol verməyəcəyəm. Gəlin biz öz mövqeyimizi təyin edək. Zəngilandan gələnlər deyirlər ki, orada heç kim yaşamır. Füzuli, Ağdam və başqa yaşayış məntəqələri də bu vəziyyətdədir. Əgər Naxçıvanda bizim səyimiz nəticəsində xalq əmin-amanlıqda yaşayırsa, nə üçün onlar xalqı qırğına vermək istəyirlər? Burada hərə öz mövqeyini güdür. Nəyə lazımdır Naxçıvanda fövqəladə vəziyyət yaratmaq? Əgər İsgəndər Həmidov xalqın başına iş açmaq istəyirsə, mən bunu qoymayacağam. Naxçıvan onsuz da fövqəladə vəziyyətdə yaşayır. Bu qərar ləğv olunmalıdır. Mən çox narahatlıq hissi keçirirəm. Onlar isə gərginlik yaradır. Mən buranı qarışdıranlara xəbərdarlıq edirəm: bəsdir xalqı bu vəziyyətə qoydunuz. Bəzi adamlar İsgəndər Həmidova satılıb Naxçıvanda qarışıqlıq salmaq istəyirlər. Prezidentin ətrafında olan adamlar ona yaxşı xidmət etmirlər. Bura mənim ana torpağımdır. Mən burada doğulmuşam və burada da öləcəyəm. Mənə çatan xəbərlərə görə ermənilər gəlib bizim rayonlara buldozer salır, dağıdıb gedirlər. Mən buna dözə bilmərəm. Qeyrətli azərbaycanlılar necə dözsün ki, bizim o yerlər ermənilərin əlinə keçib. Biz Naxçıvanı qorumalıyıq. Nahaq yerə gedib Prezidenti yoldan çıxarmaq lazım deyil. Mən burada oturan yoldaşları və bütün naxçıvanlıları həmrəyliyə çağırıram. Mən əlimdən gələni edirəm

və edəcəyəm. Mənim tələbim budur ki, şəxsi ambisiyaları üçün Naxçıvanı ermənilərə satmasınlar.

**E. Abbasov** (Naxçıvan MR Ali Məclisinin şöbə müdiri): Kəndlərdə belə şayiələr yayılıb ki, guya Ter-Petrosyan sizinlə danışıb və deyib ki, Naxçıvanı boşaldın, gəlirik. Qoy Təhlükəsizlik Nazirliyi bu söhbətlərin qarşısını alsın.

**Heydər Əliyev:** Mən Ter-Petrosyanla bir neçə aydır ki, danışmıram. 1992-ci ilin oktyabr ayından onunla danışmamışam. Mən Naxçıvanın müdafiəsini öz üzərimə götürmüşəm. Naxçıvanın müdafiəsi bizim hərbi hissəyə tapşırılıb. Heç bir naxçıvanlı buradan çıxıb getməyəcək. Daxili təxribatçılar imkan verərsə, biz öz təhlükəsizliyimizi təmin edəcəyik.

**F. Şirzadov** (Naxçıvan MR Ali Məclisinin şöbə müdiri): Hərbi hissələrdə antisanitariya hökm sürür. Biz əsgərlərin gigiyenik vəziyyətini yaxşılaşdırmalıyıq.

**Heydər Əliyev:** Əgər bizim əsgərlər normal şəraitdə yaşasalar, onlar sağlam olar və döyüşdə qalib gələrlər. Hər yerdə nə var, alınıb əsgərlərə verilməlidir. Birinci ordu təmin olunmalıdır. Başqaları isə qoy gözləsinlər. Mən belə hesab edirəm ki, briqada komandiri əlavə tədbir görməlidir ki, hərbi hissələrdə vəziyyət yaxşılaşsın.

İkinci məsələyə gəldikdə isə iki gündən bir çörək böhranı yaranır. Bu gün yenə də kritik vəziyyətə düşmüşük. Qoy M. Abbasov bu haqda müşavirə iştirakçılarına qısaca məlumat versin.

**M. Abbasov** (Naxçıvan MR Baş nazirinin birinci müavini): Dünən biz İran İslam Respublikası ilə danışdıq və oradan dedilər ki, un və taxıl göndərmişik. Mən İran İslam Respublikasının nümayəndələrinə çatdırdım ki, bizə təcili un gəlməlidir. İran İslam Respublikasında bu işlərə ciddi yanaşmırlar. Biz göstəriş vermişik ki, şəhər daxili işlər şöbəsi çörək zavodu ilə əlaqə saxlasın və oranın mühafizəsini təmin etsin. Biz məcburuq ki, İran İslam Respublikasına təcili iki nəfər göndərək ki, oradan un gətirilməsini təmin etsinlər. Onu da müşavirə iştirakçılarının nəzərinə çatdırmaq istəyirəm ki, Şahbuzda 4 gündür, Şərurda 3 gündür, Ordubadda isə dünəndən çörək bişmir. Biz bütün imkanlardan istifadə etməliyik.

**Heydər Əliyev:** Tapşırılsın Baş nazirin birinci müavinləri Ə. Sadiqova, M. Abbasova və Ali Məclis Sədrinin birinci müavini R. Həsənova təcili bu məsələ ilə əlaqədar tədbir görərək, əhalinin çörəklə təmin olunması üçün bütün imkanlardan istifadə etsinlər. İran İslam Respublikası ilə vaxtaşırı əlaqə saxlayıb Ali Məclisə məlumat versinlər.

## QAYITMAQ - BƏD ƏLAMƏTDİR?

### Mülahizə

Bütün şanslarını sanki itirmiş adamların hakimiyyətə qayıtması vaxtı gəlib çatmışdır. Eduard Şevardnadze, Pyotr Luçinski, Alkirdas Brazauskas artıq qayıtmışlar, Heydər Əliyev isə buna çatmaqdadır.

Bu meyil islahatların iflasa uğraması və partiya nomenklaturasının qisası deməkdirmi? Bu liderlərin qayıtmasına bütün qüvvələrlə qarşı durmaq lazımdırmı?

Həyəcan üçün formal bəhanə var. Ona görə ki, keçmiş Siyasi Büro üzvlərinin və MK katiblərinin Sovet hakimiyyətinin ən qaranlıq işlərində əlləri olması şübhə doğurmur. Lakin bu gün onlar hakimiyyətə gənclik dövrlərində olduğu kimi deyil, tamamilə başqa cür qalxırlar. Eduard Şevardnadze və Alkirdas Brazauskas Gürcüstanda və Litvada azad seçkilərdə qələbə çalıblar. Pyotr Luçinski Moldova parlamentində sözsüz müdafiə olundu. Heydər Əliyev Azərbaycanda siyasi xadimlərin hamısından populyardır.

Onlar nə ilə qayıdırlar? Yeni nə öyrənmiş, nəyi yaddan çıxarmışlar?

Sanki dünən aparatda işləyənlər (hər halda onlardan ən qabiliyyətliləri) yeganə adamlardır ki, 90-cı illərin başlanğıcı üçün ən qıt olan siyasi əmtəə - sabitlik, sakitlik və sülh təklif edirlər. Təsadüfi deyil ki, müharibə gedən yerlərdə onların xidmətinə böyük tələbat var.

Etiraf etmək lazımdır ki, bu xadimlərin sözləri ilə əməlləri əksər hallarda üst-üstə düşür. Eduard Şevardnadze Cənubi Osetiyada qan tökülməsinə son qoymağa nail oldu. Abxaziyada müharibə isə onun iradəsinə zidd olaraq başlamışdır. Pyotr Luçinskinin xidməti

Dnestryanı bölgədə atəşin dayandırılmasında, Sol Sahillə və Qaqauziya ilə sazişə gəlməyə fəal cəhd göstərməsindədir. Heydər Əliyev isə yeganə Azərbaycan siyasətçisidir ki, az-çox aydın Qarabağ müharibəsinin əleyhinə çıxır, onun başçılıq etdiyi Naxçıvan bu müharibədə iştirak etmir.

Şevardnadzeni, Əliyevi, Luçinskini və başqalarını böyük siyasətdən sıxışdırıb çıxaranlar onların bir daha qayıtmamaları üçün hər şeyi etdilər. Aleksandr Moşanunun və Vitaustas Landsberkisin heç bir kompromisə getməmələri və amansızlıqları Luçinskinin və Brazauskasın qələbəsini xeyli asanlaşdırdı. Keçmiş dissidentlər Əbülfəz Elçibəy və Zviad Qamsaxurdianın səriştəsizlikləri və qeyri-ardıcıllıqları onları təqib edənlərin - Əliyevin və Şevardnadzenin qayıtmaları üçün münbit şərait yaratdı. Cövhər Dudayevin Çeçenistanda yeritdiyi siyasət bir neçə ay da davam edəcək. Onun nəticəsini cəsarətlə proqnozlaşdırmaq olar. Respublikanın axırıncı kommunist rəhbəri Doku Zavqayevin nüfuzu artmağa başlayacaq.

Yeni siyasət və əmlak elitasının formalaşması bizim bugünkü cəmiyyətimizdə gedən ən mühüm prosesdir. Biz öz hakim sinfimizi necə görmək istəsək, necə olmasına imkan versək, o, elə də olacaqdır. Lakin “biz” əksərən həmin sovet adamlarıyıq, ancaq SSRİ-siz. Belə olduqda təəccüblənməyə dəyərmi ki, yeni elitanın əsasını da bizneslə məşğul olan, ya da siyasətdə qalan ən yaxşı partiya kadrları təşkil edir. Hətta indi siyasətdə olan yeni cavan şəxslər də köhnə məktəb keçmişlər. Məsələn, Kalmık Respublikasının yeni seçilmiş prezidenti, biznesmen, multimilyoner, yenidənqurmanın yetirməsi hər halda Oksford Universitetini deyil, komsomolun və Kalmık MSSR Ali Sovetinin zəmanəti ilə daxil olduğu Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunu bitirmişdir. Onun özünü hansı vəzifəyə hazırladığını bilmək üçün falçıya müraciət etmək lazım deyil.

Biz siyasətdə partiya tərəfindən təyin olunanların əleyhinə idik. Biz səriştəli peşəkarlar tələb edirdik. Biz onları aldıq. Lakin onların həmin adamlar olacağını gözləmirdik. Məlum olduğu kimi, mitinqlərdə çıxış etmək təcrübəsi heç də həmişə partiya komitəsində işləmək təcrübəsini əvəz etmir, ali partiya məktəbi isə siyasətçiyə akademik institutdan çox bilik verir.

Şevardnadzenin və Luçinskinin ağıllı yolu təklif edərək siyasətdə qalmaq istəmələrində qorxulu heç bir şey yoxdur. Bu dəfə onlar özləri qayıtmayıb, onları çağırıblar. Ondan qorxmaq lazımdır ki, biz heç nəyi öyrənməyənləri və heç nə başa düşməmişləri çağırmış olaq.

**Mixail ŞEVELYOV,**

*"Moskovskiye novosti", №18, 2 may 1993-ci il*

## HEYDƏR ƏLİYEV – 70

### "Allah Əliyevi xalqı xilas etmək üçün göndərib".

*("MN"-in dosyesi)*

*Heydər Əliyev, 69 yaşı var, Azərbaycan Universitetini və Leninqrad DTK Ali Məktəbini bitirdikdən sonra dövlət təhlukəsizliyi orqanlarında xidmət edib. 1966-cı ildən 1969-cu ilədək - Azərbaycan DTK-nın sədri, 1969-cu ildən 1983-cü ilədək Azərbaycan KP MK-nın birinci katibi, 1983-1987-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, 1982-ci ildən Sov. İKP MK Siyasi Bürosunun üzvü olub.*

*Həyat yoldaşı vəfat edib. Oğlu İlham Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun məzunudur, qızı Sevil ərəb filologiyası üzrə mütəxəssisdir. Hər ikisi Moskvada yaşayır. Heydər Əliyevin sözlərinə görə, "bu həyatda onun xoşbəxtliyi olan" beş nəvəsi var...*

*"MN"-in icmalçısı Vladimir Yemelyanenko Naxçıvan Ali Məclisinin Sədri ilə söhbət edir.*

***"MN"*** *- Heydər Əliyeviç, sizə ağır gəlmirmi ki, SSRİ-nin birinci şəxslərindən olduğunuz halda Moskva Sizdən imtina etdi, Bakıda qəbul etmədilər və Siz siyasətə sıfırdan qayıtmağa başladınız?*

- Mən, əlbəttə, incimişəm. Axı, məni ortodoksal kommunist kimi təqib edənlər mənim şagirdlərim, irəli çəkdiyim adamlar idi. Bütün bunlara tab gətirmək üçün mənə yeganə dayaq, ibarəyə görə bağışlayın, xalq oldu. Mənim Azərbaycanda birinci şəxs olduğum o 14 il artıq arxada qalmışdır. Həmin dövrdən uzaqlaşmaq çoxlarına mənim 70-ci il-

lərdəki fəaliyyətimə yenidən baxmağa imkan vermişdir. Onlar başa düşmüşlər ki, vəziyyət bugünkündən heç də pis deyildi.

O vaxt sabit Azərbaycan qurulurdu, indi isə o, müharibə aparır və dağılır. Bunun dərk edilməsi ilə adamların mütləq əksəriyyətinin mənə olan inamı da bərpa olundu. Bu hadisəyə tarixi baxımdan nəzər salsaq görərik ki, xalq həmişə qurucular üstünlük vermişdir.

***"MN"*** - *"Yerli miqyaslı" siyasətlə məşğul olduğunuz Naxçıvana qayıtmağa Sizi nə məcbur etdi?*

- Mən ona görə qayıtdım ki, ətrafımızda baş verən intəhasız özbaşınalığa dözə bilmirdim. 1990-cı il 20 Yanvar faciəsindən sonra, Bakıya qoşun yeridilən günün sabahı mən Moskvada mitinqdə və mətbuat konfransında çıxış edərək dedim ki, bu, Azərbaycan xalqına qarşı törədilən cinayətdir. Bu hadisələrdən sonra mən Moskvada qala bilməzdim. Mən öz xalqımla olmalı idim.

***"MN"*** - *Məntiqə görə, Siz Bakıda layiqli yer tutacağınıza ümid edə bilərdiniz.*

- Bakıya məni buraxmadılar. Evə qayıtmaq üçün bütün cəhdlərimin qarşısı SSRİ-nin və Azərbaycanın rəhbərliyi, şəxsən Mixail Qorbaçov tərəfindən alınırdı. Nəhayət, qayıtmağa imkan yaranarkən, uçuşa lap az qalmış məni qarşılayacaq adam - böyük bir nəşriyyatın direktoru Əjdər Xanbabayev öldürüldü. Başa düşürdüm ki, bu mənim üçün xəbərdarlıqdır. Ona görə də məcbur qalıb nəzərə çarpmadan Bakıdan Naxçıvana uçdum. Sonra Ayaz Mütəllibov mənimlə hətta telefon danışığından belə imtina etdi. Naxçıvanda isə, gizlətməyəcəyəm, çox mütəəssir oldum. Səksən minlik mitinq mənə "hə" dedi. Sonra mən bir il müddətində Bakıdakı hadisələrə təsir etmək cəhdindən əl çəkmədim, bunun üçün parlamentdə çıxışlar etdim. Lakin hər şey mənim təcrid edilməyimə yönəldilirdi. Azərbaycandakı siyasi vəziyyətin təhlili ilə əlaqədar parlamentdəki çıxışımdan sonra elə həmin gün xəbər çatdı ki, mənə qarşı terror aktı hazırlanır. Mən yenə Naxçıvana qayıtdım. Uzun müddət imtina etdiyim təklifə - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsini tutmaq təklifinə razılıq verdim.

***"MN"*** - *Özümü sizin tərəfdarlarınızdan hesab etməsəm də etiraf etməliyəm ki, lazımi nəticələrə nail olmusunuz. Üç il ərzində Siz Naxçı-*

va*nı Ermənistanla müharibədə iştirak etməkdən çəkindirə bilmisiniz və blokada şəraitində olan adamların aclıqdan və soyuqdan ölməsinə imkan verməmisiniz. Necə?*

- Əlbəttə, mən bunu deməręm, çünki bu mənim siyasətimdir. Sizin üçün isə nəticəsini bilmək kifayətdir.

***"MN"*** *- Buraya "Moskvanın adamı" kimi gəldiyiniz barədə ittihamları heç vaxt eşitməmisinizmi? Bu barədə Bakıda rəsmi şəxslər də dəfələrlə deyiblər. Məsələn, keçmiş daxili işlər naziri İsgəndər Həmidov. Üstəlik belə bir fərziyyə də var ki, Kəlbəcərin və Füzulinin faciəsində Əliyevin əli var, o, fəlakəti Naxçıvandan sovuşduraraq Azərbaycanın başqa rayonlarını buna düçar etmişdir.*

- Bu barədə eşitmişəm. Gəlin hər şeyi öz adı ilə çağıraq. Həqiqətən bizi Ermənistan ərazisi Azərbaycandan ayrı salıb. Bu da bizə həm Yerevan, həm də Bakı ilə xüsusi münasibətlər saxlamağı diktə edir. Məqsəd isə muxtar respublikada sabitliyi qoruyub saxlamaq və onun müharibəyə cəlb olunmasına yol verməməkdir. Buna necə nail oluram - bu mənim işimdir. Yalnız onu deyə bilərəm ki, Naxçıvan Azərbaycanın yurisdiksiyasında olsa da, həmişə Bakının birbaşa göstərişlərinə praqmatik yanaşıb. Məsələn, biz Mütəllibovun da, Elçibəyin də vaxtında FV-dən imtina etdik. Çünki bu, qanun-qaydanı möhkəmlətməyə deyil, hakim qruplaşmaların intəhasızlığına aparır.

Ermənistanla isə əlaqələrimiz Levon Ter-Petrosyanla telefon danışığından sonra yarandı. Sonra Ermənistanın digər rəhbərləri ilə də danışdım və onlarla sərhəddə görüşdüm. Bakının xəbəri olmadan danışıqlar aparmaqda və guya bundan sonra qoşunların Naxçıvan yaxınlığından Qarabağa göndərilməsində məni günahlandırmağa gəldikdə isə mən bunları Azərbaycan daxili işlər naziri İsgəndər Həmidovun sərsəm uydurması hesab edirəm. Bu adam siyasətdə bir təsadüfdür, anlaşılmazlıqdır. Kəlbəcərin verilməsindən sonra isə o və onun kimiləri nəinki mənim ünvanıma nəsə söyləmək, hətta öz vəzifələrində qalmaq üçün mənəvi hüquqlarını itiriblər. Bu birinci, ikincisi - "Moskvanın əli" barədə. Mənim Ermənistanla sövdələşməyim haqqında miflə yanaşı, bu, Qarabağdakı uğursuzluqlara bəraət qazandırmaq və düşmən obrazı yaradaraq hakimiyyəti əldə saxlamaq üçün növbəti iftiradır. Bi-

zim işimizə yaxşı bələd olanlara bir şey aydındır: mən çox sınaqlardan çıxmış adamam və kiminsə əlaltısı ola bilmərəm. Moskva ilə əlaqəm yoxdur. Təəssüflər olsun. Çünki Rusiyaya düşmən qüvvə kimi baxmamışam və baxmıram. Belə düşünürəm ki, əgər zəruriyyət yaranarsa, Türkiyə, İran və ABŞ-la olduğu kimi yeni Rusiya ilə də ümumi dil tapa bilərəm. Bu ölkələrin köməyi və xüsusən Türkiyənin investisiyası hesabına Ermənistan və Rusiya tərəfindən fasiləsiz iqtisadi, doğma Azərbaycan tərəfindən isə, çox təəssüf, siyasi blokada şəraitində saxlanmağımıza baxmayaraq vəziyyətdən çıxa bilirik.

***"MN"** - Qarabağda tezliklə sülh yaranması ümidini sizin adınızla bağlayırlar. Sizə elə gəlmirmi ki, Azərbaycanda da, Ermənistanda da hakimiyyətə kim gəlirsə gəlsin, onlar bu hakimiyyəti saysız-hesabsız pullar və fövqəladə səlahiyyətlər verən müharibə vasitəsilə saxlamağa çalışacaqlar?*

- Bu nöqteyi-nəzərlə qətiyyən razı deyiləm. Doğrudan da müharibə hər iki tərəfdən onu biznesə çevirib, öz xalqlarının qanı bahasına əldə etdikləri pulları işə keçirənlər üçün xeyirlidir. Əminəm ki, Qarabağda sülhə nail olmaq mümkündür -başqa yol yoxdur. Bunun üçün imkanlar hələ tükənməyib.

***"MN"** - Sov. İKP-dən çıxarkən siz demişdiniz ki, daha heç vaxt heç bir partiyaya daxil olmayacaqsınız. Lakin özünüz Yeni Azərbaycan Partiyası yaratdınız, ora da keçmiş nomenklaturanın qaymağı - təsərrüfatçılar və alimlər daxil olublar. Opponentlərinizin dedikləri kimi "hakimiyyətə can atırsınız?"*

- Mən ki, Sov. İKP-dən çıxdım, amma indi Azərbaycanın rəhbərləri olan və özlərini demokrat hesab edənlərin bir çoxu hətta formal olsa belə Kommunist Partiyasını tərk etməyi lazım bilməmişlər. Məlumdur ki, siyasətdə ziddiyyətli hərəkətlər həmişə olur. Fikrimizcə, bu ümumi meylin inikasıdır. Rusiyanı da müxtəlif demokratik təşkilatlara daxil olmuş keçmiş kommunistlər idarə edirlər. Bəs, onda nə üçün Yeni Azərbaycan Partiyasında olan kommunistlərin də və mənim də yeni siyasətçilər nəslinə mənsub olmağımıza hüququmuz olmasın? Halbuki hazırda hakimiyyətdə olanlar, keçmiş kommunist Elçibəy də daxil olmaqla, belə bir hüquqa malikdirlər. Nə qədər təzadlı olsa da keç-

miş kommunistlər keçmiş SSRİ-də yeganə peşəkar siyasətçilərdir. "Keçmişlərin" böyük siyasətə qayıtması bütün dünyada normal hal sayılır. Yadınızdadır, Çörçill nə demişdir: "Əgər İngiltərənin mənafeyi tələb edərsə, mən öz dünya baxışlarımı üç dəfə dəyişməyə hazıram". Dövlət xadimləri təkcə bu adı daşımaq yox, həqiqətən dövlət xadimi olmaq istəyirlərsə bunu rəhbər tutmalıdırlar. Bizim Yeni Azərbaycan Partiyasına gəldikdə isə deməliyəm ki, onun barəsində sizin təsəvvürünüz çox yanlışdır. Bu təəccüblü deyil. Bu fikir AXC nümayəndələri tərəfindən canfəşanlıqla yayılır. Bu partiyaya elmi və yaradıcı ziyalıların nümayəndələri daxil olmuşlar. Qəribə burasıdır ki, onların bəziləri 70-ci illərdə məndən "incimişlər" hesab edilən adamlardır. Gördüyünüz kimi burada da ziddiyyətlər var: irəli çəkdiyim adamların bəziləri satdılar, "incimişlər" isə müdafiə etdilər.

***"MN"** - Bu doğrudurmu ki, Prezident Elçibəy Sizi qəbul edərkən Sizə Baş nazir vəzifəsini təklif edib? Siz isə imtina edərək təklif etmisiniz ki, Sizin başçılığınızla Dövlət Şurası yaradılsın?*

- Gəlin belə şərtləşək: siz bu sualı mənə verməmisiniz. Prezident isə məni Naxçıvan Muxtar Respublikasının başçısı kimi qəbul etmişdir.

***"MN"** - "Allah Əliyevi xalqı xilas etmək üçün göndərib" şüarına və Azərbaycanın şəhərlərində hərəkət edən avtomaşınların şüşələrinin altında Sizin portretlərinizin olmasına necə baxırsınız?*

- Bu barədə birinci dəfədir ki, sizdən eşidirəm. Mənim evimdə də heç öz fotoşəkillərim yoxdur. Yeganə bir şəkil var, o da mərhum arvadımın şəklidir. Yeri gəlmişkən deyim ki, onunla biz uzun müddət evlənə bilmədik. DKT-nın əməkdaşı kimi mənə rəhbərliyin qəzəbinə düçar olmuş partiya işçisinin qızı ilə evlənməyə icazə vermirdilər. Yalnız 1953-cü ildə Stalin öləndən sonra biz ailə qura bildik. Mən ailəmlə - uşaqlarımla da, nəvələrimlə də fəxr edirəm.

***"MN"**- Siz son sözünüzü deməmiş siyasətçi kimi tanınırsınız. Amma Sizə elə gəlmir ki, düşündüklərinizi həyata keçirmək üçün tarix Sizə minimum müddət ayırıb. Bağışlayın, mən o cümlədən Sizin yaşınızı nəzərdə tuturam.*

- Mən heç bir şey düşünməmişəm. Məndən dəfələrlə soruşublar ki, hakimiyyətə gələ bilərəmmi? Demişəm və deyirəm: "Mən bu id-

diada deyiləm". Mən öz borcumu bacardığım qədər yerinə yetirmişəm. Kimin və necə öz xalqına xidmət etdiyini isə tarix aydınlaşdırıb qiymət verəcək. Yenidən qayıtmağın isə mənası yoxdur. Bacarırlarsa qoy başqaları rəhbərlik etsinlər. Lakin xalq iradəsini bildirib məni çağırsa, mən onun iradəsinə tabe olacağam. Mənim yaşıma gəldikdə isə Allah-taalanın kimə nə qədər ömür payı ayırdığı heç kəsə bəlli deyil.

*"Moskovskiye novosti", 2 may 1993-cü il*

## ALİ MƏCLİSDƏ QƏBUL

Mayın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Nyu-York Geopolitik Analizlər İnstitutunun prezidenti Ellen Rayı, Kanadanın Manituveyc Universitetinin Yaxın Şərq problemləri üzrə mütəxəssisi Harri Ben Menaşani, "SOXNUT" Yəhudi Agentliyinin Azərbaycan və Zaqafqaziya üzrə nümayəndəsi Lev Bardanini, onlarla birlikdə buraya gəlmiş Amerikanın "Si-Bi-Es" televiziya şirkətinin müxbiri Stüart Sendini və İsrailin gündəlik "Davar" ictimai-siyasi qəzetinin xarici informasiya şöbəsinin müdiri Pazit Ravini qəbul etmişdir.

Qonaqların arzusu ilə regionda və bütövlükdə dünyada baş verən ictimai-siyasi proseslər, yaxın keçmişin hələ də fəal siyasi təhlil baxımından ciddi maraq doğuran bəzi tarixi faktları barədə fikir mübadiləsi aparılmışdır.

Ötən günlərə siyasi baxış və yaşadığımız dövrün ictimai-siyasi prosesləri ilə əlaqədar peşəkar təhlil Nyu-York Geopolitik Analizlər İnstitutu əməkdaşlarının və söhbətin digər iştirakçılarının ciddi marağına səbəb olmuşdur.

Dünyanın məşhur siyasi xadimləri barədə nüfuzlu Oskar mükafatına layiq görülmüş çoxseriyalı televiziya filminin müəllifi Stüart Sendinin və Nyu-York Geopolitik Analizlər İnstitutunun xahişinə əsasən Heydər Əliyev haqqında xüsusi sənədli filmin çəkilişi aparılmışdır.

***

Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivini qəbul etmişdir.

Bazar iqtisadiyyatına keçid dövründə teatr sənətinin və bütövlükdə mədəniyyətin üzləşdiyi problemlər barədə ətraflı söhbət getmişdir.

Heydər Əliyev Azərbaycan teatrı ənənələrinin davam etdirilməsi və möhkəmləndirilməsi zəruriliyindən danışmış, yaradıcı fikrin bu sahədə axtarışlarını diqqətlə izlədiyini bildirmişdir.

1941-1945-ci illərin ağır müharibəsi dövründə teatr xadimlərinin ikiqat qüvvə ilə işlədiklərini, xalqı qələbəyə ruhlandırdıqlarını xatırladan Heydər Əliyev müasir şəraitdə gənc nəslin mənəvi tərbiyəsi, adamlarda vətənpərvərlik ruhunun gücləndirilməsi sahəsində Naxçıvan teatrının qarşısında duran vəzifələrdən danışmışdır.

Teatrın direktoru Ramiz Bağırov kollektiv adından Heydər Əliyevi 70 yaşı münasibətilə təbrik etmiş, ona cansağlığı, indiki çətin dövrdə xalqın rifahı naminə səmərəli fəaliyyət arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*Naxçıvan şəhəri, 10 may 1993-cü il*

## MÜHARİBƏ VETERANLARI İLƏ GÖRÜŞ

Torpaqlarımızın bütövlüyü uğrunda mübarizəyə qalxdığımız indiki dövrdə yaxın keçmişin tarixi hadisələrindən nəticə çıxarmaq, bundan gənc nəslin mənəvi tərbiyəsində məqsədyönlü şəkildə istifadə etmək ciddi zərurət kimi ortaya çıxır.

May ayının 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1941-45-ci illərin Böyük Vətən müharibəsi veteranları ilə görüşmüşdür. Heydər Əliyev veteranlar qarşısında çıxış etmiş, faşist Almaniyası üzərində qələbə münasibətilə onları təbrik etmişdir.

Ali Məclisin Sədri yaşadığımız dövrün təhlilini verərək ortaya çıxan problemlərin həlli üçün xalqın bütün mənəvi potensialının hərəkətə gətirilməsinin vacibliyini qeyd etmişdir. Hələ də xalqın yaddaşında qələbə və işğalçıya layiqli cavab əzmi kimi qalan 1941-1945-ci illər müharibəsi bu mənada tarixi-psixoloji amil rolunu oynaya bilər.

Heydər Əliyev 1941-45-ci illər müharibəsində yarım milyondan çox azərbaycanlının iştirak etməsindən, böyük qəhrəmanlıq nümunəsi göstərməsindən danışaraq demişdir: "Bunlar tarixin elə anlarıdır ki, onu heç cür xalqın yaddaşından silib atmaq mümkün deyil. Çünki başqa xalqlar kimi, Azərbaycan xalqı da, Böyük Vətən müharibəsinin dəhşətlərini, məhrumiyyətlərini görmüşdür. İki yüz mindən çox azərbaycanlı həlak olmuşdur. Onların xatirəsi hər birimizin qəlbində yaşayır".

Xalqın ümumi qəhrəmanlıq rəmzi kimi mənalandırılan 9 May günündə 8 may itkisindən danışan Heydər Əliyev demişdir: "Dünən mayın 8-də Şuşanın alınmasının bir ili tamam oldu. "Dağlıq Qarabağ heç vaxt indiki qədər bizim olmayıb" -deyənlər Azərbaycan torpağının bu hissəsini tamam təhvil verdilər. Laçın, 2-3 günün içində Kəlbəcər əldən getdi. Lazımi döyüş hazırlığının olmaması təəssüf və təəccüb doğurur. Necə olub ki, 48 il əvvəl böyük qəhrəmanlıqlar göstərən, alman faşizminin məğlub olmasında yaxından iştirak edən xalq indi öz torpaqlarını müdafiə edə bilmir? Biz nədən belə məyus olmuşuq? Torpaqlarımızın itirilməsinə necə dözürük? Suallara konkret cavablar vermək olar. Ancaq bir məsələ şəksizdir: gənc nəsildə vətənpərvərlik əhvali-ruhiyyəsi, döyüşkənlik ruhu formalaşmalıdır. Bu məsələdə siz veteranların təcrübəsi, məsləhəti xeyli dərəcədə faydalı olardı.

Çoxsaylı müharibə veteranları təşkilatlarının fəaliyyətinə çeviklik və məqsədyönlülük kimi zəruri keyfiyyətlərin verilməsi vacibliyini qeyd edən Heydər Əliyev onlar üçün lazımi şərait yaradılması sahəsində aid təşkilatların vəzifələrindən danışmışdır. Ali Məclisin Sədri fərarilik və hərbi çağırışdan yayınma hallarının qarşısının qətiyyətlə alınacağını bildirmiş, bununla əlaqədar veteranları öz nüfuzlarından istifadə etməyə çağırmışdır.

Regionda yaranmış vəziyyət haqqında məlumat verən Heydər Əliyev demişdir: "Naxçıvanda müharibə getmir. Burada sakitliyi və təhlükəsiz-

liyi təmin edə bilirik. Lakin Naxçıvan Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Torpaqlarımızın əldən getməsinə biganə qala bilmərik. Naxçıvan oğulları Azərbaycan Ordusu sıralarında Kəlbəcərin, Laçının, Şuşanın, digər torpaqlarımızın geri alınmasında daha yaxından iştirak etməlidirlər".

Müharibə veteranlarından C. Cəfərov, Q. Fərzəliyev, Ə. Talıbov, M. Sirablı, S. Məmmədova və başqaları yüksək səviyyədə keçirilən görüş üçün Ali Məclisin rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

Görüşdə çıxış edən müharibə veteranı, Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov belə tədbirin keçirilməsinin, yaşlı nəslin döyüş təcrübəsinin öyrənməsinin, xalqımızın qəhrəmanlıq ənənələrinin davam etdirilməsinin zəruri olduğunu bildirmişdir. Ziya Bünyadov Heydər Əliyevi 70 illiyi münasibətilə təbrik etmiş, ona cansağlığı, fəaliyyətində uğurlar" arzulamışdır.

Görüşdə muxtar respublika Ali Məclisi Sədrinin sərəncamı ilə muxtar respublikada yaşayan Böyük Vətən müharibəsi veteranlarının hər birinə Naxçıvanın sosial inkişaf və müdafiə fondundan beş min rubl məbləğində yardım ayrılması barədə məlumat verilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*Naxçıvan şəhəri, 10 may 1993-cü il*

## ALİ MƏCLİSDƏ QƏBUL

Mayın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev muxtar respublikadan Məkkəyə yola düşən zəvvarları qəbul etmişdir.

Heydər Əliyev mübarək Həcc münasibətilə zəvvarları təbrik etmiş, onlara uğurlu yol arzulamışdır. Ali Məclisin Sədri bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətində olması nəzərə alınmış, buradan həccə gedənlərin bütün xərclərini İran İslam Respublikası öz üzərinə götürmüşdür. Heydər Əliyev əmin etmişdir ki, bu müqəddəs və xeyirxah iş gələcəkdə də davam etdiriləcəkdir.

Zəvvarlardan Kərbəlayı Muradəli və Naxçıvan məscidinin axundu Sultan Məhəmməd oğlu dindarlara göstərilən diqqət və qayğıya görə Heydər Əliyevə minnətdarlıqlarını bildirmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Qafar Məmmədov və İran İslam Respublikasının Naxçıvanda Baş konsulu Məhəmməd Sadiq Turi qəbulda iştirak etmişlər.

Məkkəyə göndərilən 22 nəfər zəvvar həmin gün Naxçıvan təyyarə meydanından Bakıya yola salınmışdır. Onlar digər azərbaycanlı zəvvarlarla birlikdə buradan Məkkəyə gedəcəklər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*Naxçıvan şəhəri, 19 may 1993-cü il*

## 1993-cü il may ayının 27-də Naxçıvan Respublika Mədəniyyət Sarayında Azərbaycan Xalq Cümhuriyyətinin 75 illiyi münasibətilə keçirilmiş təntənəli yığıncaqda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündən 75 il keçir. 28 May Azərbaycan xalqının tarixində layiqli bir gün kimi, bizim böyük bayramımız kimi qeyd olunur. Bu, bizim milli bayramımızdır.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti qısa bir dövrü əhatə edir. Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Sonra isə bolşeviklər tərəfindən, XI Qızıl Ordu tərəfindən Azərbaycan işğal olundu, Sovetlər İttifaqınm tərkibinə daxil edildi. Nəhayət, 1991-ci ildə Sovetlər İttifaqı dağıldıqdan sonra Azərbaycan xalqı yenidən müstəqillik əldə edə bildi. Bu gün Azərbaycan xalqı öz müstəqilliyini möhkəmləndirmək və inkişaf etdirmək istiqamətində, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qorumaq, dövlət quruculuğu fəaliyyəti göstərmək işləri ilə məşğuldur.

1918-ci ildən Azərbaycan xalqı milli azadlıq mübarizəsi apararaq, öz torpaqlarını və ərazi bütövlüyünü qoruyaraq döyüşlər aparır, şəhidlər verir. Onlar milli qurtuluş və azadlıq yolunda şəhid gediblər.

1918-ci ildə, 75 il öncə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixində əhəmiyyətli rol oynamışdır. Fəaliyyəti qısa bir dövrü əhatə etsə də, ilk milli-demokratik hökumət xalqın həyatında böyük dəyişikliklərin başlanğıcı oldu. Azərbaycan Xalq Cümhuriyyətinin liderləri M.Ə. Rəsulzadə, N. Yusifbəyli, F. Xoyski və xalq azadlığı yolunda mübarizə aparan digər azərbaycanlıların fəaliyyəti nəticəsində ərsəyə gələn respublika yeni həyatın qurulmasının təzahürü olmuşdur. 75 il öncə böyük hadisələr baş vermişdir. Bu tarixin mühüm bir cəhəti ondadır ki, artıq Azərbaycan Respublikası müstəqil bir dövlət kimi fəaliyyət göstərir, xalqımız milli azadlığa nail olub və müstəqil Azərbaycan dünya xalqları, dövlətləri tərəfindən tanınıb. Əminik ki, bundan sonra Azərbaycan öz müstəqilliyini əldən verməyəcəkdir.

Bu gün əldə olunan müstəqilliyin qorunması və bərqərar edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması sahəsində çox böyük və gərgin işlər görülməlidir. Bu işlər görülür. Bu zaman, şübhəsiz ki, Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin fəaliyyətinə daim nəzər salmaq, onların gördükləri işlərin müsbət tərəflərini götürmək və istifadə etmək, buraxılan səhvlərin təkrar olunmasına yol verməmək lazımdır.

İlk Azərbaycan milli hökuməti olduqca ağır və tarixi şərait baxımından çətin bir dövrdə fəaliyyət göstərib. Hökumətin tərkibinin 4 dəfə dəyişməsi heç də təsadüfi deyildir. Bir daha qeyd edirəm ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və onun müvəffəqiyyəti məhz uzun əsrlər boyu xalqın müstəqillik və azadlıq idealının həyata keçirilməsi yolunda ilk addım kimi böyük əhəmiyyətə malikdir və biz bunu yüksək qiymətləndiririk.

Bu gün müstəqil Azərbaycan Respublikasının qarşısında çətin vəzifələr durur. Azərbaycan 5 ildən artıqdır ki, müharibə şəraitində yaşayır. Torpaqların bir hissəsi erməni işğalçıları tərəfindən zəbt edilib. Azərbaycanın ərazi bütövlüyü pozulub. Respublikanın ərazi bütövlüyünü təmin etmək, onun tam suverenliyinə nail olmaq mühüm vəzifələr-

dəndir. Eyni zamanda dövlətin müstəqilliyi və azadlığı xalqın daha da azad yaşaması, öz həyatını milli ənənələrə uyğun qurması üçün əsas olmalıdır.

Bu gün dövlət müstəqilliyi əldə olunubdur. Bunu Azərbaycan xalqı üçün axıradək qorumalıyıq. Çalışmalıyıq ki, dövlətin bütün strukturları Azərbaycan xalqının mənafelərini təmin edən səviyyədə qurulsun və inkişaf etdirilsin. Öz azadlığı və müstəqilliyi uğrunda mübarizə aparan xalq növbəti sınaq olan bu ağır və çətin şəraitdən də çıxacaq, Azərbaycan dövlətinin güclənməsini və inkişaf etməsini təmin edəcəkdir.

Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olaraq eyni zamanda Azərbaycan xalqının keçirdiyi bütün çətinliklərin içindədir və daha ağır, çətin bir şəraitdə yaşayır. Bu da Naxçıvanın coğrafı mövqeyi ilə əlaqədardır. Ərazi etibarilə Azərbaycandan ayrı düşən Naxçıvanın Ermənistan Respublikası tərəfindən blokadaya alınması burada vəziyyəti daha da gərginləşdirmişdir. Ancaq Naxçıvan Muxtar Respublikasının əhalisi, bu qədim diyarın fədakar insanları çətinliklərə sinə gərdilər və bütün imkanlardan istifadə etdilər ki, Azərbaycanın qədim diyarında - Naxçıvanda Azərbaycan Respublikasının dövlət müstəqilliyi və ərazi bütövlüyü təmin olunsun. Belə bir şəraitdə Naxçıvan Muxtar Respublikası əhalisinin yaşaması və bütün həyati tələbatlarının ödənilməsi üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, aid təşkilatlar lazım olan bütün tədbirləri görürlər. Bu sahədə Türkiyə Respublikasının və İran İslam Respublikasının Azərbaycana və onun ayrılmaz hissəsi olan Naxçıvana hərtərəfli köməkliklərini xüsusi qeyd etmək istəyirəm.

Naxçıvan Muxtar Respublikasının coğrafi vəziyyətinə uyğun olaraq burada ən zəruri məsələlərdən biri muxtar respublikanın sərhədlərində sakitliyi və təhlükəsizliyi təmin etməkdən ibarətdir. Bildiyiniz kimi, bu sahədə də həyata keçirilən tədbirlər öz nəticəsini verir və bu gün məmnuniyyət hissi ilə qeyd edə bilərəm ki, Naxçıvan Muxtar Respublikasının Ermənistanla olan bütün sərhəd məntəqələrində sakitlik təmin olunubdur. Heç bir hərbi münaqişəyə yol verilməyibdir. Baş verən yerli əhəmiyyətli bəzi münaqişələr isə danışıqlar nəticəsində aradan qaldırılıbdır.

May ayının 14-də Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti ilə Ermənistan Respublikasının nümayəndə heyəti Sədərək bölgəsində görüşmüş, aparılan danışıqlar nəticəsində muxtar respublikanın Ermənistanla olan sərhədlərində təhlükəsizliyin təmin olunması, baş verən münaqişələrin vaxtında aradan qaldırılması, sərhəd bölgələrində kənd təsərrüfatı işlərinin aparılması üçün lazımi şərait yaradılmışdır. Bir daha demək istəyirəm ki, bunlar hamısı blokada şəraitində olan Naxçıvan Muxtar Respublikası əhalisinin təhlükəsizliyini təmin etməkdən ötrüdür. Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasına xidmət edir. Biz bundan sonra da bu istiqamətdə öz fəaliyyətimizi davam etdirəcəyik.

Biz bu gün Azərbaycanın qədim diyarı olan Naxçıvanda böyük iftixar hissi ilə ağır və çətin şəraitdə, lakin böyük ruh yüksəkliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 75-ci ildönümünü qeyd edirik və əmin olduğumuzu bildiririk ki, Naxçıvan Muxtar Respublikası əhalisi, onun bütün dövlət orqanları Azərbaycanın müstəqilliyini bundan sonra da göz bəbəyi kimi qoruyacaq və Azərbaycan Respublikası bir daha heç bir dövlətin, heç bir başqa xalqın əsarəti altına düşməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil edilməyəcəkdir. Müstəqilliyimiz əldə olunub. Bunu gələcək nəsillər üçün böyük töhfə kimi qoruyub saxlamalıyıq.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Nazirlər Kabineti adından Sizi və sizin şəxsinizdə bütün Naxçıvan Muxtar Respublikası əhalisini bu böyük bayram münasibətilə təbrik edir, Sizin hamınıza böyük nailiyyətlər, cansağlığı, uğurlar arzulayıram.

Yaşasın azadlığını əldə etmiş sülhsevər Azərbaycan xalqı!

Müstəqil Azərbaycan Respublikasına eşq olsun!

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yanında keçirilən müşavirənin
## PROTOKOLU

*(3 iyun 1993-cü il)*

Sədrlik etmişdir:
**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

Müşavirədə aşağıdakı məsələlər müzakirə olunmuşdur:

1. Qışa hazırlıq məsələsi;
2. Naxçıvan Xalq Cəbhəsinin Naxçıvanda fövqəladə vəziyyət elan olunması təklifinə münasibət haqqında;
3. Naxçıvan Şəhər XDM İK-nin şəhərdə qanunsuz köşklər qoyulmasına sərəncam verməsi haqqında.

Müşavirəni Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev açdı.

**Heydər Əliyev:** Biz elə bu gündən qışa hazırlıq məsələsini düşünməliyik, Süleyman Dəmirəlinköməyi ilə Naxçıvana 22 min ton mazut gətirilib. Nazirlər Kabineti bu yanacağın saxlanılmasına ciddi nəzarət etməlidir. Qış üçün daş kömür məsələsini də biz İranla həll etməliyik. Beş gündür İran tərəfindən Naxçıvana gələn elektrik kəsilmişdir. İran tərəfi bunu onunla izah edir ki, Azərbaycan elektrikin pulunu ödəmir. Mən Afiyəddin Cəlilovla telefonla danışdım, o isə mənə bildirdi ki, hələlik Tehranla əlaqə saxlaya bilmirik. Hazırda İran Respublikasında tətildir. Ancaq bazar günü imkan olacaq ki, onlarla əlaqə saxlayaq. Türkiyədən transformatorun gətirilməsi də həll olunmalıdır. Belə təklif də irəli sürülməlidir ki, sürücülərdən gömrük haqqı alınmasın. Sürücülər Culfadan başqa şeylər aparıb İranda satırlar. Bu onu göstərir ki, sürücülərin üzərində ciddi nəzarət yoxdur. Onu da sizə çatdırmaq istəyirəm ki, İran tərəfində tutulan sürücülərə ikinci dəfə viza verilmir.

Hazırda bizə 5 min ton buğda gəlib. Belə bir məsələ də var ki, tətil qurtaran kimi İrandan böyük bir dəstə Naxçıvana gübrə gətirəcəkdir.

Urmiyada Naxçıvan günləri keçiriləcəkdir. Belə nəzərdə tutulub ki, orada sərgi təşkil olunsun. Bunu iyun ayının 10-dan 20-dək keçirmək olar. Aprelin 2-də Prezident qərar verib ki, fövqəladə vəziyyət uzadılsın. Bu, əvvəl Kəlbəcərlə əlaqədar idi. Bir halda ki, Naxçıvan ərazisində sakitlikdir, biz Afiyəddin Cəlilovla danışdıq ki, Naxçıvanda fövqəladə vəziyyət elan olunmasına ehtiyac yoxdur. Mən Prezidentlə də əlaqə saxladım, o da mənimlə razılaşdı. Lakin nədənsə yenidən Ordubadda fövqəladə vəziyyət yaradıblar. İndi isə Xalq Cəbhəsindən gəliblər ki, burada fövqəladə vəziyyət elan edək. Culfaya gətirib əlavə post qoyublar. Mən Naxçıvanda sakitliyi bərpa etməyi Daxili İşlər Nazirliyinə tapşırmışam. Bu məsələni Ali Məclis həll edir, Xalq Cəbhəsi yox. Bəzi ictimai təşkilatlar öz mövqelərini hər şeydən üstün tuturlar. Bu da düz deyil. Mən belə hesab edirəm ki, bu məsələnin müzakirə olunmasına ehtiyac yoxdur. Mən bunu Prezidentə demişəm, o da mənimlə razılaşıb. Əgər fövqəladə vəziyyət Azərbaycanla Ermənistan arasında olan müharibə ilə əlaqədardırsa, Naxçıvanda fövqəladə vəziyyət yaranması heç də düz deyil. Hazırda Naxçıvanda daxili sakitlik mövcuddur.

Fövqəladə vəziyyət yaratmaqla cinayətkarlığa qarşı mübarizə aparmaq olmaz. Bunun üçün dövlət orqanları vardır. Bu işlə ancaq onlar məşğul olmalıdır. Bu məsələ barəsində kimin nə fikri varsa, deyə bilər.

**T. Allahyarov** (daxili işlər naziri): Keçən il 214, bu il isə 191 cinayət hadisəsi baş verib. Bu da onu göstərir ki, cinayət azalmaqdadır. Onu da qeyd etmək istəyirəm ki, cinayətkarlığa qarşı mübarizədə cinayətlərin açılma faizi 85,5 faizə qalxmışdır.

**Ş. Xan-Babayev** (Baş nazir): Ordubadda post qoymaq fövqəladə vəziyyət yaratmaq deyil. Bu, ancaq ara qarışdırmaq deməkdir. Lazım gələrsə daxili qoşunları daha da artırmaq olar. Fövqəladə vəziyyət yaransa əhalinin də buna qəzəbi tutar. Mən belə təklif edirəm ki, gecə milisi işini daha da gücləndirsin.

**Ə. Talıbov** (xalq deputatı): Fövqəladə vəziyyət hakimiyyəti möhkəmləndirmək üçündür. Naxçıvanda fövqəladə vəziyyət yaratmaq lazım deyil. Ancaq cinayətkarlığın səbəblərini araşdırmaq lazımdır.

**Heydər Əliyev:** Tahir Allahyarov ictimai asayişin qorunmasını təmin etməlidir. Daxili İşlər, Prokurorluq və Təhlükəsizlik Nazirliyi ci-

nayətkarlığa qarşı mübarizəni gücləndirməli və qəti tədbir görməlidirlər. Naxçıvana un və buğda gətirilir, lakin bunların satışı çox pis təşkil olunur. Nə üçün əhali incidilir? Şəhər rəhbərliyi işə qarışmalı, çörək məsələsi qaydaya düşməlidir. Tapşırılsın Eldar İbrahimova və S. Zeynalovaya - şəhər təşkilatı ilə birlikdə və un kombinatının köməkliyi ilə bu məsələyə baxıb 5 gün müddətinə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versinlər. Burada oturan yoldaşlar hamısı bu işlərlə məşğul olmalıdırlar. Hüquq mühafizə orqanları nə üçün bu barədə ölçü götürmürlər? Kim bu işi görməlidir? Dünən burada məsələ qaldırıldı ki, şəhərdə qanunsuz olaraq şəhər məclisi və şəhər XDM İcraiyyə Komitəsi tərəfindən yerlər verilir və köşklər qoyulur. Mən Nazirlər Kabinetinə tapşırıq vermişəm ki, bu işlə məşğul olsun. Lakin bu günə kimi heç bir tədbir görülməyib.

**H. Abdullayev** (Naxçıvan Şəhər XDM İK sədri): Mən bilmirdim ki, bugünkü müşavirədə hansı məsələ müzakirə olunacaqdır. Ona görə də hazırlıqsız gəlmişəm. Bu söhbət 2 ilə yaxındır ki, gedir. Xahiş edirəm bu məsələ konkret müzakirə edilsin. Mənim nöqsanlarım olarsa, mənə cəza verilsin. Ağacların kəsilməsi məsələsinə gəldikdə həmin məsələ komitə tərəfindən yoxlanılıb və bizimlə onların arasında 40 ağac fərq olub. İndiyə kimi cəmisi 153 ağac kəsilib. Mən realistəm. Əgər bizdə ağacların kəsilməsi Şahbuz rayonundan az olmasa, nə desəniz ixtiyarınız vardır. Ağacların kəsilməsinin əsas səbəbi qışın soyuq keçməsi olmuşdur. Mən xahiş edirəm günahım nədirsə qoy desinlər. Biz qış dövründə işıq idarəsində yatırdıq. Şəhərə yeni su kəməri çəkilib. Nə imkanım varsa etmişəm. Əgər siz köşklərin lazımsız olduğunu hesab edirsinizsə, onları yığışdırın. Şəhərdə çoxlu köşk olmasına biz sevinməliyik.

**Heydər Əliyev:** Qeyd etmək istəyirəm ki, dəfələrlə ayrı-ayrı şəxslər mənim yanıma gəlib deyirlər ki, müxtəlif şəxslərə köşklər verilir və onlar yerli-yersiz olaraq istənilən yerdə qoyulur. Bunun da nəticəsində şəhərin arxitekturası pozulur və ağaclar kəsilir. Bu məsələ dəfələrlə ortaya çıxıb və müzakirə edilib. Mən bir neçə dəfə Orucəli Məmmədova və Həsən Abdullayevə demişəm ki, Məmməd-Əmin Rəsulzadə küçəsindəki 107 №-li binanın arasına tökülmüş be-

ton kubiklər götürülsün. Lakin onların heç biri bu işi görməyib və mənim dediklərimi qulaqardına vurublar. Daha bəsdir. Bunun qabağı alınmalıdır.

**Ə. Əhmədov** (Naxçıvan MR prokuroru): "Naxkoopittifaq"ın qabağındakı park hasara alınıb, kooperativlər tikilir. Prokurorluq tərəfindən şəhər XDM-nə və XDM İcraiyyə Komitəsinə 9 protest verilib. Onlar da yazıb ki, göstərilən nöqsanları ləğv edirik. Həsən Abdullayevin dediyinə görə heç nə qanunsuz edilməyib. Lakin bu, düz deyil. Şəhər Məclisinin sərəncamı ilə qanunsuz olaraq mənzillər verilir. Növbədə olmayan vətəndaşlara telefon çəkilir. Şəhər prokurorluğu 9 protest verməsinə baxmayaraq yenə də qanunsuz torpaqlar verilir. Həsən Abdullayevin sərəncamı ilə kooperativlərə kərpic, sement və boru verilir. Burada Memarlıq İdarəsi də öz fikrini deməlidir.

**Heydər Əliyev:** Şəhərin arxitekturası tamam pozulmuşdur. Bu isə şəhər rəhbərlərini heç də narahat etmir. Onlar ancaq öz mənafelərini güdürlər.

**O. Məmmədov** (Naxçıvan Şəhər XDM-nin sədri): Mən dünən prokuror dediyi bağa getdim, orada heç bir ağac kəsilməmişdir. O bağ "Naxkoopittifaq"ın bağıdır. Orada gedən tikintilər bəzəkli və yaraşıqlıdır. Əhalinin əksəriyyətinin xoşuna gəlir. Bir şeyi çatdırmaq istəyirəm ki, elə gün olur ki, gecə ilə 5-6 köşk qoyurlar. Hər halda bunu edənlər də imkansızlardır. Hamı deyir ki, məscidin qabağındakı bağda tikintilər gedir. Bunlara biz heç bir sərəncam verməmişik, orda aparılan tikintilər hamısı özbaşınadır.

**Q. Cəfərov** (Naxçıvan şəhərinin baş memarı): Biz vətəndaşların öhdəsindən gələ bilmirik. Mən təklif edirəm ki, Nazirlər Kabinetinin Memarlıq İdarəsi ilə birlikdə iş aparılsın və bu nöqsanlar aradan qaldırılsın.

**Heydər Əliyev:** Mən sizin danışığınızı qənaətbəxş hesab edə bilmərəm. Belə çıxır ki, siz heç bir işin öhdəsindən gələ bilmirsiniz.

**Ə. Sadiqov** (Baş nazirin birinci müavini): Düzdür bu günə kimi şəhər XDM İcraiyyə Komitəsi çox iş görüb. Lakin köşklərin qoyulmasını düzgün hesab etmək olmaz. Uşaq xəstəxanası ilə üzbəüz olan yeri nə üçün kooperativlərə vermisiniz? Ora əsaslı tikinti yeridir. Əlavə ti-

kinti gedən zaman siz onları necə köçürəcəksiniz? Məscidin qabağında tikinti gedir. Bunun axırı necə olacaq, hələ də bu haqda düşünən yoxdur. Düzdür, İcraiyyə Komitəsi köşklər üçün də yer ayırmalıdır. Lakin bir şeyi qeyd etmək istəyirəm ki, gah məclis sərəncam verir, gah da icraiyyə komitəsi. Kooperativ tikintiləri hələ də qurtarmır. Siz kooperativlər üçün yer ayıranda kimlərlə razılaşırsınız. Əgər tikintilər qanunauyğun gedirsə, bu yaxşıdır. Mənə belə gəlir ki, bu məsələyə yenidən baxılmalıdır. 5 №-li tikinti trestinin birinci mərtəbəsi tam əldən gedibdir. Saray və teatr binaları tamam dağılır. Şəhərin arxitekturası tam pozulmuşdur.

**Heydər Əliyev:** Nə üçün şəhərin arxitekturasını pozursunuz? Şəhərin mərkəzində yerli-yersiz köşklərin qoyulmasına imkan yaradırsınız? Kim sizə bu ixtiyarı veribdir?

**T. Allahyarov:** Ağacların kəsilməsində bizim də nöqsanlarımız olub. Buna baxmayaraq, bir nəfər də olsun bir dənə də ağac əkməyib. Mağaza tikmək üçün ağacların kəsilməsi cinayətdir.

**Heydər Əliyev:** Mən bilmək istəyirəm ki, şəhərin hansı yerində qanunsuz köşklər qoyulub.

**Ş. Xan-Babayev** (Baş nazir): Şəhərin mərkəzində bir neçə yerdə qanunsuz köşklər tikilib. İndi müstəqil dövlət olduğundan Azərbaycana və onun tərkib hissəsi olan Naxçıvan şəhərinə xaricdən qonaqlar gəlir. Naxçıvan şəhərinin cəmi altı küçəsi var. Mənə belə gəlir ki, heç olmasa bu küçələrdə nisbətən vəziyyət yaxşı olmalıdır. Bir şeyi də qeyd edim ki, məscidin qabağındakı bağda tikinti aparmaq olmaz. Şəhərdəki müəssisələrin hamısı şəhər məclisinə və icraiyyə komitəsinə tabedir. Ona görə də bilavasitə şəhər məclisi və icraiyyə komitəsi bu işə məsuliyyət daşıyırlar.

**Heydər Əliyev:** Mərkəzi bankın qabağındakı çarhovuzu sökür, daşlarını aparırlar. Nə üçün siz buna yol verirsiniz? Kim sizə bu ixtiyarı verib? Sabir bağında aparılan tikintilərin hamısı ləğv olunmalıdır. Azadlıq prospekti, Böyük bağın qabağı, Nizami küçəsi abadlaşdırılmalıdır. Bu, mənim qəti sözümdür. Bununla müşavirəni bağlı elan edirəm.

## NAXÇIVANIN QONAĞI

Heydər Əliyevin dəvəti ilə Rusiya-Azərbaycan dostluq cəmiyyətinin prezidenti Nikolay Konstantinoviç Baybakov iyun ayının 1-də Bakıdan Naxçıvana gəlmişdir.

Həmin gün Heydər Əliyev N.K. Baybakovu qəbul etmişdir. Səmimi keçən söhbət zamanı Rusiya ilə Azərbaycan arasında dostluq əlaqələrinin daha da genişlənməsi barədə fikir mübadiləsi aparılmışdır.

Ali Məclisdə qəbuldan sonra N.K. Baybakov İranın nüfuzlu ictimai təşkilatı olan "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun Naxçıvanda ticarət mərkəzinin açılışında iştirak etmişdir.

N.K. Baybakov bildirmişdir ki, keçid dövrünün çətinliklərinə baxmayaraq, üstəlik blokada vəziyyətində yaşaması ucbatından Naxçıvanda yaranmış vəziyyətin və adamların ehtiyaclarının təmin olunması sahəsində həyata keçirilən tədbirlərin şahidi olması ona və başçılıq etdiyi cəmiyyətə Moskva ictimaiyyətini düzgün məlumatlandırmaq imkanı verəcəkdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*Naxçıvan şəhəri, 5 iyun 1993-cü il*

FƏSİL III

# Naxçıvan, 24 oktyabr. İlk dövlət çevrilişi cəhdi



*“Son damla qanıma qədər xalqımla birəm... Xalqla bir olub bütün bu təxribatların qarşısını alacağıq.”*

**Heydər ƏLİYEV**
Dövlət çevrilişi cəhdi ilə əlaqədar
Naxçıvan şəhərində keçirilmiş
müşavirədəki nitqindən

*28 oktyabr 1992-ci il*

*AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ*
*ƏBÜLFƏZ ELÇİBƏYƏ*

*AZƏRBAYCAN RESPUBLİKASI*
*ALİ SOVETİNƏ*

*NAXÇIVAN MUXTAR RESPUBLİKASI*
*ALİ MƏCLİSİNİN SƏDRİ*
*HEYDƏR ƏLİYEVƏ*

*AZƏRBAYCAN RESPUBLİKASI*
*DAXİLİ İŞLƏR NAZİRLİYİNƏ*

1 sentyabr 1992-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi polis əməkdaşlarının Azərbaycanın daxili işlər nazirinin müavini, polis general-mayoru R. Quliyevin iştirakı ilə keçirilmiş birgə iclasının

## B Ə Y A N A T I

Azərbaycan Respublikasının daxili işlər naziri, polis general-mayoru İ. Həmidov özünün 18 avqust 1992-ci il tarixli 1718 №-li əmri ilə Babək rayonunun Qaraxanbəyli kənd sakini, 1968-ci ildə anadan olmuş, Azərbaycan Bədən Tərbiyəsi İnstitutunu bitirmiş, daxili işlər orqanlarında heç bir təcrübəsi və səriştəsi olmayan, AXC-nin fəal üzvü Mustafayev Səyavuş Firudin oğlunu Naxçıvan MR daxili işlər naziri vəzifəsinə təyin etmişdir.

General Həmidovun bu qanunsuz əmri ilə əlaqədar 22-24 avqust 1992-ci il tarixdə DİN əməkdaşları ümumi yığıncaq keçirmiş, yığıncaq-

da Həmidovun 18 avqust 1992-ci il tarixli əmri əsassız elan edilmişdir. 24 avqust 1992-ci il tarixdə muxtar resublika daxili işlər orqanları əməkdaşlarının ümumi yığıncağında müraciət qəbul edilmiş, polis əməkdaşlarının tələbləri Azərbaycan Respublikası hökumətinə və Azərbaycan Daxili İşlər Nazirliyinə göndərilmişdir.

Müraciət İ. Həmidov tərəfindən nəzərə alınmadığından Naxçıvan MR DİN Polis Əməkdaşlarının Hüquq və Şərəfini Müdafiə Komitəsinin qərarı ilə 25-27 avqust 1992-ci il tarixlərdə polis işçiləri ilə muxtar respublika zəhmətkeşlərinin birgə mitinqi keçirilmiş və bəyanat qəbul edilmişdir.

Bəyanat Azərbaycan Respublikası Prezidentinə, Ali Sovetə, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə və Naxçıvan MR Ali Məclisinə çatdırılaraq onlardan təcili tədbirlər görülməsi xahiş edilmişdir.

Lakin 31 avqust 1992-ci il tarixədək Həmidov özünün subyektiv və Naxçıvan MR Konstitusiyasına zidd əmrini dəyişməmiş, 1500 nəfər polis əməkdaşının rəyini nəzərə almamış, əksinə Naxçıvan MR DİN-in fəaliyyətini yoxlamaq üçün məqsədli komissiya göndərmişdir.

Qeyd edilənləri nəzərə alaraq, aşağıdakıları bəyan etməyi özümüzə borc bilirik:

1. Yuxarıdakı müraciət və bəyanatları nəzərə almayaraq özünün 18 avqust 1992-ci il tarixli antidemokratik əmrini icra etmək barədə daxili işlər naziri, general-mayor İ. Həmidovun qərarının şəxsi heyətin ciddi etirazına səbəb olduğu bildirilsin və Azərbaycan DİN-in rəhbərliyinə çatdırılsın ki, Naxçıvan MR DİN-in polis əməkdaşları daxili işlər orqanlarını siyasi mövqelərə tabe etdirən hərəkətlərə və cəhdlərə heç vaxt yol verməyəcək.

2. Təkrar olaraq Azərbaycan Prezidentinə, Ali Sovetə, Naxçıvan MR Ali Məclisinə, Azərbaycan DİN kollegiyasına müraciətlə xahiş edilsin ki, Naxçıvan MR DİN-in polis əməkdaşlarının mitinq və yığıncaqlarında qəbul edilmiş müraciət və bəyanatlarda irəli sürülmüş haqlı tələblərinə üç gün müddətində baxılsın və hər hansı bir xoşagəlməz nəticələrə apara bilən hadisənin qarşısının alınması üçün təcili tədbirlər görülsün.

3. Azərbaycan DİN-in respublikada cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə işinə yönəldilmiş əmr və sərəncamları istisna olmaqla, muxtar respublika daxili işlər orqanlarında kadrla əlaqədar siyasi məqsədlər güdən bütün əmr və sərəncamlar etibarsız hesab edilsin və gələcəkdə icra edilməyəcəyi bildirilsin.

4. Naxçıvan MR Daxili İşlər Nazirliyinin rəhbərliyi ətrafında 11 gündən çox davam edən və siyasi ambisiyalara əsaslanan hadisələrin, Naxçıvan Muxtar Respublikasında onsuz da gərgin və mürəkkəb olan ictimai-siyasi və psixoloji vəziyyətin hədsiz dərəcədə gərginləşdiyini nəzərə alaraq bildirilsin ki, DİN-in 18.08.1992-ci il tarixli əmrinin həyata keçirilməsi ilə əlaqədar hər hansı zor və təzyiq işlədilərsə, silahlı qarşıdurma baş verərsə bütün bunların məsuliyyəti Azərbaycan Respublikası Prezidentinin, Ali Sovetin Sədrinin və şəxsən Azərbaycan Respublikası daxili işlər naziri İ. Həmidovun üzərinə düşür.

5. Həmin bəyanat kütləvi informasiya vasitələri ilə Azərbaycan xalqına çatdırılsın.

6. Azərbaycan Daxili İşlər Nazirliyinin xüsusi məqsədlər güdən yoxlama komissiyasının bu gündən Bakı şəhərinə qaytarılması tələb edilsin.

*AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNƏ,*
*AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ*

*AZƏRBAYCAN RESPUBLİKASININ*
*BAŞ PROKURORUNA*

**Naxçıvan Muxtar Respublikası**
**Daxili İşlər Nazirliyi Polis Əməkdaşlarının**
**Hüquq və Şərəfini Müdafiə Komitəsinin**
**Ş İ K A Y Ə T İ**

Naxçıvan MR Daxili İşlər Nazirliyi Polis Nəfərləri və Zabitlərinin Hüquq və Şərəfini Müdafiə Komitəsi muxtar respublika Daxili İşlər Nazirliyinin 1500 nəfər polis əməkdaşının iradəsini ifadə edərək və

qanunun aliliyini əldə rəhbər tutaraq pozulmuş konstitusiya hüquqlarımızın bərpa olunması üçün Sizə müraciət etməyi vacib bilir.

Azərbaycan Respublikasının daxili işlər naziri, polis general-mayoru İ. Həmidov Azərbaycan Respublikası Konstitusiyasını və Naxçıvan MR Konstitusiyasının 64-cü maddəsinin 4-cü bəndinin, 68-ci maddəsinin 12-ci bəndini və 92-ci maddəsinin tələblərini kobud şəkildə pozaraq və Əsas Qanunumuza hörmətsizliklə yanaşaraq 18 avqust 1992-ci il tarixli 1718 №-li əmri ilə Babək rayonunun Qaraxanbəyli kənd sakini, 1966-cı ildə anadan olmuş, Azərbaycan Bədən Tərbiyəsi İnstitutunu bitirmiş, daxili işlər orqanlarında heç bir təcrübəsi və səriştəsi olmayan, AXC-nin fəal üzvü Mustafayev Səyavuş Firudin oğlunu Naxçıvan MR daxili işlər naziri vəzifəsinə təyin etmişdir.

Bundan əvvəl isə o, 14 avqust 1992-ci il tarixli 1661 l c №-li əmri ilə Ordubad rayon DİŞ-nin rəisi, polis polkovniki F. Əhmədovu heç bir əsas olmadan tutduğu vəzifədən azad etmiş, Ordubad rayon DİŞ-nin rəisi vəzifəsinə Ordubad rayon Xalq Cəbhəsinin təqdimatı ilə yenə də daxili işlər orqanlarında heç bir təcrübəsi olmayan, uzun müddət Rusiyanın şəhərlərində ehtikarlıqla məşğul olan alitəhsilli müəllim Məmmədov İlqar Səid oğlunu təyin etmişdir.

General Həmidovun bu qanunsuz əmrləri ilə əlaqədar 22-24 avqust 1992-ci il tarixdə DİN-in əməkdaşları ümumi yığıncaq keçirmiş, yığıncaqda Həmidovun 18 avqust 1992-ci il tarixli əmri əsassız elan edilmiş və 24 avqust 1992-ci il tarixdə muxtar respublika daxili işlər orqanları əməkdaşlarının ümumi yığıncağında müraciət qəbul edilmiş və polis əməkdaşlarının tələbləri Azərbaycan Respublikası hökumətinə və Daxili İşlər Nazirliyinə göndərilmişdir.

Bəyanat Azərbaycan Respublikası Prezidentinə, Ali Sovetə, Azərbaycan Respublikası DİN-ə və Naxçıvan MR Ali Məclisinə çatdırılaraq onlardan bu özbaşınalığın qarşısını almaq üçün təcili tədbirlər görülməsi xahiş edilmişdir.

Lakin 18 avqust 1992-ci il tarixədək Həmidov özünün şəxsi ambisiyaları əsasında verdiyi subyektiv və Naxçıvan MR Konstitusiyasına zidd əmrlərini dəyişməmiş, həmin əmrlərin icrasını xüsusi göstəriş verilənədək dayandırmış, 1500 nəfər polis əməkdaşının rəyini nəzərə al-

mayaraq, Naxçıvan MR DİN-in fəaliyyətini yoxlamaq üçün məqsədli komissiya göndərmişdir.

Muxtar respublika Daxili İşlər Nazirliyi polis əməkdaşlarının müraciət və bəyanatlarının İ. Həmidov tərəfindən nəzərə alınmaması, muxtar respublika Konstitusiyasına zidd, antidemokratik 18 avqust 1992-ci il tarixli əmrini icra etdirmək məqsədilə sabiq nazir müavini R. Quliyevi Naxçıvana ezam etmək barədə onun qərarı şəxsi heyətin ciddi etirazına səbəb olmuş və nazir Həmidovun şəxsən özünün nəzərinə çatdırılmışdır ki, Naxçıvan MR DİN-in polis əməkdaşları, daxili işlər orqanları siyasi məqsədlərə tabe etdirilən hərəkətlərə və cəhdlərə heç vaxt yol verməyəcək.

Azərbaycan Respublikası Prezidentinə, Ali Sovetə, Naxçıvan MR Ali Məclisinə, Azərbaycan DİN-in kollegiyasına təkrar olaraq müraciət edilmişdir ki, Naxçıvan MR Daxili İşlər Nazirliyi polis əməkdaşlarının mitinq və yığıncaqlarında qəbul edilmiş müraciət və bəyanatlarda irəli sürülmüş haqlı tələblərə üç gün müddətində baxılsın.

Həmçinin Azərbaycan DİN-in respublikada cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə işinə yönəldilmiş əmr və sərəncamları istisna olmaqla, muxtar respublika daxili işlər orqanlarında kadrla əlaqədar siyasi məqsədlər güdən bütün əmr və sərəncamlar etibarsız hesab edilmiş və gələcəkdə icra edilməyəcəyi bildirilmişdir.

Naxçıvan MR DİN-in rəhbərliyi ətrafında 18 avqust 1992-ci il tarixdən 19 sentyabr 1992-ci il tarixədək davam edən və siyasi ambisiyalara əsaslanan hadisələrin, Naxçıvan Muxtar Respublikasında onsuz da gərgin və mürəkkəb olan ictimai, siyasi və psixoloji vəziyyətin hədsiz dərəcədə gərginləşdiyini nəzərə alaraq bildirilmişdir ki, daxili işlər nazirinin 18 avqust 1992-ci il tarixli əmrinin həyata keçirilməsi ilə əlaqədar hər hansı zor və təzyiq işlədilərsə, silahlı qarşıdurma baş verərsə, bunların məsuliyyəti Azərbaycan Respublikası Prezidentinin, Ali Sovet Sədrinin və şəxsən Azərbaycan Respublikası daxili işlər naziri İ. Həmidovun üzərinə düşür.

Lakin bütün bunlara baxmayaraq, 18 avqust 1992-ci il tarixdə S. Mustafayevin nazir vəzifəsinə təyin edilməsi əmrinə qol çəkildikdən sonra, 28 avqust 1992-ci il tarixdə S. Mustafayevin nazir vəzifəsinə təyin

edilməsinə razılıq verilməsi barədə məktubla muxtar respublika Ali Məclisinə müraciət edilmişdir. Yəni muxtar respublikanın Konstitusiyasını kobud şəkildə pozaraq Mustafayevin təyin edilməsi barədə əmr verildikdən sonra Ali Məclisdən razılıq istəməkdə Daxili İşlər Nazirliyi əməkdaşlarının müraciəti, bəyanatı və 1500 nəfər polis əməkdaşının muxtar respublika zəhmətkeşləri ilə birlikdə obyektiv rəyi nəzərə alınmamışdır.

Muxtar respublika Daxili İşlər Nazirliyi əməkdaşlarının və muxtar respublika ictimaiyyətinin təklif, müraciət və bəyanatından sonra, 15 sentyabr 1992-ci il tarixdə muxtar respublika Nazirlər Kabineti Naxçıvan MR-in daxili işlər nazirinin müavini, polis polkovniki Ələkbərov Əsgər Ələkbər oğlunu Naxçıvan MR-in daxili işlər naziri vəzifəsinə təyin etmək üçün Ali Məclisə təqdimat vermişdir.

Azərbaycan Respublikası daxili işlər nazirinin S. Mustafayevin nazir təyin olunmasına dair razılıq məktubu və Naxçıvan MR Nazirlər Kabinetinin Naxçıvan MR Konstitusiyasının 92-ci maddəsinin 10-cu bəndinə əsasən, polis polkovniki Ələkbərov Əsgər Ələkbər oğlunun Naxçıvan MR-in daxili işlər naziri vəzifəsinə təyin olunması barədə təqdimatı alternativ qaydada Naxçıvan MR Ali Məclisinin sessiyasının gündəliyinə salınmış və 17 sentyabr 1992-ci il tarixli sessiyada 86 səsdən 69 səslə Ə. Ələkbərov muxtar respublika daxili işlər naziri vəzifəsinə təyin edilmişdir. S. Mustafayev isə 86 səsdən 3 səs toplamaqla nazir vəzifəsinə təsdiq edilməmişdir.

Bundan sonra Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası konstitusiyalarına hörmətsizliklə yanaşan təkəbbürlü nazir İ. Həmidov muxtar respublikanın Ali Məclisinin sessiyasında nazir vəzifəsinə təyin edilmiş polis polkovniki Ə. Ələkbərovu, nazir müavini, polis polkovniki N. Həsənovu, nazirliyin kadr bölməsinin rəisi, polis mayoru A. Qurbanovu, nazirliyin Mühafizə şöbəsinin rəisi, polis podpolkovniki A. Məmmədovu, nazirliyin qərargah rəisi polis podpolkovniki O. Zalovu, nazirliyin İctimai təhlükəsizlik və asayişi mühafizə şöbəsinin rəisi, polis podpolkovniki B. Əyyubovu, İstintaq şöbəsinin rəisi, polis polkovniki M. Həsənovu 17 sentyabr 1992-ci il tarixli 601 №-li əmri ilə daxili işlər orqanlarından xaric etmişdir (Ə. Ələkbərov istisna

olmaqla digər adları qeyd olunan əməkdaşlar növbəti məzuniyyətdə olmuşlar).

Ona görə də Sizə müraciət edərək Azərbaycan Respublikasının daxili işlər naziri, polis general-mayoru İ. Həmidovun siyasi məqsəd güdən qərəzli və qeyri-obyektiv 17 sentyabr 1992-ci il tarixli, 601 №-li əmrinin ləğv edilməsi, əməkdaşlarımızın hüquqlarının pozulmasının qarşısının alınması üçün səlahiyyətiniz daxilində tədbir görməyiniz xahiş olunur.

Ümidvarıq ki, demokratik hərəkatda Naxçıvan polisinin son dörd ildəki zəhməti nəzərə alınaraq onun tapdanmış hüquqları bərpa ediləcək.

**Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi**
**Polis Əməkdaşlarının Hüquq və Şərəfini Müdafiə Komitəsi**

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yaranmış vəziyyət haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Rəyasət Heyəti bu məsələni birgə iclasda müzakirə edib qeyd edir ki, son iki ay müddətində muxtar respublikanın Daxili İşlər Nazirliyində, onun yerli orqanlarında yaranmış qeyri-normal vəziyyət polisin cinayətkarlığa qarşı mübarizə sahəsində fəaliyyətinə mənfi təsir göstərmiş, muxtar respublikada ictimai-siyasi şəraitin gərginləşməsinə səbəb olmuşdur.

Belə bir vəziyyətin əmələ gəlməsinin əsas səbəbi Azərbaycan Respublikası daxili işlər naziri İ. Həmidovun Konstitusiya normalarını pozan əmrləri, göstərişləri və hüquqazidd hərəkətləri olmuşdur.

Azərbaycan Respublikasının daxili işlər naziri İ. Həmidov 1992-ci il avqust ayının 20-21-də Naxçıvanda olarkən M. Məmmədovun Naxçı-

van Muxtar Respublikasının daxili işlər naziri vəzifəsindən azad olunması, həmin vəzifəyə daha layiqli, bacarıqlı və təcrübəli adamın təyin olunmasının zəruriliyini bildirmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəhbərliyi daxili işlər nazirinin arzusunu nəzərə alaraq onun təklifi ilə razılaşmışdır. Razılıq əldə edilmişdir ki, M. Məmmədov Bakıya işə keçirilir, muxtar respublika daxili işlər nazirinin vəzifəsi birinci müavin Ə. Ələkbərova həvalə edilir, on gündən sonra isə muxtar respublika Ali Məclisi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə muxtar respublikanın daxili işlər naziri vəzifəsinə namizəd barədə qəbul etdiyi son qərarı Ali Məclisin sessiyasının müzakirəsinə verir.

Lakin 1992-ci il avqust ayının 25-də Ali Məclisin Sədri İranda olarkən Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinə muxtar respublikanın Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri işləyən S. Mustafayevin muxtar respublika daxili işlər naziri vəzifəsinə təyin olunması barədə əmr daxil olmuş və bununla da əldə olunmuş razılaşma pozulmuşdur. Son dərəcədə təəccüblüdür ki, S. Mustafayevin təyin edilməsi barədə əmri İ. Həmidov 18 avqust 1992-ci ildə, yəni Naxçıvana gəlməmişdən iki gün əvvəl imzalamışdır. Muxtar respublika daxili işlər nazirinin təyin olunması məsələsi ilə əlaqədar razılığın İ. Həmidov tərəfindən pozulması, həmin vəzifəyə lazımi bilik və təcrübəsi olmayan adamın irəli sürülməsi şəxsi heyətdə böyük narazılıq və etiraz hissi yaratmış, yığıncaqların keçirilməsinə, bəyanatların qəbul olunmasına, hətta Naxçıvan şəhər ictimaiyyətinin iştirakı ilə mitinqlərin keçirilməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 1992-ci il avqust ayının 26-da İrandan Naxçıvana qayıdan kimi əmələ gəlmiş gərgin vəziyyəti aradan qaldırmaq və konstitusiyanın tələblərinə müvafiq olaraq muxtar respublika daxili işlər nazirinin məsələsini həll etmək üçün İ. Həmidovla telefon əlaqəsi yaratmağa cəhd etmişdir. Lakin telefon zənglərinə cavab verilməmiş, İ. Həmidovla danışmaq və məsələni aydınlaşdırmaq mümkün olmamışdır. Sonrakı günlərdə də dəfələrlə İ. Həmidovla telefon əlaqəsi yaratmaq səyləri indiyə qədər heç bir nəticə verməmişdir.

İ. Həmidovun muxtar respublikanın Ali Məclisi ilə telefon danışıqlarından qaçdığını, Naxçıvan Muxtar Respublikasında vəziyyəti gərginləşdirən hərəkətlərə yol verdiyini nəzərə alaraq Ali Məclisin Sədri mövcud vəziyyətlə əlaqədar bir neçə dəfə telefonla Azərbaycan Respublikası Ali Sovetinin Sədri İ. Qəmbərova, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə məlumat vermiş və müvafiq tədbirlər görülməsini xahiş etmişdir. Təəssüf ki, bu danışıqlar da müsbət nəticələr verməmişdir.

Bu müddətdə İ. Həmidov Naxçıvan Muxtar Respublikasının qanuni hakimiyyət orqanlarını saymayaraq S. Mustafayevin daxili işlər naziri təyin olunması barədə konstitusiya normalarının ziddinə olan 18 avqust 1992-ci il tarixli əmrinin inadkarlıqla həyata keçirilməsinə nail olmağa çalışmışdır. Bu məqsədlə Azərbaycan Respublikası daxili işlər nazirinin müavini R. Quliyevin S. Mustafayevi nazir kimi muxtar respublika Daxili İşlər Nazirliyinin kollektivinə təqdim etmək tapşırığı ilə Naxçıvana gəlməsi Daxili İşlər Nazirliyinin əməkdaşlarında yeni etiraz dalğasının yaranmasına səbəb olmuşdur. Muxtar respublika daxili işlər orqanlarının əməkdaşlarına təzyiq göstərmək məqsədilə onların fəaliyyətini yoxlamaq üçün böyük komissiya göndərilmişdir.

1992-ci il sentyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının işə başladığı gün S. Mustafayevin daxili işlər naziri təyin edilməsi barədə Azərbaycan Respublikası daxili işlər nazirinin 18 avqust 1992-ci il tarixli əmrinin yerinə yetirilməsi tapşırığı ilə Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini M. Cəfərov Naxçıvana gəlmişdi. Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri haqqında məsələ 1992-ci il sentyabr ayının 16-da öz işinə başlayan sessiyanın gündəliyinə daxil edilmişdir. Buna görə M. Cəfərova xəbərdarlıq olunmuşdur ki, daxili işlər nazirinin məsələsi yalnız Azərbaycan Respublikası Konstitusiyasına və Naxçıvan Muxtar Respublikası Konstitusiyasına müvafiq surətdə Ali Məclisin sessiyasında həll edilə bilər və o, sessiyanın bu məsələ ilə əlaqədar iclasına dəvət olunur. Lakin M. Cəfərov bu dəvətdən imtina etmiş, Azərbaycan Respublikası daxili işlər nazirinin qeyri-qanuni əmrini güc işlətməklə həyata keçirməyə cəhd göstərmişdir.

Təəssüf hissi doğuran fakt odur ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi rəhbərliyinin bu hüquqa zidd, antikonstitusion hərəkətlərinə Naxçıvan Xalq Cəbhəsinin bəzi üzvləri də qoşulmuşlar. M. Cəfərovla birlikdə Xalq Cəbhəsinin rəhbərləri A. Rəhimov, A. Quliyev Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyində olmuş, S. Mustafayevin nazir təyin olunması barədə əmrin həyata keçirilməsi məqsədilə daxili işlər orqanlarının əməkdaşlarına təzyiq göstərməyə cəhd etmiş, əks təqdirdə məsələnin ağır nəticələr doğuracağı ilə hədələmişlər.

Belə bir şəraitdə 1992-ci il sentyabr ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası Azərbaycan Respublikasının Konstitusiyası və Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ilə ona verilən hüquq və səlahiyyətlərdən istifadə edərək muxtar respublikanın daxili işlər naziri haqqında məsələni müzakirə etmişdir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin daxili işlər naziri vəzifəsinə nazirin birinci müavini, polis polkovniki Ə. Ələkbərovun təyin olunması barədə təklifi müzakirə olunmuşdur. Xalq deputatlarının əksəriyyətinin səs çoxluğu ilə Ali Məclisin sessiyasında qəbul olunmuş qərarla Ə. Ələkbərov Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsinə təyin edilmişdir (iştirak edən 86 deputatın 69-u bu qərarın lehinə səs vermişdir).

Sessiya həmçinin S. Mustafayevin Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri təyin olunması barədə Azərbaycan Respublikası daxili işlər nazirindən 1992-ci il avqust ayının 28-də Ali Məclisə daxil olmuş təklifini də müzakirə etmişdir. Onu da qeyd etmək lazımdır ki, bu təklif S. Mustafayev haqqında qanunsuz əmrin imzalanmasından 10 gün sonra Ali Məclisə daxil olmuşdur. Bu təklif xalq deputatları tərəfindən müdafiə olunmamış, 86 deputatın yalnız 3 nəfəri onun lehinə səs vermişdir.

1992-ci il sentyabr ayının 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən muxtar respublika daxili işlər nazirinin təyin olunması barədə qərar qəbul olunan gün Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini M. Cəfərov Naxçıvanda Daxili İşlər Nazirliyi və onun ətrafında yaranmış gərgin vəziyyətin şahidi olmuşdur.

Güman etmək olardı ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi yaranmış vəziyyəti nəzərə alacaq, bundan sonra Azərbaycan Respublikası Konstitusiyasına, Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarına hörmət edəcək. Lakin həmin gün daha bir hüquqazidd hərəkət baş verdi. Azərbaycan Daxili İşlər Nazirliyi Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsinə yenicə təyin olunmuş polis polkovniki Ə. Ələkbərovun - daxili işlər nazirinin müavini, polis polkovniki, muxtar respublikanın xalq deputatı N. Həsənovun - İstintaq bölməsinin rəisi, polis polkovniki M. Həsənovun qərargah rəisi, polis podpolkovniki O. Zalovun - bölmə rəisi, polis podpolkovniki B. Əyyubovun - Mühafizə bölməsinin rəisi, polis podpolkovniki A. Məmmədovun - Kadr və şəxsi heyətlə iş şöbəsinin rəisi, polis mayoru A. Qurbanovun daxili işlər orqanlarından çıxarılmaları haqqında əmr verdi.

Bununla əlaqədar muxtar respublika Daxili İşlər Nazirliyinin 1992-ci il sentyabrın 17-də əmrlə daxili işlər orqanlarından çıxarılan bir qrup rəhbər işçisi Azərbaycan Respublikasının rəhbər instansiyalarına şikayət etmişlər. Onlar Azərbaycan Respublikası Ali Sovetinin şöbələrində, Azərbaycan Respublikası Ali Sovetinin Sədri İ. Qəmbərovun yanında, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında və Azərbaycan Respublikası Prokurorluğunda qəbulda olmuşlar. Lakin heç bir qaneedici cavab ala bilməmişlər.

İ. Həmidov tərəfindən Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarına və səlahiyyətlərinə məhəl qoyulmaması özünü bir daha onda göstərmişdir ki, Ali Məclisin Ə. Ələkbərovun Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsinə təyin olunması barədə qərarından sonra o, muxtar respublika Daxili İşlər Nazirliyinin şöbə rəisi T. Allahyarovu Bakıya çağırmış, öz əmri ilə onu nazir müavini təyin etmiş və nazir vəzifəsini aparmağı ona həvalə etmişdir. Bununla o, muxtar respublika Daxili İşlər Nazirliyinin rəhbər işçiləri arasında qarşılıqlı münasibətin kəskinləşməsinə nail olmaq istəmişdir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqları Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən onun Ordubad rayon Daxili İşlər Şöbəsinin rəisi haqqında 14 avqust 1992-ci il əmri ilə də

pozulmuşdur. Bu əmrlə rayon Daxili İşlər Şöbəsinin rəisi F. Əhmədov heç bir əsas olmadan və Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin xəbəri olmadan tutduğu vəzifədən azad edilmişdir. Rayon daxili işlər şöbəsinin rəisi vəzifəsinə, əmrdə göstərildiyi kimi, Ordubad rayon Xalq Cəbhəsinin təqdimatı ilə əvvəllər müəllimlik edən, daxili işlər orqanlarında işləmək üçün heç bir təcrübəsi və təhsili olmayan İ. Məmmədov təyin olunmuşdur. Narahatlıq doğuran odur ki, bu əmrə istinad edən Xalq Cəbhəsinin silahlı dəstəsi rayon milis şöbəsini güc işlətməklə qorxudaraq, təzyiq göstərməyə cəhd etmişdir. Sonradan Azərbaycan Daxili İşlər Nazirliyinin əmrinə əsaslanan Ordubad rayon Xalq Deputatları Məclisi rayon Daxili İşlər Şöbəsinin rəisi haqqında qərar qəbul etmiş, eyni zamanda qanunsuz hərəkətlərə yol verərək rayon Daxili İşlər Şöbəsinin telefon xətlərini kəsmiş, onu elektrik enerjisindən, su təchizatından və s. məhrum etmiş və bank hesabını bağlamışdır.

Azərbaycan Respublikasının daxili işlər naziri İ. Həmidov yuxarıda göstərilən bütün əmr və hərəkətləri ilə Azərbaycan Respublikası Konstitusiyasının 131-ci, 133-cü maddələrini, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 68-ci, 92-ci, 104-1-ci maddələrini kobud surətdə pozmuş, muxtar respublikanın Konstitusiya hüquqlarına və səlahiyyətlərinə müdaxilə etmişdir.

Bütün yuxarıda göstərilən hərəkətlərin nəticəsində uzun müddət Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin fəaliyyəti iflic olmuşdur. Bu, elə bir məqamda baş vermişdir ki, 6 aydan artıq muxtar respublikanın Bakı və digər regionlarla dəmiryol əlaqəsi kəsilmiş, yaranmış iqtisadi blokada nəticəsində Naxçıvanda sosial-iqtisadi, ictimai-siyasi şərait daha da gərginləşmiş, cinayətkarlıq artmışdır. Bütün bu çatışmazlıqların aradan qaldırılmasında fəal iştirak etmək, cinayətkarlarla ciddi mübarizə aparmaq, bəzi dəstələrdə, ayrı-ayrı şəxslərdə qanunsuz saxlanılan silahların yığılması ilə məşğul olmaq, Ermənistanla həmsərhəd yaşayış məntəqələrinin təhlükəsizliyinin və müdafiəsinin təşkilinə nail olmaq əvəzinə, daxili işlər orqanlarının əməkdaşları yaranmış qeyri-normal şəraitlə əlaqədar öz hüquqlarının müdafiəsi və qorunması ilə məşğul olmuş, müxtəlif proseslərə cəlb

edilmişlər. Bu hal isə muxtar respublikada asayişin qorunması işinə böyük ziyan vurmuşdur.

Bütün bu müddət ərzində Naxçıvan Muxtar Respublikasının Ali Məclisi daxili işlər nazirinin Konstitusiyaya zidd, qeyri-qanuni qərarlarına və hərəkətlərinə təmkinli münasibət bəsləmiş, onunla əlaqə yaratmağa çalışmış, qarşılıqlı anlaşma və işgüzar şəraitdə süni surətdə yaradılmış problemləri həll etməyə cəhd etmişdir. Lakin bütün bunlar istənilən nəticəni verməmişdir. Əksinə, daxili işlər naziri Ə. Ələkbərovun və onun müavini T. Allahyarovun verdikləri məlumatdan aydın olur ki, dünən, 1992-ci il oktyabr ayının 14-də İ. Həmidov telefonla Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə zəng etmiş, nazir Ə. Ələkbərovla danışmaq istəmədiyini bildirərək, nazir müavini T. Allahyarovu telefona çağırtdırmış və xəbərdarlıq edərək demişdir ki, əgər onun əmri ilə işdən çıxarılmış Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin rəhbər işçiləri üç gün müddətinə tutduqları vəzifədən azad olunmasalar, o, Naxçıvana gələcək və güc tətbiq etməklə istədiyinə nail olacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyətləri Azərbaycan Respublikasının daxili işlər nazirinin bu cür hədə-qorxusuna qarşı qəti etirazlarını bildirir və bəyan edirlər ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqları toxunulmazdır, onlar qanunlar və muxtar respublikanın qanuni hakimiyyət orqanları tərəfindən müdafiə olunacaq və heç kimə onu pozmaq imkanı verilməyəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyətləri belə hesab edirlər ki, Azərbaycan Respublikasının daxili işlər naziri İ. Həmidovun 18 avqust 1992-ci il Konstitusiyaya zidd əmri, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sonrakı qeyri-qanuni qərarları, muxtar respublika Daxili İşlər Nazirliyinin fəaliyyətinə aid məsələlərin obyektiv müzakirəsində və həllində Azərbaycanın yuxarı instansiyalarının biganəliyi Naxçıvan Muxtar Respublikasında sabitliyi pozmaq istəyən Azərbaycanın bəzi dairələrinin qəsdən bu istiqamətə yönəldilmiş cəhdi kimi qiymətləndirilə bilər.

Yuxarıdakıları əsas tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyətləri **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşlarına qarşı əmrlərində və göstərişlərində öz əksini tapan Azərbaycan Respublikası daxili işlər naziri İ. Həmidovun hərəkətləri Azərbaycan Respublikası Konstitusiyasında, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında nəzərdə tutulan Naxçıvan Muxtar Respublikasının hüquqlarının və səlahiyyətlərinin pozulmasına yönəldilmiş hərəkət kimi pislənsin.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyətləri ümid edirlər ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyində əmələ gəlmiş vəziyyətə obyektiv, hissiyyata qapılmadan baxacaq, bu orqanın normal fəaliyyətini təmin etmək üçün lazımi tədbirlər həyata keçirəcək.

2. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyindən və onun yerli orqanlarından tələb edilsin ki, hüquq qaydalarını möhkəmləndirmək işini və cinayətkarlıqla mübarizəni gücləndirsin, işində olan ciddi nöqsanları qətiyyətlə aradan qaldırsın, şəxsi heyətin fəaliyyətində intizamı, qanun-qaydanı, qanunçuluğu möhkəmləndirsin, bütün qanun pozanlara qarşı qəti tədbirlər həyata keçirsinlər.

3. Azərbaycan Respublikası Prezidentindən, Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilsin ki, bu qərara baxıb Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarının və səlahiyyətlərinin qorunması üçün müvafiq tədbirləri həyata keçirsinlər.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

**Ş. XAN-BABAYEV,**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

*Naxçıvan şəhəri, 15 oktyabr 1992-ci il*

## KƏSKİN QARŞIDURMA FACİƏYƏ APARAR

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası

Oktyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası keçirilmişdir. Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev sessiyanı açarkən demişdir ki, oktyabrın 24-də Naxçıvanda baş vermiş hadisə - dövlət çevrilişi cəhdi çox gərgin vəziyyət yaradıb. Elə həmin gün keçirilmiş Ali Məclisin Rəyasət Heyətinin iclasında bu məsələyə Ali Məclisin fövqəladə sessiyasında baxmaq qərara alınmışdır. Sessiyanın müzakirəsinə bir məsələ verilir - Naxçıvan Muxtar Respublikasında baş vermiş dövlət çevrilişi cəhdi haqqında.

Eyni zamanda Heydər Əliyev bildirmişdir ki, sessiyanın keçirildiyini nəzərə alaraq Naxçıvan MR Nazirlər Kabinetinin kadr məsələləri üzrə iki təklifi də deputatların müzakirəsinə verilir. Təklif var ki, həmin məsələlər də sessiyanın gündəliyinə salınsın.

Sessiyanın gündəliyi təsdiq edildi.

Heydər Əliyev bildirdi ki, oktyabrın 24-də Ali Məclisin qarşısında keçirilən mitinqlərdə və eləcə də onun Naxçıvan televiziyası və radiosu ilə qısa çıxışında baş vermiş hadisə haqqında danışılıb, deputatlar da bu məsələdən xəbərdardırlar. Ona görə də məsələ haqqında xüsusi bir məruzəyə ehtiyac yoxdur. AXC Naxçıvan MR bölgəsinin rəhbərliyi qeyri-qanuni saxladıqları silahlı dəstələri ilə oktyabrın 24-də Naxçıvan MR Daxili İşlər Nazirliyinə hücum edərək oranı işğal etmiş, nazirliyin oradakı əməkdaşlarını işdən kənar etmiş və bir neçə saat Daxili İşlər Nazirliyinin binasını öz əllərində saxlamışlar.

Onlar yarım saat sonra silah gücü ilə Naxçıvan Televiziya və Radio Verilişləri Komitəsini, televiziya mərkəzini və studiyasını da zəbt edərək orada adamları işdən kənarlaşdırmış və qanunsuz hərəkətlər etmişlər. Bunlar, şübhəsiz ki, cinayət hərəkətləridir. Baş verən hadisələr barədə geniş məlumatı daxili işlər nazirindən, habelə Televiziya və Radio Verilişləri Komitəsinin sədrindən ala bilərik.

Sonra Naxçıvan MR daxili işlər naziri Ə. Ələkbərov baş vermiş hadisə barədə məlumatla çıxış edərək demişdir ki, oktyabrın 24-də

saat 16.00 radələrində AXC Naxçıvan və Ordubad bölgələrinin silahlı dəstələri tərəfindən muxtar respublikanın Daxili İşlər Nazirliyi silahlı hücuma məruz qalmışdır. Həmin silahlı dəstələrə Azərbaycanın xalq deputatı, AXC Ordubad bölgəsinin sədri Fərəc Quliyev, AXC Naxçıvan bölgəsinin sədri Asəf Quliyev, Naxçıvan MR-in xalq deputatları Vaqif Almuradov, Azərbaycan Respublikası daxili işlər naziri İ. Həmidovun əmri ilə Naxçıvan MR daxili işlər naziri təyin olunmuş Siyavuş Mustafayev, Xalq Cəbhəsinin bir sıra başqa fəalları başçılıq edirdilər. 200 nəfərlik silahlı dəstə Daxili İşlər Nazirliyinə basqın edərək nazirliyin bütün fəaliyyətini pozmuş, silah saxlanan anbarlar və növbətçi hissə 3-4 saat ərzində həmin silahlı dəstələrin əlində olmuşdur.

Eyni zamanda, Xalq Cəbhəsinin silahlı qüvvələri tərəfindən Naxçıvan Televiziya və Radio Verilişləri Komitəsinə, televiziya mərkəzinə də basqın edilmiş, ilkin məlumata görə orada olan aparatlara və avadanlığa 1 milyon manatadək ziyan dəymişdir. Xalq Cəbhəsinin qeyri-qanuni saxladığı hərbi texnika ilə Televiziya və Radio Verilişləri Komitəsinin darvazası uçurulmuşdur. Bu qüvvələrə Televiziya və Radio Verilişləri Komitəsi sədrinin müavini Fəridə Abdullayeva yaxından kömək etmişdir. Basqın nəticəsində xəsarət alan 4 nəfər hazırda hospitalda müalicə olunur. Onlardan biri, şəhər Daxili İşlər Şöbəsinin polis nəfəri Məmmədov ayağından güllə yarası almış, Daxili İşlər Nazirliyinin məsul işçisi Eldar İbrahimov vəhşicəsinə döyülmüş, onun beyni silkələnmiş, beş dişi düşmüş və o, çox ağır xəsarətlə xəstəxanaya çatdırılmışdır. Eləcə də iki nəfər dinc sakin ağır xəsarət almışdır.

Bunlardan əlavə, Naxçıvan Elektrik Şəbəkəsi cəbhəçilər tərəfindən nəzarətə götürülmüşdür. Rabitə İdarəsinə də basqın edilmişdir.

Naxçıvan polisi, eləcə də Ali Məclisin qarşısında toplaşmış Naxçıvan əhalisi və rayonlardan gəlmiş minlərlə adam çox təkidlə Ali Məclisin rəhbərliyindən, habelə muxtar respublikada yerləşən silahlı qüvvələrdən tələb etmişlər ki, bu qanunsuzluğa - dövlət çevrilişi cəhdinə qarşı qəti tədbirlər görülsün, silahlı dəstələr təcili olaraq zərərsizləşdirilsin.

Lakin biz yaxşı başa düşürük ki, əgər bu dəstələr silah gücü ilə tutduqları binalardan çıxarılardısa çoxlu qan tökülər, itkiyə yol verilərdi. Ona görə də polis çox ehtiyatla danışığa girməklə, eləcə də ağsaqqalların, əhalinin köməkliyi ilə Daxili İşlər Nazirliyinin binasını həmin qüvvələrdən təmizləmişdir. Televiziya Komitəsindən fərqli olaraq nazirlikdə atışma olmamışdır. Lakin binanı tutanlar tavana, divarlara atəş açaraq bərbad vəziyyətə salmışlar. Televiziya Komitəsində isə həmin binaya yaxınlaşan əhalinin başı üzərindən pulemyotlardan və avtomatlardan atəş açılmış, çoxlu xəsarət alan olmuşdur ki, bu da muxtar respublika əhalisini hiddətləndirmişdir.

Ə. Ələkbərov demişdir ki, alınan məlumata görə, həmin qüvvələr yenə də hazırlıq aparır, yenə də onların aksiyasına Azərbaycan Daxili İşlər Nazirliyi tərəfindən rəhbərlik edilir. Ən təəssüf doğuran hal burasıdır ki, bu qeyri-qanuni quldur hərəkətlərinə bizim bəzi xalq deputatları, eləcə də AXC-nin fəal üzvləri rəhbərlik edirlər. Dövlət çevrilişinə cəhd göstərənlərdən üç nəfəri həbsə alınmışdır. Ordubad rayon Daxili İşlər Şöbəsinə qeyri-qanuni olaraq rəis təyin edilmiş İlqar Məmmədov Daxili İşlər Nazirliyinə basqının təşkilatçılarından biri kimi yaxalansa da o, muxtar respublikanın xalq deputatı olduğuna görə prokurorluq orqanları onun həbs olunmasına sanksiya verməmişdir. Nə vaxtadək bəzi adamlar deputat mandatı arxasında gizlənərək quldurluqla məşğul olacaqlar? Bu barədə millət vəkilləri öz qəti sözlərini deməlidirlər.

Nazir qeyd etmişdir ki, kiçik bir anlaşılmazlıq, narazılıq üstündə Xalq Cəbhəsinin saxladığı qeyri-qanuni silahlı dəstələri, onların zirehli texnikası, müasir silahları Daxili İşlər Nazirliyinə qarşı yönəldilir. Polis işçiləri dəfələrlə onlar tərəfindən döyülmüş, təhqir olunmuşlar. Onu da təəssüflə qeyd etmək lazımdır ki, dünən tutulmuş 3 avtomaşının üçü də Azərbaycan Milli Ordusunun Naxçıvandakı hissəsinə məxsusdur. Dəfələrlə cinayət törətmiş adamlar Milli Orduda məsul vəzifələr tuturlar.

Nazir Bakıdan gəlmiş nümayəndələrə müraciət edərək xahiş etmişdir ki, onlar respublika rəhbərliyinə Naxçıvanda baş vermiş hadisələr barədə obyektiv məlumat verib, qeyri-normal vəziyyətə son qoyulma-

sına nail olsunlar. Bu da mümkün olmasa, qoy respublika Prezidenti Naxçıvana gəlsin, bura onun Vətənidir. Qoy gəlib bu məsələləri yerindəcə həll etsin.

Naxçıvan MR Televiziya və Radio Verilişləri Komitəsinin sədri Elman Həbib öz məlumatında bildirmişdir ki, oktyabrın 24-də saat 16.15-də beş nəfər silahlı adam onun kabinetinə girmiş, komitə sədrinin "Nə məqsədlə gəlmisiniz?" sualına "bilərsiniz" - deyə cavab vermişlər. Ondan yarım saat sonra AXC Naxçıvan bölgəsinin sədri Asəf Quliyev və bir nəfər də gəlib həmin gün televiziya vasitəsilə xalqa müraciət edəcəklərini bildirmişlər. Onlar gedəndən sonra otaqda olan silahlılardan biri Xalq Cəbhəsinə telefonla zəng edərək tezliklə verilişlərin başlanacağını bildirmiş və onları çıxış etmək üçün komitəyə çağırmışdır.

Otaqdan çıxmağa imkan olmadığına görə komitə sədri studiya ilə əlaqə saxlaya bilməmişdir. Sonra məlum olmuşdur ki, həmin vaxt sədrin müavini Fəridə Abdullayeva studiyada olmuş, Fərəc Quliyevin və Asəf Quliyevin televiziya vasitəsilə çıxışlarını təşkil etmişdir. Onların çıxış etdikləri vaxt bayırda hay-küy qopmuş, Televiziya Komitəsi ətrafına yığışan adamlar etiraz etməyə başlamışlar. Binanın qarşısı adamla dolduğundan silahlı cəbhəçilər bayıra çıxa bilməmiş, Xalq Cəbhəsinə zəng edərək döyüş maşını göndərilməsini tələb etmişlər. Çox keçmədən iki zirehli maşın gələrək darvazanı uçurdub həyətə girmiş və yalnız bundan sonra silahlılar oranı tərk etmişlər.

Komitə sədri onu da qeyd etmişdir ki, bu müddətdə onlara heç bir köməklik gəlməmişdir. Binanın girəcəyindəki polis postunda bir nəfər növbədə olmuşdur. Silahlı adamlar onu döyüb silahını əlindən almışlar. E. Həbib çıxışının sonunda demişdir ki, əgər belə cinayət hadisələrinin qarşısı vaxtında alınmasa, biz bundan da dəhşətli hadisələrlə rastlaşa bilərik.

Məsələnin müzakirəsində çıxış edən deputatlar bu dövlət çevrilişi cəhdini qətiyyətlə pisləmiş, ona hüquqi və siyasi qiymət verilməsini tələb etmişlər. Naxçıvan MR daxili işlər nazirinin müavini, xalq deputatı N. Həsənov demişdir ki, hadisə heç də gözlənilməz deyildi. Biz 10 gün ərzində Bakıda Milli Məclisin Sədri İsa Qəmbərovun, Prezident

Aparatının işçisi Fazil Mustafayevin və digər məsul şəxslərin yanında olmuş və bütün bu məsələlərin həll olunmasına çalışmışıq. Lakin məsələ öz həllini tapmamışdır. Ali Məclis bu müzakirə ilə kifayətlənməməli, məsələnin birdəfəlik həllinə nail olmalıdır.

Deputat F. Şirzadov Azərbaycan daxili işlər naziri İ. Həmidovun hərəkətlərini Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının kobud surətdə tapdalanması kimi qiymətləndirmişdir. O demişdir ki, hər hansı bir mübahisəli məsələ nizamlanarkən yalnız qanuna istinad edilməlidir. Dövlət yalnız qanunla idarə olunmalıdır.

Sessiyada çıxış edən xalq deputatları Y. Hacıyev, T. Əliyev, H. Cəfərov, M. Pavdayev, A. Səfərov, E. Hüseynov, X. Abbasov, Ə. Talıbov, Azərbaycanın xalq deputatları A. Həsənov, E. İbrahimov və başqaları da oktyabrın 24-də baş vermiş hadisəni dövlət çevrilişi cəhdi kimi qiymətləndirmişlər.

Çıxış edənlər polis işçilərinin passivliyini, acizliyini də ciddi tənqid etmişlər. Xalq deputatı T. Allahyarov çox haqlı olaraq demişdir ki, əgər polis işçiləri öz-özlərini müdafiə edə bilmirlərsə, onların həmin kabinetdə oturmağa haqları yoxdur.

Azərbaycan Milli İstiqlal Partiyasının təmsilçisi Ə. Yusifov çıxışında Naxçıvanda olan partiyalara müraciət edərək onları bu hadisəyə öz münasibətlərini bildirməyə çağırmışdır. O demişdir ki, bir yerdə ki, idarəetmə qanunla yox, yumruqla həyata keçirilir, ondan heç bir yaxşı şey gözləmək olmaz.

Sonra Ə. Yusifov Azərbaycan Milli İstiqlal Partiyası Naxçıvan şöbəsinin həmin hadisə ilə əlaqədar bəyanatını oxumuşdur.

Sessiyada çıxış edən Ali Məclis Sədrinin müavini R. Həsənov oktyabrın 24-də edilmiş dövlət çevrilişi cəhdi ilə əlaqədar Azərbaycanın bir qrup ziyalısının Azərbaycan Prezidentinə, respublika Milli Məclisinə və Naxçıvan MR Ali Məclisinə müraciətini oxudu. Respublikamızın görkəmli akademikləri, alimləri və ictimai xadimlərinin - cəmi 91 nəfərin imzaladığı müraciətdə deyilir: "Oktyabrın 24-də Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını cinayətkarcasına pozaraq Naxçıvan Xalq Cəbhəsinin bir ovuc qaragüruhçu dəstəsi silah və zirehli texnika tətbiq etməklə Daxili İşlər

Nazirliyinin, Televiziya və Radio Verilişləri Komitəsinin binalarına basqın edərək həmin dövlət idarələrini zəbt etmiş, beləliklə, dövlət çevrilişi etməyə cəhd göstərmişlər. Oktyabrın 25-də Bakı şəhərində toplanan ziyalıların bir qrupu Naxçıvanda baş verən bu çirkin qəsdi qətiyyətlə pisləyir, onu demokratiyaya, hüquqi dövlət prinsiplərinə, insan hüquqlarına da beynəlxalq normalara açıqdan-açığa zidd əməl kimi qiymətləndirir.

Toplanış iştirakçıları bu cinayətin təşkilatçılarını və icraçılarını təxirə salmadan müəyyənləşdirib, ciddi cəzalandırılmasını və Naxçıvan Muxtar Respublikasında qanunçuluğun və hüquq qaydalarının bərpa olunmasını tələb edirlər.

Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini A. Cəlilov, muxtar respublika Ali Məclisi Sədrinin müavinləri Q. Məmmədov, A. Kələntərli, A. Səfərov, muxtar respublikanın Baş naziri Ş. Xan-Babayev, Baş nazirin birinci müavini M. Abbasov, qocaman həkim C. Cəfərov, yazıçı-jurnalist S. Təbrizli və başqaları çıxış edərək oktyabrın 24-də Naxçıvanda baş vermiş hadisəyə öz münasibətlərini bildirmişlər.

Heydər Əliyev müzakirələrə yekun vuraraq demişdir ki, dünən baş vermiş hadisə vaxtı dəfələrlə Azərbaycan Prezidenti ilə danışmış, lakin lazımi tədbir görülməmişdir. Hadisədən xəbər tutan adamlar şəhərdən, yaxın kəndlərdən, rayonlardan axışaraq Ali Məclisin qarşısına toplanmış, saatlarla mitinq keçirərək dövlət çevrilişi cəhdinin təşkilatçılarını qəzəblə pisləmiş, bu çirkin təxribatlara son qoyulmasını respublika rəhbərliyindən tələb etmişlər.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, bütün Naxçıvan əhalisi həyəcan içərisindədir. Dünənki hadisəyə prinsipial qiymət verilməli və gələcəkdə bunun bir daha təkrar olunmaması üçün qəti tədbirlər görülməlidir. Baş vermiş hadisə hamımızın gözü qarşısındadır. Biz bunun öz qiymətini verməliyik. Lakin bəzi adamlar nədənsə açıq danışmaqdan çəkinir.

Heydər Əliyev demişdir: “Dünən hadisənin baş verməsi haqqında xəbər alan kimi mən dərhal İsgəndər Həmidova zəng vurdum. Onun köməkçisi, adı da Mərdandır, dedi ki, bu dəqiqə sizi birləşdirərəm. Lakin heç bir dəqiqə keçməmiş o mənə dedi ki, “bilirsiniz, mən sizinlə

danışan vaxt İsgəndər Həmidov otaqdan çıxıb harasa gedib”. Beləliklə, onunla danışa bilmədim.

Bundan sonra Azərbaycan Prezidenti Əbülfəz Elçibəyə zəng etdim. Vəziyyəti danışdım. Dedim ki, təcili tədbir görmək lazımdır. O da öz növbəsində soruşdu ki, “mən nə etməliyəm?”. Mən dedim ki, siz Azərbaycanın Prezidentisiniz, həm də Azərbaycan Xalq Cəbhəsinin sədrisiniz. Bu cinayəti törədən də Naxçıvan Xalq Cəbhəsinin rəhbərləri və onların qeyri-qanuni olaraq saxladıqları silahlı dəstələrdir. Dedim ki, onlar bu dəqiqə oturublar Daxili İşlər Nazirliyində. Siz onlara zəng edib deyin ki, oradan çıxıb getsinlər və bununla da, hadisə bitmiş hesab edilsin, yoxsa vəziyyət get-gedə gərginləşir. Təəssüf ki, bu danışıq bir nəticə vermədi. İkinci dəfə zəng etdim. Bu dəfə Qafar Məmmədov və Asif Kələntərli də yanımda idilər. Dedim ki, Əbülfəz bəy, vəziyyət gərginləşir, camaat bura toplaşır, burda qan tökülə bilər. Təcili tədbir görmək lazımdır. Qafar bəy, Asif bəy də onunla telefonla danışdılar. Lakin Prezident onlara da konkret bir söz demədi. Dedi ki, biz burda məsləhətləşəcəyik.

Vaxt getdikcə Ali Məclisin qabağında adamların sayı durmadan artırdı. Mən hər 15 dəqiqədən bir Prezidentə zəng edirdim. Lakin heç bir nəticə hasil olmurdu. Bir qrup ağsaqqal mənim yanıma gələrək dedilər ki, icazə verin gedək Daxili İşlər Nazirliyinə, oranı silahlı adamlardan boşaldaq. Biz buna razı olmadıq. Onları sakitləşdirdik ki, düşünülməmiş bir addım atılmasın. Çünki ora silahlı və həm də ağlı başında olmayan adamlar toplaşmışdılar. Onlardan nə desən gözləmək olardı. Onlar onsuz da qeyri-qanuni bir işə girişmişdilər, cinayət etmişdilər. Biz tərəfdən düşünülməmiş hərəkətlərə yol vermək olmazdı.

Bu danışıqlar heç bir nəticə vermədi. Saat 8-də mən gördüm ki, camaatın ehtirası çox qızışır. Mən onların qarşısında çıxış etdim. Çıxışımda hamını səbirli olmağa çağıraraq dedim ki, heç kəs qan tökülməsinə səbəb olacaq addım atmamalıdır. Eyni zamanda mən Xalq Cəbhəsinə də müraciət etdim və dedim ki, əgər bir saat ərzində silahlı dəstələr tutduqları yerləri tərk etməsələr, bu camaat silahsız ora gələcək və heç şübhə etməsinlər ki, onları oradan çıxarmağa nail olacaq-

lar. Əgər bu dinc, silahsız adamlara atəş açılsa, bu da çox böyük cinayət olacaq.

Bundan sonra Daxili İşlər Nazirliyinin işçiləri ora getdilər və çox keçmədən mənə məlumat verdilər ki, silahlı adamlar nazirliyin binasını tərk ediblər.

Burada qeyd edildi ki, zirehli maşınlar Televiziya və Radio Verilişləri Komitəsinin darvazasını uçurub dağıdaraq içəri girib, oradakı adamları vahiməyə salıb. Bundan artıq nə cinayət ola bilər?!

Ona görə də mən belə hesab edirəm ki, dünənki hadisə, ilk növbədə, Naxçıvan qadınlarının, Naxçıvan əhalisinin, gənclərinin və ağsaqqalların birləşib bu cinayətə qarşı çıxmaları nəticəsində dəf olundu.

Mən bir daha bu gün Ali Məclisin sessiyasında bütün naxçıvanlılara, Vətənini və xalqını sevən qeyrətli və namuslu adamların hamısına burda olan deputatların adından və öz adımdan minnətdarlığımı bildirirəm. Onlara bildirmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi onların hüquqlarının qorunması keşiyində duracaq və Azərbaycan Respublikasının Konstitusiyasında və Naxçıvan MR Konstitusiyasında təsbit olunmuş hüquqlarının qorunmasını təmin edəcəyik.

Mən burda çıxış edən deputatların əksəriyyətinin fikri ilə razıyam ki, baş vermiş hadisə dövlət çevrilişi cəhdi idi. Bu cəhd ona görə baş tutmadı ki, bütün Naxçıvan əhalisi qətiyyətlə onun əleyhinə çıxdı.

Açıq demək lazımdır ki, bu çevriliş cəhdi muxtar respublikanın Daxili İşlər Nazirliyini və televiziyanı tutmaq deyil, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və onun rəhbərliyinə qarşı yönəldilmişdi. Mən bu hərəkətləri, dünənki çevriliş cəhdini Naxçıvanda sabitliyi pozmaq, qarışıqlıq yaratmaq kimi, Heydər Əliyevə qarşı təxribat kimi qiymətləndirirəm. Bildirirəm ki, mənə gələn məlumatlardan, siqnallardan aydın olur ki, Naxçıvan Xalq Cəbhəsində Heydər Əliyevin əleyhinə qızğın təbliğat gedir və ona qarşı terrorçuluq aktları hazırlanır. Azərbaycanın bəzi dairələrində də belə aktlar hazırlanır. Mən bunu açıq bəyan edirəm və bütün məsuliyyəti bu işləri təşkil edənlərin üzərinə qoyuram. Bunu mən Azərbaycan Prezidentinin göstərişi ilə bura gələn adamlara da rəsmi surətdə bəyan edirəm.”

Sessiyada müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul olundu.

Sessiya kadr məsələlərini də müzakirə etdi. A. Məmmədov verdiyi ərizəyə əsasən Naxçıvan MR Baş nazirinin müavini vəzifəsindən azad edildi.

Etimadı doğrultmayaraq tapşırılan işin öhdəsindən gələ bilmədiyinə görə S. Mustafayev Naxçıvan MR Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri vəzifəsindən azad edildi.

Bununla da, fövqəladə sessiya öz işini başa çatdırdı.

*"Şərq qapısı" qəzeti, 28 oktyabr 1992-ci il*

## Naxçıvan Muxtar Respublikasında baş vermiş dövlət çevrilişi cəhdi haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, 1992-ci il oktyabr ayının 24-də Naxçıvan şəhərində baş vermiş hadisələr ictimai-siyasi mühitin həddindən artıq kəskinləşməsinə səbəb olmuş, muxtar respublika əhalisinin mənəvi-psixoloji vəziyyətinə ağır zərbə vurmuşdur.

1992-ci il oktyabrın 24-də Azərbaycan Xalq Cəbhəsi Naxçıvan vilayət şöbəsinin 300 nəfərə yaxın silahlı dəstəsi (sonradan məlum olduğu kimi onlardan 100 nəfəri xüsusi avtobuslarla Ordubaddan gəlmişdir) Naxçıvan Xalq Cəbhəsinin sədri A. Quliyevin və Ordubad rayon Xalq Cəbhəsinin sədri, Azərbaycan Respublikasının xalq deputatı F. Quliyevin rəhbərliyi ilə iş günü olmamasından və bununla əlaqədar Daxili İşlər Nazirliyində yalnız bir neçə əməkdaşın olmasından istifadə edib, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin və telestudiyanın binalarını qəflətən işğal etmişlər. İşğalçılar silah işlətməklə hədə-qorxu gələrək Daxili İşlər Nazirliyinin əməkdaşlarını öz xidməti vəzifələrini yerinə yetirməkdən kənarlaşdırmış, onları ayrı-ayrı otaqlarda

bağlı qapı arxasında saxlamış, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Elman Həbibi öz xidməti otağında faktiki olaraq həbs etmiş, onu xarici aləmlə əlaqə saxlamaq imkanından məhrum etmiş, telefon aparatlarını və xətlərini sıradan çıxarmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bu hadisədən xəbər tutan kimi Xalq Cəbhəsinin rəhbərlərindən öz qanunsuz hərəkətlərinə son qoymağı, Daxili İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını boşaltmağı, silahla güc göstərmək hərəkətlərindən əl çəkməyi tələb etmiş və bunların ağır nəticələr verə biləcəyi barədə xəbərdarlıq etmişdir. Bu məqsədlə milli təhlükəsizlik naziri A. Əsgərov və digər nüfuzlu şəxslər A. Quliyevlə, F. Quliyevlə danışıqlar aparmışlar. Lakin bu danışıqlar müsbət nəticələr verməmişdir. Xalq Cəbhəsinin rəhbərləri bildirmişlər ki, onlar öz hərəkətlərindən və niyyətlərindən əl çəkməyəcəklər.

İşğalçılarla danışıqlar aparmaq üçün Ali Məclisin Sədr müavini, Xalq Cəbhəsinin üzvü Q. Məmmədov Daxili İşlər Nazirliyinə göndərilmiş, lakin onu ora buraxmamışlar. Daxili İşlər Nazirliyinin binasının qarşısındakı küçə hər iki tərəfdən yük avtomobilləri ilə kəsilmişdi və Xalq Cəbhəsinin silahlı üzvləri tərəfindən qorunurdu.

Ali Məclisin Sədri Heydər Əliyev vəziyyəti nəzərə alaraq telefonla Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə müraciət etmiş, baş verən hadisə barədə ona məlumat vermiş və Xalq Cəbhəsinin qanunsuz hərəkətlərinin və bununla əlaqədar baş verə biləcək ağır nəticələrin qarşısını almaq üçün təxirəsalınmaz tədbirlər görməsini xahiş etmişdir. Lakin Azərbaycan Respublikasının Prezidenti tərəfindən lazımi tədbirlər görülməmişdir. Vəziyyət isə getdikcə gərginləşirdi. Naxçıvan şəhərinin, yaxınlıqda yerləşən kəndlərin və demək olar ki, bütün rayonların əhalisi hadisədən xəbər tutan kimi və Xalq Cəbhəsinin silahlı qüvvələrinin Ali Məclisə hücum edəcəyindən ehtiyat edərək iki-üç saat ərzində Ali Məclisin qarşısındakı meydana toplaşdı və mitinq başlandı. Müxtəlif yaşa, peşəyə və əqidəyə mənsub olan adamlar Xalq Cəbhəsinin qanunazidd hərəkətlərinə qarşı öz hiddət və qəzəbini bildirərək onların qarşısını öz qüvvələri ilə almaq əzmində olduqlarını bəyan etmişlər. Eyni zamanda naxçıvanlıların böyük bir hissəsi Daxili

İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını əhatə etmiş və həmin hərəkətləri edəcəklərini bildirmişlər. Muxtar respublikanın rəhbərliyi Naxçıvanın nüfuzlu və hörmətli şəxslərinin köməyi ilə qanlı toqquşmanın, güc işlədilməsinin və baş verə biləcək silahlı konfliktin qarşısını almaq üçün tədbirlər görürdü. Vəziyyət kritik xarakter almış, Ali Məclisin qarşısındakı meydana, Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarının qarşısına toplaşan qəzəbli və hiddətli adamların hərəkətlərinin nəzarətdən çıxmaq təhlükəsi yaranmışdı. Onların sayı otuz mindən çox idi.

Belə bir şəraitdə Ali Məclisin Sədri Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəylə, Azərbaycan Respublikası Ali Sovetinin Sədri İsa Qəmbərovla dəfələrlə telefon danışıqları aparmış, Naxçıvan Xalq Cəbhəsinin qeyri-qanuni hərəkətlərinin qarşısını almaq, Naxçıvanda əmələ gəlmiş gərginliyi aradan qaldırmaq üçün təcili tədbirlər görülməsini tələb etmişdir. Ali Məclis Sədrinin xahişi ilə Ali Məclisin Sədr müavinləri, Xalq Cəbhəsinin üzvləri Q. Məmmədov və A. Kələntərli də onun kabinetindən Prezident Əbülfəz Elçibəylə telefonla danışmış, lazımi ciddi tədbirlər görülməsini xahiş etmişlər.

Lakin böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bütün bu xahişlər, çağırışlar və tələblər nəticə verməmiş, Azərbaycanın Prezidenti və digər rəhbər şəxslər tərəfindən bu istiqamətdə heç bir qəti tədbir həyata keçirilməmişdir.

Hər dəfə lazımi tədbirin qəbul olunması barədə xahiş olunarkən Prezident Əbülfəz Elçibəy bildirirdi ki, o, həmkarlarını yığacaq, məsləhətləşəcək və tədbirlər müəyyən edəcək. Lakin yaranmış şərait yaxınlaşmaqda olan qəzanın qarşısını almaq üçün Prezidentdən öz imkanlarından istifadə edib təcili tədbirlər görməsini tələb edirdi. Azərbaycan Prezidentinin, "hansı lazımi tədbirləri görmək lazımdır" - sualına muxtar respublika Ali Məclisinin Sədri demişdir ki, Əbülfəz Elçibəy, eyni zamanda Azərbaycan Xalq Cəbhəsinin sədridir. Naxçıvanda vəziyyətin gərginləşməsinin səbəbi Naxçıvan Xalq Cəbhəsinin rəhbərlərinin qeyri-qanuni hərəkətləridir. Ona görə də Azərbaycan Xalq Cəb-

həsinin sədri Əbülfəz Elçibəy bir neçə dəqiqə ərzində Naxçıvan Xalq Cəbhəsinin rəhbərlərinə telefonla göstəriş verib, onların öz qanunsuz hərəkətlərindən imtina etməsinə nail ola bilər. Lakin bu təkliflər də nəzərə alınmamışdır.

Silah gücü ilə işğal olunmuş Naxçıvan televiziyası ilə çıxış edən Naxçıvan Xalq Cəbhəsinin sədri A. Quliyev və Ordubad Xalq Cəbhəsinin sədri F. Quliyev özlərinin əsassız böhtançı bəyanatları ilə ictimaiyyətə yanlış məlumatlar verməyə cəhd etmiş, qanunsuz hərəkətlərinə haqq qazandırmaq istəmişlər. Televiziya ilə çıxışlarında və onlarla aparılan danışıqlarda bildirmişlər ki, onların hərəkətləri Bakı ilə, İsgəndər Həmidovla və hətta Prezident Əbülfəz Elçibəylə razılaşdırılmışdır. Onlar elan etmişlər ki, Azərbaycan Respublikasının daxili işlər naziri İ. Həmidov sabah Naxçıvana gələcək və onlar birlikdə burda qayda-qanun yaradacaqlar.

Vəziyyətin son dərəcə kəskinləşdiyini nəzərə alan Ali Məclisin Sədri Heydər Əliyev bu barədə telefonla Əbülfəz Elçibəyə məlumat vermiş və bildirmişdir ki, silahlı toqquşma yaxınlaşır, vətəndaş müharibəsi başlanar, qan tökülə bilər. Belə olan halda bütün məsuliyyət Azərbaycan Respublikası Prezidentinin və AXC sədrinin üzərinə düşür. Çünki o, bu hadisələrin qarşısını almaq üçün vaxtında lazımi tədbirlər görə bilərdi.

Saat 20.00-da Heydər Əliyev Ali Məclisin binasının qarşısındakı meydana toplaşmış naxçıvanlıların qarşısında çıxış etmiş, Xalq Cəbhəsinin qanunsuz hərəkətlərini pisləmiş, bununla yanaşı, toplaşanları təmkinli və səbirli olmağa dəvət etmiş, düşünülməmiş hərəkətlərə yol verilməməsinə çağırmışdır. Eyni zamanda Xalq Cəbhəsinə xəbərdarlıq edilmişdir ki, əgər onun silahlı dəstələri bir saat ərzində Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını azad etməsələr, silahsız xalq kütləsi buna özünün təzyiq gücü ilə nail olacaq.

Təxminən saat 21.00-da Xalq Cəbhəsinin silahlı dəstələri Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını tərk etmişlər. Geri çəkilərkən Xalq Cəbhəsinin silahlı dəstələri tərəfindən odlu silahlardan çoxlu atəş açılmış, Televiziya və Radio

Verilişləri Komitəsinin binasının qarşısına toplaşan silahsız naxçıvanlılara qarşı hərbi zirehli BMP-2, MTLB maşınlarından istifadə olunmuş və onlardan da atəş açılmışdır.

Bu zaman Daxili İşlər Nazirliyinin üç əməkdaşı yaralanmış, Televiziya və Radio Verilişləri Komitəsinin otaqlarına, texnika və aparatlarına ciddi zərər dəymiş, Daxili İşlər Nazirliyinin binasına maddi ziyan vurulmuşdur.

Ali Məclisin qarşısına toplaşan əhalinin əksəriyyəti qanunsuz hərəkətlərin yenidən baş verməsindən ehtiyat edərək narahat və həyəcanlı halda meydanda qalmaqda davam etmiş və yalnız oktyabrın 25-də, səhər saat 4-də evlərinə getmişlər.

Oktyabrın 25-də, səhər tezdən Ali Məclisin qarşısındakı meydan muxtar respublikanın ayrı-ayrı rayonlarından, yaşayış məntəqələrindən gələn adamlarla dolmuşdur. Bir neçə saat ərzində təbii yaranmış mitinq keçirilmişdir. Toplaşanlar Xalq Cəbhəsinin qanunsuz hərəkətlərinə, Azərbaycanın dövlət hakimiyyət orqanlarının onlara himayədarlıq etməsinə qarşı etirazlarını bildirmiş, Xalq Cəbhəsinin silahlı dəstələrinin təcili ləğv olunmasını, bütövlükdə Xalq Cəbhəsinin fəaliyyətinin dayandırılmasını qəti tələb etmişlər.

Keçən iki gün ərzində muxtar respublikanın demək olar ki, bütün əhalisi böyük narahatçılıq içində yaşamış, mənəvi-psixoloji zərbə almış, alçaldılmış vəziyyətə salınmışdır. Bütün bu hadisələr Naxçıvan Muxtar Respublikasının iqtisadi blokada şəraitində olduğu, maddi çətinliklər çəkdiyi bir vaxtda baş verir.

Belə bir dövrdə hamının birləşib zəruri sosial-iqtisadi problemlərin həll olunması, əhalinin ərzağa, yanacağa, elektrik enerjisinə, nəqliyyata olan ən cüzi tələblərini təmin etmək yollarını araşdırmaq tələb olunduğu halda Xalq Cəbhəsi silahla oynayır, xalqın pulu ilə alınmış silahları xalqa qarşı çevirir.

Naxçıvan Xalq Cəbhəsinin düşünülməmiş, cəzasız hərəkətləri, muxtar respublikanın dövlət orqanlarını silah gücü ilə işğal etmək cəhdi açıq surətdə sübut edir ki, muxtar respublikada vəziyyətin sabitliyini pozmaq və qanuni dövlət hakimiyyəti orqanlarını devirməyə nail olmaq planı praktiki olaraq həyata keçirilir.

Tam əsasla demək olar ki, burda məsələ təkcə Xalq Cəbhəsinin silah gücü ilə Azərbaycan Daxili İşlər Nazirliyinin 18 avqust 1992-ci il tarixli qeyri-qanuni əmrini həyata keçirməklə, S. Mustafayevi nazir vəzifəsinə oturtmaqla bağlı deyil. Söhbət Xalq Cəbhəsinin daha da geniş iddialarından, onların muxtar respublikada dövlət çevrilişi etməsindən və silah gücü ilə Heydər Əliyevin Ali Məclisin Sədri vəzifəsindən kənar edilməsindən gedir. Bu, həm də onunla izah olunur ki, Naxçıvan Xalq Cəbhəsi son aylarda düzgün olmayan, qanunazidd hərəkətləri ilə əhali arasında durmadan nüfuzunu itirir və yalnız silahlı dəstələrin gücü ilə özünü saxlamağa çalışır.

1992-ci il sentyabr ayının 18-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Xalq Cəbhəsinin silahlı dəstələrinin ləğv olunması və onlarda olan bütün silahların Naxçıvanın ərazisində yerləşən hərbi hissələrə verilməsi barədə qərar qəbul etmişdir. Məlumdur ki, onlar Naxçıvanın Ermənistan tərəfindən hərbi təcavüzdən müdafiəsində iştirak etmirlər. Lakin Azərbaycan Respublikasının dövlət orqanlarının himayədarlığına arxalanan Xalq Cəbhəsi Naxçıvan Muxtar Respublikası Ali dövlət hakimiyyəti orqanının bu qərarını yerinə yetirmir, hətta bu silahlardan muxtar respublikanın dövlət orqanlarını tutmaq və dövlət çevrilişi etmək üçün istifadə edirlər.

Demokratiya, milli müstəqillik, insan azadlığı və insan hüquqları prinsipləri əsasında yaranmış və formalaşmış Azərbaycan Xalq Cəbhəsinə Ali Məclis bir daha öz hörmətini bildirir. Eyni zamanda onun sıralarında bu prinsiplərin pozulması və avtoritar üsuli-idarə metodlarının tətbiq olunmasına çox təəssüf edir. Bununla əlaqədar, Xalq Cəbhəsini ləkələyən və onun nüfuzuna ağır zərbə vuran Naxçıvan Xalq Cəbhəsinin rəhbərləri A. Quliyevin və F. Quliyevin, onların sərəncamında olan silahlı dəstələrin Konstitusiyaya zidd, güc işlətmək yolu ilə etdikləri hərəkətlərə qarşı qəti etirazını bildirir. Naxçıvan Xalq Cəbhəsinin keçmiş sədri, indi isə Azərbaycan Xalq Cəbhəsinin sədr müavini vəzifəsinə irəli çəkilmiş Arif Rəhimovun Naxçıvanda bu sahədə apardığı zərərli, pozuculuq fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

Dərin təəssüf hissi doğuran hal odur ki, Naxçıvan Xalq Cəbhəsində baş verən bu proseslər Azərbaycan Xalq Cəbhəsinin rəhbərliyi, Azər-

baycan Respublikasının dövlət instansiyaları tərəfindən nəinki dəf olunmur, əksinə, bəyənilir, qızışdırılır və demək olar ki, istiqamətləndirilir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi böyük narahatlıqla qeyd edir ki, muxtar respublikanın Konstitusiya hüquqlarının Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən pozulması, Naxçıvan Xalq Cəbhəsinin 1992-ci ilin oktyabr ayının 24-də törətdiyi qanunazidd hərəkətlər Azərbaycanın rəhbər dövlət orqanlarının Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarının tapdalanmasına yönəldilmiş böyük tədbirlərinin bir hissəsidir.

Son zamanlar Azərbaycan Prezidentinin ətrafında olan bəzi yaxın şəxslər özlərinin subyektiv konyunktur mənafelərini üstün tutaraq Naxçıvanın statusunun dəyişdirilməsi, Naxçıvanın muxtar respublika hüququndan məhrum olunması, Azərbaycan Konstitusiyasının Naxçıvan Muxtar Respublikası haqqında maddələrinin dəyişdirilməsi, muxtar respublika Ali Məclisinin Konstitusiya hüquqlarının məhdudlaşdırılmasının zəruriyyəti haqqında fikirlər yayırlar. Təəssüflər olsun ki, bu işlərdə dövlət və hüquq sahəsində heç bir əməli təcrübəsi olmadan yüksək vəzifələrə təyin olunmuş naxçıvanlılar - Prezident Aparatının əməkdaşı F. Mustafayev, Azərbaycan Respublikası ədliyyə nazirinin birinci müavini A. Kərimov xüsusi canfəşanlıq göstərirlər. Ali Məclis Azərbaycan Respublikasının Prezidentindən xahiş edir ki, gələcəkdə bu şəxslərin Naxçıvan Muxtar Respublikası ilə əlaqədar məsələlərə baxılmasında və həll olunmasında iştirakına yol verilməsin və onlar Prezidentin özünün işinə zərər gətirdiklərinə görə tutduqları vəzifədən azad edilsinlər.

Belə fikirləri yayarkən 18 oktyabr 1992-ci il tarixdə Azərbaycan Ali Soveti tərəfindən qəbul olunmuş Konstitusiya aktında Azərbaycanın unitar dövlət olmasına istinad edilir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi muxtar respublikanın Konstitusiya hüquqlarının pozulmasına, Naxçıvanın konstitusiya statusunun dəyişdirilməsinə yönəldilmiş bütün cəhdlərə qarşı öz qəti etirazını bildirir. Azərbaycanı unitar dövlət kimi müəyyən edən Konstitusiya aktına gəldikdə isə Ali Məclis bəyan edir ki, Naxçıvan Muxtar Res-

publikasının Ali dövlət hakimiyyəti orqanları belə bir qərarın qəbul edilməsində iştirak etməmiş və onu qeyri-qanuni hesab edir. Onu da qeyd etmək lazımdır ki, həmin Konstitusiya aktı respublikanın rəhbərliyində A. Mütəllibov olduğu vaxt qəbul edilmişdir. Məlumdur ki, Naxçıvanda A. Mütəllibovun prezident seçilməsi ilə əlaqədar seçkilərin qadağan edilməsinə görə, o, Naxçıvan Muxtar Respublikasına qarşı çox mənfi mövqedə durmuşdur. Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarının pozulmasına yönəldilmiş Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinin Ali Sovetin sessiyasında dəyişdirilməsi üçün göstərilən cəhd də məhz bununla əlaqədardır.

Böyük təəssüf hissi ilə qeyd etmək lazım gəlir ki, indi Azərbaycanda yüksək dövlət vəzifələri tutan bəzi şəxslərin Naxçıvan Muxtar Respublikasına münasibəti də keçmiş rəhbərliyin münasibəti kimidir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hesab edir ki, xüsusi coğrafi və geopolitik şəraitdə yerləşən Naxçıvanın 70 il bundan əvvəl muxtar respublika statusu əldə etməsi tarixi nailiyyətdir və ona edilən hər bir qəsdi müstəqil Azərbaycanın milli dövlətçiliyinə, Naxçıvan Muxtar Respublikasının hər bir vətəndaşının hüquq və mənafeyinə edilən qəsd kimi qiymətləndirmək lazımdır.

Muxtar respublika əhalisinin iradəsini ifadə edərək Ali Məclis Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarının sarsılmazlığını bəyan edir və onların pozulmasına cəhd göstərənlərin hamısına məsuliyyətləri haqqında xəbərdarlıq edir.

Naxçıvandakı son hadisələrlə, Azərbaycandakı mürəkkəb siyasi proseslərlə əlaqədar Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bəyan etməyi lazım bilir ki, xalq tərəfindən seçilən Azərbaycan Respublikasının xalq deputatlarını Konstitusiya hüquqlarından məhrum edən Milli Məclisin yaranması və fəaliyyəti hüquqa, Konstitusiyaya zidd xarakter daşıyır. Bununla əlaqədar olaraq, qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin buraxılması, Ali Sovetin sessiyasının çağırılması və onun normal, tam fəaliyyəti üçün şərait yaradılması barədə təklif irəli sürülür. Əgər Ali Sovet lazım bilərsə, onun özünü buraxması məsələsinə də baxa bilər. Milli Məclisin Konstitusiya normalarını pozması barədə lazımi qədər fakt var. Azərbaycan Respublikasının xarici iş-

lər naziri T. Qasımov eyni zamanda xalq deputatı, Milli Məclisin üzvü və hətta Ali Sovetin daimi komissiyasının sədri vəzifəsini daşıyır. Bu, yeganə hal deyil.

Ali Məclis qeyd etməyi lazım bilir ki, Azərbaycan Dövlət Televiziya və Radio Şirkətinin rəhbərliyi Naxçıvan Muxtar Respublikasına münasibətində qeyri-obyektiv, qərəzli mövqe tutur və bir çox hallarda muxtar respublikanın həyatı barədə Azərbaycanın ictimaiyyətinə yanlış məlumatlar verir. Azərbaycan televiziyasının 1992-ci il oktyabrın 24-də Naxçıvanda baş vermiş hadisələrə dair verilişləri təhrikçilik xarakteri daşımış, ictimaiyyətə bu barədə yalan məlumatlar verilmişdir.

Ali Məclis Heydər Əliyevin Bakıda ayrı-ayrı dairələr və Naxçıvan Xalq Cəbhəsindən olan bəzi adamlar tərəfindən ona qarşı hazırlanan terrorçuluq aktı barədə məlumatını və bütün məsuliyyətin Azərbaycanın dövlət rəhbərliyinin üzərinə düşdüyü barədə bəyanatını narahatlıqla və həyəcanla qəbul etdi.

Yuxarıda qeyd olunanları əsas tutaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin 1992-ci ilin oktyabr ayının 24-də Naxçıvan Xalq Cəbhəsi və onun silahlı qüvvələri tərəfindən işğal olunması, bu dövlət orqanlarının işinin bir neçə saat ərzində iflic vəziyyətinə salınması və beləliklə, bütün əhaliyə böyük mənəvi zərbə vurulması Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi cəhdi kimi qiymətləndirilsin.

2. Naxçıvan Muxtar Respublikasının Prokurorluğuna tapşırılsın ki, Naxçıvan Muxtar Respublikasında Xalq Cəbhəsi tərəfindən dövlət çevrilişi etmək cəhdi ilə əlaqədar əsaslı surətdə istintaq aparılsın və günahkarlar cinayət məsuliyyətinə cəlb edilsinlər. Görülən tədbirlər və onların nəticəsi barədə Ali Məclisə məlumat verilsin.

3. Azərbaycan Xalq Cəbhəsinin Naxçıvan vilayət şöbəsindən tələb edilsin ki, bütün silahlı dəstələrini ləğv etsin və üç gün müddətində onların sərəncamında olan silahların Naxçıvanın ərazisində yerləşən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi hissəsinə təhvil versin.

Silahların təhvil verilməsi və bu işə nəzarətin təşkil edilməsi məqsədilə aşağıdakı tərkibdə deputat komissiyası yaradılsın:

Q. Məmmədov - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini (sədr), A. Kələntərli - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini, T. Sadiqov, E. Hüseynov, F. Şirzadov, Ə. Talıbov, R. İbadov, M. Mahmudov, N. Həsənov, T. Allahyarov, E. Cəlilov - Naxçıvan Muxtar Respublikasının xalq deputatları.

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəydən xahiş edilsin ki, Naxçıvan Xalq Cəbhəsinin silahlı dəstələrinin ləğv edilməsi və onlarda olan bütün silahların təhvil verilməsi üçün lazımi göstəriş versin.

4. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi cəhdinin aradan qaldırılmasında iştirak edən bütün həmvətənlərə minnətdarlığını bildirir və bəyan edir ki, Ali Məclis bundan sonra da Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarının, hər bir vətəndaşın hüquq və azadlıqlarının qorunmasını təmin edəcək.

5. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəydən, Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilsin ki, bu qərara baxıb, onunla əlaqədar lazımi tədbirlər görsünlər.

**R. HƏSƏNOV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi Sədrinin birinci müavini**

*Naxçıvan şəhəri, 25 oktyabr 1992-ci il*

## ŞƏRUR RAYONU QABILLI KƏND SAKİNLƏRİNİN AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNƏ B Ə Y A N A T I*

Naxçıvan Xalq Cəbhəsi Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Konstitusiyalarını kobud surətdə pozaraq silah, zirehli texnika tətbiq etməklə 24 oktyabr 1992-ci il tarixdə dövlət çevrilişinə cəhd etmişdir. Əhali arasında heç bir nüfuza malik olmayan AXC üzvlərinin bu hərəkəti Qabıllı kənd sakinlərinin nifrətinə səbəb olmuşdur.

Naxçıvan Xalq Cəbhəsi bu hərəkəti ilə bir daha sübut edir ki, onlar muxtar respublikada baş verən hüquq pozuntularının, qeyri-sabitliyin təşkilatçılarıdır.

Tələb edirik ki, hakimiyyət uğrunda mübarizənin ən çirkin formalarını seçən AXC muxtar respublikada buraxılsın, 24 oktyabr 1992-ci ildə Naxçıvanda törətdikləri cinayətə görə onlar ciddi cəzalandırılsınlar. Bəyan edirik ki, Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevi axıra qədər müdafiə edəcəyik. Azərbaycan Respublikası daxili işlər naziri İsgəndər Həmidovun respublika televiziyasında və mətbuatda Heydər Əliyev haqqında dediyi qərəzli fikirləri lənətləyir və rədd edirik.

Sizdən tələb edirik ki, Heydər Əliyevə qarşı törədilən təxribatlara və qərəzli fikirlərə son qoyasınız, bu kimi halların aradan qaldırılması üçün tədbirlər görəsiniz.

*Bəyanat Qabıllı kənd sakinlərinin ümumi yığıncağında qəbul olunmuşdur.*

*Şərur rayonu, 29 oktyabr 1992-ci il*

---

* Naxçıvanda dövlət çevrilişi cəhdini pisləyən, onun təşkilatçılarının məsuliyyətə cəlb olunmasını tələb edən, möhtərəm Heydər Əliyevlə həmrəylik ifadə olunan yüzlərlə teleqram, məktub və bəyanatdan kitabın həcmi nəzərə alınaraq yalnız üçü qısa ixtisarla verilir - **tərtibçi.**

# ŞƏRUR RAYONU DÖVLƏT SIĞORTA AGENTLİYİ ƏMƏK KOLLEKTİVİNİN AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNƏ B Ə Y A N A T I

1992-ci ilin oktyabrın 24-də Naxçıvan Xalq Cəbhəsinin bir qrup üzvü Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Konstitusiyasını kobudcasına pozaraq, silah və zirehli texnika tətbiq etməklə dövlət çevrilişinə cəhd etmişlər. Bu hərəkət muxtar respublikanın bütün əhalisi kimi bizim kollektivin də qəzəbinə səbəb olmuşdur. Baş vermiş bu hadisə qanun pozuntularının və qanunsuzluğun kim tərəfindən törədildiyini bir daha aşkarlayır.

Şərur Rayon Dövlət Sığorta Agentliyi kollektivinin Azərbaycan Respublikası Prezidentindən xahişi və tələbi ondan ibarətdir ki, Naxçıvanda dövlət çevrilişinə cəhd etmiş bir qrup adam və onların başçıları ciddi şəkildə cəzalandırılsınlar. Azərbaycan Respublikası Prezidentinə onu da bildiririk ki, bütün muxtar respublika sakinləri kimi biz də böyük siyasi nüfuza malik, hamının sevdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin ideyalarının həyata keçməsi uğrunda çalışacaq, axıradək onu müdafiə edəcəyik.

Azərbaycan kütləvi informasiya vasitələrinin Naxçıvan və Heydər Əliyev haqqında verdiyi qeyri-real yazıları və çıxışları muxtar respublika sakinlərinin, ağsaqqalının təhqir olunması kimi qiymətləndiririk. Tələb edirik ki, muxtar respublikaya qarşı törədilən təxribat aradan qaldırılsın.

*Bəyanat Naxçıvan Muxtar Respublikası Ali Məclisinə, Azərbaycan Respublikası Prezidentinə göndərilir.*

**Şərur Rayonu Dövlət Sığorta**
**Agentliyinin əmək kollektivi**

*Şərur rayonu, 30 oktyabr 1992-ci il*

*AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ*

1992-ci il oktyabrın 24-də Naxçıvanda Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası konstitusiyalarını cinayətkarcasına pozaraq Naxçıvan Muxtar Respublikası Xalq Cəbhəsinin bir ovuc qaragüruhçu dəstəsi silah, zirehli texnika tətbiq etməklə Naxçıvan DİN-ə və Televiziya və Radio Verilişləri Komitəsinin binasına basqın edərək həmin dövlət idarələrini zəbt etmiş və beləliklə, dövlət çevrilişinə cəhd göstərmişdir.

Xalq arasında heç bir nüfuza malik olmayan bu tör-töküntülərin növbəti fitnəkarlığı onsuz da iqtisadi, siyasi, mənəvi böhran içərisində yaşayan Naxçıvan əhalisinin dərin qəzəb və nifrətinə səbəb olmuşdur. Naxçıvan camaatı bir nəfər kimi ayağa qalxmış, vəzifə və mənsəb uğrunda ən müqəddəs dəyərləri belə tapdalamağa hazır olan bu cinayətkar ünsürlərin dövlət çevrilişi cəhdinin qarşısını almışdır.

Qeyd etmək lazımdır ki, dövlət çevrilişi cəhdinin qarşısı alınsa da, onu törədən səbəblər aradan qaldırılmamışdır. Belə ki, demokratik şüarlarla gözə kül üfürüb, əslində, hakimiyyət uğrunda mübarizənin ən çirkin formalarını seçən müəyyən dairələr müxtəlif regionlarda tətbiq etdikləri ssenarini bu dəfə Naxçıvanda sınaqdan çıxarmağa müvəffəq olmamışdır. Şübhə yoxdur ki, bu hərəkətlər heç bir qanun və əxlaq çərçivəsinə sığmayan, hakimiyyəti müxtəlif bölgələrdə zorakılıq yolu ilə ələ keçirmək cəhdlərinin məntiqi davamıdır.

Baş vermiş hadisə bir daha təsdiq edir ki, müəyyən qüvvələr Naxçıvanda yaranmış böhranlı vəziyyəti aradan qaldırmağa nəinki maraqlı deyillər, əksinə, özlərinin çirkin niyyətlərini həyata keçirmək üçün ən rəzil hərəkətlərə belə əl atmağa hazırdırlar.

Naxçıvanın blokadasını aradan qaldırmaq üçün Ermənistanla danışıqların qəsdən yubadılması, Naxçıvan Muxtar Respublikası Konstitusiyasına zidd olaraq nalayiq adamların yüksək vəzifələrə təyin edilməsi, muxtar respublikada siyasi və hərbi sabitliyin bərpasına qarşı yönəldilmiş hərəkətlər - bütün bunlar Azərbaycan Respublikasının hakimiyyət orqanlarının muxtar respublika barədə yeritdiyi məqsədli siyasətin heç də tam olmayan mənzərəsidir.

Belə olan şəraitdə Konstitusiyaya and içərək "Quran"a əl basan prezident və onun komandasının respublikada baş alıb gedən primitiv siyasi oyunbazlıq naminə özbaşınalığa, qanunsuzluqlara yol verməsi xalqda ikrah hissini artırır, haqlı olaraq təəccüb və şübhə doğurur.

Hadisələrin belə bir təhlükəli məcrada cərəyanı bizi Sizə müraciət etməyə məcbur etmişdir. Çünki respublikanı hədələyən vətəndaş müharibəsi təhlükəsi və qazandığımız kövrək suverenliyimizi itirmək qorxusu hamımızdan fəal vətəndaş mövqeyi tələb edir.

ZİYALILAR: Ziya Bünyadov, Murtuz Ələsgərov, Xəlil Rza Ulutürk, Ramiz Rizayev, Fikrət İsmayılov, İbrahim İsmayılov, Eldar Salayev, Xəlil Musayev, Araz Əlizadə, Feyruz Mustafayev, Samur Novruzov, Lalə Hacıyeva, Səfiyar Musayev, Əli Nağıyev, Munis Bayramov, Rafael Allahverdiyev, Mixail Zabelin, Qabil Hüseynli, Nazim İmanov, Şükür Sadıqov, Ağabəy Əsgərov, Zahid Qaralov, Xeyrəddin Qoca, Nəzir Əhmədov, Rafiq Qasımov, Həsən Əsgərov, Hacıbala Abutalıbov, Eldar Quliyev və başqaları.

*"Açıq söz" qəzeti, 31 oktyabr 1992-ci il*

## ZORAKILIĞA ƏL ATMAQ ACİZLİK ƏLAMƏTİDİR

Oktyabrın 24-də Naxçıvanda baş vermiş hadisələr bütün muxtar respublika əhalisinin ciddi narahatlığına və hiddətinə səbəb olmuşdur. AXC Naxçıvan bölgəsi silahlı dəstələrinin qanunsuz hərəkətləri, zorakılıq işlətməsi hər yerdə pislənilir. Muxtar respublika ictimaiyyəti nümayəndələrinin oktyabrın 28-də keçirilmiş toplantısında da bu qanunsuz hərəkətlər qətiyyətlə pislənmişdir.

Toplantını giriş sözü ilə açan Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev demişdir ki, Naxçıvan Muxtar Respublikası çox ağır və gərgin günlər keçirir. Baş vermiş hadisələr hamıya məlumdur. Oktyabr ayının 24-də Naxçıvanda edilən dövlət çevrilişi cəhdi ilə əlaqədar ondan bir gün sonra keçirilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında baş vermiş hadisələr ətraflı təhlil edilmiş və

o, dövlət çevrilişi cəhdi kimi qiymətləndirilmişdir. Həmin sessiyada Azərbaycan Prezidenti tərəfindən göndərilmiş nümayəndələr də iştirak etmişlər.

Lakin Naxçıvan Xalq Cəbhəsinin üzvləri öz çirkin əməllərini həyata keçirmək fikrindən əl çəkmirlər. Çox təəssüf ki, Azərbaycanın bəzi dairələri də bu işdə onlara köməklik göstərirlər. Oktyabrın 24-də baş vermiş hadisə ilə əlaqədar biz çalışdıq onlara başa salaq ki, bu kimi hərəkətlər yolverilməzdir. Təəssüf ki, onlar öz əməllərindən dönmək istəmirlər. Hadisə zamanı mən Azərbaycan Prezidenti Əbülfəz Elçibəyə dəfələrlə zəng etdim və bütün bunların qarşısının alınması üçün təcili tədbirlər görməsini xahiş etdim. Lakin mənim səylərim bir nəticə vermədi. Hadisədən hiddətlənən əhali Ali Məclisin qarşısında toplaşırdı və bu quldur hərəkətlərinə qarşı qəti tədbir görülməsini tələb edirdi. Vəziyyət get-gedə gərginləşirdi. Mən onların qarşısında çıxış etdim və Xalq Cəbhəsinə xəbərdarlıq edərək bildirdim ki, əgər onlar bir saat ərzində Daxili İşlər Nazirliyinin, Televiziya və Radio Verilişləri Komitəsinin binalarını boşaltmasalar, camaat silahsız ora gedərək buna nail olacaq. Yalnız bundan sonra onlar çıxıb getməyə məcbur oldular və gedərkən Daxili İşlər Nazirliyinin və Televiziya Komitəsinin otaqlarını, dəhlizlərin divarlarını və tavanlarını avtomatlardan atəşə tutaraq bərbad vəziyyətə saldılar.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, bütün bunlar böyük cinayətdir, əgər Xalq Cəbhəsi, həqiqətən, xalq cəbhəsidirsə o, heç vaxt xalqa qarşı çıxmamalı və xalqın pulu ilə alınmış silahları ona qarşı yönəltməməlidir. Çox böyük təəccüb və təəssüf doğuran cəhət budur ki, respublika mətbuatı və xüsusilə respublika televiziyası hadisələri elə dəhşətli dərəcədə təhrif edirlər ki, istər-istəməz belə bir fikir oyanır ki, deməli Azərbaycanın rəsmi dairələri də bunlarla birdir.

Fövqəladə sessiyada çıxış edənlərin hamısı bir nəfər kimi bu hadisəni pislədilər, onu Naxçıvanda dövlət çevrilişi cəhdi kimi qiymətləndirdilər. Biz qərar qəbul etdik ki, Xalq Cəbhəsinin silahlı dəstələri ləğv olunmalıdır. Onlar silahları təhvil verməlidirlər. Xalqın pulu ilə, sizlərin və Naxçıvanda yaşayan minlərlə kasıb adamın boğazlarından kəsib verdikləri pulla Naxçıvanın müdafiəsi üçün alınmış silahlardan

ayrı-ayrı cinayətkar adamlar öz məqsədlərinə nail olmaq üçün istifadə edirlər.

Biz güman edirdik ki, bundan sonra vəziyyət müəyyən dərəcədə sabitləşəcək, lakin təəssüf ki, bu, belə olmadı. Xalq Cəbhəsinin silahlı dəstələri öz əməllərindən əl çəkmək istəmirlər. Oktyabrın 27-də vəziyyət yenə də gərginləşmişdir. Naxçıvana xəbər verilmişdir ki, Azərbaycanın daxili işlər naziri İsgəndər Həmidov bura yeni bir dəstə ilə gəlməyə hazırlaşır. Bakıdan gələnlər də bunu təsdiq etdilər. Xalq Cəbhəsinin silahlı dəstələri bundan istifadə edərək İ. Həmidovu qarşılamaq üçün Naxçıvan aeroportunu tutdular və vəziyyəti yenə də gərginləşdirdilər.

Xalq Cəbhəsinin silahlı dəstələrinin bu qeyri-qanuni hərəkətləri muxtar respublika əhalisini son dərəcə hiddətləndirmişdir. Oktyabrın 27-də Ali Məclisin qarşısında keçirilən mitinqin iştirakçıları bütün bu qanunsuz hərəkətlərə rəvac verən Azərbaycan daxili işlər naziri İ. Həmidovun istefasını tələb etmişlər.

Fövqəladə sessiya keçirilərkən fasilə zamanı, nəhayət, mən İ. Həmidovla danışa bildim. Azərbaycan Ali Soveti Sədrinin müavini Afiyəddin Cəlilov və Prezident Aparatının işçisi Fazil Mustafayev də mənim yanımda idilər. Mən onunla çox ciddi danışdım və başa salmağa çalışdım ki, bu işlərdən əl çəksin. Nəhayət, dedim ki, indi gərgin vəziyyət yaranıb, sən bu işin günahkarlarından birisən. Ancaq gəl bir həftə fasilə verək. Bir həftədən sonra gələrsən burda danışarıq. Mən güman edirdim ki, bu danışıqdan sonra sakitlik yaranacaq, lakin bu, belə olmadı. Həmin danışığın sabahı günü o qüvvə toplayıb bura gəlmək fikrinə düşdü. O, ümumiyyətlə, mənə çox hədə-qorxu gəlib. Bir neçə gün bundan qabaq Bakıda keçirilən mətbuat konfransında çıxış edərək deyib ki, mən Naxçıvana gedəcəyəm, belə asıb-kəsəcəyəm, əgər lazım gələrsə Heydər Əliyevin başına gülləni özüm vuracağam.

Ayın 24-də onunla danışarkən mən bu sözləri dedim. Dedim ki, sən mətbuat konfransında belə danışmısan. Sən mənim başıma güllə vurmaq istəyirsənsə, gəl vur, ancaq vuran adam deməz. O mənə qayıtdı ki, nə danışırsınız, mənim özüm də, balalarım da sizə qurbandır. Siz böyük bir şəxsiyyətsiniz, böyük bir insansınız. Mən heç belə söz deyə bilə-

rəmmi? Dedim ki, demisən axı, özü də bir adamın, iki adamın yanında yox, mətbuat konfransında demisən. Dünən Bakıdan bura gəlmiş qəzet və televiziya işçiləri də həmin mətbuat konfransında iştirak ediblər. Onlar da təsdiq etdilər ki, o belə deyib. Həmin sözlər "Komsomolskaya pravda" qəzetinin 27 oktyabr tarixli nömrəsində də dərc olunub.

Mənə belə hədə-qorxu gələnlər, güllə atmağa çalışanlar çox olub. Amma mən belə şeylərdən qorxan deyiləm. Mənim bir həyatım var, o da Azərbaycan xalqına qurbandır. Ali Məclisin sessiyasında mən bunların hamısını bildirdim. Bildirdim ki, burda Xalq Cəbhəsi sıralarında bəzi adamlar Heydər Əliyevi aradan götürmək, ona sui-qəsd etmək niyyətləri ilə yaşayırlar. Mən elan etmişəm və burda da yazılıb ki, belə niyyətlər mövcuddur, həm Naxçıvanda, həm də Azərbaycanın rəsmi dairələrində. Əgər belə hal baş verərsə, məsuliyyət Azərbaycanın rəhbərliyi üzərinə düşəcək.

Bugünkü toplantının keçirilməsində bizim məqsədimiz ondan ibarətdir ki, televiziyanın, radionun işləmədiyini nəzərə alaraq istəyirik ki, bütün rayonlarda yaşayanlar həqiqi vəziyyəti bilsinlər, ikinci də ona görə ki, belə bir ağır vəziyyətdə kim kənarda durursa, kim ikiüzlülük edirsə, belə adamlar gərək öz mövqelərini müəyyənləşdirsinlər.

İndi təəssüf ki, Naxçıvanda öz çirkin niyyətlərini həyata keçirmək üçün bəzi adamlar, hətta indiyə qədər keçmiş totalitar rejim adlandırdığımız rejim dövründə də Naxçıvanın Konstitusiya hüquqlarını heç vaxt pozmağa cəhd göstərilmədiyi halda həmin adamlar indi öz şəxsi mənafeləri üçün Naxçıvanın muxtariyyətini ləğv etməyə çalışırlar. Özü də onların əksəriyyəti Naxçıvandan çıxmış vəzifə, mənsəb düşgünləridir. Qoy onlar bilsinlər ki, Naxçıvanın muxtariyyəti 70 ildən bəri daim olub və olacaq. Naxçıvanın Konstitusiyası daimi olub və daimi də olacaq.

Heydər Əliyev sözünün sonunda demişdir ki, biz bugünkü toplantını ona görə keçiririk ki, Naxçıvanın qabaqcıl ziyalıları, ağsaqqalları, nüfuzlu adamları bütün bunlar barədə öz fikirlərini desinlər.

Naxçıvanın qocaman həkimi Əbdüləli Tahirov öz çıxışında baş vermiş hadisələri qətiyyətlə pisləyərək demişdir ki, hadisələrin gedişi göstərir ki, biz Ermənistandakı ermənilərdən yox, daxilimizdəki "er-

mənilərdən" qorxmalıyıq. Bizə düşmən lazım deyil. Düşmən elə öz içimizdədir. Əgər Mütəllibov Türkiyədən bir quş tüfəngi gətirdisə, Heydər Əliyev ən kəskin bir silah gətirdi, o Qars müqaviləsini üzə çıxardı. Bundan kəskin silah olmaz.

Naxçıvan şəhərindəki 6 nömrəli məktəbin müəllimi Ə. Məmmədov demişdir ki, Kommunist Partiyası, sosializm cəmiyyəti ona görə dağıldı ki, onun nöqsanlarını demək mümkün olmurdu. Xalq Cəbhəsi də belə bir yol tutur. Onlar öz nöqsanlarını görmür və etiraf etmək istəmirlər. Dövlət katibi Pənah Hüseynov deyir ki, respublika əhalisinin 95 faizi bizim əleyhimizə olsa da, biz hakimiyyətdə qalacağıq. Belə bir demokratiyadan nə gözləyəsən? Respublika rəhbərliyi də etiraf edir ki, İsgəndər Həmidov idarəolunmaz nazirdir. İdarəolunmaz adam belə bir yüksək vəzifədə, nazir vəzifəsində işləyə bilməz.

Sədərək rayonundan pensiyaçı B. Qədimov demişdir ki, indi Sədərəkdə vəziyyət çox gərgindir. Hər gün atışma gedir və bunu da təşkil edən Xalq Cəbhəsidir. Ordubaddan, Culfadan gələn cəbhə üzvləri orada qarışıqlıq salırlar, vəziyyəti gərginləşdirirlər. Onlar deyirlər ki, biz hər bir işə qarışa bilərik.

Naxçıvan Dövlət Universitetinin müəllimi V. Əliyev yaranmış hərcmərclik, inzibati idarələrin fəaliyyətsizliyi üzərində dayanaraq demişdir ki, muxtar respublika rəhbərliyinin ciddi səyləri nəticəsində İrandan, Türkiyədən alınıb gətirilən maddi nemətlər yenidən Arazın o tayına keçirilərək orada satılır. Bu kimi hallara qarşı amansız mübarizə aparılmalıdır. Oktyabrın 24-də və ondan sonra baş verən hadisələr Bakıda hazırlanıb və bütün bunlara Bakıdan rəhbərlik edilir.

Müharibə veteranı K. Kazımov demişdir ki, Ordubaddan olan nadanların belə alçaq hərəkətə yol verməsi böyük təəssüf hissi doğurur. Ordubad ziyalılar diyarıdır. Oradan həmişə böyük xadimlər, yazıçılar çıxıb. İndi isə biz bunun əksini görürük. Biz parçalanmaya yol verməməliyik, belə çətin anlarda sıx birləşməliyik.

Şərur mətbəəsinin direktoru A. Hacızadə, "Xıncab" Xeyriyyə Cəmiyyətinin sədri A. Salmanov, gənclər adından çıxış edən Ş. Əliyev, muxtar respublika Təbiəti Mühafizə Komitəsinin sədri D. Ələkbərova, Naxçıvan Dövlət Universitetinin professoru Ə. İsmayılov, Daxili İşlər

Nazirliyi qərargahının baş müvəkkili N. Nadirov, muxtar respublika Mədəniyyət Nazirliyinin xalq yaradıcılığı və mədəni maarif işləri üzrə elmi-metodiki mərkəzin direktoru V. Əsgərova və başqaları da öz çıxışlarında oktyabrın 24-də və ondan sonrakı günlərdə baş vermiş hadisələri zorakılıq kimi qiymətləndirərək pisləmiş və eyni zamanda, zorakılığa əl atmağı acizlik əlaməti kimi qiymətləndirmişlər.

Toplantının iştirakçıları bəyanat qəbul etmişlər.

*"Şərq qapısı" qəzeti, 28 oktyabr 1992-ci il*

## Yaranmış vəziyyətlə əlaqədar muxtar respublika ictimaiyyəti nümayəndələri toplantısının PROTOKOLU

## 28 oktyabr 1992-ci il

**Heydər Əliyev** (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri): Bu günlər Naxçıvan Muxtar Respublikası əhalisi çox ağır günlər yaşayır. Bu gün ayın 28-dir. Oktyabr ayının 24-dən Naxçıvanda gərginlik yaranıb. Həm Azərbaycanda, həm də Naxçıvanda sabitlik yaranmasını istəməyən qüvvələr var. Sessiyada bu məsələ müzakirə edilib qərar qəbul olunmuşdur. Həmin sessiyada Azərbaycanın nümayəndələri də iştirak etmişlər. Biz çalışmışdıq ki, xalqı birləşdirək, lakin Naxçıvanda olan Xalq Cəbhəsinin bir qrup nümayəndəsi buna imkan vermir və Azərbaycanın bəzi rəhbərləri də, hətta Naxçıvana hücuma keçmək istəmişlər. Ünsür qruplar oktyabr ayının 24-də Daxili İşlər Nazirliyinə və televiziyaya soxulub oranı zəbt etmişlər. Bu hadisə baş verən kimi biz Azərbaycana müraciət etdik və Xalq Cəbhəsinə müraciət olundu. Nə Azərbaycan, nə də ki bu işi törədən şəxslər heç bir tədbir görmədilər. Nəhayət, vəziyyətin gərginliyi Azərbaycan Prezidentinə də çatdırıldı. O isə buna laqeyd münasibət bəslədi və heç bir iş görmədi. Mən Elçibəylə danışarkən dedim ki, siz əmr verin, onlar geri çəkilsinlər, lakin heç bir nəticə hasil olmadı. Xalq hər yerdən gəlib biz-

dən tələb edirdi ki, siz icazə verin biz onları qovaq. Ali Məclis bunların qarşısını aldı və onları səbrə, sakitliyə yönəltdi. Mən Ali Məclisin binası önünə toplaşanların qarşısına çıxıb bu hadisəyə öz münasibətimi bildirdim. Elə buna görə də Naxçıvan Xalq Cəbhəsinə bildirdim ki, onlara bir saat vaxt verilir, əgər çıxıb getməzlərsə, silahsız xalq onları tutduqları yerdən qovacaq. Sonra biz polis işçilərini göndərdik televiziyaya ki, orada kök salmış silahlı işğalçı dəstələrə kömək etsinlər ki, onlar çıxıb getsinlər. Lakin buna baxmayaraq, cəbhəçilər BMP, BTR vasitəsilə televiziyanın qapısını və divarını dağıdaraq içəri soxulmuş və televiziyada olan bir milyon manat dəyərində avadanlığı dağıdaraq çıxıb getmişlər. Sessiyada həmin məsələ ciddi müzakirə olundu. Azərbaycan televiziyası o qədər yalanlar yaydı ki... Adam hiss edir ki, Azərbaycanın rəhbərləri də televiziya ilə əlbirdir. Biz Ali Məclisin sessiyasında qərar çıxardıq ki, Naxçıvan Xalq Cəbhəsinin silahlı dəstələri ləğv olunsun və onlarda olan silahlar təcili yığılaraq, Naxçıvan Müdafiə Nazirliyinin qoşunlarına verilsin. Biz naxçıvanlılar Naxçıvanın Konstitusiya hüquqlarının qorunmasını və onun pozulmasına yol verməyəcəyimizi bildirmişik. Xalq Cəbhəsinin silahlı dəstələri Azərbaycandan bura silahlı qruplar göndərib Naxçıvanda çevriliş etmək istəmişlər.

Bizə həyəcanlı məlumatlar gəlir. İsgəndər Həmidov burda yeni bir silahlı əməliyyat keçirilməsini nəzərdə tutub. O, silahlı dəstələrlə gəlib buranı dağıtmaq istəyir. Nazirlər Kabinetinin işlər müdiri Vəli Şahverdiyev və Babək Rayon XDM İcraiyyə Komitəsinin sədri Mikayıl Rəhimov həmin gün aeroportda İsgəndər Həmidovu qarşılayanlar içərisində idilər. Mən İsa Qəmbərovla ciddi danışdım. Azərbaycan Prezidenti isə bizimlə danışmadı. Müstəqil Azərbaycanda indi Xalq Cəbhəsi xalqı boğmaq istəyən qoşunlar saxlayır. Kimə lazımdır bu vəziyyəti yaratmaq. Burda şəxsi məqsədlər güdən ən güclü mafiya Xalq Cəbhəsidir. Azərbaycan Prezidentindən tələb olunub ki, vəzifəsindən istefa versin. Biz birinci dəfə onu, yəni İsgəndər Həmidovu qonaq kimi qarşıladıq. Xalq Cəbhəsində olan adamların əksəriyyəti savadsızdır. Mən güman edirdim ki, burda sakitlik olacaq, lakin olmadı. Mənim həyatım Azərbaycan xalqına qurbandır. Xalq Cəbhəsinin içərisində Heydər

Əliyevin aradan götürülməsini istəyənlər çoxdur. Naxçıvanda televiziya və radio işləmir. Mən istəyirəm ki, həqiqəti və burda olan vəziyyəti xalq bilsin. İndi Azərbaycanda çalışırlar ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqları pozulsun və onun muxtariyyəti əlindən alınsın. Bunu edən Bakıda yaşayan bir qrup naxçıvanlılardır. Naxçıvanın Konstitusiyası daimidir və daimi də qalacaq. Biz bugünkü müşavirəni çağırmışıq ki, hər bir ağsaqqal, müəssisə və idarə rəhbərləri öz münasibətini bildirsin. Naxçıvanda çevriliş edən Ordubad Xalq Cəbhəsinin sədri Fərəc Quliyevə, Naxçıvan Xalq Cəbhəsinin sədri Asəf Quliyevə, qanunsuz nazir təyin edilmiş Siyavuş Mustafayevə, Ordubad Xalq Cəbhəsinin mürtəce xüsusiyyətinə ayrıca qiymət verilməlidir. Biz istəyirik xalqa ümumi məlumat verək.

Bizim müstəqilliyimiz bütün Azərbaycan xalqının işidir. Azərbaycanın birləşdirilməsini təmin etmək lazımdır. Hamı birləşməlidir. Mən həyatımdan keçərəm, lakin Naxçıvanı Azərbaycandan ayırmaram. Naxçıvan Azərbaycanın tərkib hissəsidir. Azərbaycanın Prezidenti isə həqiqi seçilmiş prezidentdir. Azərbaycan müstəqil dövlətdir. Əbülfəz Elçibəy xalq tərəfindən seçilmiş prezidentdir. Mən Naxçıvanın Ali Məclisi və şəxsən Heydər Əliyevin adından ona öz hörmətimi və ehtiramımı bildirirəm.

## Çıxışlar:

**Əbdüləli Tahirov** (həkim): Bəzi yaramaz adamlar Heydər Əliyevin ayağından dartırlar. Ermənidən qorxmaq lazım deyil, çünki onlar bizim düşmənimizdir. Lakin bizim içərimizdə olan "erməni"lərdən qorxmaq lazımdır. Qars müqaviləsini Heydər Əliyev üzə çıxartdı. Bu isə Yaponiyaya atılan bombadan daha güclüdür.

**Ənvər Məmmədov** (müəllim): Sizin xidmətlərinizi heç kim dana bilməz. Sosializmin yaraları deşildi və nəhayət, o dağıldı. Xalq Cəbhəsi dövlət başına gəlib. İndi isə onlar deyirlər ki, bizi istəməsələr də getməyəcəyik. Belə çıxır ki, Azərbaycanı silahlı qüvvələr idarə edir. Əgər Azərbaycan rəhbərliyi və Xalq Cəbhəsi İsgəndər Həmidovun öhdəsindən gələ bilmirsə, qoy onlar rədd olub getsinlər.

**Bəhmən Qədimov** (Sədərək rayonu, pensiyaçı): Üç gündür Sədərəkdə atışma gedir. Bunun səbəbkarı Xalq Cəbhəsinin nümayəndələridir. İsgəndər Həmidov və Fərəc Quliyev Azərbaycan Prezidentinin nüfuzunu doxsan faiz aşağı salıblar.

**Ələsgər Sadiqov** (Naxçıvan MR Baş nazirinin birinci müavini): Hal-hazırda Naxçıvana qaz verilib. İşığın sönməsi isə onun yağ açarının qırılmasından irəli gəlmişdir. Hazırda təmir işləri gedir və ən geci bu günə təmir işi qurtaracaq.

**Heydər Əliyev:** Burada təsərrüfat məsələləri yox, siyasi məsələlər müzakirə olunur. Mən bəyanat verirəm: naxçıvanlı gənclər xəyanətə gedirsə, qoy analarının südü onlara haram olsun. İsgəndər Həmidov onları öyrədib bura təxribata göndərib. Valideynlər öz uşaqlarını belə işlərdən yayındırmalıdırlar. İsgəndər Həmidov bura gələ bilmədiyinə görə müraciət edib Türkiyədəki "Bozqurd" terrorist təşkilatına ki, onlar gəlib burda təxribat aparsın və əhalini qırsın. Mən bunu Türkiyəyə çatdırmışam.

**Kazım Kazımov** (müharibə veteranı): Oktyabrın 24-də baş verən hadisə bizi ayıq-sayıq etməlidir. Mən hamını birliyə çağırıram. Xahiş edirəm xalq arasında parçalanma olmasın. Biz öz ağsaqqalımızı, yəni Heydər Əliyevi qorumalıyıq.

**Azər Hacızadə** (Şərur rayonu): Dünən saat iki radələrində bir neçə silahlı adam Şərur mətbəəsini ələ keçirərək Əliyevin əleyhinə bülleten buraxmaq istəmişlər. Onlar özbaşlarına qüvvə yığıb yenə də mətbəəni ələ keçirmək istəyirlər. Biz buna imkan vermirik. Xalq Cəbhəsinin yerləşdiyi binanın alınıb məktəbə verilməsini xahiş edirəm. Onlar haqqında qəti tədbir görülsün və mətbəə nəzarətə alınsın.

**Adil Salmanov** ("Xıncab" Xeyriyyə Cəmiyyəti): Xalq sizi müdafiə edəcək. Üç gündür hadisə baş verib, burda oturanların əksəriyyəti ikitərəfli oyun oynayır. İsgəndər Həmidov haqqında qəti tədbir görülməlidir. Naxçıvanlılar Heydər Əliyevi müdafiə etmək üçün öz canlarından keçər və güllənin birincisini özləri qəbul edərlər.

**Dilarə Ələkbərova** (Təbiəti Mühafizə Komitəsinin sədri): Mən bütün Naxçıvan qadınlarını İsgəndər Həmidova qarşı silahlanmağa çağırıram. Naxçıvanın cavan oğlanlarını biz qırğına verməsik. Xalq sizinlədir.

**Əjdər İsmayılov** (professor): Moskvada olarkən Heydər Əliyev özünün qəlbini xalqa qurban verdi. Heydər Əliyev Rusiyada da Azərbaycanın vəziyyəti ilə maraqlanırdı. O, rus qoşunlarını Naxçıvandan gül-çiçəklə yola saldı. Mənim tələbim budur ki, Heydər Əliyevə qarşı yönəldilmiş təxribata son qoyulsun.

**Qafar Məmmədov** (Naxçıvan MR Ali Məclisi Sədrinin müavini): Mən oktyabrın 24-də baş verən hadisəni zorakılıq sayıram və onu törədənlər haqqında tədbir görülməsini xahiş edirəm.

**N. Nadirov** (DİN qərargahının baş müvəkkili): Naxçıvandakı hadisələr, həqiqətən də, dövlət çevrilişi idi. Bizdən dörd nəfər yaralandı. Prokurorun sessiyada çıxışından və verdiyi qiymətdən mən razı deyiləm. Nə üçün o konkret tədbir görmədi? Bu gün onun müstəntiqi gəlib məndən izahat verməyi tələb etdi. Nə üçün bu günə kimi bu haqda cinayət işi qaldırılmayıb. Onlar xalqın əzmini qıra bilməzlər. Çünki xalq birdir və Heydər Əliyevi müdafiə edir. Biz Ordubad rayon Daxili İşlər Şöbəsinin qanunsuz təyin olunmuş rəisini tutub prokuror Əjdər Əhmədovun yanına gətirərkən, o onunla öpüşdü, sonra isə buraxdı ki, getsin. Bu siyasi oyunun iştirakçıları İsgəndər Həmidov və Əjdər Əhmədovdur.

**Əşrəf Talıbov** (Naxçıvan MR-in xalq deputatı): Mən sözü açıq deyirdim, ona görə də bizi cəbhədən uzaqlaşdırdılar. Biz cəbhənin üzvü deyilik. Cəbhəyə qoşulanların bəzisi vəzifə istəyirdi, bəzisi pul güdürdü, bir qismi isə həqiqi demokrat idi. Elə həmin demokratlar da cəbhədən uzaqlaşdı. Valideynlər öz uşaqlarının öhdəsindən gələ bilmirlər. Bu hadisəni kimlər təşkil edirlərsə, onlar haqqında qəti tədbir görülməlidir.

**Heydər Əliyev:** Mənə belə gəlir ki, hamı eyni fikirdədir. Oktyabrın 24-də baş verən hadisəyə hamı dövlət çevrilişi kimi baxır. Bu iclasın bəyanatı hazırlanıb. Mən xahiş edirəm, həmin bəyanatı dinləyək və onu qəbul edək (Toplantı iştirakçıları adından bəyanat oxunur). Mənim haqqımda olan sözlər xahiş edirəm bəyanatdan çıxarılsın. Heydər Əliyevə qarşı olan sui-qəsdə münasibət bildirilsin. İsgəndərin bura gəlmə cəhdi, Naxçıvan Xalq Cəbhəsinin ona qoşulub bu hadisəni törətməsi bəyanatda qeyd olunsun. Açıq-aşkar Heydər Əliyevi hədələdiyinə gö-

rə İsgəndər Həmidov cinayət məsuliyyətinə cəlb olunsun. Kim bu təklifin tərəfdarıdırsa səs versin. (Bəyanat əlavələrlə birlikdə yekdilliklə qəbul olunur.)

Allahdan başqa heç bir qüvvə məni yerimdən tərpədə bilməz. Mən son damla qanıma qədər xalqımla birəm. İndi dövlət çevrilişi etmək istəyirlər. Bu, təsadüfi deyil. Cəbhəçilər şərait yaradırlar ki, ermənilər Naxçıvana atəş açsınlar. Biz xalqla birgə olub və bütün bu təxribatların qarşısını layiqincə alacağıq. Sizə öz minnətdarlığımı bildirir və bugünkü toplantını bitmiş hesab edirəm.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI İCTİMAİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN 28 OKTYABR 1992-Cİ İL TARİXLİ TOPLANTISININ BƏYANATI

24 oktyabr 1992-ci il tarixdə AXC Naxçıvan bölgəsinin qanunsuz fəaliyyət göstərən silahlı qüvvələri hərbi zirehli texnikanın köməyi ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyini və Naxçıvan televiziya mərkəzini zor tətbiq etməklə zəbt etmişlər.

Onlar televiziya vasitəsilə bu qanunsuz hərəkətlərindən Azərbaycan Respublikasının daxili işlər naziri İ. Həmidovun, hətta Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəyin məlumatı olduğunu bildirmişlər. AXC Naxçıvan bölgəsinin liderlərindən A. Quliyev və F. Quliyevin fitnəkar çıxışları Naxçıvan əhalisini çaşdıra bilməmiş, əksinə, onları muxtar respublikanın Konstitusiya hüquqlarını müdafiə etməyə yönəltmişdir.

Muxtar respublikanın ictimaiyyəti qanunsuz silahlı dəstələrin azğın hərəkətlərindən son dərəcə hiddətlənmiş, bu fitnəkarlığa son qoymağı, qanunsuz yolla zəbt edilən dövlət binalarını dərhal boşaltmağı qətiyyətlə tələb etmişlər. Bu çevriliş, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə qarşı terror aktı idi.

Bizi hiddətləndirən odur ki, AXC Naxçıvan bölgəsinin silahlı qüvvələrinin qanunsuz hərəkətləri başlayan andan bu əməllər barədə

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəyə, Azərbaycan Respublikası Ali Sovetinin Sədri İsa Qəmbərova məlumat verilsə də, qanunun və haqqın müdafiəsi üçün Azərbaycan Respublikasının rəhbərliyi heç bir tədbir görməmiş, əksinə, Naxçıvan Muxtar Respublikasında silahlı yolla hakimiyyəti devirmək istəyən qüvvələrə razılıq vermişdir.

Muxtar respublika sakinlərinin Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarının və qanuni hakimiyyət orqanlarının fəal müdafiəyə qalxması nəticəsində basqınçılar məğlubiyyətə uğramış, qanunsuz saxladıqları zirehli texnikanın köməyi ilə qaçıb gizlənə bilmişlər.

Naxçıvan Muxtar Respublikasının ağsaqqalları və ziyalıları bütün bu əməlləri dövlət çevrilişi kimi qiymətləndirirlər.

İrticaçı məqsədinin baş tutmadığını görən İ. Həmidov 27 oktyabr tarixdə xüsusi təlim görmüş 350 nəfərdən ibarət “Bozqurd” silahlı dəstəsi ilə Naxçıvana gəlməyə cəhd etmişdir. Onun bu gəlişdə niyyəti 27 oktyabr 1992-ci il tarixli “Komsomolskaya pravda” qəzetinin müxbirinə verdiyi müsahibəsində dediyi kimi “Heydər Əliyevin alnına şəxsən özü patron çaxmaq” olmuşdur. Lakin görülmüş tədbirlər nəticəsində İ. Həmidovun Naxçıvana təkrar uçuş cəhdi baş tutmamışdır.

Verilən məlumata görə, İ. Həmidov Naxçıvana qarşı növbəti təxribat hazırlayır. Belə ki, o, Bakı şəhərində yaşayan naxçıvanlı gənclərə müxtəlif vəzifə vədləri verərək, onları müxtəlif qruplarla ayrı-ayrı təyyarələrdə Naxçıvana göndərir və Naxçıvan Xalq Cəbhəsinin sıralarına qatır. Toplantı iştirakçıları İ. Həmidovun bu hərəkətini pisləyir və Naxçıvana qarşı yeni təcavüzkarlıq planı kimi qiymətləndirirlər. Biz respublika rəhbərliyindən İ. Həmidovun bu hərəkətlərinə görə məsuliyyətə alınmasını və istefa verməsini tələb edirik.

Naxçıvan Xalq Cəbhəsi irticaçı mövqedən əl çəkmək istəmir. Onlar respublikanın daxili işlər naziri İsgəndər Həmidovun təzyiqi və təkidi ilə Naxçıvan əhalisini qanda boğmağa çalışırlar. Əgər Naxçıvan Xalq Cəbhəsi bu qəddar, amansız niyyətdən əl çəkməsə, bu təhlükəni aradan qaldırarkən bütün məsuliyyət Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətdə olan başçılarının, xüsusən İsgəndər Həmidovun üzərinə düşür.

Toplantı iştirakçıları qəti tələb edirlər ki, yeni Azərbaycan Konstitusiyası qəbul edilənədək mövcud Konstitusiyada heç bir dəyişiklik aparılmasın. Biz, eyni zamanda 25 oktyabr tarixli Ali Məclisin fövqəladə sessiyasının xalqın vəsaiti hesabına alınmış və xalqa qarşı çevrilmiş silahların Xalq Cəbhəsi üzvlərindən yığılması barədə qəbul etdiyi qərarı bəyənirik.

Çevrilişlə əlaqədar sessiyanın qəbul etdiyi qərarda göstərilmişdir ki, MR prokurorluğu təcili surətdə cinayətkarları müəyyən etməli və onları məsuliyyətə cəlb etməlidir. Təəssüf ki, qərar bu günədək icra olunmamışdır. Muxtar respublika prokuroru Ə. Əhmədovun bu dövlət cinayətinə olan laqeydliyi və məsuliyyətsizliyi pislənməlidir. Əgər bir sutka ərzində işində dönüş yaratmasa, o, tutduğu vəzifədən kənarlaşdırılmalıdır.

Naxçıvan ictimaiyyəti, eyni zamanda onu da pisləyir ki, Azərbaycan Respublikasının bəzi dairələri, o cümlədən televiziya şirkəti minlərlə adamın qanuni şəkildə və haqqın müdafiəsinə qalxaraq keçirdikləri mitinqlərə başqa don geydirərək, onların təsirini azaltmağa çalışırlar.

Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinin son günlər Naxçıvan və onun rəhbərliyi haqqında yaydığı yalan məlumatlar Naxçıvanın Ali Məclisinə və onun rəhbərliyinə qarşı təxribat kimi qiymətləndirilir.

Toplantı iştirakçıları Azərbaycan Respublikası Prezidentindən öz andına əməl edərək Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarının qorunmasını xahiş və tələb edir.

Bəyanat bütün kütləvi informasiya vasitələrinə göndərilsin.

*Bəyanat 28 oktyabr 1992-ci il tarixdə Naxçıvan Muxtar Respublikası ictimaiyyətinin nümayəndələrinin toplantısında qəbul edilmişdir.*

## “Naxçıvan Muxtar Respublikasında baş vermiş dövlət çevrilişi cəhdi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 25 oktyabr 1992-ci il tarixli qərarının yerinə yetirilməsi barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, Ali Məclisin 1992-ci il oktyabr ayının 25-də keçirilən fövqəladə sessiyasında muxtar respublika Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin 1992-ci il oktyabr ayının 24-də Naxçıvan Xalq Cəbhəsi, onun silahlı qüvvələri tərəfindən işğal olunması dövlət çevrilişi cəhdi kimi qiymətləndirilmiş, muxtar respublika prokurorluğuna tapşırılmışdır ki, dövlət çevrilişi etmək cəhdi ilə əlaqədar əsaslı surətdə istintaq aparılsın, günahkarlar cinayət məsuliyyətinə cəlb edilsin və görülən tədbirlərin nəticəsi barədə Ali Məclisə məlumat verilsin.

Azərbaycan Xalq Cəbhəsi Naxçıvan vilayət şöbəsindən tələb edilmişdir ki, bütün silahlı dəstələrini ləğv etsin və üç gün müddətində silahları Naxçıvan ərazisində yerləşən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi hissəsinə təhvil versin.

Silahların təhvil verilməsi işinə nəzarətin təşkil edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının xalq deputatlarından ibarət səlahiyyətli komissiya yaradılmışdır (sədr Q. Məmmədov).

Lakin qərarın qəbul olunmasından 40 gündən artıq vaxt keçməsinə baxmayaraq, Xalq Cəbhəsinin silahlı dəstələri ləğv olunmayıb, silahlar təhvil verilməyib. Deputat komissiyası Ali Məclisin tapşırığını yerinə yetirməyib.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu 1992-ci ilin oktyabr ayının 24-də Naxçıvanda baş vermiş cinayət haqqında istintaqın gedişi və nəticələri barədə Ali Məclisə heç bir məlumat verməyib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Naxçıvan Xalq Cəbhəsində olan silahların Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvandakı hərbi hissəsinə verilməsi işinə nəzarət etmək üçün yaradılmış deputat komissiyasının işi qeyri-qənaətbəxş hesab edilsin.

Komissiyaya tapşırılsın ki, on gün müddətinə silahların təhvil verilməsini təmin etsin və nəticəsi barədə Ali Məclisə məlumat versin.

2. Naxçıvan Muxtar Respublikası Prokurorluğundan tələb edilsin ki, 1992-ci ilin oktyabr ayının 24-də Naxçıvanda baş vermiş cinayət haqqında istintaqı sürətləndirsin, nəticəsi haqqında Ali Məclisə məlumat versin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 7 dekabr 1992-ci il*



FƏSİL IV

# Yeni partiya. YAP-ın sıraları sıxlaşır

*"Bu, ən mütərəqqi, eyni zamanda, ən demokratik prinsiplər əsasında yaradılmış partiyadır. Ona görə də xalqın bu partiyaya kütləvi axını tamamilə təbiidir."*

**Heydər ƏLİYEV**
YAP Şahbuz rayon
təşkilatının konfransındakı
çıxışından.

*13 mart 1993-cü il*

## AZƏRBAYCAN SİZİN SÖZÜNÜZÜ GÖZLƏYİR

Möhtərəm Heydər bəy! Hamımız görürük ki, respublikamızın, xalqımızın vəziyyəti gündən-günə ağırlaşır. Azərbaycan sözün əsl mənasında siyasi, iqtisadi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali hakimiyyət və idarəetmə orqanları Konstitusiyaya zidd, "real vəziyyətə uyğun" fəaliyyət göstərməklə, əslində, iflic vəziyyətinə düşmüşdür. Bir çox dövlət orqanları heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərir.

Bir sözlə, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur. Ən dəhşətlisi odur ki, siyasi və iqtisadi sistemdə əsaslı islahatlar aparılmır. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktında təsbit olunmuş hakimiyyət bölgüsü havadan asılı qalmış, hüquqi dövlətin yaradılması yolunda real addımlar atılmamışdır. İqtidarın idarəetmə səriştəsi, təcrübəsi, bacarığı olmayanda zora əl atması təbiidir. Qəribə budur ki, Prezidentdən tutmuş respublikanın müxtəlif vəzifəli şəxsləri dəfələrlə öz müsahibələrində bildiriblər ki, artıq hakimiyyəti bizim əlimizdən heç kəs ala bilməz, çünki ordu və polis bizə xidmət edir.

Dünənə kimi küçə və meydanlarda səhərdən axşama qədər demokratiyadan danışanlar, görünür, demokratiyanın mahiyyətinin nə olduğunu dərk etmirlər. Əsl demokratik ölkələrdə ordu, polis, başqa inzibati orqanlar siyasətdən kənardadır və bütün bu qüvvələr hakimiyyətdə olanlara deyil, xalqa xidmət edirlər. Rəhbərliyin siyasi naşılığından, idarəetmə səriştəsizliyindən, hakimiyyət hərisliyindən həm daxildən, həm də xaricdən müəyyən qüvvələr öz mənafeləri üçün məharətlə istifadə edirlər. Əgər dünənə qədər Azərbaycanın sərvətləri bir istiqa-

mətə daşınıb aparılırdısa, indi var-dövlətimiz bir neçə səmtə axıdılır. Bir sıra Şərq ölkələrindən qovulmuş Qərb inhisarları indi asanlıqla çoxdan həsrətində olduqları Bakı neftini ələ keçirirlər. Belə gedərsə, biz siyasi əsarətdən qurtarmamış, tezliklə iqtisadi əsarətə məruz qalacağıq. Çünki respublikanın olan-qalan iqtisadi potensialı sürətlə dağılır, təbii sərvətlərimiz talan edilir.

Vəziyyətin ağırlığından, çıxılmazlığından, həyatın qeyri-sabitliyindən, gələcəyə ümidsizlikdən respublikanı yüzlərlə ziyalı - yüksəkixtisaslı kadr tərk edir. Sözsüz ki, ən ağır zərbə geniş xalq kütləsinə, aşağı təbəqəyə dəyir. Hadisələrin bu cür inkişafı göstərir ki, yaxın gələcəkdə sosial ədalətdən heç əsər-əlamət də qalmayacaq, halbuki uzun illər boyu imperiya boyunduruğu və totalitar rejimi altında inləyən xalqımız bu gün demokratik qanunlara əsaslanan vətəndaş cəmiyyəti qurmaq arzusu ilə yaşayır.

Yaşadığımız dövrün səciyyəvi cəhətlərinin, cəmiyyətin inkişaf meyillərinin iqtidar tərəfindən düzgün qiymətləndirilməməsi, fərsiz kadr siyasəti, siyasi idarəetmə səriştəsi olmayan təsadüfi adamların dövlət strukturlarında yüksək vəzifələrə təyin edilməsi respublikamızın onsuz da ağır olan durumunu daha da dərinləşdirir.

Xalqımıza qarşı ən dəhşətli cinayətləri - 20 Yanvar, Xocalı, Şuşa, Laçın və digər faciələri törədənlər hələ cəzalarına çatmayıblar. Axırı görünməyən minlərlə insan ömrü aparan, saysız-hesabsız ailələri doğma yurdlarından didərgin salan Qarabağ fitnəkarlığı bir çoxları üçün siyasi oyunbazlığa, məqam, vəzifə qamarlamaq girəvəsinə, qazanc mənbəyinə dönüb. Azərbaycanda "sürətli artım" ancaq yeni-yeni partiyaların və onların liderlərinin meydana çıxması sahəsindədir. Bu siyasi partiyaların sayı gündən-günə çoxalsa da, respublikada ictimai-siyasi həmrəylik yaratmaq yolunda əməli iş görülmür. Siyasi vakuum mövcuddur. Çünki bu siyasi partiyaların rəhbərləri arasında sözün əsl mənasında geniş xalq kütləsinin dərin inam və etimadını qazanmış, öz ətrafında müxtəlif zümrələrdən olan adamları birləşdirə biləcək beynəlxalq nüfuzlu və respublika həyatının bütün sahələrindən tam, geniş məlumatı olan güclü lider yoxdur.

Möhtərəm Heydər bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun il-

lər əldə etdiyiniz dövlət quruculuğu təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz. Yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi-iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərinə öz layiqli töhfəsini verə bilər. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək, dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu, peşəkar insanların siyasi partiyasına çevriləcək. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasının yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü, aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bu günü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu Partiyanın mövqeyində dayanacaqlar. Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar. Siz bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını da məhz öz şəxsi nüfuzunuz və uzaqgörən diplomatik səriştənizlə qoruyub saxlayır və idarə edirsiniz. Bütün çətinliklərə baxmayaraq, hələ Baltikyanı respublikalarda belə qalan rus ordusunun Naxçıvandakı hissələrini Siz çox bacarıqla, qayda-qanunla yola saldınız. Qardaş Türkiyə və İranınköməyi ilə Naxçıvan əhalisini dözülməz vəziyyətdən çıxarırsınız. İstərdik ki, bu işləri bütün Azərbaycan üçün görəsiniz.

Heydər bəy! Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bu-

nu bir qrup ziyalı adından biz edirik. Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir.

Hörmət və ehtiramla,

Ziya Bünyadov, Fəraməz Maqsudov - Azərbaycan Respublikası Elmlər Akademiyasının akademikləri, Ömər Eldarov - Heykəltəraşlıq Akademiyasının akademiki, İqrar Əliyev, Kərim Kərimov, Məmmədtağı Cəfərov, Sabir Hacıyev - Azərbaycan EA-nın müxbir üzvləri, Xəlil Rza Ulutürk - xalq şairi, Zeynəb Xanlarova - xalq artisti, Sirus Təbrizli - yazıçı-publisist, Əli Ömərov, Eldar İbrahimov, Mixail Zabelin, Əlfəddin Abdullayev - Azərbaycan Respublikasının xalq deputatları, professorlar: Murtuz Ələsgərov - əməkdar hüquqşünas, Əkbər Bayramov - əməkdar elm xadimi, Zahid Qaralov - əməkdar müəllim, Həsən Quliyev, Adil Qasımov, Əjdər İsmayılov, Fikrət İsmayılov - Respublika Dövlət mükafatı laureatları, Şahlar Əsgərov, Mübariz Əhmədov, Əli Nuriyev, Ədalət Fərəcov, Həsən Mirzəyev, Zahid Xəlilov, Vilayət Əliyev, Abbas Səmədov, Ağababa Mahmudov, Şəmistan Mikayılov, Səfiyar Musayev, Əsədulla Qurbanov, Musa İlyasov, Tələt Qayıbov, Məmməd Məmmədov, Rafiq Əmənzadə, Lalə Hacıyeva, Eldar Abbasov, Əli İnsanov, Fuad İsmayılov, Əlişir Musayev, Hüsü Kərimov, Rafiq Məmmədhəsənov, Məmməd Nəsirov, İbrahim İsayev, Faiq Cəfərov, Sudeyif İmamverdiyev, Liliya Luqovaya - dosent, əməkdar həkim, elmlər doktorları - Hacıbala Abutalıbov, Novruz Quliyev, Əmir Mərdanov, dosentlər Sabir Xəlilov, Pənah Mahmudov, İsgəndər Quliyev, Zakir Sərdarov, Əli Əhmədov, Əli Nağıyev, Maqsud Nəcəfov, Heydər Hüseynov, Nəbi Əsgərov, Allahverdi Hacıyev, Tofiq Hüseynov, Məmməd Məmmədov, Musa Heydərov, Hacı Hacıyev - elmlər namizədi, "Qaraçöp" Xeyriyyə Cəmiyyətinin sədri, elmlər namizədləri - Nəzir Əhmədov, Allahyar Hüseynov, İbrahim Əzizov, Aydın Əhmədzadə, Vidadi Acalov, Səbirə Dünyamalıyeva, Georgi Savoskin -"Sodrujestvo" cəmiyyətinin üzvü, Lüdviq Muradov - "Azərbaycan-Rusiya" cəmiyyətinin məsul katibi, Rəfael Allahverdiyev - "Azərbaycan-Rusiya" cəmiyyətinin vitse-prezidenti, Asif Cahangirov - BXTŞ-nin müdi-

ri, Rafiq Qasımov - "Azərelektroterm"in baş direktor müavini, Kərim Kərimov - Bakı kondisioner zavodunun şöbə müdiri, Munis Bayramov - Azərbaycan Əlillər Cəmiyyəti sədrinin köməkçisi, Möhsün Möhsünov - yazıçı-jurnalist, Ağabəy Əsgərov - elmlər namizədi, "Səs" qəzetinin baş redaktoru, Vüqar Rəhimzadə - "İki sahil" qəzetinin baş redaktoru, Rizvan Cəbiyev - "Naxçıvan" qəzetinin baş redaktoru, Ariz Abdullayev - "Axtarış" qəzetinin baş redaktoru, Əziz Axundov - "Kənd müəllimi" qəzetinin redaktoru, Mirzə Əsgərov - "Real" agentliyinin direktoru, Xeyrəddin Qoca -"Açıq söz" qəzetinin redaktor müavini, Səlahəddin Quliyev, Ziya Paşa, Vüqar İsmayılov, Tahir Məmmədov - jurnalistlər.

*"Səs" qəzeti, 16 oktyabr 1992-ci il*

## YENİ, MÜSTƏQİL AZƏRBAYCAN UĞRUNDA

### (Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı)

Hörmətli ziyalılar!

16 oktyabr 1992-ci il tarixli "Səs" qəzetində dərc olunan Sizin müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum. Müraciətiniz - dən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatçılığı haqlıdır və təqdirəlayiqdir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və şübhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını hədsiz dərəcədə sevindirir.

Eyni zamanda, bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli-demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suve-

renliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər layiqli töhfəsini verməlidir.

Bununla bağlı və sizin müraciətinizə cavab olaraq bəzi fikirlərimi və arzularımı açıqlamaq istəyirəm.

Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi təxminən səksəninci illərin əvvəllərindən başlanmış, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsidir. Bu tarixi-obyektiv proseslər Sovet İttifaqının dağılmasına, Kommunist Partiyasının tarixin səhnəsindən çıxmasına və 15 müttəfiq respublikanın hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bundan sonrakı hadisələr, yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir haldır və beynəlxalq dövlətlərarası hüquq normalarının qanunauyğun təzahürüdür.

Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin, o cümlədən də Xalq Cəbhəsinin xidməti saymaq olmaz. Təkrar edirəm, bu, tarixi-obyektiv proseslərin nəticəsidir, taleyin və zamanın Azərbaycan xalqına, eləcə də keçmiş müttəfiq respublikaların xalqlarına əvəzsiz töhfəsidir.

Beləliklə, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və heç cür yol vermək olmaz ki, bu ayrı-ayrı siyasi partiyaların, qurumların, şəxslərin müstəsna səlahiyyətinə, monopoliyasına çevrilsin.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-demokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması hərtərəfli, genişplanlı iş aparılmasını və respublikanın bütün ictimai-siyasi, sosial-iqtisadi potensialından maksimum istifadə olunmasını tələb edir. Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət olur.

Güman edirəm ki, bu yolda əsas vəzifələr aşağıdakılardan ibarətdir:

**Birinci** – Azərbaycanın müharibə vəziyyətindən çıxması və Qarabağ probleminin tezliklə həll olunması. Artıq beş ildir ki, Azərbaycanla Ermənistan arasında müharibə gedir, ərazimizin bir hissəsini itirmişik, Ermənistanla həmsərhəd bölgələrin bir çox yaşayış məntəqələri dağılmış, minlərlə insan həlak olmuş, yaralanmış, şikəst və əlil olmuşlar. Respublikada yüz minlərlə yurdlarından didərgin düşmüş, ağır vəziyyətdə yaşayan qaçqınlar var. Respublikaya misli görünməmiş hədsiz maddi və mənəvi ziyan dəyir. Ən dəhşətlisi budur ki, bütün bu faciələrin hələ də sonu görünmür. Bir il bundan əvvəl olduğu kimi bu gün də Azərbaycanın rəhbər dövlət orqanlarının Qarabağ problemi haqqında dəqiq, aydın konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur. Belə təsəvvür yaranır ki, Qarabağda və başqa sərhəd zonalarında hərbi əməliyyatlar özbaşına gedir.

**İkinci** – Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi, xalqın güzəranının gündən-günə ağırlaşması böyük həyəcan doğurur. Respublika iqtisadiyyatının cari ilin doqquz ayındakı vəziyyəti barədə statistik məlumatlar insanı dəhşətə gətirir. Milli gəlir 25 faiz, sənaye məhsullarının istehsalı 25 faiz aşağı düşmüşdür. Kənd təsərrüfatında və əsaslı tikintidə vəziyyət daha da ağırdır. Əgər Azərbaycan iqtisadiyyatının səviyyəsinin son 5-6 il ərzində dayanmadan aşağı düşməsini nəzərə alsaq, o zaman respublikanın necə böyük fəlakətlə üzləşdiyini təsəvvür etmək çətin deyil.

Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlara, lazımi intellektual potensiala, əsaslı istehsal fondlarına, istənilən qədər işçi qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyini möhkəmlətmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə olunmalıdır. Aqrar sahədə təkcə bir il ərzində istehsalı yüksəltməklə kənd təsərrüfatı məhsullarını xeyli artırmaq mümkündür. Təəssüf ki, respublikanın belə zəngin daxili imkanlarından lazımi səviyyədə istifadə olunmur.

Belə qənaətə gəlmək olur ki, dövlət və hökumət orqanlarının respublikanı ağır vəziyyətdən çıxarmağa yönəldilən aydın iqtisadi proqramı, strategiyası, əhalinin həyat səviyyəsini günü-gündən yaxşılaşdır-

maq üçün konkret tədbirləri yoxdur. Müşahidələr göstərir ki, bu sahədə də çox işlər kortəbii aparılır.

**Üçüncü** – Bu gün respublikada aparılan kadr siyasəti çox haqlı olaraq geniş xalq kütləsinin etiraz və narazılıqlarına səbəb olur. Rəhbər vəzifələrə iş qabiliyyəti, biliyi, bacarığı, təsərrüfat və idarəetmə işlərindəki təcrübəsi nəzərə alınmadan yalnız Xalq Cəbhəsinə mənsubiyyətin əsas götürülməsi hüquq normalarına uyğun deyil və ağır nəticələr verə bilər. Azərbaycan xalqı Xalq Cəbhəsinə heç zaman belə müstəsna hüquq və səlahiyyət verməmişdir. Ötən illər və onilliklər ərzində respublikada dövlət idarəetmə, iqtisadiyyat, elm, mədəniyyət və sosial sahələrdə kifayət qədər bilikli, təcrübəli, səriştəli, yüksək mədəniyyətə malik kadrlar hazırlanmışdır. Onların hamısı ictimai-siyasi təşkilatlara, partiyalara mənsubiyyətindən asılı olmayaraq fəal quruculuğa cəlb edilməlidirlər.

Azərbaycandan kənarda, Rusiyada, Ukraynada və başqa respublikalarda ölkənin mötəbər nüfuzlu ali məktəblərində, elm mərkəzlərində, ali hərbi məktəblərdə təhsil almış və böyük təcrübə toplamış azərbaycanlılar yaşayır. Onları öz vətənlərində müstəqil Azərbaycan həyatının müxtəlif sahələrində işə cəlb etmək üçün tədbirlər görmək lazımdır. Yeniləşən, demokratikləşən müstəqil Azərbaycana onlar öz səmərəli fəaliyyətləri ilə çox böyük fayda verə bilərlər.

Bu gün bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadə olunmasına yol verilməməlidir. Təəssüf ki, son aylar bu təcrübə respublikada geniş tətbiq edilir.

**Dördüncü** – Müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək azadlığından gedir.

Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır. Əfsuslar olsun ki, bu sahədə də respublikada ötən yarım ildə heç bir dəyişiklik baş verməmişdir.

Fikrimcə, yeni müstəqil dövlətin quruculuğu prosesinə vətəndaşların hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Hamı onun tərəqqisinə çalışmalıdır. Bu işdə heç kəsə məhdudiyyət qoyulmamalıdır.

**Beşinci** – Son zamanlar Azərbaycanın parçalanmasına yönəldilmiş meyillərin təzahürü böyük təhlükə yaradır. Belə meyillərin qarşısı qətiyyətlə alınmalıdır. Yaranan problemlər sivilizasiya və demokratik yollarla həll edilməlidir.

Azərbaycan onilliklərlə, yüzilliklərlə onun ərazisində yaşayan bütün insanların vətəni olmuşdur. Yaranmış vahid, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün mühüm vəzifə və əsas şərtdir.

Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərin həllinə biganə qalmağa heç kəsin haqqı yoxdur.

Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zəruriyyətdən doğur.

Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər.

Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram.

Dərin hörmətlə:

**Heydər ƏLİYEV**

*Naxçıvan şəhəri, 24 oktyabr 1992-ci il*

## YENİ AZƏRBAYCAN PARTİYASI YARADILMIŞDIR

1992-ci il noyabr ayının 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının (YAP) təsis konfransı keçirilmişdir. Konfransda Azərbaycanın müxtəlif regionlarından təəssübkeş qrupların 550-dən artıq nümayəndəsi iştirak etmişdir.

Konfransı giriş sözü ilə YAP təşkilat komitəsinin sədri Heydər Əliyev açdı. Konfrans nümayəndələri şəhidlərin xatirəsini və 20 noyabrda Qarabağda vertolyot qəzası zamanı həlak olanların ildönümünü bir dəqiqəlik sükutla yad etdilər.

Konfrans Yeni Azərbaycan Partiyasının təsis edilməsi haqqında qərar qəbul etmişdir.

YAP-ın Proqram və Nizamnamə layihələri konfrans nümayəndələrinin müzakirəsinə verilmiş, müəyyən düzəliş və əlavələr edildikdən sonra qəbul edilmişdir*.

Heydər Əlirza oğlu Əliyev konfrans nümayəndələri tərəfindən açıq səsvermə yolu ilə Yeni Azərbaycan Partiyasının sədri seçilmişdir.

Sonra partiyanın rəhbər orqanları - Siyasi Şura və Təftiş Komissiyası seçilmişdir.

YAP-ın sədri Heydər Əliyev konfransın işinə yekun vurmuşdur.

Elə həmin gün Siyasi Şuranın birinci iclasında 12 nəfərdən ibarət İdarə Heyəti yaradılmışdır.

Konfrans qurtardıqdan sonra onun iştirakçıları Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına getmiş və məzarların üstünə əklil qoymuşlar.

---

* Möhtərəm Heydər Əliyevin işləyib hazırladığı Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsi mətbuat orqanlarında və kitabça şəklində çap olunduğundan bu topluya daxil edilməmişdir - **tərtibçi.**

## YENİ AZƏRBAYCAN PARTİYASININ BƏYANATI

Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi tarixi bir hadisədir. Bu müstəqillik Azərbaycanın dövlət orqanları və bütün vətəndaşları qarşısında məsul və mürəkkəb vəzifələr qoyur.

Hamıya məlumdur ki, bu gün respublika ağır siyasi, iqtisadi, sosial və mədəni böhran keçirir. Lakin bu böhran nə qədər dərin olsa da, başlıca şərt respublikanın bütün həyat sahələrində sabitlik yaratmaq və bu vəziyyətdən çıxmaq üçün təsirli tədbirlər görməkdən ibarətdir.

Yeni Azərbaycan Partiyası parlament tipli siyasi partiya olub, qanunun aliliyi, hamının qanun qarşısında bərabərliyi, dövlət və vətəndaşın qarşılıqlı məsuliyyəti və Konstitusiya ilə təsbit edilmiş normalara hörmət edilməsi prinsipini əldə rəhbər tutur.

Yeni Azərbaycan Partiyasının başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı demokratik hüquqi dövlətin yaradılması, möhkəm əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaqdan, irqindən, milliyyətindən, dinindən və dilindən asılı olmayaraq şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli inkişafı və etibarlı müdafiəsini təmin etmək məqsədilə geniş demokratik islahatların həyata keçirilməsi uğrunda mübarizə aparmaqdan ibarətdir. Bizim şüarımız: müxalifət naminə müxalifət ola bilməz. Bizim prinsipimiz - konstruktivlikdir.

Müasir şəraitdə partiya öz iqtisadi strategiyasının əsasını respublikanın iqtisadi-sosial vəziyyətini, millətin mentaliteti, onun tarixi-mədəni ənənələrini nəzərə almaqla tənzimlənən bazar iqtisadiyyatına keçməkdə görür. Bu, inkişaf etmiş dövlətlərin təcrübəsinə, xalq təsərrüfatında çoxukladlığa və mülkiyyətin müxtəlif formalarına əsaslanmaqla müstəqil iqtisadi proqramın hazırlanmasını tələb edir.

Partiyanın fikrincə, müstəqil Azərbaycanın gələcəyi qanunun, humanizmin və praqmatizmin təntənəsindən asılıdır. Əsl demokratik islahatlar dövlət hakimiyyətinin üç güclü, müstəqil bölgüsünə əsaslanmalıdır. Sivilizasiyalı dövlətin həyat fəaliyyətinin bu əsas prinsipi tətbiq edilmədən peşəkarlığın üstünlüyünə, klanlığın, qrupbazlığın, korrupsiyanın

ləğvinə ümid bəsləmək olmaz. Yaxşı hökumət o deyil ki, insanları xoşbəxt etmək istəyir, yaxşı o hökumətdir ki, buna hansı yollarlasa nail olmağı bacarır.

Yeni Azərbaycan Partiyası qarşıya qoyulan bu məqsədlərə çatmaq üçün bütün siyasi partiyalar və ictimai təşkilatlarla, ictimaiyyətin geniş dairələri ilə fəal əməkdaşlıq etməyə, bütün səviyyələrdə ümumi mənafeləri razılaşdırmağa, başqa siyasi mövqedə və əqidədə olanlarla açıq, vicdanlı dialoq və danışıqlar aparmağa hazır olduğunu bildirir.

Yeni Azərbaycan Partiyası əmindir ki, onun Proqram və Nizamnaməsində irəli sürdüyü bu müddəalar Azərbaycan Respublikasının vətəndaşları tərəfindən rəğbətlə qarşılanacaq.

*Naxçıvan şəhəri, 21 noyabr 1992-ci il*

*AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ,*
*AZƏRBAYCAN RESPUBLİKASININ ALİ SOVETİNƏ,*
*AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORUNA*

## *YENİ AZƏRBAYCAN PARTİYASININ SƏDRİ HEYDƏR ƏLİYEVİN M Ü R A C İ Ə T İ*

Yeni Azərbaycan Partiyasının sədri kimi partiya sədrinin müavini, məşhur hüquqşünas, professor, Bakı Dövlət Universitetinin hüquqşünaslıq kafedrasının müdiri Murtuz Ələsgərova qarşı həyata keçirilmiş terrorçuluq aktı ilə əlaqədar olaraq hədsiz hiddətimi və nifrətimi bildirirəm. 1992-ci il dekabr ayının 15-də Bakıda öz evinin yanında Murtuz Ələsgərov vəhşicəsinə quldur hücumuna məruz qalmış, nəticədə çoxlu bıçaq yaraları və ağır bədən xəsarəti almışdır.

Bu hərəkətləri mən demokratiyanın prinsiplərinə və beynəlxalq hüquq normalarına tam zidd olan terrorçu metodlarla yeni yaranmış siyasi partiyanın - Yeni Azərbaycan Partiyasının təqibi kimi qiymətləndirirəm.

Qətiyyətlə tələb edirəm ki, partiyanın fəallarına qarşı aparılan hüquqazidd terrorçu aksiyalara son qoyulsun. Partiyanın sədr müavini, professor Murtuz Ələsgərovun həyatına qəsd edən cinayətkarların aşkar edilməsi və təcili cəzalandırılması, həmçinin açıq-aşkar terrorizmə və qan tökməyə çağıran şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün yubanmadan təcili və qəti tədbirlər görülsün.

**Heydər ƏLİYEV**

*Naxçıvan şəhəri, 16 dekabr 1992-ci il*

## MÜTƏŞƏKKİL VƏ YEKDİL ŞƏRAİTDƏ

Şərur rayon mədəniyyət sarayının geniş salonu onun həyətindən də soyuq idi. Buna baxmayaraq, salon ağzına kimi dolu idi. Foyedə və həyətdə də onlarca adam yığışmışdı. Salona dəvət olunmuş 480 nümayəndədən əlavə, xeyli arzu edənlər də gəlmişdi. Onlar Yeni Azərbaycan Partiyasının Şərur rayon təşkilatının təsis konfransına toplaşmışdı.

Yeni Azərbaycan Partiyasının muxtar respublikada ilk təsis konfransının məhz Şərurda çağırılması təsadüfi deyildi. 100 mindən bir az artıq əhalisi olan Şərurda 31648 nəfər Yeni Azərbaycan Partiyasına üzv olmağı arzu etmiş, ona tərəfdar çıxmışdır. Həmin adamların 6512 nəfəri alitəhsillidir. Onların arasında xeyli qadın var. Müqayisə üçün bir faktı xatırlatmaq istərdik. Muxtar respublikada Sov. İKP üzvlərinin sayı Kommunist Partiyası buraxılan vaxt 13000 nəfər olmuşdur.

Şərur rayonunun mərkəzində və rayonun bir çox kəndlərində, müəssisə və təşkilatlarda YAP-ın özəkləri yaradılmışdır. Təsis konfransı geniş və hərtərəfli hazırlıqdan sonra keçirilirdi. Üç aya yaxın müddətdə xeyli iş görülmüşdü.

Konfransı YAP-ın Şərur rayon təşkilat komitəsinin sədr müavini Yaqub Abdullayev açdı. Partiyanın təşkilat komitəsinin üzvü Azər Hacızadə görülən işlər haqqında ətraflı məlumat verdi. Yeni Azərbaycan Partiyasının Nizamnamə və Proqramı oxundu. Konfrans nümayəndələri Vəli Əliyev, Dünya Nağıyeva, Hüseynqulu Abbasov, Hüseyn Cəli-

lov, Musa Şirəliyev və başqaları partiyanın Nizamnamə və Proqramını bəyəndiklərini yekdilliklə bildirərək qeyd etdilər ki, bu partiya dövrün və zamanın tələbindən doğan siyasi təşkilatdır və müstəqil, demokratik Azərbaycanın irəliyə getməsində mühüm rol oynaya bilər.

Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyev təsis konfransında çıxış etdi. O Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının bugünkü siyasi, iqtisadi, ictimai vəziyyətindən geniş danışaraq onun çətinliklərinin aradan qaldırılması üzərində dayandı. Heydər Əliyev qeyd etdi ki, Azərbaycan xalqı öz müqəddəratını ələ alıb. Lakin siyasi-ictimai vəziyyət gərgindir. Azərbaycan Respublikası beş ildən artıqdır ki, müharibə şəraitindədir. Torpaqlarımızın bir hissəsi düşmən tərəfindən tutulub, çoxlu qurban vermişik. Təbiətimiz dağılıb, onlarca kənd viran qalıb. Azərbaycan sosial-iqtisadi böhran içindədir. Qaçqınlar böyük problem yaradıb. Bunlar dövrümüzün reallığıdır. Xalq bu çətinliklərdən çıxmağa çalışır. Naxçıvan muxtar respublikasında vəziyyət daha dözülməzdir. Biz sanki əlçatmaz, ünyetməz bir adada yaşayırıq. Builki sərt qış vəziyyətimizi daha da ağırlaşdırmışdır. Muxtar respublikanın Ali Məclisi və Nazirlər Kabineti bir sıra tədbirlər həyata keçirsələr də, istənilən nəticə alınmayıb. Müəyyən qüvvələr ümumi işə kömək etmək əvəzinə əngəl törədir. Əgər vaxtilə real təkliflər qəbul edilsəydi, bugünkü vəziyyət yaranmazdı.

Heydər Əliyev qonşu İran və Türkiyənin Naxçıvan Muxtar Respublikasına köməyindən danışaraq qeyd etdi ki, bu imkanlar da azalır. Türkiyənin verdiyi 10 milyon dollar kredit müqabilində ərzaq alınmışdır. Müəyyən səbəblər üzündən İran İslam Respublikasından gözlənilən səviyyədə yanacaq məhsulları gətirilmədi. Elektrik enerjisi azdır. Lakin Naxçıvan əhalisi dözümlüdür. O, dözəcək və yaşayacaq. Amma Naxçıvanı bu vəziyyətə salanlar tarix qarşısında cavab verməli olacaqlar.

Yeni Azərbaycan Partiyası barədə Heydər Əliyev dedi ki, Azərbaycan demokratik yolla getmək məramı elan edib. Demokratik quruluşda isə onun bütün tələblərinə əməl olunmalıdır. İndi Azərbaycanda 20-dən artıq partiya var. Onların hər biri respublikanı ağır vəziyyətdən çıxarmaq məqsədini güdür. Yeni Azərbaycan Partiyası həyatımızda gedən proseslərin məntiqi nəticəsidir. Ona bütün Azərbaycanda göstərilən maraq bunu sübut edir.

Şərurda partiyaya münasibət daha da yaxşıdır. O başqa rayonlara da nümunə ola bilər. İndi Bakının və Azərbaycanın digər rayonlarında təsis konfranslarına hazırlıq gedir. Bu bir daha təsdiq edir ki, belə bir partiya lazımdır. Onun məramnamə və prinsipləri artıq on minlərlə adam tərəfindən bəyənilib.

Yeni Azərbaycan Partiyasının əsas məqsədi Azərbaycanın müstəqilliyini möhkəmləndirmək və inkişaf etdirməkdir. Azərbaycanın əldə etdiyi müstəqilliyi qoruyub saxlamaqdır. İndi Azərbaycan üçün təhlükə var. Əgər biz, bütün xalq bir olsaq, onu qoruyacağıq.

Qarabağ problemi haqqında Azərbaycan rəhbərliyinin konkret konsepsiyası yoxdur. Müharibə strategiyası yoxdur. Müharibə özbaşına gedir. Siyasət silahdan üstündür. Biz isə hələ ki, siyasətdə uduzuruq. Ötən beş ildən bəri Azərbaycanın dövlət dairələri bu problemdən çıxış yolları haqqında qəti söz demir. Doğrudur, müharibədə qurban da ola bilər. Lakin nə vaxtadək, nə qədər?

Dağlıq Qarabağ problemi problem olaraq qalır. Əsas məqsəd odur ki, Azərbaycan müharibə vəziyyətindən çıxsın. Torpaqlarımız qaytarılsın, sosial iqtisadi böhrana son qoyulsun, keçirilən islahatlar xalqın yoxsullaşmasına yox, firavan yaşamasına xidmət etsin. Axı xalqa fayda verməyən islahat kimə lazımdır?

Yeni Azərbaycan Partiyasının başlıca prinsipi konstruktiv əməkdaşlıqdır. Müxalifət naminə müxalifət ola bilməz. Bugünkü vəziyyətdə xalq həmrəy olmalı, əl-ələ verməlidir. Təəssüf ki, indi bunun əvəzinə qarşıdurma güclənir.

YAP Azərbaycanı böhran vəziyyətindən çıxarmaq üçün bütün siyasi partiyalarla, ictimai qurumlarla əməkdaşlığa hazırdır.

Azərbaycanda iqtisadi, intellektual potensial böyükdür. Azərbaycan bu təməl, bu özül üzərində qurulmalıdır. Bu təməl inkar edilərsə, Azərbaycan bar verməyən köklü, gövdəli iri bir ağaca bənzəyəcək. Barsız isə onun nə gövdəsinin, nə boyunun bir kimsəyə faydası yoxdur. YAP yeni, müstəqil Azərbaycanın yeni yaranmış partiyasıdır, cəmiyyətin partiyasıdır. Hər bir şəxs öz arzusu ilə onun üzvü ola bilər.

Təsis konfransında YAP-ın Şərur rayon təşkilatının şurası seçilmişdir. Əvvəlki "partiya demokratiyası"nın əksinə olaraq seçki bir nəfərin

oxuduğu siyahının alqışlarla qarşılanması şəraitində keçmədi. Salona toplaşanlar namizədlərini özləri verib, özləri də hər bir namizədi səsə qoymaqla seçdilər.

Beləliklə, YAP-ın Şərur rayon təşkilatının təsis konfransı demokratiyanın, aşkarlığın, şəxsi rəyin, seçilən şəxsiyyətə bütün nümayəndələrin münasibəti şəraitində keçdi. Heç kəs narazı qalmadı. Hamının arzusu nəzərə alındı. Konfransda təklif edilən 35 nəfər əvəzinə şuraya nümayəndələrin təşəbbüsü ilə 47 nəfər seçildi. Etiraf edək ki, 32 min tərəfdar üçün çox deyil.

Uzun illər "Şərq qapısı" qəzetinin Şərur rayonu üzrə xüsusi müxbiri işləmiş Yaşar Ələkbərov yekdilliklə YAP-ın Şərur Rayon Şurasının sədri seçildi.

Konfrans iştirakçıları Sədərək döyüşlərində həlak olmuş şəhidlərin abidəsi önünə əklil qoydular.

YAP-ın Naxçıvan MR-də rayon təşkilatının ilk təsis konfransı mütəşəkkil və yekdil şəraitdə keçirildi. Bu konfransa Babək, Culfa, Şahbuz rayonlarından, Naxçıvan şəhərindən nümayəndələr gəlmişdi. Həm də Naxçıvanda benzinin qıtlaşdığı və "qan qiyməti"ndə olduğu bir vaxtda.

Bu, bir daha göstərdi ki, adamlar yeniliyə, obyektivliyə, düzlüyə, nəhayət, şəxsiyyətin nüfuzuna daha çox meyillidir. Vaxtilə AXC ətrafında çoxsaylı qüvvələr gecəli-gündüzlü "keşikdə" durmuşdular. Sonra nə oldu? Əlinə vəzifə keçən razı qaldı, vəzifəyə keçməyən üz çevirdi. Hər 2-3 aydan bir icra başçıları dəyişdi. Onlar sadəcə işin öhdəsindən gələ bilmədilər. AXC-nin Proqram və Nizamnaməsinin tələblərinə uyğun iş prinsipi seçmədilər. Onun ideyasına sadiq qalmadılar.

Bu gün adamlar dəstə-dəstə YAP-a axışırlar. Əlbəttə, bu, təbiidir. Çünki xalq yeni, həm də faydalı islahat gözləyir. Yaxşılığa doğru bir hərəkət, təkan gözləyir. Qarabağ probleminin həllini gözləyir, yoxsulluğa, dilənçiliyə son qoyulmasını gözləyir.

Xalq saxtakarlığı, şəxsiyyət keyfiyyətsizliyini, "qızıl qaya" vədlərini qəbul etmir. Ona qızıl yox, söykənməyə, ümidini doğrultmağa layiq qaya lazımdır.

**M. MÖHSÜN**

*"Şərq qapısı" qəzeti, 27 yanvar 1993-cü il*

## YAP-ın SIRALARI SIXLAŞIR

Yeni Azərbaycan Partiyasının Babək rayon təşkilatının təsis konfransı öz işini nəzərdə tutulduğundan yarım saat gec başladı. Nümayəndələr partiyanın sədrini gözləyirdilər. Bir gün əvvəl onun Ermənistan rəhbərliyi ilə danışığının nəticəsində Dağlıq Qarabağ bölgəsindəki döyüşlərdə həlak olmuş Azərbaycan ordusunun üç əsgərinin meyidi iki respublikanın sərhədində - Sədərəkdə muxtar respublikanın nümayəndələrinə təhvil verildikdən sonra şəhər məscidinə gətirilmişdi. Yüzlərlə naxçıvanlı məscidə axışırdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri həlak olmuş döyüşçülərlə vida mərasimindən birbaşa konfransa gəldi.

YAP-ın Babək rayon təşkilatı konfransının iştirakçıları şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

YAP təşkilat komitəsinin üzvü Əqil Mehdiyev konfransı giriş sözü ilə açdı. Nümayəndələr partiyanın Nizamnamə və Proqramı ilə tanış oldular. 62 min nəfər əhalisi olan rayonda keçirilən konfransın nümayəndələri 5 minə yaxın üzvü, 15 min nəfər tərəfdarı təmsil edirdilər. 41 kənddən 21-ində partiyanın özəyi yaradılmışdır. 9 kənddə bu işə hazırlıq gedirdi. Partiyanın özəkləri ilk dəfə rayon əhalisinin üçdə biri yaşayan Nehrəm və Cəhri kəndlərində fəaliyyətə başlamışdı.

Təsis konfransında 250 nümayəndə iştirak edirdi. 40 nəfər dəvət olunmuşdu. Nümayəndələrdən Abasqulu Quliyev, Vilayət Hüseynov, Kamil Sadıqov, Ənvər Hüseynov, Murtuz Hüseynov, müharibə və əmək veteranı Abbas İsmayılov və başqaları çıxış etdilər. Çıxışa yazılan 14 nəfərin hamısına söz verildi. Qocaman müəllim Murtuz Hüseynov bildirdi ki, yaşının bu ixtiyar çağında Yeni Azərbaycan Partiyasına üzv olması ilə fəxr edir. Çünki bu partiyaya ümid və inam çoxdur. Müharibə veteranı Əsəd Bayraməliyev üzünü konfrans iştirakçılarına tutaraq dedi ki, o yeddi oğlu ilə birlikdə YAP-ın üzvüdür. Çıxış edənlərin hamısı bir nəfər kimi Yeni Azərbaycan Partiyasının Nizamnamə və Proqramını bəyəndiklərini bildirdilər. Təsis konfransının iştirakçıları təkcə Babək rayonunda deyil, muxtar respublikanın hər yerində, bütün Azərbaycanda YAP-a böyük maraq göstərildiyini, Azərbaycanın

dərin böhrandan çıxarılması üçün ona ümid və inamla baxdıqlarını söylədilər.

Qeyd olundu ki, YAP-ın yaradılması Azərbaycanda gedən sosial-iqtisadi, siyasi proseslərin məntiqi nəticəsidir. Müstəqil Azərbaycanda son vaxtlar bir çox partiyalar yaradılmışdır. Bu və ya digər partiyada təmsil olunmaq istəyən hər kəs öz əqidəsi ilə hərəkət edir. Əqidəyə isə hökmranlıq etmək olmaz. Bu salona toplaşanlar, bu partiyaya tərəfdar olanlar öz məslək və əqidələrinin tələbi ilə hərəkət ediblər. Onun sıralarının gündən-günə artması bunu bir daha sübut edir. Artıq Azərbaycanın bir sıra rayonlarında təsis konfransı keçirilib.

Təsis konfransı YAP-ın Babək rayon təşkilatının 35 nəfərdən ibarət şurasını seçdi. 11 nəfər İdarə Heyətinə seçildi. Qadir Cəfərov partiyanın Babək Rayon Şurasının sədri seçildi.

Təsis konfransında YAP-ın sədri Heydər Əliyev çıxış etdi. O etiraf etdi ki, YAP-a belə böyük maraq göstəriləcəyini əvvəlcədən təsəvvürünə gətirmirdi. Görünür, partiyanın Nizamnamə və Proqramı xalqın ürəyindəndir və xalq YAP-da öz gələcəyini görür.

YAP-ın əsas məqsədi Azərbaycanı düşdüyü ağır vəziyyətdən çıxarmaqdır. İndi əsrimizin sonudur. Əsrimiz isə başlandığı gündən kəşməkəşli olub. Bizi sevindirən ən böyük hadisə Azərbaycanın müstəqillik qazanması, azad, suveren dövlət olmasıdır. Bu, əsrlər boyu xalqın mütəfəkkir oğullarının ümidi, arzusu olub. Azərbaycanın müstəqil dövlət olması böyük tarixi hadisədir, bu hadisə dünyada gedən ictimai, siyasi, sosial, iqtisadi proseslərin məntiqi nəticəsi olsa da, Azərbaycan xalqının misilsiz qələbəsidir, hər bir azərbaycanlının qələbəsidir. Lakin müstəqillik əldə etmək nə qədər çətindirsə, onu saxlamaq daha da çətindir. Bu, hər adamın vicdan, namus, şərəf işidir, Vətən qeyrətidir. Bu məqsəddən yan keçənlər xalqına xəyanət etmiş olurlar. İndi Azərbaycana milli həmrəylik hava və su kimi lazımdır. Bəzi qüvvələr Azərbaycanı parçalamaq istəyirlər. Biz bütün qüvvəmizlə bu dövlətin müstəqilliyini qorumağa çalışmalıyıq. YAP-ın başlıca məqsədi budur. Bizə qarşıdurma lazım deyil. Mən hər bir qarşıdurmanın əleyhinəyəm.

Heydər Əliyev dedi ki, partiyanın adı "Yeni Azərbaycan Partiyası"dır. Bu, təbiidir və zamanın tələbindən irəli gəlir. Azərbaycan yeni

müstəqil dövlətdir. Bu mənada partiyamız da yenidir. O, hamının partiyasıdır. Nizamnamə və Proqramımız ən demokratik prinsipləri güdür. Bu prinsipləri qəbul edən hər bir kəs YAP-ın üzvü ola bilər.

Heydər Əliyev bildirdi ki, cəmiyyətdə gedən proseslər adamların güzəranının yaxşılaşmasına xidmət etməlidir. Real faktlar əmin-amanlıq cəmiyyəti haqqında bol-bol vədləri alt-üst edir. İndiki gedişlə sosial-iqtisadi böhrandan çıxmaq olmayacaq. Bununla əlaqədar konkret dövlət proqramının olmaması yalnız təəssüf doğurur. Biz hara gedirik? Xalqın faciəsi nə vaxtadək davam edəcək? Acı da olsa, çətin də olsa deməliyik: Azərbaycan öz tarixində ən faciəli günləri yaşayır.

Beş ildir ki, dövlətimiz müharibə şəraitindədir. Rəsmi məlumata görə, torpaqlarımızın 13 faizi əldən gedib. Şəhərlər, kəndlər dağılıb. Əhalinin bir hissəsi qaçqın düşüb. Hərbi uğursuzluğun səbəbləri çoxdur. Lakin müharibənin özbaşına getməsinə son qoymaq mümkündür. Vahid hərbi-siyasi proqram hazırlamaq nə üçün bu qədər çətinə düşüb? Xalqın müqəddəratı ilə oynamaq yetər. Bütün bunlara son qoymaq lazımdır. Həm də qısa müddətdə. Azərbaycan daim qan içində yaşaya bilməz. Bizi narahat edən sosial-iqtisadi problemlərin gündən-günə dərinləşməsidir.

Heydər Əliyev indiki siyasi-iqtisadi vəziyyəti geniş təhlil edərək dedi ki, Azərbaycanda on illərlə yaranan iqtisadiyyat dağıdılır. Onu bərpa etmək üçün neçə on illər də lazım gələcək. Əhali isə son dözüm həddindədir. Elə götürək Naxçıvanı. Ən zəruri bir işdən ötrü Bakıya getmək istəyən naxçıvanlı 5 min rubla qədər təyyarə haqqı verməlidir. Əgər minimum əməkhaqqı 3 min rubldursa, blokada üzündən işləməyən müəssisələrin işçilərinə ayda 700-800 rubl verirlərsə, hansı sosial ədalətdən söhbət gedə bilər? Kim sosial partlayış olmayacağına təminat verə bilər? Muxtar Respublikanın Ali Məclisi, Nazirlər Kabineti, qəzetlər, ayrı-ayrı vətəndaşlar bu barədə Azərbaycan rəhbərliyinə, “AzAL” konserninə müraciət etsə də, təyyarə biletlərinin qiymətlərinin aşağı salınmasına biganəlik göstərilir.

Daha sonra YAP-ın sədri ötən il Ankarada imzalanan işbirliyi protokoluna əsasən Naxçıvana verilən kredit hesabına gələn ərzağın qurtardığını bildirərək vəziyyətin getdikcə kritik xarakter aldığını söylədi.

İran İslam Respublikasından gələn kömək də müəyyən səbəblər ucbatından yubadılır. Naxçıvanı iqtisadi fəlakətdən qurtarmaq üçün dəfələrlə Azərbaycan Respublikası Prezidenti ilə telefon söhbəti etmişəm - deyən Heydər Əliyev təəssüflə bildirdi ki, avtomobil yolu olmadığından Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana yetərincə yardım göstərilməmişdir. Bütün bunlara görə mən məcbur qalıb ABŞ-ın yeni seçilmiş prezidenti Bill Klintona müraciət etdim. Məktubda əsaslandırdım ki, ABŞ-ın keçmiş prezidenti blokadada olan Ermənistana yardım göstərməyi qərara alırsa nə üçün eyni vəziyyətdə olan Naxçıvan MR nəzərdən qaçırılır? Səkkiz aydan çoxdur Ermənistan Naxçıvanı blokadaya alıb. Naxçıvana humanitar yardımla yanaşı, Ermənistan ərazisindən keçib gələn kommunikasiya xətlərinin bərpa edilməsi barədə məsələ qaldırdığım məktubla əlaqədar ABŞ-ın Azərbaycandakı səfiri Riçard Mayls dünən mənə zəng edərək bildirdi ki, ABŞ hökuməti Naxçıvana humanitar yardım göstərməyi qərara almışdır. Bununla yanaşı, BMT Təhlükəsizlik Şurası da blokada vəziyyətində qalan regiona yardımla əlaqədar dünya dövlətlərinə müraciət etmişdir. ABŞ səfiri Mayls fevralın əvvəllərində humanitar yardımın həyata keçirilmə mexanizmini dəqiqləşdirmək üçün Naxçıvana gələcək. Biz öz tərəfimizdən mövqeyimizi açıq şəkildə bildirmişik: Naxçıvan təyyarə limanı hər cür hava nəqliyyat növünü qəbul etməyə hazırdır. Bundan başqa Türkiyə ərazisindən də yardım göstərilməsi təklifini müzakirə edə bilərik. Bütün bu məsələlər Azərbaycan Respublikası rəhbərliyi ilə qarşılıqlı şəkildə həyata keçiriləcək, - deyə Heydər Əliyev konfrans nümayəndələrinə məlumat vermişdir.

YAP sədrinin geniş məruzəsi və çıxışlar belə bir zərurəti qabarıq şəkildə irəli çəkdi ki, respublikada mövcud gərginlikdən yeganə çıxış yolu vətəndaş həmrəyliyində, birgə siyasi fəaliyyət xəttindədir. Təəssüf ki, müzakirə və dialoqlar üçün həmişə açıq olan YAP-a qarşı siyasi təqib kimi yolverilməz təsir metodları tətbiq edilir. Partiyanın sədr müavini, görkəmli hüquqşünas Murtuz Ələsgərova qarşı törədilən amansız divantutma əməliyyatından sonra Şərur rayonunda YAP-ın iki nəfər fəalının həyətinə partlayıcı maddə atıblar. Lakin buna baxmayaraq YAP yaşayır. Demokratik cəmiyyət quruculuğunda öz dəst-xəttini təs-

diq etdirir. Onun sıraları isə getdikcə sıxlaşır. Çünki bu partiyaya indiki ağır məqamda xalqının, müstəqil dövlətinin taleyini düşünən əqidəli və vicdanlı adamlar üz tuturlar.

*"Şərq qapısı" qəzeti, 3 fevral 1993-cü il*

## YAP-ın TƏRƏFDARLARI ARTIR

*YAP Culfa rayon təşkilatının 1993-cü il fevralın 7-də keçirilmiş təsis konfransında **Heydər Əliyevin** çıxışı:*

İndi bütün Azərbaycan xalqı üçün ən böyük tarixi hadisə Azərbaycanın, nəhayət, uzun əsrlərdən sonra müstəqilliyini əldə etməsi, müstəqil dövlət kimi fəaliyyət göstərməsidir. Müstəqil Azərbaycan dövləti öz prinsiplərini elan edib. Bu prinsiplər demokratiyanın, qanunun aliliyi üzərində qurulub, bütün siyasi fəaliyyətlərin Konstitusiya çərçivəsində aparılmasını nəzərdə tutur. Belə bir şəraitdə Azərbaycanda yeni siyasi partiyaların yaranması təbii bir haldır. İndi Azərbaycanda 25-ə qədər yeni partiya yaranıb. Şübhəsiz ki, fikir azadlığı, siyasi plüralizm belə partiyaların yaranmasına imkan verir. Adamlar öz siyasi dünya baxışlarına görə, siyasi əqidələrinə görə istədikləri partiyaya daxil olurlar.

Yeni Azərbaycan Partiyasının yaranması tarixi o qədər də böyük deyil. Bakıda və Azərbaycanın başqa şəhər və rayonlarında olan ziyalılar, vətənpərvərlər bir neçə ay bundan əvvəl təklif irəli sürmüşdülər. Onu da qeyd etmək lazımdır ki, müxtəlif vaxtlarda Naxçıvana gələn nümayəndə heyətləri ilə, ayrı-ayrı şəxslərlə görüşmüş, söhbət etmişik. Bütün bunların hamısının ümumi meyarı da ondan ibarət olub ki, indi Azərbaycanda siyasi plüralizm şəraitində belə bir partiyanın yaradılmasına ehtiyac duyulur... Mən bir çox müraciətləri təhlil etdikdən sonra, adamlarda çox böyük ehtiyacı hiss etdikdən sonra və belə bir partiyanın yaranmasında mənim köməyimə ehtiyac hiss olunandan sonra, xüsusən 91 nəfərdən ibarət böyük bir ziyalı qrupunun mətbuatda açıq çıxış edərək belə bir partiyanın yaradılması zərurəti barədə fikir söyləyib müraciət etdikdən sonra mən onların müraciətinə cavab verdim, belə bir partiya-

nın yaradılmasının lüzumlu olduğunu bildirdim və göstərdim ki, əgər bu partiya yaradılarsa, mən də onun fəaliyyətində iştirak edərəm.

Nəhayət, 1992-ci il noyabrın 21-də Naxçıvanda partiyanın təsis konfransı keçirildi. Təsis konfransında Azərbaycanın bütün şəhər və rayonlarından nümayəndələr iştirak edirdi. Konfrans iştirakçılarının arzusuna və tələblərinə görə mən bu partiyanın sədri olmağa razılıq verdim.

Hər hansı bir partiyanın Proqramı və Nizamnaməsi əsas şərtlərdən biridir. İndiyədək yaranmış partiyaların bəzilərinin Proqram və Nizamnamələri ilə tanış olmuşam. Onlar haqqında öz şəxsi fikrim var. Yeni Azərbaycan Partiyasının elan olunmuş Proqramı və Nizamnaməsi bu partiyanın tam demokratik bir partiya olacağını, geniş demokratik prinsiplərə riayət edəcək bir partiyanın olmasını göstərir. Bizim partiya öz Vətənini, xalqını, torpağını sevən bütün vətəndaşlar üçün açıqdır və arzu edənlər bu partiyanın üzvü ola bilərlər. Partiyanın Proqramı və Nizamnaməsi respublikada çıxan bir neçə qəzetdə, o cümlədən "Şərq qapısı"nda dərc olunub. Bu da hər bir adama imkan verir ki, YAP-ın Proqramı və Nizamnaməsi ilə tanış olsun. Hazırda partiyanın Proqramı və Nizamnaməsi Bakıda ayrıca kitabça şəklində hazırlanıb və böyük tirajla çap ediləcək.

Bütün bunlarla yanaşı, bu gün burda Proqram da, Nizamnamə də oxundu və çıxışlardan aydın oldu ki, konfransda iştirak edən nümayəndələr onlarla yaxından tanış olub, qəbul ediblər.

İndi biz Azərbaycan Respublikasının həyatında ən mühüm bir mərhələni yaşayırıq. Tariximiz böyükdür. Min illərlə hesablanan tariximizin çox ağır dövrləri olub. Lakin Azərbaycan Respublikasının son illərdə başına gələn bəlalardan ağır bir dövrü olmayıb. Beş ildir ki, torpaqlarımızda müharibə gedir, qurbanlar verilir. Rəsmi məlumatlara görə, torpaqlarımızın bir hissəsi əldən gedib. İtkilərimiz çoxdur. Ancaq bununla yanaşı, ən böyük nailiyyətimiz də ondan ibarətdir ki, Azərbaycan ilk dəfə öz müstəqilliyini əldə edib, müstəqil dövlət kimi fəaliyyət göstərir və bütün dünyada tanınıb. Məhz buna görə də YAP-ın Proqramında və Nizamnaməsində əsas məqsəd Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin müstəqilliyini saxlamaq və möhkəmləndirmək, inkişaf etdirməkdir. Müstəqilliyi əldə etmək asan məsələ deyil. Lakin o da məlumdur ki, Azərbaycan Respublikasının müstəqil-

liyinin əldə olunması dünyada, o cümlədən keçmiş Sovet imperiyasında son 10-15 il ərzində gedən, obyektiv ictimai-siyasi proseslərin nəticəsidir. Bu proseslərin nəticəsində Sovetlər birliyi dağılıb və bu birliyin daxilində olan 15 müttəfiq respublika müstəqillik əldə edib.

İndi bu müstəqilliyi saxlamaq, onu inkişaf etdirmək, yeni yaranmış və hələ tamamilə möhkəmlənməmiş dövləti tam müstəqil etmək həm siyasi nöqteyi-nəzərdən, həm iqtisadi nöqteyi-nəzərdən, həm də onu qoruyub saxlamaq nöqteyi-nəzərindən çox ağır və çətin işdir. Bu müstəqilliyi qoruyub saxlamaq, xalqın yaşayışını yaxşılaşdırmaq, onun xoş güzəranını təmin etmək müstəqilliyin əsas məqsədi olmalıdır. Bu, çox çətin məsələdir. Çətinlik ondan ibarətdir ki, son 5-6 ildə gedən proseslər keçmiş Sovetlər İttifaqında iqtisadiyyatı tamamilə dağıtmış, hər yeri sosial-iqtisadi böhran bürümüşdür. Bu da adamların yaşayışını günü-gündən pisləşdirir. Bu, tək Azərbaycan üçün deyil, bütün başqa respublikalar üçün də xarakterikdir. Lakin Azərbaycanın müstəqillik əldə etdiyi dövr çox ağırdır. Respublikamız erməni təcavüzünə məruz qalmışdır. Belə bir vaxtda torpaqlarımızı təcavüzdən qorumaq, digər tərəfdən böhran içərisində olan cəmiyyəti idarə etmək və saxlamaq başlıca vəzifələrdən biridir. Şübhəsiz ki, bunlar hamısı çox çətindir. Müstəqil Azərbaycanın üzərinə düşən vəzifələr çox ağırdır. Bunlar da bizim qarşımızda bütün imkanlardan istifadə edərək Azərbaycanın müstəqilliyini möhkəmləndirmək və eyni zamanda onu müharibə şəraitindən çıxartmaq vəzifələrini qoyur.

Yeni Azərbaycan Partiyasının Proqramında onun məqsədləri çox aydın göstərilib. Əsas məqsədlər Azərbaycanın müstəqilliyini möhkəmləndirmək və bunun üçün respublikanın iqtisadi potensialını inkişaf etdirməkdir. Proqramda deyildiyi kimi, Azərbaycan böyük təbii sərvətlərə, iqtisadi və intellektual potensiala malik bir dövlətdir. Bu potensialdan səmərəli istifadə edib dövlətin qüdrətini artırmaq, insanların güzəranını yaxşılaşdırmaq üçün onu hərəkətə gətirmək lazımdır.

Bununla yanaşı, ən başlıca məqsədlərdən biri Azərbaycanı müharibə şəraitindən çıxarmaqdır. Azərbaycan torpağının 13 faizi erməni qəsbkarlarının tapdağı altındadır. Müharibə beş ildir ki, davam edir. Son bir ilin içərisində daha da şiddətlənib. Çoxlu qurbanlar veririk. Lakin bu günədək müharibədən çıxmaq üçün respublika rəhbərliyi-

nin konsepsiyası yoxdur. Müharibəni qurtarmaq proqramı yoxdur. Əgər olsaydı, hər halda bu müharibə gündən-günə ya soyuyardı, ya sona çatardı, ya da ki, bir çox siyasi xadimlərin elan etdikləri kimi qələbə ilə başa çatardı. Lakin müharibə özbaşına gedir, lazımi dərəcədə idarə olunmur. Ayrı-ayrı siyasi və çox yüksək pafoslu çıxışlarla bunu həll etmək mümkün deyil. Ermənistan bu müharibəyə əvvəldən hərtərəfli hazırlaşmışdı. Biz isə gözləmə mövqeyi tutaraq hər işdə olduğu kimi bu işdə də yubanmışıq. Ermənistan həmişə hücum mövqeyində olduğu halda, biz həmişə müdafiə mövqeyi tutmuşuq, addım-addım geri çəkilmişik. Bütün bunların ağır nəticəsini biz indi görürük. Azərbaycan öz müstəqilliyini möhkəmləndirməklə yanaşı, müharibədən də çıxmalı, necə olursa-olsun torpaqlarımız geri qaytarılmalıdır. Yeni Azərbaycan Partiyasının əsas məqsədlərindən biri də ondan ibarətdir ki, müstəqillik əldə etmiş Azərbaycan dövlətinə bu sahədə öz köməkliyini göstərsin.

Yeni Azərbaycan Partiyası geniş demokratik partiyadır. Bu demokratiklik ondan ibarətdir ki, milliyyətindən, irqindən, dilindən, dinindən, keçmişindən asılı olmayaraq hər bir adam bu partiyanın üzvü ola bilər. Çünki həqiqi demokratiya bundan ibarətdir. Bir sözlə, YAP-ın Nizamnaməsində onun üzvü olmaq üçün heç bir məhdudiyyət nəzərdə tutulmayıb. Yeni Azərbaycan Partiyasının əsas prinsiplərindən biri də budur ki, əgər əqidə etibarilə ziddiyyət yoxdursa, o bütün siyasi partiyalarla, bütün siyasi qurumlarla əməkdaşlıq etməyə hazırdır. Müxalifət naminə müxalifət ola bilməz.

Bununla əlaqədar mən bir şeyi də sizə xatırlatmaq istəyirəm. Orda-burda şayiə yayırlar ki, Heydər Əliyevlə Əbülfəz Elçibəy arasında qarşıdurma var. Bu, tamamilə yalandır. Bu şayiəni yayan adamlar araya nifaq salıb qarşıdurma yaratmaq istəyirlər. Qoy onlar bilsinlər ki, heç kəs Naxçıvan-Azərbaycan qarşıdurması yarada bilməyəcək. Yeni Azərbaycan Partiyası çalışacaq ki, Azərbaycanda olan bütün sağlam qüvvələrin birləşməsinə öz payını versin.

Azərbaycanın düşdüyü böhran vəziyyəti Naxçıvanda özünü tam dərinliyi ilə göstərir. Ona görə ki, Naxçıvan 9 aydır blokadadır. Dəmir yolu işləmir. Naxçıvana yük daşımaq üçün heç bir başqa yolumuz yox-

dur. İran ərazisi ilə yük daşımaq böyük çətinliklərlə bağlıdır. Keçən ilin mart ayında mən Türkiyədə olarkən Türkiyə hökumətinin başçısı Süleyman Dəmirəllə bir müqavilə imzaladıq. Ərzaq malları almaq üçün bizə 10 milyon dollar ayırdılar. 4-5 ay bu kreditin hesabına muxtar respublika əhalisini ərzaqla təmin etdik. İndi bütün ehtiyatlar tükənib. Dünən mən baş nazir Süleyman Dəmirəllə danışdım. Vəziyyəti ona bildirdim, dedim ki, bizə əlavə yardım lazımdır. O da söz verdi ki, bu məsələyə baxacaqlar. İrandan da ərzaq və yanacaq gəlməlidir, lakin bu işdə böyük çətinliklər var. Biz Tehranda olarkən razılığa gəldik ki, Azərbaycandan yüklər Horadizdən Xudafərin körpüsü vasitəsilə Naxçıvana gətirilsin. Bu məsafə xeyli yaxındır. 155 kilometrdir. Biz çalışırıq ki, Horadizdə bir baza yaradılsın və yüklər qatarlarla gətirilib oradan da yük avtomobilləri ilə İran ərazisindən keçib Naxçıvana daşınsın.

Sizə məlum olduğu kimi, mən ABŞ Prezidenti Bill Klintona göndərdiyim teleqramda göstərmişdim ki, əgər ABŞ Ermənistana yardım edirsə, onda tam blokada vəziyyətində olan Naxçıvana da yardım etməlidir. ABŞ Prezidenti mənim bu xahişimə həssaslıqla yanaşdı və Naxçıvana yardım göstərilməsi barədə göstəriş verdi. Bununla əlaqədar fevralın 4-də ABŞ-ın Azərbaycandakı səfiri Naxçıvana gəldi. Onunla ətraflı söhbət etdik. İndi həmin yardımın Naxçıvana gətirilməsi mexanizmi hazırlanır.

Bütün bunlarla yanaşı, biz daxili imkanlardan da səmərəli istifadə etməli, yaranmış ağır vəziyyətdən çıxmaq üçün əlimizdən gələni etməliyik. Qarşıdan yaz gəlir. Muxtar respublikada yaza vaxtında, hərtərəfli hazırlaşmaq lazımdır. Payızlıq taxıl səpini planı yerinə yetirilməyib. Bu boşluğu biz yazda doldurmalıyıq. Əgər biz yaz əkinini yaxşı aparsaq, çörək problemini xeyli yüngülləşdirə bilərik. Üzümçülüyə, heyvandarlığa, baramaçılığa və təsərrüfatın digər sahələrinin inkişafına yaxından diqqət yetirmək lazımdır. Bir sözlə, biz xalqı yaşatmalıyıq. Bunun üçün isə ədavəti, qısqanclığı, umu-küsünü bir tərəfə qoyub əlbir işləmək lazımdır.

*"Şərq qapısı" qəzeti, 10 fevral 1993-cü il*

## YAP KÜTLƏLƏRİN PARTİYASINA ÇEVRİLİR

Cəmi üç ay bundan əvvəl yaradılmasına baxmayaraq, Yeni Azərbaycan Partiyası öz sıralarını sürətlə artıraraq kütlələrin partiyasına çevrilir. Onun sıralarına daxil olanların sayı gündən-günə artmaqdadır. Hazırda YAP-ın üzvlərinin və tərəfdarlarının sayı 100 mini keçmişdir. İndi muxtar respublikamızın və eləcə də Azərbaycanın ayrı-ayrı şəhər və rayonlarında keçirilən təsis konfranslarında Yeni Azərbaycan Partiyasının şəhər və rayon təşkilatları yaradılır.

Martın 13-də Şahbuz rayonunda da YAP-ın təsis konfransı keçirildi. Konfransın keçirildiyi rayon mədəniyyət sarayının zalı nümayəndələri və qonaqları tutmadığından cərgə aralarına əlavə stullar qoymaq lazım gəldi. Zala daxil ola bilməyənlər isə radio vasitəsilə konfransın gedişini bayırda dinləyirdilər.

Konfransı giriş sözü ilə Yeni Azərbaycan Partiyasının Şahbuz rayon təşkilat komitəsinin sədri M. Bağırov açdı.

Rayon təşkilatının yaradılması üçün həyata keçirilən tədbirlər haqqında təşkilat komitəsi sədrinin müavini T. Quliyev məlumat verdi. Qeyd olundu ki, hazırda Şahbuz rayonunda Yeni Azərbaycan Partiyasının 4 min nəfərdən artıq üzvü, 5 min nəfərdən çox tərəfdarı var. 41 ilk təşkilatdan konfransa 317 nümayəndə seçilmişdir.

Gündəliyə çıxarılmış məsələlərin müzakirəsi zamanı çıxış edən partiyanın Kükü kəndindəki ilk təşkilatının sədri A. Hüseynov, Qarababa kənd məktəbinin müəllimi X. Baxşəliyev, kənd təsərrüfatı işçiləri həmkarlar ittifaqı rayon komitəsinin sədri T. Əliyev, Şahbuz qəsəbəsindən tibb işçisi G. Hüseynov, təqaüdçü P. Bayramova və başqaları qeyd etdilər ki, geniş kütlələr bu partiyaya ona görə böyük etimad göstərirlər ki, Yeni Azərbaycan Partiyası öz qarşısında Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik hüquqi dövlətin formalaşdırılması, respublikamızın ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi, tez bir zamanda müharibə vəziyyətindən çıxması, Qarabağ probleminin həlli, öz vətəndaşlarına firavan həyat şəraiti yaratmaq kimi çox məsul və mürəkkəb vəzifələr qoymuşdur. Ona görə böyük etimad göstərirlər ki, bu partiyaya zəmanəmizin gör-

kəmli siyasi və dövlət xadimi Heydər Əliyev başçılıq edir. Heydər Əliyevin gərgin əməyi sayəsində ağır blokada şəraitində olan muxtar respublikada əhalinin həyat şəraitini yüngülləşdirmək üçün çox işlər görülüb.

Çıxış edənlər göstərdilər ki, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edirdi. Bir çox rayonların, o cümlədən Şahbuz rayonunun üzümçülük üzrə ixti - saslaşdırılması əhalinin maddi rifah halının yüksəldilməsinə böyük inamlar yaratmışdır. O vaxtlar rayonun bağlarından 5 min tondan artıq üzüm yığılırdı. Əhali milyonlarla manat gəlir əldə edirdi. Lakin sonralar keçmiş Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosunun "Alkoqolizmə qarşı mübarizə" adı altında gördüyü tədbirlər nəticəsində hər yerdə olduğu kimi Şahbuzda da bu gəlirli sahəni gözdən saldılar, üzüm bağları dağıdıldı, əhalinin güzəranı ildən-ilə pisləşməyə başladı.

İndi respublikamız özünün keçid dövrünü yaşayır. Keçid dövrünün isə çox çətin və mürəkkəb problemləri var. Bu dövrü ağrısız-acısız keçirmək üçün hamımız Yeni Azərbaycan Partiyasının, onun sədri Heydər Əliyevin ətrafında sıx birləşməli, yaranmış ağır vəziyyətdən çıxmaq üçün var-qüvvəmizi əsirgəməməliyik.

Şərur rayon təşkilatı adından A. Hacızadə, Naxçıvan şəhər təşkilatı adından S. Əliyev, Babək rayonundan Kərbəlayi Muradəli, Ordubad rayonundan Ə. Mehdiyev, Culfa rayonundan Ə. Mustafayev və başqaları çıxış edərək nümayəndələri təsis konfransının keçirilməsi münasibətilə təbrik etdilər.

Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyev konfransda çıxış etdi. O dedi: "YAP-ın yaranması həyatın zərurətindən irəli gəlmişdir. Azərbaycan müstəqil dövlətdir. Azərbaycanda müstəqil demokratik hüquqi dövlət yaratmaq çağırışı ortaya atılıb və bu sahədə müəyyən işlər görülür. Demokratik cəmiyyətdə, hüquqi dövlətdə hər bir siyasi partiyanın fəaliyyət göstərməsi təbii haldır. Azərbaycanda siyasi fikir müxtəlifliyi elan edilib, çoxpartiyalılıq bərqərar olub. Ona görə Yeni Azərbaycan Partiyasının yaradılması da bu proseslərin içərisində gedir. Eyni zamanda məlum olduğu kimi, YAP-ın yaradılmasının təşəbbüs-

karları əsasən Azərbaycan Respublikasının ziyalılarıdır. Bir çox alimlər, mədəniyyət xadimləri, yüksək rütbəyə mənsub olan mütəxəssislərdir. Onlar dəfələrlə belə bir partiyanın yaradılmasına ehtiyac olduğunu bildirmiş və təkliflər vermişdilər. Bildiyiniz kimi, bu barədə mənə də müraciət olunmuşdur.

Bütün bu proseslərin nəticəsində də Yeni Azərbaycan Partiyası yaranmış və o, artıq geniş fəaliyyət göstərir. Bu partiyanın yaranması, onun fəaliyyəti demək olar ki, Azərbaycanın ictimaiyyəti, əhalinin bir çox hissəsi tərəfindən böyük rəğbətlə qarşılanmışdır. İndi Azərbaycanın 30-dan çox rayonunda və şəhərində Yeni Azərbaycan Partiyasının təşkilatları yaranmışdır. Bu gün biz burada, Şahbuz rayonunda da təsis konfransı keçiririk. Eyni zamanda, bu gün Azərbaycanın bir neçə rayonunda, o cümlədən, ən böyük rayonlardan olan Bərdə rayonunda təsis konfransı keçirilir. Sabah Lənkəran rayonunda, həmçinin bir sıra başqa rayonlarda da təsis konfransları keçiriləcək və beləliklə, bu yaxınlarda demək olar ki, Azərbaycanın bütün rayonlarında YAP-ın təşkilatları yaranacaq və fəaliyyətə başlayacaq. YAP-ın qısa bir müddətdə təşkilatlanması, rayonlarda, şəhərlərdə onun təşkilatlarının yaradılması bir də onu göstərir ki, doğrudan da, Azərbaycanın bugünkü günündə Yeni Azərbaycan Partiyası kimi bir partiyaya çox böyük ehtiyac var.

Azərbaycanın ən böyük sənaye şəhərlərindən biri Sumqayıt şəhəridir. Bu şəhərdə də bir neçə müddət bundan qabaq YAP-ın təsis konfransı keçirilmiş və şəhər təşkilatı yaradılmışdır. Gəncə şəhərində də bu işə hazırlıq aparılır. Bakı şəhərinin 11 rayonundan 6-da YAP-ın təsis konfransları keçirilmişdir. Ən maraqlı cəhət burasıdır ki, bizim partiyaya xalqın bütün təbəqələrindən olanlar gəlir. Beləliklə, bizim partiya xalqın bütün təbəqələrini təmsil edir. Eyni zamanda, bu partiyaya daxil olanların əksəriyyəti ziyalılar, yüksək təhsilli mütəxəssislər, alimlər, mədəniyyət xadimləri, bir sözlə, Azərbaycanın intellektual potensialını təşkil edən hissəsidir.

İkinci cəhət də ondan ibarətdir ki, Yeni Azərbaycan Partiyası parlament tipli, geniş demokratik xarakterli bir partiyadır. Ona görə də bu partiyaya Nizamnamədə göstərildiyi kimi hər bir şəxs daxil ola bilər.

Şübhəsiz ki, bu partiyanın Proqramını və Nizamnaməsini qəbul edən və onun prinsiplərinə riayət edən şəxslər nəzərdə tutulur. Burda heç bir məhdudiyyət yoxdur. Yalnız bu şərtlə ki, hər kəs bu partiyaya əqidə ilə gəlsin, heç bir başqa məqsəd güdməsin.

Lakin Yeni Azərbaycan Partiyasını ləkələmək istəyən adamlar qərəzçilik mövqeyindən çıxış edərək deyirlər ki, guya, YAP-ın yaradılması Kommunist Partiyasının bərpa edilməsi kimi bir şeydir. Bu, tamamilə yalandır. Nəinki yalandır, açıq böhtandır, qərəzçilik məqsədilə ortaya atılan bir fikirdir. Bu yalnız yeni yaradılmış partiyanı nüfuzdan salmaq məqsədini güdür. Lakin bizim partiyaya qarşı çıxanların bütün səyləri əbəsdir. Onların bəd niyyətləri baş tutmayacaq. Bizim partiyanın məqsədləri tamamilə aydındır.

Bu məqsədlər onun Proqramında və Nizamnaməsində göstərilib. Yeni Azərbaycan Partiyasının Proqramı və Nizamnaməsi indi Azərbaycanda fəaliyyətdə olan partiyalarla müqayisə edilsə, bu, ən mütərəqqi, eyni zamanda ən demokratik prinsiplər əsasında yaradılmış partiyadır. Ona görə də xalqın bu partiyaya kütləvi axını tamamilə təbiidir.

Bir məsələni də qeyd etmək lazımdır. Azərbaycanda 70 il Kommunist Partiyası hökmranlıq edib. Azərbaycanın ən görkəmli adamları - alimləri, yazıçıları, bəstəkarları, mədəniyyət xadimləri, həkimləri, mühəndisləri, aqronomları, müəllimləri, bütün başqa sahələrin adamları vaxtilə Kommunist Partiyasının üzvü olublar. İndi Kommunist Partiyası ləğv edildikdən sonra onları cəmiyyətdən, siyasi həyatdan təcrid etmək nə dərəcədə düzgün olar? O vaxtlar başqa partiya yox idi, Kommunist Partiyası hakim partiya idi. Tək Azərbaycanda deyil, keçmiş Sovetlər İttifaqının hər yerində bir neçə nəsil bu partiyanın ideyaları əsasında tərbiyə olunmuşdur. Azərbaycanda 400 minə yaxın Kommunist Partiyasının üzvü olmuşdur. Onların içərisində çox bilikli, ağıllı, zəkalı adamlar var idi. İndi onları hər şeydən məhrum etmək düzgün deyil. Hər dövrün öz hökmü var, adamlar o dövrün qanunları, o dövrün ab-havası ilə yaşayırdılar. Bunun üçün heç kimi qınamaq, günahlandırmaq olmaz. Bunlar hamısı təbii proseslərdir. Bunları sadəcə olaraq düzgün başa düşmək lazımdır. Məhz ona görə də bizim Proqram-

da göstərilir ki, keçmişə nifrət hissi ilə yanaşmaq, yaxud indiyə qədər olan tariximizə qara yaxmaq, onun üstündən qələm çəkmək, inqilabi dağıntılıq xalqı yalnız fəlakətə gətirib çıxara bilər. Bunların heç birinə yol vermək olmaz. Bizim partiyanın proqramında göstərilir ki, cəmiyyətimiz təkamül yolu ilə inkişaf edib, bir siyasi, iqtisadi quruluşdan başqa quruluşa keçməlidir.

Partiyanın ən əsas məqsədlərindən biri Azərbaycanın dövlət müstəqilliyinin inkişaf etdirilib möhkəmləndirilməsidir. Azərbaycan müstəqil dövlət kimi inkişaf etməlidir. Bu, çox böyük və ağır prosesdir. Yeni Azərbaycan Partiyası bu prosesdə inkişaf etmək və onun aparıcı qüvvələrindən birinə çevrilmək istəyir."

Heydər Əliyev sözünə davam edərək dedi ki, indi Azərbaycan ağır müharibə şəraitindədir. Beş ildən artıqdır ki, Azərbaycan torpağında qan tökülür. Partiyanın əsas məqsədlərindən biri Azərbaycanı müharibə şəraitindən çıxarmaq və onun ərazi bütövlüyünü təmin etməkdir. Azərbaycanın müstəqilliyi eyni zamanda, onun suverenliyidir və eyni zamanda, onun ərazi bütövlüyüdür. Əgər Azərbaycanın ərazi bütövlüyü bərpa olunmasa, onun müstəqilliyi tam müstəqillik olmaz.

Partiyanın əsas məqsədlərindən biri də Azərbaycanı ağır iqtisadi, sosial böhrandan çıxarmaqdır. İndi adamlar çox ağır vəziyyətdə yaşayır. Ali Məclisə çoxlu adamlar gəlir. Bu gün də Sədərəkdən gəlmişdilər. Qəsəbə dağılıb, adamlar işsizdirlər, vəziyyətləri çox ağırdır. Lakin belə vəziyyət tək Sədərəkdə deyil, Naxçıvanın, eləcə də Azərbaycanın hər yerində var. Respublikanın hər yerində xalq böyük əzab-əziyyət içərisindədir. Bir tərəfdən müharibə gedir, qurbanlar verilir, torpaqlar əldən gedir. Ermənilər öz işğalçılıq niyyətlərini günü-gündən həyata keçirirlər. Digər tərəfdən isə iqtisadi böhran adamları öz məngənəsində sıxır, işsizlik artır. Sənaye müəssisələri işləmir, kənd təsərrüfatında çox ağır vəziyyət yaranmışdır. Belə vəziyyət nə qədər davam edəcək? Ölkəni bu ağır iqtisadi böhrandan çıxarmaq, özü də ağılla, qısa vaxtda çıxarmaq Yeni Azərbaycan Partiyasının əsas prinsiplərindən biridir.

Əlbəttə, yenidən sosialist iqtisadi sisteminə qayıtmaqdan söhbət belə gedə bilməz. Lakin iqtisadiyyatı belə bərbad vəziyyətdə saxlamaq

da olmaz. İslahatlar keçirilməlidir, özü də vaxtında. Bu islahatlar elə keçirilməlidir ki, onların nəticəsində iqtisadiyyat inkişaf etsin, geri düşməsin. Keçən il Azərbaycanda sənaye istehsalı 1991-ci ilə nisbətən 36 faiz aşağı düşmüşdür. Cari ilin iki ayında isə ondan əvvəlki ilin iki ayı ilə müqayisədə 56 faiz aşağı olmuşdur. Bir təsəvvür edin, əgər iqtisadiyyat belə sürətlə geriyə gedirsə, yerində nə qalacaq? Respublikanın sənaye müəssisələri öz istehsal güclərinin 10 faizi səviyyəsində belə işləməmişlər. Əmək kollektivləri işsiz qalıb, onlara çox çətinliklə pul tapıb maaş verirlər. Uzun müddət belə yaşamaq mümkün deyil. Yeni Azərbaycan Partiyasının Proqramında göstərilir ki, biz tənzimlənən bazar yolu ilə getməliyik. Bu yolla getmək üçün hərtərəfli düşünülmüş islahatlar keçirməliyik.

Lakin onu da qeyd etmək lazımdır ki, bunlar hamısı iqtisadiyyatı sürətlə inkişaf etdirmək naminə olmalıdır. İnsanların rifah halını yaxşılaşdırmaq naminə olmalıdır. Əgər islahatlar adamları günü-gündən yoxsullaşdıraraq dilənçi kökünə salacaqsa, belə islahat kimə lazımdır? Bütün bunlar hamısı mürəkkəb məsələlərdir. Onları həll etmək üçün YAP-ın öz konsepsiyası var və o da bundan ibarətdir ki, tezliklə Azərbaycanı bu ağır böhran vəziyyətindən çıxarmaq lazımdır. Bunun üçün də düşünülmüş səmərəli tədbirlər həyata keçirilməlidir.

Azərbaycan böyük sərvətlərə malik olan bir respublikadır. Bu sərvətlər göz qabağındadır, biz onlardan bacarıqla, respublikanın, xalqın mənafeyi üçün istifadə etməliyik. Təəssüf ki, son illər bu sərvətləri dağıtmaq meyilləri baş qaldırıb. Bu, dəhşətli haldır. Dağıtmaq üçün böyük məharət tələb olunmur. Qurub yaratmaq isə çox çətindir. Ona görə bizim partiyanın əsas prinsiplərindən biri də odur ki, Azərbaycanın sərvətləri qorunub saxlanılmalı, inkişaf etdirilməli və onlardan səmərəli istifadə olunmalıdır.

Yeni Azərbaycan Partiyası konstruktiv mövqelərdən çıxış edir. Müxalifət naminə müxalifət ola bilməz. Bu ağır vəziyyətdə bütün sağlam qüvvələri birləşdirib həm müharibəni qurtarmaq, həm ərazimizin bütövlüyünü təmin etmək, həm də Azərbaycanı bu ağır böhran vəziyyətindən çıxarmaq məqsədindəyik. Ona görə də YAP bütün başqa partiyalarla, ictimai-siyasi qurumlarla əməkdaşlıq etməyə hazırdır. Əgər o

partiyaların, siyasi qurumların prinsipləri, tutduğu yollar bizim partiyanın prinsiplərinə zidd deyilsə. Bu, çox mühüm məsələdir və mən istərdim ki, bunu xüsusi qeyd edim.

Bir də demək istəyirəm ki, Azərbaycanda vəziyyət çox ağırdır. Bildiyiniz kimi, son vaxtlar Dağlıq Qarabağdakı döyüşlərdə Azərbaycan Silahlı Qüvvələri məğlubiyyətə uğramışdır. Keçmiş Dağlıq Qarabağın bütün torpaqlarında erməni silahlı qüvvələri hakimiyyətdədir. Çox böyük ürəkağrısı ilə bildirirəm ki, Azərbaycan kimi böyük respublika bir xırda Ermənistanla müharibədə məğlubiyyətə uğrayır, müharibə Azərbaycanın torpaqlarında gedir, torpaqlarımız işğal olunmuşdur. Müharibənin düzgün aparılması üçün lazımi tədbirlər görülmür. Bütün bunlar Azərbaycanda ictimai, mənəvi-psixoloji mühiti çox gərginləşdirmiş və bu çox ciddi tədbirlərin görülməsini tələb edir.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikasındakı vəziyyət üzərində dayanaraq dedi ki, artıq 11 aydır ki, muxtar respublika iqtisadi blokada şəraitində yaşayır. Məlum olduğu kimi, Azərbaycanın hər yerində vəziyyət ağırdır. Lakin muxtar respublikanın iqtisadi-sosial vəziyyəti başqa yerlərdəkinə nisbətən qat-qat ağırdır. Dəmir yolu işləmir, Bakı ilə başqa heç bir nəqliyyat yolumuz yoxdur. Yeganə avtomobil yolu İran ərazisindən keçən yoldur. Bu da çox uzun məsafədir. Eyni zamanda bizim avtomobil nəqliyyatı heç də yaxşı işləmir. Bunun səbəbi bir tərəfdən avtonəqliyyat təşkilatları rəhbərlərinin səhlənkarlığıdırsa, digər tərəfdən sürücülərin məsuliyyətsizliyidir. Bir sıra başqa maneələrin nəticəsində biz o yoldan səmərəli istifadə edə bilmirik.

Belə ağır bir şəraitdə biz Naxçıvanda sərt qış dövrünü keçirdik. Naxçıvan MR Ali Məclisi və Nazirlər Kabineti əhalinin vəziyyətini yaxşılaşdırmaq üçün əlindən gələni edir. Bildiyiniz kimi, Türkiyə bizə bu sahədə çoxköməklik göstərir. Türkiyə hökumətinin bizə verdiyi kreditdən ərzaq malları alındı, əhalini 5-6 ay bu hesaba təmin etmək mümkün oldu. Son vaxtlar İran İslam Respublikasından bizə taxıl məhsulları, yanacaq gəlir. Böyük çətinliklərlə də olsa, İran ərazisi vasitəsilə Azərbaycanın digər yerlərindən də bizə ərzaq və yanacaq gətiri-

lir. Beləliklə də, biz naxçıvanlıların ağır həyat şəraitini az da olsa yüngülləşdirə bilirik.

Biz əvvəllər çox çalışdıq ki, dəmir yolu açılsın, ancaq müəyyən qüvvələr buna mane oldular. İndi isə Ermənistan cürbəcür bəhanələrlə buna razılıq vermir. Beləliklə də, bu günədək dəmir yolu işləmir. Qaz kəməri də bağlanmışdır. Şahbuzun əhalisi çox yaxşı bilir ki, vaxtilə biz necə böyük çətinliklərlə uca dağları, sıldırım qayaları yara-yara Bakıdan Naxçıvana qaz kəməri çəkdirdik. Biz indi ondan da məhrum olmuşuq. Elektrik enerjisi sarıdan da çox böyük çətinliklərlə üzləşirik. Çünki elektrik enerjisi xətləri də bizə Ermənistan ərazisindən gəlirdi. Həmin xətlər kəsildiyindən qış aylarında çox ciddi çətinliklərlə rastlaşdıq. Bunun qarşısını almaq üçün biz İran və Türkiyə ilə danışıqlar aparıb razılıq əldə etmişdik ki, həmin ölkələrdən Naxçıvana elektrik enerjisi xətləri çəkilsin. Çəkildi də. Dekabr ayının əvvəlində İrandan 40 meqavata qədər elektrik enerjisi aldıq. Təəssüf ki, son vaxtlar İrandan gələn elektrik enerjisi 10 meqavat azalmışdır. İndi 30 meqavat alırıq. Türkiyədən çox ağır şəraitdə, qışın sərt şaxtasında 110 kilometrlik məsafədən Naxçıvana elektrik enerjisi xətti çəkildi. Ordan da 50 meqavata qədər elektrik enerjisi alırıq. Lakin bunlar da bizim tələbatımızı tam təmin etmir.

Ümumiyyətlə, Türkiyədən, İrandan bizə göstərilən yardımlar, barter üsulu ilə aparılan ticarət əməliyyatları nəticəsində Naxçıvan əhalisini müəyyən qədər ərzaqla və yanacaqla təmin edə bildik.

Bildiyiniz kimi, bununla yanaşı, biz müəyyən siyasi addımlar da atdıq. Sizə məlumdur ki, mən yanvar ayının 20-də ABŞ-ın yeni prezidenti Bill Klintona məktub göndərdim və həmin məktubda göstərdim ki, əgər ABŞ Ermənistana yardım göstərirsə, ondan da ağır blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına da humanitar yardım göstərməlidir. ABŞ Konqresi bəzi səbəblərə görə, erməni lobbisinin təsiri nəticəsində Azərbaycana heç bir yardım göstərilməməsi haqqında qərar qəbul etsə də, ABŞ prezidenti Bill Klinton mənim məktubumda olan məntiqə görə Naxçıvana humanitar yardım göstərmək haqqında qərar qəbul etmişdir. Bununla əlaqədar, ABŞ-ın Bakıdakı səfiri Riçard Mayls Naxçıvana gəldi, biz danışıqlar apardıq və 5 gün

bundan öncə ilk dəfə olaraq Naxçıvan aeroportuna Amerikanın təyyarəsi endi. Həmin təyyarə ilə bir milyon Amerika dolları dəyərində 10 ton dava-dərman gətirildi. Bu, ABŞ-ın Naxçıvana göstərəcəyi humanitar yardımın ilk hissəsidir. Yardımın gətirilməsi bundan sonra da davam edəcək.

Onu da qeyd etmək lazımdır ki, bu məsələnin həm iqtisadi, həm də siyasi əhəmiyyəti var. Bilirsiniz ki, Azərbaycan özü dərman istehsal etmir və demək olar ki, dərmanların 95 faizi kənardan gətirilir. Keçmiş Sovetlər İttifaqının da dərman təminatının 70 faizi xarici ölkələrin hesabına idi. İndi tək Azərbaycanda yox, elə Rusiyanın özündə də dərman təminatı çox pis vəziyyətdədir. Belə bir şəraitdə Azərbaycanda, o cümlədən Naxçıvanda böyük dərman qıtlığı var. Ona görə də 10 ton dərman Naxçıvan üçün böyük köməkdir.

Bunun siyasi əhəmiyyəti də ondan ibarətdir ki, qeyd etdiyim kimi, Amerika Konqresi Azərbaycana yardım göstərməmək barədə qərar qəbul edib. Belə bir şəraitdə ABŞ prezidenti Azərbaycanın tərkib hissəsi olan Naxçıvana humanitar yardım etmək qərarına gəlmişsə, deməli o, konqresin qərarının əleyhinə çıxmışdır. Beləliklə, ABŞ Konqresi tərəfindən Azərbaycana qarşı tətbiq edilmiş blokada bir tərəfdən yarılmışdır ki, bunun da çox böyük əhəmiyyəti var.

Bununla yanaşı, biz başqa ölkələrlə də əlaqəyə girdik. Mən Moskvada olarkən İngiltərənin Moskvadakı səfiri Brayan Folla onun xahişi ilə görüşdüm və Naxçıvanda yaranmış vəziyyəti ona çatdırdım. O da əmin etdi ki, Naxçıvana humanitar yardım göstəriləcək. Səfir bildirdi ki, Bakıda olarkən mütləq Naxçıvana gedəcək. Lakin çox təəssüf ki, o Bakıda olarkən həmin gün qar yağdığından təyyarələr uçmadı və bunun nəticəsində də İngiltərə səfiri Naxçıvana gələ bilmədi. Bundan başqa, mən Bakıda Fransanın səfiri ilə də görüşüb bu məsələni müzakirə etdim. O da məni əmin etdi ki, Fransa Naxçıvana yardım göstərəcək. Eyni zamanda Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası da Naxçıvana yardım göstərilməsi barədə qərar qəbul etmişdir.

Bütün çətinliklərlə yanaşı, onu da qeyd etmək lazımdır ki, muxtar respublikanın əhalisi təhlükəsiz şəraitdə yaşayır. Bizim sərhədlərimiz-

də müharibə getmir, qan tökülmür. Naxçıvanın kəndlərində hamı öz yerindədir. Keçənilki münaqişələri bir kənara qoysaq, ondan sonrakı dövrdən indiyədək bizim sərhədlərdə sakitlikdir. Bu sakitliyi qoruyub saxlamaq bizim ən əsas vəzifəmizdir.

Bu yaxın vaxtlarda sərhədlərdə yaz vaxtı toqquşmaya, yeni dağıntılara yol verməmək üçün Ermənistan tərəfindən görüşlər keçirmək barədə təşəbbüs olmuşdur. Biz bu yolla getməliyik. Naxçıvan xüsusi coğrafi vəziyyətdədir. Ona görə bizim yolumuz ondan ibarətdir ki, gərək Naxçıvanı qoruyaq, sərhədlərdə heç bir silahlı münaqişəyə yol verməyək. Bu sahədə biz öz tədbirlərimizi görürük və mənim sizdən də xahişim ondan ibarətdir ki, hərə öz sahəsində, öz kəndində heç bir qeyri-qanuni hərəkətə yol verməsin.

Mən Bakıda olarkən Azərbaycanın Prezidenti Əbülfəz Elçibəylə görüşlərimiz oldu. Biz birlikdə Naxçıvanın problemlərini müzakirə etdik. Bu yolla biz Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin etməliyik. Hərə öz sahəsində səylə çalışmalı, bu işə öz payını verməlidir.

Heydər Əliyev hazırda qarşıda duran vəzifələrdən danışarkən göstərdi ki, indi ən başlıca vəzifə Naxçıvanın daxili imkanlarından səmərəli istifadə etməkdir. Naxçıvanın sənaye müəssisələrinin əksəriyyəti işləmir. Biz çalışmalıyıq ki, nəyin bahasına olursa-olsun bunları müəyyən qədər işlədək. Kənd təsərrüfatında isə imkanlar daha çoxdur. Bilirik ki, texnika, yanacaq çatışmır. Təəssüf ki, bəzi yerlərdə texnikanı, traktorları söküb satıblar. Bu kimi hallara rayon rəhbərləri nəinki göz yumub, hətta şərait yaradıblar. O cümlədən Şahbuz rayonunda da. Bunların hamısına son qoyulmalıdır. Ona görə də indi, bu yaz vaxtı biz kənd təsərrüfatı sahəsində bütün imkanlardan istifadə etməliyik. Əkin əkmək lazımdır. Bir qarış da olsun torpaq boş qalmamalıdır. Buğda, arpa, yonca və digər yem bitkiləri əkmək lazımdır. Qış vaxtı adamlar soyuqdan donmamaq üçün ağacları kəsib yandırdılar. Bu, çox ürəkağrıdan faktdır. Ancaq bunu belə də qoymaq olmaz, kəsilən ağacların yerinə yeni tinglər salınmalıdır.

Bəzi yerlərdə, o cümlədən Şahbuz rayonunda da mal-qaranı satıb dağıdıblar. Axı, kəndçi üçün bir inək sabah ikisi deməkdir, süd, qatıq,

yağ, ət deməkdir. Heyvanları aparıb başqa yerdə baha qiymətə satmaqla heç bir şey qazanmaq olmaz. Əksinə, onun acı nəticələri uzun illər hiss olunacaq. Bunu bərpa etmək çox çətin işdir. Bu işləri görən adamlar özlərinə düşmənçilik edirlər. Bütün bunları edənlər öz əməlləri üçün cavab verməli olacaqlar.

Heydər Əliyev çıxışının sonunda rayon əməkçilərinə möhkəm cansağlığı və qarşıdakı təsərrüfat işlərində uğurlar arzuladı. Sonra Heydər Əliyev konfrans iştirakçılarının suallarına cavab verdi.

Konfransda Yeni Azərbaycan Partiyası Şahbuz rayon təşkilatının Siyasi Şurası, partiyanın Naxçıvan vilayət təşkilatının konfransına və Azərbaycan üzrə keçiriləcək qurultayına nümayəndələr seçildi.

*"Şərq qapısı" qəzeti, 17 mart 1993-cü il*

## "YENİ AZƏRBAYCAN" QƏZETİNİN İLK NÖMRƏSİ

Azərbaycan mətbuat salnaməsinə yeni bir qəzet də daxil olmuşdur. İlk nömrəsi işıq üzü görən bu qəzet "Yeni Azərbaycan"dır. Qəzetin təsisçisi Yeni Azərbaycan Partiyasıdır. Yeni Azərbaycan Partiyasının meydana gəlməsi respublikamızın ictimai-siyasi həyatında mühüm hadisə olmuşdur. Partiyaya zəmanəmizin görkəmli siyasi xadimi Heydər Əliyevin başçılıq etməsi xalqımızın bu siyasi quruma etimad və rəğbətini daha da artırmışdır. Belə bir həqiqət təsdiq olunur ki, YAP-ın məqsədyönlü fəaliyyəti məmləkətimizin müqəddəratı üçün həlledici əhəmiyyət kəsb edə bilər. Təşkilati və siyasi cəhətdən möhkəmlənmiş YAP-ın mətbu orqanı olan "Yeni Azərbaycan" qəzetinin birinci nömrəsi 1993-cü il 10 aprel tarixdən nəşrə başlamışdır.

Qəzetin ilk nömrəsinin birinci səhifəsində Heydər Əliyevin təbriki verilmişdir. Təbrikdə deyilir: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir. Eyni zamanda bu ad müstəqil Azərbaycan, onun bütün vətəndaşları qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi dövlətin formalaşdırılması, respublikanın ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi, respublikanın tez bir zamanda müharibə vəziyyətindən çıxması, Qarabağ probleminin həlli, öz vətəndaşlarına firavan həyat şəraiti yaratmaq kimi çox məsul və mürəkkəb vəzifələr qoyur.

Yeni Azərbaycan Partiyası bu vəzifələri özünün siyasi strategiyasının əsas istiqamətləri hesab edir. YAP-ın əsas prinsipləri olan bu vəzifələrin həyata keçirilməsində "Yeni Azərbaycan" qəzetinin də özünəməxsus rolu və fəaliyyəti olmalıdır".

Qəzetdə "Baş redaktordan" rubrikası ilə "Məsuliyyət" adlı yazıda qəzetin məqsəd və vəzifələrindən geniş danışılır. AMİP-in sədri, millət vəkili Etibar Məmmədovun "Uğur olsun" adlı təbriki də çap edilmişdir. Qəzetin səhifələrində Yeni Azərbaycan Partiyasının fəaliyyətini əks etdirən "Xronika" verilmişdir. "Oxucu arzusu, oxucu məsləhəti" adlı materialda Azərbaycan Respublikası EA-nın prezidenti Eldar Salayevin, akademik Fərəməz Maqsudovun, YAP-ın İdarə Heyə-

tinin üzvü Munis Bayramovun qəzetin nəşrə başlaması ilə əlaqədar olaraq arzu və təklifləri çap olunmuşdur.

Qəzetdə Heydər Əliyevin Bakı və Moskva görüşləri haqqında xəbərlər, "Biz həmrəyliyin tərəfdarıyıq" adlı müsahibə, "Neft iyi" adlı məqalə və digər materiallar da vardır.

Qəzetin ilk nömrəsi hər yerdə böyük maraqla qarşılanmışdır.

*"Şərq qapısı" qəzeti, 14 aprel 1993-cü il*



FƏSİL V

# Ağır blokada və müharibə şəraitində

*“Biz gavur düşmənlə müharibə şəraitindəyik. Şəhidlər veririk. Torpağımızın bir hissəsi əlimizdən gedib. Biz öz varlığımızı, öz müstəqil dövlətimizi müdafiə etmək üçün müharibə aparırıq. Öz namusumuzu, şərəfimizi qoruyuruq. Öz dinimizi qoruyuruq...*

*Biz Allahın köməkliyi ilə torpaqlarımızı geri qaytaracağıq...*

*Biz müharibə istəmirik. Müharibə tərəfdarı deyilik. Heç kəsin torpaqlarına göz dikməmişik. Ancaq öz torpaqlarımızı da heç kəsə verməyəcəyik.”*

**Heydər ƏLİYEV**
Naxçıvan Came məscidində
keçirilən mərasimdəki çıxışından

*7 yanvar 1993-cü il*

## Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, ölkədə yaranmış gərgin sosial-ictimai və siyasi vəziyyət Naxçıvan Muxtar Respublikasında daha kəskin xarakter almışdır.

Belə ki, Ermənistan Respublikası ilə həmsərhəd olan muxtar respublikanın ərazisi 1988-ci ildən başlayaraq bu günə kimi erməni diasporu və lobbisi tərəfindən müdafiə olunan və silahlandırılan, Mərkəzin himayədarlığından hər vasitə ilə istifadə edən erməni silahlı quldur dəstələrinin basqınlarına məruz qalır. Bu müddət ərzində muxtar respublikanın Şərur rayonunun Kərki kəndi Sovet Ordusunun birtərəfli mövqeyi nəticəsində Ermənistan tərəfindən işğal edilmiş, Sədərək kəndi ətrafındakı vuruşmalarda insanlar həlak olmuş, dövlət mülkiyyətinə və şəxsi mülkiyyətə xeyli ziyan vurulmuş, Havuş kəndi, o cümlədən bir sıra yaşayış məntəqələri toplardan intensiv atəşə tutularaq tamamilə dağıdılmış, Babək rayonunun Gərməçataq, Yuxarı Buzqov, Şahbuz rayonunun Şada kəndlərinə və Batabat yaylağına ardı-arası kəsilməyən hücumlar olmuş, xeyli miqdarda mal-qara aparılmış, çobanlar öldürülmüş və girov götürülmüşlər.

Törədilən talanlar və qırğınlar barədə Mərkəzə, Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Ali Sovetinə dəfələrlə məlumat verilməsinə baxmayaraq qəti tədbirlər görülməmiş, əksinə qonşu respublika tərəfindən silahlı basqınların sayı daha da artmışdır. Sovet Ordusu isə həmişə olduğu kimi erməni diasporunun

göstərişlərini yerinə yetirən Mərkəzin siyasətinə uyğun olaraq, respublikanın ərazisini qonşu respublikadan edilən silahlı təcavüzdən qorumağa cəhd göstərməmişdir. Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikası ilə birləşdirən dəmiryolu mütəmadi blokadaya alınmış, Ermənistan ərazisindən keçən yeganə avtomobil yolu isə 1988-ci ildən tamamilə bağlanmışdır. Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Azərbaycandan, ümumiyyətlə xarici aləmdən təcrid olunmuş vəziyyətə salınmışdır.

Naxçıvan Muxtar Respublikasını yaranmış vəziyyətdən xilas etmək və qonşu Ermənistan Respublikası ərazisindən edilən silahlı basqınlardan qorumaq, əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə, Naxçıvan Muxtar Respublikasının suverenliyini və ərazi bütövlüyünü müdafiə naminə, Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust 1991-ci il tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" bəyannaməsinə, "Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərarına və Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına əsaslanaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik və hüquq-mühafizə məsələləri komissiyasına tapşırılsın ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti ilə birlikdə Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin statusu, strukturu və təşkili qaydası haqqında Naxçıvan Muxtar Respublikası qanununun layihəsini hazırlasın və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclasının müzakirəsinə versin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin sədri**

*Naxçıvan şəhəri, 7 sentyabr 1991-ci il*

## ŞƏHİDLƏRİN XATİRƏSİ YAD EDİLDİ

Naxçıvanın Şəhidlər xiyabanında üç igidin – Vəli Məmməd oğlunun, İdris Ələsgər oğlunun, Abbasəli Qaragöz oğlunun məzarları var. Onlar da öz qəhrəman babaları kimi doğma torpaq uğrunda canlarını fəda ediblər. Erməni quldurları sərhəd kəndlərimizə hücum edəndə sinələrini sipər ediblər. Onların torpağa tapşırıldığı vaxtdan 600 gün keçir. Bir də həmin gün, bizim təqvimlə 8 sentyabr Məhəmməd peyğəmbərin vəfatı günüdür.

Srağagün yüzlərlə naxçıvanlı Şəhidlər xiyabanına toplaşmışdı. Onlar Məhəmməd peyğəmbərin vəfatı gününü yad etmək, şəhidlərin xatirəsinə öz ehtiramlarını bildirmək məqsədilə buraya gəlmişdilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev xiyabana toplaşanlarla səmimi görüşüb söhbət etdi. O, üzünü naxçıvanlılara tutub dedi:

– Biz tarixi bir hadisəni - Məhəmməd peyğəmbərin vəfatı gününü qeyd edirik. Bu gün həm də Azərbaycan xalqının azadlığı uğrunda mübarizədə, torpağımızın təcavüzkarlardan qorunmasında öz həyatlarını qurban verən şəhidlərin xatirəsini yad edirik. Hamımız İslam dininin böyük xadimi Məhəmməd peyğəmbərə və şəhidlərimizə ehtiramımızı bildiririk. Bu gün igid oğulların əbədi uyuduğu yerdə, onların məzarı önündə sizə bildirmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında çox mühüm hadisə olmuşdur. Xalqın birliyi naminə, xoşbəxt günlər naminə qərarlar qəbul olunmuşdur. Çox təqdirəlayiq haldır ki, sessiya öz işini yüksək səviyyədə başa çatdırdı. Ali Məclis bir daha sübut etdi ki, muxtar respublika əhalisinin həmrəylik və birliyi təmin ediləcəkdir. Hər yerdə ədalət bərqərar olunacaq, xalqın rifahını yaxşılaşdırmaq üçün mühüm tədbirlər həyata keçiriləcəkdir. Bunun üçün hamılıqla çalışmalıyıq, nizam-intizamı möhkəmlətməliyik. Mən muxtar respublikamızın bütün camaatına, qan qardaşlarımıza, bütün azəri türklərinə səadət və xoşbəxtlik arzulayıram.

Heydər Əliyev şəhid ailələrinin üzvləri ilə görüşüb, onlara dərin hüznlə başsağlığı verdi və bildirdi ki, övladları heç vaxt unudulmaya-

caq, yaddan çıxmayacaqlar. Şəhid ailələrinə hər cür diqqət və qayğı göstəriləcəkdir.

Gərməçataq kəndini erməni quldurlarından qoruyarkən şəhid olan Vəli Məmməd oğlunun anası övladına, bütün şəhidlərə göstərilən ehtiram üçün öz təşəkkürünü bildirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavinləri Rəşid Həsənov, Anar Səfərov, Asif Kələntərli, Qafar Məmmədov, muxtar respublika Baş nazirinin birinci müavinləri Məmməd Abbasov, Ələsgər Sadiqov, Naxçıvan şəhər sovetinin sədri Orucəli Məmmədov və başqaları xatirə mərasimində iştirak etmişlər.

*"Şərq qapısı" qəzeti, 10 sentyabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Sentyabrın 10-dan 11-nə keçən gecə Naxçıvan Muxtar Respublikasının ərazisinə Ermənistanın ərazisindən silahlı quldur dəstələrinin basqını olmuşdur. Quldurlar Şahbuz rayonunun Yuxarı Remeşin kəndindən 1033 baş, Ordubad rayonunun Tusi adına kolxozundan 1054 baş qoyun və həmin rayonun sakinləri olan 2 çobanı aparmışlar.

Muxtar respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin Ermənistan Respublikasının hüquq-mühafizə orqanlarının rəhbərləri ilə iki çobanın və qoyun sürüsünün dərhal geri qaytarılması tələbi ilə apardıqları danışıqlar heç bir nəticə verməmişdir.

Bu hadisədən xəbər tutan ordubadlılar sentyabrın 11-12-də çoxminli mitinqlər keçirərək erməni quldurlarının basqınlarına etirazlarını bildirmişlər. Bunun ardınca ordubadlılar Qafan-Yerevan sərnişin qatarını saxlamışlar. Yerli sovet və hüquq-mühafizə orqanlarının sərnişin qatarının yola salmasına yönəldilən tədbirləri nəticəsiz qalmışdır.

Sentyabrın 12-də Ermənistan Respublikası Ali Sovetinin Sədri Levon Ter-Petrosyan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə zəng edərək onu parlamentin başçısı seçilməsi mü-

nasibətilə təbrik etmiş və Ermənistanla Naxçıvanın sərhəd rayonlarında baş verən münaqişəli məsələləri qarşılıqlı anlaşma və konstruktiv danışıqlarla həll etmək niyyətində olduğunu söyləmişdir. O, eyni zamanda qarşılıqlı iqtisadi əməkdaşlıq məsələlərinə baxılması arzusunda olduğunu bildirmiş və "şəxsi görüş keçirilməsinin də mümkünlüyü"nü qeyd etmişdir. O, xahiş etmişdir ki, Ordubad stansiyasında saxlanılan sərnişin qatarının yola salınmasına köməklik göstərilsin. L.Ter-Petrosyan vəd etmişdir ki, aparılmış çobanların, qoyun sürüsünün qaytarılması, baş vermiş cinayətin araşdırılması üçün dərhal hadisə yerinə Ermənistan parlamentinin deputatlarını və özünün şəxsi nümayəndələrini göndərəcək.

Heydər Əliyev Levon Ter-Petrosyana onun təkliflərini bəyəndiyini bildirmiş və qeyd etmişdir ki, Ermənistan Ali Soveti Sədrinin öz orqanlarına verdiyi göstərişlərin dərhal həyata keçirilməsini gözləyir. Verilən vədlər vaxtında yerinə yetirilsə, sərnişin qatarını buraxmaq zərurətini Ordubad rayonunun əhalisinə inandırmaq imkanı əldə etmək olar.

Konstruktiv söhbəti nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən həyata keçirilən tədbirlər nəticəsində qatarda olan 46 qadın, qoca və uşaq sentyabrın 12-də Yerevana yola salınmışdır. Bu haqda Heydər Əliyev L. Ter-Petrosyana telefonla məlumat vermişdir. Qatarda qalmış kişi sərnişinlərin təhlükəsizliyi təmin edilmişdir.

Sentyabrın 12-də günün sonunda Ermənistanın Vayk və Mehri rayonlarının Ordubad və Şahbuz rayonları ilə sərhədlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Ermənistan Respublikası Ali Sovetinin səlahiyyətli nümayəndələrinin görüşü keçirilmişdir. Bu görüşdən sonra şahbuzluların davarlarından 259 başı qaytarılmışdır.

Lakin Ermənistan tərəfindən verilmiş öhdəlik sentyabrın 13-nə öz həllini tapmamışdır. Həmin gün səhər saat 10.30-da Heydər Əliyev ilə L. Ter-Petrosyan arasında yenə telefon danışığı olmuşdur. Ermənistan rəhbərliyi tərəfindən bir daha təsdiq edilmişdir ki, bir neçə saat ərzində vəd edilmiş məsələlər həllini tapacaq.

Moskva vaxtı ilə saat 21.00-dək əlavə məlumat olmamışdır.

*Naxçıvan şəhəri, 13 sentyabr 1991-ci il*

* * *

1991-ci ilin sentyabr ayının 14-də saat 10.00-a olan məlumata görə Ermənistan Respublikası və Naxçıvan Muxtar Respublikası rəhbərlikləri arasında keçirilmiş danışıqların nəticəsində Ermənistan tərəfindən muxtar respublikanın Ordubad və Şahbuz rayonlarına 982 baş davar qaytarılmışdır. Yerli sakinlər tərəfindən sərnişini saxlanılan Yerevan-Qafan qatarı Ordubad stansiyasındadır.

Sentyabrın 14-də saat 10.30 dəqiqədə Ermənistan Respublikası Ali Sovetinin Sədri L.Ter-Petrosyan Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevlə telefonla əlaqə saxlamış və bildirmişdir ki, əvvəlcədən əldə edilmiş razılığa görə onlar tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Naxçıvan Muxtar Respulikası ərazisindən cinayətkarların oğurladığı davarların xeyli hissəsi qaytarılıb. Ermənistanın quldurluq etmiş 4 sakini isə həbs edilmiş, onların barəsində cinayət işi qaldırılmışdır. Davarlarla birlikdə aparılmış çobanlar axtarılır. Onların yerinin müəyyənləşdirilməsi və ailələrinə qaytarılması üçün tədbirlər görülür. L.Ter-Petrosyan bu barədə məlumat verərək, sərnişin qatarını buraxmaq və qatarların hərəkətini bərpa etmək üçün tədbirlər görülməsini xahiş etmişdir.

Heydər Əliyev demişdir ki, yaranmış gərgin vəziyyəti, Ermənistan rəhbərliyinin həyata keçirdiyi tədbirləri nəzərə alaraq yerli sakinlərlə görüş keçirmək, onlara Ermənistan rəhbərliyindən alınmış məlumatı çatdırmaq, sərnişin qatarının hərəkətinin bərpa olunması və mənzil başına çatdırılması məsələsini müzakirə etmək üçün Ordubad stansiyasına səlahiyyətli nümayəndələr göndərilmişdir. Heydər Əliyev L. Ter-Petrosyandan Naxçıvan tərəfinin tələblərinin tam yerinə yetirilməsi, xüsusilə Ordubad rayonunda zorla aparılmış çobanların - Xəlil Xəlilovun və Əşrəf Abbasovun tezliklə qaytarılması üçün əlavə tədbirlər görməsini xahiş etmişdir.

Ordubad dəmiryol stansiyasında Naxçıvan Muxtar Respublikası rəhbərlərinin Ordubad rayonunun sakinləri ilə görüşləri olmuşdur. Dəmiryol stansiyasına toplaşmış ordubadlılarla bir neçə saatlıq danışıqlar, L. Ter-Petrosyanla Heydər Əliyevin arasında dəfələrlə olmuş telefon

söhbətləri nəticəsində razılıq əldə edilmiş, Yerevan-Qafan sərnişin qatarı Ermənistan sakinləri ilə saat 19.47-də Ordubad stansiyasından təyin olunmuş yerə - Ermənistanın Qafan stansiyasına yola salınmışdır. Naxçıvan Muxtar Respublikasının ərazisindəki dəmir yolunda qatarların hərəkəti tam bərpa olunmuşdur.

Heydər Əliyevlə telefon söhbəti zamanı L. Ter-Petrosyan bildirmişdir ki, çobanlar Ordubad rayonunun ərazisinə soxulmuş quldur dəstəsi tərəfindən öldürülmüşlər. Ordubad rayonunun sakinləri və Naxçıvan Muxtar Respublikası hüquq mühafizə orqanları əməkdaşları tərəfindən aparılan əməliyyat-axtarış nəticəsində öldürülmüş çobanların - Xəlil Xəlilovun və Əşrəf Abbasovun meyitləri saat 18.30-da Ordubadla Qafan rayonlarının sərhəd zonasında tapılmışdır.

*Naxçıvan şəhəri, 17 sentyabr 1991-ci il*

## *ERMƏNİSTAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ LEVON TER-PETROSYANA,*

## *ERMƏNİSTAN RESPUBLİKASININ ALİ SOVETİNƏ*

10 sentyabr 1991-ci ildə Ordubad və Şahbuz rayonlarının ərazisinə basqın edən quldur dəstələri cinayət törətmiş, nəticədə Ermənistan ərazisinə 2000 baş qoyun aparılmış, iki çoban - Ordubad rayonunun sakinləri Xəlil Xəlilov və Əşrəf Abbasov itkin düşmüşlər.

Muxtar respublikanın iki sakininin itməsi barədə məlumat alan Naxçıvan Muxtar Respublikasının hüquq mühafizə orqanları törədilmiş cinayətin açılması, Xəlil Xəlilovun və Əşrəf Abbasovun talelərinin aydınlaşdırılması, oğurlanmış qoyunların qaytarılması məqsədilə Ermənistanın hüquq mühafizə orqanları ilə əlaqəyə girmişlər. Lakin həyata keçirilən tədbirlər heç bir nəticə verməmişdir. Baş verən hadisədən xəbər tutan və Ermənistan tərəfdən quldur dəstəsinin basqınından qəzəblənən Ordubad rayonunun əhalisi Yerevan-Qafan sərnişin qatarını Ordubad stansiyasında saxlamışdı. Bu tədbir Xəlil Xəlilovun, Əşrəf Abbasovun və aparılmış davarların qaytarılması üçün Ermənistanın Meh-

ri və Qafan rayonlarının rəhbərləri ilə danışıqlara başlamaq məqsədilə həyata keçirilmişdi. Lakin rayon rəhbərləri səviyyəsində danışıqlar nəticəsiz qalmışdır.

12 sentyabrda telefonla müraciət edərək xahiş etdiniz ki, sərnişin qatarının hərəkətinin bərpasına və təyin olunduğu yerə göndərilməsinə köməklik edilsin. Sizin xahişinizə əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu yöndə bir neçə addım atdı. Bunun müqabilində Ordubad rayonunun oğurlanmış iki sakininin və heyvanların dərhal qaytarılması tələbi irəli sürüldü. Siz bu təklifləri qəbul etdiniz. Ordubad və Mehri, Şahbuz və Vayk rayonlarının sərhədlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Ermənistan Ali Sovetinin səlahiyyətli nümayəndələrinin görüşü keçirildi.

13 və 14 sentyabrda 1000 başa yaxın qoyun bizə qaytarıldı.

14 sentyabrda Ermənistanın daxili işlər naziri Manuçaryan, onun ardınca isə siz məlumat verdiniz ki, Ordubad rayonunun sakinləri olan iki çoban sizin ərazidən basqın edən quldur dəstəsi tərəfindən öldürülmüşdür. Həmin cinayəti törədən Ermənistanın dörd sakini Ermənistanın hüquq-mühafizə orqanları tərəfindən həbs edilmiş, cinayət məsuliyyətinə cəlb olunmuşlar. Siz yenidən sərnişin qatarının tezliklə Qafana yola salınması məsələsini qaldırdınız. Baş vermiş hadisələrlə əlaqədar sentyabrın 12, 13 və 14-də aramızda bir neçə dəfə telefon danışığı oldu. Sizin xahişinizə cavab olaraq tələb etdik ki, dörd Ermənistan sakininin Naxçıvan Muxtar Respublikasının ərazisində törətdiyi mövcud cinayət barədə informasiya orqanları vasitəsilə rəsmi məlumat verilsin, ölənlərin cəsədi dərhal ailələrinə qaytarılsın. Həmçinin Ermənistanın rəhbərliyi adından günahsız həlak olan azərbaycanlıların ailələrinə başsağlığı verilsin, heyvanların qalan hissəsi qaytarılsın.

Eyni zamanda, Yerevan-Qafan qatarını saxlayan Ordubad rayonunun sakinləri ilə razılığa gəlmək və qatarın təyin olunmuş stansiyaya təhlükəsiz çatmasını təmin etmək üçün biz xahiş etdik ki, Dağlıq Qarabağ Muxtar Vilayətində və Goranboy rayonunda erməni quldur dəstələri tərəfindən girov götürülmüş azərbaycanlıların qaytarılması məsələsinə də baxasınız. Siz Yerevan-Qafan sərnişin qatarı məsələsinin tezliklə həll olunmasına təkid edərək bildirdiniz ki, bizim tək-

liflərimizi qəbul edirsiniz və onların baxılıb həyata keçiriləcəyinə söz verirsiniz.

14 sentyabrda Ordubad sakinləri və hüquq-mühafizə orqanları əməkdaşlarının birgə axtarışları nəticəsində vəhşicəsinə öldürülmüş Xəlil Xəlilovun və Əşrəf Abbasovun meyitləri saat 18.30-da Ordubad rayonunun Ermənistanla sərhəd ərazisində tapılmışdır.

Sizin xahişlərinizi nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və hökuməti tərəfindən sentyabrın 14-də həyata keçirilmiş intensiv tədbirlər nəticəsində Yerevan-Qafan qatarı saat 19.47-də sərnişinləri ilə birlikdə Ordubad stansiyasından yola düşmüş və təyin olunmuş yerə çatmışdır.

15 sentyabrda Ordubadda erməni quldurlarının qurbanlarının dəfn mərasimi olmuşdur. Bu mərasimdə rayon əhalisinin, demək olar, hamısı və muxtar respublikanın başqa yerlərindən gəlmiş nümayəndələri iştirak etmişlər. Matəm mitinqində, ordubadlılarla görüşlərdə, rayon rəhbərləri ilə söhbətlərdə adamlar qonşu respublikanın ərazisindən arası kəsilməyən quldur basqınlarına etirazlarını və onlara son qoyulması tələblərini, Azərbaycan xalqının hüquq və mənafelərini, Azərbaycanın ərazi bütövlüyünü qorumaq qətiyyətində olduqlarını bildirmişlər. Aşağıdakı tələblər irəli sürülmüşdür:

1. Xəlil Xəlilov və Əşrəf Abbasovun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun ərazisində vəhşicəsinə qətlə yetirildiyini nəzərə alaraq və Cinayət-Prosessual Məcəlləsinə müvafiq olaraq, istintaqın cinayət baş verən ərazidə aparılması üçün, həbs edilmiş dörd cinayətkar Naxçıvan Muxtar Respublikasının hüquq mühafizə orqanlarına verilsin.

2. Naxçıvan Muxtar Respublikasının ərazisində dəmiryol qatarlarının hərəkətinin bərpası, Ordubad Xalq Cəbhəsi liderləri tərəfindən girov saxlanılan ermənilərin qaytarılması üçün Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti və Goranboy rayonu ərazisində ermənilər tərəfindən girov götürülən azərbaycanlılar bizə qaytarılsın.

3. Ermənistanın Mehri rayonu ərazisində lokomotiv briqadalarının və sərnişinlərin təhlükəsizliyini təmin etmək üçün qətimkan tədbirləri görülsün.

4. Oğurlanmış davarların qalan hissəsi də qaytarılsın.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu tələbləri tamamilə müdafiə edir və Ermənistan tərəfindən onların yerinə yetirilməsini xahiş edir. Bu, Azərbaycanla Ermənistanın sərhəd rayonlarında münaqişələrə, silahlı toqquşmalara son qoyulmasına imkan verər və gələcəkdə baş verə biləcək münaqişələrin konstruktiv ruhda danışıqlar yolu ilə həll olunmasına şərait yaradar.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 17 sentyabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Rusiya parlamentinin nümayəndələri Viktor Popov və Anatoli Şabatı qəbul etmişdir. Ali Məclisdə keçirilən görüşdə iki ordubadlı çobanın qətli ilə bağlı gərginlik və dəmir yolunda hərəkətin pozulması ilə əlaqədar məsələlər müzakirə olunmuşdur.

Bununla bağlı Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Ermənistan Respublikası qarşısında əvvəlcə qoyduğu tələbləri yenidən irəli sürmüşdür. Rusiya parlamenti deputatlarından bu tələblərin həyata keçirilməsinə və baş verən münaqişənin aradan qaldırılmasına vasitəçilik etmələri xahiş olunmuşdur.

*Naxçıvan şəhəri, 19 sentyabr 1991-ci il*

*ERMƏNİSTAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ LEVON TER-PETROSYANA*

Ermənistan ərazisindən cinayətkar ünsürlərin Ordubada basqını və bu rayonun iki sakininin qətlə yetirilməsi, yaranmış mürəkkəb şərait nəticəsində artıq səkkiz gündür ki, Naxçıvan Muxtar Respublikası ərazisində dəmiryol qatarlarının hərəkəti dayandırılmışdır.

Biz bunun Ermənistan Respublikasının iqtisadiyyatına və yaşayış fəaliyyətinə böyük zərər vurduğunu başa düşür və dəmiryol qatarlarının hərəkətinin tez bir zamanda nizama salınması üçün tədbirlər görürük.

1991-ci il sentyabrın 17,18 və 19-da RSFSR Ali Sovetinin deputatları A.E. Şabat və V.A. Popov vasitəçilik missiyası ilə Ermənistanın Mehri və Naxçıvan Muxtar Respublikasının Ordubad rayonlarında olmuşlar. Rusiya deputatlarının Ordubad rayonu sakinləri, rayon Xalq Cəbhəsinin rəhbərləri ilə görüşləri keçirilmişdir.

A.E. Şabat və V.A. Popov Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qəbul edilmişlər. Muxtar Respublikanın və Xalq Cəbhəsinin rəhbərlərinin iştirakı ilə, yaranmış vəziyyətdən çıxış yolları, muxtar respublika ərazisində dəmiryol nəqliyyatının fəaliyyətinin bərpası və Ordubad Xalq Cəbhəsi tərəfindən yaxalanmış Ermənistan sakinlərinin qaytarılması məsələləri müzakirə edilmişdir.

RSFSR Ali Soveti deputatları A.E. Şabat və A.A. Popovun iştirakı ilə Ermənistan Respublikasının rəhbərləri üçün meydana çıxmış mürəkkəb məsələləri tam həll edə biləcək təkliflər işlənib hazırlanmışdır. Şərtlər aşağıdakılardır:

1. Ordubad rayon sakinləri Xəlilov və Abbasovun qətlində iştirakları güman edilən deputatların işi ilə bağlı SSRİ prokurorluğu, Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Ermənistan Respublika Prokurorluğundan ibarət istintaq qrupu yaradılması birinci tədbir kimi qəbul edilir. Həmin qrupa icazə verilir ki, rayonda istintaq fəaliyyəti aparsın və lazım gələn bütün şahidləri və şübhəliləri dindirsin.

Deputat qrupu girov saxlananların və həbs olunanların hamısı ilə görüşmək imkanına malik olur.

2. İki çobanın qətlində və mal-qaranın oğurlanmasında əli olan, həbs cəzası tətbiq edilmiş şəxslərin hamısı saxlanmaq üçün Naxçıvan şəhə-

rindəki 75-ci diviziyanın hauptvaxtına təhvil veriləcəklər. Bu zaman daxili mühafizəni həmin diviziyanın hərbi qulluqçuları, perimetr mühafizəni isə muxtar respublika DİN-in əməkdaşları aparacaqlar.

Dustaqlar yuxarıda qeyd edilmiş istintaq qrupunun sərəncamında olacaqlar. İctimai deputat qrupu istənilən vaxt dustaqlarla görüşmək imkanına malik olacaqdır.

3. Ermənistan Daxili İşlər Nazirliyi DQMV və Azərbaycanın Goranboy rayonunda erməni quldurları tərəfindən girov götürülmüş aşağıdakı şəxsləri Naxçıvan Muxtar Respublikası DİN-ə təhvil verməlidir:

Bədəlov Süleyman Feyruz oğlu, milis kapitanı
Hüseynov Müdafət Hacı oğlu
Məhərrəmov Bəhman Əkbər oğlu
Novruzov Hüseyn Oruc oğlu
Hüseynov Şakir Xəlil oğlu

4. Ermənistan tərəfi dəmiryolunun Mehri sahəsində hərəkətin təhlükəsizliyinə tam zəmanət verdiyini bəyan edir və qətlin qurbanlarının ailələrinə başsağlığı verir.

5. Bu şərtlər yerinə yetirilərsə Ordubad şəhərində Xalq Cəbhəsi tərəfindən qatardan götürülmüş girov saxlananlar azad ediləcək və erməni tərəfinə təhvil veriləcəklər.

RSFSR Ali Sovetinin deputatları A. E. Şabat və V. A. Popov 1991-ci il sentyabrın 19-da saat iyirmi ikidə bu təkliflərlə Ermənistan rəhbərləri ilə görüşmək üçün Yerevan şəhərinə yola düşmüşlər.

Yuxarıda qeyd edilmiş təkliflər müsbət həllini taparsa, dəmiryol nəqliyyatının hərəkətinin bərpası və Ordubad Xalq Cəbhəsi tərəfindən girov götürülmüş Ermənistan sakinlərinin qaytarılması məsələsi həll edilmiş olardı.

Onu da nəzərə almaq lazımdır ki, bizim tərəfdən irəli sürülən təkliflər kompromis xarakterlidir. Kəskin münaqişəli vəziyyətin tez bir müddətdə aradan qaldırılması naminə müəyyən güzəştlər vardır.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 20 sentyabr 1991-ci il*

## *ERMƏNİSTAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ LEVON TER-PETROSYANA*

1991-ci il sentyabrın 19-da saat 16.52 dəqiqədə Ermənistan Respublikasının Gorus rayonunun Üçtəpə adlanan ərazisində yerləşən teleradiorele ötürücüsündə Naxçıvan Muxtar Respublikası istiqamətində bütün kanallarda teleradio verilişlərinin buraxılışı tamamilə dayandırılıb və telefon xəttinin bir hissəsi kəsilib. Nəticədə Naxçıvan Muxtar Respublikası Azərbaycan televiziyasının və radiosunun, həmçinin Rusiya televiziyasının verilişlərini qəbul etmək imkanından məhrum edilmişdir.

Sentyabrın 20-də səhər saat 5.00 radələrində isə Ermənistanın Sisyan rayonu tərəfindən 50-60 nəfərlik silahlı erməni quldur dəstəsi muxtar respublikanın Şahbuz rayonunun Batabat aşırımında yerləşən Biçənək teleradioötürücü stansiyasına basqın etmişlər. Quldurlar stansiyanı tutmağa cəhd göstərmişlər. Avtomat, pulemyot, qumbaraatanlarla stansiyaya edilən həmlə nəticəsində bina dağıdılmış, transformator stansiyası yandırılmış, bütün avadanlıq sıradan çıxarılmışdır. Beləliklə, böyük maddi zərər dəymiş, muxtar respublika ərazisinə verilən teleradio verilişləri şəbəkəsi tamamilə iflic vəziyyətinə salınmışdır.

Ermənistan ərazisindən edilən bu cinayətkar aksiyalar Naxçıvan Muxtar Respublikası əhalisinin yeni qəzəb və etiraz dalğasına səbəb olmuş, onsuz da mürəkkəb olan şəraiti daha da çətinləşdirmiş, muxtar respublikanın Ermənistanla sərhədindəki gərginliyin bir daha kəskinləşməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası ərazisinə quldur basqınlarının dayandırılması üçün təcili tədbirlər görülməsini xahiş edirəm. Gərginliyin bu yerdə davam etməsi gözlənilməz nəticələr verə bilər. Bu cinayətin - quldur basqınının hərtərəfli təhqiq edilməsi və müqəssir olan şəxslərin cinayət məsuliyyətinə cəlb olunmaları üçün tapşırıq verilməlidir.

Ermənistan ərazisindən edilmiş quldur basqını nəticəsində muxtar respublikaya dəymiş maddi zərərin miqdarının müəyyənləşdirilməsi üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti komissiya

təşkil etmişdir. Biz belə hesab edirik ki, Ermənistan hökuməti bu maddi ziyanın dəyərini tamamilə ödəməlidir. Ermənistan nümayəndələrini mövcud komissiyanın işində iştirak etməyə dəvət edirik.

Sizin bu məsələ ilə bağlı təcili münasibətinizi və qoyulmuş məsələlərə cavablarınızı gözləyirəm.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 20 sentyabr 1991-ci il*

## *ERMƏNİSTAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ LEVON TER-PETROSYANA*

Bundan əvvəl göndərdiyim üç teleqrama cavab almadığıma baxmayaraq məcburam ki, sizə yenidən müraciət edim. Sizə Ermənistan ərazisindən silahlı basqınlar nəticəsində Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun iki sakininin – Xəlil Xəlilov və Əşrəf Abbasovun vəhşicəsinə öldürüldüyü, ordubadlıların, həmçinin bütün naxçıvanlıların tələbi, Naxçıvana vasitəcilik missiyası ilə gəlmiş Rusiya Federasiyasının xalq deputatı A. E. Şabat və Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətinin səlahiyyətli nümayəndəsi V. A. Popovla Naxçıvan Muxtar Respublikası rəhbərliyinin söhbəti haqqında məlumat vermişdim. Mən, həmçinin sentyabrın 20-də Ermənistan ərazisindən quldur dəstəsinin muxtar respublikanın Şahbuz rayonu ərazisindəki Biçənək teleradioötürücü stansiyasına hücumu və oranın tamamilə dağıdılması haqqında da ətraflı xəbər vermişdim.

Naxçıvan Muxtar Respublika Ali Məclisinin təkliflərini Rusiya Federasiyasının nümayəndələri A.E. Şabat və V.A. Popov Ermənistanın nümayəndələrinə vermişdir. Çox təəssüf ki, indiyədək sizin tərəfdən heç bir reaksiya yoxdur.

Dünən, sentyabrın 20-də gün ərzində Ermənistan ərazisindən muxtar respublika ərazisinə ikinci dəfə silahlı hücum olmuşdur. Saat 11.30

dəqiqədə Ermənistan Respublikasının Vayk rayonu ərazisindən quldurlar Naxçıvan Muxtar Respublikası Babək rayonunun Yuxarı Buzqov kəndinin sakinləri olan iki çobana bizim ərazidəki Qazan yaylağında heyvan otararkən hücum etmişlər. Hadisə yerinə gəlmiş milis işçilərinə silahlı müqavimət göstərən quldurlar çobanlardan birini - Eyvaz Hüseyn oğlu Eyvazovu özləri ilə aparmışlar.

Son 10 gün ərzində Ermənistanla sərhəddə baş verən hadisələrdən qəzəblənmiş Naxçıvan sakinləri Ermənistan sakinləri tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisində eyni gündə törədilən iki cinayət hadisəsindən daha da hiddətlənmişlər.

Gərginliyin daha da şiddətlənməsinin, ağır hadisələrlə nəticələnəcəyinin qarşısını almaq üçün Naxçıvan Muxtar Respublikası ərazisində Ermənistan ərazisindən bir-birinin ardınca davam edən silahlı quldur hücumlarına təcili son qoyulmasını, quldurlar tərəfindən aparılmış çoban Eyvaz Hüseyn oğlu Eyvazovun yerinin müəyyənləşdirilməsini, öz ailəsinə qaytarılmasını, 10 sentyabrdan 20 sentyabradək muxtar respublika ərazisində cinayət törədən Ermənistanın quldur sakinlərinin Naxçıvan Muxtar Respublikasının istintaq orqanlarına verilməsini təmin etmənizi xahiş edirəm.

Bir daha təklif edirəm ki, quldurlar tərəfindən teleradioötürücü stansiyasına dəyən maddi ziyanın dəyərini müəyyənləşdirmək üçün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən yaradılan komissiyanın işində Ermənistan nümayəndələrinin iştirakını təcili təmin edəsiniz.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 21 sentyabr 1991-ci il*

## GİROV AZAD EDİLDİ

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Ermənistan Respublikası Ali Sovetinin Sədri Levon Ter-Petrosyanla telefon danışıqları və Ermənistan rəhbərliyinə göndərdiyi teleqramlarda Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti və Goranboy rayonunda erməni yaraqlıları tərəfindən girov götürülmüş azərbaycanlıların qaytarılması haqqında dəfələrlə məsələ qaldırılmışdır.

Heydər Əliyev Levon Ter-Petrosyanla 16 oktyabr 1991-ci il tarixdə telefon danışığı zamanı bu məsələyə bir daha toxunmuşdur.

Oktyabrın 17-də Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikasına qaytarılmış Şahbuz rayonunun Biçənək kənd sakinləri E. Mədətov və E. Hüseynov Yerevan şəhərində onlarla birlikdə Goranboy rayonunun sakini Umud Bayramovun da girov saxlanması haqqında məlumat vermişlər. Bu məlumat alınandan sonra Ermənistan Respublikasının rəhbərliyindən Umud Bayramovun qaytarılması xahiş edilmişdir.

1991-ci il 18 oktyabr tarixdə saat 19.40 dəqiqədə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu ilə Ermənistanın Ararat rayonu arasındakı sərhəd məntəqəsində erməni tərəfi 1936-cı ildə anadan olmuş Goranboy rayonunun Başqışlaq kəndinin sakini Umud Əli oğlu Bayramovu Naxçıvan Muxtar Respublikasının nümayəndələrinə təhvil vermişdir.

Naxçıvan şəhərində Umud Əli oğlu Bayramov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən qəbul edilmişdir. Umud Bayramov demişdir ki, iyulun 18-də kəndin kənarındakı biçənəkdə ot çalırmış. Ermənilər yaşayan qonşu Buzluk kəndindən 6-7 nəfər silahlı quldur onu tutub qollarını, ayaqlarını bağlayıb, rayon mərkəzinə gətiriblər. Elə o vəziyyətdə də 3 gün zirzəmidə saxlayandan sonra, gözlərini bağlayıb, vertolyotla başqa yerə aparıblar. Sonra minik maşınının yük yerində erməni yaraqlılarının hərbi bazasına çatdırıb, oradakı beton zirzəmiyə salıblar. Həmin vaxtdan bu günədək rütubətli zirzəmidə, beton döşəməsinin üstündə saxlayıblar. Bu günlər

ərzində quru çörək və sudan başqa yeməyə heç nə verməyiblər. Son günlərdə Bayramovun yanına Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Biçənək kəndindən girov götürülmüş E. Mədətovu, E. Hüseynovu da salıblar.

U. Bayramovun dediyinə görə, bu gün onu zirzəmidən çıxaranda heç nə demədiklərindən, elə bilib ki, onu öldürməyə aparırlar.

Umud Bayramov onun əzablarına son qoyulması, azad olunub doğma Vətənə qaytarılması üçün Naxçıvan Muxtar Respublikasının rəhbərliyinə dərin minnətdarlığını bildirmişdir. Bayramovun ailəsi hazırda Başqışlaq kəndində yaşayır. Evdə həyat yoldaşı və dörd uşağı qalıb. Üç ay sürən ayrılıq və işgəncələrdən sonra o, öz ailəsinə, doğma kəndinə qayıdacaq. Hazırda isə Umud Bayramov Naxçıvan şəhərindədir, ona lazımi tibbi yardım göstərilir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*Naxçıvan şəhəri, 18 oktyabr 1991-ci il*

* * *

Qeyd edildiyi kimi, 1991-ci il iyulun 18-də erməni yaraqlıları tərəfindən girov götürülmüş Goranboy rayonu Başqışlaq kəndinin sakini Umud Bayramov bu günlərdə Naxçıvan Muxtar Respublikasına qaytarılmışdır. Bununla əlaqədar Ali Məclisin Mətbuat Xidmətinin məlumatı Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında oxunmuşdur. Elə həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Daxili İşlər Nazirliyindən də Bayramovun ailəsinə onun qaytarılması haqqında xəbər verilmişdir.

Bu gün Umud Bayramovun qardaşları Rafik və Zakir Bayramovlar Naxçıvan şəhərinə gəlmişlər. Onları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir. Elə oradaca üç aylıq intizardan sonra qardaşlar görüşmüşlər. Onların bu görüşünü sözlə ifadə etmək çətindir. Bayramov qardaşları uzun sürən ayrılıqdan sonra

onların bir-birinə qovuşduqları üçün Ali Məclisin Sədrinə, bütün naxçıvanlılara öz dərin minnətdarlıqlarını bildirmişlər.

Bu görüşü Amerikanın "Ey-Bi-Si Nyus" televiziya şirkətinin sifarişini yerinə yetirən çəkiliş qrupu da lentə almışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*Naxçıvan şəhəri, 20 oktyabr 1991-ci il*

## DAHA BİR GİROV AZAD EDİLDİ

Xəbər verildiyi kimi, 1991-ci il sentyabrın 10-da Ordubad rayonunun sakinləri Xəlil Xəlilovun və Əşrəf Abbasovun erməni quldurları tərəfindən tutulub qətlə yetirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Ermənistan Respublikası Ali Sovetinin Sədri Levon Ter-Petrosyana teleqram göndərmişdi. Həmin teleqramda X. Xəlilovun və Ə. Abbasovun qatillərinin mühakimə olunmaları üçün muxtar respublika hüquq mühafizə orqanlarına verilməsi tələbi ilə yanaşı, Goranboy rayonunda erməni quldurları tərəfindən girov götürülmüş 5 nəfər azərbaycanlının da azad edilməsi tələb olunmuşdu. Onların sırasında milis kapitanı Süleyman Feyruz oğlu Bədəlov da var idi.

Süleyman Bədəlov azad edilib öz ailəsinə qaytarılmışdır. Bununla əlaqədar Bədəlovlar ailəsi redaksiyamıza teleqram göndərmişdir. Həmin teleqramı oxuculara təqdim edirik:

*Hörmətli "Şərq qapısı"! 1991-ci il sentyabr ayının 14-də Goranboy rayonunda erməni quldurları ilə vuruşma zamanı milis kapitanı Süleyman Feyruz oğlu Bədəlov üç güllə yarası alaraq ermənilər tərəfindən girov götürülmüşdur. Ailəmiz Heydər Əliyevə teleqram vuraraq onun azad olunmasına köməklik göstərməsini xahiş etmişdi.*

*Həmin teleqram Sizin qəzetdə də dərc olunmuşdur. Sentyabr ayının axırında Heydər Əliyev yoldaşın Ter-Petrosyana göndərdiyi teleqramdan sonra ailəmizə böyük bir şadlıq gəlmiş, Süleyman Bədəlov azad*

*edilmişdir. Onun azad edilməsində "Şərq qapısı" qəzeti də müsbət rol oynamışdır. İcazə verin "Şərq qapısı" qəzeti vasitəsilə hörmətli Heydər Əlirza oğlu Əliyevə səmimi təşəkkürümüzü bildirək. Göstərdiyi insanpərvərliyə görə ona "çox sağ olun" deyirik.*

*Respublika Prezidenti bizim üç teleqramımızın heç birinə cavab vermədi. Heydər Əliyev isə ailəmizə üz vermiş fəlakətə laqeyd qalmadı. Biz bunu heç vaxt unutmarıq. Allah onu bütün bəlalardan hifz etsin.*

**Bədəlovlar ailəsi**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rusiya Federasiyası, Qazaxıstan, Azərbaycan və Ermənistan rəhbərlərinin sentyabrın 23-də Jeleznovodsk şəhərində imzaladıqları rəsmi məlumatla əlaqədar bəyanatı haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyanatının mətni bəyənilsin.
2. Həmin qərar və bəyanat Azərbaycan Respublikasının Ali Sovetinə göndərilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 1 oktyabr 1991-ci il*

# RUSİYA FEDERASİYASI, QAZAXISTAN, AZƏRBAYCAN VƏ ERMƏNİSTAN RƏHBƏRLƏRİNİN SENTYABRIN 23-də JELEZNOVODSK ŞƏHƏRİNDƏ İMZALADIQLARI RƏSMİ MƏLUMATLA ƏLAQƏDAR NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN

## B Ə Y A N A T I

Erməni millətçi dairələrinin günahı üzündən dörd il bundan əvvəl yaradılmış üzdəniraq Dağlıq Qarabağ problemi ağır nəticələrə gətirib çıxarmışdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü pozulmuş, muxtar vilayətin böyük bir hissəsi faktiki olaraq respublikanın idarəçiliyindən çıxmış, Ermənistanla Azərbaycan arasındakı münasibətlər son dərəcə kəskinləşmişdir. Azərbaycanın ərazisində Ermənistandan idarə olunan qanunsuz quldur dəstələri fəaliyyət göstərir. Bütün bunlar isə saysız-hesabsız insan qurbanları, yaşayış məntəqələrinin dağıdılması ilə nəticələnən arasıkəsilməyən millətlərarası münaqişələrə gətirib çıxarmış, əhaliyə maddi və mənəvi zərər vurulmuşdur.

Naxçıvan Muxtar Respublikasının Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğuna istinad edən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycanın dövlət suverenliyi və ərazi bütövlüyünün müdafiəsi naminə Dağlıq Qarabağda vəziyyətin sabitləşdirilməsi, onun bütün ərazisində Azərbaycanın tam suverenliyinin bərpası və münaqişəli məsələlərin həllinə doğru atılmış bütün addımları bəyənir.

Üzdəniraq "DQMV problemi" Azərbaycanın bütün ərazisinə, o cümlədən Ermənistanla həmsərhəd olan Naxçıvan Muxtar Respublikasındakı vəziyyətə də özünün mənfi təsirini göstərmişdir.

Məhz Ermənistanla Azərbaycan arasında münasibətlərin gərginləşdiyi şəraitdə Ermənistan tərəfindən silahlı quldur dəstələrinin və SSRİ Müdafiə Nazirliyinin 7-ci Ordu hissələrinin vasitəsilə 1990-cı ilin yanvar ayında Azərbaycan ərazisinin bir hissəsi - Naxçıvan Muxtar Respublikasının Kərki kəndi işğal edilmişdir.

Dəfələrlə tələb olunmasına baxmayaraq Kərki kəndi bu günədək qaytarılmamış, doğma ocaqlarını məcburi tərk etmiş kəndin sakinləri isə başqa yerlərdə sığınacaq tapmışlar.

Bunun üçün də Naxçıvan əhalisi DQMV-də vəziyyətin normallaşdırılması, xüsusilə Ermənistanla həmsərhəd olan rayonlarda millətlərarası münaqişələrin tez bir zamanda aradan qaldırılmasının tərəfdarıdırlar.

Yuxarıda qeyd olunanlardan nəticə çıxaran Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Rusiya Federasiyasının prezidenti B.N. Yeltsin, Qazaxıstan prezidenti N.A. Nazarbayevin DQMV-də vəziyyətin normallaşdırılması işindəki vasitəçilik missiyalarına razılıq hissi ilə yanaşır. Lakin Ali Məclis Dağlıq Qarabağ Muxtar Vilayətindəki vəziyyətin sabitləşdirilməsi ilə bağlı danışıqlarda Ermənistan Respublikasının bərabər tərəf sifəti ilə iştirak etməsinə Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə və onun dövlət suverenliyinə etinasızlıq kimi qiymət verir. Ermənistanın Azərbaycana hər hansı bir ərazi, xüsusilə Dağlıq Qarabağa olan iddiasından rəsmi şəkildə imtina etməsi bu danışıqların başlanması və bu cür sənədin qəbul edilməsi üçün əsas şərt kimi qoyulmalı idi.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi iki respublika arasındakı gərginliyin aradan qaldırılması və həmsərhəd rayonlardakı münaqişələrin dayandırılması üçün Azərbaycanla Ermənistan arasındakı danışıqları zəruri hesab edir. Dağlıq Qarabağ məsələsi isə Azərbaycanın müstəsna səlahiyyətinə daxildir və onu Azərbaycan Respublikasının özü həll etməlidir.

Azərbaycanın nümayəndə heyəti danışıqlara getməzdən əvvəl DQMV və onun ətrafında baş verən hadisələrin bütün Azərbaycan xalqının milli mənafeyinə toxunduğunu nəzərə almalı, məsələnin bu cür həllində öz xalqının, heç olmazsa ali qanunvericilik orqanının - Azərbaycan Respublikası Ali Sovetinin zəmanətinə nail olmalı idi.

Onu da qeyd etmək lazımdır ki, Rusiya Federasiyasının prezidenti B. N. Yeltsin, Qazaxıstan prezidenti N. A. Nazarbayev, Azərbaycan Respublikasının prezidenti A. N. Mütəllibov və Ermənistan Respublikası Ali Sovetinin sədri L. A. Ter-Petrosyan tərəfindən imzalanmış rəsmi məlumatda Azərbaycan Respublikasının milli mənafeyinə toxunan, gözlənilməz nəticələrə gətirə biləcək müddəalar vardır.

Mövcud sənədin müddəaları bəzi hallarda yovuşmaz, qeyri-müəyyən xarakter daşıyır. Sənəddə əldə edilmiş razılaşmaların həyata ke-

çirilməsi mexanizmi nəzərdə tutulmur. Buna görə də mövcud rəsmi məlumatın arzu edilən nəticələrə nail olunmasına təminat verəcəyinə ümid azdır. Son həftədə baş vermiş hadisələr də bunu bir daha təsdiq edir. Sənədin imzalanmasından sonra regionda nəinki sabitləşmə, əksinə DQMV-də erməni quldur dəstələrinin fəaliyyəti nəticəsində gərginliyin artması müşahidə olunur. Təəccüblüdür ki, rəsmi məlumatda işğal edilmiş Azərbaycan kəndi Kərkinin qaytarılması əksini tapmamışdır.

Sentyabrın 23-də Jeleznovodsk şəhərində imzalanmış rəsmi məlumata özünün tənqidi münasibətini açıq ifadə edən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi prezidentlər B. N. Yeltsin və N. A. Nazarbayevin vasitəçilik missiyalarının davam edəcəyinə inanır. Azərbaycanın dövlət suverenliyinə və Azərbaycan xalqının milli mənafeyinə ciddi riayət olunması şərtilə DQMV-də vəziyyətin tezliklə normallaşdırılması, regionda millətlərarası münaqişənin ləğv edilməsi naminə bundan sonra da əməli fəaliyyət göstərəcəklərinə ümid bəsləyir.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 1 oktyabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

19 oktyabr 1991-ci il tarixdə Goranboy rayonundan Naxçıvan Muxtar Respublikası Ali Məclisinə daxil olan teleqramda yazılır: "Milis kapitanı Möhsün Kamandarov, milis mayoru Rizvan Hümbətov və baş leytenant Nəsrəddin Əliyev sentyabrın 14-də Buzluq kəndində ermənilərlə qeyri-bərabər döyüşdə itkin düşmüşlər. Əlaqədar yerlərə dəfələrlə müraciət etsək də köməklik göstərən yoxdur. Ümidimiz sizədir. Onların tapılmasında bizə kömək edin".

Respublikamızın digər rayonlarından da ermənilər tərəfindən girov götürülmüş azərbaycanlıların qaytarılmasına kömək etmək xahişilə teleqramlar daxil olub. Bununla əlaqədar, Ali Məclis müəyyən tədbirlər həyata keçirmişdir. Dünən isə girov düşmüş milis işçiləri Möhsün Kamandarov, Rizvan Hümbətov və Nəsrəddin Əliyevin qohumları - Goranboy rayonunun Şadlı kəndinin sakini Kamandarov Məsim Qasım oğlu, Tovuz rayonundan Qasımov Müslüm Qara oğlu və Goranboydan Əliyev Rizvan Yunis oğlu Naxçıvana gəlmişlər. Onları muxtar respublikanın Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir.

Muxtar respublika Ali Məclisinə böyük ümid bəsləyən qonaqlar görüş zamanı Goranboy rayonunda baş verən hadisələrdən danışmışlar. Onlar demişlər ki, erməni silahlı quldurları Zeyva, Buzluq, Şəfəq-Mənəş, Erkəc, Başqışlaq kəndlərini tamamilə dağıdıblar, kənd sakinləri doğma ocaqlarını tərk etməyə məcbur qalıb, didərgin düşüblər. Təəssüf doğuracaq haldır ki, Azərbaycan Respublikası rəhbərliyi bu hadisələrin qarşısının alınması üçün heç bir əməli tədbir görmür. Əksinə, A. Mütəllibovun prezident seçkiləri dövründə həmin ərazidəki xüsusi təyinatlı milis dəstələri Bakı şəhərinə aparılmışdır. Bu şəraitdən istifadə edən erməni quldurları azərbaycanlılar yaşayan kəndlərə od vurmuş, toplardan atəş açıb dağıtmışlar. Respublikanın rəsmi mətbuat və informasiya vasitələri isə bu haqda heç bir məlumat vermir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qonaqlara bildirmişdir ki, muxtar respublika rəhbərliyini hər bir azərbaycanlının taleyi narahat edir. Erməni quldurları tərəfindən girov götürülərək gizlədilmiş azərbaycanlıların azad olunması, öz ailələrinə qaytarılması üçün bundan sonra da bütün imkan və vasitələrdən istifadə ediləcəkdir.

*Naxçıvan şəhəri, 23 oktyabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1991-ci il oktyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Sovet İttifaqı silahlı qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hissələrinin statusu haqqında məsələ müzakirə olunmuşdur. Bu məsələnin Ali Məclisin sessiyasında müzakirə olunması zərurəti ondan irəli gəlir ki, muxtar respublika ərazisində yerləşən müxtəlif qoşun növlərindən ibarət olan hərbi hissələr yerli hakimiyyət orqanları ilə kifayət qədər əlaqə saxlamır, bəzən yerli əhali ilə münaqişələrə gətirib çıxaran hərəkətlərə yol verirlər. Son zamanlar yerli əhali arasında hərbi hissələr tərəfindən hərbi texnikanın və silahın respublikadan kənara aparılması barəsində çoxlu şayiələr yayılmışdır.

Ayrı-ayrı hərbi qulluqçuların hüquqazidd hərəkətləri yerli əhali arasında böyük narazılığa səbəb olmuşdur. Oktyabrın 5-də erməni quldur dəstələri 02444 nömrəli hərbi hissədə qulluq edən qulluqçular - kapitan Milevski, sıravi Tukan və kiçik serjant Slişin köməyi ilə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Gənzə kənd sakini S. Abbasovu oğurlamış və Ermənistanın Mehri rayonunun ərazisinə aparmışlar.

1991-ci il oktyabrın 12-də saat 23.00 radələrində Naxçıvan Muxtar Respublikasının Ordubad dəmiryol stansiyasında yerli sakinlər tərəfindən Ermənistan Respublikası Yerevan şəhərində yerləşən 73879 nömrəli hərbi hissədə qulluq edən leytenant S.V. Suçkov və praporşik O.F. Xedrik yaxalanmışlar. İlkin istintaq göstərmişdir ki, onlar Yerevan şəhərindəki erməni yaraqlıları tərəfindən Naxçıvan Muxtar Respublikasına təxribat törətmək məqsədilə göndərilmişlər. Yaxalanmış hərbi qulluqçularda saat mexanizmi olan iki ədəd partlayıcı qurğu, 47 briket partlayıcı maddə, 10 min manatadək pul aşkar olunmuş və müsadirə edilmişdir.

1991-ci il oktyabrın 22-də Naxçıvan hava limanında sərhəd qoşunları Zaqafqaziya dairəsinə məxsus olan və Ermənistan Respublikasının Leninakan şəhərindən Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin

Hadrut rayonuna uçan vertolyotda partlayıcı maddələr və Dağlıq Qarabağın erməni millətindən olan 3 sakini aşkar edilmişlər. Sərhəd qoşunları nümayəndələrinin etirafına görə onlar vertolyotun bortuna qeyri-qanuni götürülmüşlər.

1991-ci il oktyabrın 26-da səhər saat 10.00-da Araz çayı sahilində sovet-türk sərhədində Azərbaycan və Türkiyə arasında tikilən körpü yaxınlığında yerli sakinlər tərəfindən Yerevan şəhərindəki "Zvartnots" hava limanı nəzarət-buraxılış məntəqəsindəki 2453 nömrəli hərbi hissənin qulluqçusu, sərhəd qoşunları baş leytenantı N. M. Lukaşuk, "Zvartnots" hava limanının işçisi V. S. Susloparov və heç bir yerdə işləməyən, Yerevan şəhər sakini E. M. Martirosyan yaxalanmışlar. Bu şəxslərin avtomaşınla Yerevan şəhərindən Naxçıvan Muxtar Respublikasının Sədərək qəsəbəsinədək yolda olan sərhəd qoşunları nəzarət-buraxılış məntəqələrini maneəsiz keçmələri təəccüb doğurur. Yaxalanmış Martirosyan bildirmişdir ki, onlar təxribat törətmək üçün Yerevan şəhərindəki erməni yaraqlıları tərəfindən Naxçıvan Muxtar Respublikasına körpü tikilən əraziyə göndərilmişlər.

Naxçıvan Muxtar Respublikası ərazisində sovet-İran və sovet-türk sərhədi Zaqafqaziya sərhəd qoşunları dairəsinin 41-ci sərhəd dəstəsi tərəfindən mühafizə olunur. Lakin məlum olmayan səbəblər üzündən dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası Ordubad və Sədərək rayonları ərazisindən keçən hissəsinin mühafizəsi Ermənistan Respublikası ərazisində yerləşən sərhəd dəstələrinin tabeliyindəki sərhəd məntəqələri tərəfindən həyata keçirilir. Bu cür vəziyyət sərhəd qoşunları hissələri ilə yerli hakimiyyət orqanlarının əlaqəsini mürəkkəbləşdirir, yerli əhalinin ciddi narazılığına səbəb olur.

Naxçıvan Muxtar Respublikası rəhbərliyi bir il əvvəl muxtar respublika ərazisindən keçən bütün sərhədin mühafizəsinin 41-ci sərhəd dəstəsində cəmləşdirilməsi məqsədilə göstərilən sərhəd məntəqələrinin yerli hakimiyyət orqanları ilə səmərəli əməkdaşlıq edən bu dəstənin tabeliyinə keçməsi haqqında məsələ qaldırmışdı. Lakin belə bir sadə məsələ hansı səbəbdənsə həll edilməmişdir.

Bütün yuxarıda qeyd edilənlər muxtar respublika Ali Məclisinin sessiyasında geniş və işgüzar müzakirə edilmişdir. 75-ci mexanikləşdiril-

miş atıcı diviziyanın komandiri, general-mayor R. V. Slaboşeviçin və 41-ci sərhəd dəstəsinin komandiri, polkovnik V. K. Jukovun məlumatları dinlənilmişdir.

Müzakirələrin yekununa görə, Ali Məclis təşkil etdiyi xüsusi komissiyaya tapşırmışdır ki, bu məsələni hərtərəfli öyrənsin və təkliflər hazırlayıb Ali Məclisə təqdim etsin.

Muxtar respublikanın Ali Məclisi Sərhəd qoşunları Zaqafqaziya dairəsinin rəhbərliyindən və 41-ci sərhəd dəstəsinin komandanlığından tələb etmişdir ki, Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən sərhəd məntəqələrinin 41-ci sərhəd dəstəsinə tabe edilməsi və muxtar respublika ərazisindəki bütün dövlət sərhədinin mühafizəsinin onun əlində cəmləşdirməsi məsələsini üç gün müddətində həll etsin.

1991-ci il oktyabrın 30-da Naxçıvanda olan sərhəd qoşunları Zaqafqaziya dairəsinin rəis müavini polkovnik V. Vaxrinov və 41-ci sərhəd dəstəsinin rəisi polkovnik V. Jukov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə məlumat vermişlər ki, Ali Məclisin tapşırığı yerinə yetirilib və Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən bütün sərhəd məntəqələri Naxçıvan ərazisindəki 41-ci sərhəd dəstəsinə tabe edilib.

Muxtar respublika Ali Məclisinin rəhbərliyi hesab edir ki, bu qərar muxtar respublikanın yerli hakimiyyət orqanları, yerli əhali ilə sərhəd qoşunları arasında qarşılıqlı əlaqənin yaxşılaşmasına və dövlət sərhəddinin mühafizəsinin möhkəmlənməsinə kömək edəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidməti onu da bildirir ki, Sovet İttifaqının bəzi informasiya orqanlarının bu məsələlərə dair yaydıqları məlumatlar həqiqətə uyğun deyil və Naxçıvan Muxtar Respublikasında vəziyyəti gərginləşdirmək məqsədi güdür.

*Naxçıvan şəhəri, 31 oktyabr 1991-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Xəbər verildiyi kimi, Ermənistanın Vayk rayonu ərazisindən quldurlar 20 sentyabr 1991-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Babək rayonu Buzqov kəndinin ərazisindəki Qazan yaylağına basqın edərək bu kəndin əhalisinə məxsus qoyun sürüsünü və kəndin sakini çoban Eylazov Eylaz Hüseyn oğlunu oğurlamışdılar.

Ermənistanla həmsərhəd ərazidə aparılan uzunmüddətli axtarışlar, Naxçıvan Muxtar Respublikası müvafiq orqanlarının Ermənistan tərəfinə Eylazovun yerinin müəyyən edilməsi və ailəsinə qaytarılması haqqında dəfələrlə etdiyi müraciətlər heç bir nəticə verməmişdir.

Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Babək rayonu və Ermənistan Respublikası Vayk rayonu sakinləri arasında müəyyən gərginlik yaranmışdır.

Yaranmış şəraitdə Yuxarı Buzqov kəndinin sakinləri tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisində Ermənistanın Vayk rayonu Xındzarot kəndinin sakinləri T. V. Akopyan və A. N. Dövlətyan yaxalanmışlar.

1991-ci il oktyabrın 31-də muxtar respublika ərazisində yerləşən hərbi hissənin hərbçiləri ilə yerli sakinlərin birgə apardıqları axtarışlar zamanı Buzqov kəndi yaxınlığındakı "Lizbirt" adlanan yerdə Eylazov Eylaz Hüseyn oğlunun meyidi tapılmışdır. Meyitdə zorla öldürülmə əlamətləri aşkar olunmuşdur.

1991-ci il noyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev və Ermənistan Respublikası prezidenti Levon Ter-Petrosyan arasındakı telefon danışığı zamanı tərəflər arasında Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhədində bundan sonra baş verə biləcək münaqişələrin qarşısının alınması, sərhəd rayonları arasında işgüzar əlaqələrin qaydaya salınması haqqında fikir mübadiləsi olmuşdur. Dəmir yolu nəqliyyatının fasiləsiz işləməsinin təmin olunması, yük və sərnişin qatarlarının Ermənistan və Naxçıvan Muxtar Respublikası ərazisindən maneəsiz keçməsi zərurəti qeyd olunmuşdur.

Levon Ter-Petrosyan bir daha əmin etmişdir ki, qatarların Ermənistanın Mehri rayonu ərazisindən təhlükəsiz hərəkətinə təminat verir. Danışıq zamanı Heydər Əliyev L. Ter-Petrosyana bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası ərazisində olan Ermənistanın Vayk rayonu Xındzarot kəndinin iki sakini qaytarılacaqdır.

1991-ci il noyabrın 5-də saat 19.30-da Naxçıvan Muxtar Respublikası Ordubad rayonu və Ermənistan Respublikası Mehri rayonu arasındakı sərhəddə Ermənistan Respublikası Vayk rayonu Xınzarot kəndinin sakinləri - 1929-cu il təvəllüdlü T. V. Akopyan və 1928-ci il təvəllüdlü A. N. Dövlətyan Ermənistan Respublikasının nümayəndələrinə təhvil verilmişlər.

Təhvilvermə zamanı Ermənistanın daxili işlər nazirinin müavini Q. Qriqoryan qeyd etmişdir ki, Ermənistan bunu sərhədyanı rayonlarda gərginliyin aradan qaldırılması təşəbbüsü kimi qiymətləndirir.

* * *

Məlum olduğu kimi bu ilin sentyabr ayının 11-dən Naxçıvan Muxtar Respublikasını Azərbaycanın qalan hissəsi ilə birləşdirən dəmir yolunda qatarların hərəkəti dayandırılmış, muxtar respublika onun digər regionlarla əlaqəsini təmin edən əsas nəqliyyat vasitəsindən məhrum olmuşdur. Dəmir yolu nəqliyyatı Ermənistan Respublikasının Mehri rayonu ərazisindən keçən dəmir yolu sahəsində erməni quldur dəstələrinin mütəmadi olaraq törətdikləri təxribatlar ucbatından işləmirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Ermənistan Respublikasının Prezidenti L. Ter-Petrosyanla uzunmüddətli və intensiv danışıqları, həmçinin Naxçıvan Muxtar Respublikası Ordubad rayonu və Ermənistanın Mehri rayonu nümayəndələri arasında keçirilmiş danışıqlar nəticəsində Mehri dəmir yolu sahəsində qatarların hərəkətinin bərpa edilməsi haqqında razılıq əldə edilmişdir. Bu sahədə yük qatarlarının hərəkəti noyabrın 1-də başlamış, ilk sərnişin Bakı-Şərur qatarı isə noyabrın 5-də Bakıdan Naxçıvana gəlmişdir.

*Naxçıvan şəhəri, 6 noyabr 1991-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1991-ci il noyabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvana gəlmiş SSRİ DTK sədrinin müavini Nikolay Alekseyeviç Şamı və SSRİ Baş Sərhəd İdarəsinin şöbə rəisi Aleksandr Aleksandroviç Bessonovu onların xahişi ilə qəbul etmişdir.

N.A. Şam qeyd etmişdir ki, onların Naxçıvana gəlişi sərhəd qoşunları hissələri ilə Naxçıvan Muxtar Respublikasının hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətinə dair mərkəzə daxil olmuş nigarançılıq doğuran məlumat ilə bağlıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri son zamanlar ayrı-ayrı hərbi qulluqçular, o cümlədən sərhədçilər tərəfindən törədilən, əhalinin narazılığına səbəb olan və yerli hakimiyyət orqanları ilə muxtar respublika ərazisində yerləşən hərbi hissələrin qarşılıqlı fəaliyyətini mürəkkəbləşdirən hüquqazidd hərəkətlərdən danışmışdır.

Heydər Əliyev yerli hakimiyyət orqanları ilə hərbi hissələrin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsinə, o cümlədən 41-ci sərhəd dəstəsinin mühafizəsi üzrə fəaliyyətin yaxşılaşdırılmasına yönəldilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən qəbul edilmiş "Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi qüvvələrin hissələrinin statusu haqqında" qərarın məqsədi və məzmunu haqqında ətraflı məlumat vermişdir.

SSRİ DTK sədrinin müavini N.A.Şam və Baş Sərhəd İdarəsinin şöbə rəisi A. A. Bessonov muxtar respublika Ali Məclisi tərəfindən muxtar respublika ərazisində yerləşən hərbi hissələrin statusunun konkret olaraq müəyyənləşdirilməsi zərurəti ilə əlaqədar həyata keçirilən tədbirlərlə tam razılaşdıqlarını bildirmiş və qeyd etmişlər ki, Naxçıvan Muxtar Respublikası ərazisindəki sərhəd qoşunları hissələri öz funksiyalarını bu regionda yaranmış real vəziyyətə uyğun həyata keçirməli və yerli orqanlarla qarşılıqlı əlaqənin yaxşılaşdırılmasına səy göstərməlidirlər.

Söhbətdə muxtar respublika Ali Məclisi Sədrinin müavini Q. Məmmədov, Azərbaycan Respublikası DTK sədrinin müavini R. Sadıxov, Naxçıvan Muxtar Respublikası DTK-nın sədri İ. Mirzəyev, 41-ci sərhəd dəstəsinin rəisi V. Jukov iştirak etmişlər.

*Naxçıvan şəhəri, 7 noyabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Noyabrın 7-də Naxçıvan şəhərində Sovet ordusu zabitləri evinin klubunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin muxtar respublika ərazisində yerləşən bütün hərbi hissələrin komanda heyəti ilə görüşü keçirilmişdir.

75-ci mexanikləşdirilmiş motoatıcı diviziyasının komandiri general-mayor Rostislav Slaboşeviç görüşü açaraq demişdir ki, keçirilən görüş Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrin yerli əhali ilə qarşılıqlı fəaliyyətinin yaxşılaşdırılması perspektivlərini müəyyən etmək sahəsində daha bir addımdır.

Sonra çıxış üçün söz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə verilmişdir. O qeyd etmişdir ki, bu görüşün keçirilməsi zərurəti həyatın tələblərindən, Sovet İttifaqında baş verən proseslərdən irəli gəlir. Bu proseslər keçmiş İttifaqın bütün respublikalarına, bütün xalqlarına, əhalisinin bütün təbəqələrinə, o cümlədən Naxçıvan Muxtar Respublikasına da sirayət etmişdir.

Bütün cəmiyyətimiz çətin vəziyyətə düşmüşdür. Hərbi qüvvələr üçün də ağır anlardır. Ətrafda baş verən hadisələr adamların əhvali-ruhiyyəsinə xoşagəlməz təsir göstərir. Biz hamımız bunu hiss edirik. Əgər əvvəllər ölkədə hərbi qulluqçularla yerli əhali arasında çox nadir hallarda münaqişələr baş verirdisə, hazırda onların münasibətləri xeyli mürəkkəbləşmişdir.

Biz Naxçıvanda ordunun xalqın bir hissəsi olduğunu yaxşı başa düşürük. Lakin muxtar respublikada yaranmış vəziyyət hərbi hissələrlə

əlaqədar bir neçə məsələnin aydınlaşdırılmasını tələb edir. İndiki şəraitdə muxtar respublikada hansı qoşun növlərinin hərbi hissələrinin yerləşdiyini, onların sayı və təyinatını və bu kimi bir sıra məsələləri bilmək xalq üçün zəruridir.

Bundan başqa Ali Məclisin yaxın günlərdə keçirilmiş sessiyasında bildirilən və informasiya vasitələrində qeyd olunan ayrı-ayrı hərbi qulluqçular tərəfindən yol verilmiş hüquqazidd hərəkətlər yerli əhalinin narazılığına səbəb olmuşdur. Muxtar respublikadan hərbi texnikanın və silahın aparılması barədə müxtəlif şayiələr də naxçıvanlılarda narahatçılıq doğurmuşdur. Bütün bunlar yerli əhalinin hərbi qulluqçulara inamsızlığını artırmış və regionda gərginliyin müəyyən dərəcədə kəskinləşməsinə gətirib çıxarmışdır.

Bunları nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bu ilin 26 oktyabrında keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi qüvvələrin hissələrinin statusu haqqında" məsələ müzakirə edilərək müvafiq qərar qəbul olunmuş və muxtar respublikada yerləşən bütün hərbi hissələrin komandanlıqlarına göndərilmişdir. Qərarda muxtar respublikanın ərazisində yerləşən hərbi hissələrin fəaliyyətini məhdudlaşdırmaq məqsədi qoyulmur.

Bu qərarla Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən Sovet İttifaqı hərbi qüvvələrinin statusu ilə əlaqədar bütün məsələləri hərtərəfli öyrənmək və təhlil etmək, onlarla yerli hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətini təkmilləşdirmək, hərbi qulluqçularla yerli əhali arasında münaqişəli halların qarşısını almaq məqsədilə birgə tədbirlər hazırlanması üçün xüsusi komissiya yaradılmışdır. Bu komissiyanın tərkibinə muxtar respublikanın xalq deputatları, 75-ci mexanikləşdirilmiş motoatıcı diviziyanın komandiri Slaboşeviç və 41-ci sərhəd dəstəsinin komandiri Jukov da daxil edilmişlər.

Ali Məclisin Sədri hərbi hissələrlə muxtar respublika rəhbərliyinin daha sıx qarşılıqlı fəaliyyətini, hərbi qulluqçularla yerli əhali arasında münasibətlərin yaxşılaşdırılması zəruriliyini göstərmişdir. Heydər Əliyev qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələr öz xidməti vəzifələrini Naxçıvan Muxtar Respublikasının və Azərbaycan Respublikasının dövlət müstəqilliyini nəzərə al-

maqla, yerli hakimiyyət orqanları ilə sıx qarşılıqlı əlaqədə həyata keçirməlidirlər. Bu hər iki tərəfin mənafeyinə uyğundur.

Naxçıvan parlamentinin başçısı daha sonra qeyd etmişdir ki, Ali Məclis gələcəkdə baş verə biləcək münaqişələrin qarşısının alınması üçün hərbi hissələrin komandanlıqları ilə birgə tədbirlər görülməsini nəzərdə tutub. Görüşün sonunda Heydər Əliyev zabitlərin suallarına cavab vermişdir.

*Naxçıvan şəhəri, 8 noyabr 1991-ci il*

***"Ölum sevinməsin qoy..."***

## QARABAĞ TORPAĞINDA SƏMƏNDƏRƏ DÖNDÜLƏR

Noyabrın 20-də adı qeyrət rəmzi kimi dillərdə çəkilən Vətən oğullarımızın sərnişini olduğu hərbi vertolyot ünümüz yetə bilmədiyi Vətən torpağımızda "qəza"ya uğradı. T. İsmayılov, Z. Hacıyev, V. Məmmədov, İ. Qayibov, V. Cəfərov, M. Əsədov, O. Mirzəyev, A. Mustafayev, F. Şahbazov kimi torpaq qeyrəti çəkən mərd oğullarımızın adı şəhidlər siyahısına əbədi həkk olundu. Ölüm sevinməsin qoy... Vətən, torpaq, xalq, namus və qeyrət yolunda sinələrini sipər etmiş belə şəhidlərimizin xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaqdır. Bunu Naxçıvan şəhər mədəniyyət sarayına toplaşmış zəhmətkeşlərin matəm yığıncağında ağır kədərlə çıxış edənlər bir daha xatırlatdılar.

Yığıncağı giriş sözü ilə muxtar respublika Həmkarlar İttifaqları Şurasının sədri Kazım Teymurlu açdı. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra söz "Araz" İstehsalat Birliyinin rəis müavini Nazim Babayevə verildi. O uzun illər bir yerdə çalışdığı, xasiyyət və fəaliyyətinə yaxından bələd olduğu istedadlı alim Tofiq İsmayılovun respublikamız üçün gördüyü xeyirxah işlərdən söhbət açdı, gözəl bir insan kimi xatirəsini yad etdi.

Xitabət kürsüsünə çıxan Naxçıvan şəhərindəki on bir nömrəli məktəbin direktoru Ələkbər Quliyev də bu tanınmış alimin, xalq üçün yo-

rulmaq bilmədən çalışan deputatın Naxçıvanın ağır günlərində göstərdiyi mənəvi yardımdan bəhs etdi və bütün müəllim və şagird heyəti adından şəhidlərin qarşısında baş əydiyini bildirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev matəm yığıncağında çıxış edərək dedi ki, Azərbaycan xalqı son illər həyatının ağır günlərini yaşayır. Son dörd ildə Azərbaycan türklərinin başına gətirilən fəlakət 70 il ərzində görünməmişdir. Erməni millətçiləri moskvalı havadarlarına arxalanaraq torpağımızı parçalayır, xalqımızın mənəviyyatını tapdalayırlar.

Qarabağda qan tökülür. Goranboy rayonunda faciəli günlər davam edir. Gənclərimiz həlak olurlar. Təəssüf ki, biz hələ də buna dözürük. Təəssüf ki, biz hələ də respublikamızın bütövlüyünü təmin edə bilməmişik. Bu, xalqımızın, gələcəyimizin qarşısında böyük günahdır. Baş vermiş son müsibət Azərbaycan xalqının başına gətirilən ən ağır faciəli haldır. Bu da bizi dərindən düşünməyə vadar edir. 21 nəfər insan bir anda məhv olmuşdur. Düzdür, qəzanın səbəbləri aydınlaşacaq, lakin xalqın həlak olmuş mərd oğulları bir daha dünyamıza qayıtmayacaqdır. Bütün bunlar bizim hamımızı sarsıdır. Biz kədərlənirik, ağlayırıq. Çünki həlak olanların hamısının həyatı öz ailələri üçün, xalqı üçün əziz idi.

Heydər Əliyev daha sonra demişdir ki, bu faciə bizi dərindən kədərləndirir, hiddətləndirir. Çünki hamıya bəllidir ki, Azərbaycan xalqının başına gətirilən bu faciələr uydurma Dağlıq Qarabağ probleminin törəməsidir. Buna görə də biz ağıllı hərəkət etməli, hüquqlarımızı, torpaqlarımızı qorumaq üçün düşmənlərimizə layiqli cavab verməliyik. Belə ağır günlərdə həyatımıza nikbin baxmalıyıq. Çünki Azərbaycan türkləri tarix boyu bütün çətinliklərdən mərdliklə çıxmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini Qafar Məmmədov matəm yığıncağı iştirakçılarını Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti adından respublika Prezidentinin, respublika Ali Soveti və Nazirlər Kabinetinin ünvanına göndərilən başsağlığı teleqramının mətni ilə tanış etdi.

**A. HAQVERDİYEV**

*"Şərq qapısı" qəzeti, 23 noyabr 1991-ci il*

*AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ,*
*AZƏRBAYCAN RESPUBLİKASININ ALİ SOVETİNƏ,*
*AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNƏ*

Bədnam imperiya siyasətindən miras qalmış qondarma Qarabağ problemi Azərbaycan torpağına görünməmiş bəlalar gətirmişdir. Elan olunmamış müharibə xalqımıza yüzlərlə günahsız insanın həyatı bahasına başa gəlir.

Qarabağ torpağında noyabrın 20-də baş vermiş faciədə xalqımızın görkəmli oğulları həlak olmuşlar. Bu faciə onsuz da böyük olan dərdimizə daha bir dərd də əlavə etmişdir.

Naxçıvan Muxtar Respublikasının əhalisi Azərbaycan xalqının başına gəlmiş bu faciə münasibətilə sarsıldığını, kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəhidlərimizin sayı gündən-günə artdığı bir vaxtda bu faciə Qarabağ torpağında dörd ildən bəri davam edən bədnam müharibəyə son qoymaq üçün Azərbaycan xalqını qəti mübarizəyə səsləməlidir.

Həlak olanların ailələrinə Naxçıvan əhalisi adından dərin hüznlə başsağlığı veririk. Allah şəhidlərimizə rəhmət etsin. Onların məzarı nurla dolsun.

**Naxçıvan Muxtar Respublikasının**
**Ali Məclisi**

**Naxçıvan Muxtar Respublikasının**
**Nazirlər Kabineti**

*Naxçıvan şəhəri, 21 noyabr 1991-ci il*

## GİROVLAR AZAD EDİLDİ

1991-ci il dekabrın 6-da 10 №-li Ordubad Dəmiryol Stansiyasının 12 nəfərdən ibarət təmirçilər briqadası dəmir yolunun Ermənistanın Mehri rayonu sahəsində iş aparарkən erməni quldurları tərəfindən oğurlanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev və Ermənistan Respublikasının Prezidenti Levon Ter-Petrosyan arasındakı telefon danışıqları nəticəsində Azərbaycan dəmiryolçularının (onların doqquzu Ordubad rayonunun, üçü isə Zəngilan rayonunun sakinləridir) qaytarılması haqqında razılıq əldə edilmişdir.

Dünən girov götürülənlərin hamısı geri qaytarılmışdır. Dekabrın 10-da saat 23.50-də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ilə Ermənistanın Mehri rayonu arasındakı sərhəddə Ermənistan tərəfi dəmiryolçuları muxtar respublikanın nümayəndələrinə təhvil vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*11 dekabr 1991-ci il*

## “Naxçıvan Muxtar Respublikasında yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 oktyabr 1991-ci il tarixli qərarının icra vəziyyəti barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisi 26 oktyabr 1991-ci il tarixdə keçirilən sessiyasında Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında məsələ müzakirə etmiş, bu məsələnin hərtərəfli öyrənilməsi və təhlili, yerli hakimiyyət orqanları ilə hərbi hissələrin qarşılıqlı əlaqəsinin təkmilləşdirilməsi, yerli əhali ilə hərbçilər arasındakı münaqişələrin qarşısını almaq sahəsində tədbirlər hazırlanması məqsədilə xüsusi komissiya yaratmış, Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən sərhəd məntəqələrinin 41-ci sərhəd dəstəsinə tabe edilməsi haqqında qərar qəbul etmişdir.

Həmin sessiyadan keçən müddət ərzində Zaqafqaziya hərbi dairəsi tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən sərhəd

zastavalarının hamısı 41 nömrəli Naxçıvan Sərhəd Dəstəsinə tabe edilsə də, hərbi hissələrin statusunun müəyyənləşdirilməsi məsələsi tam həllini tapmamışdır.

Qeyd etmək lazımdır ki, ölkədə son vaxtlar ciddi dəyişikliklər baş vermiş, ittifaqa daxil olan respublikaların bir çoxu özünü müstəqil dövlət elan etmişlər. Rusiya, Ukrayna və Belarus Minsk şəhərində müstəqil slavyan dövlətləri birliyi yaradaraq Sovet İttifaqının dağılmasını bəyan etmişlər. Vahid SSR İttifaqının dağılması onun vahid silahlı qüvvələrinin də bölünməsi məsələsini ortaya çıxarmışdır. Müstəqil dövlətlərin bir neçəsi ərazilərində yerləşən SSRİ silahlı qüvvələri hissələrinin yalnız onların Ali hakimiyyət orqanlarına tabe olması haqqında qərar qəbul etmişlər.

Yaranmış şəraitdə Azərbaycan Respublikası Ali Soveti milli ordunun yaradılmasını qərara almış, Azərbaycan hökuməti isə 16 oktyabr 1991-ci il tarixdə "Azərbaycan Respublikası silahlı qüvvələri haqqında" 225 №-li sərəncam vermişdir. Həmin sərəncamda göstərilmişdir ki, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, ərazilərində SSRİ Müdafiə Nazirliyinin, SSRİ Daxili İşlər Nazirliyinin, SSRİ DTK-nın birləşmələri, hissələri, sərhəd, dəmiryol qoşunları və s. yerləşən rayon və şəhərlərin xalq deputatları Sovetlərinin icraiyyə komitələri Azərbaycan Respublikası Nazirlər Kabineti komissiyasının xüsusi icazəsi olmadan öz bölgələrinin hüdudlarından kənara hərbi texnika, avadanlıq, silah və digər hərbi əmlak aparılmasına yol verməsinlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi belə hesab edir ki, ittifaqın dağılması və Zaqafqaziyada müstəqil dövlətlərin yaranması ilə əlaqədar olaraq Zaqafqaziya hərbi dairəsi öz mövqeyini müəyyən etməli, bu dövlətlərdə yerləşən hərbi hissələrin yerləşdikləri ərazilərdən çıxarılması və yaxud onların ali hakimiyyət orqanlarına tabe etdirilməsi məsələsi həll edilməlidir.

Göstərilənlərə əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisi muxtar respublika ərazisində yerləşən hərbi hissələrin statusunun dəqiqləşdirilməsi, həmin hissələrin Naxçıvan Muxtar Respublikasında qalmalarının məqsədəuyğunluğunun araşdırılması və muxtar respublika ali hakimiyyət orqanlarına tabeçilik məsələsinin həll edilməsini zəruri hesab edir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. 41 №-li Naxçıvan Sərhəd Dəstəsinin komandiri deputat Jukovun Zaqafqaziya dairəsi sərhəd qoşunları komandanlığının Azərbaycan Respublikası, o cümlədən Naxçıvan Muxtar Respublikası hakimiyyət orqanları ilə Azərbaycanda və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sərhəd qoşun hissələrinin bundan sonrakı statusunu müəyyən etmək məqsədilə yaxın vaxtlarda əlaqə yaradacağı nəzərə alınsın.

2. Ali Məclisin sessiyasının 1991-ci il 26 oktyabr tarixli iclasında yaradılmış, Ali Məclisin Sədr müavini Qafar Məmmədovun başçılıq etdiyi xüsusi komissiyaya tapşırılsın ki, 75 №-li mexanikləşdirilmiş motoatıcı diviziyasının komandanı R. Slaboşeviç və digər hərbi hissələrin rəhbərləri ilə birgə müstəqil Azərbaycan dövlətinin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələrin statusu haqqında 10 gün müddətində konkret təkliflərini müəyyən edib Ali Məclisə təqdim etsinlər.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 16 dekabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİNDƏ

Yanvarın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin iclası olmuşdur. İclasda muxtar respublikada yerləşən hərbi hissələrin yerli hakimiyyət orqanları və əhali ilə münasibətlərinin vəziyyəti, Ali Məclisin sessiyasının dekabrın 14-16-da keçirilmiş növbəti iclasında muxtar respublikada yaranmış siyasi-iqtisadi vəziyyətin müzakirə olunmasına dair deputatların təklifləri ilə bağlı məsələlərə baxılmışdır.

Birinci məsələnin müzakirəsi ilə əlaqədar muxtar respublikada yerləşən hərbi hissələrin rəhbərləri də iclasa dəvət olunmuşdular. Məsələnin müzakirəsinə başlayarkən Ali Məclisin Sədri Heydər Əliyev de-

di ki, Ali Məclis sessiyasının oktyabrın 26-da keçirilmiş növbəti iclasında muxtar respublikada yerləşən hərbi hissələrin statusu haqqında məsələ müzakirə olunaraq müvafiq qərar qəbul edilmişdir. Həmin qərar böyük əks-səda doğurmuşdur. Bununla əlaqədar Zaqafqaziya hərbi dairəsindən, sərhəd qoşunları qərargahından yüksək rütbəli hərbçilər muxtar respublikaya gəlmiş, bu məsələ ətraflı götür-qoy edilmişdir. Ali Məclis sessiyasının dekabrın 14-16-da keçirilən növbəti iclasında həmin məsələyə bir daha baxılmışdır.

Məsələnin müzakirəsi zamanı hələ vahid sovet dövləti var idi. Lakin dekabrın 21-də Almatıda on bir müstəqil respublikanın dövlət rəhbərləri Müstəqil Dövlətlərin Birliyi haqqında müqavilə imzaladılar və beləliklə də vahid ittifaqa və onun vahid ordusuna son qoyuldu. Bununla əlaqədar Sovet ordusunun statusu və gələcəyi barədə qeyri-müəyyənlik yarandı. Dekabrın 30-da Minskdə keçirilən müşavirə də bu işə aydınlıq gətirmədi.

Son vaxtlar vəziyyətin sürətlə dəyişməsi, keçmiş strukturların dağılması muxtar respublikada yerləşən hərbi hissələrin statusuna da yaranmış yeni şərait nöqteyi-nəzərindən yanaşmağı tələb edir.

Heydər Əliyev bildirdi ki, dekabrın 31-də keçmiş ittifaqın müdafiə naziri marşal Şapoşnikovdan onun adına teleqram alınmışdır. Teleqramda muxtar respublikada yerləşən hərbi hissələrə qarşı münasibətdən narahatçılıq hissi ifadə edilir və bununla yanaşı əsassız olaraq hərbçilərə və onların ailələrinə qarşı təxribatlar törədildiyi qeyd olunur.

Əlbəttə, hərbi hissələrlə yerli əhali arasında anlaşılmazlıq faktları vardır. Ona görə də biz bu məsələni ətraflı müzakirə etməli və vəziyyəti aydınlaşdırmalıyıq. Müzakirə olunan məsələ ilə əlaqədar Naxçıvanda yerləşən diviziyanın komandiri R. Slaboşeviçin və sərhəd qoşunları dəstəsinin komandiri V. Jukovun məlumatları dinlənildi.

İclasda çıxış edən podpolkovnik Sikorski onun və daha iki zabitin naməlum şəxslər tərəfindən dekabrın 29-da tutulub təhqir edildiklərini bildirdi. Lakin onun sübutsuz, sənədsiz olaraq gətirdiyi faktlar Rəyasət Heyətinin iclasında iştirak edənlərin ciddi narazılığına səbəb oldu.

İclasda çıxış edən muxtar respublika Milli Müdafiə Komitəsinin sədri E. Abbasov, muxtar respublika prokuroru H. Hüseynov, daxili iş-

lər naziri M. Məmmədov və başqaları son vaxtlar yerli əhali ilə hərbçilər arasında bir sıra münaqişələrin baş verdiyini qeyd etməklə yanaşı göstərdilər ki, podpolkovnik Sikorskinin dedikləri iftiradan başqa bir şey deyil. Əksinə, hərbçilərin özləri tez-tez yerli əhali ilə münaqişələrə səbəb olan hərəkətlərə yol verir, hərbi texnikanı və avadanlıqları muxtar respublikadan çıxarmağa səy göstərir, buna nail olmadıqda isə onları sökərək yararsız hala salırlar. Bütün bunlara dair konkret faktlar gətirildi.

Qeyd edildi ki, dekabrın 31-də Azərbaycan Türklərinin Milli Həmrəylik və Birlik Günü qeyd edilərkən Şərur rayonunda sərhəd zonasına çıxmaq istəyən əhalini sərhədçilər itlərlə qarşılayaraq geri qaytarmaq istəmiş, sonra isə özləri mühəndis-texniki qurğuları söküb dağıdaraq, bunun günahını əhalinin üstünə yıxmağa cəhd göstərmişlər.

Ali Məclisin Sədri Heydər Əliyev müzakirəyə yekun vurarkən dedi ki, indi bütün respublikalar müstəqillik əldə etmişlər. Müstəqilliyə keçid dövründə isə çətinliklər olacaqdır. Müstəqillik əldə etmiş respublikalar öz sərvətlərinin sahibi olmaq istəyirlər. Bu da qanuni haldır. Konkret Naxçıvana gəldikdə isə etiraf etmək lazımdır ki, bəzən hərbçilərlə yerli əhali arasında anlaşılmazlıqlar, münaqişələr baş verir. Qeyd etmək lazımdır ki, istər yerli əhali arasında, istərsə də hərbçilər arasında pisləri də var, yaxşıları da. Ona görə də baş verən münaqişələri nə bütün əhalinin, nə də ki, bütövlükdə hərbçilərin üstünə yıxmaq olmaz.

Lakin biz çalışmalıyıq ki, belə münaqişələr heç vaxt baş verməsin. Podpolkovnik Sikorskinin dedikləri ilə əlaqədar xüsusi komissiya yaradılmalı və bu hadisə dərindən təhqiq edilməlidir. Lakin onu da qeyd etmək lazımdır ki, hərbi hissələrdə, bölmələrdə texnikanın, avadanlıqların muxtar respublikadan çıxarılması haqqında faktlar vardır. Yadda saxlamaq lazımdır ki, sovet ordusu və onun hərbi texnikası keçmiş ittifaqın bütün respublikalarının xərci ilə yaradılmış və saxlanılırdı. Ona görə də hərbçilərdə olan silahlar, hərbi texnika və avadanlıq onların yerləşdiyi hər bir respublikanın payına düşməlidir. Biz muxtar respublikadan silahların, hərbi texnikanın və avadanlığın aparılmasına heç cür yol verə bilmərik.

Suveren respublikalar birliyinin yaranması ilə əlaqədar hər bir respublikada, o cümlədən Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələr yerli hakimiyyət orqanlarına tabe olmalıdırlar. Hərbçilər yerli əhaliyə, onların adət və ənənələrinə hörmətlə yanaşmalıdırlar. Əhali ilə hərbçilər arasında normal qarşılıqlı münasibətlər bərqərar olmalıdır.

Müzakirə olunan məsələ ilə əlaqədar müvafiq qərar qəbul edildi, podpolkovnik Sikorskinin gətirdiyi faktları təhqiq etmək üçün komissiya yaradıldı.

Ali Məclis sessiyasının dekabrın 14-16-da keçirilmiş növbəti iclasında muxtar respublikada yaranmış iqtisadi, ictimai-siyasi vəziyyətə dair deputatların verdikləri təkliflə əlaqədar məsələ müzakirə edilərkən qeyd olunmuşdu ki, hazırda ölkənin hər yerində iqtisadi-siyasi vəziyyət son dərəcə gərgin və qeyri-müəyyəndir. Naxçıvanda isə iqtisadi vəziyyət daha ağırdır. Yaranmış vəziyyətin Ali Məclis sessiyasının müzakirəsinə çıxarılması bu sahədə çox gərgin iş aparmağı tələb edir. Ona görə də, Ali Məclisin daimi komissiyaları, rayon xalq deputatları məclisləri, yeni yaranmış partiyalar bu məsələ ilə əlaqədar öz təkliflərini verməlidirlər.

Artıq yeni il başlamışdır. Lakin hələ də iqtisadiyyatda qeyri-müəyyənlik hökm sürür. Muxtar respublikada da bu sahədə heç bir iş görülməyib, yeni il üçün planlar, büdcə müəyyənləşdirilməyib. Torpaq islahatının keçirilməsi qarşıda duran ən mühüm vəzifələrdəndir. Azərbaycan Respublikasının Ali Soveti bu barədə qanun qəbul edib. Bu qanun dərindən öyrənilməli və muxtar respublikaya uyğun konsepsiya hazırlanmalıdır. Muxtar respublikanın kənd təsərrüfatı bərbad vəziyyətdədir. Bizim əsas sərvətimiz üzümdür. Lakin son illər baxımsızlıq, təsərrüfatsızlıq üzündən 14 min hektar üzümlükdən cəmi 7 min hektarı qalmışdır. Ötən il 66 min ton üzüm istehsal olunmuşdur. Bəs bundan necə istifadə edilir? Bu barədə lazımi iş aparan yoxdur. Tütün də əsas məhsulumuzdur. Ondan da səmərəli istifadə edilməli, əldə olunmuş gəlir muxtar respublika iqtisadiyyatının inkişafına yönəldilməlidir. Ümumiyyətlə, bütün məsələlərdə, o cümlədən torpaq islahatında, özəlləşdirmədə elə hərəkət etmək lazımdır ki, bu proseslər ağrısız getsin.

İclasda çıxış edən muxtar respublika prokuroru H. Hüseynov, Babək Rayon XDM-nin sədri T. Əliyev, İcraiyyə Komitəsinin sədri M. Rəhimov və başqaları həmin məsələ ilə əlaqədar konkret təkliflər irəli sürdülər.

Müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul edildi.

*"Şərq qapısı" qəzeti, 11 yanvar 1992-ci il*

## Keçmiş SSRİ-nin silahlı qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki hissələrinin statusunun müəyyən edilməsi və onların yerli dövlət hakimiyyət orqanları ilə qarşılıqlı fəaliyyəti ilə bağlı bir sıra məsələlər haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, Rusiya, Ukrayna və Belarus müstəqil slavyan dövlətləri İttifaqı haqqında Brestdə bağlanmış sazişdən və Müstəqil Dövlətlər Birliyi haqqında müqavilə imzalamış on bir respublikanın dövlət başçılarının 1991-ci il dekabrın 21-də Almatı şəhərində görüşündən sonra SSRİ vahid bir dövlət kimi ləğv olunmuşdur. M. Qorbaçov 1991-ci il 25 dekabr tarixli bəyanatında SSRİ Prezidenti kimi öz fəaliyyətinə son qoyulmasını elan etmişdir. Lakin 1991-ci il dekabrın 21-də Almatıda imzalanmış sənəddə keçmiş SSRİ-nin silahlı qüvvələrinin dövlət hüququ baxımından bundan sonra mövcud olub-olmayacağı dəqiq müəyyən edilməmişdir.

1991-ci il dekabrın 30-da birlik üzvü olan on bir müstəqil dövlət başçısının Minskdə keçirilmiş görüşündə də bu məsələ aydınlaşdırılmamışdır. Məlumdur ki, müttəfiq respublikaların ərazisində yerləşən keçmiş SSRİ-nin silahlı qüvvələrinin statusu haqqında məsələ getdikcə daha mürəkkəb xarakter kəsb etmişdir. Bir sıra müttəfiq respublikalar hələ SSRİ-nin dağılmasından xeyli qabaq dövlət müstəqilliklərini elan edə-

rək, ərazilərində yerləşən Sovet silahlı qüvvələri hissələrinin onlara məxsus olması haqqında bəyanat vermişlər. Azərbaycan Nazirlər Kabineti 1991-ci il oktyabrın 16-da "Azərbaycan Respublikasının silahlı qüvvələri haqqında" sərəncam vermişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi göstərilənlərə əsaslanaraq və ölkədə siyasi proseslərin ehtimal olunan nəticələrini nəzərə alaraq 1991-ci il oktyabrın 26-da "Naxçıvan Muxtar Respublikasında yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında" qərar qəbul etmiş və bu məqsədlə xüsusi komissiya yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 14-16-da keçirilmiş sessiyasında keçmiş SSRİ-nin silahlı qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki hissələrinin statusunun müəyyən edilməsi haqqında məsələ yenidən müzakirə olunmuş və müvafiq tapşırıqlar verilmişdir. Lakin Ali Məclisin 1991-ci il oktyabrın 26-da yaradılmış komissiyasının (sədr Q. Məmmədov) lazımi səviyyədə fəaliyyət göstərməməsi, silahlı qüvvələr hissələrinin komandanlığının səhv hərəkətlərinin, gözləmə mövqeyi tutmasının nəticəsində bu məsələlər həll olunmamışdır. Azərbaycan Respublikasının siyasi rəhbərliyinin göstərilən məsələlərlə əlaqədar qeyri-müəyyən, qeyri-ardıcıl və bəzən anlaşılmaz mövqeyi respublikanın həyatında müasir mərhələdə mühüm əhəmiyyətə malik olan problemin həllinə imkan vermir. Eyni zamanda muxtar respublika ərazisindəki silahlı qüvvələrin hissələri və yerli əhali arasında münasibətlər daha da mürəkkəbləşir. Hərbi hissələrin ayrı-ayrı nümayəndələri tərəfindən respublikanın dövlət qanunlarına və qaydalarına, milli adət və ənənələrə hörmətsizlik və etinasızlıq, həmçinin bəzi yerli sakinlər tərəfindən hərbi qulluqçuların şərəf və ləyaqətinin təhqir edilməsi, hərbi hissələrə məxsus olan avtomaşınların oğurlanması faktları mövcuddur.

Ayrı-ayrı hərbi bölmələrin komandanlığının qanunsuz hərəkətləri muxtar respublikadakı vəziyyəti daha da kəskinləşdirir. Belə ki, respublikanın müxtəlif rayonlarına heç bir ehtiyac olmadan hərbi qulluqçuların böyük silahlı dəstələri çıxarılır, yerli dövlət hakimiyyət orqanlarından xəbərsiz avtomobil və hava nəqliyyatı vasitəsilə gəliş-gediş, hərbi sursatın daşınması əməliyyatları həyata keçirilir.

31 dekabrda - Azərbaycan türklərinin həmrəyliyi və birliyi bayram edilən gün dövlət sərhəddi boyunca bəzi sahələrə 41-ci sərhəd dəstəsi komandanlığının silahlı sərhədçilər və gözətçi itlər çıxarmasını heç cür izah etmək və bu hərəkətə bəraət qazandırmaq olmaz.

Cəhri kəndi yaxınlığında yerləşən hava hücumundan müdafiə batalyonu komandanlığının orada olan bütün hərbi sursat və təsərrüfat əmlakının tamamilə talan edilməsi ilə nəticələnən hərəkəti hiddət doğurur. Göstərilən hərbi obyektə heç bir aidiyyəti olmayan 75-ci mexanikləşdirilmiş motoatıcı diviziyasının bir dəstə silahlı hərbi qulluqçusu da bu talanda iştirak etmişdir.

Yuxarıda göstərilənlərə əsaslanaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının ərazisindəki bütün yeraltı və yerüstü sərvətlərin Azərbaycan xalqının, muxtar respublika əhalisinin milli sərvəti olduğunu əsas tutaraq Ali Məclis qeyd edir ki, muxtar respublika ərazisində yerləşən silahlı qüvvələr hissələrinin bütün hərbi və təsərrüfat tikililəri, əmlakı, silahları və hərbi sursatları, hərbi və mülki texnikası Naxçıvan Muxtar Respublikasına məxsusdur.

Hərbi hissələrin komandanlıqları yuxarıda göstərilənlərin hamısı, sərəncamlarında olan hər bir şey haqqında beş gün müddətində muxtar respublika Ali Məclisinə yazılı məlumat təqdim etməli və Ali Məclisin icazəsi olmadan respublika ərazisindən, hərbçilərin şəxsi əşyaları istisna olmaqla, heç bir şey aparmamalıdırlar.

2. Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrin komandanlıqları onların muxtar respublika ərazisində bundan sonra qalmalarının hüquqi statusu haqqında öz təkliflərini on gün müddətinə Ali Məclisə təqdim etsinlər. Ali Məclisin 1991-ci il oktyabrın 26-da yaradılmış komissiyası (Q. Məmmədov) bütün bu məsələlərə baxsın və Ali Məclisin müzakirəsinə versin. Bu məsələlər qəti həll olunanadək muxtar respublika ərazisində yerləşən silahlı qüvvələrin bütün hissələri bundan sonra muxtar respublika Ali Məclisinə tabe olmalı, prinsipial məsələlərdə fəaliyyətlərini Ali Məclis ilə razılaşdırmalıdırlar.

3. Q. Məmmədovun sədrliyi ilə yaradılan komissiyaya tapşırılsın ki, hərbi hissələrin nümayəndələri və ayrı-ayrı yerli sakinlər arasında mü-

naqişəli hallar haqqında bütün məlumatları yoxlayıb, onlar barəsində zəruri tədbirlər görsün və nəticələri haqqında Ali Məclisə məlumat versin.

Şərur rayonunda magistral şose yolunda təşkil edilmiş yoxlama-nəzarət məntəqələrinin nə dərəcədə zəruri və əsaslı olması məsələsinə baxılsın.

Cəhri kəndi yaxınlığında yerləşən hava hücumundan müdafiə batalyonu komandanlığının hərbi və təsərrüfat əmlakının tamamilə talan edilməsi ilə nəticələnən hərəkətləri haqqında daxil olmuş məlumatlar təcili yoxlanılsın. Yoxlamanın nəticələri haqqında Ali Məclisə məlumat verilsin.

4. Naxçıvan Muxtar Respublikası prokuroru (H. Hüseynov), Naxçıvan Qarnizonunun hərbi prokuroru (V. Voytenko) Ali Məclisin Rəyasət Heyətinin iclasında podpolkovnik S. Sikorskinin göstərdiyi faktlar üzrə təhqiqat aparsınlar.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 2 yanvar 1992-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1991-ci il 16 dekabrda Bakıdan Naxçıvan Muxtar Respublikasına gələn qatarın sərnişinləri Ermənistan Respublikası Mehri dəmiryolu stansiyasında girov götürülmüşdülər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Ermənistan Respublikasının Prezidenti Levon Ter-Petrosyanla telefon danışıqları nəticəsində qatardan endirilənlərin yüz on bir nəfəri muxtar respublikaya qaytarılmışdır.

Naxçıvan Muxtar Respublikası və Ermənistan Respublikası rəhbərlikləri arasında əldə olunmuş razılığa əsasən 1992-ci il 6 yanvarda saat 17.50-də Naxçıvan Muxtar Respublikası Ordubad rayonu ilə Ermə-

nistanın Mehri rayonu sərhəddində Mehri rayonunun hüquq-mühafizə orqanlarının nümayəndələri Bakı-Şərur qatarından götürülmüş sonuncu 2 girovu - 1960-cı ildə Şamaxı rayonunda anadan olmuş, hazırda Bakı şəhərində yaşayan Əsədov Xanbala Ağabala oğlunu və 1970-ci ildə doğulmuş Zəngilan rayonunun sakini, Naxçıvan Sovxoz-Texnikumunun tələbəsi Babayev Qərib Söhrab oğlunu Naxçıvan tərəfinə təhvil vermişlər.

Həmin tarixdən Bakı-Yerevan dəmiryolu xətti ilə Mehri və Naxçıvan sahələrində yük qatarlarının hərəkəti bərpa olunmuşdur.

*7 yanvar 1992-ci il*

## SƏRHƏDDƏ GÖRÜŞ

1992-ci il mart ayının 10-da Azərbaycanın Sədərək rayonu ərazisində yerləşən sərhədçilərin zastavasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Ermənistan Respublikası Ali Sovetinin Sədri Babken Arakçyansla görüşü olmuşdur.

Görüş zamanı Ermənistanla Naxçıvan Muxtar Respublikası arasındakı bütün sərhəddə sabitliyə və təhlükəsizliyə sözsüz əməl olunması, Ermənistanın Mehri rayonu ərazisindən keçən Bakı-Naxçıvan sərnişin qatarının təhlükəsizliyinin təmin edilməsi, Ermənistan ərazisindən keçən Naxçıvanla Bakı arasındakı bütün kommunikasiya xətlərinin normal işləməsi haqqında saziş əldə olunmuşdur. Baş verə biləcək münaqişəli halların dərhal aradan qaldırılması məqsədilə daimi operativ məlumatların qaydası təyin olunmuşdur.

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasındakı qarşılıqlı münasibətlərin problemi, bu münasibətlərin normal hala salınması tədbirləri, xüsusilə son faciəli hadisələrlə əlaqədar Dağlıq Qarabağdakı vəziyyət haqqında əsaslı fikir mübadiləsi aparılmışdır. Ermənistan Respublikası parlamentinin sədri bildirmişdir ki, onlar Azərbaycana ərazi iddiasından əl çəkmişlər. Qeyd olunmuşdur ki, Dağlıq Qarabağ məsələsi Azərbaycan Respublikasının öz daxili işidir.

Görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Q. Məmmədov, Ermənistan Respublikası Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri A. Manuçaryan iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*11 mart 1992-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1992-ci il martın 12-də səhər tezdən Ağdam rayonunun bir sıra yaşayış məntəqələrinin və Ağdam şəhərinin Dağlıq Qarabağ tərəfdən güclü atəşə tutulması haqqında Naxçıvana xəbər daxil olmuşdur. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri Yaqub Məmmədov və respublikanın Baş naziri Həsən Həsənovla telefon danışığı olmuşdur.

Naxçıvan Muxtar Respublikası və Ermənistan Respublikası rəhbərlikləri arasında martın 10-da keçirilən görüş zamanı əldə olunmuş razılığa əsasən Ali Məclisin Sədri Heydər Əliyev dərhal Ermənistanın rəhbərləri ilə telefonla danışmışdır. Bu danışıq zamanı Ermənistan rəhbərləri əmin etmişlər ki, Dağlıq Qarabağ ilə Ağdam rayonunun sərhədində, atəşin dayandırılması üçün bütün zəruri tədbirləri həyata keçirəcəklər. Dağlıq Qarabağ və onunla qonşu rayonların sərhədində atəşin dayandırılması və digər məsələlər barədə Azərbaycan və Ermənistan rəhbərlikləri arasında təcili danışıqların aparılması zərurəti qeyd olunmuşdur.

*12 mart 1992-ci il*

## YENİ BAŞ KOMANDANIN KÖHNƏ FİKİRLƏRİ

Naxçıvan, 21 may (Azərinformun müxbiri). Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Azərinformun müxbiri ilə söhbətində demişdir: Naxçıvan-Ermənistan sərhəddində vəziyyətin kəskinləşməsinin və Türkiyənin buna münasibətinin guya üçüncü dünya müharibəsinə gətirib çıxara biləcəyi ilə marşal Şapoşnikovun hamını qorxutması onun köhnə qayda ilə düşündüyünü sübut edir. Ali Məclisin Sədri Azərbaycanın əsas hissəsindən Ermənistan ərazisi ilə ayrılan və qonşu respublikanın təqsiri üzündən münaqişəyə cəlb olunan bu Azərbaycan anklavının saxlanmasının təminatı kimi Naxçıvana Türkiyə Respublikası qoşunlarının dəvət edilməsi ilə əlaqədar MDB Birləşmiş Silahlı Qüvvələri Baş komandanının verdiyi bəyanatı düşünülməmiş bəyanat adlandırmışdır.

Heydər Əliyev qeyd etmişdir: Çox güman ki, marşal Şapoşnikov Naxçıvanın statusu haqqında 1921-ci ildə Rusiya ilə Türkiyə arasında imzalanan və hələ heç kimin ləğv etmədiyi Qars müqaviləsini unutmuşdur. Ali Məclisin Sədrinin dediyinə görə, baş komandan onu da yaddan çıxarmışdır ki, bölgədə Rusiya hərbi birləşmələri var və onlar suveren Azərbaycanın bir hissəsinə qarşı Ermənistanın təcavüzünü dəf etməkdə Azərbaycan xalqına kömək göstərməkdən boyun qaçırırlar.

Heydər Əliyev bildirmişdir ki, muxtar respublika rəhbərliyinin Ermənistanla sərhəddə vəziyyətin inkişafından son dərəcə narahat olduğu və bu vəziyyəti yaxşılaşdırmaq üçün hər şeyi etdiyi bir vaxtda təkcə marşalın düşünülməmiş bəyanatı deyil, bu gün Rusiyanın dövlət katibi Gennadi Burbulisin və müdafiə naziri Pavel Qraçovun Ermənistanda apardığı danışıqlar da təəccüb doğurur. Naxçıvan parlamenti rəhbərinin dediyinə görə, onların Ermənistan prezidenti Levon Ter-Petrosyanla, ona mötəbər mənbələrdən məlum olan görüşünə jurnalistləri buraxmamışlar. Lakin o əmindir ki, Yerevanda, bağlı qapılar arxasında Türkiyənin Naxçıvandakı hadisələrə münasibəti ilə bağlı məsələlər müzakirə edilir.

## HEYDƏR ƏLİYEV ERMƏNİSTANIN HƏRƏKƏTLƏRİNİ PİSLƏMİŞDİR

London, 21 may (RİTA-SÖTA-nın müxbiri Y. Sidorov). Azərbaycanın Naxçıvan Muxtar Respublikasının rəhbəri Heydər Əliyev Londonun "Deyli teleqraf" qəzetinin orada olan müxbirinə demişdir: "Mən hərbi gərginliyin artırılmasının əleyhdarıyam, lakin Ermənistan yenə də bu cür hərəkət etsə, kömək üçün Türkiyəyə müraciət etməkdən başqa çarəm qalmayacaqdır".

Heydər Əliyev xatırlatmışdır ki, 1921-ci ildə Qarsda imzalanmış müqaviləyə əsasən Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır.

## TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ NAXÇIVANDA

Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin tapşırığı ilə mayın 21-də Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına gəlmişdir. Nazirliyin böyük elçisi Ömər Ərsunun başçılıq etdiyi nümayəndə heyətinin məqsədi Sədərək bölgəsində Ermənistanın torpaqlarımıza davam edən təcavüzünün nəticələri və bununla bağlı muxtar respublikada yaranmış vəziyyətlə tanış olmaqdır.

Elə həmin gün böyük elçi Ömər Ərsun və onu müşayiət edən şəxsləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir. Ali Məclisin Sədri muxtar respublikanın Sədərək və Şərur bölgələrinə erməni ordusunun 1992-ci il mayın 18-dən başlamış və bu günədək davam edən silahlı təcavüzü, bu bölgələrdə atəşin dayandırılması ilə bağlı görülən tədbirlər, o cümlədən Ermənistanın rəhbərliyi ilə apardığı telefon danışıqları haqqında ətraflı məlumat vermiş, böyük elçini maraqlandıran suallara cavab vermişdir.

Qəbuldan sonra bu günlər muxtar respublikada olan xarici jurnalistlərin böyük dəstəsi üçün mətbuat konfransı keçirilmişdir. Ali Məclisin Sədri müxbirlərin çoxsaylı suallarına cavab vermişdir.

Bu gün Ömər Ərsun başda olmaqla Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Sədərək bölgəsində vəziyyəti yerində öyrəndikdən sonra, yenidən Ali Məclisin Sədri Heydər Əliyevlə görüşəcəkdir.

*"Şərq qapısı" qəzeti, 23 may 1992-ci il*

## ERMƏNİLƏR KİMYƏVİ SİLAH İŞLƏDİRLƏR

Top mərmisinin qəlpəsini əlinə götürmüş Milli Ordunun əsgəri Mirzə Şahverdiyevdən Naxçıvan Respublika Xəstəxanasında həkimlərin götürdüyü analizlər sübut etmişdi ki, düşmən döyüş meydanlarında zəhərli kimyəvi maddələrdən də istifadə edir.

Naxçıvan Muxtar Respublikası səhiyyə naziri demişdir ki, bəzi xəstələrin müalicəsi zamanı müəyyən olunmuşdu ki, atılan mərmilərin tərkibində zəhərli kimyəvi maddə - iprit və sionid birləşmələri var.

Muxtar respublika sanitar-epidemioloji stansiyasının xüsusi kimyəvi laboratoriyasında erməni toplarının atdıqları mərmilərin qəlpələri yoxlanılmışdır. Laboratoriyanın rəyinə əsasən ermənilər Sədərək döyüşlərində fosgen kimyəvi silahından istifadə etmişlər. Beləliklə, ermənilər dünyada qəbul olunmuş qanunları pozaraq kütləvi qırğın silahlarından istifadə edirlər.

*"Şərq qapısı" qəzeti, 23 may 1992-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİNDƏ

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin geniş iclası olmuşdur. İclasda muxtar respublika Ali Məclisinin Sədri Heydər Əliyev çıxış edərək demişdir ki, son aylar Naxçıvan Muxtar Respublikasının həyatı, eləcə də Azərbaycanın həyatı çox çətin və böhranlı olmuşdur. Son günlər isə vəziyyət daha da kəskinləşmişdir. İqtisadi böhranla

yanaşı olaraq mayın 1-də Ermənistan tərəfdən muxtar respublika ərazisinə hərbi təcavüz edilmiş, bu təcavüz bir neçə gün davam etmiş, sonra aparılan danışıqlar nəticəsində onu aradan qaldırmaq mümkün olmuşdur. Lakin may ayının 18-də yenə də Ermənistan tərəfdən muxtar respublika hərbi təcavüzə məruz qalmışdır ki, bu da Ermənistanla Naxçıvan arasında ən ağır, ən qanlı konfliktdir. Bunun nəticəsində itkilər verilmiş, çoxlu yaralananlar olmuş, Sədərək kəndi dağıdılmışdır. Şərur rayonunun bir neçə kəndindən əhali köçürülmüşdür. Bir sözlə, Naxçıvan Muxtar Respublikasının həyatı xeyli gərginləşdirilmişdir. Bildiyiniz kimi, dəmir yolu işləmir. İndi bizim Azərbaycanla əlaqəmiz yalnız hava yolu vasitəsilədir. Ona görə də muxtar respublikaya yanacaq, ərzaq və başqa ləvazimatların gətirilməsi tamamilə məhdudlaşmışdır. Bu, son illər onsuz da dağılmış iqtisadiyyatın daha pis vəziyyətə düşməsinə səbəb olmuşdur.

Bütün bunlar əlavə tədbirlər həyata keçirilməsini tələb edir. Bu tədbirlər şübhəsiz ki, həm iqtisadiyyatı, həm də xalqın rifahını yaxşılaşdırmaq və onun adi tələbatlarını ödəmək, həm də Naxçıvan Muxtar Respublikasının müdafiəsinin möhkəmləndirilməsi məsələlərini əhatə etməlidir.

Yaranmış vəziyyətdən çıxmaq, Ermənistanın silahlı hücumunu dayandırmaq üçün biz lazımi tədbirlər görmüşük və görürük. Bunun nəticəsində mayın 22-23-də Sədərək bölgəsində nisbi sakitlik olmuşdur və bizə belə gəlirdi ki, danışıqlar nəticəsində bu konflikti söndürə bilərik. Mayın 24-də günün birinci yarısında sakitlik olmuşdur. Lakin günortadan sonra Ermənistan tərəfdən atəş güclənmiş, bir adam həlak olmuşdur. Bu gün də ara-sıra atəş açılır. Onu da qeyd etmək lazımdır ki, dünən mayın 24-də Ermənistan tərəfdən müdafiə naziri V. Sarkisyan və başqa rəhbər işçilər bizə müraciət etmişlər ki, danışıqlar aparmaq yolu ilə konflikti aradan qaldırmaq lazımdır. Çünki biz çox böyük diplomatik fəallıq göstərdiyimizə, bütün dünya ictimaiyyətini ayağa qaldırdığımıza görə Ermənistan tərəfi indi artıq məhkum vəziyyətindədir. Onlar hər cür vasitələrə əl ataraq sübut etməyə çalışırlar ki, guya hücumu onlar başlamayıblar. Guya bizim əraziyə keçməyiblər və atəşi dayandırıb danışıqlar aparmaq istəyirlər.

Qısa desək bugünkü vəziyyət belədir. Yaranmış vəziyyətlə əlaqədar biz dünya ictimaiyyətinə müraciət etməli olduq. Bildiyiniz kimi, elə

may ayının 18-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl, xarici işlər naziri Hikmət Çətin, Baş nazirin birinci müavini Ərdəl İnönü Naxçıvana telefon etdilər, lazımi məlumatlar aldılar və o gündən indiyə qədər biz Türkiyənin rəhbərliyi ilə daim əlaqədəyik. Baş nazir Süleyman Dəmirəlin göstərişi ilə böyük elçi Ömər Ərsun başda olmaqla Türkiyə Xarici İşlər Nazirliyinin nümayəndələri bir neçə gündür ki, Naxçıvandadırlar. Biz bir neçə dəfə onlarla görüşmüşük. Bu gün də mən onlarla geniş söhbət etdim. Xarici ölkələrdən, eyni zamanda Rusiyadan bura çoxlu müxbirlər gəliblər və onların vasitəsilə mayın 18-dən Naxçıvanda yaranmış vəziyyəti bütün dünya ictimaiyyətinə çatdırırıq. Bunun özü bizim üçün böyük nailiyyətdir. Çünki son dörd il ərzində Dağlıq Qarabağda gedən müharibə ilə əlaqədar həmişə Azərbaycanı günahlandırmışlar. Mətbuat orqanları, dünya ictimaiyyəti, o cümlədən Rusiya ictimaiyyəti həmişə ermənilərin xeyrinə birtərəfli məlumatlar almışlar. Lakin bu dəfə bizim bütün diplomatik və siyasi fəaliyyətimiz dünya ictimaiyyətinə yaranmış vəziyyət barədə düzgün məlumat verilməsinə imkan yaratdı. Artıq Moskva televiziyası məlumat vermişdir ki, Ermənistan Azərbaycana hücum etmişdir. Bütün dünya informasiya orqanları da bu barədə məlumat verirlər. 57 dövlət Ermənistanın təcavüzkarlığını pisləyib. NATO da bu barədə bəyanat verib. Türkiyənin Nazirlər Kabineti may ayının 18-də gecə saat 12-nin yarısında toplaşaraq geniş bir bəyanat vermişdir. Bütün bunların nəticəsində biz dünya ictimaiyyətində düzgün, obyektiv təsəvvür yarada bildik və Ermənistanın təcavüzkar mövqeyini ifşa etdik. Dünən Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri də Naxçıvana gəlib. Biz onları Sədərəyə göndərdik. Çünki vuruşmanın birinci günü bizim döyüşçülərin bir neçəsi həlak olmuşdu. Ona görə də Qırmızı Xaç Cəmiyyətinin nümayəndələrindən xahiş etdik ki, bu işdə vasitəçilik etsinlər.

Belə bir vaxtda bizi həm Naxçıvanın müdafiəsi, həm iqtisadiyyatın inkişafı, həm də əhalinin maddi vəziyyəti çox dərindən düşündürür. Lakin bildiyiniz kimi daxili imkanlarımız çox məhduddur. Türkiyə bu günlər bizə yenə də hərtərəfli yardım göstərir. Bildiyiniz kimi, biz Sədərək vuruşmalarında yaralanmış 16 nəfəri müalicə olunmaq üçün Türkiyəyə göndərmişik. Əgər ehtiyac olsa yenə də göndərə bilərik. Bun-

dan əlavə, Türkiyədən həkimlər də gəlib və hazırda bizim xəstəxanalarda yaralıları müalicə edirlər.

Dərman da göndərilib. Mən Baş nazir Süleyman Dəmirəllə telefonla danışarkən, o, bildirdi ki, "Qızıl Ay" Cəmiyyəti vasitəsilə Naxçıvana təcili yardım göndəriləcək. Dünən İranın xarici işlər naziri Əli Əkbər Vilayəti də mənimlə telefon danışığı zamanı dedi ki, Naxçıvana humanitar yardım göndəriləcəkdir. Lakin yardımlar nə qədər olsa da, bizim tələbatımızı ödəmir. Ona görə də biz belə qərara gəlmişik ki, Naxçıvanın bütün təbəqələrinə məxsus olan nümayəndələri ilə məsləhətləşək. Bugünkü iclasa muxtar respublikanın nazirləri, dövlət komitələrinin sədrləri, idarə və müəssisələrin, bütün təşkilatların rəhbərləri, habelə rayonların rəhbərliyi dəvət olunmuşdurlar. Biz bu iclasa siyasi partiyaların, Xalq Cəbhəsinin, ictimai təşkilatların, böyük assosiasiyaların və kooperativlərin, ümumiyyətlə bütün sahələrin nümayəndələrini dəvət etmişik ki, bir yerdə məsləhətləşək və görək bu sahədə daha nə kimi tədbirlər görmək olar... Bu barədə biz sizin təkliflərinizi dinləməyə hazırıq.

Biz Rəyasət Heyətində məsləhətləşərək belə bir təklifi sizin müzakirənizə verməyi qərara aldıq. Bildiyiniz kimi, son vaxtlar Naxçıvanda iqtisadiyyatın ağır vəziyyəti, qaçqınların olması, kəndlərin dağıdılması ilə əlaqədar bizim müdafiə işlərimizi daha da möhkəmləndirmək üçün bəzi müəssisələr, habelə ayrı-ayrı vətəndaşlar vətənpərvərlik təşəbbüsü ilə bu işə yardım etmək fikrindədirlər. Bu barədə çoxlu təkliflər alırıq. Çox sevindirici haldır ki, Naxçıvanın hər bir sakini öz torpağının qeyrətini çəkir, iqtisadiyyatı inkişaf etdirmək və muxtar respublikanın müdafiəsini möhkəmləndirmək üçün öz köməkliklərini göstərmək istəyirlər.

Eyni zamanda bizə məlumdur ki, son vaxtlar bu təşəbbüslərlə əlaqədar olaraq Naxçıvanda müdafiə komitəsi, Xalq Cəbhəsi, daxili işlər orqanları tərəfindən də vəsait toplanılır.

Rayonlarda da bu işlə məşğuldurlar. Bu, əlbəttə, lazımlı işdir. Lakin bizi narahat edən bu işin çox pərakəndə şəkildə getməsidir. Bu pərakəndəlik toplanan vəsaitin hansı sahəyə yönəldilməsində anlaşılmazlıq yaradır. Bəzən şikayətlər də olur ki, toplanılan yardım lazım olan istiqamətə yönəldilmir, ayrı-ayrı adamlar bundan sui-istifadə edirlər.

Bütün bunları nəzərə alaraq biz belə bir fikrə gəlmişik ki, Naxçıvanın vahid inkişaf və müdafiə fondunun yaradılması təklifini sizin müzakirənizə verək. Bu fond mərkəzləşmiş şəkildə olsun. Onun bankda hesabı açılsın. Bütün Naxçıvanın inkişafına, müdafiəsinə yardım etmək istəyənlər öz vəsaitlərini bu fondun hesabına keçirsinlər. Fondun təşkil olunması və ondan istifadə edilməsi üçün komissiya yaradılsın. Əgər bu sahədə başqa təkliflər də varsa biz onları dinləməyə hazırıq.

Məsələnin müzakirəsi zamanı çıxış edən Naxçıvan şəhər 5 №-li orta məktəbin direktoru H. Məmmədov, "Türk qurumu" kooperativinin sədri A. Axundov, Babək Rayon XDM-nin sədri T. Əliyev, Ordubad baramaaçan fabrikinin direktoru M. Miratayev, Təcili Yardım Mərkəzinin baş həkimi Ə. Salmanov, 39 №-li dəmiryol məktəbinin direktoru A. Hacıyev, Naxçıvan Şəhər Poliklinikasının baş həkimi V. Qazıbəyova, Ali Məclis Sədrinin müavini A. Kələntərli və başqaları bu təklifi yekdilliklə müdafiə etdilər. Müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul edildi.

Rəyasət heyətinin iclasında bir sıra başqa məsələlərə də baxıldı.

*"Şərq qapısı" qəzeti, 28 may 1992-ci il*

**Naxçıvanın inkişafı və müdafiəsi fondunun yaradılması haqqında**

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Ermənistanın Azərbaycana silahlı müdaxiləsi nəticəsində Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi vəziyyət daha da kəskinləşmişdir. Hökm sürən böhran iqtisadiyyatı həddindən artıq pisləşdirmiş, muxtar respublika əhalisinin maddi rifah halına mənfi təsir göstərmişdir.

Ermənistanın silahlı qüvvələrinin Naxçıvan Muxtar Respublikasının ərazisinə 1992-ci il may ayının 1-dən başlamış və qısa fasilədən sonra mayın 18-dən indiyə qədər davam edən hücumları nəticəsində Sədərək kəndi tamamilə dağıdılmış, ölənlər və yaralananlar vardır. Sədə-

rək kəndinin və Şərur rayonunun bir neçə yaşayış məntəqəsinin əhalisi daimi yaşayış yerlərini tərk edərək qaçqın düşmüşdür. Bunların hamısı iqtisadi, siyasi və psixoloji vəziyyəti daha da gərginləşdirmişdir. Dəmir yolunun uzun müddət blokadaya alınması nəticəsində Naxçıvan Muxtar Respublikasında ərzaq, yanacaq və başqa ləvazimatların ehtiyatı həddindən artıq azalmışdır.

Belə bir şəraitdə Naxçıvan Muxtar Respublikasının daxili imkanlarından daha da səmərəli istifadə etmək, eyni zamanda iqtisadiyyatın lazımi səviyyədə işlədilməsi zəruriyyəti ciddi surətdə meydana çıxır. Bu tədbirlərin həyata keçirilməsi üçün muxtar respublikanın sənaye, kənd təsərrüfatı, tikinti müəssisələrinin, bütün idarələrin və təşkilatların, hər bir vətəndaşın maksimum səy göstərməsi tələb olunur. Ermənistanın silahlı qüvvələrinin hərbi təcavüzlərinin qarşısını almaq, muxtar respublikanın ərazi bütövlüyünü qoruyub saxlamaq, əhalinin normal yaşayış və iş şəraitini təmin etmək üçün respublikanın müdafiəsinin möhkəmləndirilməsi ən əsas vəzifələrdən biridir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafını və müdafiəsini təmin etmək üçün hər bir vətəndaşın fəal vətənpərvərlik səyi göstərməsinə böyük ehtiyac var.

Yuxarıda göstərilənləri əsas tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafına və müdafiəsinə yardım məqsədilə Naxçıvanın inkişafı və müdafiəsi fondu yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının nazirliklərinə, dövlət komitələrinə, idarələrinə, sənaye, kənd təsərrüfatı, tikinti müəssisələrinə, assosiasiyalara, kooperativlərə, bütün təşkilatlara, ayrı-ayrı vətəndaşlara Naxçıvanın inkişafı və müdafiəsi fondunun təşkilində iştirak etmək barədə müraciət olunsun.

Naxçıvan Muxtar Respublikasının hüdudlarından kənarda, Azərbaycanda, başqa ölkələrdə Naxçıvana vətənpərvərlik hissləri olan bütün azərbaycanlılara, türklərə Naxçıvanın inkişafı və müdafiəsi fondunun yaradılmasında iştirak etməsi barədə müraciət edilsin.

3. Naxçıvanın inkişafı və müdafiəsi fonduna bütün vəsaitlər Naxçıvan Dövlət Bankının 70090 nömrəli hesabına keçirilməlidir. Bu

fonda yardım edənlərə bank idarələri tərəfindən müvafiq vəsiqələr verilir.

4. Naxçıvanın inkişafı və müdafiəsi fondunun təşkil olunması işlərinə, toplanan vəsaitin istifadəsinə nəzarət etmək üçün aşağıdakı tərkibdə komissiya yaradılsın:

Heydər Əliyev - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri (sədr), A. Kələntərli - Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini (sədr müavini), Ə. Sadiqov - Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini (sədr müavini); üzvləri: A. Səfərov - Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini, Ş. Xan-Babayev Naxçıvan Muxtar Respublikası Dövlət Plan Komissiyasının sədri, E. Abbasov - Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin sədri, M. Məmmədov - Naxçıvan Muxtar Respublikası daxili işlər naziri, N. İmanov - Naxçıvan Muxtar Respublikasının maliyyə naziri, T. Babayev - Naxçıvan Dövlət Bankının direktoru, F. Şirzadov - Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin qanunçuluq, qanunvericilik və hüquq-mühafizə şöbəsinin müdiri, H. Hüseynov - Naxçıvan Muxtar Respublikasının prokuroru, A. Rəhimov - Azərbaycan Xalq Cəbhəsi Naxçıvan vilayət şöbəsinin sədri, H. Abdullayev - Naxçıvan Şəhər Xalq Deputatları Məclisi İcraiyyə Komitəsinin sədri, V. Əsgərov - Şərur Rayon Xalq Deputatları Məclisi İcraiyyə Komitəsinin sədri, M. Rəhimov - Babək Rayon Xalq Deputatları Məclisi İcraiyyə Komitəsinin sədri, R. Tağıyev - Culfa Rayon Xalq Deputatları Məclisinin sədri, R. Şəfiyev - Ordubad Rayon Xalq Deputatları Məclisi İcraiyyə Komitəsinin sədri, X. Abbasov - Şahbuz Rayon Xalq Deputatları Məclisinin sədri.

5. Müəssisələrdən və əhalidən bank hesablarına və başqa mənbələrə indiyə qədər toplanmış bütün vəsaitlər Naxçıvanın inkişafı və müdafiə fonduna, yəni Naxçıvan bankında açılan 70090 nömrəli hesaba köçürülməlidir. Bundan sonra başqa vasitələrlə bank hesablarına əhali tərəfindən və müəssisələrdən vəsait toplanması lüzumsuz hesab edilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 25 may 1992-ci il*

## BORİS YELTSİN: NAXÇIVANDAN SƏRHƏD QOŞUNLARININ ÇIXARILMASI BARƏDƏ GÖSTƏRİŞ VERMİŞƏM

Rusiya Prezidenti Boris Yeltsin "Komsomolskaya pravda"nın müxbirinə verdiyi son müsahibədə (27 may 1992-ci il) sərhəd məsələləri ilə əlaqədar öz mülahizələrini bildirərək demişdir: "Naxçıvana gəlincə deməliyəm ki, buradan sərhəd qoşunlarının çıxarılması barədə göstəriş vermişəm".

"Real" agentliyinin siyasi icmalçısı Rusiya Prezidentinin "Komsomolskaya pravda"nın müxbirinə verdiyi müsahibəni şərh edərək bildirir ki, keçmiş SSRİ-nin MDB-yə çevrilməsi prosesi müvəffəqiyyət qazanmadığına görə, indi sərhəd problemləri aktuallıq kəsb etməyə başlamışdır. Məsələ burasındadır ki, hazırda MDB-yə daxil olan və daxil olmayan dövlətlərin sərhədlərini... Rusiya qoşunları qoruyur.

Sərhəd problemləri ilə əlaqədar isə Rusiya yeni çətinliklərlə rastlaşmışdır. Belə ki, Yeltsinin müsahibədə etiraf etdiyi kimi, bəzi Orta Asiya respublikaları İranla azad sərhəd rejimi tətbiq etmişlər. Göründüyü kimi, üzüyola müsəlman ölkələri də artıq cəsarətə gəlmişlər. Bu isə Rusiya hökumətini vəziyyətə uyğun siyasət yeritməyə məcbur edir.

*"Real" agentliyi, 1 iyun 1992-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

İyunun 11 -də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Belarus Respublikası parlamentinin bu günlər Naxçıvana gəlmiş nümayəndələrini – millət vəkilləri Viktor Franseviç Kuçinski və Sergey İosifoviç Naumçiki qəbul etmişdir.

Söhbət zamanı qonaqlar bildirmişlər ki, onlar Belarus Respublikası Ali Sovetinin tapşırığı ilə Naxçıvan Muxtar Respublikasının ərazisində

yerləşən MDB silahlı qüvvələri hissələrində xidmət edən belaruslu zabit və əsgərlərin vəziyyəti ilə tanış olmuşlar.

Ali Məclisin Sədri Heydər Əliyev qonaqları səmimi salamlayaraq, son zamanlar muxtar respublikada yaranmış vəziyyət, onun Ermənistanla sərhəd rayonlarında baş verən hadisələr və Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən MDB hərbi hissələri ilə yerli hökumət və əhali arasındakı münasibətlər haqqında geniş məlumat vermişdir. Ali Məclisin Sədri Naxçıvan haqqında obyektiv məlumatı Belarus Respublikası Ali Sovetinə və iyunun 23 -də Minsk şəhərində keçiriləcək ATƏM-in növbəti yığıncağının iştirakçılarına çatdırmağı millət vəkillərindən xahiş etmişdir.

Görüşdə Belarus Respublikası ilə Azərbaycan Respublikası, o cümlədən Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin gələcəyi haqqında geniş söhbət getmişdir.

*11 iyun 1992-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Rusiya Hərbi Hava Qüvvələrinin baş komandanı, Naxçıvan aeroportunda hərbi təyyarənin qəzaya uğraması ilə əlaqədar yaradılmış ekspert komissiyasının sədri, general-polkovnik Pyotr İvanoviç Deynekin və Müstəqil Dövlətlər Birliyi Hərbi Qüvvələri komandanının köməkçisi, şəxsi heyətlə iş üzrə komitənin sədri general-mayor Nikolay Sergeyeviç Stolyarov iyulun 15-də Naxçıvana gəlmişlər. Elə həmin gün onları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir.

Ali Məclisin Sədri iyulun 17-də Naxçıvan aeroportunun ərazisində baş vermiş qəza nəticəsində həlak olan hərbçilərin, onların ailə üzvlərinin yaxınlarına və qohumlarına, Rusiya Müdafiə Nazirliyinə, Zaqafqaziya hərbi dairəsi 75-ci motoatıcı diviziyasının komandanlığına bir daha başsağlığı vermiş, bu faciə ilə əlaqədar dərindən kədərləndiyini bildirmişdir. Heydər Əliyev muxtar respublika hakimiyyət orqanları tə-

rəfindən qəzanın nəticələrinin aradan qaldırılması üçün görülən tədbirlər haqqında məlumat vermişdir.

Hərbi təyyarənin qəzası ilə əlaqədar yaradılmış ekspert komissiyasının sədri general-polkovnik P. İ. Deynekin zərər çəkənlərə kömək və qəzanın nəticələrinin aradan qaldırılması məqsədilə həyata keçirilən tədbirlər üçün Ali Məclisə, muxtar respublika əhalisinə minnətdarlığını bildirmişdir. O demişdir: "İlkin araşdırmalar, aeroportun məsul işçiləri ilə aparılan söhbətlər qəzanın baş verməsində təyyarə limanı işçilərinin heç bir təqsiri olmadığını söyləməyə əsas verir. Araşdırmanın son nəticələri bir neçə gündən sonra dəqiqləşdiriləcək və bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məlumat veriləcəkdir. Elə bu gün Rusiya televiziyası ilə qəza haqqında daha dəqiq məlumat veriləcəkdir".

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə də söhbət aparılmışdır.

*16 iyul 1992-ci il*

## SƏHİYYƏ XİDMƏTİNƏ DİQQƏT

Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir. Müşavirə muxtar respublikada müdafiə işləri ilə əlaqədar səhiyyə xidmətinin yaxşılaşdırılması məsələlərinə həsr edilmişdir.

Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev müşavirəni açarkən demişdir ki, may ayının 18-dən bu günədək bizim sərhədlərimizdə, xüsusən Sədərək bölgəsində müharibə gedir, bu müharibə gah şiddətlənir, gah da zəifləyir. Amma bunun nəticəsində muxtar respublikanın ən böyük kəndlərindən olan Sədərək kəndinin əhalisi qaçqın vəziyyətindədir. Onlar erməni hücumlarından qorunmaq üçün öz kəndlərini məcburən tərk edərək çadırlarda yaşayırlar. Buzqov və Gərməçataq kəndlərindən olan əhalinin də çox hissəsi qaçqın vəziyyətindədir.

Biz ciddi tədbirlər görürük ki, sərhədlərdə atışma dayandırılsın və kənd sakinləri öz evlərinə qayıtsınlar. Lakin hələlik buna nail ola bilməmişik, bu sahədə öz fəaliyyətimizi davam etdiririk.

Son vaxtlar baş verən hadisələr hamıya yaxşı məlum olduğu üçün bunun üzərində geniş dayanmağa ehtiyac yoxdur. Lakin onu qeyd etmək lazımdır ki, mayın 18-də Sədərəkdə başlamış atışmalar sonra Buzqov və Gərməçataq kəndlərinə də keçib. Batabat və Ordubad rayonunun əraziləri də ermənilər tərəfindən atəşə tutulur. Belə bir şəraitdə bizim əsas məqsədimiz ondan ibarətdir ki, Ermənistan rəhbərliyi ilə danışıqlar apararaq bu atışmaları dayandıraq. Ermənistan rəhbərliyi də hər dəfə sərhəddə gedən atışmaların dayandırılmasına tərəfdar olduqlarını bildirir, lakin bunun real surətdə həyata keçirilməsi üçün lazımi tədbirlər görmür. Eyni zamanda hər dəfə biz onları günahlandırdığımız halda, yəni atəşin onlar tərəfindən başlandığını dediyimiz halda, onlar da bizi günahlandırırlar ki, guya atəşi başlayan bizimkilər olub.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, iyun ayının əvvəlində mən Türkiyədə olarkən Ermənistan tərəfi bizə təkliflər paketi göndərib. Bu təkliflər də əsas etibarilə ondan ibarətdir ki, Ermənistan Respublikası Naxçıvan Muxtar Respublikası ilə bilavasitə əlaqələr yaratmaq istəyir və bu əlaqələr Naxçıvanın Ermənistanla olan sərhədlərində sabitliyi təmin etmək, dəmir yolunu açmaq və bügün bu münaqişəni dayandırmaq məqsədi daşıyır.

Biz həmin layihələrə baxaraq öz fikrimizi bildirmişik. Bütün bunların kökü ondan ibarətdir ki, əgər sərhədlərdə silahlı konflikt dayandırılmasa dəmir yolu da işləməyəcək və eyni zamanda başqa sahələrdə də heç bir münasibət olmayacaqdır.

Lakin bu münasibətlər şübhəsiz ki, Azərbaycanla Ermənistan arasında olan münasibətlərlə bağlı olaraq tənzimlənməlidir. Ona görə də biz əsas məsələ kimi onu qoyuruq ki, ilk növbədə, hərbi konflikt dayandırılmalıdır. Bunun qarşısında Ermənistan rəhbərliyi bizə təklif edir ki, hərbi konflikti dayandırmaq üçün sərhədlərdə təxminən 10 nöqtədə başqa dövlətdən olan müşahidəçilər qoymaq lazımdır. Onlar təklif edirlər ki, həmin müşahidəçilər İran İslam Respublikasından olsunlar. Ermənistan rəhbərliyi hətta İrana müraciət edərək onun razılığını da almışdır.

Biz isə öz təklifimizi verərək bildirmişik ki, bu işdə tək İran İslam Respublikasından olan müşahidəçilərlə kifayətlənmək olmaz. Buna başqa dövlətləri də, məsələn Türkiyəni də cəlb etmək lazımdır. Lakin

onlar bunu qəbul etmədilər. Belə olan halda İran, Türkiyə və Rusiyanın nümayəndələrinin olmasını təklif etdik. Onlar bunu da qəbul etmədilər.

Eyni zamanda Ermənistan tərəfi Rusiya televiziyası ilə bir neçə dəfə məlumat verib ki, guya biz ictimaiyyəti aldadır və həmişə bildiririk ki, Ermənistan bizə hücum edib, halbuki, onların dediyinə görə, onlar təkliflər veriblər və həmin təkliflər konfliktin dayandırılması məqsədini güdür. Lakin Ermənistan tərəfi artıq belə təbliğatlarla ictimaiyyəti aldada bilməz. Onların nə məqsəd güddükləri dünya ictimaiyyətinə yaxşı məlumdur. Biz bütün bunlarla yanaşı bir sıra başqa vasitələrdən də istifadə edirik ki, hərbi konflikt dayandırılsın. Qeyd etdiyim kimi, mayın 18-dən sonra bir çox kəndlərin sakinləri qaçqın vəziyyətindədir. Onlar çadırlarda, vaqonlarda yaşayırlar, yaşayış şəraitlərində, ərzaqla və tibbi xidmətlə təmin olunmalarında çox çətinliklər var. Havaların qızması ilə əlaqədar su çatışmazlığı meydana çıxır. Sanitariya vəziyyətinin yaxşı olmaması müxtəlif xəstəliklərin meydana gəlməsi təhlükəsini yaradır.

Bütün bunlarla yanaşı ən mühüm vəzifə ondan ibarətdir ki, həm çadırda yaşayan qaçqınlara, həm də sərhəd döyüşlərində yaralananlara lazımi səviyyədə tibbi yardım göstərilsin. Lakin bu işdə çox ciddi nöqsanlar vardır. Bizim səhiyyə müəssisələri bərbad vəziyyətdədir. Onlar öz işlərini lazımi səviyyədə təşkil edə bilməyiblər. Ona görə də biz təcili olaraq fövqəladə tədbirlər görməliyik. Bu ondan ibarətdir ki, biz bütün daxili imkanlardan istifadə edib qaçqınlara və yaralılara tibbi yardımı tələb olunan səviyyəyə qaldırmalıyıq. Ona görə də biz bu gün həmin işlərlə əlaqədar olanları bu müşavirəyə dəvət edib, onlarla məsləhətləşməyi qərara aldıq.

Sonra Naxçıvan MR səhiyyə nazirinin müavini T. Cəfərov çıxış edərək sərhəd vuruşmalarında yaralananlara və qaçqınlara göstərilən tibbi xidmətin təşkili sahəsində görülən işlərə dair məlumat vermişdir.

Müşavirədə çıxış edən Sədərək Rayon Xəstəxanasının baş həkimi N. Seyidov, Naxçıvan Şəhər Xəstəxanasının baş həkimi M. Paşayev, Naxçıvan Respublika Sanitar-Epidemioloji Stansiyasının baş həkimi S. Cabbarov, Naxçıvan MR Təcili Yardım Mərkəzinin baş həkimi Ə.

Salmanov və başqaları yaralananlara və zərər çəkənlərə göstərilən tibbi yardımın vəziyyətindən, muxtar respublika səhiyyəsini müharibə şəraitinə uyğunlaşdırmaq problemlərindən danışmışlar.

Müşavirədə muxtar respublikada müdafiə işi ilə əlaqədar səhiyyə xidmətinin yaxşılaşdırılması üçün tədbirlər müəyyənləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev müşavirənin işinə yekun vurmuşdur.

*"Şərq qapısı" qazeti, 30 iyun 1992-ci il*

## Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili ilə əlaqədar bəzi məsələlər haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Rusiyanın Müdafiə Nazirliyi, Zaqafqaziya hərbi dairəsinin və 75-ci motoatıcı diviziyanın komandanlıqları ilə aparılan danışıqlar nəticəsində Naxçıvan şəhərində yerləşən 75-ci motoatıcı diviziyanın ləğv edilməsi və diviziyanın bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında əldə olunmuş razılıq barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin məlumatı nəzərə alınsın.

2. Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinə tapşırılsın ki, 75-ci motoatıcı diviziyasının bütün hərbi və təsərrüfat əmlakının planlı, mütəşəkkil surətdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sərəncamına verilməsi üçün lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Yuxarıda göstərilənlərə əsasən Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yenidən təşkil olunması və onun bazasın-

da Azərbaycan Müdafiə Nazirliyinin tərkibində müvafiq hərbi strukturun yaradılması zəruri hesab edilsin.

4. 75-ci motoatıcı diviziyanın hissələrində xidmət edən bütün azərbaycanlıların Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin tərkibinə daxil olması barədə məlumat nəzərə alınsın.

5. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə, Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinə tapşırılsın ki, 75-ci motoatıcı diviziyanın ləğvi ilə əlaqədar əmələ gələn məsələlərin həllində diviziyanın komandanlığına lazımi köməklik göstərsinlər.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 25 iyul 1992-ci il*

## Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin hərbi sursat anbarında partlayış və yanğın haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin və Daxili İşlər Nazirliyinin verdiyi məlumata görə, 25 iyul 1992-ci ildə saat 23.30 dəqiqədə Naxçıvan Dəmiryol Stansiyasının ərazisində yerləşən Dövlət Müdafiə Komitəsinin hərbi sursat anbarında partlayış olmuşdur. Naməlum şəxslər tərəfindən müxtəlif növ odlu silahlardan açılan intensiv atəş nəticəsində güclü partlayış olmuş, yanğın baş vermiş, nəticədə orada olan hərbi sursatlar tamamilə məhv olmuşdur. Bir neçə saat davam edən mərmilərin partlayışı və yanğın ağır nəticələrə səbəb olmuş, muxtar respublikanın müdafiə orqanlarına böyük maddi və mənəvi ziyan vurmuşdur. Hərbi sursatlar saxlanılan anbarı qoruyan bir nə-

fər əsgər yaralanmışdır. Partlayış zonasının yaxınlığında yerləşən yaşayış binalarına zərər dəymişdir. Partlayışlar və yanğın zamanı yaxın məhəllələrin əhalisi köçürülmüşdür. Bütün bunların hamısı Naxçıvan şəhərində gərgin mənəvi-psixoloji vəziyyət yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti hərbi sursat yerləşən anbarda baş verən partlayışı və yanğını silahlı cinayətkar qruplar tərəfindən Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətini sarsıtmaq və Naxçıvanda sabitliyi pozmaq məqsədi daşıyan akt kimi qiymətləndirir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Dövlət Müdafiə Komitəsinin hərbi sursat anbarındakı partlayış və yanğının səbəblərini təcili araşdırmaq və dəymiş ziyanın dəyərini təyin etmək məqsədilə aşağıdakı tərkibdə komissiya yaradılsın: A. Kələntərli - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini (sədr), Ə. Sadiqov - Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini, E. Abbasov - Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin sədri, H. Hüseynov - Naxçıvan Muxtar Respublikasının prokuroru, M. Məmmədov - Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, Ə. Ələkbərov - Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin müavini.

Komissiyaya tapşırılsın ki, aparılan işin nəticəsi barədə Ali Məclisə məlumat versin.

2. Naxçıvan Muxtar Respublikası Prokurorluğu (H. Hüseynov), Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi (M. Məmmədov, Ə. Ələkbərov) ağır nəticələrə səbəb olmuş, Dövlət Müdafiə Komitəsinin hərbi sursat anbarlarını məhv etmiş cinayət faktı üzrə təcili və ciddi istintaq aparsın, cinayətkarların axtarışı və məsuliyyətə cəlb olunması üçün qəti tədbirlər görsün və Ali Məclisə məlumat versinlər.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 26 iyul 1992-ci il*

## NAXÇIVANLA VİDALAŞDILAR

Keçmiş Sovet ordusunun 75-ci motoatıcı diviziyasının zabit və əsgər heyətinin son dəstəsi də avqustun 18-də muxtar respublikamızı tərk etdi.

Həmin gün diviziyanın əmlakının, silahlarının, hərbi texnikasının və sursatının Azərbaycan Milli Ordusunun Naxçıvandakı 5-ci əlahiddə motoatıcı briqadasına verilməsi haqqında sənədlərin imzalanması və diviziyanın zabit və əsgərlərinin Naxçıvanla vidalaşıb muxtar respublikadan yola salınması mərasimi oldu. Mərasimdə Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev iştirak edirdi.

Sənədlər imzalanarkən Heydər Əliyev mətbuat və televiziya nümayəndələri, habelə xarici jurnalistlər qarşısında qısa bəyanatla çıxış edərək dedi ki, bu gün müstəqil Azərbaycan Cümhuriyyətinin və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının həyatında çox əlamətdar, tarixi bir gündür. Uzun illər Naxçıvan Muxtar Respublikasında yerləşmiş Sovet ordusunun 75-ci motoatıcı diviziyası Azərbaycan silahlı qüvvələrinə təhvil verilir. İyul ayının 27-dən bu diviziyanın Azərbaycan silahlı qüvvələrinə, onun Naxçıvanda yerləşən 5-ci əlahiddə briqadasına təhvil verilməsi prosesi başlanmışdır. Bu gün həmin prosesin son mərhələsi başa çatır. Bütün hissələr üzrə təhvil-təslim aktları tərtib olunmuşdur. Diviziyanın bütün silahları, hərbi texnikası, əmlakı müstəqil Azərbaycan Respublikasının sərəncamına keçir. Bu gün biz son sənədləri imzalamaq üçün buraya toplaşmışıq. Bu barədə geniş məlumatı Azərbaycan Milli Ordusunun Naxçıvanda olan hissəsi qarşısında bəyan edəcəyik. Burada isə son sənədlərin imza olunması mərasimi keçirilir.

Sonra 75-ci diviziyanın bütün əmlakının, hərbi texnikasının, silah və sursatlarının, avadanlıqlarının Azərbaycan Milli Ordusunun Naxçıvandakı 5-ci əlahiddə briqadasına təhvil verilməsi haqqında sənədlər imzalandı.

Azərbaycan Milli Ordusunun Naxçıvandakı 5-ci əlahiddə briqadasının zabit və döyüşçüləri 75-ci motoatıcı diviziyanın qərargahı qarşısında nizami cərgələrdə düzülmüşdülər. "Farağat" komandası eşidildi. Bri -

qadanın əməliyyat şöbəsinin rəisi mayor R. Mustafayev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə raport verdi. Ali Məclisin Sədri "Salam, Azərbaycan əsgərləri!" deyə briqadanın döyüşçülərini salamladı. "Salam, salam, salam" səsləri ətrafa yayıldı. Sonra təntənəli mitinq başlandı. Heydər Əliyev mitinqə toplaşanlar qarşısında çıxış edərək dedi: – Azərbaycan Milli Ordusunun zabitləri və əsgərləri! Bu gün bizim üçün son dərəcə əlamətdar bir gündür. Bu gün öz müstəqilliyini əldə etmiş Azərbaycan dövləti artıq öz milli ordusunu yaradır. Bununla əlaqədar olaraq Azərbaycan dövləti öz ərazisindən başqa ordu hissələrinin çıxarılmasını təmin edir. Müstəqil Azərbaycan dövləti öz istiqlaliyyətinə nail olan gündən bu istiqlaliyyəti təmin etmək əzmindədir.

Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da bu yolda müvafiq addımlar atır, lazımi tədbirlər görür və torpağımızın toxunulmazlığını təmin etmək üçün Naxçıvan ərazisində öz milli silahlı qüvvələrinin yaradılması ilə məşğul olur.

Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi keçmiş Sovet İttifaqının, son vaxtlar isə Rusiya dövlətinin tabeliyində olan və Naxçıvanda yerləşən hərbi hissələrinin statusunun müəyyən edilməsi məsələsini irəli sürmüşdür. 1992-ci il yanvar ayının 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında muxtar respublika ərazisində yerləşən hərbi hissələrin burada qalıb-qalmaması və burada qaldığı müddətdə onların hüquqi əsaslarının müəyyən olunması məsələlərini müzakirə etmiş və bununla əlaqədar qərar qəbul etmişdir. O vaxtdan keçən müddət ərzində görülən tədbirlər nəticəsində Naxçıvanda olan keçmiş Sovet ordusunun hərbi hissələrinin buraxılması və hərbçilərin köçüb getməsi məsələsi qarşıya qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəhbərliyi bu barədə Rusiya dövlətinin rəhbərliyi, habelə Rusiya Federasiyası Müdafiə Nazirliyinin rəhbərliyi ilə, Zaqafqaziya Hərbi Dairəsinin, habelə Naxçıvandakı 75-ci motoatıcı diviziyasının komandanlığı ilə danışıqlar apararaq lazımi tədbirlər görmüş və bunun nəticəsində də razılıq əldə edilmişdir ki, Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziya buraxılmalı, həmin diviziyaya mənsub olan bütün silahlar, hərbi texnika, avadan-

lıq və döyüş sursatları Azərbaycan Milli Ordusunun Naxçıvanda yerləşən 5-ci əlahiddə motoatıcı diviziyasının sərəncamına verilməlidir.

Heydər Əliyev bunu böyük bir tarixi hadisə adlandıraraq dedi ki, Sovetlər İttifaqı dağılandan sonra keçmiş Sovet ordusunun hissələri milli müstəqillik əldə etmiş bir çox dövlətlərin, o cümlədən Azərbaycanın ərazisində hələ də qalmaqda davam edir. Bu dövrdə 75-ci diviziyanın Naxçıvandan getməsi məsələsi ortaya çıxanda belə bir fikir irəli sürülmüşdür ki, bu diviziya öz silahları, hərbi texnikası və əmlakı ilə birlikdə Naxçıvanı tərk edəcəkdir. Lakin sonralar aparılan danışıqlar bu nəticəyə gətirib çıxardı ki, 75-ci diviziya tamamilə buraxılır və ona mənsub olan bütün silahlar, hərbi texnika, sursatlar, hərbi və mülki əmlak Azərbaycan Respublikasının sərəncamına verilir. Bu baxımdan Rusiya ilə Azərbaycan arasında, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında əldə olmuş razılıq və imzalanmış müqavilə çox böyük tarixi əhəmiyyət kəsb edir.

Bu gün 75-ci diviziyanın şəxsi heyətinin son nümayəndələrini Naxçıvandan yola salarkən onu da qeyd etmək lazımdır ki, Sovet ordusunun hissələri Naxçıvan ərazisində 1920-ci ildən yerləşdirilmişdir. 75-ci motoatıcı diviziya isə 1946-cı ildə Naxçıvana gəlmiş və o vaxtdan indiyədək burada qalmaqda idi. Əgər bir az da uzaq tarixə nəzər salsaq, qeyd etməliyik ki, keçmiş çar Rusiyasının ordusu 150 il bundan əvvəl Naxçıvan ərazisində yerləşdirilmişdir. İndi Azərbaycan artıq öz müstəqilliyini əldə edib, milli azadlığa nail olub və öz ərazisində ancaq öz silahlı qüvvələrini saxlamaq əzmindədir. İyul ayının 27-dən 75-ci motoatıcı diviziyanın hərbi texnikasının, silahlarının və əmlakının Azərbaycan Milli Ordusunun Naxçıvanda yerləşən 5-ci motoatıcı briqadasına təhvil verilməsi başlanmışdır. Bu da təbii bir haldır. Çünki Sovetlər İttifaqı yarandığı dövrdən, bu ittifaqa daxil olan bütün respublikaların Sovet ordusuna mənsub olan əmlakda, texnikada, silahda, hərbi sursatda və avadanlıqda öz payları vardır. Sovetlər İttifaqının dağılması ilə əlaqədar Sovet ordusu ləğv olunduqdan sonra Azərbaycan da öz payını almalı idi və bu payın bir hissəsi də 75-ci motoatıcı diviziyadır.

Bu gün biz burada rus ordusunun zabit və əsgərlərinin son dəstəsini yola salarkən onu da qeyd etməliyik ki, 75-ci motoatıcı diviziyanın

Naxçıvanda yerləşdiyi dövrdə burada Sovet ordusunun səyilə çox böyük və müasir tələblərə uyğun hərbi qurğular, hərbi təsərrüfat yaradılmış, binalar və sair obyektlər tikilmişdir. Eyni zamanda 1946-cı ildən, 75-ci diviziya Naxçıvanda yerləşdiyi dövrdən bu diviziyanın şəxsi heyəti ilə Naxçıvanın əhalisi arasında mehriban münasibətlər, dostluq əlaqələri yaranmışdır. Ona görə də biz bu gün bu tarixi hadisəni qeyd edərkən və 75-ci diviziyanın nümayəndələrini yola salarkən bizimlə birlikdə uzun müddət Naxçıvan ərazisində yaşamış hərbçilərə öz təşəkkürümüzü və minnətdarlığımızı bildirmək istəyirik. Xüsusən çox ağır və mürəkkəb bir dövr olan son illərdə 75-ci diviziyanın komandanlığı və şəxsən diviziyanın komandiri Rostislav Slaboşeviç bu diviziya ilə Naxçıvan Muxtar Respublikası əhalisi arasında səmimi münasibətlər yaratmaq, habelə diviziyanın silahlarının, hərbi sursatının qorunub saxlanılması üçün böyük səy göstərmiş və indi diviziyanın malik olduğu bütün əmlak Azərbaycan Milli Ordusunun tərkibinə keçir.

Bir məsələni də qeyd etmək lazımdır ki, Azərbaycan indi öz milli dövlət quruculuğu ilə məşğuldur, milli ordusunu yaradır və milli müdafiə qüvvələrini möhkəmləndirir. Bu dövrdə Azərbaycan ona qonşu olan dövlətlərlə, o cümlədən Rusiya ilə bərabərhüquqlu əlaqələr yaradılmasına çalışmalıdır. Biz belə hesab edirik ki, 75-ci diviziyanın tərkibində xidmət etmiş hərbi qulluqçular öz vətənlərinə - Rusiyaya, Ukraynaya, Belarusiyaya qayıtdıqdan sonra belə Naxçıvanla öz əlaqələrini kəsməyəcək, Azərbaycanla həmin dövlətlər arasında bərabərhüquqlu əlaqələrin yaradılmasında öz səylərini əsirgəməyəcəklər. Bu gün Azərbaycan Milli Ordusunun Naxçıvanda olan 5-ci əlahiddə briqadasının sərəncamına böyük bir hərbi əmlak keçir. Şübhəsiz ki, bununla əlaqədar bizim üzərimizə çox böyük məsuliyyət düşür. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adından tam əmin olduğumuzu bildirirəm ki, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda yerləşən hissəsi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərindən dərk edəcək, briqadanın komandanlığı, bütün zabit və əsgər heyəti sərəncamlarına keçən hərbi əmlakın, texnikanın saxlanmasında, ondan səmərəli istifadə edilməsində böyük səy göstərəcəklər.

Mən Azərbaycan Milli Ordusunun tərkib hissəsi olan 5-ci Naxçıvan əlahiddə motoatıcı briqadasının şəxsi heyətinə, komandanlığına böyük uğurlar arzulayıram və ümidvar olduğumuzu bildirmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının müdafiə imkanları daha da artdıqca, Azərbaycan Milli Ordusu sıralarında xidmət edən oğullarımız bu imkanlardan daha səmərəli istifadə edəcək, Naxçıvanın müdafiəsini daha da möhkəmləndirəcəklər.

Sonra 75-ci motoatıcı diviziyasının komandiri general R. Slaboşeviç çıxış edərək diviziyanın Naxçıvanda olduğu 46 il ərzində muxtar respublika əhalisi ilə diviziyanın əsgər və zabitləri, komandanlığı arasında yaranmış möhkəm dostluqdan danışdı, bu illər ərzində onlara göstərilən xoş münasibətlər, xeyirxahlıq və qonaqpərvərlik üçün dərin təşəkkürünü bildirdi, demokratik islahatların həyata keçirilməsində, Azərbaycan Milli Ordusunun yaradılıb möhkəmləndirilməsində respublika hökumətinə, muxtar respublikanın Ali Məclisinə, 5-ci əlahiddə motoatıcı briqadanın komandanlığına böyük müvəffəqiyyətlər arzuladı.

Günortadan sonra Naxçıvan aeroportunda muxtar respublikanın rəhbərləri və ictimaiyyətin nümayəndələri 75-ci diviziyanın komanda heyətini, zabit və əsgərlərin son dəstəsini səmimiyyətlə yola saldılar.

*"Şərq qapısı" qəzeti, 22 avqust 1992-ci il*

## Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
QƏRARI

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Dövlət müstəqilliyini əldə etməsi, özünün milli ordusunun yaradılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilməsi zəruriy-

yətini əsas tutaraq 1991-ci il sentyabr ayının 6-da Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsini yaratmışdır. Dövlət Müdafiə Komitəsi muxtar respublikanın ərazisində Ermənistan tərəfindən edilən təcavüzə qarşı müdafiə işinin təşkil olunması ilə məşğul olmuş və ötən müddət ərzində bu istiqamətdə lazımi fəaliyyət göstərmişdir.

Bununla yanaşı Ali Məclis SSRİ-nin dağılması ilə əlaqədar olaraq yaranmış şəraitdə Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən SSRİ Silahlı Qüvvələrinin hərbi hissələrinin fəaliyyətini nəzarət altına almağa çalışmış və bu hissələrlə yerli hakimiyyət orqanlarının münasibətlərinin yeni əsaslar üzərində qurulması üçün müvafiq tədbirlər həyata keçirmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il oktyabrın 26-da və dekabrın 16-da keçmiş SSRİ Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən hərbi hissələrinin statusunun müəyyən edilməsi haqqında qərarlar qəbul etmişdir. Lakin Azərbaycan Respublikasının o zamankı siyasi rəhbərliyinin göstərilən məsələlərdə qeyri-müəyyən, qeyri-ardıcıl və bəzən Azərbaycan xalqının mənafeyinə zidd mövqe tutması bu qərarların həyata keçirilməsinə imkan verməmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi muxtar respublikanın ərazisində yerləşən keçmiş SSRİ Silahlı Qüvvələrinin hərbi hissələrinin statusunun müəyyən edilməsi haqqında 1992-ci il yanvar ayının 2-də təkrarən qərar qəbul etmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisindəki yeraltı və yerüstü sərvətlərin Azərbaycan xalqının, Azərbaycan Respublikasının, muxtar respublika əhalisinin milli sərvəti olduğunu əsas tutaraq Ali Məclis qeyd etmişdir ki, muxtar respublika ərazisində yerləşən keçmiş SSRİ Silahlı Qüvvələrinin hərbi hissələrinin bütün silahları, hərbi sursatları, texnikası, hərbi və mülki əmlakı Naxçıvan Muxtar Respublikasına məxsusdur. Ona görə də, hərbi hissələrin komandanlığına təklif olunmuşdur ki, onların bundan sonra respublika ərazisində qalmasının hüquqi statusu müəyyən edilsin. Bildirilmişdir ki, bu məsələ həll olunana qədər muxtar respublika ərazisində yerləşən bütün silahlı qüvvələr Ali Məclisə tabe olmalı, prinsipial məsələlərdə fəaliyyətini Ali Məclislə razılaşdırmalıdırlar.

Bu qərarın həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ardıcıl və prinsipial xarakterli addımlar atmışdır.

Naxçıvanın ərazisində yerləşən keçmiş SSRİ Silahlı Qüvvələrinin hissələrinin artıq Rusiya Respublikasının tabeliyinə keçdiyini nəzərə alaraq muxtar respublika Ali Məclisinin rəhbərliyi Rusiyanın Müdafiə Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin rəhbərləri ilə, Rusiya Sərhəd Qoşunları Baş Komandanlığının rəhbərləri ilə, Zaqafqaziya Hərbi Dairəsinin, Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin, Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyanın, 41-ci sərhəd qoşunları dəstəsinin komandanlıqları ilə müxtəlif vaxtlarda danışıqlar aparmış, Naxçıvan ərazisində yerləşən və eyni zamanda Azərbaycan Respublikasının tabeliyində olmayan qoşun hissələrinin ləğv olunmasını tələb etmişdir. Bu danışıqlarda muxtar respublika Ali Məclisinin rəhbərliyi Azərbaycan Respublikasının artıq tam müstəqil dövlət olduğunu və dünya dövlətləri tərəfindən müstəqil dövlət kimi tanındığını əsas tutaraq Azərbaycanın, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisində başqa dövlətin hərbi hissələrinin qalmasının qeyri-mümkün olduğunu qətiyyətlə bildirmişdir. Bütün bu prinsipial xarakterli, səmərəli danışıqlar nəticəsində Rusiya dövləti, onun Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Sərhəd Qoşunları Baş Komandanlığı Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən 75-ci motoatıcı diviziyanın, 41-ci sərhəd qoşunları dəstəsinin ləğv olunması və bu hərbi hissələrin sərəncamında olan silahların, sursatların, texnikanın, hərbi və mülki əmlakın Naxçıvanda Azərbaycanın sərəncamına verilməsi haqqında 1992-ci ilin iyul, avqust və sentyabr aylarında müvafiq qərarlar qəbul etmişlər.

Bu qərarlara əsasən 1992-ci il iyul ayının 27-dən avqust ayının 15-dək 75-ci motoatıcı diviziyanın sərəncamında olan silahlar, sursatlar, texnika, hərbi və mülki əmlak xüsusi komissiyaların aktları ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinə təhvil verilmişdir. Bu proseslər nəticəsində Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin və təhvil alınan 75-ci motoatıcı diviziyanın hərbi hissələrinin bazasında Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvanda 5-ci əlahiddə motoatıcı briqadası yaradılmışdır. Naxçıvan Mux-

tar Respublikası Dövlət Müdafiə Komitəsinin sədri Elman Abbasov Azərbaycanın müdafiə nazirinin əmri ilə 5-ci əlahiddə briqadanın komandiri təyin olunmuşdur.

75-ci motoatıcı diviziyanın şəxsi heyəti və onların ailə üzvləri son aylarda Naxçıvanın ərazisindən getmişlər. Diviziyanın komandiri general R. Slaboşeviç, digər yüksək rütbəli zabitlər və son qrup əsgərlər 1992-ci il avqust ayının 18-də xüsusi hərbi təyyarələrlə Naxçıvan aeroportundan yola salınmışlar. Beləliklə, azərbaycanlılardan başqa 75-ci motoatıcı diviziyanın başqa millətlərə mənsub olan bütün zabitləri, hərbi qulluqçuları və əsgərləri artıq Naxçıvanın ərazisini tərk etmişlər.

Məmnuniyyətlə qeyd etmək lazımdır ki, 75-ci motoatıcı diviziyanın ləğv olunması və onun sərəncamında olan hərbi və mülki əmlakın təhvil verilməsində heç bir hadisə baş verməmiş, bu proses qarşılıqlı hörmət və anlaşma şəraitində keçmiş, təhvil-təslim aktlarına əsasən hesab etmək olar ki, diviziyanın ixtiyarında olan bütün əmlak tamamilə Naxçıvanda Azərbaycan Respublikasına təhvil verilmişdir. 75-ci motoatıcı diviziyanın komandanlığı bu prosesin layiqli dövlət səviyyəsində keçirilməsi ilə əlaqədar olaraq diviziyanın şəxsi heyətinə göstərilən diqqət və hörmətə görə minnətdarlığını bildirmişdir.

Aparılan danışıqlar nəticəsində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisində İran İslam Respublikası və Türkiyə Respublikası ilə sərhədlərin qorunmasını təmin edən 41-ci sərhəd qoşunları dəstəsinin ləğv olunması, onun sərəncamında olan bütün silahların, sursatların, texnikanın və mülki əmlakın Azərbaycana verilməsi haqqında 1992-ci ilin avqust və sentyabr aylarında Rusiya dövləti tərəfindən qərarlar qəbul olunmuşdur. 41-ci sərhəd qoşunları dəstəsinin ləğv olunması məsələsini həll edərkən Naxçıvan Muxtar Respublikası ərazisində İran və Türkiyə ilə sərhədlərin qorunmasının təşkil olunması üçün lazımi tədbirlər görülmüşdür.

1992-ci il iyul ayının 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təklifi ilə Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının Naxçıvan ərazisində 1-ci sərhəd qoşunları dəstəsi yaradılmış, Cahangir Qulamov bu dəstəyə komandir təyin olunmuşdur. O vaxtdan

Azərbaycan Sərhəd Qoşunlarının 1-ci sərhəd qoşunları dəstəsi 41-ci sərhəd qoşunları dəstəsi ilə yanaşı fəaliyyət göstərməyə başlamış, sərhəddin mühafizəsini təmin etmək üçün şəxsi heyətin toplanması və başqa təşkilati işlərlə məşğul olmuşdur. İndi artıq 41-ci sərhəd qoşunları dəstəsinin sərhəddi muhafizə sahələri planlı şəkildə Azərbaycan Sərhəd Qoşunlarının 1-ci sərhəd qoşunları dəstəsi tərəfindən təhvil alınır. İran və Türkiyə ilə olan sərhəddin 40 faizi milli sərhəd qoşunları tərəfindən mühafizə olunur. Sentyabr ayının 30-na qədər 41-ci sərhəd qoşunları dəstəsi tamamilə ləğv olunacaq və onun bütün hərbi və mülki əmlakı Naxçıvanda yerləşən Azərbaycanın Milli Sərhəd Qoşunlarının sərəncamına veriləcəkdir. 41-ci sərhəd qoşunları dəstəsinin şəxsi heyətinin əksər hissəsi və bütün ailə üzvləri artıq Naxçıvanı tərk edib, qalmış hissəsi isə sentyabr ayının sonunadək Naxçıvandan yola salınacaqlar.

Beləliklə, 1992-ci il sentyabr ayının sonuna qədər Naxçıvan Muxtar Respublikasının ərazisində digər dövlətin, Rusiya Respublikasının heç bir hərbi hissəsi, hərbi qulluqçusu qalmayacaqdır. Təxminən iki əsr müddətində Naxçıvan torpağında əcnəbi ölkənin hərbi hissəsinin yerləşməsinə son qoyulur. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Milli Ordusunun və Azərbaycan Milli Sərhəd Qoşunlarının hissələri fəaliyyət göstərməkdədir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisində uzun illər boyu yerləşmiş keçmiş SSRİ Silahlı Qüvvələrinin, sonra isə Rusiya Federasiyasının tabeliyində olan hərbi hissələrin ləğv olunması, onların sərəncamında olan silahların, hərbi sursatların, texnikanın, hərbi və mülki əmlakının Azərbaycan xalqına, müstəqil Azərbaycan dövlətinə təhvil verilməsi, digər dövlətə mənsub olan hərbi qulluqçuların tamamilə Naxçıvanın ərazisini tərk etməsi ədalətli hüquqi, böyük tarixi əhəmiyyətə malik olan bir hadisə kimi qiymətləndirilsin.

2. Keçmiş SSRİ Silahlı Qüvvələrinin, sonradan isə Rusiya Federasiyasının tabeliyində olan və Naxçıvan Muxtar Respublikasının ərazi-

sində yerləşən hərbi hissələrin ləğv olunması, onların hərbi və mülki əmlakının Azərbaycan xalqına təhvil verilməsi, müstəqil Azərbaycan dövlətinin Naxçıvan ərazisində milli silahlı qüvvələrinin yaranması naminə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, onun rəhbərliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin həyata keçirdikləri tədbirlər bəyənilsin və təqdirəlayiq hesab edilsin.

3. 75-ci motoatıcı diviziyanın hərbi və mülki bazası, Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinin bazası əsasında Naxçıvanda Azərbaycan Müdafiə Nazirliyinin yeni hərbi hissəsinin təşkil edilməsi ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsi ləğv olunsun.

Nəzərə alınsın ki, Naxçıvan Muxtar Respublikası ərazisində yaranan Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yeni hissələri öz fəaliyyətlərini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə sıx əlaqədə həyata keçirəcək, Naxçıvanın Ermənistan tərəfindən hərbi təcavüzdən müdafiə olunması tədbirlərini Ali Məclisin, Naxçıvan Muxtar Respublikası Müdafiə Şurasının rəhbərliyi altında aparacaqdır.

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisində yeni vahid hərbi hissələrinin yaranması, bütün müdafiə məsələlərinin bu hissələrin tərəfindən təşkil olunmasını nəzərə alaraq Naxçıvan Muxtar Respublikasında Xalq Cəbhəsinin silahlı qüvvələri buraxılsın. Bütün silahlar, sursatlar Azərbaycanın Müdafiə Nazirliyinin Naxçıvanda yerləşən hərbi hissəsinə təhvil verilsin.

Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan bütün silahlı dəstələr ləğv olunsun. İyirmi gün müddətində əhalidə olan bütün qeyri-qanuni silahlar yığılsın.

Bu tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrinə, Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinə həvalə olunsun.

4. Nəzərə alınsın ki, 75-ci motoatıcı diviziyanın hissələrində, 41-ci sərhəd qoşunları dəstəsinin hissələrində xidmət etmiş azərbaycanlılar, Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinin hissələrində xidmət edən hərbi qulluqçular Naxçıvan Muxtar Respublikası-

nın ərazisində yaranan Azərbaycan Milli Silahlı Qüvvələrinin hissələrində xidmət edəcəklər.

5. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə tapşırılsın ki, Naxçıvanın ərazisində yeni yaranan Azərbaycan Milli Silahlı Qüvvələrinin hərbi hissələrinin təşkil olunmasında və fəaliyyət göstərməsində lazımi köməklik göstərsinlər.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikasının**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 19 sentyabr 1992-ci il*

## Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin yaradılması haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyi yaradılsın.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 20 sentyabr 1992-ci il*

## AZƏRBAYCANIN DÖVLƏT BAYRAĞI QALDIRILDI

Rusiya Federasiyasının, Rusiya Milli Təhlükəsizlik Nazirliyinin, Rusiya Sərhəd Qoşunları Baş İdarəsinin rəhbərliyi ilə aparılan danışıqlar nəticəsində keçmiş Sovet İttifaqının sərhəd qoşunlarının Naxçıvanda yerləşən 41-ci sərhəd dəstəsi ləğv olunmuşdur.

Uzun illər boyu keçmiş SSRİ-nin İran və Türkiyə ilə dövlət sərhəddinin mühafizəsini Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisində 41-ci sərhəd dəstəsi həyata keçirirdi.

SSRİ dağıldıqdan sonra 41-ci sərhəd dəstəsi sərhəddin mühafizəsi funksiyasını Müstəqil Dövlətlər Birliyinin Sərhəd Qoşunları Komitəsinin tabeliyində davam etdirmişdir. Sonralar 41-ci sərhəd dəstəsi Rusiyanın yurisdiksiyası altında Rusiyanın Sərhəd Qoşunları Baş İdarəsinin tabeliyinə keçmişdir.

Azərbaycan Respublikasının tam müstəqil dövlət olduğunu əsas tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 41-ci sərhəd dəstəsinin bundan sonra fəaliyyət göstərməsini və onun tərəfindən Azərbaycanla həmsərhəd ölkələr - İran və Türkiyə arasındakı dövlət sərhədinin mühafizəsi funksiyasının həyata keçirilməsini qeyri-mümkün hesab etmişdir. Bununla əlaqədar olaraq Ali Məclis tərəfindən müvafiq qərarlar qəbul olunmuş və zəruri təkliflər irəli sürülmüşdür.

1992-ci ilin avqust-sentyabr aylarında Rusiya dövləti, Rusiyanın Milli Təhlükəsizlik Nazirliyi, Rusiya Sərhəd Qoşunları Baş İdarəsi tərəfindən 41-ci sərhəd dəstəsinin ləğv edilməsi, onun bütün hərbi, hərbi-texniki və təsərrüfat əmlakının Azərbaycan sərhəd qoşunları milli qüvvələrinə verilməsi haqqında qərarlar qəbul edilmişdir. Avqust-sentyabr aylarında Rusiya Sərhəd Qoşunları Baş İdarəsi və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin nümayəndələrinin iştirakı ilə 41-ci sərhəd dəstəsinin şəxsi heyətinin Naxçıvan Muxtar Respublikası ərazisindən tədricən çıxarılması və Naxçıvan ərazisində dövlət sərhədinin mühafizəsi funksiyasının və dəstənin bütün əmlakının yeni yaradılmış Azərbaycan Respublikasının 1-ci sərhəd dəstəsinə verilməsi həyata keçirilmişdir.

1992-ci il sentyabrın 29-da Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin rəhbərliyinin, Rusiya

Sərhəd Qoşunları Baş İdarəsinin və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin nümayəndələrinin iştirakı ilə 41-ci sərhəd dəstəsinin ləğv olunması və onun funksiyalarının, bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının 1-ci sərhəd dəstəsinə verilməsi haqqında sənədlər imzalanmışdır.

Beləliklə, Azərbaycan Respublikası ilə qonşu dövlətlər – İran və Türkiyə arasında Naxçıvan Muxtar Respublikası ərazisindəki 215 km məsafədə dövlət sərhədi Azərbaycanın 1-ci sərhəd dəstəsi tərəfindən mühafizə olunur. Bütün sərhəd məntəqələrində və keçmiş 41-ci sərhəd dəstəsi qərargahının üzərində Azərbaycan Respublikasının dövlət bayraqları qaldırılmışdır.

Bu hadisə ilə əlaqədar 1992-ci il sentyabrın 29-da sərhəd dəstəsi qərargahının ərazisində Azərbaycan Respublikasının 1-ci sərhəd dəstəsinin hissələrinin, Naxçıvan şəhər ictimaiyyətinin iştirakı ilə mitinq olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev mitinq iştirakçıları qarşısında çıxış etmişdir.

Elə həmin gün keçmiş 41-ci sərhəd dəstəsinin sonuncu qrup zabit və əsgəri, dəstənin komandiri, polkovnik V. Jukov, Zaqafqaziya Sərhəd Qoşunları Dairəsi komandanının müavini general-mayor P. Tarasenko, Rusiya Sərhəd Qoşunları Baş İdarəsinin nümayəndələri general-mayor Y. Dolotov, polkovnik Q. Mişinin xüsusi təyyarə ilə Naxçıvandan Dağıstan Respublikasının Mahaçqala şəhərinə yola düşmüşlər. Orada Azərbaycan ilə Rusiya arasındakı sərhəddə yeni sərhəd dəstəsinin yaradılması nəzərdə tutulur. Aeroportda sərhədçiləri Naxçıvan Muxtar Respublikasının rəhbərləri və ictimaiyyətin nümayəndələri yola salmışlar.

Razılıq hissi ilə qeyd etmək lazımdır ki, keçmiş 41-ci sərhəd dəstəsinin bütün hərbi, hərbi-texniki və təsərrüfat əmlakı tamamilə Azərbaycan Respublikasının Naxçıvandakı 1-ci sərhəd dəstəsinə təhvil verilmiş, təhvil-təslim prosesi işgüzar və normal şəraitdə keçmiş, bu zaman heç bir münaqişəli hal olmamışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*30 sentyabr 1992-ci il*

## NAXÇIVANDA HƏRBİ PARAD

Oktyabrın 9-da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının birinci ildönümü münasibətilə Naxçıvan şəhərindəki Azadlıq meydanında hərbi parad olmuşdur.

Saat 10.00-dır. Azərbaycan Milli Ordusunun Naxçıvanda yerləşən hissələrinin əsgər və zabitləri meydanda nizamlı sıralarda düzülmüşlər. Minlərlə naxçıvanlı da Azadlıq meydanına toplaşmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Ali Məclisin və Nazirlər Kabinetinin məsul işçiləri meydanda düzəldilmiş tribunaya qalxdılar.

"Farağat" komandası verildi. Əməliyyat şöbəsinin rəisi mayor Mustafayev meydanda düzülmüş hissələrin parada hazır olmaları barədə raport verdi.

Azərbaycan Respublikasının Dövlət Himninin melodiyaları meydana yayılır. Azərbaycan silahlı qüvvələrinin nümayəndəsi polkovnik Şahbazov mikrofona yaxınlaşaraq silahlı qüvvələrin döyüşçülərini və meydana toplaşanları əlamətdar ildönümü münasibətilə təbrik etdi.

Söz Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevə verildi.

Heydər Əliyev döyüşçülərə və meydana toplaşmış naxçıvanlılara müraciətlə dedi:

– Bu gün müstəqil Azərbaycan dövlətinin, Azərbaycan xalqının tarixində ən əlamətdar bir gündür. Azərbaycan Respublikasının Milli Silahlı Qüvvələrinin yaradılmasının birinci ildönümünü qeyd etmək üçün biz Azadlıq meydanına toplaşmışıq. Bu böyük bayram münasibətilə Azərbaycanın zabit və əsgərlərini, bütün Azərbaycan ordusunda xidmət edən döyüşçüləri, Naxçıvan Muxtar Respublikası əhalisini, muxtar respublikanın Ali Məclisi və Nazirlər Kabineti adından təbrik edirəm və bizim müstəqil Azərbaycanın Milli Ordusuna müvəffəqiyyətlər və uğurlar arzulayıram.

Müstəqil Azərbaycanın dövlətçilik atributlarının əsas hissəsi olan milli silahlı qüvvələri, milli ordusu artıq yaranmışdır. Bu proses heç də asan olmamışdır. Buna nail olmaq üçün Azərbaycanın mütərəqqi fikirli vətənpərvər, azadlıq sevən övladları uzun illər həsrət içində yaşa-

mış, mübarizə aparmış və nəhayət Azərbaycan torpağında müstəqil milli dövlət və onun milli ordusunun yaradılmasına nail olmuşlar.

Heydər Əliyev sözünə davam edərək dedi ki, biz 70 il ərzində hər il keçmiş Sovetlər İttifaqının silahlı qüvvələrinin bayramlarının iştirakçısı olmuşuq. Fəqət bugünkü bayram bizim hər birimizin qəlbində böyük iftixar hissi doğurur. Biz böyük sevinc içərisindəyik. Çünki Azərbaycan xalqı nəhayət öz dövlətini, öz millətini, öz doğma torpaqlarını müdafiə etmək üçün milli ordusunu yaratmışdır. Bu ordunun bir hissəsi də Naxçıvanda yerləşir.

Biz bu gün Azərbaycan xalqının gənc və cəsur övladlarının ordu sıralarında xidmət edərək öz bayramlarını qeyd etmək üçün bu meydanda nizamlı sıralarda durduqlarını görürük. Biz milli ordumuzun günügündən möhkəmlənməsini, inkişaf etməsini dərk etdikcə bir daha Azərbaycanın müstəqil dövlət olması üçün nə qədər böyük yol keçdiyini yadımıza salır və bunun Azərbaycan xalqı üçün, bugünkü və gələcək nəsillər üçün nə qədər vacib və zəruri olduğunu bir daha hiss edirik.

Azərbaycan milli ordusu ağır müharibə şəraitində yaranıb. Qəhrəman oğullarımız Azərbaycanla Ermənistanın sərhəd bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan torpağını, xalqımızın milli azadlığını, toxunulmazlığını müdafiə edərək böyük qəhrəmanlıqlar göstərmiş, bu yolda qurbanlar vermişlər. Ancaq bunlar bizdə heç də sarsıntı hissi yaratmamalıdır. Bu gün Azərbaycan Silahlı Qüvvələri yaradılmasının ildönümünü qeyd edərkən biz şəhid olmuş oğullarımızın və qızlarımızın xatirəsini bir daha yad edirik və onların ruhunu əmin etmək istəyirik ki, qəhrəman oğul və qızlarımızın şəhid olması Azərbaycan Milli Ordusu əsgərlərinin daha cəsarətli, daha mətanətli olması üçün böyük nümunə olacaq, biz bu gün də Azərbaycan Silahlı Qüvvələrini əzəmətli, qüdrətli bir ordu kimi görəcəyik. İndi artıq Azərbaycan xalqı, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının əhalisi tam əmin ola bilərlər ki, Azərbaycan torpaqlarını, onun müqəddəs sərhədlərini müdafiə etmək üçün layiqli ordusu, bu ordunun lazımi qədər silahı, sursatı, texnikası var. Mən, şübhəsiz ki, heç kimi arxayın salmaq, heç kəsi sayıqlıqdan çəkindirmək istəmi-

rəm. Azərbaycan xalqı öz milli azadlığını əldə edib. Azərbaycan müstəqil dövlət kimi dünyada tanınıb və heç bir qüvvə xalqımızı bu yoldan geri döndərə bilməz. Lakin biz müstəqil Azərbaycan dövlətini möhkəmləndirmək, onun hərbi qüdrətini daha da yüksəltmək üçün çox böyük və çətin yol keçməliyik.

Biz bu gün Azərbaycan Milli Ordusunun cəsur əsgərləri qarşısında onu deyə bilərik ki, Azərbaycan xalqının tarixi ənənələri, qəhrəman keçmişi, xalq qəhrəmanlarının cəsarəti, milli ordumuzun əsgərlərini təcavüzkarlara qarşı vuruşlarda yeni-yeni qələbələrə ruhlandıracaqdır. Müstəqil Azərbaycan dövləti öz milli dövlətini quracaq, torpaqlarının hamısını özünə qaytaracaq və öz xalqının sülh, əmin-amanlıq şəraitində, öz ənənələri əsasında yaşamasını təmin edəcəkdir.

Mən bu gün bu meydanda xoş əhval-ruhiyyə ilə Naxçıvan Muxtar Respublikası vətəndaşları ilə birlikdə Azərbaycan Milli Ordusunun bu meydanda toplaşmış nümayəndələrini səmimi qəlbdən salamlayıram. Onu da demək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının xüsusi çoğrafi vəziyyəti ilə əlaqədar olaraq üç tərəfdən Ermənistan ərazisi ilə əhatə olunmuş sərhədlərində yeni fitnəkarlıqların baş verəcəyini nəzərə alaraq Azərbaycan Milli Ordusu hissələrinin daha da möhkəmləndirilməsi, daha da intizamlı, qüdrətli olması çox mühüm şərtlərdəndir.

Muxtar respublikamızın əhalisi artıq bilir ki, Naxçıvanda uzun illər, əsrlər boyu yerləşmiş əcnəbi ölkənin qoşunları artıq buradan çıxarılmışdır. Uzun illər Naxçıvanda məskən salmış 75-ci motoatıcı diviziyanın son dəstəsi avqust ayının 18-də Naxçıvandan yola salınmışdır. Həmin diviziyanın bütün silahları, texnikası, hərbi ləvazimatı və əmlakı Azərbaycan xalqının, milli ordumuzun Naxçıvanda yerləşən hissələrinin sərəncamına keçmişdir. Naxçıvanın qonşu İran və Türkiyə ilə sərhədləri on illər, hətta əsrlər boyu rus qoşunları tərəfindən qorunmuşdur. Artıq onlar da Naxçıvanı tərk edib. Biz keçmiş Sovetlər İqqifaqının, sonra isə Rusiyanın burada yerləşən 41-ci sərhəd qoşunları hissəsinin buradan tamam çıxıb getməsinə nail olduq və Azərbaycanda ilk dəfə olaraq Milli Sərhəd Qoşunlarının birinci dəstəsi yaradıldı. İndi artıq qonşu İran və Türkiyə ilə sərhədlərimizi Azərbaycanın Milli Sərhəd Qoşunlarının Naxçıvanda yerləşən dəstəsi mühafizə edir.

Bütün bunlar tarixi hadisələrdir və nəinki bugünkü, həmçinin gələcək nəsillər tərəfindən layiqincə qiymətləndiriləcəkdir.

İndi Azərbaycan Milli Ordusunun Naxçıvanda yerləşən hərbi hissələrinin, sərhəd qoşunları hissələrinin ən ümdə vəzifəsi ondan ibarətdir ki, sərəncamlarına aldıqları çox böyük, qüdrətli və lazımi səviyyədə olan hərbi potensialı bu qədim diyarı düşmən hücumlarından layiqincə qorumağa yönəltsinlər.

Biz azadlıq əldə etmək uğrunda mübarizə apararkən, torpaqlarımızı düşməndən qorumağa başlayarkən çox cüzi imkanlarımızdan istifadə etdik. Ayrı-ayrı silahlı dəstələr yaradıldı. Naxçıvanın vətənpərvər oğulları torpaqlarımızı, sərhədlərimizi qəhrəmanlıqla müdafiə etdilər. Hələ keçən il sentyabr ayının əvvəllərində Azərbaycanda milli ordu yaradılmamış, Naxçıvanın xüsusi vəziyyətini nəzərə alaraq burada Dövlət Müdafiə Komitəsi yaradılmışdı.

Naxçıvan Dövlət Müdafiə Komitəsi bu dövrdə xeyli iş görmüş və bu gün həm 75-ci motoatıcı diviziyanın buradan çıxarılmasında, ona məxsus olan hərbi texnikanın, silah və sursatların təhvil alınmasında və onun bütün hərbi potensialının ələ alınmasında, həm də 41-ci sərhəd qoşunları dəstəsinin buradan çıxarılmasında böyük rol oynamışdır.

Biz indiyədək Naxçıvan torpağını cəsarətlə qorumuş bütün vətənpərvər Naxçıvan oğullarına, bütün könüllü dəstələrə öz minnətdarlığımızı bildiririk, onların gördükləri işləri layiqincə qiymətləndiririk, eyni zamanda onu da bəyan etmək istəyirik ki, artıq Naxçıvanda nizamlı milli Azərbaycan ordusunun hərbi hissələri mövcuddur. Bu hissələr lazımi gücə malikdir və Naxçıvan torpaqlarını müdafiə etməyə qadirdir. Eləcə də Naxçıvanın qonşu İran və Türkiyə ilə sərhədlərini mühafizə etmək üçün öz milli sərhəd dəstəmiz var. Ona görə də bütün könüllü dəstələrə minnətdarlığımızı bildirməklə, onlara tövsiyə edirik ki, bundan sonra öz vətəndaşlıq vəzifələri ilə məşğul olsunlar. Torpaqlarımızın düşməndən müdafiəsini ancaq və ancaq Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda yaradılmış hissələri həyata keçirməlidirlər. Bizim borcumuz bu hissələrin möhkəmlənməsinə, inkişaf etməsinə hərtərəfli kömək göstərməkdən, onlara yüksək qayğı ilə yanaşmaqdan, qarşılarına çıxan bütün çətinliklərin aradan qaldırılmasında yaxından iş-

tirak etməkdən ibarətdir. Heç şübhə yoxdur ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Nazirlər Kabineti, bütün nazirliklər, dövlət komitələri, müəssisələr, təşkilatlar, ayrı-ayrı vətəndaşlar Azərbaycan Milli Ordusunun Naxçıvanda yerləşən hissələrinə öz qayğı və köməkliklərini əsirgəməyəcəklər. Bu bizim üçün çox müqəddəs və şərəfli vəzifədir.

İndi bizim Azərbaycan ordusunda, onun Naxçıvanda yerləşən hissələrində peşəkar, hərbi təhsil almış zabitlər xidmət edirlər. Onlar öz peşə ustalıqlarını artırmaq, hərbi elmə, hərbi texnikaya dərindən yiyələnmək üçün çox ciddi səy göstərməli, gənc əsgərləri də buna sövq etməlidirlər.

Biz tam əminik ki, bu keçid dövründə, Ermənistanla gedən müharibə şəraitində yaradılmış Milli Ordumuzun əsgər və zabitləri, bölmə və hissə komandirləri öz döyüş məharətlərini durmadan yüksəldəcək, müasir hərbi elmə inadla yiyələnəcək, torpaqlarımızın etibarlı surətdə müdafiə olunmasını yüksək səviyyədə təmin edəcəklər.

Heydər Əliyev çıxışının sonunda Azərbaycanın Milli Ordusuna, onun Naxçıvanda yerləşən hissələrinə yeni böyük uğurlar arzuladı.

Parad başa çatdı. Azərbaycan Milli Ordusunun Naxçıvandakı hissələrinin döyüşçüləri mətin addımlarla meydandan keçərək, müqəddəs torpaqlarımızın qorunmasına tam hazır olduqlarını bir daha nümayiş etdirdilər.

*"Şərq qapısı" qəzeti, 10 oktyabr 1992-ci il*

## SƏRHƏDÇİLƏR AND İÇDİLƏR

Oktyabrın 18-də Azərbaycan Sərhəd Qoşunlarının Naxçıvandakı birinci dəstəsinin yerləşdiyi şəhərcikdə xüsusi bir canlanma var idi. Burada gənc sərhədçilərin hərbi andiçmə mərasimi keçirilirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Türkiyə Respublikası Baş nazirinin müşaviri Əli Naci Tüncəl, şəhər ictimaiyyətinin nümayəndələri və gənc sərhədçilərin valideynləri bu xoş mərasimdə iştirak edirdilər.

Azərbaycan Sərhəd Qoşunları birinci şəxsi heyəti nizami sıralarda dayanmışdı. Sərhəd qoşunları dəstəsinin qərargah rəisi podpolkovnik Şahmurad Məmmədov gənc sərhədçilərin andiçmə mərasiminə hazır olduqları barədə Ali Məclisin Sədrinə raport verdi. Heydər Əliyev sərhədçiləri salamladı.

Sıravi əsgərlər Fəxrəddin Bəhramov, Cəlil Bayramov, Əfqan Əliyev, Fariz Qasımov, Əziz Gözəlov, Zülfüqar Məmmədov, Bəxtiyar Nəcəfov, Hüseyn Mahmudov, Akif Abbasov və başqaları bir-birinin ardınca hərbi and içdilər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri H. Əliyev əsgər sıralarına yanaşaraq hərbi and içənləri səmimi təbrik etdi, onlara hərbi xidmətdə, müqəddəs sərhədlərimizin mühafizəsində müvəffəqiyyətlər arzuladı.

Hərbi andiçmə mərasimi başa çatdı. Heydər Əliyev, Türkiyə Respublikası Baş nazirinin müşaviri Əli Hacı Tüıncəl və başqa qonaqlar tribunaya qalxdılar. Heydər Əliyev sərhədçilərə müraciətlə dedi:

– Əziz Azərbaycan əsgərləri, müstəqil Azərbaycan dövlətinin sərhədlərini qoruyan qoşun hissələrində xidmətə başlayan bizim övladlarımız. Bu gün sizin həyatınızda tarixi bir gündür. Siz müstəqil Azərbaycan sərhədlərinin toxunulmazlığını, respublikamızın ərazi bütövlüyünü təmin edən Azərbaycan Sərhəd Qoşunlarının sıralarında xidmət etməyə başlayırsınız. Siz indi müstəqil Azərbaycan dövlətinə sədaqətlə xidmət etmək andı içdiniz. Bu and müqəddəs anddır. Azərbaycan xalqının son 70 ildə hərbi xidmətə gedən oğulları daim Sovet ordusuna, Sovet dövlətinə, Sovet silahlı qüvvələrinə sədaqətlə xidmət edəcəklərinə and içərdilər. Bu, o dövrün xarakterik cəhəti idi. İndi isə bizim üçün ən fərəhli, ən xoşbəxt məram ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət olub. Azərbaycan xalqı öz milli azadlığına nail olub və indi müstəqil dövlətin atributlarını yaratmaq işi ilə məşğuldur. Bu baxımdan ən mühüm sahə olan sərhəd qoşunlarının yaradılması prosesi gedir.

Biz bu gün çox böyük məmnuniyyət hissi ilə müstəqil Azərbaycan dövlətində sərhəd qoşunlarının yaradılmasını məhz buradan, Naxçıvandan, Azərbaycanın bu qədim diyarından başlandığını qeyd edirik. Azər-

baycanın digər sərhədlərindən fərqli olaraq burada keçmiş Sovetlər İttifaqına, ondan sonra isə Rusiya dövlətinə mənsub olan sərhəd qoşunu hissələri bir ay öncə muxtar respublikadan çıxarılmış, onların bütün silahları, hərbi texnikası, sursatları, bütün əmlakı, binaları Azərbaycan Sərhəd Qoşunlarının Naxçıvanda yaradılmış birinci sərhəd dəstəsinin sərəncamına verilmişdir.

İndi Naxçıvanda birinci sərhəd qoşunları dəstəsinin yaranması və inkişaf etməsi prosesi getdiyi bir vaxtda siz bu gün doğma torpaqlarımızın sərhədlərini göz bəbəyi kimi qorumaq üçün hərbi xidmətə başlamısınız və Vətənə sədaqətlə xidmət edəcəyinizə and içdiniz. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm, sizə möhkəm cansağlığı, yenilməz iradə, cəsarət, mətanət arzulayıram. Azərbaycanın müstəqilliyini, onun sərhədlərinin qorunmasında böyük uğurlar diləyirəm. Bu gün burada sizinlə birlikdə bir çoxlarınızın valideynləri də bu mərasimdə iştirak edir. Əgər keçən illərdə Azərbaycan övladları hərbi xidmət, o cümlədən sərhəd qoşunlarında xidmət etmək üçün Sovetlər İttifaqının ən uzaq yerlərinə, sərhədləri qorumağa göndərilirdisə, indi Azərbaycanın hər yerindən buraya, birinci sərhəd qoşunları dəstəsində xidmət etməyə gəlmişlər.

Siz bu gün öz xalqınızın, millətinizin, öz ata-analarınızın qarşısında and içdiniz. Mən tam əminəm ki, siz bu anda həmişə sadiq qalacaqsınız. Naxçıvanda yaranmış birinci sərhəd qoşunları dəstəsi artıq fəaliyyətdədir. Onlar 215 kilometrlik sərhədlərimizi mühafizə edirlər. Lakin bu, hələ işin başlanğıcıdır. Birinci sərhəd qoşunları dəstəsinin komandanlığı qarşısında çox böyük məsuliyyətli və mürəkkəb vəzifələr durur. Biz əminik ki, öz xalqına, öz millətinə, öz müstəqil dövlətinə xidmət edərkən bu vəzifələrin, bütün çətinliklərin öhdəsindən daha asanlıqla gəlmək olar.

Mən bu gün Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adından sizə xeyir-dua verirəm, möhkəm cansağlığı arzulayıram. Valideynləriniz adından da sizə uğurlu xidmət arzulayıram. Əminəm ki, siz bu etimadı layiqincə doğruldacaqsınız, qədim diyar olan Naxçıvanda öz xidmətinizlə müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsinə və inkişaf etməsinə öz payınızı verəcəksiniz.

Heydər Əliyev gənc sərhədçiləri bir daha səmimi qəlbdən təbrik etdi, onlara möhkəm cansağlığı və hərbi xidmətdə uğurlar arzuladı.

Mərasim başa çatdıqdan sonra Heydər Əliyev sərhədçi gənclərin andiçmə mərasimində iştirak edən valideyıləri ilə səmimi söhbət etdi.

*"Şərq qapısı" qəzeti, 21 oktyabr 1992-ci il*

## Naxçıvan Muxtar Respubliukası Ali Məclisinin Sədri Heydər Əliyevin yanında keçirilən müşavirənin PROTOKOLU

*(10 noyabr 1992-ci il)*

**Heydər Əliyev** (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri): Bugünkü müşavirə Naxçıvan Muxtar Respublikasının müdafiə məsələsinə həsr olunur. Hələ keçən il biz müdafiə komitəsi yaratmışdıq. O vaxt Rusiyanın hərbi hissəsindən olan silahlar Azərbaycan ordusunun Naxçıvanda yerləşən hissəsinə verildi. İndi bizim milli ordumuz Naxçıvanda yerləşir. Bu müşavirəyə hakimlər, hərbi komissarlığın nümayəndələri, polis işçiləri, XDM sədrləri və XDM İK sədrləri dəvət olunmuşlar. Təəssüf ki, bəzi qüvvələr bizim işimizi pozurlar. Son illərdə Azərbaycanda olan özbaşınalıq Naxçıvana da öz təsirini göstərib və bu pozğunçuluq gəlib o yerə çatıb ki, onlar istədiklərini edirlər. Biz nizam-intizamı qorumalıyıq. Ordubad rayonu muxtariyyət yaratmaq istəyir. Bunun nəticəsində də Ordubadın əhalisi tökülüb gəlir Naxçıvana. Onlar bu vəziyyətdən qurtarmalarını və ərzaqla təmin olunmalarını tələb edirlər. Bugünkü müşavirədə səbəbsiz olaraq iştirak etməyənlər haqqında tədbir görüləcəkdir. Bu vəziyyəti yaradanlar haqqında da tədbir görüləcəkdir.

**R. Məmmədov** (Naxçıvan Muxtar Respublikasının hərbi komissarı): Sovet ordusu dövründə intizamı pozan zabit haqqında tədbir görülürdü. Bu gün mən ziyalılar qarşısında çıxış edib onların indiki vəziyyətlə tanış olmalarını istəyirəm. Naxçıvan camaatı işgüzar və təmiz adamlar-

dır. Bu bizim son sözümüzdür. Hərbi komissarlıqda və Azərbaycanda rüşvətxorluq baş alıb gedir. Mən hərbi komissarlıqda demişəm ki, kimlər güzəştə düşürsə, onların adlı siyahısı yazılıb hərbi komissarlıqların qapılarına vurulsun. İndi bizdə dəqiq qərarlar hazırlanıb və qəbul olunub, lakin onlar kağız üzərində qalıb. Bu günə kimi əhali ilə söhbətlər aparılmasına baxmayaraq, heç nə edilməyib. İndi gənclər çağırışa gəlmirlər. Əgər rəhbər işçinin övladı getmirsə, sıravi adamdan nə gözləmək olar. Bizim Azərbaycan qızları silaha sarılıb öz Vətənini qoruyur. Naxçıvan bizə böyük sərkərdələr verib. İndi hər şey səhmana düşüb. Yeni yaranmış vəziyyətlə əlaqədar rayon xalq deputatları məclislərinin sədrləri hərbi vəziyyətlə əlaqədar sədr təyin olunublar. Yeni yaranan hərbi hissənin həyətində olanda mən inandım ki, bizim özümüzün ordumuz yaranıb. Yaxşı zabitlər yetişir. İndiki zabitlərimiz çox layiqli adamlardır. Gəncləri hərbi məktəblərə göndərmək lazımdır. Bu günə kimi cəmi çağırışçıların 14 faizi hərbiyə çağırılıb. 325 nəfər çağırışdan yayınıb. Naxçıvan şəhəri üzrə çağırışçılardan cəmi 15 nəfərini orduya vermişik. Rus ordusundan qaçan çağırışçılarımız isə 23 nəfərdir. Şərur rayonu vur-tut 10 faiz çağırışçı verib, Babək rayonu 105 nəfər, Ordubad rayonu isə 217 nəfər. Naxçıvanda çağırışın pozulması dözülməz haldır. Ordudan yayınanların əksəriyyəti başqa yerlərdə gizlənirlər. 5-10 nəfər həbs olunmasa, iş düzəlməyəcəkdir. Hər rayondan 1-5 nəfər tutulub efirə çıxarılmalı və xalqa göstərilməlidir. Rayon rəhbərləri ilə əlaqə saxlayırıq. Mənə belə gəlir ki, rayon rəhbərləri nə işlə məşğuldurlar bilinmir. Biz ancaq bir-birimizi tərifləyirik. Oktyabr ayının birindən çağırışçıların hamısı Naxçıvanda qulluq edirlər. İnzibati orqanlar bizə kömək etməlidirlər. Milis işçiləri və hərbi komissarlığın sıx əlaqəsi olmalıdır.

Vəziyyət çox pisdir. Azərbaycan ağır vəziyyətdədir. Buna baxmayaraq Naxçıvandan cəmi 14 faiz yararlı adam çağırışa cəlb olunub.

**S. Əbiyev** (Azərbaycan Respublikası müdafiə nazirinin müavini): Hərbi komissar dedi ki, çağırışçıların xeyli hissəsi qaçqındır. Qaçqın axtarılıb hərbiyə cəlb olunmalıdır. Buna polis orqanları köməklik etməlidir. Polis işçiləri getmək istəmir. Onlar özlərini camaatla pis etmək istəmirlər.

**E. Abbasov** (705 №-li hərbi hissə): Hamı bizə kömək etməlidir. Xidmət edənlərin bəziləri bir il xidmət edib, lakin hərbi komissarlıqdan çağırılmadığından onlar hərbi bilet almayıb.

**Heydər Əliyev:** Hərbi hissəyə cəlb olunanların hamısına sənədlər verilməli və məsələ həll olunaraq onlar öz xidmətlərini başa vurmalıdırlar. Azərbaycanda olan hərc-mərclik gətirib o yerə çıxarıb ki, onlar nə edirlərsə, özləri də bilmir.

**O. Məmmədov** (Naxçıvan Şəhər XDM sədri): Biz çağırışa müdaxilə etməmişik. İkincisi, çağırışda hərbi komissarlıq da zəif iş aparır. Heç bir iş görmür. Bizim də nəzarətimiz zəifdir. Biz bu barədə qərar qəbul etmişik. Azərbaycan müharibə şəraitindədir. Ona görə də çağırış daim davam etməlidir. Mən razı deyiləm ki, dekabr ayında çağırış dayansın. Hesab edirəm ki, 15 gün içərisində çağırış qurtarmalıdır.

**Ə. Baxşıyev** (Şərur Rayon XDM İK sədri): Hərbi komissarlıqla əlaqə saxlayırıq. Hərbi komissarlıqda uçot yoxdur. Bizdə uçotdan kənarda qalan ola bilməz. Elə adam var 3 ildir ki, getməlidir hərbi xidmətə, lakin getməyib. Harda kasıb varsa, gedib onu aparırlar. Milli Orduda yaxşı xidmət olmalıdır. Respublika komissarlığı dəqiq siyahını bizə təqdim etsin, biz də çağırışçıları göndərək. Onların daşınması üçün maşın təşkil olunsun.

**R. Məmmədov:** Burada deyirlər ki, hərbi komissarlıqda uçot yoxdur. Heç belə iş ola bilməz ki, çağırışçı uçota düşməsin. Bunlar hamısı uydurmadır.

**Heydər Əliyev:** Bütün rəhbərlər ordu ilə birgə yaşamalı, hərbiyə gedənlərin yola salınması rəhbərlər tərəfindən təmin olunmalıdır.

**H. Məmmədova** (Ordubad Rayon XDM sədri): Çağırışçılar hərbiyə getməlidirlər. Bizim məclis və rayon icraiyyə komitəsi bu məsələni müzakirə edib. Müharibənin öz qanunları var. Biz qəti tədbir görmürük. Yerlərdə təbliğat zəif aparılır. Qanunların işləməməsi gətirib bu vəziyyətə çıxarıb. Çağırışçıların əksəriyyəti Rusiyaya alverə gedir. Valideynlərdən tələb edilmir ki, uşaqlarını tapıb gətirsinlər.

**Heydər Əliyev:** Bunları siz kimə deyirsiniz? İcra edən sizsiniz. Gedin rayonlarda, kəndlərdə əhalini yığın, camaatla söhbət aparın. İndi burada dedilər ki, sizin rayondan vur-tut 12 faiz hərbi çağırışa cəlb

olub. 50-60 nəfər yığıb gətirmişdiniz Daxili İşlər Nazirliyinə və Televiziya komitəsinə. Burada çevriliş aparırdınız. Gedin onları göndərin hərbi hissələrə.

**Ə. Əhmədov** (Naxçıvan MR prokuroru): Hərbi komissarlıqdan bizə heç bir məlumat daxil olmayıb. Göndərilən sənədlər əsaslandırılmış vəziyyətə gətirilərkən o adamlar barədə cinayət işi aparılacaqdır. Bizə sənəd daxil olmalıdır ki, biz hərbi çağırışdan qaçanlar haqqında tədbir görək. İstintaq təcili aparılmalıdır ki, onun bir xeyri olsun. Nəticə olsun deyə, biz təcili iş görməliyik.

**Heydər Əliyev:** Mən qəti tələb edirəm, 25 noyabra çağırış bitməlidir. Respublika komissarı dekabrın 1-nə kimi Ali Məclisə məlumat verməlidir. Eyni zamanda respublika prokurorluğu da dekabrın 1-nə Ali Məclisə məlumat verməlidir. Biz çıxarılan qərarın yerinə yetirilməsini təmin etməliyik.

**R. Həsənov** (Ali Məclis Sədrinin birinci müavini): Bu gün Azərbaycan Respublikası hərbi hissə ilə bağlı bütün qanunları verib. Qanunda yazılır ki, qəsdən hərbi hissədən boyun qaçırmaq istəyənlər haqqında cinayət işi qaldırılmalıdır. Çağırışdan qaçanlar haqqında siyahı yoxdur ki, geniş hazırlanıb prokurorluğa verilsin və həmin dəqiqə cinayət işi qaldırılsın. Bu günə kimi bir nəfərin işi verilməyib. Respublika prokuroru bu məsuliyyəti öz üzərindən atır milis və məhkəmənin üstünə və onlar da öz növbəsində günahı yıxırlar prokurorun üstünə. Mənə belə gəlir ki, bu məsələ ilə əlaqədar 73-cü maddə ilə cinayət işi qaldırılmalıdır. Biz 15 gün müddətinə heç olmasa çağırışçıların 90 faizinin hərbi hissələrə çağırılmasını yerinə yetirməliyik.

**Heydər Əliyev:** Azərbaycan müharibə şəraitindədir. Çətinliklər çoxdur. Ermənistandan törədilən təcavüzlərə cavab verilməsi üçün qanun olmalı və tədbir görülməlidir. Naxçıvan Azərbaycanın tərkib hissəsidir. Ona görə biz hücuma məruz qala bilərik. Naxçıvanın müdafiəsini təmin etmək üçün çox iş görülməlidir. Əvvəllər Rusiyanın əsgərləri Naxçıvanda xidmət edirdi. İndi onların silahı və sursatı bizim əlimizə keçib. Bu dövrdə sülh dövrünün qanunları ilə yaşamaq olmaz. Naxçıvanın ərazisi qorunmalı və saxlanmalıdır. Bunun üçün Naxçıvanın güclü ordusu olmalıdır. Hər birimiz bilməliyik ki, bizim hər biri-

mizin üzərində böyük məsuliyyət var. Hərbi komissarın verdiyi məlumat, mən deyim ki, tam dəqiq məlumat deyil. Hərbi komissarlıq dəqiq uçot və iş aparmalıdır. Bu yaramaz ki, 214 nəfərdən çox az bir miqdarı hərbi hissələrə göndərilir. Hər bir rayon rəhbəri böyük iş görməli, hər şeyi əlinə almalı və qəti tədbirlər aparmalıdır. Hamı canla-başla işləməlidir. Mən hesab edirəm ki, rayon rəhbərləri xüsusi qrafik tutmalıdırlar ki, onların rayonundan nə qədər adam hərbi hissələrə göndərildi, nə qədəri qaldı. Nə üçün siz bunlarla maraqlanmırsınız? Bütün əhalini qanunu yerinə yetirməyə çağırmalısınız. Bu işlə ciddi məşğul olmalısınız. Tapşırılsın Rəşid Həsənova və Asif Kələntərliyə bu işi nəzarətə götürsünlər və hər 5 gündən bir Ali Məclisə məlumat versinlər. 15 gündən sonra isə yekun məlumat hazırlansın və müzakirəyə çıxarılsın. Biz daha sayıq olmalıyıq. S. Əbiyev və E. Abbasov bu işlərlə ciddi məşğul olmalıdırlar. Azərbaycan qanunlarının gücü qüvvətləndirilməlidir. İndi hərbi hissələrdən həm zabitlər, həm də sıravi əsgərlər qaçmışlar. Onlar geri qaytarılmalıdır. Qoyulan müddətə hər şey hazır olmalıdır.

Bununla müşavirəni bağlı hesab edirəm.

## SƏDƏRƏKDƏ GÖRÜŞ

Ermənistan nümayəndələri ilə danışığa gedərkən Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini A. Cəlilov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev və nümayəndə heyətinin digər üzvləri Sədərək kəndində yerli əhali ilə görüşmüşlər. Görüş zamanı Heydər Əliyev sədərəklilər qarşısında çıxış edərək demişdir ki, Sədərək kəndi əhalisinin vəziyyəti artıq uzun müddətdir ki, muxtar respublika rəhbərliyinin, Azərbaycan rəhbərliyinin diqqət mərkəzindədir. Biz bütün imkanlardan istifadə edirik ki, Sədərək kəndi əhalisinin dinc şəraitdə yaşaması, kəndin təhlükəsizliyi təmin olunsun və burada hamı öz işi ilə məşğul ola bilsin. Düzdür, bu sahədə aparılan tədbirlər hələ istənilən nəticəni verə bilmir. Amma siz bilirsiniz ki, kənd əhalisinin normal şəraitdə yaşaması üçün bütün imkanlardan istifadə olunur.

Sizin problemləriniz çoxdur və onların hamısı da bizə məlumdur. Rayonun rəhbərliyi ilə daim əlaqə saxlanılır, onların həlli üçün tədbirlər görülür. Beş ildir ki, Azərbaycan Ermənistanla müharibə şəraitindədir. Muxtar respublikanın sərhəd kəndləri də bu müddət ərzində dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq həmişə Sədərəyin üzərinə düşmüşdür. Əgər muxtar respublikanın bütün ərazisində demək olar ki, əmin-amanlıq varsa, Sədərək kəndində vəziyyət tamam başqadır. Burada müharibə gedib, atışmalar olub. Tək sədərəklilər deyil, naxçıvanlılar da burada şəhid olublar. Biz şəhidlərin ailəsinə xüsusi qayğı göstərməliyik. Bu qayğı həm hökumət tərəfindən, həm ictimai təşkilatlar tərəfindən, həm də ayrı-ayrı şəxslər tərəfindən olmalıdır.

Heydər Əliyev demişdir ki, biz bir qarış da olsa torpağımızı əldən verməyəcəyik. Nəyin bahasına olursa-olsun özümüzü müdafiə edəcəyik, düşmənin qarşısını alacağıq. Bütün bunlar isə gərgin iş aparmaq, birlik tələb edir. Biz çalışmalıyıq ki, hamı bir yumruq kimi birləşsin. Biz həm düşmən təcavüzünün qarşısını almalıyıq, həm də maddi və sosial böhran içərisində yaşayan xalqımızın həyat tərzini yüksəltməyə çalışmalıyıq. Altı aydır ki, dəmir yolu işləmir. Biz belə bir vəziyyətdə qonşu dövlətlərə müraciət edib, onlarla iqtisadi əlaqələr yaratmış, problemlərin müəyyən qədər həll olunmasına nail olmuşuq. Türkiyə dövləti muxtar respublikaya kredit ayırıb. O kreditdən 10 milyon Amerika dolları dəyərində ərzaq alınmış və həmin ərzaq artıq üç aydır ki, Naxçıvan, o cümlədən Sədərək əhalisinə satılır. Bundan əlavə Türkiyədən, İrandan neçə dəfə yardımlar gəlib. Həmin yardımların böyük bir hissəsi sədərəklilərə verilib.

Biz sədərəklilərin həyat şəraitini yüngülləşdirmək üçün bir sıra başqa tədbirlərə də əl atmışıq. Türkiyənin qanunlarının əksinə olsa da, Türkiyə hökuməti bizim xahişimizi nəzərə alaraq sədərəklilərə öz məhsullarını orada satmağa icazə vermişdir. İranla bağlanan müqaviləyə əsasən artıq üç-dörd gündür ki, İran bizə 40 meqavat elektrik enerjisi verir, Naxçıvana artıq qaz gəlir. Bir sözlə, nə mümkündürsə edirik. Ancaq bilirik ki, bütün bunlar heç də kifayət deyil. Ancaq nə etməli? Vəziyyət çox çətindir. Azərbaycan xalqı çox qüdrətli, mətin, cürətli

xalqdır. Naxçıvanlılar həmişə öz mətinliyini, qüdrətini Azərbaycanda, bütün dünyada nümayiş etdirmişlər. Güman edirik, ki, bu ağır şəraitdən çıxmağa da biz birlikdə öz qeyrətimizlə, mətanətimizlə nail olacağıq və bu ağır günlərin ömrü az olacaq, biz əmin-amanlığa çıxacağıq. Müstəqil Azərbaycan milli dövlətini qurub azad, xoşbəxt yaşayacağıq.

Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini A. Cəlilov da kənd meydanına yığışanların qarşısında çıxış etmişdir.

Sonra Heydər Əliyev və A. Cəlilov sədərəklilərlə söhbət etmiş, onları maraqlandıran suallara cavab vermişlər.

*"Şərq qapısı" qəzeti, 9 dekabr 1992-ci il*

## ŞƏHİDLƏR..., ŞƏHİDLƏR

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri **Heydər Əliyevin** 1993-cü il yanvar ayının 20-də Naxçıvan şəhər Şəhidlər xiyabanında keçirilən mitinqdə çıxışı:*

– Bu gün Azərbaycan xalqı 1990-cı ilin 20 Yanvar faciəsinin üçüncü ildönümünü qeyd edir. 1990-cı ilin 20 Yanvar günü Azərbaycan xalqının tarixinə ən dəhşətli faciə kimi yazılmışdır. Həmin gün xalqımıza qarşı hərbi və siyasi təcavüz edilmişdir. Sovet ordusunun hissələri Bakı şəhərinə daxil olaraq dinc əhaliyə amansızcasına divan tutmuşdur. Sovet rəhbərliyi öz məqsədini həyata keçirmək üçün dəhşətli qırğın törətmişdir. Həmin gecə Azərbaycan xalqı yüzdən çox şəhid vermişdir. O günün, o gecənin, o tarixi hadisənin mənası vətəninin, xalqının azadlığını müdafiə edərək həyatını qurban vermiş adamların dünyadan getməsi ilə tamamlanmır. Bu faciə bügün Azərbaycan xalqına qarşı yönəldilmiş siyasi, hərbi və mənəvi təcavüz idi. Bu, Azərbaycan xalqının qüdrətini, iradəsini qırmağa yönəldilmiş əməliyyat idi.

Həmin gecə həyatını qurban vermiş azərbaycanlıların xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaqdır. 20 Yanvar faciəsi dünyanın hər yerində vətənpərvər, mütərəqqi fikirli adamlar tərəfindən, dövlətlər, siyasi qurumlar tərəfindən böyük nifrətlə qarşılandı. Azərbaycan xalqı

ayağa qalxdı, öz etirazını bildirdi və bir daha sübut etdi ki, heç bir qüvvə, heç bir hərbi təcavüz onun iradəsini qıra bilməz.

Həmin faciədən üç il keçir, lakin onun vurduğu yara sağalmır. Biz o günü, o gecəni heç vaxt unutmayacağıq. Özünü qurban vermiş adamların xatirəsi əbədi olaraq bizim qəlbimizdə yaşayacaqdır. O vaxt dünyanın hər yerində bu cinayətə qarşı nifrət və etiraz səsləri yüksəldi. Moskvada yaşayan azərbaycanlılar dərhal Azərbaycanın daimi nümayəndəliyinin qarşısına toplaşdı. Kreml sarayının divarları önündə mitinq keçirildi. Bütün azərbaycanlılar bir nəfər kimi bu hadisəyə öz münasibətlərini, təcavüzkarlara - Sovet İttifaqının rəhbərlərinə və Azərbaycanda bu faciənin həyata keçirilməsinə imkan yaradanlara və onlarla birlikdə bu cinayəti həyata keçirənlərə öz nifrətlərini və qəti etirazlarını bildirdilər. Mən də onların içərisində idim. Orada çox çətin şəraitdə biz bu hadisəyə siyasi qiymət verilməsi, Azərbaycan xalqının suverenliyinin, namusunun, şərəfinin qorunması üçün səsimizi qaldırdıq, sözümüzü dedik.

Bu hərbi təcavüz Sovet İttifaqının rəhbərliyi tərəfindən böyük hərbi qüvvələrdən istafadə olunması yolu ilə həyata keçirilmişdir. Ancaq bir həqiqət də məlumdur ki, bu cinayət o dövrdə Azərbaycanda xalq hərəkatının qarşısını almaq, onu sarsıtmaq üçün və öz qeyri-qanuni hakimiyyətini saxlamağa can atanlarla birlikdə törədilmişdi. Bu cinayətin günahkarları həm Moskvadadır, həm də Bakıda. Çox təəssüf ki, 1990-cı ilin 20 Yanvar günü törədilmiş bu ağır cinayətə bu günədək dərin siyasi və hüquqi qiymət verilməmişdir. Bunu bütün xalq gözləyir və güman edirəm ki, bunun vaxtı çoxdan gəlib çatmışdır.

Eyni zamanda bundan ciddi nəticələr çıxarmaq lazımdır. Əgər o günlər Azərbaycan xalqı bu təcavüzə qarşı birləşdisə, hamı ayağa qalxdısa, hamı bu təcavüzə, cinayətə öz etirazını bildirdisə, bu birlik davam etməlidir. Və daha da möhkəmlənməlidir. Çünki Azərbaycan xalqının həyatında əvvəllər də çox ağır dövrlər olmuşdur. Hələ indiyədək biz öz torpaqlarımızı azad edə bilməmişik. Azərbaycan müharibə şəraitindədir. Bütün bunların nəticəsində xalqın iqtisadi və sosial vəziyyəti həddindən artıq ağırlaşıb. Bunları həll etmək üçün, Azərbaycanın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü və toxunulmazlığını təmin etmək üçün xalqımız birləşməlidir.

1990-cı ilin 20 Yanvar faciəsindən sonra Azərbaycan xalqı daim şəhidlər verir. Bu gün biz Naxçıvanda Şəhidlər xiyabanındayıq. Burada Naxçıvanın qəhrəman, cəsarətli oğulları uyuyur. Biz onların qəhrəmanlığı qarşısında baş əyirik. Bu xiyabanda və Naxçıvanın başqa yerlərində əbədiyyətə qovuşmuş mərd oğullarımız Naxçıvan MR-in sərhədlərini, ərazisini erməni təcavüzkarlarından müdafiə edərək həyatlarını qurban vermişlər. Onların xatirəsi bizim üçün həmişə əziz olacaqdır. Biz bu gün də, sabah da çalışmalıyıq ki, bütün işlərimizi onların qəhrəmanlığı, onların cəsarəti, onların mənəviyyatı səviyyəsində quraq və Naxçıvanı bu ağır vəziyyətdən çıxaraq. İndi bizim ən böyük nailiyyətimiz ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət olmuşdur. Ancaq bu müstəqilliyi möhkəmləndirmək, inkişaf etdirmək lazımdır. Bu, Azərbaycanın şərəfli borcudur.

Bu işdə Naxçıvan Muxtar Respublikasının da öz yeri var, onun üzərinə düşən vəzifələr var. Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkib hissəsi olmaqla coğrafi cəhətdən Azərbaycandan ayrı düşmüşdür. Bütün ətrafımız Ermənistan ərazisidir. Sərhəd rayonlarımıza vaxtaşırı təcavüzlər olur. Bizim əsas vəzifəmiz burada sabitliyi, sərhədlərimizdə təhlükəsizliyi təmin etməkdir, torpağımızın qorunmasıdır. Naxçıvan əhalisinin normal yaşaması üçün şərait yaratmalıyıq. Bütün bunlar Azərbaycanın müstəqilliyini təmin etmək üçün çox mühüm şərtlərdir.

Naxçıvan blokada şəraitində yaşayır. Səkkiz aydan artıqdır ki, bu blokada davam edir. Azərbaycanın əsas hissəsi ilə bizim bütün əlaqələrimiz kəsilib. Dəmir yolu işləmir. Azərbaycandan elektrik enerjisi, qaz gəlmir. Belə bir şəraitdə əhalinin yaşayışını təmin etmək, bu çətinliklərdən çıxmaq və eyni zamanda torpağımızı erməni təcavüzündən qorumaq bizim hər birimizin şərəfli vəzifəsidir. Biz bu gün naxçıvanlılara öz minnətdarlığımızı bildiririk. Ona görə ki, bu ağır şəraitdə onlar bütün çətinliklərə dözərək mətanət nümunəsi göstərir, torpağımızı qoruyur və burada sabitliyi təmin edirlər. Lakin bunlar, şübhəsiz ki, bizi qane edə bilməz. Çətinliklərimiz də çoxdur. Bu çətinliklərin aradan qaldırılması üçün muxtar respublikanın Ali Məclisi, Nazirlər Kabineti tədbirlər həyata keçirirlər ki, bütün qüvvələri birləşdirməklə bunun öh-

dəsindən gələ bilək. Lakin bunların hamısı tələb edir ki, hər kəs öz imkanlarından istifadə edərək bu çətin şəraitdə muxtar respublikanın problemlərinin həllinə çalışsın.

Dünən Bakıda, Azadlıq meydanında keçirilən mitinqdə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy xalqı, milləti birliyə, həmrəyliyə çağırdı. Biz bu çağırışa bir nəfər kimi səs veririk, xalqımızın birliyi üçün əlimizdən gələni edəcəyik.

*"Şərq qapısı" qəzeti, 23 yanvar 1993-cü il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Ermənistan Respublikasının rəhbərliyi ilə apardığı danışıqlar nəticəsində Qarabağ bölgəsindəki döyüşlərdə həlak olmuş Azərbaycan ordusunun 3 əsgərinin meyidi Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhəd bölgəsində, Sədərəkdə, 1993-cü il yanvarın 29-da Ermənistan Respublikasının nümayəndələri tərəfindən Naxçıvan Muxtar Respublikasının nümayəndələrinə verilmişdir.

Həlak olan əsgərlərin meyidləri Naxçıvan şəhərinə gətirilmiş və 1993-cü il yanvar ayının 30-da təyyarə ilə Bakı şəhərinə göndərilmişdir.

*3 fevral 1993-cü il*

## SƏRHƏDDƏ GÖRÜŞ

1993-cü il may ayının 14-də Sədərək rayonu ilə Ararat rayonu arasındakı sərhəd zastavasında Naxçıvan Muxtar Respublikasının və Ermənistan Respublikasının nümayəndə heyətləri görüşmüşlər.

Görüşdə Ermənistan Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasındakı bütün sərhəd məntəqələrində təhlükəsizliyin və sabitliyin təmin olunması məsələləri müzakirə edilmişdir.

1993-cü il may ayının 9-da və 10-da Naxçıvan Muxtar Respublikasının Şərur və Ermənistan Respublikasının Yeğeqnadzor rayonları arasındakı sərhəd zonasında baş vermiş atışma nəticəsində əmələ gələn gərginliyin aradan qaldırılması və təkrar olunmaması barədə razılıq əldə edilmişdir.

Tərəflər bildirmişlər ki, bütün sərhəd məntəqələrində sabitliyin təmin olunması üçün lazımi tədbirlər görülməlidir. Bunun üçün sərhəd məntəqələrinin hərbi hissə komandirləri daimi əlaqə saxlamalı, baş verən münaqişələri aradan qaldırmalıdırlar.

Hər iki tərəfin sərhəd rayonları rəhbərlərinin görüşlərinin keçirilməsi, sabitliyin təmin olunması üçün müvafiq tədbirlərin görülməsi barədə razılıq əldə olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Bakı-Naxçıvan-Yerevan dəmir yolunun işinin, Ermənistan ərazisindən Naxçıvana keçən bütün kommunikasiya xətlərinin bərpa olunması təklifini irəli sürmüşdür. Bu məsələnin müvafiq təşkilatlar tərəfindən işlənib hazırlanması lazım bilinmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevlə Ermənistan Respublikası Ali Soveti Sədrinin birinci müavini Ara Saakyan rəsmi bəyannamə imzalamışlar.

Bəyannamədə normal qarşılıqlı əlaqələrin, həmsərhəd rayonlar arasında rabitə sisteminin inkişaf etdirilməsi, hərbi münaqişələrin qarşısının alınmasına yönəldilən mexanizmin işlənib hazırlanması, kənd təsərrüfatı işlərinin aparılması ilə əlaqədar təhlükəsizlik tədbirlərinin həyata keçirilməsinin vacibliyi qeyd olunmuşdur.

Görüşdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası tərəfindən - Muxtar Respublika Ali Məclisi Sədrinin müavini A.H. Səfərov, daxili işlər naziri T.M. Allahyarov, milli təhlükəsizlik naziri A.M. Əsgərov, briqada komandiri F.C. Əliyev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin şöbə müdiri E.A. Abbasov, Ermənistan Respublikası tərəfindən - Respublika Ali Soveti Rəyasət Heyətinin üzvü B.A. Asatryan, müdafiə nazirliyinin nümayəndəsi A.T. Petrosyan, pre-

zidentin baş müşavirinin milli təhlükəsizlik məsələləri üzrə eksperti A.A. Sarkisyan iştirak etmişlər.

Hər iki tərəfdən həmsərhəd rayonların rəhbərləri, mətbuat nümayəndələri də görüşdə olmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1993-cü il may ayının 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Ermənistan Respublikası Ali Soveti Sədrinin birinci müavini Ara Saakyanla Sədərək və Ararat rayonları arasındakı sərhəd zastavasında keçirdiyi görüş və imzalanmış bəyannamə Azərbaycan Respublikasının rəsmi dairələrində və mətbuat orqanlarında əsassız söz-söhbətlərə səbəb olmuşdur. Bəzi qəzetlər bununla əlaqədar qərəzli materiallar dərc etmiş, ictimai fikri azdırmağa çalışmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə Ali Məclisin mətbuat xidməti bildirir ki, həmin görüşlə əlaqədar irəli sürülmüş ittihamların heç bir əsası yoxdur və bunlar sağlam məntiqdən tamamilə uzaqdır. Bu görüşün keçirilməsi son vaxtlar Naxçıvan Muxtar Respublikası ilə Ermənistan Respublikasının bəzi sərhəd məntəqələrində yaranmış gərginliyin aradan qaldırılması, sabitliyin təmin edilməsi zərurətindən irəli gəlmişdir. Danışıqlardan sonra muxtar respublikanın sərhədlərində sakitlik tam bərpa edilmişdir.

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının və Ermənistan Respublikasının nümayəndə heyətləri arasında bağlanmış bəyannamənin məzmunu bilərəkdən təhrif olunduğuna görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti onun kütləvi informasiya vasitələrində verilməsini xahiş edir.

*15 may 1993-cü il*

## BƏYANNAMƏ

Ermənistan Respublikası və Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası qeyd edirlər ki, əvvəllər atəşin dayandırılması haqqında əldə edilmiş razılıq əsasən saxlanılır. Lakin son zamanlar sərhədlərdə sabitliyi pozan və sərhədyanı yaşayaş məntəqələrinin əhalisinə ziyan vuran ayrı-ayrı hadisələr baş vermişdir.

Tərəflər sülhün qorunmasının, normal və qarşılıqlı əlaqələrin inkişafının, baş verə biləcək konfliktlərin qarşısını almaq mexanizminin işlənməsinin vacibliyini qeyd edərək, dəmir yolunun və digər kommunikasiya xətlərinin açılması, qonşu rayonlar arasında rabitə sistemlərinin inkişaf etdirilməsi, kənd təsərrüfatı işlərinin aparılmasının təhlükəsizliyinin təmin edilməsi sahəsində razılıq əldə olunmasının zəruriliyini xüsusi qeyd edirlər.

Tərəflər əmin olunduqlarını bildirirlər ki, əldə olunmuş razılıqlar Ermənistan Respublikası və Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasındakı sərhəddin bütün sahələrində sülhün və sabitliyin qorunmasına xidmət edəcəkdir.

**Azərbaycan Respublikasının**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisin Sədri**
**H.Ə. ƏLİYEV**

**Ermənistan Respublikası**
**adından Ali Sovet Sədrinin**
**birinci müavini**
**A.A. SAAKYAN**

*14 may 1993-cü ildə Ermənistan Respublikasının Ararat rayonu ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu arasındakı sərhəddə imzalanmışdır.*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev mayın 14-də Sədərək və Şərur rayonlarında olmuşdur.

Sədərək rayonu zəhmətkeşləri ilə görüşdə Heydər Əliyev Ermənistanla bütün sərhəd məntəqələrində təhlükəsizliyin və sabitliyin təmin edilməsi, baş verən münaqişələrin aradan qaldırılması sahəsində görülən tədbirlərdən danışmışdır.

Ali Məclisin Sədri mayın 14-də Sədərək və Ararat rayonları arasındakı zastavada Ermənistan Respublikasının və Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətlərinin görüşü barədə məlumat vermişdir.

Rayon zəhmətkeşləri bölgədə sabitliyin təmin edilməsi sahəsində muxtar respublika rəhbərliyinin həyata keçirdiyi tədbirləri bəyəndiklərini və bütünlüklə müdafiə etdiklərini bildirmişlər.

Heydər Əliyev kənd əməkçilərini erməni tərəfi ilə danışıqlar nəticəsində əldə olunmuş sabitlikdən maksimum istifadə etməyə çağırmış, vaxt itirmədən ötən qışın vurduğu ziyanın aradan qaldırılması, kənd təsərrüfatının dirçəldilməsi üçün konkret tədbirlərin görülməsinin vacibliyini qeyd etmişdir.

Ali Məclisin Sədri Sədərək camaatının sosial qayğıları ilə maraqlanmışdır.

Həmin gün Heydər Əliyev Şərur rayonuna gəlmişdir. Rayon xalq deputatları məclisində əlaqədar təşkilatların rəhbərləri ilə söhbət olmuşdur. Rayon Xalq Deputatları Məclisinin sədri Mahmud Cavadov Heydər Əliyevə kənd təsərrüfatı işlərinin gedişi barədə ətraflı məlumat vermişdir.

Mövcud problemlərin həlli yolları müzakirə olunmuşdur.

Sərhəd bölgələrinə səfərdə Heydər Əliyevi Muxtar Respublika Ali Məclisi Sədrinin müavini A. Səfərov, briqada komandiri F. Əliyev, daxili işlər naziri T. Allahyarov, milli təhlükəsizlik naziri A. Əsgərov, digər rəsmi şəxslər müşayiət etmişlər.

*15 may 1993-cü il*

# QAÇQINLAR QƏBUL EDİLMİŞLƏR

Mayın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, qaçqın kimi Naxçıvana pənah gətirmiş kəlbəcərliləri qəbul etmişdir.

24 nəfər yaxın adamı və qohum-əqrabası ermənilərə əsir düşmüş Əfruz və Aybəniz Quliyevalar onlara üz vermiş faciədən danışmışlar. Qaçqın kimi Naxçıvanda yaşayan Məhbubə Əliyeva da yaxın qohumlarından xəbəri olmadığını bildirmişdir.

Heydər Əliyev Kəlbəcəri xalqın böyük itkisi adlandırmış, düşmən tapdağı altında qalan bölgələrin qaçqın düşmüş əhalisinin dərdinə şərik olduğunu bildirmişdir.

Heydər Əliyevin sərəncamı ilə muxtar respublika sosial inkişaf və müdafiə fondundan Naxçıvana gələn Kəlbəcər qaçqınlarının hər birinə 10 min rubl yardım edilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*25 may 1993-cü il*

FƏSİL VI

# Blokada yarılır. Naxçıvanın xarici əlaqələri genişlənir



*"Naxçıvan xalqı hörmətli Heydər Əliyevi baş tacı etmişdir."*

**Süleyman DƏMİRƏL**

*"Naxçıvanın İran və Türkiyə ilə əlaqələri Azərbaycanın İran və Türkiyə ilə əlaqələrinin tərkib hissəsidir... Bunlar hamısı Azərbaycanın xarici siyasətinin hissələridir".*

**Heydər ƏLİYEV**
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin
sessiyasındakı
çıxışından.

*16 sentyabr 1992-ci il*

## MUXTAR RESPUBLİKANIN QONAĞI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev muxtar respublikaya gəlmiş Türkiyənin "Zaman" qəzetinin Azərbaycan üzrə müxbiri Yılmaz Poladı və Mərmərə Eytim və Kültür Vəkfinin Azərbaycandakı təmsilçisi Hilmi Öneyi qəbul etmişdir.

Hilmi Öney muxtar respublikadan 50 nəfər gəncin Türkiyə universitetlərinə göndərilməsi, Naxçıvan şəhərində açılacaq kollec, eləcə də təhsil və mədəniyyət sahəsində görüləcək müştərək işlər barədə məlumat vermişdir.

Heydər Əliyev bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Türkiyə ilə əlaqələrə böyük ümid bəsləyir. İnanırıq ki, Türkiyə Respublikası bizə iqtisadi böhrandan çıxmaqda da kömək edəcək.

Heydər Əliyev Türkiyə jurnalisti Yılmaz Polada "Zaman" qəzeti üçün müsahibə vermişdir.

**Naxçıvan Muxtar Ruspublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*8 oktyabr 1991-ci il*

## ENERJİ BLOKADASINA SON QOYULACAQ

Naxçıvanı elektrik enerjisi ilə təchiz etmək sahəsində müqavilə öhdəliklərini yerinə yetirmək üçün 1991-ci il oktyabrın 12-də bir qrup türk mütəxəssisi Naxçıvan şəhərinə gəlmişdir. Onları Naxçıvan Muxtar Ruspublikası Ali Məclisinin Sədri H.Ə. Əliyev qəbul etmişdir.

Anadolu Mühəndislik Aksioner Şirkətinin (Türkiyə) və Stanver Korporasiyasının (Panama və İsveçrə) nümayəndələri Mete Bəke, Bülban

Hərsoy, Skandar Maləki, Okan Tapan və Seyyar Barancılı Naxçıvanda hər biri 15 meqavat gücündə Almaniyada istehsal edilmiş 7 dizel stansiyası quraşdırılmağından və Ağrı şəhərindən Sədərəkədək yüksək gərginləşmiş elektrik xətti çəkiləcəyindən söhbət açmışlar. Mütəxəssislər bildirmişlər ki, 1992-ci ilin may ayında dizel stansiyalarını qurub istifadəyə verəcəklər.

Heydər Əliyev görüləcək işin qiyməti, həmin məbləğin necə ödəniləcəyi ilə maraqlanmış və təkidlə tapşırmışdır ki, yeni enerji mərkəzinin ətraf mühitə təsiri diqqətlə öyrənilsin.

Söhbətdə Azərenerji Birliyinin direktoru M.M. İmanov, Azərenerji Tikinti İdarəsinin rəisi S.İ. Lətifov və Naxçıvanın energetika mütəxəssisləri iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclnsinin Mətbuat Xidməti**

*15 oktyabr 1991-ci il*

## BU AĞ YALAN KİMƏ LAZIMDIR?!

1991-ci il oktyabrın 29-da Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycanla Türkiyə arasında Araz çayı üzərindən salınmış müvəqqəti körpünün açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidməti bu körpünün açılışı mərasimi ilə bağlı rəsmi məlumatı SİTA-ya və Sovet İttifaqının digər informasiya orqanlarına vermişdir. Lakin nədənsə bu məlumatdan istifadə edilməyib. Sərhəd Qoşunları Baş İdarəsinə istinad edən SİTA bu hadisəni gözdən salan və ölkə ictimaiyyətində yanlış təsəvvür oyadan məlumat kimi yaymışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidməti bu məlumatı təkzib edərək bildirir ki, SİTA-nın informasiyasında göstərilən faktlar reallığı əks etdirmir.

Həqiqət aşağıdakı kimidir: Naxçıvan Muxtar Respublikasının bütün əhalisinin diqqəti körpünün tikintisinə yönəlib. Ümumiyyətlə, Azər-

baycanın bütün əhalisinin bu körpüyə böyük marağı var və çoxları onun açılışını səbirsizliklə gözləyir.

Bununla bağlı olaraq oktyabrın 29-da səhər tezdən muxtar respublikanın hər yerindən körpünün inşa edildiyi əraziyə xeyli adam yığışmışdı. İddia edildiyinin əksinə olaraq, Naxçıvan parlamentinin başçısı Heydər Əliyev bu məsələ ilə əlaqədar açılışdan əvvəl televiziya ilə heç bir çıxış etməmişdir.

Türkiyə tərəfinin nümayəndələri ilə razılaşmaya əsasən, körpünün rəsmi açılışı mərasimi saat 15.00-a təyin edilmişdir.

Rəsmi açılışadək körpünün yanına toplaşan camaatın bir hissəsi çayın o tayında yaşayan qohum-əqrəbaları ilə görüşmək üçün Türkiyə tərəfə keçmişdir. Onların bu hərəkəti tamamilə təbii və başa düşülən bir haldır. 70 illik sərt sərhəd rejimi, sərhəd boyunca çəkilmiş iki-üç cərgəli tikanlı məftil hasar onları qohumları ilə əlaqə saxlamaq imkanından, normal ünsiyyətdən məhrum etmişdir.

Xəbər verildiyi kimi, körpünün rəsmi açılışı Türkiyə tərəfi ilə razılaşdırılmış vaxtda keçirilmişdir. Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Türkiyə hökumət dairələrinin nümayəndələri, Bakı şəhərindən gəlmiş Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri çıxış etmişlər. 41-ci sərhəd dəstəsinin komandiri polkovnik V. Jukov və sərhəd qoşunlarının digər nümayəndələri bu mərasimdə iştirak etmişlər. Mitinqə toplaşanlar qarşısında muxtar respublikanın musiqi kollektivləri ilə yanaşı, sərhəd qoşunlarının nəfəsli alətlər orkestri də çıxış etmişdir.

Azərbaycanla Türkiyə arasında müvəqqəti körpünün açılması böyük fərəhləndirici hadisəyə çevrilmiş, bu zaman heç bir asayiş pozuntusuna yol verilməmişdir. Naxçıvan Muxtar Respublikası rəhbərlərinin Türkiyənin rəsmi nümayəndələri ilə istər Azərbaycan, istərsə də Türkiyə ərazilərindəki görüş və söhbətləri dostluq, mehribanlıq şəraitində keçmişdir.

Körpünün rəsmi açılışı mərasimindən sonra Araz çayının o biri sahilinə keçmiş Naxçıvan Muxtar Respublikasının sakinləri geriyə dönmüşlər. Muxtar respublika sakinlərinin Türkiyə ərazisinə keçib, guya siyasi sığınacaq istəmələrinə dair heç bir fakt və məlumat yoxdur.

Türkiyə ərazisinə keçən muxtar respublika sakinlərinin bəzilərinin öz qohumlarının yanında gecikmələri ehtimalı istisna olunmur. Bu cür hallara siyasi don geydirib hay-küy salmağa əsas yoxdur.

Ali Məclisin Mətbuat Xidməti bunu bildirməyi zəruri hesab edir ki, SİTA, Sovet İttifaqının digər informasiya orqanları, o cümlədən, sərhəd qoşunlarının mətbuat xidməti birinci dəfə deyil ki, Naxçıvan Muxtar Respublikasında baş verən hadisələrə dair yanlış informasiya yayırlar. Onların bu hərəkətinə qəti etirazımızı bildirir və təkzibi olduğu kimi vermələrini tələb edirik.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*31 oktyabr 1991-ci il*

## TÜRKİYƏDƏN YARDIM GƏLİR

Muxtar respublikanın Sədərək rayonunda Araz çayı üzərində müvəqqəti körpünün istifadəyə verilməsi ilə Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi və mədəni əlaqələr yeni mərhələyə qədəm qoymuşdur.

Noyabrın 9-da həmin körpü vasitəsilə muxtar respublikaya Türkiyənin "Qızıl Ay" cəmiyyətinin xətti ilə 126 ton ərzaq gətirilmişdir.

Bununla əlaqədar Qars vilayəti valisinin vəkili İsmət Bahadırlar başda olmaqla Naxçıvana gəlmiş nümayəndə heyətini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri H. Ə. Əliyev qəbul etmişdir.

Heydər Əliyev Türkiyə tərəfindən göstərilən humanitar yardım üçün Türkiyə Respublikasına və xalqına dərin təşəkkür etmiş və hər iki tərəf arasında iqtisadi və mədəni əlaqələrin genişlənməsindən razı qaldığını bildirmişdir. Ali Məclisin Sədri muxtar respublikada gedən demokratik proseslər barədə qonaqlara ətraflı məlumat vermişdir.

Türkiyə nümayəndə heyətinin başçısı İsmət Bahadırlar demişdir ki, Türkiyə Respublikası Azərbaycanla, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə hərtərəfli əlaqələrin genişləndirilmə-

sində çox maraqlıdır. O bildirmişdir ki, bu yardım muxtar respublikaya göstəriləcək humanitar yardımın bir hissəsidir. Bu iş davam etdiriləcək.

Heydər Əliyev Türkiyə nümayəndə heyəti ilə birlikdə gəlmiş müxbirlərin suallarına ətraflı cavablar və Türkiyə televiziyası üçün müsahibə vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*11 noyabr 1991-ci il*

## ƏLAQƏLƏR GENİŞLƏNİR

Naxçıvan Muxtar Respublikasında gedən demokratikləşdirmə prosesi muxtar respublikanın qonşu İran və Türkiyə respublikaları ilə iqtisadi və mədəni əlaqələrinin, qarşılıqlı münasibətlərinin genişlənməsi üçün böyük imkanlar yaradır. Bu sahədə yeni-yeni addımlar atılır.

Şənbə günü İran İslam Respublikası Mərənd fərmandarı Rza İbadi başda olmaqla İranın işgüzar dairələri nümayəndələrinin böyük bir qrupu Naxçıvana gəlmişdir.

Nümayəndə heyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri H.Ə. Əliyev tərəfindən qəbul edilmişdir. Heydər Əliyev qonaqları səmimi salamlayaraq demişdir ki, hər dəfə o taylı qardaşlarımızla görüşəndə xeyli məmnun oluruq. Biz hesab edirik ki, belə görüşlər nə qədər çox olsa, hər iki tərəf üçün o qədər faydalı olar. Çox yaxşı haldır ki, bizim münasibətlərimiz get-gedə inkişaf edib genişlənir. Bunun da əsas səbəbi ondan ibarətdir ki, biz bir millətik, bir islam aləminə mənsubuq. İslam aləmi bizi qədim dövrdən birləşdirir və bundan sonra da birləşdirəcək. 70 il bizim ayrılığımız olub. Lakin xalqda belə bir məsəl var, deyirlər, adam bir-birindən nə qədər ayrı olsa, bir-birinə məhəbbəti o qədər artar. Bu ayrılığın böyük əziyyətləri, əzabları olub. Ancaq indi bu yaxınlaşma, bu qovuşma hamımızı sevindirir. Biz çox şadıq ki, o tayda olan müsəlman qardaşlarımız,

türk qardaşlarımız hamısı bir millətdir, bir xalqa mənsubdur. Ona görə də mən bu qarşılıqlı gediş-gəlişi, bu görüşləri çox zəruri, bütün tərəflər üçün son dərəcə əhəmiyyətli hesab edirəm və əminəm ki, sizin bu gəlişiniz də yaxşı nəticələr verəcək, hər iki tərəf üçün çox faydalı olacaq.

Ağayi Rza İbadi bu fikirlə tam razılaşaraq demişdir ki, indiki dövrdə çox zəruridir ki, müsəlmanların bir-biri ilə sıx əlaqələri olsun. Çünki belə bir zamanda ayrı yaşamaq çətindir. Ona görə də çox vacibdir ki, bizim kimi qan qardaşlarının əlaqələri daha geniş, daha sıx və çoxsahəli olsun. Biz ümid edirik ki, Naxçıvanda sizinlə apardığımız danışıqlar istər iqisadi, istərsə də siyasi və mədəni əlaqələrin genişlənməsində mühüm rol oynayacaq. Çox şadıq ki, bu məqsədlərə yaxınlaşırıq və çalışmalıyıq ki, bu əlaqələr daha da artsın.

Heydər Əliyev qeyd etmişdir ki, hər iki tərəf arasındakı əlaqələr çoxşaxəli olmalıdır. Həm iqtisadi əlaqələr, həm mədəni əlaqələr, həm mənəvi əlaqələr, həm də dini əlaqələr genişlənməlidir. Bunlar hamısı çox faydalıdır. Mən fürsətdən istifadə edib sizə razılığımı bildirirəm və deyirəm ki, Ermənistanla yaranmış milli münaqişələr nəticəsində Naxçıvan tez-tez iqtisadi blokadaya məruz qalır. Elə lap bu yaxınlarda 50 gün dəmir yolu işləmədi və bu səbəbdən də Naxçıvan Azərbaycandan ayrı düşdü, iqtisadi vəziyyətimiz xeyli çətinləşdi. Çünki biz yanacağın, ərzağın çox hissəsini və bəzi tikinti materiallarını Bakıdan alırıq. Bunlar hamısı dəmir yolu vasitəsilə bizə gəlir. Çox təəssüf ki, vaxtilə Azərbaycanı parçalayıblar. Ona görə də Naxçıvan Muxtar Respublikası öz ana torpağından ayrı düşüb. Ermənilərin günahı üzündən 50 gün dəmir yolunun işləməməsi bizdə xeyli çətinliklər yaratmışdır.

Belə bir vəziyyətdə biz o tayda - Cənubi Azərbaycanda olan qardaşlarımıza müraciət etdik. Çox şadıq ki, siz bizim səsimizi eşitdiniz, bizə yardım göstərdiniz. Bizə həmçinin məlum oldu ki, oktyabrın 4-də sizin Prezidentiniz ağayi Haşimi Rəfsəncani Biləsuvar tərəfə gəlmiş, orada öz çıxışında demişdir ki, bizim kommunizm əsarətindən xilas olmuş o taydakı qardaşlarımıza yardım etmək lazımdır. Mən dərhal bu bəyanata öz münasibətimi bildirdim, sizin Prezidentə teleqram göndər-

dim ki, onun bu çıxışı çox yaxşı təsir bağışlayıb. Sizin tərəfinizdən bizə yardım oldu, ərzaq, benzin göndərildi. Bütün bunlara görə sizə minnətdarıq.

Ancaq bir-iki məsələ bir az çətinləşdi. Dəmir yolu işləməyəndə biz Bakı ilə təyyarə vasitəsilə əlaqə saxlayırıq. Lakin təyyarələrin sayı az olduğundan Naxçıvana gələnlərin tələbini ödəmir. Ona görə də biz o vaxt məsələ qaldırdıq ki, bir halda ki, ermənilər yolumuzu bağlayırlar, bizim avtomaşınlarımız, avtobuslarımız Xudafərindən İran ərazisinə keçsinlər və oradan gəlib Culfaya çıxsınlar. Lakin bu işdə çətinliklər oldu. Görükən budur ki, bizdə olduğu kimi sizdə də bürokratlar bu işdə müəyyən çətinliklər yaratmışlar.

İndi artıq dəmir yolu açılıb və çətinliklər də aradan qalxıb. Lakin bu məsələ öz aktuallığını itirməyib. Dəmir yolu açılıb, ancaq bilmək olmaz, bəlkə bir azdan sonra yenə də bağlanacaq. Ona görə də İran ərazisindən bizə ikinci yol çəkilməsi çox zəruridir. Bir halda ki, biz 70 illik ayrılığa son qoyaraq belə yaxınlaşırıq, bu məsələləri də yavaş-yavaş həll etməliyik.

Heydər Əliyev sərhəd mühafizəsi, sərhəddən tikanlı məftillərin götürülməsi məsələsinə də toxunmuş və demişdir ki, sərhədlərimizin sadələşdirilməsi tezliklə həyata keçiriləcək və bu, bizim daha da yaxınlaşmağımıza imkan yaradacaq. Bütün bunları sizə çatdırmaqda məqsədim odur ki, bizi ayıran əlamətlərin hamısının aradan götürülməsinə çalışırıq. Bunlar müəyyən vaxt tələb edir və tədricən həyata keçiriləcək.

Ağayi Rza İbadi qeyd etmişdir ki, hər iki tərəf arasında əlaqələr tək iqtisadiyyatla məhdudlaşmamalıdır. Mədəni əlaqələr, tələbə mübadilələri, idmançıların görüşləri də inkişaf etdirilməlidir. Yazıcı və şairlərin, alimlərin, din xadimlərinin əlaqələri də genişlənməlidir.

Görüşün sonunda Heydər Əliyev hər iki tərəfdə fikir birliyi olduğunu razılıqla qeyd etdi və bir daha əmin olduğunu bildirdi ki, o taylı qardaşlarımızla əlaqələrimiz günbəgün genişlənəcək.

Görüş zamanı Heydər Əliyevin təklifi ilə Ağayi Rza İbadi Naxçıvan şəhərində İran tərəfinin vəsaiti ilə yeni müasir tələblərə uyğun bir məscidin tikilməsini öz üzərinə götürmüşdür.

Ağayi Rza İbadi Heydər Əliyevi rəsmi səfərlə İran İslam Respublikasına dəvət etmişdir. Heydər Əliyev bu dəvəti razılıq hissi ilə qəbul etmişdir.

*"Şərq qapısı" qəzeti, 12 noyabr 1991-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Türkiyənin Nəqliyyat Nazirliyinin dəmiryolu, liman və aeroport tikintisi üzrə departamentinin baş direktoru Aytəkin Akagünün başçılıq etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına gəlmişdir.

Noyabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Aytəkin Akagünün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüş zamanı Araz çayı üzərində körpünün tikintisi, həmin körpü üzərində Naxçıvan Muxtar Respublikasından Türkiyə ərazisinə və əks istiqamətə sadələşdirilmiş keçid məsələləri üzrə faydalı fikir mübadiləsi olmuşdur. Avtomobil körpüsü tikintisinin 1992-ci ilin yanvarın əvvəllərində başa çatdırılması və istifadəyə verilməsi qərara alınmışdır. Həmçinin dəmiryolu körpüsünün tikinti işlərinin sürətləndirilməsi haqqında razılıq əldə olunmuşdur. Bu razılıqlar əsasında Türkiyə nümayəndə heyəti ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti protokol tərtib etmişlər.

Türkiyə nümayəndə heyətini Azərbaycan Respublikası Nazirlər Kabinetinin tikinti və sənaye tikinti materialları şöbəsinin müdiri X. Hənifəyev, "Azəravtoyol" avtomobil yolları istehsalat birliyinin rəisi N. Qasımov, "Mintranstroy" korporasiyasının baş mütəxəssisi A. Nikiforov, "Kavqiprotransın" baş mütəxəssisi İ. Lamidze müşayiət etmişlər.

*18 noyabr 1991-ci il*

# ƏMƏLDƏ, FİKİRDƏ, İŞDƏ BİRLİK

Türkiyə Respublikası Böyük Millət Məclisinin Qars əski millət vəkili Səbri Araz, iş adamları Sönməz Qaradağ və Zəfər Qaradağ şəhərimizin qonaqlarıdırlar.

Noyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qonaqları qəbul etmişdir.

Səbri Araz mehriban qarşılandıqları üçün öz dərin təşəkkürünü bildirmişdir. O demişdir ki, Prezident Turqut Özal və Baş nazir Məsud Yılmaz sizə səmimi salamlarını çatdırmağı xahiş etmişlər. Bu tapşırığı mən məmnuniyyətlə yerinə yetirirəm.

Səbri Araz demişdir ki, Türkiyədə Naxçıvana böyük maraq göstərilir. Bunu Bakıda da bizə dedilər. Dedilər ki, siz Naxçıvana çox maraq göstərirsiniz. Bəli, bu, belədir. Çünki bizim dövlət yalnız Naxçıvan vasitəsilə Azərbaycanla həmsərhəddir.

Naxçıvan son vaxtlar Azərbaycanda gedən bütün demokratik dəyişikliklərin təşəbbüskarı və təkanvericisidir. Ona görə də biz Naxçıvanı Azərbaycanın qan damarı, nəfəs borusu hesab edirik. Naxçıvanlılar mübarizə aparmağı, öz haqlarını tələb etməyi bacarırlar. Bu, əsl türk xasiyyətidir, türk mərdliyidir.

Biz necə sevinməyək ki, ilk qapı məhz Naxçıvanla Türkiyə arasında açılıb. Hamılıqla çalışmalıyıq ki, bütun sədlər aradan qaldırılsın, bütün qapılar açılsın. Bəsdir bu qapılar bağlı qaldı. Sizin "Həsrət körpüsü" adlandırdığınız körpü bu işdə ilk addımdır. Biz ona "Könül körpüsü" deyirik. İndi ermənilər də bu qapıya can atırlar. Türkiyə ilə Ermənistan arasında körpü salmaq istəyirlər. Lakin Qarsa, Qarabağa, Naxçıvana göz dikən ermənilərlə heç bir əlaqə yaratmaq olmaz. Başqa ölkələrdə türklərə qarşı terrorçuluq edənlərə heç bir rəğbət ola bilməz.

Heydər Əliyev səmimi duyğular üçün qonaqlara təşəkkür edərək demişdir ki, mən söhbətin əvvəlində qeyd etdiyim kimi, biz hər dəfə türk qardaşlarımızla görüşəndə yeni fikirlər meydana gəlir. Siz indi də yeni bir fikir söylədiniz. Dediniz ki, Naxçıvan Azərbaycanın qan damarıdır, nəfəs borusudur. Bu sözləri yalnız Naxçıvanı ürəkdən sevənlərin

dilindən eşitmək olar. Siz yeni salınan körpünü "Könül körpüsü" adlandırdınız. Bu söz də bizim ürəyimizdəndir. Bu, könüldən-könülə yollar açır.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, indiki şəraitdə xalqın fikrini bilmək, duymaq çox zəruridir. Bunun üçün isə həmişə xalqın içində olmaq lazımdır. Mən öz xalqımı yaxşı tanıyıram. Çünki özümü heç vaxt ondan ayrı hiss etməmişəm. Həmişə xalqın içində olmuşam. Bizim xalq isə düzgünlüyü sevən, öz haqq işi uğrunda mübarizə aparan xalqdır. Nə gizlədək, 70 il ərzində bəzi yerlərdə adamlar o qədər mütiləşiblər ki, onlar xəyallarına belə gətirə bilmirlər ki, insan öz haqqını döyüşə-döyüşə ala bilər. Çox yaxşı haldır ki, naxçıvanlılar bu işdə nümunə göstərirlər. Bildiyiniz kimi, Azərbaycan öz müstəqilliyini elan edib, Türkiyə bu müstəqilliyi tanıyıb və bunun üçün mən sizə, Türkiyənin Prezidentinə və Baş nazirinə öz minnətdarlığımı bildirirəm.

Onu da qeyd etmək istəyirəm ki, bu müstəqillik də Naxçıvanda başlayıb. Bu ilin mart ayında Sovetlər Birliyinin tərkibində qalmaq üçün referendum keçirildi. Lakin naxçıvanlılar qəti olaraq bildirdilər ki, biz bu birliyin tərkibinə girməyəcəyik. Sonrakı hadisələr bizim haqlı olduğumuzu dönə-dönə göstərdi. Tək Azərbaycan deyil, keçmiş imperiyanın tərkibində olan respublikaların əksəriyyəti öz müstəqilliklərini elan etdilər.

Heydər Əliyev demişdir ki, mən Kommunist Partiyasının liderlərindən biri olmuşam. Lakin həmişə öz xalqımın keçmişini, bu gününü və gələcəyini düşünmüşəm, ona xidmət etmişəm. İstər Azərbaycanın rəhbəri olarkən, istərsə də Moskvada yüksək rəhbər vəzifədə işləyərkən həmişə bizə qarşı ögey münasibət bəsləndiyini görmüşəm. Avropa ideoloqları, rus millətçiləri türk xalqını parçalamaq üçün pantürkizm, turançılıq ideyalarını ortaya atmışlar. Xalqımızın ən böyük oğulları bu ideyaların qurbanı olmuşlar. Azərbaycan xalqının böyük oğlu, türk aləmi üçün ən böyük şəxsiyyətlərdən biri olan Hüseyn Cavid də bu bədnam ideyanın qurbanı olub. Bizim Türkiyə ilə yaxınlaşmağımızı rus imperiyası çox təhlükəli hal kimi qiymətləndirirdi. Siz çox düzgün olaraq qeyd etdiniz ki, Berlin divarı sökülərək almanların birləşməsinə şə-

rait yaradıldığı halda, nə üçün türk xalqları arasında yaxınlaşmanı çox təhlükəli sayırlar? Bunun cavabı aydındır. Bədxahlarımız xristianlığı müsəlmanlığa qarşı qoyurlar.

1989-cu ilin dekabr ayının axırlarında Naxçıvanla İran sərhəddi arasında olan tikanlı məftillər rusların iradəsinin əksinə olaraq aradan götürüldü. Təbiidir ki, Moskvada buna çox pis münasibət göstərdilər. Bu işi həyata keçirən vətənpərvərləri "sərxoşlar", "narkomanlar" adlandırdılar. İmperiya öz mövqelərini heç cür əldən vermək istəmir. Bütün bunlara qarşı durmaq üçün biz birləşməliyik. Qars müqaviləsi bu işdə çox böyük əhəmiyyət kəsb edir.

Dörd ildir ki, ermənilər Azərbaycana qarşı torpaq iddiası edirlər. Halbuki, bizim onlara qarşı böyük torpaq iddialarımız olmalıdır. Azərbaycanın 114 min kvadrat kilometr ərazisindən indi cəmi 86 min kvadrat kilometr qalmışdır. 28 min kvadrat kilometr torpağımız əldən kedib. Lakin Azərbaycanın Prezidenti Moskvada çıxış edərək deyir ki, bizim Ermənistana qarşı heç bir torpaq iddiamız yoxdur. Bəs Azərbaycanın qədim torpaqları olan Zəngəzuru, Göyçəni biz necə unuda bilərik? Vəziyyəti belə görən həyasızlaşmış ermənilər indi gözlərini Qarabağa, Naxçıvana dikiblər. Mən 14 il Azərbaycanın rəhbəri olmuşam. Lakin həmin müddətdə bir qarış da olsun Azərbaycan torpağı ermənilərə verilməyib. Lakin sonralar bu proses yenə də davam edib. İki il bundan qabaq Sədərək rayonundakı Kərki kəndi də ermənilər tərəfindən ilhaq edildi. Lakin o kəndi geri qaytarmaq üçün Azərbaycan rəhbərliyi heç bir iş görmür.

Ermənilərin Türkiyəyə qarşı olan torpaq iddiaları da hamımıza məlumdur. Onlar öz ərazilərini Şərqi Ermənistan, türk torpaqlarını isə Qərbi Ermənistan adlandırır və bunu bütün dünyaya yayırlar. Çox təəssüf ki, siz buna lazımi əhəmiyyət vermirsiniz. Siz ermənilərin türklərə qarşı olan qatı düşmənçiliyini bizimki qədər hiss etmirsiniz. Artıq 30 ildir ki, ermənilər guya türklər tərəfindən ermənilərin "soyqırımı" gününü qeyd edirlər. Hələ o vaxtlar Ermənistanda yaşayan azərbaycanlılar həmin gün evdən bayıra çıxa bilmirdilər. Onları türk - düşmən adlandıraraq hədələyirdilər. Deyirdilər ki, siz o türklərin nəvələrisiniz. Bax, Azərbaycan belə bir təcavüzkar dövlətlə üz-üzə dayanıb.

Türklərə qarşı heç vaxt qatı düşmənçiliyini gizlətməyən ermənilər indi çətin vəziyyətə düşdüklərindən sizin insanpərvərliyinizdən istifadə etməyə çalışırlar. Onlar Türkiyə vasitəsilə Avropaya və dünyanın başqa qitələrinə yol açmaq fikrindədirlər. Lakin ermənilərin yağlı dilinə heç cür inanmaq olmaz. Bu vasitələrlə onlar öz azğınlıqlarını daha da genişləndirmək istəyirlər. Siz buna qətiyyən imkan verməməlisiniz.

Heydər Əliyev və Səbri Araz bu görüşdən, aparılan fikir mübadiləsindən razı qaldıqlarını demiş və əmin olduqlarını bildirmişlər ki, inkişaf etməkdə olan əlaqələr, münasibətlər daha da möhkəmlənəcək.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*22 noyabr 1991-ci il*

## ƏLAQƏLƏR BÜTÜN SAHƏLƏRDƏ MÖHKƏMLƏNMƏLİDİR

Türkiyə Respublikasının muxtar republikamıza humanitar yardımı davam edir. Noyabrın 29-da Türkiyənin İqdır şəhəri əhalisinin və valiliyinin naxçıvanlı qardaşlarına göndərdikləri ərzaq məhsulları 19 yük maşını ilə muxtar respublikamıza gətirilmişdir.

Bununla əlaqədar Naxçıvana gəlmiş İqdır Bələdiyyə İdarəsinin rəisi Əli Ağrını və Türkiyənin digər nümayəndələrini muxtar respublika Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir. Qonaqlarla söhbət zamanı Heydər Əliyev demişdir ki, Azərbaycanın, o cümlədən, Naxçıvan Muxtar Respublikasının əhalisi o taylı türk qardaşlarının yardımını ən əvvəl mənəvi yardım kimi qiymətləndirirlər. Çünki bu yardım Arazın hər iki tərəfindəki qardaşların görüşməsi, yaxınlaşması üçün bir vasitədir.

Ali Məclisin Sədri demişdir ki, qədim Naxçıvan sakinləri, bizim babalarımız, atalarımız, analarımız ayrı-ayrı vaxtlarda bizdən də çətin vəziyyətdə yaşayıblar və bütün çətinliklərdən mətanətlə çıxıblar. Çünki

onlar öz diyarlarını həmişə ürəkdən sevmiş, onu qoruyub saxlamış, öz mərdliklərini nümayiş etdirmişlər. Ona görə də indiki çətinliklər bizi o qədər də narahat etmir. Əsas narahatçılığımız azad olmaqda, özümüzü azad bir millət kimi, azad bir xalq kimi bütün dünyada tanıtmaqda idi ki, biz də buna get-gedə nail oluruq. Bunun üçün bizim "Həsrət körpüsü", türk qardaşların isə "Könül körpüsü" adlandırdıqları körpü mühüm rol oynayır. Bu körpünü haqlı olaraq Azərbaycandan Şərqə açılan qapı adlandırırlar. Məhz buna görə də həmin körpünü tikmək, iki sahili birləşdirmək bizim üçün başlıca məqsəd idi. Bundan sonra bir-birimizə gediş-gəliş artacaq, turizmin inkişaf etdirilməsi üçün geniş imkanlar yaranacaq. Göründüyü kimi, bu yardım kampaniyası olmasaydı, Türkiyədən bura belə axın da olmazdı. Bu yardım üçün mən bütün naxçıvanlılar adından sizə və sizin şəxsinizdə türk qardaşlarımıza bir daha öz dərin minnətdarlığımı bildirirəm.

İqdır Bələdiyyə İdarəsinin rəisi Əli Ağrı demişdir ki, naxçıvanlılara göstərilən yardım davam edəcək. Tezliklə Ərzurumdan və başqa şəhərlərdən də yardım gələcək. Siz çox düzgün olaraq qeyd etdiniz ki, bu yardım hər şeydən əvvəl mənəvi yardımdır. Çünki bunun vasitəsilə bizim yaxınlaşmağımız xeyli sürətlənmişdir. Biz bütün sahələrdə öz əlaqələrimizi möhkəmləndirməliyik. Bunun üçün geniş imkanlarımız və hər şeydən əvvəl hər iki tərəfin qətiyyəti var.

Heydər Əliyev və Əli Ağrı əlaqələrin möhkəmləndirilməsi sahəsində işlərin gedişindən razı qaldıqlarını bildirmiş və bu işləri daha da sürətləndirmək əzmində olduqlarını qeyd etmişlər.

*"Şərq qapısı" qəzeti, 3 dekabr 1991-ci il*

## DOSTLUQ VƏ SƏMİMİLİK ŞƏRAİTİNDƏ

Bakı şəhərində təşkil edilmiş sənaye, ticarət sərgisindən geri qayıdan Şərqi Azərbaycan ostandarı ağayi Əkbər Pəhrizkar dekabrın 4-də Naxçıvan şəhərinə gəlmişdir. Qonaq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

Səmimi görüş zamanı mədəni, ticarət əlaqələrinin genişləndirilməsi, Naxçıvan Muxtar Respublikasını Azərbaycanın qalan hissəsi ilə birləşdirən dəmiryol, rabitə xəttlərinin İran İslam Respublikası ərazisindən çəkilməsi, Cənubi Azərbaycandan Naxçıvana qaz, elektrik enerjisi verilməsi və digər məsələlərdən söhbət getmişdir.

Ağayi Əkbər Pəhrizkar Ali Məclis Sədrinin Azərbaycanın keçən əsrdən iki hissəyə parçalanması, canbir qardaşların güclə bir-birindən ayrılması fikri ilə razılaşaraq bildirmişdir ki, biz Şimali Azərbaycanı öz evimiz hesab edirik və burada yaşayan qardaş-bacılarımıza həmişə kömək etməyə hazırıq. Azərbaycan Respublikasının müstəqilliyini tanımaq məsələsinə gəldikdə isə Şərqi Azərbaycanın ostandarı demişdir ki, millətimizin istəyinə biz həmişə hörmətlə yanaşırıq.

Ağayi Əkbər Pəhrizkar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevi Təbrizə rəsmi səfərə dəvət etmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının iri şirkətlərindən birinin - "Azərlab" şirkətinin başçısı doktor Zeynalabdin Mücahidini qəbul etmişdir. Şirkətin Təbrizdə, Tehranda dərman preparatları, tibb avadanlığı istehsal edən böyük müəssələri var. "Azərlab"ın başçısı demişdir ki, Şimali Azərbaycandakı qardaşlarımız çətin günlərini yaşayırlar. Biz onların bu vəziyyətinə biganə qala bilmərik. Naxçıvan bu taydakı canbir qardaşlarımız ilə əlaqə saxlamaq üçün bir qapıdır. Ona görə köməyimizi də elə burdan başlamağı qərara almışıq.

Ali Məclisin Sədri "Azərlab" şirkəti ilə mal mübadiləsi prosesini sürətləndirmək üçün lazımi şərait yaradılacağından, bu sahədə həyata keçiriləcək tədbirlərdən danışmışdır.

*"Şərq qapısı" qəzeti, 6 dekabr 1991-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1991-ci il dekabrın 27-də Amerika Birləşmiş Ştatlarının Moskvadakı səfirliyinin əməkdaşları - səfirliyin ikinci katibləri Eni K. Breyter və Obri A. Karlson Naxçıvan Muxtar Respublikasına gəlmişlər. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev onları öz xahişləri ilə qəbul etmişdir.

Zaqafqaziya problemləri ilə məşğul olan amerikalı diplomatlar Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyevlə görüşmək məqsədilə gəldiklərini bildirmişlər. Xanım Eni K. Breyter demişdir: “Biz Azərbaycanda bir neçə dəfə olmuş, Naxçıvana gəlməyə çalışmışıq, lakin hər dəfə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində də, Bakıda da maneələrlə rastlaşmışıq”.

ABŞ səfirliyinin nümayəndələri Naxçıvandakı vəziyyətlə, demokratik proseslərin inkişafı, iqtisadi islahatların gedişi, muxtar respublikanın Ermənistanla münasibətləri və Azərbaycan rəhbərliyi ilə qarşılıqlı əlaqələri, Naxçıvan parlamentinin başçısının fəaliyyəti ilə maraqlanmışlar.

Heydər Əliyev qonaqları səmimi salamlamış, ABŞ səfirliyi tərəfindən Naxçıvana göstərilən diqqətdən razı qaldığını bildirmiş və qeyd etmişdir ki, bu, amerikalı diplomatların son 70 ildə Naxçıvana ilk gəlişidir. Ali Məclisin Sədri son aylar Naxçıvanda baş verən demokratik dəyişikliklər haqqında ABŞ səfirliyinin nümayəndələrinə məlumat vermiş, mühüm siyasi məsələlər üzrə müstəqil və prinsipial mövqe tutduğuna görə muxtar respublikanın son vaxtlar Azərbaycanın müəyyən dairələri tərəfindən iqtisadi, kommunikasiya və informasiya blokadasına salınmasından danışmışdır. Muxtar respublikanın böyük bir ərazisinin Ermənistan ilə həmsərhəd olduğunu və qarşılıqlı kommunikasiya əlaqələrini nəzərə alaraq Ermənistan rəhbərliyi ilə müntəzəm telefon əlaqəsi saxlanılır ki, bu da ortaya çıxan münaqişələrin həll edilməsinə imkan verir.

Amerikalıların xahişi ilə Heydər Əliyev həmçinin İran və Türkiyənin sərhəd bölgələrinin hakimiyyət orqanları ilə əlaqələrdən və onla-

rın ictimai təşkilatlarının Naxçıvan Muxtar Respublikası əhalisinə göstərdiyi humanitar yardımdan danışmışdır.

Cənab Obri A. Karlson və xanım Eni K. Breyter ABŞ-ın Dövlət katibi C. Beygerin son çıxışlarının mətnini Heydər Əliyevə təqdim etmişlər. Amerika Birləşmiş Ştatlarının hazırda müstəqil dövlətlər olan keçmiş ittifaqın respublikaları ilə diplomatik əlaqələr yaratması məsələsinə gəldikdə qonaqlar qeyd etmişlər ki, ABŞ hökuməti göstərilən respublikalarda demokratiyanın durumunu əsas tutur. Bu baxımdan Azərbaycan Respublikasının rəhbərliyi mühafizəkar mövqe tutmaqla heç bir ümid vermir. Buna görə də ABŞ Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanısa da, hələlik onunla diplomatik əlaqələr yaratmağı lazım bilmir.

Amerikalı nümayəndələr muxtar respublikadakı müsbət dəyişiklikləri alqışlayaraq demokratiyanın gələcək inkişafı yolunda naxçıvanlılara müvəffəqiyyətlər arzu etmişlər.

Mehriban və səmimi şəraitdə keçən qəbul zamanı tərəflər dünyanın demokratik qüvvələrinin daha sıx birləşməsinin zəruriliyini qeyd etmiş, gələcəkdə Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında dostluq əlaqələrinin yaranacağına ümid bəslədiklərini bildirmişlər.

*29 dekabr 1991-ci il*

* * *

Dekabrın 30-da Maku fərmandarı Məhərrəm Allahverdizadə başda olmaqla Cənubi Azərbaycan nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına gəlmişdir.

Elə həmin gün Makudan gəlmiş rəsmi nümayəndələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir.

Ağayi Məhərrəm Allahverdizadə bildirmişdir ki, Naxçıvana bir neçə həftə bundan sonra gəlmək nəzərdə tutulmuşdu. Lakin naxçıvanlıların son aylardakı ağır şəraitlərindən və bu çətinliklərə baxmayaraq 31 dekabrın dünya Azərbaycan türklərinin Milli Həmrəylik və Birlik

Günü kimi bayram edəcəklərindən xəbər tutaraq səfərlərinin vaxtını qabağa çəkiblər.

Cənubi Azərbaycandan gəlmiş qardaşlarımız muxtar respublikada keçirilən bayram tədbirlərində iştirak etmişlər.

*31 dekabr 1991-ci il*

## İRAN DİPLOMATLARI NAXÇIVANDA

İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin nümayəndələri Naxçıvana rəsmi görüşə gəlmişlər. Elə həmin gün səfirliyin birinci katibi Mehdi Abbas Paydarı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir.

Ağayi Mehdi Abbas Paydar İran İslam Respublikasının Azərbaycandakı səfiri Ə.Ə. Dəməşqiyənin salamını Ali Məclisin Sədri Heydər Əliyevə yetirmiş və bildirmişdir ki, İranda Azərbaycan və xüsusən Naxçıvan Muxtar Respublika əhalisinin çəkdiyi çətinlikləri bilir və Arazın bu tayındakı dil və din bir qardaşlarına mümkün olan köməkliyi göstərməyə hazırdırlar. O demişdir: "Qardaşlığı insanlara zorla unutdurmaq olmaz. 70 il kommunizm təbliğatı Şimali Azərbaycanda insanların şüurunu zəhərləməyə, bizləri bir-birimizə yadlaşdırmağa çalışırdı. Lakin bu, mümkün olmadı. Aramızdakı qardaşlıq borcunu da bizə unutdura bilmədilər. Zəncandakı zəlzələdən sonra bu taydakı qardaşlarımız bizə köməyə gəldilər. Biz də sıxıntılı günlərinizdə sizi tək qoymayacağıq, əlimizdən gələn köməkliyi əsirgəməyəcəyik".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev demişdir ki, xalqın iradəsinin qarşısını heç kəs ala bilməz, Azərbaycan xalqı rus-sovet imperiyasının zəncirini qırıb əsarətdən çıxıb. İndi də dini və milli - tarixi ənənələri üzərində yaşayışını qurmaq istəyir. Belə bir vəziyyətdə və Ermənistan tərəfdən təcavüzə məruz qaldığı şəraitdə Azərbaycan xalqı Arazın o tayındakı qardaşlarından ən başlıcası mənəvi kömək gözləyir.

Ali Məclisin Sədri bildirmişdir ki, yaranmış şəraitdə naxçıvanlılar İran İslam Respublikası tərəfindən köməkliyi ilk növbədə, Aslandüzdən keçən avtomobil yolunun açılması, İran ərazisindən Naxçıvanı Azərbaycanın qalan hissəsi ilə birləşdirən dəmir yolunun tikintisi, elektrik, qaz xətlərinin çəkilməsi və bir sıra başqa təxirəsalınmaz məsələlərin həllinin sürətləndirilməsində görürlər.

İran səfirliyinin nümayəndələri bu məsələlərlə əlaqədar söylənmiş fikir və təklifləri təmsil etdikləri ölkənin rəhbərlərinə çatdıracaqlarını vəd etmişlər.

Ağayi Mehdi Abbas Paydar bildirmişdir ki, muxtar respublikaya səfərlərinin əsas məqsədi Naxçıvanda İran İslam Respublikasının konsulluğunu açmaq təklifini çatdırmaqdır. Heydər Əliyev bu təklifi qəbul etmiş və eyni zamanda, İran İslam Respublikasının Təbriz şəhərində Naxçıvan Muxtar Respublikasının konsulluğunun açılmasının zəruriliyini söyləmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*23 yanvar 1992-ci il*

## İRANDAN YARDIM GƏLİR...

Xəbər verildiyi kimi, iqtisadi çətinliklər çəkən Naxçıvan Muxtar Respublikasına son bir həftə ərzində İran İslam Respublikasından min ton kartof yardımı daxil olmuşdur. Bu yardımın sonuncu hissəsini - 300 ton kartofu Naxçıvan əhalisinə dünən İran İslam Respublikası “Qırmızı Aypara” cəmiyyətinin nümayəndələri çatdırmışlar. Onlar bu dəfə ərzaqdan əlavə, elektrik enerjisi istehsal edən 4 iri generator, 500 ədəd buxarı da gətirmişlər.

1992-ci il yanvarın 24-də nümayəndə heyətinin üzvlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir. Nümayəndə heyətinin başçısı - İran İslam Respublikası “Qırmızı Aypara” cəmiyyəti sədrinin səlahiyyətli nümayəndəsi Əhməd Rəfiyi

demişdir: "Cəmiyyətimiz naxçıvanlı müsəlman qardaşlarımızın sıxıntı çəkmələrinə biganə qala bilməz. "Qırmızı Aypara"nın sədri doktor Vahid Dəstgərdinin tapşırığıdır ki, burda nələrə ehtiyacınız olduğunu öyrənək və onları tezliklə sizlərə yetirək".

Ali Məclisin Sədri Heydər Əliyev Tehrandan gəlmiş qonaqları səmimi salamlayaraq bildirmişdir ki, doğrudan da, müsəlman qardaşları çətin anda bir-birinə kömək etməlidirlər. Şimali Azərbaycan indi kommunizm, şurəvi quruluşunu dağıdaraq müstəqilliyə, azadlığa can atır və bu yolda çoxlu çətinliklərlə üzləşir. Belə bir vəziyyətdə onun əhalisi ilk növbədə İran İslam Respublikasındakı və Türkiyədəki müsəlman qardaşlarından yardım gözləyir, çünki qardaşın qardaşdan kömək umması təbiidir. Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublika əhalisi adından göstərilən yardım üçün minnətdarlığın bildirmiş, Arazın bu tayından bütün qardaşlara hərarətli salamını, İran İslam Respublikasının "Qırmızı Aypara" cəmiyyətinin sədri doktor Vahid Dəstgərdiyə təşəkkürünü və Naxçıvan Muxtar Respublikasına rəsmi dəvətini çatdırmağı xahiş etmişdir.

Qəbulda Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Ə. Sadiqov iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

## İŞGÜZAR GÖRÜŞLƏR

İran İslam Respublikasının məşhur "Bonyade Möstezəfan və Canbazane Enqelabe Eslami" sənaye-ticarət şirkəti iqtisadi çətinliklərlə üzləşmiş Naxçıvan Muxtar Respublikasına keçən ay xeyli ərzaq yardımı göndərmişdir. Yardımı təqdim edən nümayəndələr bildirmişlər ki, "Bonyade Möstezəfan və Canbazane Enqilabe Eslami" şirkəti Naxçıvanın azad iqtisadi zonaya çevrilməsi, muxtar respublikanın bir neçə sənaye müəssisəsinin modernləşdirilməsi işinə kömək etmək niyyətindədir.

Fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev "Bonyade Möstezəfan və Canbazane Enqilabe Eslami"

şirkətinin nümayəndələrini – şirkət başçısının müavini Şaabanian və şirkət müdiri Məhəmmədhəsən Əşrəfianı qəbul etmişdir.

Söhbət zamanı qonaqlar bildirmişlər ki, onlarla gəlmiş mühəndis Babək rayonundakı kərpic zavodunda müəssisənin istehsal gücünün ildə 20 milyon ədəd kərpicə çatdırmaq məqsədilə vəziyyəti öyrənir. Bundan əlavə, Şərurda ildə 60 milyon ədəd kərpic istehsal edəcək zavodun da layihə-smeta sənədlərinin hazırlanması nəzərdə tutulmuşdur. Həmçinin Culfa rayonundakı Darıdağ qaz zavodunun məhsulunun bir hissəsinin şirkətə satılması razılaşdırılmışdır.

İşlərin vaxtında və yüksək səviyyədə görülməsi üçün şirkətin Naxçıvan şəhərində nümyəndəliyi təşkil ediləcək. Bu məqsədlə Naxçıvanda şirkətə müvəqqəti bina ayrılmışdır. Gələcəkdə şirkət özünə ayrıca inzibati və yaşayış binası tikəcək.

Ali Məclisin Sədri Heydər Əliyev yardım üçün qonaqlara təşəkkür etmiş, "Bonyade Möstəzəfan və Çanbazane Enqelabe Eslami" şirkətinin Naxçıvan Muxtar Respublikasında aparacağı işlərə müsbət münasibətini bildirmişdir.

***

Fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Makudan gəlmiş qonaqları - Maku fərmandarı Məhərrəm Allahverdizadə, İmamcümə Heydər Musəvi, mədəniyyət idarəsinin rəisi Xosrov Purəsəd və fərmandarın müşaviri Rəhim Rəhimini qəbul etmişdir.

Söhbət zamanı qonaqlar bildirmişlər ki, İranda İslam inqilabının 13-cü ildönümü müsəlmanların əziz günü - peyğəmbərin məsub olduğu günlə eyni vaxta təsadüf edir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi ilə ötən il bağlanmış müqaviləyə əsasən Naxçıvan şəhərində bu bayramla əlaqədar tədbir keçirilməsi planlaşdırılıb. Həmin bayramı Naxçıvanda təşkil etmək və keçirmək üçün rəsmi şəxslərlə yanaşı Maku şəhərinin müxtəlif təşkilatlarının nümayəndələri də gəlmişlər.

Makudan gəlmiş nümayəndələr naxçıvanlı qardaşlarına həmçinin 100 ton ərzaq yardımı və şəhid ailələrinə hədiyyələr gətirmişlər.

Bu günlər İran İslam Respublikasından Naxçıvana bir qrup sənaye mütəxəssisi gəlmişdir. Onlar muxtar respublikanın bir çox istehsal müəssisəsində texnoloji proseslərlə və buraxılan məhsullarla tanış olmuş, sənayemizdəki mövcud vəziyyəti öyrənmişlər.

Fevralın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bu mütəxəssislərdən İran İslam Respublikası Ağır Sənaye Nazirliyinin Şərqi və Qərbi Azərbaycan üzrə əlaqələndiricisi Həsən Qəhhari, Şərqi Azərbaycanın ağır sənaye idarəsinin baş müdirinin müavini Hacı Zeynalabdin İmanlu və bu idarənin proqram və dizayn şöbəsinin müdiri Məhəmməd İbrahim Mahudçianı qəbul etmişdir.

Hacı Zeynalabdin İmanlu bildirmişdir ki, Şimali Azərbaycan sənayesinin dirçəlməsinə qardaş köməyi göstərmək niyyəti ilə Naxçıvana gəlmişlər. O demişdir: "Müəssisələrinizi gəzdik. Gördük ki, sizin hər şeyiniz var və eyni zamanda, heç nəyiniz yoxdur. Bir vaxtlar bizdə də bu cür vəziyyət idi. Öz gücümüzlə, səriştəmizə arxalanaraq işləri düzgün qaydada qurmaqla çətin vəziyyətdən çıxdıq. Bu sahədəki təcrübəmizi, biliyimizi sizinlə bölüşməyə hazırıq".

Ali Məclisin Sədri Heydər Əliyev qeyd etmişdir ki, Azərbaycan Respublikası, o cümlədən, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası qardaş İran və Türkiyə ölkələrinə böyük məhəbbətlə baxır və yaranmış iqtisadi çətinliklərin aradan qaldırılmasında ilk növbədə, Arazın o tayındakı müsəlman qardaşlarından kömək gözləyir. Bu baxımdan İran İslam Respublikası ilə hərtərəfli qarşılıqlı əlaqələrin, o cümlədən, təcrübə mübadiləsi sahəsində əlaqələrin yaradılmasına və genişləndirilməsinə böyük ümidlər bəsləyir.

Söhbət zamanı muxtar respublikanın bir sıra müəssisəsinin yenidən qurulması, yeni texnologiya və avadanlıqlarla təchiz edilməsi, ümumiyyətlə, iqtisadiyyatımızı böhran vəziyyətindən çıxarmaq üçün xüsusi proqram hazırlanması və digər məsələlər haqqında fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*2 fevral 1992-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Fevral ayının 1-də Türkiyədə baş vermiş qar uçqunu nəticəsində 200-ə yaxın adam həlak olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bu faciə ilə əlaqədar fevralın 3-də Türkiyə Respublikasının Prezidenti T. Özala telefonla zəng etmiş, Naxçıvan parlamenti, muxtar respublika əhalisi adından T. Özal cənablarına, bütün türk xalqına, həlak olmuş qardaşlarımızın ailələrinə başsağlığı vermişdir. Elə həmin gün Türkiyə Respublikasının Prezidenti Turqut Özal və Baş nazir Süleyman Dəmirəl cənablarına rəsmi başsağlığı teleqramları göndərilmişdir.

Dünən, fevralın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Heydər Əliyev və Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl arasında telefon söhbəti olmuşdur. Ali Məclisin Sədri Heydər Əliyev bir daha baş vermiş fəlakətlə əlaqədar qardaş türk xalqına başsağlığı vermiş, mərhumların əzizlərinin kədərinə naxçıvanlıların şərik olduğunu bildirmişdir.

Telefon söhbəti zamanı Baş nazir Süleyman Dəmirəl Araz çayı üzərindən salınan körpünün tikintisinin sürətləndirilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçiriləcəyinə söz vermişdir. Bu məsələ ilə bağlı Ali Məclisin Sədri Heydər Əliyev Baş nazir Süleyman Dəmirələ xüsusi məktub da göndərmişdir. Baş nazir Süleyman Dəmirəl həmçinin bildirmişdir ki, bu yaxınlarda Türkiyənin Naxçıvanla həmsərhəd rayonu Aralığa gəlmək fikrindədir və orada olan zaman Ali Məclisin Sədri Heydər Əliyevlə görüşmək istərdi.

Tərəflər arasında iqtisadi və mədəni əlaqələrin daha da inkişaf etdirilməsi ilə əlaqədar fikir mübadiləsi olmuşdur.

*5 fevral 1992-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1992-ci il martın 22-dən 25-nə qədər Türkiyə Respublikası hökumətinin dəvəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyədə səfərdə olmuşdur. Ankarada Heydər Əliyevi Türkiyə Respublikasının Prezidenti Turqut Özal qəbul etmişdir. Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri arasında əlaqələrin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi məsələləri müzakirə olunmuşdur. Görüşlər zamanı Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrlə bağlı məsələlərə də toxunulmuşdur.

Türkiyə Respublikası və Azərbaycan Respublikası arasında bağlanmış dostluq, əməkdaşlıq və yaxın qonşuluq müqaviləsi və Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında tarixi və mədəni qardaşlıq əlaqələri əsas götürülərək bütün sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında razılıq əldə olunmuşdur. Bu məqsədlə Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev birgə əməkdaşlıq protokolu imzalamışlar.

Əməkdaşlıq haqqında protokolda Türkiyə Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi nəzərdə tutulur.

Sənaye, kənd təsərrüfatı, tikinti və turizmin təşkilində tələbatı ödəmək və ərzaq, sənaye malları ilə əhalini təmin etmək məqsədilə Türkiyə hökuməti Naxçıvan Muxtar Respublikasına 100 milyon dollar məbləğində kredit ayırır.

Qısa vaxtda muxtar respublika Türkiyənin elektrik sisteminə daxil ediləcək, Türkiyə ilə Naxçıvan arasında birbaşa dəmir yolu və avtomobil yolu şəbəkəsinin təsis edilməsi üçün davam edən işlər sürətləndiriləcək və Araz çayı üzərində körpü tikiləcəkdir. Naxçıvan Muxtar Respublikası ilə qısa vaxtda hava xəttinin yaradılması məqsədilə Tür-

kiyə Respublikası lazımi tədbirlər həyata keçirəcək, Türkiyə televiziyası və radiosunun verilişlərinin Naxçıvanda maneəsiz qəbul edilməsi üçün Türkiyə tərəfi zəruri tədbirlərin görülməsini sürətləndirəcəkdir.

Naxçıvan Muxtar Respublikasının zəruri ehtiyaclarının təmin edilməsi üçün telefon, faks, teleks kimi xəbər sistemlərinin işlək vəziyyətə gətirilməsi məqsədilə xüsusi bir proqramın işlənib hazırlanması nəzərdə tutulur.

Türkiyə tərəfi bu ilki əkin mövsümünün əvvəlinədək Naxçıvan Muxtar Respublikasını lazım olan toxum, kənd təsərrüfatı texnikası və müvafiq mütəxəssislərlə təmin etməyi də üzərinə götürmüşdür. Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında bank sahəsində geniş iş birliyi yaradılacaq və Naxçıvanda Türkiyə Respublikasının Kənd Təsərrüfatı Bankının şöbəsi açılacaq.

Naxçıvanda turizmin təşkili, müasir mehmanxanaların inşası, mətbəx avadanlıqlarına olan ehtiyacın təmin edilməsi sahəsində də Türkiyə hökuməti tərəfindən yardım göstərilməsi nəzərdə tutulur. Türkiyə Respublikası həmçinin Naxçıvan Muxtar Respublikasından ildə 100 tələbənin Türkiyədə təhsil almasını təmin edəcəkdir.

Söhbət və danışıqlar zamanı Türkiyə tərəfindən Baş nazirin müavini Ərdal İnönü, xarici işlər naziri Hikmət Çətin, milli müdafiə naziri Növzat Ayaz, daxili işlər naziri İsmət Sezgin, kənd təsərrüfatı naziri Nəcməttin Cövhəri, dövlət nazirləri Cavad Çağlar, Ekram Ceyhun, Ömər Barutçu, Türkiyə parlamentinin deputatı Münaf İslamoğlu iştirak etmişlər.

Türkiyəyə səfər zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevi Ali Məclisin Sədr müavini Asif Kələntərli müşayiət etmiş, aparılan söhbət və danışıqlarda iştirak etmişdir.

Ankarada olarkən Heydər Əliyev Türkiyə Respublikasının ilk Prezidenti Mustafa Kamal Atatürkün və Azərbaycan Demokratik Respublikasının yaradıcılarından olan Məmməd Əmin Rəsulzadənin qəbirlərinə əklillər qoymuşdur. Ali Məclisin Sədri həmçinin İstanbul, Qars, İqdır şəhərlərinin tarixi abidələri, görməli yerləri ilə tanış olmuş, şəhər rəhbərləri ilə görüşüb danışıqlar aparmışdır.

Türkiyə Respublikası və Naxçıvan Muxtar Respublikası rəhbərləri arasındakı görüşlər və danışıqlar qardaşlıq, dostluq, səmimiyyət, qarşılıqlı anlaşma və məhəbbət şəraitində keçmişdir. Türkiyənin hər yerində Naxçıvan nümayəndələrinə böyük diqqət, qonaqpərvərlik, mehriban münasibət və ehtiram göstərilmişdir.

*1 aprel 1992-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ ZAMANI TÜRKİYƏNİN BAŞ NAZİRİ SÜLEYMAN DƏMİRƏLLƏ RƏSMİ GÖRÜŞÜ

*(23 mart 1992-ci il, Ankara)*

## SÜLEYMAN DƏMİRƏLİN ÇIXIŞI

Hörmətli prezident!

Hörmətli Heydər Əliyev dünya siyasətində möhtərəm bir şəxsdir. Keçmiş Sovet İttifaqında və Azərbaycanda yüksək dövlət işlərində çalışmışdır.

Naxçıvan bizim qonşumuzdur, əhalisi türkcə danışır. Türkiyə Respublikasının başlanğıcında, yəni Şərq tərəfində yerləşən Naxçıvan Respublikasının statusunda bir dəyişiklik meydana gələrsə, müqaviləyə əsasən, burda Türkiyə öz sözünü deməlidir. Keçmiş Sovet İttifaqında meydana gələn dəyişikliklərin bir nümunəsi kimi Naxçıvanda əmələ gələn dəyişikliklərə Türkiyə birbaşa öz münasibətini bildirməlidir. Faktiki olaraq Türkiyə Naxçıvanın statusunda əmələ gələcək dəyişikliklərdə öz sözünü deməlidir.

İndi hörmətli prezident Heydər Əliyev Türkiyəyə xüsusi bir dəvətlə gəlmişdir və Heydər Əliyevi burda, öz aramızda görməkdən çox məmnunam. Naxçıvanda və Azərbaycanda olan vəziyyətlə əlaqədar görüşürük. Biz görürük ki, Naxçıvanda sabitlik var. Hörmətli Heydər Əliyev bu sabitliyi yaradandır, onun sahibidir. Naxçıvan bu sabitliyə görə ona borcludur. Naxçıvan xalqı hörmətli Heydər Əliyevi baş tacı etmişdir. Şəxsən mən bunu təqdirəlayiq böyük bir iş kimi qiymətləndirirəm. Azərbaycanda da sabitlik axtarırıq və ümid edirik ki, bu yaxınlarda Azərbaycanda da siyasi sabitlik olacaq. Azərbaycan və Ermənistan arasında olan ixtilaf beynəlxalq zəmindədir. Bu zəmin əsasında əvvəlcə ölkənin daxili məsələsini həll edirlər. Odur ki, qardaşlarımıza deyirik: bu sabitlik təmin ediləcək. Bildiyiniz kimi, Ermənistan ilə Azərbaycan arasında olan münaqişədə əsas yeri Qarabağ tutur. Qara-

bağdakı türklər Qarabağdan qovulub çıxarılmış, Qarabağ türklərinə çoxlu əziyyətlər verilmiş, onlara qarşı vəhşiliklər edilmişdir. Bunlar bizi burada çox narahat edir. Bütün bunlar türk xalqını da, türk hökumətini də, türk dövlətini də narahat edir. Azərbaycan hadisəsi günümüzün mühüm fövqəladə mövzusudur.

Naxçıvanın isə bir sıra iqtisadi çətinlikləri var. Bu iqtisadi çətinlikləri aradan qaldırmaq üçün, ehtiyacları ödəmək üçün onlara kömək edəcəyik.

Çox dəyərli qardaşımı Türkiyədə görməklə məmnun və xoşbəxt olduğumu bir daha təkrar bildirmək istəyirəm.

## HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Hörmətli Baş nazir, məni bura dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. Ankarada, Türkiyədə mən özümü öz məmləkətimdəki kimi hiss edirəm. Sizin Naxçıvan haqqında dediyiniz sözlər məni çox həyəcanlandırır və sevindirir. Naxçıvanın xüsusi bir statusunun olması, Türkiyənin Naxçıvan üçün zamin bir dövlət olması 70 il bundan əvvəl bağlanmış müqavilələrdə öz əksini tapıb. Ancaq bu statusun həyata keçirilməsi və indi bunun dünyada elan edilməsi Sizin kimi böyük şəxsiyyətə - Türkiyənin Baş naziri Süleyman Dəmirələ nəsib olmuşdur. Mən hesab edirəm ki, Naxçıvan xalqı, bütün Azərbaycan xalqı bundan çox məmnun qalacaq və bu sıxıntılar içərisində özlərini xoşbəxt hiss edəcəklər.

Sizə çox təşəkkür edirəm. Siz Naxçıvan və Azərbaycan haqqında belə yaxşı sözlər, belə yaxşı kəlmələr dediniz. Bu, indi Azərbaycanda olan türklər üçün - Azərbaycan xalqı üçün çox lazımdır. İndi Azərbaycanda vəziyyət çox pisdir. Dağlıq Qarabağda olan vəhşiliklər, ermənilər tərəfindən türklərin qovulub çıxarılması, kəndlərin dağıdılması, yandırılması - bunların hamısı birinci növbədə, ilk əvvəl Türkiyə vasitəsilə, Sizin kimi böyük siyasi xadimlərin vasitəsilə bütün dünya ictimaiyyətinə çatdırılır və mən güman edirəm ki, bundan sonra da daha geniş, daha dərin surətdə çatdırılacaq. İndi Azərbaycan çətin vəziyyət-

dədir. Türkiyənin açıqca, qorxmadan öz türk qonşusunu qorumaq və ona yardım etmək haqqındakı mühüm sözləri şübhəsiz ki, bütün başqa dövlətlərin rəhbərlərinə və beynəlxalq aləmə təsir edəcək. Mən heç də şübhə etmirəm ki, hörmətli Baş nazir, bütün türk millətini sevən insanların hamısı Azərbaycana yardım edəcəkdir. Azərbaycan türk diyarıdır, azərbaycanlılar türklərdir. İndi 100 ildən sonra türklərin qalxması üçün, türklərin bir-birinə yaxınlaşması üçün, türklərin birləşməsi üçün böyük bir fürsət yaranıb. Bu fürsətdən hər bir türk respublikası yaxşı istifadə etməlidir. Hər bir türk, yəni, keçmiş Sovet İttifaqında yaşayan hər bir türk. Mən belə hesab edirəm.

İndi üzümü Türkiyəyə - ana Türkiyəyə tuturam. Siz qeyd etdiyiniz kimi, Naxçıvanda türklər yaşayır. Orda başqa bir millət yoxdur. 350 minlik əhalinin hamısı türkdür, hamısı türksevərdir. Türk tarixini, türk millətini, türk mədəniyyətini hamısı sevir. Bu, təsadüf deyil, çünki bunlar hamısı türkdür.

Ancaq 70 il Sovet quruluşunda bu millətin türk adını üstündən götürüb, onları millətini unutdurmağa çalışırdılar. Görürsünüz ki, 70 il az vaxt deyil. Bu dövrdə nə qədər təbliğ olundu ki, siz türk deyilsiniz, ancaq hər bir kəsin qəlbində türk millətinə mənsub olması hissi qaldı və fürsət tapılan kimi aşkara çıxdı. Bu, Azərbaycanın tərkib hissəsi olan Naxçıvanda daha açıq görsənir. Siz dediyiniz kimi, bütün səbəblərə görə Naxçıvan Ana Türkiyəyə - Anadolu Türkiyəsinə daha çox yaxındır.

İndi bu yaxınlığı təmin etmək üçün bizə Sizin fəaliyyətiniz, yardımınız, bizimlə bu cür münasibətləriniz şübhəsiz, böyük şərait yaradır. Biz də Naxçıvanda çalışaçağıq ki, bu şəraitdən istifadə edək. Və mən bir daha Sizə təşəkkürlərimi bildirmək istəyirəm. Bu fürsətdən istifadə edib bütün Türkiyədə olan qan qardaşlarıma öz salamlarımı və məhəbbətimi çatdırmaq istəyirəm. Türkiyədə olan qardaşlarımı əmin etmək istəyirəm ki, Naxçıvanda olan türklər Türkiyənin həmişə dayağı kimi duracaqlar və bundan sonra Sizin yardımınız və köməyiniz vasitəsilə daha da inkişaf edəcəklər.

# TÜRKİYƏ İLƏ NAXÇIVAN ARASINDA MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİ

24 mart 1992-ci il, Ankara

## Türkiyə Respublikasının Baş naziri SÜLEYMAN DƏMİRƏLİN ÇIXIŞI

Qardaşımız, qonşumuz Naxçıvan Muxtar Respublikasının hörmətli Prezidenti, əziz qardaşım Heydər Əliyevlə bir müqavilə imzalayırıq. Bu müqavilənin mahiyyəti Naxçıvan Muxtar Respublikası ilə əməkdaşlıq etməkdir. Naxçıvan Muxtar Respublikasının bir çox ehtiyacları var. Bu ehtiyacları ödəməyə Türkiyə kömək edəcək. Bunun üçün 100 milyon dollar kredit verəcək, Naxçıvan Muxtar Respublikası ilə telefon, televiziya əlaqələrinin yaradılmasını Türkiyə təmin edəcək. Bundan əlavə, hər il 100 nəfər naxçıvanlı tələbə Türkiyə məktəblərində təhsil ala biləcək. Bütün xərcləri də Türkiyə öz üzərinə götürür. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında Araz çayı üzərində qurulan körpü bir ay müddətində tikilib istifadəyə veriləcək. Daha sonra hava xətti açılacaq, dəmir yolu çəkiləcək və bu xərcləri də Türkiyə öz üzərinə götürür. Naxçıvan Muxtar Respublikasında müxtəlif müəssisələrə kapital qoyulması üçün təşəbbüslərimizi birləşdirib qiymətli qardaşlarımıza kömək edəcəyik.

Bilirsiz ki, Azərbaycanın bir hissəsi olan Naxçıvanla Türkiyə arasında qədimdən bir münasibət var. Əgər Naxçıvanın statusunda hər hansı bir zamanda bir dəyişiklik olarsa, Türkiyə bu məsələdə söz sahibidir. Naxçıvan Muxtar Respublikasına qarşı xüsusi bir ehtiramımız var. Bu ehtirama görə müqaviləni imzaladıq.

İndi bu müqavilənin nüsxələri yayılacaq və mənim imzaladığım müqaviləni hörmətli qonağım, qardaşım Heydər Əliyevin imzaladığı müqavilə ilə dəyişdirəcəyik. Bunu mən Sizə verirəm...

Xeyirli olsun.

**Heydər Əliyev:** Sağ olun. Təşəkkür edirəm!

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**
**HEYDƏR ƏLİYEVİN**
**Ç I X I Ş I**

Hörmətli Baş nazir!

Hörmətli türk dostlarım!

Ən əvvəl qeyd etmək istəyirəm ki, bu gün Naxçıvanın - Azərbaycanın bir hissəsi olan Naxçıvan Muxtar Respublikasının həyatında ən mühüm, ən tarixi gündür. Naxçıvan 1920-21-ci illərdə Qars, Moskva müqavilələri ilə Türkiyəyə bağlanmışdır.

Naxçıvanın Türkiyə ilə qədimdən çox insani, mədəni, iqtisadi və başqa əlaqələri olmuşdur. Bir sözlə, Naxçıvan qədim türk diyarıdır. Naxçıvanda türklər yaşayırlar.

Hörmətli Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə mənim Türkiyədə olmağım bütün naxçıvanlılar üçün böyük bir hədiyyədir, böyük bir mükafatdır. Və buna əsasən, bu gün burda belə bir müqavilənin imzalanması, bir daha qeyd edirəm, Naxçıvanın həyatında tarixi bir hadisədir. Bunu biz tarixi sənəd kimi qiymətləndiririk. Çünki 70 ildə Naxçıvan, Azərbaycan xalqı, Azərbaycan türkləri əsarətdə olmuş, Sovet imperiyasının əsarətində olmuş, indi bu əsarətdən xilas olub, Azərbaycan Respublikasının müstəqilliyini əldə etdiyi zaman Türkiyənin Azərbaycan Respublikasına və Azərbaycanın bir hissəsi olan Naxçıvan Muxtar Respublikasına belə yaxından münasibət bəsləməsi, bu cür yardım etməsi, şübhəsiz, bizim keçmiş əlaqələrimizin yenidən yaradılıb möhkəmləndirilməsini bir daha nümayiş etdirir. Mən bütün naxçıvanlılar adından, Naxçıvanda olan sizin qan qardaşlarınız - türklər adından Türkiyə Respublikasında yaşayan bütün türk qardaşlarımıza, hörmətli Baş nazir Süleyman Dəmirələ, hörmətli Prezident Turqut Özala və hamınıza öz təşəkkürümü bildirirəm. Hamınıza çatdırmaq istəyirəm ki, bu münasibətlər, bu əlaqələr Naxçıvan Muxtar Respublikası qarşısında düşdüyü iqtisadi və siyasi böhrandan çıxmaq üçün böyük bir yol açır və sizin yardımınızla bu böhranlardan çıxıb, Naxçıvan ilə Türkiyə arasında olan əlaqələri daha da inkişaf etdirəcə-




ШƏҺИД




YAYIN
















Naxçivan poçt
1993
Naxçivan poçt 1993
H.Ä.Äliyev
5
man
Naxçivan poçt 1993
Naxçivan
5
man




















Kəssə hər kim tökülən qan izini,













yik. Mən bir məsələni qeyd etmək istəyirəm ki, bu müqavilənin və müqavilədə göstərilən bütün maddələrin, o cümlədən, Naxçıvan Muxtar Respublikasına yüz milyon dollar yardım edilməsi məsələlərinin hamısının həm siyasi, həm iqtisadi, həm də mənəvi əhəmiyyəti var. Mən çox bəxtiyaram ki, bu müqaviləni türk millətinin, türk dünyasının ən böyük siyasi xadimlərindən, şəxsiyyətlərindən biri olan hörmətli Süleyman Dəmirəl imzalamışdır. Qars, Moskva müqavilələri tarixə daxil olduğu kimi, bu da tarixə daxil olacaq. Bütün bizim gələcək nəsillər, bütün türk dünyası, indi yüksəlməkdə olan türk dünyası, birləşmək arzusunda olan türk dünyası bu sənədi də öz tarixində həmişə araşdıracaq və sənədi imzalayanlara, xüsusilə, hörmətli Süleyman Dəmirələ və bütün türk qardaşlarına daim təşəkkürlərini bildirəcək. Mən, hörmətli Baş nazir, Sizi əmin etmək istəyirəm ki, Sizin bu yardımınızdan çox səmərəli, çox faydalı istifadə etməyə Sizə söz veririk və mən deyərdim ki, bu proqram yerinə yetirildikcə Naxçıvanın inkişaf etməsini Siz gördükcə, Naxçıvana öz qayğılarınızı, öz diqqətinizi daha da artıracaqsınız. Hörmətli Baş nazir, mən Sizi Naxçıvana dəvət edirəm. Naxçıvanlılar Sizi Naxçıvan torpağında, qədim türk diyarında görməklə özlərini xoşbəxt hesab edəcəklər. İlk vaxt, bu körpü qurtaran kimi, körpünün açılmasında Sizin iştirakınız bizim Naxçıvan və türk xalqı üçün böyük bir hadisə olar. Sizin Naxçıvana gəlməyiniz, naxçıvanlılarla görüşməyiniz onlar üçün böyük bir hədiyyə olacaq. Sizə şəxsən mənə və yoldaşlarıma, bizim hamımıza göstərilən bütün diqqət və hörmətiniz üçün, bizi bir qardaş kimi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirəm. Əmin etmək istəyirəm ki, bütün Azərbaycanda yaşayan türklər - Naxçıvan türkləri həmişə Türkiyə ilədir və bütün gələcək həyatlarını Türkiyə ilə bağlayırlar. Bir daha Sizə hörmət və ən xoş arzularımı bildirirəm.

**Süleyman Dəmirəl:** Çox təşəkkür edirəm! Hörmətli Prezident, bizim diqqətimiz Naxçıvan üzərindədir. Və inşallah, qısa bir zamanda açacağımız körpü - Araz çayı üzərində açacağımız körpü təkcə hər iki ölkəni çoğrafi cəhətdən birləşdirməyəcək; iki ölkənin, hər iki xalqın yetmiş illik qurbətini aradan qaldıracaqdır.

**Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq**
**P R O T O K O L U**

Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1992-ci il martın 22-dən 24-dək Türkiyəni ziyarət etmişdir.

Bu ziyarət zamanı təşkil edilmiş görüşlərdə, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında mövcud dostluq, əməkdaşlıq və yaxşı qonşuluq müqaviləsi, iki ölkə Xarici İşlər Nazirlikləri arasındakı əməkdaşlıq protokolu və Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasındakı tarixi və mədəni qardaşlıq əlaqələri göz önünə alınaraq hər sahədə daha yaxşı əməkdaşlıq təşkil edilməsi məqsədilə aşağıdakı xüsuslarda razılığa gəlinmişdir.

1. Türkiyə Cümhuriyyəti hökuməti Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı, sənaye, qida və istehlak malları, nəqliyyat, telekommunikasiya, tikinti və turizm kimi sahələrdəki zəruri ehtiyaclarını təmin etmək üçün bütünlükdə 100 milyon dollarlıq bir kredit təsis edəcək.

2. Naxçıvan Muxtar Respublikası bu kreditin həyata keçirilməsi üçün ehtiyac zərurətlərinə görə hazırlayacağı və kredit hissələrinin istifadə edilmə proqramını təsbit edən layihələrini Türkiyə tərəfinə təqdim əsasında lazım olan maliyyə məsələlərinin həlli iki tərəfin texniki məsul şəxsləri ilə müəyyən ediləcək.

3. Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasındakı enerji xətləri ən qısa vaxtda yaradılacaq, Naxçıvan Muxtar Respublikası Türkiyənin elektrik sisteminə daxil ediləcək.

4. Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu və avtomaşın yolu şəbəkəsinin təsis edilməsi üçün davam edən işlər sürətləndiriləcək və körpü tikintisi ən qısa vaxtda bitiriləcək.

5. TRT İdarəsinin televiziya verilişlərinin Naxçıvan Muxtar Respublikasında rahatca seyr edilə biləcək vəziyyətə gətirilməsi üçün Türkiyə tərəfi lazımi tədbirləri sürətlə həyata keçirəcəkdir. Ayrıca Naxçıvan tərəfindən tələb edildikdə TRT İdarəsi xüsusi proqramlar verəcək.

6. Türkiyə Cümhuriyyəti Naxçıvan Muxtar Respublikası ilə avtomaşın və dəmir yollarına əlavə olaraq hava xəttini ən qısa vaxtda həyata keçirəcək.

7. Telekommunikasiya sahəsində Naxçıvan Muxtar Respublikasının zəruri ehtiyaclarının təmin edilməsi, telefon, faks, teleks kimi xəbər sistemlərinin ən qısa vaxtda işlək vəziyyətə gətirilməsi üçün iki tərəfin səlahiyyətli şəxsləri tərəfindən sürətlə tətbiq edilə biləcək bir proqram hazırlayacaqlar.

8. Türkiyə Cümhuriyyəti Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı sahələrində ehtiyac olan toxum, avadanlıq və digər vasitələri və lazım olan mütəxəssislərin əkin mövsümünə çatdırıla biləcək şəkildə sürətlə təmini üçün üzərinə düşən işləri və hazırlıqları qısa müddətə həyata keçirəcək.

9. Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında bank işi sahəsində geniş əməkdaşlıq əlaqələri yaradılması imkanları sürətlə təsdiq ediləcək və Türkiyə Cümhuriyyəti Ziraat Bankının Naxçıvanda bir şöbəsinin açılmasının ilkin hazırlıq işlərinə başlanacaq.

10. Turizm sahəsində Naxçıvan Muxtar Respublikasının imkanlarının dəyərləndirilməsi üçün təsis edilən kredit çərçivəsində mehmanxana inşası daxil olmaqa gərəkli kömək və texniki kömək Türkiyə Cümhuriyyəti hökuməti tərəfindən yerinə yetiriləcək.

11. Naxçıvan Muxtar Respublikasındakı mədəni həyatın inkişafına kömək etmək üçün Türkiyə Cümhuriyyəti, mətbəə təmini də daxil olmaqla mətbuat avadanlıqlarının ehtiyaca görə təminini həyata keçirəcək.

12. Naxçıvan Muxtar Respublikasından 100 tələbənin təhsili Türkiyə Cümhuriyyəti tərəfindən təmin ediləcək.

13. Bütün əməkdaşlıq layihələrinin koordinasiyası və icra edilməsindən Türkiyə Cümhüriyyəti Xarici İşlər Bakanlığı ilə iqtisadi, mədəni, maarif və texniki əməkdaşlıq idarəsi sədrliyi məsul olacaq.

Bu protokola 24 mart 1992-ci il tarixdə Ankarada türkcə, iki nüsxədə imza edilmişdir.

| | |
|---|---|
| **Türkiyə Cümhuriyyəti adından** | **Naxçıvan Muxqar Respublikası adından** |
| **Baş nazir** | **Ali Məclisin Sədri** |
| **Süleyman DƏMİRƏL** | **Heydər ƏLİYEV** |

# ATƏM NÜMAYƏNDƏLƏRİ NAXÇIVANDA

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin nümayəndə heyəti bu günlər respublikamızdadır. Bu beynəlxalq təşkilat Qarabağ probleminin dinc yolla aradan qaldırılmasına səy göstərir. Bu məqsədlə Bakıya gələn ATƏM Xarici İşlər Nazirləri Şurasının Sədri, Çexoslovakiyanın xarici işlər naziri İrji Dinstbin başçılıq etdiyi ATƏM nümayəndə heyətinin üzvlərindən Almaniyanın ATƏM-dəki səfiri Vilhelm Henk və ABŞ-ın bu təşkilatdakı nümayəndəsi Skott Tayyer aprelin 1-də Naxçıvan Muxtar Respublikasına gəlmişlər. Elə həmin gün cənab Vilhelm Henki və Skott Tayyeri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir.

Cənab Vilhelm Henk bildirmişdir ki, ATƏM nümayəndəliyinin Azərbaycan Respublikasının rəhbərliyi ilə görüşündə Qarabağ probleminin dinc yolla aradan qaldırılmasına dair beynəlxalq konfrans keçirilməsi və Azərbaycanda ATƏM-in daimi nümayəndəliyinin açılması haqqında ilkin saziş əldə olunmuşdur. Cənab V. Henk demişdir: “ATƏM iştirakçısı olan ölkələr belə hesab edirlər ki, Qarabağ münaqişəsinin həlli mərhələ-mərhələ həyata keçirilməlidir. İlkin mərhələ regionda atəşin tam dayandırılmasına nail olmaqdır, daha sonra tərəflər arasında qarşılıqlı inam və etimadı möhkəmlətməyə yönəldilmiş tədbirləri həyata keçirmək və üçüncüsü, Qarabağ probleminin həllinə dair beynəlxalq konfrans təşkil etməkdir. Bu konfrans da öz növbəsində, Ermənistan ilə Azərbaycan arasında danışıqlar keçirməyə zəmin yaratmalıdır”.

Ali Məclisin Sədri nümayəndə heyətinin üzvlərini qədim Naxçıvan torpağında salamlayaraq ATƏM kimi səlahiyyətli beynəlxalq təşkilatın sülhpərvərlik səylərindən razı qaldığını bildirmişdir. Heydər Əliyev qeyd etmişdir ki, Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyası ilə çıxış edənlər çox olmuşdur, lakin onların səyi müvəffəqiyyətlə nəticələnməmişdir. Ali Məclisin Sədri bu mənada ATƏM-in sülh missiyasının müsbət nəticələr verəcəyinə ümidvar olduğunu söyləmişdir.

Görüş zamanı Qarabağın dağlıq hissəsindəki münaqişə və onun həlli yolları, Azərbaycan və Ermənistan respublikaları arasındakı münasi-

bətlər haqqında fikir mübadiləsi olmuş, Naxçıvan Muxtar Respublikasının Ermənistan tərəfindən iqtisadi və kommunikasiya blokadasına salınmasından, muxtar respublikanın Kərki kəndinin iki il bundan əvvəl Ermənistan Respublikası tərəfindən işğal edilməsindən geniş söhbət getmişdir. Görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavinləri R. Həsənov, Q. Məmmədov iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*1 aprel 1992-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Türkiyə Cümhuriyyətinə rəsmi səfəri və Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 24 mart 1992-ci il tarixli Ankara Əməkdaşlıq protokolu haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır;**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə rəsmi səfəri, Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalla, Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəllə və digər rəsmi şəxslərlə aparılmış danışıqlar bəyənilsin.

2. Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 1992-ci il martın 24-də Ankarada imzalanmış Əməkdaşlıq Protokolu təsdiq edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında mövcud dostluq, əməkdaşlıq və yaxşı qonşuluq müqaviləsi, iki ölkə Xarici İşlər Nazirlikləri arasındakı əməkdaşlıq protokolu və Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasındakı tarixi və mədəni qardaşlıq əlaqələri əsasında Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmış

Ankara Əməkdaşlıq Protokolunu böyük əhəmiyyətə malik olan tarixi sənəd kimi qəbul edir və yüksək qiymətləndirir.

Ali Məclis qeyd edir ki, Azərbaycan Respublikasının, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ağır iqtisadi böhran vəziyyətində olduğu bir dövrdə Türkiyə Cümhuriyyəti hökumətinin Naxçıvan Muxtar Respublikasına böyük maliyyə, maddi-texniki yardım göstərməsi Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına, böhrandan çıxmasına, əhalinin rifah halının yaxşılaşmasına geniş imkan yaradacaq.

Bu imkanlardan səmərəli istifadə olunması Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, butün idarə orqanların mühüm vəzifələri olmalıdır.

Ali Məclis Naxçıvan Muxtar Respublikasının əhalisi adından Türkiyə Cümhuriyyəti hökumətinə, Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özala, Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirələ dostluq və qardaşlıq münasibətlərinə görə, Əməkdaşlıq Protokolunda nəzərdə tutulmuş yardıma görə dərin minnətdarlığını və təşəkkürünü bildirir.

4. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin daimi komissiyalarına, muxtar respublika Nazirlər Kabinetinə, rayon və şəhər xalq deputatları məclislərinə, onların icraiyyə komitələrinə tapşırılsın ki, Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmış Əməkdaşlıq Protokolunun icrası ilə əlaqədar konkret təkliflərini hazırlayıb 15 gün müddətinə Ali Məclisin Rəyasət Heyətinə təqdim etsinlər.

Təkliflər daimi komissiyalarda, Nazirlər Kabinetində müvafiq mütəxəssislərin iştirakı ilə müzakirə olunsun.

5. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinə tapşırılsın ki, Əməkdaşlıq Protokolundan irəli gələn məsələlərin təşkil olunması və yüksək səviyyədə həyata keçirilməsi məqsədilə koordinasiya komissiyası yaratsın.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 4 aprel 1992-ci il*

# ÇEÇENİSTAN HÖKUMƏTİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

Turkiyə Respublikasına səfərdən qayıdarkən yolüstü Bakıda olan Çeçen Respublikasının hökumət nümayəndələri - Çeçen Respublikası Baş naziri Yaraqi Mamodayev, onun müavini Ayndi Musayev muxtar respublikamıza gəlmişlər. Elə həmin gün Çeçen Respublikası hökumətinin başçısı Yaraqi Mamodayev və onu müşayiət edən şəxsləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir.

Yaraqi Mamodayev muxtar respublikanın əhalisinə, bütün Azərbaycan xalqına çeçen xalqı adından səmimi salamlar və müsəlmanların əziz bayramı - mübarək Ramazan münasibətilə təbriklər yetirmişdir. Yaraqi Mamodayev demişdir ki, Çeçen və Azərbaycan xalqları milli müstəqillik uğrunda mübarizə yolunda öz qəti sözlərini deyirlər. Müsəlman aləmində, Qafqaz rayonunda xalqlarımız layiqli yerlərini tutmalıdırlar. Bunun üçün də Çeçen və Azərbaycan xalqı bir-birinə daha da yaxınlaşmalı, bir çox məsələlərdə mövqelərini açıq deməli və məsləhətləşməlidirlər.

Ali Məclisin Sədri Heydər Əliyev əziz qonaqları Naxçıvanda salamlayaraq qeyd etmişdir ki, naxçıvanlılar qardaş Çeçen xalqına böyük məhəbbət və rəğbət bəsləyir, onun milli müstəqillik və azadlıq uğrunda qeyrətli mübarizəsini diqqətlə izləyir və öz həmrəyliklərini bildirirlər. Ali Məclisin Sədri demişdir: “Xalqlarımız böyük intellektual və iqtisadi potensiala malikdirlər. Tam müstəqillik uğrunda mübarizə apardığımız indiki şəraitdə bu potensialı inkişaf etdirmək imkanı var. Bu imkanlardan istifadə edərək xalqların həqiqi bərabərliyi və bir-birlərinə qarşılıqlı hörməti əsasında daha böyük nailiyyətlər əldə etməliyik”.

Qarşılıqlı anlaşma, səmimiyyət və mehribançılıq şəraitində keçən görüş zamanı Çeçen Respublikasında və Azərbaycan Respublikasında gedən proseslər barədə fikir mübadiləsi olmuş, Naxçıvan Muxtar Respublikası ilə Çeçen Respublikası arasında hərtərəfli əlaqələrin yaradılması və inkişaf etdirilməsi haqqında geniş söhbət getmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*7 aprel 1992-ci il*

# İLK ADDIMLAR ATILIR

Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında Ali Məclisin Sədri Heydər Əliyev və Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl tərəfindən imzalanmış birgə əməkdaşlıq haqqında protokolda telekommunikasiya sahəsində muxtar respublikanın zəruri ehtiyaclarının təmin edilməsi məqsədilə telefon, faks, teleks kimi xəbər sistemlərinin qısa vaxtda qurulması üçün xüsusi bir proqram hazırlanması nəzərdə tutulurdu. Belə bir proqramın hazırlanması məqsədilə Türkiyənin "Teletaş" şirkətinin bir qrup nümayəndəsi muxtar respublikaya gəlmişdir. Onlar Ali Məclisin Sədri Heydər Əliyevlə görüşmüşlər.

"Teletaş" şirkətinin xarici ölkələrlə ticarət şöbəsinin müdiri Mücid Eməl şirkətin təklif etdiyi proqram haqqında geniş məlumat vermişdir. O bildirmişdir ki, "Teletaş" şirkəti telefon aparatlarından tutmuş ən müasir ATS-lər və dünya standartlarına uyğun başqa telekommunikasiya və transmissiya avadanlıqlarının istehsalı və yerlərdə quraşdırılması ilə məşğul olur. Bu şirkətin hazırladığı proqrama əsasən, Naxçıvan Muxtar Respublikasını beynəlxalq telefon rabitəsi ilə təmin etmək üçün burada 3 min nömrəlik mərkəzi avtomat telefon və 200 nömrəlik teleks stansiyalarının, Naxçıvanın Bakı ilə rabitəsinin daha da yaxşılaşdırılması məqsədilə 300 kanalı olan "Peyk" stansiyasının quraşdırılması, muxtar respublika ilə Türkiyə arasında radiorele sisteminin kanal sayının 120-yə çatdırılması nəzərdə tutulur.

Ali Məclisin Sədri Heydər Əliyev "Teletaş" şirkətinin proqramını bəyəndiyini bildirmiş və şirkətin proqram üzrə layihəsini gözlədiyini söyləmişdir.

Görüşdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Ə. Sadiqov, Azərbaycan Respublikası rabitə nazirinin müavini N. Əhmədov, Naxçıvan Rabitə İdarəsinin rəisi Z. Novruzov iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*9 aprel 1992-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Dağıstan Respublikası Dərbənd Rayon Xalq Deputatları Sovetinin sədri Səid Camal oğlu Qurbanovun başçılığı ilə nümayəndə heyəti muxtar respublikada olmuşdur. Dağıstandan gəlmiş azərbaycanlı qardaşları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir. Söhbət zamanı Dağıstan Respublikası, Azərbaycan Respublikası və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında mövcud vəziyyət barədə fikir mübadiləsi aparılmışdır.

*18 aprel 1992-ci il*

* * *

İran İslam Respublikası xarici işlər nazirinin keçmiş Sovet İttifaqının müsəlman respublikaları üzrə müşaviri Şeyx Əttar Naxçıvan Muxtar Respublikasına gəlmişdir. Elə həmin gün ağayi Şeyx Əttarı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir.

Ağayi Şeyx Əttar Azərbaycana bu gəlişinin Qarabağın dağlıq hissəsindəki münaqişənin həllində İran İslam Respublikasının vasitəçilik fəaliyyəti ilə əlaqələndirmişdir. O demişdir: "Bu işi özümüzə borc bilirik. Siz bizim din və qan qardaşlarımızsınız. Bütün mübahisəli məsələlər gərək masa arxasında sağlam müzakirə yolu, sülh yolu ilə həll oluna."

Ali Məclisin Sədri Heydər Əliyev Qarabağın Dağlıq hissəsindəki münaqişənin həllində İran İslam Respublikasının vasitəçilik səylərini yüksək qiymətləndirdiyini bildirmiş, İran İslam Respublikası nümayəndələrinin Azərbaycana bu məqsədlə gəlişlərinin xalq tərəfindən böyük maraq və diqqətlə izlənildiyini qeyd etmişdir. Ali Məclisin Sədri bildirmişdir ki, İran tərəfinin bu təşəbbüslərinin və fəaliyyətinin faydalı olacağına ümid bəsləyir.

Görüş zamanı Qarabağın dağlıq hissəsindəki vəziyyət və ondan çıxış yolları, İran İslam Respublikası ilə Azərbaycan Respublikası və o

cümlədən Naxçıvan Muxtar Respublikası arasında hərtərəfli əlaqələrin inkişafı barədə geniş söhbət getmişdir.

Qəbulda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Q. Məmmədov iştirak etmişdir.

*19 aprel 1992-ci il*

## QARS VİLAYƏTİNİN VALİSİ NAXÇIVANA GƏLMİŞDİR

Aprelin 24-də Türkiyə Respublikası Qars vilayətinin valisi Sıtkı Aslan və Türkiyə Elektrik Şirkətinin eksperti Tofiq Karasu Naxçıvana gəlmişlər. Qars valisinin Naxçıvana bu səfəri Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmış əməkdaşlıq protokolu əsasında keçirilir.

Elə həmin gün Qars vilayətinin valisini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qəbul etmişdir. Heydər Əliyev qonaqları salamlayaraq demişdir ki, Sizin Naxçıvanla və ümumiyyətlə, Azərbaycanla tanış olmanız Türkiyə ilə Azərbaycan və Naxçıvan arasında, Naxçıvanla Qars arasında, Türkiyənin başqa vilayətləri arasında əlaqələrin daha da genişlənib möhkəmlənməsinə kömək edəcək.

Sıtkı Aslan səmimi qəbul üçün minnətdarlıq edərək demişdir ki, biz hələ Sizin, muxtar respublika Ali Məclisi Sədrinin Türkiyəyə, o cümlədən, Qars vilayətinə səfərinizin xoş təəssüratı altındayıq. Türkiyədə, eləcə də bizim Qars vilayətində Sizin necə sevinclə, məhəbbətlə qarşılandığınızın canlı şahidi oldunuz. Bizim vətəndaşlarımız Sizi böyük sevinclə bağırlarına basdılar, bütün davranışları ilə öz məhəbbətlərini izhar etdilər.

Sizin Qarsa gəlişiniz bizim üçün böyük şərəf idi. Biz də öz növbəmizdə Naxçıvana, Azərbaycanın bu gözəl bölgəsinə gəldiyimizə çox şadıq. Bu gün biz Sizin şəxsinizdə bütün qan qardaşlarımıza, soydaşlarımıza dərin məhəbbətimizi bildiririk. Eyni zamanda, biz Prezident Turqut Özalın, Baş nazir Süleyman Dəmirəlin salamlarını və xoş arzularını Sizə çatdırmağı özümüzə böyük şərəf hesab edirik.

Heydər Əliyev xoş arzular üçün qonaqlara minnətdarlığını bildirərək demişdir ki, bu gün sizin Naxçıvana gəlişinizi biz Türkiyə görüşlərinin davamı kimi qiymətləndiririk. Çox əlamətdardır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Türkiyəyə səfəri məhz, Naxçıvanla Türkiyə arasında salınmış körpüdən başlandı. Biz Ankaraya gedərkən və oradan Naxçıvana qayıdarkən Qars vilayətindən keçdik. Bu, bir daha onu göstərir ki, Azərbaycanı Türkiyə ilə, Türkiyəni isə Azərbaycanla bağlayan Naxçıvan və Qars vilayətləridir. Ona görə bir daha təkrar edirəm ki, sizin bu gün Naxçıvana gəlişiniz çox əlamətdar hadisədir. Biz bu görüşlərimizi bilavasitə Naxçıvan ilə Türkiyə Cümhuriyyəti arasında bağlanmış iş birliyi protokolunun əsasında keçiririk. Biz bu protokolun və Türkiyədə Naxçıvan nümayəndələrinə göstərilən böyük diqqət və qayğıların böyük təəssüratı altındayıq. İndi Türkiyənin Baş naziri Süleyman Dəmirəllə bizim aramızda imzalanmış iş birliyi protokolunun həyata keçirilməsi ilə məşğuluq. Protokolda nəzərdə tutulanların hamısının həyata keçirilməsi isə həmin körpünün və Qarsın vasitəsilə olacaq. Ona görə də bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanı Türkiyə ilə birləşdirən iki mühüm məntəqə var - bunlardan biri Naxçıvandır, o birisi isə Qars vilayətidir. Bu iki vilayətin rəhbərlərinin görüşməsi, danışıqlar aparmaları çox mühüm əhəmiyyət kəsb edir. Bizim Türkiyədə son dərəcə səmimi qarşılandığımıza görə Naxçıvanın bütün əhalisinin Türkiyə Cümhuriyyətinə, Türkiyə hökumətinə və xüsusən, Prezident Turqut Özala və Baş nazir Süleyman Dəmirələ çox böyük təşəkkürümü bildirirəm. Çünki bizim bu səfərdə imzalanmış iş birliyi Protokolu və Naxçıvana göstərilən xüsusi münasibət tək Azərbaycanda deyil, keçmiş Sovetlər birliyinin bütün cümhuriyyətlərində böyük əks-sədaya səbəb olmuşdur. Eyni zamanda, 70 il bundan əvvəl imzalanmış Qars müqaviləsi, Naxçıvanın indisinin və gələcəyinin 70 il əvvəl imzalanmış həmin müqavilə ilə bağlı olması Naxçıvanı Qarsa daha yaxın edir. Ona görə də siz burda çox böyük hörmət və mehribanlıq görəcəksiniz. Naxçıvanda da, bütün Azərbaycanda da sizi səmimi qan qardaşı, əziz dost kimi qarşılayacaqlar.

Sıtkı Aslan bütün bu deyilənlərə tam şərik olduğunu bildirərək demişdir ki, Qars müqaviləsi Naxçıvanla Türkiyə Cümhuriyyətinin könül

birliyini nümayiş etdirən, Naxçıvanın sərhədlərini müəyyən edən və bunun üçün bir zəmin rolu oynayan müqavilədir. Ona görə də Türkiyə Cümhuriyyəti Naxçıvanı sadəcə qan qardaşları diyarı hesab etməklə kifayətlənməyərək onu Türkiyə ilə sıx tellərlə bağlı bir diyar hesab edir.

Son dərəcə səmimilik və qardaşlıq şəraitində keçən görüş zamanı Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası, o cümlədən Qars vilayəti ilə Naxçıvan arasında hərtərəfli əlaqələrin yaradılması və inkişafı məsələlərindən danışılmış, Azərbaycanı Türkiyə ilə birləşdirəcək Araz çayı üzərindən salınan körpünün inşasının gedişi və onun tezliklə istifadəyə verilməsi zəruriyyəti qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Q. Məmmədov və Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Ə. Sadiqov qəbulda iştirak etmişlər.

Həmin gün qonaqlar Naxçıvan şəhərinin görməli yerləri ilə tanış olmuşlar.

Aprelin 25-də qonaqlar Naxçıvandan Bakıya yola düşmüşlər.

*"Şərq qapısı" qəzeti, 28 aprel 1992-ci il*

## TÜRKİYƏ MÜTƏXƏSSİSLƏRİ NAXÇIVANDA

Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış iş birliyi protokolunun 8-ci bəndinə uyğun olaraq Türkiyə Kənd Təsərrüfatı Nazirliyinin məsul işçiləri - nazirliyin mexanizasiya idarəsinin rəisi Qadir Dəmirçi, bitkiçilik idarəsinin rəisi Fəhri Harmanşah və heyvandarlıq idarəsinin rəisi, doktor Erol Dəmirtel aprelin 21-dən 27-dək muxtar respublikamızda olmuşlar. Onlar muxtar respublikanın Şərur, Babək və Şahbuz rayonlarında kənd təsərrüfatının vəziyyəti ilə tanış olmuş, Naxçıvan şəhərində kənd təsərrüfatı məhsulları emal edən müəssisələrdə olmuşlar.

Aprelin 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev türkiyəli qonaqları qəbul etmişdir. Qonaqlar muxtar res-

publikada kənd təsərrüfatının vəziyyəti barədə və onun inkişafı üçün görüləcək işlər haqqında məlumat vermişlər. Onlar qeyd etmişlər ki, muxtar respublikanın kənd təsərrüfatının bəzi sahələri yaxşı vəziyyətdədir. Lakin onu bütünlükdə inkişaf etdirmək üçün bir sıra tədbirlər həyata keçirilməlidir və onlar bu işdə lazım olan bütün köməkliyi göstərəcəklər.

Cari ilin payızında muxtar respublikada təcrübədən keçirmək üçün 8 növ müxtəlif taxıl toxumu göndəriləcək. Həmin toxumların səmərəliliyi müəyyən edildikdən sonra muxtar respublika üçün kifayət qədər toxum ayrılacaq. Hazırda muxtar respublika kənd təsərrüfatının bitkiçilik sahəsində yaranmış gərginliyi nəzərə alaraq Türkiyə tərəfi muxtar respublikaya 850 ton göy daş və 5 min ton azot gübrəsi göndərilməsini təşkil edəcək.

Konserv zavodlarında şüşə qabların çatışmaması ilə əlaqədar 5 milyon ədəd 1 litrlik və 5 milyon ədəd 3 litrlik bankalar da göndəriləcək.

Bundan başqa, muxtar respublikada valyuta ilə satıla biləcək dərman bitkilərinin olmasını nəzərə alaraq, onların xaricə ixracatını təşkil etmək üçün mütəxəssislər göndərilməsi də nəzərdə tutulmuşdur.

Heyvandarlığın inkişaf etdirilməsi üçün də tədbirlər müəyyənləşdirilmişdir. Mexanikləşdirmə sahəsinə də köməklik göstəriləcək. Bu məqsədlə Türkiyə tərəfi muxtar respublikaya 1500 ədəd akkumlyator, pres bağlamaq üçün 120 ton ip, 100 min ədəd qayçı, 720 ədəd elektrik motoru, 40 ton elektrod, 10 ton karbid, 40 ədəd 50 at gücündə traktor göndərilməsi təmin olunacaq.

Heydər Əliyev muxtar respublikada şəkər çuğunduru istehsalının perspektivləri ilə maraqlanmışdır. Qonaqlar qeyd etmişlər ki, muxtar respublikanın, xüsusilə Şərur rayonunun torpağı çox münbitdir. Ona görə də burda şəkər çuğunduru əkinindən yaxşı məhsul götürmək olar. Şəkərlilik dərəcəsi 18-19 faiz olmaqla hər hektardan 500-600 sentner məhsul götürmək mümkündür.

Söhbət zamanı muxtar respublika kənd təsərrüfatının bir sıra başqa sahələrinin inkişafı məsələlərindən də ətraflı danışılmışdır.

*"Şərq qapısı" qəzeti, 30 aprel 1992-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1992-ci il aprel ayının 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfəri Robert Finni qəbul etmişdir.

Ali Məclisin Sədri Heydər Əliyev və Robert Finn Azərbaycanda ictimai-siyasi vəziyyət, Dağlıq Qarabağ problemi, Azərbaycan Respublikası ilə ABŞ arasında münasibətlərin yaradılmasından danışmış, Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrində Naxçıvan Muxtar Respublikasının rolu haqqında geniş söhbət aparmışlar.

Səfir qeyd etmişdir ki, Azərbaycanda siyasi vəziyyət normal hala salınarsa, ABŞ respublika ilə daha geniş əlaqələr saxlamaq fikrindədir.

Robert Finn həmin gün təyyarə ilə Naxçıvandan Bakıya yola düşmüşdür.

* * *

1992-ci il may ayının 1-də İran İslam Respublikasının Azərbaycan Respublikası üzrə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri ağayi Əli Əsgər Nəhavandian Bakıdan Naxçıvana gəlmişdir. Həmin gün Ali Məclisin Sədri Heydər Əliyev yüksək qonağı qəbul edərək onu səmimi salamlamış, yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etmişdir.

Görüş zamanı İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi barədə söhbət aparılmışdır. Bu baxımdan Naxçıvan Muxtar Respublikasının mühüm rolu olduğundan bəhs edilmiş, Naxçıvan ilə İran arasında əlaqələrin bilavasitə təşkil olunması zərurəti bildirilmişdir.

Görüşdə Naxçıvan Muxtar Respublikasının Azərbaycandan gələn kommunikasiya xətlərinin ağır vəziyyətindən danışılmış, bu xətlərin İran İslam Respublikasının ərazisindən keçirilməsinin vacib olduğu

qeyd edilmişdir. Bu barədə Naxçıvan Muxtar Respublikasının təklifləri İran İslam Respublikasının səfirinə verilmişdir.

Səfir Naxçıvan Muxtar Respublikasında İran İslam Respublikasının Konsulluğunun açılması barədə Xarici İşlər Nazirliyinin məktubunu Ali Məclisin Sədrinə təqdim etmişdir. Heydər Əliyev bu məktubu qəbul edərkən İran İslam Respublikasının Təbriz şəhərində Naxçıvan Muxtar Respublikasının Konsulluğunun yaradılmasına böyük ehtiyac olduğunu bildirmişdir.

Görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavinləri Q. Məmmədov, A. Kələntərli, muxtar respublika Baş nazirinin birinci müavini Ə. Sadiqov və İran İslam Respublikasının Bakıdakı səfirinin köməkçisi ağayi Payidar iştirak etmişlər.

* * *

Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl 1992-ci il mayın 2-də Bakıya gəldikdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə telefonla zəng etmişdir.

Baş nazir və Ali Məclisin Sədri arasında mehriban və dostcasına söhbət olmuşdur. Süleyman Dəmirəl Özbəkistana, Qazaxıstana, Qırğızıstana və Türkmənistana səfərləri haqqında öz təəssüratından danışmış, Bakı şəhəri sakinlərinin ona göstərdiyi hörmət və ehtirama görə öz razılığını bildirmişdir.

Heydər Əliyev yüksək qonağı Azərbaycana gəlişi münasibətilə salamlamış, Orta Asiya və Qazaxıstan səfərinin müvəffəqiyyətlə keçməsi münasibətilə onu təbrik etmişdir. Sonra Ali Məclisin Sədri Naxçıvandakı vəziyyət haqqında məlumat vermiş, 1992-ci il martın 24-də Ankarada Süleyman Dəmirələ Naxçıvana gəlməsi haqqında təqdim edilmiş dəvəti bir daha xatırlatmışdır.

Süleyman Dəmirəl bu dəvəti məmnuniyyətlə yerinə yetirəcəyini söyləmiş və bildirmişdir ki, bu ilin may ayının sonunda Türkiyə ilə Azərbaycan arasındakı körpünün açılışı zamanı Naxçıvana gələcəkdir.

*3 may 1992-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə telefon etmiş və bildirmişdir ki, Amerika Birləşmiş Ştatlarından Türkiyəyə beş təyyarə ərzaq malları və tibbi ləvazimat gəlib və bunların hamısının "Qızıl Ay" cəmiyyəti vasitəsilə Naxçıvan Muxtar Respublikası əhalisinə yardım kimi göndərilməsi qərara alınıb.

1992-ci il aprel ayının 20-dən başlayaraq ərzaq malları və tibbi ləvazimat avtomobillərlə Naxçıvana daşınırdı. May ayının 4-də axırıncı maşınlar muxtar respublikaya gəlmişdir.

Bu müddət ərzində muxtar respublikaya 258 ton 400 kq ərzaq, 32 ton 800 kq dərman, 6 ton 498 kq tibbi ləvazimat, 4 min ədəd adyal gətirilmişdir.

Mayın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev yardımın Naxçıvana gətirilməsi ilə məşğul olan Türkiyə Cümhuriyyəti "Qızıl Ay" cəmiyyətinin Naxçıvan üzrə yardım komitəsinin sədri Şəfəq Lotarı qəbul etmişdir.

Şəfəq Lotar Ali Məclisin Sədri Heydər Əliyevə gətirilmiş yardımlar haqqında məlumat vermiş, səmimi qəbul üçün minnətdarlığını bildirmişdir.

Ali Məclisin Sədri Türkiyə Cümhuriyyəti hökumətinə, Baş nazir Süleyman Dəmirələ, "Qızıl Ay" cəmiyyətinə yardım üçün təşəkkürünü bildirmiş, Naxçıvan əhalisinin salamını və minnətdarlığını Türkiyə xalqına çatdırmağı xahiş etmişdir.

*6 may 1992-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasından gəlmiş Qərbi Azərbaycan ostandarının müavini Yusif Modaress başda olmaqla Qərbi Azərbaycanın rəsmi nümayəndə heyətini qəbul etmişdir.

Ağayi Yusif Modaress bildirmişdir ki, hələ keçən il Qərbi Azərbaycanın rəsmi nümayəndələri Naxçıvanda olmuş, muxtar respublikanın Nazirlər Kabineti və bir sıra dövlət müəssisəsi və idarəsi ilə müştərək əməkdaşlıq sahəsində bir neçə protokol imzalamışlar. Qərbi Azərbaycan ostandarının müavini demişdir ki, səfərlərin əsas məqsədi bu istiqamətdə konkret tədbirlərin həyata keçirilməsi, iqtisadi və digər sahələrdə əlaqələrin inkişafına dair razılaşmalar əldə etməkdir. O, həmçinin qeyd etmişdir ki, Qərbi Azərbaycan ilə keçmiş sovet respublikaları arasında ticarət əlaqələrinin yaradılması üçün Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi və imkanları əlverişli olduğundan Urmiya Naxçıvanla sıx əməkdaşlıq etmək arzusundadır.

Ali Məclisin Sədri Heydər Əliyev naxçıvanlıların da iranlı qardaşlar ilə geniş əlaqələr yaradılmasını yüksək qiymətləndirdiyini, yaxınlığın hər iki tərəf üçün zəruri və faydalı olduğunu bildirmişdir. Ali Məclisin Sədri demişdir: “Biz Naxçıvan Muxtar Respublikasının azad iqtisadi zonaya çevrilməsi sahəsində artıq bir sıra işlərə başlamışıq. Lakin, əlaqələrimizin möhkəmləndirilməsi və Qərbi Azərbaycanın təklif etdiyi mənada digər dövlətlərlə əlaqə sahəsində Naxçıvanın körpü olması üçün ilk növbədə muxtar respublika ilə Qərbi Azərbaycan arasında Araz üzərindən körpü salınmalıdır. Əvvəl bu məsələni yoluna qoymalıyıq”.

Söhbət zamanı Qərbi Azərbaycanın Poldəşt və Naxçıvan Muxtar Respublikasının Şahtaxtı məntəqələri arasında körpü tikintisinin sürətləndirilməsi, Qərbi Azərbaycanın nümayəndəliyinə Naxçıvan şəhərində bina ayrılması və Urmiyada Naxçıvanın təmsilçiliyinin açılması, müxtəlif qarşılıqlı sərgilərin təşkil edilməsi, sərhəd ticarət məntəqələ-

rinin yaradılması, bir sıra sənaye, kənd təsərrüfatı, ticarət müəssisələri arasında əməkdaşlığın inkişafı məsələləri haqqında fikir mübadiləsi olmuş və konkret tədbirlər müəyyənləşdirilmişdir.

Qəbulda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini R. Həsənov, muxtar respublika Baş nazirinin birinci müavini Ə. Sadiqov iştirak etmişlər.

*14 may 1992-ci il*

## İRAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ NAXÇIVANDA

İran İslam Respublikası xarici işlər nazirinin müavini ağayi Vaizi mayın 13-də Naxçıvana gəlmişdir. Elə həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev ağayi Vaizini qəbul etmişdir.

Heydər Əliyev yüksək qonağı səmimi salamlayaraq vaxt tapıb Naxçıvana gəldiyi üçün ona təşəkkür etmişdir. O demişdir ki, Naxçıvana belə yaxından diqqət göstərdiyinə görə İran hökumətinə, Xarici İşlər Nazirliyinə son dərəcə minnətdarıq. İran İslam Respublikasının Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınması üçün göstərdiyi səyləri biz yüksək qiymətləndiririk və ümidvarıq ki, bu xoş məramlı səfər öz müsbət nəticəsini verəcək.

Ağayi Vaizi Heydər Əliyevə müraciətlə demişdir ki, Sizin haqqınızda biz çox eşitmişdik. Dünyanın bütün ölkələrində olduğu kimi İranda da Sizi görkəmli siyasi və dövlət xadimi kimi tanıyırlar. Ona görə də bu gün Sizinlə şəxsən görüşdüyümüzə görə çox şadıq.

O, son illər Naxçıvanla İran arasında gediş-gəlişin artmasını razılıqla qeyd edərək demişdir ki, bizcə bu, hələ çox azdır. Biz qarşılıqlı surətdə bu gediş-gəlişi, bütün sahələrdə yaranmış əlaqələri daha da genişləndirməli, əməkdaşlıq üçün yeni-yeni sahələr axtarıb tapmalıyıq. Sərhədyanı ticarətin genişləndirilməsi bu sahədə atılmış mühüm addım olar.

Ağayi Vaizi sözünə davam edərək demişdir ki, regionda narahatlıq doğuran məsələlər çoxdur. Gürcüstanın öz problemləri var. Azərbay-

canla Ermənistan arasında münaqişə, Dağlıq Qarabağ problemi çox narahatlıq doğuran məsələdir. Bir sözlə, heç yerdə sakitlik yoxdur. Bir sakit olan yer Naxçıvandır ki, son günlərdə burdan da bəzi narahat səslər gəlirdi. İndiyədək Naxçıvanda sabitliyin qorunub saxlanması məhz Sizin hikmətli rəhbərliyiniz nəticəsində mümkün olmuşdur.

Heydər Əliyev demişdir ki, İran ilə Azərbaycan arasındakı münasibətlərdə Naxçıvanın xüsusi yeri var. Ona görə də Azərbaycanın ayrılmaz hissəsi kimi Naxçıvanla İran əlaqələri çox böyük əhəmiyyət kəsb edir və bununla əlaqədar ortaya çıxan bütün məsələləri yüksək səviyyədə tənzimləmək ehtiyacını biz həmişə duymuşuq. Çox şadıq ki, siz bu gün vaxt tapıb Naxçıvana gəlmisiniz. Sizin gəlişiniz bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparmağa imkan verir.

Amma indi bizim hamımızı narahat edən məsələ Azərbaycan-Ermənistan münaqişəsidir, Qarabağda yaranmış vəziyyətdir və bir az da genişləndirsək, ümumqafqaz məsələsidir. Lakin Ermənistanla Azərbaycan arasındakı münaqişə, xüsusən, Qarabağda yaranmış vəziyyət bütün azərbaycanlıları, bütün müsəlmanları çox ciddi narahat edir. İran İslam Respublikasının Ermənistanla Azərbaycan arasında vasitəçilik rolunu öz üzərinə götürməsi çox şərəfli və xeyirxah işdir. Arzumuz budur ki, vasitəçilik bir nəticə versin.

Mayın 6-7-də Tehranda Ermənistanla Azərbaycan rəhbərlərinin İranın vasitəçiliyi ilə görüşməsinə çox böyük ümid bəsləyirdik. Lakin həmin günlərdə Şuşada baş verən hadisələr, Azərbaycanın bu qədim mədəniyyət mərkəzinin erməni silahlı qüvvələri tərəfindən işğal edilməsi bizi çox pərişan etdi. İndi Naxçıvanda kimlə görüşsəniz, harada olsanız, hamının bu məsələdən danışdığını görərsiniz. Çünki bu, Azərbaycan üçün çox faciəli haldır.

Sizin dediyiniz kimi axır zamanlar gələn səslər, doğrudan da, narahatlıq doğurdu. Xeyli müddət idi ki, Naxçıvanda sakitlik idi. Biz burda əmin-amanlıqda yaşayırdıq və Ermənistanla olan sərhəddə sabitliyi təmin edə bilirdik. Amma may ayının 1-də Sədərək kəndində Ermənistanla olan sərhəddə atışmalar başladı. Təəssüf ki, bir neçə gün Ermənistanla aparılan danışıqlar bu atışmanı dərhal dayandıra bilmədi. Nəhayət, ayın 6-da biz buna nail olduq. Sədərək kəndi çox böyük

kənddir. Orda 14 min əhali yaşayır. O, həm də Sədərək rayonunun mərkəzidir. Həmin atışmalar nəticəsində kəndin çox hissəsi dağılıb. Ermənilərin top atəşləri kənddə böyük dağıntılar yaradıb. 4 nəfər həlak olub, 40 nəfər yaralanıb. Bir nəfər milis işçisini ermənilər Günnüt kəndinə hücum edəndə girov götürmüşdülər. Sonra məlum oldu ki, onu öldürüblər. Çox çətinliklə biz bu gün onun meyidini geri ala bildik.

Onu da qeyd edim ki, ilk atəş Ermənistan tərəfindən başlamışdır və buna dair bizim əlimizdə təkzibedilməz sübutlar var. Lakin qeyd etdiyim kimi, mayın 6-dan atəş dayanıb və biz çalışacağıq ki, bu sakitliyi qoruyub saxlayaq. Amma bizim çətinliklərimiz çoxdur. İndi dəmir yolu bağlıdır. Həmin dəmir yolu vasitəsilə Ermənistana da, Naxçıvana da, İrana da yüklər gedir. İndi Ermənistanın Mehri rayonu ilə həmsərhəd olan Mincivan stansiyasında 500-dən artıq yük vaqonu durur ki, o yüklərin bir hissəsi də İrana getməlidir. Bir aya yaxındır ki, dəmir yolu işləmir, biz heç bir şey ala bilmirik. Vəziyyətimiz çox çətindir. May ayının 10-dan isə hava yolu da işləmir. Çünki Ermənistanın üstündən uçmaq indi çox təhlükəlidir. Çox sağ olun ki, siz İrandan bizə yol verdiniz.

Bütün bu məsələlərin həllində biz sizdən köməklik gözləyirik. Sizin gəlişiniz bu məsələlər barədə geniş söhbət aparmaq üçün imkan yaradıb və buna görə də sizə təşəkkür edirik.

Sonra Heydər Əliyevlə ağayi Vaizi arasında toxunulan bütün məsələlərə dair geniş fikir mübadiləsi aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavinləri R.Həsənov, Q. Məmmədov, A. Kələntərli qəbulda iştirak etmişlər.

Dünən İran İslam Respublikası xarici işlər nazirinin müavini ağayi Vaizi Naxçıvandan yola düşmüşdür.

*"Şərq qapısı" qəzeti, 15 may 1992-ci il*

## Türkiyə Cümhuriyyətinə nümayəndə heyətinin göndərilməsi haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 24 mart 1992-ci il Ankara əməkdaşlıq protokolunun həyata keçirilməsi işlərini təşkil etmək üçün Türkiyə Cümhuriyyətinə aşağıdakı tərkibdə nümayəndə heyəti göndərilsin:

Q. Məmmədov (Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini, nümayəndə heyətinin başçısı), Ş. Xan-Babayev (Naxçıvan Muxtar Respublikası Dövlət Plan Komissiyasının sədri), R. İbadov (Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin xarici ölkələrlə əlaqələr şöbəsinin müdiri), N. İmanov (Naxçıvan Muxtar Respublikasının maliyyə naziri), V. Talıbov (Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Baş köməkçisi).

2. Nümayəndə heyətinə tapşırılsın ki, əməkdaşlıq protokoluna müvafiq olaraq Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyi, iqtisadi, mədəni, maarif və texniki əməkdaşlıq başkanlıqları ilə birlikdə Türkiyənin aid nazirliklərində, idarələrində, maliyyə orqanlarında konkret tədbirlər görsün. Protokolun birinci maddəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının zəruri ehtiyaclarını ödəmək üçün ayrılmış 100 milyon Amerika dolları məbləğində kreditdən istifadə olunması ilə əlaqədar işləri təşkil etsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 18 may 1992-ci il*

## AZƏRBAYCAN-TÜRKİYƏ: ƏMƏKDAŞLIĞIN YENİ DÖVRÜ

Naxçıvan aeroportu Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmişdir. Türkiyənin Baş naziri Süleyman Dəmirəlin xüsusi təyyarəsi bura gəlmişdir. Təyyarənin pilləkəni yanında ali qonağı respublika Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Ali Sovetinin Sədri İ. Qəmbərov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Azərbaycanın Baş naziri R. Hüseynov, Ali Sovetin Sədrinin müavini A. Cəlilov, Baş nazirin müavini R. Gülməmmədov, Türkiyənin Azərbaycandakı səfiri və başqa rəsmi şəxslər qarşıladılar.

Milli paltar geymiş oğlanlar və qızlar ali qonağı salamlayır, uşaqlar gül təqdim edirlər. Qədim Azərbaycan adəti üzrə Süleyman Dəmirəlin ayağı altında ağ qoç qurban kəsilir. Minlərlə naxçıvanlı qonağı salamlamaq üçün plakatlar və transparantlarla bura gəlmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dedi: "Bu gün bütün Azərbaycan xalqının bayramıdır - biz respublikamızın istiqlaliyyət gününü qeyd edirik. Sizin səfəriniz həm də onunla sevindiricidir ki, bu gün Araz üzərində salınmış, Naxçıvanı və Türkiyəni birləşdirəcək Sədərək körpüsünün açılışı olacaq. Bu, həqiqətən bizim ümid və arzularımızın körpüsüdür və türk dünyasına pəncərə açmağa kömək edəcəkdir."

Türkiyənin Baş naziri Süleyman Dəmirəl qeyd etdi ki, mən qədim Naxçıvan torpağında olmağımdan hədsiz dərəcədə şadam. Sizə 60 milyonluq türk xalqının salamını yetirirəm. Biz sizin çətinliklərinizi yaxşı bilirik, sizin xeyli itkilərinizdən xəbərdarıq. Lakin əmin olun: Azərbaycan özünün ədalətli mübarizəsində tək deyil. Biz dünyanın Azərbaycan haqqında həqiqəti bilməsi üçün özümüzdən asılı olan hər şeyi edirik və edəcəyik. Sizi əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla olmuşdur və olacaq. Biz kədəri və sevinci sizinlə birlikdə bölüşəcəyik.

Sonra avtomobil karvanı Naxçıvanın küçələri ilə Sədərək qəsəbəsinə doğru hərəkət edir. Yol boyu ali türk qonağı on minlərlə naxçıvanlı salamlayırdı. Sədərəyə qədər olan adətən, bir saat-saat yarımlıq yo-

lu bu dəfə ikiqat müddətə qət etmək lazım gəldi: S. Dəmirəl onu salamlayan yerli sakinlərin xahişi ilə bir neçə dəfə dayanmalı oldu.

Nəhayət, avtomobil karvanı son məntəqəyə - Sədərək körpüsünə gəldi. Yeni körpünün uzunluğu 288 metr, eni 12 metr, ümumi smeta dəyəri 5 milyon manatdan çoxdur. Onu Türkiyənin məşhur "Matsandış" yol tikinti şirkəti Naxçıvan Təmir-Tikinti İdarəsi ilə birlikdə inşa etmişdir. Ölkələrimiz arasında əlaqələrin inkişafında yeni mərhələni göstərən bu təntənəli gündə bura on minlərlə həm azərbaycanlı, həm də türk gəlmişdir. Körpü hər iki dövlətin çoxlu bayraqları, transparantlar, Türkiyənin ilk Prezidenti Mustafa Kamal Atatürkün və Azərbaycan Demokratik Respublikasının banisi Məmmədəmin Rəsulzadənin portretləri ilə bəzədilmişdir. Mühüm nəqliyyat arteriyası olan körpünün açılışı münasibətilə təntənəli mitinq keçirildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dedi: "Bu gün bizim arzu və ümidlərimizin körpüsü açılır. 70 ildən artıq idi ki, biz bu günü gözləyirdik və arzularımız həyata keçdi. Bu gün biz Azərbaycan Demokratik Respublikasının banisi Məmmədəmin Rəsulzadəni, onun silahdaşlarını xatırlayır və onlara əbədi minnətdarlığımızı bildiririk". Naxçıvan özünün faciəli günlərini yaşayır. Naxçıvanla Ermənistan sərhəddində müharibə gedir. Naxçıvanın qəhrəman oğulları çətinliklərə baxmayaraq, öz doğma torpaqlarını müdafiə edirlər.

Heydər Əliyev həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi xahiş etdi. Sonra o, muxtar respublikaya yardım göstərdiyinə və onu müdafiə etdiyinə görə Türkiyə rəhbərliyinə minnətdarlığını bildirdi.

Türkiyənin Baş naziri S. Dəmirəl körpünün açılışını Azərbaycan və Türkiyə arasında əməkdaşlığın yeni dövrünün başlanğıcı adlandırdı. O qeyd etdi ki, böyük türk dünyası artıq reallığa çevrilmişdir. Azərbaycanda demokratik proseslər gedir, öz qarşısında xeyirxah məqsəd - xalqının tərəqqisinə nail olmaq məqsədi qoyan demokratik hüquqi dövlət yaradılır. Türkiyə də demokratik dövlət yaratmağın çətin yolunu keçmişdir. S. Dəmirəl daha sonra dedi: Mən əminəm ki, siz də öz məqsədlərinizə çatacaqsınız və torpağınıza sülh və əmin-amanlıq gələcəkdir. Biz bilirik ki, torpağınızda qardaşlarımızın qanı tökülür. Türkiyə heç vaxt sizi tək qoymayacaq. Biz Azərbaycanın suverenliyini, onun

ərazi bütövlüyünü müdafiə edəcəyik. Hamı yadda saxlamalıdır ki, zorakılıq yolu ilə başqasının torpağını əlindən almaq olmaz. Bunu etmək istəyən hər kəs unutmamalıdır ki, hökmən ondan güclüsü tapılacaq.

S. Dəmirəl sözünə davam edərək dedi: "Bu körpü təkcə Azərbaycanı və Türkiyəni birləşdirmir, bu, Avropa ilə Asiya arasında körpüdür, Avropa və Asiya ölkələrinin qarşılıqlı faydalı əlaqələrinə xidmət edə bilər. Baş nazir öz əməyi ilə bu günü yaxınlaşdıran inşaatçılara təşəkkürünü bildirdi."

Körpünün təntənəli açılışından sonra avtomobil karvanı Naxçıvana yollandı. Orda Türkiyənin Baş naziri və onu müşayiət edən şəxslər Şəhidlər xiyabanına getdilər və respublikanın müstəqilliyi uğrunda mübarizədə öz canlarını qurban verənlərin məzarlarına tər çiçəklər və əklillər qoydular.

Sonra Naxçıvanda Türkiyə bankının açılışı oldu. Azadlıq meydanında S. Dəmirəlin respublika ictimaiyyəti ilə görüşü keçirildi. Görüşdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Ali Sovetinin Sədri İ. Qəmbərov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, Türkiyənin Baş naziri Süleyman Dəmirəl çıxış etdilər.

Axşam Türkiyənin Baş naziri S. Dəmirəl təyyarə ilə Ankaraya uçdu.

**M. KƏRİMOV,**
**"Azərinform"un xüsusi müxbiri**

*Naxçıvan, 28 may 1992-ci il*

## HEYDƏR ƏLİYEV TÜRKİYƏYƏ GƏLMİŞDİR

ANKARA, 2 iyun (RİTA-SÖTA). Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə bazar ertəsi Türkiyə paytaxtına gəlmişdir. "Cümhuriyyət" qəzeti xəbər verir: Naxçıvan parlamentinin sədri demişdir ki, erməni tərəfi atəşi dayandırmaq haqqında sazişi pozaraq muxtar respublikanın yaşayış məntəqələrinə güclü hücumları davam etdirir. O demişdir ki, erməni silahlı birləşmələri Ordubad rayonunda əslində ikinci cəbhə açaraq,

rayonu top atəşinə tuturlar. Heydər Əliyev bildirmişdir ki, atəşin dayandırılmasına nail olmaq üçün Ermənistan rəhbərləri ilə vaxtaşırı telefonla əlaqə saxlayır. Naxçıvan parlamentinin sədri respublikada yaranmış gərgin vəziyyətdən danışaraq demişdir ki, kəskin ərzaq, habelə yanacaq qıtlığı yaranmış, cəmi 3-4 günlük yanacaq ehtiyatı qalmışdır.

Heydər Əliyev İzmirdə keçiriləcək milli iqtisadi konqresdə iştirak edəcəkdir.

## SƏFƏRİN ƏMƏLİ NƏTİCƏLƏR VERƏCƏYİNƏ ƏMİNİK

Xəbər verildiyi kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasına səfərdədir. Naxçıvanlılar bu səfərdən çox şey gözləyirlər. Muxtar respublikanın əməkdar mədəniyyət işçisi, şair Ə. Yusifli bu barədə müxbirimizə demişdir: - Öncə deyim ki, Heydər Əliyevin muxtar respublikada işləməsi burada yaşayan əhalinin xoşbəxtliyidir. Bu böyük ictimai xadim son vaxtlar bütün dünyanın diqqətini Naxçıvana çevirmişdir. Hazırda Heydər Əliyev Türkiyədə dövlət rəhbərləri və siyasi xadimlərlə görüşərək muxtar respublikanın iqtisadi və siyasi məsələlərini həll edir.

Səfərin müsbət nəticələri artıq görünməkdədir. Ərzaq dolu yük maşınları iki-üç gündür ki, şəhərimizdədir. Məlumdur ki, Türkiyə Naxçıvana 100 milyon dollar köməklik etmişdir. Həmin vəsaitdən səmərəli istifadə edilməsi üçün də Heydər Əliyev əlindən gələni edir.

*"REAL" agentliyi, 5 iyun 1992-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİNDƏ

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin növbəti iclasında Heydər Əliyev başda olmaqla muxtar respublika nümayəndə heyətinin Türkiyə Respublikasına səfərinin yekunları müzakirə

edilmişdir. Həmin məsələ ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev məlumat vermişdir.

İyunun 1-də Türkiyə hökumətinin və şəxsən Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla muxtar respublikanın nümayəndə heyəti iyunun 4-də İzmir şəhərində keçiriləcək üçüncü beynəlxalq iqtisadi konqresdə iştirak etmək üçün Türkiyəyə yola düşmüşdür. Elə həmin gün nümayəndə heyəti Ankaraya gəlmişdir. Axşamüstü nümayəndə heyətinin kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşü olmuşdur. İyunun 2-də Baş nazir Süleyman Dəmirəl nümayəndə heyətini qəbul etmişdir. Baş nazirin qəbulundan əvvəl muxtar respublikamızın nümayəndə heyəti dövlət nazirləri Cavid Çağlar, Əkrəm Ceyhun və bir sıra başqa nazirlərlə görüşmüşdür.

Baş nazirlə aparılan danışıqlar çox səmərəli olmuşdur. Danışıqların əsas mövzusu Türkiyənin Naxçıvana maddi yardım göstərməsi məsələsi idi. Bundan əvvəl mart ayında imzalanmış protokola əsasən muxtar respublika üçün ayrılmış 100 milyon dollar kreditdən istifadə edilməsi məsələsi müzakirə edilmişdir. Hələ may ayının 20-də həmin məsələ ilə əlaqədar muxtar respublikanın nümayəndə heyəti Türkiyədə olmuş, kreditin açılması, ondan istifadə edilməsi və eyni zamanda həmin protokolla əlaqədar başqa məsələlərin həlli ilə məşğul olmuşdur. Bu sahədə müəyyən işlər görülmüşdür. Lakin kreditin açılması məsələsi tam həll edilməmişdir. İndiki səfər zamanı aparılan danışıqlar nəticəsində bu məsələ qısa bir müddətdə həll olunmuşdur. Həmçinin bir sıra başqa problemlər də, o cümlədən Naxçıvandakı vəziyyət haqqında Baş nazir Süleyman Dəmirələ və başqa nazirlərə geniş məlumat verilmiş, bizim bugünkü ehtiyaclarımız və protokol əsasında işlərin aparılması, körpünün açılması ilə əlaqədar gediş-gəliş barədə söhbət getmişdir.

Türkiyənin Xarici İşlər Nazirliyində də Naxçıvandan gəlmiş nümayəndə heyəti ilə görüş olmuş, açılmış kreditdən 10 milyon dollar məbləğində ərzaq malları almaq üçün protokol imzalanmışdır.

Nümayəndə heyətinin başçısı Heydər Əliyev Naxçıvandakı vəziyyət, Ermənistanın muxtar respublikaya qarşı təcavüzkarlığı, sərhədlərdə olan vəziyyət haqqında Baş nazir Süleyman Dəmirələ və başqa na-

zirlərə, xüsusən Xarici İşlər naziri Hikmət Çətinə, habelə mətbuat nümayəndələrinə ətraflı məlumat vermişdir. Bütün bunlar da Türkiyə televiziyası və qəzetləri vasitəsilə geniş yayılmışdır.

Nümayəndə heyəti İzmirdə olarkən Türkiyə və xarici ölkələrin müxbirləri üçün mətbuat konfransı keçirmiş, Azərbaycan dərnəklərinin üzvləri ilə görüşmüşdür.

Nümayəndə heyətinin başçısı Heydər Əliyev İzmirdə Türkiyənin Prezidenti Turqut Özalla da geniş, ətraflı söhbət aparmışdır. Türkiyə prezidenti Naxçıvandakı vəziyyətlə ətraflı maraqlanmış, ona muxtar respublikada olan iqtisadi vəziyyət, Ermənistanın silahlı təcavüzü barədə hərtərəfli məlumat verilmişdir. Türkiyə Prezidenti əmin etmişdir ki, Naxçıvana hər cür yardım göstəriləcəkdir.

Mindən artıq nümayəndənin iştirak etdiyi iqtisadi konqresdə, əsasən, Türkiyənin inkişaf problemləri müzakirə olunmuşdur. Konqresin açılışı mərasimində Türkiyənin Prezidenti Turqut Özal çıxış etmişdir. O, 1981-ci ildən sonra Türkiyədə həyata keçirilmiş islahatlar və bununla əlaqədar əldə edilmiş nailiyyətlər, ölkənin iqtisadi inkişafı və gələcək perspektivləri haqqında danışaraq demişdir ki, yaxın on ilin əsas məqsədi Türkiyəni dünyanın inkişaf etmiş dövlətləri sırasında görməkdir. O demişdir ki, SSRİ dağıldıqdan sonra regionda meydana gəlmiş yeni türkdilli və müsəlman dövlətləri ilə əməkdaşlığın yaxşı perspektivi açılır. Əgər biz bu imkandan istifadə edə bilsək, ağıllı və qarşılıqlı surətdə faydalı metodlarla əməkdaşlıq edə bilsək bu, bizim və ortaqlarımızın xeyrinə olar.

Baş nazir Süleyman Dəmirəlin məruzəsində qeyd edilmişdir ki, son on ildə keçilmiş sürətli inkişaf yoluna baxmayaraq, bugünkü Türkiyənin iqtisadi inkişafında hələ də böyük problemlər var.

Konqresdə Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyev də çıxış etmişdir. H. Əliyevin çıxışı çox böyük rəğbətlə qarşılanmışdır.

Muxtar respublikanın nümayəndə heyəti Ankarada olarkən Rusiya Federasiyası Ali Sovetinin Sədri Ruslan Xasbulatov başda olmaqla Rusiyanın nümayəndə heyəti onun görüşünə gəlmiş, görüş zamanı Naxçıvandakı vəziyyət barədə ətraflı söhbət olmuşdur.

Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti İstanbulda, Ərzurumda, İqdırda və Türkiyənin bir sıra başqa şəhərlərində də olmuş, ictimaiyyətin nümayəndələri ilə görüşmüşdür.

Səfər zamanı həll edilmiş əsas məsələlərdən biri, qeyd edildiyi kimi, muxtar respublika üçün verilmiş kreditin açılması olmuşdur. İyun ayının 15-dən həmin kreditdən istifadə olunmasına başlanacaqdır. Kreditdən istifadə edilərkən, ilk növbədə, muxtar respublikaya ərzaq malları gətiriləcəkdir. İkincisi, muxtar respublikaya gediş-gəliş məsələsinin həll olunmasıdır. Türkiyə tərəfi məsələni belə qoymuşdur ki, gediş-gəliş son dərəcə sadələşdirilməlidir. Məsələ burasındadır ki, bizdə olan pasportlar sovet pasportlarıdır, Türkiyədə isə milli pasportlardır. Ona görə də onlar öz pasportları ilə sərbəst surətdə bura gələ bilərlər. Bizim pasportların içinə bir vərəqə əlavə olunmalıdır. Həmin vərəqə ilə biz o taya keçə biləcəyik. Vərəqələr artıq Türkiyədə hazırlanıb gətirilmişdir.

Türkiyənin Prezidenti Turqut Özal da, Baş nazir Süleyman Dəmirəl də belə fikirdədirlər ki, bizim dövlətlər arasında gediş-gəliş vizasız olsun. Lakin İranla olduğu kimi, Türkiyə ilə də müəyyən məsafədə gediş-gəliş daha sadə olacaqdır. Əgər İranla razılaşmada bu məsafə 45 kilometr təşkil edirsə, Türkiyə ilə 100 kilometr təşkil edəcəkdir. Səfər zamanı Naxçıvanda Türkiyənin konsulluğunun açılması məsələsi də həll olunmuşdur.

Əsas məsələlərdən biri də hər il Naxçıvandan 100 nəfər tələbənin təhsil almaq üçün Türkiyənin ən yaxşı universitetlərinə göndərilməsidir.

Ali Məclisin Rəyasət Heyəti Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin Türkiyə Respublikasına səfərinin yekunlarını bəyənmiş və bununla əlaqədar müvafiq qərar qəbul etmişdir.

Rəyasət heyətinin iclasında Sədərəkdə vəziyyət və muxtar respublikanın iqtisadi vəziyyəti barədə məsələlər də müzakirə edilərək müvafiq qərarlar qəbul edilmiş, tədbirlər müəyyənləşdirilmişdir.

*"Şərq qapısı" qəzeti, 17 iyun 1992-ci il*

# SƏFİR QƏBUL EDİLMİŞDİR

İyunun 17-də Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Riçard Mayls Naxçıvana gəlmişdir. Elə həmin gün cənab Mayls Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən qəbul edilmişdir.

Heydər Əliyev qonağı səmimi salamlayaraq bu yaxınlarda Amerika Birləşmiş Ştatlarından Türkiyənin "Qızıl Ay" Cəmiyyəti vasitəsilə Naxçıvana göndərilmiş humanitar yardım üçün ABŞ dövlət rəhbərlərinə və xalqına muxtar respublika əhalisi adından minnətdarlığını bildirmişdir.

Riçard Mayls bu yardımın istifadəsi ilə maraqlanmış və demişdir ki, Naxçıvan Muxtar Respublikasının böyük problemlərlə qarşılaşdığını bilirik. Naxçıvana gəlməkdə məqsədimiz bu problemləri daha yaxından öyrənməkdir. O bildirmişdir ki, Türkiyə ilə Naxçıvan arasında salınmış körpüyə və Ermənistanla sərhəddə yerləşən hərbi münaqişə zonalarına getmək fikrindədir.

Ali Məclisin sədri Heydər Əliyev demişdir ki, Naxçıvan Muxtar Respublikasının üzləşdiyi çətinliklərin ən böyüyü Ermənistanın Naxçıvan torpaqlarına hərbi təcavüzü və muxtar respublikanı iqtisadi blokadaya salmasıdır. O demişdir ki, Qarabağın dağlıq hissəsində müharibə getməsinə baxmayaraq biz Ermənistanla sərhədlərimizdə sabitliyi qoruyub uzun müddət saxlamışdıq. Həmişə olduğu kimi, indi də muxtar respublika rəhbərliyi və ictimaiyyəti Ermənistanla sərhəddə sülhün bərqərar olması mövqeyindən çıxış edir. Heydər Əliyev hərbi münaqişənin tezliklə bitməsi üçün muxtar respublika rəhbərliyinin həyata keçirdiyi tədbirlərdən danışaraq dünya ictimaiyyətinin Naxçıvan haqqında kifayət qədər məlumatlandırılmadığını qeyd etmiş, muxtar respublikanın yardıma və buradakı vəziyyət haqqında obyektiv məlumat yayılmasına ehtiyacı olduğunu söyləmişdir.

Azərbaycan Respublikasının siyasi mövqeyi haqqında söhbət gedərkən Ali Məclisin Sədri qeyd etmişdir ki, Azərbaycan milli müstəqillik və dövlətçilik yolunu tutaraq dünyanın bütün mədəni və demokratik ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları ilə hərtərəfli əlaqələrin

yaradılması və inkişaf etdirilməsini qarşısında məqsəd qoyur. Naxçıvan Muxtar Respublikasının inkişaf perspektivlərindən bəhs edilərkən o bildirmişdir ki, muxtar respublika azad iqtisadi zona elan edilmiş və burada sərbəst bazar iqtisadiyyatının möhkəmləndirilməsi üçün ilk addımlar atılır.

Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında hərtərəfli münasibətlərin yaradılması və daha da inkişaf etdirilməsi, Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət və ABŞ hökumətinin bu regiona gələcək yardımı, Ermənistanla həmsərhəd bölgələrdə baş verən hərbi münaqişə və onun aradan qaldırılması yolları barədə ətraflı söhbət getmişdir.

*"Şərq qapısı" qəzeti, 20 iyun 1992-ci il*

## NÜMAYƏNDƏ HEYƏTİ QƏBUL EDİLMİŞDİR

1992-ci il iyul ayının 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının Urmiya vilayəti fərmandarının müavini ağayi Rəsul Rzainin başçılığı ilə Naxçıvana humanitar yardım gətirən nümayəndə heyətini qəbul etmişdir.

Söhbət zamanı ağayi Rəsul Rzai bildirmişdir ki, bu səfər zamanı onlar Naxçıvan əhalisinə 25 ton un, 200 ədəd çadır, 2 milyon 500 tümən məbləğində dərman, 2 maşın uşaq yeməyi, quşçuluq fabriki üçün 5 ton 400 kiloqram yem gətirmişlər.

Ali Məclisin Sədri Heydər Əliyev gətirilən yardım üçün urmiyalılara minnətdarlığını bildirmiş, Sədərək bölgəsində son zamanlar baş vermiş hadisələr barədə məlumat vermişdir.

Qəbulda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini R. Həsənov iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidməti

*8 iyul 1992-ci il*

## Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasındakı Sədərək-Dilucu körpüsü haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Azərbaycan ilə Türkiyə arasında sərhəd keçidi yaratmaq məqsədilə Araz çayı üzərində Naxçıvan Muxtar Respublikasının ərazisində Sədərək-Dilucu bölgəsində Türkiyə Cümhuriyyəti avtomobil nəqliyyatı yolu üçün körpü tikmişdir.

1992-ci il may ayının 28-də bu körpünün rəsmi açılışına Türkiyə Cümhuriyyətinin Baş Naziri Süleyman Dəmirəl başda olmaqla Türkiyədən Naxçıvana böyük dövlət nümayəndə heyəti gəlmişdir. Həmin gün Türkiyə Cümhuriyyətinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının rəhbərliyinin, Araz çayının o tayında, bu tayında toplanmış Naxçıvanın və Türkiyənin çoxminli əhalisinin iştirakı ilə Türkiyə və Azərbaycan arasındakı körpünün rəsmi açılışı olmuşdur. Beləliklə, iki qardaş xalqın uzun illər həsrətində olan arzuları yerinə yetmiş, Sədərək-Dilucu "Həsrət körpüsü", "Ümid körpüsü" yaranmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Sədərək-Dilucu körpüsünün yaranmasını böyük əhəmiyyətə malik olan bir hadisə kimi qiymətləndirir və qeyd edir ki, bu körpü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında iqtisadi, mədəni, insani əlaqələrin genişlənməsinə və inkişaf etməsinə, Araz çayının o tayında və bu tayında olan qardaş xalqların bir-birinə yaxınlaşmasına xidmət edəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında 24 mart 1992-ci ildə Ankarada imzalanmış Əməkdaşlıq protokolunun həyata keçirilməsi, Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikasına Protokolda nəzərdə tutulmuş

maddi, texniki və mədəni yardımın təmin olunması üçün geniş imkan açır.

Yuxarıda qeyd olunanları əsas tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. İstifadəyə verilmiş Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan edilsin.

2. Sədərək-Dilucu rəsmi sərhəd keçid qapısının işinin təşkil edilməsi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 9 iyul 1992-ci il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

1992-ci il iyulun 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Bakıdan Naxçıvana gəlmiş Rusiyanın xüsusi səlahiyyətli elçisi, Dağlıq Qarabağda sülhün bərqərar olunması üzrə Rusiyanın vasitəçilik missiyasının rəhbəri Vladimir Nikolayeviç Kazimirovu qəbul etmişdir.

Kazimirov Dağlıq Qarabağdakı münaqişənin sülh yolu ilə həll olunması üçün Rusiyanın yeni təkliflər üzərində işlədiyini söyləmişdir. O demişdir ki, Ermənistan -Naxçıvan sərhəddində baş verən münaqişələrin Dağlıq Qarabağdakı münaqişədən törədiyi məlumdur. Bu mənada Rusiyanın vasitəçilik missiyasının təkliflərində Naxçıvan Muxtar Respublikası ilə Ermənistan Respublikası arasındakı sərhəddə sabitliyin bərqərar olunmasına da xüsusi yer ayrılır. V.N. Kazimirov bu haqda geniş məlumat verərək, muxtar respublika rəhbərliyinin həmin məsələyə dair mövqeyi ilə maraqlanmışdır.

Ali Məclisin Sədri Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ermənistan Respublikası ilə sərhəddində aylar ərzindəki vəziyyət, Ermənistan rəhbərliyi ilə apardığı danışıqlar haqqında ətraflı məlumat vermişdir. Ali Məclisin Sədri qeyd etmişdir ki, muxtar respublika rəhbərliyi və əhalisi baş verən münaqişələrin sülh yolu ilə aradan qaldırılmasının tərəfdarıdırlar və bütün sülhsevər təşəbbüsləri müdafiə edirlər. Heydər Əliyev Rusiyanın vasitəçilik missiyasının səylərinin müvəffəqiyyətlə nəticələnməsini arzulamışdır.

Söhbət zamanı irəli sürülən təkliflərə dair fikir mübadiləsi olmuş, Naxçıvan Muxtar Respublikası ilə Ermənistan Respublikası arasındakı sərhəddə son aylar yaranmış vəziyyət geniş müzakirə edilmişdir.

*23 iyul 1992-ci il*

## HUMANİTAR YARDIM DAVAM EDİR

İyulun 27-də Qərbi Azərbaycandan Naxçıvana növbəti humanitar yardım daxil olmuşdur. Urmiyanın yük maşınları muxtar respublikaya 40 ton un, 20 ton qənd, 30 ton uşaq yeməyi, 36 ton benzin, 32 min ədəd kərpic gətirmişlər.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bu yardımı Naxçıvana çatdıran Qərbi Azərbaycan ostandarının müşaviri və siyasi idarənin baş müdiri ağayi Səyavuş Qəhvəçianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Söhbət zamanı ağayi Səyavuş Qəhvəçian bildirmişdir ki, Urmiyada ayda bir dəfə Naxçıvan Muxtar Respublikasına humanitar yardım göstərilməsi məsələlərinə həsr edilmiş iclas keçirilir. Urmiya nümayəndə heyətinin başçısı Naxçıvan əhalisinin ehtiyacları ilə maraqlanmışdır.

Ali Məclisinin Sədri Heydər Əliyev göstərilən qayğı və diqqət üçün İran dövlətinə, müsəlman qardaşlara naxçıvanlılar adından minnətdarlığını bildirmişdir. O demişdir ki, Azərbaycan Respublikası, o cümlədən Naxçıvan Muxtar Respublikası çətin günlərini yaşayırlar, 70 illik əsarətdən qurtulan xalq indi müstəqillik yoluna qədəm qoyub. Lakin

iqtisadi çətinliklər çəkən Azərbaycan üstəlik erməni təcavüzünə məruz qalıb. Xüsusilə Naxçıvan Muxtar Respublikasının vəziyyəti çox ağırdır. Uzun müddətdir ki, Naxçıvana avtomobil və dəmir yolları işləmir, erməni ordusu Naxçıvan torpaqlarına təcavüz edir. Blokada şəraitində yaşayan muxtar respublikanın yardıma böyük ehtiyacı var. Ali Məclisin Sədri bu sahədə Qərbi Azərbaycandan - Urmiyadan daxil olan humanitar yardımların yerinə düşdüyünü xüsusi qeyd etmişdir.

Görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini R. Həsənov iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*28 iyul 1992-ci il*

## DOSTLUQ TELLƏRİ MÖHKƏMLƏNİR

Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin şəxsi dəvəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla muxtar respublika nümayəndə heyəti qonşu ölkəyə getmişdir. Qonşu ölkəyə səfərin məqsədi Türkiyə ilə yaranan əlaqələri daha da möhkəmləndirmək, eləcə də İqdır şəhərinə vilayət statusu verilməsi ilə əlaqədar keçirilən mərasimdə iştirak etmək idi.

Sədərək-Dilucu körpüsünü keçən nümayəndə heyətini ilk salamlayan başı qarlı Ağrıdağ oldu. Naxçıvanlı qonaqları qarşılayan Aralıq bələdiyyə bakanı Yıldırım Turanın müşayiəti ilə maşın karvanı rayon mərkəzinə gəldi. Burada muxtar respublika Ali Məclisinin Sədri Heydər Əliyevi və nümayəndə heyətini Aralığın qaymakanı Həsən İpək və sakinlər salamladılar. Yerli sakinlərlə keçirilən görüşlərdə bir-birinin ardınca verilən suallardan aydın oldu ki, onlar muxtar respublika ilə yaranan əlaqələrə böyük ümid bəsləyirlər. Aralıqla qısa tanışlıqdan sonra muxtar respublikaya daha yaxın Türkiyənin bu kiçik yaşayış məntəqəsinin qaymakanı Həsən İpəklə söhbət zamanı Heydər Əliyev Sədərək-Türkiyə körpüsünün tikintisində onların fəallığını xüsusi qeyd

etdi. Ali Məclisin Sədri bildirdi ki, muxtar respublika ilə Aralıq arasındakı dostluq əlaqələri möhkəmləndiriləcəkdir. Naxçıvan nümayəndə heyəti adından Heydər Əliyev Aralıq qaymakanlığına Mömünə Xatun məqbərəsinin rəsmini hədiyyə verdi.

Muxtar respublikanın nümayəndələri Aralıqdan İqdır şəhərinə yollandılar. İqdır Türkiyənin sərhəd şəhərlərindən biridir. Bu şəhər İran, Azərbaycan və Ermənistanla həmsərhəddir. 45 mindən artıq əhalisi var. Yaşıllıqlara qərq olmuş İqdırın sakinləri əsasən ticarətlə məşğuldurlar. Bura özünün qədim tarixi abidələri ilə zəngindir.

Naxçıvan nümayəndələrini şəhərin girəcəyində buraya yeni təyin olunmuş vali Ərdoğan İzgi və bələdiyyə başqanı Əli Ağrı qarşıladı. İqdır bu gün bayram əhvali-ruhiyyəsi ilə bəzədilmişdir. Şəhərin baş yollarının kənarına toplanmış yerli əhali naxçıvanlı qonaqları alqışlarla salamlamaqla bərabər, bir azdan bu şəhərə təşrif gətirəcək Türkiyənin Baş naziri Süleyman Dəmirəli və onu müşayiət edən millət vəkillərini səbirsizliklə gözləyirdilər. Əvvəlcədən hazırlanmış protokola uyğun olaraq Baş nazir Qars şəhərindən İqdıra vertolyotla gəldi.

Şəhərin mərkəzi meydanında bayram mərasimi başlandı. Minlərlə iqdırlının toplandığı bu mərasimdə Baş nazirlə bərabər Baş nazirin müavini Ərdal İnönü və dövlət nazirləri, millət vəkilləri də iştirak edirdilər. Naxçıvan nümayəndə heyətinin üzvləri mərasimdə fəxri kürsüdə əyləşmişdilər. İqdır şəhərinə vilayət statusu verilməsi ilə əlaqədar çıxış edənlər muxtar respublika nümayəndələrinin Türkiyəyə gəlişini xüsusilə qeyd etdilər. Baş nazir Süleyman Dəmirəl öz çıxışında bildirdi ki, İqdır şəhərinə vilayət statusu verilməsinin əsas səbəbi onun Azərbaycanla qonşu olmasıdır. Baş nazir dedi ki, İqdır, Sədərək-Dilucu körpüsü vasitəsilə bütün türk dünyasına pəncərə olacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin başçılığı ilə muxtar respublika nümayəndə heyətinin bu mərasimdə iştirakını S. Dəmirəl qonşu ölkələrin bir-birinə daha da yaxınlaşması hesab etdi və öz minnətdarlığını bildirdi.

Mərasimdə çıxış üçün söz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə verildi. On minlərlə iqdırlı kürsüyə çıxan Ali Məclis Sədrini aramsız alqışlarla qarşıladı.

Heydər Əliyev bu mərasimdə iştirak etməyə dəvət olunduqları üçün Naxçıvan nümayəndə heyəti adından Türkiyə hökumətinin başçısı S. Dəmirələ öz minnətdarlığını bildirdi.

Sonra Heydər Əliyev qeyd etdi ki, bu qədim türk şəhəri Naxçıvanın gərgin günlərində onun yaxın köməkçisi olmuşdur. Bu gün İqdırın vilayət kimi tanınması bizim aramızda olan yaxınlığı daha da möhkəmləndirəcəkdir. İqdırın bugünkü sevincinə bütün naxçıvanlılar qoşulmuşlar. Daha sonra Heydər Əliyev Türkiyə hökumətinin Naxçıvana, eləcə də Azərbaycana göstərdiyi diqqəti yaranan əməkdaşlığın ən vacib cəhəti adlandırdı.

İqdır şəhərindəki bayram şənliyi başa çatdı. Həmin gün iqdırlıların böyük sevincinə naxçıvanlılar da şərik oldular.

**M. ƏSGƏROV,**
**Real-Azərinformun müxbiri**

*15 avqust 1992-ci il*

## İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏR

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla muxtar respublikanın nümayəndə heyəti İran İslam Respublikasının xarici işlər naziri doktor Əli Əkbər Vilayətinin dəvəti ilə bu il avqust ayının 22-dən 26-dək İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur.

Heydər Əliyev İran İslam Respublikasının rəhbəri ayətulla Seyid Əli Xameneyi, İran İslam Respublikasının Prezidenti Əli Əkbər Haşimi Rəfsəncani ilə görüşmüşdür. Söhbət zamanı İran İslam Respublikası ilə Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası arasında olan əlaqələr, bu əlaqələrin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparılmışdır. Bugünkü islam aləmi, keçmiş Sovetlər İttifaqının müsəlman dövlətlərində gedən proseslər və baş verən ictimai-siyasi dəyişikliklər barəsində söhbət getmişdir.

Heydər Əliyev İran İslam Respublikası Milli Məclisinin Sədri Nateq Nuri, İran İslam Respublikasının xarici işlər naziri doktor Əli Əkbər Vilayəti, İranın yol və nəqliyyat naziri Səidi Kiya, rabitə naziri Ğərrazi, kooperasiya naziri Şafeyi, energetika naziri Zəncane, neft və qaz naziri Ağazadə, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust, İran İslam Respublikasının "Hilal Əhmər" cəmiyyətinin sədri Vəhid Dəstgirdi ilə danışıqlar aparmışdır.

Görüşlər və danışıqlar zamanı Heydər Əliyev Azərbaycan Respublikası dövlət müstəqilliyi əldə etdikdən sonra qarşılaşacağı çətinliklər, uzun sürən erməni təcavüzü ilə əlaqədar vəziyyət, respublikanın sosial-iqtisadi böhran içərisində olması və bütün bunlarla bağlı həyata keçirilən tədbirlər haqqında məlumat vermişdir. Naxçıvan Muxtar Respublikasının uzun müddət iqtisadi və informasiya blokadası şəraitində yaşadığını, muxtar respublikada sosial-iqtisadi vəziyyətin daha da gərgin olduğunu bildirmişdir. Xüsusən Naxçıvan Muxtar Respublikasında yanacaq, enerji və ərzaq qıtlığı nəticəsində əhalinin yaşayış tərzinin daha da pisləşməsini qeyd etmişdir.

İran İslam Respublikasının rəhbərləri və nazirləri Azərbaycan Respublikasına, o cümlədən Naxçıvan Muxtar Respublikasına xüsusi diqqət etdiklərini qeyd etmiş və bu çətinliklərdən çıxmaq üçün hər vasitə ilə kömək göstərməyə hazır olduqlarını bildirmişlər.

Danışıqlar səmimilik, dostluq, mehribanlıq və qarşılıqlı anlaşma şəraitində keçmişdir. Rəsmi danışıqların nəticəsində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında protokollar imzalanmışdır.

Protokolları Naxçıvan Muxtar Respublikası tərəfindən Ali Məclisin Sədri Heydər Əliyev, İran İslam Respublikası tərəfindən xarici işlər naziri doktor Əli Əkbər Vilayəti və "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust imzalamışdır.

İmzalanmış protokollarda qarşılıqlı siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrin genişləndirilməsi, Naxçıvan Muxtar Respublikasını böhran vəziyyətindən çıxarmaq və Naxçıvan əhalisinə kömək göstərmək məqsədilə bir çox məsələlər üzrə razılıq əldə edilmişdir.

Protokollara əsasən Naxçıvan Muxtar Respublikasının düşdüyü çətin vəziyyət nəzərə alınmaqla Araz su qovşağı rayonunda tikilən xətt vasitəsilə bu ilin oktyabr ayından etibarən İran İslam Respublikasından Naxçıvana 200 milyon kvt-saat enerji verilməsi nəzərdə tutulmuşdur. Naxçıvan Muxtar Respublikasının xahişinə uyğun olaraq muxtar respublikanın qaz ehtiyaclarını təmin etmək məqsədilə İran İslam Respublikasının Neft və Qaz Sənayesi Nazirliyi Xoy-Culfa qaz kəmərinin tikintisini öz üzərinə götürmüşdür. Kəmər istifadəyə verildikdən sonra İran İslam Respublikasından Naxçıvan Muxtar Respublikasına ildə 360,0 milyon kub.m (sutkada 1 milyon kub.m) qaz veriləcəkdir. Kəmərin tikintisini bir il müddətinə başa çatdırmaq planlaşdırılmışdır. Qaz kəməri istifadəyə verilənədək İran İslam Respublikası Naxçıvana ayda 100 ton maye qaz göndərəcəkdir.

İran İslam Respublikası Naxçıvan tərəfinin xahişini nəzərə alaraq yükdaşıma sahəsində yaranmış çətinliyi aradan qaldırmaq məqsədilə yüklərin Naxçıvandan Bakıya İran İslam Respublikasının ərazisindən Culfa-Xudafərin qısa yolu ilə daşınmasına razılıq vermişdir. Həmin yol hazırda tikilir və təmir olunur. Yolun bir hissəsinə asfalt örtük salınmış, istismara təhvil veriləcəkdir. Qalan hissəsi isə tikilməklə bərabər istifadə oluna bilər. Yoldan istifadə edilməsi üçün hər iki tərəf lazımi tədbirlər görəcəyini öhdəyə almışdır.

Naxçıvan Muxtar Respublikasına kömək göstərmək məqsədilə İran İslam Respublikasının ərazisindən Ordubad-Mincivan dəmir yol xəttinin çəkilməsi barədə muxtar respublika rəhbərliyinin xahişinə cavab olaraq İran tərəfi bildirmişdir ki, hal-hazırda göstərilən xəttin çəkilməsinin texniki cəhətdən öyrənilməsinə başlanılmış və bu sahədə iş davam etdirilir. Qısa müddətdə bu işin başa çatdırılması üçün tədbirlər həyata keçirilməlidir.

İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında yük və sərnişin daşınmasını genişləndirmək, vətəndaşların keçidi üçün yeni qapı açmaq məqsədi ilə Qərbi Azərbaycanın Poldəşt və Naxçıvanın Şahtaxtı kəndi yaxınlığında Araz çayı üzərində müvəqqəti körpünün tikintisinin qısa müddətdə başa çatdırılması və əsas körpünün texniki-axtarış işlərinin sürətləndirilməsi qərara alınmışdır.

Tərəflər razılığa gəlmişlər ki, İran İslam Respublikası gənclərinin Naxçıvan ali və orta ixtisas məktəblərində, Naxçıvan gənclərinin isə İran İslam Respublikasının ali və orta ixtisas məktəblərində təhsil almaları üçün şərait yaradılsın. İran İslam Respublikası vətəndaşlarının Naxçıvan televiziyasına, eləcə də Naxçıvan əhalisinin İran televiziyasının ayrı-ayrı proqramlarına baxmaları üçün lazımi tədbirlərin həyata keçirilməsini, İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında mədəniyyət, elm, incəsənət, nəşriyyat, turizm və idman sahələrində əlaqələrin genişləndirilməsini daimi diqqət mərkəzində saxlamaq nəzərdə tutulmuşdur.

Naxçıvan Muxtar Respublikasının azad iqtisadi zona elan edilməsi nəzərə alınaraq, İran İslam Respublikasında və Naxçıvan Muxtar Respublikasında hər iki tərəfin ticarət nümayəndəliklərinin, şirkətlərin və birgə müəssisələrin açılmasına, şirkətlər arasında ticarət əlaqələrinin daha da genişləndirilməsinə, ticarət qaydalarının yüngülləşdirilməsinə, gömrük siyasətinin liberallaşdırılmasına və sadələşdirilməsinə, mal mübadiləsinin intensiv inkişafına qadağanların aradan qaldırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsinin təmin edilməsi barədə razılıq əldə edilmişdir.

Naxçıvan şəhərində İran İslam Respublikasının Baş Konsulluğunun açılmasının tezləşdirilməsi və bu məqsədlə Naxçıvan şəhərində Baş Konsulluq üçün müvafiq binanın ayrılması qərara alınmışdır.

Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq və yanacaq ehtiyaclarını ödəmək məqsədilə 9 ay müddətində Culfa sərhəd məntəqəsindən muxtar respublikaya 90 min ton kömür, 50 min ton mazut, 30 min ton dizel yanacağı, 15 min ton avtobenzin, 25 min ton un, 15 min ton kartof, 5 min ton şəkər tozu, 15 min ton soğan, 1,5 min ton makaron, 1,8 min ton bitki yağı göndərilməsi barədə razılıq əldə edilmişdir.

Naxçıvan dindarlarının islamın müqəddəs yerlərini ziyarət etməsi üçün Naxçıvan-Məşhəd-Naxçıvan təyyarə reysinin açılmasına razılıq verilmişdir.

Muxtar respublika nümayəndə heyətinin İranın “Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami” fondunun prezidenti ilə imzaladığı protokol da Naxçıvan Muxtar Respublikasının iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün mühüm əhəmiyyət kəsb edir. Həmin protokola

əsasən Babək rayonunda illik istehsal gücü 65 milyon ədəd olan kərpic zavodunun inşasını, həmin rayonda fəaliyyət göstərən kərpic zavodunun texnoloji avadanlığını dəyişib illik gücünü ildə 20 milyon ədədə çatdırmağı, Culfa karbon qazı bazasında gücü saatda 123 min butulka olan "Nüşabə" ("Pepsi-Kola") zavodunu tikintisinin, Şərur konserv zavodunda gücü saatda 2 min paket olan meyvə şirəsi buraxan xəttin quraşdırılmasını, Badamlı mineral suları bazasında illik gücü 25 milyon butulka olan yeni xəttin və tutumu 0,5-1 litr olan plastik qab istehsal edən sexin quraşdırılmasını, Naxçıvanın xammalı bazasında xına sexi tikintisinin həyata keçirilməsini öhdəsinə almışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin xahişi ilə İranın "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu Naxçıvan şəhərində qısa müddətdə yeni məscid binasının tikilməsini öz üzərinə götürmüşdür. Naxçıvan Muxtar Respublikası "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun Naxçıvanda aparacağı işləri təşkil etmək üçün münasib bina ayrılmalıdır. Xüsusi bina tikmək üçün torpaq sahəsi verilməlidir.

Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti Tehran şəhərində İmam Xomeyninin məqbərəsini ziyarət etmiş, onun yaşadığı evlə tanış olmuşdur.

Heydər Əliyev və onu müşayiət edən şəxslər Məşhəd və Təbriz şəhərlərində də olmuş, Məşhəd şəhərində İmam Rzanın məqbərəsini ziyarət etmişlər. Xorasan ostandarlığının, Şərqi Azərbaycan ostandarlığının rəhbərləri ilə görüşmüş və danışıqlar aparmışlar.

Dahi İran şairi Firdovsinin Məşhəd şəhərinin yaxınlığında yerləşən məqbərəsini, Təbriz şəhərində şəhidlər qəbiristanlığını və böyük Azərbaycan şairi Şəhriyarın məqbərəsini ziyarət etmişlər.

Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti Məşhəd şəhərində ayətulla Təbəzzi, Təbrizdə ayətulla Mələk Quti ilə görüşüb söhbət etmiş, Məşhəd şəhərindəki dərman zavodunda, Təbriz universitetində, Təbrizdəki traktor zavodunda və yun fabrikində olmuşlar.

Heydər Əliyev İran İslam Respublikasına səfəri zamanı bu ölkənin teleradio və qəzet müxbirlərinə müsahibələr vermiş, mətbuat konfransı keçirmişdir.

Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin qonşu İran İslam Respublikasına rəsmi səfəri Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluğun, qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi yolunda böyük əhəmiyyət kəsb edən bir hadisə olmuşdur. Bu səfər İran İslam Respublikası ilə gələcək münasibətlərin inkişafında mühüm rol oynayacaqdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*2 sentyabr 1992-ci il*

## Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında PROTOKOL

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Heydər Əliyev başda olmaqla yüksək nümayəndə heyəti İran İslam Respublikası xarici işlər naziri cənab Əli Əkbər Vilayətinin rəsmi dəvəti ilə hicriyə şəmsi tarixi ilə 31.5.1371-3.6.1371-ci il, miladi tarixi ilə 22.8.1992-25.8.1992-ci il tarixdə İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur.

Səfər zamanı İran İslam Respublikasının Prezidenti cənab Haşimi Rəfsəncani cənab Heydər Əliyevi qəbul etmişdir. Bundan əlavə cənab Heydər Əliyev İran İslam Respublikası Məclisinin Sədri cənab Nateq Nuri, xarici işlər naziri cənab Əli Əkbər Vilayəti ilə iki dəfə və həmçinin yol və nəqliyyat naziri cənab Səidi Kiya, kooperasiya naziri cənab Şafeyi, energetika naziri cənab Zəncane, rabitə naziri cənab Ğərrazi, neft və qaz naziri Ağazadə, “Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami” fondunun prezidenti Möhsen Rəfiqdust, “Hilal Əhmər” cəmiyyətinin sədri cənab Vahid Dəstgerdi ilə danışıqlar aparmışlar.

Qarşılıqlı siyasi, iqtisadi, ticarət və mədəni əlaqələri genişləndirmək, Naxçıvan Muxtar Respublikasını böhran vəziyyətindən çıxarmaq və Naxçıvan əhalisinə kömək göstərmək məqsədilə aşağıdakılar üzrə razılıq əldə edilmişdir:

1. Naxçıvan Muxtar Respublikasının azad iqtisadi zona elan edilməsi nəzərə alınaraq İran İslam Respublikasında və Naxçıvan Muxtar Respublikasında hər iki tərəfin ticarət nümayəndəliklərinin şirkətləri və birgə müəssisələrinin açılmasına razılıq verilir. İran banklarında Naxçıvan şirkətlərinin və Naxçıvan banklarında İran şirkətlərinin hesablarının açılmasına təminat verilir.

2. Naxçıvan şəhərində İran İslam Respublikasının Baş Konsulluğunun açılması tezləşdirilsin. Bu məqsədlə Naxçıvan şəhərində Baş Konsulluq üçün müvafiq bina ayrılsın.

3. İki tərəf şirkətlər arasında ticarət əlaqələrinin daha da genişləndirilməsinə, ticarət qaydalarının yüngülləşməsinə, gömrük siyasətinin liberallaşdırılmasına və sadələşməsinə, mal mübadiləsinin intensiv inkişafına, qadağanların aradan qaldırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi təmin edilsin.

4. İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında mədəniyyət, elm, təhsil, incəsənət, nəşriyyat, turizm və idman sahələrində əlaqələrin genişlənməsi daim diqqət mərkəzində saxlanılır. Hər iki tərəfin ayrı-ayrı nazirlik, baş idarə, müəssisə və təşkilatları arasında qeyd edilən sahələrində əməkdaşlıq müqavilələri bağlanmasına şərait yaradılır.

5. Tərəflər razılığa gəlmişlər ki, İran İslam Respublikası gənclərinin Naxçıvan ali və orta ixtisas məktəblərində, Naxçıvan gənclərinin isə İran İslam Respublikasının ali və orta ixtisas məktəblərində təhsil almaları üçün şərait yaradılır.

6. İran İslam Respublikası vətəndaşlarının Naxçıvan televiziyasına, eləcə də Naxçıvan əhalisinin İran televiziyasının ayrı-ayrı proqramlarına baxmaları üçün lazımi tədbirlər həyata keçirilir. Naxçıvan televiziyası ilə İran İslam Respublikasının "Seda və Sima" televiziya şirkəti arasında əməkdaşlıq protokolu imzalansın.

7. Naxçıvan Muxtar Respublikası ilə "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu arasında bu protokolun tərkib hissəsi

olmaqla iqtisadi və ticarət əlaqələrinin yaradılmasına dair protokol imzalanmışdır.

8. Naxçıvan Muxtar Respublikasının çətinliyi nəzərə alınsın, Araz su qovşağı rayonunda tikilən xətt vasitəsilə oktyabr ayından etibarən Naxçıvana 200 milyon kvt saat (3-40 meqavatt) enerji verilsin. Verilən enerjinin əvəzi Parsabat və ya Astara rayonları ərazisində Azərbaycan Respublikasından alınsın.

9. Naxçıvan, muxtar respublikaya kömək göstərmək məqsədilə, İran İslam Respublikasından öz ərazisində Ordubad-Mincivan dəmir yolu xəttinin tikilməsini xahiş etmişdir. Həmin xahişə cavab olaraq İran tərəfi bildirir ki, hal-hazırda göstərilən xəttin texniki cəhətdən öyrənilməsinə başlanılmış və bu iş davam etdirilir. Qısa müddətdə bu işin qurtarması üçün lazımi tədbirlər həyata keçirilsin.

10. İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında yük və sərnişin daşınmasını genişləndirmək, vətəndaşların keçidi üçün yeni qapı açmaq üçün Qərbi Azərbaycanın Poldəşt və Naxçıvanın Şahtaxtı kəndi yaxınlığında Araz çayı üzərində müvəqqəti körpünün tikintisi qısa müddətdə başa çatdırılsın və əsas körpünün texniki axtarışı işləri sürətləndirilsin.

11. Naxçıvan dindarlarının islamın müqəddəs yerlərini ziyarət etmələri üçün Naxçıvan-Məşhəd-Naxçıvan təyyarə reyslərinin açılmasına razılıq verilir. Bu məqsədlə uçuşlar Naxçıvan təyyarələri vasitəsilə həyata keçiriləcəkdir.

12. Naxçıvan-Bakı-Naxçıvan marşrutu ilə təyyarələrin İran İslam Respublikasının qısa hava koridorundan uçması xahişinə İran tərəfi prinsipial razılıq vermişdir. Bu məqsədlə bir ay müddətində "Azərbaycan Hava Yolları" Konserninin və İran İslam Respublikası "Hava peymayi" və "Hava peymayiye Keşvəri" şirkətləri mütəxəssislərinin danışıqlar aparması məqsədə müvafiq hesab edilsin.

13. Naxçıvan Muxtar Respublikasının xahişinə uyğun olaraq İran İslam Respublikasının Neft və Qaz Sənayesi Nazirliyi Naxçıvan Muxtar Respublikasının qaza olan tələbatını ödəmək məqsədilə Xoy-Culfa qaz kəmərinin tikintisini öz üzərinə götürür. Naxçıvan Muxtar Respublikasına ildə 360 milyon kub.m (sutkada 1,0 milyon kub.m) qaz verir.

Qaz İran-Naxçıvan sərhəd məntəqəsində təhvil verilir. Kəmərin tikintisi bir il müddətinə başa çatdırılır. Naxçıvan Muxtar Respublikasında qaz təsərrüfatı, qazın ötürülməsi, paylanması və istifadəçilərə verilməsi İranın Naxçıvanda yaradılacaq şirkəti vasitəsilə həyata keçirilir. Verilən qaz İran İslam Respublikasının milli qaz şirkəti vasitəsilə istifadəcilərə satılır və qoyulan əsaslı vəsait çıxarılır. Tərəflər razılaşmışlar ki, iki tərəfin müvafiq şirkətlərinin nümayəndələri bir ay ərzində müqavilələr hazırlasınlar.

Naxçıvanın maye qaza olan ehtiyacını nəzərə alaraq İran İslam Respublikası Naxçıvana avqust ayından etibarən ayda 100 ton maye qaz verir.

Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikasının Neft və Qaz Sənayesi Nazirliyi bu sənədin imzalandığı tarixdən etibarən bir ay müddətində öz dövlətlərinin müvafiq icazəsini almalıdır. Əks təqdirdə qaz kəmərinin icrası ləğv ediləcəkdir.

14. Naxçıvan tərəfi avtomobil yükdaşıma sahəsində yaranmış çətinliyi aradan qaldırmaq məqsədilə yüklərin İran İslam Respublikasının ərazisində Culfa-Xudafərin qısa yolu ilə daşınmasını xahiş etmişdir. Həmin yol hazırda tikilir və təmir olunur. Yolun bir hissəsinə asfalt örtük salınmış, istismara təhvil veriləcəkdir. Qalan hissəsi isə tikilməklə bərabər istifadə oluna bilər. Tərəflər razılığa gəlmişlər ki, hər iki tərəfin ekspertləri birlikdə 1992-ci il avqust ayının axırınadək istifadə etmək üçün yolun vəziyyətini yoxlayacaqlar. Yoldan istifadə edilməsi üçün hər iki tərəf lazımi tədbirlər görəcəklər.

15. Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq və yanacaq ehtiyaclarını ödəmək məqsədilə İran İslam Respublikası öz razılığını bildirmişdir ki, aşağıda göstərilən ərzaq və yanacaq məhsullarını Culfa sərhəd məntəqəsində 9 (doqquz) ay ərzində təhvil verəcəkdir. Bunun müqabilində Azərbaycan Respublikası İran İslam Respublikasına müxtəlif mallar verəcəkdir. Buna aid məsələlər və onun icrası İran-Azərbaycan iqtisadi-mədəni əlaqələr komissiyasında öz əksini tapacaqdır.

avtobenzin - 15,0 min ton
dizel yanacağı - 30,0 min ton
mazut - 50,0 min ton

daş kömür - 90,0 min ton
ağ neft - 1,0 min ton
şəkər tozu - 5,0 min ton
bitki yağı - 1,8 min ton
makaron - 1,5 min ton
soğan - 15,0 min ton
un - 25,0 min ton

16. Hər iki tərəf razılaşdılar ki, Naxçıvan Muxtar Respublikası "Real" informasiya agentliyi ilə İran İslam Respublikasının "İRNA" informasiya şirkəti bir-biri ilə əməkdaşlıq müqaviləsi imzalasınlar. Tərəflər öz ərazilərində şirkətin müxbir məntəqələrini yaradır və onlara mübadilə yolu ilə yer ayırır.

Protokol 24 avqust 1992-ci il hicriyə şəmsi tarixi ilə 1371-ci il şəhrivər ayının 2-də 16 maddədən ibarət olmaqla Tehran şəhərində Azərbaycan və fars dillərində iki nüsxədə imzalanmış və imzalandığı tarixdən etibarlıdır.

**Azərbaycan Respublikasının**
**Naxçıvan Muxtar Respublikası**
**tərəfindən Ali Məclisin Sədri**
**Heydər ƏLİYEV**

**İran İslam**
**Respublikası tərəfindən**
**xarici işlər naziri**
**Əli Əkbər VİLAYƏTİ**

**Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" arasında iqtisadi, ticarət və digər əlaqələrin yaradılması haqqında əməkdaşlıq P R O T O K O L U**

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Heydər Əliyev və İran İslam Respublikası "Bonyade Mostəzəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust hicriyə şəmsi tarixi ilə 1371-ci ilin şəhrivar ayının 1-də, miladi tarixi ilə 1992-ci il 23 avqustda Tehran şəhərində görüşmüş, danışıqlar aparmış və tərəflər qarşılıqlı siyasi və iqtisadi qurumlara hörmət prinsiplərini əsas tutaraq iki tərəf arasında iqtisadi, ticarət, mədəni və digər əlaqələri inkişaf etdirmək məqsədilə aşağıdakı razılığa gəlmişlər:

1. Birinci tərəf - "Bonyade Mostəzəfan və Canbazane Enqelabe Eslami" Naxçıvanda İranın və başqa xarici dövlətlərin şirkətləri, konsernləri, ticarət əlaqələri yaradılmasına çalışacaq və muxtar respublikada xarici ticarəti genişləndirəcəkdir.

2. Birinci tərəf - icraçı Naxçıvan Muxtar Respublikasında nəzərdə tutulan aşağıdakı layihələri tərəf müqabilinə təqdim edir:

a) Naxçıvanda öz vəsaiti hesabına məscid tikmək;

b) Babək rayonunun Çeşməbasar kəndi yaxınlığında illik gücü 65 milyon ədəd olan kərpic zavodu tikmək;

v) Babək rayonu ərazisində fəaliyyət göstərən kərpic zavodunun texnoloji avadanlığını dəyişib illik gücü ildə 20 milyon ədəd kərpicə çatdırmaq;

q) Alt trikotaj fabrikinə ildə 3 min ton iplik və 3,0 milyon metr rezin vermək;

d) Culfa karbon qazı bazasında gücü saatda 12,0 min butulka olan "Nüşabə" ("Pepsi-Kola") zavodu tikmək;

e) Şərur konserv zavodunda gücü saatda 2,0 min paket olan meyvə şirəsi buraxan xətt quraşdırmaq;

j) Badamlı mineral suları zavodu bazasında illik kucü 25,0 milyon butulka olan yeni xətt quraşdırmaq və tutumu 0,5-1,0 litrlik plastik qab istehsal edən sex quraşdırmaq;

z) Naxçıvanda həna sexi tikmək, bu sex üçün xammal (İkinci tərəf) Naxçıvan Muxtar Respublikası tərəfindən təmin ediləcəkdir;

i) "İkinci tərəf" Naxçıvanda "Birinci tərəfin" istifadəsinə münasib hazır bina və torpaq sahəsi ayırır. Ayrılmış torpaq sahəsində tikinti-quraşdırma işləri "Birinci tərəf" tərəfindən aparılır.

Yuxarıda qeyd olunanların icrasını təmin etmək üçün "Birinci tərəf" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti ilə mütəxəssislərin iştirakı ilə müqavilələr bağlayır.

"İkinci tərəf" "Birinci tərəfin" göstərilən maddələr üzrə əsaslı vəsait qoyuluşuna tam təminat verir.

Bu protokol hicriyə şəmsi tarixi ilə 1371-ci il şəhrivar ayının 2-də, miladi tarixi ilə 1992-ci il 24 avqust tarixlərdə Tehran şəhərində iki nüsxədən ibarət Azərbaycan və fars dillərində imzalanmış və hər ikisi eyni qüvvəyə malikdir.

**Azərbaycan Respublikasının**
**Naxçıvan Muxtar**
**Respublikası tərəfindən**
**Ali Məclisin Sədri**
**Heydər ƏLİYEV**

**İran İslam Respublikası**
**"Bonyade Mostezəfan və**
**Canbaze Enqelabe Eslami"**
**tərəfindən fohdun prezidenti**
**Möhsen RƏFİQDUST**

*İRAN İSLAM RESPUBLİKASI, TEHRAN ŞƏHƏRİ*
*İRAN İSLAM RESPUBLİKASININ RƏHBƏRİ*
*AYƏTULLAH XAMENEYİ HƏZRƏTLƏRİNƏ*

Möhtərəm Xameneyi cənabları!

İran İslam Respublikasında olarkən Sizinlə, islam aləminin böyük siyasi, din və dövlət xadimi ilə görüşümüz və dostluq, qardaşlıq şəraitində keçən səmimi söhbətlərimiz üçün, Naxçıvan Muxtar Respublikasına Sizin tərəfdən göstərilən qayğıya görə dərin minnətdarlığımı bildirirəm.

İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanan Əməkdaşlıq protokolları Sizin müstəqil Azərbaycan Respublikasına qayğınızın ifadəsidir.

Ümidvaram ki, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etməsi naminə Ali həzrətləriniz bundan sonra da səylərini əsirgəməyəcəkdir.

Dərin hörmət və ehtiramla

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 28 avqust 1992-ci il*

*İRAN İSLAM RESPUBLİKASI, TEHRAN ŞƏHƏRİ*
*İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ*
*AĞAYİ SEYİD HAŞİMİ RƏFSƏNCANİ HƏZRƏTLƏRİNƏ*

Çox hörmətli Prezident!

İran İslam Respublikasında olarkən Sizin və İranın rəsmi dairələrinin Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinə, şəxsən mənə göstərdiyi diqqət və qardaşlıq münasibətinə görə sonsuz minnətdarlıq hisslərimi bildirir, təşəkkür edirəm.

Tehran şəhərində İran İslam Respublikası ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında imzalanmış Əməkdaş-

lıq protokolları şəxsən Sizin diqqət və qayğınızın nəticəsidir. Naxçıvan Muxtar Respublikasının bugünkü ağır və böhranlı vəziyyətində dost köməyiniz heç vaxt yaddan çıxmayacaqdır.

Ümidvaram ki, Sizin şəxsi səyiniz nəticəsində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq əlaqələri bundan sonra daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Dərin hörmət və ehtiramla

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 28 avqust 1992-ci il*

## *İRAN İSLAM RESPUBLİKASI, TEHRAN ŞƏHƏRİ İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ DOKTOR ƏLİ ƏKBƏR VİLAYƏTİYƏ*

Cənab nazir!

Sizin şəxsi dəvətinizlə İran İslam Respublikasında olduğum gün ərzində Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinə və şəxsən mənə göstərdiyiniz mehribanlıq və diqqət üçün dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə Əməkdaşlıq haqqında 24 avqust 1992-ci ildə Tehran şəhərində imzalanmış protokolu Naxçıvanı ağır vəziyyətdən çıxarmaq yolunda böyük qardaşlıq yardımı, tarixi bir sənəd kimi qiymətləndirirəm.

Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin İran İslam Respublikasına səfərinin təşkil olunmasında, Əməkdaşlıq protokolunun bağlanmasında Sizin şəxsi xidmətlərinizi xüsusilə dəyərləndirirəm.

Ümidvaram ki, Sizinlə, cənab nazir, görüşlərimiz, səmimi söhbətlərimiz və birgə imzaladığımız Əməkdaşlıq protokolu İran İslam Respub-

likası ilə Azərbaycan Respublikası arasında dostluq və qardaşlıq əlaqələrinin genişlənməsinə və inkişaf etməsinə kömək edəcəkdir.

Dərin hörmət və ehtiramla

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 28 avqust 1992-ci il*

## *İRAN İSLAM RESPUBLİKASI, TEHRAN ŞƏHƏRİ İRAN İSLAM RESPUBLİKASININ "BONYADE MOSTEZƏFAN VƏ CANBAZANE ENQELABE ESLAMİ" FONDUNUN PREZİDENTİ AĞAYİ MÖHSEN RƏFİQDUST CƏNABLARINA*

Cənab prezident!

Naxçıvan Muxtar Respublikasının bugünkü çətin vəziyyətində Sizin başçılıq etdiyiniz fondun göstərdiyi köməkliyə görə Naxçıvan Muxtar Respublikasının əhalisi adından, şəxsən öz adımdan dərin təşəkkürümü bildirirəm.

Cənab Rəfiqdust, Sizinlə imzaladığımız Əməkdaşlıq protokolu Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Şübhə etmirəm ki, protokolda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasındakı dostluq əlaqələrinin daha da genişlənməsi üçün zəmin yaradacaqdır.

Sizin göstərdiyiniz səmimiyyət və qardaşlıq münasibətinizə görə dərin təşəkkürümü izhar edirəm.

Dərin hörmət və minnətdarlıqla

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 28 avqust 1992-ci il*

# ÇƏTİNLİKLƏRİ ARADAN QALDIRARAQ

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası

Xəbər verildiyi kimi, sentyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclası öz işinə başlamışdır. Sessiyanın gündəliyində duran ən mühüm məsələlərdən biri "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin İran İslam Respublikasına rəsmi səfərinin yekunları və Tehran şəhərində bağlanmış əməkdaşlıq protokolları haqqında" və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyəyə səfərinin yekunları haqqında (10-14 avqust 1992-ci il)" məsələləri idi. Həmin məsələlərlə əlaqədar Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev məruzə etmişdir. Heydər Əliyev demişdir ki, avqust ayının 22-dən 26-dək Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti İran İslam Respublikası hökumətinin dəvəti ilə İranda olmuşdur.

Səfərdən əvvəl bizim İranın rəhbərləri ilə, xüsusən İranın xarici işlər naziri doktor Əli Əkbər Vilayəti, İranın Azərbaycandakı səfiri ağayi Nəhavəndiyan ilə İran İslam Respublikası Xarici İşlər Nazirliyinin müşaviri ağayi Şeyx Əttarla danışıqlarımız olmuşdur. Biz İran ilə Azərbaycan arasında münasibətlərin genişlənməsi, inkişaf etdirilməsi zəruriliyindən danışmışdıq. Bu barədə fikirlərimiz üst-üstə düşmüşdür. Onlar da , biz də qeyd etmişdik ki, 70 illik ayrılıqdan sonra Arazın o tayında və bu tayında biz islam aləminə mənsub olan qardaş və bacılar artıq görüşməyə başlayırıq və indi Azərbaycan müstəqil dövlət kimi yaxın qonşuları ilə, o cümlədən İran İslam Respublikası ilə öz münasibətlərini inkişaf etdirməlidir.

Bu baxımdan Azərbaycanın Naxçıvan bölgəsi İrana daha yaxın bir ərazidir. Naxçıvanın İran İslam Respublikası ilə 204 kilometrlik sərhəddi var. Biz nəinki həmsərhəd olduğumuza görə, eyni zamanda Arazın o tayında bizim doğma bacı-qardaşlarımız, din qardaşlarımız yaşadıqlarına görə əlaqələr mütləq inkişaf etməli, genişlənməli və yeni vüsət almalıdır. Eyni zamanda, Azərbaycanın bütün hissəsi ilə Naxçıvan

Muxtar Respublikasının ərazisi arasındakı Ermənistan ərazisindən keçən kommunikasiya xətlərinin pozulması ilə əlaqədar Azərbaycanın paytaxtı Bakı şəhəri və başqa regionları ilə bu kommunikasiya xətlərinin etibarlı qurulması işini təmin etməliyik. Bu problem yeni problem deyil. Bu məsələ ilə biz bir ildən çoxdur ki, məşğul oluruq. Azərbaycan hökuməti də bu problemlə məşğul olmuşdur. Hətta bu ilin fevral ayında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Naxçıvanla etibarlı kommunikasiya xətlərinin yaradılması haqqında xüsusi qərarı olmuşdur. Bu qərarda başdan-ayağa Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın bütün hissəsinin arasında olan kommunikasiya xətlərinin bundan sonra İran İslam Respublikasının ərazisindən keçməsi nəzərdə tutulmuşdur. Lakin çox təəssüf ki, həmin qərar həyata keçirilməmiş və bu sahədə heç bir iş görülməmişdir. Düzdür, Azərbaycan Respublikasının keçmiş Baş naziri İran İslam Cümhuriyyətinin neft və qaz sənayesi naziri Ağazadə ilə kiçik bir protokol bağlamışdır. Lakin bu protokolda nəzərdə tutulanlar da həyata keçirilməmiş, kağız üzərində qalmış, heç bir iş görülməmişdir. Ona görə də, xüsusən, aprel ayında bizim dəmir yolu Ermənistan ərazisindən kəsildiyinə görə, qaz da keçən ildən gəlmədiyinə görə, habelə elektrik enerjisinin verilməsi kəsildiyinə görə və gələcəkdə bu xətlərin, o cümlədən rabitə xətlərinin və başqa xətlərin də Ermənistan ərazisindən keçməsinin etibarsız olduğunu nəzərə alaraq, şübhəsiz ki, bizim yeganə yolumuz bu xətlərin İran İslam Respublikasının nümayəndələri ilə danışıq apararkən birinci növbədə bu məsələlərin həll olunmasını və eyni zamanda başqa iqtisadi əlaqələri, Naxçıvanın, eləcə də Azərbaycanın belə bir böhran vəziyyətində olduğu dövrdə İran tərəfindən Naxçıvana xüsusi yardım göstərilməsi məsələsini ön plana çəkərək konkret təkliflər vermişdik.

Bu məsələlərin həll olunması üçün belə bir səfər zəruridir. Bütün bunların hamısını nəzərə alaraq mən bu dəvəti qəbul etmişdim və belə bir səfər artıq həyata keçirilmişdir. Bu səfər zamanı Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinə çox böyük hörmət və ehtiram göstərilmişdir.

Məlum olduğu kimi, bizim İrana getmək imkanlarımız bir qədər məhdud idi. Ona görə də İran İslam Respublikasının Prezidenti Haşi-

mi Rəfsəncaninin xüsusi təyyarəsi Naxçıvana gəldi və biz avqust ayının 22-də Naxçıvandan Tehrana getdik. Səmimi dostluq, qardaşlıq və mehribanlıq şəraitində bizi qəbul etdilər. İlk dəqiqələrdən Naxçıvana qayıdanadək bizim orada işimiz çox gərgin oldu. Hər dəqiqəmiz, saatımız, günümüz çox səmərəli, işgüzar şəraitdə keçdi və deyə bilərəm ki, İran İslam Respublikasının rəhbərləri, habelə bizimlə məşğul olan bütün nazirlər, dövlət məmurları Naxçıvana kömək etmək və bu səfər zamanı bütün məsələlərin həll olunmasını təmin etmək üçün çox çalışdılar. Qeyd etməliyəm ki, İran İslam Respublikasının siyasi və dini rəhbəri Ayətullah Xameneyinin bizimlə görüşməsi və bir saatdan artıq onunla çox ətraflı söhbət etməyimiz bizim üçün müstəsna əhəmiyyət kəsb etdi. Bildiyimiz kimi həzrəti Xameneyi həzrəti Xomeyninin rəhbərliyi vaxtında 8 il İran İslam Respublikasının Prezidenti olmuş, Xomeyni vəfat etdikdən sonra o, İranın dini və siyasi rəhbəri seçilmişdir. Ona görə də həzrəti Xameneyi indi İran İslam Respublikasında ən yüksək zirvədə duran şəxsiyyətdir. Özü Təbriz yaxınlığında olan Xameneyi kəndindəndir. O, bizimlə öz ana dilimizdə söhbət etdi. Çox ətraflı və məzmunlu söhbətimiz oldu. Mənim şəxsi təəssüratım belədir ki, ağayi Xameneyi çox böyük alimdir, böyük siyasi xadimdir, böyük din xadimidir. İran İslam Respublikasında böyük hörmətə və şöhrətə malikdir. Ona görə də onun Naxçıvan Muxtar Respublikasına marağı və nəzər-diqqəti bizim üçün çox böyük əhəmiyyət kəsb edir.

İran İslam Respublikasının Prezidenti ağayi Haşimi Rəfsəncani ilə çox məzmunlu söhbətlərimiz və danışıqlarımız oldu. Bu danışıqlar da çox səmərəli keçdi, qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi istiqamətində getdi. Belə hesab edirəm ki, mən də, nümayəndə heyətinin tərkibində olanlar da Prezident Rəfsəncani ilə görüşlərimizdən çox məmnun olmuşdular. Bu görüş qaldırdığımız məsələlərin İran İslam Respublikası nazirliklərində müsbət həll olunmasına kömək etdi. Biz həm Ayətullah Xameneyi ilə, həm ağayi Haşimi Rəfsəncani ilə görüşümüzdə ilk növbədə Azərbaycanda olan ictimai-siyasi vəziyyət haqqında, Azərbaycan müstəqillik əldə etdikdən sonra həyata keçirilən tədbirlər haqqında, Azərbaycanın iqtisadi-siyasi böhran içərisində yaşaması haqqında, Ermənistan tərəfindən Azərbaycan ərazisinin bir his-

səsinin işğal olunması və Azərbaycana qarşı hərbi təcavüzlər olunması, çox böyük qurbanlar verilməsi və respublikanın çox ağır vəziyyətdə olması haqqında geniş məlumatlar verdik, bu barədə ətraflı fikir mübadiləsi apardıq. Şübhəsiz ki, biz birinci növbədə müstəqil Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında olan bütün münasibətlərin daha da inkişaf etməsi və genişlənməsi məcrasında öz söhbətlərimizi aparırıq.

Bununla yanaşı olaraq Naxçıvan haqqında da geniş məlumatlar verdik. Ermənistanın son 4-5 ay ərzində Naxçıvan ərazisinə təcavüzü, sərhəd kəndlərimizi dağıtması, verdiyimiz qurbanlar, tələfatlar haqqında, bizə dəyən maddi və mənəvi zərər haqqında, Naxçıvanın uzun müddət tam blokada şəraitində yaşaması haqqında və belə bir şəraitdə Azərbaycanın başqa bölgələrinə nisbətən daha ağır vəziyyətdə olması haqqında biz həzrəti Xameneyiyə, Prezident Haşimi Rəfsəncaniyə geniş məlumatlar verdik. Onlar bizim məlumatlarımıza çox böyük maraq göstərdilər, çox diqqət yetirdilər. Azərbaycana, o cümlədən Naxçıvana bütün imkan dairəsində yardımlar ediləcəyini bildirdilər.

Bizim danışıqlarımız konkret şəkildə İran İslam Respublikası xarici işlər naziri doktor Əli Əkbər Vilayəti ilə oldu. Biz bir neçə dəfə görüşdük. O, bizi təyyarə limanında qarşıladı, orada keçirilən mətbuat konfransında iştirak etdi. Biz oradan birbaşa xarici işlər nazirliyinə getdik. Orada çox ətraflı söhbət oldu və o, şübhəsiz ki, öz rəhbərlərinin göstərişi ilə bizim lazım olan nazirlərlə görüşlərimizi təşkil etdi. Bu görüşlərdə həm Əli Əkbər Vilayətiyə, həm də başqa nazirlərə bütün məsələləri tam aşkar şəkildə bildirdik, necə bir vəziyyətdə olduğumuzu onlara çatdırdıq, eyni zamanda onların bizə hansı sahələrdə yardım göstərə biləcəkləri barədə təkliflərimizi verdik. Görüşlərimiz çox intensiv keçdi. Bütün bu məsələlərin hamısını biz üç gündən də az bir müddətdə həll edə bildik. İran İslam Respublikasının nazirlərindən yol və nəqliyyat naziri Səidi Kiya, rabitə naziri Ğərrazi, kooperasiya naziri Şafeyi, energetika naziri Zəncane, neft və qaz naziri Ağazadə ilə görüşlərimiz oldu. Çünki bizə əsas bu nazirliklər lazım idi.

Onu da qeyd etmək istəyirəm ki, orada olan dövlət quruluşu da çox ciddi və məsuliyyətlidir. Qoyulan məsələləri onlar birbaşa həll edə bil -

mirlər. Çünki həmin məsələlərin bir çoxu onlar üçün çox mürəkkəb idi. Onu da açıq deyək ki, bu müqavilə başdan-başa İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasına köməyidir. Ona görə də hər bir nazirlik gərək öz imkanlarını ölçüb-biçəydi və Prezidentə məlumat verəydi ki, hansı məsələlərin həlli mümkündür, hansınınkı mümkün deyil.

Bundan əlavə, biz Əli Əkbər Vilayəti ilə görüşərkən İranda fəaliyyət göstərən "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust ilə görüşüb danışıqlar aparmaq təklifini vermişdik. Bu fond ilə Naxçıvanın müəyyən əlaqələri var. Biz hələ bu ilin əvvəlindən bu əlaqələri yaratmaq istəyirdik. Möhsen Rəfiqdustun müavini Şaabanian bir-iki dəfə Naxçıvana gəlmişdi və burada bizim onunla danışıqlarımız olmuşdu. Biz bu fondun imkanlarını yaxşı bilirik. Həmin fond çox böyük imkanlara malikdir. Demək olar ki, dünyanın bütün ölkələri ilə iqtisadi əlaqələr saxlayır. Çox ölkələrdə müəssisələr, şirkətlər yaradır. Bu fond İran şahı Məhəmməd Rza Pəhləvi İrandan gedəndən sonra bütün şah ailəsinin əmlakının sahibkarı olub. Qeyd etdiyim kimi fondun prezidenti Möhsen Rəfiqdustur. O, həzrəti Xomeyninin yaxın adamlarından idi. Çox da yaxşı insandır. Mən onu Naxçıvana dəvət etmişdim. O da söz vermişdi ki, gələcək. Ancaq sonra əlaqələrimiz pozuldu. Bu da bizim bəzi adamların işi bilmədən cürbəcür şayiələr yaymaqları ilə əlaqədardır.

Xatirinizdədirsə, Bakıda çıxan qəzetlərin birində məlumat dərc olunmuşdu ki, guya Naxçıvan imkan verir ki, İran İslam Respublikası Naxçıvan ərazisindən Ermənistana silah göndərsin və bu silahların da göndərilməsini İran İslam Respublikasının vətəndaşı, milliyyətcə erməni olan Şaabanian təşkil edir. Çox təəssüf ki, bizim bəzi adamlar bilmədiklərini danışırlar, bizə, yəni Azərbaycana, Naxçıvana xeyir vermək əvəzinə, böyük zərər vururlar. O vaxt mən məcbur oldum, İranın Bakıdakı səfirinə telefon etdim. Həmin vaxt İranın xarici işlər nazirinin müşaviri Şeyx Əttar da Bakıda idi. Onlara müraciət etdim və onlar bunu təkzib etdilər. Biz də burdan təkzib göndərdik ki, İran İslam Respublikasından Naxçıvan ərazisi vasitəsi ilə Ermənistana heç bir silah getməyib. Şaabanian isə erməni deyil, müsəlmandır, farsdır və məşhur bir şəxsiyyətdir.

Onu da bilməlisiniz ki, İranda "yan"la qurtaran familiyalar çoxdur. Həm farslarda, həm də azərbaycanlılarda. Ancaq sadəcə olaraq bəzi adamlar öz səviyyələrinin çox aşağı olduğunu göstərərək indiyədək İranda belə familiyaların olduğunu bilmirlər. Və yaxud bilə-bilə qəsdən gündə bir şayiə yayırlar ki, işləri pozsunlar. O vaxtlar bizim əlaqələr müəyyən qədər pozulmuşdu. Bu məqsədlə də fondun prezidenti Rəfiqdustla görüşməli olduq. Görüşümüz çox yaxşı keçdi. Çünki İran İslam Respublikası bizə olan köməyi dövlət hesabına edəcək. Bu fondun isə çox böyük maddi imkanları var. Və həmin fond həm də onların dili ilə desək, fəqir-füqaralara, qaçqınlara yardım edən bir fonddur. Ona görə də bu fondun imkanlarından istifadə etmək Naxçıvan üçün çox sərfəlidir. Bu fond bir çox islam ölkələrində, eləcə də Naxçıvanda fəaliyyət göstərmək istəyir. Bizim danışıqlarımız çox səmərəli oldu. Biz həmin fondla da protokol imzaladıq.

Bütün bu danışıqların nəticəsində protokollar hazır oldu. Avqust ayının 24-də mənim üçün ayrılan iqamətgahda protokolların rəsmi imzalanması mərasimi oldu. Bu mərasimdə mətbuat, televiziya və radio nümayəndələri iştirak etdilər. Bu protokolların İran tərəfindən İran hökumətinin tapşırığı ilə xarici işlər naziri doktor Əli Əkbər Vilayəti, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun adından fondun prezidenti Möhsen Rəfiqdust, Naxçıvan Muxtar Respublikası adından isə mən imzaladım. Protokollar imzalanarkən bizim çıxışlarımız oldu. Mən və doktor Vilayəti çıxış etdik. Bu protokolların əhəmiyyəti haqqında İran İslam Respublikası və Azərbaycan Respublikası, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin genişləndirilməsi haqqında ətraflı məlumatlar verildi.

Bu protokollarda demək olar ki, Naxçıvan MR üçün çox böyük əhəmiyyəti olan məsələlər həll olunur. Birinci növbədə məsələlər ondan ibarətdir ki, Azərbaycanın bütün hissəsi ilə bizim kommunikasiya xətlərimizin İran İslam Respublikasından keçməsi bu protokolda öz əksini tapıb. Özü də ümumi şəkildə yox, konkret şəkildə. Mən belə hesab edirəm ki, bu protokolun ən mühüm bəndlərindən biri Naxçıvanın qaz ilə təmin olunmasıdır. Bildiyiniz kimi, vaxtilə çox böyük çətinliklərə sinə gərərək, böyük vəsait sərf edərək Azərbaycandan Naxçıvana qaz

kəməri çəkilmişdir. Naxçıvanda yaşayan namuslu, qeyrətli adamlar bunun nə qədər böyük əhəmiyyəti olduğunu heç vaxt unutmayacaqlar. Mən bura gələrkən kəndlərdə olan sadə adamlar, əmək adamları, həyatı düzgün qiymətləndirən adamlar bunun necə müstəsna əhəmiyyət kəsb etdiyini qeyd edirdilər.

İndi təəssüf ki, bir ilə yaxındır biz bu qazdan məhrum olmuşuq. Qaz kəməri artıq Naxçıvanda işləmir. Bunun əvvəlki səbəbi o idi ki, Azərbaycan Ermənistana qaz verilməsini kəsmişdi. Ona görə bizə də qaz gəlmirdi. İndi isə bu, onunla əlaqədardır ki, Azərbaycanda qaz çatmır. Əgər o vaxt Azərbaycanda ildə 15 milyard kubmetr qaz hasil edilirdisə, indi o, 7 milyard kubmetrə enmişdir. Beləliklə, iki dəfə azalmışdır. O vaxt İran Astaradan Azərbaycana ildə 3 milyard kubmetr qaz verirdi. Zaqafqaziya respublikaları bunun vasitəsilə qazla təmin olunurdu. Həmin qaz kəməri SSRİ-nin xərci ilə çəkilmişdi və alınan qazın dəyəri SSRİ hökuməti tərəfindən valyuta ilə ödənilirdi. Xomeyni hakimiyyətə gəldikdən sonra həmin kəmər vasitəsilə qaz verilməsi dayandırıldı. İndi Azərbaycan müstəqillik əldə etdikdən sonra həmin qaz kəməri işləyir və onun vasitəsilə 3 milyard kubmetr əvəzinə ildə 1 milyard kubmetr qaz verilir. İranda olarkən bizə dedilər ki, Azərbaycana verilən qazın pulu hələ ödənilməyib. Onlar belə hesab edirlər ki, Azərbaycan Respublikası İrana borcludur və bu borcu nə vaxtsa ödəməlidir.

Bütün bu məsələləri bilmək lazımdır. Azərbaycanın iqtisadiyyatını, Naxçıvanın iqtisadiyyatını bilmədən siyasətlə məşqul olmaq, hakimiyyətə can atmaq əbəs işdir. İndi Azərbaycanda qaz təchizatı sahəsində vəziyyət çox çətindir. Ona görə də yaxın bir dövrdə, ola bilsin ki, 5-10 ilə Azərbaycandan Naxçıvana qaz gəlməsi mümkün olmayacaq. Deməli, Naxçıvanın qaz təchizatını biz İran İslam Respublikası vasitəsilə həyata keçirməsək, bu yaxın vaxtlarda Naxçıvana qaz gətirmək mümkün olmayacaq. Bu, tək bizim üçün yox, gələcək nəsillər üçün də böyük əhəmiyyətli məsələdir. Ona görə də bu işlə məşğul olmağı mən özümə şərəf hesab edirəm. Əgər vaxtilə Naxçıvana qaz çəkilməsində mənim xidmətim olubsa, indi də bu işi həll etməyi mən özümə borc bilirəm. Amma mən bilirəm ki, bu məsələnin həll olunması çox çətindir. Əvvəla, belə bir addım atılmışdır. Lakin bir nəticə verməmişdir.

Bu barədə danışıqlarımız çox gərgin oldu. Ələsgər Sadiqov və başqa şəxslər mənim yanımda idilər. Xoydan Culfayadək çəkiləcək qaz kəmərinin uzunluğu 90 kilometr olacaq. Azərbaycan söz vermişdir ki, bunun üçün lazım olan boruları alıb verəcək, kəmərin çəkilməsi və Naxçıvana verilən qazın pulunu ödəyəcək. İndi Azərbaycanın belə bir imkanı yoxdur. Mən bilirəm ki, bu boruları o vaxt Ukraynadan, Uraldan alırdıq, çox hissəsini isə Qərbi Almaniyadan və Avstriyadan gətirirdik. İndi Azərbaycan nə Ukraynadan boru ala bilər, nə də xaricdən. Valyuta ilə boru almağa Azərbaycanın imkanı yoxdur. Ona görə də bu məsələni İran İslam Respublikasının üzərinə qoymaq lazım idi. Bu barədə çox geniş və gərgin söhbətlər oldu. Ağazadənin özü də Xoyludur, bizə, Naxçıvana və Azərbaycana çox yaxın bir adamdır. O, iki dəfə nazirliyin məsul işçiləri ilə məsələni müzakirə etdi və bir daha Prezident Haşimi Rəfsəncani ilə məsləhətləşdikdən sonra buna razılıq verdi. Ancaq dedi ki, bu qaz kəmərinin çəkilməsi üçün üç il vaxt lazımdır. Mən də cavabında dedim ki, bizə lazımdır ki, həmin kəmər üç ilə yox, 5-6 aya çəkilsin. O gülərək dedi ki, ağayi Heydər Əliyev, bunu başqa adam desəydi, mən təəccüb etməzdim. Siz təcrübəli adamsınız və bilirsiniz ki, bu qaz kəmərini qısa bir müddətdə çəkmək olmaz. Xeyli götür-qoy etdikdən sonra biz qərara gəldik və bu protokolda da yazılıb ki, həmin qaz kəməri bir il müddətində çəkiləcək və Culfada bizə təhvil veriləcək. Kəmərin bütün çəkilmə xərcləri İran İslam Respublikasının üzərinə düşəcək. Axırda Ağazadə dedi ki, siz bilməlisiniz ki, bunu bir il ərzində görmək üçün mən gərək Məşhəd ostandarlığının ərazisində olan və artıq istifadəyə buraxılmış boruları oradan bura gətirəm və bu işi elə sürətlə aparam ki, qaz kəməri protokolda göstərilən vaxtda hazır olsun.

İndi gəlin baxaq görək bu qaz kəməri neçəyə başa gələcək? Biz doktor Vilayəti ilə danışıqlar aparanda kredit məsələsini də onun qarşısına qoymuşduq. O mənə dedi ki, biz ümumiyyətlə kredit vermirik. Ancaq sizə elə yardımlar edəcəyik ki, o, kreditdən də qiymətli olsun. Sonra isə biz bu protokolu imzalayanda mənə dedi ki, bu qaz kəmərinin bizim ərazimizə çəkilməsinin xərci 50 milyon dollardır. Cavabında mən dedim ki, siz bizə qaz kəməri çəkdiniz. Lakin bizim onun pulunu ödəmək imkanımız yoxdur. Onlar bizə dedilər ki, bizim də imka-

nımız məhduddur. Bizdə 8 il müharibə gedib, zəlzələ olub. Bizim o qədər çətinliklərimiz var ki, ancaq necə bir din qardaşı kimi, necə bir can qardaşı kimi biz sizə kömək edirik. Dedilər ki, Naxçıvanda qaz şəbəkəsi var, orada bir şirkət yaradaq, sizə ildə 350 milyon kubmetr (bu Naxçıvanın bir illik tələbatıdır, günə bir milyon kubmetr) qaz verək. Ancaq o qazı biz özümüz satıb pulunu götürəcəyik. Biz buna razı olduq. Amma mən məsələ qoydum ki, biz böyük çətinlik içindəyik, qarşıdan qış gəlir, qaz isə 12 aydan sonra gələcək. Bunun üçün çox sağ olun. Bəs indi nə edək? Mən məsələ qaldırdım ki, bizə ayda 300 ton maye qaz versinlər. Çox götür-qoydan sonra Naxçıvana ayda 100 ton maye qaz verilməsinə razılıq verdilər. Biz bu qazı avqustun axırından almalıydıq. Lakin gecdir. Biz gərək gələn kimi bunları həll edəydik, nümayəndələri göndərəydik ki, qazın alınması təmin olunaydı.

İkinci məsələ elektrik enerjisinin alınmasıdır. İran tərəfi 40 meqavat elektrik enerjisi verməyə razılıq verib.

Bizim ümumi tələbatımız 120 meqavatdır. Lakin hələlik 40 meqavat bizim tələbatımızın bir hissəsini ödəyəcək. Ancaq burada da məsələ ondan ibarətdir ki, birincisi, icazə verilməlidirlər ki, biz onu bağlayaq, ikincisi, o elektrik enerjisini bizə verməlidirlər, üçüncüsü isə heç kəsə müftə elektrik enerjisi verilmir. Bəs, bunun əvəzi necə ödəniləcək? Yenə də mən dedim ki, onun əvəzini ödəməyə bizim imkanımız yoxdur. Onda başqa bir vasitədən istifadə etdik. İndi Azərbaycan Respublikası nəinki özünü elektrik enerjisi ilə təmin edir, hətta Gürcüstana və Ermənistana da elektrik enerjisi satır. Ona görə də Azərbaycan bizi təmin etmək üçün başqa yerlərdən İrana elektrik enerjisi verə bilər. Ancaq siz bunun texniki cəhətini bilməlisiniz. Parsabad tərəfindən yüksək gərginlikli elektrik xətti çəkilir. Onun vasitəsilə Azərbaycandan İrana elektrik enerjisi verilə bilər. Biz istəyirik ki, oktyabr ayınadək bu xətti çəkək və elektrik enerjisi alaq. Əvəzini isə yalnız bir ildən sonra vermək olar. Ona görə də biz protokolda yazdıq və onlar da razılaşdılar ki, oktyabr ayından etibarən əgər biz o xətti çəksək, transformatoru quraşdıra bilsək, elektrik enerjisi ala bilərik.

Protokolda olan razılaşmalardan biri də Azərbaycandan Naxçıvana İran ərazisindən keçən yolun çəkilməsidir. Ermənistan ərazisindən ke-

çən avtomobil yolu bir neçə ildir ki işləmir, dəmir yolunun aprel ayından bağlanması isə muxtar respublikanın tam blokadaya alınmasına gətirib çıxarmışdır. Ona görə də biz İranda bu məsələni xüsusi müzakirə etdik. İran İslam Respublikasının yol nəqliyyat naziri ilə xüsusi görüşlərimiz oldu. Həmin görüşlər zamanı bu məsələlər müzakirə olundu və nəhayət, biz razılıq əldə edə bildik. Yəni, bizim əsas məqsədimiz odur ki, Naxçıvandan Azərbaycana İran ərazisindən gedən yol qısa olsun. Bunun üçün də vaxtilə müzakirə edilmişdir ki, Azərbaycandan yol Cəbrayıl rayonunun ərazisinə qədər gəlsin, oradan Xudafərin körpüsündən İrana keçsin. İran ərazisindən təxminən 155 kilometr məsafədə gəlib Culfaya çıxsın. Bu məsələ yeni məsələ deyil. İndi artıq razılıq alındı. Bizə məlumat verdilər ki, o 155 kilometr yolun təxminən 70 kilometri asfaltlanıb. Qalan hissəsi isə asfaltla örtülməkdədir. Amma həmin sahənin də vəziyyəti yaxşıdır, bizim yük maşınları rahat gedib-gələ bilirlər. Protokolda qeyd edildi ki, bu yoldan istifadə olunmasına başlanılsın. Culfada bizim keçid məntəqəsi, hər iki tərəfdən gömrük xidməti var. Xudafərin körpüsü üzərində həm Azərbaycan tərəfindən, həm də İran tərəfindən keçid məntəqəsi yaradılmalıdır və gömrük xidmətləri təşkil olunmalıdır ki, biz bu yoldan istifadə edə bilək. Beləliklə də, Bakı ilə Naxçıvan arasındakı yol 500-550 kilometr təşkil edər ki, bu da yük daşınmalarını xeyli yüngülləşdirər. Bu məsələ həll olunub və biz gərək təcili tədbirlər görək. Əgər millət vəkilləri bu protokolu təsdiq etsələr, belə bir fikir var ki, maye qazın alınması, burada qaz şirkətinin yaradılması, həm də yol məsələlərinin həll olunması üçün baş nazirin birinci müavini Ə. Sadiqov müəyyən nümayəndə heyəti ilə dərhal İrana getməlidir.

Yol barəsində bizim bir problemimiz də var. Yol deyəndə biz avtomobil yolu ilə yanaşı, istəyirik ki, dəmir yolunun da İran ərazisindən çəkilməsinə nail olaq. Bunun üçün Ordubad ərazisindən bir körpü tikilməlidir ki, Bakıdan Naxçıvana qatarlar həmin yolla gəlsin. Onda biz artıq Ermənistandan asılı olmayacağıq. Bu, həm də İrana gedən yüklərin maneəsiz gedib və ünvanına çatmasına şərait yaradar. İndi müəyyən texniki axtarışlar qurtarandan sonra dəmir yolunun tikilməsinə başlanılsın.

İndi Şahtaxtı ilə Poldəşt arasında müvəqqəti körpü tikilir. Onun tikintisini İran İslam Cümhuriyyəti öz üzərinə götürüb. Orada daimi körpünün tikilməsi haqqında biz yol nəqliyyat naziri ilə danışıqlar apardıq. Razılıq əldə olundu ki, onlar bu körpünü tikəcəklər. Mən qeyd etdim ki, hələ çar Rusiyası vaxtında Şahtaxtıdan İrana dəmir yol körpüsü olub. Son 70 il ərzində bu körpü dağıdılıb. İndi İranla əlaqələrimizin genişləndiyi bir vaxtda belə bir daimi körpünün, xüsusən dəmiryol körpüsünün tikilməsi vacibdir. Onlar da buna razı oldular və bu məsələnin həllini öz üzərlərinə götürdülər. Bu da protokolda öz əksini tapdı.

Protokolda bir neçə mühüm razılıqlar da öz əksini tapıb. Bu, Naxçıvan ilə İran İslam Respublikası arasında iqtisadi əlaqələrin genişləndirilməsi, birgə şirkətlərin yaradılması, İran şirkətlərinin Naxçıvanda fəaliyyət göstərməsi, Naxçıvanda olan şirkətlərin, kooperativlərin və assosiasiyaların isə İranda sərbəst fəaliyyət göstərməsi, gömrük siyasətinin liberallaşdırılması, ümumiyyətlə, ticarətin genişləndirilməsi və sairdir. Lakin biz çalışmalıyıq ki, həm İran ilə, həm Türkiyə ilə, həm də başqa ölkələrlə əlaqələrimizdə öz iqtisadiyyatımıza zərər verən addımlar atmayaq. Eyni zamanda hamı bunu dərk eləməlidir ki, biz iqtisadiyyatı tamamilə inkişaf etdirmək üçün sərbəst iqtisadi zona kimi gərək ticarətin genişlənməsinə yol açaq. Ticarət nə qədər geniş olsa, nə qədər sürətlə inkişaf etsə, bizim Naxçıvandakı iqtisadi vəziyyət də get-gedə yaxşılaşacaq. Ona görə də protokollarda həm sərhədyanı ticarətin, həm Naxçıvanın azad iqtisadi zona olduğuna görə ümumi ticarət əlaqələrinin inkişaf etdirilməsi və bunların sərbəst aparılması üçün gömrüyün liberallaşdırılması və başqa tədbirlər nəzərdə tutulub. Protokolda Naxçıvan ilə İran İslam Respublikası arasında mədəni, elmi, təhsil, nəşriyyat sahəsində əlaqələrin genişləndirilməsi, bizim tələbələrin İranda, İran tələbələrinin isə Naxçıvanda oxumaları nəzərdə tutulub. Ən nəhayət, biz Tehrana gələndən iki gün öncə Azərbaycanın xarici işlər naziri Tofiq Qasımov İranda olmuşdur. Onun bağladığı müqavilə əsasında Naxçıvanda İran İslam Respublikasının konsulluğu açılmalıdır. Bizim üzərimizə düşən vəzifə ondan ibarətdir ki, İran İslam Respublikası konsulluğunun açılması üçün təcili yer ayıraq.

Türkiyə ilə konsulluq əlaqələri haqqında da protokol imzalanıb. Mən avqust ayında Türkiyədə olarkən Baş nazir Süleyman Dəmirəl dedi ki, artıq belə bir razılıq var. Ona görə də biz Nazirlər Kabinetinə göstəriş vermişik ki, təcili olaraq yer ayırsınlar.

Nəhayət, biz bütün bu məsələlərlə yanaşı, Naxçıvanı böhrandan çıxarmaq üçün İran İslam Respublikasının bizə yardımı məsələlərini qarşıya qoyduq. Bu barədə də razılıq əldə olundu və bu da protokolda öz əksini tapıb. Protokola görə 9 ay müddətində İran İslam Respublikasından Culfa keçid məntəqəsi vasitəsilə Naxçıvana 90 min ton daş kömür, 50 min ton mazut, 30 min ton dizel yanacağı, 15 min ton benzin, 25 min ton un, 15 min ton kartof, 5 min ton şəkər tozu, 15 min ton soğan, 1,5 min ton makaron, 18 min ton bitki yağı göndərilməsi nəzərdə tutulub.

Bu barədə biz ciddi danışıqlar apardıq, xahiş etdik və əsas tutduq ki, Azərbaycan hökuməti İran İslam Respublikasına məktub verib ki, Naxçıvanın təchizatını təmin etmək üçün yol bağlı olduğuna görə bu miqdarda həm ərzaq, həm də yanacaq İrandan Naxçıvana verilsin və Azərbaycan İrana ya dəniz vasitəsilə, ya da sərhəddin başqa münasib yerlərindən bunun əvəzində eyni təyinatlı mal və yaxud da bunu əvəz edən başqa mallar verəcək. Protokolda bu bənd Azərbaycan hökumətinin İran hökuməti qarşısında götürdüyü öhdəlik əsasında tərtib edilir.

“Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami” fondu ilə Naxçıvan arasındakı protokol tamamilə bu fondun Naxçıvana yardımı əsasında qurulub. Yəni ildə 65 milyon ədəd kərpic istehsal edəcək zavodun tikilməsini, Naxçıvanda olan və 20 milyon kərpic buraxmaq gücünə malik olan zavodun yenidən qurulmasını, Culfa karbon qazı zavodu bazasında saatda 12 min butulka Nüşabə adlı sərinləşdirici içki istehsal edən, Şərur konserv zavodunda saatda 2 min paket meyvə şirəsi buraxan xətlər, habelə “Badamlı” mineral sular bazasında illik gücü 25 milyon butulka olan yeni xəttin və tutumu 0,5 və ya 1 litr olan plastik qab istehsal edən bir sexin quraşdırılmasını öz üzərinə götürüb.

Bundan başqa, mən Rəfiqdustdan xahiş etdim və bizim xahişimiz nəzərə alınaraq protokokda yazıldı ki, Naxçıvanda müasir tipli böyük bir məscid tikilsin. Onlar xahiş etdilər ki, Naxçıvanda öz nümayəndələri üçün yer ayrılsın və torpaq verilsin ki, nümayəndəlik üçün böyük

bir bina tikilsin. Biz buna razılıq verdik və bu da protokolda öz əksini tapdı. Beləliklə, bu iki protokolda Naxçıvanın gələcək, sosial-iqtisadi inkişafı üçün çox mühüm məsələlər həll olundu.

İndi hər şey bizdən asılıdır ki, bu məsələlərin üstünə düşək. Hər bir bəndlə əlaqədar olaraq biz ayrı-ayrı danışıqlar aparmalıyıq. Bunun üçün bütün nümayəndələr İrana getməli, məsələlərin konkret praktiki həll olunması ilə məşğul olmalıdırlar. Xüsusən kommunikasiya məsələlərinin. Güman edirəm ki, biz bu məsələnin müzakirəsini qurtaran kimi təcili olaraq nümayəndələri təyin edəcəyik ki, gedib ayrı-ayrı sahələr üzrə məsələlərin konkret həlli ilə məşğul olsunlar.

İran İslam Respublikasında olanda bizim nümayəndə heyəti üçün ən böyük hadisələrdən biri də o oldu ki, biz müqəddəs Məşhəd şəhərinə getdik, İmam Rzanın qəbrini ziyarət etdik və bizim hamımız bir müsəlman kimi özümüzü bu barədə çox məmnun və xoşbəxt hesab etdik. Eyni zamanda, Məşhəd şəhəri yanında böyük İran şairi Firdovsinin qəbrini, Təbrizdə şəhidlər qəbiristanlığını, böyük Azərbaycan şairi Əfzələddin Xaqaninin, Şəhriyarın qəbirlərini də ziyarət etdik. Məşhəddə İranın din xadimləri Ayətullah Təbəzzi, Ayətullah Mələk Quti, Məşhədin, Təbrizin, Şərqi Azərbaycanın ostandarlıqlarının rəhbərləri ilə görüşüb söhbət etdik. Məşhədin yaxınlığındakı müasir dərman fabrikinə getdik, bütün texnoloji proseslərlə tanış olduq. Təbriz Universitetinin professor və müəllimləri ilə görüşdük. Təbrizdəki böyük traktor zavodunda da olduq. Biz Təbrizdə belə bir böyük, müasir traktor zavodunun olduğunu təsəvvür edə bilmirdik. Təbrizdə yun zavodunda da olduq.

Ümumiyyətlə, bu səfər haqqında məruzəmi qurtararkən bir daha qeyd etmək istəyirəm ki, biz bütün səviyyələrdəki görüşlərdə Azərbaycana, xüsusən Naxçıvana çox böyük hörmət və ehtiram, məhəbbət və maraq gördük.

İranda biz mətbuat konfransları da keçirdik. Çünki müxbirlər çox maraqlanırdılar. Bu görüşlərdə də biz ümumi Azərbaycan mövqeyindən bütün suallara cavab verdik və öz fikirlərimizi bildirdik. Bütün sahələrdə Azərbaycan ilə İran arasındakı əlaqələrin genişlənib inkişaf etməsi fikrini söylədik. Burada Naxçıvan Muxtar Respublikasının yerini və rolunu da qeyd etdik.

Mən istərdim ki, avqust ayının 10-dan 14-dək Türkiyəyə etdiyimiz səfər haqqında da sizə qısa məlumat verim. Mən Türkiyəyə Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə getmişdim. Avqust ayının 10-da İqdıra vilayət statusunun verilməsi mərasimi keçirilirdi. Onun vilayət olması haqqında çoxdan söhbət gedirdi. İqdır Türkiyənin Naxçıvana ən yaxın olan bölgəsidir. İqdırlılar uzun illər idi ki, bu məsələni qaldırmışdılar. Lakin buna nail ola bilməmişdilər. Son aylarda, xüsusilə Süleyman Dəmirəlin bu bölgəyə göstərdiyi xüsusi diqqət nəticəsində Türkiyə hökuməti qərar qəbul etmişdir. Qars vilayəti yaradılmışdır, biri İqdır vilayəti, o biri isə Ağrı vilayəti. Türkiyənin adət və ənənələrinə görə bu vilayətlərin təşkil olunması böyük bir siyasi-ictimai dövlət mərasimi kimi keçirilirdi. İqdır bizə qonşu olduğuna görə Süleyman Dəmirəl məni də bu mərasimdə iştirak etməyə dəvət etmişdi. Onun dəvəti ilə orada olduq. Süleyman Dəmirəl ora öz ətrafında olan bütün hökumət üzvləri ilə gəlmişdi. Baş nazirin birinci müavini Erdal İnönü, dövlət nazirləri İsmət Səzgin, Cavid Çağlar, Əhməd Ceyhun, bir neçə başqa nazirlər, millət vəkilləri, qonşu vilayətlərin nümayəndələri gəlmişdilər.

Orada mərasim çox böyük təntənə ilə keçdi. Proqramda əvvəldən bizim çıxışımız nəzərdə tutulmamışdı. Ancaq Baş nazir Süleyman Dəmirəli çıxışa dəvət edəndə o, məndən xahiş etdi ki, bir yerdə çıxış edək. Biz tribunaya qalxdıq. Süleyman Dəmirəl çıxış etdi, sonra məni təqdim etdi. Mən də çıxış etdim. Bu çıxışda da, sonrakı danışıqlarımızda da, mərasimdən sonra verilən ziyafət zamanı da nitq söyləmək lazım gəldi. Danışıqlarımızın hamısında da Azərbaycanla Türkiyə arasındakı münasibətlərin genişlənməsi və inkişaf etməsi haqqında söhbət getdi. Biz şübhəsiz ki, burada Naxçıvanın bir sərhəd bölgəsi kimi xüsusi rolunu qeyd etdik. Sonra Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə onunla birlikdə Qarsa getdik. Qarsda da böyük mitinq oldu. O mitinqdə də mən Süleyman Dəmirəlin dəvəti ilə iştirak etdim.

Sonra onunla Türkiyə hökumətinin digər rəhbərləri, nazirləri ilə birlikdə Ankaraya uçduq. Süleyman Dəmirəl dəvət etdi ki, gedib orada bizim Naxçıvanın Türkiyə ilə bağlanmış protokolu ilə əlaqədar məsələlərin bəzilərinin həll olunmasının ləngidiyinə görə o məsələlərə yerindəcə baxaq.

Ankarada olarkən Süleyman Dəmirəllə xüsusi görüşlərimiz oldu, ətraflı söhbət etdik və bu söhbətdə də Azərbaycanla Türkiyənin əlaqələrinin inkişaf etməsi, genişlənməsi, bu baxımdan Türkiyənin gələcəkdə də Naxçıvana yardım etməsi, 24 martda bağlanmış protokolun bütün maddələrinin həyata keçməsi haqqında danışıqlar oldu. O, bir neçə nazirə göstəriş verdi.

Bizim bu kreditin açılma prosesi cürbəcür banklardan keçir. Orada bank sistemi çox ciddi və mürəkkəb olduğuna görə bu, müəyyən vaxt tələb edir. Ona görə də Süleyman Dəmirəl dövlət naziri Əhməd Ceyhuna göstəriş verdi ki, o, bu işlə məşğul olsun. “Qızıl Ay” cəmiyyətinin prezidenti Kamal bəylə də görüşdüm. Süleyman bəy “Qızıl Ay” vasitəsilə bizə əlavə yardımlar göstərilməsi barədə tapşırıqlar verdi.

Mən belə hesab edirəm ki, bu səfər də Naxçıvan üçün, Türkiyə ilə Azərbaycan arasında münasibətlərin inkişafı üçün çox lazımlı səfər idi. Xüsusən Naxçıvana yardım işini təşkil etmək, kreditlə əlaqədar olaraq çətinlikləri aradan qaldırmaq üçün lazımlı idi.

Dünən Baş nazir Şəmsəddin Xanbabayev məruzəsində göstərdi ki, kreditlə əlaqədar ərzaq məhsulları artıq bizə gəlməkdədir. Bu, Türkiyə ilə apardığımız danışıqların və imzalanmış protokolun real nəticəsidir.

Çıxışıma yekun vurarkən onu qeyd etmək istəyirəm ki, Naxçıvanın İran və Türkiyə ilə əlaqələrinin hamısı Azərbaycanın İran və Türkiyə ilə olan əlaqələrinin tərkib hissəsidir. Qoy heç kəs burada cürbəcür şayiələr yayıb camaatı aldatmasın ki, guya biz xüsusi işlər görürük. Mən dəfələrlə demişəm və bir də deyirəm ki, Naxçıvan Muxtar Respublikasının bu ağır dövründə kim Naxçıvana hansı yardımı göstərə bilərsə biz onu bəyənməliyik, onu alqışlamalıyıq və kömək göstərməliyik. Bu baxımdan indi Naxçıvana Türkiyənin və İranın xüsusi yardımını başqa cür hallandırmaq, onlara başqa cür don geydirmək, başqa rəng vermək sadəcə olaraq naxçıvanlılara xəyanət etməkdir. Ona görə də mən bu cürbəcür şayiələri qərəzli, heç bir əsası olmayan şayiələr kimi tamamilə rədd edirəm və bildirmək istəyirəm ki, muxtar respublikanın Ali Məclisi və onun Sədri burada heç bir xüsusi siyasət aparmırlar. Bunlar hamısı Azərbaycanın xarici siyasətinin tərkib hissəsidir.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, biz Türkiyədən kredit alandan bir az sonra cürbəcür şayiələr yaydılar, qəzetlərdə materiallar verməyə çalışdılar ki, guya bu kreditin 10 milyonunun hamısı bir firmaya verilib. Əhməd Qaraca (Türkiyədəki Azərbaycan Milli Mərkəzinin Baş katibi - **tərtibçi**) nə bilirdi ki, Naxçıvanda nə var. O, burada heç olmayıb. Lakin qəzetdə məqalə (Əhməd Qaracanın "Müxalifət" qəzetinin 1992-ci il 30 avqust tarixli 82-ci nömrəsində dərc olunmuş məqaləsi nəzərdə tutulur. Müəllif böhtan və şayiələrə əsaslanaraq Naxçıvan-Türkiyə münasibətlərinə kölgə salmağa çalışır - **tərtibçi**) verib, həmin məqalədə Baş nazir Süleyman Dəmirəlin və mənim də adımı çəkibdir. O bizim bu xeyirxah işimizi ləkələmək üçün qərəzli mövqedən çıxış edib, bəzi qəzetlər dərc edib, cürbəcür şayiələr yayıblar. Bu şayiələrlə əlaqədar olaraq mən xahiş etdim ki, bizə arayış versinlər. O kreditdən bizə cəmi 10 milyon dollar ayrılıb. Əgər kredit almaq çətin idisə, indi görünür ki, onu xərcləmək daha çətindir. Əgər bu çətinliklər bəzən daxili sistemin mürəkkəbliyi ilə əlaqədardırsa, bir tərəfdən də bəzi adamlar bunun əleyhinə çıxırlar. Nəyə görə, nə səbəbə? Aydınlaşdırmaq çox çətindir. Ancaq bir şey aydın olur ki, o adamlar, görünür, qara fikirli, qara qəlbli adamlardır. Onlar heç bir yaxşı işi istəmirlər. İstəmirlər ki, Naxçıvana bir yerdən bir kömək gəlsin. Mən bunu ancaq belə qiymətləndirə bilərəm. Mən arayış almışam və sizə çatdırıram ki, buraya gələn şəkər və düyü "Bem dış" anonim xarici ticarət şirkəti vasitəsilə gətirilib. Çiçək yağı və marqarin "İnva iç və dış" şirkəti vasitəsilə, ət, kərə yağı "Eteks" anonim şirkəti vasitəsilə, un və buğda "Ekmin dış" anonim ticarət şirkəti vasitəsilə və yalnız makaron və toyuq əti "Matsan dış" firması vasitəsilə gətirilib.

Mən sizə dedim ki, Türkiyədə olarkən Baş nazir Dəmirəl də, xüsusən bu işlərlə məşğul olan Əhməd Ceyhun da çox təəccüblənib deyirdilər ki, biz sizə kömək edirik, amma sizin adamlar cürbəcür şayiələr yayırlar. Mən belə hesab edirəm ki, bu cür şayiələr yayan qəzetlərdə materiallar dərc etdirən adamlar Naxçıvana xeyir yox, böyük zərər vuran adamlardır. Bir daha qeyd edirəm, Naxçıvan azad iqtisadi zonadır, kim Naxçıvana nə gətirə bilərsə, gətirsin. Ticarətin qaba-

ğını almaq lazım deyil, əksinə, onu genişləndirmək lazımdır. Lakin bu ticarət işlərində vəzifəsindən sui-istifadə edən adamların qarşısı alınmalıdır. Əgər "Qızıl Ay" vasitəsilə, İranın "Hilal Əhmər" cəmiyyəti vasitəsilə gələn yardımlardan kimsə istifadə edib, onu sataraq qazanc əldə etmək istəyirsə və yaxud kredit vasitəsilə alınan malları kimsə qoyulan qiymətlərdən baha sataraq qazanc götürmək istəyirsə, onlar cinayətkardırlar. Belələrinə qarşı qətiyyətlə mübarizə aparmaq lazımdır.

Eyni zamanda, yalan və şayiələrə də uymaq lazım deyil. Hamı gərək bu işdə düzgün mövqe tutsun, təmizlik, düzlük, saflıq uğrunda mübarizə aparsın, xalq üçün bu ağır, çətin dövrdə düşdüyümüz vəziyyətdən çıxmaq üçün öz səyini əsirgəməsin.

Sonra Heydər Əliyev deputatların suallarına cavab verdi.

Müzakirə olunan məsələlərə dair müvafiq qərarlar qəbul edildi.

*"Şərq qapısı" qəzeti, 26 sentyabr 1992-ci il*

## Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin İran İslam Respublikasına rəsmi səfəri və Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 1992-ci il avqustun 24-də Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə əməkdaşlıq protokolları haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
QƏRARI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti İran İslam Respublikasının xarici işlər naziri doktor Əli Əkbər Vilayətinin dəvəti ilə bu il avqust ayının 22-dən 26-dək İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur.

Səfər zamanı Heydər Əliyev İran İslam Respublikasının rəhbəri Ayətullah Seyid Əli Xameneyi, İran İslam Respublikasının Prezidenti

Haşimi Rəfsəncani, İran İslam Respublikası Milli Məclisinin Sədri Nateq Nuri ilə görüşmüş və danışıqlar aparmışdır.

Bundan başqa Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İran İslam Respublikası xarici işlər naziri doktor Əli Əkbər Vilayəti, İranın yol və nəqliyyat naziri Səidi Kiya, kooperasiya naziri Şafeyi, energetika naziri Zəncane, neft və qaz sənayesi naziri Qulamrza Ağazadə, rabitə naziri Ğərrazi, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust və İran İslam Respublikası "Hilal Əhmər" cəmiyyətinin sədri Vəhid Dəstgərdi ilə görüşmüş və danışıqlar aparmışdır.

Görüşlər və danışıqlar zamanı Heydər Əliyev Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etdikdən sonra qarşılaşdığı çətinliklər, uzun sürən erməni təcavüzü ilə əlaqədar vəziyyət, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi böhran içərisində olması və bütün bunlarla bağlı həyata keçirilən tədbirlər haqqında məlumat vermişdir. Naxçıvan Muxtar Respublikasının uzun müddət iqtisadi və informasiya blokadasında yaşadığını, xüsusilə elektrik enerjisi, yanacaq və ərzaq qıtlığı nəticəsində əhalinin yaşayış tərzinin daha da pisləşməsini bildirmişdir.

Dostluq, mehribanlıq və qarşılıqlı anlaşma şəraitində keçən danışıqlar zamanı İran İslam Respublikasının rəhbərləri və nazirləri Azərbaycan Respublikasına, o cümlədən Naxçıvan Muxtar Respublikasına hər vasitə ilə kömək göstərməyə hazır olduqlarını bildirmişlər.

Rəsmi danışıqlar nəticəsində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə Əməkdaşlıq protokolları imzalanmışdır.

Protokolları Naxçıvan Muxtar Respublikası tərəfindən Ali Məclisin Sədri Heydər Əliyev, İran İslam Respublikası tərəfindən xarici işlər naziri doktor Əli Əkbər Vilayəti, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust 1992-ci il avqust ayının 24-də Tehran şəhərində imzalamışlar.

İmzalanmış protokollarda qarşılıqlı siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrin genişləndirilməsi, muxtar respublikanı böhran vəziyyətindən çıxarmaq və Naxçıvan əhalisinə kömək göstərmək məqsədilə bir çox məsələlər barədə razılıq əldə edilmişdir.

Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi böhranından çıxarmaq üçün Araz su qovşağı rayonunda tikilən xətt və transformator yarımstansiyası vasitəsilə oktyabr ayının axırlarından etibarən İran İslam Respublikasından Naxçıvana 40 meqavat gücündə elektrik enerjisi verilməsi nəzərdə tutulmuşdur. Alınan elektrik enerjisinin əvəzi Azərbaycanın Horadiz və Astara rayonlarından İran İslam Respublikasına veriləcəkdir.

Naxçıvan Muxtar Respublikasının xahişi nəzərə alınaraq, muxtar respublikanın qaz ehtiyatlarını təmin etmək məqsədilə Xoy-Culfa magistral qaz kəmərinin tikintisini İran İslam Respublikasının Neft və Qaz Sənayesi Nazirliyi öz üzərinə götürmüşdür. Qaz kəməri tikintisinin bir il müddətinə başa çatdırılması və bu kəmər vasitəsilə Culfa sərhəd məntəqəsindən Naxçıvana ildə 360 mln.$m^3$ təbii qazın verilməsi razılaşdırılmışdır. Bundan əlavə qaz kəməri istifadəyə verilənədək Naxçıvana ayda 100 ton maye qaz verilməsi barədə razılıq əldə olunmuşdur,

Yükdaşıma sahəsindəki çətinlikləri nəzərə alaraq avtomobillərin Naxçıvan-Bakı və əks istiqamətdə İran İslam Respublikası ərazisindən keçməklə qısa məsafədən - Culfa-Xudafərin yolu ilə hərəkət etməsi razılaşdırılmış, bu məqsədlə hər iki tərəf lazımi tədbirlər görəcəkləri və tez bir zamanda bu yoldan istifadə olunması razılığına gəlmişlər.

Muxtar respublika rəhbərliyinin xahişinə cavab olaraq İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi bildirmişdir ki, Ordubad-Mincivan dəmir yolunun İran İslam Respublikası ərazisindən keçməklə tikintisinin texniki cəhətdən öyrənilməsi və bu işin başa çatdırılması üçün tədbirləri həyata keçirəcəkdir.

İran İslam Respublikası Qərbi Azərbaycanın Poldəşt və Naxçıvanın Şahtaxtı kəndi yaxınlığında Araz çayı üzərindəki müvəqqəti körpünün tikintisinin İran İslam Respublikası tərəfindən qısa müddətdə başa çatdırılması və əsas körpünün tikintisi üçün texniki-axtarış işlərinin sürətləndirilməsini qərara almışdır.

Naxçıvan dindarlarının İslamın müqəddəs yerlərini ziyarət etmək üçün Naxçıvan-Məşhəd-Naxçıvan təyyarə reysinin açılması və Naxçıvan-Bakı-Naxçıvan təyyarə reyslərinin yeni qısa marşrutla - Mincivan-

Ordubad rayonları arasındakı 50 km-lik məsafədə İran İslam Respublikasının hava koridorundan istifadə etmək razılığı əldə olunmuşdur.

İran İslam Respublikası Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq və yanacaq ehtiyaclarını ödəmək məqsədilə 9 ay müddətində Culfa sərhəd məntəqəsindən muxtar respublikaya 90,0 min ton daş kömür, 50,0 min ton mazut, 30,0 min ton dizel yanacağı, 15,0 min ton avtobenzin, 1,0 min ton ağ neft, 25,0 min ton un, 15 min ton kartof, 5 min ton şəkər tozu, 5,0 min ton soğan, 1,5 min ton makaron, 1,8 min ton bitki yağı göndərilməsinə razılıq vermişdir. Muxtar respublikaya veriləcək ərzaq və yanacaq məhsullarına aid məsələlərin Azərbaycan-İran iqtisadi-mədəni əlaqələr komissiyasında öz əksini tapacağı qeyd edilmişdir. Nəzərə alınmışdır ki, İrandan Naxçıvana göndəriləcək ərzaq və yanacaq mallarının əvəzində Azərbaycan Respublikası İran İslam Respublikasına müxtəlif mal-material verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə İranın "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti arasında imzalanmış protokola əsasən Babək rayonunun Çeşməbasar kəndi yaxınlığında illik gücü 65,0 milyon ədəd olan kərpic zavodunun tikintisini, həmin rayonda fəaliyyət göstərən kərpic zavodunun texnoloji avadanlıqlarını dəyişməklə illik gücünü 20,0 mln. ədəd kərpicə çatdırılmasını, Culfa karbon qazı bazasında gücü saatda 12 min butulka olan "Nüşabə" ("Pepsi-Kola") zavodunun tikintisini, Şərur konserv zavodunda gücü saatda 2,0 min paket olan meyvə şirəsi buraxan xəttin quraşdırılmasını, Badamlı mineral sular zavodu bazasında illik gücü 25,0 min ədəd butulka buraxacaq yeni xəttin və tutumu 0,5 - 1,0 litr plastik qab istehsal edən sexin quraşdırılmasını, həna sexinin tikintisini, alt trikotaj fabrikinə ildə 3,0 min ton iplik, 3,0 mln. metr rezin verilməsini "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu öz üzərinə götürmüşdür.

Bundan başqa, həmin fond Naxçıvan şəhərində müasir tələblərə cavab verən məscid tikəcəkdir.

Tərəflər razılığa gəlmişlər ki, İran İslam Respublikası gənclərinin Naxçıvanın ali və orta ixtisas məktəblərində, Naxçıvan gənclərinin isə İran İslam Respublikasının ali və orta ixtisas məktəblərində təhsil al-

maları üçün şərait yaradılsın, hər tərəf qarşı tərəfin televiziya verilişlərinin ayrı-ayrı proqramlarına baxmaları üçün lazımi tədbirlər həyata keçirsinlər.

İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında mədəniyyət, elm, incəsənət, nəşriyyat, turizm və idman sahələrində əlaqələrin genişləndirilməsini daimi diqqət mərkəzində saxlamaq nəzərdə tutulmuşdur.

Hər iki tərəf ticarət nümayəndəliklərinin, şirkətlərin, birgə müəssisələrin açılması, ticarət əlaqələrinin daha da genişləndirilməsi, gömrük siyasətinin sadələşməsi razılığına gəlmişlər.

Naxçıvan şəhərində İran İslam Respublikasının Baş Konsulluğunun açılmasının tezləşdirilməsi və bu məqsədlə Naxçıvan şəhərində Baş Konsulluq üçün müvafiq binanın ayrılması qərara alınmışdır.

Muxtar respublikanın nümayəndə heyəti səfər zamanı İran İslam Respublikasının Məşhəd və Təbriz şəhərlərində də olmuş, bir sıra rəsmi görüşlər keçirmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin İran İslam Respublikasına rəsmi səfəri və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin İran İslam Respublikasının rəhbərləri, nazirləri və digər rəsmi şəxsləri ilə apardığı danışıqlar bəyənilsin.

2. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 1992-ci ilin avqust ayının 24-də Tehran şəhərində imzalanmış Əməkdaşlıq Protokolu təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu arasında 1992-ci ilin avqust ayının 24-də Tehran şəhərində imzalanmış Əməkdaşlıq Protokolu təsdiq edilsin.

4. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə Əməkdaşlıq protokollarını Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrinin genişlənməsi və

daha da inkişaf etməsi üçün böyük əhəmiyyəti olan bir tarixi sənəd kimi qəbul edir və yüksək qiymətləndirir.

Ali Məclis qeyd edir ki, imzalanmış protokollara əsasən İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasına göstərəcəyi köməklik, muxtar respublikanın sosial-iqtisadi böhrandan çıxmasında, əhalinin həyat tərzinin yaxşılaşmasında mühüm rol oynayacaqdır.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikasının əhalisi adından İran İslam Respublikasına, İran İslam Respublikasının rəhbəri Ayətulla Seyid Əli Xameneyiyə, İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncaniyə, İran İslam Respublikası Milli Məclisinin Sədri Natiq Nuriyə, İran İslam Respublikasının xarici işlər naziri doktor Əli Əkbər Vilayətiyə, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdusta dostluq və qardaşlıq münasibətlərinə görə, Əməkdaşlıq Protokollarında nəzərdə tutulan bütün köməkliklərə görə dərin minnətdarlığını və təşəkkürünü bildirir.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, muxtar respublikanın aid nazirliklərinə, dövlət komitələrinə, baş idarələrinə tapşırılsın ki, Əməkdaşlıq Protokollarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

6. Naxçıvan Muxtar Respublikasında yaranmış gərgin sosial-iqtisadi vəziyyət nəzərə alınaraq, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, 1992-ci il avqust ayının 24-də Tehran şəhərində imzalanmış Əməkdaşlıq Protokolunun 15-ci maddəsində nəzərdə tutulmuş İran İslam Respublikasından Naxçıvan Muxtar Respublikasına veriləcək ərzaq və yanacaq mallarının təcili surətdə gətirilməsi üçün lazımi tədbirlər görsün.

7. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, "Azərbaycan Hava Yolları" konserninin, Azərbaycan Qaz Şirkətinin, Azərbaycan Dövlət Gömrük Komitəsinin, Azərbaycan Dövlət Yanacaq Komitəsinin, "Azərbaşenerji" İstehsalat Birliyinin, Azərbaycan-İran İşgüzar Əməkdaşlıq Şurasının, Azərbaycan Dəmir Yolu İdarəsi, Azərbaycan Sərhəd Qoşunları Komitəsi və Azərbaycan Respublikasının digər aidiyyəti nazirliklərinin mütəxəssisləri ilə İran İslam Respublika -

sının aid nazirliklərinin mütəxəssislərinin müvafiq vaxtlarda görüşlərini təşkil edib, protokolların icrasını təmin etsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetindən xahiş edilsin ki, protokolların icrası ilə əlaqədar Azərbaycan Respublikasının aid nazirliklərinin muxtar respublikaya lazımi köməklik göstərmələri barədə müvafiq qərarlar qəbul etsin.

9. Naxçıvan Şəhər Xalq Deputatları Məclisinə, onun icraiyyə komitəsinə tapşırılsın ki, Naxçıvan şəhərində İran İslam Respublikasının Baş Konsulluğu üçün müvafiq bina, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu üçün müvafiq bina və torpaq sahəsi ayrılmasını təmin etsin.

10. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, şəhər, rayon xalq deputatları məclislərinə, onların icraiyyə komitələrinə tapşırılsın ki, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında imzalanmış Əməkdaşlıq Protokollarının icrasını daim diqqət mərkəzində saxlasınlar və Ali Məclisə mütəmadi olaraq məlumat versinlər.

11. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 1992-ci il avqust ayının 24-də Tehran şəhərində imzalanmış Əməkdaşlıq Protokolları Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Ali Sovetinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunsun.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 18 sentyabr 1992-ci il*

## Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 1992-ci il avqust ayının 24-də Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə Əməkdaşlıq Protokolunun 13-cü maddəsinin həyata keçirilməsi tədbirləri haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

24 avqust 1992-ci ildə Tehran şəhərində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev və İran İslam Respublikası adından İran İslam Respublikasının xarici işlər naziri doktor Əli Əkbər Vilayəti tərəfindən imzalanmış Əməkdaşlıq Protokolunun 13-cü maddəsində göstərilmişdir ki, Naxçıvan Muxtar Respublikasının xahişinə uyğun olaraq İran İslam Respublikası Neft və Qaz Sənayesi Nazirliyi Naxçıvan Muxtar Respublikasının qaz ehtiyatlarını təmin etmək məqsədilə Xoy-Culfa qaz kəmərinin tikintisini öz üzərinə götürür. Naxçıvan Muxtar Respublikasına ildə 360 milyon $m^3$ (sutkada 1 mln. $m^3$) qaz verir. Qaz İran-Naxçıvan sərhəd məntəqəsində təhvil verilir. Naxçıvan Muxtar Respublikasında qaz təsərrüfatı, qazın ötürülməsi, paylanması və istifadəçilərə verilməsi İranın Naxçıvanda yaradılacaq şirkəti vasitəsilə həyata keçiriləcəkdir. Verilən qaz İran İslam Respublikasının Milli Qaz Şirkəti vasitəsilə istifadəçilərə satılır və qoyulan vəsait çıxarılır. Tərəflər razılaşmışlar ki, iki tərəfin müvafiq şirkətlərinin nümayəndələri bir ay ərzində müqavilələr hazırlasınlar.

Naxçıvanın maye qaza olan ehtiyacını nəzərə alaraq, İran İslam Respublikası Naxçıvana ayda yüz ton maye qaz verir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 24 avqust 1992-ci ildə Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə Əməkdaşlıq Protokolunun bu maddəsini tamamilə bəyənir və Naxçıvan Muxtar Respublikasının qaza olan ehtiyaclarını ödəmək üçün bu böyük tikintini öz üzərinə götürdüklərinə görə İran İslam Respublikasının hökumətinə, İran İslam Respublikasının Neft və Qaz Sənayesi Nazirliyinə dərin minnətdarlığını bildirir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 24 avqust 1992-ci il tarixdə Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə Əməkdaşlıq Protokolunun 13-cü maddəsi bütövlükdə bəyənilsin.

2. Həmin maddədə nəzərdə tutulan işlərin Naxçıvan Muxtar Respublikası tərəfindən həyata keçirilməsi zəruri hesab edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu tədbirlərin həyata keçirilməsi sahəsində İran İslam Respublikasının Neft və Qaz Sənayesi Nazirliyi ilə müvafiq müqavilələr bağlayıb lazımi tədbirlər görsün.

İşlərin tezliklə başlanması üçün İran İslam Respublikasına Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Ələsgər Sadiqov başda olmaqla nümayəndə heyəti göndərilsin.

4. Qazın muxtar respublikada paylanması, istifadəçilərə verilməsi məqsədilə İran İslam Respublikasının Naxçıvanda Milli Qaz Şirkətinin yaradılmasına icazə verilsin.

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 18 sentyabr 1992-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə 1992-ci il avqust ayının 10-dan 14-ə qədər Türkiyədə rəsmi səfərdə olmuşdur.

Heydər Əliyev İqdır şəhərində Türkiyənin yeni İqdır vilayətinin yaranması ilə əlaqədar rəsmi təntənəli mərasimdə çıxış etmiş, sonra Qars və Ankara şəhərlərində olmuşdur.

Səfər zamanı Heydər Əliyev Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında 24 mart 1992-ci ildə Ankarada imzalanmış İşbirliyi Protokolunun əməli surətdə həyata keçirilməsi tədbirləri haqqında Türkiyənin Baş naziri Süleyman Dəmirəllə, dövlət nazirləri və nazirlər ilə danışıqlar aparmış, Naxçıvan Muxtar Respublikasının uzun müddət iqtisadi blokada şəraitində yaşadığı, Ermənistanla sərhəd məntəqələrində silahlı münaqişə nəticəsində Naxçıvanın sosial-iqtisadi həyatında mövcud olan çətinliklər haqqında məlumat vermiş və Naxçıvanın Türkiyənin köməyinə ehtiyacı olduğunu bir daha bildirmişdir.

Danışıqlarda Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasına ayırdığı maliyyə kreditindən istifadə olunması üçün lazımi tədbirlərin həyata keçirilməsi müzakirə olunmuşdur.

Türkiyə hökuməti tərəfindən bildirilmişdir ki, Naxçıvan əhalisinin təchizatı üçün ərzaq mallarının alınması məqsədilə ayrılmış maliyyə kreditinin on milyon Amerika dolları dəyərində olan hissəsindən istifadə etmək üçün lazımi qərar qəbul edilmişdir.

Bu danışıqlardan sonra Türkiyə Respublikası Naxçıvan Muxtar Respublikası üçün ayrılmış kreditin istifadə olunmasına başlamışdır. Bu kredit hesabına sentyabr ayının 15-nə olan məlumata görə muxtar respublikaya 600 ton makaron, 200 ton zeytun yağı, 100 ton kərə yağı, 282 ton quş əti, 117 ton düyü gətirilmişdir.

Türkiyənin "Qızıl Ay" cəmiyyətinin rəhbəri Kamal Dəmirlə görüşdə Naxçıvana bu cəmiyyət vasitəsilə yenə də yardım göstərilməsi xahiş olunmuşdur.

1992-ci il avqust ayının ikinci yarısından "Qızıl Ay" cəmiyyəti vasitəsilə Naxçıvana yardım olaraq 100 ton un, 2700 kq günəbaxan yağı, 7850 kq şəkər tozu, 9300 kq makaron, 1630 kq qovurma, 810 kq toyuq əti gətirilmişdir.

Türkiyədən gələn ərzaq malları Nazirlər Kabinetinin komissiyasının vasitəsilə ticarət təşkilatları tərəfindən əhaliyə satılmışdır. Ərzaq mallarının gəlməsi davam edir. Kredit hesabına yaxın günlərdə Türkiyə-

dən Naxçıvana 7 min ton un, 3 min 500 ton buğda gətirilməsi gözlənilir.

Ali Məclis qeyd edir ki, muxtar respublikanın uzun müddət iqtisadi blokada şəraitində olduğu bir vaxtda Türkiyədən kredit hesabına gələn ərzaq malları Naxçıvan əhalisinin təchizatına xeyli kömək edir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyəyə səfəri, səfər zamanı Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəllə və digər rəsmi şəxslərlə apardığı danışıqlar və əldə olunan nəticələr bəyənilsin.

Bu səfər Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin genişlənməsi və inkişaf etməsi üçün, Naxçıvan Muxtar Respublikasının ağır sosial-iqtisadi vəziyyətdə olduğu dövrdə əhalinin ərzaq malları ilə təchiz olunması üçün əhəmiyyətli və faydalı hesab edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Türkiyənin Naxçıvan Muxtar Respublikasına ayırdığı maliyyə krediti hesabına gələn ərzaq mallarının qəbul olunması işlərini lazımi səviyyədə təşkil etsin və ərzaq mallarının muxtar respublikanın bütün əhalisinə bərabər şəkildə çatdırılmasına nəzarət etsin. Bütün ticarət təşkilatlarının işi ciddi nəzarət altında olmalı, ərzaq mallarının paylanması və satılmasında qanun pozuntularına və digər neqativ hallara yol verilməməlidir.

Türkiyə Respublikasından kredit hesabına Naxçıvan Muxtar Respublikasına gələn ərzaq mallarının qəbul olunması, bölünməsi və satışı haqqında Ali Məclisə mütəmadi məlumat verilsin.

**R. HƏSƏNOV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi Sədrinin birinci müavini**

*Naxçıvan şəhəri, 18 sentyabr 1992-ci il*

## TƏBRİZDƏN QATAR GƏLİR

Bu il avqust ayının 22-dən 26-dək Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti İran İslam Respublikası hökumətinin dəvəti ilə İranda olmuş və Naxçıvanı böhrandan çıxarmaq və iqtisadi kömək barədə razılıq əldə olunmuş, Əməkdaşlıq Protokolu imzalanmışdır. Protokola görə 9 ay müddətində İran İslam Respublikasından Culfa keçid məntəqəsi vasitəsilə Naxçıvana 90 min ton daş kömür, 50 min ton mazut, 30 min ton dizel yanacağı, 15 min ton şəkər tozu, 5 min ton soğan, 1,5 min ton makaron, 18 min ton bitki yağı göndərilməsi nəzərdə tutulub.

Bu günlərdə Naxçıvana Təbrizdən 22 vaqondan ibarət ilk qatar gəlib. Həmin qatarda 300 ton un, 100 ton soğan, 670 ton kartof, xeyli yanacaq və digər məhsullar gətirilib. Həmin məhsullar muxtar respublika əhalisinə satılacaqdır.

*"Şərq qapısı" qəzeti, 21 oktyabr 1992-ci il*

## İQTİSADİ ƏLAQƏLƏR GENİŞLƏNİR

İqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan müştərək komissiyasının Bakıda keçirilən iclasından sonra komissiyanın üzvlərinin böyük bir qrupu, İran İslam Respublikasının Kooperasiya naziri, İran tərəfindən komissiyasının sədri Qulamrza Şafeyinin rəhbərliyi ilə noyabrın 20-də Naxçıvana gəlmişdir. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qonaqları qəbul etmişdir.

Heydər Əliyev qonaqları salamlayaraq demişdir ki, Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə iqtisadi əlaqələrinin inkişaf etdirilməsi, xüsusilə bu ilin avqust ayının 24-də Tehranda imzalanmış protokolda nəzərdə tutulanların həyata keçirilməsi muxtar respublika üçün həlledici məsələdir. Artıq 4 gündən sonra həmin protokolun imzalanmasının 3 ayı tamam olacaqdır. Üç ay-

dır biz bunun intizarındayıq ki, protokola görə İrandan Naxçıvana lazım olan yüklər gəlsin. Çünki vəziyyətimiz çox ağırdır. Ona görə də mən sizin bu komissiyanın işinin tənzimlənməsinə lazımi qədər yardım etdim. Beləliklə, imkan yaranmışdır ki, hər iki tərəf bu komissiya çərçivəsində səmərəli əməkdaşlıq etsin.

Qulamrza Şafeyi komissiyanın Bakıda keçirilən iclası barədə məlumat verərək demişdir ki, komissiyanın işi çox səmərəli keçdi və bir sıra protokollar imzalandı. Protokol imzalandıqdan dərhal sonra İrandan Naxçıvana yüklər göndərilməyə başlandı.

Heydər Əliyev onun dediklərini təsdiq edərək bildirmişdir ki, İrandan Naxçıvana 35 vaqondan ibarət bir qatar gəlmişdir və bununla da iş qurtarmışdır. O gündən indiyədək artıq bir vaqon olsun belə yük gəlməyib.

Ağayi Q. Şafeyi bunun səbəbini onunla izah etdi ki, protokola əsasən İrandan Naxçıvana gələn yüklərin əvəzini Azərbaycan ödəməlidir. Lakin bu belə olmadı, ona görə İrandan Naxçıvana yük göndərilməsi dayandırıldı. Hər iki tərəf öz üzərlərinə götürdükləri təhhüdlərə əməl etməlidir. Biz öz tərəfimizdən Naxçıvan üçün əlimizdən gələni etməyə hazırıq.

Sonra ağayi Q. Şafeyi Naxçıvanın elektrik enerjisi ilə təchizatı məsələsi ilə maraqlanmışdır.

Heydər Əliyev demişdir ki, sizin gəlişinizdən sonra biz ümid edirdik ki, hər şeydən əvvəl Tehranda imzalanmış protokolun 15-ci maddəsində nəzərdə tutulmuş yanacaq məhsulları - dizel yanacağı, benzin, mazut, daş kömür, habelə kartof, un, soğan və s. məhsullar Naxçıvana gələcəkdir. Lakin qeyd etdiyim kimi, birinci qatardan sonra yük gətirilməsi dayandırıldı. Gərək bunun dalı kəsilməsin, nəzərdə tutulmuş mallar vaxtlı-vaxtında gətirilməlidir ki, düşdüyümüz çətin vəziyyəti bir az yüngülləşdirə bilək.

İkincisi, siz elektrik enerjisinin vəziyyətini soruşursunuz. Bu sahədə vəziyyət çox pisdir. İndi Araz Su-Elektrik Stansiyasından biz cəmi 20-25 meqavatt elektrik enerjisi alırıq ki, bu da tələbatımızın 20 faizini ancaq ödəyir. Qış isə astanada dayanıb. Bizim bütün ümidimiz İrandan gələcək elektrik enerjisinədir. Mənə məlumat veriblər ki, bizim tərəf-

dən lazım olan işlərin hamısı görülüb. İndi qalır Arazın o tayındakı işlər. Bunları da tezliklə qurtarmaq lazımdır ki, biz İrandan elektrik enerjisi ala biləк. Onda bizim tələbatımızın 40-50 faizi ödənilmiş olacaq. Lakin bunu tezliklə etmək lazımdır. Qeyd etdiyim kimi qış başımızın üstünü almışdır. Siz təsəvvür edin ki, kəndlərdə ümumiyyətlə işıq olmur. Bütün kəndlər gecələr zülmətə qərq olur. Həyat donur. Naxçıvanın özündə də vəziyyət çox pisdir. Elektrik enerjisindən istilik alınması bir yana dursun, heç olmasa işıq olsun! Ona görə də İrandan elektrik enerjisi gəlməsi bizim üçün ən vacib məsələdir. Komissiya da bu məsələnin tezliklə həll olunmasına öz köməkliyini göstərməlidir.

Sonra protokolda nəzərdə tutulmuş bir sıra başqa məsələlərin - Xudafərin körpüsündən keçərək Bakıdan Naxçıvana gələn avtomobil yolunun açılması, Xoy-Culfa qaz kəmərinin çəkilişinin sürətləndirilməsi, Naxçıvana hər ay 100 ton maye qaz gətirilməsi, konsulluqların açılması və s. məsələlərə də toxunulmuşdur.

Hər iki tərəf bu görüşün son dərəcə əhəmiyyətli olduğunu qeyd etmişdir.

Qəbulda Naxçıvan MR Baş naziri Ş. Xan-Babayev, Ali Məclis Sədrinin birinci müavini R. Həsənov, Baş nazirin müavinləri Ə. Sadiqov, M. Abbasov iştirak etmişlər.

*"Şərq qapısı" qəzeti, 25 noyabr 1992-ci il*

## YENİ KEÇİD MƏNTƏQƏSİ

Dekabrın 3-də Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasını birləşdirən daha bir keçid məntəqəsi - Şahtaxtı-Poldəşt məntəqəsi açılmışdır.

Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini Afiyəddin Cəlilov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev, İran İslam Respublikasının kooperasiya naziri ağayi Qulamrza Şafeyi, İran İslam Respublikasının Azərbaycandakı səfiri ağayi Nəhavəndiyan və digər şəxslər İran-Naxçıvan elektrik xəttinin açılışından

sonra İran ərazisi ilə Qərbi Azərbaycanın Poldəşt qəsəbəsinə gəldilər. Burada Şahtaxtı ilə Poldəşti birləşdirən üzən körpünün açılış mərasimi olmuşdur.

Səhər tezdən körpünün hər iki tərəfinə yığışmış azərbaycanlılar iki kəndi - Şahtaxtı və Poldəşt kəndlərini birləşdirəcək körpünün açılışını intizarla gözləyirdilər. Körpüyə yaxınlaşan avtomobil karvanı böyük sevinclə, alqışlarla qarşılandı. Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev körpünün açılması mərasiminə gələnləri səmimi salamlayaraq dedi: Bu gün bu xoş mərasimdə iştirak edən ağayi Qulamrza Şafeyi İran İslam Respublikasının naziridir, İranın rəhbərləri Həzrəti Ayətullah Xameneyinin və Prezident Haşimi Rəfsəncaninin yaxın dostu, məsləkdaşıdır. Ağayi Şafeyi onların tapşırığı ilə gəlib ki, burada körpünün açılışında iştirak etsin. Mən sizin adınızdan, bütün Naxçıvan əhalisi adından İran İslam Respublikasından olan bizim hörmətli qonaqlarımızı, dostlarımızı səmimi qəlbdən salamlayıram və deyirəm ki, siz bu torpağa xoş gəlmisiniz.

Heydər Əliyev sözünə davam edərək dedi ki, son vaxtlar İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələr gündən-günə genişlənir və inkişaf edir. Bir neçə il bundan əvvəl sərhəd simləri götürüldü. İndi Arazın o tayında və bu tayında olan qan qardaşları, din qardaşları bir-biri ilə görüşməyə, əlaqə saxlamağa imkan əldə ediblər. Bu, bütün Azərbaycan xalqının, Azərbaycanda yaşayan müsəlmanların həyatında unudulmaz hadisədir.

Azərbaycanla İranın əlaqələri getdikcə inkişaf edib genişlənir. Bu keçid məntəqəsinin açılması da əlaqələrimizin genişləndirilməsinə xidmət edir. İndi Şahtaxtıdan və ümumiyyətlə Şərur rayonundan İrana getmək istəyənlər Culfa və ya Qızılvəng məntəqəsinə getməyəcəklər. Poldəştdən, Makudan, Xoydan gələnlər də bu qısa yoldan istifadə edəcəklər. Hər iki tərəfdə bazar tikilir. Burada birgə bazar olacaqdır. Arazın hər iki sahilindən adamlar gələcək, bir-birləri ilə görüşüb alver edəcəklər. Bu da bizim iqtisadi və başqa əlaqələrimizi möhkəmləndirəcəkdir.

Onu da qeyd etmək lazımdır ki, bu körpünü İran İslam Respublikası öz hesabına tikib. Biz çoxdan bu körpünün tikilməsi arzusunda idik. Biz avqust ayında Tehranda olarkən orada İran İslam Respublikası ilə

Naxçıvan Muxtar Respublikası arasında bir müqavilə bağladıq. Həmin müqavilənin bir bəndi ondan ibarətdir ki, İran İslam Respublikası Poldəştlə Şahtaxtı arasında müvəqqəti körpünü tiksin, bunu qısa müddətdə başa çatdırsın, burada müştərək bazar düzəldilsin. Bundan sonra daimi körpünün tikilməsi də İran İslam Respublikası tərəfindən aparılacaqdır. Biz tam əminik ki, daimi körpünün tikintisi də tezliklə başa çatdırılacaq və beləliklə, bizim əlaqələrimiz daha da möhkəmlənəcəkdir.

Ona görə də icazə verin sizin adınızdan, bütün naxçıvanlıların adından İran İslam Respublikasına, bizim qan qardaşlarımıza, İran İslam Respublikasının rəhbərlərinə və xüsusən İranın siyasi rəhbəri Həzrəti Ayətullah Xameneyiyə, Prezident ağayi Haşimi Rəfsəncaniyə, İran İslam Respublikasının nazirlərinə, o cümlədən Şərqi və Qərbi Azərbaycanın rəhbərlərinə, xüsusən bizim əziz dostumuz, İran İslam Respublikasının nümayəndə heyətinin burada olan rəhbəri, İranın Kooperasiya naziri ağayi Qulamrza Şafeyiyə öz dərin minnətdarlığımızı bildirək və xahiş edək ki, bizim səmimi salamımızı, məhəbbətimizi bütün İran xalqına çatdırsınlar.

İran İslam Respublikasının kooperasiya naziri ağayi Qulamrza Şafei dedi ki, biz bir az bundan əvvəl naxçıvanlılara bərq (elektrik - tərtibçi) verəcək 40 meqavatlıq İran-Naxçıvan elektrik xəttinin açılışında olduq. İndi isə hər iki tərəfi birləşdirən yeni bir keçid məntəqəsi açılır. Bu körpünün açılışı ilə gediş-gəliş xeyli rahatlaşacaqdır. Neçə onilliklər idi ki, qan qardaşları arasında ayrılıq düşmüşdü. Son 2-3 ildə bu ayrılıq aradan qaldırıldı. Bundan sonra belə körpülərin sayı, gediş-gəliş daha da artmalıdır. Biz bu gün gəlmişik ki, iranlıların salamını sizə yetirək, bu körpünün açılışında iştirak edərək sizinlə sevincimizi bölüşdürək.

Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini A. Cəlilov, Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev, İran İslam Respublikasının kooperasiya naziri ağayi Qulamrza Şafeyi hər iki tərəfin sakinləri ilə mehribancasına söhbət etdilər.

İranla Naxçıvan arasında tikilmiş yeni bir körpü fəaliyyətə başladı.

*“Şərq qapısı” qəzeti, 9 dekabr 1992-ci il*

## ALİ MƏCLİSDƏ QƏBUL

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Mərəndin fərmandarı Məhəmməd Rza Notaşı qəbul etmişdir.

Heydər Əliyev belə görüşlərin hər iki tərəfin mənafeyi ilə bağlı olduğunu bildirmişdir. Muxtar respublikada mövcud vəziyyət barədə məlumat verən Ali Məclisin Sədri sərhədyanı ticarətin daha da genişləndirilməsi ilə əlaqədar məsələlərə toxunmuşdur.

Görüşdə işgüzar münasibətlərin öz bəhrəsini getdikcə daha artıq göstərdiyindən də söhbət getmişdir. Məhəmməd Rza Notaş blokada vəziyyətində yaşayan Naxçıvana iqtisadi köməklik göstərilməsi və kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində təkliflər vermişdir.

Görüş səmimilik və mehribanlıq şəraitində keçmişdir. Həmin gün Məhəmməd Rza Notaş Naxçıvan Muxtar Respublikası ilə tanışlığı davam etdirmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*16 yanvar 1993-cü il*

## *VAŞİNQTON, AĞ EV, AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ CƏNAB BİLL KLİNTONA*

Hörmətli cənab Prezident!

Sizi Amerika Birləşmiş Ştatlarının Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm. Bu gün Siz Prezident vəzifəsində işə başladığınız zaman Sizə müvəffəqiyyətlər və uğurlar diləyirəm.

Ümidvar olduğumu bildirirəm ki, Siz milyonlarla insanların taleyi ilə bağlı dünyanın bir çox regionlarındakı silahlı konfliktlərlə əlaqədar məsələlərin müvəffəqiyyətli həllində bütün imkanlarınızdan istifadə edəcəksiniz. Bununla yanaşı biz Sizin müstəqil Azərbaycan Respubli-

kasına və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına xoş və xeyirxah münasibətlər bəsləyəcəyinizə ümid edirik.

Dərin hörmətlə,

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 20 yanvar 1993-cü il.*

## *VAŞINQTON, AĞ EV, AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ CƏNAB BİLL KLİNTONA*

Hörmətli cənab Prezident!

1992-ci ilin noyabr ayında Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş Ermənistan Respublikasının Prezidenti L. Ter-Petrosyanın xahişinə cavab olaraq uzun müddət iqtisadi blokada şəraitində olması ilə əlaqədar bu respublikaya humanitar yardım göstərilməsini qərara almışdır. 1992-ci il dekabr ayının 4-də Yerevana gələn Amerika Birləşmiş Ştatlarının nümayəndəsi humanitar yardımın praktiki olaraq həyata keçirilməsini elan etmişdir.

Biz Prezident Corc Buşun bu humanist addımını düzgün anlayırıq. Eyni zamanda Sizə çatdırmaq istəyirik ki, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası artıq səkkiz aydır ki, daha ağır iqtisadi blokada şəraitindədir. Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi ilə bağlayan, Ermənistanın ərazisindən keçən bütün kommunikasiya xəttləri pozulmuşdur. Buna görə də muxtar respublikanın iqtisadiyyatının zəruri ehtiyatlarla təmin olunmasında, əhalinin ərzağa, elektrik enerjisinə, yanacağa olan minimum tələbatının ödənilməsində son dərəcə böyük çətinliklər yaranıb.

Son beş ayda Naxçıvan Muxtar Respublikasının əhalisi əsasən Türkiyə Respublikası hökuməti tərəfindən ayrılan kredit hesabına, Türkiyədən gələn ərzaq malları və İran İslam Respublikasından daxil olan bəzi ərzaq malları və yanacaq hesabına yaşayır.

Naxçıvanı iqtisadi blokadadan çıxarmaq üçün Ermənistanın ərazisindən keçən Naxçıvan-Bakı dəmir yolunun, elektrik və qaz xətlərinin işinin bərpası sahəsində edilən cəhdlərimiz heç bir müsbət nəticə verməmişdir. Naxçıvanla Bakı arasındakı yeganə rabitə vasitəsi hava nəqliyyatıdır. Lakin bu nəqliyyat yalnız adamların daşınmasını böyük çətinliklərlə təmin edə bilir.

Sərt qış şəraiti vəziyyəti daha da gərginləşdirmişdir. Türkiyədən gələn ərzaq qurtarmaq üzrədir, vəziyyət son dərəcə kritik xarakter almışdır.

Belə bir şəraitdə, bu gün Siz Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsini icra etməyə başladığınız zaman, Sizdən Naxçıvan Muxtar Respublikasına humanitar yardım göstərilməsini xahiş edirəm.

Belə düşünürəm ki, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy bu xahişi bəyənəcək. Onun özü də Naxçıvanın sosial-iqtisadi problemlərini həll etmək üçün tədbirlər görür.

Ümidvaram ki, Sizin, cənab Prezident, Ermənistan Respublikası ilə böyük sərhəddi olan Naxçıvan Muxtar Respublikasına bu çətin dövrdə göstərəcəyiniz kömək Amerika Birləşmiş Ştatlarının bizim bütün regiona xeyirxah, diqqətli münasibətinin inandırıcı təzahürü olacaq və layiqli qiymətini alacaqdır.

Dərin hörmət və ümidlə,

**Heydər ƏLİYEV,**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 20 yanvar 1993-cü il*

## ABŞ SƏFİRİ NAXÇIVANDA

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev fevralın 4-də Naxçıvana gəlmiş Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Riçard M. Maylsı qəbul etmişdir.

Səfir Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının yeni seçilmiş Prezidenti Bill

Klintona məktubu ilə əlaqədar Ağ evin Naxçıvana təcili humanitar yardım göstərməsi haqqında qərar qəbul etməsini bildirmiş, Amerika Birləşmiş Ştatları Prezidentinin qərarı barədə dövlət departamentinin humanitar yardımlar üçün Proqramının rəhbəri Riçard Armintaj tərəfindən göndərilən məktubu Heydər Əliyevə təqdim etmişdir.

Muxtar respublika rəhbəri 9 aya yaxın tam iqtisadi blokada şəraitində yaşayan Naxçıvanın problemlərinə qayğı və diqqətlə yanaşdığına görə onun minnətdarlığını Amerika Birləşmiş Ştatlarının Prezidentinə çatdırmağı səfirdən xahiş etmişdir. Heydər Əliyev demişdir ki, Prezident Bill Klintonun bu addımı Naxçıvanda, həmçinin bütün Azərbaycanda böyük razılıqla qarşılanır və bu şübhəsiz, Naxçıvan Muxtar Respublikasını yaranmış son dərəcə gərgin vəziyyətdən çıxarmağa kömək edəcəkdir.

Sonra Ali Məclisin Sədri muxtar respublikanın sosial-iqtisadi vəziyyəti barədə ətraflı məlumat vermiş, vəziyyətdən çıxış üçün həyata keçirilən tədbirlərdən danışmışdır.

Amerika Birləşmiş Ştatlarının səfiri Heydər Əliyevin bu sözünü təkrar etmişdir ki, hər tərəfdən xarici dövlətlərlə əhatə olunmuş Naxçıvan, doğrudan da, tənha adanı xatırladır. Səfir bildirmişdir ki, blokadanı aradan qaldırmaq üçün, regionda yaranmış vəziyyəti həll etmək, Naxçıvana ərzaq və yanacaq yardımı göstərmək üçün siyasi və iqtisadi tədbirlərin mümkün variantlarından təxirə salınmadan istifadə ediləcəkdir. Riçard Mayls muxtar respublikasının düşdüyü vəziyyyət barədə Amerika Birləşmiş Ştatlarının Prezidentinə geniş məlumat ve - rəcəkdir.

Söhbət zamanı Amerika Birləşmiş Ştatlarının Naxçıvan Muxtar Respublikasına göstərəcəyi humanitar yardımın həyata keçirilməsi mexanizmi ətraflı müzakirə edilmişdir.

Riçard M. Mayls Heydər Əliyevə qardaşı, görkəmli alim, akademik Həsən Əlirza oğlu Əliyevin vəfatı münasibətilə başsağlığı vermiş və demişdir ki, mərhumun Bakı şəhərindəki dəfn mərasimində şəxsən iştirak etmişdir.

Beş saatdan artıq çəkən görüş səmimilik və qarşılıqlı anlaşma şəraitində keçmişdir. Söhbətdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi

Sədrinin birinci müavini Rəşid Həsənov və Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin siyasi məsələlər üzrə katibi Remler Filipp iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*5 fevral 1993-cü il*

## BMT-nin NÜMAYƏNDƏSİ QƏBUL EDİLMİŞDİR

Fevralın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev buraya işgüzar görüşə gəlmiş BMT-nin Azərbaycanda - kı nümayəndəsi Mahmud əl-Səidi qəbul etmişdir. Mahmud əl-Səid muxtar respublika rəhbərinə BMT-nin Azərbaycan Respublikasında təşkil olunan nümayəndəliyinin fəaliyyəti barədə məlumat vermişdir. Naxçıvana səfərin son vaxtlar muxtar respublikada yaranmış sosial-iqtisadi vəziyyəti öyrənmək və humanitar yardım üçün BMT Baş Katibinə məlumat vermək məqsədi daşıdığını bildirən Mahmud əl-Səid onu maraqlandıran məsələlər ətrafında söhbət aparılmasını xahiş etmişdir.

Heydər Əliyev 9 aya yaxın blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının düşdüyü ağır vəziyyəti yerindəcə araşdırmaq məqsədilə Naxçıvana gəldiyi üçün Mahmud əl-Səidə təşəkkürünü bildirmiş, mövcud vəziyyət barədə ətraflı məlumat vermişdir. Ali Məclisin Sədri qeyd etmişdir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Ermənistan Respublikası tərəfindən blokadaya alındığından burada son dərəcə gərgin vəziyyət yaranmışdır. Əhalinin ərzaq tələbatına olan ehtiyacının yalnız minimum hissəsi Türkiyədən və İran İslam Respublikasından alınan yardımlar hesabına ödənilir. İndi bunlar da tükənmək üzrədir. Təbii qaz və yanacaq olmadığından yaşayış xeyli ağırlaşmışdır. Xəstəxanaların, uşaq müəssisələrinin fəaliyyəti pozulmuşdur. Xammal, material gətirilməsi çətinləşdiyindən fabrik və zavodların işi dayanmış, 50 mindən çox fəhlə və qul-

luqçu işsiz qalmışdır. Onlara minimum əməkhaqqı verilməsi sahəsində ciddi çətinliklər vardır.

Heydər Əliyev bildirmişdir ki, uzun müddət blokada vəziyyətində yaşadığına görə beynəlxalq qaydalara uyğun olaraq Naxçıvan Muxtar Respublikasına təcili humanitar yardım göstərilməlidir. İkinci tərəfdən, blokadaya alındığı üçün Naxçıvanın düşdüyü indiki vəziyyət beynəlxalq ictimaiyyətə çatdırılmalı, regiondakı vəziyyət barədə obyektiv təsəvvür yaradılmalıdır. Muxtar respublika rəhbəri demişdir ki, onun ABŞ-ın yeni seçilmiş prezidenti Bill Klintona məktubla müraciət etməsi də bu zərurətdən irəli gəlmişdir.

Söhbət zamanı Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının Naxçıvan Muxtar Respublikasına və Ermənistana ərzaq və yanacaq yardımı göstərilməsi ilə əlaqədar informasiya agentlikləri tərəfindən yayılan müraciəti barədə xəbərin muxtar respublikada razılıqla qarşılandığını, bunun müsbət nəticə verəcəyini bildirmişdir.

Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, BMT özünün ənənəvi humanizm və sülh prinsiplərinə sadiq qalaraq Naxçıvanın mövcud problemlərinə diqqətlə yanaşacaqdır.

M. əl-Səid Heydər Əliyevə qardaşı, görkəmli alim, akademik Həsən Əliyevin vəfatı münasibətilə başsağlığı vermişdir.

Görüş işgüzarlıq və səmimilik şəraitində keçmişdir.

Söhbətdə BMT-nin Azərbaycandakı nümayəndəsinin iqtisadi məsələlər üzrə müavini Paulo Lembo və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Rəşid Həsənov iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*3 fevral 1993-cü il*

## NAXÇIVANA HUMANİTAR YARDIM

"ASSA-İradə" agentliyinin verdiyi xəbərə görə yanvarın 20-də Naxçıvan parlamentinin Sədri Heydər Əliyev Ermənistan-Azərbaycan müharibəsi nəticəsində muxtar respublikada yaranmış blokada şəraiti barədə məktubla ABŞ-ın Prezidenti Bill Klintona müraciət etmişdir.

Məktubda muxtar respublikanı böhran şəraitindən çıxarmaq üçün görülən tədbirlərin yetərincə olmadığı bildirilirdi.

Dünən Amerika Birləşmiş Ştatlarının Bakıdakı səfirliyinə daxil olmuş məlumata görə, Amerika Prezidenti Bill Klinton naxçıvanlıların xahişinə cavab olaraq muxtar respublikaya humanitar yardım göstərmək haqqında qərar qəbul etmişdir.

Heydər Əliyev Amerikanın Azərbaycandakı səfiri Riçard Maylsa bildirib ki, Naxçıvanın hər cür, o cümlədən ağır çəkili laynerləri qəbul edə bilən hava limanı var.

Bill Klintonun qərarı ilə bağlı Birləşmiş Ştatların Bakıdakı səfiri yaxın günlərdə Naxçıvana gələcək və yardım yükləri, görünür, birbaşa Naxçıvana çatdırılacaq.

*"Şərq qapısı" qəzeti, 3 fevral 1993-cü il*

## TÜRKİYƏNİN SƏFİRİ NAXÇIVANDA

Fevralın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

Səfir Heydər Əliyevə ona üz vermiş ağır itki - qardaşı akademik Həsən Əlirza oğlunun vəfatı münasibətilə başsağlığı vermişdir.

İkitərəfli münasibətlərin bundan sonra da sıx əməkdaşlıq və mehriban qonşuluq zəminində inkişafı zərurətini qeyd edən Altan Karamanoğlu Türkiyə Respublikasının Naxçıvana yeni təyin olunmuş baş konsulu Orxan Ərtoğruloğlunu muxtar respublika rəhbərinə təqdim etmişdir.

Naxçıvan Muxtar Respublikasında Türkiyə Respublikasının baş konsulunun fəaliyyəti ilə bağlı məsələlər nəzərdən keçirilmişdir.

Muxtar respublika Ali Məclisinin Sədri bildirmişdir ki, Naxçıvanda Türkiyə Respublikasının rəsmi təmsilçisinə ciddi ehtiyac duyulur. Biz bütün imkanlardan istifadə etməliyik ki, mədəni-humanitar və digər əlaqələr lazımi səviyyədə inkişaf etdirilsin.

Sonra Ali Məclisin Sədri Altan Karamanoğlunun xahişi ilə Ermənistan Respublikası tərəfindən blokadaya alınan Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət barədə məlumat vermişdir.

Türkiyə Respublikasının səfiri əmin etmişdir ki, bu məlumatı təcili olaraq təmsil etdiyi dövlətin rəhbərliyinə çatdıracaqdır.

Söhbətdə iştirak edən Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini, Prezidentin səlahiyyətli nümayəndəsi Afiyəddin Cəlilov hər iki tərəfdə qarşılıqlı maraq doğuran pasport və viza məsələlərindən, gömrük xidmətinin gücləndirilməsi sahəsində həyata keçiriləcək tədbirlərdən danışmışdır.

Türkiyə Respublikası baş konsulunun təqdim edilməsi mərasimində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin şöbə müdiri Rasim Rzayev, Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin Qafqaz regionu üzrə baş müdiri Azər Candan, Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunun idarə attaşesi Seyhan Suçu, Naxçıvan Muxtar Respublika Ali Məclisi xarici əlaqələr şöbəsinin müdiri Rza İbadov iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*6 fevral 1993-cü il*

## ALİ MƏCLİSDƏ QƏBUL

Fevralın 11 -də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev buraya gəlmiş BMT Qaçqınlarla İş Şurası nümayəndəliyinin sədri Petrik Smiti, səfərdə onu müşaiyət edən Beynəlxalq

Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri Jerar Bessonu və Bernard Jüleri qəbul etmişdir.

Petrik Smit bildirmişdir ki, səfərdə məqsəd Naxçıvan Muxtar Respublikasındakı qaçqınların sosial problemləri və qayğıları ilə tanış olmaqdır.

Qonaqları maraqlandıran məsələlər barədə ətraflı məlumat verən Heydər Əliyev demişdir: "Ermənistan Respublikasından məcburi çıxarılan azərbaycanlıların bir qrupu Naxçıvanda yaşayır. Bundan əlavə, ötən ilin mayında erməni silahlı dəstələrinin sərhəd kəndlərimizə quldur basqınları nəticəsində də kəndlərin bəziləri tərk edilmişdir. Ermənilər Naxçıvan Muxtar Respublikasına məxsus Kərki kəndini işğal etdikdən sonra həmin kənddə yaşayanların hamısı qaçqın düşmüşdür."

BMT Qaçqınlarla İş Şurasının nümayəndəsi əmin etmişdir ki, muxtar respublikada yaşayan qaçqınlara əməli köməklik məqsədilə müvafiq tədbirlər görüləcəkdir.

Görüşdə həmçinin İran İslam Respublikası tərəfindən sərhəddi qeyri-qanuni keçən 40-a yaxın qaçqın İraq kürdünə yardım məsələsinə toxunulmuşdur.

Həmin gün BMT Qaçqınlarla İş Şurası nümayəndəliyinin sədri və Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri muxtar respublikanın sərhəd məntəqələrinin birində sığınacaq tapan iraqlı kürdlərlə görüşmüşlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*11 fevral 1993-cü il*

## HEYDƏR ƏLİYEV BÖYUK BRİTANİYANIN RUSİYADAKI SƏFİRİNİ ONUN XAHİŞİ İLƏ QƏBUL ETMİŞDİR

Fevralın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Böyük Britaniyanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Brayan Folla Moskvada görüşmüşdür. Görüş İngiltərə səfirinin təşəbbüsü ilə keçirilmişdir.

Heydər Əliyev Naxçıvanın blokada şəraitində yaşadığı, əhalinin ağır sosial-iqtisadi vəziyyətdə olması barədə Brayan Folla ətraflı məlumat vermişdir.

Muxtar respublika rəhbəri səfirdən xahiş etmişdir ki, öz ölkəsinin Naxçıvana humanitar yardım göstərməsində vasitəçi olsun. Səfir Heydər Əliyevin xahişini razılıqla qarşılamış və bildirmişdir ki, İngiltərənin üzvü olduğu Avropa İqtisadi Birliyi ölkələrini də Naxçıvan Muxtar Respublikasına humanitar yardım göstərməsi işinə sövq etməyə çalışacaqdır.

Görüş Böyük Britaniya səfirinin Azərbaycana səfəri ərəfəsində olmuşdur. Brayan Foll Heydər Əliyevə bildirmişdir ki, Azərbaycana qarşıdakı səfəri zamanı vəziyyəti yerindəcə öyrənmək üçün Naxçıvan Muxtar Respublikasına da getməyi planlaşdırıb.

Fevral ayının 19-da Bakıya gələn Böyük Britaniya səfiri, Naxçıvanda hava şəraiti pis olduğuna görə fevral ayının 21-də təyyarə ilə Naxçıvana uça bilməmişdir. Brayan Foll Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəsinə bildirmişdir ki, bir həftə ərzində Böyük Britaniyanın Azərbaycandakı nümayəndəsi Naxçıvana gedəcək və regiona humanitar yardım göstərmək üçün bütün imkanlardan istifadə olunacaq. Daha sonra səfir bildirmişdir ki, bu yaxınlarda o özü də Naxçıvana gedəcəkdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*23 fevral 1993-cü il*

## ALİ MƏCLİSDƏ QƏBUL

Martın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının Naxçıvanda baş konsulu Orxan Ərtoğruloğlunu onun xahişi ilə qəbul etmişdir.

Orxan Ərtoğruloğlu iki ölkə arasında qarşılıqlı maraq doğuran bəzi məsələlərə toxunmuş, baş konsulun fəaliyyəti üçün yaradılan şəraitdən danışmışdır. Orxan Ərtoğruloğlu eyni zamanda bildirmişdir ki, Türkiyə Respublikası bu həftənin sonundan başlayaraq humanitar yardım kimi

Naxçıvan Muxtar Respublikasına 22 min ton mazut göndərəcəkdir. Muxtar respublika rəhbəri ilə söhbətdə yardımın mənzil başına çatdırılması yolları müzakirə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Ermənistan Respublikasının iqtisadi blokadası şəraitində yaşayan, ciddi iqtisadi çətinliklərlə qarşılaşan Naxçıvan Muxtar Respublikasına göstərilən bütün humanitar yardımlar üçün Türkiyə Respublikasının rəhbərliyinə minnətdarlığını bildirmişdir.

Görüş mehribanlıq və səmimilik şəraitində keçmişdir.

***

Martın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Birləşmiş Millətlər Təşkilatının Qaçqınlarla İş Ali Komissarlığı Azərbaycandakı nümayəndəliyinin proqramlaşdırma məsələləri üzrə rəhbəri Lois Roviranı qəbul etmişdir.

Lois Rovira muxtar respublika rəhbərinə məlumat vermişdir ki, Naxçıvana nəzərdə tutulan 3 günlük səfəri zamanı muxtar respublikanın iqtisadi problemləri barədə məlumat toplayacaq və bunun əsasında muxtar respublikadakı qaçqınlara yardımın xüsusi proqramını hazırlayacaqdır. Lois Rovira Heydər Əliyevə məlumat vermişdir ki, bu günlərdə Birləşmiş Millətlər Təşkilatının vəsaiti hesabına qaçqınlara yardım üçün muxtar respublikaya 4 min ədəd adyal və evləri yağışdan qoruyan plastik örtük yola salınmışdır. 0, əlavə etmişdir ki, qaçqınlara ərzaq yardımı da göstəriləcəkdir.

Heydər Əliyev muxtar respublikanın iqtisadi çətinliklərini aradan qaldırmaq üçün göstərilən səylərə görə qonağa minnətdarlığını bildirmişdir.

Görüş işgüzarlıq şəraitində keçmişdir.

Lois Rovira Sədərək rayonunda olacaq, muxtar respublikanın müxtəlif yerlərində yaşayan Kərki kəndinin qaçqınları ilə görüşəcəkdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*8 mart 1993-cü il*

# HEYDƏR ƏLİYEV İRANIN NAXÇIVANDAKI BAŞ KONSULUNU QƏBUL ETMİŞDİR

Martın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasında baş konsulu Məhəmməd Sadeq Turini qəbul etmişdir.

Məhəmməd Sadeq Turi, onun Naxçıvanda baş konsul təyin edilməsi münasibətilə İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayətinin məktubunu Heydər Əliyevə təqdim etmişdir.

Heydər Əliyev Məhəmməd Sadeq Turiyə son vaxtlar regionda yaranmış vəziyyət barədə ətraflı məlumat vermişdir. Naxçıvan 11 aydır ki, Ermənistan Respublikasının iqtisadi blokadası şəraitində yaşayır. Əhalinin sosial şəraiti ağırlaşmış, yanacaq və ərzaq malları ilə təminat sahəsində gərgin vəziyyət yaranmışdır. Tərəflər razılıq hissi ilə qeyd etmişdir ki, muxtar respublikanın üzləşdiyi problemlərin aradan qaldırılmasında ötən ilin avqust ayında Heydər Əliyevlə İran İslam Respublikası rəhbərliyi arasında bağlanmış müqavilə əhəmiyyətli rol oynamış, həmin müqavilə əsasında İran İslam Respublikasının Naxçıvanda Konsulluğu açılmışdır. Bu, Azərbaycanla İran arasında mehriban münasibətlərin daha da genişləndirilməsinə, qarşılıqlı mənafelərə təminat yaradılmasına imkan verəcəkdir.

Heydər Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət, elmi-mədəni və dini əlaqələrin təşəkkül tapmasında hər iki tərəfin maraqlı olmasından danışmış, qonşu ölkələr arasında mehriban münasibətlərin bundan sonrakı inkişafı naminə Məhəmməd Sadeq Turiyə səmərəli fəaliyyət arzulamışdır.

Məhəmməd Sadeq Turi hər il Naxçıvan Muxtar Respublikasından 30 nəfər tələbənin İran İslam Respublikasında İran dövlətinin vəsaiti hesabına təhsil alması, naxçıvanlı həkimlərin müəyyən müddətə İrana göndərilməsi üçün hər iki tərəfdən işin sürətləndirilməsi lüzumunu qeyd etmişdir.

Baş konsul İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayətinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Hey-

dər Əliyevi İran İslam Respublikasına rəsmi səfərə dəvət etdiyini bildirmişdir.

Görüş səmimilik və işgüzarlıq şəraitində keçmişdir.

İran İslam Respublikasının baş konsulu ilə görüşdə Naxçıvan Muxtar Respublikasının Baş naziri Şəmsəddin Xan-Babayev, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Rəşid Həsənov, digər rəsmi şəxslər iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*10 mart 1993-cü il*

## QONAQLAR QƏBUL EDİLMİŞLƏR

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev mart ayının 10-da Amerika Birləşmiş Ştatlarının Naxçıvan Muxtar Respublikasına humanitar yardımını gətirən inspeksiya qrupunun üzvləri - Robert Hovardı, Devid Robertsi və Cil Robinsonu qəbul etmişdir.

Heydər Əliyev amerikalı qonaqları salamlayaraq onların böyük xeyirxahlıq və insanpərvərlik nümunəsi göstərdiklərini, naxçıvanlıların bunu heç vaxt unutmayacaqlarını bildirmişdir. Muxtar respublikanın rəhbəri qeyd etmişdir ki, Amerika Birləşmiş Ştatlarının Naxçıvana göstərdiyi humanitar yardımın böyük əhəmiyyəti vardır. Məlum olduğu kimi, Amerika Birləşmiş Ştatlarının konqresi Azərbaycana humanitar yardım göstərilməsini qadağan etmişdir. Belə bir şəraitdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına humanitar yardım etməsi xüsusi əhəmiyyət kəsb edir, Amerika Birləşmiş Ştatları hökumətinin nüfuzunu yüksəldir.

Heydər Əliyev naxçıvanlıların qayğı və problemlərinə diqqətlə yanaşdıqları üçün onun səmimi minnətdarlığını Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintona, dövlət departamentinin humanitar yardımlar üzrə rəhbəri Riçard Armintaca, Amerika Birləşmiş Ştatlarının

Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Riçard Maylsa çatdırmağı qonaqlardan xahiş etdi.

İnspeksiya qrupunun rəhbəri Robert Hovard bildirmişdir ki, onlar Naxçıvanda qaldıqları müddətdə muxtar respublikanın iqtisadi problemlərini, blokada nəticəsində yaranmış gərginliyi hiss etdilər və bütün bunlar barədə Amerika hökumətinə məlumat verəcəklər.

Robert Hovard səmimi qarşılanmaları və qonaqpərvərlik üçün minnətdarlığını bildirmişdir.

Amerikalı qonaqlar həmin gün təyyarə ilə yola düşmüşlər.

* * *

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev mart ayının 11-də Böyük Britaniyanın Azərbaycandakı səlahiyyətli nümayəndəliyinin rəhbəri Harold Fomstounu onun xahişi ilə qəbul etmişdir.

Səlahiyyətli nümayəndəliyin rəhbəri bildirmişdir ki, onun Naxçıvan Muxtar Respublikasına səfərinin məqsədi iqtisadi blokada nəticəsində burada yaranmış vəziyyəti ətraflı öyrənmək və İngiltərə hökumətinə məlumat verməkdən ibarətdir.

Heydər Əliyev Harold Fomstouna onu maraqlandıran məsələlərlə əlaqədar geniş məlumat vermişdir.

Ali Məclisin Sədri bildirmişdir ki, 11 aydır Naxçıvan Muxtar Respublikası iqtisadi blokada şəraitində yaşayır. Əhalinin güzəranı xeyli ağırlaşıb. İlkin tələbat mallarına, yanacağa ciddi ehtiyac duyulur. Elektrik enerjisinin çatışmaması, dəmir yolunun işləməməsi ucbatından sənaye müəssisələri öz fəaliyyətini dayandırmış, kənd təsərrüfatında və tikinti kompleksində ciddi böhran yaranmışdır. Təbii ki, ərazi etibarilə Azərbaycandan ayrı düşmüş, üstəlik blokadanın sərt qanunları ilə yaşamağa məcbur olmuş muxtar respublikanın öz daxili imkanları hesabına vəziyyətdən çıxması mümkün deyil. Odur ki, qonşu Türkiyə və İran İslam Respublikası Qırmızı Xaç Cəmiyyətləri Naxçıvana müəyyən humanitar yardımlar göstərmişlər. Lakin bunlar kifayətləndirici deyil.

Muxtar respublikanın rəhbəri məlumat vermişdir ki, onun təcili humanitar yardımla əlaqədar Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill

Klintona müraciətinə müsbət cavab verilmiş və Naxçıvan Muxtar Respublikasına humanitar yardım göstərilməsi qərara alınmışdır. Mart ayının 9-da Amerika Birləşmiş Ştatları Dövlət departamentinin göndərdiyi 1 milyon dollar dəyərində ilk yardım - dərman ləvazimatı təyyarə ilə Naxçıvana gətirilmişdir.

Heydər Əliyev qonağa demişdir ki, o, Moskvada olarkən fevralın 19-da Böyük Britaniyanın Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Brayan Follu onun xahişi ilə qəbul etmiş, görüşdə Naxçıvana humanitar yardım göstərilməsi məsələsi müzakirə olunmuşdur.

Böyük Britaniyanın Azərbaycandakı səlahiyyətli nümayəndəliyinin rəhbəri əmin etmişdir ki, onun ölkəsi tərəfindən Naxçıvan Muxtar Respublikasına humanitar yardım edilməsi üçün bütün tədbirlər görülür. O, bildirmişdir ki, İngiltərə hökuməti üzvü olduğu Avropa İqtisadi Birliyi Şurasının da Naxçıvan Muxtar Respublikasına yardım göstərməsinə çalışacaqdır.

Görüş səmimilik və işgüzarlıq şəraitində keçmişdir. Böyük Britaniyanın Azərbaycan Respublikasındakı səlahiyyətli nümayəndəliyinin rəhbəri Harold Fomstoun mütəxəssislərlə görüşmüş, muxtar respublikanın Ermənistanla sərhəd bölgələrində olmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*17 mart 1993-cü nl*

## HEYDƏR ƏLİYEVİN İRAN İSLAM RESPUBLİKASINA SƏFƏRİ

Martın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayətinin dəvəti ilə İrana rəsmi səfərə getmişdir.

Tehranın Mehrabad təyyarə meydanında Heydər Əliyevi İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayəti və digər rəsmi şəxslər qarşılamışlar.

Martın 16-da İran İslam Respublikasının Xarici İşlər Nazirliyində Əli Əkbər Vilayəti ilə Heydər Əliyevin rəsmi görüşü olmuşdur.

Martın 17-də İran İslam Respublikasının Prezidenti Əli Əkbər Haşemi Rəfsəncani Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevi qəbul etmişdir.

Heydər Əliyev İran İslam Respublikasının energetika naziri Qulam Rza Zəngəne, kooperasiya naziri Qulam Rza Şafeyi ilə, İranın nüfuzlu ictimai təşkilatı olan "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdustla görüşlər keçirmiş və söhbət etmişdir.

Görüşlər zamanı Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin İran İslam Respublikası rəhbərliyinə salamını və xoş arzularını çatdırmışdır.

İran rəhbərləri ilə görüşdə İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi və genişləndirilməsi barədə fikir mübadiləsi aparılmış, bu istiqamətdə bundan sonra lazımi tədbirlərin həyata keçirilməsinin zəruriliyi bildirilmişdir.

İran İslam Respublikası ilə Naxçıvan Respublikası arasında bağlanan 24 avqust 1992-ci il tarixli müqavilənin həyata keçirilməsi, Naxçıvan Muxtar Respublikasının ağır blokada şəraitində yaşaması ilə əlaqədar yaranmış problemlərin İran İslam Respublikası vasitəsilə həll olunması yolları müzakirə edilmiş və razılıq əldə olunmuşdur.

Yaxın vaxtlarda Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasından ərzaq məhsulları, xüsusən un və buğda, yanacaq malları göndərilməsi, elektrik enerjisinin müntəzəm verilməsi barədə müvafiq nazirliklərə göstəriş verilmişdir.

İran İslam Respublikasından Naxçıvana verilən elektrik enerjisinin azalması ilə əlaqədar məsələ müzakirə olunmuş və onun 40 meqavata çatdırılması razılaşdırılmışdır.

Bakı ilə Naxçıvan arasında gediş-gəlişi asanlaşdırmaq üçün Arazboyu qısa məsafədə İran ərazisindən keçən yolun inşasının 15-20 gün müddətinə başa çatdırılması və istifadəyə verilməsi üçün lazımi tədbirlərin görüləcəyi bildirilmişdir.

Naxçıvan Muxtar Respublikasının xahişinə əsasən yaz tarla işlərinin aparılması məqsədilə yaxın günlərdə Naxçıvana 1500 ton toxumluq kartof və 500 ton toxumluq arpa, kənd təsərrüfatı ləvazimatları göndəriləcəkdir.

İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayəti Heydər Əliyevin şərəfinə ziyafət vermişdir.

Möhsen Rəfiqdustla aparılan danışıqlar zamanı bildirilmişdir ki, ötən ilin avqust ayının 24-də Heydər Əliyevlə Rəfiqdust arasında bağlanan müqavilənin həyata keçirilməsi sürətləndiriləcək, illik istehsal gücü 60 milyon ədəd olan kərpic zavodunun və Naxçıvan şəhərində müasir tələblərə cavab verən məscid binasının tikintisi aprel ayının 15-dən başlanacaq. Bundan əlavə Naxçıvan şəhərində plastik qablar, həna sexi tikilib istifadəyə veriləcək. Naxçıvan alt trikotaj fabriki və xalçaçılıq kombinatı üçün müxtəlif çeşiddə xammal göndəriləcəkdir.

Heydər Əliyev Tehranın məşhur “15-i Xordat” xəstəxanasında müalicə olunan Dağlıq Qarabağ cəbhəsində yaralanmış Azərbaycan Milli Ordusu əsgərlərinin yanına getmiş, onlara göstərilən tibbi xidmətin vəziyyəti ilə maraqlanmışdır.

Heydər Əliyev martın 17-də və 18-də Təbrizdə olarkən Şərqi Azərbaycanın ostandarı Əli Əbdüləlizadə ilə görüşüb söhbətlər aparmışdır. Naxçıvana mal göndərilməsi və digər məsələlərin həyata keçirilməsi Şərqi Azərbaycan ostandarlığına tapşırıldığından, bu işin sürətləndirilməsi üçün tədbirlər müəyyən edilmiş, tərəflər müzakirə olunan məsələlər barədə qərar qəbul etmişlər.

Martın 18-də Heydər Əliyev və Əli Əbdüləlizadə əməkdaşlıq haqqında protokol imzalamışlar. Həmin gün jurnalistlər üçün mətbuat konfransı keçirilmişdir.

Heydər Əliyev Təbrizin neftayırma zavoduna, “Atlaspod” fabrikinə və “Layko” şirkətinə getmiş, həmin müəssisələrin işi ilə tanış olmuşdur.

Təbrizdə Heydər Əliyev böyük Azərbaycan şairi Şəhriyarın qəbrini ziyarət etmiş, onun məzarı önünə gül-çiçək dəstələri qoymuşdur.

Heydər Əliyev martın 19-da Xudafərin-Culfa istiqamətində çəkilən yolun vəziyyətilə tanış olmaq üçün Təbrizdən Xudafərin körpüsünə getmiş və həmin gün axşam Naxçıvana qayıtmışdır.

İran İslam Respublikasına səfərdə Heydər Əliyevi Naxçıvan Muxtar Respublikasının Baş naziri Şəmsəddin Xan-Babayev və İran İslam Respublikasının Naxçıvandakı baş konsulu Məhəmməd Sadeq Turi müşayiət etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*27 mart 1993-cü il*

## PROTOKOL

İki ölkə arasında bağlanan əvvəlki müqavilələr nəzərə alınmaqla bu protokol Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev və Şərqi Azərbaycan ostandarı Əli Əbdüləlizadə arasında Təbriz şəhərində aşağıdakı kimi tərtib edildi:

1. Qərara alındı ki, Şərqi Azərbaycan ostandarlığı tərəfindən Naxçıvan Muxtar Respublikasına hər tonu 160 dollardan 1500 ton toxumluq kartof verilsin.

2. Qərar verildi ki, Şərqi Azərbaycan ostandarlığı tərəfindən Naxçıvan Respublikasına hər tonu 135 dollardan 500 ton toxumluq arpa verilsin.

3. Kənd təsərrüfatı işlərinin aparılması məqsədilə Naxçıvan Muxtar Respublikasına hər cütü 100 dollar məbləğində 12 voltluq 400 ədəd (200 cüt) akkumulyator verilsin.

4. Tərəflər belə razılığa gəldilər ki, kənd təsərrüfatı işçiləri ilə görüşmək, bitkilərə qulluq və əkin vərdişlərini öyrətmək, yaz əkini keçirilən yerlərə baxmaq üçün Şərqi Azərbaycan vilayətinin kənd təsərrüfatı mütəxəssisləri Naxçıvan Muxtar Respublikasına göndərilsinlər.

5. Buna qərar verildi ki, aprel ayının əvvəlindən Naxçıvana 10 min ton bitum göndərilsin.

6. Razılaşdırıldı ki, Naxçıvan Muxtar Respublikasının enerji təminatını yaxşılaşdırmaq məqsədilə İran İslam Respublikası tərəfindən bundan sonra əvvəlki kimi 40 meqavat elektrik enerjisi müntəzəm veriləcək və Araz Su-Elektrik Stansiyasındakı bloklardan birinin təmiri za-

manı azalan enerjinin əvəzinə Naxçıvana 10 meqavatt elektrik enerjisi ötürüləcəkdir.

7. Tərəflər razılaşdılar ki, həmin protokolun 1,2 və 3-cü maddələrinin tələblərinə uyğun olaraq 327 min 500 dollar məbləğində mal göndərilməsi barədə öhdəliyə və elektrik enerjisinin irəlicədən Azərbaycan Respublikası ilə razılaşdırılmış qiymətinə əsasən Azərbaycan tərəfi İrana hər tonu 170 dollardan dizel yanacağı verəcəkdir.

8. Bu protokol imzalanandan ən geci 15 gün sonra Azərbaycan Respublikasının nümayəndəsi protokolun 7-ci maddəsinin tələblərinə əməl olunacağı barədə Şərqi Azərbaycan ostandarlığına yazılı təminat verir.

Protokol miladi tarixi ilə 18 mart 1993-cü il, hicri-şəmsi tarixi ilə 27 isfənd 1371-ci ildə Təbriz şəhərində Azərbaycan və fars dillərində 2 nüsxədə imzalanıb və hər nüsxəsi eyni qüvvəyə malikdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**
**Heydər ƏLİYEV**

**Şərqi Azərbaycanın**
**ostandarı**
**Əli ƏBDÜLƏLİZADƏ**

## HEYDƏR ƏLİYEV FRANSANIN SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Martın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Fransanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Jan Perreni qəbul etmişdir.

Səfir Dağlıq Qarabağa dair Fransa və Rusiya Prezidentlərinin martın 16-da qəbul etdikləri birgə bəyannamənin mətnini Heydər Əliyevə təqdim etmişdir.

Heydər Əliyev Dağlıq Qarabağ probleminin danışıqlar yolu ilə həll edilməsinə tərəfdar olduğunu bildirmiş, bu sahədə böyük dövlətlərin oynaya biləcəyi rola mühüm əhəmiyyət verdiyini qeyd etmişdir. Heydər Əliyev demişdir ki, Dağlıq Qarabağ Azərbaycanın ərazisidir. Müharibə Azərbaycan torpağında gedir. Altıncı ilə keçən bu qanlı münaqişə Azərbaycanın hər yerində, o cümlədən Naxçıvan Muxtar Respub-

likasında da hiss olunur. Ermənistan Respublikası tərəfindən blokadaya alınması ucbatından muxtar respublikada həyat səviyyəsi dözülməz dərəcədə ağırlaşmış, sənayedə, tikintidə, kənd təsərrüfatında dərin böhran yaranmışdır.

Jan Perre Fransa hökumətinin Naxçıvana humanitar yardım göstərmək barədə qərar verdiyini bildirmiş və demişdir ki, 37 tonluq ilk yardım martın 21-də Fransadan təyyarə ilə birbaşa Naxçıvana gətiriləcəkdir.

Heydər Əliyev blokadanın sərt qanunları ilə yaşamağa məcbur olan Naxçıvanın qayğılarına həssaslıqla yanaşdığına görə minnətdarlığını Fransa Respublikası rəhbərliyinə çatdırmağı səfirdən xahiş etmişdir.

Jan Perrenin xahişi ilə Heydər Əliyev İran İslam Respublikasına səfəri barədə danışmış, bunun Naxçıvanın iqtisadi problemlərinin həlli ilə bağlı olduğunu bildirmişdir.

Jan Perre səmimi qəbul üçün Heydər Əliyevə minnətdarlığını bildirmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*24 mart 1993-cü il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Naxçıvan Muxtar Respublikasının iqtisadi blokadaya alınması ucbatından burada gərgin vəziyyət yaranmışdır. 1993-cü il yanvar ayının 20-də Heydər Əliyevin Naxçıvana təcili humanitar yardım göstərilməsi barədə Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintona göndərdiyi məktub Qərb dövlətlərinin də diqqətini cəlb etmişdir.

Heydər Əliyev mart ayının 3-də Bakıda Fransa Respublikasının Azərbaycandakı səfiri Jan Perre ilə görüşərkən, Naxçıvana humanitar yardım edilməsi məsələsi müzakirə olunmuş, yardımın göstərilməsi yolları barədə fikir mübadiləsi aparılmışdır.

Martın 21-də Fransadan Naxçıvan Muxtar Respublikasına 37 ton humanitar yardım gətirən təyyarə Naxçıvan təyyarə meydanına enmişdir.

Dərman ləvazimatlarından, ilkin tələbat mallarından və uşaq yeməklərindən ibarət olan yardım aeroportda muxtar respublika Nazirlər Kabinetinin xüsusi komissiyasına təhvil verilmişdir.

Yardım gətirən təyyarəni aeroportda Fransa Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Jan Perre, Naxçıvan Muxtar Respublikasının Baş naziri Şəmsəddin Xan-Babayev, Baş nazirin birinci müavini Məmməd Abbasov, şəhər ictimaiyyətinin nümayəndələri qarşılamışlar.

*24 mart 1993-cü il*

## ALİ MƏCLİSDƏ QƏBUL

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1993-cü il mart ayının 16-dan 19-dək İran İslam Respublikasında rəsmi səfərdə olarkən Tehranda "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdustla görüşüb söhbət etmiş, tərəflər ötən il avqust ayının 24-də bağladıqları müqavilənin həyata keçirilməsi ilə əlaqədar bir sıra konkret məsələlərə baxmış və onların icrası barədə razılıq əldə etmişlər.

Aprel ayının 5-də Heydər Əliyev "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu prezidentinin müavinləri Fəribroz Şaabanian və Məmmədhəsən Əşrəfianı, onlarla birlikdə Naxçıvana gələn mühəndis-texniki işçilərin bir qrupunu qəbul etmişdir.

Söhbət zamanı Heydər Əliyevlə Möhsen Rəfiqdust arasında bağlanan müqavilədən irəli gələn məsələlərə toxunulmuşdur.

Yaxın günlərdə "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun Naxçıvanda mağazası açılacaq, fondun vəsaiti hesabına ildə 60 milyon ədəd istehsal gücü olan kərpic zavodunun tikintisinə başlanacaq, qədim Naxçıvanın memarlıq ansamblını dəqiq şəkildə tamamlayan daha bir tikinti obyekti - müasir tələblərə cavab verən 250 milyon tümən dəyərində yaraşıqlı məsçid binası inşa olunacaqdır.

Tehranın adlı-sanlı memarı Mehdi Əfşar məsçid binasının layihə sənədləri ilə Heydər Əliyevi tanış etmişdir. Razılaşdırılmışdır ki, tikinti üçün işçi qüvvəsini və texnikanı Naxçıvanın aid təşkilatları verəcəkdir. Bu, əhalinin məşğulluğuna müəyyən qədər təsir göstərəcəkdir.

Danışıqlarda həmçinin qarşılıqlı maraq doğuran məsələlərə toxunulmuş, qeyd edilmişdir ki, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu muxtar respublika sənayesinin inkişafına əməli köməklik məqsədilə təsirli tədbirlər görəcək, Naxçıvan xalçaçılıq kombinatı və alt trikotaj fabriki, şüşə qablar zavodu üçün müxtəlif çeşiddə xammal verəcək. Naxçıvan şəhərində plastik qablar, çörək və həna sexləri quraşdıracaqdır.

Heydər Əliyev "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun vəsaiti hesabına 500 nəfər Naxçıvan Muxtar Respublika sakininin Məşhədə ziyarətə göndərilməsini sürətləndirməyi xahiş etmişdir. Tərəflər razılaşmışlar ki, yaxın günlərdə zəvvarlar Məşhəd şəhərinə göndəriləcəkdir.

Söhbət səmimilik və işgüzarlıq şəraitində keçmişdir.

Fəribroz Şaabanian və Məmmədhəsən Əşrəfianın Naxçıvana səfərləri davam edirdi. Onlar aprelin 7-də Heydər Əliyevlə birlikdə böyük Azərbaycan şairi Məmmədhüseyn Şəhriyarın xatirəsinə həsr olunmuş Şəhriyar beynəlxalq konqresi tədbirləri çərçivəsində keçirilən təntənəli yığıncaqda iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*5 aprel 1993-u il*

## NAXÇIVANIN QONAQLARI

Bu günlərdə Naxçıvan Muxtar Respublikası Qadınlar Cəmiyyətinin dəvəti ilə İran İslam Respublikası Qərbi Azərbaycan vilayəti Qadınlar Cəmiyyəti üzvlərinin bir qrupu Naxçıvana gəlmişdir.

Urmiyalı qonaqlar Şəhriyar beynəlxalq konqresi çərçivəsində Naxçıvan şəhərində keçirilən ədəbi-bədii gecədə iştirak etmiş, Şərur rayo-

nunda olmuş, Şəhidlər xiyabanını ziyarət etmiş, muxtar respublikanın ictimai-mədəni həyatı ilə yaxından tanış ola bilmişlər.

Aprelin 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev burada səfərdə olan Qərbi Azərbaycan vilayəti Qadınlar Cəmiyyətinin nümayəndələrini onların xahişi ilə qəbul etmişdir.

Qadınlar Cəmiyyətinin sədri Jalə Əfşar Qərbi Azərbaycanın Valisi Əli Səadətinin səmimi salamını Heydər Əliyevə çatdırmışdır. O, İranın ictimai həyatında qadın təşkilatlarının yeri və rolu haqqında məlumat vermiş, lki ölkə arasında qarşılıqlı əlaqələrin genişlənməsi istiqamətində görülən tədbirlərdən danışmışdır.

Heydər Əliyev İran İslam Respublikası ilə Azərbaycan Respublikası, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin bütün sahələrdə inkişaf etməsində və dərinləşməsində qadın təşkilatlarının müstəsna rolu olduğunu bildirmiş, qarşılıqlı mənəvi-tarixi dəyərlərin bərpa olunması kimi zəruri və faydalı işdə o taylı-bu taylı Azərbaycanın qadın təşkilatlarına uğurlar arzulamışdır.

Qərbi Azərbaycan Qadınlar Cəmiyyətinin üzvlərindən Məryəm Bakiri, Səkinə Sidqi, Mənijə Cəfəri, Mehrəngiz və başqaları İranın çoxmilyonlu qadınları adından bu ağır günlərdə qəlbən bütün azərbaycanlılarla birgə olduqlarını, onların haqq işlərini müdafiə etdiklərini bildirmişlər.

Söhbət mehribanlıq və səmimilik şəraitində keçmişdir.

Ali Məclisdə qəbulda Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini Sevil Zeynalova, Naxçıvan Muxtar Respublikası Qadınlar Cəmiyyətinin sədri Sənubər Kərimova, İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Məhəmməd Sadeq Turi iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*14 aprel 1993-cü il*

## TÜRKİYƏYƏ QISA SƏFƏR

Aprel ayının 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin yaxın bölgələrinə işgüzar səfərə getmişdir.

Sədərək-Dilucu körpüsündə Heydər Əliyevi Aralıq qəzasının kaymakanı Həsən İpək qarşılamışdır.

Sərhəd mühafizə dəstəsi rəhbərləri və gömrük işçiləri ilə söhbət olmuşdur.

Heydər Əliyev buradan İqdır vilayətinə getmişdir. Onu İqdırın valisi Ərdoğan İzgi, bələdiyyə başqanı Əli Ağrı və digər rəsmi şəxslər qarşılamışlar. Həmin gün vertolyotla İqdıra gələn Türkiyə Respublikasının dövlət naziri Orxan Kilərçioğlu ilə Heydər Əliyevin görüşü olmuşdur. Səmimi və işgüzar söhbətdən sonra Heydər Əliyev və Orxan Kilərçioğlu İqdırın bələdiyyə idarəsinə gəlmiş, şəhərin mərkəzi meydanında keçirilən böyük mitinqdə iştirak etmişlər.

Dövlət naziri Orxan Kilərçioğlu mitinqdə çıxış edərək Türkiyə hökumətinin həyata keçirdiyi iqtisadi tədbirlərdən danışmışdır. Sonra o, Heydər Əliyevi səmimi salamlamışdır. Orxan Kilərçioğlu erməni ordusunun Azərbaycan torpaqlarını işğal etməsindən narahat olduğunu bildirmiş, suveren dövlətin ərazisinin işğalına son qoyulmasını tələb etmişdir.

Mitinq iştirakçıları tərəfindən hərarətli alqışlarla qarşılanan Heydər Əliyev İqdır əhalisinə, bütün türk xalqına səmimi salamlarını və xoş arzularını çatdırmış, "həsrət körpüsü" istifadəyə veriləndən sonra xalqlarımızın bir-birinə daha da yaxınlaşdığından, əlaqələrin genişləndiyindən danışmışdır.

Heydər Əliyev Süleyman Dəmirəlin başçılıq etdiyi koalisyon hökumətin 500 günlük fəaliyyətini, bunun məntəqədə barış, təhlükəsizlik və əməkdaşlıq üçün etibarlı zəmin yaratdığını bildirmişdir. Heydər Əliyev demişdir ki, Azərbaycan Respublikası, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Türkiyə ilə əlaqələrin genişləndirilməsinə çalışır. Bu, qardaş xalqların həyati mənafeyinə xidmət edir.

Ermənistan təcavüzünün qarşısını almaq uçün Azərbaycan xalqının qanlı döyüşlər aparmasından danışan Heydər Əliyev demişdir ki, xalq azğın işğalçıları geri oturdacaq, öz torpağını müdafiə edəcəkdir.

Meydandan "Erməni işğalçılarına ölüm!", "Azərbaycandan əlini çək" çağırışları uzun müddət kəsilməmişdir.

Heydər Əliyev və Orxan Kilərçioğlu son aylar Türkiyəyə gələn və İqdır vilayəti ərazisində yaşayan axıska türklərinin yanına getmişlər.

İqdırın Doğu Bəyazid məhəlləsində müvəqqəti olaraq axıska türklərinin 100 ailəsi yerləşdirilmişdir. Rusiya Federasiyasının müxtəlif yerlərindən və Özbəkistandan daha 50 ailə buraya köçürüləcəkdir.

Qonaqlarla görüşə toplaşan axıska türkləri ilə mehriban söhbət olmuş, təntənəli yığıncaq keçirilmişdir. Yığıncaqda İqdırın valisi Ərdoğan İzgi, dövlət naziri Orxan Kilərçioğlu və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev çıxış etmişlər.

Heydər Əliyev axıska türklərinin böyük bir qrupunun uzun müddət Azərbaycanda yaşadığından danışmış, öz yurdundan didərgin salınan axıska türklərinə qarşı yol verilən tarixi ədalətsizliyə son qoyulaçağını bildirmiş, türk xalqlarının birliyinin vacibliyini qeyd etmişdir.

Axıska türkləri adından İbrahim Razigil çıxış edərək köçkünlərə göstərilən qayğı və diqqətə görə minnətdarlığını bildirmiş, Azərbaycan xalqının axıska türklərinə olan həmrəyliyi və mehribanlığı üçün Heydər Əliyevə üzərində "Tanrı, türkü qoru!" sözləri əks olunmuş xalça bağışlamışdır.

Orxan Kilərçioğlu və Heydər Əliyev axıska türklərinin yaşadıqları evlərə baxmış, onların sosial-məişət problemləri ilə maraqlanmışlar.

Günün ikinci yarısı Heydər Əliyevlə İqdırın valisi Ərdoğan İzgi arasında danışıqlar olmuşdur.

Qarşılıqlı anlaşma və mehribanlıq şəraitində keçən söhbət zamanı tərəfləri maraqlandıran məsələlərə toxunulmuşdur. Naxçıvana ərzaq və digər yardımlar göstərilməsi barədə konkret təkliflərə baxılmışdır.

Türkiyə işgüzar dairələrinin və sahibkarların iştirakı ilə keçirilən söhbətdə qarşılıqlı iqtisadi əlaqələrin və sərhədyanı ticarətin genişləndirilməsi barədə razılıq əldə edilmişdir.

Heydər Əliyev Türkiyəyə səfəri ilə əlaqədar yerli mətbuat nümayəndələrinə və Türkiyə televiziyasına verdiyi müsahibədə səfərin işgüzar xarakter daşıdığını, Naxçıvanın iqtisadi və digər problemlərinin həlli ilə bağlı olduğunu bildirmişdir.

Həmin gün axşam Heydər Əliyev Naxçıvana qayıtmışdır.

Türkiyə Respublikasına səfərdə Heydər Əliyevi Türkiyənin Naxçıvandakı baş konsulu Orxan Ərtoğruloğlu və digər rəsmi şəxslər müşayiət etmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*17 aprel 1993-cü il.*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Uzun müddət iqtisadi blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq malları ilə təchizatında yaranmış çətinliklərlə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Respublikasının “Qızıl Ay” cəmiyyətinin baş direktoru Kamal Dəmirlə telefon danışıqları aparmış, Naxçıvana yardım göstərilməsini xahiş etmişdir.

1993-cü il aprel ayının 15-də Kamal Dəmir bildirmişdir ki, “Qızıl Ay” cəmiyyəti Naxçıvan Muxtar Respublikasına yardım etməyi qərara almış, 2 min 380 ton un, yağ, şəkər, düyü, makaron və digər ərzaq mallarının bu günlərdə Naxçıvan Muxtar Respublikasına göndərilməsi planlaşdırılmışdır.

Aprel ayının 16-da ərzaq malları yüklənmiş 7 böyük yük avtomobili Ankaradan Naxçıvana yola düşmüşdür.

Naxçıvanda ərzaq qıtlığı ilə əlaqədar Heydər Əliyev ilə Türkiyə Respublikasının kənd təsərrüfatı naziri Nəcməddin Cevhəri arasında telefon danışıqları olmuşdur.

Aprelin 16-da Nəcməddin Cevhəri Heydər Əliyevə məlumat vermişdir ki, Türkiyə Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Naxçıvan Muxtar Respublikasına 2 min ton buğda göndərmək haqqında qərar qəbul etmişdir.

Buğda Türkiyənin Diyarbəkir şəhərindən yüklənib yaxın günlərdə Naxçıvana göndəriləcəkdir.

1992-ci il mart ayının 24-də Ankarada Türkiyə Respublikası Hökuməti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi arasında bağlanmış müqavilədə Naxçıvan Muxtar Respublikasına kredit verilməsi nəzərdə tutulmuşdur.

Son günlər Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəllə aparılan danışıqlar nəticəsində bu kreditin 25 milyon Amerika dolları məbləğində istifadə olunması haqqında Türkiyənin "Ekzem bankı" qərar qəbul etmişdir. Ayrılmış kreditin 10 milyon dolları Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq malları ilə təchiz edilməsinə yönəldəcəkdir.

*21 aprel 1993-cü il*

## ALİ MƏCLİSDƏ QƏBUL

Aprelin 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Avropa Dövlətləri Birliyi komissiyasının büro rəhbəri Donanto Kiarinini və komissiyanın üzvü Riçard Levandovskini qəbul etmişdir.

Naxçıvanın iqtisadi vəziyyətini öyrənmək və humanitar yardım göstərmək üçün buraya gələn komissiya üzvləri təmsil etdikləri beynəlxalq təşkilatın yaxın vaxtlarda həyata keçirəcəyi tədbirlər barədə məlumat vermişlər.

Heydər Əliyev iqtisadi blokada vəziyyətində yaşayan muxtar respublikanın üzləşdiyi problemlərdən danışmış, humanitar yardım təşəbbüsü üçün Avropa Dövlətləri Birliyi komissiyasının rəhbərliyinə minnətdarlığını bildirmişdir.

Heydər Əliyev həmçinin muxtar respublikadakı qaçqınlara yardım məsələsinə diqqəti cəlb etmişdir.

Donanto Kiarini bildirmişdir ki, bu məsələ öyrəniləcək və respublika qaçqınlar komitəsi ilə birgə həll olunacaqdır.

İşgüzar şəraitdə keçən söhbətdə Naxçıvan Muxtar Respublikasının Baş naziri Şəmsəddin Xan-Babayev iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*21 aprel 1993-cü il*

## AMERİKALI QONAQLAR NAXÇIVANDA

May ayının 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Amerika Birləşmiş Ştatları dövlət departamentinin nümayəndəsi Robert Pulini və həmin ölkənin Azərbaycandakı səfirliyinin ticarət-iqtisadiyyat şöbəsinin müdiri Robert Silvermanı qəbul etmişdir.

Amerika Birləşmiş Ştatları dövlət departamenti nümayəndəsinin səfərində əsas məqsəd Ermənistanın blokadası nəticəsində Naxçıvanın düşdüyü vəziyyəti öyrənmək və regiona yardımın xüsusi proqramını hazırlamaqdır.

Heydər Əliyev qonaqlara Naxçıvanın üzləşdiyi problemlərdən danışmışdır. Ali Məclisin Sədri demişdir ki, onun bu ilin yanvar ayında Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klintona göndərdiyi məktubdan sonra Ağ ev Naxçıvan problemlərinə həssaslıqla yanaşmış, yardım kimi 1 milyon Amerika dolları məbləğində dava-dərman və tibb ləvazimatı göndərmişdir. Bunun üçün bir daha minnətdarlıq edən Heydər Əliyev Naxçıvanın hərtərəfli humanitar yardıma ciddi ehtiyacı olduğunu bildirmişdir.

Dövlət departamentinin nümayəndəsi demişdir ki, Amerika Birləşmiş Ştatları konqresinin azadlığın müdafiəsi aktı çərçivəsində Azərbaycana yardım göstərilməsi üzərində qoyduğu məhdudiyyətlərə baxmayaraq

onların hazırlayacaqları proqram əsasında qeyri-hökumət təşkilatları xətti ilə Naxçıvana yardım göndərilməsi davam etdiriləcəkdir. Robert Puli Muxtar Respublikanın ehtiyacları barədə ona verilən ətraflı məlumata görə Heydər Əliyevə təşəkkür etmiş və bildirmişdir ki, onda olan məlumatları vaxt itirmədən Amerika Birləşmiş Ştatları hökumətinə çatdıracaq, Naxçıvana yardımın tezləşdirilməsinə səy göstərəcəkdir.

Söhbət zamanı həmçinin yardımın Naxçıvana gətirilməsi yolları barədə fikir mübadiləsi aparılmışdır.

Amerikalı qonaqların Naxçıvana səfəri davam edirdi. Onlar muxtar respublikanın səhiyyə-sağlamlıq müəssisələrinin işi ilə tanış olacaq, sərhəd bölgələrinə gedəcəklər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*19 may 1993-cü il*

## NAXÇIVANIN KƏDƏRİ

Böyük türk dünyası dərin matəm içərisindədir. Türkiyə Respublikasının Prezidenti, türk xalqları qarşısında böyük xidmətləri olan görkəmli dövlət xadimi Turqut Özalın qəflətən vəfat etməsi hamımızı sarsıtmışdır. Heç birimiz xəyalımıza belə gətirməzdik ki, bir neçə gün əvvəl Turqut Özalın Bakıya gəlməsi ilə əlaqədar böyük sevincimiz belə ağır kədərlə əvəz olunacaqdır. Türk xalqının böyük oğlu Turqut Özalın vəfatı bütün türk aləmi üçün əvəzolunmaz itkidir.

Aprelin 19-da Naxçıvanda Türkiyənin Baş Konsulluğunun yerləşdiyi binaya bir-birinin ardınca dəstə-dəstə gələn naxçıvanlılar türk aləminə baş vermiş ağır itki üçün Türkiyənin Naxçıvandakı baş konsulu Orxan Ərtoğruloğluna öz dərin kədərlərini bildirir, canı bir, qanı bir qardaşlarımıza dərin hüznlə başsağlığı verirdilər.

Konsulluğa gələnlər mərhum Prezidentin qara haşiyəli portreti qarşısına gül dəstələri qoyur, öz ürək ağrılarını matəm kitabında izhar edirdilər.

Saat 12-də Heydər Əliyev başda olmaqla muxtar respublika Ali Məclisinin və Nazirlər Kabinetinin rəhbər işçiləri öz kədərlərini ifadə etmək və başsağlığı vermək üçün konsulluğa gəldilər. Heydər Əliyev matəm kitabına aşağıdakı sözləri yazdı: "Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın vəfatı Naxçıvan Muxtar Respublikası əhalisinin böyük kədərinə səbəb olmuşdur. Beynəlxalq aləmdə böyük dövlət xadimi, İslam aləminin, türk dünyasının görkəmli şəxsiyyəti, Azərbaycan xalqının böyük dostu olmuş Turqut Özalın əziz xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır. Türkiyə Cümhuriyyətinin hökumətinə, bütün türk qardaşlarımıza dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin".

Sonra Heydər Əliyev Türkiyə Respublikasının Naxçıvandakı baş konsulu Orxan Ərtoğruloğluna başsağlığı verərək dedi:

– Prezident Turqut Özalın vəfatı bizim hamımızı sarsıtdı. Turqut Özalın vəfatı bütün türk dünyası üçün, bütün qədirbilən insanlar üçün çox ağır itkidir. Naxçıvan Muxtar Respublikasının əhalisi bu günlər matəm içərisindədir. Biz Türkiyədə olan qardaş-bacılarımızla birlikdə matəm keçiririk. Türkiyə Cümhuriyyətinin sürətlə inkişaf etməsində Turqut Özalın böyük xidmətləri hamımıza məlumdur. Bu, bir çox dövlətlər, xalqlar üçün, o cümlədən Azərbaycan üçün böyük örnəkdir. Azərbaycan respublikası və Azərbaycan xalqı Turqut Özalın qayğısını, hörmət və ehtiramını həmişə hiss etmiş və qiymətləndirmişdir.

Turqut Özalın türk cümhuriyyətlərinə səfəri və xüsusən Azərbaycan Respublikasına gəlişi böyük bir tarixi hadisə olmuşdur. Bu səfər Azərbaycan respublikasının belə ağır günlərində bizim üçün böyük mənəvi dayaq idi. Bunu xalqımız heç vaxt unutmayacaqdır. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası Türkiyə ilə sərhədboyu bağlı bir məntəqədir. Bildiyiniz kimi muxtar respublika son dövrdə çətin anlar keçirir. Ermənistanın təcavüzü nəticəsində Naxçıvan iqtisadi blokada şəraitində yaşayır. Bu dövrdə Turqut Özalın, Türkiyə Respublikasının Baş nazirinin və başqa dövlət rəhbərlərinin Naxçıvan Muxtar Respublikasına xüsusi münasibəti və yardımı bizim bu ağır vəziyyətdən çıxmağımıza çox kömək etmişdir. Mən şəxsən Turqut Özalı 10 ilə yaxın bir dövrdür ki, yaxından tanıyıram. Bizim yaxın münasibətlərimiz, dostluq əlaqələrimiz olub. Mən dəfələrlə onunla görüşmüşəm. Görüşlə-

rimizdə, söhbətlərimizdə həmişə çox yüksək zəka sahibi, çox böyük təcrübəli siyasi, ictimai və dövlət xadimi olduğunun şahidi olmuşuq. Mərhum prezident hər dəfə bizi çox böyük hörmət və ehtiramla qəbul edib, Türkiyənin Naxçıvana xüsusi münasibətini qeyd etmişdir. Ona görə də bu günlər biz bir daha Türkiyə Cümhuriyyətinə öz minnətdarlığımızı bildiririk. Türkiyə Böyük Millət Məclisinə, Türkiyə hökumətinə və onun Baş naziri Süleyman Dəmirələ, bütün türk qardaşlarımıza dərin hüznlə başsağlığı veririk. Bildirmək istərdik ki, bu ağır günlərdə Azərbaycan, o cümlədən bütün Naxçıvan əhalisi bir daha türk qardaşlarımızla bir yerdədir. Allah Turqut Özala rəhmət eləsin, qəbri nurla dolsun. Onun gördüyü işlər həm Türkiyədə və həm də türk dünyasında öz davamını tapacaqdır. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında qardaşlıq və dostluq əlaqələri bundan sonra daha da möhkəmlənəcəkdir.

Türkiyə Respublikasının Naxçıvandakı baş konsulu Orxan Ərtoğruloğlu Heydər Əliyevə və onun şəxsində bütün Naxçıvan əhalisinə, onların dərdinə şərik çıxdıqları üçün son dərəcə mütəəssir olduğunu bildirdi və səmimi təşəkkür etdi.

Naxçıvanda matəm mərasimi davam edirdi.

*"Şərq qapısı" qazeti, 21 aprel 1993-cü il*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1993-cü il aprel ayının 19-dan 25-dək Türkiyə Respublikasında səfərdə olmuşdur. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəylə birlikdə Türkiyə Respublikasının Prezidenti Turqut Özalın Ankarada və İstanbulda keçirilən matəm mərasimlərində iştirak etmişdir.

Heydər Əliyev Turqut Özalın ailəsini ziyarət etmiş, mərhum Prezidentin həyat yoldaşı Səmra Özala və ailə üzvlərinə ağır itki münasibətilə başsağlığı vermişdir.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası adından Türkiyə Böyük Millət Məclisinin Sədri Hüsaməddin Cindoruqa və Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirələ başsağlığı vermişdir.

Ankarada olarkən Heydər Əliyev Turqut Özalın dəfn mərasimində iştirak etmək üçün buraya gəlmiş Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Gürcüstan parlamentinin sədri, dövlət başçısı Eduard Şevardnadze, Ermənistan Respublikasının Prezidenti L. Ter-Petrosyan, Rusiya Federasiyası Baş nazirinin müavini Georgi Xija, İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayəti ilə, digər dövlətlərin nümayəndə heyətlərinin başçıları ilə görüşmüş və söhbətlər etmişdir.

Türkiyə Respublikasının Prezidenti Turqut Özalın dəfn mərasimi başa çatdıqdan sonra Heydər Əliyev İstanbuldan Ankaraya qayıtmış, aprelin 23-də və 24-də Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı və blokada ucbatından burada yaranmış problemlərin həlli ilə əlaqədar Türkiyə hökuməti nazirləri ilə işgüzar görüşlər keçirmişdir.

Heydər Əliyev aprelin 23-də Türkiyə Böyük Millət Məclisinin Türkiyə Respublikasının yaradılmasının 73-cü ildönümünə həsr olunmuş iclasında iştirak etmişdir.

Aprel ayının 24-də Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl Heydər Əliyevi qəbul etmişdir. Görüş zamanı Naxçıvan Muxtar Respublikasının iqtisadi problemləri və Naxçıvana maddi yardım məsələləri müzakirə olunmuşdur. 24 mart 1992-ci il tarixdə Ankarada imzalanmış iş birliyi prtokoluna əsasən Türkiyə hökuməti tərəfindən Naxçıvan Muxtar Respublikasına ayrılmış kreditin 25 milyon Amerika dolları məbləğində hissəsinin yaxın günlərdən başlayaraq istifadə olunması haqqında qərar qəbul olunmuşdur. Süleyman Dəmirəl Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin daha da sürətlə genişlənməsinə və inkişaf etməsinə bundan sonra da səy göstərəcəyini, Naxçıvan Muxtar Respublikasının problemlərinin həlli məsələlərini xüsusi diqqət mərkəzində saxlayacağını bildirmişdir. Heydər Əliyev Türkiyə Respublikasının Kənd Təsərrüfatı naziri Nəcməddin Cevhəri və "Qızıl Ay" cəmiyyətinin baş direktoru Kamal Dəmirlə də

görüşmüş və danışıqlar aparmışdır. Naxçıvan Muxtar Respublikasına yardım məqsədilə Türkiyənin Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 2 min ton buğda və "Qızıl Ay" cəmiyyəti tərəfindən 2 min 330 ton müxtəlif ərzaq malları göndərilməsi haqqında razılıq əldə edilmişdir. Yaxın vaxtlarda Türkiyə Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin bir qrup mütəxəssisinin Naxçıvan Muxtar Respublikasına gəlməsi nəzərdə tutulmuşdur.

Aprel ayının 24-də Heydər Əliyev Ankarada Türkiyənin "Ana Vətən" partiyasının başçısı Məsud Yılmazla görüşmüşdür. Tərəflər mühüm ictimai-siyasi proseslər haqqında fikir mübadiləsi aparmışlar.

Heydər Əliyev aprelin 25-də Naxçıvana qayıtmışdır.

*28 aprel 1993-cü il*

## *ANKARA TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLƏ*

Hörmətli Süleyman Dəmirəl!

Sizi Türkiyə Cümhuriyyətinin Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Türkiyə Cümhuriyyətinin inkişafında və möhkəmlənməsində əvəzsiz xidmətləriniz, beynəlxalq məsələlərin həll olunmasında böyük fəaliyyətiniz, müsəlman-türk xalqlarının hüquqlarının müdafiəsində cəsarətli addımlarınız Sizə böyük hörmət qazandırmış, Sizi görkəmli dünya liderlərindən biri kimi tanıtmışdır.

Müstəqil Azərbaycan Respublikasının qarşısında duran problemlərin həll olunmasına qardaşlıq münasibətiniz Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

Ağır blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına daimi göstərdiyiniz qayğı və diqqətə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Əminik ki, bundan sonra da Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasındakı dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsinə və inkişaf etməsinə səy göstərəcəksiniz.

Yüksək vəzifənizdə Sizə qardaş Türkiyə xalqının rifahı naminə, türk dünyasının inkişafı naminə, bütün dünyada sülhün, əmin-amanlığın təmin olunması üçün uğurlar diləyirəm. Möhkəm cansağlığı, uzun ömür arzulayıram.

Dərin hörmətlə

**Heydər ƏLİYEV,**
**Naxçıvam Muxtar Respublikası**
**Ali Məclisinin Sədri**

*Naxçıvan şəhəri, 16 may 1993-cü il*

## M Ü Q A V İ L Ə

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Heydər Əliyevlə İran İslam Respublikasının xarici işlər naziri cənab Əli Əkbər Vilayəti arasında 24 avqust 1992-ci il tarixdə Tehran şəhərində imzalanmış protokolun, Azərbaycan-İran müştərək iqtisadi komissiyasının qəbul etdiyi qərarların icrası ilə əlaqədər İran İslam Respublikasının Qərbi Azərbaycan ostandarı cənab Qurbanəli Səadətin rəhbərliyi ilə ostandarlığın ali rütbəli şəxsləri Ali Məclisin rəhbərliyi tərəfindən Naxçıvan Muxtar Respublikasına dəvət olunmuş və Ali Məclisdə onlarla görüş keçirilmişdir.

Görüş dostluq və qardaşlıq şəraitində keçmiş, ağayi Səadətin rəhbərliyi ilə Naxçıvana gəlmiş yüksək rütbəli nümayəndə heyətinin üzvləri ilə Naxçıvan Muxtar Respublikasının nazirlikləri və baş idarələrinin rəhbərliyi arasında fikir mübadiləsi keçirilmişdir.

Görüşlər muxtar respublikanın Babək və Şərur rayonlarında davam etdirilmişdir. Görüşlər zamanı Naxçıvan tərəfi İran İslam Respublikasına muxtar respublikaya 2 il müddətinə humanitar yardım, ərzaq, yanacaq alınması və qaçqınlar üçün zəruri məişət ehtiyaclarının təmin

edilməsi məqsədilə 1 milyon Amerika dolları məbləğində yardım etdikləri üçün dərin təşəkkür və minnətdarlığını bildirmişdir.

Həmçinin İran nümayəndə heyəti danışıqları Bakıda Azərbaycan Respublikasının rəhbərləri - Baş nazir, onun birinci müavini, Ticarət naziri, Gömrük komitəsinin sədri, Sərhəd qoşunlarının rəisi və Xarici Əlaqələr nazirinin müavini ilə davam etdirmişdir.

Bu görüşlərdə Qərbi Azərbaycanın ostandarlığı ilə Naxçıvan Muxtar Respublikası arasında Poldəşt və Şahtaxtı məntəqələrində müştərək bazarın fəaliyyətinin gücləndirilməsi, Şahtaxtı-Poldəşt keçid məntəqəsində gediş-gəlişin təmin olunması üçün şərait yaradılması məqsədə müvafiq hesab edilmişdir.

Tərəflər iqtisadiyyat, səhiyyə, mədəniyyət, ticarət və təhsil sahələri üzrə aşağıda qeyd olunanları yerinə yetirməyi öz öhdələrinə götürdülər.

1. İran tərəfi Naxçıvan Muxtar Respublikası ərazisində erməni təcavüzü zamanı yaralananları müalicə etmək məqsədilə hər dəfə 10 nəfər yaralının Qərbi Azərbaycan ostandarlığında müalicə üçün qəbul edilməsini, döyüşlər zamanı şikəst olmuş vətəndaşlara protez qoyulmasını və əlillər üçün 10 ədəd araba (vilçer) verməyi öhdəsinə götürür.

2. Naxçıvan Muxtar Respublikasının təklifinə əsasən İran İslam Respublikasının Qərbi Azərbaycan ostandarlığı Naxçıvan şəhərindəki Came məsçidi nəzdində mədrəsənin tikilib başa çatdırılmasını, tikintisinə başlanmış məsçidlərin tamamlanmasını öz öhdəsinə götürür.

3. Mədəni əlaqələrin genişləndirilməsi və daha da möhkəmləndirilməsi məqsədilə Urmiya şəhərində Naxçıvan günləri, Naxçıvan Muxtar Respublikasında Urmiya günləri keçirmək qərara alınır.

4. İran tərəfi muxtar respublika radio-televiziya şirkəti ilə İran televiziya şirkətinin birgə əməkdaşlığını daha da genişləndirmək məqsədilə 1 komplekt Trans-koder və VEÇS video kassetləri verməsini öz öhdəsinə götürür.

5. İran tərəfi muxtar respublikada fars dili fənninin tədrisi və fars dili təmayüllü məktəblərə kitab və digər dərs ləvazimatları verməyi, müəllimlərlə təmin etməyi, fars dili tədris olunan sinif otaqlarının təchizini öz öhdəsinə götürür.

6. İran tərəfi səhiyyə xidməti sahəsində əlaqələri genişləndirmək, muxtar respublikanın səhiyyəsində ehtiyac olan dərman preparatları, digər tibb ləvazimatı, uşaq xəstəxanalarının dərman və quru südlə təmini, Naxçıvan şəhərində bronxial astmalı xəstələrin müalicəsi üçün ayrılmış xəstəxana binasının təmirini və avadanlıqla təchizini öhdəsinə götürür.

- bu bəndin icrası ilə əlaqədar Qərbi Azərbaycanın Ostandarlığı yaxın müddətdə Naxçıvan Muxtar Respublikasına həkim nümayəndələri göndərəcək.

7. İran tərəfi il ərzində öz hesabına Naxçıvan Muxtar Respublikasından 300 nəfərin Məşhədə ziyarətə getməsini, sahibsiz və kimsəsiz adamların bir qisminə ərzaq yardımı göstərilməsini öhdəsinə götürür.

8. İran tərəfi Naxçıvan Muxtar Respublikasının şəhid ailələrinin üzvlərindən İranın bir sıra şəhərlərinə ziyarətə və səyahətə getməsini öz öhdəsinə götürür.

9. İran tərəfi Babək və Şərur rayonlarında sosial problemlərin həlli məqsədilə çörək məmulatı və sair ticarət malları satmağına hazır olduğunu bildirir.

10. Naxçıvan tərəfi öhdəsinə götürür ki, yuxarıda qeyd olunan bəndlərin icrası üçün lazım olan bütün şəraiti yaratsın.

Bu müqavilə hicreyi-şəms tarixi ilə 1372-ci ilin ikinci ayının 23-də, miladi tarixi ilə 1993-cü il may ayının 13-də Naxçıvan şəhərində iki nüsxədən ibarət Azərbaycan və fars dillərində imzalanmışdır və hər ikisi eyni qüvvəyə malikdir.

**Azərbaycan Respublikasının**
**Naxçıvan Muxtar**
**Respublikası adından**
**Ali Məclisin Sədri**
**Heydər ƏLİYEV**

**İran İslam**
**Respublikası**
**adından Qərbi**
**Azərbaycan ostandarı**
**Qurbanəli SƏADƏT**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Mayın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Amerika Beynəlxalq Yardım və İnkişaf Agentliyinin - ADVİNTİN direktorunun sağlamlıq məsələləri üzrə baş müşaviri doktor Cerald V. Vaythauzu və həmin agentliyin Avropa-Asiya bölməsinin direktoru Pavel M. Kulakovu qəbul etmişdir.

Blokada nəticəsində yaranmış problemlərin həllinə köməklik və humanitar yardım göstərilməsi məqsədilə Naxçıvana gələn Cerald V. Vaythauz və Pavel M. Kulakov qeyri-hökumət təşkilatı kimi Amerika beynəlxalq yardım və inkişaf agentliyinin fəaliyyəti barədə məlumat vermişlər.

Humanitar yardım təşəbbüsünə görə ADVİNTİN nümayəndələrinə minnətdarlığını bildirən Heydər Əliyev regionda yaranmış problemlər barədə danışmış, əməkdaşlığın bundan sonrakı təşkili məsələlərinə toxunmuşdur.

Cerald V. Vaythauz qaçqınlarla bağlı problemlərin öyrənilməsinin asanlaşdırılması məqsədilə Bakıda və Naxçıvanda Amerika beynəlxalq yardım və inkişaf agentliyinin - ADVİNTİN müvafiq şöbələrinin açılacağını bildirmişdir.

Heydər Əliyev Naxçıvanın ərazi etibarilə Azərbaycandan ayrı düşdüyünü, blokada nəticəsində dəmir yolunun işləmədiyini bildirərək yardımın təyyarə ilə Naxçıvana gətirilməsi, yaxud bunun Türkiyə Respublikası ərazisindən daşınması təklifini irəli sürmüşdür. Müzakirə olunan məsələlər barədə razılıq əldə olunmuşdur. ADVİNTİN nümayəndələri həmin gün Sədərək rayonuna getmişlər.

*26 may 1993-cü il*

## ALİ MƏCLİSDƏ QƏBUL

İyun ayının 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev İran İslam Respublikasının "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu prezidentinin müavini Mahmud Əhmədpurun başçılığı ilə buraya gələn nümayəndə heyətini qəbul etmişdir.

Mahmud Əhmədpur Qurban bayramı münasibətilə Heydər Əliyevi təbrik etmiş, ona və bütün azərbaycanlılara dost İran xalqı adından xoş arzularını çatdırmışdır.

Səmimi təbrikə görə təşəkkürünü bildirən Heydər Əliyev söhbətə işgüzar xarakter verərək ötən il avqust ayının 24-də Tehran şəhərində onunla "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust arasında bağlanan müqavilə şərtlərinin yerinə yetirilməsinin sürətləndirilməsi zəruriliyindən danışmışdır. Tərəfləri maraqlandıran məsələlər ətrafında qısa fikir mübadiləsindən sonra Mahmud Əhmədpur Heydər Əliyevin xahişi ilə "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun vəsaiti hesabına Naxçıvan şəhərində inşa olunan yeni məsçid binasında tikinti işlərinin gedişi barədə məlumat vermişdir. İşin sürətləndirilməsi və bunun üzərində hər iki tərəfdən nəzarətin gücləndirilməsi barədə razılıq əldə olunmuşdur.

Həmin gün Heydər Əliyevlə "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust arasında bağlanmış müqaviləyə əsasən Naxçıvan şəhərində bu fondun müasir tələblərə cavab verən ticarət mərkəzinin təntənəli açılışı olmuşdur. Heydər Əliyev və Mahmud Əhmədpur, İran İslam Respublikasının Naxçıvanda Baş konsulu Məhəmməd Sadeq Turi ticarət mərkəzinin işi ilə tanış olmuş, elə buradaca nümayiş etdirilən xalq istehlakı malları sərgisinə baxmışlar. Ali Məclisin Sədrinə məlumat verilmişdir ki, malların sərgidə nümayişi ilə yanaşı, qabaqcadan sifariş əsasında onların İrandan gətirilib alıcıya çatdırılması xidməti də fəaliyyət göstərir. Ticarət mərkəzinin açılışı münasibətilə keçirilən yığıncaqda çıxış edən Heydər Əliyev bunu əməkdaşlıq sahəsində mühüm addım adlandırmış, qarşılıqlı əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyini bildirmişdir.

Heydər Əliyev və Mahmud Əhmədpur onları müşayiət edən rəsmi şəxslərlə birgə "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun Naxçıvanda inşa etdiyi məsçid binasının yerinə baxmış, tikinti işlərinin gedişi ilə tanış olmuşlar.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Mətbuat Xidməti**

*1 iyun 1993-cü il*



FƏSİL VII

# Bakı çağırır. Xalqın tələbi - haqqın təməli

*"Ömrümün bundan sonrakı hissəsini... yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm."*

**Heydər ƏLİYEV**
Azərbaycan Respublikası
Milli Məclisinin
iclasındakı çıxışdan

*15 iyun 1993-cü il*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti Rəyasət Heyətlərinin birgə iclasının**

**PROTOKOLUNDAN**

*(7 iyun 1993-cü il)*

**Heydər Əliyev** (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri): Bu gün sizi yığmaqda əsas məqsədim Gəncədə baş vermiş hadisələrə öz münasibətimizi bildirməkdir. Gəncədə nə baş verib, məlum deyil. Mən Elçibəylə telefonla danışdım. O mənə bildirdi ki, Surət Hüseynov qoşun qaldıraraq dövlətə qarşı çıxıb. Bildiyimizə görə, bir neçə ağsaqqal Surət Hüseynovla danışıq aparmaq üçün Gəncəyə gedib. Hələlik heç nə məlum deyil. Belə bir təklif var ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu hadisəyə öz münasibətini bildirsin və bəyanat qəbul etsin.

**Q. Məmmədov** (Naxçıvan MR Ali Məclisi Sədrinin müavini): Danışıq aparılmasına baxmayaraq heç bir nəticə əldə olunmayıb. Surət və onun tərəfdarları tərksilah olmaq istəmirlər...

*Təklif olunur ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabinetinin Rəyasət heyətlərinin birgə bəyanatı oxunsun. Bəyanatı oxumaq uçun söz Ali Məclisin Rəyasət Heyətinin üzvü, mətbuat xidmətinin rəhbəri Əli Həsənova verilir. O bəyanatı oxuyur.*

**Q. Məmmədov:** Qarşıdurma ancaq dövlət mənafeyi nəzərə alınmaqla həll olunmalıdır.

**Heydər Əliyev:** Hələlik bizə heç nə aydın olmadığından qəti bir fikir deyə bilmərik. Deyilənlərə görə milli qvardiyanın rəhbəri vurulub. Ona görə də mən konkret bir fikir demək üçün bütün məsuliyyəti öz üzərimə götürə bilmərəm. Günahkar şəxslər və bu hadisəni törədənlər məsuliyyətə cəlb olunmalıdırlar.

**R. Həsənov** (Naxçıvan MR Ali Məclisi Sədrinin birinci müavini): Mənə belə gəlir ki, bəyanat çox yaxşı yazılıb, ancaq bu bəyanata dövlətçilik sözü əlavə olunsa, heç bir xələl gətirməz.

**A. Kələntərli** (Naxçıvan MR Ali Məclisi Sədrinin müavini): Qiyam qaldıranların rəhbərliyi ilə dəfələrlə söhbətlər aparılıb. Lakin nəticəsi yoxdur. Dövlət qoşunlarından da, quldurluq edənlərdən də ölənlər vardır. İndi qiyamçılar Samux rayonuna hücum ediblər. Mənim fikrimcə, silahlar yerə qoyulmalıdır.

**Heydər Əliyev:** Bizim bəyanatımız xalq birliyinə və sülhə, barışığa yönəlməlidir. Bu cinayətkarlığın təşkilatçıları məsuliyyətə cəlb olunmalıdırlar.

**F. Şirzadov** (Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin üzvü): Biz mühüm bir məsələni müzakirə edirik. Prezidentin əmri yerinə yetirilməyib. Rus orduları Gəncədən gedəndən sonra onların silahlarını toplayıb dövlətə qarşı çıxmış və çevriliş etmişlər. Biz bu baxımdan çıxış etməliyik.

**M. Rəhimov** (Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin üzvü): Cinayətkar ünsürlər qarşı duran tərəf deyil. Dövlətin hərəkatına qarşı çıxış bilavasitə çevriliş deməkdir. Naxçıvanın mövqeyi Azərbaycanda qiymətləndirilməlidir. Bu, ancaq dövlətə qarşı mübarizədir. Biz bəyanatımızda qəti fikrimizi bildirməliyik.

**A. Kələntərli:** Biz öz bəyanatımızda Prezidentimizin adını çəkməli, xalqı Prezidentin ətrafında birləşdirməyə çağırmalı və öz mövqeyimizi bildirməliyik.

**Heydər Əliyev**: Bizim bəyanatımız siyasi əhəmiyyət daşımalıdır. Biz bu bəyanatda hadisələrə siyasi qiymət verməliyik. Xalq faciə - vətəndaş müharibəsi qarşısındadır. Buna heç cür yol vermək olmaz. Araşdırıldıqdan sonra biz həmin məsələni geniş müzakirə edib, öz qəti fikrimizi deməliyik.

*Bəyanat səsə qoyulur və yekdilliklə qəbul olunur.*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN VƏ NAZİRLƏR KABİNETİNİN RƏYASƏT HEYƏTİNİN BƏYANATI

İyun ayının 4-də Gəncə şəhərində başlanmış və bu günə qədər davam edən hadisələr bizdə ciddi narahatlıq doğurur. Şəhərdə qan tökülüb, normal həyat pozulub. Faktiki olaraq vətəndaş müharibəsi başlanıb. Müstəqil Azərbaycan Respublikasının indiki ağır və kəşməkəşli, tarixən məsuliyyətli bir dövründə baş verənləri dəhşətli hadisə kimi qiymətləndirir, qardaş qanı tökülməsini pisləyirik.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabineti qətiyyətlə bildirirlər ki, bunların qarşısı dərhal alınmalıdır. Hamını bu yolda milli birliyə, vətəndaş həmrəyliyinə dəvət edirik. Əminik ki, Gəncə hadisələri diqqətlə araşdırılacaq, mübahisəli məsələlər bütün Azərbaycan xalqının mənafeyi, milli dövlət quruculuğu naminə danışıqlar, qarşılıqlı anlaşma və sülh yolu ilə həll ediləcəkdir.

Gəncə hadisələrində həlak olanların hamısına Allahdan rəhmət, yaxınlarına səbr və dözüm diləyir, başsağlığı veririk.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Rəyasət Heyəti**

**Naxçıvan Muxtar Respublikası**
**Nazirlər Kabinetinin Rəyasat Heyəti**

*Naxçıvan şəhəri, 7 iyun 1993-cü il*

# GƏNCƏDƏ VƏZİYYƏTƏ DAİR

Azərbaycan Respublikası Ali Sovetinin mətbuat xidməti məlumat verərək bildirmişdir ki, Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev iyunun 13-14-də Gəncə şəhərində olub.

Burada o, Azərbaycan Respublikası Ali Sovetinin deputatı Surət Hüseynovla, şəhər rəhbərləri ilə və onunla birlikdə Gəncə şəhərindəki vəziyyətə faktik nəzarət edən şəxslərlə görüşüb söhbət edib. Söhbətlərdə Gəncədə və ətraf rayonlarda yaranmış vəziyyət təhlil olunub və kəskin siyasi böhranın aradan qaldırılması yolları müzakirə edilib.

Heydər Əliyev və onu müşayiət edən şəxslər 1993-cü il iyunun 4-də qanlı hadisələrin baş verdiyi 130 və 709 №-li hərbi hissələrin ərazilərində olublar. Onlar Gəncə şəhərinin əhalisi ilə, hərbi qulluqçularla görüşüb söhbət etmiş və vətəndaşların, respublika və xarici ölkələrin kütləvi informasiya vasitələri nümayəndələrinin çoxsaylı suallarına cavab veriblər.

Səfərdə Heydər Əliyevlə birlikdə Azərbaycan Respublikası Baş nazirinin müavinləri Rəsul Quliyev, Abbas Abbasov, respublika Milli Məclisinin bəzi üzvləri olublar.

*"Şərq qapısı" qəzeti, 16 iyun 1993-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASİNİN MİLLİ MƏCLİSİNDƏ

İyun ayının 13-də çağırılan respublika Milli Məclisinin fövqəladə iclası iyunun 15-də öz işini davam etdirmişdir. Gündəlikdə bir məsələ dururdu: respublika Ali Soveti Sədrinin seçilməsi.

Bəzi təkliflərin olmasına baxmayaraq deputatlar bir səslə Ali Sovet Sədrinin seçilməsi məsələsini gündəliyə daxil etməyi qərara aldılar. Məclisin işində iştirak edən respublika Prezidenti Əbülfəz Elçibəy bu təklifə tərəfdar olduğunu bildirdi.

Gizli səsvermə yolu ilə Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi.

Ali Sovetin Sədri Heydər Əliyev Milli Məclis üzvləri qarşısında çıxış edərək ona göstərilən yüksək etimad üçün məclis üzvlərinə, Ali Sovetin deputatlarına və bütün Azərbaycan xalqına öz minnətdarlığını

bildirərək əmin etdi ki, əlindən gələn bütün imkanlardan istifadə edərək bu məsul vəzifəni layiqincə yerinə yetirməyə çalışacaqdır.

Heydər Əliyev dedi ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb vəziyyətini tam məsuliyyətlə dərk edərək bütün fəaliyyətini respublikanın bu vəziyyətdən çıxarılması işinə yönəldəcəkdir. Ali Sovetin Sədri kimi o, Azərbaycan Respublikasının tarixi nailiyyəti olan müstəqilliyi qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özünün ən əsas vəzifələrindən hesab edir. Azərbaycan Respublikasının müstəqilliyi 1918-ci ildə yaranmış ilk demokratik Azərbaycan Respublikasının ənənələri əsasında müasir tələblərə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır.

Heydər Əliyev sözünə davam edərək dedi:

- Bu sahədə mən nə lazımsa edəcəyəm və heç kəsin şübhəsi olmasın ki, mən ömrümün bundan sonra qalan hissəsini harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, Azərbaycan Respublikası bundan sonra heç vaxt müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq və heç bir başqa dövlətin əsarəti altına düşməyəcək. Bəzən belə şayiələr gəzir ki, guya keçmiş Sovetlər İttifaqının bərpa olunması və Azərbaycan Respublikasının da oraya daxil olması ehtimalı var. Bu, boş xülyadan başqa bir şey deyil. Mən bu fikirləri qətiyyətlə rədd edirəm və bütün Azərbaycan vətəndaşlarını da bu fikirləri rədd etməyə çağırıram.

Respublikanın qarşısında çox böyük və ağır vəzifələr durur. Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır. Azərbaycan Respublikasının vətəndaşları sülh və əmin-amanlıq şəraitində yaşayıb öz dövlətini özü istədiyi kimi qurmalıdır. Bu məsələ daim Ali Sovetin nəzər-diqqətində olmalıdır.

Dünən elan olunan ABŞ-ın, Rusiyanın və Türkiyənin təşəbbüsü nəticəsində imzalanmış sənəd bizim bu müharibə şəraitindən tədricən çıxmağımız üçün ilk addımdır. Bu sahədə gələcəkdə daha təsirli tədbirlər görülməlidir ki, Azərbaycan Respublikası özünün bütün ərazisinin sahibi olsun və xalqımız müharibə şəraitindən çıxa bilsin.

Beləliklə, Azərbaycan Respublikasının müstəqilliyi ən əsas məsələdir. Müstəqil dövlət kimi Azərbaycanda demokratiya inkişaf etməlidir, siyasi plüralizmə geniş yer verilməlidir. Azərbaycan Respublikasında heç vaxt konstitusiya pozuntusuna, qanun pozuntusuna yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında getməlidir. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hüriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat bərqərar olunmalıdır. Bu, düzgün yoldur, doğru yoldur. Bizim respublika bu yolla getməlidir. Əmin ola bilərsiniz ki, mən bu yola həmişə sadiq olacağam.

Heydər Əliyev sözünə davam edərək demişdir ki, indi bizim respublikanın gərgin vəziyyətdə olmasının əsas səbəblərindən biri də iyun ayının 4-də Gəncədə baş vermiş hadisələrdir. Bu hadisələr dəhşətlidir. Qan tökülüb, cinayət törədilib. Bunlar araşdırılmalıdır və qanunu pozmuş bütün adamlar, cinayətdə iştirak edənlər, cinayəti törədənlər hansı tərəfdən olmasından asılı olmayaraq qanun qarşısında məsuliyyət daşımalıdırlar. Bu məsələ ilə deputat-istintaq komissiyası məşğuldur.

Ancaq biz gərək tezliklə bu gərginliyi aradan qaldıraq. Bu barədə dünən Prezident Əbülfəz Elçibəylə bizim çox geniş söhbətimiz olub. Gəncədə də mənimlə gedən şəxslərlə birlikdə və təkbətək də mən danışıqlar aparmışam. Ona görə də güman edirəm ki, bizim bütün səylərimiz bu gərginliyi, qarşıdurmanı aradan götürməyi təmin edəcəkdir. Ancaq mən demişəm və bir də deyirəm ki, mən heç bir vəchlə silah işlədilməsinin tərəfdarı ola bilmərəm. Bu gərginlik, bu qarşıdurma yalnız sülh yolu ilə, barışıq yolu ilə, qarşılıqlı anlaşma yolu ilə, danışıqlar yolu ilə həll olunmalıdır.

Mən güman edirəm ki, bizim xalqın müdrikliyi, nüfuzlu adamların, Azərbaycan ziyalılarının, ağsaqqalların birgə səyi və bizim hamımızın bir yerdə çalışmamız bunları təmin edə biləcəkdir. Biz, demokratik, müstəqil respublika quraraq, sivilizasiyalı cəmiyyət uğrunda mübarizə apararaq dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik və çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən bəri ilk dəfə müstəqillik əldə etdikdən sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz tarixi milli ənənələrini nümayiş etdirə bilsin. Azərbaycan xalqının bu

sahədə həm tarixi, həm də müasir potensialı olduqca böyükdür. Əgər bunların hamısından səmərəli istifadə olunarsa, doğrudan da Azərbaycan həm tam müstəqil, demokratik bir dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulmuş bir demokratik cəmiyyət olacaqdır. Bunun üçün bizim həm elmimiz, həm mədəniyyətimiz, həm tarixi ənənələrimiz, həm dini mənbəyimiz olan İslam dini hamısı birlikdə çox böyük əsas yaradır. Bizim vəzifəmiz bundan ibarətdir ki, onlardan səmərəli istifadə edək.

Azərbaycanda gərginliyin səbəbi tək Qarabağ, yəni Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar deyil. İndi Gəncə hadisələri baş verib. Çox təəssüf ki, Azərbaycanda uzun illər yaşayan xalqlar, etnik qruplar arasında münasibətlər də indi müəyyən qədər pozulmuşdur. Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayanların vətəni olub və bundan sonra da vətəni olmalıdır.

Azərbaycan Respublikasının ərazisində yaşayan hər bir vətəndaş milli mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malik olmalıdır. Əgər biz bunu rəhbər tutsaq və əməli surətdə həyata keçirsək, Azərbaycan Respublikasında olan bütün xalqların, etnik qrupların tam birləşməsini təmin edə bilərik və şübhəsiz ki, biz bunu etməliyik.

Heydər Əliyev sözünə davam edərək dedi ki, son bir il müddətində xarici siyasət sahəsində şübhəsiz ki, çox iş görülmüşdür. Ancaq görüləsi işlər daha çoxdur. Mən güman edirəm ki, Azərbaycan Respublikası bir demokratik respublika kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Birinci növbədə bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi dövlət münasibətləri yaradılmalıdır. Bu baxımdan Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bütünlüklə bəyənilir. Qonşu İran Respublikası ilə bizim münasibətlərimiz daha da yaxşılaşdırılmalı və inkişaf etdirilməlidir. Rusiya çox böyük dövlətdir, bizim şimalda olan qonşumuzdur. Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra da inkişaf etdirilməlidir. Keçmiş Sovetlər İttifaqına daxil olan və indi müstəqillik əldə etmiş bütün dövlətlərlə - Ukrayna, Belarus, Orta Asiya, Qazaxıstan, Pribaltika, Moldova və başqa respublikalarla biz qarşılıqlı əlaqələr yaratmalıyıq. Bizim iqtisadi, mədəni əlaqələrimiz bu

dövlətlərlə uzun illər, yüzilliklərlə çox yaxın olubdur. Bu əlaqələri qırmaq olmaz. Onların inkişaf etdirilməsi şübhəsiz ki, Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir. Azərbaycan Respublikası artıq ümumdünya miqyasına çıxmışdır. Amerika Birləşmiş Ştatları tərəfindən respublikamıza olan münasibət hamımızı sevindirir və mən belə hesab edirəm ki, bu münasibətlər daha da genişləndirilib inkişaf etdirilməlidir. Avropa ölkələri ilə, xüsusən İngiltərə, Fransa, Almaniya və başqa ölkələrlə əlaqələrimiz daha da geniş olmalıdır. Ərəb ölkələri ilə, bütün müsəlman ölkələri ilə, türkdilli ölkələrlə əlaqələrimiz inkişaf etməlidir.

Bir sözlə, onu nəzərinizə çatdırmaq istəyirəm ki, mənim tutduğum mövqe bundan ibarətdir və mən Ali Sovetin sədri kimi bu istiqamətdə həm bizim Prezidentimizin fəaliyyətinin daha da uğurlu olmasına, həm Ali Sovetin, həm də Azərbaycan Respublikası hökumətinin fəaliyyətinin uğurlu olmasına çalışacağam.

Ancaq bunların hamısından ümdə məsələ Gəncədə baş vermiş hadisələri və bununla bağlı yaranmış gərginliyi aradan qaldırmaqdan ibarətdir. Mən burada, Milli Məclisin iclasında, bu tribunadan üzümü bütün Azərbaycan vətəndaşlarına, bizim qardaşlarımıza, bacılarımıza, övladlarımıza tutaraq deyirəm ki, bizim respublika indi ağır vəziyyətdədir. Hal-hazırda bizim ən mühüm vəzifəmiz, bir daha təkrar edirəm, işğal olunmuş torpaqlarımızı geri qaytarıb Azərbaycanın ərazi bütövlüyünü təmin etməkdən ibarətdir. Ona görə də bütün daxili ixtişaşlara, didişmələrə son qoyulmalıdır. Mən bütün Azərbaycan xalqına müraciət edirəm, mən Gəncə əhalisinə müraciət edirəm, mən Azərbaycan Respublikasının xalq deputatı Surət Hüseynova, onun silahdaşlarına müraciət edirəm, buradan onların hamısını müdrikliyə, insani münasibətlərə dəvət edirəm. İndi biz hamımız bir olmalıyıq. Ona görə də indi, Azərbaycanın bu faciəli dövründə bütün qüvvələr, bütün siyasi partiyalar, siyasi qurumlar, bütün siyasi və ictimai təşkilatlar hamısı birləşməli, hamı kin-küdurəti kənara qoymalıdır. Hamımız birləşib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmalıyıq.

Mən güman edirəm ki, Gəncə əhalisi, Gəncənin ətrafındakı rayonlarda yaşayanlar mənim bu çağırışımı eşidəcəklər, buna səs verəcək-

lər. Surət Hüseynov mənim bu çağırışımı eşidərək, özünü daha müdrik aparacaq və biz bu bəladan tamamilə qurtara biləcəyik. Mən sizin hamınızı birləşərək bu istiqamətdə fəaliyyət göstərməyə dəvət edirəm. Bütün kiçik hissiyyatları, dedi-qodunu kənara qoymaq lazımdır. İndi bunların vaxtı deyil.

Heydər Əliyev çıxışının sonunda əmin olduğunu bildirdi ki, bu gündən respublikada bütün qüvvələr birləşərək yaranmış vəziyyətdən çıxmaq üçün birgə fəaliyyət göstərəcək və tezliklə respublikada vəziyyət sabitləşəcəkdir.

*"Şərq qapısı" qəzeti, 22 iyun 1993-cü il*

## *AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ HEYDƏR ƏLİYEV XALQA MÜRACİƏT ETMİŞDİR*

İyunun 17-dən 18-nə keçən gecə Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin vəzifəsinin icrasını heç kimə həvalə etmədən qəflətən Bakını tərk edərək Naxçıvana getməsi, onunla heç bir əlaqə olmaması və hazırda harada olmasını müəyyən etmək mümkün olmadığına görə Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev iyunun 18-də saat 12.00-da respublika televiziyası ilə Azərbaycan xalqına birbaşa müraciət etmişdir.

Heydər Əliyev Bakıda və bütövlükdə respublikada yaranmış çox ağır vəziyyət haqqında xalqa ətraflı məlumat vermiş, hamını müdrikliyə, səbirli və təmkinli olmağa çağırmışdır.

*"Şərq qapısı" qəzeti, 22 iyun 1993-cü il*



# Bakı, Respublika Sarayı. 10 oktyabr 1993-cü il

*"Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm."*

**Heydər ƏLİYEV**

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİNDƏ

## N İ T Q İ

Əziz həmvətənlər!

Hörmətli xanımlar və cənablar!

Müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilməyimi yüksək qiymətləndirirəm və bu münasibətlə Azərbaycan xalqına, Azərbaycan Respublikasının bütün vətəndaşlarına öz hörmət və ehtiramımı, dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm.

Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm.

XX əsrin sonu dünyada köklü dəyişikliklərə səbəb olmuş siyasi proseslərlə əlamətdardır. Azərbaycan xalqı da bu proseslərdən kənarda qalmamış, nəhayət, əsrlərdən bəri bəslədiyi ümidlərinə, arzularına çatmış, öz müstəqilliyinə nail olmuşdur. Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi dünyada, keçmiş Sovetlər İttifaqında gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsidir. Azərbaycan Respublika-

sının müstəqilliyi tarixi bir hadisədir. Bu, Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir və bu müstəqilliyin əldə olunmasında hər hansı qrupun, hərəkatın, qüvvənin müstəsna xidmətləri olduğunu heç vəchlə qəbul etmək olmaz. Eyni zamanda Azərbaycanın müstəqilliyi respublika qarşısında, onun vətəndaşları qarşısında çox böyük və mürəkkəb vəzifələr qoyubdur. Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq - bu vəzifələr mənim Prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır və mən bunların həyata keçirilməsinə çalışacağam.

Azərbaycan Respublikası qədim tarixə, zəngin mədəniyyətə, böyük təbii sərvətlərə malikdir. Dövlət müstəqilliyi bunların hamısından Azərbaycan Respublikasının gələcək inkişafı üçün səmərəli istifadə etməyə şərait yaradır.

Bunlar bizim əsas vəzifələrimizdir. Azərbaycan Respublikası öz müstəqilliyini ağır və çətin şəraitdə əldə etmişdir. Respublika üçün ən ağır məsələ beş ildən artıq müddətdə Azərbaycanın müharibə şəraitində olması, erməni silahlı qüvvələri tərəfindən ərazimizə təcavüz edilməsi və bunun nəticəsində də Azərbaycan xalqının böyük bəlalara düçar olmasıdır. Ona görə də Azərbaycan Respublikasının müharibə şəraitindən çıxması və vətəndaşlar üçün rahat, sakit əmin-amanlıq şəraiti yaradılması qarşımızda duran əsas vəzifədir. Azərbaycanın ağır müharibə şəraitinə düşməsi, bu problem, yəni Qarabağ problemi başlanan dövrdən respublika rəhbərliyinin, keçmiş Sovetlər İttifaqı rəhbərliyinin buraxdığı səhvlərin nəticəsidir. Lakin təəssüf ki, ötən dövrdə respublikanın bu vəziyyətdən çıxması üçün lazımi tədbirlər görülməmişdir. Respublikanın düşdüyü ağır iqtisadi, sosial, siyasi-ictimai və mənəvi böhran axır zamanlar daha da dərinləşmiş və 1993-cü ildə, demək olar son həddə çatmışdır. Bu ilin iyun ayında Azərbaycanda daxili sabitlik tam pozulmuş, respublikada ayrı-ayrı qüvvələrin qarşıdurması, bəzi cinayətkar qrupların, separatçı qüvvələrin respublikanı parçalamaq meyil-

lərini həyata keçirmək istəməsi və başqa səbəblər daxili böhranı daha da dərinləşdirmişdir.

Azərbaycanın dövlət rəhbərliyinin buraxdığı kobud səhvlər nəticəsində iyun ayında respublikamız vətəndaş müharibəsi həddinə gəlib çıxmış və onun bəzi bölgələrinin parçalanması real bir hal kimi meydana çıxmışdır. Allaha şükürlər olsun ki, bunların qarşısı alındı, bəzi cinayətkar qruplar aradan götürüldü və respublikanın daxilində ictimai-siyasi sabitliyin təmin edilməsi üçün şərait yaradıldı. Son dörd ay bizim respublika üçün ağır və çətin bir dövr oldu. Bu müddətdə respublikamız, onun vətəndaşları böyük imtahanlardan çıxdılar və bir daha sübut etdilər ki, xalqın müdrikliyi, milli birlik və həmrəylik, vətəndaş birliyi bütün bu çətinliklərin qarşısını ala bilər və respublikanı bu ağır vəziyyətdən çıxarmaq üçün imkan yarana bilər.

Respublikanın daxilində nisbi sakitlik və sabitlik yaransa da, biz hələ böyük təhlükə altındayıq. Ermənistan silahlı qüvvələrinin beş ildən bəri davam edən təcavüzü nəticəsində Azərbaycan torpaqlarının bir qismi - təxminən 20 faizi işğalçıların əlinə keçibdir. Keçmiş Dağlıq Qarabağ vilayəti tamamilə işğal olunub, Azərbaycan xalqı üçün əziz və mötəbər olan Şuşa şəhəri artıq il yarımdır ki, əlimizdən gedibdir. Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarımız da erməni silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bunların nəticəsində yüzlərlə kəndlər, qəsəbələr, yaşayış məntəqələri dağılıb, evlər viran olub. Bu ərazilərdə yaşayan soydaşlarımız - bir milyona qədər vətəndaş doğma yerlərini tərk edib, qaçqın düşüb, ağır vəziyyətdə yaşayırlar. Bütün bunlar respublikanın ictimai-siyasi, mənəvi vəziyyətini gərginləşdirmişdir. Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı, qardaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır.

Əmin ola bilərsiniz ki, bir Prezident kimi mən bu vəzifəni özümün əsas vəzifəm hesab edirəm və bunu yerinə yetirmək üçün bütün Azərbaycan xalqının qüvvələrini səfərbər edib, bütün imkanlardan istifadə edib, bütün səylərimi sərf edib Azərbaycan xalqının istəyinə nail olacağam.

Beş ildən artıq davam edən müharibədən çıxmaq, işğal olunmuş torpaqları geri qaytarmaq, şübhəsiz, asan məsələ deyildir. Cəmiyyətimizdə cürbəcür fikirlər var: buna hansı yollarla nail olmaq olar? Biz, ümumiyyətlə, sülhsevər mövqe tutaraq, bu vəzifəni birinci növbədə sülh yolu ilə, danışıqlar yolu ilə həll etməyə üstünlük veririk. Bu baxımdan müstəqil Azərbaycan Respublikası diplomatik vasitələrdən səmərəli istifadə etməli, sülh danışıqlarını Azərbaycan Respublikasının mənafelərini təmin etmək yolu ilə aparmalı və bu danışıqlar nəticəsində məqsədimizə nail olmalıyıq. Biz Birləşmiş Millətlər Təşkilatının, ATƏM-in, BMT Təhlükəsizlik Şurasının, bu münaqişənin aradan qaldırılmasında iştirak edən böyük dövlətlərin və bütün beynəlxalq təşkilatların imkanlarından səmərəli istifadə edərək, Azərbaycanı müharibə şəraitindən çıxarmaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün bundan sonra da səy göstərəcəyik.

Ancaq bununla yanaşı, Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir.

Qeyd etmək lazımdır ki, beş il ərzində gedən müharibə nəticəsində Azərbaycan xalqı böyük sınaqlardan çıxıb, qələbənin də, uğursuzluğun da nəticələrini görübdür. Bu müharibə bizim üçün böyük faciədir. Eyni zamanda bu müharibədə Azərbaycan xalqının gücü, qüdrəti, qəhrəmanlığı, müdrikliyi bir daha bütün dünyaya nümayiş etdirildi. Bu müharibədə xalqımız böyük qurbanlar vermişdir. İgid oğullarımız torpaqlarımızı müdafiə edərək qəhrəmancasına həlak olmuş, şəhid olmuşlar. Bu gün, bu təntənəli mərasimdə, Azərbaycan torpaqlarını müdafiə edərək, Azərbaycanın suverenliyini qoruyaraq həlak olmuş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etməyi rica edirəm. Allah onlara rəhmət eləsin, qəbirləri nurla dolsun!

Mən bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmayacaq, onların xatirəsi qəlbimizdə əbədi yaşayacaq, gənclərimiz və gələcək nəsillər onların qəhrəmanlıqlarından nümunə götürəcəklər. Azər-

baycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq, gücünü birləşdirəcək, müasir ordusunu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaqdır.

Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik.

Bu yol ilə getmək həm tarixi keçmişimizə uyğundur, həm də bir müstəqil dövlət kimi dünya sivilizasiyasına daha yaxından qovuşmaq üçün lazımi şərtdir. Bunun üçün Azərbaycanda bütün imkanlar yaranıb və bundan sonra da yaranacaqdır. Azərbaycanda insan azadlığı, söz azadlığı, din azadlığı, dil azadlığı, vicdan azadlığı - bunların hamısı demokratik, sivilizasiyalı cəmiyyətin yaranmasına imkan verən şərtlərdir. Biz bu şərtlərin bərqərar olmasını təmin edəcəyik. Azərbaycanda çoxpartiyalı cəmiyyət yaranmaqdadır, bir çox partiyalar yaranıb və bundan sonra da yaranacaqdır. Bunların yaranması və inkişaf etməsi üçün Azərbaycan dövləti bütün imkanları təmin edəcəkdir və çoxpartiyalı cəmiyyət, demokratik prinsiplərin bərqərar olduğu cəmiyyət, şübhəsiz, Azərbaycanın müstəqil bir dövlət kimi inkişafına kömək edəcəkdir.

Çoxpartiyalı cəmiyyətdə müxalifətin də böyük rolu var. Biz müxalifətə bundan sonra da böyük hörmətlə münasibət göstərəcəyik və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan cəmiyyətində müxalifət mövqeyində olan partiyalar, siyasi qüvvələr konstruktiv əməkdaşlıq mövqeyindən çıxış edəcəklər və bu da Azərbaycanda həqiqi demokratiyanın inkişafı üçün daha geniş imkanlar yaradacaqdır. Bir sözlə, biz Azərbaycanda müxalif qüvvələr olmasını təbii bir hal hesab edirik, eyni zamanda dövlət müxalif qüvvələrlə konstruktiv əməkdaşlığa həmişə hazır olduğunu bildirir.

Ancaq müxalifətdə olan qruplar, ayrı-ayrı siyasi təşkilatlar son illərdə istifadə etdikləri qeyri-qanuni, əcaib, demokratiyaya zidd üsullardan, metodlardan əl çəkməlidirlər. Siyasi partiyalar, hərəkatlar Azərbaycanda sərbəst fəaliyyət göstərə bilərlər. Lakin heç bir siyasi partiyanın və ya hərəkatın, ictimai-siyasi təşkilatın silahlı dəstələri, silahlı qüvvələri ola bilməz! Bu gün mən bunu bütün Azərbaycan vətəndaşları qarşısında tam qətiyyətlə bəyan edirəm. Vaxtilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında müsbət rol oynamış Xalq Cəbhəsinin bu sahədə çox mənfi təcrübəsi təəssüf ki, Azərbaycanda ayrı-ayrı qeyri-qanuni silahlı dəstələrin yaranmasına və fəaliyyət göstərməsinə səbəb olmuşdur. Güman edirik ki, bütün partiyalar, hərəkatlar, ictimai-siyasi təşkilatlar öz silahlı dəstələrindən imtina edəcəklər. Cəmiyyətimizdə bir silahlı dəstə ola bilər, o da dövlətin silahlı qüvvələridir. Biz hamımız birlikdə qeyri-qanuni silahlı dəstələrin ləğv olunmasına çalışmalıyıq və bu da respublikamızda daxili ictimai-siyasi sabitlik yaranması üçün əsas şərtdir.

Demokratik sivilizasiyalı cəmiyyətdə insan hüquqlarının qorunması dövlətin əsas vəzifələrindən biridir. Əmin ola bilərsiniz ki, bu yüksək vəzifədə mən həmin sahəni daim diqqət mərkəzində saxlayacağam və insan hüquqlarının qorunması üçün bütün təminatları yaradacağam. Bir sözlə, cəmiyyətimizdə insanın tam azad olması üçün şərait yaradılacaqdır. Bu baxımdan həyatımızın indiki mərhələsində vicdan azadlığı məsələsi də mühüm yer tutur. Xalqımız öz dininə qayıtdı. İslam dini dünyada öz tarixi yerini tutmuşdur. Xalqımızın mənəviyyatına, elminə, qüdrətinə, zəkasına İslam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda İslam dini vasitəsilə nəsildən-nəslə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır. Azərbaycanda İslam dininə insanların sərbəst etiqad etməsi üçün bütün şərait yaradılmış və bundan sonra da yaradılacaqdır. Güman edirik ki, bizim dinimiz respublikanın bu ağır dövründə vətəndaş həmrəyliyinin, vətəndaş birliyinin yaranması üçün çox böyük fəaliyyət göstərəcəkdir.

Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və bu tarixlə, respublikanın bu icti-

mai-siyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır.

Bu gün bizim İslam dininin, Qafqaz müsəlmanlarının rəhbəri, xristian dininin, yəhudi dininin nümayəndələri məni bu vəzifəyə gəlmək münasibətilə təbrik etdilər. Mən onlara öz minnətdarlığımı bildirirəm və əmin etmək istəyirəm ki, Azərbaycanda bütün millətlərin, bütün dinlərin bərabər hüquqla yaşaması üçün bütün şərait yaradılacaqdır.

Respublikamızın müstəqilliyini möhkəmlətmək üçün əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin olmasıdır. Müstəqillik əldə edildikdən sonra xarici siyasət sahəsində təəssüf ki, az iş görülmüşdür. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görüləsi işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır.

Mənim Prezident seçilməyimlə əlaqədar olaraq dünyanın bir çox dövlətlərinin başçıları təbrik məktubları göndərmişlər. Bunları, birinci növbədə, Azərbaycan Respublikasının müstəqilliyinə, dünya birliyində tutduğu yerə verilən qiymət kimi qəbul edirəm. Təbrik məktubları göndərmiş dövlət başçılarına, xarici ölkələrin bu salonda olan təmsilçilərinə minnətdarlığımı bildirirəm və onları əmin etmək istəyirəm ki,

Azərbaycan Respublikası bir müstəqil dövlət kimi gələcəkdə bütün bu dövlətlərlə və başqa ölkələrlə səmərəli əlaqələr yaratmağa və respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün onların imkanlarından istifadə etməyə çalışacaqdır. Çox sağ olun, təşəkkür edirəm və eyni zamanda dövlətlərinizin başçılarına və xalqlarınıza səadət, xoşbəxtlik və bütün işlərinizdə müvəffəqiyyətlər diləyirəm.

Azərbaycan Respublikasının ağır böhran vəziyyətindən çıxması üçün sosial-iqtisadi sahədə böyük işlər görülməlidir. Təsəvvür edin ki, müstəqilliyimizin əldə edilməsi bizim üçün tarixi bir hadisədirsə, iqtisadiyyatımızın belə vəziyyətdə olması ağır və çətin bir haldır. Təəssüf ki, son illərdə respublikanın böhran vəziyyətində olması iqtisadiyyatın bütün sahələrinə mənfi təsir göstərmişdir. İqtisadiyyat, demək olar, tamamilə dağılmış və bu da respublika vətəndaşlarının rifahının aşağı düşməsinə gətirib çıxarmışdır. Eyni zamanda qeyd etmək istəyirəm ki, respublikanın böyük iqtisadi-sosial, elmi-texniki potensialı vardır. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Bu baxımdan biz gələcək işimizdə bir tərəfdən yaranmış potensialdan səmərəli istifadə etmək, digər tərəfdən isə yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik.

Bu yol çətin, ağır yoldur. On illər boyu yaranmış iqtisadi-sosial sistemdən sərbəst iqtisadiyyat sisteminə keçmək böyük çətinliklərlə bağlıdır. Bu sahədə son illərdə buraxılan səhvlər vəziyyəti daha da gərginləşdirmişdir. Ancaq biz bu yolla getməliyik, başqa yol yoxdur. Bu iş Azərbaycan Respublikasının iqtisadiyyatına, ənənələrinə uyğun olaraq təşkil edilməlidir. Bu yola keçərkən əlimizdə olan iqtisadi potensialdan səmərəli istifadə etməliyik, onun bundan sonra dağılmasına yol verməməliyik. Çalışmalıyıq ki, bu potensial bütün Azərbaycan xalqının sərvəti kimi bundan sonra da respublikamızın bütün vətəndaşlarının, bütün təbəqələrin həyat tərzinin yaxşılaşması üçün şərait yaratsın.

Bu sahədə demokratik islahatlar keçirmək, ağıllı hərəkət etmək bizim borcumuzdur və əmin ola bilərsiniz ki, biz bu yolla gedəcəyik. Bununla əlaqədar olaraq mən Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olmasını xüsusi qeyd etmək istəyirəm. Respubli-

kada uzun müddət bu barədə müzakirələr getmiş və nəhayət, Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olmuşdur. Biz əminik ki, Azərbaycanın MDB-yə daxil olması respublikanın iqtisadiyyatının inkişaf etməsi üçün yaxşı şərait yaradacaq və biz bu imkanlardan səmərəli istifadə etməliyik.

Onu da qeyd etmək istəyirəm ki, bəzi dairələr Azərbaycanın MDB-yə daxil olmasını təhlükəli bir hal kimi qələmə verməyə çalışırlar. Bu, səhv fikirdir. Azərbaycan MDB-də öz müstəqilliyini daim qoruyacaq və MDB-də iştirak etmək Azərbaycanın müstəqilliyinə qətiyyən xələl gətirməyəcəkdir. Azərbaycan müstəqil bir dövlət kimi demokratik yolla gedəcək, beynəlxalq demokratiya normalarına riayət edəcəkdir. Azərbaycanda kommunist ideologiyası, kommunist rejimi bir daha bərpa olmayacaqdır. Güman edirəm ki, Azərbaycan vətəndaşlarının əksəriyyətinin də fikri belədir. Azərbaycan Respublikası bundan sonra heç vaxt başqa bir dövlətin tərkibinə daxil olmayacaq, başqa bir dövlətin tabeliyinə düşməyəcək, öz müstəqilliyini daim qoruyacaqdır.

Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla demokratik prinsiplər əsasında gedəcəkdir. Biz Azərbaycanın daxilində demokratik prinsipləri bərqərar edərək respublikanın xarici siyasətində Azərbaycanın müstəqilliyini daim qoruyacağıq. Mən bir Prezident kimi, xalqın qarşısında öz fikrimi açıq bəyan edir və əmin etmək istəyirəm ki, bu fikirlərə, bu prinsiplərə daim sadiq olacağam.

Əziz və hörmətli həmvətənlər!

Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına bir daha dərin minnətdarlığımı, hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm.

Əlimi Azərbaycan Respublikasının Konstitusiyasına basaraq and içirəm ki, biliyimi, təcrübəmi, qüvvəmi Azərbaycan xalqının, Azərbaycan Respublikasının rifahına həsr edəcəyəm.

And içirəm ki, prezident vəzifəsini ali məqsədlər, amallar naminə yerinə yetirəcək, Azərbaycan Respublikasının tam müstəqilliyini, suve-

renliyini, ərazi bütövlüyünü təmin etmək üçün əlimdən gələni əsirgəməyəcəyəm!

And içirəm ki, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarının həyata keçirilməsinin təminatçısı olacaq, milliyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq, Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasının, müdafiə edilməsinin təminatçısı olacağam. Azərbaycan Respublikasında azadlığın, demokratik dəyişikliklərin, Azərbaycan Respublikasının demokratik hüquqi dövlət kimi inkişaf etdirilməsinin təminatçısı olacağam!

And içirəm ki, Azərbaycan Respublikasına, Azərbaycan xalqına ləyaqətlə xidmət edəcəyəm, müstəqil dövlətimizin sivilizasiyalı dünya dövlətləri arasında, dünya birliyində ləyaqətli yer tutmasına çalışacağam!

Əlimi "Qurani-Şərifə" basaraq and içirəm ki, Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq olacaq və bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını, yaşamasını və inkişaf etməsini təmin edəcəyəm!

# HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN SİYASİ FƏALİYYƏTİNİN NAXÇIVAN DÖVRÜ

## Tarixi-siyasi xronika

### 1989

| | |
|---|---|
| *29 noyabr* | - Heydər Əliyev "Teatralnaya jizn" jurnalı üçün A. Karaulova müsahibə vermişdir. |
| *14 dekabr* | - Şərurun Sədərək, Günnüt və Havuş kəndləri ermənilər tərəfindən güclü atəşə tutulmuşdur. |
| *31 dekabr* | - Naxçıvan Muxtar Respublikasında on minlərlə adam Ordubaddan Sədərəyədək SSRİ Dövlət sərhədi boyunca dirəklərin tikanlı məftillərini sökmüşlər. |

### 1990

| | |
|---|---|
| *18-19 yanvar* | - Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyilə ermənilər tərəfindən işğal olunmuşdur. |
| *19 yanvar* | - "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" Naxçıvan MSSR Ali Sovetinin qərarı ilə muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan Naxçıvan MSSR, SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etmişdir. |
| — | - M. S. Qorbaçov yanvarın 20-dən Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi barədə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını imzalamışdır. |
| *19-20 yanvar* | - SSRİ Müdafiə Nazirliyinin, SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin və SSRİ Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya yeridilmiş, dinc əhaliyə amansız divan tutulmuşdur. |

| | |
|---|---|
| *20 yanvar* | - Azərbaycanın Moskvadakı daimi nümayəndəsi S. İbrahimov "Barvixa" sanatoriyasında müalicə olunan Heydər Əliyevə zəng edərək yanvar faciəsi barədə məlumat vermişdir. |
| *21 yanvar* | - Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək ictimaiyyət nümayəndələri qarşısında çıxış etmiş, yanvar faciəsinin günahkarlarını kəskin ittiham etmişdir. |
| *27 yanvar* | - Azərbaycan SSR Ali Soveti "Naxçıvan MSSR-də ictimai-siyasi vəziyyət haqqında" Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarının Azərbaycan SSR Konstitusiyasına uyğun olmaması barəsində" fərman vermişdir. |
| *4 fevral* | - "Pravda" qəzetində "Əliyevçilik, yaxud "xoş əyyamlar"ın xiffəti" məqaləsi dərc olunmuş, Heydər Əliyevə qarşı siyasi təqib başlanmışdır. |
| *27 mart* | - Şahbuzun Şada kəndində ermənilərin silahlı basqını zamanı 6 nəfər yaralanmışdır. |
| *28 mart* | - Sədərəyin Ermənistan tərəfindən atəşə tutulması nəticəsində bir nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır. |
| *29 mart* | - Babək rayonunun Gərməçataq kəndində ermənilər bir soydaşımızı qətlə yetirmişlər. |
| *5 may* | - "Kommunist" qəzetində "Bu da "Tayfa oyunu"dur?" adlı məqalə (müəl. Ş. Yaqubov) verilmişdir. |
| *iyun* | - "Ulduz" jurnalının 6-cı nömrəsində jurnalist E. Əhmədovanın Moskvada Heydər Əliyevdən aldığı müsahibəsi dərc olunmuşdur. |
| *22 iyul* | - Saat 10.35-də Heydər Əliyev təyyarə ilə Naxçıvana gəlmişdir. |
| — | - Axşamçağı Naxçıvandakı Lenin meydanında Heydər Əliyevin onun gəlişi münasibətilə toplaşmış əhali ilə görüşü olmuşdur. Görüş mərasiminə 80 min nəfərdən artıq adam toplaşmışdı. |
| *1 avqust* | - Naxçıvan alt trikotaj fabriki əmək kollektivinin seçkiqabağı yığıncağında Heydər Əliyev 2 nömrəli M. F. |

| | | |
|---|---|---|
| | | Axundov seçki dairəsindən Naxçıvan MSSR xalq deputatlığına namizəd göstərilmişdir. |
| *8 avqust* | - | Ordubad rayonunun Əylis kəndinin seçiciləri öz yığıncağında Heydər Əliyevi 349 nömrəli Vənənd seçki dairəsindən Azərbaycan SSR xalq deputatlığına namizəd göstərmişlər. |
| *21 avqust* | - | Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti Heydər Əliyevin Naxçıvan MSSR vətəndaşlığı barədə qərar qəbul etmişdir. |
| *25 avqust* | - | "Respublika" qəzeti A. Abdullanın "Heydər Əliyev: Mən adamlara inanmışam" adlı müsahibəsini vermişdir. |
| — | - | Heydər Əliyev Babək rayonunun 340 nömrəli seçki dairəsindən Azərbaycan SSR xalq deputatlığına və 2 nömrəli M. F. Axundov seçki dairəsindən Naxçıvan MSSR xalq deputatlığına namizəd qeydə alınmışdır. |
| *26 sentyabr* | - | Heydər Əliyev Tbilisidə çıxan "Sovet Gürcüstanı" qəzetinin müxbirlərinə müsahibə vermişdir. |
| *30 sentyabr* | - | Azərbaycan SSR xalq deputatlarının və yerli xalq deputatları sovetləri deputatlarının seçkiləri keçirilmişdir. Seçkilərin birinci turunda fərdi pensiyaçı Heydər Əliyev 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR xalq deputatı, 2 nömrəli M. F. Axundov seçki dairəsindən isə Naxçıvan MSSR xalq deputatı seçilmişdir. |
| *17 noyabr* | - | Heydər Əliyevin sədrliyi ilə on ikinci çağırış Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası öz işinə başlamışdır. |
| — | - | Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası Heydər Əliyevin sədrliyi ilə "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul etmişdir. |
| *21 noyabr* | - | Naxçıvan MR Ali Məclisi Heydər Əliyevin işləyib hazırladığı "1990-cı ilin yanvar ayında Bakı hadisələ- |

| | |
|---|---|
| | rinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul etmişdir. |
| *14 dekabr* | - Naxçıvan MR Ali Məclisi deputat Heydər Əliyevin hazırladığı "Azərbaycan SSR-in DQMV-də, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında" qərar qəbul etmişdir. |

**1991**

| | |
|---|---|
| *20 yanvar* | - Naxçıvan şəhər Şəhidlər xiyabanında keçirilən matəm mitinqində deputat Heydər Əliyev çıxış etmişdir. |
| *5 fevral* | - On ikinci çağırış Azərbaycan SSR Ali Sovetinin birinci sessiyası öz işinə başlamışdır. |
| *15-27 fevral* | - "Aydınlıq" və "Vətən səsi" qəzetləri Azərbaycan SSR Ali Sovetinin birinci sessiyasında Azərbaycan SSR xalq deputatı Heydər Əliyevin çıxışının tam mətnini vermişlər. |
| *7 mart* | - Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında SSRİ-nin qorunub saxlanması barədə referendumda Azərbaycanın iştirakı məsələsinin müzakirəsində çıxış edən Heydər Əliyev bunun əleyhinə səs vermişdir (həmin çıxış "Səs" qəzetinin 15 mart 1991-ci il tarixli nömrəsində dərc olunmuşdur). |
| *14 mart* | - Naxçıvan MR Ali Məclisinin sessiyası SSRİ-nin saxlanmasına dair ümumittifaq referendumunda Naxçıvan MR-in iştirak etməməsi barədə qərar qəbul etmişdir. |
| *5 aprel* | - A. Cəlilov Bakı şəhərində işə keçməsi ilə əlaqədar öz ərizəsi əsasında Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsindən azad olunmuşdur. |
| *10 aprel* | - Ermənistanın Xaçik kəndindən Şərur rayonunun Axura və Havuş kəndləri güclü atəşə tutulmuş, bu kəndləri mühasirəyə almağa cəhd göstərilmişdir. Axuradan Havuşa gedən "UAZ" avtomaşınındakı milis nəfərləri öldürülmüşdür. |

| | |
|---|---|
| *16 aprel* | - Naxçıvan MR-in Nehrəm kəndində İranla sərhəddən sadələşmiş üsulla keçmək üçün körpünün açılışı olmuşdur. |
| *24-25 aprel* | - Azərbaycan Respublikası Ali Sovetinin qarşısında keçirilmiş mitinq iştirakçıları Konstitusiyada Prezident seçkiləri ilə əlaqədar yaş məhdudiyyətinin götürülməsini tələb etmiş, vətəndaş kimi Heydər Əliyevin hüquqlarını pozduğuna görə həmin maddəni ittiham etmişlər. |
| *28 aprel* | - Bütün gün ərzində Sədərək kəndi ermənilər tərəfindən atəşə tutulmuş, 13 nəfər kənd sakini yaralanmışdır. Həmin gün Şərurun Cağazir, Günnüt və Havuş kəndləri də atəşə tutulmuşdur. |
| *20 may* | - Sədərək rayonu Ermənistan tərəfdən fasiləsiz atəşə tutulmuşdur. |
| *26 iyun* | - Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyası "Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında" qanun qəbul etmiş, Prezident seçkilərini 1991-ci il sentyabrın 8-nə, bazar gününə təyin etmişdir. Xalq deputatı Heydər Əliyev sessiyanın işində iştirak etməmişdir. |
| *19 iyul* | - Fərdi pensiyaçı, Sov. İKP üzvü Heydər Əliyev partiya sıralarından çıxması barədə SSRİ Nazirlər Sovetinin partiya təşkilatına bəyanat vermişdir. |
| *19-21 avqust* | - Moskvada üzdəniraq "avqust qiyamı" baş vermişdir. |
| *21 avqust* | - A. Mütəllibov televiziya və radio ilə bəyanat verərək xalqın qiyamçılara - Dövlət Fövqəladə Vəziyyət Komitəsinə böyük ümidlər bəslədiyini bildirmişdir. |
| *26 avqust* | - Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası DFVK-ya mənfi münasibət bildirmiş, onu dəstəkləyən yerli partiya və komsomol orqanları ləğv olunmuş, onların əmlakı milliləşdirilmişdir. |
| *27-28 avqust* | - Naxçıvan şəhərində, Şərur, Şahbuz, Culfa rayonlarında keçirilən mitinq iştirakçılarının tələbi ilə V.İ. Leninin abidələri sökülmüşdür. |

*29 avqust* - Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası olmuşdur. "Respublikada siyasi vəziyyət haqqında" məsələnin müzakirəsi zamanı etdiyi çıxışa görə siyasi təqibə məruz qalan Heydər Əliyev bundan sonra 1993-cü il iyun ayının 13-dək Ali Sovetin sessiyalarında, Milli Şuranın və Milli Məclisin iclaslarında iştirak etməmişdir.

*3 sentyabr* - Naxçıvan MR Ali Məclisinin sessiyası Ali Məclisin Sədri haqqında məsələ müzakirə etmişdir. Ali Məclisin qarşısında keçirilən çoxminli mitinqin və deputatların böyük əksəriyyətinin tələbi ilə Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsi məsələsi gündəliyə çıxarılmışdır. Heydər Əliyev dəfələrlə tribunaya qalxıb razı olmadığını bildirsə də, sessiya əksər səslə (bir nəfər əleyhinə, 4 nəfər bitərəf) onu Naxçıvan MR Ali Məclisinin Sədri seçmişdir.

*4 sentyabr* - Naxçıvan MR Ali Məclisi "Azərbaycan Respublikası prezidentliyinə seçkilər haqqında" qərarı ilə muxtar respublika ərazisində bu seçkilərin keçirilməsini dayandırmış, Prezident seçkilərinin sonrakı müddətdə keçirilməsini Azərbaycan Respublikası Ali Sovetindən xahiş etmişdir.

*6 sentyabr* - Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti "Naxçıvan MR Ali Məclisinin muxtar respublika ərazisində Azərbaycan Respublikası Prezidenti seçkilərini keçirtməmək haqqında Konstitusiyaya zidd qərarı barədə" bəyanat vermişdir.

*7 sentyabr* - Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev bəyanat verərək Azərbaycanın kommunist rəhbərliyini Naxçıvan MR Ali qanunverici orqanının fəaliyyətinə və səlahiyyətinə təzyiq göstərməkdə, demokratik prinsipləri boğmaqda təqsirləndirmiş, beynəlxalq təşkilatlardan xahiş etmişdir ki, Azərbaycan Prezidentinin seçkiləri günü vəziyyəti obyektiv müəyyənləşdirmək üçün Naxçıvan MR-ə öz nümayəndələrini göndərsinlər.

— - Naxçıvan MR Ali Məclisinin qərarı ilə Naxçıvan MR Dövlət Müdafiə Komitəsi təşkil olunmuşdur.

*9 sentyabr* - Heydər Əliyev Rusiya Prezidenti B. N. Yeltsinə məktub göndərmiş, Naxçıvanda başlanan demokratik prosesləri dəstəkləməsini ondan xahiş etmişdir.

*12 sentyabr* - Heydər Əliyevlə Ermənistan Ali Sovetinin Sədri Levon Ter-Petrosyan arasında telefon danışığı olmuşdur. Heydər Əliyev qatarlara edilən basqınların, adamların tutulub girov saxlanmasının, həmsərhəd kəndlərə hücumların kökünü kəsmək üçün tədbirlər görülməsini tələb etmişdir.

*14 sentyabr* - Azərbaycan KP fövqəladə XXXIII qurultayı dörd saatlıq müzakirədən sonra respublika partiya təşkilatının özünü buraxması haqqında qərar qəbul etmişdir.

*18 oktyabr* - Azərbaycan Respublikası Ali Sovetinin ikinci sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktını qəbul etmişdir.

*19 oktyabr* - Azərbaycan Respublikası Ali Sovetinin sessiyasına teleqramında Heydər Əliyev dövlət müstəqilliyini böyük milli sərvət kimi dəyərləndirmiş, bütün Azərbaycan xalqını təbrik etmişdir.

*29 oktyabr* - Naxçıvanla Türkiyə arasında müvəqqəti körpünün açılışı münasibətilə keçirilən mitinqdə Heydər Əliyev iştirak və çıxış etmişdir.

*5 noyabr* - Heydər Əliyevlə Ermənistan Prezidenti L. Ter-Petrosyan arasında telefon danışığı olmuşdur. Sərhəddə yaranmış vəziyyət müzakirə olunmuşdur.

*13 noyabr* - Türkiyənin nüfuzlu "Milliyyət" və "Hürriyyət" qəzetlərinin, Amerikanın "Vaşinqton post" qəzetinin müxbirləri Naxçıvanda olmuşlar. Heydər Əliyev xarici jurnalistlər üçün mətbuat konfransı keçirmişdir.

*18 noyabr* - Türkiyənin Konya şəhərindən ərzaq dolu ilk maşın karvanı Naxçıvana gəlmişdir. Heydər Əliyev Konya şəhər ziyalılarının nümayəndələrini qəbul etmişdir.

*21 noyabr* - Bakıdan Naxçıvana və əks istiqamətdə gedən qatarların hərəkəti müvəqqəti olaraq dayandırılmışdır.

*8 dekabr* - Ermənistan ərazisi ilə Naxçıvana məişət qazı verilməsi dayandırılmışdır.

*11 dekabr* - Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası "Naxçıvan MR-ə sərnişinlərin daşınmasının təşkili haqqında" qərar qəbul etmişdir.

*13 dekabr* - Naxçıvan Şəhər XDM İK şəhərdəki Lenin prospektini Azadlıq prospekti, Lenin meydanını Azadlıq meydanı adlandırmışdır.

*16 dekabr* - Naxçıvan MR Ali Məclisi hər il dekabr ayının 31-nin Dünya azəri türklərinin Həmrəylik və Birlik Günü kimi bayram olunması barədə qərar qəbul etmişdir.

## 1992

*13 yanvar* - 1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin bəyanatında 19-20 yanvar hadisələrinə siyasi qiymət verilməsi tələb olunur.

*18 yanvar* - Ali Sovetin Milli Şurası "Şəhidlər günü elan olunması haqqında" qanun qəbul etmişdir (Bundan xeyli əvvəl - 1990-cı il noyabrın 21-də Naxçıvan MR Ali Məclisinin sessiyası hər il yanvar ayının 20-ni milli matəm günü elan etmişdi).

*19 yanvar* - Heydər Əliyev S. Dəmirəlin tapşırığı ilə gəlmiş nümayəndə heyətini qəbul etmişdir. Qəbulda Naxçıvan-Türkiyə gömrükxanasının istifadəyə verilməsi məsələləri müzakirə olunmuşdur.

*14 fevral* - Naxçıvanın Azadlıq meydanında çoxminli mitinq olmuşdur. Çıxış edənlər Xalq Cəbhəsinin hökumətdə rəhbər vəzifə tutan nümayəndələrinin istefa verməlrini tələb etmişlər.

*24 fevral* - İranın xarici işlər naziri Ə. Vilayəti Bakıya gəlmişdir. O öz səfərini "Qarabağ probleminin həlli yolunda ilk addım" adlandırmışdır.

*25-26 fevral* - Erməni silahlı birləşmələri Rusiyanın Xankəndindəki 366-cı motoatıcı polkunun köməyi ilə Xocalı şəhərini işğal etmiş, dinc sakinləri xüsusi amansızlıqla qırmışlar.

*1 mart* - Naxçıvanda ağır yüklü təyyarələri qəbul etməyə imkan verən yeni aeroport işə düşmüşdür. Bu münasibətlə keçirilən mitinqdə Heydər Əliyev çıxış etmiş, Xocalı soyqırımını hiddətlə qarşılamış, millətə başsağlığı vermişdir.

*6 mart* - 2 gündən çox davam edən mitinq iştirakçılarının tələbi ilə A. Mütəllibov Ali Sovetin fövqəladə sessiyasında Prezident vəzifəsindən istefa vermişdir.

*9 mart* - Azərbaycan Respublikası Ali Sovetinin Sədri Y. Məmmədovla Heydər Əliyev arasında telefon danışığı olmuşdur. İctimai-siyasi vəziyyət barədə fikir mübadiləsi aparılmışdır.

*10 mart* - Sədərək yaxınlığındakı sərhəd zastavasında Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevlə Ermənistan Ali Sovetinin Sədri B. Araksyan arasında görüş olmuşdur. Söhbət zamanı atəşin kəsilməsi, Dağlıq Qarabağla bağlı məsələlər müzakirə olunmuşdur.

*22-25 mart* - Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Prezidenti T. Özalın və Baş nazir S. Dəmirəlin dəvətilə Türkiyədə rəsmi səfərdə olmuşdur.

*24 mart* - Ankarada "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında Əməkdaşlıq Protokolu" imzalanmışdır. Protokolun imzalanma mərasimində S. Dəmirəl və Heydər Əliyev çıxış etmişlər.

*25 mart* - Azərbaycan Respublikası Ali Soveti "Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqında" qərar qəbul etmişdir. Seçkilər 1992-ci il iyunun 7-nə təyin olunmuşdur.

*1 aprel* - Heydər Əliyev ATƏM-in Naxçıvana gələn nümayəndə heyətini qəbul etmişdir. Heydər Əliyev Naxçıvanın tam

| | |
|---|---|
| | blokadaya salınması və Kərki kəndinin işğal olunması barədə məlumat vermişdir. |
| *6 aprel* | - Naxçıvan MR Ali Məclisi "Zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi haqqında" qərar qəbul etmişdir. |
| *15 aprel* | - Sədərək rayonunun milis postları Ermənistanın Ararat rayonu tərəfindən atəşə tutulmuşdur. |
| *24 aprel* | - Bakıdan Naxçıvana və əks istiqamətdə gedən qatarların hərəkəti tamamilə dayandırılmışdır. |
| *28 aprel* | - Bakıda, Ali Sovetin qarşısında keçirilən mitinqin iştirakçıları Ali Sovetin çağırılmasını, Konstitusiyanın Azərbaycan Prezidenti üçün yaş senzini nəzərdə tutan bəndinə düzəliş edilməsini tələb etmiş, Heydər Əliyevin Azərbaycan Prezidentliyinə namizəd göstərilməsinə tərəfdar çıxmışlar. |
| — | - ABŞ-ın Azərbaycandakı səlahiyyətli nümayəndəsi R. Finn Naxçıvana gələrək Heydər Əliyevlə görüşmüşdür. Görüşdə mövcud ictimai-siyasi vəziyyət, Qarabağ probleminin həlli yolları və s. məsələlər müzakirə olunmuşdur. |
| *1 may* | - Heydər Əliyev İranın Azərbaycandakı səfirini qəbul etmişdir. Səfir Naxçıvanda İİR-in konsulluğunun açılması barədə XİN-in məktubunu Heydər Əliyevə vermişdir. Heydər Əliyev Təbriz şəhərində Naxçıvan MR-in konsulluğunun yaradılmasına da ciddi ehtiyac olduğunu bildirmişdir. |
| *3 may* | - Heydər Əliyevlə Türkiyənin Baş naziri S. Dəmirəl arasında telefon danışığı olmuşdur. S. Dəmirəl Heydər Əliyevin dəvətinə əsasən Naxçıvana gələcəyini bildirmişdir. |
| *5 may* | - Erməni qüvvələri sərhədi keçərək sərhədyanı yaşayış məntəqələrinə, o cümlədən Sədərəyə basqın etmişlər. |
| — | - Muxtar respublikanın müdafiəsi ilə bağlı Naxçıvanın mərkəzi meydanında mitinq keçirilmişdir. Heydər Əliyev mitinqdə çıxış etmişdir. |

| | |
|---|---|
| *6 may* | - Sədərək, Havuş, Günnüt, Yuxarı Yaycı kəndləri yaxınlığındakı döyüşlər zamanı 42 nəfər yaralanmış, 3 nəfər həlak olmuşdur. |
| *7 may* | - Sədərək və Havuş kəndləri Ermənistan tərəfdən müxtəlif toplardan atəşə tutulmuşdur. 20 nəfər yaralanmışdır. |
| — | - Şərurda keçirilən mitinqdə çıxış edən Heydər Əliyev sakinləri sərhəddə vəziyyətlə əlaqədar mütəşəkkilliyə çağırmışdır. |
| — | - Tehranda Azərbaycan, Ermənistan və İranın dövlət başçılarının iştirakı ilə Qarabağ problemi müzakirə olunmuş, birgə bəyanat imzalanmışdır. |
| *8 may* | - Erməni silahlı qüvvələri Şuşanı işğal etmişdir. |
| *14 may* | - Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası olmuşdur. A. Mütəllibov qanunsuz olaraq yenidən Prezident kürsüsündə əyləşdirilmişdir. Milli Şura buraxılmış, Bakıda fövqəladə vəziyyət elan olunmuşdur. |
| *15 may* | - Heydər Əliyev Naxçıvan televiziyası ilə əhaliyə müraciət etmiş, Ali Sovetin fövqəladə sessiyasının qəbul etdiyi qərarı "antidemokratik tədbir" adlandırmış, xalqa qarşı cinayətə yol verildiyini bildirmişdir. |
| — | - Axşam saat 18.00 radələrində AXC hakimiyyəti ələ keçirmişdir. A. Mütəllibov Azərbaycandan qaçmışdır. |
| *16 may* | - Ali Sovetin Milli Şurasının iclasında yeni hakimiyyət orqanının yaradılması təklif olunmuş, bir qrup deputat buna yalnız Heydər Əliyevin başçılıq edə biləcəyini göstərmişdir. |
| *18 may* | - Y. Məmmədov Ali Sovetin Sədri, Azərbaycan Prezidentinin səlahiyyətini həyata keçirən vəzifəsindən azad edilmişdir. AXC sədrinin müavini İ. Qəmbərov və Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Ali Sovetin sədriliyinə namizəd göstərilmişdir. "Heydər Əliyevə zəng vurmağın mümkün olmaması" kimi yersiz bəyanatla səsvermə bülleteninə yalnız İ.Qəmbərovun adı daxil edilmişdir. |

| | |
|---|---|
| — | - Erməni qüvvələri güclü atəş hazırlığından sonra Sədərəyə hücuma keçmişlər. Düşmən Milli Ordunun bəzi mövqelərini tutmuşdur. |
| — | - Yaranmış vəziyyətlə əlaqədar Heydər Əliyev Türkiyənin Baş naziri S. Dəmirəllə və xarici işlər naziri H. Çətinlə danışmışdır. |
| — | - Heydər Əliyev Ermənistan Prezidenti L. Ter-Petrosyanla telefon danışığında ondan hücumu və atəşi dayandırmağı tələb etmişdir. |
| — | - Naxçıvanın sərhəd kəndlərinin güclü atəşə tutulması davam etdirilmişdir. Naxçıvanın müdafiəçilərindən 15 nəfəri həlak olmuş, 80 nəfəri ağır yaralanmışdır. |
| — | - Erməni silahlı birləşmələri Laçın rayonunu işğal etmişdir. |
| *18-19 may* | - Milli Ordu qüvvələri Sədərək yaxınlığında əldən verdiyi mövqeləri geri qaytarmışdır. |
| *19 may* | - Türkiyə Prezidenti T. Özal Naxçıvana təcavüzlə əlaqədar bölgəyə türk qoşunu göndərilməsini təklif etmişdir. |
| *20 may* | - Türkiyə Nazirlər Kabineti Ermənistanın Naxçıvana təcavüzü ilə əlaqədar bəyanat vermiş, "işğalçılıq siyasətinin yeni Ermənistan dövlətinin özü üçün fəlakət gətirəcəyini" bildirmişdir. |
| *21 may* | - Şərur rayonu Ermənistan tərəfindən kimyəvi mərmilərlə top atəşinə tutulmuşdur. |
| — | - S. Dəmirəlin tapşırığı ilə Türkiyə Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Naxçıvana göndərilmişdir. Döyüş əməliyyatı rayonunda vəziyyətlə tanış olan nümayəndə heyəti Heydər Əliyevlə görüşmüşdür. |
| — | - Azərbaycan Xarici İşlər Nazirliyi Naxçıvanda yaranmış vəziyyətlə əlaqədar nota vermişdir. |
| *22 may* | - Heydər Əliyevin dəvəti ilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri Naxçıvana gəlmişlər. |
| — | - Naxçıvan qadınları Rusiya qoşunlarının Naxçıvanda yerləşən hissələrinə etiraz yürüşü etmişlər. |

— - Heydər Əliyev televiziya ilə muxtar respublika əhalisinə müraciət etmişdir. Görülən diplomatik səylərin müqabilində 57 dövlətin rəsmi şəkildə Ermənistanın Naxçıvana təcavüzünü pislədiyini bildirən Heydər Əliyev demişdir. "Təəssüf ki, bizim qonşumuz İran öz mövqeyini bildirməmişdir".

*24 may* - İranın xarici işlər naziri Ə. Vilayəti Heydər Əliyevə zəng vuraraq bildirmişdir ki, onun ölkəsi müharibənin davam etməsini istəmir və Qarabağ probleminin dinc yolla nizamlanmasına tərəfdardır.

*25 may* - Naxçıvan MR Ali Məclisinin qərarı ilə Naxçıvanın inkişafı və müdafiə fondu yaradılmışdır.

— - Sədərək və Ordubad rayonları 4 saat davam edən atəşə tutulmuşdur. Naxçıvan MR-in müdafiəçilərindən bir nəfəri həlak olmuşdur.

*27 may* - BMT-nin Naxçıvana gələn xüsusi nümayəndə heyəti ilə görüş zamanı Heydər Əliyev erməni təcavüzünün nəticələri barədə məlumat vermişdir.

*28 may* - Türkiyənin Baş naziri S. Dəmirəl Naxçıvana gəlmişdir.

— - Sədərəkdə Naxçıvanla Türkiyə arasında körpünün açılış mərasimi olmuşdur. Açılış mərasimində S. Dəmirəl, Azərbaycan Prezidentinin səlahiyyətini həyata keçirən İ. Qəmbərov və Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev çıxış etmişlər.

*1-5 iyun* - Baş nazir S. Dəmirəlin dəvətilə Heydər Əliyev Türkiyədə rəsmi səfərdə olmuşdur. Heydər Əliyev İzmirdə keçirilən Milli İqtisadi Konqresdə iştirak etmişdir.

*3 iyun* - Gecə saat 22.00-da Sədərək qəsəbəsi Ermənistan tərəfdən ağır toplardan atəşə tutulmuşdur. Müdafiəçilərdən 4 nəfər ağır yaralanmış, böyük dağıntılar olmuşdur.

*7 iyun* - Azərbaycan Respublikası Prezidenti seçkiləri keçirilmişdir. Mərkəzi Seçki Komissiyası Əbülfəz (Elçibəy) Qədirqulu oğlu Əliyevi Azərbaycan Prezidenti seçilmiş hesab etməyi qərara almışdır.

| | |
|---|---|
| — | - Naxçıvanda "Real" müstəqil informasiya agentliyi fəaliyyətə başlamışdır. |
| *14 iyun* | - Babək rayonunun Buzqov və Gərməçataq kəndləri Ermənistandan atəşə tutulmuşdur. Bir nəfər yaralanmışdır. |
| *15 iyun* | - Ermənilər Babək rayonunun Aşağı Buzqov, Yuxarı Buzqov, Gərməçataq kəndlərini, Sədərək qəsəbəsini atəşə tutmuşlar. Sədərəkdə 4 nəfər, Aşağı Buzqovda 5 nəfər ağır yaralanmış, 1 nəfər həlak olmuşdur. |
| *17 iyun* | - ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili R.Mayls Naxçıvana gələrək Heydər Əliyevlə görüşmüşdür. Heydər Əliyev ABŞ-ın Qarabağda və Naxçıvanda sülhün, əmin-amanlığın bərqərar olması üçün səyini əsirgəməyəcəyinə əmin olduğunu bildirmişdir. |
| — | - Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin iclasında çıxış edən Heydər Əliyev Bakının rəsmi dairələrində Naxçıvan MR statusunun dəyişdirilməsi ilə bağlı təklifləri ermənilərin işğalçı siyasəti ilə eyniləşdirərək demişdir: "Naxçıvanın statusunun dəyişdirilməsinə yönəldilən hər hansı cəhdin, onun ərazisinə edilən hər cür qəsdin qarşısı qətiyyətlə alınacaqdır". |
| *20 iyun* | - Gəncə şəhərində yaradılan "Naxçıvan" xeyriyyə cəmiyyəti xalqa müraciət edərək Naxçıvanın real vəziyyəti haqqında məlumat vermiş, Heydər Əliyevin siyasətini dəstəklədiyini bildirmişdir. |
| *2 iyul* | - Heydər Əliyev 14 min sədərəkli qaçqının məişət şəraiti ilə tanış olmaq üçün onların yanına getmişdir. |
| — | - "Azərbaycan" nəşriyyatında "Real" informasiya agentliyinin hazırladığı "Naxçıvan yaşayır, döyüşür" fotoalbomu çapdan çıxmışdır. |
| *13 iyul* | - Ermənistan ərazisi ilə Ağstafadan Naxçıvana elektrik enerjisi verilməsi dayandırılmışdır. |
| *15 iyul* | - Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət barədə" qərar qəbul etmişdir. |

*17 iyul* - Naxçıvan MR-in sərhəd rayonları Ermənistan tərəfindən fasilələrlə atəşə tutulmuşdur. Ölən və yaralananlar olmuşdur.

*23 iyul* - Heydər Əliyev Rusiya Prezidentinin xüsusi tapşırıqlar üzrə səfiri, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması üzrə Rusiya vasitəçi nümayəndəliyinin rəhbəri V. Kazimirovu qəbul etmişdir.

*25 iyul* - Naxçıvan MR Ali Məclisi "Naxçıvan MR-in müdafiəsinin təşkili haqqında" qərar qəbul etmişdir.

*30 iyul* - Sədərək qəsəbəsi Ermənistan tərəfdən top atəşinə tutulmuşdur.

*3 avqust* - İranın Urmiya vilayətindən Naxçıvana ərzaq və yanacaq gətirilmişdir.

*10-14 avqust* - S. Dəmirəlin dəvəti ilə Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyəyə getmişdir. O, İqdır vilayətinin yaradılması münasibətilə keçirilən təntənəli mitinqdə S. Dəmirəllə birlikdə çıxış etmiş, sonra Ankaraya yola düşmüşdür.

*11 avqust* - Saat 15.00-dan sonra Şərur rayonunun Havuş kəndi və Sədərək qəsəbəsi Ermənistan tərəfindən atəşə tutulmuşdur.

*13-14 avqust* - Şərurun Havuş, Şahbuzun Şada kəndləri uğrunda ağır döyüşlər getmişdir.

*16 avqust* - Ordubad rayonu ermənilər tərəfindən güclü atəşə tutulmuşdur. Təkcə Ordubad şəhərinə 50-dən çox mərmi düşmüşdür.

*18 avqust* - Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyanın axırıncı rus əsgəri vətənə yola salınmışdır. Hərbi əmlakın tamamilə Milli Ordunun briqadasına verilməsi haqqında aktın imzalanması mərasimində Heydər Əliyev iştirak etmişdir.

*19 avqust* - Naxçıvan MR Ali Məclisi qarşısında izdihamlı mitinq olmuşdur. Mitinqdə çıxış edən Heydər Əliyev demişdir ki, Xalq Cəbhəsi ona qarşı sui-qəsd hazırlayır.

| | |
|---|---|
| *22-26 avqust* | - İran Xarici İşlər Nazirliyinin dəvəti ilə Heydər Əliyev Prezident Rəfsəncaninin şəxsi "Boinq-727" təyyarəsində Tehrana gəlmişdir. İranın ali vəzifəli şəxsləri ilə söhbət və danışıqlardan sonra "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında" protokol imzalanmışdır. |
| *26 avqust* | - Sədərək qəsəbəsi minaatanlardan atəşə tutulmuşdur. |
| *26-27 avqust* | - Naxçıvan MR Daxili İşlər Nazirliyi qarşısında silahlı milislərin piketi keçirilmişdir. Çıxış edənlər Naxçıvanda vəziyyətin gərginləşməsində Azərbaycanda hakimiyyətdə olan qüvvələri, o cümlədən İ. Həmidovu günahlandırmışlar. |
| *13 sentyabr* | - Heydər Əliyev Naxçıvan televiziyası ilə çıxış edərək özünün istefası barədə, habelə Naxçıvanın separat siyasəti barədə şayiələri təkzib etmişdir. |
| — | - Gecə Şahbuzun Batabat və Şada məntəqələri müxtəlif silahlardan atəşə tutulmuşdur. Milli ordu qüvvələrindən bir nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır. |
| *29 sentyabr* | - Sonuncu rus sərhədçiləri Naxçıvan MR ərazisini tərk etmişlər. Ruslara məxsus bütün hərbi və təsərrüfat əmlakının Azərbaycanın Naxçıvandakı sərhəd dəstəsinə verilməsi haqqında sənədlər imzalanmışdır. |
| *10 oktyabr* | - Bakıda "Naxçıvan" həftəlik ictimai-siyasi qəzetinin ilk nömrəsi çapdan çıxmışdır. Heydər Əliyev qəzetə təbrik məktubu göndərmişdir. |
| *16 oktyabr* | - Azərbaycan ziyalılarının böyük bir qrupu Heydər Əliyevə müraciət edərək ondan yaradılmaqda olan YAP-a rəhbərlik etməyə razılıq verməsini xahiş etmişlər. |
| *18 oktyabr* | - Naxçıvan sərhəd zastavasında ilk dəfə olaraq Azərbaycanın üçrəngli dövlət bayrağı qaldırılmışdır. Heydər Əliyev təntənəli mərasimdə iştirak etmişdir. |
| *24 oktyabr* | - Mətbuatda Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavab olan "Yeni, müstəqil Azərbaycan uğrunda" sərlövhəli məktubu dərc olunmuşdur. |

— - AXC Naxçıvan şöbəsinin silahlı dəstələri və Ordubad rayon polisi tərəfindən Naxçıvanda dövlət çevrilişi cəhdi göstərilmişdir.

— - Naxçıvan MR Ali Məclisinin qarşısında keçirilən izdihamlı mitinqin iştirakçıları Heydər Əliyevlə həmrəylik ifadə etmiş, silahlı dəstələrdən Daxili İşlər Nazirliyinin və Teleradio Verilişləri Komitəsinin binasını boşaltmağı tələb etmişlər.

— - Heydər Əliyev bir neçə dəfə AXC sədri, Azərbaycan Prezidenti Ə. Elçibəylə telefonla danışaraq AXC Naxçıvan şöbəsi tərəfindən törədilən təxribata son qoyulmasını tələb etmişdir.

*25 oktyabr* - Heydər Əliyev Naxçıvan radiosu ilə əhaliyə müraciət etmişdir.

— - Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında 24 oktyabr dövlət çevrilişi cəhdi pislənilmiş, AXC silahlı dəstələrinin tərk-silah edilməsi ilə əlaqədar deputat komissiyası yaradılmışdır.

*27 oktyabr* - Naxçıvandakı Azadlıq meydanında keçirilən ümumrespublika mitinqinin iştirakçıları Azərbaycan Prezidentindən Heydər Əliyevə və Naxçıvana qarşı göstərilən zorakılıq hərəkətlərini aradan qaldırmağı tələb etmişlər.

— - Heydər Əliyev yerli və xarici ölkə jurnalistləri üçün mətbuat konfransı keçirmişdir.

*28 oktyabr* - Naxçıvanda nisbi sakitlik yaranmışdır. Ali Məclisdə 24 oktyabr hadisələri ilə əlaqədar müşavirə keçirilmişdir.

*5 noyabr* - YAP təşkilat komitəsinin yığıncağı keçirilmişdir. Heydər Əliyev yekdilliklə təşkilat komitəsinin sədri seçilmişdir.

*21 noyabr* - Naxçıvan şəhərində YAP-ın təsis konfransı keçirilmişdir. Heydər Əliyev açıq səsvermə yolu ilə partiyanın sədri seçilmişdir.

*3 dekabr* - İrandan Naxçıvana 40 meqavat gücündə elektrik enerjisinin verilməsi münasibətilə Arazkənarı stansi -

| | |
|---|---|
| | yada təntənəli mitinq olmuşdur. Heydər Əliyev mitinqdə çıxış etmişdir. |
| — | - İranla Naxçıvanı birləşdirən Şahtaxtı-Poldəşt keçid məntəqəsinin açılışı olmuşdur. Heydər Əliyev və İranın kooperasiya naziri Q. Şafeyi açılış mərasimində iştirak etmişlər. |
| *29 dekabr* | - "Naxçıvan" qəzeti Heydər Əliyevin "İnsan xalq üçün yaşayanda xoşbəxt olur" sərlövhəli müsahibəsini vermişdir. |
| — | - Heydər Əliyev Naxçıvan televiziyası ilə çıxış edərək əhalini şayiələrə uymamağa, yaranmış gərginliyi aradan qaldırmaq üçün sabitliyi gözləməyə çağırmışdır. |

**1993**

| | |
|---|---|
| *20 yanvar* | - Naxçıvan MR-də Yanvar faciəsinin 3-cü ildönümü ilə əlaqədar hüzn mərasimi keçirilmişdir. Şəhidlər xiyabanındakı izdihamlı mitinqdə Heydər Əliyev çıxış etmişdir. |
| — | - Heydər Əliyev B. Klintona ABŞ Prezidenti seçilməsi münasibətilə təbrik teleqramı və xüsusi məktub göndərmişdir. |
| *4 fevral* | - ABŞ-ın Bakıdakı səfiri R. Mayls Naxçıvana iki günlük səfərdə olmuşdur. Heydər Əliyevin B.Klintona məktubu ilə əlaqədar Naxçıvan MR-in ehtiyacları öyrənilmiş, humanitar yardımın çatdırılması mexanizmi müzakirə edilmişdir. |
| *5 fevral* | - Naxçıvanda Türkiyə Respublikasının Konsulluğu fəaliyyətə başlamışdır. |
| *12 fevral* | - Heydər Əliyev Bakıda Azərbaycan Prezidenti Ə. Elçibəylə görüşmüşdür. Görüşdə blokada ilə bağlı Naxçıvan MR-in düşdüyü vəziyyət müzakirə edilmiş, Azərbaycanın daxili və xarici siyasətinin bəzi aspektləri barədə fikir mübadiləsi olmuşdur. |

| | |
|---|---|
| *13 fevral* | - YAP-ın Bakıdakı iqamətgahında Heydər Əliyevin buradakı partiya təəssübkeşləri ilə ilk görüşü keçirilmişdir. |
| *17 fevral* | - Naxçıvan Texniki-İstehsalat Rabitə İdarəsinin sifarişi ilə Fransanın milli “DSR Holdings” mətbəəsi, üzərində Heydər Əliyevin şəkli və Naxçıvan MR-in xəritəsi olan ilk poçt markasını buraxmışdır. |
| *3 mart* | - Heydər Əliyev Bakıda Türkiyənin və ABŞ-ın fövqəladə və səlahiyyətli səfirləri ilə görüşmüşdür. |
| *5 mart* | - Heydər Əliyev İngiltərənin Azərbaycandakı daimi nümayəndəsi Harold Fomstok və Fransa səfiri Jan Perre ilə görüşmüşdür. |
| *8 mart* | - Naxçıvanda İran İslam Respublikasının konsulluğu açılmışdır. |
| *10 mart* | - Heydər Əliyevin ABŞ Prezidenti B. Klintona məktubundan sonra Ağ evin Naxçıvana təcili humanitar yardımı başlanmışdır. Saat 16.30-da birbaşa ABŞ-dan uçan “Boinq” təyyarəsi Naxçıvan aeroportuna enmiş, bir milyon ABŞ dolları dəyərində humanitar yardım gətirmişdir. |
| *16-19 mart* | - Heydər Əliyev İranın xarici işlər naziri Ə. Vilayətinin dəvəti ilə Tehrana rəsmi səfərə getmişdir. |
| *18 mart* | - Təbrizdə Heydər Əliyev və İranın Şərqi Azərbaycan ostandarı Ə. Əbdüləlizadə əməkdaşlıq haqqında protokol imzalamışlar. |
| *21 mart* | - Fransadan Naxçıvan MR-ə təyyarə ilə 37 ton humanitar yardım göndərilmişdir. |
| *2 aprel* | - Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunmuşdur. |
| — | - Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin iclasında çıxış edən Heydər Əliyev erməni ordusunun Kəlbəcəri işğal etməsini “ərazi bütövlüyümüzə qarşı qəsd” adlandırmışdır. |
| *10 aprel* | - Yeni Azərbaycan Partiyasının mətbu orqanı olan “Yeni Azərbaycan” qəzeti nəşrə başlamışdır. Heydər Əliyev qəzetə təbrik teleqramı göndərmişdir. |

| | |
|---|---|
| *16 aprel* | - Heydər Əliyev Türkiyənin yaxın bölgələrinə işgüzar səfərə getmişdir. İqdırda Türkiyənin dövlət naziri O.Kilərçioğlu ilə Heydər Əliyevin görüşü olmuşdur. |
| *19-25 aprel* | - Heydər Əliyev Türkiyə Prezidenti T. Özalın dəfn mərasimində iştirak etmək üçün Türkiyəyə getmişdir. |
| *10 may* | - Heydər Əliyevin 70 yaşı tamam olmuşdur. Bu münasibətlə Azərbaycanın hər yerindən, əmək kollektivlərindən, ayrı-ayrı şəxslərdən, xarici nümayəndəliklərdən muxtar respublika Ali Məclisinə saysız-hesabsız teleqramlar göndərilmişdir. |
| — | - Azərbaycanın tanınmış ziyalılarının böyük bir qrupu Heydər Əliyevi 70 yaşı münasibətilə təbrik etmək üçün Naxçıvana gəlmişdir. |
| *10-11 may* | - Şərur qəsəbəsi, rayonun Sərxanlı, Aşağı Aralıq, Yuxarı Yaycı, Dizə, Qarxun, Oğlanqala, Düdəngə kəndləri Ermənistanın Xaçik hərbi bazasından "Qrad" qurğularından, tanklardan və toplardan güclü atəşə tutulmuşdur. |
| *13 may* | - Naxçıvan şəhərində Heydər Əliyev və İranın Qərbi Azərbaycan ostandarı Q. Səadət mədəni-iqtisadi əməkdaşlıq barədə müqavilə imzalamışlar. |
| *14 may* | - Sədərəklə Ararat rayonu arasındakı sərhəd zastavasında Naxçıvanın və Ermənistanın nümayəndə heyətləri görüşmüşlər. Heydər Əliyev və Ermənistan Ali Soveti sədrinin müavini A. Saakyan sərhədboyu məntəqələrdə təhlükəsizliyin təmin olunması ilə əlaqədar bəyannamə imzalamışlar. |
| *15 may* | - Sədərəkdə keçirilən görüşlə bağlı AzərTAc-ın qərəzli məlumatından sonra Azərbaycan Milli Məclisində qeyri-sağlam müzakirələr aparılmışdır. Ali Məclisin Mətbuat Xidməti rəsmi təkzib vermiş, bəyannamənin mətnini mətbuatda yaymışdır. |
| *16 may* | - Heydər Əliyev Türkiyə Respublikasının Prezidenti seçilməsi münasibətilə S. Dəmirələ təbrik məktubu göndərmişdir. |

| | |
|---|---|
| *21 may* | - Sədərəkdə atışmalar davam etmişdir. Milli Ordunun 5 nəfər əsgəri yaralanmışdır. |
| *7 iyun* | - Naxçıvan MR Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyətləri Gəncə şəhərində baş vermiş hadisələrlə əlaqədar müraciət qəbul etmişdir. |
| *9 iyun* | - Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev saat 15.00-da Bakıya gəlmişdir. |
| *13 iyun* | - Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar iclası olmuşdur. Deputatlar Ali Sovetin Sədri İ.Qəmbərin istefasını qəbul etmişlər. |
| *13-14 iyun* | - Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Gəncə şəhərində olmuş, kəskin siyasi böhranın aradan qaldırılması yolları müzakirə edilmişdir. |
| *15 iyun* | - Milli Məclisin iclasında Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilmişdir. |
| *17-18 iyun* | - Azərbaycan Prezidenti Ə. Elçibəy Bakı şəhərini tərk edərək Naxçıvan MR-in Kələki kəndinə getmişdir. |
| *18 iyun* | - Saat 12.00-da Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev milli televiziya ilə xalqa birbaşa müraciət edərək yaranmış vəziyyətdə Prezidentin bütün səlahiyyətlərinin və məsuliyyətini öz üzərinə götürmək məcburiyyətində qaldığını bildirmişdir. |
| *23 iyun* | - Azərbaycan Respublikası Milli Məclisi "Azərbaycan Respublikası Prezidenti Ə. Q. Əliyevin (Elçibəyin) Azərbaycan Respublikası Prezidenti vəzifəsini artıq icra edə bilməməsi və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əlirza oğlu Əliyevə keçməsi haqqında" qərar qəbul etmişdir. |
| *29 avqust* | - Azərbaycanda Ə. Elçibəyə etimad göstərilməsi ilə əlaqədar referendum keçirilmişdir. Referendumda iştirak edənlərin 97,5 faizi Ə. Elçibəyə etimad göstərmədiyini bildirmişdir. |

*3 oktyabr* - Azərbaycan Respublikası Prezidenti seçkiləri keçirilmişdir. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, Heydər Əlirza oğlu Əliyevin lehinə 98,8 faiz, əleyhinə 1 faiz səs verilmişdir. Mərkəzi Seçki Komissiyası H. Ə. Əliyevi Azərbaycan Respublikası Prezidenti seçilmiş hesab etməyi qərara almışdır.

*10 oktyabr* - Respublika sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təntənəli andiçmə mərasimi keçirilmişdir.

# KİTABIN İÇİNDƏKİLƏR

Naxçıvan Muxtar Respublikası (qısa məlumat) .................................... 5

Ön söz ........................................................................... 7

F Ə S İ L  I
Qayıdış ........................................................................... 13

F Ə S İ L  II
Demokratik dəyişikliklər yolu ilə ............................................ 187

F Ə S İ L  III
Naxçıvan, 24 oktyabr.
İlk dövlət çevrilişi cəhdi ..................................................... 449

F Ə S İ L  IV
Yeni partiya.
YAP-ın sıraları sıxlaşır ....................................................... 501

F Ə S İ L  V
Ağır blokada və müharibə şəraitində ......................................... 541

F Ə S İ L  VI
Blokada yarılır. Naxçıvanın xarici əlaqələri genişlənir ........................ 641

F Ə S İ L  VII
Bakı çağırır. Xalqın tələbi-haqqın təməli .................................... 793

Bakı, Respublika sarayı. 10 oktyabr 1993-cü il ................................ 805

Heydər Əlirza oğlu Əliyevin siyasi fəaliyyətinin
Naxçıvan dövrü (tarixi-siyasi xronika) ....................................... 817

Çapa imzalanmışdır 28.05.2008. Kağız formatı 70x100 1/16.
Ofset kağızı. Qarnituru Times. Fiziki çap vərəqi 54,5.
Şərti çap vərəqi 70,3. Tirajı 2000. Sifariş 957.

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
Az 1073 Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.
Tel.: (99 412) 438 00 10. Fax: (99 412) 438 00 14.
E-mail: azerbneshr@yahoo.com